*...Azərbaycan xalqının qədim, zəngin dövlətçilik tarixi vardır. Azərbaycanın dövlətçilik tarixində ordu qurulması, yaranması, dövləti, ölkəni qorumaq üçün qüdrətli olması həmişə diqqət mərkəzində dayanıbdır. Azərbaycan xalqı çoxəsrlik tarixində çox döyüşlərdən çıxmış, yadelli basqınlara cavab verərək, torpaqlarını qoruyaraq, qonşu xalqların, ölkələrin təcavüzünün qarşısını alaraq, yaxud da öz ərazisinin bərpasını təmin edərək çox döyüşlər etmiş, döyüşlərdən çıxmışdır. Azərbaycan xalqı tarix boyu görkəmli qəhrəmanlıq nümunələri göstərmişdir. Azərbaycan xalqının igid oğulları öz qəhrəmanlıqları ilə dastana çevrilmişlər, nəsillərdən-nəsillərə, dillərdən-dillərə keçmişlər.*

*...XIX–XX əsrlərdə Azərbaycan öz dövlətçiliyindən məhrum olandan sonra, çar Rusiyasının tərkibində olduğu zaman da Azərbaycan xalqının görkəmli nümayəndələri həmin orduda xidmət etmiş və Azərbaycan oğlunun, əsgərinin hərbi peşəkarlıq sahəsində nəyə qadir olduğunu dəfələrlə sübut etmişlər.*

*...O zaman Azərbaycan, Bakı bir çox ölkələrin maraq dairəsinə çevrilmişdi. Burada, azərbaycanlıların qədim torpağında yadellilər hökm sürmək istəyirdilər, Azərbaycanı, Bakını öz əllərinə keçirmək istəyirdilər. O vaxt döyüşlərdə bizə yardım etməyə gələn türk ordusunun cəngavər, qəhrəman oğulları olmuşdur. ... Vaxt keçib, zaman keçib, sovet hakimiyyəti illərində bu tarix tamamilə pozulub, qaralanıb, bu tarixi öyrənməyə insanların imkanları olmayıb. Ancaq o adlar, həmin adların arxasında olan qəhrəman türk əsgərləri xalqımızın qəlbində yaşayıbdır.*

***Heydər Əliyev,***
***Azərbaycan xalqının Ümummilli Lideri***

**AZƏRBAYCAN RESPUBLİKASI**
**SİLAHLI QÜVVƏLƏRİNİN HƏRBİ AKADEMİYASI**

**MEHMAN SÜLEYMANOV**

# Azərbaycan Ordusunun tarixi

## I CİLD

(1917 – 1918)

*Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Akademiyasının Elmi Şurasının 27 iyul 2016-cı il tarixli 5 nömrəli qərarı ilə çapa tövsiyə olunub.*

MAARİF
nəşriyyatı

**Bakı – 2018**

Baş məsləhətçi: **Heydər Piriyev**, general-leytenant

Elmi redaktorlar: **Ataxan Paşayev,** tarix elmləri doktoru

**Pərvin Darabadi** tarix elmləri doktoru, professor

Rəyçilər: **Firdövsiyyə Əhmədova**, tarix üzrə fəlsəfə doktoru

**Şəmistan Nəzirli**, jurnalist-tədqiqatçı

**Mehman Süleymanov. Azərbaycan Ordusunun tarixi. I cild.**
**Bakı. "Maarif" nəşriyyatı. 2018. 736 səh.**

Kitab Azərbaycan Xalq Cümhuriyyəti Ordusu quruculuğunun ilkin dövrünün araşdırılmasına həsr olunmuşdur. Burada Cümhuriyyətin elan edilməsinin ilk aylarında ölkə daxilində hərbi-siyasi şərait, Qafqaz İslam Ordusu tərəfindən Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə geniş şəkildə öz əksini tapmışdır.

**İSBN: 978-9952-37-138-3**

## ÖN SÖZ

Azərbaycan Ordusunun tarixinə aid çoxcildli elmi-tədqiqat əsəri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkilinin 100 illiyi ərəfəsində geniş oxucu kütləsinə təqdim olunur. Azərbaycan tarixşünaslığında ilk dəfədir ki, xalqımızın son birəsrlik tarixində xüsusi yer tutmuş Azərbaycan Ordusu, onun təşəkkül və inkişaf yolu haqqında əhatəli və ümumiləşdirici bir əsərin ərsəyə gətirilməsinə cəhd göstərilir, bu cəhdin nəticəsi olan tədqiqatın respublika ictimaiyyəti və oxucular tərəfindən maraqla qarşılanacağına ümid edilir.

Təqdim olunan çoxcildlik Azərbaycanda ordu quruculuğunun 100 illik dövrünü əhatə edir. Bu dövr ərzində Azərbaycan xalqı mürəkkəb, ziddiyyətli, eyni zamanda şərəfli bir yol keçmişdir. Həmin dövr ərzində Azərbaycan xalqı müxtəlif siyasi sistem və şəraitlərdə yaşamalı olmuş və çətin sınaqlarla qarşılaşmışdır. Ötən müddət ərzində Azərbaycanın milli hərbi kadrlarının yetişməsi, onun milli ordu quruculuğu tarixi də bu siyasi sistemlərin təsiri altında formalaşmışdır. Ona görə də Azərbaycan Ordusunun 100 illik tarixi enişli-yoxuşlu bir tarixdir və onun obyektiv şəkildə öyrənilməsi kifayət qədər aktual bir məsələdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müxtəlif çıxışlarında hərb tariximizin son birəsrlik dövrünün bütün mərhələləri haqqında maraqlı fikirlər söyləmiş, bu dövrlərə hərbi-siyasi qiymət vermiş və onların obyektiv təhlilini aparmışdır. Bununla Heydər Əliyev, əslində, həm də ordumuzun 100 illik tarixinin araşdırılmasının siyasi-elmi metodoloji konsepsiyasını müəyyənləşdirmişdir. Məhz bu konsepsiyanın düzgün tətbiq edilməsi ilə Azərbaycan Ordusunun obyektiv tarixini öyrənmək mümkündür.

Azərbaycan xalqının son birəsrlik tarixini ordusuz təsəvvür etmək mümkün deyildir. Bu bir əsrdə iki dəfə müstəqil dövlətini qurmuş Azərbaycan xalqı ötən dövr ərzində ciddi sınaqlarla qarşılaşmış, qırğın və dağıntılarla rastlaşmış, bir sıra məhrumiyyətlərə məruz qalmış, bununla yanaşı, mövcud olan çətinliklərə baxmaya-

raq, özünəxas iradə ilə inkişaf etmiş, yüksəlmiş, dünya xalqları arasında layiqli yerini tutmuşdur.

Azərbaycan Ordusu da oxşar tarixi yol keçmişdir. Onun təşəkkülü, formalaşdırılması, bu prosesin qarşısında dayanan vəzifələrin ardıcıl şəkildə həyata keçirilməsi, əslində, xalqın milli mübarizəsinin mühüm bir istiqamətini təşkil etmişdir. Azərbaycanın qərar tutduğu tarixi-coğrafi məkanda milli ordunun mövcudluğu milli mövcudluğun ən etibarlı zəmanəti kimi qəbul edilirdi, ona görə də XX əsrin əvvəllərindən başlayaraq bu məsələ Azərbaycan xalqının bütün milli qüvvələrinin qarşısında dayanan mühüm hədəflərdən biri olaraq qiymətləndirilirdi.

Azərbaycan Ordusunun əsaslarının qoyulması Azərbaycanın hərb tarixində yeni bir mərhələni təşkil edir ki, bu da Azərbaycanın son birəsrlik tarixinin ən dəyərli səhifələrindən biridir. Artıq heç kəsə sirr deyil ki, cəmi bir əsr ərzində bu səhifə son dərəcə zənginləşərək xalqımızın qürur və iftixar mənbəyinə çevrilmişdir.

Azərbaycan Ordusunun əsasının XX əsrin əvvəllərində qoyulmasına baxmayaraq, məlumdur ki, Azərbaycanın qəhrəmanlıq və mübarizlik ənənələrinin çox qədim və zəngin bir tarixi vardır. Əslində, Azərbaycanın qərar tutduğu bölgə hərb işinin ilkin təşəkkül tapdığı bölgələrdən biri hesab olunur. Uzun əsrlərboyu at çapmağın, silah işlətməyin kamil vərdişlərinə yiyələnmək azərbaycanlıların başlıca xarakterik cəhəti olmuşdur. Çünki bir tərəfdən təsərrüfat həyatının yüksək inkişafı, digər tərəfdən də maraqlı coğrafi məkan obyektiv olaraq burada hərb işinin inkişafını zəruri edirdi. Ona görə ən qədim zamanlardan Azərbaycan ərazisində hərb işinin yüksək inkişafı ilə rastlaşmaq mümkündür. Bu inkişaf isə Azərbaycan xalqına dəyəri bu gün də öz əhəmiyyətini itirməyən və dünya hərbi-elmi fikri tərəfindən də layiqincə qiymətləndirilən zəngin bir irsi miras qoymuşdur. Azərbaycan ərazisində təşəkkül tapmış qədim dövlətlərin uzun müddət tarix səhnəsində mövcud olması da məhz həmin dövlətlərdə hərb işinin yüksək inkişafı ilə şərtlənirdi.

Bu zəngin ənənə və irs hal-hazırda əhəmiyyətini itirməyib, heç

zaman da itirməyəcəkdir. Azərbaycan Ordusunun tarixini də bu zəngin ənənədən kənar təsəvvür etmək doğru olmazdı. Çünki Azərbaycan xalqının qəhrəmanlıq və mübarizlik ənənələri, işğalçılar qarşısında iradə nümayiş etdirməsi Azərbaycan Ordusunun şəxsi heyətinin milli-mənəvi xüsusiyyətlərinin formalaşması üçün hər zaman qiymətli örnək olmuş və örnək olaraq da qalacaqdır.

1828-ci ildə Azərbaycan xanlıqlarının öz müstəqilliyini itirməsini rəsmiləşdirən Türkmənçay müqaviləsinin imzalanması Azərbaycan xalqının tarixində olduğu kimi, Azərbaycanın hərb tarixində də yeni bir mərhələnin başlanğıcını qoydu. Bu tarixdən başlanan dövrü Azərbaycanda nizami ordu quruculuğunun ərəfəsi kimi də qiymətləndirmək mümkündür. Çünki azərbaycanlıların nizami ordu ilə yaxından tanışlığı və nizami ordu tərkibində xidməti də məhz bu dövrə təsadüf edir.

Məlumdur ki, çar Rusiyası dövründə imperiya tərkibində yaşayan digər müsəlman xalqları kimi azərbaycanlılar da ümumi hərbi mükəlləfiyyətə cəlb edilmirdilər. Azərbaycanlıların hərbi keyfiyyətlərinin çar Rusiyasının hərbi komandanlıqlarına yaxşı məlum olmasına, bu keyfiyyətlərdən bəhrələnmək üçün azərbaycanlılardan ibarət hərbi hissələrin təşkilinə qərar verilməsinə baxmayaraq, bunlar müvəqqəti xarakter daşıyırdı. Məsələn, məlumdur ki, XIX əsrdə Rusiyanın Qafqazla sərhəddə apardığı müharibələrdə çar Rusiyası ordusu tərkibində azərbaycanlılardan təşkil edilmiş hərbi hissələr, xüsusilə də atlı hissələri iştirak etmişdilər. Lakin bu hissələr nizami hissələr deyildi və müharibənin bitməsi ilə onlar da buraxılmışdılar. Bununla belə, bu müvəqqəti yaradılmış hissələr haqqında Rusiya arxivlərində və tarixşünaslığında son dərəcə maraqlı fikirlər qalmaqdadır.

Azərbaycanlıların zabit rütbəsində Rusiyanın nizami ordusu tərkibində xidməti üçün isə müəyyən imkanlar saxlanmaqda idi. Tələb olunan səviyyədə savada malik olan azərbaycanlılar Rusiyanın hərbi məktəblərinə daxil olmaq şansına malik idilər. Beləleri çox deyildi. Lakin belə zabitlərin fədakarlığı nəticəsində XIX əsrdə və XX əsrin əvvəllərində Rusiya Silahlı Qüvvələri tərkibin-

də elə bir azərbaycanlı zabit nəsli yetişdi ki, onların adı və xidmət yolu hərb tariximizin şərəfli səhifələrindən birini təşkil edir. Bu zabitlərin hərbi xidməti və hərbçi istedadı Azərbaycanın hərb tarixində yeni bir məktəbin başlanğıcını qoydu. Azərbaycanın nizami ordusunun təşkilatlandırılmasında iştirak etmiş Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Xəlil bəy Talışınski, Firudin bəy Vəzirov, Feyzulla Mirzə Qacar, Əmənulla Mirzə Qacar, Süleyman bəy Əfəndiyev, Həbib bəy Səlimov, İbrahim ağa Vəkilov, İbrahim bəy Usubov və digər generalların zabit kimi formalaşması da məhz XIX əsrin sonları və XX əsrin əvvəllərinə təsadüf edir.

Birinci Dünya müharibəsinin sonlarında Müsəlman korpusunun təşkilinə başlanması azərbaycanlılardan ibarət nizami qüvvələrin təşkili istiqamətində ilk addım kimi dəyərləndirilməlidir. Məlum olduğu kimi, Müsəlman korpusunun təşkilinə Azərbaycanın müstəqilliyinin elan edilməsindən əvvəl başlanmışdı. 1917-ci ilin fevralında çarizm üsul-idarəsinin devrilməsindən və 1917-ci ilin oktyabrında Petroqradda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra Cənubi Qafqazda yerli hakimiyyət orqanlarının formalaşmasına başlandı. 1917-ci ilin dekabr ayının 11-də Cənubi Qafqazın yerli hakimiyyət orqanı olan Cənubi Qafqaz Komissarlığı tərəfindən bu Komissarlığın tabeliyində olan Müsəlman korpusunun təşkili haqqında qərar qəbul edildi. Həmin qərara əsasən Müsəlman korpusu azərbaycanlılardan təşkil edilməli idi. Əslində isə Müsəlman korpusunun Cənubi Qafqaz Komissarlığına bağlılığı formal xarakter daşıyır və Müsəlman korpusunun formalaşması azərbaycanlı mübarizlərin təşkil etdikləri milli şuraların köməyi ilə aparılırdı. Bir sözlə, Müsəlman korpusu Azərbaycanın müstəqilliyindən əvvəl tarix səhnəsinə çıxsa da, bu korpus milli nizami ordu quruculuğunun ilk səhifəsini təşkil edir və Azərbaycanın müstəqilliyi elan ediləndən sonra Azərbaycanın milli ordusu da məhz bu korpusun bazasında formalaşdırılmağa başlandı. Bu mənada, Müsəlman korpusu Cümhuriyyətin nizami ordusunun formalaşmasının ilkin səhifəsi kimi də qəbul edilə bilər.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və Azərbaycan xalqının yenidən öz istiqlaliyyətinə qovuşması milli nizami ordu quruculuğu tarixində şərəfli bir mərhələnin başlanğıcını qoydu.

Bu mərhələ Azərbaycan Ordusunun təşkilatlanması, formalaşması və reallığa çevrilməsi mərhələsidir. Tarixi şəraitin bütün mürəkkəbliklərinə baxmayaraq, Azərbaycan xalqı və Azərbaycan hökuməti tərəfindən qısa müddət ərzində Azərbaycan Ordusunun formalaşdırılması və bu ordunun Azərbaycanın müstəqilliyinin keşiyində dayanacaq bir qüvvəyə çevrilməsi həmin mərhələnin son dərəcə əhəmiyyətli nəticəsidir.

Cümhuriyyət ordusu hərbi işə münasibətdə, ordunun cəmiyyətdə və dövlət quruculuğundakı yerinin müəyyənləşdirilməsində tamamilə yeni bir təfəkkürü üzə çıxardı, bununla da dövlətçilik tarixində yeni bir səhifə açdı. Kifayət qədər məhdud müddət ərzində struktur baxımından təşkilatlanan, təminat və təchizat sistemi yaradılan, döyüş və mənəvi-psixoloji hazırlığı nizamlanan Cümhuriyyət ordusunun yaradılması həm də Azərbaycan xalqının, azərbaycanlı zabitlərin hərbi istedadını və qabiliyyətini nümayiş etdirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Ordusu dövrünün modern, qabaqcıl hərbi təcrübəyə əsaslanan bir ordusu idi və bu ordunun təşkilatlanması sahəsində əldə edilmiş təcrübə metodoloji baxımdan bu gün də öz dəyərini itirməmiş, Azərbaycanda nizami ordunun təşəkkül tarixi kimi də heç zaman əhəmiyyətini itirməyəcəkdir. Məhz belə keyfiyyətlərə malik olmasının nəticəsi idi ki, 1920-ci ilin aprelində Azərbaycanın bolşevik qüvvələri tərəfindən işğalından sonra ilk növbədə milli ordu siyasi və bəşəri terrora məruz qaldı. Cümhuriyyət ordusu dağıdıldığı kimi, onu yaradanlar da kütləvi şəkildə bolşevik terroruna məruz qaldılar və qısa müddətdən sonra işğala məruz qalmış Azərbaycanın Ordusu Cümhuriyyət ordusu kadrlarından təmizləndi və bu ordunun sovetləşməsi həyata keçirildi.

Amma çox az zamandan sonra Azərbaycanın bolşevikləşməsi üçün bolşevik ideyalarına aldananlar yeni rejimin millilikdən çox uzaq olduğunun fərqinə vardılar və Azərbaycandakı ordunun milli

xarakterinin saxlanması üçün mərkəzi hakimiyyətə qarşı müqavimət göstərməyə də cəhd etdilər. Lakin bu cəhdlər uğursuz oldu və tezliklə işğaldan sonra Azərbaycan ordusunun milli xarakter və mahiyyətini saxlamağa cəhd göstərən şəxslər, o cümlədən Əliheydər Qarayev, Heydər Vəzirov, Qambay Vəzirov, Hüseyn Rəhmanov, Cəmşid Naxçıvanski və digərləri də bolşevik terroruna məruz qaldılar.

1920–1922-ci illərdə Azərbaycan Ordusu formal olaraq müəyyən idarəçilik müstəqilliyini saxlamaqda davam edirdi. 1922-ci ildə SSRİ-nin təşkil edilməsi ilə Azərbaycan da bu İttifaqın tərkibinə daxil edildi və ordu quruculuğu bütünlüklə mərkəzin tabeliyinə verildi. Azərbaycanın yerli xüsusiyyətləri və tarixi şərait nəzərə alınmaqla SSRİ-nin mövcudluğunun ilk dövründə milli tərkibli qoşun hissələrinin saxlanması məqsədəuyğun bilinsə də, 1938-ci ildə bu təcrübəyə də son qoyuldu. Bundan sonra azərbaycanlılar vahid sovet ordusunun tərkibində əridildilər və milli hərbi təcrübənin birgə inkişaf imkanları da aradan qaldırıldı.

Bolşevik işğalından sonra Azərbaycanda tamamilə fərqli bir tarixi şərait meydana gəlsə də, bu dövrdə ordu quruculuğu istiqamətində mövcud olan təcrübənin Azərbaycan Ordusu tarixindəki özünəməxsus yerini qiymətləndirməmək doğru olmazdı. Çünki dövrün siyasi mahiyyətinə, hərbi sahədə fərqli şəraitin ortaya çıxmasına baxmayaraq, uzun əsrlərdən axıb gələn, Cümhuriyyət dövründə təkmilləşib bütövləşən hərbi təcrübə və keyfiyyətlər sovet dövründə müxtəlif təsirlərə məruz qalsa da, qırılmadı və bu təcrübə yeni nəsillərə ötürüldü.

II Dünya müharibəsi illərində cəbhələrdə azərbaycanlıların göstərdiyi hərbi şücaət və istedad da ənənəvi şəkildə nəsillərdən-nəsillərə ötürülən hərbi təcrübə və keyfiyyətlərin nümayişi idi. Azərbaycanlılardan təşkil edilmiş milli diviziyaların hərb tarixində iz buraxmış şərəfli döyüş yolu, azərbaycanlıların müxtəlif cəbhələrdə və müxtəlif ölkələrin ərazisində göstərdikləri qəhrəmanlıq hərb tariximizə yeni bir səhifə yazmaqla Azərbaycanda hərbi ənənələrin yeni bir səviyyəyə qalxmasına da təkan verdi.

Sovet hakimiyyəti illərində Azərbaycanın hərb tarixi üçün mühüm əhəmiyyət kəsb edən məqamlardan biri Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə milli zabit kadrlarının yetişdirilməsi sahəsində gördüyü tarixi fəaliyyətdir. Böyük bir uzaqgörənliklə həyata keçirilən bu işlərin nəticəsində Azərbaycanda yeni bir zabit nəslinin yetişdirilməsi mümkün oldu ki, məhz həmin zabitlər XX əsrin sonlarında müstəqilliyini yenidən qazanmış respublikanın milli ordusunun ilkin və gərəkli zabit bazasını təşkil etdilər.

Təşkilatlanması üçün çox qiymətli işlərin hələ sovet dövründə görüldüyü Azərbaycan milli ordusunun yeni əsaslar üzərində yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi də məhz Heydər Əliyevin adı və tarixi fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrü ölkəmizin tarixinin ən məsuliyyətli, sınaqlı dövrü olduğu kimi, həm də Azərbaycan Ordusu tarixinin yeni bir mərhələsidir. Bu yeni mərhələ öz başlanğıcını Ulu öndərin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətindən götürür.

Heydər Əliyevin 2 noyabr 1993-cü il tarixli müraciəti Azərbaycanda ordu quruculuğunun əsaslarını müəyyənləşdirəcək tarixi bir sənəddir. Strateji planda ordu quruculuğunun istiqamətlərini müəyyənləşdirən elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. O cümlədən ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və s. kimi əsaslı məsələlərin vəziyyəti, əhəmiyyəti və əldə edilməsi yolları bu müraciətdə son dərəcə aydın və anlaşıqlı şəkildə qiymətləndirilmişdir. Bu müraciətdən sonra dərin böhrana düşmüş Azərbaycan Ordusuna yeni sağlam bir nəfəs gəldi, bünövrəsi mövcud nöqsanlardan təmizləndi, şəxsi heyətdə canlanma yarandı, yeni hərbi hissələrin formalaşdırılmasına başlandı. Yeni hərbi hissələrin rəhbərliyinə Vətəninə sədaqətli zabitlərin təyin olunması nəzarət altına alındı. Bütün bunlar tezliklə nəticələrini göstərməyə başladı. Azərbaycanın hərbi qüvvələrinin əvvəlcə Füzuli, sonra Ağdam–Tərtər istiqamətində apardığı uğurlu döyüş-

lər Azərbaycan Ordusunun simasının dəyişdiyini nümayiş etdirdi və bu dəyişiklik düşmən qüvvələrini də təşvişə saldı. Heydər Əliyevin yenicə yaratmağa başladığı qüvvələr qarşısında böyük itkilər verən düşmən qüvvələri atəşin dayandırılmasına daha ciddi yanaşdılar və bunun nəticəsi olaraq 1994-cü ilin may ayında cəbhədə atəşkəs elan edildi.

Atəşkəsin əldə edilməsi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasında yeni bir canlanmanın başlanğıcını qoydu. Bunu Heydər Əliyevin özü də çox böyük məmnunluqla qeyd edirdi. O deyirdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

Əsasları Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ordu quruculuğu siyasətinin ardıcıl, davamlı və yaradıcı şəkildə həyata keçirilməsinin nəticəsində hazırda Azərbaycan Ordusu tarixinin ən şərəfli dövrünü yaşayır və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında bu tarix hər gün daha da zənginləşməkdədir.

Cənab İlham Əliyevin müstəqil dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də uğurla həyata keçirilən siyasəti nəticəsində Azərbaycan Ordusu yalnız bölgədə deyil, dünyanın inkişaf etmiş orduları arasında özünə layiqli yer tutmuşdur.

Cənab İlham Əliyevin qayğısı nəticəsində son illər ərzində Azərbaycan Ordusu inkişafının yeni bir səviyyəsinə yüksəlmişdir. Qoşunların maddi-texniki bazasının davamlı olaraq təkmilləşdirilməsi, döyüş hazırlığının real döyüş vəziyyətinə daha da yaxınlaşdırılması, Silahlı Qüvvələrdə mənəvi əhval-ruhiyyənin sağlamlaş-

dırılması, ordunun milli kadr hazırlığının uğurla davam etdirilməsi, ordunun struktur islahatlarının onun qarşısında dayanan vəzifələrə uyğun aparılması, nizam-intizamın gücləndirilməsi, şəxsi heyətə sosial qayğının daim diqqət mərkəzində saxlanması Azərbaycan Ordusunun daha da güclənməsinə imkan yaratmışdır. Bütün bunların nəticəsində Azərbaycan Ordusu Ali Baş Komandanın bütün əmrlərini vaxtında yerinə yetirməyə və Azərbaycan xalqının ümidlərini doğrultmağa qadir olan bir qüvvəyə çevrilmişdir.

Son dövrlərdə Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrdə aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə şərait yaratdı.

Ordumuzun yüksək səviyyədə hazırlığını 2016-cı ilin aprel döyüşləri bir daha təsdiqlədi. Belə ki, Ordumuz qısa müddət ərzində düşmənə sarsıdıcı zərbələr vuraraq sübut etdi ki, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Hal-hazırda Azərbaycan Ordusu dünyanın iri dövlətlərinin orduları ilə müqayisə edilir ki, bu da ordumuzun qüdrətini bir daha təsdiqləyir.

Təqdim olunan çoxcildlikdə Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin və onun layiqli davamçısı cənab İlham Əliyevin Azərbaycan Ordusunun möhkəmləndirilməsi sahəsindəki tarixi fəaliyyətləri əhatəli şəkildə araşdırılmış və oxuculara çatdırılmışdır.

Bütünlükdə, Azərbaycan Ordusunun günü-gündən zənginləşən 100 illik tarixinin sistemli şəkildə öyrənilməsi, bu Ordunun keçdiyi tarixi yolun araşdırılması və daha əhatəli şəkildə respublika ictimaiyyətinə çatdırılması respublikanın hərbi-ictimai fikir tarixində böyük maraq doğuran aktual bir məsələdir və bu mənada ümid edirik ki, Azərbaycan Ordusunun tarixi ilə bağlı təqdim olunan bu araşdırma mövcud boşluğun aradan qaldırılmasına yardımçı olacaqdır.

# GİRİŞ

Təqdim olunan kitab azərbaycanlıların XIX əsrdə və XX əsrin əvvəllərində Rusiya ordusunda xidməti, Port-Artur və Birinci Dünya müharibəsindəki iştirakı ilə bağlı müxtəsər məlumatlarla başlasa da, onun əsasını Müsəlman korpusu və Qafqaz İslam Ordusunun tarixi təşkil edir. Bu da səbəbsiz deyil, çünki Azərbaycan Ordusu tarixində çox dəyərli bir səhifəni təşkil edən Müsəlman korpusunun və Qafqaz İslam Ordusunun formalaşmasında Rusiya ordusu sıralarında zəngin xidmət təcrübəsi qazanmış azərbaycanlı zabitlərin çox böyük rolu var idi. Bu strukturların hər ikisinin formalaşması tarixi bir zərurət kimi ortaya çıxmışdı və milli qüvvələrin rəhbərliyi və qayğısı altında bu məsuliyyətli vəzifə bütün çətinliklərinə baxmayaraq, uğurla yerinə yetirildi.

XX əsrin ikinci onilliyinin sonlarında Azərbaycanda və bölgədə cərəyan edən proseslər Azərbaycan xalqı üçün əhəmiyyətli tarixi hadisələrin baş verməsi ilə nəticələndi. 1917-ci ilin fevralında çarizmin devrilməsi böyük bir imperiyanın hüdudları çərçivəsində, o cümlədən Azərbaycanda ictimai-siyasi fəallığın genişlənməsinə təkan verdi. Mövcud olan mürəkkəb şəraitə baxmayaraq, xalqın ümummilli mənafelərinə dayaqlanan bu fəallıq tezliklə nizamlanmış və tənzimlənmiş bir mübarizəyə çevrildi. Həmvətənlərinin bu gününü və sabahını narahatlıqla yaşayan vətənpərvər və ziyalı dairələr bu mübarizəyə qoşuldular və özləri ilə bərabər çox böyük qüvvələri də bu mübarizəyə səfərbər etdilər. Həmin qüvvələrin səylərinin nəticəsində 1917-ci ilin dekabrında nəhayət, milli qüvvələrdən təşkil ediləcək Müsəlman korpusunun yaradılmasına icazə almaq mümkün oldu.

Qeyd edilməlidir ki, Müsəlman korpusunun yaradılmasının başlandığı tarixi şərait kifayət qədər mürəkkəb şərait idi. Bu mürəkkəb şərait, hətta Azərbaycan xalqının müqəddəratı üçün ciddi təhlükəni özündə saxlamaqda idi. Həmin mürəkkəbliyin araşdırılması Müsəlman korpusunun həm təşkilinə başlanmasının əhəmiyyətini, həm də bu korpusun təşkilatlandırılmasına yaratdığı çətinlikləri aydın təsəvvür etməyə imkan verir.

Müsəlman korpusunun yaradılmasına başlanması Azərbaycanın milli ordusunun yaradılması istiqamətində atılmış tarixi bir addım idi. İstər kadr, istər təchizat, istərsə də çağırış baxımından son dərəcə böyük çətinliklər olsa da, 1917-ci ilin sonlarından bu çətinliklərin həll edilməsi istiqamətində ilkin addımların atılmasına başlandı. Xalqın qüvvəsinin bu prosesə cəlb edilməsi istiqamətində mühüm işlər görüldü. Başlıcası isə cəmiyyətdə milli nizami hərbi qüvvələrin yaradılması ilə bağlı yeni və zəruri bir yanaşmanın əsası qoyuldu.

Müsəlman korpusunun təşkilatlandırılması sahəsində görülən işlərin və onların nəticələrinin hansı miqyasda olmasına baxmayaraq, Azərbaycan Ordusunun tarixini bu dövrdə əldə edilmiş təcrübədən kənar təsəvvür etmək doğru olmazdı. Ona görə Müsəlman korpusunun təşkilatlanma tarixinin tədqiqi, araşdırılması Azərbaycan Ordusunun tarixinin öyrənilməsi baxımından əhəmiyyət kəsb edir. Unudulmamalıdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun qurulmasına da məhz Müsəlman korpusunun bazasında başlanıldı, yəni Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə müstəqil Azərbaycan Ordusunun yaradılması üçün hansısa səviyyədə müəyyən ordu strukturları, müəyyən təşkilatlanma mövcud idi və əldə edilmiş bu təcrübədən də yeni ordu quruculuğunda istifadə edildi.

Lakin mövcud olan qüvvələr Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin müdafiəsi üçün yetərli deyildi. Azərbaycanın müstəqilliyi isə ciddi və real təhlükə qarşısında idi. Kifayət qədər böyük imkanlara malik olan erməni-daşnak qüvvələri Zəngəzur və Qarabağ bölgəsində Azərbaycanın ərazi bütövlüyünün parçalanması üçün əməli fəaliyyətə keçmişdilər. Hazırkı kitabda Azərbaycan ərazilərində erməni dövləti qurmaq istəyən erməni-daşnak qüvvələrinin hansı imkanlara malik olması müxtəsər şəkildə araşdırılmışdır. Təqdim olunan bu müxtəsər məlumatlar da erməni-daşnak qüvvələrinin hərbi imkanlarının Azərbaycanın milli qüvvələri ilə müqayisədə son dərəcə böyük olduğunu nümayiş etdirir.

Rusiya imperiyasının cənub sərhədlərinin qorunması üçün Azərbaycanın cənubunda yerləşdirilmiş rus hərbi qüvvələri də Azərbaycan hökumətini tanımayaraq bölgədə öz hakimiyyətlərini yaratmağa çalışırdılar. Nəhayət, erməni-daşnak qüvvələrinin əsirinə çevrilmiş olan Bakı Xalq Komissarları Soveti özünü bolşevik Rusiyasının qanuni təmsilçisi hesab edərək Bakını və bütün Azərbaycanı öz hakimiyyəti altına almağa çalışırdı. Bunun üçün Rusiyadan hərbi və maliyyə yardımları alan Bakı Soveti və onun silahdaşı olan erməni-daşnak qüvvələri 1918-ci ilin martında Bakıda milli qırğınlar törətdikdən sonra Azərbaycanı bütünlüklə işğal altına almaq üçün üç istiqamətə qoşun göndərdi: şimal istiqamətinə, cənub istiqamətinə və qərb istiqamətinə. Azərbaycan Xalq Cümhuriyyəti elan ediləndə qərb istiqamətində hərəkət edən erməni-daşnak və bolşevik hərbi qüvvələri Şamaxıya və Hacıqabula yetişmişdilər.

Azərbaycanın daxilində isə bu təcavüzə müqavimət göstərəcək qüvvə hələ formalaşmamışdı. Belə bir həlledici anda milli-azadlıq mübarizəsinin fəalları kömək üçün Türkiyə hökumətinə müraciət etdilər. Osmanlı Türkiyəsinin hökuməti bu müraciətə müsbət cavab verdi və Azərbaycanda türk və Azərbaycan hərbi qüvvələrini özündə birləşdirən Qafqaz İslam Ordusu yaradıldı. Azərbaycan hökumətinin qərarı ilə milli ordu quruculuğuna rəhbərlik də təcrübəli türk hərbçilərinə tapşırıldı. Bu məsələ Azərbaycan ərazisində hərbi sahədə göstərilən bütün fəaliyyətlərə rəhbərliyin mərkəzləşdirilməsi zərurətindən irəli gəlirdi. Əslində, tarixi şərait də bunu tələb edirdi. Çünki belə bir mərkəzləşdirilmiş rəhbərlik olmadan son dərəcə təhlükəli xarakter almış bolşevik-daşnak təhlükəsinin qaşısını almaq da mümkün olmazdı.

Cümhuriyyət ordusunun formalaşdırılması bolşevik-daşnak hərbi təhlükəsinə qarşı mübarizə ilə bir vaxtda aparılmalı oldu. Ona görə Cümhuriyyətin hərb tarixinin Qafqaz İslam Ordusu dövrünün öyrənilməsi müstəqilliyin elan edilməsi ərəfəsində və müstəqilliyin ilk aylarında Azərbaycanda hərbi şəraitin formalaşdırılmasının araşdırılması, bu şəraitə təsir göstərən amillərin üzə çıxarılması, Azərbaycanın müstəqilliyinin hansı təhlükə ilə

qarşılaşması və bu təhlükənin aradan qaldırılması üçün görülən işin miqyasının təsəvvür edilməsi baxımından əhəmiyyətlidir. Bu istiqamətdə obyektiv təhlilin aparılması bir tərəfdən Sovet Rusiyasının və onun bölgədəki dayağı olan Bakı Sovetinin bolşevik-daşnak qüvvələrinin, bir tərəfdən alman imperializminin, digər tərəfdən də ingilis qüvvələrinin Azərbaycanın müstəqilliyinə qarşı necə böyük cəbhə qurduqlarını və bu cəbhəyə qarşı uğurlu mübarizə aparılmasında Azərbaycanla Osmanlı Türkiyəsi arasındakı hərbi əməkdaşlığın əhəmiyyətini düzgün qiymətləndirməyə imkan verə bilər.

Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun tarixinin ilkin dövrünün tədqiqi müstəqil Azərbaycan Ordusunun təşkilatlandırılması və möhkəmləndirilməsi sahəsində atılan addımların öyrənilməsi, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, bolşevik-daşnak təcavüzünün aradan qaldırılması uğrunda Azərbaycanın milli qüvvələrinin böyük zəhmətini və rolunu öyrənmək baxımından da xüsusi əhəmiyyət kəsb edir. Çünki milli və müstəqil ordu quruculuğu, müstəqil diviziyaların formalaşdırılması, milli hərbçi kadrların yetişdirilməsi, ordu quruculuğunda milli xəttin gücləndirilməsi sahəsində ilk addımlar məhz bu dövrdə atılmışdı. Azərbaycanın müxtəlif ərazilərində mövcud olan müxtəlif könüllü dəstələrin bir məqsəd ətrafında birləşdirilməsi və bütünlükdə Azərbaycan xalqının imkanlarının ümumi düşmənə qarşı səfərbər edilməsində və istiqamətləndirilməsində də bu dövrdə əhəmiyyətli işlər görülmüşdü.

Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun Qafqaz İslam Ordusu dövrünün araşdırılması Azərbaycan və Türkiyə hərbi əlaqələri tarixini, Azərbaycanın müstəqilliyinin qorunması, Azərbaycan xalqının bolşevik-daşnak təcavüzündən qurtulması uğrunda türk xalqının, türk hərbçilərinin göstərdikləri qardaşlıq yardımının dəyərini təsəvvür etmək baxımından da elmi-tarixi əhəmiyyət kəsb edir. Qafqaz İslam Ordusunun təşkili və fəaliyyəti Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğunun birinci yarımilində Azərbaycanla Türkiyə arasında bütün sahələrdə, xüsusilə də ordu quruculuğu sahəsində əməkdaşlığın əməli və bariz nümunəsidir.

Oxucuların mühakiməsinə verilən bu kitabın hazırlanmasında

respublika arxivlərinin materialları və işıq üzü görmüş araşdırmalarla bərabər, Qafqaz İslam Ordusu komandanlığının Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Əsgəri Tarix və Strateji Araşdırmalar (ATASE) başqanlığının arxivində saxlanılan sənədlərdən geniş istifadə edilmişdi. Orada Qafqaz İslam Ordusunun çox zəngin arxivi saxlanmaqdadır. Bu arxivdə türk qüvvələrinin Azərbaycana gəlməsi, onların buradakı fəaliyyəti və bütünlükdə həmin dövrdə Türkiyə-Azərbaycan əlaqələrinin formalaşması barədə qiymətli sənədlər saxlanmaqla bərabər, Azərbaycanın milli hərbi qüvvələrinin qurumlanması, möhkəmlənməsi və respublikanın ərazi bütövlüyü uğrundakı mübarizəsi barədə də çoxlu maraqlı və qiymətli  sənədlər mövcuddur.

Tədqiqat işində Qafqaz İslam Ordusu rəhbərlərinin, bu ordunun tərkibində olmuş türk hərbçilərinin Qafqaz İslam Ordusu hərəkatı ilə bağlı xatirələrindən geniş istifadə edilmişdir. Maraqlıdır ki, bu xatirələrin bir çoxunda müəlliflərin şahidi olduqları hadisələrin təsviri ilə bərabər, Qafqaz İslam Ordusu komandanlığının çoxsaylı arxiv sənədlərinə geniş yer verilmişdir. Bu da həmin xatirələrin sənədliliyini və obyektivliyini, habelə tədqiqat üçün əhəmiyyətini artırmaqdadır. Kitabda həmin xatirələrə çoxlu istinad edilməsi də məhz onlardakı tarixi sənədlərin və məlumatların çoxluğu ilə bağlıdır.

# I FƏSİL

# XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLILAR ARASINDA HƏRB İŞİNİN VƏZİYYƏTİ

## *1. Türkmənçay müqaviləsinin imzalanmasından sonra azərbaycanlıların Rusiya ordusu tərkibində xidməti*

1828-ci ilin fevralında Türkmənçay müqaviləsinin imzalanmasından sonra işğal altına düşmüş Azərbaycan ərazilərində yeni bir tarixi şərait yarandı. Bu tarixi şərait müstəqil Azərbaycan xanlıqlarının mövcudluğuna son qoyduğu kimi, bu coğrafi məkanda milli hərb işinin müstəqil inkişafına da son qoydu. Azərbaycan Rusiya imperiyasının tərkib hissəsinə çevrildi və onun ərazisində imperiya üsuli-idarəsinin tətbiqinə başlandı. Bölgənin mühafizəsi işi isə Rusiya hərbi qüvvələrinin nəzarəti altına götürüldü.

İşğal olunmuş Azərbaycan əraziləri İran və Osmanlı Türkiyəsi ilə sərhəddə yerləşdiyinə görə burada Rusiyanın böyük hərbi qüvvələrinin saxlanılmasına ehtiyac var idi. Çünki Osmanlı Türkiyəsi özü də Cənubi Qafqazda möhkəmlənmək planlarına malik idi. Həmin planların həyata keçməsinə yol verməmək, Cənubi Qafqazda möhkəmlənmək və fürsət yaranan vaxtlarda Osmanlı Türkiyəsinə qarşı ərazi iddiaları qaldırmaq üçün Rusiya burada yetərli mühafizə qüvvələri yerləşdirməyə çalışırdı. Amma Avropa ölkələri ilə gərgin münasibətlərin mövcudluğu, habelə hərbi qüvvələrin böyük hissəsinin Qara dəniz və Baltik dənizi ətrafında yerləşdirilməsi Rusiyaya imkan vermirdi ki, Cənubi Qafqaza əlavə hərbi qüvvələr göndərsin. Ona görə Cənubi Qafqazda daha da möhkəmlənmək və ehtimal olunan müharibələrdə zəruri sayda canlı qüvvəyə malik olmaq üçün Rusiya hakimiyyəti döyüş qabiliyyətli azərbaycanlı əhalinin xidmətlərindən istifadə edilməsini istisna etmirdi.

Rusiya hakimiyyətinə yaxşı məlum idi ki, Azərbaycan xanlıqlarının döyüşkən qoşunları var idi və bu qoşunlar neçə illər ərzində Rusiya hərbi qüvvələrinə ciddi müqavimət göstərmişdilər. Kifayət qədər təcrübə və döyüş keyfiyyətlərinə malik olan azərbaycanlı əhalinin Rusiya qoşunlarına cəlb edilməsi bu dövlətin bölgədə möhkəmlənmək planlarına cavab verə bilərdi. Lakin bu ideyaya qarşı münasibət birmənalı deyildi. Çünki azərbaycanlı əhalinin qoşun dəstələrində birləşdirilməsi onların silahlarının işğalçı Rusiya hakimiyyətinə qarşı çevrilməsi ilə də nəticələnə bilərdi və bu da Rusiyanın bölgədəki hakimiyyətini çətin vəziyyətə sala bilərdi. Ona görə bu məsələ Rusiyanın hakimiyyət dairələri tərəfindən xeyli araşdırılmalı oldu. Bununla belə, Rusiyanın maraqları, xüsusilə XIX əsrdə Rusiyanın bölgədə apardığı müharibələrin gedişi tələb edirdi ki, əlavə canlı ehtiyatlar tapılsın.

Bu zərurətlə əlaqədar olaraq XIX əsrdə Qafqazdakı Rusiya qoşunları tərkibində bir neçə dəfə azərbaycanlılardan ibarət hərbi hissələr təşkil edildi. Qeyd etmək lazımdır ki, azərbaycanlılardan ibarət hissə və bölmələrin yaradılması müvəqqəti xarakter daşıyırdı və adətən, bu proses Qafqazda gedən müharibələrlə bağlı idi. Ümumiyyətlə, azərbaycanlıların hərbi mükəlləfiyyətə cəlb edilməsinə belə münasibət çar Rusiyasının bütün mövcudluğu ərzində dəyişməz olaraq qaldı.

Məlumdur ki, hələ Azərbaycan xanlıqlarının işğalının gedişində Rusiya generalları xanlıqların əhalisindən könüllü atlı dəstələrinin təşkil edilməsini və rus qoşunları tərkibinə qatılmasını tələb edirdilər. Doğrudur, Qarabağ, Şamaxı, Şəki xanlıqları əhalisindən belə dəstələrin təşkilinə nail olunmuşdu. Amma bu dəstələr Rusiya generallarının tələbləri əsasında yaradılmış dəstələr idi və onların döyüş keyfiyyətləri rus generallarını, bir qayda olaraq, razı salmırdı. Bu dəstələrin vəziyyəti, hətta Rusiya çarı I Nikolayı da razı salmırdı və ona görə də onun tələbi əsasında Türkmənçay müqaviləsi imzalanandan əvvəl toplanmış olan azərbaycanlı dəstələrin hamısı buraxıldı. (1)

1828-ci ilin fevralında imzalanmış Türkmənçay müqaviləsinin

14-cü maddəsində Azərbaycan xanlıqları ərazisindən Arazın cənubuna çəkilmiş xanların, onların ailə üzvlərinin, nüfuzlu ruhanilərin, Rusiyanın etibarını qazanmayan adamların Arazın şimalına qayıtması və hətta Arazın cənub sahilləri boyu yaşaması qadağan olundu. (2)

Çünki bu adamların işğal olunmuş xanlıqların əhalisinə təsir edə biləcəkləri çar generallarının təşvişinə səbəb olurdu. Bu tələb Qacar sarayı tərəfindən qəbul olundu və Türkmənçay müqaviləsi ilə də həmin tələb rəsmiləşdirildi. Bundan sonra çar generalları tərəfindən azərbaycanlı əhaliyə silah tapşırılmasına və onlardan könüllü dəstələr təşkil edilməsinə meyl müəyyən qədər artmağa başladı.

1828-ci ilin mart ayında çar qoşunları komandanlığı sərhəd xəttinin mühafizəsinin təmin edilməsi üçün azərbaycanlı könüllülərdən ibarət 1500 nəfərlik dəstənin təşkil edilməsi haqqında qərar verdi. Bu dəstənin 1000 nəfəri piyada, qalanı isə atlılar olmalı idi. Osmanlı Türkiyəsinə qarşı müharibənin başlanması ərəfəsində də azərbaycanlılardan ibarət könüllü dəstələrin təşkilinə başlandı. 1828-ci ilin may ayında piyada və atlılardan ibarət 2 min nəfərlik könüllü dəstə təşkil edildi. Bundan əlavə, İrəvan vilayətinin azərbaycanlı əhalisindən bir sərbaz taboru (piyada tabor) təşkil edildi ki, bu tabora rəhbərlik də azərbaycanlı zabitə tapşırıldı. Həmin taborun tərkibində 8 bölük var idi. Hər bölükdə də 2 ober-zabit, 9 unter-zabit, 3 musiqiçi və 130 sıravi olmalı idi. Taborun şəxsi heyətinin ümumi sayı 1154 nəfər idi (3).

Məsələnin siyasi-ideoloji aspektlərinə diqqət yetirərkən azərbaycanlılardan ibarət qoşun bölmələrinin Azərbaycanı işğal etmiş bir dövlətin ordusu tərkibində vuruşduğunu nəzərdən qaçırmaq olmaz. Lakin onu da nəzərdən qaçırmaq olmaz ki, çar Rusiyası kimi bir dövlətin işğalı, onun sərt jandarm rejiminin ciddi nəzarəti altında olmasına baxmayaraq, Azərbaycan xalqının qabaqcıl dairələri mürəkkəb şəraitdə belə milli, mədəni və ictimai inkişafın artmasına səylə çalışırdılar. Ən kəskin qadağalara baxmayaraq, XIX əsrdə və eləcə də XX əsrin əvvəllərində milli ədəbi, elmi və ictimai fikrin inkişafında xalqın daha da mütəşəkkilləş-

məsində çox dəyərli addımlar atılmışdı və həmin istiqamətlərdə əldə edilmiş nəticələrin Azərbaycan xalqının tarixində özünəməxsus yeri vardır. Bu cəhətləri nəzərə aldıqda azərbaycanlıların çar ordusu tərkibindəki xidmətinə eyni zamanda xalqın hərbi-döyüşkənlik ruhunun qorunub saxlanması, xalqın hərbi keyfiyyətlərinin təsdiqi, xalqın hərbi ənənələrinin davam etdirilməsi və təkmilləşdirilməsi fürsəti kimi də qiymət vermək mümkündür. XIX əsrdə rus ordusu Avropanın qabaqcıl ordularından biri idi. Dövlətin imperialist planlarının həyata keçirilməsi üçün orduya ciddi fikir verilirdi. Bu isə ordunun daha da möhkəmləndirilməsi, daha müasir hərbi və texniki nailiyyətlərin orduya gətirilməsi ilə müşayiət olunurdu. Azərbaycan övladlarının zabit kimi rus ordusu sıralarında xidmət etməsi həm də qabaqcıl hərbi təcrübəyə yiyələnməyə bir zəmin yaradırdı.

Şimali Azərbaycan xanlıqlarının işğalından dərhal sonra 1828–1829-cu illərdə Rusiya və Türkiyə arasında aparılan müharibəyə də çoxlu sayda azərbaycanlı cəlb edilmişdi. Dövrün qabaqcıl ziyalılarından və ictimai xadimlərindən olan Abbasqulu ağa Bakıxanov, onun qardaşı podpolkovnik Cəfərqulu ağa Bakıxanov, kapitan Mirzə Adıgözəl bəy, polkovnik Fərəculla bəy, kapitan Hacı Sədrəddin bəy, mayor Mirzə Məhərrəm Hacıbəyov, kapitan İsa bəy, podporuçik Hüseyn bəy, poruçik Gülməmməd bəy və onlarca başqaları rus ordusu sıralarında xidmətə başlamışdılar. Mövcud olan məlumatlara görə, 1828–29-cu il Rusiya–Türkiyə müharibəsinin birinci ilində azərbaycanlılardan təşkil edilmiş qeyri-nizami qüvvələrin şəxsi heyətinin sayı 3400 nəfərə çatırdı. Onlardan da 1000 nəfəri piyada, qalanları isə süvari idilər. Azərbaycanlı döyüşçülərin yüksək hərbi keyfiyyətlərini görəndən sonra rus ordusu rəhbərliyi onların sayının artırılması üçün zəruri tədbirlərə əl atdı. Bunun nəticəsi idi ki, müharibənin ikinci ilində azərbaycanlı süvarilərin sayı 3 minə, piyadaların sayı isə 1200 nəfərə çatdırıldı. Rus ordusu rəhbərliyi türk ordusu qarşısında qüvvə üstünlüyü yaratmaq üçün azərbaycanlı süvarilərin müharibəyə cəlb edilməsi məcburiyyətində qalmışdı. Azərbaycanlı süvarilərin nisbəti də bunu sübut edirdi. Türk ordusuna qarşı cəbhə tutmuş rus ordusunun rus süvarilərinin və kazak hissələri süvarilərinin

sayı 5500 nəfər, azərbaycanlıların sayı isə 3500 nəfər idi (4).

Mövcud məlumatlara görə, 1828–29-cu illərdə Rusiya ilə Osmanlı Türkiyəsi arasında gedən müharibədə Azərbaycan könüllülərindən ibarət 5 alay təşkil edilmişdi. Birinci alay Qarabağ vilayətinin, 2-ci alay Şirvan və Şəki vilayətlərinin əhalisindən, 3-cü alay Borçalı, Qazax və Şəmşəddil azərbaycanlılarından, 4-cü alay İrəvan və Naxçıvan əhalisindən, 5-ci alay isə Naxçıvanın Kəngərli tayfasından təşkil edilmişdi. Hər alayda 500 döyüşçünün və 100 nəfər də köməkçi heyətin olması nəzərdə tutulmuşdu. Azərbaycanlı könüllülər qızılı və ya gümüşü baftası olan çərkəzi libas, şalvar və iti ucluğu olan papaqlar geyirdilər. Hər bir alayın da öz döyüş bayrağı var idi və bu bayrağın hər iki tərəfində ərəb dilində yazılar var idi. Çox güman ki, bu yazılar Müqəddəs kitabdan olan yazılar idi. Alayların bayraqları bir-birindən rənginə görə fərqlənirdi. Bu rəng könüllülərin papaqlarına tikilmiş ulduzların rənginə uyğun idi. Könüllülər tüfəng, qılınc və xəncərlə silahlanırdılar. Zabitlərə isə əlavə olaraq tapança da verilirdi. Alayların komandiri vəzifəsinə rus zabitləri, onların müavinləri vəzifəsinə isə azərbaycanlı bəylər və ağalar təyin edilirdilər (5).

Hər bir alay 5 bölükdən (yüzlükdən) ibarət idi. Bu bölüklərin hər birinə sultanlar rəhbərlik edirdi. Sultanların hər birinin yanında bir naib və iki vəkil var idi ki, onlar yüzlüklərin idarə edilməsinə və onların döyüşünün təşkilinə kömək etməli idilər.

Tarixi ədəbiyyatda bu alayların uğurla fəaliyyəti haqqında çoxlu sayda məlumat mövcuddur. Azərbaycanlıların at çapmaqda və at belində silah işlətməkdə malik olduqları məharət onların döyüşlərdə də uğur qazanmasına yol açırdı. Cənubi Qafqazdakı rus qoşunlarından təşkil olunmuş Əlahiddə Qafqaz korpusunun komandanı general Paskeviç-İrəvanski azərbaycanlı atlı könüllülərin 1828–29-cu illər müharibəsindəki iştirakına belə qiymət verirdi: «Türklərə və farslara qarşı istifadə olunan süvarilərimiz əvvəllər həmişə uğursuzluğa düçar olurdular. Əvvəla, ona görə ki, farsın və Türkiyənin süvariləri sayca daha çox idi, ikincisi isə onlar daha yaxşı idi. Çünki farslar və türklər uşaqlıqdan süvaridirlər. Bunu

bilərək fars və Türkiyə ilə 1826–1827, 1828 və 1829-cu illərdə Yelizavetpoldan başlamış Bayburta qədər olan müharibələrdə mən öz süvarilərimi həmişə üçüncü xətdə saxlayırdım. Artilleriyanın davamdar və səmərəli atəşləri, habelə piyadaların fəaliyyəti ilə düşmən sarsılmayınca onları irəli atmırdım. Bir də düşmənin təqibində onlardan istifadə edirdim. Süvarilərdən bu cür istifadə edildiyi halda mənim çox azsaylı draqun və kazak alaylarım deyil, müsəlman (Azərbaycan–M.S.) alaylarım da parlaq igidliklər göstərir və ən yaxşı əhval-ruhiyyəyə malik olurdular...» ( 6).

Tapşırılan hərbi vəzifələri layiqincə yerinə yetirdikləri üçün çoxlu sayda azərbaycanlı döyüşçü, hətta Rusiyanın orden və medalları ilə təltif olundular. 1828-ci il avqustun birinci yarısında Axalsıx qalası yaxınlığındakı döyüşlərin nəticələrinə görə 68 nəfər azərbaycanlı döyüşçü 3-cü dərəcəli "Anna" ordeni ilə, 4-cü dərəcəli bantlı Vladimir ordeni ilə, 4-cğ dərəcəli "Georgi" ordeni və "Georgi" lenti üzərində olan Qızıl medalla təltif edildilər. 1829-cu ildə aparılan döyüşlərin nəticələrinə görə isə 162 azərbaycanlı döyüşçü müxtəlif orden və medallarla təltif edildilər. Bundan əlavə, azərbaycanlı süvari alaylara və Kəngərli süvarilərinə fəxri döyüş bayraqları təqdim edildi (7).

Azərbaycanlılardan ibarət könüllü atlı dəstələrinin təşkili və saxlanması kazak atlı hissələrinin təşkili və saxlanması ilə müqayisədə daha az maliyyə xərcləri tələb edirdi. Ona görə belə alayların yaradılmasına müəyyən bir maraq mövcud idi. Amma çar generalları arasında azərbaycanlılardan ibarət könüllü alayların təşkilinə inamsızlıqla yanaşanlar da var idi. Görünür elə bu inamsızlığın nəticəsi idi ki, Şəmşəddil, Qazax, Borçalı azərbaycanlılarından təşkil edilmiş 3-cü atlı alay sonradan çar generallarına itaətsizlik göstərdi və bu itaətsizliyin qarşısının alınması üçün çar generalları ehtiyatlı addımlar atmaq məcburiyyəti qarşısında qaldılar (8).

Azərbaycanlılardan ibarət könüllü dəstələrin təşkili müvəqqəti və mövsümi xarakter daşıyırdı və ona görə Rusiya–Türkiyə müharibəsi başa çatandan sonra bu dəstələr də buraxıldılar. Amma müharibədən sonrakı dövrdə də azərbaycanlıların hərbi keyfiyyə-

tinə müəyyən bir maraq qalmaqda idi. Məsələn, 1830-cu ilin oktyabrında Kəngərli tayfasının könüllü dəstələrinə Rusiya çarı tərəfindən döyüş bayrağı verildi. 1834-cü ildə general Paskeviçin təşəbbüsü ilə Cənubi Qafqaz müsəlman atlı alayının təşkilinə başlandı və bu alay xidmət yerini Polşaya dəyişmiş general Paskeviçin sərəncamına göndərildi. 1840-cı illərin əvvəllərində yenə də general Paskeviçin təşəbbüsü ilə Cənubi Qafqazda azərbaycanlılardan ibarət kazak alaylarının oxşarı olan qeyri-nizami alayların təşkili barədə məsələ qaldırıldı. Lakin bu təşəbbüs həyata keçməmiş qaldı (9).

1844-cü ildə çar Rusiyasının hakimiyyət orqanları yenidən Qafqaz xalqlarından, o cümlədən azərbaycanlılardan mütəşəkkil qeyri-nizami hissələrin yaradılması və bu qüvvələrdən rus ordusu tərkibində istifadə edilməsi barəsində məsələ qaldırdı. Azərbaycanlılar arasından hərbi xidmətə, adətən, maaflar cəlb edilirdi. Maaflar cəmiyyətin xüsusi bir təbəqəsini təşkil edirdilər. Hələ xanlıqlar dövründə maaflar xan drujinasının əsasını təşkil edirdilər. Onlar kəndlilər arasından xüsusi imtiyazlara malik olan şəxslər idilər. Maaflar hərbi xidmət çəkməyə razı olduqları üçün bir sıra vergilərdən azad edilirdilər və adi kəndlilərdən daha yüksək təbəqəni təşkil edirdilər. Bir çox hallarda maaflıq irsi olaraq nəsildən-nəslə verilirdi, hətta bəzi tayfalar maaflar sırasına keçirilirdi. Məsələn, Naxçıvan ərazisində yaşayan Kəngərli tayfası belə bir imtiyaza malik idi (10).

1844-cü ildə azərbaycanlılardan ibarət qeyri-nizami bölmə və hissələrin təşkili barədə məsələ qaldırılanda belə maaflardan ibarət bölmələrin yaradılması nəzərdə tutulurdu. Rusiya ordusunun Baş Qərargahı azərbaycanlı maaflardan ibarət milis qüvvələrinin yaradılmasını planlaşdırırdı. Bu plana əsasən azərbaycanlı maaflar bölmələrdə birləşdirilməli, onların hərbi işlə bağlı xərcləri qismən hökumət tərəfindən ödənməli və maaflar da bunun əvəzində həmişə veriləcək tapşırıqların icrasına hazır olmalı idilər. Məsələnin həlli ilə bağlı o dövrdə inzibati idarəetmə vahidi kimi yaradılmış Xəzər vilayətinin rəisi general İvanova da tapşırıq verilmişdi. General İvanov bu təşəbbüsü dəstəkləməklə bərabər, vilayətdə belə bir imkanın olduğunu da təsdiqlədi. Yuxarı orqanlara verdiyi raportlarında o bildirirdi ki, azərbaycanlı maaflar

arasından çox asanlıqla 2000 süvaridən ibarət daimi milis yaratmaq mümkündür. Hərbi xidmətlə bağlı bütün digər mükəlləfiyyətlərdən azad edilmiş bu qüvvələr istənilən vaxt dövlət xəzinəsindən hər hansı bir xərc tələb etmədən döyüşən orduya qoşula bilərdi. Çar hökumət orqanları bu raportdan sonra Azərbaycanın hər qəzasında azərbaycanlılardan ibarət qeyri-nizami bölmələrin təşkilinə razılıq verdi. Ancaq Qafqazın o zamankı baş hakimi general Neydqart azərbaycanlılardan ibarət qeyri-nizami bölmələrin yaradılmasını mümkün saymadı və bu prosesin qarşısını aldı (11).

Çar hakimlərinin belə bir qərarı bir daha rejimin Qafqaz xalqlarına, o cümlədən Azərbaycan xalqına iddialı yanaşmasının nümayişi idi. Əslində, yerlərdə ağalıq edən çar məmurları bütünlükdə, xalqa qarşı qəddar siyasət yeritdiklərini, xalq kütlələrinin çarizmin işğalçı siyasətindən narazılığını və buna görə də silahlandırılmış milli hərbi bölmələrin rejimə qarşı silah çevirmək ehtimalını yaxşı bilirdilər. Ona görə də Azərbaycan xalqının övladlarının silahlandırılması və onların hərbi strukturlarda birləşdirilməsi hakimiyyət dairələrini çox ciddi təşvişə salmışdı. Lakin elə rejimin maraqları bu məsələdən birdəfəlik üz çevirməyi də mümkün saymırdı. Canlı qüvvəyə, hərbi keyfiyyətləri böyük olan azərbaycanlıların hərbi gücünə olan ehtiyac çar generallarını bu məsələyə qayıtmağa və azərbaycanlılardan təşkil ediləcək milli qüvvələrdən istifadə edilməsinin münasib formasının tapılmasına sövq edirdi. Xüsusilə XIX əsrin ortalarında Rusiya–Türkiyə müharibəsinin başlaması ərəfəsində, eləcə də bu müharibənin gedişində yerli xalqların milli hissələrinin yaradılması məsələsi daha çox aktuallıq kəsb etdi. Milli qüvvələrin hakimiyyətə sədaqətinə inamsızlıqla yanaşan çar generalları bu zaman qeyri-nizami hərbi strukturların yaradılmasına üstünlük verirdilər ki, belə strukturları ləğv etmək də elə bir çətinlik yaratmırdı.

Elə çar generalları var idi ki, onlar milli qoşun hissələrinin qeyri-nizami strukturlarının yaradılmasına tərəfdar deyildilər. Onların fikrincə, yerli xalqların hərbi keyfiyyətlərindən daha səmərəli istifadə edilməsi üçün təlim-tərbiyə məsələlərinə ciddi fikir verilməli idi. Buna isə qoşun hissələrinin daimi əsasda yaradılacağı halda nail olmaq mümkün idi. Məsələn, «Müharibə dövründə

Qafqaz diyarı hüdudlarında sakitliyin təmin edilməsi» adlı əsərində general-mayor Duxovski bildirirdi ki, nə qədər ki, könüllü qüvvələr daimi qoşunların tərkib hissəsinə çevrilməyib və köməkçi qüvvə olaraq qalıb onlardan ciddi nəticələr gözləmək düzgün deyil. O əlavə edirdi ki, vaxtında təlim-tərbiyə görməyən və yalnız təhlükə vaxtı tələm-tələsik toplanan milli könüllü qüvvələrin fəaliyyəti zəif olaraq qalacaqdır (12).

Bununla belə, XIX əsrdə müsəlmanlardan ibarət daimi əsasda qoşun hissələrinin yaradılması öz təsdiqini tapmadı. Təhlükə anında heç bir müvafiq hazırlıq keçmədən toplanan və döyüşlərin ən qaynar nöqtələrinə göndərilən milli qoşun hissələrinin rastlaşdığı çətinliklər isə bir çox hallarda bu qüvvələrin yararsızlığı və həmin qüvvələrin rejimə sədaqətsizliyi kimi qiymətləndirilirdi. 1854-cü ildə azərbaycanlılardan ibarət qeyri-nizami süvari qüvvələrin döyüşlərin birində hərbi uğursuzluğa düçar olması onların yararsızlığı söz-söhbətlərinə səbəb oldu və bu söz-söhbətlər Rusiyanın ali rəhbərliyi səviyyəsində müzakirələrə çıxarıldı. Məsələyə aydınlıq gətirilməsi ilə bağlı çar Rusiyasının hərbi naziri V.Dolqorukov Qafqaz işlərində böyük təcrübəsi olan və azərbaycanlılardan ibarət ilk qeyri-nizami bölmələri yaratmış olan Azərbaycan xalqının işğalının son mərhələsində Qafqazdakı rus qoşunlarının baş komandanı olmuş Paskeviç-İrəvanskiyə müraciət etdi və ondan məsələyə münasibət bildirməsini xahiş etdi. Paskeviç-İrəvanski cavabında azərbaycanlılardan təşkil edilmiş qüvvələrin hərbi keyfiyyətlərini çox yüksək qiymətləndirdi və Krım müharibəsinin gedişində belə qüvvələrin hər hansı bir uğursuzluğa düçar olmasını azərbaycanlı döyüşçülərin səbatsızlığı ilə deyil, onların döyüşlərinə rəhbərlik edən çar zabitlərinin səbatsızlığı ilə bağladı. Baş verən bu hadisə ilə bağlı general Paskeviç şübhə etmirdi ki, «Adətən, mənim etdiklərimin əksinə olaraq indi müsəlman alayları işin əvvəlində ikiqat və bəlkə də üçqat güclü olan rəqib süvariləri üzərinə göndərilmişdir. Bərabərsaylı döyüşlərdə müsəlmanlar istənilən süvarilərə qalib gəlməyə qadirdir. Ona görə də, əgər işdə onlardan düzgün istifadə olunmayıbsa və nəticədə onlar öz döyüş ruhunu itiriblərsə, onları günahlandırmaq çətindir» (13).

Feldmarşal Paskeviç-İrəvanskinin azərbaycanlı süvarilər haqqında bu fikirləri, hətta çara da çatdırıldı və onun razılığı ilə Krım müharibəsi dövründə azərbaycanlı süvarilərdən geniş şəkildə istifadə edildi. Ancaq yuxarıda qeyd edildiyi kimi, rejimin inamsızlığına baxmayaraq, 1853–56-cı illər Krım müharibəsi ərəfəsində milli qoşun hissələrinin yaradılması yenidən aktuallıq kəsb etdi. Rus ordusunun zərbə gücünü artırmaq üçün müharibənin başlanğıcında Baş Qərargahın göstərişi ilə azərbaycanlılardan ibarət hərbi strukturların yaradılması diqqət mərkəzinə gətirildi. 1854-cü ilin əvvəllərində artıq xeyli sayda könüllü Azərbaycan süvariləri rus qoşunlarına birləşmişdi. Lakin az sonra bu süvarilərin müsəlman-atlı süvari alaylarında birləşdirilməsi qərara alındı və bununla bağlı yerlərə müvafiq sərəncam da göndərildi. 1854-cü ilin mayında Əlahiddə Qafqaz korpusunun komandiri Reud Rusiya hərbi nazirinə azərbaycanlılardan ibarət süvari alaylarının yaradılması haqqında məlumat verərkən bildirirdi: "Dörd müsəlman atlı alayının, konkret olaraq Şuşa qəzasının əhalisindən ibarət 1-ci alayın, Şamaxı, Nuxa və Lənkəran qəzalarının sakinlərindən ibarət olan 2-ci alayın, Yelizavetpol qəzasının sakinlərindən ibarət olan 3-cü alayın və İrəvan quberniyasının sakinlərindən ibarət olan 4-cü alayın formalaşdırılması çox böyük uğurla və qısa müddət ərzində aparılmışdır. Belə ki, may ayının 1-nə bu alayların hamısı tam tərkibdə Qafqaz-türk sərhədində döyüşən korpusa, öz yerlərinə gəlmişlər... Bu dörd alayın belə uğurla formalaşdırılmasının həm yerli rəislərin icraçılığına, həm də adı çəkilən qəzaların sakinlərinin bu alaylara daxil olmaq səylərinə və hazırlığına, həm də bu qeyri-nizami süvarilərə milis (könüllü–M.S.) deyil, nizami qüvvələrin bəzi əsasları üzərində yaradılmış alay adının verilməsinə aid etmək olar ki, bu da tatarların (azərbaycanlıların –M.S.) qürurunu oxşamışdır" (14).

Yəni azərbaycanlılardan ibarət olan alaylar yalnız köməkçi qüvvələr kimi nəzərdə tutulmamışdı. Azərbaycanlı süvarilərin hərbi keyfiyyətlərini nəzərə alaraq onlardan təşkil olunmuş alaylar nizami rus alaylarına oxşar tutulurdu. Alayların struktur tərkibi də onların nizami alaylara yaxın tutulduğunu göstərirdi. Alay rəhbərliyi komandir və onun yavərindən, habelə müxtəlifsə-

viyyəli 21 köməkçisindən ibarət idi. Alay komandiri və onun yavəri rus zabitlərindən təyin olunurdular. Onun 21 nəfər köməkçisi isə azərbaycanlı bəylər və mülkədarlar arasından seçilirdi. Həmin 21 nəfərdən vəzifə kateqoriyasına müvafiq olaraq biri bəy, beşi sultan, beşi naib və on nəfəri vəkil idi. Alayın tərkibində eyni zamanda 585 atlı və yükdaşıyan var idi. Onların 500-ü döyüşçü, 85-i isə yükdaşıyan idi. Atlılar maaflar arasından, yükdaşıyanlar isə adi kəndlilər arasından dəstləşdirilirdi (15).

Krım müharibəsi dövründə Qafqazdakı rus hərbi qüvvələri üç dəstədə birləşdirilmişdi. Əsas dəstə olan Aleksandropol dəstəsinin tərkibində 1-ci Qarabağ Azərbaycan atlı alayı və 2-ci Şirvan Azərbaycan atlı alayı, Axalsıx dəstəsinin tərkibində 3-cü Azərbaycan atlı alayı və İrəvan dəstəsinin tərkibində isə 4-cü Azərbaycan atlı alayı vuruşurdu. Müharibənin gedişində bu alaylardan başqa digər könüllü dəstələr və drujinalar da yaradılmışdı. Məsələn, Aleksandropol dəstəsinin tərkibində əlavə olaraq azərbaycanlı könüllü dəstəsi, İrəvan dəstəsinin tərkibində isə İrəvan bəylərindən təşkil edilmiş iki drujina vuruşurdu. 2-ci Azərbaycan atlı alayının sonradan komplektləşdirilməsi üçün isə Bakı şəhərinin və qəzasının atlıları arasından yığım aparılmışdı. Azərbaycan atlılarının rus ordusuna cəlb edilməsi üçün müəyyən məntəqələrdə toplanış nöqtələri yaradılır və yerli hakimlərə təşkilati iş aparmaq barədə göstəriş verilirdi. Məsələn, Lənkəran qəzasının Salyan yaşayış məntəqəsində, Şamaxı qəzasının Ağsu kəndində və başqa yaşayış yerlərində belə məntəqələr yaradılmışdı.

1-ci Qarabağ atlı alayının formalaşdırılmasına baxış keçirilməsində İran vəliəhdi Abbas Mirzənin o vaxt Şuşada sığınacaq tapmış oğlu Bəhmən Mirzə Qacar da iştirak etmişdi. Baxış keçirildiyi gün alay bölüklərə bölünərək şəhər daxilində sıraya düzülmüşdü. Qafqazın o vaxtkı canişini Voronsov bu baxışın keçirilməsi ilə bağlı Peterburqa belə bir məlumat vermişdi: «Avqustun 13-də səhər drujina Asiya (Azərbaycan–M.S.) musiqisindən ibarət üç xorun müşayiəti altında tam döyüş vəziyyətində qalaya daxil oldu və meydanda yerləşdirildi... Həmişə və hər vaxt verilmiş sığınacağa görə imperator əlahəzrətlərinə özünün dərin minnətdarlığını ifadə etməyə çalışan fars şahzadəsi Bəhmən

Mirzə də könüllüləri görmək istədi. Əlahəzrət ora gələrək sıraların qarşısından keçdi və təntənəli addımlarla drujinanın qarşısında addımlayarkən müxtəsər, lakin güclü ifadələrlə könüllülərə sədaqətli xidmət, rəislərin əmrlərinə itaət borcunu izah etdi. Könüllülərin cavabı isə hamılıqla «Ura!» sədası oldu «(16).

Döyüşlərin gedişində də azərbaycanlı süvarilər özlərinin igidlik və şücaətini ardıcıl olaraq nümayiş etdirirdilər. Rus ordusunun yüksəkvəzifəli və yüksəkrütbəli zabitləri yuxarı orqanlara göndərdikləri raportlarında dəfələrlə azərbaycanlı döyüşçülərin hərbi keyfiyyətlərindən ürəkdolusu söhbət açırdılar. Məsələn, İrəvan dəstəsinin rəisi general-leytenant Vrangel Əlahiddə Qafqaz korpusunun komandanına 1854-cü il iyulun 18-də göndərdiyi məruzəsində döyüşlərin ön xəttində olan və döyüş tapşırıqlarını məharətlə yerinə yetirən kapitan İsmayıl xanın və podporuçik Kəlbəli xanın adını, həmin il iyulun 30-da göndərdiyi məruzəsində isə azərbaycanlılardan ibarət bəy drujinasının, praporşiklər Əli və Paşa xanın, 4-cü alayın kapitanı Hüseyn Sultanın, könüllü Xəncan xan Məmmədqulu xan oğlunun adlarını çəkirdi. Əlahiddə Qafqaz korpusunun 12 sentyabr 1855-ci il tarixli əmri ilə göstərdiyi hərbi şücaətlərə görə 3-cü müsəlman atlı alayının bir sıra döyüşçülərinə hərbi rütbələr və mükafatlar verildi. Əmrdə bildirilirdi ki, iyunun 23-də Suldin yay-kazak postunda aparılmış döyüşün nəticələrinə görə Qazax bölüyünün komandiri kapitan Mansur ağa Vəkilova «İgidliyə görə» yazılı Müqəddəs Anna ordeninin 4-cü dərəcəsi, Qazax bəy yarımbölüyünün praporşiki Mir Mirzə Məmməd Şərif oğluna növbəti podporuçik rütbəsi, Borçalı bəy yarımbölüyünün vəkilləri Məməşad bəy Ağa Sultanova yunker çini, Ağabəy İbrahimxəlil ağa İlyas ağa oğlu və Qazax bəy yarımbölüyündən Mustafa ağa Əyyubağa oğluna «İgidliyə görə» yazısı olan gümüş medal, Qazax bölüyündən Ağacan bəyə «İgidliyə görə» yazısı olan qızıl medal verildi. Qazax yüzlüyünün atlısı Əli Kərim oğluna müsəlmanlar üçün təsis edilmiş orden verilmişdi. 1855-ci ilin döyüşlərində 1-ci Kazak alayının sıralarında xidmət keçən Şirvan bəyi Ağa xan Şirvanski, 2-ci Kazak alayında xidmət keçən Süleyman xan Şirvanski, 48-ci Don kazak alayında xidmət keçən praporşik Mirzə Fətəli bəy Fətəlibəyov,

17-ci Don kazak alayında xidmət keçən podporuçik Nəcəfqulu bəy Ağa Məmməd oğlu da kifayət qədər tanınmış insanlar idi. Göstərdikləri şücaətə görə azərbaycanlılardan təşkil olunmuş alaylardan ikisinə, hətta azərbaycanlı zabitlər komandir təyin edilmişdi. Məsələn, 2-ci müsəlman atlı alayının komandiri podpolkovnik İsrafil bəy Yadigarov idi. O, Azərbaycanın hərb tarixinə neçə-neçə zabitlər vermiş Yadigarovlar nəslinin nümayəndəsi idi. 1-ci müsəlman atlı alayının komandiri isə rus ordusunun polkovniki Fərəc bəy Ağayev idi. Şuşada anadan olmuş Fərəc bəy Ağayev 1837-ci ildə hərbi xidmətə başlamışdı. Son dərəcə böyük hərbi istedada malik olan Fərəc bəy onillik xidməti ərzində atlı alayının adi süvarisindən polkovnik rütbəsinə qədər yüksələ bilmişdi. Xidmətinin çox hissəsini Əlahiddə Qafqaz korpusuna bağlayan Fərəc bəy Ağayev general-leytenant rütbəsinə qədər yüksəlməklə XIX əsr Azərbaycan hərbçiləri arasında layiqli bir mövqeyə malikdir (17).

Rus ordusunda uzun xidmət yolu keçmiş Krım müharibəsi iştirakçılarından biri də İsmayıl bəy Qutqaşınlı idi. 1808-ci ildə anadan olan İsmayıl bəy hələ 1822-ci ildə əsgər kimi rus ordusunda xidmətə başlamışdı. 1829-cu ildə İsmayıl bəyə poruçik rütbəsi verildi və Əlahiddə Qafqaz korpusu qərargah rəisinin yavəri təyin edildi. Həmin vaxt korpusun qərargah rəisi general-leytenant Pankratov idi. Bir müddət sonra general Pankratov Polşaya göndərildikdə onun xahişinə əsasən İsmayıl bəyin xidmət yeri də Polşaya dəyişdirildi. Mövcud olan məlumatlara görə, 1835-ci ildə ona ştabs-kapitan, 1839-cu ildə podpolkovnik, 1843-cü ildə polkovnik, 1850-ci ildə general-mayor hərbi rütbəsi verilmişdi. Elə həmin ildən də o, Əlahiddə Qafqaz korpusunda xidmətini davam etdirməyə başladı (18). İsmayıl bəy 1854-cü ildə 4-cü müsəlman atlı alayının sıralarında Krım müharibəsində iştirak etmişdi.

İsmayıl bəy Qutqaşınlının Azərbaycan ictimai-bədii fikrinin inkişafında da böyük xidmətləri vardır. Onun 1835-ci ildə Varşavada çap olunmuş «Rəşid bəy və Səadət xanım» povesti Azərbaycanın XIX əsr epik ədəbiyyatının dəyərli nümunələrindən biridir.

Ancaq azərbaycanlı süvari dəstələrinin və azərbaycanlı zabit-

lərin rus ordusu sıralarında tapşırılan hərbi vəzifələrin icrasına kifayət qədər işgüzarlıq, enerji və təşəbbüskarlıqla yanaşmasına baxmayaraq, çar Rusiyası ordusunun rəhbərliyi Krım müharibəsi qurtaran kimi bu milli hissə və dəstələrin buraxılması barədə qərar verdi. İşğalçı rejimə qarşı əhalinin ümumi narazılıqları fonunda milli hissələrin onların tərəfinə keçə bilmək ehtimalı hakimiyyət təmsilçilərini qorxudurdu. Bununla bərabər, milli hissələrin birdəfəlik ləğv edilməsindən yarana biləcək narazılıq da çar generallarını və çinovniklərini narahat edirdi. Bu narahatçılığın və narazılığın qarşısını almaq üçün müəyyən bəhanələrə də əl atılırdı. Cəhd göstərilirdi ki, Rusiya ordusu Baş Qərargahının Qafqaz işləri üzrə departamentinin milli süvari hissə və dəstələrinin ləğv edilməsi məsələsi həmin strukturların xidmətindən narazılıq kimi yox, müharibənin qurtarması və sülhün bağlanması ilə əlaqədar orduda ixtisarların aparılması kimi təqdim edilsin. Güman edilirdi ki, ixtisar adı ilə milli strukturların ləğv edilməsi həmin strukturlarda ciddi narazılıqlar doğurmayacaqdır. Bu bəhanə altında 1856-cı ilin avqustunda müsəlman atlı alayları və Qafqaz xalqlarından təşkil olunmuş digər strukturlar ləğv edildi (19).

1877-ci il rus–türk müharibəsi dövründə də çar generalları müharibədən qalib çıxmaq üçün Qafqaz xalqlarından qeyri-nizami dəstələrin formalaşdırılmasına əl atdılar. Qafqazdan toplanmış qeyri-nizami strukturların döyüşçülərinin ümumi sayı 40 mindən artıq idi (20). Onların arasında azərbaycanlılar da var idi. 1877–78-ci il rus–türk müharibəsində hərbi istedadı ilə fərqlənən zabitlərdən biri də İsmayıl xan Naxçıvanski idi. Rus ordusu sıralarında İ.Naxçıvanski son dərəcə cəsur və istedadlı bir zabit kimi tanınmışdı. Bununla belə müharibənin başa çatması ilə azərbaycanlı qeyri-nizami strukturlar yenidən buraxıldılar.

1877–78-ci illər rus–türk müharibəsində azərbaycanlı könüllü qüvvələrdən əlavə, Bakı alayı adlanan rus ordusunun nizami alayı da iştirak edirdi. Ümumən, XIX əsrin ikinci yarısında nizami rus ordusu tərkibində Azərbaycanın yer adları ilə adlandırılmış bir sıra nizami hissələr mövcud idi. Rus ordusunda kifayət qədər uğurlu döyüş və xidmət yolu keçmiş bu hissələrdə məlumatların qıtlığı üzündən nə qədər azərbaycanlının xidmət keçdiyini söyləmək

çətindir. Ancaq nizami hissələrin Azərbaycanın yer adları ilə adlandırılmasını həmin yerdə yaşayan insanların, bütünlükdə Azərbaycan xalqının hərbi keyfiyyətlərinə və ənənələrinə verilən qiymətin ifadəsi kimi də qəbul etmək olar.

Çar ordusunun nizami 153-cü Bakı alayı 1863-cü il noyabrın 6-da Krım piyada alayının 6-cı ehtiyat taboru və 1-ci Qafqaz xətti ehtiyat taborunun bazasında yaradılmış və sonradan rekrutların hesabına alayın şəxsi heyəti tamamlanmışdı. 1864-cü il martın 25-dən etibarən bu alay 153-cü Bakı alayı adlandırıldı. 1863-cü ildən 1874-cü ilə qədər alay üç tabordan ibarət idi. 1874-cü ilin 1 avqustunda Kutaisi quberniya taboru da bu alayın tərkibinə verildi. 1878-ci il oktyabrın 13-də alaya Georgi bayrağı təqdim edildi. Bayrağın üzərində belə yazılmışdı: 1-ci tabora 1855-ci il oktyabrın 25-də İnquri çayı üzərindəki döyüşdə, 1877-ci il martın 4-5-də Ərdəhanın alınmasında, oktyabrın 28-də isə Əziziyyə fortunun alınmasında fərqləndiyinə görə; 2-ci, 3-cü və 4-cü taborlara isə 1877-ci il martın 4–5-də Ərdəhanın alınmasında və oktyabrın 28-də Əziziyyə fortunun alınmasında fərqləndiyinə görə. Taborların hamısının şəxsi heyəti döyüşlərdə göstərdiyi şücaətə görə papaqlarında xüsusi fərqlənmə nişanı daşıyırdı (21).

Azərbaycanın coğrafi adları ilə adlandırılan nizami alayların içərisində ən qədim alay imperator həzrətləri böyük knyaz Georgi Mixayloviçin 81-ci Abşeron piyada alayı idi. Həmin alayın əsasının qoyulması I Pyotrun hakimiyyəti illərinə təsadüf edir. Hələ 1721-ci ildə çar Rusiyasının Azərbaycanı işğal etmək planlarının həyata keçirilməsi məqsədilə bir neçə alayın müxtəlif taborları ayrıca bir alayda birləşdirildi. Bu taborlar I Pyotrun Qafqaza yürüşündə iştirak etdilər. 1724-cü il iyulun 9-da bu bölmə və hissələr alay şəklində birləşdirildi və ona Astrabad adı verildi. Abşeron adı isə alaya 1732-ci il noyabr ayının 7-də verildi. 1762-ci ildə aprelin 25-dən iyunun 5-nə qədər general-mayor İvan Braxveltin adını daşıdı. 1962-ci ilin ortalarında alayın əvvəlki adı yenidən özünə qaytarıldı. 1796-cı ildə alay Abşeron muşketyor alayı adlandırıldı. Həmin vaxt alay 2 tabordan və 2 qrenadyor bölüyündən ibarət idi. I Pavelin çarlığı dövründə aşağıdakı generallar alayın hamisi təyin edilmişdilər: 29 noyabr 1798-ci il-

dən–general-leytenant Rumyantsev; 10 aprel 1797-ci ildən–general-mayor Korsakov, 1 sentyabr 1797-ci ildən general-mayor Fon-Tol, 28 iyul 1798-ci ildən–general-mayor Milorodoviç. 1811-ci ildən etibarən alay yenidən sadəcə olaraq Abşeron alayı adlandırıldı. 1819-cu il noyabrın 4-də əlahiddə gürcü korpusu komandanının əmri ilə alay Troitski alayı adlandırıldı. 1825-ci il mayın 26-da alayın əvvəlki adı yenidən özünə qaytarıldı. 1863-cü il avqustun 11-də böyük knyaz Georgi Mixayloviç alayın hamisi təyin edildi. 1864-cü il martın 25-dən isə alay imperator həzrətləri böyük knyaz Georgi Mixayloviçin 81-ci Abşeron piyada alayı adlandırıldı. XIX əsr ərzində alayın taborları hərbi və döyüş xidmətlərinə görə bir sıra mükafatlara layiq görülmüşdülər. 1-ci taborun mükafatları aşağıdakılardan ibarət idi: üzərində «1760-cı il sentyabrın 28-də Berlinin alınmasındakı şücaətinə və fəaliyyətinə görə» sözləri yazılmış və «1799-cu ildə İtaliyada fransızlara qarşı döyüşdə göstərdiyi igidliyə görə» sözləri yazılmış truba; lentində «1700–1850-ci illər» yazısı, kənarında isə «1839-cu il avqustun 22-də Axulqonun hücumla alınmasında fərqlənməsinə və 1859-cu il avqustun 25-də Qunibin alınmasında fərqlənməsinə görə» yazısı olan Georgi bayrağı. Taborun döyüşçülərinin papağında isə «1857-ci ildə fərqlənməyə görə» yazısı olan nişan var idi. Digər taborların da bir sıra oxşar və fərqli mükafatları var idi. Bütün bunlar onu göstərirdi ki, alay kifayət qədər zəngin döyüş ənənələrinə malik idi. Alayın taborları adları çəkilən döyüşlərdən əlavə 1877-ci ildə Dağıstanda üsyanın yatırılmasında, Andi və Darqo səfərlərində, 1857-ci ildə Göytəpə qalasının hücumla alınmasında, Şərqi və Qərbi Qafqazın fəth edilməsində, 1857-ci ildə Xivə səfərində iştirak etmişdilər (22).

I Dünya müharibəsi dövründə 81-ci Abşeron piyada alayı Səməd bəy Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyasının tərkibində idi və onun rəhbərliyi altında alay malik olduğu hərbi ənənələrini daha da zənginləşdirdi.

I Dünya müharibəsi illərində Səməd bəy Mehmandarovun komandiri olduğu 21-ci piyada diviziyasının tərkibinə 81-ci Abşeron piyada alayından əlavə 82-ci Dağıstan, 83-cü Samur və 84-cü Şirvan alayları da daxil idi. İmperator həzrətləri böyük knyaz

Vladimir Aleksandroviçin 83-cü piyada alayının əsası 1845-ci ildə qoyulmuşdu. Alay Podolsk və Jitomirsk yeger alayının 2-ci və 3-cü taborlarından, 10-cu gürcü xətti taborundan, Praqa piyada alayının 2-ci və 3-cü taborlarından–cəmi beş tabordan təşkil olunmuşdu. Alay 1847-ci il sentyabrın 9–14-də Saltının alınması uğrunda döyüşlərdə, 1877-ci ildə Dağıstanda üsyanın yatırılmasında, 1864-cü ildə Qərbi Qafqazın fəthində, 1857–59-cu illərdə Qafqaz uğrunda gedən döyüşlərdə, 1873-cü ilin Xivə yürüşlərində və s. döyüşlərdə iştirak etmiş və həmin döyüşlərdə fərqləndiyinə görə alayın taborlarına Georgi bayrağı və digər mükafatlar verilmişdi (23).

84-cü Şirvan piyada alayının əsası isə hələ 1724-cü ildə qoyulmuşdu. Həmin vaxt alayın tərkibi 2 füzel taborundan və bir qrenadyor bölüyündən ibarət idi. 1762-ci il aprel ayından etibarən alay bir müddət general-mayor Baxman piyada alayı adlandırıldı. 1800-cü ilə qədər alayın adı daha bir neçə dəfə dəyişdirildi. Həmin ildən alay Şirvan muşketyor alayı adlandırıldı. 1811-ci ildə alay yenidən Şirvan piyada alayı adlandırıldı. 1828-ci ildə alayın adı yenidən dəyişdirildi və tam piyada generalı qraf Paskeviç-İrəvanskinin piyada alayı, 1829-cu ildə isə alay general-feldmarşal qraf Paskeviç-İrəvanskinin piyada alayı adlandırıldı. 1834-cü ildə xüsusi qrenadyor alayının və 42-ci Yeger alayının 3 taboru həmin alayla birləşdirildi. 1856-cı il yanvarın 20-də alay Şirvan piyada alayı, həmin il aprelin 19-da isə imperator həzrətləri böyük knyaz Nikolay Konstantinoviçin Şirvan piyada alayı adlandırıldı. Alay 1813-cü ildə Kriona məntəqəsi ətrafındakı döyüşlərdə, 1826-cı ildə Şuşa ətrafındakı döyüşlərdə, 1859-cu il avqustun 25-də Qunib ətrafındakı döyüşlərdə, 1881-ci il yanvarın 12-də Göytəpə qalası uğrunda gedən döyüşlərdə, 1826–29-cu illərdə İran və Türkiyə ilə müharibələrdə, 1864-cü ildə Qərbi Qafqazın fəthi uğrunda gedən döyüşlərdə, 1877–78-ci illər rus-türk müharibəsində iştirak etmiş və bu döyüşlərdə iştirakına görə Georgi bayrağına və bir sıra digər mükafatlara layiq görülmüşdü (24).

Daha bir Azərbaycan coğrafi adı ilə adlanan Salyan alayının əsası isə 1805-ci ildə ehtiyat tabor kimi qoyulmuşdu. Tabor Xəzər flotiliyasının müxtəlif komandalarından təşkil edilmişdi. Sonradan dəniz alaylarından müxtəlif zabitlər də bu tabora keçirildi və o,

Xəzər dəniz taboru adlandırıldı. 1830-cu ildə tabor 8-ci Gürcü xətti taboru adlandırıldı, 1834-cü ildə 7-ci xətti tabor, 1840-ci ildə 9-cu xətti tabor, 1842-ci ildə isə yenidən 8-ci xətti tabor adlandırıldı. 1858-ci ildə tabor Qafqaz 21-ci xətti taboru, 1868-ci ildə 66-cı Bakı quberniya taboru, 1874-cü ildə Bakı yerli taboru, 1890-cı ildə 12-ci Qafqaz taboru, 1891-ci ildə isə Salyan ehtiyat taboru adlandırıldı (25). I Dünya müharibəsi illərində Salyan taboru artıq Salyan alayına çevrilərək 52-ci piyada diviziyasının tərkibinə verilmişdi. Həmin diviziyanın tərkibində eyni zamanda 206-cı Şamaxı alayı da vuruşurdu. Bu alayın əsası 1889-cu ildə qoyulmuş və Qafqazın hərbi dairəsinin müxtəlif yerli komandalarından təşkil edilmişdi (26).

Azərbaycanın daha bir qədim yaşayış məskəninin adı ilə adlandırılmış 154-cü Dərbənd piyada alayı 1863-cü il noyabrın 6-da təşkil olunmuşdu. O zaman sadəcə Dərbənd piyada alayı adlandırılan bu hissənin tərkibi 3 tabordan ibarət idi. 1864-cü ildə alaya nömrə verildi və 154-cü Dərbənd piyada alayı adlandırıldı. 1874-cü ildə 14-cü Qafqaz xətti taboru da Dərbənd alayının tərkibinə verildi. Alay 1877-ci il oktyabrın 2-də Orlok yüksəkliyinin alınmasında, 1864-cü ildə Qərbi Qafqazın fəth edilməsində iştirak etmiş və xidmətdə fərqləndiyinə görə Georgi bayrağı və digər mükafatlarla təltif edilmişdi (27).

Adları çəkilən hissələrdən başqa rus ordusunun tərkibində daha iki nizami piyada alayı Azərbaycan şəhərlərinin adı ilə adlandırılmışdı. Onlardan biri Yelizavetpol piyada alayı, digəri isə Zaqatala piyada alayı idi. Yelizavetpol alayının əsası 1863-cü ildə qoyulmuş və Kuban piyada alayının 6-cı ehtiyat taborunun bazasında yaradılmışdı. Sonradan rekrut çağırışının hesabına alayın tərkibi üç tabora çatdırılmışdı. Hər taborun tərkibində isə 5 bölük var idi. 1864-cü ildə alay 156-cı Yelizavetpol alayı adlandırıldı. 1874-cü ildə Axalsıx qala taboru da Yelizavetpol alayının tərkibinə verildi və bununla alayın taborlarının sayı dördə çatdı. Alay 1877-ci il mayın 4–5-də Ərdəhanın alınmasında, həmin il oktyabrın 3-də isə Ələcinsk yüksəkliklərinin alınmasında fəal iştirak etmiş və bu döyüşlərdə fərqləndiyi üçün ona Georgi bayrağı və digər təltiflər verilmişdi (28).

164-cü Zaqatala piyada alayının əsası isə 1874-cü ildə qoyulmuş və dörd tabordan təşkil edilmişdi. Bu alayın təşkil edilməsi üçün 81-ci Abşeron piyada alayının, 82-ci Dağıstan piyada alayının və 83-cü Samur piyada alayının 4-cü taborları, habelə 84-cü Şirvan piyada alayının 3-cü taboru onun tərkibinə verildi. Həmin taborlar həm ilkin daxil olduqları alayların tərkibində, həm də sonradan Zaqatala alayının tərkibində müxtəlif döyüş tapşırıqlarını uğurla yerinə yetirmişdilər. Ona görə Zaqatala alayı rus ordusunun ən titullu alaylarından biri idi. Taborların hər birinin iştirak etdiyi döyüşlərə görə çoxlu titulları var idi. Alayın taborları yarandığı vaxtdan 1760-cı il sentyabrın 28-də Berlinin alınmasında, 1799-cu il sentyabrın 20-də İtaliyada fransızlarla döyüşdə, 1812-ci ildə fransız qoşunlarına qarşı müharibədə, 1839-cu il avqustun 22-də Axulqo məntəqəsinin alınmasında, 1845-ci ilin iyununda Andi yürüşündə, 1859-cu il avqustun 25-də Qunibdağın alınmasında, 1846–59-cu illər Qafqaz döyüşlərində, 1857–59-cu illər Qafqaz döyüşlərində, 1826–27-ci illər rus-İran müharibəsində, 1877–78-ci illər rus-türk müharibəsində iştirak etmişdilər (29).

XIX əsrin ikinci yarısı və sonlarında çar ordusu sıralarında Azərbaycanın çox dəyərli hərbçilər nəsli də yetişmişdi. Yuxarıda deyildiyi kimi, rejimin təmsilçiləri əyalət xalqı kimi azərbaycanlıların kütləvi şəkildə çar ordusunda xidmət etməsinə meylli deyildi. Bununla belə, çarizmin yerlərdə nüfuzunun möhkəmləndirilməsi istiqamətində müəyyən miqdarda savadlı azərbaycanlıların rus ordusu tərkibində xidmətinə imkan verilirdi. Mövcud olan qadağalara və ikili münasibətlərə baxmayaraq,öz hərbi istedadı və bacarığı ilə həm çar ordusu sıralarında, həm də Azərbaycanın hərb tarixində silinməz izlər buraxmış azərbaycanlı hərbçilər və generallar yetişmişdi,hətta bir neçə hərbçilər nəsli də formalaşmışdı. Məsələn, Naxçıvanskilər nəsli, hərbçi Qacarlar nəsli, hərbçi Yadigarovlar nəsli və başqaları.

Hərbçi Naxçıvanskilər nəslinin içində Kəlbalı xan Naxçıvanski, general-mayor Ehsan xan Naxçıvanski, general-leytenant İsmayıl xan Naxçıvanski, Ehsan xan Naxçıvanskinin oğlu Kəlbalı xan Naxçıvanski. Tam süvari generalı Hüseyn xan Naxçıvanski

istisna olmaqla digər Naxçıvanskilərin general kimi formalaşması XIX əsrə təsadüf edir.

Naxçıvanski hərbçilər nəslinin başlanğıcını qoyan Kəlbalı xan Naxçıvanski şimali Azərbaycan xanlıqlarının işğalı dövründə Naxçıvan xanı idi. Xanlığın müstəqilliyini saxlamaq üçün onun göstərdiyi şücaətlər, onun istedadı və bacarığı dövrün mənbələrində və hərbi ədəbiyyatında çox yüksək qiymətləndirilmişdir. Xanlığın qoşunlarının başçısı da o idi. Onun rəhbərliyi altında xanlıq qoşunları həm Qacar, həm də Rusiya qoşunlarına qarşı igidliklə vuruşmuşdu. Oğlu Ehsan xan Naxçıvanskilər nəslinin ilk generalıdır. Kəlbalı xanın digər oğlu Şeyx Əli də hərbi rütbəyə layiq görülmüş və polkovnik olmuşdu. Naxçıvan xanlığının müstəqilliyini qoruyub saxlamaq mümkün olmadıqda Ehsan xan rus ordusu ilə əməkdaşlıq etmək məcburiyyətində qaldı. Tarixi ədəbiyyatda olan məlumata əsasən 1823-cü ildən atasının yerinə Naxçıvan xanı olan Ehsan xanın dövründə xanlığın 1000 nəfərdən ibarət hərbi qüvvəsi var idi. Bu qüvvələr içərisində ciddi intizam mövcud idi və intizamsızlıq edənlərə qarşı ciddi cəzalar tətbiq edilirdi (30).

Naxçıvan xanlığı təslim olduqdan sonra Ehsan xan rus ordusunun İrana doğru yürüşlərində iştirak etmiş və İranla müharibə başa çatdıqdan sonra ona çarın sərəncamı ilə general-mayor hərbi rütbəsi verilmişdi. Ehsan xanın iki oğlu İsmayıl və Kəlbalı xan da çar ordusu sıralarında hərbi xidməti davam etdirmiş və hər ikisi də general rütbəsinədək yüksəlmişdi. XIX əsrin ortalarında Krım müharibəsində İsmayıl xanın və Kəlbalı xanın igidlikləri və hərbi istedadı İrəvan dəstəsinin komandanı general-leytenant Vrangelin yuxarıda haqqında danışılan 18 iyul 1854-cü il tarixli məruzəsində qürurla xatırlanmışdı. İsmayıl xan Naxçıvanski 1877–78-ci il rus–türk müharibəsində də istedadlı hərbçi olduğunu nümayiş etdirə bilmiş və general-leytenant rütbəsinə qədər yüksəlmişdi. Kəlbalı xan Naxçıvanski isə nümunəvi xidmətlərinə görə 1874-cü ildə general-mayor rütbəsi almışdı.

Azərbaycanın ictimai-ədəbi fikir və hərb tarixində dəyərli səhifə açmış Bakıxanovlar nəsli də bir neçə general və hərbçi yetişdirmişdi. Azərbaycanda professional tarixçiliyin banisi, bir

sıra dəyərli elmi-fəlsəfi və ədəbi əsərlərin müəllifi olan Abbasqulu ağa Bakıxanov polkovnik rütbəsinə qədər yüksəlmişdi. Bəzi müəlliflər onun, hətta general-mayor rütbəsi almasını da güman edirlər (31). Bu nəslin hərbçi nümayəndələri arasında general-leytenant Cəfərqulu ağa Bakıxanov, general Həsən ağa Bakıxanov, general Abdulla ağa Bakıxanov kimi şəxsiyyətlər vardır. XIX əsrin azərbaycanlı hərbçiləri arasında vitse-admiral İbrahim bəy Aslanbəyov, general Əsəd bəy Talışxanov, general Həsən bəy Ağalarov, general-leytenant Balakişi Ərəblinski, general Mirkazım Talışxanov, polkovnik İsrafil bəy Yadigarov, polkovnik Kərim bəy Novruzov, general Əmir Kazım Mirzə Qacar, polkovnik Xanbaba xan Qacar, general Rzaqulu Mirzə Qacar, onlarca və yüzlərcə digər azərbaycanlılar da vardır. Çox təəssüf ki, çar ordusunda xidmət keçmiş azərbaycanlılar haqqında az-çox tamamlanmış bir statistika yaratmaq mümkün deyil. Çünki bir tərəfdən lazımi ilkin mənbələr yoxdur, digər tərəfdən də azərbaycanlıların orduya cəlb edilməsində hər hansı bir sistem yox idi. Bu məsələ daha çox azərbaycanlıların öz təşəbbüskarlığına bağlı idi. Onlar ixtiyari şəkildə Tiflisdə və Rusiyanın digər şəhərlərində olan hərbi məktəblərə daxil olur və təhsilini başa vurduqdan sonra rus ordusunun sıralarına qatılırdılar. XIX əsrdə Bakıda və Azərbaycanın digər şəhərlərində hər hansı səviyyədə təhsil verən hərbi məktəblər yox idi.

### *2. XX əsrin əvvəllərində azərbaycanlıların Rusiya ordusu tərkibində xidmətləri*

XX əsrin əvvəllərində Rusiya ordusunda xidmət edən azərbaycanlı zabitlərin yeni bir nəsli formalaşdı. Bu nəsil zabitlərin hələ XIX əsrin sonlarından başlanan xidmət təcrübələri XX əsrin əvvəllərində daha da təkmilləşdi və bununla əslində, Azərbaycanın hərb tarixində də yeni bir səhifə açılmış oldu. Çünki bu dövrün azərbaycanlı zabitlərinin əksəriyyətinin xidmət sahəsində qazandıqları təcrübə sonradan Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun təşkilatlandırılması üçün çox qiymətli bazaya çevrildi.

Rəşid bəy Əfəndiyev, Feyzulla Mirzə Qacar, Əmir Kazım Mirzə Qacar, Darab Mirzə Qacar, İbrahim Ağa Usubov, Teymur bəy Novruzov, Teymur Mirzə Məmmədəlibəyov, Xəlil bəy İsrafilov, Xəlil bəy Talışxanov, Həbib bəy Səlimov, Süleyman bəy Əfəndiyev, Mənsur Mirzə Qacar, Əsəd bəy Talışxanov, Əmənulla Mirzə Qacar, Seyfulla Mirzə Qacar, Cəlal bəy Sultanov və onlarca digərləri XX əsrin əvvəllərində artıq kifayət qədər zəngin təcrübəyə malik zabitlər idilər.

XIX əsrin sonlarından Rusiya ordusunda xidmətə başlamış Hüseyn xan Naxçıvanski, Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski kimi zabitlərin formalaşma dövrü də XX əsrin əvvəllərinə təsadüf edir. Bu generalların hər üçü sərkərdəlik və təşkilatçılıq qabiliyyətini zəngin biliklərlə üzvi surətdə birləşdirən, xidməti vəzifələrin icrasına qarşı prinsipiallığı və tələbkarlığı ilə fərqlənən zabitlər idilər və bunun nəticəsi idi ki, hələ Rusiya ordusu sıralarında onlar yüksək vəzifələrə və rütbələrə layiq görülmüşdülər.

Hüseyn xan Naxçıvanski dəyərli hərbi ənənələri olan Naxçıvanskilər nəslinə mənsub olmaqla general-mayor Kəlbalı xan Naxçıvanskinin oğlu idi. 1863-cü ildə anadan olan Hüseyn xan gənc yaşlarından zabitlik peşəsinə yiyələnməyi qarşısına məqsəd qoymuşdu və bu peşəyə yiyələnmək üçün Peterburqdakı Paj korpusuna daxil olmuşdu. Paj korpusunu bitirən Hüseyn xan 1883-cü ildə kornet (leytenant) rütbəsinə layiq görüldü və leyb-qvardiya atlı alayında xidmətə başladı. Xidmətin ilk illərindən Hüseyn xan zəhmətsevərliyi ilə bərabər, həm də hərbi istedadı ilə də özünü tanıda bildi. Əldə etdiyi nəticələr qısa müddətdə daha yüksək hərbi rütbələrə və hərbi vəzifələrə nail olmağa yol açdı. 1884-cü ildə podporuçik, 1887-ci ildə poruçik, 1894-cü ildə ştabs-rotmistr, 1898-ci ildə rotmistr, 1903-cü ildə isə polkovnik rütbəsinə layiq görüldü. Onun xidmət həyatı süvari hissələri ilə bağlı idi. 1886-cı ildən etibarən Hüseyn xan 43-cü Tver draqun alayında xidmətini davam etdirdi, sonradan eskadron komandiri, alay komandirinin müavini, alay məhkəməsinin sədri oldu. 1904-cü ildə ona 2-ci Dağıstan atlı alayının formalaşdırılması tapşırıldı və sonra da o, bu alayın komandiri təyin edildi. 1904-cü ilin sonlarından isə Qafqaz

atlı briqadasına rəhbərlik ona tapşırıldı. Rusiya–Yapon müharibəsinin başlanmasına kimi Hüseyn xan Naxçıvanski Müqəddəs Stanislav ordeninin 3-cü və 2-ci dərəcəsi ilə, Müqəddəs Anna ordeninin 3-cü dərəcəsi ilə, Müqəddəs Aleksandr ordeninin 4-cü dərəcəsi ilə, İranın «Şir və Günəş» ordeninin 2-ci dərəcəsi ilə, Bolqarıstanın «Hərbi xidmətlərinə görə» ordeninin 3-cü dərəcəsi ilə təltif edilmişdi (32).

Əliağa İsmayıl oğlu Şıxlinski isə 1865-ci ildə Qazax qəzasının Qazaxlı kəndində anadan olmuşdu. Atası övladlarının təhsil almasına və savadlanmasına ciddi fikir verirdi. Bunun nəticəsi idi ki, o, Əliağanı da hələ uşaq yaşlarında oxumaq üçün Tiflisə göndərmişdi. 1875-ci ildə o, Tiflisdəki xüsusi gimnaziyaya daxil oldu. 1876-cı ildə isə Tiflisdəki hərbi gimnaziyada təhsilini davam etdirdi və 1883-cü ildə həmin gimnaziyanı ən yüksək ballarla bitirdi. 1883-cü ildə Əliağa Şıxlinski Peterburqdakı Mixaylovsk topçu məktəbinə daxil oldu. Burada da Əliağa Şıxlinski yüksək savadını və istedadını nümayiş etdirdi, məktəbin ən yaxşı yunkerləri arasında özünə yer tutdu. 1886-cı ildə Mixaylovsk topçu məktəbini ən yüksək qiymətlərlə bitirən Əliağa Şıxlinski Qafqazın Aleksandropol şəhərində yerləşən 39-cu topçu briqadasına təyinat aldı. Briqadada o, təlim komandasına müəllim təyin edildi. Topçuluq üzrə yüksək savada və elmi biliklərə malik olduğunu nümayiş etdirdiyi üçün 1894-cü ildə onun vəzifəsi artırıldı və Ə.Şıxlinski briqadanın təlim komandasının komandiri təyin edildi. Təlim briqadasında yüksək vəzifələrə irəli çəkilməyin bütün çətinliklərinə baxmayaraq, Ə.Şıxlinskinin istedadı və bacarığı yuxarı komandanlığın nəzərindən qaçmadı. Briqadaya təftişə gələn zabitlər də Ə.Şıxlinskinin rəhbərliyi altında gənc zabitlərin yüksək səviyyədə hazırlaşdırıldığının şahidi oldular. Adı çəkilən briqadada Ə.Şıxlinski 1900-cü ilə qədər xidmət etdi. Bu briqadada xidməti zamanı yüksək nailiyyətlərinə görə III dərəcəli Stanislav ordeni, III dərəcəli Anna ordeni ilə təltif edildi, 1888-ci ildə poruçik, 1894-cü ildə ştabs-kapitan və 1898-ci ildə kapitan rütbələrinə layiq görüldü (33).

1900-cü ilin fevral ayında Ə.Şıxlinskinin əlahiddə Zabaykal topçu divizionuna təyin olunması haqqında əmr imzalandı. O, bu-

rada birinci batareyanın baş zabiti təyin edilmişdi. Ə.Şıxlinskinin S.Mehmandarovla xidmət yolu da ilk dəfə burada kəsişməyə başladı. Həmin vaxt S.Mehmandarov divizionun ikinci bataree-yasının komandiri idi və onların tez-tez görüşmək imkanı olurdu. Xidmətə yüksək məsuliyyətlə yanaşdığı üçün Ə.Şıxlinskiyə bir sıra əlavə ictimai vəzifələr də tapşırılmışdı. Məsələn, o, zabit iclası komitəsinin sədri, briqada məhkəməsinin üzvü, zabitlər cəmiyyəti məhkəməsinin üzvü və s. kimi vəzifələri də icra edirdi. Bunlardan başqa, Ə.Şıxlinski müxtəlif vaxtlarda batareya və di-vizion komandirinin vəzifələrini də icra etmişdi. Zabaykal divi-zionuna gələn kimi Ə.Şıxlinski döyüş tapşırıqlarının yerinə yetiril-məsi tapşırığını aldı. Belə ki, 1900-cü ildə Çində «Boksyor üsya-nı» adlandırılan bir xalq üsyanı baş verdi. Çar rejimi bu üsyanın genişlənməsinin və ətrafa yayılmasının qarşısını almaq üçün hərbi qüvvədən istifadə edilməsi əmrini verdi. Bu üsyanın yatırılmasın-da iştirak etsə də, sonralar Ə.Şıxlinski xalqın tələblərinə hörmətlə yanaşılmasının vacibliyini qeyd edirdi.

1900-cü il oktyabrın 20–27-si arasında Ə.Şıxlinskiyə yeni bir döyüş tapşırığının icrası tapşırıldı. Həmin tapşırığa əsasən Ə.Şıxlinski çətin döyüş şəraitinə düşmüş hərbçilərə yardım etməli idi. Ə.Şıxlinskinin rəhbəri olduğu dəstə bu döyüş tapşırığını da layiqincə yerinə yetirdi. Bu kimi vəzifələrin icrasında və xidmətin təşkilində özünəməxsus peşəkarlıq nümayiş etdirdiyi üçün Ə.Şıx-linski 1901-ci ilin may ayında Stanistal ordeninin ikinci dərəcəsi ilə təltif edildi. 1902-ci ilin may ayından isə Ə.Şıxlinskiyə S.Meh-mandarovun yerinə divizionun ikinci batareyasına komandirlik et-mək tapşırıldı. S.Mehmandarovun uzunmüddətli məzuniyyətdə və sonra isə Peterburqdakı zabitlər kursunda olması ilə əlaqədar olaraq, təxminən ilyarım Ə.Şıxlinski onun vəzifəsini icra etdi. Bu vəzifənin öhdəsindən də Ə.Şıxlinski bacarıqla gəldi. S.Meh-mandarovun olmadığı dövrdə ikinci batareyanın hərbi hazırlıq səviyyəsi xeyli qaldırılmış, xidmətin təşkili təkmilləşdirilmişdi. S.Mehmandarov geri qayıtdıqdan sonra Ə.Şıxlinski həmin bata-reyada qaldı. Batareyanın baş zabiti vəzifəsini icra etməklə Ə.Şıx-linski yeni gələn əsgərlərin hərbi hazırlığının artırılması ilə xüsusi məşğul olurdu (34).

1904-cü ildə Ə.Şıxlinskinin hərbi xidmətinin Port-Artur dövrü başlayır. Bu müharibədə Azərbaycan hərbçilərinin ən görkəmli nümayəndələrindən Səməd bəy Mehmandarov da iştirak edirdi. Həmin müharibənin başlanmasına qədər Səməd bəy də zəngin və sınaqlarla dolu bir xidmət yolu keçmişdi. 1855-ci il oktyabrın 16-da Lənkəranda anadan olmuş Səməd bəy ilk təhsilini Bakıdakı Əddadiyə (realnı) məktəbində almışdı. Buradakı təhsili zamanı rus dilini kifayət qədər dərindən öyrənmiş və bununla da gələcək təhsilini Rusiyanın ali məktəblərində davam etdirmək üçün zəruri bir şərti yerinə yetirmişdi. Bakıdakı təhsil dövrü gənc Səməd bəyin dünyagörüşünün formalaşmasında həlledici təsirə malik olmuşdu. Məhz burada oxuyarkən o, təhsilini Rusiyada davam etdirməyi, özü də hərbçi olmağı qərara aldı.

Beləliklə, Səməd bəy Mehmandarov 1873-cü ildə Peterburqa yollanaraq Konstantin hərbi məktəbinə daxil oldu. Həmin məktəbi bitirərək ilkin zabit rütbəsi olan praporşik rütbəsini alan Səməd bəy 1875-ci ildə 1-ci Türküstan topçu briqadasının 3-cü batareyasında xidmətə başladı. Zabit həyatının ilk sınaqları ilə də Səməd bəy burada rastlaşdı. Xidməti və fəaliyyəti ilə bu peşəyə olan marağını və qabiliyyətini sübut etdi. Onun az vaxtdan sonra növbəti rütbəyə layiq görülməsi də bunu təsdiq edir.

Səməd bəyin xidmət etdiyi briqada 1876–78-ci illərdə çar Rusiyasının Orta Asiyaya qarşı işğalçılıq planlarının həyata keçirilməsində iştirak edirdi. Səməd bəy bu kampaniyada ilk dəfə hərbi əməliyyatlara qatılmış, ona və onun batareyasına həvalə olunmuş vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdi. Bu xidmətlərinə görə o, üçüncü dərəcəli Stanislav ordeni ilə təltif edilmişdi (35).

XIX əsrin sonuna kimi olan dövrü Səməd bəy Mehmandarovun xarakterinin tam formalaşması, zabit və insani görüşlərinin bütövləşməsi, seçdiyi peşəyə münasibətin saflaşması və sabitləşməsi dövrü kimi də xarakterizə etmək olar. Həmin dövr ərzində onun cavanlıq çılğınlığı ilə həyat müdrikliyi üz-üzə durmuşdu. Ancaq rastlaşdıqları, mütaliələri onu günü-gündən insani prinsipiallığa doğru istiqamətləndirirdi. Zabit tələbkarlığı ilə insani keyfiyyətləri üzvi şəkildə birləşdiyi üçün idi ki, 1879-cu ildən

etibarən xidmət etdiyi 2-ci topçu briqadasında onu zabit məhkəməsinin üzvü seçmişdilər. Burada o, səhv etmiş, çıxılmaz vəziyyətə düşmüş həmkarlarına mümkün olan qayğını göstərməklə bərabər, onlara qarşı tələbkar mövqe tutmaqdan da çəkinmirdi.

1885-ci ildə S.Mehmandarov 38-ci topçu briqadasına təyin edildi. Bu briqada Qafqazda yerləşirdi. 1894-cü ildə isə o, Varşava hərbi dairəsinə göndərildi və burada da topçu hissələrində xidmətini davam etdirdi. 1898-ci ildə Səməd bəy 3-cü atıcı-topçu divizionunun batareya komandiri təyin edildi. Elə həmin ildə S.Mehmandarov komandiri olduğu batareya ilə birlikdə Zabaykalye bölgəsinə köçürüldü. S.Mehmandarov 1876-cı ildə podporuçik, 1877-ci ildə poruçik, 1882-ci ildə ştabs-kapitan, 1890-cı ildə kapitan,1898-ci ildə isə podpolkovnik rütbəsinə layiq görüldü. Həmin müddət ərzində Müqəddəs Stanislav ordeninin 3-cü dərəcəsi ilə (1876), Müqəddəs Anna ordeninin 3-cü dərəcəsi ilə (1881), Müqəddəs Stanislav ordeninin 2-ci dərəcəsi ilə (1891), Müqəddəs Anna ordeninin 2-ci dərəcəsi ilə (1896) və Müqəddəs Vladimir ordeninin 4-cü dərəcəsi ilə (1899) ilə və medallarla təltif edilmişdi (36).

Xidmət illərində S.Mehmandarov Azərbaycanla da əlaqəsini kəsmirdi, Azərbaycan xalqının ictimai həyatı ilə sıx əlaqə saxlayırdı. Rusiyanın elmi-texniki tərəqqisi, qabaqcıl fikirləri ilə az-çox tanış olan Səməd bəy öz xalqının, ümumən, müsəlman xalqlarının cəhalətdə saxlanılmasını ürək ağrısı ilə qəbul edirdi. Maraqlıdır ki, Səməd bəy bu istiqamətdəki fikir və düşüncələrini ümumiləşdirərək mətbuat səhifələrində çap etdirirdi. Həmin yazılardan görünür ki, Səməd bəy Azərbaycandan uzaqlarda olmasına baxmayaraq, Azərbaycanın ictimai fikrini narahat edən məsələlərin müzakirəsində fəallıqla iştirak edirdi. Özü də o, ictimai fikirdə canlanmaya səbəb olan bir sıra maraqlı təkliflər və mülahizələr irəli sürmüşdü. Ancaq nəzərə almaq lazımdır ki, həmin mülahizələr Səməd bəyin xarakterinin və şəxsiyyətinin ilkin formalaşma dövrünün məhsulları idi və sonralar da həmin fikirlərin üzərində qaldığını iddia etmək olmaz. Bütünlükdə, publisistikaya meyl S.Mehmandarovun gənclik dövrünə aiddir.

Tədqiqatçılar S.Mehmandarovun məqalələrində öz əksini

tapmış fikirləri maarifçilik ideyaları kimi qiymətləndirərək bu ideyaların təbliği sahəsində onu R.Əfəndiyev, P.Vəlibəyov, T.Bayraməlibəyov, F.Köçərli, Ə.Cavanşir və digər ziyalılarla bir sıraya qoymuşdu. Bu da XIX əsrin sonunda Azərbaycanın ictimai fikir həyatında S.Mehmandarovun yerini göstərirdi (37).

S.Mehmandarovun bu dövrdə yazdığı məqalələri Tiflisdə nəşr olunan «Novoye obozreniye» qəzetində çap olunurdu. Bu qəzetdə onun ilk məqaləsi 1892-ci ildə çap olunmuşdu. Həmin məqalə «Müsəlmanların geriliyinin səbəbləri» adlanırdı. 1894-cü ildə bu qəzetdə onun daha üç məqaləsi çap olundu. Onlar «Nə etməli?», «İbtidai qiraət dərsləri» və «Müsəlman mühafizəkarlığı əleyhinə» adlanırdılar. Bunlardan başqa, S.Mehmandarovun «Novorossiy-skiy teleqraf» qəzetində də yazıları dərc olunurdu. Eyni zamanda onun İsmayıl bəy Qasparlının təsisçisi və redaktoru olduğu «Tərcüman» qəzetində də yazılarının çap olunduğu güman edilir. Çünki S.Mehmandarovun qaldırdığı məsələlər bu qəzetdə də geniş müzakirələrə səbəb olmuşdu.

«Müsəlmanların geridə qalmasının səbəbləri» adlı məqaləsinin məzmununu müsəlmanların geridə qalmasının səbəbləri barədə mülahizələr təşkil edirdi. Səməd bəyin bu məsələ ilə bağlı özünə-məxsus fikirləri var idi və heç şübhəsiz ki, həmin fikirlər Rusiya-nın ictimai həyatında rastlaşdığı elmi dəyərlərin təsiri altında for-malaşmışdı. S.Mehmandarov bu məsələ ilə bağlı nəzərlərini bir növ Avropaya dikir və orada dini ehkamçılığın şərqdəki qədər güclü olmadığını, onun ictimai bəlaya çevrilmədiyini və nəticədə ictimai tərəqqiyə əngəl olmadığını ifadə etməyə çalışırdı. Buna görə də S.Mehmandarov bir tərəfdən müsəlman xalqlarını bürü-müş olan cəhalətə, fanatizmə qarşı çıxış edir, digər tərəfdən də təhsilin və maarifin davam etdirilməsini, xalq arasında elmi bilik-lərin və ona marağın artırılmasını zəruri bilirdi. Səməd bəy təkcə oğlanların deyil, qızların da təhsilə, maarifə cəlb edilməsini vacib sayırdı və onun fikrincə, bu yolla geriliyin aradan qaldırılmasına nail olmaq olardı.

Bu fikirlərində S.Mehmandarov doğrudan da özünü maarifçi kimi göstərir və ictimai tərəqqinin əldə edilməsində maarifçiliyi başlıca yol sayırdı. Bununla belə, Səməd bəy islam dəyərlərinin

üzərindən də heç də tamamilə xətt çəkmirdi. Ancaq o, bu dəyərlərlə mövhumatın və ehkamçılığın arasındakı sərhədin düzgün müəyyənləşdirilməsinə çağırırdı.

1894-cü ildə Səməd bəy Mehmandarov artıq Varşava hərbi dairəsində xidmət edirdi. «Novoye obozreniye» qəzetində çap olunan məqalələrin də burada yazıldığı güman olunur. Lakin bu barədə qəti bir fikir söyləmək çətindir.

S.Mehmandarov burada da özünü savadlı, qabiliyyətli və işgüzar zabit kimi tanıtdıra bilmişdi. Həmin keyfiyyətləri nəzərə alınaraq Səməd bəy həm qarnizon zabit məhkəməsinin, həm də dairə hərbi məhkəməsinin üzvü seçilmişdi. Bu xidmət illəri həm də ildən-ilə Səməd bəyin peşəkarlığını artırırdı.

Yeni əsrin əvvəllərində Səməd bəy artıq Zabaykal əlahiddə topçu divizionunda xidmət edirdi. Komandiri polkovnik Şivilin olan bu divizion iki batareyadan ibarət idi. Birinci batareyaya podpolkovnik Engelman, ikinci batareyaya isə podpolkovnik Səməd bəy Mehmandarov komandirlik edirdi. Yuxarıda deyildiyi kimi, elə bu diviziondakı xidməti zamanı Səməd bəylə Əliağa Şıxlinskinin həyat yolları kəsişmişdi. Ə.Şıxlinski də Zabaykal divizionuna təyin edilmişdi. Ancaq o, Səməd bəyin batareyasında deyil, birinci batareyada xidmət edirdi.

Zabaykal divizionunda xidmət edərkən Səməd bəy yenidən hərbi əməliyyatlarda iştirak etdi. 1899–1901-ci illərdə Çində baş verən antiimperialist üsyanlar bir sıra böyük dövlətləri ciddi təşvişə salmışdı. Ona görə də birgə səylərlə bu üsyan yatırıldı. Üsyanın yatırılmasında Amerika, İngiltərə, Fransa, Almaniya, İtaliya, Yaponiya, Avstriya-Macarıstanla birlikdə Rusiya da yaxından iştirak edirdi. Həmin təhlükəni elə yerindəcə məhv etmək üçün Çin ərazisinə hərbi qüvvə göndərilməsi qərara alındı. Bunun üçün xüsusi dəstə yaradıldı və general-mayor Rennenkampf onun komandanı təyin edildi.

Zabaykal topçu divizionu da bu dəstənin tərkibinə daxil edilmişdi. Divizion 1900-cü il iyunun əvvəllərində döyüş bölgəsinə doğru hərəkətə başladı. Sretenskə qədər divizion qatarla hərəkət etdi. Oradan isə divizion və bir sıra piyada bölmələri ilə birlikdə üç çay gəmisinə mindirildi və yola salındı.

Amur çayı ilə hərəkət zamanı hərbi qüvvələrə, o cümlədən də S.Mehmandarovun batareyasına verilən ilk tapşırıq sağ sahildəki Maxo şəhərinin tərk-silah edilməsi oldu. Burada tərəflər arasında başlanan döyüş elə də uzun çəkmədi. Çin üsyançıları anladılar ki, onların rus qoşunlarına müqavimət göstərəcək qədər qüvvələri yoxdur. Ona görə də şəhəri tərk edərək geri çəkildilər.

İyul ayının 19-da Blaqoveşşensk şəhəri də ələ keçirildi. Rus qoşunlarının rəhbərliyi silahlı üsyançıları döyüşə cəlb edərək məhv etmək istəyirdi. Ancaq bunun üçün elə bir çevik taktika nümayiş etdirə bilmirdi. Qoşunlar hər hansı bir yaşayış məntəqəsinə çatanda ona döyüş düzülüşü almaq, mövqe tutmaq əmri verilirdi. Bu əmr yerinə yetiriləna kimi Çin üsyançıları məntəqəni tərk edə bilirdilər.

Qoşunlar Blaqoveşşenskdə dayanarkən general Rennekampf 400 kazakla və S.Mehmandarovun batareyasından olan iki ədəd topla bərabər, irəli hərəkət etdi. Bu qüvvə Zürə çayında bir üsyançı dəstəni məğlub edərək Kiçik Xinqan dağının ətəklərində yeni bir döyüşə girmişdi. Ancaq burada məlum oldu ki, arxadan topçu qüvvələri və süvari bölmələri gəlməsə, üsyançıların müqavimətini qırmaq mümkün olmayacaqdır. Belə olanda arxada qalan qüvvələrdən S.Mehmandarovun batareyası bütünlüklə, birinci batareyanın bir hissəsi və bir süvari taboru Rennenkampfın köməyinə yollandı.

Avqustun 3-də üsyançılarla növbəti döyüş baş verdi. Bu döyüşdə S.Mehmandarovun batareyası da iştirak etməli idi. Döyüş zamanı onun batareyasının etibarlı və üsyançıların görə bilməyəcəyi mövqelərdə gizlədilməsi qərara alındı və bunun üçün yaxınlıqdakı meşələr seçildi. Üsyançılar əvvəlcədən güman ediblərmiş ki, rus toplarının gizlədilməsi üçün həmin ağaclıq ən münasib yerdir və ona görə də oranı minalayıblarmış. S.Mehmandarovun batareyası ora yaxınlaşanda güclü partlayış baş verdi və nəticədə batareyanın dörd atı və iki əsgəri həlak oldu.

Bir neçə gündən sonra qoşunlar Tsitsikara şəhərinə yetişdilər. Döyüşə başlamamışdan əvvəl general-mayor Rennenkampf çinli general Şeunun yanına adam göndərərək şəhər qapılarının açılmasını və təslim olmalarını tələb etdi. Ancaq çinli general bu

tələblə razılaşmadı. Onda Rennenkampf şəhəri mühasirə etmək və oradakı silahlı dəstələri məhv etmək barədə əmr verdi. Bu barədə S.Mehmandarova da göstəriş verildi. Səməd bəyin batareyası ilə bərabər, iki süvari bölüyü dolama yolla şəhərdən çıxmağa cəhd göstərən üsyançıların qarşısını almalı idi. Görünür, üsyançılar müqavimət göstərməyin mənasızlığını anlamışdılar. Ona görə də onların çoxu silahı ataraq şəhərdən çıxmağa çalışırdılar. S.Mehmandarov da təyin olunan yerdə məhz silahsız üsyançılarla rastlaşmışdı və buna görə də onların hərəkətinə mane olmaq fikrində deyildi. Rennenkampf bunu eşidib hirsləndi və S.Mehmandarova əmr etdi ki, üsyançılara atəş açsın. Ə.Şıxlinski xatirələrində bu hadisə ilə bağlı yazırdı: «Çin qoşunları silahsız olaraq Mehmandarovun yanından ötüb keçirdilər. Rennenkampf Mehmandarova əmr etdi ki, onlara atəş açsın. Mehmandarov isə cavab verib dedi ki, silahsız adamlara o, atəş aça bilməz. Lakin bunun ardınca ikinci bir əmr gəldi. Bu əmrdə deyilirdi ki, əgər komandir bu əmri yerinə yetirməsə, məhkəməyə veriləcəkdir.

Mehmandarov silahsız çinlilərin başı üstündə bir neçə dəfə atəş açdırdı. Çinlilər dərhal qayıtdılar» (38).

Çin ərazisində verilən döyüş tapşırıqlarının icrası, S.Mehmandarovun göstərdiyi yüksək peşəkarlıq və məharət yuxarı komandanlıq tərəfindən layiqincə qiymətləndirildi və o, 3-cü dərəcəli Vladimir ordeni ilə təltif edildi.

Döyüş tapşırıqları yerinə yetirildikdən sonra S.Mehmandarovun komandir olduğu ikinci batareya Xarbin qarnizonunda saxlanıldı. 1902-ci ildə Səməd bəy artıq polkovnik rütbəsində idi. Həmin ilin may ayında o, məzuniyyətə buraxılması barədə yuxarı komandanlıq qarşısında vəsatət qaldırdı. Bu vəsatət müsbət qarşılandı və ona altı aylıq məzuniyyət verildi. S.Mehmandarov öz məzuniyyətini Peterburqda keçirdi. Elə məzuniyyət dövründə də Jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə həyatı qurdu (39).

Məzuniyyət müddəti bitdikdən sonra S.Mehmandarov zabit topçu kurslarına göndərilməsini xahiş etdi. Səməd bəyin bu xahişi də qəbul olundu və məzuniyyətdən sonra yeddi ay da topçu kurslarında təhsil aldı. Özünə tələbkarlıqla yanaşan S.Mehmandarov topçuluq sahəsində qabaqcıl elmi-texniki nailiyyətlərə yiyələn-

mədən hərtərəfli zabit kimi yetişə bilməzdi. Buna görə də S.Mehmandarov topçuluğun taktiki-texniki imkanlarını, mövqe döyüşlərində topların zərbə qüvvəsindən istifadə edilməsi taktikasını, möhkəmləndirilmiş mövqelərin müdafiəsi zamanı piyada ilə topçu qüvvələrinin qarşılıqlı fəaliyyətini dərindən öyrənirdi. XX əsrin əvvəllərində rus ordusunun istifadəsinə verilmiş üçdüyməli toplar, minaatanlar, haubitsalar, habelə topların müxtəlif növləri S.Mehmandarov tərəfindən kifayət qədər peşəkarlıqla öyrənilmişdi. Səməd bəy bütünlükdə topçuluğun döyüşdə istifadəsində çox geniş əməli vərdişlər əldə etdi və ona görə də mahir bir topçu kimi hörmət və ehtiram qazandı.

1903-cü ilin noyabrında yenidən geri – öz batareyasına qayıdanda onun həyatında böyük dəyişikliklər baş vermişdi. Əvvəla o, ailə həyatı qurmuşdu, sonra təhsil alaraq nəzəri və praktiki biliklərini təkmilləşdirmişdi. Hissədə isə onu başqa bir sevinc gözləyirdi. Çin ərazisindəki döyüşlərə görə S.Mehmandarov üzərində «İgidliyə görə» sözləri yazılmış Qızıl qılıncla mükafatlandırıldı.

Yuxarıda deyildiyi kimi, S.Mehmandarov Peterburqda olarkən onun batareyasına komandanlıq etmək Əliağa Şıxlinskiyə həvalə olunmuşdu. Səməd bəy geri qayıdandan sonra Ə.Şıxlinski gördüyü işlər barədə ona məlumat verdi və pul qalığını, habelə onun qəbul edilməsi barədə aktları təqdim etdi. Ə.Şıxlinskinin təmizliyinə əmin olan Səməd bəy pul qalığını saymadan aktlara qol çəkdi. Onun Ə.Şıxlinskiyə bu dərəcədə etibar etməsi ətrafındakıları təəccüb içərisində qoymuşdu. Ə.Şıxlinski həmin hadisəni öz xatirələrində bu cür təsvir edirdi: «1903-cü ilin noyabrında Mehmandarov öz hissəsinə qayıtdı. Həyata keçirdiyim bütün tədbirlərimlə tanış olaraq çox razı qaldı. Tədbirlər isə bunlardan ibarət idi: bizim kiçik hissəmizdə qənaət edilmiş xeyli pul vardı, yuxarı idarələr bu pulları bizim əlimizdən ala bilərdilər. Mən bu pulun bir hissəsini öz batareyamız üçün xərcləyib bütün topların və arabaların atları üçün qoşqu ləvazimatı aldırmış, sonra bütün şəxsi heyət üçün bahalı, çox isti yorğanlar gətirtmişdim. Moskvada hazırlanmış gözəl bir fayton və s. almışdım. Bu faytonun özünün akkumulyatoru, elektrik fənəri var idi. Bunların hamısına

21 min manat xərcləmişdim. 17 min manatımız yenə qalırdı.

Mehmandarov batareyanı qəbul etdi, bütün dəftərlərdə və pulun qəbul edilməsi aktında qol çəkdi, amma pulları saymadı. Mən təəccüb edərək pulları niyə saymadığını soruşduqda gülümsəyərək:

– Siz ki saymısınız, mənim saymağa ehtiyacım yoxdur – deyə cavab verdi.

Mehmandarov həmişə kefi saz olanda etdiyi kimi indi də şapkasını yan qoyaraq açarı cibinə saldı və evinə getdi. Kiçikrütbəli yoldaşlarım bu işə çox təəccüb etmişdilər, çünki komandirlərimizin dövlət pulu üçün necə can yandırdığını yaxşı bilirdilər. Mən onlara başa saldım ki, Mehmandarov kimi adamlar bir adama bir dəfə inandılarmı, hər cəhətdən inanarlar, məni isə Mehmandarov 1888-ci ildən tanıyır» (40).

### *3. Azərbaycanlı zabitlərin Port-Artur döyüşlərində iştirakı*

1904-cü il yanvar ayının sonlarında Port-Artur ətrafında başlayan rus-yapon müharibəsi Rusiya ordusu sıralarında xidmət edən azərbaycanlı zabitlərin böyük bir dəstəsi üçün ilk döyüş məktəbi oldu və bu müharibədə onlar zəngin döyüş təcrübəsinə yiyələndilər. Həmin zabitlər arasında Səməd bəy Mehmandarov, Hüseyn xan Naxçıvanski, Əliağa Şıxlinski, Əmir Kazım Mirzə Qacar, Feyzulla Mirzə Qacar, Əsəd bəy Talışınski, Əliqulu Mirzə Qacar, İlyas bəy Ağalarov, İbrahim ağa Usubov, Gəray bəy Vəkilov, Ağababa Sadıqov, Zülfüqar bəy Bağırbəyov, Kərim bəy Novruzov, Davud bəy Yadigarov və başqaları var idi (41).

Hüseyn xan Naxçıvanski bu döyüşdə könüllü olaraq iştirak etmək arzusunda olmuşdu. Rusiya sarayına yaxın əlaqələri olmasına baxmayaraq, onun paytaxtdan uzaqlaşmaq arzusuna müsbət yanaşılmış və Rusiya imperatoru tərəfindən ona 2-ci Dağıstan atlı alayının formalaşdırılması tapşırılmışdı. Məlumdur ki, H.Naxçıvanski sonradan həmin alayın komandiri təyin edildi və həmin alayla da rus–yapon müharibəsinə yollandı. O öz alayı ilə 1904-cü ilin yayından etibarən Mancuriyada aparılan döyüşlərə qoşuldu.

Avqust ayının ikinci yarısında Lyaoyan yaxınlığındakı döyüşlərdə H.Naxçıvanskinin rəhbərlik etdiyi alay həvalə olunan tapşırıqları uğurla yerinə yetirdi və bu döyüşə görə H.Naxçıvanski Müqəddəs Anna ordeninin 2-ci dərəcəsinə layiq görüldü. Sonrakı aylarda Hüseyn xan Naxçıvanski «Şaxey» adı ilə tanınan döyüşdə (sentyabrın sonu–oktyabrın əvvəli), oktyabrın ortalarında Xalan-Toza və Yantayszı kəndləri ətrafındakı döyüşlərdə, dekabr ayında Kalixe və İnkoy kəndləri ətrafındakı döyüşlərdə iştirak etdi. Rus–yapon müharibəsinin son günlərində Hüseyn xan Naxçıvanski komandirlik etdiyi atlılarla gərgin döyüşlərdə iştirak etdi və Rusiya qoşunlarının ümumi uğursuzluqlarına baxmayaraq, həvalə olunmuş tapşırıqları lazımınca yerinə yetirdi. Bu döyüşlərdə əldə etdiyi uğurlarına görə Hüseyn xan Rusiyanın 5 yüksək ordeninə, o cümlədən Müqəddəs Georgi ordeninin 4-cü dərəcəsinə layiq görüldü (42).

Landunqau kəndi ətrafında yapon qoşunlarının mövqeləri üzərinə həyata keçirdiyi sürətli və səmərəli hücuma görə Hüseyn xan 1907-ci ildə Rusiyanın ali hərbi mükafatı olan Müqəddəs Georgi ordeninin 4-cü dərəcəsinə layiq görüldü. Təqdimat sənədlərində bildirilirdi ki, Hüseyn xan çətin vəziyyətdə qərar tutan 1-ci Zabaykalye kazak batareyasının müdafiəsinin təmin edilməsi üçün belə bir döyüşü həyata keçirmək tapşırığı almışdı. Adı çəkilən batareya bütün sursatını işlətdikdən sonra onun yaponlar tərəfindən məhv edilmək təhlükəsi ilə qarşılaşmışdı. Hüseyn xan tapşırığı yerinə yetirmək üçün komandirlik etdiyi alayla yaponların cinahına zərbə endirdi və çevik manevrlə yaponları məcbur etdi ki, müdafiə mövqeyinə keçsinlər. Sonradan yaponlar qüvvələrini cəmləşdirərək Hüseyn xanın atlılarını atəşə məruz qoysalar da, bu atlılar çətin vəziyyətdə olan batareyanı ağır vəziyyətdən qurtara bildilər (43). Hüseyn xan Naxçıvanskinin komandiri olduğu 2-ci Dağıstan atlı alayının tərkibində digər bir azərbaycanlı zabit Feyzulla Mirzə Qacar da rus–yapon müharibəsində iştirak etmişdi. O, bu alayın bölük komandiri idi. Döyüşlərin birində yaralansa da, bütünlükdə göstərdiyi şücaətə görə Rusiyanın üç ordeni ilə təltif edildi və müharibənin sonlarına yaxın yasavul rütbəsinə layiq görüldü (44).

Rus-yapon müharibəsi Səməd bəy Mehmandarovla Əliağa Şıxlinskinin də xidmət həyatında xüsusi bir yerə malikdir. Çünki həmin müharibənin gedişində bu zabitlərin hər ikisi hərbçi istedadını və təşkilatçılıq qabiliyyətini daha əyani şəkildə nümayiş etdirdilər və bu keyfiyyətlərini daha da zənginləşdirdilər. Rus-yapon müharibəsi Rusiya tarixşünaslığında haqqında ən çox yazılan müharibələrdən biridir. S.Mehmandarov bu müharibə ilə bağlı əsərlərdə igid, qorxmaz, istedadlı, digərlərinə nümunə olacaq bir zabit kimi təsvir edilmişdir. Bütün əsərlərdə o, prinsipiallığı təmsil edən zabit kimi göstərilmişdir. Onun ən ağır vaxtlarda əsgərlərlə dil tapması, onları səfərbərliyə ala bilməsi və onlara qayğısı da zabitliyə məxsus olan ən müsbət keyfiyyətlər kimi qabardılmışdır.

Port-Artur qalasının qurudan müdafiəsini 4-cü Şərqi Sibir diviziyası ilə 7-ci Şərqi Sibir diviziyası təmin edirdilər. Bunlardan əlavə, döyüş bölgəsində 5-ci Şərqi Sibir alayı, 3-cü Şərqi Sibir diviziyasının kiçik bölmələri, habelə iki sərhəd bölməsi olsa da, əsas ağırlıq adları çəkilən diviziyaların üzərinə düşmüşdü. Səməd bəy Mehmandarov 7-ci Şərqi Sibir diviziyasının tərkibində idi. Bu diviziyanın yaradılması barədə 1903-cü ilin iyununda əmr verilmişdi. Əslində ilk vaxtlar tərkibində dörd alay, üç topçu batareyası və bir istehkam taboru olan briqadanın yaradılması və onun Kvantun yarımadasının müdafiəsinə cəlb edilməsi məqsədəuyğun bilinmişdi. 1904-cü ilin yanvar ayının 17-də 4-cü və 7-ci briqadaların diviziyaya çevrilməsi barəsində əmr imzalandı. 7-ci Şərqi Sibir diviziyası yeni yaradılmış bir birləşmə idi. Onun tərkibinə daxil olan alaylar Rusiyanın müxtəlif dairələrindən gətirilmişdi.

Qalanı müdafiə edəcək artilleriya qala və səhra toplarına bölünmüşdü. Qala topları ayrıca bir hissədə birləşdirilmişdi. Səhra topları isə piyada diviziyalarına verilmişdi. 1904-cü ilin yanvar ayının 22-də alınan əmrə müvafiq olaraq topçu hissələrə də tərkibinə daxil olduqları diviziyaların nömrələri verildi. 4-cü Şərqi Sibir diviziyasının tərkibində 4-cü Şərqi Sibir topçu briqadası, 7-ci diviziyanın tərkibində isə 7-ci Şərqi Sibir topçu divizionu yaradıldı. 4-cü Şərqi Sibir topçu briqadası 4 batareyadan ibarət idi. Onlardan ikisi S.Mehmandarovun və Ə.Şıxlinskinin xidmət etdik-

ləri Zabaykal divizionunun iki batareyası idi. Ə.Şıxlinski də 4-cü Şərqi Sibir topçu briqadasında xidmət edirdi.

Səməd bəy Mehmandarov isə yeni yaradılmış 7-ci Şərqi Sibir topçu divizionunun komandiri təyin edilmişdi (45). Bu divizionda üç batareya və 26 ədəd səhra topu var idi. Divizionun 1-ci və 2-ci batareyaları 37-ci topçu briqadasından alınmışdılar. Həmin batareyalar Port-Artura aprel ayının 3-də və 4-də gəlib çatmışdı. Divizionun 3-cü batareyası isə vaxtilə Port-Arturda yaradılmış topçu batareyası idi.

7-ci Şərqi Sibir piyada diviziyasının komandiri general-mayor R.İ.Kondratenko idi. General-mayor Kondratenko kifayət qədər prinsipial, vəziyyəti ayıq başla qiymətləndirməyi bacaran bir şəxs idi. Bütün tarixi ədəbiyyatda R.Kondratenko Port-Arturun müdafiəsində böyük zəhməti və rolu olan bir komandir kimi qiymətləndirilir.

S.Mehmandarovla general-mayor Kondratenko arasında çox işgüzar və mehriban münasibətlər mövcud idi. Onların birgə fəaliyyəti Port-Artur qarnizonunun müdafiə qabiliyyətini xeyli artırmışdı.

S.Mehmandarovun 7-ci Şərqi Sibir topçu divizionunun 1-ci batareyasına podpolkovnik Dobrov, 2-ci batareyasına podpolkovnik Skrıdlov, 3-cü batareyasına isə podpolkovnik knyaz Çxeidze komandirlik edirdi. Bu batareyalardan hər biri S.Mehmandarov üçün yeni batareyalar idi və əvvəldən onların heç biri ilə tanışlığı yox idi. Həmin batareyaların hansı döyüş potensialına malik olmasından da Səməd bəy xəbərsiz idi. Özü də divizionun müharibə şəraitində təşkili, 1-ci və 2-ci batareyaların isə yalnız aprel ayında onun sərəncamına gəlib çıxması şəxsi heyətin döyüş hazırlığı ilə məşğul olmaq imkanını çətinləşdirirdi. Ona görə də Səməd bəy Mehmandarov hər kiçicik imkandan istifadə edərək topçuların hazırlığını təkmilləşdirməyə, onlara döyüşkən əhval-ruhiyyə aşılamağa çalışırdı. Top mövqelərinin lazımi şəkildə hazırlanmaması isə topçuların vəziyyətini daha da çətinləşdirirdi. Cəbhə xətti boyu mövcud olan istehkam tikililərinin çoxu düşmən müşahidəsindən gizlədilməmişdi. Bir çox mövqelər və müşahidə məntəqələri müdafiə xəttindən kənarda qalmışdı.

Toplar çox vaxt yaxşı yerləşdirilmədiyindən yaxın ətrafı atəşə tuta bilmirdi, cinahlar isə çox vaxt topların atəşindən kənarda qalırdı. Bundan başqa bir sıra digər amillər də qoşunların və o cümlədən də konkret olaraq topçuların səmərəli fəaliyyətinə çətinlik yaradırdı. Bütün bunlar qoşunların şəxsi heyətindən daha artıq zəhmət və enerji tələb edirdi.

S.Mehmandarov da mövcud olan bu çətinliklərin, habelə silah və sursat çatışmazlığının əlavə çətinliklər kimi qarşıda dayandığını görürdü və divizionun şəxsi heyətini çətin vəzifələrin yerinə yetirilməsinə səfərbər etməyə çalışırdı. Qeyd etmək lazımdır ki, Səməd bəy buna nail ola bilmişdi. Onun topçuları igidlik və məharətdə Port-Artur döyüşlərində ad çıxarmışdı.

Port-Arturun müdafiəsi iki zonaya bölünmüşdü: Şərq və Qərb cəbhələri. Şərq cəbhəsi şimaldan Port-Artura gələn dəmir yolu xəttinin şərq tərəfini və Port-Arturun şimal-şərq ətəklərini əhatə edirdi. Qərb cəbhəsi isə dəmir yolu xəttindən qərbə olan əraziləri əhatə edirdi. Həmin cəbhəni 4-cü diviziya müdafiə edirdi. Ə.Şıxlinski də bu cəbhədə idi. Şərq cəbhəsini isə 7-ci diviziya müdafiə edirdi. Mehmandarovun divizionu da bu cəbhədə idi. Onlar başqa-başqa cəbhələrdə olduqları üçün az təmasda olmuşdular. Buna görə də Ə.Şıxlinskinin xatirələrində Port-Artur döyüşləri ilə bağlı S.Mehmandarovun adı çox az çəkilir. Buna baxmayaraq, onların görüşdüyü vaxtlar, habelə Səməd bəyin topçularının Qərb cəbhəsində döyüş tapşırıqlarını yerinə yetirdiyi vaxtlar da olurdu.

Port-Artur uğrunda quruda gedən gərgin döyüşlərin başlanması 1904-cü ilin aprel-may aylarına təsadüf edir. Özü də bu döyüşlər Port-Arturun ətrafında deyil, Kvantun yarımadasının şimalında başlamışdı. Məlumdur ki, bu döyüşlər ruslar üçün uğurla başlamadı. Bununla belə bölgədə mövqe döyüşləri iyul ayının ortalarına kimi davam etdi. Bu müddət ərzində tərəflərin heç biri ciddi uğur qazanmasalar da, üstünlük yaponların tərəfində qalmaqda davam edirdi və onların irəliyə hərəkətinin qarşısının alınmasında S.Mehmandarovun topçularının da böyük rolu var idi.

İyulun 13-də gedən döyüşlərdə S.Mehmandarovun toplarının susdurulması üçün yaponlar bütün imkanlarını sərf edirdilər. Onların səhra topları rus piyadalarına qarşı istiqamətləndiyi halda,

daha uzaq təsir sahəsinə malik olan 120 mm mühasirə topları Səməd bəyin toplarının susdurulması tapşırığı almışdılar. Yaponlar yaxşı anlayırdılar ki, irəliyə asanlıqla hərəkət etmək üçün Səməd bəyin toplarını neytrallaşdırmaq lazımdır. Lakin göstərilən bütün cəhdlərə baxmayaraq, yaponlar həmin gün Səməd bəyin toplarına ziyan yetirə bilmədilər. Çünki divizionun topları kifayət qədər etibarlı şəkildə gizlədilmişdi və bu məsələ Səməd bəyin xüsusi nəzarəti altında idi.

İyulun 14-də davam edən döyüşlərdə yaponların əsas hədəfi topçular idi. Sağ cinahda yerləşmiş olan S.Mehmandarovun batareyaları və digər topçu bölmələri bütün gün ərzində yapon toplarının atəşlərinə məruz qaldılar. Təhlükəli vəziyyət yaxınlaşanda rus topçuları daldalanacaqlarda gizlənir, azacıq sakitlik yaranan kimi onlar da yaponları atəşə tuturdular. Bu minvalla topçuların döyüşü axşama kimi davam etdi. Ancaq yaponların bir sıra əlverişli yüksəkliklərinin ələ keçirilməsi Səməd bəyin topçularını, eləcə də digər topçuları çıxılmaz vəziyyətə sala bilərdi. Ona görə də rus qoşunları yenidən geri çəkilmək barədə əmr aldılar. İyulun 15-də rus qüvvələri Qurd (Volçi) dağı boyu müdafiə mövqeləri tutdular. Buradakı cəbhə xəttinin sağ cinahının Daquşan və Syaoquşan yüksəklikləri təşkil edirdilər. Həmin yüksəkliklər Port-Arturun müdafiəsi üçün strateji əhəmiyyət kəsb edirdi. Ayın 15-də verilən döyüş əmrində sərhəd bölmələri ilə 7-ci topçu divizionunun 1-ci batareyası Daquşan yüksəkliyini qorumalı idi. Bu istiqamətdə Səməd bəyin 8 topu yerləşirdi. Divizionun digər iki batareyası isə ümumi ehtiyatda saxlanılmışdı. İyulun 16-na olan döyüş əmrinə görə isə S.Mehmandarovun bütün divizionu ümumi ehtiyatda saxlanılmışdı. İyulun 17-də yaponlar çox güclü hücuma keçdilər. Bəzi mənbələrdə mövcud olan məlumatlara görə, Qurd dağındakı mövqeləri qoruyan 17 minlik rus ordusu üzərinə 50 minlik yapon ordusu hücum etmişdi. Yaponlar toplara görə də üstünlüyə malik idilər. Rus qoşunlarında yalnız səhra topları olduğu halda, yapon ordusunda uzaqvuran mühasirə topları var idi. Buna görə göstərilən bütün cəhdlərə baxmayaraq, yaponların hücumunun qarşısını saxlamaq mümkün olmadı. Döyüşlərin gedişində Səməd bəyin divizionunun 2-ci

batareyası ümumi ehtiyatdan cəbhə xəttinin mərkəzinə göndərildi. İyulun 16–17-də qanlı döyüşlərdə Ə.Şıxlinskinin topçuları da fəal iştirak edirdi. Onun rəhbərliyi altında olan topçu batareyası digər batareyalarla birlikdə Qurd dağında mövqe tutub yaponların üstün qüvvələrinə zərbə endirdi. O, iki topla yaponların 18 topdan ibarət üç batareyasının atəşlərinin qarşısını saxlamağa çalışırdı. Bununla belə, əsas qüvvələrin müdafiədə zəifliyi Ə.Şıxlinski və onun topçularının da geri çəkilməsinə səbəb oldu (46).

Qurd dağındakı mövqelərin tutulması ilə həm yaponlar, həm də ruslar əsas diqqəti Daquşan və Syaoquşan yüksəkliklərinə yönəltdilər. Bu yüksəkliklər Port-Artura doğru ən strateji yüksəkliklər idi. S.Mehmandarovun divizionu da bu bölgədə yerləşdirilmişdi. Bütünlükdə, Şərq cəbhəsi Port-Artur uğrunda son döyüşlərin qaynar nöqtəsi idi. Sonralar Şərq cəbhəsinin artilleriya rəisi vəzifəsi də S.Mehmandarova həvalə olundu. Bu cəbhədə olan divizion topçuları, habelə başqa topçular Səməd bəyin rəhbərliyi altında fəaliyyət göstərirdi və Səməd bəyin üzərinə çox böyük məsuliyyət düşmüşdü. Buradakı döyüşlərin taleyi də əslində, elə topçuların necə işləməsi ilə bağlı idi.

Yüksək gərginlik və məsuliyyət Səməd bəyi nəinki qorxutmurdu əksinə, o, daha böyük iradə ilə fəaliyyət göstərirdi. Döyüş şəraitini duyma qabiliyyəti, topların atəşindən dəqiqliklə istifadə edə bilmək məharəti qalanın müdafiə imkanlarını daha da artırırdı. Döyüşlərdə Səməd bəyin nümayiş etdirdiyi iradə və mübarizlik bütün topçulara sirayət etmişdi və buna görə onlar döyüş keyfiyyətlərinə görə başqa qüvvələrdən fərqlənirdilər. Ancaq toplar sahəsində də üstünlük yaponlar tərəfində idi. Ona görə bu üstünlüyü aradan qaldırmaq heç də asan deyildi.

Avqust ayının 6-da yaponlar bütün cəbhə xətti boyu ümumi top hazırlığına başladı. Top atəşləri Şərq cəbhəsində xüsusilə güclü idi. Belə anlarda Səməd bəy öz topçularının yanında olmağa, onların bütün gücünü səfərbər etməyə çalışardı. Mərhum polkovnik Ə.Abbasov öz kitabında göstərirdi ki, belə güclü döyüşlərin birində Səməd bəy özünü sürünə-sürünə ön xətdə yerləşmiş topçuların yanına yetirdi və onların döyüşünə rəhbərlik etməyə başladı. Çox hallarda Səməd bəyi at belində görərdilər. Bununla

da o çalışırdı ki, qısa zaman ərzində öz topçuları ilə əlaqə yarada bilsin və onların fəaliyyətinin səmərəliliyini daha da artırsın (47).

H.İbrahimbəyli öz kitabında Ə.Şıxlinskiyə istinadən aşağıdakı səhnəni təsvir edirdi: «...Qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən ikidüyməli toplardan 37 mm-lik xırda dəniz topuna qədər müxtəlif toplar ilə atəşə tutulmuşdu. Eyni zamanda bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altı düymə qumbara partlamış və yerdən qalxan qara palçıq onun üstünü bulamış, lakin yaralanmamışdı. Mehmandarov buna əsla əhəmiyyət verməyərək böyük bir soyuqqanlıqla cibindən ağ dəsmalını çıxarıb gözəl, təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başlamışdı» (48).

P.Larenkonun «Stadnıe dni Port-Artura» kitabının ikinci hissəsində də S.Mehmandarovun xarakterinin bir çox cizgiləri ilə bağlı qeydlər vardır. Bu kitabda da Səməd bəy igid, cəsur, qətiyyətli, heç bir çətinlikdən qorxmayan bacarıqlı və istedadlı bir zabit kimi xarakterizə olunur. Diqqət yetirin: «S. daxil oldu və danışdı ki, hücuma məruz qalmış topçulardan polkovnik Mehmandarov (Şərq cəbhəsinin bütün artilleriyasının komandanı) və podpolkovnik Stolnikov şəxsi təhlükəsizliyə qarşı qeyri-adi nifrətlə yanaşırlar. Bombardman zamanı batareyaları gəzirlər, sanki partlayan mərmiləri heç görmürlər və bununla da başqalarını toxtadırlar. Birincisi, qafqazlı olaraq cəngavər kimi qəhrəmandır, ikincisi isə dindar bir şəxs kimi taleyinə yazılanlara mütidir» (49).

P.Larenkonun başqa bir qeydində isə müharibədən qorxanlara, onun tələbləri ilə barışa bilməyənlərə qarşı Səməd bəyin münasibəti ifadə olunmuşdu. Müəllifin fikrinə görə, Səməd bəyin haqqında danışılan keyfiyyətləri topçular tərəfindən də rəğbətlə qarşılanırdı: «Yaralı zabitlərlə söhbət zamanı polkovnik Mehmandarov haqqında daha bəzi şeyləri öyrəndim. O, özünü sevən, cəsur, tabeliyində olanlara qarşı ən tələbkar bir insan imiş. Tabelikdə olanlardan tələb edir ki, şəxsi igidliyi ilə nümunə göstərsin. Qaynar temperamentli bir adam olaraq kifayət qədər kəskin danışır. Söyləyirlər ki, hünər göstərməyə qabil olan və özünə şüurlu münasibət bəsləyən insanları daha çox qiymətləndirir. Onun

fikrincə, karyerist zabitlərin əsas arzusu isə öz həyatını qorumaq, layiq olmadığı halda orden almaqdır. L.N.Tolstoyun zülmə boyun əymək, öldürməkdən uzaq olmaq kimi ideyalarına özünü müti göstərməklə qorxaqlığını pərdələmək istəyən insanları görməyə gözü yoxdur. Hirslənir ki, belələri özlərini, hətta hərbi xidmətə də soxurlar. Ştabs-kapitan B.-yə o, bir dəfə belə demişdi:

– Çox yaxşı. Sən əgər Tolstoyçusansa, bombardman vaxtı özün üçün otur kazamatda. Fortun qarnizonunun gözünə görünməyə və özünün tör-töküntü görünüşünlə başqalarının ovqatını pozmağa cəsarət etmə. Güman edirəm ki, müharibə qurtaran kimi öz əqidənizə sadiq qalaraq dərhal hərbi xidməti tərk edəcəksiniz» (38).

Səməd bəy Mehmandarovun xarakteri və işgüzar keyfiyyətləri, peşəkarlığı bir-birini tamamlayırdı. Buna görə də o, bütöv bir şəxsiyyət və komandan kimi hamının rəğbətini qazanırdı.

Avqust ayının əvvəllərində Şərq cəbhəsinin sol cinahının önündə olan bir və iki nömrəli redutlar da yaponların əlinə keçdi. Bununla da bu redutların sağında və solunda yerləşən 2-ci və 3-cü fortlar topların himayəsindən məhrum oldular. Bu isə müdafiə qabiliyyətini zəiflədə bilərdi. Ona görə general-mayor Kondratenko istehkam rəisi polkovnik Qriqorenko, Şərq cəbhəsinin artilleriya rəisi polkovnik Mehmandarov, sahənin müdafiə rəisi podpolkovnik Razdolski ilə müşavirə keçirərək yeni top mövqelərinin hazırlanmasını lazım bildilər. Mehmandarovun razılığı ilə həmin mövqelər 2-ci və 3-cü fortların arasında seçildi. Elə mövqelər seçilmişdi ki, oradan daha böyük sahəni top atəşlərinin nəzarəti altında saxlamaq mümkün olsun. Bu mövqelər avqustun axırına kimi hazır olmalı idi.

Avqust ayının 11-də Port-Arturun qurudan müdafiə zolağı üç cəbhəyə bölündü: Şərq cəbhəsi, Şimal cəbhəsi və Qərb cəbhəsi. Şərq cəbhəsinin sahəsi demək olar ki, dəyişilməz qaldı. General-mayor Kondratenko Port-Arturun qurudan müdafiəsinin ümumi komandanı təyin edildiyindən Şərq cəbhəsinin komandanı 4-cü diviziyanın briqada komandiri olmuş general-mayor Nadein, cəbhənin qala artilleriyasının rəisi podpolkovnik Stolnikov təyin edildilər. Polkovnik S.Mehmandarov isə Şərq cəbhəsi qala və səhra artilleriyasının ümumi rəisi idi.

Sentyabr ayında baş verən döyüşlərdə Mehmandarovla necə rastlaşması barədə Ə.Şıxlinskinin xatirələrində də maraqlı qeydlər vardır. Bu görüş 3-cü istehkamda olmuşdu. Həmin istehkam 3-cü fortun sol cinahında yerləşirdi. Sentyabrın 13-də bu istehkama hücum edən yapon qüvvələrinin qarşısını necə alması barədə Ə.Şıxlinski belə yazırdı:

«Sentyabrın 13-də yaponlar 3-cü istehkama qərb tərəfdən hücum etməyə başladılar. Baxıb gördüm ki, örtülü mövqedə duraraq bu istehkamın piyada hissələrini hücumdan qorumaq mümkün olmayacaqdır. Buna görə də dağın zirvəsinə iki top çıxartdım. Bu zirvə mənim müşahidə məntəqəm idi. Tamamilə açıqda duran toplarımın atəşi hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Mən tamamilə əmin idim ki, ehtiyatsızlığıma görə o, həmişəki kimi indi də mənim abrımı alacaqdır, lakin bu dəfə vəziyyətlə yaxşı tanış olduqdan sonra dedi:

– Yaxşı eləmisiniz. Mən birinci batareyanın bir vzvodunun buraya gətirilməsini əmr edərəm (bu vaxta kimi həmin batareya aşağıda, nisbətən təhlükəsiz yerdə dururdu).

Mən xahiş etdim ki, topların yerini dəyişdirtməsin, ancaq yarımbatareyanın ikinci vzvodunu irəli çəkməyimə icazə versin.

– Mən özüm təkbaşıma onların öhdəsindən gələrəm, –dedim. O, dərhal buna razılıq verdi.

– Doğru deyirsiniz, bu daha yaxşı olar» (50).

Oktyabr ayının 13–14-də Şərq cəbhəsinin sol cinahında döyüşlər yenidən canlandı. Sonradan bu döyüşlər cəbhənin digər sahələrinə də yayıldı. Ə.Şıxlinskinin xatirələrində bu döyüşlərin gərginliyi və həmin günlərdə S.Mehmandarovla görüşməsi barədə də qeydlər vardır. Bu qeydlər həm də döyüşlərin nə dərəcədə gərgin getməsindən xəbər verir:

«Oktyabrın 13-də mənim yerləşdiyim zirvə yenə də tüstülənməyə başladı, hər tərəfdən qranatlar yağır, başımızın üstündə şrapnellər partlayırdı. Bu atışma bir neçə gün davam etdi. Yaponlar əlbəttə tək mənim mövqelərimi atəşə tutmamışdılar, onlar bütün şərq bölməsini (Şərq cəbhəsini – M.S.) başdan-başa atəş

altında saxlayırdılar. Batareyanın üstündə 11 düyməlikdən tutmuş 1,5 düyməlik (37 mm) xırda mərmilərə kimi hər cür mərmi yağırdı. Bundan əlavə, Drakonovıy Xrebet dağının zirvəsində yerləşən düşmən piyadası bizi oradan pulemyot və tüfəng atəşinə tuturdu. Beləliklə, mənim batareyam son dərəcə ağır bir vəziyyət içərisinə düşmüşdü. Yaponların atəşinin gücünü aşağıdakı misaldan görmək olar: mən papağımı batareyanı gizlədən daş divarın üstünə qoymuşdum, beşcə dəqiqənin içində güllələr bu papağı deşik-deşik etdi.

Nəhayət, hücum başlandı. Düşmən toplarının və bizim topların gurultusundan, düşmən mərmilərinin vıyıltısından qulaqlar batırdı. Adamlar, hətta lap yaxından verdiyim komandanı belə eşitmirdilər. Buna görə də mən növbə ilə hər bir topun yanına gəlib onun hədəfini özüm düzəltməyə məcbur olurdum.

İkinci topun yanında partlayan 6 düyməlik yapon qranatı topun sol təpərini dağıtdı, qalın nişangahı parça-parça etdi, tuşlayıcı-topçu Arşinskinin qollarını və ayaqlarını apararaq onu bir anda öldürdü, Balaşevin başını və boynunu qopardı. Korbuşevin sol gözünün altına dəyən bir qəlpə onu ardınca yerə sərdi. Pulemyot gülləsi ehtiyat tuşlayıcının başını dəldi. Bu yalnız bir topun xidmətçiləri idi. Məni isə ancaq qaynar bir hava bürüdü (mən oradaca durmuşdum).

Mənim yarımbatareyam bir neçə saat bu cür ağır vəziyyətdə qaldı, lakin toplardan heç biri atəşini dayandırmadı. Ancaq sınmış təkərini və parça-parça olmuş nişangahını dəyişdirmək lazım gəldiyi üçün ikinci top atəşini bir qədər dayandırdı və yarımca saatdan sonra yenə də atmağa başladı.

Birdən 3-cü istehkamın yanındakı təpədən həmin istehkam xəndəyinə xırdaca itlərin keçdiyini gördüm. Onların sayı-hesabı yox idi. Bu qəribə hadisəyə diqqətlə baxdıqdan sonra müəyyən etdim ki, yaponlar xalis torpaq rəngli örtü altında gizlənərək təpədən keçirlər. Örtü altında onların qara ayaqqabıları görünürdü. Toplarım dərhal həmin yeri vurmağa başladı və yaponların hərəkəti dayandı. Özlərini çatdırıb xəndəyin bu tayına aşmış olan yaponlar mənim atəşim altına, o biri hissəsi isə 3-cü istehkam toplarının atəşi altına düşdülər. Odur ki, səngərdən çıxıb əvvəlki

yerlərinə çəkilməyə məcbur oldular.

Beləliklə, Sui-Şin kəndi yanında Drakonovıy Xrebet dağının zirvəsindən atılan yapon pulemyotlarının atəşi kəsildi. Axşam saat 5-ə yaxın yaponların hücumu dəf edildi. Düşmən toplarının da atəşi demək olar ki, tamamilə kəsildi. Adamlarımıza istirahət verdik.

Yerləşdiyimiz təpədə baş verən hadisələri demə divizion rəisi seyr edirmiş, topçu hissəsi rəisi polkovnik Mehmandarov isə şəxsən mənim batareyama gəldi. O, mənim tədbir və sərəncamlarımı bəyəndiyini söyləyib öz məntəqəsinə qayıtdı» (51).

Oktyabr ayında Şərq cəbhəsinin komandanı general-mayor Qorbatovski təyin edildi. General Qorbatovski də cəbhə xəttinin müdafiəsində toplardan düzgün və səmərəli istifadə edilməsinə böyük əhəmiyyət verirdi. Ona görə də o, Səməd bəy Mehmandarovun fəaliyyətinə xüsusi diqqət yetirirdi. General çalışırdı ki, piyada qoşunları ilə topçuların fəaliyyətini uzlaşdırsın və bununla da müdafiə imkanlarını daha da artırsın. Noyabr ayının 13-də yapon qüvvələrinin Şərq cəbhəsi üzərinə olan hücumu gərginliyinə görə ən ağır döyüşlərdən biri idi. Yaponlar göstərdiyi bütün səylərə baxmayaraq, bu hücumla irəliləyə bilmədilər. Onlar çoxsaylı itki verərək geri çəkilməyə məcbur oldular. Yaponların müqavimətinin qırılmasında heç şübhəsiz ki, Səməd bəyin topçularının da böyük xidməti var idi. Port-Artur döyüşü haqqında «Oborona Port-Artura»(Sankt-Peterburq, 1910) iki cildlik sanballı kitab yazmış Y.Romanovski və A.fon Şvars 13 noyabr döyüşlərində S.Mehmandarovun komandanlığı altında artilleriyanın çox səmərəli fəaliyyət göstərdiyini yazırdılar: «Eyni zamanda polkovnik Mehmandarovun və podpolkovnik Stolnikovun müstəqimən rəhbərliyi altında olan qala toplarımız fəal surətdə düşmənə cavab verdi və onların batareyalarını, habelə ələ keçirdikləri istehkamları atəşə tutdu» (52).

Müəlliflər onu da təsdiq edirdilər ki, rus komandanlığı topların döyüşdəki rolunu daha düzgün qiymətləndirməyə başlamış və noyabr ayındakı döyüşlər zamanı onların gücündən daha səmərəli istifadə etmişdi. Səməd bəy Mehmandarov da bütün məharətini və istedadını nümayiş etdirərək komandanlığı altında olan topların

və topçuların daha səmərəli fəaliyyətinə nail olmuş və bununla da çox böyük sayda hücuma keçən yapon qüvvələrinin qarşısını saxlamaq mümkün olmuşdu. Yuxarıda adları çəkilən müəlliflər onu da qeyd edirlər ki, çox böyük arzularla bu hücuma başlamış yaponlar heç nəyə nail olmadıqda həddən artıq qəzəblənmiş və öz qəzəblərini uzaqvuran toplarla şəhəri atəşə tutmaqla sakitləşdirmişdilər.

Noyabr döyüşlərindən yazarkən P.Larenko öz kitabında Mehmandarovla bağlı başqa bir hadisəni xatırlayır: «Hələ avqust bombardmanı zamanı yaponlar hiss etmişdilər ki, haradansa, fortlar xəttinin arxasından onları çox sərrast atəşə tuturlar. Polkovnik Mehmandarovun komandanlığı altında 7-ci Şərqi Sibir divizionunu (yəni səhra artilleriyası) Şərq cəbhəsinin hücuma məruz qalmış sahəsinin istehkamlar xəttinin arxasındakı örtülü yerdə mövqe tutmuşdu və müdafiə işinə çox böyük fayda verirdi. Belə ki, bombardmanın ilk günlərində qala toplarına böyük tələfat verilmişdi. Səhra artilleriyası ən şiddətli hücumların qarşısını alır və yaxınlıqda olan yapon batareyaları ilə kifayət qədər uğurla mübarizə aparırdı» (53).

Noyabr ayının sonlarında Port-Arturu müdafiə edən qoşunların vəziyyəti xeyli ağırlaşdı. Canlı itkilərin əvəzinə köməyin gəlməməsi, sınqa xəstəliyinin artması şəxsi heyətin gücünü zəiflədirdi. Topçuların isə ehtiyatı tükənməkdə idi. Mərmilər çox az sayda qalmışdı. Bu ehtiyat o qədər az idi ki, qarşı tərəfdə müşahidə edilən yaponlar atəşə tutulmurdular. Mərmilər yalnız yapon hücumlarının qarşısının alınması üçün saxlanılırdı. Belə vəziyyət şübhəsiz ki, Mehmandarovun komandanlığı altında olan artilleriyanın fəaliyyətinə ciddi əks-təsir göstərirdi. Rusiyadan gələ biləcək köməyə bağlanılan ümidlər isə günü-gündən puça çıxırdı.

Dekabr ayının 15-də kapitan Əliağa Şıxlinskinin olduğu 3-cü istehkam ətrafında şiddətli döyüşlər getdi. Y.Romanovski və A.fon Şvars adları çəkilən kitablarında bu döyüşü geniş təsvir etmişlər. Onlar yazırlar ki, bu istiqamətdə vəziyyət gərginləşdiyi anlarda cəbhənin bütün toplarının fəaliyyətinə polkovnik Mehmandarovla podpolkovnik Stolnikov şəxsən rəhbərlik edirdilər.

Mehmandarov bu zaman Laperovski yüksəkliklərində idi. Həmin istiqamətdəki döyüşlər bir neçə gün davam etdi. Bu istiqamətdə 3-cü fort yaponların əlinə keçdikdən sonra rus qoşunları komandanlığında müqavimətin davam etdirilməsinin mənasızlığı qənaətinə gəlindi. Qurudan müdafiənin komandanı general Fok qala komendantı Stesselin bu mövqeyini müdafiə edirdi. Yəni əslində, ən yuxarı komandanlıqda olanlar canlarının qorxusundan müqaviməti dayandırmaq üçün yollar axtarırdı. Ancaq Stessel öz fikirlərini açıq şəkildə bildirməkdən çəkinirdi. O bilirdi ki, zabitlərin çoxu, o cümlədən Port-Arturun ətrafındakı döyüşlərdə göstərdiyi hünər və igidliklərə görə general-mayor rütbəsinə layiq görülmüş Mehmandarov da döyüşlərin davam etdirilməsinin tərəfdarı idilər. Ona görə də Stessel dekabrın 17-də Hərbi Şuranın iclasını çağırdı. Axşam saat 6-da çağırılmış iclasda polkovnik Reys, general Fokun yaxınları olan zabitlər birmənalı şəkildə bildirdilər ki, qalanı təslim etmək lazımdır. Bunu onlar onunla izah edirdilər ki, əsgərlər yorulub, mərmi ehtiyatı tükənib və buna görə də müdafiəni davam etdirmək mənasızdır. Ancaq general-mayor Kondratenkonun komandiri olduğu 7-ci diviziyanın zabitləri, istehkamçılar, dənizçilər qətiyyətlə bildirdilər ki, son nəfəsədək müqaviməti davam etdirmək lazımdır. Onların sözünə görə, mərmi ehtiyatı hələ yaponların iki hücumunu da dayandırmağa bəs edərdi. P.Larenko öz xatirələrində yazırdı: «3-cü fortun alınması ilə bizim artilleriyanın vəziyyəti pisləşibmi? – sualına Mehmandarov cavab verdi ki, heç bir pisləşmə görmür və 3-cü fortun alınması artilleriya vəziyyətinə heç bir təsir göstərməmişdir».

Bu müşavirədə müqavimətin davam etdirilməsinin tərəfdarları üstün gəldilər və döyüşün hələlik davam etdirilməsi qərara alındı. Ancaq bu qərar bir çox zabitləri, o cümlədən də general Foku qane etmirdi. Ona görə dekabrın 18-də general Fokla Mehmandarov arasında ciddi mübahisə baş verdi. Bu mübahisədə Fok Mehmandarovu inandırmağa çalışırdı ki, artıq qalanı qorumaq mümkün deyil. Mehmandarov isə bildirirdi ki, ayrı-ayrı müdafiə mövqelərinin itirilməsi heç də tam məğlubiyyət demək deyil. İkinci müdafiə xəttində hələ müqavimət göstərmək olar.

Həmin gün Mehmandarovun topçuları çox ağır bir döyüşdə iş-

tirak etdilər. Onlar itirilmiş olan 3-cü fortu, habelə yaxınlaşmaqda olan yaponları çox güclü atəşə tutdular. Y.Romanovski və A.fon Şvars həmin döyüşü belə təsvir edirlər: «...Eyni zamanda polkovnik Mehmandarov bizim bütün batareyalarımıza əmr etdi ki, 3-cü istehkamın daxilini, 3-cü fortu və 3-cü istehkama yaxınlaşan yapon dəstələrini mümkün qədər güclü atəşə tutsunlar. Ancaq düşmənin çoxsaylı toplarına Kurqan batareyasındakı və 4-cü fortdakı toplardan başqa yalnız 2 ədəd 6 düyməlik top cavab verə bildi. Onlardan biri Laperovski, o biri isə Zaredutnı batareyasında idi. Digər salamat toplar kiçikkalibrli idi. Ona görə bizim toplar düşmən tərəfdən böyük ziyan gördülər. Tezliklə bizim bir neçə topumuz da sıradan çıxarıldı. Laperovski yüksəkliyində olan polkovnik Mehmandarov və podpolkovnik Stolnikov yaxınlıqda partlayan bombadan özlərini ayaqüstə saxlaya bilmədilər. Ancaq xoşbəxtlikdən onlar salamat qaldılar».

Dekabrın 19-da Şərq cəbhəsində olan «Bolşoye orlinoe qnezdo» adlı yüksəkliyin yaponlar tərəfindən ələ keçirilməsindən sonra general Stessel təslim olmağı qərara aldı. Sabahısı gün, yəni dekabrın 20-də rus və yapon ordusunun nümayəndələri arasında danışıqlar aparıldı və rus ordusu komandanlığı yaponların irəli sürdüyü bütün tələbləri qəbul etdilər. Kapitulyasiya şərtlərinə görə, Port-Artur yaponlara təslim edilir və bütün əsgərlər əsir alınırdılar. Zabitlərə qarşı münasibətdə isə bir qədər fərqli tələb irəli sürülürdü. Port-Artur döyüşləri bitsə də, Mancuriya ərazisində rus və yapon ordularının döyüşləri davam edirdi. Yaponiya tərəfi qorxurdu ki, Port-Artur qarnizonundakı zabitlərin Mancuriyadakı rus ordusuna qoşulub yaponlara qarşı vuruşan hissələri qüvvətləndirə bilər. Ona görə də belə bir tələb irəli sürülürdü ki, gələcəkdə Yaponiyaya qarşı vuruşmayacağı barədə yazılı razılıq verən zabitlər Rusiyaya buraxıla bilərlər. Belə bir sənədə qol çəkməyən zabitlər isə əsir götürüləcəklər.

Dekabrın 21-də qarnizon bütün müqavimətini dayandırdı. Dekabrın 23-də isə yaponlar şəhərə daxil olmağa başladılar. Həmin günlərdə Mehmandarov və onun topçuları hər şeyi təhvil verərək yaponlara təslim oldular. 7-ci Şərqi Sibir topçu divizionundan 544 əsgər və onlarla birlikdə 14 zabit də könüllü olaraq

yaponlara əsir düşdülər. Bu zabitlərin arasında Səməd bəy Mehmandarov da var idi.

Bir çox cəsur zabitlər kimi Səməd bəyin Port-Artur epopeyası da yapon əsirliyində başa çatdı. Bu igid topçunun və komandanın Port-Artur döyüşlərində göstərdiyi igidlik və istedad təkcə öz həmkarlarını deyil, hətta yaponları da valeh etmişdi. Bu barədə P.Larenkonun xatirələrində maraqlı qeydlər mövcuddur: «S. mənə xəbər verdi ki, dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya rəisini və həqiqətdə avqustun ortalarından orada artilleriyaya rəhbərlik edən polkovnik Mehmandarovu (mühasirə zamanı general-mayor olmuşdu) axtarırdı. O cavab verdi ki, bəlkə möhtərəm qonaqlar səhv edirlər və ola bilsin ki, onlar qala artilleriyasının rəisi general Belını görmək istəyirlər. Ancaq yaponlar ona cavab verdilər ki, mübarizə aparılması çətin olan hörmətli düşmənləri ilə tanış olmaq onlar üçün daha maraqlıdır. Onun şəninə çoxlu xoş sözlər söylədilər. Etiraf etdilər ki, Port-Artur ətrafında yapon artilleriyasının itkiləri çox böyükdür – 25 minə qədərdir və yapon toplarının çoxu məhv edilmişdir və onların vəziyyəti Port-Arturda mərmi qıtlığı hiss olunanda yaxşılaşmışdı. ...Qalanın təslim edilməsinin və iltizam verərək evə getməyin kəskin əleyhdarlarından biri olan general Mehmandarov əsirliyə yollandı» (54).

Port-Artur döyüşlərində göstərdiyi şücaətlərə görə Mehmandarov general rütbəsindən əlavə, həm də Müqəddəs Georgi ordeninin 4-cü dərəcəsinə layiq görüldü. Ancaq P.Larenkonun yazdığına görə, Port-Artur döyüşçülərinin çoxu Mehmandarovla bərabər heç bir xidməti olmayan zabitlərlə bir sıraya qoyulmasına təəccüb edirdilər. Çünki onlar Mehmandarovu bənzərsiz bir zabit hesab edirdilər.

Eyni sözləri heç şübhəsiz ki, bütün sınaqlardan bacarıqla çıxan Ə.Şıxlinskiyə də aid etmək olar. Bu müharibənin gedişində onların hər ikisi son dərəcə zəngin təcrübə əldə etməklə bərabər, özlərini istedadlı və bacarıqlı zabitlər kimi də nümayiş etdirə bildilər. Port-Artur müharibəsi haqqında yazılmış tarixi ədəbiyyatda Ə.Şıxlinskinin igidliyi və bacarığı haqqında xeyli faktlara rast gəlmək olar. Həmin tarixi yazılardan birində aşağıdakı sətirləri oxu-

maq mümkündür: «Əlahəzrət imperator Müqəddəs Georgi ordeninin süvari dumasının təqdim etdiyi məruzədən sonra 03.09.1905-də Port-Arturun müdafiəsində fərqlənmələrinə görə... Georgi ordeninin 4-cü dərəcəsi ilə 4-cü Şərqi Sibir atıcı topçu briqadasının podpolkovnikləri Əliağa Şıxlinskiyə... 1904-cü il oktyabrın 13-dən 17-nə qədər 3-cü fortun topçu müdafiəsinə və həmin fortun möhkəmləndirilməsinə görə verilir. Belə ki, ona həvalə edilmiş yarımbatareya ilə üstün düşmənə qarşı fəaliyyət göstərməklə piyadaların itkisi ilə bağlı bir çox hallarda topu özü istiqamətləndirib dəfələrlə düşmən toplarını susdurmuş və yapon piyadalarının adı çəkilən fortun ətəklərini tutmaq cəhdinin qarşısını almışdı» (55).

Ə.Şıxlinski də yaponlar qarşısında öz üzərinə iltizam götürməkdən imtina etdi. Yalnız ağır yaralandığı və hospitalda yatdığı üçün və yapon komissiyası tərəfindən xidmətə yararsız sayıldığı üçün Rusiyaya buraxıldı.

Mehmandarov isə öz topçuları ilə bərabər, əsir düşməyi həqarətli azadlıqdan üstün sayaraq yaponların hərbi əsirinə çevrildi. O, digərləri ilə bərabər, Naqaya şəhərinə gətirildi. Bir də 1905-ci ilin avqustunda Portsmut sülh müqaviləsi bağlandıqdan sonra Rusiyaya qayıtdı.

Mehmandarov Rusiyada öz həmkarları tərəfindən əsir kimi yox, Port-Artur döyüşlərində igidlik göstərmiş bir zabit kimi qarşılandı. Dərhal da fəal hərbi xidmət həyatına başladı. O, öz taleyini başqa cür də təsəvvür edə bilmirdi. Savadı, təcrübəsi, peşəkarlığı ona daha məsuliyyətli vəzifələri icra etməyə imkan verirdi. Ona görə Mehmandarov daha yüksək vəzifəyə təyin olundu. O, təxminən iki il ərzində 75-ci topçu briqadasına komandirlik etdi. Sonradan bu briqada 7-ci Şərqi Sibir topçu briqadası adlandırılmışdı. 1907-ci ildə S.Mehmandarov 3-cü Sibir ordu korpusunun komandiri təyin edildi. Həmin vəzifəni üç il icra etdi və elə bu vəzifədə ikən 1908-ci il iyulun 13-də general-leytenant rütbəsinə layiq görüldü.



**General Həsən bəy Ağalarov**



**General-mayor Kəlbalı xan Naxçıvanski**



**Polkovnik İsmayıl bəy Qutqaşınlı**





**Fərrux ağa Qayıbov**



**General Səməd bəy Mehmandarov**



**General Əliağa Şıxlinski**



**Tam süvari generalı Hüseyn xan Naxçıvanski**



**Tatar atlı alayının komandiri Pyotr Polovsov**

Birinci Dünya müharibəsi ərəfəsində çalışdığı vəzifələrdə Səməd bəy Mehmandarov nəzəri və praktiki biliklərini xeyli artırdı. XIX əsrin sonu və XX əsrin əvvəllərində rus-yapon müharibəsi Rusiyanın apardığı müharibələr içərisində artilleriyanın ən çox işləndiyi və döyüşdəki yeri daha çox görünən müharibələrdən idi. Port-Artur uğrunda gedən döyüşlər artilleriyanın işlədilməsi taktikasını, onun material hissəsinin təkmilləşdirilməsi barədə böyük dərslər vermişdi. Uzaq Şərqdə olan hissə və birləşmələrdə təşkil edilən zabit dərnəkləri bu təcrübənin toplanması, ümumiləşdirilməsi və tətbiqi üçün təkliflər hazırlayırdılar. Səməd bəy Mehmandarov da 3-cü Sibir ordu korpusunda təşkil edilmiş zabit dərnəyinə rəhbərlik edirdi. Mehmandarov Port-Artur döyüşlərində aldığı təcrübəni ümumiləşdirərək yayılmasında və xidmət zamanı nəzərə alınmasında zabitlərə kömək edirdi. Bütünlükdə, Birinci Dünya müharibəsi ərəfəsində Port-Artur döyüşləri rus ordusunun keçmiş olduğu ən böyük praktiki dərs idi və onun təcrübəsinin ümumiləşdirilməsi qoşunların döyüş hazırlığının artırılması baxımından da böyük əhəmiyyət kəsb edirdi.

Birinci Dünya müharibəsi ərəfəsində Mehmandarovun təyin edildiyi başqa bir vəzifə 1-ci Qafqaz korpusunun topçu rəisi idi. O, bu vəzifəyə 1910-cu il may ayının 24-də təyin edilmişdi. Burada Mehmandarovun çiyinlərinə daha ağır yük düşürdü. Bu zaman o, bütün korpusun artilleriyasının fəaliyyətinin təşkilinə rəhbərlik etməli idi. Korpusun tərkibində isə topçu qüvvələri çox idi. Hər piyada diviziyasında topçu briqadası, hər piyada briqadasında topçu divizionu, habelə digər yardımçı hissə və bölmələr var idi. Birinci Dünya müharibəsi ərəfəsində rus ordusunun korpuslarında iki piyada diviziyası və ayrıca mortir-topçu divizionu var idi. Piyada diviziyasına daxil olan topçu briqadasında hər biri üç batareyadan ibarət olan iki divizion var idi. Hər batareyada da 8 top var idi. Mortir-topçu divizionu isə hər birində 6 top olan iki batareyadan ibarət idi. Korpusda 108 ədəd top var idi. Onlar da, əsasən, 76 mm-lik toplar idi. Bu topların hamısı yüngül toplar idi. Ağır toplar yox idi. Mehmandarov artilleriyanın istifadəsində əldə edilmiş yeni taktiki bilikləri rəhbərliyi altında olan topçu hissələrinə tətbiq etməklə bərabər, həm də topçu hissələri ilə piyada

hissələrinin birgə səmərəli fəaliyyətinin təşkilinə nail olmalı idi. Bu iş böyük zəhmət tələb edirdi. Korpusun artilleriya qüdrətinin artırılması topçu hissələrinin maddi-texniki hissəsinin yaxşılaşdırılmasını tələb edirdi. Bu isə elə də ürəkaçan deyildi. Birinci Dünya müharibəsi ərəfəsində rus ordusunun topçu hissələri maddi-texniki təchizat baxımından qərb ölkələrindən geridə qalırdı.

Birinci Dünya müharibəsi ərəfəsində korpusun sərəncamına ağır toplar da verilməyə başladı. Həmin topların miqdarı az olsa da, onların öyrənilməsi və atəş imkanlarının digər topların atəş imkanları ilə əlaqələndirilməsi tələb olunurdu.

Mehmandarov bu topların korpusun zərbə qüdrətinin artırılması üçün böyük əhəmiyyətə malik olduğunu yaxşı anlayırdı və dərhal da onların öyrənilməsinə başlamışdı. Ağır topların tez və sürətlə öyrənilməsi baxımından Mehmandarovun xidmət etdiyi korpusda vəziyyət digər korpuslara nisbətən daha yaxşı idi. Bunu Ə.Şıxlinski də təsdiq edirdi. H.İbrahimbəyli kitabında Ə.Şıxlinskiyə istinadən belə yazırdı: «O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün qərb cəbhəsinə çağırıldıqda mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Mehmandarovun korpusunda ağır topların vəziyyəti düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş korpus top müfəttişinin təşəbbüsünün nəticəsi deyil, mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi» (56).

Ə.Şıxlinskinin bu qənaəti Mehmandarovun korpus komandiri olduğu vaxtlara aid idi. Ancaq Səməd bəy bütün vəzifələrdə topların müharibədəki yerini düzgün anlayır və onların atəş imkanlarından daha səmərəli istifadə edilməsi üçün qabaqcıl taktiki fikirlərin tətbiqinə çalışırdı.

### *4. Birinci Dünya müharibəsi və Azərbaycan*

Bütün ictimai-siyasi nəticələrinə, dövrün ziddiyyətlərinin kəskinləşməsinə, xalqın həyatında ağır izlər buraxmasına baxmayaraq, I Dünya müharibəsi azərbaycanlı hərbçilərin formalaşmasında daha bir sınaq meydanı oldu. Müharibənin əsas əmə-

liyyatları Avropada cərəyan etsə də, əslində, Azərbaycan da cəbhə bölgəsinə daxil olan ərazilərdən idi. Çünki 1914-cü ilin oktyabrında yaradılmış olan Qafqaz cəbhəsi Qara dənizin cənubundan başlayaraq Türkiyə və İrandan keçməklə Xəzər dənizinin cənubuna qədər uzanırdı. Cəbhə xəttinə bu qədər yaxın olması Azərbaycan xalqının üzərinə düşən çətinlikləri daha da artırmışdı.

Azərbaycanın iqtisadi həyatı da Rusiyanın tərkib hissəsi kimi bu müharibənin aparılmasına səfərbər edildi və mərkəzi hakimiyyətin siyasətinin dəstəklənməsi yerli hakimiyyət orqanlarının fəaliyyətinin əsas vəzifəsinə çevrildi. Azərbaycanda ictimai-siyasi həyat ciddi nəzarət altına alındı, Bakının təsərrüfat həyatının müharibənin tələbləri üzərində qurulması üçün konkret tədbirlər həyata keçirildi. Məlumdur ki, Birinci Dünya müharibəsi ərəfəsində Bakı şəhəri Rusiya imperiyasının böyük sənaye mərkəzlərindən biri idi. Xüsusilə neft sənayesinin inkişafı cəbhənin yanacaq tələbatını ödəməklə yanaşı, hərbi təyinatlı bir sıra məhsulların istehsalı və bununla da cəbhənin ehtiyaclarının ödənməsi üçün əlverişli imkan yaradırdı. Ona görə də Birinci Dünya müharibəsinin elə ilk ilində ölkənin hərbi rəhbərliyi Bakıda neft tərkibli partladıcı maddələri, habelə aviasiya benzinin istehsalı üçün məsələ qaldırdı. Bununla bağlı Bakıda toluol zavodunun tikilməsi qərara alındı və bunun üçün zəruri olan maliyyə vəsaiti ayrıldı. Bu zavodun tikilməsi qısa müddət ərzində başa çatdırıldı və «Nobel qardaşları» şirkətinə məxsus olan belə bir zavod 1916-cı ilin əvvəlində məhsul verməyə başladı. Elə həmin il Bakıda digər şirkətlərə aid olan toluol, benzol, ksilol zavodları da fəaliyyətə başladı. (57). Bu zavodlar Rusiya Hərbi Nazirliyinin Baş artilleriya idarəsinin sifarişlərini yerinə yetirirdilər.

Müharibə illərində Bakıda aviasiya benzininin istehsalı kifayət qədər artırıldı və bu benzin cəbhənin tələbatının əsas hissəsini təşkil etdi. İstehsalatın yenidən qurulması nəticəsində «Nobel qardaşları» şirkətinin fəaliyyətində bu məhsul böyük çəkiyə malik idi. 1914-cü ilin sentyabrında bu şirkət cəbhəyə 150 min pud aviasiya benzini təhvil verdi. Dövlət sifarişləri əsasında bu məhsulun istehsalı sonrakı illər daha da artırıldı və 1916-cı il mart ayının sonunda

«Nobel qardaşları» şirkəti artıq 2 milyon pud aviasiya benzini təhvil verdi. 1915-ci ildə hərbi sifarişlər «Nobel qardaşları» şirkətinin bütün istehsalının 75 faizini təşkil edirdi. Bu şirkət tərəfindən cəbhənin ehtiyacları üçün sulfat turşusu və sürtkü yağları da istehsal edilirdi (58).

Ölkənin müharibə ehtiyaclarının ödənməsi sahəsində Bakının rolu yalnız neft tərkibli məhsulların istehsalı ilə kifayətlənmirdi. Mövcud olan sənaye bazasından istifadə etməklə bu şəhərdə kifayət qədər çoxtəyinatlı hərbi sənaye kompleksi yaradılmışdı. Mövcud olan faktlar da bunu deməyə əsas verir. Çünki müharibə illərində cəbhə tələbatının ödənməsi üçün cəlb olunan işçi qüvvəsinin sayına görə Bakı şəhəri Cənubi Qafqazın şəhərləri arasında birinci yeri tuturdu. Həmin illərdə Bakıda hərbi sifarişləri yerinə yetirən müəssisələrdə 65524 nəfər fəhlə çalışırdı. 1916-cı ildə Bakı quberniyasındakı müəssisələrə verilmiş hərbi sifarişin ümumi məbləği isə 3 milyon 354 min rubl olmuşdu. Bu böyükhəcmli sifarişlərin yerinə yetirilməsi üçün Bakıda bir sıra zavodların istehsalı da yenidən qurulmuşdu. Məsələn, bunun üçün Xəzər maşınqayırma və qazan zavodları səhmdar cəmiyyətinin bir sıra zavodlarını yenidən qurmaq lazım gəldi. (59).

Cəbhənin tələbatının ödənməsinin tənzimlənməsi və əlaqələndirilməsi üçün 1915-ci ildə ölkə miqyasında Mərkəzi Hərbi-Sənaye Komitəsi təsis edildikdən sonra hərbi sifarişlərin istehsalının nizamlanması üçün Bakıda da Hərbi-Sənaye Komitəsi yaradıldı. Hərbi-Sənaye Komitəsi başqa müəssisələrdə olan hərbi sifarişləri tənzimlədiyi kimi, bir başa öz tabeliyində də xüsusi müəssisələr var idi. O cümlədən Bakı Hərbi-Sənaye Komitəsinin sərəncamında 9 müəssisə, Yelizavetpol Hərbi-Sənaye Komitəsinin sərəncamında isə 7 müəssisə var idi. 1915–1916-cı illərdə bu Hərbi-Sənaye Komitələrinin rəhbərliyi altında kifayət qədər hərbi sifariş yerinə yetirildi. Bu müəssisələrdə mərmi, bomba, əl qumbarası, partladıcı maddələr və s. istehsal edilirdi. Amma qeyd edilməlidir ki, ölkədə dərinləşməkdə olan böhran bu komitənin fəaliyyətinə də təsir göstərdi və 1916-cı ilin sonlarından etibarən hərbi

istehsal tədricən zəifləməyə başladı. (60).

Birinci Dünya müharibəsinin aparılması üçün Rusiyanın hakimiyyət dairələrinin fəaliyyəti Bakıda yalnız hərbi təyinatlı məhsulların istehsalı ilə dəstəklənmirdi. Azərbaycanda müharibə ilə bağlı Rusiya mərkəzi hakimiyyət dairələrinə həm siyasi, həm mənəvi, həm də ictimai-xeyriyyə dəstəyi göstərilirdi. Doğrudur, bu məsələdə müəyyən dairələr öz siyasi və iqtisadi maraqlarını güdürdülər, müəyyən dairələr isə bu müharibənin Rusiya əsarətində olan xalqların həyatında bir yeniləşmənin əsasını qoyacağına ümid edirdilər. Amma bütövlükdə müharibəyə münasibətdə hərbi vəziyyət elan edilmiş Bakıda mərkəzi hakimiyyətə qarşı açıq və kəskin qarşıdurmaya gedilməsi fəlakətli nəticələrə yol aça bilərdi. Ona görə də müxtəlif səviyyələrdə müharibə aparan dövlətə dəstək elan olunur və bu dəstəyin əməli ifadəsi kimi müəyyən xeyriyyə və kütləvi tədbirlər həyata keçirilirdi. Məsələn, hələ 1914-cü il iyulun 23-də Bakı şəhər Dumasının iclasında müharibənin aparılması ilə bağlı mərkəzi hakimiyyətlə həmrəylik elan edildi və bu müharibənin Rusiyanın xeyrinə başa çatdırılması üçün əməli işlər görülməsinə hazır olduğu bildirildi (61).

1914-cü il avqustun 21-də Rusiya Dövlət Dumasının Müsəlman fraksiyasının üzvləri, o cümlədən Azərbaycandan olan üzvlər də başlanan müharibədə Rusiyanın maraqlarının qorunmasına hazır olduqlarını bildirməklə, bütün müsəlmanları da bu işə səfərbər olmağa çağırdılar (62).

1914-cü ilin dekabrında azərbaycanlıların da iştirak etdiyi türk-müsəlman nümayəndələrinin Peterburqda keçirilmiş qurultayında da Rusiya mərkəzi hakimiyyət dairələri dəstəkləndi, müharibənin uğurla başa çatdırılması üçün xeyir-dua edildi, xeyriyyə təşkilatlarının yaradılması, Qafqaz cəbhəsinə sanitar dəstələrin göndərilməsi qərara alındı(63).

Cənubi Qafqaz Şiə Ruhani İdarəsi də müharibənin başlanmasından sonra «Müsəlmanlara çağırış» qəbul etdi və bu çağırışda da ölkə maraqlarının müdafiəsi bölgə müsəlmanlarının qarşısında dayanan başlıca vəzifə kimi xarakterizə edildi. Müharibənin başlan-

ması xəbəri alınan kimi, Bakının dənizkənarı bulvarında izdihamlı mitinq təşkil edildi və bu mitinqə çıxanlar da müharibənin qələbə ilə başa çatdırılması üçün Rusiya hakimiyyət orqanlarına həmrəylik elan olundu. Belə mitinqlər şəhərin digər məntəqələrində də təşkil edildi və şəhər əhalisinin müharibəyə nifrəti də mərkəzi hakimiyyətin dəstəklənməsi kimi qəbul olundu. 1914-cü il iyul ayının 19-da İçərişəhərin Cümə məscidinə toplaşanlar tərəfindən isə müharibənin qələbə ilə başa çatdırılması ilə bağlı Rusiya imperatorunun şərəfinə dualar oxundu (64).

Bundan başqa, cəbhədə vuruşanlara, onların ailələrinə maddi yardım göstərilməsi üçün ianələr toplanılır, yaralı hərbçilərin müalicəsinin təşkili üçün çoxsaylı lazaretlər yaradılırdı. Eyni zamanda yeni-yeni hərbi hissələrin təşkili üçün Azərbaycanda çağırış və səfərbərlik də aparılırdı. Doğrudur, azərbaycanlı əhali çağırış və səfərbərliyə cəlb edilmirdi, amma Azərbaycan ərazisində yaşayan qeyri-müsəlman məzhəbinə məxsus sakinlərin geniş şəkildə orduya çağırışı və səfərbərliyi aparılırdı. Bu isə öz növbəsində müəyyən təşkilati işlərin görülməsini tələb edirdi.

Rusiya hakimiyyət orqanlarının nümayəndələri azərbaycanlıların Rusiya ordusu tərkibində xidmətə maraqla yanaşdıqlarını da qeyd edirdilər. Məsələn, hələ 1915-ci ilin əvvəlində, yəni müharibənin başlanğıc mərhələsində Rusiya Xarici İşlər Nazirliyinin, hərbi strukturların məlumatları əsasında hazırladığı arayışda müsəlmanların çoxunun ölkənin taleyinə biganə qalmadığı, bu xalqların hərbi potensialının ədalətli qiymətləndirilməsi və istifadəsi zəruriliyi bildirilirdi. Arayışda bildirilirdi ki, müharibənin başlanması ilə Rusiyaya qarşı panislamizm təbliğatı ortaya atılsa da, əslində, onun arxasında ciddi bir baza dayanmır. Məhz bunun nəticəsidir ki, müharibənin başlanmasından sonra Qafqazda da vətənpərvərlik nümayişləri keçirilmiş, dua mərasimləri təşkil olunmuşdur. «Vəhşi diviziya»nın ("Dikaya diviziya"nın) təşkil olunması da arayışda Qafqaz xalqlarının, o cümlədən azərbaycanlıların cəbhədə vuruşmaq əzminin nümayişi kimi təqdim olunurdu (65).

Arayışda o vaxtlar hələ general-leytenant olan Səməd bəy Mehmandarov və Hüseyn xan Naxçıvanskinin, 109 nəfərlik bir

dəstə ilə üç Avstriya eskadronunu məğlub edən yasavul Şahrux Darab Mirzənin, ştabs-rotmistr Kərim xan İrəvanskinin, ştabs-kapitan Həsən Əli oğlunun, kornet Cəbrayılovun, podpolkovnik Feyzulla Mirzə Qacarın, kapitan İbrahim ağa Usubovun rus ordusu sıralarındakı bacarıqlı xidmətinə də yüksək qiymət verilmişdi.

Yəni Azərbaycan da Rusiyanın tərkib hissəsi kimi, müharibə dövrünün qayğıları ilə yaşayırdı və həm Bakı, həm Yelizavetpol (Gəncə), həm də digər şəhərlər müharibə dövrünün şəhərlərinə çevrilmişdilər.

Azərbaycanı əhatə edən Bakı, Yelizavetpol və İrəvan quberniyalarının daxil olduğu Qafqaz Cəbhəsi I Dünya müharibəsi dövründə Qafqaz Cəbhəsinin arxa rayonunu təşkil edirdi. Bu hərbi dairədə 25 ehtiyat alayı, 22 könüllü piyada drujinası var idi. 1917-ci il yanvar ayının əvvəlində bu hissələrin şəxsi heyətinin ümumi sayı 230 min nəfər idi (66).

Qafqaz Cəbhəsinə daxil olan hissələrdən bir çoxu Azərbaycan ərazisində yerləşirdi. Məsələn, 279-cu ehtiyat piyada alayı Bakıda, 218 və 219-cu ehtiyat piyada alayları isə Yelizavetpolda (Gəncədə) yerləşirdi. 1915-ci il noyabrın 22-də Bakıda dəniz aviasiyası məktəbi də açıldı. Bu məktəbin açılması I Dünya müharibəsi illərində rus ordusunda pilot kadrlarına olan böyük ehtiyacın aradan qaldırılması ilə bağlı idi. Bunu nəzərə alaraq Bakıda Peterburq dəniz aviasiyası zabit məktəbinin şöbəsi təsis edildi. Məktəbin bazası Bakının dənizkənarı buxtasında yaradılmışdı. Mövcud olan məlumatlara görə, məktəbin açılması çox təntənəli şəkildə təşkil edildi. Öncə din xadimləri məktəbə xeyir-dua vermiş, sonra məktəbin bayrağı qaldırılmış, daha sonra isə hidroplanlarda nümayiş uçuşları icra edilmişdi. Məktəbin rəisi, I dərəcəli kapitan A.Yanovski təyin edilmişdi. Həmin məktəb öz fəaliyyətini bolşevik çevrilişinə qədər davam etdirdi və 1917-ci ilin sonuna qədər bu məktəbdə 40 zabit, 17 nəfər aşağı çin və 20 dəniz təyyarəçisi yetişdirildi (67).

Bəzi məlumatlara görə, I Dünya müharibəsi cəbhələrində 200-ə qədər azərbaycanlı zabit xidmət edirdi (68). Lazımi statistika olmadığı üçün onların sayının daha çox olduğu ehtimal

edilsə də, hər halda bu zabitlərin hamısının xidmət yolunu izləmək mümkün deyil. Lakin əldə olan faktlar azərbaycanlıların hərbi istedadını və bacarığını bir daha nümayiş etdirir. Ən müxtəlif şəraitdə azərbaycanlı zabitlər yüksək peşəkarlıqları ilə böyük hərbi qabiliyyətə malik olduqlarını sübut etdilər. Heç şübhəsiz ki, onların arasında Hüseyn xan Naxçıvanski, Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskinin fəaliyyəti Azərbaycanın hərb tarixinin ən parlaq səhifələrini təşkil edirlər. Onların hər üçü hələ Birinci Dünya müharibəsi başlamazdan əvvəl məsuliyyətli vəzifələrə təyin edilərək yüksək hərbi rütbələrə layiq görülmüşdülər.

Hüseyn xan Naxçıvanski 1907-ci ildə həm məşhur leyb-qvardiya atlı alayına komandir təyin edildi, həm də general-mayor rütbəsi ilə təltif edildi. 1911-ci ildə o, artıq general-leytenant idi və 1912-ci ildən isə 1-ci əlahiddə süvari briqadasına komandirlik etməyə başlamışdı. 1914-cü ilin əvvəllərində Hüseyn xan daha böyük bir vəzifəyə təyinat aldı və o, 2-ci süvari diviziyasına komandiri vəzifəsinə təyin edildi. Birinci Dünya müharibəsinin başlanmasının ilk günlərindən Hüseyn xan da cəbhəyə yollandı. O, şimal-qərb cəbhəsinə ezam edildi və burada ona yığma süvari korpusuna komandanlıq etmək tapşırıldı. Bu yığma korpusun tərkibinə 1-ci və 2-ci qvardiya süvari diviziyaları və 2-ci və 3-cü süvari diviziyaları daxil idi. Hüseyn xanın komandanlıq etdiyi korpus bu cəbhədə əməliyyat aparan 1-ci Ordunun döyüş açılışını təmin etməklə onun sağ cinahının mühafizəsini də öz üzərinə götürməli idi. 1914-cü il avqust ayının 4-də 1-ci Ordu dövlət sərhədinə doğru hərəkətə başladı. Hüseyn xanın korpusu da 1-ci Ordunun sağ cinahında mövqe tutmuşdu. İlk gün süvari korpusu xüsusi bir çətinlik çəkmədən bir neçə məntəqəni ələ keçirdi. Amma bu vəziyyət uzun çəkmədi. Səhəri gün süvari korpusu Vitqiren-Malvişken xəttində alman qüvvələrinin güclü müqaviməti ilə rastlaşdı. Almaniya ordusunun 44-cü və 45-ci alayları və süvari qüvvələri Hüseyn xanın süvarilərinin irəliləməsinin qarşısını almağa çalışdı. Çünki almanlar yaxşı bilirdilər ki, Hüseyn xanın sürətlə irəliləməsi bölgədəki dəmir yolları qovşağında yerləşən İnsterburq şəhərinin itirilməsi ilə nəticələnə bilərdi ki, bu da Keniqsberqin vəziyyətini xeyli mürək-

kəbləşdirə bilərdi. Ona görə Hüseyn xan öz süvariləri ilə avqustun 5–6-da burada Birinci Dünya müharibəsinin ilk ciddi sınağı ilə qarşılaşdı. Alman qüvvələrinin say üstünlüyü bu döyüşün gərginliyini daha da artırdı və buna baxmayaraq, Hüseyn xanın süvariləri böyük itkilərlə üzləşsələr belə öz mövqelərindən geri çəkilmədilər. Əksinə, onların davamlı müqaviməti alman qüvvələrini geri çəkilməyə məcbur etdi. Bu döyüş uğurla başa çatsa da, Hüseyn xanın süvari birləşmələri böyük itki ilə üzləşdi və bu da yığma korpusun sonrakı döyüş fəaliyyətinə öz təsirini göstərdi (69)

Avqustun 12-dən həmin ayın sonuna kimi gedən döyüşlər Hüseyn xanın sərkərdəlik istedadının yeni bir nümayişinə çevrildi. Doğrudur, alman qoşunlarının ümumi mövqe döyüşlərində üstünlük əldə etməsi, I Ordunun əməliyyatlarının kifayət qədər mürəkkəb keçməsi bütünlükdə cəbhədə təşəbbüsün əsaslı şəkildə ələ alınmasına imkan vermirdi. Amma Hüseyn xan və onun rəhbərliyi altında olan süvarilər bütün gücü və iradəsi ilə verilən tapşırıqların icrasına səfərbər olunurdular. Bunun nəticəsi idi ki, avqust ayının sonunda Hüseyn xanın rəhbərlik etdiyi yığma süvari korpusunun 10 min nəfərlik şəxsi heyətinin yarısı artıq sıradan çıxmışdı. Ona görə süvarilər ön cəbhədən geri çəkildilər. Hüseyn xan bu döyüşlər zamanı kiçik zədə aldı, göstərdiyi şücaətə görə isə Müqəddəs Georgi ordeninin 3-cü dərəcəsinə layiq görüldü. Təqdimat sənədlərində deyilirdi ki, 1914-cü il avqust ayının 6-da 1-ci Ordunun cinahının mühafizəsinə vəzifələndirilmiş Hüseyn xan bu cinaha təhlükə yaradan düşmənə qarşı qətiyyətli döyüşə atıldı, düşmən qüvvələrinə böyük itki yetirməklə onları geri çəkilməyə məcbur etdi və bununla rus qoşunlarının hücumuna əlverişli şərait yaratdı. Güclü döyüşlərdən sonra Hüseyn xan dəmir yolu qovşağını ələ keçirərək düşmənin böyük benzin və kerosin ehtiyatlarını partlatdı. Hüseyn xanın döyüş xidmətlərində həm də onun sonrakı uğurlu döyüşləri və bu uğurlarla rus qoşunlarının ümumi fəaliyyətinə kömək etməsi də qeyd olunmuşdu (70)

Bundan sonra Hüseyn xan başqa bir birləşməyə komandan təyin edildi. Şimal-qərb cəbhəsindən geri dönəndən sonra Hüseyn xan

sentyabr ayının 15-də Rusiya imperatoru II Nikolayla görüşdü. Bir müddət sonra, yəni 1914-cü il oktyabr ayının 13-də 2-ci süvari korpusuna komandir təyin edildi (71). Bu korpus Cənub-qərb cəbhəsində yerləşirdi və onun tərkibinə 12-ci süvari diviziyası və «Vəhşi diviziya» daxil idilər. Bu cəbhədə də Hüseyn xan özünəməxsus əzmkarlıqla döyüş yolunu davam etdirdi. 1914-cü il noyabr ayının 16-da Müqəddəs Vladimir ordeninin 2-ci dərəcəsi ilə (qılıncla), 1915-ci il may ayının 1-də isə Ağ qartal ordeni ilə (qılıncla) təltif edildi.

Hüseyn xanın Cənub-qərb cəbhəsindəki xidməti 1915-ci il avqust ayının sonlarına kimi davam etdi. O, sentyabr ayının 13-də Qafqaz canişini, Qafqazdakı qoşunların baş komandanı böyük knyaz Nikolay Nikolayeviçin sərəncamına göndərildi. Eyni zamanda o, 2-ci süvari korpusunun komandanı vəzifəsində də saxlanıldı. 1916-cı il yanvar ayının 23-də Hüseyn xan tam süvari generalı rütbəsinə layiq görüldü. Həmin il aprel ayının 23-də isə o, yeni təşkil edilmiş süvari qvardiya korpusunun komandanı vəzifəsinə təyin edildi və yenidən Cənub-qərb cəbhəsinə göndərildi. Bu vəzifədə də o, Birinci Dünya müharibəsi cəbhələrindəki fəaliyyətini başa vurdu (72).

Fevral inqilabından sonra Müvəqqəti hökumətə tabe olmaqdan imtina edən H.Naxçıvanski ordudan istefa verdi (73) və 1919-cu ildə Petroqradda vəfat etdi.

Müharibənin başlanğıcında Ə.Şıxlinski Petroqradın topçu rəisi vəzifəsinə təyin edilmişdi. Mahir topçu kimi Petroqradın müdafiəsinin təşkilində Ə.Şıxlinskinin xidmətləri az deyildi. Dəfələrlə o, cəbhə xəttinə çıxaraq müdafiə planlarının dəqiqləşdirilməsində əyani şəkildə iştirak etmişdi. 1915-ci il yanvarın 31-də Ə.Şıxlinski Şimal-qərb cəbhəsinə göndərildi ki, burada ağır topların fəaliyyətində bir canlanma yaratsın. Həmin ilin sentyabrında isə Ə.Şıxlinski Ali Baş Komandanın qərargahına göndərildi. Burada fəaliyyət göstərməklə Ə.Şıxlinski bütünlükdə orduda topçu qüvvələrinin işinin yenidən qurulması və canlandırılması üçün səmərəli fəaliyyət göstərdi. Yəni onun bilik və bacarığı, topçuluq sahəsindəki məharəti və təcrübəsi Rusiya Silahlı Qüvvələrinin ali

komandanlığı tərəfindən də layiqincə qiymətləndirildi. Ali Baş Komandanlıq stavkasının təmsilçisi kimi Ə.Şıxlinski cəbhə bölgələrinə səfərlər edir, artilleriya xidmətinin dövrün tələbləri səviyyəsində təşkil olunmasına rəhbərlik edirdi. Bütün bu xidmətlərinə görə Ə.Şıxlinski 1917-ci il aprelin 2-də general-leytenant rütbəsinə layiq görüldü. Onun hərbi xidmətləri Rusiyanın və xarici dövlətlərin yüksək dövlət mükafatları ilə qiymətləndirilmişdi.

Birinci Dünya müharibəsi başlananda Səməd bəy Mehmandarov artıq piyada diviziyasının komandiri idi. Bu müharibə hərbi təcrübə baxımından Mehmandarovun həyatında silinməz səhifələr açdı. Dünya müharibəsinin siyasi mahiyyətinə varmadan sırf peşəkarlıq baxımından yanaşılarsa, Səməd bəy bir hərbçi kimi nəyə qadir olduğunu bu müharibənin gedişində sübut etdi. Mehmandarovun Birinci Dünya müharibəsi illərindəki xidmət yolu barədə də hazırda kifayət qədər məlumat əldə olmasa da, bir sıra məqamlara diqqət yetirmək yaxşı olar. Əvvəla, S.Mehmandarovun akademiya təhsili yox idi. Buna baxmayaraq, o, savadı, istedadı və bacarığı ilə çox yüksəklərdə dayanırdı. Mehmandarovun özü canlı bir akademiya sayılırdı və xidmət həyatına tələbkarlıqla yanaşan zabitlər həmişə ondan öyrənməyə çalışırdılar. Birinci Dünya müharibəsi illərində göstərdiyi təşkilatçılıq qabiliyyəti də nümayiş etdirdi ki, Mehmandarovun istedadı onun təhsil səviyyəsi ilə deyil, komandirlik istedadı və duyumu ilə qiymətləndirilməlidir. Akademik təhsili olmayan bir zabit yalnız böyük bacarıq sayəsində, ümumiyyətlə hərbi xidməti çox sevdiyinə, döyüşdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi. (74).

Birinci Dünya müharibəsi illərində Səməd bəy Mehmandarov tam artilleriya generalı rütbəsinə layiq görüldü. Millətçi şovinizmin və dini təəssübkeşliyin mövcud olduğu bir orduda azərbaycanlı hərbçi Səməd bəy Mehmandarovun tam artilleriya generalı rütbəsinə layiq görülməsi də onun istedad və şücaətinin nümayişidir.

Nəhayət, Birinci Dünya müharibəsi illərində Səməd bəy Mehmandarov sırf topçu vəzifəsində deyil, ümumqoşun komandanlığı

vəzifələrində xidmət etmişdir. Əvvəlcə, 21-ci piyada diviziya komandiri, sonra operativ dəstə komandiri və nəhayət, 2-ci Qafqaz korpusunun komandiri olmuşdur. Həmin vəzifələri də bacarıqla yerinə yetirdiyi üçündür ki, ona pillə-pillə daha məsuliyyətli vəzifələr tapşırılmışdı. Bu da Mehmandarovun komandanlıq məharətinin yeni bir tərəfi idi.

Birinci Dünya müharibəsi cəbhəsində Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyasının iştirak etdiyi ağır əməliyyatlardan biri Varşava-İvanqorod əməliyyatı idi. Lodz şəhəri ətrafında hərbi vəziyyətin xeyli mürəkkəb olmasına baxmayaraq, Mehmandarov bu istiqamətdə almış olduğu tapşırığın icrasına bütün qüvvəsini səfərbər etdi. Mehmandarovun diviziyasının döyüşə qatılması və bütünlükdə qəbul edilən tədbirlər Lodz ətrafındakı döyüşlərin rus qoşunlarının uğuru ilə bitməsinə imkan verdi. Həmin uğurun əldə edilməsində Mehmandarovun diviziyasının öz rolu var idi (75).

Mehmandarovun diviziyasının iştirak etdiyi digər əməliyyatlardan biri də 1914-cü ilin sentyabrında İvanqorod ətrafında aparılan əməliyyat idi. Həmin vaxt 21-ci piyada diviziyası 3-cü Qafqaz korpusunun, həmin korpus isə 4-cü rus ordusunun tərkibinə daxil idi. İvanqorod ətrafındakı əməliyyatda 3-cü Qafqaz korpusu 4-cü ordunun sağ cinahında olmaqla, rus qoşunlarının 9-cu ordusunun geri çəkilməsi zamanı təhlükəsizliyi təmin etməli idi. Əməliyyatın gedişində Mehmandarovun 21-ci diviziyası İvanqorodun cənubunda idi. Öz sahəsində diviziya geri çəkilməkdə olan qüvvələrin mühafizəsini lazımi şəkildə təmin etdi və sonra geri çəkilmiş olan 47-ci piyada diviziyasının yerini tutdu.

3-cü korpusun tərkibində operativ komandanlığın yüksək tələblərə cavab verməməsi, birləşmələr arasında əlaqələrin düzgün qurulmaması üzündən Mehmandarovun diviziyası heç də həmişə uğurlar qazanmırdı. Diviziyanın mürəkkəb şəraitə düşdüyü, ağır itkilər verdiyi anlar da olmuşdu. Bununla belə Mehmandarovun çevik rəhbərliyi, hadisələri irəlicədən duyma qabiliyyəti ona heç də az uğur gətirməmişdi. Kozenitse ətrafındakı döyüşlərdə bir sıra başqa diviziyaların hissələri də Mehmandarovun komandanlığı altına verilmişdi. Say tərkibi etibarilə Mehmandarovun koman-

danlığı altında olan qoşunların şəxsi heyətinin sayı az qala bir korpusun şəxsi heyətinin sayı qədər idi. Mehmandarovun birləşməsinin də fəal iştirak etdiyi Kozenitse ətrafındakı əməliyyatda rus ordusu növbəti bir uğur əldə etdi (76).

Mehmandarov 1914-cü ilin sonuna kimi 21-ci piyada diviziyasının komandiri oldu. Həmin müddət ərzində diviziya başqa əməliyyatlarda da iştirak etdi. Bu zaman Mehmandarovun diviziyası ayrıca deyil, əsasən 3-cü korpusun tərkibində vəzifə icra edirdi. Ona görə də ümumi uğur çox zaman əməliyyatın aparılmasının ümumi təşkilindən asılı olurdu. Ancaq bu cəhət də Mehmandarovun hərbi keyfiyyətlərinin açılmasına mane olmurdu. Nəticədə isə Birinci Dünya müharibəsi illərində Mehmandarov kifayət qədər nüfuz qazanmışdı.

1914-cü ilin sonuna yaxın Mehmandarov 21-ci diviziyanın komandirliyini təhvil verdi. Sonra o, daha məsul bir vəzifəyə təyin edildi. Mehmandarova birləşmiş əməliyyat dəstəsinə rəhbərlik tapşırıldı. Çox güman ki, bu birləşmiş əməliyyat dəstəsi müvəqqəti olaraq müharibə dövrü üçün yaradılmışdı. Həmin dəstənin tərkibinə iki piyada diviziyası, iki briqada və iki piyada alayı daxil idi. Yəni bu dəstə öz həcminə görə korpusa yaxın olan bir birləşmə idi. Mehmandarovun əməliyyat birləşməsi 17-ci korpusla 3-cü Qafqaz korpusunun əməliyyat rayonunda fəaliyyət göstərirdi.

Müharibənin elə ilk ilində, 1914-cü il dekabr ayının 12-də Səməd bəy Mehmandarov 2-ci Qafqaz korpusunun komandiri təyin edildi. Sonralar Səməd bəy şəxsi işində qeyd etmişdi ki, korpus komandirliyi çar ordusunda onun sonuncu vəzifəsi idi. Rus ordusunda korpus kifayət qədər böyük bir birləşmə idi. Onun tərkibinə iki piyada diviziyası, süvari hissələri, kazak hissələri, mortir-topçu divizionu, istehkam taboru, teleqraf bölüyü, mühəndis parkı daxil idi. Korpusun şəxsi heyəti 48 min nəfər idi.

Birinci Dünya müharibəsi illərində S.Mehmandarovla Ə.Şıxlinski tamam başqa-başqa birləşmələrdə olsalar da, xidmət yollarının kəsişdiyi anlar da olmuşdu. Bu barədə Ə.Şıxlinskinin xatirələrində kiçik bir qeyd də vardır: «1916-cı ilin baharında Krevo qəsəbəsi xarabaları məntəqəsində alman mövqelərinə hücum et-

mək qərara alındı. Bu hücum əməliyyatı 4-cü orduya həvalə edilmişdi. Mən topçuların əməliyyat planını tərtib etmək və planı yerinə yetirmək məsələlərində ümumi rəhbərlik etmək üçün ora göndərilmişdim. Hücumda qabaqca iki böyük meşəni keçmək lazım idi. General Mehmandarovun komandir olduğu 2-ci Qafqaz korpusu məntəqəsində Boquşinsk meşəsi, general Tsurikovun komandirlik etdiyi 24-cü ordu korpusu önündə isə Pepeliçevsk meşəsi vardı. Boquşinsk meşəsinin sol talası düzbucaq halında Pepeliçevsk meşəsinin ön talasına doğru uzanmışdı. General Tsurikov təkidlə iddia edirdi ki, 2-ci Qafqaz korpusu Boquşinsk meşəsini tutmayınca 24-cü korpus irəliləyib Pepeliçevsk meşəsinə hücum edə bilməz.

General Mehmandarov isə başqa şey iddia edirdi: Boquşinsk meşəsi başdan-başa tikanlı məftil ilə çəpərlənmişdir, onu hücumla tutmaq mükün deyildir. Buna görə də əvvəlcə bu meşəni top atəşilə dağıdıb almanları oradan qovmaq lazımdır; onun korpusu yalnız bu zaman oranı tuta bilər».

1917-ci ildə fevral inqilabının baş verməsi ilə Səməd bəy Mehmandarovun həyatının və xidmət yolunun böyük bir mərhələsi başa çatdı. O, rus ordusundan istefa verdi. Çar ordusunda xidmət etdiyi müddət ərzində Səməd bəy peşəkarlıq baxımından zəngin bir yol keçdi, sonsuz  təcrübə əldə etdi, tam general rütbəsinədək yüksəldi. Bu müddət ərzində o, Müqəddəs Georgi ordeninin 3-cü və 4-cü dərəcələri ilə, Stanislav ordeninin 1-ci, 2-ci və 3-cü dərəcələri ilə, Anna ordeninin 1-ci, 2-ci və 3-cü dərəcələri ilə, Vladimir ordeninin 2, 3 və 4-cü dərəcələri ilə, Ağ qartal və Aleksandr Nevski ordenləri ilə, habelə birilliantla bəzədilmiş qızıl silahla təltif edildi.

Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsində olmuş podpolkovnik Həbib bəy Səlimov Azərbaycanın hərb tarixində Rusiya Silahlı Qüvvələri Baş Qərargah Akademiyasını bitirmiş ilk azərbaycanlılardan biridir (77), Avropa cəbhələrində vuruşmuş poruçik Fərrux ağa Qayıbov isə ilk azərbaycanlı hərbi təyyarəçi kimi yadda qalmışdır (78). I  Dünya müharibəsi illərində rus ordusu sıralarında xidmət keçmiş polkovnik Seyfulla Bəhmən Mirzə, polkovnik Vəli bəy Yadigarov, Cavad bəy Şıxlinski, Xosrov

Mirzə Qacar, Əhməd bəy Dibirov, Gəray bəy Vəkilov, Lətif bəy İbrahimbəyli, Fikrət Ağalarov, Osman ağa Gülməmmədov və başqaları da (79) Azərbaycan xalqına məxsus olan ən yaxşı hərbi ənənələrin davamçıları idilər. Bütünlükdə isə siyasi mahiyyətinə baxmayaraq, çar ordusu tərkibində alınan təcrübə Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşdırılması üçün dəyərli bazaya çevrildi.

Bütün bunlarla bərabər, Birinci Dünya müharibəsinin başlanması və Rusiyanın Türkiyəyə qarşı müharibə elan etməsi Azərbaycanın müəyyən dairələrində təbii bir nigarançılığa da səbəb oldu. Çünki Rusiya və onun müttəfiqləri bu müharibədə qarşıya müştərək din, dil, məfkurə dəyərlərinə malik Türkiyənin parçalanması və məhv edilməsi məqsədini qoymuşdular ki, bu da Azərbaycanın ictimai dairələrində birmənalı qarşılanmırdı. Ona görə Türkiyəyə və türk xalqına qarşı təəssübkeşlik Azərbaycan daxilində günü-gündən genişlənməyə başladı və bu təəssübkeşliyin əməli nümayişi kimi çoxlu sayda azərbaycanlı rejimin təqiblərinə baxmayaraq, gizli şəkildə Türkiyənin müdafiəsinə yollandılar və türk xalqının mübarizəsinə qatıldılar. Dəqiqləşdirilməsi çətin olan bəzi məlumatlara görə, azərbaycanlılardan ibarət könüllülər müxtəlif cəbhələrdə Osmanlı ordusu tərkibində vuruşmuşdular və Çanaqqala döyüşlərində 3 min nəfərə yaxın azərbaycanlı könüllüsü şəhid olmuşdu (80).

Rusiyanın Türkiyəyə qarşı müharibəyə başlamasına etiraz yalnız azərbaycanlılar arasında deyil, Rusiyada yaşayan bütün müsəlmanlar arasında özünü göstərməkdə idi. Bu etirazın daha da genişlənməsi üçün Türkiyə rəhbərliyi də öz səylərini əsirgəmirdi. Bununla əlaqədar Türkiyənin ictimai-siyasi dairələri Rusiya müsəlmanları arasında təbliğat işlərinin genişləndirilməsinə xüsusi diqqət yetirirdilər. Qeyd etmək lazımdır ki, Osmanlı sultanı islam dünyasının xəlifəsi idi və onun dini məsələlər üzrə hər bir hökmü islam aləmi üçün fitva xarakteri daşıyırdı. Müharibənin başlanması ilə Osmanlı sultanı bu səlahiyyətindən istifadə etdi və Rusiya və onun müttəfiqlərinə qarşı müharibəyə başlanması barəsində fitva verdi. Bununla, əslində, Rusiya müsəlmanları qarşısında da dini

fitvanın yerinə yetirilməsi tələbi qoyuldu.

Osmanlı sultanının fitvası ilə əlaqədar Türkiyə hökuməti tərəfindən Rusiya müsəlmanlarına xüsusi bir müraciət də hazırlandı. Həmin müraciətdə deyilirdi: «Rusiya Avstriya və Almaniyaya müharibə elan etmişdir. O, Osmanlı imperatorluğuna aman verməmiş və müsəlman torpaqlarına soxulmuşdur. Bu isə osmanlıların imperatoru, bütün müsəlman dünyasının xəlifəsi, imperator həzrətləri V Sultan Mehmet xanı məcbur etmişdir ki,... Rusiya və onun müttəfiqləri olan Fransa və İngiltərəyə müharibə elan etsin. İndi bizimkilər və Osmanlı ordusu hər yerdə bizim ümumi düşmənimizlə müharibə edir. Osmanlı ordusu Batuma yaxınlaşır. Onlar hər tərəfdən Qafqaza axışır. Qafqazın müsəlman tayfaları Osmanlı qardaşları ilə birlikdə vuruşurlar. Rusiyanın hərbi donanması Qara dənizin limanlarına sıxılmış və oradan çıxmaq imkanına malik deyillər. Xəlifə sultan rus, ingilis və fransızlara qarşı müqəddəs müharibənin fitvayi-şərifini elan etmişdir.

...Xəlifənin bu əmrini, fitvanın məzmununu rus ordusunun sıralarında olan müsəlman əsgər və zabitlərə çatdırırıq. İslamın, xəlifənin və Osmanlı imperiyasının qatı və barışmaz düşməni olan rus ordusunun sıralarını tərk edin...» (81).

Azərbaycanlılar arasında Türkiyəyə qarşı etnik-dini təəssübkeşliyin, məfkurə bağlılığının mövcudluğu və onların real təsirə malik olması çar rejiminin yerlərdəki hakimiyyət orqanlarına lazımınca məlum idi və ona görə də Türkiyə tərəfindən azərbaycanlılara və Rusiya müsəlmanlarına göstərilən təsirlərin zəiflədilməsi və qarşısının alınması üçün qətiyyətli addımlar atılırdı. Çar rejiminin hakimiyyət dairələri istisna etmirdi ki, ən müxtəlif sahələrdə mövcud olan qarşılıqlı əlaqələrlə bərabər, müsəlmanlar üçün müqəddəs olan «Quran»a istinad edən, milli fərqləri və təbəələri nəzərə almadan müsəlmanların qardaş olmasını xatırladan və xristian dövlətlərində islam dininə ibadət edənlərin guya zülm və təqiblərə məruz qalmalarını göstərən müraciət kifayət qədər təsirli ola və müsəlmanlar arasında arzulanmaz həyəcanların baş verməsinə şərait yarada bilər (82).

Buna görə də Qafqaz canişinliyi adı çəkilən müraciət ətrafında

azərbaycanlılar və Qafqaz müsəlmanları arasında aparılan təbliğatın qarşısının sərt şəkildə alınmasını, həmin məzmunda vərəqlərin tapılacağı halda dərhal müsadirə olunmasını tələb edirdi.

Müharibə ərəfəsində və illərində Türkiyə ilə Azərbaycan arasında əlaqələrin artması, gediş-gəlişin çoxalması rejimin orqanları tərəfindən çox böyük təşvişlə izlənilirdi. Ehtimal edilirdi ki, Cənubi Qafqaza gəlmiş türk təbəələri burada Rusiya əleyhinə müsəlmanlar arasında ittifaq və birliyin gücləndirilməsi istiqamətində təbliğat apara bilərlər. Ona görə Qafqaz canişinliyinin Xüsusi şöbəsi tələb edirdi ki, Cənubi Qafqaza gəlmiş türk vətəndaşlarının izlənilməsi gücləndirilsin və bu işin həyata keçirilməsi üçün xüsusi nəzarət məntəqələri yaradılsın. Türk vətəndaşlarının nəzarəti şəhər daxilində, ticarət-sənaye mərkəzlərində, mehmanxanalarda, karvansaralarda aparılmasına ciddi diqqət yetirilirdi. Hətta Türkiyədəki Rusiya konsulluğunun icazəsi ilə Qafqaza gələn türklər də gizli nəzarət altında saxlanmalı idilər. Nəzarət işlərinin aparılması üçün başlanğıc olaraq Qafqaz ordusu qərargahından Qafqaz canişinliyinin Xüsusi şöbəsinə 1000 rubl vəsait ayrılmışdı. Görülən işlərin xərcləri ilə bağlı əlavə hesablar təqdim ediləcəyi halda maliyyə vəsaitləri daha da artırılmalı idi. Müəyyən edilmişdi ki, müsəlmanlar arasında təbliğata cəhd göstərən türk vətəndaşının tutulması üçün 200 rubl mükafat verilsin (83).

Qeyd edildiyi kimi azərbaycanlıların müəyyən dairələrinin hələ Türkiyə–Balkan müharibəsi dövründə Türkiyəyə rəğbət bəsləmələri məlum idi və çar orqanları da bu məsələdən xəbərsiz deyildilər. I Dünya müharibəsinin başlanması ilə türkmeylliliyinin kütləvi xarakter almasının və bunun əməli fəaliyyətə çevrilməsinin qarşısını almaq üçün azərbaycanlı əhalidə olan silahların toplanmasına qərar verildi. Qafqaz canişinliyində olan məlumatlara görə, azərbaycanlı əhalidə 50 min ədəd silah var idi. Yelizavetpol qubernatoru G.Kovalyov azərbaycanlı əhalidə bu qədər silahın olmasına şübhə ilə yanaşsa da, hər halda müharibənin başlanması ilə dərhal silahların toplanmasına başlandı. Bununla bərabər, qəzalarda müəyyən rəhbər vəzifələrdə olan azərbaycanlıların Rusiyaya sədaqətli olmasının yoxlanılmasına qərar verildi. Müharibə getdiyi bir vaxtda onların yüksək vəzifələrdə saxlanması qey-

ri-məqsədəuyğun sayılırdı (84).

Rusiya hakimiyyət orqanları tərəfindən 1916-cı ilin yayında müsəlman əhalinin arxa cəbhədə fiziki işlərin görülməsi üçün səfərbərliyə alınması fikri ortaya atıldı. Bu barədə mətbuata müxtəlif məlumatlar da çıxarıldı. Nəzərdə tutulmuşdu ki, Qafqazdan 19 yaşından 45 yaşına qədər olan 80 min kişi əhalisi işçi qüvvəsi kimi arxa cəbhənin möhkəmləndirilməsinə cəlb edilsin (85). Amma bu ideya azərbaycanlı əhali tərəfindən kəskin etirazla qarşılandı. Çünki bir tərəfdən bölgənin erməni, gürcü və yəhudi əhalisi orduya cəlb edildiyi halda, azərbaycanlı əhali orduya yox, köməkçi fiziki işlərin görülməsinə cəlb olunmalı idi, digər tərəfdən ermənilərin kütləvi şəkildə çar ordusuna cəlb edilməsi bölgədəki qoşunların tərkibində onların sayını da xeyli artırırdı və erməni millətçiliyinin təcavüzkarlığının genişlənməsi üçün obyektiv bir zəmin yarada bilərdi. Məsələn, Birinci Dünya müharibəsinin başlanmasından 1917-ci il fevral ayının 1-nə qədər Cənubi Qafqazdakı 304164 nəfər ordu sıralarına çağırılmışdı. Onların arasında ruslar da az deyildi. Ancaq ermənilər daha çox idilər. Konkret olaraq bu çağırılanlardan 121921 nəfəri erməni, cəmi 1314 nəfəri isə azərbaycanlı idi (86).

İstisna edilmirdi ki, öz millətçi məqsədlərini həyata keçirmək üçün belə kütləvi şəkildə orduya çağırılan ermənilər onlara paylanmış silahları azərbaycanlılara qarşı çevirə bilərlər. Bu da azərbaycanlı əhalinin əlavə nigarançılığına səbəb olurdu. Orduda ermənilərdən fərqli olaraq azərbaycanlılara silah etibar edilməməsi bölgədəki hərbi-siyasi şəraiti bir qədər də mürəkkəbləşdirə bilərdi. Çünki azərbaycanlıların silahları əllərindən alındığı halda türkçülüyə qənim kəsilmiş ermənilərin silahlanması sürətlə davam edirdi və bunu çar orqanları da təsdiq edirdilər (87). Onların Qafqazdakı rus ordusu sıralarında da sayı çox idi. Bu isə azərbaycanlı ictimaiyyəti narahat etməyə bilməzdi.

Müsəlmanların işçi qüvvəsi kimi arxa cəbhəyə səfərbərliyinin başlanacağının yaradacağı ictimai problemlər də azərbaycanlıların narahatçılığına səbəb olan məsələlərdən biri idi. 19–45 yaşlarında kişilərin fiziki işə səfərbər edilməsi əslində, məntəqələrin işçi

qüvvəsindən məhrum olması demək idi. Dini və milli tələblərə əsasən qadınların çöl işlərinə çıxması ənənəvi sayılmadığı üçün ailələrin çoxlarının məhrumiyyətlərlə qarşılaşacağı nigarançılığa səbəb olurdu. Orduya çağırılan qeyri-müsəlman əhaliyə və onların ailəsinə hər ay təyin olunmuş ödənc verildiyi halda fiziki işlərə çağırılacaq müsəlmanlara aylıq ödənc verilməsi nəzərdə tutulmamışdı. Bu da bir tərəfdən narazılığı artıra bilərdi. Yerli çar orqanları öz məruzələrində qeyd edirdilər ki, müsəlmanların öz ailələrini başsız qoyaraq səfərbərliyə alınması açıq iğtişaşlara çevrilə bilər. Onların, hətta hökumət orqanlarına qarşı kütləvi iğtişaşlara başlayacağı, müxtəlif aksiyalara əl atacağı da istisna edilmirdi. Hətta alınan məlumatlara görə, müsəlmanların fiziki işlərə cəlb edilməsinə başlanacağı halda xüsusi qruplar dəmir yollarını dağıtmağı, teleqraf xətlərini sıradan çıxarmağı, neft mədənlərini yandırmağı və s. planlaşdırırdılar(88). Bakıda yaşayan əhalinin bir hissəsi səfərbərlikdən yaxa qurtarmaq üçün İran pasportu ilə xaricə getməyi, Nuxa, Zaqatala, Göyçay, Ağdaş və s. Məntəqələrdə isə dağlarda, meşələrdə silahlı müqavimət göstərməyi nəzərdən keçirirdilər (89).

Yerli hakimiyyət orqanları yuxarı orqanlar üçün hazırladıqları məruzələrdə konkret tarixi şəraitdə müsəlmanların fiziki işlərə səfərbər edilməsini məqsədəuyğun saymırdılar. Bu məsələ ilə bağlı ictimai gərginlik o dərəcədə artdı ki, Rusiya çarı qarşısında müsəlman əhalinin fiziki işlərə cəlb edilməsinin dayandırılması barədə vəsatət qaldırıldı. Həmin vəsatət təmin edildi və Qafqaz canişininin Qafqaz müsəlmanlarına 20 avqust 1916-cı il tarixli müraciətində çarın fərmanına əsasən müsəlman əhalinin fiziki işlərin icrasına cəlb edilməyəcəyi elan edildi (90).

### *5. «Vəhşi diviziya»nın Tatar (azərbaycanlı) atlı alayı*

Mövcud məlumatlara görə, Birinci Dünya müharibəsinin başlamasından sonra Azərbaycanın milli hərəkatının bir sıra fəalları Qafqaz əhalisinin, o cümlədən də azərbaycanlıların hərbi səfərbərliyə alınmasına münasibətin dəyişdirilməsi və azərbaycanlılardan ibarət hərbi hissələrin təşkil eidlməsi və onların cəbhəyə cəlb edil-

məsi üçün Qafqaz canişini qarşısında məsələ qaldırdılar. Bununla bağlı Ələkbər bəy Rəfibəyli, Xəlil bəy Xasməmmədov və İsmayıl xan Ziyatxanovdan ibarət xüsusi nümayəndə heyəti Tiflisə yollandı və Qafqaz canişini ilə görüşdü ( 91).

Belə təkliflər Qafqazın digər müsəlman xalqlarının nümayəndələri tərəfindən də qaldırılmışdı. Bu təkliflər əsasında Qafqaz canişini tam süvari generalı Voronsov-Daşkov 1914-cü il iyul ayının 26-da Qafqaz xalqlarının nümayəndələrindən ibarət könüllü atlı alaylarının təşkili və cəbhəyə göndərilməsinə razılıq verilməsi barəsində Rusiya Hərbi Nazirliyi vasitəsilə çara müraciət etdi və bir gün sonra, yəni iyul ayının 27-də Rusiya çarının belə alayların təşkilinə icazə verməsi barədə razılığı elan olundu (92).

Qafqaz xalqlarının nümayəndələrindən könüllü atlı alayların təşkili və onların cəbhəyə göndərilməsi ideyası Rusiyanın hakimiyyət dairələri tərəfindən kifayət qədər geniş dəstək qazandı. Ona görə də, belə alayların sayının artırılması və onlardan birləşmə yaradılması məqsədəuyğun bilindi. Bunun nəticəsi kimi, Rusiya çarı II Nikolay 1914-cü il avqust ayının 23-də «Qafqazın yerli xalqlarının atlı diviziyasının» («Кавказская туземная конная дивизия») yaradılması haqqında əmr imzaladı. Bu diviziyanın tərkibi üç atlı briqadadan təşkil edilməli idi: 1-ci briqadaya kabardin və Dağıstan alayları, 2-ci briqadaya tatar (Azərbaycan–M.S.) və çeçen alayları, 3-cü briqadaya isə inquş və çərkəz alayları daxil edilmişdi.

Mövcud faktlarda aydın olur ki, bu diviziyanın təşkili haqqında çarın fərmanı imzalanmazdan əvvəl artıq Qafqazda yerli xalqların könüllü atlı alaylarının toplanmasına başlanmışdı. Qafqaz canişininin könüllü atlı alaylarının təşkili haqqında Hərbi Nazirliyə müraciətindən az sonra Rusiya ordusu Baş Qərargahının Baş idarəsi tərəfindən “Hazırkı hərbi əməliyyatlar dövründə Qafqazın yerli xalqlarından yaradılacaq hissələr haqqında Əsasnamə” hazırlandı və Qafqaza göndərildi. Bu Əsasnaməyə əsasən Çeçen, Çərkəz, Kabardin, Tatar, 2-ci Dağıstan atlı alaylarının və Acar piyada taborunun yaradılması nəzərdə tutulmuşdu. Bu alayların təşkilində

həm məhəlli prinsip, həm də könüllülük prinsipi əsas tutulurdu. Başqa sözlə, alaylar eyni məntəqədən olan könüllülər hesabına komplektləşdirilməli idilər. Təşkil ediləcək yeni alaylar döyüş təcrübəsinə malik olmadıqları və sıra təlimləri keçmədikləri üçün onların ştat strukturuna kazak alaylarının ştatında olan kiçik komandir və xidmət personalının daxil edilməsi məqsədəuyğun bilindi, yəni hər bir alayda – 4 vaxmistr, 17 böyük uryadnik və 17 kiçik uryadnik, 1 qərargah şeypurçusu, 8 şeypurçu və 16 əmr məmuru olmalı idi (93).

Amma təklif edilən bu struktur sonradan təkmilləşdirildi və yuxarıda qeyd edildiyi kimi, üçbriqadalı diviziyanın təşkili rəsmiləşdirildi. Avqustun 23-də Rusiya çarının əmri ilə təşkil edilən yeni atlı diviziyasının komandir heyəti də təyin edildi. Diviziyanın komandiri vəzifəsinə çarın kiçik qardaşı general-mayor, böyük knyaz Mixail Aleksandroviç Romanov təyin edildi. 1915-ci ilin fevralında onu knyaz D.Baqration əvəz etdi. Diviziyanın qərargah rəisi vəzifəsinə isə Litva tatarı olan polkovnik Yakov Davidoviç Yuzefoviç təyin edildi. Y.Yuzefoviç həm müsəlman idi, həm də diviziyaya təyin edilməmişdən əvvəl Ali Baş Komandanın stavkasında xidmət edirdi (94).

Qafqazın yerli xalqlarının atlı diviziyasının tərkibinə üç atlı briqadasından əlavə 2-ci dağ-atlı topçu divizionu, Baltik donanmasının pulemyot dəstəsi, atlı-təxribatçı dəstə, rabitə komandası, avtomobil dəstəsi, motosiklet dəstəsi, 22-ci sanitar dəstəsi, sarğı dəstəsi də daxil idi (95).

Atlı diviziyanın təşkili haqqında Əsasnaməyə əsasən alayların şəxsi heyəti könüllü toplanmaqla bərabər, həm də öz atları və libasları, soyuq silahları və yəhər təchizatı ilə gəlməli idilər. Libaslar çərkəzi libaslar idi. Əgər könüllünün atı yox idisə, ona dövlət hesabına at ayrılırdı. Odlu silahlar isə könüllülərə xidmət yerində verilməli idi. Odlu silahdan başqa könüllülərə xidmətə başladığı zaman yardım kimi 150 rubl verilirdi. Atlılar adlandırılan sıravi heyətə ayda 25 rubl maaş verilirdi. Onlara bədən cəzası verilməsi qadağan olunmuşdu və atlılar zabitlərə “sən” deyə müraciət etmək

hüququna malik idilər. Bu güzəştlər könüllülərə ehtiram kimi qəbul edilmişdi. Qəbul edilmiş qərara görə, atlıların libası da eyni formada – çərkəzi formada olmalı idi. Bəzi atlı alaylarda poqonlar rənglərinə görə fərqlənirdilər. Məsələn, Tatar, Çərkəz və 2-ci Dağıstan atlı alaylarında poqonlar qırmızı rəngdə, Kabardin, Çeçen və İnquş alaylarında isə göy rəngdə olmalı idi. Eyni zamanda hər bir alayın poqonunda bu alaya məxsus fərqləndirici işarələr var idi. Tatar atlı alayının poqonlarında «Тт» hərfləri həkk edilməli idi (96).

Diviziyanın bütün alayları kimi Tatar atlı alayının tərkibində də 4 bölük (yüzlük) nəzərdə tutulmuşdu. Bu bölüklər də hər biri 50 nəfərdən ibarət olan 2 taqımdan təşkil edilməli idi. İlkin təsdiq edilmiş ştat cədvəlinə əsasən alayın tərkibi 22 zabitdən, 3 hərbi məmurdan, 1 alay mollasından, 575 nəfər sıravi heyətdən (atlıdan) və 68 qeyri-nizami məmurdan, cəmi 669 nəfərdən ibarət idi (97).

Bir müddətdən sonra alayın ştatı daha da təkmilləşdirilmiş və onun say tərkibi artırılmışdı. Yeni ştatlara əsasən bölüklərin tərkibi 4 taqımdan təşkil edilmiş və hər taqımda da şəxsi heyətin sayı 60–80 nəfərə çatdırılmışdı. Alayın tərkibinə 50–80 nəfərlik piyada taqımı da əlavə edilmişdi. Ona görə hər bir bölüyün sayı təxminən 250 nəfərə, alayın şəxsi heyətinin ümumi sayı isə təxminən 800 nəfərə çatdırıldı (98).

1914-cü il avqust ayının əvvəllərində Yelizavetpol (Gəncə) şəhərində Tatar atlı alayına könüllülərin yazılışına başlandı. Alayın 1-ci bölüyü Qazax qəzasının, 2-ci bölüyü Şuşa və Cavanşir qəzasının, 3-cü bölüyü Ərəş, Zəngəzur, Qaryagin və Nuxa qəzalarının, 4-cü bölüyü isə Borçalı qəzalarının könüllülərindən komplektləşdirilirdi. Alaya könüllü kimi 21–40 yaş arasında sağlambədənli adamlar qəbul edilirdilər. Bu proses adları çəkilən qəzaların əhalisi arasında böyük maraqla qarşılandı və tələb olunandan da çox sayda könüllü Tatar alayında xidmət üçün yazıldı. Alayın ilkin ştatı 500–600 nəfər atlı tələb etdiyi halda qısa müddət ərzində 2 min nəfər könüllü xidmət etmək arzusunda olduqlarını bildirdilər. Ona görə də əlavə könüllü yazılışını dayandırmaq lazım gəldi (99).

Mövcud məlumatlara görə, qəzalarda könüllülərin toplanması və onların Yelizavetpola yola salınması xüsusi mərasimlərlə müşayiət olunurdu. Könüllülərin xidmətə toplanması əhali arasında da maraqla qarşılanırdı. Xidmətə yollanan könüllülər əvvəlcə məscidə yollanıb dua mərasimlərini yerinə yetirir və sonra da əhalinin müşayiəti ilə yola salınırdılar (100).

Tatar atlı alayının və Qafqazın yerli xalqlarının atlı diviziyasının təşkilinə azərbaycanlı zənginlər və bütünlükdə azərbaycanlı əhali hərtərəfli yardım göstərməyə çalışırdı. Bu məsələ ilə bağlı 1914-cü ilin noyabr ayında milyonçu Hacı Zeynalabdin Tağıyevin evində Bakı müsəlmanlarının nümayəndələrinin xüsusi müşavirəsi keçirildi və Qafqaz müsəlman atlı diviziyasının təşkilatlandırılması üçün maliyyə dəstəyi göstərilsin. Bu qərardan sonra qısa müddət ərzində 50300 rubl vəsait toplandı. Hacı Zeynalabdin Tağıyevlə Musa Nağıyev hər biri bu yardım fonduna 50 min rubl vəsait köçürdü və onlar öz arzularını da bildirdilər ki, həmin vəsait Qafqazın müsəlman atlı diviziyasının sanitar dəstəsinin təşkilatlandırılmasına sərf edilsin. Yardım fonduna pul köçürənlər arasında Musa bəy Əmircanov, Rza bəy Səlimxanov, Məmməd Həsən Hacınski və s. kimi tanınmış şəxslər də var idi. Yardım fonduna vəsait toplanması kütləvi bir hərəkata çevrildi və bununla əhali də azərbaycanlılardan və bütünlükdə Qafqaz müsəlmanlarından könüllü atlı dəstələrinin yaradılmasına öz münasibətini nümayiş etdirdi (101).

1914-cü il sentyabr ayının əvvəllərində Tatar atlı alayının formalaşdırılması başa çatdırıldı. Bu alayın və eləcə də 2-ci Dağıstan atlı alayının formalaşdırılmasının başa çatdırılması münasibətilə diviziyanın komandiri böyük knyaz Mixail Aleksandroviç sentyabr ayının sonlarında Tiflisə gəldi və həmin ayın 29-da burada Qafqaz müsəlmanlarının və azərbaycanlıların nümayəndələri ilə görüşdü. Bölgə müsəlmanlarının, o cümlədən də azərbaycanlıların nümayəndələri könüllü atlı dəstələrinin yaradılması ilə ölkənin müdafiəsinə hazır olduqlarını bəyan etdilər. Böyük knyaz isə qısa müddət ərzində könüllü alaylarının yaradılmasından məmnun ol-

duğunu bildirdi (102).

Qafqaz atlı alaylarının şəxsi heyətinin əsasını müsəlmanlar təşkil etsə də, bu alayların və diviziyanın komandir heyətinin əsasını ruslar və qeyri-müsəlmanlar təşkil edirdilər. Tatar atlı alayının komandiri vəzifəsinə də qeyri-azərbaycanlı podpolkovnik Pyotr Aleksandroviç Polovsov təyin edildi. Mövcud məlumata görə, P.Polovsov hələ Tatar atlı alayı formalaşma prosesində olduğu vaxt Yelizavetpola göndərilmişdi ki, bu prosesə rəhbərlik etsin. 1914-cü il sentyabr ayının 1-də isə o, Tatar atlı alayının komandiri təyin edildi. P.Polovsov Bessarabiya quberniyasının zadəgan ailəsinə mənsub olmaqla 1874-cü il may ayının 30-da Peterburqda anadan olmuş, Sankt-Peterburq tarix-filologiya gimnaziyasını, sonra isə Nikolayev süvari məktəbini və nəhayət, Rusiyanın Baş Qərargah Akademiyasını bitirmişdi. Rus-yapon müharibəsinin iştirakçısı olmuş və həmin müharibədəki xidmətlərinə görə 4 ordenə layiq görülmüşdü. 1909-cu ildə o, piyada diviziyasının qərargah rəisi vəzifəsinə təyin edilmiş, 1911-ci ildə isə Baş Qərargahın ehtiyat tərkibinə keçirilmişdi. Qafqazda könüllü alayların təşkilinə başlananda P.Polovsov səfərbərliyə alınaraq Tatar atlı alayının komandiri təyin edildi (103 ).

Bütünlükdə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə qədər tatar atlı alayının P.Polovsovdan başqa daha iki komandiri olmuşdu. Onlar – F.N.Bekoviç-Çerkaski və L.L.Maqalaov idi. Onların hər ikisi polkovnik idi və atlı diviziyasının təşkil edildiyi gündən onun sıralarında xidmətə başlamışdılar. Bekoviç-Çerkaski Kabardin atlı alayının komandir müavini, L.Maqalaov isə Tatar atlı alayının 4-cü bölüyünün komandiri kimi xidmətə başlamışdı. Alayın 1-ci bölüyünün komandiri vəzifəsinə rotmistr Şahverdi xan Ziyadxanov, 2-ci bölüyünün komandiri vəzifəsinə ştabs-rotmistr Pavel Zverev, 3-cü bölüyünün komandiri vəzifəsinə isə rotmistr knyaz A.B.Amilaxvari təyin edildilər. Azərbaycanlı zabitlərin sayına gəlincə isə alayın təşkil ediliyi vaxtlar onların sayı çox az idi. Rotmistr Ş.Ziyadxanovdan başqa alayda daha iki azərbaycanlı zabit – ştabs-rotmistr Nuh bəy Sofiyev və kornet Cəlal bəy Sulta-

nov var idi. Sonradan zabitlərin sayı tədricən artmağa başladı. 1917-ci ilin ortalarında Tatar atlı alayında yuxarıda adları çəkilən azərbaycanlı zabitlərdən başqa bu zabitlər də xidmət edirdilər: ştabs-rotmistr Cəmşid xan Naxçıvanski, ştabs-rotmistr İsrafil bəy Yadigarov, praporşik Əlimurad bəy Vəzirov, praporşik Səlim bəy Sultanov, praporşik Sayad bəy Zeynalov, praporşik Zeynalabdin Sadıxov, praporşik Osman ağa Gülməmmədov, praporşik İdris ağa Qacar, praporşik Ələkbər Hacıyev, praporşik Faisməmməd Mustafayev, kornet Xudadad bəy Xudaverdiyev, kornet Zülfüqar bəy Sultanov da xidmət edirdilər. Polkovnik Feyzulla Mirzə Qacar isə bir müddət Tatar atlı alayında xidmət etdikdən sonra Çeçen atlı alayının komandiri təyin edilmişdi (104).

Müsəlman atlı alaylarının ştatında molla vəzifəsi də var idi. Onların mövcudluğu müsəlmanların dini mərasimlərinin icrasına şərait yaradılması, müsəlman könüllülərin tapşırılan vəzifələrin icrasına ilhamlandırılması, şəxsi heyət arasında dini-ideoloji işlər aparılması zərurəti ilə əlaqədar idi. Tatar atlı alayında bu vəzifəyə dövrün tanınmış şairi və ictimai xadimi Məhəmməd Hadi (Ağaməhəmməd Hacı Əbdüsəlim oğlu) təyin edilmişdi.

Atlı alayların şəxsi heyətinin cəbhəyə yollanmazdan əvvəl and qəbul etmələri də alay mollalarının iştirakı ilə aparılırdı. Mövcud məlumata görə, and Azərbaycan dilində də qəbul edilə bilərdi. Bu zaman molla andın mətnini oxuyur, könüllülər andın mətnində olan "and içirəm" sözünü üç dəfə təkrar edir, sonra da könüllülər "And vərəqində" imza edir, ya da barmaqlarını basırdılar. Tarixi ədəbiyyatda bu andın mətninin rus dilində olan variantı mövcuddur. 1914-cü il sentyabr ayının 7-də Nalçikdə Kabardin alayı könüllülərinin qəbul etdiyi andın rus dilində olan mətninin tərcüməsi aşağıdakı kimidir:

"Quran qarşısında Vallah-Billah-Təaləllahü Allahü-Əkbərə and içirəm ki, İmperator həzrətləri, Ümumrusiya hökmdarına sədaqəti qoruyacaq, bütün vəzifələri namusla və vicdanla icra edəcək, mənə tapşırılan səlahiyyətləri aşmayacaq, heç kimə qəsdən ziyan və zərər yetirməyəcək, əksinə mənə həvalə olunan maraqları öz

maraqlarım kimi qoruyacaq və unutmayacağam ki, mən bütün bunlara görə qanun qarşısında və Allah qarşısında onun məhşər günündə cavab verməli olacağam. Bunların təsdiqi kimi müqəddəs Quranı öpürəm. Amin" (105).

Digər atlı alayları kimi, Tatar atlı alayının könüllüləri də 1914-cü ilin sentyabr ayının 10-da Yelizavetpolda (Gəncədə) şəhər imamının iştirakı ilə belə bir and qəbul etdilər və həmin ayın ortalarına kimi artıq qatarla Yelizavetpoldan cəbhəyə yola salındılar. Diviziyanın digər hissələri ilə birlikdə Tatar atlı alayı da Podolsk quberniyasına gətirildi və burada bu hissələrin şəxsi heyətinin döyüş hazırlığı aparıldı. Bu hazırlıq dövrü elə də uzun sürmədi və 1914-cü il noyabr ayının əvvəllərində diviziyanın Qərbi Ukraynanı əhatə edən Cənub-Qərb cəbhəsinə (Avstriya cəbhəsinə) göndərilməsi qərara alındı (106).

Bu cəbhə Karpat dağının ətəklərində yerləşirdi. Diviziyanın formalaşdırılması başa çatdırılandan və müəyyən müddət üçün döyüş hazırlığı keçiləndən sonra onun hissələrinin hansı cəbhəyə göndərilməsinin məqsədəuyğunluğu araşdırılmış və qərara alınmışdı ki, Karpat dağı ətəklərində bu diviziyanın fəaliyyəti daha səmərəli ola bilər. Çünki dağlıq şəraitdə əldə etdikləri vərdişləri diviziyanın şəxsi heyəti Cənub-Qərb cəbhəsində daha uğurla tətbiq edə bilərdilər.

Diviziya general-leytenant Hüseyn xan Naxçıvanskinin komandan olduğu 2-ci süvari korpusunun tabeliyinə verildi. Döyüş tapşırıqlarının icrasına yollanmazdan əvvəl onun hissələrinə sıra baxışı keçirilməsi qərar alındı və 1914-cü il noyabr ayının 26-da H.Naxçıvanski tərəfindən bu diviziyaya sıra baxışı keçirildi. Həmin baxışdan sonra diviziyanın hissələri, o cümlədən də Tatar atlı alayı Lvov şəhərinin küçələrindən keçməklə cəbhəyə yollandılar. Bu keçid şəhər sakinləri və küçələrə toplaşanlar tərəfindən son dərəcə yüksək təəssüratla qarşılandı. Bununla da, Tatar atlı alayının döyüş yolu başlandı. 1914-cü ilin sonu, 1915–16-cı illərdə Tatar atlı alayı bir sıra döyüşlərdə iştirak etdi ki, bu döyüşlərdə böyük şücaət və igidlik nümunəsi göstərdi. Diviziyanın bütün his-

sələri əslində, iştirak etdiyi döyüşlərdə nümayiş etdirdiyi sürətə, çevikliyə, yorulmazlığa, qətiyyətə görə qarşı tərəf üçün qorxunc bir qüvvəyə çevrilmişdi və ona görə bu diviziya "Vəhşi diviziya" kimi məşhurlaşmışdı.

1914-cü il dekabr ayının 12-də Tatar və Çeçen atlı alaylarından ibarət olan 2-ci briqada Şandroves və 1251 yüksəkliyi ətrafındakı dağlı ərazinin kəşfiyyatına göndərildi. Bu istiqamətdə briqada həm də 7-ci piyada korpusun sağ cinahının mühafizəsini təmin etməli idi. Çünki bu istiqamətdə qarşı tərəfin qüvvələri kifayət qədər fəal idi və bu da ona görə idi ki, bu qüvvələr rus qüvvələrinin mövqelərinin arxasına yol tapa bilmişdilər. Tatar atlı alayının daxil olduğu 2-ci briqada da öz növbəsində düşmən qüvvələrinin arxasına keçmək və onlara sürətli zərbə vurmaq tapşırığı aldı. Briqada çətin dağ və əlverişsiz hava şəraitində bu tapşırığı yerinə yetirmək üçün qalın qarla örtülmüş ərazi ilə uzun bir yol keçib qəfildən avstriyalı qüvvələrə arxadan güclü zərbə endirdi. Çaşqın vəziyyətə düşmüş düşmən qüvvələri məhv edildi, onların mövqeləri ələ keçirildi. Bu sürətli hücum zamanı qarşı tərəfdən 9 zabit, 458 sıravi əsir alındı və 400 ədəd tüfəng qənimət götürüldü (107).

Tatar atlı alayının iştirak etdiyi növbəti uğurlu döyüşlərdən biri 1915-ci il fevral ayının 15-də Brin kəndi ətrafında baş verdi. Alayın bu kənd ətrafında göstərdiyi şücaət yalnız alay qarşısında qoyulan tapşırığın icrasına yox, bütünlükdə cəbhəboyu düşmən qüvvələrinin məhv edilməsinə şərait yaratdı. Mövcud cəbhə qeydlərinə və şahidlərin ifadələrinə görə, Tatar atlı alayının döyüşçüləri gərgin keçən əməliyyatın gedişində sürətli hücumla hər iki tərəf üçün əhəmiyyət kəsb edən istiqamətdə ilk müdafiə xəttini ələ keçirib orada möhkəmləndilər. Sursatlarının məhdudlaşmasına baxmayaraq, avstriyalılardan ələ keçirilmiş silah və sursatla azərbaycanlı döyüşçülər, hətta düşmənin ikinci müdafiə xəttini də ələ keçirə bildilər və qarşı tərəfin bütün səylərinə baxmayaraq, bu mövqeni tərk etmədilər. Hətta cinahlardan düşmən qüvvələri tərəfindən əhatə olunması təhlükəsi də azərbaycanlıları ələ keçirdikləri mövqeləri tərk etməyə məcbur edə bilmədi. Mövcud məlumat-

lara görə, azərbaycanlı döyüşçülər, hətta əlbəyaxa döyüşünə də girməyə məcbur olmadılar. Bununla belə onlar ələ keçirdikləri mövqelərdən geri çəkilmədilər. Gərgin keçən bu əməliyyatın uğurla başa çatdırılmasında Tatar atlı alayının döyüşçülərinin özünəməxsus xidməti oldu və bunu dövrün rəsmi sənədləri də təsdiq edir. Məhz bunun nəticəsi idi ki, "Vəhşi diviziyanın" alay komandirləri içərisində Tatar atlı alayının komandiri P.Polovsov ilk olaraq Müqəddəs Georgi ordeninin 4-cü dərəcəsi ilə təltif olundu. Bu döyüşdə göstərdiyi şücaətə görə həmin vaxt Tatar atlı alayının tərkibində olan polkovnik Feyzulla Mirzə Qacar da həmin ordenə layiq görüldü. Tatar atlı alayının döyüş məharəti isə hətta Rusiya imperatorunun da böyük sevincinə səbəb oldu. O, diviziya komandiri Mixail Aleksandroviç Romanova bununla bağlı göndərdiyi teleqramında yazırdı: "Siz imperator həzrətlərinə tapşırıram ki, məhəbbət və sədaqətlərinə görə Tatar atlı alayının çinlərinə Mənim minnətdarlığımı çatdırasınız, onların cəsarətli döyüş xidmətlərini qiymətləndirirəm və onların əcdadları kimi gələcəkdə də Mənə və Vətənə şücaətlə xidmət etmələrinə hazır olmasına inanıram" (108).

1915-ci il ərzində Tatar atlı alayı daha bir neçə döyüşdə iştirak etdi: mart-may aylarında Dnestr və Prut çayları arasında aparılan döyüşlərdə, avqust ayında Dnestr çayının sol sahili boyunca aparılan döyüşlərdə, Strıp və Sereça çayları arasında gedən döyüşlərdə iştirak etdi. Cəbhəboyu rus qoşunlarının döyüş fəaliyyətinin gedişi "Vəhşi alayın" döyüş fəaliyyətinin ümumi gedişinə təsir göstərsə də, Tatar atlı alayının döyüş fəaliyyəti dövrün sənədlərində yüksək qiymətləndirilir və bu alay özünəməxsus döyüş keyfiyyətini bütün tapşırıqların icrası zamanı nümayiş etdirirdi. 1916-cı ilin may ayında isə Tatar atlı alayı Rumıniya istiqamətində general Brusilovun rəhbərliyi altında aparılan əməliyyat çərçivəsində Tışkovski kəndi ətrafında uğurlu döyüş keçirdi. Bu döyüş zamanı alayın 4-cü bölüyü Avstriya qoşunlarının bir piyada bölüyünü 5 nəfər zabitlə birlikdə əsir ala bilmişdi. Bütünlükdə isə bu döyüşlə adı çəkilən kəndi tamamilə azad etmək mümkün oldu. Tışkovski kəndi ətra-

fında aparılan döyüş Tatar atlı alayının Birinci Dünya müharibəsi cəbhələrində apardığı ən uğurlu döyüşlərdən biri idi və onun nəticələrinə görə alayın bir sıra döyüşçüləri ən yüksək mükafatlara layiq görüldülər. Alayın zabiti Cəmşid xan Naxçıvanski isə bu döyüşə görə Georgi silahı ilə mükafatlandırıldı (109).

Tatar atlı alayının qərb cəbhəsində son döyüşlər 1917-ci ilin iyun-iyul aylarında baş verdi. Rusiyada 1917-ci ilin fevral çevrilişindən sonra Cənub-Qərb cəbhəsində yaranmış mürəkkəb hərbi vəziyyətin sabitləşdirilməsi üçün Tatar atlı alayı "Vəhşi diviziyanın" digər alayları ilə verilən tapşırığı icra etdi. Diviziyanın səyləri ilə bu istiqamətdə vəziyyəti müəyyən qədər sabitləşdirmək olsa da, bütünlükdə Rusiyada baş verən siyasi proseslər cəbhəyə təsirsiz ötüşmədi. Həmin ilin iyul ayında diviziya cəbhə xəttindən arxaya çıxarıldı və bununla Tatar atlı alayının döyüş yolu da başa çatmış oldu.

1917-ci il avqust ayının 21-də Ali Baş Komandanın əmri ilə Qafqazın yerli xalqlarının atlı diviziyasının bazasında atlı korpusun formalaşdırılmasına başlandı. Bununla əlaqədar diviziyanın tərkibinə əlavə üç atlı alayı da verildi və bundan sonra mövcud alaylardan iki diviziya təşkil edildi. Rusiyada hakimiyyəti ələ almış müvəqqəti hökumətin 2 sentyabr 1917-ci il tarixli qərarı ilə Tatar atlı alayının ilk komandiri P.Polovsov Qafqazın yerli xalqlarının atlı korpusunun komandiri, general-mayor Feyzulla Mirzə Qacar isə 1-ci diviziyanın komandiri təyin edildi. Tatar atlı alayının komandiri vəzifəsini isə 1917-ci il iyul ayının 5-dən etibarən polkovnik Levon Maqalov icra edirdi. Bu kadr dəyişikliklərindən dərhal sonra Atlı korpus Qafqaza çıxarıldı. Korpusun qərargahı Vladiqafqazda, 1-ci diviziyanın qərargahı isə Pyatiqorskda yerləşdirildi. Təşkilatlanma prosesi tam şəkildə başa çatdıqdan sonra korpus Qafqaz cəbhəsinin tərkibinə qatılmalı idi. Bu prosesin başa çatdırılması üçün korpus komandanlığı tərəfindən müəyyən cəhdlər göstərilsə də, Rusiyada və Qafqazda baş verən siyasi proseslər bölgədə tamamilə fərqli olan bir siyasi vəziyyət yaratmışdı. Bu

vəziyyət isə korpusun formalaşmasını sona çatdırmağa imkan vermədi.

Mövcud məlumatlara əsasən 1917-ci ilin sonlarında Tatar atlı alayı tam heyəti ilə Azərbaycana qayıtmış, Yelenendorf (Göygöl) ətrafında qərarlaşmışdı. Həmin il oktyabr ayının 26-da korpus komandiri P.Polovsov Tatar atlı alayına baxış keçirdi. Gəncədə olarkən P.Polovsov Müsəlman Milli Komitəsinin iclasında da iştirak etdi və məlumdur ki, bu iclasda milli tərkibli qoşun hissələrinin təşkili məsələsi də müzakirə edilmişdi.

Bölgədə baş verən siyasi hadisələr Qafqaz cəbhəsinin buraxılmasına gətirib çıxardı. Bundan sonra Tatar atlı alayı 1917-ci ilin sonlarından təşkilinə başlanan Müsəlman korpusunun tərkibinə daxil oldu. Polkovnik Levon Lusaraboviç Maqalavun Müsəlman korpusunun tərkibində də Tatar atlı alayının komandiri olmasından belə bir qənaətə gəlmək olar ki, bu alay tam heyəti ilə Müsəlman korpusunun tərkibinə daxil olmuşdu.

Tatar alayının çoxlu sayda döyüşçüsünün çar Rusiyasının yüksək ordenləri və medalları ilə təltif edilməsi də bu alayın şərəfli döyüş yoluna malik olmasından xəbər verir. Onların arasında bir neçəsi Georgi xaçının  bütün dörd dərəcəsi ilə təltif edilmişdilər: Əlibəy Nəbibəyov, Sayad Zeynalov, Mehdi İbrahimov, Ələkbər Hacıyev, Datso Daurov və Aleksandr Kaytukov. Alayın atlılarından olan Osman ağa Gülməmmədov Georgi xaçının və Georgi medalının hər birinin üç dərəcəsi ilə, Zeynal bəy Sadıxov Georgi xaçının üç dərəcəsi və Georgi medalının bir dərəcəsi ilə təltif edilmişdilər.

Tatar alayının zabit və atlılarının böyük əksəriyyəti sonradan öz xidmətlərini Müsəlman korpusunun və Əlahiddə Azərbaycan korpusunun tərkibində də uğurla davam etdirdilər.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с.229
2. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2015, s.595
3. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с. 220
4. Ибрагимбейли Х.М. Воинские формирования Азербайджана..., с.29–30
5. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с. 230–231
6. Ибрагимбейли Х.М. Кавказ в Крымской войне... с. 155
7. Ибрагимбейли Х.М. Воинские формирования Азербайджана в составе русской армии ... с.29–31
8. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969, с. 233
9. Исмаилов Э.Э. Азербайджанские воинские соединения в составе русской императорской армии: от первых иррегулярных частей до Татарского конного полка// Азербайджан в период первой мировой войны. Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Bakı, 2014, c.21–22
10. Ибрагимбейли Х.М. Воинские формирования Азербайджана в составе русской армии в период присоединения Закавказье к России (первая треть XIX в.). Автореферат диссертасии на соисканеи ученой степени кандидата исторических наук. Ленинград, 1966, с.22
11. Ибрагимбейли Х.М. Кафказ в Крымской войне 1853–1856. М., 1971, с.157–158
12. Ибрагимбейли Х.М. Станицы истории боевого содружества. Б., 1970, с.58
13. Ибрагимбейли Х.М. Кавказ в Крымской войне... с.155–156
14. Ибрагимбейли Х.М.Кавказ в Крымской войне... с.159–160
15. Yenə orada, s.160
16. Yenə orada, s.141

17. Вах: Ибрагимбейли Х.М. Станицы истории боевого содружества. Б., 1970
18. Таирзаде Н.А. Новые материалы о писателе и общественном деятеле Исмаил бек Куткашенском (1808–1861). Известия АН Азерб.ССР. Серия история, философия и права, 1968, №-3, с.23–36
19. Ибрагимбейли Х.М. Старины истории боевого содружества... с.60–61
20. Русско-турецкая война 1877–1878. М., 1977, с.237
21. Энциклопедия военных и морских наук.Т.1, С.П., 1883, с.309
22. Yenə orada, s.179–180
23. Yenə orada, c.VII, S.P., 1895, s.87
24. Yenə orada, c.VIII, S.P., 1897, s.367
25. Yenə orada, c.VII, S.P., 1895, s.81
26. Yenə orada, c.VIII, S.P., 1897, s.354
27. Yenə orada, c.III, S.P., 1888, s.45
28. Yenə orada, s.166
29. Yenə orada, s.214–215.
30. Naxçıvanski generalları haqqında bax: Bağırov İ. Kəngərli yurdunun generalları. Bakı, 1994
31. Bakıxanov nəslindən olan hərbçilər haqqında bax: Nəzirli Ş. Azərbaycan generalları. Bakı, 1991
32. Исмаилов Э. Георгиевские кавалеры – Азербайджанцы. Москва, 2005, с.160–161
33. Şıxlinski Ə. Xatirələrim. Bakı, 1984, s.13–30; Ибрагимов С. Генерал Али Ага Шыхлинский. Баку, 1975, с.11–18
34. Şıxlinski Ə. Xatirələrim... s.30–48
35. Абасов А. Генерал Мехмандаров. Баку, 1977, с.11
36. Исмаилов Э. Георгиевские кавалеры... с.130–133
37. Feyzullayeva A. Maarif carçıları. Bakı, 1988
38. Şıxlinski Ə. Xatirələrim... s.40–41
39. Nəzirli Ş. Tam artilleriya generalı Səməd bəy Mehmandarov. Bakı, 1977, s.15

40. Şıxlinski Ə. Xatirələrim... s.47–48
41. Nəzirli Ş. General Əliağa Şıxlinski ömrü. Bakı, 2005, s. 18–21
42. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва, 2006, с.216–239
43. Верноподданный своему Государю http://ruskline.ru/monitoring_smi/2008/11/18/vernopoddannyj_svoemu_gosudaryu/
44. Исмаилов Э. Георгиевские кавалеры... с. 207
45. İbrahimbəyli H. Səməd bəy Mehmandarov. Bakı, 1946, s.7
46. Ибрагимов С. Генерал Али Ага Шыхлинский... с.23–24
47. Абасов А. Генерал Мехмандаров... с.22
48. İbrahimbəyli H.A. Səməd bəy Mehmandarov... s.8
49. Ларенко П. Страдные дни Порт-Артура. С.П., 1906, с.597
50. Şıxlinski Ə. Xatirələrim. ..s.65
51. Yenə orada, s.68–69
52. Романовский Е., Фон Шварс А. Оборона Порт-Артура. Т.11, С.П.,1910, с.432
53. Larenko P. ... s.494
54. Yenə orada, s.690
55. İbrahimov S. ... s.30
56. İbrahimbəyli H.A. ... s.13–14
57. Azərbaycan tarixi. Bakı, V c., s.145. el. variant
58. Дулаева З., Мамедов М. Баку в годы Первой мировой войны, с.40–41 / Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Bakı, 2014, s.32–58
59. Azərbaycan tarixi. Bakı, V c., s.145. el. variant
60. Azərbaycan tarixi. Bakı, V c., s.146. el. variant
61. Azərbaycan tarixi. Bakı, V c., s.146. el. variant
62. Azərbaycan tarixi. II cild, Bakı, 1964, s.786
63. Azərbaycan tarixi. II cild, Bakı, 1964, s.787
64. Дулаева З., Мамедов М. Баку в годы Первой мировой войны, с.36–37 / Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Bakı, 2014, s.32–58
65. Военно-исторический журнал, №-11, 2004, с.42

66. Великая Октябрская Сосиалистическая Революция. М., 1987, c.211
67. Ахундов Ф. Короли моря и воздуха. «Азербайджанские известия»,
68. Azərbaycan tarixi, II c., Bakı, 1964, s.789
69. Иванов Р. Генерал-адютант его величества. Москва, 2009, с.68–70. Elektron variant – elibrary.bsu.az/ yeni %5Cebook-spdf%5CxLvWkhTJ.pdf; Нагдалиев Ф.Ханы Нахичеванские в Российской империи. Москва, 2006, с.255–259. Elektron variant–www.history.az/pdf.php?item_id=20100623015148026&ext=pdf
70. Верноподданный своему Государю http://ruskline.ru/monitoring_smi/2008/11/18/vernopoddannyj_svoemu_gosudaryu/
71. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва, 2006, с268–269
72. Верноподданный своему Государю http://ruskline.ru/monitoring_smi/2008/11/18/ vernopoddannyj_svoemu_gosudaryu/
73. Военно-исторический журнал, №–11, 2004, с.44
74.İbrahimbəyli H.A. Səməd bəy Mehmandarov... s.12
75.Yenə orada, s.13
76.Абасов А. Генерал Мехмандаров... с.45–46
77.Военно-исторический журнал, № 10, 2002, с.39
78.Azərbaycan tarixi, II c., Bakı, 1964, s.789
79. Nəzirli Ş. Arxivlərin sirri açılır...s.174–190
80. Fərhadov Ə. Birinci Dünya müharibəsi illərində Azərbaycan–Osmanlı münasibətlərinə dair, s.168/ Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Азербайджан в период Первой мировой войны. Баку, 2014, с.161–178
81. Война и наши трофеии. Петроград, 1915, с.32
82. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə, Bakı, 2004, s.114–115

83. Yenə orada, s.117–118
84. Yenə orada, s.198–199
85. Yenə orada, s.142, 151
86. Арутюнян А.О. Кавказский фронт 1914–1917. Ереван, 1971, с.296
87. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti.III hissə, Bakı, 2004, s.199
88. Yenə orada, s.145–146
89. Yenə orada, s.151
90. Yenə orada, s.147
91. Şeyxzamanlı N.
92. Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.16
93. 94. Опрышко О.Л. Кавказская конная дивизия 1914–1917. Возвращение из небытия. Нальчик, 2007, с.11. elektron variant-apsnyteka.org1087-opryshko_kavkazskaya_konnaya_diviziya.htm
95. Ахмедов С. Татарский конный полк на полях сражений, с.67/ Азербайджан в период Первой мировой войны. Баку,2014, с.50–100
96. Арсанукаева М.С. Национальные формирования народов Кавказа в Первой мировой войне (1914–1918 годы). http://cyberleninka.ru/article/n/natsionalnye-formirovaniya-narodov-kavkaza-v-pervoy-mirovoy-voyne-1914-1918-gody#ixzz43cHTo78R
97. Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.28; Исмаилов Э. Азербайджанские воинские соединения в составе русской императорской армии: от первых иррегулярных частей до Татарского конного полка, с.28/ Азербайджан в период Первой мировой войны. Баку,2014, с.18–32
98. Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.28

99. Ахмедов С. Татарский конный полк на полях сражений, с.67/ Азербайджан в период Первой мировой войны. Баку,2014, с.50-100
100. Исмаилов Э. Азербайджанские воинские соединения в составе...s.27
101. Дулаева З., Мамедов М. Баку в годы Первой мировой войны, с.36-37/ Азербайджан в период Первой мировой войны. Баку,2014, с.32–58
102. Опрышко О.Л. Кавказская конная дивизия 1914–1917. Возвращение...
103. Yenə orada
104. Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.33–45
105. Опрышко О.Л. Кавказская конная дивизия 1914–1917. Возвращение...; Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.108
106. Ибрагимова Ж. Дикая дивизия – гордость русской армии. http://sevkavinform.ru/articles/people-honour/72606/
107. Солсаев М. Дикая дивизия Чечни. http://vaynah-moxk. blogspot.com/p/blog-page_210.html
108. Опрышко О.Л. Кавказская конная дивизия 1914–1917. Возвращение...; Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014, с.125–131
109. Ахмедов С. Татарский конный полк на полях сражений, с.67/ Азербайджан в период Первой мировой войны. Баку,2014, с.82

# II FƏSİL

## AZƏRBAYCANDA MİLLİ TƏRKİBLİ HƏRBİ QÜVVƏLƏRİN TƏŞKİLİNİ ZƏRURİ EDƏN AMİLLƏR

Müstəqilliyinin elan edilməsi ərəfəsində Azərbaycanda milli tərkibli hərbi qüvvələrin yaradılmasını zəruri edən bir çox səbəblər mövcud idi. O cümlədən bölgədə cərəyan edən hərbi-siyasi proseslər, böyük dövlətlərin Qafqaz siyasəti, Azərbaycanın təbii sərvətlərinə olan beynəlxalq maraq, Birinci Dünya müharibəsinin meydana gətirdiyi xaos və dağıntılardan mühafizə olunmaq zərurəti, Rusiya çarizminin çökməsi və onun bölgə üçün nəticələri və s. Məsələyə mövzu çərçivəsində yanaşılarsa, Azərbaycanın milli tərkibli hərbi qüvvələrinin təşkilini zəruri edən amillər heç şübhəsiz ki, Azərbaycan daxilində və ətrafında Azərbaycan xalqının yaşayışına və milli maraqlarına qənim kəsilmiş olan erməni-daşnak, bolşevik və denikinçi hərbi qüvvələrin mövcudluğu idi. Bu hərbi qüvvələrin və onları idarə edən qüvvələrin hər birinin öz maraqları var idi və bu maraqlar Azərbaycan xalqı üçün çox ciddi təhlükələrdən xəbər verirdi. Xüsusən həmin qüvvələrdən hər birinin öz maraqlarını silah gücünə həyata keçirməyə çalışması Azərbaycan xalqının varlığını sual altına qoyurdu. Onların yaratdığı təhlükənin qarşısını isə yalnız milli müdafiə qüvvələri ilə, milli tərkibli hərbi qüvvələrlə almaq mümkün ola bilərdi. Çünki Rusiya imperiyasının süqut etdiyi, bütün imperiyada hakimiyyətsizlik və xaosun baş qaldırdığı bir şəraitdə Azərbaycan xalqı real təhlükələrdən yalnız milli maraqların keşiyində dayana biləcək milli tərkibli hərbi qüvvələrin köməyi ilə çıxa bilərdi.

Göstərilən qüvvələr arasında erməni-daşnak və bolşevik qüvvələri daha güclü idi və konkret tarixi şərait də həmin qüvvələrin güclənməsi üçün münasib zəminə çevrilmişdi. Denikinçi qüvvələr isə süquta doğru sürüklənən bir qüvvə olsa da, müəyyən hərbi potensiala malik idilər və 1917-ci ilin fevralında Rusiya çarizminin süqutundan sonra həmin qüvvələr, hətta Azərbaycanın cənubunun

bir hissəsini öz nəzarəti altına keçirə bilmişdilər. Azərbaycanın müstəqilliyinin elan edilməsi ərəfəsində bu qüvvələrin hər biri çox böyük gücə malik idi və bu məqam Azərbaycanın milli azadlıq mübarizlərinin diqqət mərkəzində saxladığı ciddi məqamlardan biri idi.

### *1. Erməni-daşnak hərbi qüvvələri*

Təcavüzkar və terrorçu mahiyyəti ilə Azərbaycan xalqının milli maraqlarına və bütünlükdə onun mövcudluğuna qənim kəsilmiş olan erməni-daşnak qüvvələrinin təşkilatlanması hələ XIX əsrin sonu və XX əsrin əvvəllərində başlamışdı. Bu qüvvələrin təşkilatlandırılması üç istiqamətdə aparılırdı: 1)erməni terror dəstələrinin yaradılması və silahlandırılması; 2) Rusiya qoşunları tərkibində erməni qoşun hissələrinin yaradılması; 3) müstəqil erməni-daşnak silahlı dəstələrinin və qoşun hissələrinin yaradılması.

Cənubi Qafqazda və o cümlədən də Azərbaycanda erməni terror şəbəkəsinin yaradılmasına başlanması təxminən Daşnaksutyun partiyasının yaranması ilə bir vaxta təsadüf edir. Təşkil edildiyi gündən qarşısına "Böyük Ermənistan" kimi xəyali və irticaçı bir vəzifə qoyan bu millətçi partiya məqsədinə çatmaq üçün ən real vasitələrdən birini terrorda, silahlı qırğınlarda görürdü. Partiyanın yaradıcıları belə hesab edirdilər ki, silahlı üsyanlar vasitəsilə iddiasında olduğu əraziləri işğal edib orada arzusunda olduqları dövləti yarada biləcəklər. Ona görə də partiyanın nizami hərbi qüvvələrinin yaradılması əməli fəaliyyətin əsas istiqamətlərindən biri kimi qəbul edildi. Partiyanın 1892-ci ildə keçirilən ilk qurultayında zinvorlardan (əsgər) təşkil ediləcək erməni ordusunun yaradılması barədə qərar qəbul edildi. Dərhal da erməni gəncləri arasında zinvorların toplanmasına və onların silahlandırılmasına başlandı (1).

İstər Cənubi Qafqazda, istərsə də Türkiyə ərazisində kütləvi terrorların həyata keçirilməsi üçün Daşnaksutyun partiyası iki müstəqil terror şəbəkəsinin fəaliyyətinə dayaqlanırdı. Bunlardan

biri silahlı dəstələrin təşkili idisə, digəri partiyanın nəzdində peşəkar terrorçular şəbəkəsinin yaradılması idi. Seçilmiş şəxslərin aradan götürülməsi və məhv edilməsi üçün partiya liderləri tərəfindən xüsusi planlar hazırlanırdı və onların həyata keçirilməsi də xüsusi hazırlıq görmüş şəxslərə tapşırılırdı. Belə şəxslərdən ibarət olan terrorçu qruplar Daşnaksutyun partiyasının bütün mərkəzi komitələrinin nəzdində yaradılmışdı. Partiyanın müstəqil fəaliyyət göstərmək səlahiyyəti olan belə mərkəzi komitələri isə Cənubi Qafqazda çox idi. Mövcud olan məlumatlara görə, təkcə Azərbaycan ərazisində Daşnaksutyun partiyasının 4 mərkəzi komitəsi var idi. Onlar Bakıda, Şuşada, Gəncədə və Naxçıvanda yerləşirdi (2).

Daşnak partiyasının bu mərkəzi komitələrinin mövcudluğunun gizli saxlanılması üçün onlara həm sıra nömrəsi verilmiş, həm də sənədləşmədə mərkəzi komitələrin yerləşdikləri şəhərlər başqa adla adlandırılırdı. Məsələn, Bakı Mərkəzi komitəsi – Voskanapat Mərkəzi komitəsi, Yelizavetpol Mərkəzi komitəsi – Ayqestan Mərkəzi komitəsi, Şuşa Mərkəzi komitəsi isə Abaraj Mərkəzi komitəsi adlandırılırdı. Sıra nömrələrinə gəlincə isə sənədləşmədə Bakı komitəsi – IV Mərkəzi komitə kimi, Şuşa komitəsi – VI və Yelizavetpol Mərkəzi komitəsi isə IX Mərkəzi komitə kimi göstərilirdi (3).

Bu mərkəzi komitələr Daşnaksutyun partiyasının qərargahı Tiflisdə yerləşən Şərq bürosuna tabe idilər. Hər mərkəzi komitənin nəzdində yaradılmış peşəkar terrorçu qruplarına 40–100 nəfər daxil idi. Qafqazda ermənilərin ən böyük terror qrupu Daşnaksutyun partiyasının Tiflisdəki Mərkəzi komitəsinin yanında yaradılmışdı. Bu qrupda 150 nəfər terrorçu var idi. Bundan başqa, Tiflisdə, Şərq Bürosunun tabeliyində başqa bir xüsusi terror qrupu yaradılmışdı. Bu qrup “Aqabeqiç Marmin” adlanırdı. Həmin qrupa daxil olan peşəkar terrorçular Büronun qərarı ilə Cənubi Qafqazın istənilən məntəqəsində, eləcə də digər məntəqələrdə terror törədilməsinə göndərilə bilərdilər. Bu terror qruplarına yazılmaq istəyən erməni millətçiləri xüsusi sınaqlardan keçirilir, onlara silahlardan istifadə edilməsi, bombaların partladılması və s. öyrədilirdi.

XX əsrin əvvəllərində Daşnaksutyun partiyasının bu terrorçular şəbəkəsi artıq kifayət qədər formalaşmışdı və təkcə 1905–1909-cu illər arasında bu qruplar tərəfindən 200-dən artıq terror aktı həyata keçirilmişdi (4).

Terror qruplarının üzvləri partiya rəhbərliyi tərəfindən yüksək maaşla təmin edilirdi. Qrupun üzvləri ayda 15 rubldan 100 rubladək maaş alırdılar. Bundan başqa, həyata keçirilmiş hər bir terror aktı üçün onlara 200 rubla qədər mükafat verilirdi (5). Terrorçuların xüsusi sifarişi ilə bu və ya digər məntəqəyə yollanması xərcləri də partiya tərəfindən ödənilirdi.

Lakin "Böyük Ermənistan" xəyali planının həyata keçirilməsi üçün Daşnaksutyun partiyasının rəhbərləri təkcə terror qruplarının fəaliyyəti ilə qane olmurdular. Türkiyədə iddia olunan ərazilərdəki türk əhalisini, eləcə də Cənubi Qafqazda azərbaycanlılar yaşayan məntəqələrdəki yerli əhalini qırıb çatmaq və bu ərazilərə şəriksiz sahib çıxmaq üçün erməni millətçiləri daha kütləvi silahlı qüvvələrə ehtiyac duyurdular. XX əsrin əvvəllərində Cənubi Qafqaz ərazisində silahlı erməni zinvor dəstələrinin yaradılması, xüsusilə geniş miqyas aldı. Çünki XX əsrin sonlarında Türkiyə ərazisində Ermənistan dövləti yaratmaq üçün başlayan üsyanlar, kütləvi qırğınlar bir nəticə vermədikdə erməni millətçi qüvvələri əsas diqqəti Cənubi Qafqaza yönəltdilər. Birinci Dünya müharibəsindən əvvəlki dövrdə Daşnaksutyun partiyasının fəaliyyətinin əsas istiqamətini Cənubi Qafqazda İsveçrədəki kantonlar nümunəsində erməni muxtariyyəti yaratmaq  təşkil edirdi (6). Bu muxtariyyətin yaradılacağı ərazi kimi azərbaycanlılar yaşayan məntəqələr hədəfə alınmışdı və erməni təcavüzkarlığının əsas istiqaməti də başlıca olaraq azərbaycanlı əhaliyə qarşı istiqamətlənmişdi

Hələ 1903-cü ildə Cənubi Qafqazda mövcud olan erməni yaşayış məntəqələri və eləcə də böyük şəhərlərdə yaşayan ermənilər Daşnaksutyun partiyasının silahlı hərbi bölmələr yaradılması işinə cəlb edilmişdilər. Erməni emissarları ən ucqar kəndləri də öz fəaliyyətləri ilə əhatə edərək ora silah daşıyır və silahlı qruplar formalaşdırırdılar (7).

Bu istiqamətdə daşnak partiyasının Bakı Mərkəzi Komitəsinin fəaliyyəti, xüsusilə güclü idi. Təşkil olunan erməni terror qruplarının nizamlılığına nail olunması üçün Daşnaksutyun partiyası Bakı Mərkəzi komitəsi tərəfindən Erməni inqilabi şurasının hərbi nizamnaməsi hazırlanmışdı. Elə bu nizamnamə ilə tanışlıq göstərir ki, Daşnaksutyun partiyası Bakıda bolşevik hərəkatının fəallaşmasından xeyli əvvəl gizli terror dəstələri formalaşdırıb onların nizamlı fəaliyyətinə nail olmuşdu. Adı çəkilən nizamnamədə erməni inqilabçı-terror dəstələrinin quruluşu, terrorçuların vəzifələri, terror dəstələrinin rəhbərlərinin vəzifələri, erməni silahlıları arasında intizam məsələləri, habelə erməni silahlılarının necə cəzalandırılması məsələləri öz əksini tapmışdı (8).

Nizamnamədə göstərilirdi ki, erməni silahlı dəstələrinə üzv olan ermənilər xəstəlik və digər obyektiv səbəblər olmadan öz xidmətini tərk edə bilməzdilər. Xidmətə qəbul olunan 10 silahlı bir onluğu, 3 onluq isə dəstəni təşkil etməli idi. Hər dəstənin rəhbərliyi müəyyənləşdirilməli idi ki, bunun da yolu Nizamnamədə öz əksini tapmışdı.

Nizamnamədə erməni silahlıları üçün sərt intizam normaları müəyyənləşdirilmişdi. Xüsusilə silahlılardan öz fəaliyyətlərinin gizliliyini ciddi şəkildə qorumaq tələb olunurdu. Silahlılar öz fəaliyyəti barədə yalnız ona tapşırıq verən şəxslərə məlumat verə bilərdilər. Erməni işinə xəyanət edənlər, öz yoldaşlarını öldürənlər, xidməti silahları mənimsəyənlər, erməni dezertirlərini qəbul edənlər ölüm hökmünə məhkum edilə bilərdilər. Digər qəbulolunmaz əməllər üçün isə daha yüngül cəzalar müəyyənləşdirilirdi.

Gizli daşnak dəstələrinin silahlandırılması üçün də Daşnaksutyun partiyasının Bakı Mərkəzi Komitəsi tərəfindən fəal işlər görülürdü. Əvvəla, Bakıda daşnakların silahötürücü anbarlarından biri yerləşirdi və Avropa ölkələrindən alınan silahlar gizli yolla bu anbara daşınırdı. Sonra da bu anbardan İrana və digər məntəqələrə göndərilirdi (9). Bundan başqa çar orqanlarının araşdırmalarında göstərilirdi ki, Daşnaksutyun partiyası küllü miqdarda silah və sursata, habelə partladıcı maddələrə malikdir. Həmin silah və

sursatın saxlanması üçün Cənubi Qafqazın hər bir böyük şəhərində iki xüsusi anbar yaradılmışdı (10). Heç şübhəsiz ki, burada Bakı da nəzərdə tutulurdu. Çünki Bakı Cənubi Qafqazda erməni daşnaklarının toplandığı ən böyük şəhərlərdən biri idi.

Mövcud olan tək-tək tarixi sənədlər də göstərir ki, doğrudan da Bakıdakı erməni daşnakları kifayət qədər silah və sursata malik idilər. Bu silah və sursat anbarına malik olmadan ermənilər 1905–1907-ci illərdə Bakıda qırğınlar törədə bilməzdilər.

Birinci Dünya müharibəsinin başlanmasından öncəki dövrə aid olan arxiv sənədləri göstərir ki, Bakı şəhərində daşnak partiyasının fəallarından çoxlu silah və sursat müsadirə olunmuşdu. Məsələn, evlərin birində erməni inqilabi sosialist partiyasının proqramı, habelə xeyli sayda atıcı silahlar toplanmışdı. İrandan gəlmiş olan Manuk Mamikonyan adlı birisinin Bakıda kirayə etdiyi evin gizli saxlanc yerində silah və sursat anbarı tapılmışdı. Polis əməkdaşlarının tərtib etdiyi siyahıda 25 adda silah və sursat adları var idi. Başqa bir məlumatda isə təsdiq edilirdi ki, erməni daşnaklarının Bakıda xeyli sayda silah və sursat anbarı mövcuddur (11).

Təkcə Manuk Mamikonyanın evində 50 pud barıt, 150 min ədəd silah gülləsi, 50 ədəd revolver tapılmışdı.

Daşnak partiyası silahlı dəstələrinin dinc dövr üçün proqramında zinvorların qarşısında dayanan vəzifənin – milli azadlığın silah gücünə əldə edilməsinə hazırlaşmaq olduğu vurğulanırdı. Bu sənədə görə, zinvorlar bütünlükdə özlərini daşnak partiyasının sərəncamına verməyi bacaran şəxslər olmalı idilər (12).

Silahlı dəstələrə rəhbərlik edəcək erməni zabitlərinin hazırlanması üçün də daşnak partiyasının xüsusi proqramı var idi. Bu proqrama əsasən Bolqarıstanda erməni zabitləri hazırlayan kurs yaradıldı. 1907-ci ilə bu kursu 53 erməni zabiti bitirdi və onlar, əsasən, Qafqaza göndərildilər. Bundan başqa, Amerikada olan hərbi məktəblərdə də erməni zabitlərinin hazırlanması nəzərdə tutulmuşdu. Daşnak partiyasının bütün hərbi qüvvələrinə Baş Hərbi Şura rəhbərlik edirdi. Bu Şura 7 nəfərdən ibarət idi və onun tərkibinə, əsasən, keçmiş hərbçilər daxil idilər. Baş Şuranın nəzdində

Baş Qərargah yaradılmışdı ki, o da 5 nəfərdən ibarət idi. Baş Qərargahın aşağısəviyyəli olan növbəti idarəetmə orqanı mərkəzi komitələrin nəzdində yaradılmış hərbi şuralar idi. Bu şuralar hər bir mərkəzi komitəyə aid olan ərazidə yaradılan yüzlüklərin komandirlərindən təşkil edilmişdi (13). Daşnak partiyasının hərbi qüvvələri yalnız hərbi şuralara tabe idilər və yalnız onların qərarlarını yerinə yetirirdilər.

Mövcud məlumatlara görə, 1905–1907-ci illərdə daşnak silahlı qüvvələrinin sayı 100 minə çatdırılmışdı. Bu qüvvələrin tərkibini xeyli sayda Türkiyə erməniləri təşkil edirdi (14). Xüsusilə Gəncədə, Bakıda və Azərbaycanın digər məntəqələrində azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınların törədilməsi də bu şəbəkənin fəaliyyətinin nəticəsi idi. Azərbaycan ərazisində yaradılmış erməni hərbi qüvvələrinin sərəncamında son dərəcə böyük silah ehtiyatları mövcud idi. Elə həmin illərdə Bakıda və Gəncədə çar polisi tərəfindən ələ keçirilmiş silah anbarlarında və silah emalatxanalarında üzə çıxarılmış böyük hərbi ehtiyatlar bunu sübut ediridi. Mövcud məlumatlara görə, bu illərdə daşnak partiyasının Qafqazdakı silah anbarında 10 min ədəd tüfəng, hədsiz sayda revolver, 1 milyondan artıq patron, 1000-dən artıq bomba var idi (15). Sadalanan silah növləri dövrün ən müasir silah növləri idi və onların vasitəsilə erməni terror dəstələri lazımi səviyyədə təchiz edilirdi.

Çar jandarm idarələrinin verdiyi məlumatlara görə, sonralar Bakıda və Azərbaycanın digər bölgələrində azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsinə rəhbərlik edən Stepan Şaumyan da elə bu illərdə daşnak partiyasının fəal üzvlərindən idi. 1908-ci ildə o, daşnak partiyasının Bakı komitəsinin tərkibinə daxil olmuşdu. Elə həmin ildə S.Şaumyan RSDFP Bakı komitəsinin katibi seçilsə də, daşnaklarla əlaqəsini kəsməmişdi və 1910-cu ildə onun daşnak partiyası üzvlərinə yaxından kömək göstərməsi, onları Bakıda işə düzəltməsi və bununla da onların daxilində özünə arxa yaratması haqqında məlumatlar mövcuddur (16).

Birinci Dünya müharibəsi ərəfəsində Cənubi Qafqazda erməni silahlı dəstələrinin təşkili yeni bir təkan aldı. Erməni millətçiləri

güman edirdilər ki, bu müharibədə çar ordusuna göstərilən xidmətlərin əvəzində Rusiya tərəfindən Türkiyə ərazisində ermənilərə də Polşada verilən muxtariyyət qədər güzəştə gediləcəkdir. Nəticədə, ermənilər Türkiyə ərazisində erməni dövləti yarada biləcəklər (17). Bir qədər irəli gedərək demək lazımdır ki, ermənilərin bu niyyəti həyata keçmədi və onda əlavə yaradılmış olan bütün erməni qüvvələrinin fəaliyyəti azərbaycanlılara qarşı çevrildi. Bununla da onlar əzəli Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılmasına nail olmağa çalışırdılar. Ona da yalnız bir yolla nail olmaq mümkün idi: azərbaycanlılar yaşayan ərazilərdə kütləvi terror və qırğınlar törətmək və həmin əraziləri azərbaycanlılardan təmizləmək. Erməni silahlı dəstələri bu istiqamətdə kifayət qədər təcavüzkar fəaliyyət göstərə bilmişdilər.

Birinci Dünya müharibəsi illərində Daşnaksutyun partiyasının Bakı Mərkəzi Komitəsi Bakı erməniləri arasında Türkiyə ərazisinə göndərilməsi üçün həm maliyyə vəsaiti, həm də könüllülər toplayırdı (18). Çox güman ki, toplanan könüllülərin və maliyyə vəsaitləri hesabına əldə edilən silahların bir hissəsi Bakıda qalırdı. Bunun nəticəsi idi ki, Dünya müharibəsinin sonlarına yaxın Bakıda erməni daşnak silahlı dəstələri böyük potensiala malik idilər.

Erməni daşnak hərbi qüvvələrinin formalaşdırılmasının ikinci istiqaməti Rusiya qoşunları tərkibində ermənilərdən ibarət qoşun hissələrinin yaradılması idi. Bu qoşun hissələri Rusiya qoşunları tərkibində xidmət edən ermənilərlə qarışdırılmamalıdır. Qeyd etmək lazımdır ki, Rusiya ərazisində yaşayan ermənilər ruslar və digər slavyan xalqları kimi hərbi mükəlləfiyyətə cəlb edilirdilər və ona görə Rusiya qoşunları tərkibində onların sayı xeyli çox idi. Birinci Dünya müharibəsinin başlanması ilə Rusiya qoşunları sıralarına yenidən çoxlu sayda erməni çağırıldı. Mövcud olan bir məlumata görə, Birinci Dünya müharibəsinin başlanmasından 1917-ci ilin sonuna kimi Rusiya ordusu sıralarına 250 min nəfər rusiyalı erməni cəlb edilmişdi (19). Başqa bir məlumata görə, Birinci Dünya müharibəsinin başlanğıcında Rusiya ərazisində yaşayan 1 milyon 220 min ermənidən 180–300 min nəfər hərbi xid-

mətə cəlb edilmişdi. Son rəqəmin doğru olacağı halda ölkə ermənilərinin 20 faizdən çoxu hərbi xidmətə cəlb edilmişdi. Erməni mütəxəssislərinin fikrincə, Birinci Dünya müharibəsi illərində əhalinin ümumi sayına nisbətdə ermənilər dünya xalqları arasında ən çox əsgər verən xalqlardan biri idi (20).

Bir məlumata görə isə Birinci Dünya müharibəsi illərində Rusiyanın nizami qoşun hissələrində 250 min erməni xidmət edirdi. Onlardan başqa Fransanın və İngiltərənin qoşunlarında da ermənilər xidmət edirdilər və bu ermənilərin sayı da bir neçə min nəfər idi (21) . Məlumatların birində isə Birinci Dünya müharibəsi illərində Rusiya nizami qoşun hissələrinə 300 min erməninin cəlb edildiyi bəyan olunurdu (22). Bu ermənilərin bir hissəsi Qafqazdakı rus qoşunlarının tərkibində, bir hissəsi də Qərb Cəbhəsindəki rus qoşunları tərkibində xidmət edirdilər. Bununla belə onların da Azərbaycanda və Azərbaycan ətrafında hərbi şəraitin mürəkkəbləşməsində birbaşa əlaqəsi var idi. Çünki Rusiya imperiyasının çökməsindən sonra erməni millətçilərinin çağırışı ilə Rusiyanın müxtəlif hissələrində xidmət edən ermənilər axışıb Cənubi Qafqaza gəlməyə başladılar.

Birinci Dünya müharibəsinin başlanması ilə Cənubi Qafqazda yaşayan ermənilər arasında da kütləvi səfərbərlik aparıldı. Mövcud olan məlumata görə, yalnız Tiflisdəki çağırış orqanları tərəfindən 121921 erməni nizami xidmətə cəlb edilmişdi (23). Bu sayda ermənilərin böyük bir hissəsi Qafqazdakı rus qoşun hissələrinin tərkibində saxlanılmışdı. Bundan başqa, Azərbaycanda da qeyri-azərbaycanlı əhalinin, o cümlədən də ermənilərin xidmətə çağırışı aparılırdı ki, bu yolla da Rusiya qoşunlarına əlavə xeyli erməni cəlb edilmişdi.

Erməni mənbələrinin məlumatına görə, Birinci Dünya müharibəsi illərində Qafqaz cəbhəsi qoşunlarında həqiqi xidmətdə 30 min nəfər erməni hərbçisi var idi. Bundan başqa cəbhənin digər xidmət və köməkçi hissələrində isə əlavə 40 min nəfər erməni xidmət edirdi (24). Erməni hərbçiləri daha çox 1-ci Qafqaz ordu korpusunun 39-cu piyada diviziyasının 153-cü Bakı, 154-cü

Dərbənd, 155-ci Quba, 156-cı Yelizavetpol alaylarında toplaşmışdılar (25). Bəzi hissələrdə şəxsi heyətin təxminən 40–50 faizini ermənilər təşkil edirdi ( 26).

Bir daha qeyd edilməlidir ki, göstərilən bu rəqəmlər yalnız Rusiyanın nizami qoşun hissələrində xidmət edən ermənilərə aid idi. Bundan başqa, Qafqazdakı Rusiya qoşunları tərkibində erməni könüllü drujinaları da təşkil edilidi və bu drujinalarda da kifayət qədər çoxlu sayda erməni silahlısı birləşdi. Bəzi məlumatlara görə, bu drujinaların yaradılmasına Rusiyanın Türkiyə müharibə elan etməsi ərəfəsində başlanmışdı və 1914-cü ilin oktyabrında, yəni Türkiyəyə qarşı müharibə elan ediləndə erməni drujinalarında birləşənlərin sayı artıq 3 min nəfəri keçmişdi (27).

Erməni millətçi dairələri Osmanlı Türkiyəsinə qarşı müharibə elan edilməsini təcavüzkar niyyətlərin həyata keçirilməsi üçün bir fürsət kimi qəbul etdilər. Onlar istər Rusiya ilə, istərsə də Türkiyəyə qarşı müharibə elan etmiş dövlətlərlə hər cür hərbi əməkdaşlıq etməyə hazır olduqlarını bəyan etdilər və bunun üçün qeyri-insani vəhşiliklərini əməli şəkildə ortaya qoydular. Türk xalqına qarşı həyata keçirdikləri vəhşiliklərin əvəzində onlar böyük dövlətlər tərəfindən parçalanacaq Türkiyə ərazisindən özlərinə pay qazanacaqlarına böyük ümid bəsləyirdilər.

Xüsusilə Rusiya çarının Birinci Dünya müharibəsinin başlanması münasibətilə ermənilərə müraciət etməsi və bu müharibədə onların öz azadlıqlarına çatacağını, ermənilərin ruslarla birlikdə türklərə qarşı müharibədə iştirak edəcəyi təqdirdə Türkiyənin məlum altı vilayətində erməni muxtariyyəti yaradılacağına vəd verməsi erməni millətçi dairələrini xüsusilə şirnikləndirdi (28). Bu isə onlar tərəfindən əlavə drujinalar təşkil edilməsinə və onların rus qoşunları tərkibində Türkiyə ərazisinə göndərilməsinə daha da ilhamlandırdı.

Erməni drujinalarının yaradılmasına həm erməni millətçi qüvvələrinin, həm də Rusiya hakimiyyətinin öz yanaşması var idi. Erməni millətçilərinin nəzərində bu drujinaların yaradılması Osmanlı Türkiyəsi ərazisində iddia olunan ərazilərin türklərdən tə-

mizlənməsini daha da sürətləndirməli və bu ərazilərin erməniləşdirilməsini təmin etməli idi. Güman edilirdi ki, həmin drujinaların fəaliyyəti böyük dövlətlər tərəfindən də müttəfiqlik fəaliyyəti kimi qəbul ediləcək və bu müttəfiqliyin əvəzi kimi iddia olunan ərazilərin güzəştə gedilməsinə və bununla da ermənilər üçün "vətən" yaradılmasına münasib zəmini təmin edəcəkdir. Drujinaların təşkili həm də ermənilərin kütləvi şəkildə erməni işinə səfərbər edilməsinin nümayişinə çevrilməli idi. Məlum idi ki, silah daşımağı bacaran ermənilərin əksəriyyəti Rusiyanın və digər dövlətlərin ordularına səfərbər olunmuşdular. Bu və ya digər səbəbə görə, nizami ordulara cəlb olunmayan, çağırış yaşı çatmayan və ya çağırış yaşı keçən, xaricdən gələn və türkçülüyə nifrət zəhəri ilə şüurları zəhərlənən digər ermənilər erməni drujinalarının əsasını təşkil etməli idilər. Rusiya hakimiyyət orqanlarının drujinaların yaradılmasına münasibətinə gəlincə isə bununla əlavə qüvvələr əldə edilirdi və bu da Rusiyanın maraqlarına cavab verirdi. Ermənilər həm bölgəni yaxşı tanıyırdılar, həm yerli xalqların dilinə yaxşı bələd idilər, həm də Rusiyanın müharibə apardığı Türkiyəyə qarşı barışmaz bir nifrətlə yaşayırdılar. Bu keyfiyyətlərə malik ermənilər Rusiya qoşunlarının qarşısında dayanan hərbi vəzifələrin icrasına yardımçı ola bilərdilər (29). Ona görə də Erməni Milli Şurası tərəfindən drujinaların təşkili barəsində irəli sürülən təklif Rusiyanın Qafqaz canişinliyi tərəfindən dərhal qəbul edildi və bu təklifin həyata keçməsi üçün əməli işlərə başlandı.

Erməni könüllü drujinalarının təşkilinin və idarə edilməsinin nizamlanması üçün erməni katalikosunun xeyir-duası altında Tiflisdə «Daşnaksutyun» və «Qnçak» millətçi partiyalarının nümayəndələrindən ibarət «Milli büro» yaradıldı. "Milli büro"nun işinə türkçülüyə qarşı erməni vəhşiliklərinin müəlliflərindən olan Andronik, Dro kimi millətçilər, erməni yepiskopu Mesrop, erməni millətçiliyinin fəal nümayəndələrindən olan Xatisov, Zavriyev, «Daşnaksutyun» partiyasının silahlı qüvvələrinin rəhbəri Samson Arutyunuov və digərləri cəlb edildilər (30). Bu «fəallıqların» nəti-

cəsi idi ki, təşkilinə 1914-cü ilin sentyabrında icazə alınan erməni könüllü drujinaları həmin ilin oktyabrında artıq yaradılmışdılar.

İlkin olaraq 4 erməni drujinası hazırlandı. Qərara alınmışdı ki, bu drujinalar ayrı-ayrılıqda mövcud olsunlar və onların hər biri ermənilər üçün milli maraq kəsb edən bir istiqamətə göndərilsinlər. Birinci drujinaya Andranik Ozanyan komandir təyin edildi. Bu drujina Xoy–Dilman–Van istiqamətində türklərə qarşı müharibəyə girməyi öz üzərinə götürmüşdü. Drastamak Kanyanın (Dro) komandir olduğu 2-ci drujina İğdır–Bayazid–Berkri–Van istiqamətində, Amazasp Srvantzsyanın komandir olduğu 3-cü drujina Kaqızman–Alaşkert–Manazkert–Bitlis istiqamətində və nəhayət Keri–Arşak Qavafyanın komandir olduğu 4-cü drujina Sarıqamış–Ərzurum istiqamətində türklərin məhv edilməsi üçün «mübarizəyə» qoşuldular (31). Bu drujinalarda 3 mindən artıq erməni silahlısı birləşmişdi (32).

Əslində, silahlanmaq və türkçülüyə qarşı müharibəyə qoşulmaq istəyən erməni canlı ehtiyatları kifayət qədər idi. Sonradan bu qüvvələrin böyük bir hissəsi türkçülüyə qarşı mübarizəyə səfərbər olundular.

Erməni könüllü drujinalarına vahid geyim forması verilmişdi. Bu geyimlərin yaşıl rəngli poqonları var idi. Hər poqonun üzərində də erməni drujinasının nömrəsini əks etdirən yazı var idi. Məsələn, «AD-1». Drujinanın nömrəsinə görə, bu rəqəmlər dəyişirdi. Erməni mənbələrinin verdiyi məlumata görə, bu drujinalar əsasən, 3 xətli tüfənglərlə silahlanmışdılar. Ermənilərin istifadəsində «Manlixer» tüfəngləri də var idi. Drujinaların hər birinin tərkibində kəşfiyyat aparılması və rabitə əlaqələri yaradılması üçün atlılar bölüyü (yüzlüyü) və təminat xidməti var idi ( 33).

1915-ci il fevral ayının 15–19-da Tiflisdə "Daşnaksutyun" partiyasının növbəti qurultayı keçirildi. Qurultayda müzakirə olunan beş əsas məsələ içərisində ermənilərin silahlandırılması və erməni drujinalarının fəaliyyəti haqqında məsələ də var idi. Erməni drujinalarının fəaliyyəti haqqında ətraflı məlumat almaq üçün xüsusi olaraq Andronik döyüş bölgəsindən çağırıldı. Ermənilərin silah-

landırılması haqqında qəbul edilən qərar ermənilərin irticaçı fəallığına tamamilə cavab verirdi. Qərarda bildirilirdi ki, ermənilərin qismən silahlandırılması ciddi nəticəyə gətirib çıxarmayacaqdır. Ona görə təklif olunurdu ki, daha çox erməni silahlandırılsın və daha çox drujina yaradılsın. Çünki onların gələcəkdə erməni işinə daha çox səmərə verəcəyi güman edilirdi (34).

Erməni drujinaları ilə bağlı Andronik qurultayda məruzə ilə çıxış etdi. Bu məruzədən sonra qurultay qərara aldı ki, erməni drujinalarının sayı artırılsın. Həmin məqsədə nail olunması üçün ermənilər arasında təbliğat işlərinin genişləndirilməsi təklif olunurdu. Rusiya Dövlət Dumasının üzvü olan erməni Paracanov bildirdi ki, Rusiya hökuməti erməni drujinalarının sayının artırılmasına razılıq vermişdir. Bu xəbər qurultayda böyük sevinclə qarşılandı. Qurultayda o da qərara alındı ki, erməni drujinalarının fəaliyyəti bir cəbhədə qurulsun. Belə olduğu təqdirdə onların idarə edilməsi də asanlaşa bilərdi (35). 1915-ci ilin may ayında əlavə beş drujinanın təşkili barəsində əmr imzalandı və bununla da erməni könüllüləri drujinalarının sayı 9-a çatdırıldı. 1915-ci ilin aprelində Voronsov-Daşkov tərəfindən təsdiq edilmiş ştatlara görə erməni drujinalarının şəxsi heyətinin sayı 995 nəfər olmalı idi (36). Bütünlükdə isə erməni könüllü drujinalarında 9 min nəfərə yaxın silahlının olduğu bildirilirdi (37).

Erməni drujinalarının soyğunçuluğu, qırğınları və özbaşınalığı o həddə çatdı ki, rus komandanlığı da bundan narahat olmağa başladı. Bu özbaşınalıqlara son qoymaq üçün Qafqaz cəbhəsi komandanlığı erməni drujinalarını müəyyən nəzarət altına almağı qərarlaşdırdı. Bununla bağlı 1915-ci ilin sonu, 1916-cı ilin əvvəllərində erməni könüllüləri drujinaları bazasında erməni piyada taborlarının təşkil olunması təklifi irəli sürüldü. Erməni millətçiləri bu təklifi rəğbətlə qarşılamasalar da, Rusiya hərbi komandanlığının təkidi qarşısında güzəştə getməli oldular.

Erməni piyada taborlarının komplektləşdirilməsinə Rusiya ordusunun ehtiyat hissələrində xidmət edən erməni zabit və əsgərləri də cəlb edilirdi. Bu imkan verdi ki, erməni drujinalarının bazasında

daha hazırlıqlı erməni taborları təşkil edilsin. Taborların komplektləşdirilməsi üçün Qafqaz cəbhəsinin 39-cu piyada diviziyasının hissələrindən xeyli sayda erməni əsilli hərbçi alındı. O cümlədən bu diviziyaya aid olan 153-cü Bakı piyada alayından 237 nəfər hərbçi, 111-ci ehtiyat piyada alayından 120 nəfər erməni hərbçi erməni taborlarına cəlb edildi. Taborların hər biri təşkilati planda 4 bölükdən ibarət idi. Taborun şəxsi heyəti 984 nəfərdən ibarət olmalı idi. Taborların tərkibində piyada kəşfiyyat qrupu, atlı kəşfiyyat qrupu, rabitə xidməti komandası, sanitar komandası, pulemyot komandası var idi. Bu taborların komandirləri də erməni əsilli zabitlər idilər (38)

Bununla da 1916-cı ilin aprelində Rusiya qoşunları komandanlığı tərəfindən erməni könüllü drujinalarının bazasında 6 piyada taborunun formalaşdırılması haqqında qərar verildi. Həmin qərara əsasən erməni drujinaları aşağıdakı şəkildə piyada taborlarına çevrildilər:

2-ci erməni drujinası bazasında – 1-ci erməni piyada taboru
3-cü erməni drujinası bazasında – 2-ci erməni piyada taboru
4-cü erməni drujinası bazasında – 3-cü erməni piyada taboru
5-ci erməni drujinası bazasında – 4-cü erməni piyada taboru
6-cı erməni drujinası bazasında – 5-ci erməni piyada taboru
7-ci erməni drujinası bazasında – 6-cı erməni piyada taboru

Digər drujinalar ləğv edildi və onların şəxsi heyəti erməni piyada taborlarının ştat heyətinin komplektləşdirilməsinə istiqamətləndirildilər. Bundan başqa, bu taborları tam komplektləşdirmək üçün Qafqaz cəbhəsinin digər hissələrindən də erməni əsgər və zabitləri bu taborlara ezam olundular (39). Bu taborların cəbhədə kompakt şəkildə fəaliyyətinə imkan verilməsə də, onların bazasında bir erməni piyada briqadası yaradıldı (40). Bununla əslində, hələ Birinci Dünya müharibəsi dövründə Qafqaz cəbhəsində nizami erməni milli piyada briqadası formalaşdırılmış oldu.

1917-ci ilin fevralında Petroqradda hakimiyyət dəyişikliyi baş verəndən sonra Erməni Milli Şurası erməni piyada taborlarının bazasında erməni piyada alaylarının yaradılması haqqında məsələ

qaldırdı. Bu alayların hər birinin iki tabordan təşkil edilməsi nəzərdə tutulmuşdu. Rusiyanın yeni hakimiyyət orqanları ermənilərin bu təklifini də qəbul etdilər və mərkəzin razılığı əsasında Qafqaz cəbhəsi komandanlığı 1917-ci ilin iyul ayında erməni piyada alaylarının təşkili barəsində əmr imzaladı. Bu yeni yaradılan erməni piyada alayları sonradan Erməni korpusunun əsasını təşkil etdi (41).

Erməni korpusunun təşkili məsələsi erməni millətçiləri tərəfindən hələ Müvəqqəti hökumətin dövründə qaldırılmışdı. Belə bir korpusun yaradılması Cənubi Qafqazda hərbi şəraitin formalaşmasına erməni təsirini xeyli gücləndirə bilərdi. Müvəqqəti hökumətin rəhbərliyi bu təklifə qarşı rədd cavabı verməsə də, hər halda onun yaradılması üçün rəsmi icazə 1917-ci il noyabr ayının 19-da Petroqradda bolşevik çevrilişinin baş verməsindən sonra alındı. Qafqaz cəbhəsi komandanlığının əmrinə əsasən Erməni korpusundan əlavə bir erməni süvari briqadası da təşkil edilməli idi. (42).

Erməni koprusunun təşkilinə Müsəlman korpusunun təşkilindən təxminən bir ay əvvəl razılıq verildi və bununla bölgənin azərbaycanlı əhalisi ciddi bir təhlükə qarşısında qoyuldu. Erməni korpusunun təşkili əslində, Qafqaz cəbhəsində mövcud olan erməni tərkibli hərbi hissələrin bir strukturda birləşdirilməsi üçün atılmış addım idi. Müsəlman korpusunun təşkilinə isə heç bir bazaya malik olmadan başlamaq lazım idi ki, bunun üçün də kifayət qədər böyük bir vaxt lazım idi.

Erməni tarixi ədəbiyyatında olan məlumata görə, 1918-ci ilin fevral ayında Cənubi Qafqaz Komissarlığı tərəfindən bölgə əhalisinin, o cümlədən də azərbaycanlı əhalinin hərbi çağırışı haqqında qərar qəbul edəndə Erməni korpusunun tərkibində artıq 2 piyada diviziyası, bir süvari briqadası, habelə bir neçə ehtiyat alay formalaşmış şəkildə mövcud idi. 1 mart 1918-ci il tarixinə Cənubi Qafqazdakı erməni hərbi qüvvələri bunlardan ibarət idi:

1) general-mayor Foma Nəzərbəyovun komandanlığı altında Erməni korpusu. Bu korpusun tərkibində 1287 zabit, 10388 sıravi, bütünlükdə isə 11675 nəfər şəxsi heyət var idi;

2) general Andranikin rəhbərliyi altında Xüsusi erməni yığma dəstəsi. Dəstənin tərkibində 179 zabit, 13679 piyada əsgər, 1000 atlı, bütünlükdə 14858 nəfər şəxsi heyət var idi (43).

Bu siyahıda erməni süvari briqadası, erməni məhəlli hissələri göstərilməmişdir ki, bu hissələrdə də xeyli sayda erməni toplanmışdı. Bundan başqa, Rusiyanın Qərb cəbhəsində xidmətdə olan ermənilərin erməni milli qüvvələrinə qoşulması üçün çağırışlar edildi. Bu işə Petroqradda müxtəlif yüksək hərbi vəzifələr tutmuş erməni generalları və zabitləri rəhbərlik edirdilər. Onlar Erməni korpusunun təchiz edilməsi məqsədilə Cənubi Qafqaza zirehli qatarlar, zirehli avtomobillər, sanitar qatarı və digər təchizat göndərmişdilər. Erməni korpusunun təşkilini təkmilləşdirmək üçün 1918-ci ilin fevral-mart aylarında erməni generalları İ.Baqramyan, R.Zaryan və A.Baqratuni Qərb cəbhəsindən Bakıya gəldilər (44).

Bundan əlavə, Türkiyə erməniləri də Rusiya qoşunlarının geri çəkilməsi ilə Qafqaza axışaraq erməni hərbi hissələrinin tərkibinə qatıldılar.

Cənubi Qafqaza toplaşan və gündən-günə genişlənməkdə olan bu hərbi qüvvələr Türkiyə ərazisində əldə edə bilmədikləri «vətəni» Cənubi Qafqazda, Azərbaycan ərazilərində yaratmaq üçün öz silahlarını da azərbaycanlı əhaliyə qarşı çevirdilər.

Bu qüvvələrdən başqa Bakıda və Azərbaycanın digər şəhərlərində də ermənilərin silahlandırılması davam etdirilirdi. Burada da başlıca məqsəd azərbaycanlı əhaliyə qarşı kütləvi soyqırımı həyata keçirməklə Azərbaycan ərazilərini boşaltmaq və bu əraziləri erməniləşdirmək idi.

Oktyabr çevrilişindən sonra Qafqaz cəbhəsinin buraxılması ilə əlaqədar olaraq çoxsaylı əsgər kütlələri, o cümlədən də erməni silahlıları evlərinə dağılmalı oldular. Onların xeyli hissəsinin yolu Bakıdan düşdü. Həmin ermənilərin çoxu İran cəbhəsindən qayıdırdılar. Erməni mənbələrinin məlumatına görə, təxminən 5–6 min erməni əsgəri Tiflisə yollanmaq üçün Bakıda toplanıb qalmışdılar (45).

Tiflisə gedən dəmir yolu xətti bağlı olduğu üçün onlar Bakıda qalmalı olmuşdular. Daşnak partiyasının üzvləri, Erməni Milli Şu-

rasının fəalları bu erməni əsgər kütlələri arasında millətçi təbliğat aparmaqla onların Bakıda təşkil edilən erməni-daşnak silahlı bölmələrinə qoşulmasına nail oldular. Erməni Milli Şurası da daha çox bu qüvvələrə arxalanaraq özünün hərbi potensialını formalaşdırdı. Bakıdakı ermənilər arasından, habelə Bakıya bölgədən gələn ermənilər arasından toplanan könüllülər də 1918-ci ilin mart qırğınları zamanı Bakıda təşkil edilən erməni silahlı dəstələrinin əsas bazasını təşkil edirdi.

Bir tərəfdən Bakıda və onun ətrafında olan ermənilərin səfərbər edilməsi, bir tərəfdən də cəbhədən tərxis olunan erməni əsgərlərinin cəlb olunması nəticəsində 1918-ci ilin mart hadisələri ərəfəsində Bakıda xeyli erməni-daşnak qüvvəsi cəmləşmişdi. Elə S.Şaumyanın məlumatına görə, onların sayı 3–4 min idi. Bu məlumat qeyri-dəqiq də ola bilərdi. Erməni-daşnak qüvvələrinin törətdikləri qırğın və faciələrin pərdələnməsi üçün S.Şaumyanın onların sayını xeyli azaltması şübhə doğura bilməz. Hər halda Bakıda planlaşdırılan qırğının arzu olunan nəticələrlə başa çatdırılması üçün belə qüvvələrin toplanması və təchiz edilməsi sahəsində fəal iş aparılırdı. Hadisələrin şahidi Suren Şaumyanın etiraflarından da aydın olur ki, Bakıda silahlı dəstələrin yaradılması sahəsində Erməni Milli Şurasının fəaliyyəti Müsəlman Milli Şurasının fəaliyyətini xeyli üstələyirdi. Türkiyə ilə Rusiya arasında müharibənin nizamlanmadığı bir vaxtda silahlı dəstələrin yaradılmasının türkpərəstlik kimi qiymətləndirəcəyindən ehtiyat edən Müsəlman ictimai təşkilatlarının fəalları süstlük göstərdikləri halda, Erməni Milli Şurası bütün imkanları daxilində daşnak qüvvələrini yaratmaqda davam edirdilər (46). Rus ordusunda xidmət edən erməni əsgərlərindən istifadə edilməsinə çalışılması onların səylərinin nəticələrini daha da artırırdı. Erməni Milli Şurası 1918-ci ilin martında cəbhədən qayıdan erməni əsgərlərinə müraciət edərək onları Bakıda erməni-daşnak qüvvələrinin sıralarında birləşməyə, silahını kimsəyə təhvil verməyərək özündə saxlamağa və yeri gələndə millətin mənafeyi naminə onun təcavüzkara qarşı işlədilməsinə hazır olmağa çağırırdı (47).

Erməni-daşnak hərbi qüvvələrinin formalaşdırılmasının üçüncü

istiqaməti isə müstəqil erməni hərbi hissələrinin yaradılması idi. Bu işə əslində, rus qoşunları tərkibində başlanmışdı. 1917-ci ilin sonlarında Cənubi Qafqaz Komissarlığının qəbul etdiyi qərara əsasən erməni nizami hissələri erməni milli korpusu tərkibində birləşdirildi. Müstəqil erməni milli hissələri yalnız İrəvan quberniyası ərazisində deyil, Azərbaycan ərazisində də təşkil edilirdi. Bununla da, Azərbaycan milli korpusunun təşkili ən aşağı səviyyədə olduğu vaxtlarda Azərbaycan ərazisindəki hərbi şərait daha da mürəkkəbləşdirildi. Məsələn, Qafqaz cəbhəsi komandanı vəzifəsini icra edən general-mayor Lebedinskinin 10 yanvar 1918-ci il tarixli əmrində bildirilirdi ki, millətlərarası şuranın və cəbhə komissarının razılığına əsasən erməni korpusu komandirinin əmri ilə aşağıdakı hissələrin təşkilinə icazə verilmişdir. Bundan sonra təşkil ediləcək hissələrin adı və yerləşdikləri məntəqələr göstərilir. Qəribə də olsa bu məntəqələrin, demək olar ki, hamısı Azərbaycan ərazisində idi. Həmin əmrə əsasən aşağıdakı hissələr yaradılmalı idi:

– Erməni piyada alayı. Təşkil ediləcək yer – Şuşa şəhəri;

– Alay ştatına yaxınlaşdırılmış əlahiddə erməni piyada taboru. Təşkil olunacaq yer – Nuxa qəzası, Vartaşen kəndi;

– Erməni ehtiyat piyada taboru. Təşkil olunacaq yer – Naxçıvan şəhəri;

– Mövcud erməni ehtiyat taboru bazasında əlahiddə erməni ehtiyat taboru. Təşkil olunacaq yer – Yelizavetpol şəhəri (48).

Ermənilərin nizami hərbi hissələr yaratmaq istədikləri məntəqələr arasında Bakının adı yoxdur. Heç şübhəsiz ki, bu, Bakıdakı hərbi hissələr arasında bolşeviklərin təsirinin daha güclü olması ilə bağlı idi. Ona görə də, ermənilər Bakıda yeni hərbi dəstələr formalaşdırmalı olurdular. Azərbaycanın digər məntəqələrində yaradılmış hərbi hissələr isə bütünlükdə Azərbaycan ərazisində ermənilərin marağına cavab verən fərqli hərbi şəraitin yaradılmasına xidmət etməli idilər.

Yuxarıda qeyd edildiyi kimi, Bakı kommunistlərinin rəhbəri S.Şaumyan mart qırğınları zamanı onların ixtiyarında 3–4 min erməni silahlılarının olduğunu söyləyirdi (49). S.Şaumyanın tabeliyi

altında olmayan erməni-daşnak silahlılarının mart qırğınları dövründə mövcudluğunu da istisna etmək olmaz. Bu isə o deməkdir ki, Erməni Milli Şurasının topladığı və silahlandırdığı ermənilərin sayı S.Şaumyanın göstərdiyi saydan çox ola bilərdi. Elə erməni mənbələrinin verdiyi məlumatlar da bunu deməyə əsas verir. Məsələn, hadisələrin şahidi və iştirakçısı olmuş erməni Qavril Korqanovun sonradan yazdığı xatirələrində Bakıda aşağıdakı erməni hərbi qüvvələrinin olduğunu bildirirdi:

– 2-ci erməni alayı – 700 nəfər;

– Amazasp tərəfindən təşkil edilmiş partizan dəstəsi – 800 nəfər;

– daşnak dəstəsi – 50 nəfər;

– 2 ədəd top və 5 ədəd pulemyot;

– Qərb cəbhəsindən Erməni korpusunun komplektləşdirilməsi üçün göndərilmiş erməni əsgərləri – bir-neçə min nəfər;

– Beynəlmiləl alay (50).

Bu məlumatların obyektivliyi şübhə doğursa da, hər halda Bakıda toplanmış erməni daşnak qüvvələrinin sayının S. Şaumyanın göstərdiyi saydan daha çox olduğunu göstərir.

Gürcüstandakı erməni missiyası yanında informasiya bürosunun bülletenində 1918-ci ilin avqustunda çap olunmuş məlumata görə isə Bakının Qırmızı qvardiya və erməni-daşnak hərbi qüvvələrindən təşkil olunmuş qarnizonun tərkibi aşağıdakı kimi idi:

1. Beynəlmiləl alay – 2000 nəfər;
2. 2-ci erməni alayı – 2000 nəfər;
3. Hamazaspın dəstəsi – 1000 nəfər;
4. Şamaxı erməni qvardiyası – 1000 nəfər;
5. Müxtəlif vaxtlarda cəbhədən dönmüş erməni əsgərləri – 10000 nəfər;
6. Daşnak hərbi hissələri – 5000 nəfər;
7. Keçmiş Qafqaz alayının 2 bölüyü – 500 nəfər;
8. Milis, menşeviklər dəstəsi və mühafizə dəstəsi – 1500 nəfər;
9. Biçeraxovun dəstəsi – 2500 nəfər;
10. Rusiyadan gəlmiş bolşevik dəstəsi – 1500 nəfər.

Cəmi: 27000 nəfər (51).

Bu siyahıda göstərilən rəqəmlər də onu göstərir ki, Bakıda erməni-daşnak hərbi qüvvələrinin sayı xeyli çox idi.

Bakıda toplanan erməni-daşnak hərbi qüvvələrinin silahlandırılması da kifayət qədər sürətlə həll edilirdi. Bunun üçün Erməni Milli Şurasının ixtiyarında xeyli maliyyə vəsaiti vardı və həmin maliyyə vəsaitinin toplanması üçün illər idi ki, iş aparılırdı. Silahlı dəstələrin əsasını Rusiya qoşun hissələrindən tərxis olunanlar təşkil edirdi. Bu kontingent, xüsusən də erməni əsgərləri arasında aparılan təbliğat işindən sonra onlar öz silahlarını Erməni Milli Şurasına təhvil verirdi. Suren Şaumyanın yazdığına görə, köhnə orduda mövcud olan erməni partizan drujinalarından çoxlu sayda silah alınırdı. Müəllif çox güman ki, erməni partizan drujinaları deyəndə, yuxarıda haqqında danışılan erməni drujinalarını nəzərdə tuturdu. Müvafiq pul müqabilində tərxis olunan rus əsgərlərindən də silah alınırdı. Bütün bunlardan sonra Suren Şaumyan da təsdiq edirdi ki, mart qırğınları ərəfəsində Erməni Milli Şurasının kifayət qədər ciddi hərbi qüvvəsi var idi (52).

Suren Şaumyan eyni zamanda Erməni Milli Şurası ilə Müsəlman Şurasının ixtiyarında olan hərbi qüvvələrin nisbətini də reallıqla təsvir edirdi. O bildirirdi ki, müsəlman əhalinin ( azərbaycanlıların) xidmətə çağırılmaması və müsəlman milli zabit kadrlarının olmaması üzündən Müsəlman Şurasının tabeliyində yalnız kiçik bir dəstə və bir də Praporşiklər məktəbi vardı. Amma onun sözlərinə görə, şəhərin müsəlman əhalisi də erməni əhalisi kimi silahlanmışdı. Bu sətirlər də onu deməyə əsas verir ki, mart qırğınları günlərində azərbaycanlı əhaliyə qarşı cəbhə tutan yalnız Qırmızı qvardiya və erməni-daşnak hərbi qüvvələri deyil, eyni zamanda yaxşı silahlanmış erməni əhalisi idi. Məhz bunun nəticəsi idi ki, qüvvə üstünlüyünə malik olan bolşevik və erməni-daşnak qüvvələri azərbaycanın milli qüvvələrinin məhv edilməsi üçün 1918-ci il mart ayının sonlarında Bakıda və Azərbaycanın müxtəlif bölgələrində milli qırğınlara rəvac verdilər. Azərbaycanın milli hərbi qüvvələrinin lazımi səviyyədə formalaşmaması isə bu qırğınların miqyasının artmasına səbəb oldu.

## *2. Azərbaycanın müstəqilləşməsinə qarşı olan bolşevik-qırmızı hərbi qüvvələrin formalaşdırılması*

Azərbaycanda müstəqillik meyllərinin gücləndiyi, milli-azadlıq hərəkatının genişləndiyi bir vaxtda ictimai-siyasi həyata məqsədyönlü şəkildə təsir göstərməyin ən güclü vasitələrindən biri də sözsüz ki, hərbi qüvvələrin formalaşdırılması idi. Bu məsələ bolşevik qüvvələrinin siyasi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Silahlı üsyan yolu ilə proletar diktaturasının təşkili əslində, bolşevik inqilabi ideologiyasının mahiyyətindən irəli gələn bir vəzifə idi. Azərbaycan şəraitində isə qırmızı hərbi qüvvələrinin yaradılması bolşeviklər üçün xüsusi zərurət kəsb edən bir məsələ idi. Çünki Azərbaycan daxilində bolşeviklər yalnız mövcud hakimiyyət orqanlarını yıxmaqla kifayətlənə bilməzdilər. Öz bolşevik diktaturalarını qurmaq üçün bolşeviklər həm də Azərbaycanın milli qüvvələrinin müqavimətini qırmalı idilər. Buna isə onlar yalnız zorakılıq tətbiq etməklə nail ola bilərdilər.

XX əsrin əvvəllərindən qırmızı bolşevik qüvvələrinin formalaşdırılması üçün Bakıda münasib baza mövcud idi. Bir tərəfdən Bakıda rus qoşun hissə və bölmələri var idi. Mövcud olan məlumatlara görə, Fevral inqilabı dövründə Bakıda 18 min nəfərlik hərbi qarnizon var idi (53). Həmin qarnizon arasında aparılan təbliğat və ideoloji iş hərbi qulluqçuların bolşevikləşməsini sürətləndirə bilərdi. Çünki fevral inqilabından sonra baş verən çaşqınlıq əsgər kütlələrindən də yan keçməmişdi. Həm də əsgər kütlələri bolşevik vədlərini gələcək həyatları üçün bir ümid yeri sayırdılar və buna görə də onların qırmızı qoşun sıralarına qoşulmaq ehtimalı daha çox idi.

Digər tərəfdən Bakıda sənaye inkişaf etdikcə bura çoxlu sayda rus və digər qeyri-azərbaycanlı əhali toplanırdı. Bu kontingent də bolşevik təbliğatının və bolşevik qiyamçılığının yayılması üçün daha əlverişli mühit idi.

Fevral inqilabından sonra qırmızısilahlı dəstələrin yaradılması bolşeviklərin fəaliyyətində daha ciddi bir yer tutdu. Bunun üçün

fəhlə kütlələri arasında təbliğat aparılır və onlarda zorakı mübarizə yollarına meyl daha da gücləndirilirdi. Xüsusilə bolşeviklər eserlərdən ayrıldıqdan sonra qırmızısilahlı dəstələrin yaradılması tələbləri də geniş xarakter aldı. Məsələn, 1917-ci il sentyabrın 5-də Ramanadakı «Daryal» zavodunun fəhlələri öz iclaslarında Qırmızı qvardiyanın təşkilini tələb etdilər. Onların fikrincə, Qırmızı qvardiya fəhlələrin azadlığını qoruya bilərdi. Belə bir çağırışla 1917-ci il sentyabrın 15-də Mirzəyev şirkətinin 9-cu mədən qrupu fəhlələri, sentyabrın 22-də Balaxanıdakı bolşevik özəyi,sentyabrın 23-də Nobel qardaşlarının Qara şəhərdəki zavodunun fəhlələri çıxış etdilər (54).

Eyni zamanda bolşeviklər Bakı qarnizonunun bolşevikləşdirilməsi üçün qoşun bölmələri arasında ideoloji-təbliğat işlərini genişləndirdilər. Ağır və üzücü müharibənin çətinliklərindən təngə gəlmiş əsgər kütlələrinin müəyyən hissəsi bolşevik ideologiyasının və vədlərinin reallığına daha ümidlə yanaşırdılar və ona görə köhnə rejimdən də asanlıqla qopurdular. Bunun nəticəsi idi ki, qısa zamandan sonra Bakı qarnizonunun əsgər kütlələrinin bolşevikləşməsi xeyli sürətləndi. Məhz bolşevikləşmiş Bakı qarnizonu əsgərləri 1917-ci il sentyabrın 10-da mitinq keçirərək qarnizonun komandir heyəti arasında təmizləmə işlərinin aparılması tələbini irəli sürdülər. Həmin il sentyabrın 27-də təşkil olunmuş Bakı qarnizonu əsgərlərinin konfransı isə tamamilə siyasiləşdiyini nümayiş etdirdi və siyasi tələblərlə tətillər keçirən Bakı fəhlələrini müdafiə etdiyini bildirdi (55).

1917-ci ilin oktyabrında Peterburqda həyata keçirilən çevrilişdən sonra bolşeviklər qoşun hissələrinin qorunub saxlanması və bolşevik nəzarəti altına alınması üçün müvafiq addımlar atmağa başladılar. Oktyabr çevrilişindən ilhamlanan bolşeviklər 1917-ci il noyabrın 2-də Bakı və onun rayonlarının fəhlə və hərbi deputatlarının şurasının geniş konfransda seçilmiş İcraiyyə Komitəsində üstünlük əldə etdikdən sonra özlərini Bakının ağası hesab etdilər. Menşeviklərin, sağ eserlərin və daşnakların konfransı tərk etməsi səbəbindən bolşeviklərin fəhlə və əsgər deputatları sovetlərinin

İcraiyyə Komitəsində üstünlük qazanması sovet tarixi ədəbiyyatında Bakıda sovet hakimiyyətinin qələbəsi kimi də xarakterizə edilir. Stepan Şaumyan bu İcraiyyə Komitəsinin sədri seçildi. Yeni İcraiyyə Komitəsi şəhərdə bütün hakimiyyətin ələ alındığını da elan etdi. Lakin məlumdur ki, bolşeviklərin Bakıda hakimiyyətə şəriksiz sahib olmaq niyyətinin qarşısını Azərbaycanın milli qüvvələri kəsirdi və həmin milli qüvvələrin mövcudluğu şəraitində bolşevik hakimiyyəti də müəyyən çərçivəyə salınmışdı.

Bakıda hakimiyyətin ələ keçirilməsinə iddialı olan S.Şaumyan konfransdakı çıxışında tələb edirdi ki, bütün hərbi qüvvələr artıq onların nəzarəti altına keçməlidir. Onun fikrincə, İcraiyyə Komitəsinin razılığı olmadan qoşun hissələrinin yerdəyişməsinə icazə verilməməli idi və buna tam nail olunması üçün o, hərbi hissələrdə komissar vəzifələrinin təsis edilməsini tələb edirdi (56).

Oktyabr çevrilişindən sonra Qafqaz cəbhəsinin qoşun hissələrinin buraxılmasına başlandı. Bu prosesin bolşevik nəzarəti altına alınmasına qədər Bakı bolşevikləri yerli fəhlələrdən ibarət Qırmızı qvardiya bölmələrinin təşkilinə də cəhd göstərdilər. Bu dəstələrin əsasını rus fəhlələri təşkil edirdilər. Oktyabr çevrilişi günlərində sayı 300–400 nəfərdən ibarət olan bu dəstələrin hərbi potensialı çox aşağı idi. Bu dəstələrin komandir heyətində təcrübəli hərbçilər yox idi. Dəstə üzvlərinin əsas silahı isə berdanka tüfəngləri idi. Onların da lazımi sayda gülləri yox idi (57).

Oktyabr çevrilişinin baş verməsindən və Bakıda Fəhlə və Əsgər Deputatları Sovetinin İcraiyyə Komitəsi formalaşdırıldıqdan sonra əsas diqqət mövcud və buraxılmış hissələrin bolşevikləşdirilməsinə istiqamətləndirildi. Qafqaz cəbhəsində buraxılmış olan hərbi hissələr Tiflis–Bakı dəmir yolu xətti ilə Bakıdan keçməklə Rusiyaya yollanırdılar. Hərbi eşelonlar Azərbaycan ərazisində, xüsusilə Bakıda olarkən əsgər kütlələri arasında müvafiq təbliğat işləri aparılır və onların Qırmızı qvardiyaya qoşulmalarına nail olunurdu. Qırmızı qvardiyaya qoşulmayanların isə silahları alınır və bolşevik dəstələrinin silahlandırılmasına yönəldilirdi.

Oxşar təbliğat işləri Xəzər hərbi donanmasının şəxsi heyəti

arasında da aparılırdı. 1917-ci il noyabr ayının 4–5-də Bakıda Xəzər donanmasının qurultayı keçirildi. Qurultayda siyasi hakimiyyətə münasibət məsələsi müzakirə olundu. Müxtəlif mövqelər olsa da, səs çoxluğu ilə S.Şaumyanın rəhbərliyi altında olan Fəhlə və Əsgər Sovetlərinin İcraiyyə Komitəsinin dəstəklənməsi qərara alındı (58).

Hərbi hissələrin bolşevikləşdirilməsi üçün atılan addımlardan biri hissələrə qırmızı komissarların təyin edilməsi idi. Bu komissarlar əsgər kütlələrinin siyasiləşməsinə əks gedən zabitləri neytrallaşdırır və onların hissələrdən uzaqlaşmasına nail olurdular.

1917-ci il hələ noyabrın 12-də Bakı Soveti Bakı qarnizonuna daxil olan qoşun hissələrinin komandir heyətinin demokratikləşdirilməsi və komandirlərin seçilməsi haqqında qərar qəbul etdi. Əsgər kütlələri dərhal Bakı Sovetinin bu qərarına tərəfdar çıxdılar və nizamnamə borclarını yaddan çıxararaq hissə komandirlərinin münasib şəxslərlə əvəz edilməsi kampaniyasına başladılar. Nəticədə, 9, 18, 19 və 20-ci Qafqaz fəhlə taborlarının komandirləri yeniləri ilə əvəz edildi. Noyabr ayının 28-də isə bu hissələrin yenidən qurularaq vahid hissə şəklində təşkili və sonra da onun bolşevik orqanlarına tabe etdirilməsi barədə qərar qəbul edildi (59).

Qarnizon hissələrinin komandirliyinə münasib şəxslər yerləşdirildikdən sonra dekabr ayının 2-də həmin hissələrin müvəkkillərinin iclası keçirildi. Bu iclasda podporuçik Yefremov qarnizon rəisi, bolşevik Kleşşov Bakı şəhər komendantı seçildilər (60).

Dekabr ayının 12-də Fəhlə və Əsgər Sovetləri İcraiyyə Komitəsinin nəzdində Hərbi İnqilab Komitəsi yaradıldı. İcraiyyə Komitəsinin bu qurumun təşkili ilə bağlı qərarında bildirilirdi ki, Hərbi İnqilab Komitəsinə böyük səlahiyyətlər verilir və bu orqan Sovetlərin İcraiyyə Komitəsi ilə birlikdə şəhərdə qayda və qanunun yaradılmasını öz üzərinə götürür. Əslində, Hərbi İnqilab Komitəsi Bakı bolşeviklərinin ali hərbi qurumu kimi təsəvvür edilirdi. Bu qurum şəhər və qarnizon çərçivəsində öz fəaliyyətini davam etdirməli idi və onun İcraiyyə Komitəsi ilə birlikdə verdiyi əmrlər məcburi xarakter daşıyırdı. Qarnizonun bölük, alay və digər komitələri Hərbi İnqilab Komitəsinin qərarlarını əsas tutmalı idi

(61). Ətrafına topladığı silahlı bölmələrə dayaqlanaraq Hərbi İnqilab Komitəsi özünü şəhərdə səlahiyyətli hakimiyyət orqanı kimi aparır və bütün şəhər əhalisi üçün məcburi olan əmrlər qəbul edirdi. Dekabr ayının 14-də bütün əhali üçün məcburi elan edilən qərarda Hərbi İnqilab Komitəsi küçə və meydanlarda toplaşmağı, ondan xəbərsiz digər orqanların axtarışlar aparmasını, kütləvi şəkildə müraciətlər edilməsini qadağan edirdi. Qərara görə, dekabr ayında imzalanmış şəxsi vəsiqələri olmadan heç bir əsgər küçəyə çıxa bilməzdi (62). Əsgərlərə aid edilən qadağalar heç şübhəsiz ki, milli qoşun hissələrinin əsgərlərinə qarşı çevrilmişdi və bu yolla bolşevik orqanları milli hissələrin formalaşmasına qarşı apardığı mübarizəni qanuniləşdirməyə çalışırdı.

Dekabr ayının 21-də Bakı Sovetinin İcraiyyə Komitəsi Qırmızı qvardiyanın təşkil olunması barədə də qərar qəbul etdi və dərhal Qara şəhərdə və Balaxanıda ilk Qırmızı qvardiya dəstələri yaradıldı(63).

Bakı bolşeviklərinin möhkəmlənməsi, onların ehtiyaclarının ödənilməsi üçün Rusiyanın Xalq Komissarları Soveti də öz köməyini əsirgəmirdi. Hələ 1917-ci il dekabr ayının 16-da RSFSR Xalq Komissarları Sovetinin iclasında Stalinin Qafqazdakı vəziyyət haqqındakı məruzəsi dinlənildikdən sonra Bakı Sovetinin sədri S.Şaumyanın Qafqazın fövqəladə komissarı təyin edilməsi və onun sərəncamına 500 min rubl göndərilməsi qərara alınmışdı (64).

Qeyd etmək lazımdır ki, bolşeviklərlə bərabər, Cənubi Qafqaz Komissarlığı və milli şuralar da Qafqaz cəbhəsi hərbi hissələri daxilində iş aparırdılar. Həmin işin nəticəsi kimi hərbi hissələrin şəxsi heyətinin müəyyən hissəsi heç bir siyasi qüvvəyə qoşulmayaraq tərxis olunur, müəyyən hissəsi də milli şuraların himayəsi altında təşkil olunan milli hissələrə qoşulurdular. Bu prosesin güclənməsi Qırmızı qvardiyanın təşkili və silahlandırılması üçün mövcud olan ehtiyatları xeyli azalda bilərdi. Qafqaz hissələrinin milliləşməsinin və tərxisinin genişlənməsinin qarşısının alınması üçün Bakıda bolşeviklərin nəzarəti altında olan Qafqaz ordusu Hərbi İnqilab Komitəsi Qafqaz cəbhəsinin əhatə etdiyi müxtəlif məntəqələrdə yerli hərbi inqilab komitələri yaradırdı. Bu komitələrin

nəzarəti altında isə bütün hərbi hissələrdə və qarnizonlarda müvafiq hərbi inqilab komitələri yaradılmalı idi. 1917-ci il dekabrın 30-da Qafqaz ordusu diyar şurasının Hərbi İnqilab Komitəsi Qafqaz cəbhəsi hissələrinin əsgərlərinə milli hissələrə daxil olmaması barədə qərar qəbul etdi. Qərarda həyəcanla bildirilirdi ki, milli şuraların çağırışına cavab olaraq əsgərlər hissələrini ataraq evlərinə qayıdır və milli alaylara daxil olurdular. Bu isə cəbhədə kütləvi nizamsızlıq və xaosun genişlənməsinə yol açır. Qafqaz ordusu Hərbi İnqilab Komitəsinin qərarında Qafqaz cəbhəsi hissələrindəki milliləşmə xüsusi bir narahatçılıqla qeyd olunurdu və ona görə də Hərbi İnqilab Komitəsi belə milliləşməyə qarşı mübarizəyə səsləyirdi (65).

Toplanmaqda olan Qırmızı qvardiya dəstələrinə rəhbərlik edilməsi üçün Bakı Sovetinin İcraiyyə Komitəsi 1917-ci ilin sonlarında Mərkəzi büro yaratdı. 1918-ci ilin əvvəllərində bu büro Qırmızı qvardiyanın Mərkəzi qərargahı adlandırıldı. Mərkəzi qərargah rayon qərargahlarının fəaliyyətinə rəhbərlik edir, hərbi mütəxəssisləri və təlimatçıları təyin edir, dəstələrin silahla təchizinə, habelə Qırmızı qvardiyaçıların təliminə məsuliyyət daşıyırdı. Bakının sənaye rayonlarında yaradılmış olan Qırmızı qvardiya dəstələri yerli sovetlərin sərəncamında olmaqla Qırmızı qvardiyanın Mərkəzi qərargahına tabe idilər. Qırmızı qvardiya dəstələri manqa və taqımlardan təşkil olunmuşdular. Dəstələrin komandirləri seçmə yolu ilə müəyyənləşdirilirdi. Qırmızı qvardiya dəstələrinə yalnız S.Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin siyasi xəttinə tərəfdar olan şəxslər qəbul edilirdilər (66).

Görülən bu işlərin nəticəsində 1918-ci ilin əvvəlində Qırmızı qvardiyanın şəxsi heyətinin sayını 3500 nəfərə çatdırmaq mümkün oldu (67).

1918-ci il yanvar ayının elə ilk günlərindən Bakı Sovetinin İcraiyyə Komitəsi qərar qəbul etdi ki, yaradılmaqda olan bolşevik hissələrinin silahlandırılması üçün tərxis olunan hərbçilər Bakıdan keçərkən tərk-silah edilsin. Bunun üçün Bakı və Biləcəri stansiyalarında, liman körpüsündə nəzarət təşkil edilməli idi. Yerli qarnizonun əsgər və zabitləri isə Bakı Sovetinin sərəncamına

göndərilməli və sovet hissələrində xidmətlərini davam etdirməyə razı olacağı təqdirdə onlara silah verilməli idi (68).

Bakı Sovetinin liderlərindən biri A.Caparidze öz çıxışlarının birində bildirirdi ki, bizim real gücümüz – Qırmızı Ordumuz olmalıdır ki, onun köməyi ilə bizim Sovet hakimiyyətinin bütün düşmənlərinə qarşı mübarizə aparaq(69). Belə silahlı dəstələrin təşkilinə Bakı bolşevikləri 1917-ci ilin sonlarında başlasalar da Fəhlə-Kəndli Qırmızı ordusunun yaradılması barədə Sovet hökumətinin 15 yanvar 1918-ci il tarixli dekretindən sonra Bakıda nizami silahlı dəstələrin yaradılması sahəsindəki iş daha da genişləndi (70). Elə həmin günlərdə Qafqaz ordusu Hərbi İnqilab Komitəsinin sədri Qriqori Korqanov Qafqaz zəhmətkeşlərinə müraciət edib onları Qırmızı Ordu sıralarına daxil olmağa çağırdı. Belə bir çağırışla Q.Korqanov Qafqaz cəbhəsindən qayıdan əsgərlərə də müraciət etdi. Onun fikrincə, Sovet hökuməti qorunmayacağı təqdirdə əsgərlər nə torpaq görəcəkdilər, nə də azadlıq. Korqanov iddia edirdi ki, yoxsulluğun və viranəliyin qarşısının alınması üçün sosialist ordusu yaradıb fəhlə-kəndli hakimiyyətini möhkəmləndirmək lazımdır. Guya inqilab tam qələbə çaldıqdan və əks-inqilab məhv edildikdən sonra xalqlar üçün ümumi sülh bərqərar olacaqdır. Onun sözlərinə görə, inqilabın qələbəsinin təmin edilməsi üçün isə beynəlmiləl qoşunlar təşkil edilməli və bu qoşunlar sovet hakimiyyətinə tabe olmalı idilər(71).

Bakı bolşevikləri Azərbaycanın milli hərəkatının, onun milli qoşun hissələrinin məhv edilməsinin pərdələnməsi naminə Qırmızı Ordunun beynəlmiləl dəstəsinin yaradılmasını elan etmişdilər. Lakin bu beynəlmiləl dəstələr, əsasən, ruslardan və ermənilərdən təşkil edilirdi və azərbaycanlıların həmin dəstələrin tərkibinə yazılmasına hər vasitə ilə maneçilik göstərilirdi(72). Dəstəyə, əsasən, eserlərin və daşnakların təsiri altında olan rusdilli əhali qəbul edilirdi. Həmin vaxtda Zaqafqaziya Komissarlığının 29 yanvar tarixli dekretinə əsasən Rus Milli Şurası rus milli korpusu üçün çağırış aparırdı və bunun üçün Bakı şəhərində Rus Milli Şurasının toplanış məntəqəsi fəaliyyət göstərirdi(73). Bölgədə baş verən proseslərə loyal münasibət bəsləyən ruslar milli rus korpusuna yazılırdılar. Qırmızı Orduya yazılan ruslar – rusdil-

lilər isə əslində, ifrat mövqe ilə seçilən bolşevik-daşnak cütlüyünün cığırdaşı idilər. Qırmızı Orduya və onun beynəlmiləl dəstəsinə çağırış işləri ilə Avakyanın məşğul olması da bura cəlb edilmiş şəxslərin mənəvi keyfiyyətlərindən xəbər verirdi. Qırmızı qvardiyanın mərkəzi qərargahına da erməni A.Baqdasarov rəhbərlik edirdi(74)

Qeyd edildiyi kimi, Bakı rayonlarında Qırmızı qvardiya dəstələri yerli sovetlərin ixtiyarında olub Mərkəzi Qərargaha tabe idilər. Həmin dəstələr Mərkəzi Qərargahın qərarı ilə bu və ya digər məntəqəyə göndərilə bilərdilər. Dəstələrdə zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün xüsusi zabit məktəbi yaradılmış və onun işinə rəhbərlik Hərbi İnqilab Komitəsinin üzvü, praporşik Solntsevə tapşırılmışdı(75). Bu məktəbə Qırmızı qvardiyaüzvlərinin ən etibarlıları cəlb olunaraq onların gələcək komandirlər kimi hazırlanması planlaşdırılırdı. 1917-ci ilin sonlarında Türkiyə cəbhəsindən tərxis olunub geri qayıdan əsgərlər Bakı Sovetinə bir zirehli qatar vermişdilər. Həmin zirehli qatar da Qırmızı qvardiyaya verilmiş və heyəti rus əsgərlərindən komplektləşdirilmişdi.

Qırmızı qvardiyanın təchiz və təmin edilməsində Petroqrad hökumətinin köməyi də bolşeviklər üçün az əhəmiyyətə malik deyildi. RSFSR Xalq Komissarları Sovetinin qərarı ilə 1918-ci ilin fevral ayında Bakı Sovetinin sərəncamına 30 milyon 800 min rubl göndərilmişdi (76) ki, bu vəsaitin böyük bir hissəsi silahlı dəstələrin təşkilinə istiqamətləndirildi. Bütün bu səylərin nəticəsi idi ki, az müddət içərisində bolşevik-daşnak təəssübkeşlərindən ibarət Qırmızı sosialist alayı, süvari bölüyü, yüngül batareya və digər bölmələr yaradıldı. Fevral ayında Bakı Soveti şəhərin Azadlıq meydanında (indiki Sahil bağında–red.) bu silahlı dəstələrin paradını keçirib əhaliyə öz gücünü nümayiş etdirdi. Fevral ayının 24-də isə yenə həmin meydanda sərhəd alayının min nəfərədək döyüşçüsünün mitinqi təşkil olundu(77).

Azərbaycanın milli hərəkatı və milli qoşun bölmələri ilə mübarizənin arzu olunan nəticələrlə başa çatdırılması üçün Bakı Soveti Xəzər donanmasının da nəzarət altına alınmasına ciddi əhəmiyyət verirdi. Bu məsələ ilə bağlı Stalin də S.Şaumyana gön-

dərdiyi teleqramda onu daha qətiyyətli hərəkət etməyə həvəsləndirir və bunun üçün Rusiya Xalq Komissarları Sovetindən lazımi kömək çatdırılacağını bildirirdi(78)·

S.Şaumyanın yazdığına görə, 1918-ci ilin martında Bakıda təşkil edilmiş bolşevik qüvvələrinin sayı 6 min nəfər idi (79). Bu qüvvələrin ixtiyarında artıq iki ədəd zirehli qatar və bir ədəd zirehli avtomobil var idi. Zirehli qatarlarda 4 top və 8–9 ədəd pulemyot qoyulmuşdu.

Sovet Rusiyası ilə əlaqələri kəsilmiş olan Bakıda bolşeviklərin belə nəticələr əldə edə bilməsi V.Leninin də diqqətindən qaçmır və öz razılığını S.Şaumyana göndərdiyi teleqramda belə ifadə edirdi: «Əziz yoldaş Şaumyan! Sizin möhkəm və qəti siyasətiniz bizi çox sevindirir. Bacarıb həmin siyasəti indiki çox çətin vəziyyətin şübhəsiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin, onda biz qalib gələrik»(80).

Az sonra Şaumyanın rəhbərliyi altında Bakı bolşeviklərinin yeritdiyi siyasətin daha da möhkəmləndirilməsi üçün Moskvadan onların sərəncamına yeni hərbi kömək göndərilməsi qərara alındı. Bu qərara görə, Moskva hərbi dairəsi Bakıya bir dəstə döyüşçü, 2 təyyarə, 2 zirehli avtomobil, 5 min tüfəng və s. göndərməli idi (81).

Azərbaycanın milli hərəkat qüvvələrinə qarşı mübarizədə Bakı Sovetinin ən etibarlı dayağı Rusiya bolşevik hökuməti idi. Bu hökumətin mövcudluğu üçün Bakı neftinin nə demək olduğunu bilən Rusiya bolşevik hökuməti liderləri Bakının sovetləşdirilməsi üçün bütün imkanlardan istifadə edirdilər. Lenin Bakıda fəaliyyət göstərən silahdaşlarına göndərdiyi tövsiyələrində belə yazırdı: «Bakı bizim üçün hər şeydir və onu müdafiə edib saxlamaq lazımdır» (82). Mart hadisələri ərəfəsində Stalin S.Şaumyana göndərdiyi məktubunda da yazırdı ki, Bakını hərbi və maliyyə cəhətdən möhkəmlətmək lazımdır(83). Bu şəxslərin birbaşa göstərişi ilə Bakı Soveti üçün silah, sursat, hərbi texnika və böyük maliyyə vəsaitinin ayrılması isə bolşeviklər partiyasının Azərbaycanın milli qüvvələrinin məhvinə istiqamətlənmiş fəaliyyətinin əməli təcəssümü idi.

Sovet hakimiyyətini elan etdiyi gündən Bakı Soveti şəhərdə şəriksiz hakimiyyətə nail olmağa çalışırdı. Ancaq qüvvələr nisbəti heç də onun xeyrinə deyildi. A.Mikoyan öz məqalələrinin birində

bildirirdi ki, Bakıda milli şuraların olması, qanuni orqan olan şəhər bələdiyyəsinin mövcudluğu Bakı Sovetinə möhkəmlənmək imkanı vermirdi(84). Zorakı yolla hakimiyyətin ələ keçirilməsi, Bakının milli qüvvələrdən təmizlənməsi üçün zəruri olan silahlı dəstələrin formalaşdırılmasına isə müəyyən qədər vaxt lazım idi. Ona görə A.Caparidze bildirirdi ki, bizim bütün əvvəlki siyasətimiz vaxt qazanmağa yönəldilmişdi(85). S.Şaumyan isə fəxrlə bəyan edirdi ki, Qafqaz Ordusu Hərbi İnqilab Komitəsi qazanılmış olan 2–3 aylıq vaxt ərzində yorulmaz bir fəaliyyət göstərdi və Bakıda real silahlı qüvvələr yaratdı (86).

Azərbaycanın milli qüvvələrinə və milli qoşun hissələrinə ağır zərbəvurma niyyəti 1918-ci il mart hadisələrinin törədilməsi səbəblərinin, həm də bu hadisələrin başlanması üçün ortaya atılan bəhanənin mərkəzində dayanır. Bakıda şəriksiz hakimiyyətə malik olmaq üçün ilk növbədə burada milli hərəkatın dayağı olacaq milli qoşun hissələrinin formalaşıb möhkəmlənməsinə yol verməmək lazım idi. Ona görə də S.Şaumyan belə bir fikirlə heç cür razılaşa bilmirdi ki, müsəlman millətçiləri Bakını Azərbaycanın paytaxtına çevirməyi arzulayırlar (87). O, Bakıda milli qüvvələrin möhkəmlənəcəyi təqdirdə bu şəhərin və bütünlükdə Zaqafqaziyanın Rusiya üçün (eyni zamanda Böyük Ermənistan üçün) birdəfəlik itirilə biləcəyindən dəhşətə gəlirdi. Ona görə də S.Şaumyan Bakıda müsəlman qoşun hissələrinin hələ kifayət qədər möhkəmlənmədiyindən istifadə edərək qəti hərəkət etməyi lazım bilirdi. 1918-ci il mart ayının sonlarında Azərbaycanda və Bakı ətrafında yetişmiş olan obyektiv və subyektiv şərait də onları buna vadar edirdi.

Çünki Bakı Soveti bir tərəfdən şimalla əlaqələrini itirmişdi, Rusiyadan kömək almaq imkanından məhrum olmuşdu, digər tərəfdən isə taxıl bazası kimi baxılan Muğan da bolşevik qüvvələrindən təmizlənmişdi.

Bu iki strateji dayaq olmadan Bakı Sovetinin mövcudluğunu düşünmək mümkün deyildi. Və nəhayət, milli qoşun hissələri Şamaxı və Hacıqabulda dayanaraq qərbə doğru uzanan yolları da Bakı Sovetinin üzünə qapamışdı. Onların irəli hərəkət etməsi isə Bakının şəriksiz hakimiyyətinə can atan və buradan öz təsirini və

gücünü bütün Zaqafqaziyaya yaymaq (88) istəyən S.Şaumyan və onun tərəfdarlarının mürtəce niyyətlərinə son qoya bilərdi. İfrat bolşevik və daşnak elementləri anlayırdılar ki, Bakını əllərində saxlamaq, onu bolşevikləşdirmək, erməniləşdirmək və azərbaycanlıların əlinə verməmək üçün yeganə şansları azərbaycanlılara zərbə vurmaqdır. Onları iflas olmaqdan yalnız zorakılıq tədbirləri xilas edə bilərdi və 1918-ci il mart ayının sonunda bu tədbirə əl atıldı. İdeoloji baxımdan Rusiya bolşevik hökuməti tərəfindən ilhamlandırılan Bakı ifrat bolşevik elementlərinin və onların əqidə cütlüyü olan daşnak qüvvələrinin Bakıda törətdikləri kütləvi qırğın əməlləri həqiqətdə onların siyasi ömrünü bir neçə ay da uzatdı. Müsavat partiyasının Cənubi Qafqazda ən güclü siyasi partiyaya (89) və eyni zamanda bolşeviklərə qarşı ən güclü siyasi rəqibə çevrildiyini böyük bir qorxu və nigarançılıq içində etiraf edən S.Şaumyan rəhbərlik etdiyi qırğınlardan sonra bir neçə ay Bakının siyasi hakimiyyətini öz əllərində cəmləşdirə bildi.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Siyasi Sənədlər Arxivi (SSA), fond 276, siy.8, iş 259, v.31
2. SSA, f.276, siy. 9, iş 66, v.152
3. SSA, f.276, siy.8, i. 256, v.98–99
4. SSA, f.276, siy.9, iş 66, v.152
5. SSA, f.276, siy.9, iş 66, v.152
6. SSA, f.276, siy.9, iş 66, v.151
7. SSA, f.276, siy.8, iş 263, v.3
8. Bax: SSA, f.276, siy.8, iş 259, v.1–3
9. SSA, f.276, siy.8, iş 337, v.13
10. SSA, f.276, siy.9, iş 66, v.52
11. SSA, f.276, siy.8, iş 263, v.49, 69
12. SSA, f.276, siy.8, iş 256, v.94
13. SSA, f.276, siy.8, iş 259, v.31–32
14. SSA, f.276, siy.8, iş 259, v.75
15. SSA, f.276, siy.8, iş263, v.38, 66, 70; iş 259, v.75; siy.9, iş 66, v.236
16. SSA, f.276, siy.8, iş 412, v. 4,5
17. SSA, f.276, siy.8, iş 498, v.24
18. SSA, f.276, siy.8, iş 498, v.19
19. О формировании Армянского корпуса (1917–1918) http://nashasreda.ru/o-formirovanii-armyanskogo-korpusa-1917–1918/
20. Арцруни В. Армяне на Кавказском фронте. http://www.golosarmenii.am/article/32568/armyane-na-kavkazskom-fronte
21. Армения в годы Первой мировой войны. http://www.istoriya.ru/referat/7580/1/php
22. Арутюнян А. Кавказский фронт Первой Мировой войны. http://www.soyuzinfo.am/rus/conferences/detail.php?ELEMENT_ID=1110
23. Арцруни В. Армяне на Кавказском фронте. http://www.golosarmenii.am/article/32568/armyane-na-kavkazskom-fronte

24. О формировании Армянского корпуса (1917–1918) http://nashasreda.ru/o-formirovanii-armyanskogo-korpusa-1917 – 1918/
25. Арцруни В. Армяне на Кавказском фронте. http://www.golosarmenii.am/article/32568/armyane-na-kavkazskom-fronte
26. Доклад Назарбекова об армянском корпусе 14 апреля 1919г. http://nashasreda.ru/doklad-nazarbekova-ob-armyanskom-korpuse/
27. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава I. Формирование армянских дружин. http://russia-armenia.info/node/8784
28. Гасанлы Дж. Армянские добровольцы на Кавказском фронте 1914–1916. www.contact.az/docs/2015/.../0330001 10977ru.htm
29. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава I. Формирование армянских дружин. http://russia-armenia.info/node/8784
30. Гасанлы Дж. Армянские добровольцы на Кавказском фронте 1914–1916. www.contact.az/docs/2015/.../0330001 10977ru.htm
31. Арутюнян А. Кавказский фронт Первой Мировой войны. http://www.soyuzinfo.am/rus/conferences/detail.php?ELEMENT_ ID=1110
32. Арутюнов С.С., Месроп, Хатисов А.И. Записка об армянском вопросе и армянских дружинах / / Историко-филологический журнал. 1991. №2. ..205–209.) По материалам книги «Армянский вопрос в 120 документах из российских государственных архивов» Перинчека Мехмет Бора.http://1905.az/ru/%D0%B4...
33. Арутюнян А. Кавказский фронт Первой Мировой войны...
34. SSA, f.276, siy.8, iş 463, v.35
35. SSA, f.276, siy.8, iş 463, v.36
36. 37. Арутюнян А. Кавказский фронт Первой Мировой войны...
38. 39. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава IX. http://russia-armenia.info/node/9262

40. Доклад Назарбекова об армянском корпусе 14 апреля 1919г. http://nashasreda.ru/doklad-nazarbekova-ob-armyanskom-korpuse/
41. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XIII http://russia-armenia.info/node/9471
42. Доклад Назарбекова об армянском корпусе 14 апреля 1919г. http://nashasreda.ru/doklad-nazarbekova-ob-armyanskom-korpuse/
43. Аглян В. О формировании Армянского корпуса (1917–1918). http://nashasreda.ru/o-formirovanii-armyanskogo-korpusa-1917-1918/
44. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Состовитель С.Рустамова–Тогиди. Баку, 2009, с.19
45. Hajeri kotoracner Baqvum ev Elizavetpolium. İrəvan, 2003, s.76
46. Шаумън Сур. Бакинская Коммуна...с.12
47. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX века–начале XX века. Ч.11, Баку, 1994,с.54
48. Арутюнян А.О. .. с.332, 337
49. Большевики в борьбе за победу... с.348
50. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XXIV http://russiarmenia.info/node/10296
51. Hayeri kotaracner Baqum ... с.79
52. Сур. Шаумян. Бакинская коммуна. Баку, 1927, с.12
53. Дарабади П. Организация вооруженных сил Бакинского пролетариата (ноябрь 1917–июль 1918). Авторитет диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1979, с.13
54. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917–1918 гг. Баку, 1958, с.116, 129, 138, 140
55. Большевики в борьбе за победу... с.121, 141
56. Большевики в борьбе за победу... с.190
57. Сур. Шаумян. Бакинская коммуна... с.13
58. Маковский А.А., Радченко Б.М. Каспийская краснозна-

менная. М. 1982, с.22
59. Əzimov H. İnqilab əsgərləri. Bakı, 1978, s.70–71
60. Yenə orada,s.70
61. Известия Бакинского Совета, 1917, 14 декабря
62. Большевики в борьбе за победу...с.24
63. Quliyev Ə. Alyoşa Caparidze. Bakı, 1957, s.223
64. Большевики в борьбе за победу...с.227
65. Большевики в борьбе за победу... с.237–238
66. Дарабади П. Организация вооруженных сил Бакинского...с.15–16
67. Дарабади П.Военные проблемы политической истории Азербайджана начале XX века. Баку, 1991, с.92
68. Əzimov H. Adı çəkilən əsəri, s.82
69. Джапаридзе П.А. Избранные статьи, речи и письма. 1905–1918 гг. М., 1958, с.222
70. Очерки истории КП Азербайджана. Баку, 1985, с.344
71. Большевики в борьбе за победу...с.257
72. Насиров Т.М.Борьба за власть в Азербайджане (1917–1920). Баку, 1993, с.21
73. SSA,f.276, siy.7, iş 212, v.1
74. Кочарли Т.К. Исторический поворот в судьбах Азербайджанского народа. Баку, 1980, с.95
75. Шаумян Сур. Бакинская Коммуна...с.13
76. Şahgəldiyev H. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı, 1960, s.95
77. Карапетян С.Х. Коммунистическая Партия в борьбе за победу ...с.225
78. 26 Bakı Komissarlarının güllələnməsi. Bakı, 1927, s.15
79. Большевики в борьбе за победу... с.348
80. Братья навеки. Баку, 1987, с.123
81. Bağırov M.C. Adı çəkilən əsəri , s.172
82. Şahgəldiyev H.Adı çəkilən əsəri, s.98
83. Bağırov M.C. Adı çəkilən əsəri, s.173
84. Бакинский рабочий, 1923, 14 март
85. Джапаридзе П.А. Избранные статьи и речи...с.225

86. Шаумян С.Г. Статьи и речи...с.153
87. Yenə orada,s.117
88. Большевики в борьбе за победу...с.317
89. Шаумян С.Г. Статьи и речи...с.166

# III FƏSİL

## MÜSƏLMAN KORPUSU

XX əsrin ikinci onilliyinin sonlarında öz dövlət müstəqilliyini əldə etməsi ərəfəsində Azərbaycan xalqının qarşısında dayanan başlıca vəzifələrdən biri milli hərbi qüvvələrin yaradılması məsələsi idi. Bu məsələnin həlli və reallaşdırılması yalnız Azərbaycan xalqının milli mənafelərinin qorunması zərurəti ilə deyil, həm də yaranmış şəraitdə millətin fiziki mövcudluğunun qorunması zərurəti ilə şərtlənirdi. Milli ideyaları daşıyan və onların həyata keçirilməsi uğrunda mübarizə aparan qüvvələr şübhə etmirdilər ki, istər Azərbaycanın daxil olduğu imperiya hüdudlarında, istər Azərbaycanın özündə, istərsə də yaxın bölgədə gedən proseslər xalqı böyük faciələrlə üzləşdirə bilər. Ölkə daxilində arxalanmaq üçün dövlət üsuli-idarəsinə heç bir ümid bəslənmədiyi bir vaxtda xalqı bu faciədən qurtaracaq real və etibarlı arxa isə milli hərbi qüvvələr ola bilərdi. Azərbaycan xalqının fiziki məhvində maraqlı olan qüvvələrin hərbi gücə malik olması və kimsəyə məhəl qoymadan ondan istənilən vaxt, istənilən şəkildə istifadə edilməsi ilə artmaqda olan ümummilli təhlükə yalnız müvafiq hərbi qüvvələrin təşkili ilə aradan qalxa bilərdi. Belə qüvvələrin olmaması milli-azadlıq mübarizəsində əldə edilən nəticələrin qorunub saxlanacağını da şübhə altında qoyurdu.

1905–07-ci illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi milli qırğınlar da göstərdi ki, müəyyən milli müdafiə qüvvələrinə malik olmaq milli mövcudluğun qorunub saxlanması üçün son dərəcə zəruridir. Çünki belə qüvvələr olmadan bir çox hallarda elə çarizmin özü tərəfindən təşviq olunan erməni-daşnak silahlı qüvvələri azərbaycanlılara qarşı kütləvi qırğınlara rəvac verə bilərdi.

Doğrudur, 1905–07-ci illərdə erməni-daşnak təcavüzkarlıqlarına cavab verildi və erməni millətçi dairələri törətdikləri qırğınların layiqli cavabını aldılar. Lakin bu, ermənilərdən fərqli olaraq qeyri-nizami şəkildə silaha malik olan azərbaycanlıların fərdi tə-

şəbbüskarlığı nəticəsində baş verdi. Bir çox hallarda erməni silahlılarına ciddi müqavimət göstərən yerli qoşun dəstələrinin mövcudluğu da fərdi təşəbbüslərdən başqa bir şey deyildi.

Azərbaycan milli hərəkatının fəallarından olan Nağı Şeyxzamanlının sözlərinə görə, «Difai» partiyası bir qrup gəncin hərbi təlimi ilə məşğul olmağa başlamışdı. Onun yazdığına görə, Gəncənin hər məhəlləsində silahlı gənclərdən «Difai» ocağı quruldu və onların təliminə başlandı. Öz xatirələrində N.Şeyxzamanlı Gəncədə 13 azərbaycanlı məhəlləsinin olduğunu xatırladırdı. Bu 13 məhəllənin hamısında təlim keçilib-keçilmədiyini müəllif dəqiqləşdirmir. N.Şeyxzamanlının təsvirinə əsasən hadisələrin 1917-ci ildə baş verdiyini güman etmək olar (1).

Nəzərə alınsa ki, «Difai» partiyası gizli bir partiya idi, onun hərbi təlimə cəlb edilmiş üzvlərinin elə də çox olduğunu iddia etmək olmaz. Çox güman ki, onlar xeyli az sayda idilər və yalnız silah işlədilməsi vərdişlərinin öyrədilməsinə cəlb edilmişdilər. Çünki tarixi ədəbiyyat və mənbələrdə «Difai» partiyasının hərbi təlim keçmiş üzvlərinin fəaliyyəti barədə hər hansı məlumata rast gəlmək mümkün deyil.

Dövlət müstəqilliyinin elan edilməsi ərəfəsində xalq milli-azadlıq hərəkatının fəalları belə bir məsələyə xüsusi diqqət yetirirdilər ki, çar üsuli-idarəsinin yeritdiyi məqsədyönlü siyasət nəticəsində ermənilər və gürcülərlə müqayisədə azərbaycanlıların heç bir hərbi hazırlığı yoxdur və azərbaycanlıların hərbi xidmətə cəlb edilməməsi heç də Azərbaycan xalqının strateji maraqlarına cavab vermir. Xalqa qarşı güclənməkdə olan təcavüzün qarşısının alınması, milli-azadlıq mübarizəsinin etibarlı qüvvələrə dayaqlanması üçün mövcud olan boşluğun aradan qaldırılması, milli tərkibli hərbi qüvvələrin təşkilinə başlanmasına nail olunması istiqlal mübarizlərinin qarşısında dayanan başlıca vəzifələrdən biri hesab edilirdi. Təşkilati baxımdan sözsüz ki, müstəqil idarəçiliyə malik olan hərbi strukturların yaradılması qeyri-mümkün idi. Ona görə də milli-azadlıq hərəkatının fəalları ilk növbədə azərbaycanlıların çağırışa cəlb olunması, ölkə ordusu daxilində heç olmasa sıravi

heyəti azərbaycanlılardan ibarət olan hissələrin təşkil edilməsini irəli sürürdülər.

Bu istiqamətdə ciddi addımlar 1917-ci ilin fevralında çar üsuli-idarəsinin devrilməsindən sonra atılmağa başladı. Həmin ilin aprel ayında Bakıda keçirilmiş Qafqaz müsəlmanlarının qurultayında müzakirə obyektinə çevrilən başlıca məsələlərdən biri də milli tərkibli hərbi strukturların yaradılması məsələsi oldu. Qurultayda qərara alındı ki, Azərbaycanın səfərbərlik imkanlarını müəyyənləşdirmək üçün müsəlman əhalisinin siyahıya alınması aparılsın. Bu tədbirin həyata keçirilməsi üçün qurultay tərəfindən xüsusi bir büro da yaradıldı. Müsəlman alaylarının təşkil edilməsi və onların silahlandırılması da bu büronun qarşısında dayanan başlıca vəzifə kimi qoyuldu(2) .

Milli hərəkatın fəalları milli qoşun hissələrinin yaradılmasını muxtariyyətin əldə edilməsinin və onun qorunub saxlanmasının vacib amillərindən biri hesab edirdilər. Qurultaydan bir müddət sonra Y.V.Çəmənzəminli özünün «Muxtariyyət nədir?» adlı məqaləsində yazırdı: «Vacib məsələlərimizdən biri də milli qoşundur. Milli qoşun düzəlsə, ölkəmizdəki başsızlığı dövrən aradan qaldırmaq mümkündür»(3).

Milli qoşun hissələrinin yaradılmasına icazə verilməsi barədə tələblər mərkəzə göndərilsə də, Müvəqqəti hökumət onun yerinə yetirilməsindən çox uzaq idi. Xüsusən milli hərəkatları Rusiyanın parçalanması və separatizm kimi qiymətləndirən Kerenski (4) müsəlman qoşun hissələrinin təşkilinə razılıq verilməsini 1917-ci il sentyabr ayının sonuna kimi təxirə salmağı qərara aldı(5)· Ancaq Azərbaycanda milli qoşun hissələrinin yaradılacağı təqdirdə burada mərkəzdənqaçma qüvvələrinin daha da güclənəcəyindən qorxan Kerenski hökuməti öz vədinə xilaf çıxdı və devrildiyi günə qədər bu məsələnin həllinə heç bir diqqət yetirmədi.

Milli qoşun hissələrinin yaradılmasına hökumət tərəfindən icazə verilməsə də, bu istiqamətdə müəyyən işlərin görülməsi üçün yollar axtarılırdı. Milli-azadlıq hərəkatının fəalları ilə bərabər, bölgədə xidmət edən azərbaycanlı zabitlər də milli mənafelərin qorunması naminə bu məsələnin həllini lazımınca qiymətləndirərək özlərinin kömək və imkanlarını əsirgəmirdilər. Bu baxım-

dan sonralar Azərbaycan Ordusunda general-mayor rütbəsinə layiq görülmüş polkovnik Süleyman bəy Əfəndiyev azərbaycanlı gənclərin hərbi vərdişlər əldə etməsi üçün Gəncədə əhəmiyyətli işlər görmüşdü. 1917-ci ilin iyul ayında Gəncə şəhərinə xidməti ezamiyyətə göndərilən polkovnik Süleyman bəy Əfəndiyev burada öz vəzifəsini yerinə yetirməklə bərabər, Gəncə Müsəlman Milli Komitəsinin köməyi ilə şəhərdə hərbi kurs təşkil etdi və orada 150 nəfərə hərbi işin ilkin vərdişlərinin öyrədilməsinə başladı. Sonralar S. Əfəndiyevin ölümü ilə əlaqədar «Azərbaycan» qəzetinin çap etdiyi nekroloqda onun Gəncədəki fəaliyyəti ilə bağlı belə yazılmışdı: «O vaxt miralay (polkovnik) rütbəsində olan Süleyman bəy 1917-ci sənənin iyul ayında Gəncə şəhərinə təşrif gətirdi. Müəyyən bir vəzifə ilə Mavərayi - Qafqaz hökuməti tərəfindən ezam edilmiş idi, vəzifəsi isə təşkil ediləcək süvari milis alayı üçün kiçik zabitlər yetişdirmək idi. Mərhum Gəncə şəhərinə varid olan kimi Gəncə Müsəlman Milli Komitəsinə təşrif gətirərək bəyanat verdi. Və Azərbaycan türklərinin qəvay əsgəriyyəsi olması və buna əşd ehtiyac xüsusunda izahat verərək əlavə etdi ki, əgər bu məsrəfi Gəncə Milli Komitəsi öz öhdəsinə götürərək qəvay əsgəriyyə təşkili əsasına ibtidar etmək arzusunda bulunarsa, məal məmnuniyyə bu xüsusda heç bir fədakarlıqdan çəkilməyəcəkdir. Milli komitə işə başladı. Yüz əlli nəfərlik gecə-gündüz olaraq bir məktəbi-hərbiyyə güşadına qərar verdi. Bu miqdarı Gəncə vilayəti qəzaları arasında nüfuz etibarilə təqsim edərək namizədlər və onların məsrəflərini göndərmək xüsusunda cümlə qəzalarının milli komitələrinə müraciət etdi»(6).

Bu kurs vilayətə daxil olan bütün qəzaları əhatə etməli idi. Gəncə Müsəlman Milli Komitəsi qəzalardan göndəriləcək namizədlərin sayını müəyyənləşdirdikdən sonra bu barədə qəza müsəlman komitələrinə məlumat verdi. Qəza müsəlman komitələri isə kursda təhsil alacaq namizədləri müəyyənləşdirməklə onların təhsil xərcini ödəməli idi. Ancaq bəzi komitələr öz namizədlərini göndərsələr də, təhsil xərcini ödəyə bilmədilər. Bu isə kursun fəaliyyətində müəyyən çətinliklər yaradırdı.

S. Əfəndiyev ortaya çıxan bu çətinliklərə baxmayaraq, kursda öz işini davam etdirir və gənclərin hərbi biliklərə yiyələnməsində

boynuna götürdüyü məsuliyyəti layiqincə yerinə yetirirdi. Onun rəhbərlik etdiyi bu kiçik kursun üzvləri hərb işinin sirlərini öyrənməklə bərabər, Gəncədə qanun-qaydanın yaradılmasında, anarxiyanın və özbaşınalıqların qarşısının alınmasında yaxından iştirak edirdilər(7)·

Bununla belə, ictimai əsasda yaradılmış olan kiçik bir kurs milli hərəkatın müəyyənləşdirmiş olduğu məqsədlərin həyata keçirilməsi, xalq kütlələrini ehtimal olunan təhlükə və təcavüzlərdən qorunması üçün kifayət deyildi. Müsəlman milli hissələrinin yaradılmasına göstərilən məqsədyönlü maneələr haqlı narahatçılığı getdikcə artırırdı. Müsəlman silahlı strukturlarının təşkilinə əks getdiyi halda Müvəqqəti hökumətin Zaqafqaziya təmsilçisi olan Xüsusi Komitə gürcü milli qüvvələrinə milli hərbi strukturlar yaratmağa icazə vermişdi. Daşnak ideyalarına xidmət edən erməni milli qüvvələri isə artıq çoxdan mövcud idi.

Türklərin fiziki məhvini ümummilli vəzifə kimi qarşılarına qoymuş daşnak qüvvələrinin təcavüzünün azərbaycanlılara qarşı yeni bir vüsət alacağı təqdirdə onları qoruyacaq etibarlı qüvvə mövcud deyildi. Ona görə də bölgədə mövcud olan müxtəlif milli qüvvələrə müəyyən müqavimət göstərə biləcək silahlı strukturların yaradılması getdikcə daha geniş aktuallıq kəsb edirdi. Bu fikirlər 1917-ci il oktyabr ayının 24-də Yelizavetpola gəlmiş və Birinci Dünya müharibəsi dövründə qafqazlılardan təşkil edilmiş «Dikaya diviziya»nın Tatar süvari alayının keçmiş komandiri Polovsovun şərəfinə keçirilmiş Müsəlman Milli Komitəsinin fövqəladə iclasında da səsləndi(8). İclasda çıxış edən komitə üzvləri milli hərbi qüvvələrin təşkil edilməsinin millət üçün xüsusi əhəmiyyətini qeyd edir və bu istiqamətdə qüvvələri birləşdirməyə çağırırdılar.

Həmin il noyabr ayının 5-də isə Yelizavetpolda Qafqaz müsəlman hərbçilərinin I qurultayı keçirildi. Burada da milli hərbi qüvvələrin yaradılması müzakirələrin əsas mövzusuna çevrildi. Hətta Qafqazda digər millətlərin öz milli qoşun hissələrini yaratmağa başladığı halda azərbaycanlıların milli tərkibli hərbi strukturlarının yaradılmasına hər vasitə ilə imkan verməyən Müvəqqəti hökumətin mürtəce mövqeyi ciddi tənqid atəşinə tutuldu. Ümumi fikir yekdilliyi ilə bu sahədəki boşluğun aradan

qaldırılması üçün daha qətiyyətli və səmərəli hərəkət edilməsi müdafiə olundu(9).

## *1. Müsəlman korpusunun strukturu və idarəetmə orqanları*

1917-ci il dekabr ayının 6-da(19-da) Zaqafqaziya Komissarlığı Bakıda və Dağıstanda yaranmış hərbi şəraiti müzakirə edərkən bolşevizmə qarşı mübarizənin daha səmərəli şəkildə aparılması üçün qoşun hissələrinin milliləşdirilməsini məqsədəuyğun saydı. Bununla da əslində, Qafqaz ordusunun milli tərkibli birləşmələr zəminində yenidən qurulmasına qərar verildi. Qafqaz cəbhəsinin komissarı Donskoyun imzaladığı əmrdə bu məsələ öz həllini tapdı. Həmin əmrdə deyilirdi: "1) Ordu milli tərkibli nizami vahidlərdən təşkil olunur. 2) Erməni, gürcü, müsəlman, ukraynalı və başqalarından təşkil olunan döyüş hissələrindən başqa, dərhal rus korpusu da yaradılsın. 3) Qafqaz ordusunun cəbhəsində xidmət etmək istəməyən əsgər və zabitlər müvafiq təyinat üçün öz məhəlli hərbi rəislərinin sərəncamına göndəriləcəklər"(10).

Həmin əmrlə Qafqaz ordusunun tərkibində ciddi struktur dəyişikliyi yaradıldı. Bu struktur dəyişikliyinə görə, tərkibi ermənilərdən, gürcülərdən, azərbaycanlılardan və ruslardan ibarət olan korpuslar təşkil edilirdi. Milli tərkibli bu korpuslar operativ və təşkilati planda Zaqafqaziya Komissarlığına tabe olan Qafqaz cəbhəsinə daxil idilər. Korpusların təchizat və təminat məsələləri də Qafqaz cəbhəsi komandanlığı tərəfindən həyata keçirilməli idi. Ancaq aydın idi ki, milli tərkibli hissələrin formalaşmasında Milli komitələr də kifayət qədər köməklik və qayğı göstərirdilər.

Elə həmin günlərdə Qafqaz cəbhəsinin komandanı general Prijevalski Bakıda olan hərbi hissələrin ləğvi barədə də əmr imzaladı. Ancaq əmrdə göstərilirdi ki, mövcud olan milli tərkibli bölmələr və qruplar ləğv edilmirlər(11). Bu bölmə və qruplar milli mənsubiyyəti üzrə hissələrin sərəncamına verilməli idilər.

Milli tərkibli qoşun hissələri mürəkkəb şəraitdə formalaşırdı və əslində, bu mürəkkəb formalaşma prosesi bolşevizmə qarşı mübarizə ilə paralel olaraq aparılırdı. Ancaq getdikcə daha geniş baza əldə edən Müsavat partiyası fəallarının və milli əhval-ruhiy-

yəli digər vətənpərvərlərin mübariz iradəsi və qətiyyəti bütün qüvvələri ortaya çıxan çətinliklərin aradan qaldırılmasına səfərbər edirdi. Milli tərkibli qoşun hissələrinin yaradılması mövcud olan azsaylı milli hərbçilər tərəfindən də müdafiə olunurdu. Belə hərbçilərin Bakıda, Lənkəranda, Tiflisdə keçirilən yığıncaqlarında (12) milli qoşun hissələrinin təşkilinin zəruriliyi vurğulanmışdı.

Müsəlman Korpusunun yaradılması barədə qətnamə Zaqafqaziya Komissarlığı tərəfindən 1917-ci il dekabr ayının 11-də qəbul edildi. Zaqafqaziya Komissarlığının sədri Gegeçkori tərəfindən imzalanmış həmin qətnamədə deyilirdi:

1. Zaqafqaziya müsəlmanlarının əsgərliyə alınması könüllü sifətilə olmalıdır.

2. Müsəlman əsgərlərinin toplanmasını Mərkəzi Zaqafqaziya Müsəlman Komitəsinə tapşırmalı, məzkur komitə kifayət qədər də silah daşımağa müstəid adamlar verməlidir.

3. Toplanmış könüllülər müayinəyi-tibbiyyədən sonra əsgəri hissələrə təqsim edilməlidirlər.

4. Əsgəri hissələrə təqsim edilmiş müsəlman əsgərləri xidmətini yerinə yetirməkdən ötrü ümumi qayda və əsas üzrə əsgərlər sinfində qalmalıdırlar.

5. Komandanlar, ərkani-hərb məmurları və ümumiyyətlə bütün zabitlər Zaqafqaziya yerli müsəlmanlarından olmalıdır. Bunlar kifayət etmədikdə başqa millətlər də üzv oluna bilərlər.

6. Qolordunun təşkili və hissələrinin təchizi barədə bütün məxaric ümumi əsas və qayda mucibincə Rusiya cümhuriyyətinin sair əsgəri hissələrində olduğu kimi dövlət xəzinəsi öhdəsinə qoşmalıdır.

7. Bu qolordu təşkil olunduqdan sonra Zaqafqaziya müsəlmanlarının soldat pulu (əsgəri naloq) verməkdən azad edildikləri həqqində bir əmrnamə verilməlidir.

Korpusları təşkil edən hissələrin formalaşdırılması isə bir qədər əvvəldən, yəni artıq noyabr ayından başlanmışdı. Doğrudur, gürcü və erməni silahlı qurumları başqa formada əvvəldən də mövcud idi və milli qoşun hissələrinin təşkili Zaqafqaziya Komissarlığı tərəfindən rəsmiləşdiriləndə onlar yeni strukturlarda dərhal öz yerlərini tutdular. Yəni «müsəlman alayının təşkili mübahisə

və münaqişə halında ikən gürcü və erməni alaylarının təşəkkülü haman tamam olub bitmişdi»(13).

Milli qoşun hissələrinin arasındakı əlaqə və münasibətləri nizamlamaq üçün millətlərin Hərbi Şurası təşkil edildi. Bu Şuraya azərbaycanlıların, gürcülərin və ermənilərin nümayəndələri daxil idilər (14). Bundan başqa, 1917-ci ilin sonlarında Tiflisdə Qafqaz Müsəlmanlarının Hərbi Şurası adlı bir qurum da mövcud idi. Həmin qurum heç şübhəsiz ki, müsəlman hissələrinin təşkilinə, təminat və təchizatına qayğı göstərməklə məşğul idi.

Eyni zamanda Tiflisdə rus korpusu da təşkil edilirdi. Yaradılmaqda olan rus korpusuna general Dratsenko, gürcü korpusuna general Axmeteli, erməni korpusuna isə general Nazarbekov komandirlik edirdi(15). Korpusların formalaşdırılmasının bütün təşkilati işləri də onların rəhbərliyi altında aparılırdı.

Müsəlman korpusunun komandiri vəzifəsinə general-leytenant Əliağa Şıxlinski təyin edildi. Çar ordusu tərkibində şərəfli zabit yolu keçmiş olan Ə.Şıxlinski 1917-ci ilin noyabrında bolşevikləşməkdə olan ordudan istefaya çıxmağı üstün tutdu və elə həmin il dekabr ayının 2-də onun xidmətdən azad edilib ehtiyata buraxılması barədə əmr imzalandı(16). O, dərhal da Qafqaza qayıtdı və burada qaynar ictimai proseslərin burulğanına düşdü. Belə bir təcrübəli və nüfuzlu general Müsəlman korpusunun komandiri təyin olundu və milli qoşun hissələrinin formalaşdırılması ona tapşırıldı. Sovet rejiminin ən kəskin illərində yazdığı xatirələrində Ə.Şıxlinski Tiflisə qayıtması, Müsəlman korpusuna komandir təyin edilməsi və milli qoşun hissələrinin vəziyyəti barədə çox ehtiyatla və çox ötəri qeydlər etmişdi. Ancaq Müsəlman korpusunun mövcud olan çox kasad arxivindən məlum olur ki, Ə.Şıxlinski milli qoşun hissələrinin yaradılmasını ürəkdən alqışlamış, ona tapşırılan çox çətin vəzifənin öhdəsindən gəlmək üçün yüksək milli və vətənpərvərlik keyfiyyətləri nümayiş etdirmiş, bu yolda özünün bütün təcrübə və bacarığından istifadə etmişdir. Öz xatirələrində general yazırdı: «... sonra Azərbaycan (müsəlman – M.S) korpusu təşkil etmək qərara alındı. Bu korpusa komanda etməyi mənə təklif etdilər. Mən xəstə olduğuma və müalicəyə gəldiyimə əsaslanaraq boyun qaçırdım. Buna baxmayaraq, mənim orada

olmadığım günlərdə Müsəlman korpusu təşkil etmək və başqa bir adam təyin olunana qədər bu korpusa mənim müvəqqəti komandirlik etməyim haqqında əmr vermişdilər. Bu zaman mən Yelizavetpola (Gəncəyə) getmişdim. Tiflisə qayıtdıqda müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olunduğu barədə əmri oxudum... Dekabrın 31-də mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul oldum»(17).

Azərbaycan milli qoşun hissələrinin yaradılmasına başlanması barədə 7 yanvar 1918-ci il tarixli nömrəsində «Açıq söz» qəzeti belə yazırdı: «Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya Komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilatı haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə, 1917-ci il dekabrın 11-də Zaqafqaziya Komissarlığının Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsi çıxarmışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi işi Qafqaziya Mərkəzi Müsəlman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya Komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının bu qətnaməsinə binaən dekabrın 19-da beşinci və yeddinci Qafqaziya piyada firqələrindən ibarət olan 6-cı ordu korpusunun Müsəlman nizami ordusuna əvəz edilməsi haqqında Qafqaziya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən əmrnamə verilmişdir. Həmin əsgər dəstələrini milliləşdirmək işlərinin nəzarəti general Əliağa Şıxlinskiyə həvalə edilmişdir.

General Şıxlinski öz vəzifələrinin icrasına başlamışdır»(18).

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Müsəlman Korpusunun qərargahı Tiflisdə yerləşirdi, bütün təşkilati işlərə rəhbərlik də buradan edilirdi. Korpusun ştatı rus ordusunun ştatlarına uyğun olaraq təşkil edilmişdi. Bu günə gəlib çatmış arxiv sənədlərinin araşdırılması göstərir ki, Müsəlman Korpusunun qərargahında aşağıdakı strukturlar var idi:

Ümumi qərargah, korpus ləvazimat rəisinin xidməti, korpusun topçu müfəttişinin xidməti, korpusun istehkam rəisinin xidməti,

ober-kvartirmeyster xidməti, növbətçi zabitin şöbəsi, korpusun tibb xidməti və baytar həkiminin xidməti(19).

Bu strukturların tərkibi həddən artıq yığcam idi və bu yığcamlıq onların çevik fəaliyyətinə imkan yaradırdı. Doğrudur, qərargahların bu yığcamlığı qoşun hissələrinin formalaşdırılmasında, təlim və tərbiyənin təşkilində çevik və operativ hərəkət etməyə imkan verirdi. Bununla belə mövcud olan obyektiv çətinliklər Müsəlman Korpusunun formalaşmasını xeyli mürəkkəbləşdirmişdi.

Əgər Erməni Milli Korpusunun tərkibində üç piyada diviziyası var idisə, Müsəlman Korpusunun tərkibində iki piyada diviziyası var idi. Erməni korpusu ilə müqayisədə Müsəlman Korpusunda iki diviziyanın yaradılması çox güman ki, çağırış və kadr məsələləri ilə bağlı idi. Diviziyalar dörd alaydan ibarət idi. Bundan başqa Müsəlman Korpusunun tərkibinə 1-ci və 2-ci topçu briqadaları, xüsusi müsəlman süvari briqadası, müsəlman istehkam taboru, musəlman süvari batareyası, müsəlman mortir və park divizionu, ikinci müsəlman mortir parkı və s. birləşmə və hissələr daxil idi(20).




**Müsəlman Korpusunun strukturu**

Diviziyalara daxil olan alayların nömrələri ardıcıllıqla müəyyənləşdirilmişdi. 1-ci diviziyaya 1, 2, 3, 4-cü alayları, 2-ci diviziyaya isə 5, 6, 7 və 8-ci alaylar daxil idi. Xüsusi süvari briqadasına daxil olan süvari alayları da ardıcıllıqla 1, 2 və 3-cü alaylar adlandırılmışdı.

Müsəlman korpusunun ilkin strukturunda aviasiya dəstəsi də var idi. Qafqaz cəbhəsi qoşunları nəzdindəki Millətlərarası Hərbi Şuranın qərarı ilə 4-cü Qafqaz aviasiya dəstəsi Müsəlman korpusunun tərkibinə verilməli idi (21). Hətta 4-cü aviadəstənin komandiri kapitan Sakiriçə də göstəriş verilmişdi ki, Müsəlman korpusu ilə əlaqə saxlasın və həmin korpusun tərkibində aviadəstənin formalaşdırılmasına kömək etsin (22). Amma görünür, Ə.Şıxlinski belə bir aviadəstənin təchizinin və lazımi döyüş hazırlığına malik olmasının reallığına əmin deyildi və ona görə də onun əmri ilə bu struktur ləğv edildi (23).

Arxiv sənədlərində və bəzi tarixi ədəbiyyatda mövcud olan məlumatlar əsasında Müsəlman korpusunun hissə və birləşmələrinin bir çoxunun komandirlərini də dəqiqləşdirmək mümkündür. Onlar aşağıdakılardır: 1-ci müsəlman diviziyasının komandiri – general-mayor Xəlil bəy Talışinski, 2-ci müsəlman piyada diviziyasının komandiri – general-mayor İbrahim ağa Usubov, 1-ci müsəlman alayının komandiri – Əmənulla Mirzə Qacar , 2-ci müsəlman alayının komandiri – podpolkovnik Məmmədov, 5-ci müsəlman alayının komandiri – polkovnik Süleyman bəy Əfəndiyev, 7-ci müsəlman alayının komandiri – polkovnik Əliisgəndərov, xüsusi müsəlman süvari briqadasının qərargah rəisi – podpolkovnik Həbib bəy Səlimov, 1-ci müsəlman süvari alayının komandiri – podpolkovnik Hacıbəyli, 2-ci Tatar süvari alayının komandiri – polkovnik Maqalov, 3-cü Ləzgi süvari alayının komandiri – polkovnik Xosrov Mirzə Qacar, 2-ci müsəlman topçu briqadasının komandiri– polkovnik Tlexas (24) .

1918-ci il fevral ayının 24-də Bakıda 1-ci müsəlman alayının təşkil edilməsi üçün general-mayor X.Talışinskinin rəhbərliyi ilə 1-ci diviziyanın bura gəlmiş qərargah zabitləri dərhal elə vağzaldaca həbs edilmişdilər(25). Bu xəbər kütlələr arasında çox bö-

yük narazılığa səbəb oldu. Bolşeviklərin nümayəndələri yazırdılar ki, onların qarşısına çıxmış Yelizavetpol əhalisi də Bakıda müsəlman qərargahının həbs edilməsinin, öz bəylərini və ağalarını devirmək üçün müsəlmanlar arasında Şaumyanın çağırışlarının yayılmasının, habelə müsəlmanlara qarşı qoyulmasına cəhd göstərilməsinin səbəblərini öyrənməyə çalışır, bu məsələlərə öz narahatçılıqlarını ifadə edirdilər. Xalqın narazılıqlarının geniş miqyas aldığını görəndə bolşeviklər general-mayor X.Talışinski ilə gələn müsəlman zabitləri həbsdən azad etdilər. Bolşeviklərin nümayəndələri iddia edirdilər ki, onlar xalqın tələblərinə görə deyil, yalnız siyasi mülahizələrə görə azad olundular. Rus zabitləri isə əlavə olaraq bir müddət həbsdə saxlanıldılar. Bəhanə də bu idi ki, guya müsəlman qərargahının həbsindən bir gün əvvəl Bakıya gələn qatarların birində bir erməni zabitinin öldürülməsinin səbəbləri barədə təhqiqat işləri aparılırmış(26)· Əslində isə bolşeviklər Müsəlman korpusunda xidmət edən rus zabitlərini ya bezikdirmək, ya da onları öz tərəflərinə cəlb etmək istəyirdilər.

General-mayor X.Talışinskinin rəhbərliyi altında Bakıya gələn zabitlər qrupu Müsəlman Xeyriyyə Cəmiyyətinin qərar tutduğu İsmailiyyə binasında fəaliyyətə başladılar. Onlar bu binanın zirzəmisində güllə sexi açmaq istəyirdilər. Lakin sonradan həmin sex Səadət məktəbinin zirzəmisində açıldı.

Fevral ayının 24-də Bakı vağzalında müsəlman qərargahı həbs edilərkən təsadüfən salamat qalmış zabit Konstantin Konaplyov xatırlayırdı ki, sonradan o, çox çətinliklə bolşevik xəfiyyələrinin diqqətindən yayınaraq özünü İsmailiyyəyə, general-mayor Talışinskiyə yetirmiş və ondan Tiflisə qayıdaraq vəziyyət barədə korpus komandiri Ə.Şıxlinskiyə məlumat vermək barədə tapşırıq almışdı. Dağıstanlıların köməyi ilə gizli yolla şəhərdən çıxan Konaplyov Puta stansiyasında qatara minib Tiflisə gəlmiş və birbaşa Ə.Şıxlinskinin evinə yollanaraq general-mayor X.Talışinskinin məlumatlarını ona çatdırmışdı (27).

Aldığı məlumatdan və Bakıdakı ictimai-siyasi vəziyyətlə ətraflı tanış olduqdan sonra general-leytenant Şıxlinski korpusun hissələrinin dislokasiyasında müəyyən dəyişikliklər etməyi qərara aldı. Onun 58 saylı 11 mart 1918-ci il tarixli əmrində deyilirdi: «Kor-

pusun hissələrinin formalaşması üçün Bakıda və Qars vilayətində müvəqqəti olaraq yaranmış əlverişsiz şəraitlə və korpusun qərargahının Yelizavetpola köçürülməsinin nəzərdə tutulması ilə əlaqədar olaraq əmr edirəm:

1) 1-ci müsəlman diviziyasının qərargahı Şamaxı şəhərinə köçsün.

2) 1-ci müsəlman alayı Şamaxı rayonunda formalaşdırılsın.

3) 2-ci müsəlman alayı Quba şəhərinə köçsün.

4)1-ci müsəlman piyada-topçu briqadasının divizionu və rəhbərliyi Yelizavetpola köçsün.

5) 6-cı müsəlman alayı İrəvan quberniyasında təşkil edilsin. Bunun üçün alayın qərargahı Naxçıvan şəhərinə köçürülsün və Ordubadda təşkil edilmiş dəstəni alayın tərkibinə qəbul etsin.

6) 7-ci müsəlman alayı Nuxa şəhərinə köçsün. Qars vilayətində bu alay üçün yaradılan komanda isə qərargahı Abbastumanda qalan 8-ci müsəlman alayının tərkibinə verilsin.

7) 2-ci müsəlman piyada-topçu briqadasının 2-ci divizionu Naxçıvanda yaradılsın.

8) müsəlman süvari-topçu batareyası Lənkəranda yaradılsın.

9) 2-ci süvari alayının qərargahı Ağdama köçürülsün.

10) Müsəlman istehkam taboru Tiflisdə deyil, Yelizavetpolda yaradılsın.

11) Müvəqqəti Milli Hərbiyyə Məktəbi Bakıda deyil, Yelizavetpolda açılsın.

12) Korpusun digər hissələri əvvəlcə müəyyənləşdirilən yerlərdə təşkil edilsin (28).

Mart ayının sonlarında isə Müsəlman korpusunun qərargahının Yelizavetpola (Gəncəyə) köçürülməsinə başlandı. İlkin olaraq ehtiyat komanda atlı bölüyü, korpusun təchizat idarəsi, korpus məhkəməsi, tibb və baytar xidmətlərinin köçürülməsi nəzərdə tutulmuşdu. Korpusun qərargahının köçürülməsinə başlanmazdan əvvəl 2-ci piyada alayının və 1-ci topçu briqadasının qərargahları Gəncəyə hərəkət etməli və orada yerləşdikdən sonra korpusun qərargahının köçürülməsi üçün şərait hazırlamalı idilər. Əmrə əsasən mart ayının 26-dan etibarən əmlakın daşınmasına başlanmalı idi (29).

Yeni dislokasiya şəraitində korpusun hissələri arasında qırılmaz

rabitənin saxlanılması üçün Ə.Şıxlinski bu əmrdə poçt əlaqələrinin yenidən qurulması barəsində də göstəriş verdi. Həmin göstərişə əsasən iki mərkəzi poçt yaradılmalı idi. Korpusun qərargahının Yelizavetpola köçməsi ilə həmin poçtlardan biri orada, korpusun qərargahı nəzdində, o biri isə Tiflisdə, xüsusi süvari briqadasının qərargahı nəzdində təsis edilməli idi. Korpusun poçt xidməti də, əsasən, bu iki məntəqə tərəfindən tənzimlənməli idi.

Yelizavetpolda yerləşən mərkəzi poçtdan məktublar Yevlaxa, Kürdəmirə və Tiflisə göndərilməli və onlardan qəbul edilməli idi. Tiflisdə yerləşən mərkəzi poçtdan isə məktublar xüsusi süvari briqadası vasitəsilə İrəvana, Qarayazıya göndərilməli və oradan qəbul edilməli idi. Kürdəmirdə yerləşən məhəlli məntəqə – 1-ci müsəlman diviziyasının qərargahına, 1-ci və 2-ci alaylara, Yevlaxda yerləşən məntəqə – Nuxa məntəqəsinə və 2-ci süvari alayına, 3-cü piyada alayına, süvari batareyasına, Nuxada yerləşən 7-ci alaya və 3-cü Ləzgi süvari alayına, İrəvanda yerləşən məntəqə isə 6-cı piyada alayına, 2-ci piyada-topçu briqadasının 2-ci divizionuna, 1-ci müsəlman süvari alayının 2-ci divizionuna xidmət etməli idi. Bunlardan əlavə, müəyyənləşdirilmişdi ki, 4-cü alay ilə mortir divizionu birbaşa Yelizavetpoldakı mərkəzi məntəqə ilə əlaqə saxlamalıdır(30).

Bu əmrin icrası yönümündə 1918-ci il mart ayının sonlarına yaxın Müsəlman korpusunun qərargahı Yelizavetpol şəhərinə köçürüldü (31).

## *2. Müsəlman korpusunun təchizat məsələləri*

Müsəlman korpusunun təşkilatlandırılması üçün mövcud olan çətinliklərdən biri təchizat məsələsi idi. Özü də bu problemin elə bir sahəsi yox idi ki, orada vəziyyət azacıq da olsa yaxşı olardı. Korpusun komandiri Ə.Şıxlinski sonralar haqlı olaraq belə yazırdı: «Bizim əlimizdə silah, cəbbəxana, ərzaq ehtiyatı, paltar və ayaqqabı yox idi»(32)· Korpusun rəhbərliyi qoşun hissələrinin formalaşdırılması ilə bir vaxtda bu böyük problemin həllinə də nail olmalı idi. Sözsüz ki, Müsəlman milli şuraları da həmin istiqamətdə öz kö-

məkliklərini əsirgəmirdilər. Məsələn, hələ Ə.Şıxlinski korpus komandiri təyin edilməzdən əvvəl Tiflis Müsəlman Şurası milli qoşun hissələrinin təşkili üçün müəyyən qədər zəruri əşyalar toplamış və sonra onları korpus komandanlığına təhvil vermişdi. Müsəlman ictimai təşkilatlarının fəalları imkan daxilində bazardan da silah, sursat və digər əşyaları alaraq qoşun hissələrinə verirdilər (33).

Lakin onların köməyi elə də çox deyildi. Milli qoşun hissələrinin təşkilində və təchizində Azərbaycan Milli burjuaziyasının nümayəndələri – H.Z.Tağıyev, M.Nağıyev və başqaları da iştirak edirdilər. Hətta H.Z.Tağıyev, Ş.Əsədullayev kimi imkanlı şəxslərin övladları Müsəlman Korpusunun tərkibində xidmətə qoşulmuşdular və ona görə milli qoşun hissələrinin hansı çətinliklərlə qarşılaşdığını Bakı zənginləri yaxşı bilirdilər (34). Ona görə də xalqın milli təəssübkeşləri çox sahələrdə olduğu kimi orduya qayğı sahəsində də yardımlarını əsirgəmirdilər.

H.Z.Tağıyevin milli qoşun hissələrində xidmət edən oğlu Məhəmməd də söhbətlərində təchizat məsələlərinin xeyli ağır olduğunu, yataq əşyalarının olmadığı üçün zabitlərin çoxunun başları altına yəhər qoyaraq yatdıqlarını bildirirdi(35).

Bakıda təşkilinə başlanan qoşun bölmələrindən birinin üzvü Mirəziz Seyidli xatirələrində həmin günləri belə təsvir edirdi: “Hacı Zeynalabdin kimi zənginlərdən para toplanıldı və İsmailiyyənin bir guşəsində könüllü əsgərlərin qeydiyyatına başlandı. İlk həftədə 50–60 könüllü yazıldı. Onların arasında yoldaşlarıma örnək olmaq üçün mən də vardım.”(36).

Qafqaz cəbhəsi qoşunları baş komandanının əmrinə əsasən Cənubi Qafqazdakı milli korpuslar Qafqaz cəbhəsinin hansısa bir korpusunun bazasında formalaşdırılmalı idi və həmin korpusların maddi-texniki bazası da nəzərdə tutulmuş milli korpusa verilməli idi. Müsəlman korpusunun bazasının Qafqaz cəbhəsinin 6-cı ordu korpusu təşkil etməli idi və güman edilirdi ki, həmin korpusdan müəyyən maddi-texniki baza əldə ediləcəkdir. Müsəlman korpusunun komandiri Ə.Şıxlinskinin təhvil alınması ehtimal olunan əmlakın necə bölüşdürülməsi ilə bağlı xüsusi bir əmri də imzalanmışdı. 1918-ci il mart ayının 3-də imzalanmış həmin əmrə əsasən

6-cı ordu korpusunun əmlakı aşağıdakı kimi bölüşdürülməli idi:

6-cı ordu korpusu qərargahının əmlakı – Müsəlman korpusunun qərargahına;

5-ci Qafqaz piyada diviziyasının qərargahının əmlakı – I Müsəlman piyada diviziyasının qərargahına;

7-ci Qafqaz piyada diviziyasının qərargahının əmlakı – II Müsəlman piyada diviziyasının qərargahına;

17-ci Qafqaz piyada alayının əmlakı – 1-ci müsəlman piyada alayına;

18-ci Qafqaz piyada alayının əmlakı – 2-ci müsəlman piyada alayına;

19-cu Qafqaz piyada alayının əmlakı – 3-cü müsəlman piyada alayına;

20-ci Qafqaz piyada alayının əmlakı – 4-cü müsəlman piyada alayına;

25-ci Qafqaz piyada alayının əmlakı – 5-ci müsəlman piyada alayına;

26-cı Qafqaz piyada alayının əmlakı – 6-cı müsəlman piyada alayına;

27-ci Qafqaz piyada alayının əmlakı – 7-ci müsəlman piyada alayına;

28-ci Qafqaz piyada alayının əmlakı – 8-ci müsəlman piyada alayına.

6-cı ordu korpusunun tərkibinə daxil olan 4-cü Qafqaz topçu briqadasının və 1-ci əlahiddə yüngül batareyasının silahları, əmlakı, at və arabaları Müsəlman korpusunun 1-ci və 2-ci topçu briqadalarına verilməli idi (37).

Amma bu sadalanan hissə və birləşmələrin əmlakının Müsəlman korpusuna təhvil verilməsi haqqında məlumat mövcud deyil. Müsəlman korpusunun maddi-texniki təchizat səviyyəsi də onu deməyə əsas verir ki, bu korpus Qafqaz cəbhəsi qoşunlarından ciddi bir əmlaka sahib ola bilməmişdi. Cənubi Qafqazda və Qafqaz cəbhəsinin qoşunlarında mövcud olan xaos, özbaşınalıq, bu hissələrdə milli şovinizmin, bolşevik və daşnak təsirlərinin güclü olması da

həmin hissə və birləşmələrin Müsəlman korpusuna təhvil verilməsini mümkünsüz edirdi.

Qafqaz cəbhəsi qoşunlarından Müsəlman korpusuna bir neçə ədəd avtomobil verilmişdi. İlkin sənədlərdə onların 6 ədəd olduğu göstərilir – Lakomobil, Lauren-kliment, Talbot, Arqayl, Berliye və Pokkard (yük) avtomobilləri. 1918-ci il iyun ayının ilk günlərində onlardan cəmi ikisi işlək vəziyyətdə idi (38).

Müsəlman korpusunun hissələrinin arasında radio əlaqələrinin qurulmasına zəruri olan texnikanın təmin edilməsi üçün Müsəlman korpusunun komandanlığı bir neçə dəfə Cənubi Qafqaz Komissarlığı rəhbərliyinə müraciət etdi. Amma bu məsələ ilə bağlı müsbət cavab alınmadı (39).

Milli qoşun hissələrinin silah və sursatla təmin edilməsinin mümkün yollarından biri Azərbaycan ərazisində yerləşdirilmiş rus qoşun hissə və bölmələrinin silah və sursatının milliləşdirilməsi idi. Məlum idi ki, ruslar öz silah və sursatını könüllü yolla təhvil vermək istəmirdilər. Ona görə ayrı-ayrı yerlərdə müəyyən bölmələrin tərk-silah edilməsi üçün xüsusi əməliyyatlar hazırlanıb həyata keçirilirdi. Məsələn, Lənkəranda yerləşmiş rus qoşun bölmələri üzərinə təşkil edilmiş hücum zamanı 200-dən çox tüfəng, çoxlu patron, 11 pulemyot, yük arabaları, bir neçə əsgər mətbəxi və 40-a qədər minik atı ələ keçirildi(40).

Təchizat çətinliklərinin həlli üçün əsas ümid Qafqazdakı rus ordusunun tərk-silah edilməsinə və onun ləvazimatının milli qoşun hissələrinə verilməsinə bağlanmışdı. 1917-ci il dekabr ayında Tiflis şəhərində yerləşən artilleriya anbarından Zaqafqaziya Komissarlığının tələbi ilə milli qoşun hissələri üçün silah və sursat buraxılmadıqda(139) qəti tədbirlərə əl atıldı. Tiflis şəhərində hərbi vəziyyət elan edildi və dekabr ayının 12-də artilleriya anbarı Zaqafqaziya Komissarlığının qüvvələri tərəfindən tutuldu(41). Bolşevik əhval-ruhiyyəli hissələr tərəfindən möhkəm qorunan bu anbarın tutulması qarnizonun bolşevikpərəst hissələrinin təchizat imkanlarına ciddi zərbə vurmaqla bərabər, milli qoşun hissələrinin, o cümlədən müsəlman hissələrinin təchizatına da müəyyən bir baza yaratdı.

Zaqafqaziya Komissarlığı və milli şuralar silah, sursat və təchizat problemini lazımınca həll etmək üçün – "Cəbhənin silahları Zaqafqaziyada saxlanılmalıdır!" – şüarı ilə çıxış edərək ləğv olunan hissələrin əmlakının Zaqafqaziyada saxlanılmasına çalışırdılar. Dövrün bu tələbinin həyata keçirilməsi üçün ermənilər, gürcülər və azərbaycanlılardan təşkil olunmuş Millətlərarası Hərbi Şura ilə Qafqaz cəbhəsi qoşunlarının Ümumi qərargahı bir sıra qərarlar qəbul etdilər və bu qərarlarla müəyyənləşdirildi ki, ləğv edilmiş hissələr öz əmlakını hansı hissələrə təhvil verməlidirlər. Məsələn, bu qarşılıqlı razılaşmaya əsasən Yelizavetpolda yerləşən 219 saylı alay özünün bütün əmlakını burada formalaşmaqda olan Tatar alayına təhvil verməli idi. Müvafiq əmr 1917-ci il dekabr ayının 14-də alaya çatdırılsa da, bu alay əmlakı təhvil verməkdən imtina etdi(42). Ona görə də Gəncə Müsəlman Şurasının fəalları qətiyyət və güc tədbirləri həyata keçirərək həmin alayın ərzaq, ləvazimat anbarlarını ələ keçirib şəxsi heyəti tərk-silah olmağa məcbur etdilər.

Amma bu proses kifayət qədər mürəkkəb şəkildə baş verdi və mürəkkəbliyin yaranmasında ermənilərin də rolu az deyildi. Mövcud olan faktlardan aydın olur ki, 219-cu ehtiyat piyada alayında xeyli sayda erməni xidmət edirdi və onlar çalışırdılar ki, alayın təchizatı da erməni milli korpusuna çatsın. Bununla bağlı onlar öz niyyətlərini erməni milli korpusunun komandiri general Nəzərbəyova da çatdırmışdılar. General Nəzərbəyovun göstərişi əsasında 219-cu alayın erməni zabit və əsgərləri, habelə onların özlərinə tərəf çəkdikləri digər əsgərlərdən bir tabor təşkil edilmişdi və həmin tabor erməni ehtiyat alayına qoşulmalı idi (43).

219-cu alayın tərk-silah edilməsində iştirak edən Nağı Şeyxzamanlı da bu alayın şəxsi heyətinin ermənilərlə anlaşaraq əsgər şurası yaratdıqlarını təsdiq edir. Bu anlaşmanın nəticəsi idi ki, zabitlər alay əmlakını Gəncə milli şurasına təhvil vermək istəmir və hətta Gəncə milli şurasının üzvlərini təhdid etməkdən belə çəkinmirdilər. Onlar şəhərdə silahla rastlaşdıqları şəhər əhalisini tərksilah edəcəklərini bildirir və onlara şəhəri tərk etmək üçün yol verilməsini tələb edirdilər. Milli şuranın üzvləri zabitlərin təhdidlərinə

baxmayaraq, qətiyyət nümayiş etdirirdilər və gün ərzində şəhərdə rastlaşdıqları 60 rus əsgərini tərk-silah etmişdilər. Sonra isə alayın 4 qışlası Gəncə milli şurasının fəalları tərəfindən mühasirəyə alındılar. Bunu görən alayın şəxsi heyəti əmlakını təhvil vermək məcburiyyətində qaldı. Bundan sonra şəxsi heyət qatarlarla Rusiyaya yola salındı (44).

Zaqafqaziya Komissarlığının razılığı ilə Qafqaz cəbhəsinin ləğv olunmuş 5-ci və 7-ci diviziyalarının tərkibinə daxil olan hissələr də bölgəni tərk etdikcə öz əmlakını yaradılmaqda olan müsəlman hissələrinə təhvil verməli idilər (45)· Ancaq ləğv olunan hissələrin əksəriyyəti bir tərəfdən bolşevik təbliğatının, digər tərəfdən də şovinist hisslərin baş qaldırması nəticəsində heç də könüllü surətdə silah və əmlakını təhvil vermək istəmirdilər. Belə hissələrin bəzilərinə qarşı müəyyən hallarda mövcud qüvvələr daxilində güc tətbiq edilirdi. Məsələn, qoşun dəstəsi Müsəlman Şurasının fəalları ilə birlikdə Lənkəran qəzasında bolşevik təsiri altında olan 4-cü və 7-ci sərhəd alaylarını tərk-silah etdi. Elə həmin vaxt Milyutin gəmisində İrandan geri qayıdan rus əsgərləri milli qüvvələr və Prişibdən çağırılmış Kərim bəy Şaxtaxtinskinin rəhbərliyi altında olan Şahsevən dəstələri tərəfindən tərk-silah olundular. Bu zaman rus silahlılarından 6 ədəd pulemyot, 3 min tüfəng, 85 min patron, 10 yeşik bomba ələ keçirildi. Yanvarın 15-də isə milli silahlı qüvvələrlə Şahsevən süvariləri Astara sovetinin 60 nəfərlik milis dəstəsini tərksilah edib əmlakını müsadirə etdi(46).

Rus qoşun hissələrinin çoxu isə silahı təhvil vermək istəmir, tərxis olunmalarına baxmayaraq, əllərində olan silahla Rusiyaya qayıtmaq istəyirdilər. Onlar yüklənib yola düşdükləri dəmir yolu eşelonlarında, hətta ağır silahları belə özləri ilə aparırdılar. Gürcüstan və Azərbaycandan keçib şimala gedən hərbi eşelonların tərkibinin bəzisi bolşeviklərin, əsgərlərin bir çoxu isə rus qoşunlarında olan çoxsaylı erməni döyüşçülərinin təsiri ilə silahlarını Bakıda bolşeviklərə, ya da daşnak qüvvələrinə təhvil verirdilər. Daşnak millətçiləri əllərində olan pulla da rus hərbi eşelonlarından xeyli silah almışdılar. Beləliklə, cəbhədən qayıdan eşelonlar hesabına Azərbaycan milli hərəkatını qan içində boğmaq istəyənlər lazımınca silahlanırdılar. O biri tərəfdən isə cəbhədən geri qa-

yıdan və görəcəyi işlər üçün heç bir məsuliyyət daşımayacağını güman edən rus əsgərləri yolboyu yerləşən kəndləri talayır, əhalinin var-yoxunu silah gücünə əllərindən alırdılar. Bu talanlar zamanı xeyli müsəlman kəndi ziyan görmüşdü (47). Hərbi eşelonların silahla yerli hakimiyyət orqanlarının tələblərinə məhəl qoymadan çıxıb getməsi milli qoşun hissələrini, o cümlədən müsəlman qoşun hissələrini də maddi- texniki bazadan məhrum edirdi. Ona görə Zaqafqaziya Komissarlığının və milli şuraların rəhbərləri Qafqazdan gedən hərbi eşelonların silahlarının təhvil verilməsindən ötrü qəti tədbirlərin həyata keçirilməsini lazım bildi. Çoxsaylı silahlı adamların hərəkət etdiyi eşelonların tərk-silah edilməsinin xeyli təhlükəli olduğu üçün xüsusi hazırlıq işlərinin aparılmasına ciddi diqqət yetirilirdi. Bunun üçün ayrıca silahlı dəstələr hazırlanır, silahların harada qarşılanması dəqiqləşdirilirdi.

Rus hərbçilərinin ən böyük kütləvi tərk-silah edilməsi hadisəsi 1918-ci il yanvar ayının birinci ongünlüyündə Şamxor stansiyası yaxınlığında baş verdi. Bir-birinin ardınca hərəkət edən yaxşı silahlanmış hərbi eşelonların qarşısını saxlamaq, onları tərk-silah olunmağa məcbur etmək çox böyük risk tələb edirdi. Ancaq formalaşmaqda olan hissələri təchiz etmək üçün başqa çıxış yolu da yox idi. Əslində, əl atılan vasitə xalqın fiziki mövcudluğunun qorunması, milli mənafelərin qan içərisində boğulmasına yol verilməməsi üçün məcburiyyət üzündən həyata keçirilən bir tədbir idi. Özü də Şamxor stansiyası yaxınlığında hərbi eşelonların tərk-silah edilməsi Zaqafqaziya Komissarlığının rəhbərliyi tərəfindən sanksiyalaşdırılsa da, elə gürcü menşeviklərinin təsiri altında olan bu orqanın müsəlman qoşun hissələrinin formalaşmasına, təchizinə lazımi diqqət yetirməməsi milli qüvvələri də daha qətiyyətli hərəkət etmək məcburiyyəti qarşısında qoyurdu. Çünki gürcü menşevikləri, erməni daşnakları əllərində olan imkanlardan istifadə etməklə bərabər, həm də xarici havadarlarına arxalandıqları bir halda müsəlman qoşun hissələri lazımi diqqət və köməkdən kənarda qalmışdılar. Şamxor stansiyası yaxınlığında hərbi eşelonların tərk-silah edilməsinin əsas təşkilatçılarından biri olan A.Səfikürdski bu məsələ ilə bağlı öz fikrini belə bildirirdi: «...Müsəlmanlar günahkar deyildirlər ki, Komissarlıqda təmsil

olunan hökumət öz borclarını yerinə yetirmədiyi bir halda zorakı yolla silah əldə etməyə məcburdurlar» (48).

Şamxor hadisələrinin başqa bir fəal iştirakçısı olan Haqverdiyev isə bildirirdi ki, hətta az miqdarda silah almaq üçün Komissarlığın kandarını dabandan keçirsək də, heç nə əldə edə bilmirdik (49).

Şamxor yaxınlığında hərbi eşelonların tərk-silah edilməsinə razılıq verməklə Zaqafqaziya Komissarlığı çox güman ki, ona qarşı istiqamətlənmiş ittihamları bir qədər yumşaltmaq istəyirdi. Bu orqanın qərarı Millətlərarası Şura tərəfindən də bəyənilmiş və onun həyata keçirilməsi qoşunların qərargahında ətraflı müzakirə edilmişdi. Hərbi eşelonların tərk-silah edilməsi üçün 300 nəfərlik bir silahlı dəstənin göndərilməsi qərara alınsa da, əslində, daha az – 100 nəfərlik bir dəstə və zirehli qatar göndərilmişdi (50):

1. Gürcü milli korpusundan – 250 silah və pulemyota malik olan könüllü bölmə və dağ-süvari taqımı;
2. Erməni milli korpusundan – 300 tüfəngə malik 2 piyada eskadron;
3. Müsəlman korpusundan – 300 qılınca malik 2 eskadron;
4. Rus korpusundan – 60 nəfər;
5. Hərbi daşımalar şöbəsindən – zirehli qatar (51).

Hərbi müşavirə iştirakçıları hətta bu tərkibdə yaradılacaq qüvvənin hərbi eşelonların tərksilah edilməsi üçün kifayət olmadığını bildirsə də, yanvarın 4-də Millətlərarası Şura təklif edirdi ki, yanvarın 5-i axşam və ya yanvarın 6-da səhər hərbi eşelonların tərk-silah edilməsi üçün zirehli qatarla birlikdə aşağıdakı tərkibdə dəstə göndərilsin:

1) Ştabs-rotmistr Abxazavanın rəhbərliyi altında 150 nəfər;
2) rus korpusundan – 60 nəfər;
3) 50 nəfər müsəlman könüllüsü;
4) 50 nəfər erməni korpusundan (52).

Hərbi eşelonların tərk-silah edilməsi üçün 300-dən bir qədər artıq silahlı dəstənin göndərilməsi qərara alınsa da, əslində, daha az – 100 nəfərlik bir dəstə və zirehli qatar göndərilmişdi (53).

Hərbi eşelonların tərk-silah edilməsində Yelizavetpol Müsəl-

man Milli Komitəsinin fəalları da yaxından iştirak etmişdilər. Zaqafqaziya Komissarlığından alınan müvafiq teleqramdan sonra Müsəlman Milli Komitəsinin rəhbərliyi öz fəallarını toplayaraq Yelizavetpoldan Şamxor ətrafına göndərmişdi (54).

Müsəlman Milli Komitəsinin fəalları hərbi eşelonların dinc yolla tərk-silah ediləcəyinə ümidlərini kəsməmişdilər. Danışıqların aparılması üçün müəyyən adamlar da seçilmişdi. Nəzərdə tutulmuşdu ki, hərbçilər öz silahlarını könüllü surətdə təhvil verəcəkləri təqdirdə onlar ərzaq və digər zəruri əşyalarla təmin edilsinlər və yola salınsınlar (55).

Nəzərdə tutulan tədbirin həyata keçirilməsinə Yelizavetpol Müsəlman Milli Komitəsinin Rəfibəyovlar, A.Səfikürdski, X.Rüstəmbəyov tərəfindən rəhbərlik edilən fəallarından başqa, Yelizavetpolda yerləşən və knyaz Maqalov tərəfindən komandirlik edilən Tatar süvari alayının qüvvəsi də cəlb edilmişdi. Hadisələrin şahidlərinin məlumatına görə, qarşı-qarşıya gələn qüvvələrin ilk üzləşməsi yanvar ayının 6-da baş verdi. Həmin gün saat 11-də cəbhədən gələn bir eşelon Qarayazı stansiyasında dayandırıldı. Bu eşelonun hərbçiləri ilə aparılan danışıqlardan sonra onlar silahları təhvil verməyə razı oldular və silahla dolu olan vaqonu orada saxlayaraq yollarına davam etdilər(56).

Bəzi məlumatlara görə, dinc yolla tərk-silah edilən ilk eşelonda gedən hərbçilər əslən Ukraynadan idilər. Silahlarını təhvil verdikdən sonra onlar ərzaq və digər zəruri əşyalarla təmin edilib yola salındılar(57).

Həmin gün Qarayazı stansiyasına başqa bir eşelon da gəlib çıxdı. Stansiyada eşelonu gözləyən qüvvələr tərk-silahın dinc yolla davam edəcəyini güman edərək bu dəfə də danışıqlar apardılar və hərbçilərə silahı təhvil verməyi təklif etdilər. Eşelondakılar nəinki silahlarını verməkdən imtina etdilər, hətta əvvəlki eşelondan alınmış silahların da geri qaytarılmasını tələb etdilər. Hərbçilərin öz qərarlarında təkid etdiyini görəndə ştabs-rotmistr Abxazava və knyaz Maqalov əvvəlki eşelondan alınmış silahlarla Müsəlman Milli Komitəsinin bir sıra üzvlərini silahlandırdılar. Çünki onların qüvvəsi o qədər az idi ki, həmin qüvvə ilə yaxşı silahlanmış eşelonun qarşısını saxlamaq mümkün deyildi. Vəziyyət mürəkkəb-

ləşəndə qərara alındı ki, hərbi eşelon Şamxora buraxılsın və orada danışıqlar davam etdirilsin. Eşelon irəli sürülən tələblə razılaşmayıb geri qayıdacağı təqdirdə Qarayazı stansiyasında dəmir yolu sökülməli və qatarın hərəkətinin qarşısı alınmalı idi (58).

Yanvarın 6-da göstərilən növbəti bir cəhd də nəticə vermədi. Eşelonla danışıq aparmağa gedən nümayəndə heyəti rus hərbçiləri tərəfindən girov götürüldü. Eyni zamanda Abxazavadan tələb olundu ki, onun rəhbərliyi altında olan zirehli qatar tərk-silah olunsun, bütün yollar açılsın və artıq çoxalmaqda olan hərbi eşelonların hərəkətinə imkan verilsin. Yanvar ayının 7-də Tatar alayının komandiri Maqalov ilə ştabs-rotmistr Abxazava eşelon nümayəndələri ilə danışıqları davam etdirdilər. Zaqafqaziya hökuməti də bir daha hərbi eşelonların tərk-silah edilməsinin məqsədəuyğunluğunu bildirdi. Danışıqlar ayın 8-də, hətta 9-da da davam etdirildi. Bu vaxt artıq Ağstafa ilə Dəllər stansiyaları arasında 10 hərbi eşelon cəmləşmişdi və onlar öz hərbi gücünə arxalanaraq yolların açılmasını və hərəkət üçün şərait yaradılmasını tələb edirdilər. Ancaq onlara qarşı dayanan qüvvələrin qətiyyətini gördükdə irəlidə olan eşelonlar özlərinin silahlarını təhvil verməyi qərara aldı (59). Hərbi eşelondan alınan topların birini A.Səfikürdski özü Yelizavetpola qədər müşayiət etdi.

Sonrakı eşelonlar isə tərk-silah olunmaqdan qəti imtina etdilər. Tatar alayının komandiri Maqalov bildirirdi ki, gündüz saat 2-də bütün eşelonların nümayəndələri Şamxor stansiyasına gəldilər və bizim qüvvələrimizi gördükdən sonra bir səslə razılaşdılar ki, öz yoldaşlarını silahı təhvil verməyə inandıracaqlar. Silahın təhvil verilməsi qaydası və şərtlərini öyrəndikdən sonra onlar geri qayıtdılar. Axşam saat 6-da isə xəbər göndərdilər ki, silahların təhvil verilməsi sabaha kimi təxirə salınmışdır (60).

Növbəti eşelonların da dinc yolla tərk-silah ediləcəyinə bağlanan ümid özünü doğrultmadı. Eşelondakı hərbçilər qəti cavab vermələrini uzadaraq güman edirdilər ki, arxadan yeni eşelonlar gələcək və onların köməyi ilə Şamxordan keçib gedəcəklər. Rus hərbçiləri qərara almışdılar ki, milli qüvvələrə qarşı silahlı müqavimət göstərilsin və onların əsas zərbə qüvvəsi olan zirehli qatar ələ keçirilib tərk-silah edilsin. Bu xəbər Zaqafqaziya Komissar-

lığına çatanda N. Jordaniya eşelondakıların nümayəndələri ilə telefon əlaqəsi saxladı, onları planlaşdırdıqları təcavüzdən çəkindirməyə çalışdı. N.Jordaniya bildirirdi ki, rus hərbçilərinin danışıqlar üçün onların yanına göndərilmiş nümayəndələri girovdan xilas etməkdənsə, dəmir yolunun qorunması üçün göndərilmiş zirehli qatarın tərk-silah edilməsinə cəhd göstərilməsi faciəli nəticələrə gətirib çıxara bilər. Təklif olunurdu ki, girovlar azad edilsin və eşelonlar dinc şəkildə öz yollarına davam etsinlər. Belə olarsa, zirehli qatar eşelonlara toxunmayaraq onları sağ-salamat buraxacaqdır. N.Jordaniya onu da əlavə edirdi ki, eşelonların sağ-salamat buraxılmasına zəmanət verilir və bu barədə zirehli qatarın rəhbərliyinə də müvafiq göstəriş veriləcəkdir (61).

Hərbi eşelonlar isə hər vəchlə zirehli qatarın tərk-silah olunmasını tələb edir və bu qatarın yanından sağ-salamat keçib getməyin mümkün olmadığını bildirirdilər. Aparılan danışıqlar heç bir nəticə vermədi və bu ziddiyyət dərinləşərək silahlı konfliktə gətirib çıxardı. İlk atəşin kim tərəfindən açıldığını söyləmək çətindir. Doğrudur, hadisədən dərhal sonra bolşevik mətbuatı bu barədə çox böyük səs-küy qaldırmış, silahlı toqquşma zamanı ortaya çıxan canlı itkilərin səbəbini milli qüvvələrin və Zaqafqaziya Komissarlığının üstünə atmağa çalışmışdı (62). Ancaq N.Jordaniyanın hərbi eşelonların nümayəndələri ilə apardığı söhbətlərin məzmunu da göstərir ki, vəziyyətin kəskin xarakter almaması naminə rus hərbçilərinin sağ-salamat keçib getmələrinə imkan yaradılmışdı. Rus hərbçilərinin isə malik olduqları qüvvəyə arxalanaraq qarşı tərəfə öz iradələrini qəbul etdirməyə çalışmalarını da istisna etmək olmaz. Silahlı toqquşmada hər iki tərəfdən ölənlər və yaralananlar var idi. Zaqafqaziya Komissarlığının qüvvələri rus qoşunlarının atəş mövqelərini susdurmağa çalışdıqları halda, ruslar da əks-tərəfi, hətta yaxınlıqdakı Azərbaycan kəndlərini ən müxtəlif silahlardan atəşə tutmuşdular. Döyüşün gedişində 3 hərbi eşelon, bir sərnişin qatarı və daha başqa bir qatar yandırılıb məhv edilmişdi. Zaqafqaziya Komissarlığına məxsus olan zirehli qatar da döyüşdə məhv edilmiş və onun komandiri Abxazava həlak olmuşdu (63).

İtkilərin daha da artmasına son qoymaq və vəziyyəti sabitləşdirmək üçün Zaqafqaziya Komissarlığının üzvləri F.Xoyski,

X.Xasməmmədov və X.Məlikaslanov azərbaycanlı əhaliyə müraciət etdilər. Bunun ardınca da Zaqafqaziya Komissarlığının xüsusi nümayəndə heyəti hadisə yerinə gəldi. Nümayəndə heyətinə rəhbərlik edən Strelkovski Yelizavetpolda Tatar süvari alayının komandiri knyaz Maqalov, Rəfibəyovlar, Səfikürdski və başqa şəxslərlə görüşdü, konfliktin aradan qaldırılması üçün onların fikrini öyrəndi. Səfikürdski və Haqverdiyev müsəlman qoşun hissələrinin təchiz edilməsi üçün hərbi eşelonların tərk-silah edilməsinin zəruriliyini bir daha təkid etdilər. Danışıqlarda iştrak edən Rüstəmbəyov isə vəziyyətin qəlizləşməsinin qarşısını almaq naminə güzəştli bir təklif irəli sürdü. Bu təklifə görə,rus hərbçilərinin malik olduğu atıcı silahların yarısını özlərində saxlamasına razılıq bildirildi. Bir şərtlə ki, atıcı silahların ikinci yarısı, pulemyotlar və toplar milli qüvvələrə təhvil veriləydi. Hərbi təşkilatların nümayəndələri bununla razılaşmadılar və təhlükəsizliklərinə əmin olmadıqları üçün silahlarını təhvil verməyə qorxduqlarını bildirdilər. Danışıqlardan sonra belə bir təklif irəli sürüldü ki, hərbi eşelonlar bir səhra batareyasını atları və təchizatı ilə təhvil verə bilərlər. Yelizavetpol Müsəlman Milli Komitəsinin fəalları bu təklifə razı olmadılar. Onda Zaqafqaziya Komissarlığının nümayəndəsi kapitan Strelkovski bildirdi ki, Müsəlman Milli Komitəsinin fəalları bu təkliflə razılaşarlarsa, onda o da öz tərəfindən Zaqafqaziya Komissarlığından bir dağ batareyasının müsəlman qoşun hissələrinə verilməsinə nail olacaqdır. Hərgah onun bu vədi yerinə yetirilməzsə, o zaman Müsəlman Milli Komitəsinin fəalları gələcəkdə buradan keçən hərbi eşelonlarla istədikləri kimi rəftar edə bilərlər. Bu şərtlə irəli sürülən təklif barədə razılaşma Tatar süvari alayının komandiri Maqalov, A.Səfikürdski və Komissarlığın nümayəndəsi kapitan Strelkovski tərəfindən imzalandı (64)·

Rus qoşunlarına məxsus hərbi eşelonların tərk-silah edilməsindən şahidlərindən biri tərəflər arasında qarşılıqlı razılaşma əldə edilməsi prosesini belə xatırlayırdı: "Cənubi Qafqaz Komissarlığının və hərbi eşelonların Yelizavetpola gələn nümayəndəsi burada knyaz Maqalov tərəfindən qarşılandı və sonra Müsəlman Milli Komitəsinin nümayəndələrinin iştirakı ilə danışıqlar aparıldı. Da-

nışıqları Tatar alayının komandiri knyaz Maqalov açdı və bildirdi ki, son günlərin hadisələri hər iki tərəf üçün ağır nəticələr vermişdir. Onun sözlərinə görə, müsəlman əhali rus qoşunları tərəfindən hər hansı bir təhlükənin törədilməyəcəyinə əmin olsaydılar, onları silahları ilə birlikdə buraxardılar". Şahidin yazdığına görə, iclasda A.Səfikürdski də çıxış etdi və o daha sərt mövqe açıqladı. O qeyd etdi ki, müharibə illərində ruslar müsəlmanları məsxərəyə qoyur və onların papaqlarını atəşə tuturdular. İndi müsəlmanlar öz ordularını təşkil etmək hüququ əldə etmişlər. Bunun üçün onların silahları da olmalıdır. A.Səfikürdski daha sonra bildirdi ki, Cənubi Qafqaz Komissarlığı öz vəzifələrini yerinə yetirmir. Ona görə də müsəlmanlar zor gücünə silah əldə etməkdə günahkar deyillər.

A.Səfikürdski fikrini belə davam etdirdi ki, ermənilər və gürcülər silahlandıqları halda, müsəlmanların hələ də silahı yoxdur. Cənubi Qafqaz Komissarlığından Jordaniyanın imzası ilə alınan məktub da hərbi eşelonların tərk-silah edilməsinə əsas verirdi. Həmin məktubda bildirilmişdi ki, Müsəlman korpusunun silahlandırılması üçün geri dönən hərbi eşelonlardan müsadirə olunan silahlardan istifadə edilsin (65).

Danışıqlarda iştirak edən Rüstəmbəyov tərəflər arasında güzəştə gedilməsinin mümkün olmasını da bildirdi. O təklif etdi ki, eşelonlardakı tüfənglərin yarısı, habelə artilleriya və pulemyotları Müsəlman Milli Komitəsinə verən eşelonlar tüfənglərin ikinci yarısı ilə yollarına davam edə bilərlər. Cənubi Qafqaz Komissarlığının nümayəndəsi, Komissarlıqda silahların bölüşdürülməsi üzrə komissiyanın sədri Strelkovski əvvəlcə Müsəlman Milli Komitəsi üzvlərinin şikayətləri ilə və irəli sürülən təkliflə razılaşmadı. O bildirdi ki, Müsəlman korpusunun da silahlandırılması üçün müəyyən tədbirlər görülməkdədir və hərbi eşelonların bütünlüklə tərk-silah edilməsi ilə razılaşa bilməz. Yelizavetpola gəlməkdə də məqsədi odur ki, eşelonların salamat ötürülməsini təmin etsin. Müsəlman Komitəsinin Cənubi Qafqaz Komissarlığından aldığı teleqrama gəlincə isə o bildirdi ki, bu teleqramdan xəbəri yoxdur və ona bu barədə də məlumat verilməyib.

Hadisələrin şahidi olan A.Kuliyakinin qeydlərinə görə, Strelkovskinin mövqeyi Müsəlman Milli Komitəsinin üzvlərini razı salmadı. İclasda iştirak edən Rəfibəyov onun nəzərinə çatdırdı ki, bura toplaşmış olan minlərlə insan verilən vədləri çox eşidiblər və onlar bura eşelonların tərk-silah edilməsi ümidi ilə gəliblər. Hərbi eşelonların nümayəndələri də silahların təhvil verilməsinə müqavimət göstərməyə başladılar. Onların sözlərinə görə, üçgünlük atışmalardan sonra əsgərləri silahı təhvil verməyə razı salmaq çətin olacaqdır. Çünki onlar tərk-silah olunacağı təqdirdə öz təhlükəsizlikləri üçün ehtiyat edirlər. Nəhayət, aparılan danışıqlardan sonra razılığa gəlindi ki, hərbi eşelonlarda bir səhra top batareyası, bütün aidiyyəti hissələri, atları və mərmiləri ilə birlikdə Müsəlman Milli Komitəsinə təhvil verilir və sonra eşelonlar yoluna davam edirlər. Tərəflər arasında imzalanan protokolda Strelkovski vəd edirdi ki, yaxın günlərdə Müsəlman Korpusuna Cənubi Qafqaz Komissarlığının anbarlarından bir dağ batareyası veriləcəkdir. Tərəflər arasında razılaşdırılan protokol 1918-ci il yanvar ayının 12-də imzalandı (66).

Hərbi eşelonların tərk-silah edilməsində Tatar süvari alayı ilə bərabər, Müsəlman korpusunun polkovnik Süleyman bəy Əfəndiyevin komandirliyi altında olan 5-ci alayı da yaxından iştirak etmişdi(67).

Şamxor ətrafındakı tərk-silah zamanı hərbi eşelonlardan 20 ədəd top, 70 ədəd pulemyot və 15000 tüfəng alındı(68).

Göstərilən bu rəqəmlər bolşevik mənbələrindən götürülüb və ona görə də onların nə dərəcədə doğru olduğunu müəyyənləşdirmək də çətindir. Bununla belə, Şamxor ətrafında hərbi eşelonların tərk-silah edilməsi ilə bir miqdar silah və sursatın Müsəlman korpusunun təchizinə yönəldilməsi S.Şaumyanın rəhbərliyi altında olan bolşevikləşmiş erməniləri xeyli narahat etdi. Bununla əlaqədar S.Şaumyan Rusiya Respublikası adından etiraz bəyanatı imzaladı. Bütün Cənubi Qafqazda hakimiyyətə iddialı olan və bunun üçün V.İ.Leninin müvafiq sərəncamına nail olan S.Şaumyan Yelizavetpol Müsəlman Milli Komitəsinin silahlı fəallarını «banda», müsəlman milli komitələrini isə «əks-inqilabi millətçi sovetlər» adlan-

dırırdı. S.Şaumyan malik olmadığı səlahiyyətlərə istinad edərək hərbi eşelonların tərksilah edilməsinin dayandırılmasını tələb edirdi. O, hərbi qulluqçulara isə müraciət etdi ki, silahlarını müsəlman milli komitələrinə təhvil verməsinlər (69).

S.Şaumyan öz müraciətində Şamxor ətrafında hərbi eşelonların tərk-silah edilməsi zamanı minlərlə əsgərin öldürüldüyü və yaralandığını qeyd edirdi. Suren Şaumyan isə Şamxor hadisələrinə işarə ilə 8 rus əsgərinin öldüyünü və 20 nəfərin də yaralandığını bildirirdi (70).

Ağstafa, Culfa və Xaçmaz ətrafında da hərbi eşelonların tərk--silah olunmasına cəhdlər göstərilmişdi. Nəticədə, bu yolla əldə edilən silahlar müsəlman qoşun hissələrinin ehtiyacını qismən aradan qaldırsa da, normal təchizat üçün hələ çox vəsait tələb olunurdu. Bu ehtiyac Müsəlman korpusunun bütün mövcudiyyəti dövründə özünü göstərməkdə idi.

Sursata olan ehtiyacın qismən aradan qaldırılması üçün milli qüvvələr tərəfindən İsmailiyyə binasının zirzəmisində güllə sexi açılmasına cəhd göstərdilər. Lakin sonradan həmin sex Səadət məktəbinin zirzəmisində açıldı.

Milli qoşun hissələrinin sursata olan ehtiyacını qismən ödəyə biləcək həmin sex qeyri-leqal şəkildə açılmışdı və bütünlükdə Bakıda milli qoşun bömələrinin tam açıq şəkildə formalaşdırılması üçün lazımi şərait mövcud deyildi. Doğrudur, Bakı ətrafında bəzi qoşun bölmələrinin təşkilinə nail olunmuşdu(71). Ancaq bu çox çətin şəraitdə baş verirdi və İsmailiyyədə yerləşən müsəlman qərargahı üzvlərinin hər bir addımı davamdar olaraq izlənilirdi.

### *3. Kadr və səfərbərlik məsələləri*

Milli qoşun hissələrinin yaradılmasına başlanması vətənpərvərlik hissləri ilə alışıb yanan gənclərin hədsiz sevincinə və marağına səbəb olmuşdu. Xalqının, yurdunun ağır vəziyyətdə olduğunu anlayan belə gənclər hər vasitə ilə qoşun hissələrinin formalaşdırılmasına kömək etməyə çalışırdılar. Şahidlərin ifadəsinə görə, hətta başqa şəhərlərdə oxuyan azərbaycanlı tələbələrin də bir çoxu milli qoşun hissələrinə yazılmaq üçün Bakıya qayıdır

və imkan daxilində özləri ilə silah gətirirdilər(72) .

Könüllülərin toplanılması işinə süvari zabiti İsgəndərbəyli rəhbərlik edirdi. Qoşun bölməsinə yazılanlar arasında dağıstanlılar da vardı. Bakının Çəmbərəkənd məhəlləsində bir məktəb binasında könüllülər üçün qışla düzəldildi və dərhal da onların təliminə başlandı. Könüllülər isə gəlməkdə davam edirdi. Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd də bu vaxt qoşun bölməsinə yazılmışdı. Hadisələrin şahidi olan M.Seyidlinin yazdıqlarına görə, sıravi könüllüləri toplamaq elə də çətin deyildi. Başlıca çətinlik zabitlərin tapılması məsələsi idi: «Zabit məsələsini həll etmək üçün polkovnik Tabasarinskinin rəhbərliyi altında Çəmbərkənddə bir hərbi məktəb quruldu və tələbə yoldaşlarımızın bir çoxu oraya yazıldı. Girişdiyimiz bu ciddi hazırlıq işləri Bakıda olan Sovdepin heç də xoşuna gəlmədi. Eyni zamanda ermənilərin də rus soldatları arasında bizə qarşı apardıqları şiddətli təbliğat aramızdakı gərginliyi bir qat daha da artırdı. Nəhayət, göz önündən çəkilməyə qərar verdik. Bizə ən uyğun yer kimi Lənkəran şəhərini seçdik. Və günlərin bir günü axşama yaxın Lənkəran 80 nəfərə qədər nizami əsgər kütləsinə sahib oldu» (73).

Bununla belə, kadr və səfərbərlik məsələləri Müsəlman korpusunun mühüm çətinliklərindən biri kimi qalmaqda idi. Xüsusən azərbaycanlı zabitlərin olmaması vəziyyəti xeyli çətinləşdirirdi. Korpusun komandiri Ə.Şıxlinski bunu çıxılmaz bir vəziyyət kimi qiymətləndirirdi: «İş çox çətin idi. Deyə bilərəm ki, hətta çıxılmaz idi. Çünki Azərbaycan dilini bilən kifayət qədər zabit yox idi. Əsgərlər isə rus dilini əsla başa düşmürdülər. Bizim köhnə xidmət görmüş bir nəfər də olsun kiçik zabitimiz və əsgərimiz yox idi ki, yeni gələnlər bunları özlərinə nümünə götürsünlər» (74). Ona görə də qoşun hissələrinin zabit kadrlarla komplektləşdirilməsi üçün müxtəlif vasitələrə əl atılırdı.

Milli qoşun hissələri üçün zabit kadrlarının ilk mənbəyi Qafqaz cəbhəsində xidmət edən azərbaycanlı və digər müsəlman zabitlər idilər. Bu zabitlər sayca elə də çox deyildilər. Ancaq korpusun komandanlığı bu kadrların sadiqliyini nəzərə alaraq onlardan səmərəli istifadə etməyə, komanda vəzifələrində yerləşdirməyə çalışırdı.



**Müsəlman korpusu zabitinin poqonu. Poqonun aşağı hissəsində ərəb əlifbası ilə «Müsəlman» sözü yazılmışdır.**

Mövcud olan məlumatlara görə, Müsəlman korpusunda türk zabitləri də xidmət edirdilər (75). Lakin onlar elə də çox deyildilər.

Müsəlman korpusunun zabitlərinin böyük əksəriyyətini ruslar təşkil edirdilər. Onların sayı korpusun zabitlərinin ümumi sayının 65 %-nə çatırdı (76). Korpusda gürcü zabitləri olsa da, təşkilati işlərin əsas hissəsi rus zabitlərinin üzərinə düşürdü. Korpusa rus zabitlərinin cəlb edilməsi həm könüllülük əsasında (77), həm də komanda üzrə aparılırdı. Qafqaz cəbhəsində ləğv edilən qoşun hissələrinin zabitləri istədikləri halda Qafqaz cəbhəsi qoşunları komandanlığının əmri ilə Müsəlman korpusuna təyin edilirdilər. Müsəlman korpusunda xidmət bütün zabitlər üçün əvvəlki xidmətin davamı sayılırdı və bundan irəli gələn bütün hüquqlar qorunurdu.

Zabitlərin xidməti çar Rusiyası dövründə qəbul edilmiş müvafiq sənədlər və qərarlar əsasında nizamlanırdı. Müsəlman korpusu Za-

qafqaziya Komissarlığına tabe olan Qafqaz cəbhəsi qoşunlarının tərkib hissəsi sayıldığı üçün onun zabitlərinin rütbələrinin artırılması da Zaqafqaziya Komissarlığı hökumətinin qərarı ilə həyata keçirilirdi. Məsələn, podpolkovnik Qaytabaşı polkovnik rütbəsini Zaqafqaziya hökumətinin 246 saylı 18 mart 1918-ci il tarixli qərarı ilə almışdı. Zaqafqaziya hökumətinin qərarı ilə Müsəlman korpusunun zabitləri arasında general rütbəsi alan da var idi. Bu korpusun qərargah rəisi Mençukov idi. Ona general rütbəsi 1918-ci il mart ayında verilmişdi. Müsəlman korpusunun sıralarında bir neçə general xidmət etmişdir. General-leytenant Ə.Şıxlinski və general-mayor Mençukovdan başqa onların arasında general-mayor Xəlil bəy Talışinski və general-mayor İbrahim ağa Usubov da var idi.

Zabit kadrlarının böyük qıtlığının olmasına baxmayaraq, xidmətini davam etdirənlərin düzgün yerləşdirilməsinə, onların öz vəzifələrinə böyük məsuliyyətlə yanaşılmasına xüsusi diqqət yetirilirdi. Çətin şəraitdə öhdəsinə düşən borcları sədaqətlə yerinə yetirənlər korpusun komandanlığı tərəfindən mükafatlandırılır və həvəsləndirilir, tapşırılan işə biganəlik və laqeydlik nümayiş etdirənlərə qarşı isə tələbkarlıq azaldılmırdı. Korpus komandiri general-leytenant Şıxlinskinin əmrlərində xidməti vəzifəsinin öhdəsindən gələnlərə təşəkkür elan edilməsinə təkrar-təkrar rast gəlmək mümkündür. 1918-ci il mart ayının 5-də imzaladığı 49 saylı əmrində general-leytenant Ə. Şıxlinski Lənkəranda yerləşən süvari divizionunun komandanlığının və zabitlərinin yorulmaz fəaliyyətini böyük bir sevinclə qeyd edirdi. Həmin əmrdə deyilirdi: «Qısa müddət ərzində divizion komandiri vəzifəsini icra edən ştabs-rotmistr Məlikbəyov, kornet Əsədullayev və digər zabitlər tərəfindən formalaşdırılan Müsəlman süvari divizionu indiki dövrün çox çətin bir vaxtında mənim və digər rəhbər şəxslərin köməyi olmadan uzun zaman müstəqil fəaliyyət göstərməli olmuşdur. Buna baxmayaraq, divizion təşkil olunmuş, təlim almış, intizamlanmış və artıq Lənkəran qəzasının dinc əhalisini talanedici hücumlardan və anarxiyadan qorumaq üçün uğurlu işlər görmüşdür. Millət və Vətən naminə göstərilən bu yorulmaz fəaliyyətə görə xidmət adından divizion komandiri vəzifəsinin icraçısı ştabs-rotmistr Məlikbəyova, divizionun təşkilinin təşəbbüskarı

kornet Əsədullayevə və divizionun bütün zabitlərinə səmimi təşəkkürümü bildirirəm. Əsgərlərə və muzdlulara səmimi sağ olumu çatdırıram. Əminəm ki, divizion gələcəkdə də tərkibinə daxil olduğu alayın döyüş şöhrətini qoruyacaqdır» (78).

Korpus rəhbərliyi xidmətin tələblərinə müəyyən laqeydlik göstərən, nizam və intizama riayət etməyən zabitlərin isə bütünlükdə xidmətdən qovulmasını lazım bilirdi. 2-ci süvari alayının tərkibinə verilmiş Müsəlman süvari divizionunun zabitlərinə 1918-ci il mart ayının əvvəllərində korpus komandiri səmimi təşəkkür elan etmişdisə, təxminən 20 gün sonra, mart ayının 22-də imzaladığı 73 saylı əmrində bu diviziondakı bir sıra kiçik zabitlərin özlərini nalayiq aparmasından, divizion komandanlığının əmrlərini yerinə yetirməməsindən ciddi narahat olduğunu bildirirdi. Əmrin 5-ci paraqrafında deyilirdi: «Müsəlman süvari divizionu (hazırda 2-ci süvari alayının 2-ci divizionu) üzrə əmrlərdən anlayıram ki, kiçik zabitlərin bəziləri öz xidməti vəzifələrinə kifayət qədər diqqətlə yanaşmırlar. Son zamanlar bölüklərdə (sotnya) müşahidə olunan özbaşınalıq bunun nəticəsidir. Divizion komandiri vəzifəsinin icraçısı tərəfindən intizam cəzalarına qədər qəbul olunmuş tədbirlərə baxmayaraq, zabitlər tərəfindən xidmətə laqeyd münasibət davam edir. 2-ci süvari alayının komandirinə əmr edirəm ki, divizionun bəzi zabitlərinin bu dözülməz hərəkətlərinə ciddi diqqət yetirsin. Unter-zabit kadrları olmayan gənc orduda qanun-qaydanın təmin edilməsi tamamilə zabitlərin üzərinə düşür. Yaşadığımız çətin vaxtda isə onların işi ikiqat artmalıdır. İşi bacarmayan, xüsusilə işləmək istəməyənlər bizə lazım deyildir. İndiki zamanda qoşunlarda zabit işinin əhəmiyyətini və müqəddəsliyini başa düşməyən şəxslərlə qərargahları doldurmaqdansa, daha yaxşı olar ki, azsaylı zabitlərə malik olaq. Xidmətlə masskalananlar korpusdan uzaqlaşdırılmaq üçün təqdim edilsinlər» (79).

Ə.Şıxlinski zabit kadrlarının mənəvi saflığına və yetkinliyinə xüsusi fikir verirdi. Bu mənada onun anonim məktub göndərənlərə cavab olaraq yazdığı əmr də xarakterikdir. Korpus komandiri bəyan edirdi ki, zabitlərin belə əməllərlə məşğul olmasını, düz sözü deməyə cəsarət etməməsini heç bir halda təqdir etmir. Onun fikrincə, düz sözü deməyə qorxanlar yaramaz hərəkət edirlər və belə-

lərinə haqq qazandırmaq olmaz (80).

1918-ci il mart ayının sonlarından etibarən Müsəlman korpusunun qərargahının, hissə və xidmətlərinin Gəncəyə köçürülməsi ilə əlaqədar bir sıra zabitlər Tiflisi tərk edib Gəncəyə yollanmaqdan imtina etdilər. Bu zabitlər, əsasən, qeyri-azərbaycanlı zabitlər idilər. Korpusun qərargah rəisi Mençukov belə zabitlərə müraciət edib bildirirdi ki, Müsəlman korpusu onları məmnunluqla qəbul etdiyi və onlara etibar etdiyi halda onların tutduqları vəzifələrə hörmətlə yanaşmalarına ehtiyac vardır (81). Buna baxmayaraq, bir sıra zabitlər tutduqları vəzifələri tərk etdilər ki, bu da zabit kadrları ilə bağlı olan çətinlikləri bir qədər də artırdı.

Çətin dövrün xüsusiyyətləri, orduların dağıdılıb yaradılması, hökumətlərin bir-birini əvəz etməsi, qanunçuluqda boşluqlar yaranması, əqidəcə möhkəm olmayan bir sıra zabitlərə öz təsirini göstərirdi. Belə zabitlər xidməti vəzifələrin icrasına laqeyd yanaşdıqları kimi, qoşun əmlakının qorunmasına da laqeyd yanaşır və bu əmlakı mənimsəməyə çalışırdılar. General-leytenant Ə.Şıxlinski xidmətin tələblərinə əməl etməyən bütün zabitləri boyunlarına düşən vəzifələrin lazımlılığını başa düşməyə, öz xidmətləri ilə əsgərlərə nümunə olmağa çağırırdı(82).

Müsəlman korpusu komandanlığının diqqət mərkəzində dayanan əsaslı məsələlərdən biri də qoşun hissələrinə çağırışın təşkil edilməsi idi. Təxminən bir əsrboyu məqsədyönlü şəkildə xidmətdən yadırğadılmış olan və ordu deyəndə təsəvvüründə rus və daşnak orduları canlanan xalq kütlələri heç bir vəchlə övladlarını xidmətə vermək istəmirdilər. Bu ümummilli psixozu sındırmaq, azərbaycanlı gənclərin xidmətə cəlb edilməsini qaydaya salmaq Müsəlman milli təşkilatları kimi Müsəlman korpusunun komandanlığı qarşısında da dayanan çox ciddi vəzifələrdən biri idi. Korpus komandiri Ə.Şıxlinski sonralar yazdığı xatirələrində real vəziyyəti aşağıdakı kimi əks etdirmişdi: «Tiflis Milli Müsəlman Şurasının topladığı başıpozuqlar gələcək korpusun əsgərləri adlandırılmışdı. Hələ mən gəlməzdən əvvəl Tiflis Şurası gələcək korpus üçün qəsb etdiyi bəzi ləvazimatın qorunmasını bunlara tapşırmışdı. Əsgər adlanan bu adamlar şeyləri dərhal qarət

etmişdilər... Orduya çağırış üçün siyahı deyilən şey yox idi. Kənd yerlərində yaşayan azərbaycanlıların çoxunun yaş kağızı yox idi, çünki köhnə hökumət bununla qətiyyən maraqlanmamışdı. Heç olmasa könüllü yığmağa kömək edə biləcək pristav və qəza rəislərinə heç kəs qulaq asmırdı. Hamı qoşun və kömək istəyir, lakin heç kəs öz oğul və qardaşını əsgərliyə vermirdi. Könüllülər xidmət etməkdən artıq qarətlə məşğul olurdular... Korpusa daxil olmaq üçün gənclər tüfəng, güllə, yorğan-döşək alar-almaz gecə bütün şeyləri yığışdırıb evlərinə qaçırdılar, onları tutub yerinə qaytaracaq qüvvə yox idi» (83).

Çağırış işinin təşkilatlandırılması üçün ilk növbədə bu işi üzərinə götürməli olan sistemin formalaşdırılmasına ehtiyac var idi. Azərbaycan daxilində və azərbaycanlılar yaşayan ərazilərdə yeni çağırış sisteminin qurulması isə müəyyən vaxt tələb edirdi. Ona görə, ilkin vaxtlar korpusa çağırış daha çox azərbaycanlıların könüllülüyünə əsaslanırdı. Bu işdə Müsəlman Milli Komitələri də müəyyən işlər görürdülər. Onlar da yerlərdə iş apararaq gəncləri xidmətə cəlb etməyə çalışırdılar. Məlumdur ki, ermənilər və gürcülər arasında orduya çağırış aparılırdı və ona görə də bu xalqların milli korpusları yaradılanda bölgədə xidmətdə olan milli kontingent milli korpuslara cəlb olundu və milli hissə və birləşmələr ciddi bir çətinlik olmadan sıravi heyətlə komplektləşdirildi. Müsəlman korpusuna gəlincə isə Tatar atlı alayı istisna olmaqla digər hissə və birləşmələri xidmətə cəlb edilməyən və xidmətə adət etməyən azərbaycanlılar hesabına komplektləşdirmək lazım idi ki, bu da mövcud dövr üçün kifayət qədər ciddi bir məsələ idi.

Bütün bu çətinliklərə baxmayaraq, milli komitələrin səyləri ilə çağırışın aparılmasında və azərbaycanlıların xidmətə cəlb olunmasında müəyyən işlər görülürdü.

Müsəlman korpusuna ancaq Zaqafqaziyada yaşayan müsəlmanlar əsgəri xidmətə çağırıla bilərdi. Millətin və xalqın mənafeyi naminə hərbi xidməti qəbul edənlər və ona böyük məsuliyyətlə yanaşanlar az deyildi. Məsələn, Yeni Bəyazid qəzasının sakini Rəşid bəy Şəmşəddinov öz təşəbbüsü və gücü ilə silahlı atlılardan ibarət bir dəstə toplamış və sonra da korpusun komandanlı-

ğına müraciət edərək hamılıqla Müsəlman korpusunun tərkibində xidmət etmək istədiklərini bildirmişdilər. Bu təklif korpusun komandanlığı tərəfindən böyük məmnuniyyətlə qarşılanmış və bu dəstə 1-ci müsəlman süvari alayının tərkibinə verilmişdi. Ştabs-rotmistr Xan Naxçıvanski bu dəstənin komandiri təyin edilmiş və ona göstəriş verilmişdi ki, dərhal dəstə ilə təlim və tərbiyəni təşkil etsin, süvarilərə kəşfiyyat, mühafizə xidmətinin, atla və piyada döyüş aparmağın öyrədilməsinə başlasın. Korpus komandirinin 51 saylı 6 mart 1918-ci il tarixli əmrində daha sonra deyilirdi: «Korpusun formalaşdırılması işində göstərdiyi xidmətlərə görə vətəndaş Rəşid bəy Şəmşəddinova ürəkdən təşəkkür edirəm və onu ştabs-rotmistr Xan Naxçıvanskiyə köməkçi təyin edirəm. Eyni zamanda Rəşid bəy Şəmşəddinova praporşik rütbəsi verilməsi və 1-ci müsəlman alayının siyahısına salınması barədə vəsatət qaldırıram» (84).

Amma belə müsbət hallarla yanaşı, arzuedilməz hallar da özünü göstərməkdə idi. Xidmətə çağırılan gənclərin öz vəzifəsinə yararsız münasibətinə və xalq malına möhtəkircəsinə yanaşdığına görə korpus komandirinin əmri ilə bəzən bütöv bir hissənin şəxsi heyəti buraxılır və o, yenidən komplektləşdirilirdi. Korpus komandiri ilə qərargah rəisi tərəfindən imzalanan 55 saylı 10 mart 1918-ci il tarixli əmrdə deyilirdi: «Korpus üzrə 6 saylı 12 yanvar və 39 saylı 28 fevral tarixli əmrlərlə yanvar ayının 1-dən 350 nəfərlik gənc əsgər komandası müsəlman istehkam taboruna verilmişdir. Ümidləri doğrultmayan bu komanda hərbi qüvvə kimi tamamilə yararsızdır. Çünki o, əsasən, Vətəninin və millətinin müdafiəçisi kimi üzərinə düşən rolu anlamayan adamlardan təşkil olunmuşdur».

Müsəlman istehkam taborunun komandirinin 3 mart tarixli raportundan göründüyü kimi, komandada mənəvi tənəzzül elə bir həddə çatıb ki, adamlar əmrləri yerinə yetirmir və xidməti əmlakın oğurlanması və satışı ilə məşğul olurdular. Taborun mühafizəsi altında olan 49-cu hərbi xəstəxananın at təchizatı satılır və məhv edilirdi. Nəhayət, növbə atlara da çatmışdı. Korpus komandiri əmr edirdi ki, taborun bütün əsgərləri təcili surətdə buraxılsın (85).

Mövcud olan bu böyük çətinliyə baxmayaraq, korpusun his-

sələrinin komplektləşdirilməsində müəyyən işlər də görülürdü. Korpusun strukturu da göstərirdi ki, bu qədər hissələrin, hətta naqis komplektləşdirilməsi belə çağırış işində müəyyən nəticələrə nail olmadan mümkün deyildi.

### *4. Milli hərbiyyə məktəbi*

Yaranmış vəziyyətdə rus ordusundan gələn zabitlər Müsəlman korpusunun zabitlərlə komplektləşdirilməsinin əsas real bazası idi. Bununla belə, milli zabit kadrlarının hazırlanması sahəsində də müəyyən addımlar atılırdı. Bu məsələ həm müsəlman ictimai təşkilatlarının fəallarını, həm də korpusun komandanlığını ciddi narahat edirdi. Onun qismən həll edilməsi üçün Bakıda Kadet məktəbində müsəlman ictimai təşkilatlarının təşəbbüsü ilə milli zabit kadrlarının hazırlanmasına başlanmışdı (86). Bəzi müəlliflər Bakıda Müsəlman Milli Şurası tərəfindən hərbi məktəbin təşkil edildiyini yazsalar da, bu, müstəqil bir hərbi məktəb ola bilməzdi. Çünki ictimai təşkilat hərbi xidməti təşkil edən bir orqan deyildi və bu təşkilatın hər hansı bir hərbi rütbə vermək səlahiyyəti də yox idi. Bu məktəb Müsəlman korpusunun tabeliyində də deyildi. Ona görə ki, Müsəlman korpusunun komandanlığı Bakıda bütün hərbi tələblərə cavab verəcək əsl hərbi məktəbi açmağı planlaşdırırdı. Məlumatların qıtlığı üzündən qəti fikir söyləmək mümkün olmasa da, çox güman ki, sonsuz ehtiyacı nəzərə alaraq Müsəlman Milli Şurası ictimai əsaslarla, müəyyən hərbçiləri cəlb etməklə Kadet məktəbinin nəzdində könüllülərin hərb işinə öyrədilməsinə başlamışdı. Həmin kursun sonrakı taleyi barədə də məlumat yox dərəcəsindədir. Yəqin ki, Bakıdakı mart hadisələri bu kursun fəaliyyətinə son qoymuşdu.

Qeyd edildiyi kimi, zabit kadrlarının hazırlanması üçün Müsəlman korpusunun komandanlığı tərəfindən də Bakıda Milli hərbiyyə məktəbinin açılmasına cəhd göstərilmişdi. Korpusun komandiri Ə.Şıxlinski və qərargah rəisi polkovnik Mençukov 1918-ci il fevral ayının 6-da Qafqaz cəbhəsi qoşunlarının Baş komandanına göndərdiyi raportda kiçik milli zabitlərin çatışmaması ilə əlaqədar olaraq Bakıda 1-ci müsəlman diviziyasının nəzdində Milli Hər-

biyyə Məktəbinin açılmasına razılıq verilməsini xahiş edirdilər. Həmin raportda deyilirdi ki, korpusda hazırda təcrübəli unter-zabitlər yoxdur və bunun səbəbi Cənubi Qafqaz müsəlmanlarının hərbi mükəlləfiyyətə cəlb edilməməsi ilə əlaqələndirilirdi. O da bildirilirdi ki, unter-zabitlərin olması Müsəlman korpusunun piyada hissələrinin formalaşdırılması üçün çox zəruridir. Raporta Milli hərbiyyə məktəbinin Əsasnaməsi də əlavə edilmişdi (87).

Məktəbin əsasnaməsində göstərilirdi ki, onun açılmasında əsas məqsəd zabit kadrların komplektləşdirilməsi, bölüklərə (rotalara) nizami xidməti, bölüyün işini və onun hesabatını aparmağı yaxşı bilən zabitlərin verilməsi idi (88).

Məktəbdə 18 yaşından aşağı və 25 yaşından yuxarı olmayan müsəlmanlar, çatışmadıqda isə Zaqafqaziya rusları təhsil ala bilərdilər. Məktəbdə oxumaq istəyənlərin ilkin savadı dördillik və ya ona bərabər tutulan təhsil səviyyəsində olmalı idi.

Qəbul seçmə yolu ilə aparılmalı idi. Bura fiziki cəhətdən sağlam olanlar və həkim komissiyasını keçənlər, eyni zamanda həbsdə olmayan və cinayətə cəlb edilməyənlər ərizə verə bilərdilər. Məktəbdə təhsil müddəti 3 ay idi. Kursun sonunda imtahanlardan qənaətbəxş qiymət alanlar o biri kursa keçirilə bilərdi. Eyni zamanda məktəb rəisinin vəsatəti və korpus komandirinin razılığı ilə yaxşı oxuyanlar vaxtından əvvəl imtahan verib məktəbi bitirə bilərdilər. Məktəbdə oxuyanlar "yunker" adlandırılmalı idilər. Kursun sonunda yunkerlər buraxılış imtahanı verməli idilər. Kursu müvəffəqiyyətlə başa vuranlara yeni zabit geyimi, paqon və başqa zəruri əşyaları almaq üçün əlli rubl pul, səfər təchizatı, qılınc, revolver, durbin və nizamnamələr verilməli idi(89).

Təhsili başa vuranlar göndərildikləri hissələrdə nizami unter-zabit və feldfebel vəzifələrini tuta bilərdilər. Məktəbi I dərəcə ilə bitirənlər podpraporşik vəzifəsinə təyin edilə və sonradan ilkin zabit rütbəsi olan praporşik rütbəsinə də layiq görülə bilərdilər. Amma bu rütbəni almaq üçün məktəbi bitirənlər ən azı 8 ay xidmət etməli və son 4 ayı podpraporşik vəzifəsində olmalı idi. Məktəbi II dərəcə üzrə bitirənlər isə 2 ay yaxşı xidmətdən sonra diviziya rəhbərliyinin əmri ilə podpraporşik ola bilərdilər.

Təlim-tərbiyənin nəzəri və təcrübi baza üzərində daha yaxşı qurulması üçün Milli hərbiyyə məktəbinə 2 ədəd pulemyotun, 20 ədəd qılıncın, 20 ədəd revolverin, 8 ədəd teleqrafın qurğusunun, 10 verst kabelin, 1 ədəd təlim kommutatorunun verilməsi nəzərdə tutulmuşdu.

Milli Hərbiyyə Məktəbi 100 nəfər yunker üçün nəzərdə tutulmuşdu və qərara alınmışdı ki, onun təşkilati işləri Tiflisdə aparılsın və sonra Bakıya köçürülsün. 1918-ci il mart ayının 1-də poruçik Nəsirbəyov Milli Hərbiyyə Məktəbinin (rusca olan arxiv sənədlərində bu məktəb – «Мусульманская школа подпрапорщиков» adlanır – M.S.) rəisi təyin edildi və elə həmin gün də məktəbin dəftərxanası fəaliyyətə başladı.

1918-ci il mart ayının 19-da daha 12 zabit Milli hərbiyyə məktəbinə təyin edildilər (90).

Yuxarıda qeyd edildiyi kimi, Milli hərbiyyə məktəbinin açılması ilkin olaraq 1-ci diviziyanın nəzdində nəzərdə tutulmuşdu və məktəbin təchizatı da diviziya qərargahı hesabına aparılmalı idi. Amma şərait dəyişdiyi üçün sonradan bu qərardan imtina edildi. Korpus komandirinin 11 mart 1918-ci il tarixli əmri ilə Milli hərbiyyə məktəbinin təchizat məsələləri Ehtiyat alayına tapşırıldı və bununla əlaqədar alayın komandiri polkovnik Süeymanova müvafiq göstəriş verildi (91).

1918-ci ilin mart hadisələrindən sonra Milli Hərbiyyə Məktəbinin Bakıda fəaliyyət göstərməsi üçün heç bir şərait qalmadı və onda qərara alındı ki, bu məktəb Yelizavetpolda yerləşdirilsin. Korpus komandirinin əmrinə müvafiq olaraq məktəbin daimi tərkibi dəftərxanası ilə birlikdə 1918-ci il aprel ayının 2-də Yelizavetpola gəlib dəmir yolu məktəbinin binasında yerləşdi (92). Aprel ayının 9-da isə məktəb şəhərə köçdü və Yelizavetpol Sənət məktəbinin binasında qərar tutdu(93).

Amma mart hadisələri bütünlükdə Milli hərbiyyə məktəbinin fəaliyyətinə müəyyən düzəlişlər etdi. Bakıda hakimiyyəti ələ alan bolşevik-daşnak qüvvələri Azərbaycanın milli qüvvələrini məhv etmək üçün Gəncəyə doğru hərbi yürüş etməyə qərar vermişdilər. Bu yürüşün qarşısının alınması və bolşevik-daşnak qüvvələrinə zərbə vurulması üçün Azərbaycanın milli qüvvələrinin təzyiqi al-

tında Cənubi Qafqaz Komissarlığı Bakıya doğru müəyyən miqdarda hərbi qüvvə göndərməyə məcbur oldu. Müsəlman korpusunun bütün imkanları da bu qüvvələrin gücləndirilməsinə səfərbər edildi. Bununla əlaqədar hələ Gəncəyə köçməzdən əvvəl, mart ayının 25-də Milli hərbiyyə məktəbinin rəisi poruçik Nəsirbəyov da Cənubi Qafqaz Komissarlığının müştərək qüvvələrinin sərəncamına göndərildi (94). Bu müştərək qüvvələrə Tatar atlı alayının komandiri polkovnik Maqalov rəhbərlik edirdi.

Hacıqabula qədər irəliləmiş müştərək qüvvələrin daha da gücləndirilməsinə ehtiyac yarananda məktəbin digər zabitlərinin də cəbhəyə göndərilməsi qərara alındı. Bununla əlaqədar, Müsəlman korpusu qərargah rəisinin aprel ayının ortalarında imzaladığı əmrdən aydın olur ki, məktəbdə artıq təhsil almaq istəyənlərin toplanmasına başlanmışdı. Həmin əmrdə qeyd olunurdu ki, Hərbiyyə məktəbi dərhal bağlansın, onun zabitləri artıq polkovnik Maqalovun dəstəsində olan poruçik Nəsirbəyovun sərəncamına göndərilsin. Qərargah rəisi əmr edirdi ki, tələbələr məktəbdən azad olunsunlar və onların nəzərinə çatdırılsın ki, məktəb Bakı əməliyyatından sonra açılacaqdır. Bundan başqa korpusun qərargah rəisinin məktəbin müvəqqəti bağlanması barəsindəki əmrində bildirilirdi ki, təhsil alanlar könüllü şəkildə bu dəstəyə sanitar kimi cəlb oluna bilərlər (95). Müsəlman korpusunun rəhbərliyinin əmrlərində Milli hərbiyyə məktəbinin bağlanmasının müvəqqəti xarakter daşıdığı birmənalı şəkildə vurğulanırdı.

Təxminən 40 günlük fasilədən sonra Milli hərbiyyə məktəbinin rəisi poruçik Nəbibəyov cəbhədən geri çağırıldı və ona tədris işlərinə başlanması tapşırıldı. Görünür, cəbhədə vəziyyətin mürəkkəb olmasına baxmayaraq, milli hərbçi kadrların hazırlanması zərurəti xüsusi əhəmiyyət kəsb etdiyindən, Müsəlman korpusunun rəhbərliyi bu prosesə başlamağı lazım bilmişdi. Poruçik Nəsirbəyov da dərhal bu istiqamətdə fəaliyyətə başladı, təşkilati işlərə start verildi və tezliklə məktəbin fəaliyyətinin bərpasına nail olundu. Məktəbin rəisi Nəsirbəyov korpusun qərargah rəisinə ünvanladığı raportunda bildirirdi ki, may ayının 10-da dəftərxana yenidən işə düşüb və beş gündən sonra dərslərə başlamaq olar.

May ayının 12-də isə məktəbin rəisi yazırdı ki, məktəbdə dərslərin başlanması təxirə salınır. Buna səbəb mebelin, zəruri inventarın, qab-qacağın olmaması və onların tapılıb məktəbə verilməsi üçün Müsəlman Milli Komitəsinin hələ də öz vədlərinə əməl etməməsi idi (96).

May ayının 29-da isə Nəsirbəyov 5 gündən sonra məktəbin tədris işlərinə başlamağa hazır olduğunu bildirir və korpusun qərargah rəisindən xahiş edirdi ki, hissələrdən gənclərin seçilib göndərilməsinə göstəriş versin. Elə həmin tarixə aid olan başqa bir məktubunda poruçik Nəsirbəyov Azərbaycan dilində dərslərin aparılması üçün məktəbə Azərbaycan dilini bilən iki zabitin göndərilməsini xahiş etdi (97).

Mövcud olan məlumatlar onu deməyə əsas verir ki, poruçik Nəsirbəyov nəzərdə tutduğu tarixdə Milli hərbiyyə məktəbi təlim-tərbiyə prosesinə başlamışdı. Çünki Nəsirbəyov 6 iyun 1918-ci il tarixli məktubunda məktəbdə türk dilində tədrisə keçiləcəyi bildirilirdi. Məktəb rəisinin 1918-ci il iyun ayının 11-nə korpus komandirinin adına ünvanladığı raportunda yunkerlərin sayına uyğun olaraq məktəbə 80 ədəd tüfəngin və bir miqdar da patronun verilməsi haqqında məsələ qaldırmışdı (98).

Qafqaz İslam Ordusu təşkil ediləndən bir müddət sonra da poruçik Nəsirbəyov Milli hərbiyyə məktəbinin rəisi olaraq qalmaqda idi. Məsələn, 1918-ci ilin iyul ayına aid olan sənədlərdə poruçik Nəsirbəyov Milli hərbiyyə məktəbinin rəisi kimi göstərilir (99) və ona görə bu azərbaycanlı hərbi kadrlar hazırlayan ilk milli hərbi məktəbin formalaşdırılmasında onun da özünəməxsus xidmətləri vardır.

### *5. Xidmətin təşkili*

Mövcud olan arxiv sənədlərindən aydın olur ki, hissələrdə hərbi təlim-tərbiyənin aparılmasına ciddi diqqət yetirilmişdir. Xidmətə cəlb edilmiş gənclərə hərbi hazırlığın ilkin vərdişlərini aşılamaq üçün hissələrdə təlim bölmələri var idi. Topçu hissələrinə bacarıqlı mütəxəssislərin hazırlanması üçün Müsəlman təlim batareyası təşkil edilmiş və polkovnik Məmməd Mirzəqulu

Qacar onun komandiri təyin edilmişdi(100).

Korpus komandanlığı hərbi xidmət rejimində müəyyən dəyişikliklər apararaq onu müsəlman həyatının müəyyən tərəfləri ilə uyğunlaşdırmağa çalışmışdı. Məsələn, qərara alınmışdı ki, Müsəlman Korpusunun şəxsi heyəti üçün istirahət günü – həftənin cümə günü olsun və həmin gün hərbi hissələrdə heç bir dərs keçirilməməli, şəxsi heyətə istirahət verilməli idi(101).

Rus ordusunda işlədilən nizamnamələrin yenidən işlənməsi və onun Müsəlman korpusundakı xidmət və məişət şəraitinə uyğunlaşdırılması da qərara alınmış və bunun üçün xüsusi komissiya təşkil edilmişdi. Komissiyanın rəhbəri korpusun hərbi məhkəməsinin sədri polkovnik Prixodko idi. Bu komissiyaya tapşırılmışdı ki, qısa müddət ərzində nizamnamələrə dəyişiklik edilməsinə baxsın və öz qənaətini korpus komandanlığına təqdim etsin (102). General Ə.Şıxlinskinin bu məsələ ilə bağlı imzaladığı 46 saylı 4 mart 1918-ci il tarixli əmrində daha sonra deyilirdi: «Aşağıdakı nizamnamələrə xüsusi diqqət yetirilsin:

1) Daxili Xidmət Nizamnaməsi – müsəlmanların məişətinə, komplektləşdirmə şəraitinə, onların öz xalqına, xidmət xüsusiyyətlərinə uyğunlaşdırılmalı, xüsusilə gələcək əsgərlərin yaşadığımız dövrün çətin vaxtında aparılacaq tərbiyəsinə diqqət yetirilməli;

2) Sıra Nizamnaməsi – yenidən işlənərkən mənim «əlavə göstərişlərimi» əsas tutmalı;

3) İntizam Nizamnaməsi – rəhbər şəxslərin möhkəm hakimiyyətinin bərqərar edilməsinə, qoşunlara gələn kimi tabe olanlar arasında yüksək nüfuza malik olmalı olan unter-zabitlərin avtoritetinin artırılmasına diqqət yetirilməli;

4) Alay məhkəmələri haqqında əsasnamə – dövrün tələbinə və yaradılan qoşunların məişətinə uyğun olaraq yenidən işlənməli;

5) Qarnizon Nizamnaməsi – xidmət şəraiti və dövrün tələbinə uyğun yenidən işlənməli» (103).

Təlim-tərbiyənin aparılması zamanı intizamın möhkəmləndirilməsi qarşıya başlıca vəzifə kimi qoyulmuşdu. Bu məsələ görülən bütün işlərin mərkəzində dayanırdı və korpus rəhbərliyinin əmr və göstərişlərində bu məsələlərə vaxtaşırı toxunulurdu.

General-leytenant Ə.Şıxlinski əmrlərinin birində əsgərlər tərəfindən spirtli içkilər qəbul edilməsini dözülməz hal sayır, dini və bəşəri qanunlarla qadağan edilmiş bu bəlanın müsəlman əsgərlər arasında özünü göstərməsinə barışmaz münasibətini ifadə edirdi.

Qoşunlarda xidməti əmlakın mənimsənilməsini və talan edilməsini də korpusun rəhbərliyi hərbi qulluqçularda lazımi intizamın aşılanmaması ilə əlaqələndirirdi. Bu məsələnin həllinə nail olmaq üçün zabitlərdən və komanda heyətindən tələb olunurdu ki, praktiki dərslərə daha çox yer verilsin, tapşırılan vəzifələrin icrası vaxtaşırı yoxlanılsın, sədaqətli və etibarlı əsgərlərin xidməti təbliğ olunsun.

Beləliklə, görülən işlər, qarşıya qoyulan real planlar və onların həyata keçirilməsi üçün atılan addımlar Müsəlman korpusunun formalaşmasında müsbət dəyişikliklər yaratmaqda idi. Bu isə xalqın mənafeyinə zidd olan qüvvələri, ifrat bolşevik və daşnak elementlərini heç də razı salmırdı. Həmin qüvvələrin Azərbaycanın milli hərəkatına qarşı istiqamətlənmiş təcavüzkar fəaliyyətinin əsas zərbəsi də məhz milli qoşun hissələri əleyhinə yönəldilmişdi. Xalqın gözlənilən faciələrdən qorunması, Vətənin bütövlüyünün təmin edilməsi üçün etibarlı qüvvə olan milli qoşun hissələrinin formalaşmasına yol verməmək üçün hər cür vasitələrə əl atılırdı. Bolşevik mətbuatında milli qoşun hissələri ən eybəcər ifadələrlə təsvir edilir və müsəlmanlar bu hissələrə daxil olmamağa çağırılırdı(104).

Qeyd edildiyi kimi, Müsəlman süvari divizionu Lənkəranda qanun-qaydanı bərqərar etmək üçün bolşevikləşmiş Lənkəran qarnizonunu tərk-silah etmişdi. Bu işdə qarnizon rəisi polkovnik Baron Osten-Saken müsəlman qoşun hissəsinə yaxından kömək etmişdi. Müsəlman süvari divizionu Astaradan Bakıya yollanan bolşevik dəstəsini də tərk-silah edərək bölgədə bolşeviklərin nəzarətinə son qoymuşdu(105).

Mart ayının 14-də Müsəlman Korpusunun bölmələri Şamaxının bolşevikpərəst qarnizonunu tərk-silah edərək silah və sursat anbarını ələ keçirdi.

Elə mart ayında da Dağıstan milli qüvvələri imam Nəcməddin Qotsinskinin rəhbərliyi altında Petrovsk (Mahaçqala) şəhərini bolşe-

vik qüvvələrindən təmizləyərək burada milli hökumət qurdular (106).

Bundan başqa, Zaqafqaziya Komissarlığından göndərilən zirehli qatar martın ortalarında Hacıqabul stansiyasına gəldi. Bakı Sovetinin ixtiyarında olan zirehli qatar da bu istiqamətə hərəkət edərək milli qüvvələrin Bakıya doğru irəliləməsinə imkan vermək istəmirdi. Qarşı dayanan bu qüvvələr arasında bir neçə kiçik toqquşma da baş vermişdi (107).

Yəni şimalda bolşevizmə əks olan qüvvələrin öz hökumətlərini qurması Azərbaycanın milli qüvvələrinin səmərəli mübarizəsinə müsaid zəmin yaratsa da, Azərbaycan daxilində bolşevik-daşnak qüvvələrinin müqavimətini hələlik qırmaq mümkün deyildi. Çünki bunun üçün hələ kifayət qədər güc yox idi. S.Şaumyanın yuxarıdakı etiraflarının doğruluğuna inanmalı olsaq, mart ayının sonlarında Bakıda 6 minlik bolşevik silahlı dəstələri, 4 minlik isə daşnak silahlı dəstələri mövcud idi. Bəzi mənbələrdə Bakıdakı silahlı sovet qüvvələrinin, hətta 7 mindən artıq olduğu göstərilir (108).

Bura hələ Xəzər hərbi donanmasının şəxsi heyəti və onun güclü hərbi texnikası da əlavə olunmalıdır. Təkcə bolşevik və daşnak qüvvələrinin üzvləri neçə-neçə alayın şəxsi heyəti qədər idi. Milli qüvvələr tərəfindən isə Bakıda 1-ci müsəlman piyada alayının təşkilinə başlanmışdı. Bu işin sona çatdırılmasının xeyli çətin olduğu aydınlaşdıqda isə korpus komandirinin əmri ilə onun qərargahının Şamaxıya köçürülməsi qərara alındı. Deməli, Bakıda hərbi qüvvələrin nisbətində bolşevik və daşnak cütlüyü ifrat üstünlüyə malik idi və belə bir vəziyyətdə milli qüvvələrin hər hansı bir güc tətbiqinə əl atacağına inanmaq heç cür mümkün deyil. Məhz bu üstünlüyə əmin olduğundan Bakı fəhlə, əsgər və matros deputatları soveti S.Şaumyanın məruzəsinə qulaq asıb qərara gəldi ki, Bakıdakı bütün milli hərbi hissələrin ləğv edilməsi və ya Bakıdan çıxarılması üçün tədbirlər görülsün (109).

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Nağı Şeyxzamanlının xatirələri. B.2007, s.21
2. Каземзаде Ф. Боьрба в Закавказье (1917–1921). Литературный Азербайджан , 1993, № 1-2, s. 49
3. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə...Bakı, 1994, s. 31
4. Балаев А. Азербайджанское национальное движение: от мусавата до народного фронта. Баку, 1992, c.12
5. Svyatçexovski T.Rusiya Azərbaycanı 1905–1920-ci illər. «Azərbaycan», 1989, №11,s.121
6. Nəzirli Ş. Cümhuriyyət generalları. Bakı, 1995, s.44
7. Yenə orada, s.46
8. Ratqauzer E.Adı çəkilən əsəri, s.89
9. Yenə orada, s.90
10. Yenə orada, s.124
11. Yenə orada, s.101
12. Hərbi Bilik, 1998, № 1, s.86–87
13. M.Ə.Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.31
14. Каземзаде Ф....с.62 (№ 1–2).
15. Şıxlinski Ə. Xatirələrim. Bakı, 1984, s.188
16. Yenə orada, s.185
17. Yenə orada, s.188–189
18. Hərbi Bilik, 1988, № 1, s.87
19. MDA, f.2918, siy.1, iş 1, v.3,17,19 : Yenə orada, iş 2, v.23,53,59
20. MDA, f.2918, siy.1, iş 1, v. 7,8
21. MDA, f.2918, siy.1, iş 5, v.74
22. MDA, f.2918, siy.1, iş 5, v.22
23. MDA, f.2918, siy. 1, iş 1, v.27
24. Yenə orada, v. 3, 16,21, 28, 32; yenə orada, iş 2, v.56 : f. 2898,siy. 1, iş 20, v.19: Nəzirli Ş.Qacarlar. Bakı, 1995, s.41
25. MDA, f.2898, siy.1, iş 20,v.19
26. Yenə orada
27. MDA, f. 2898, siy.1, iş 20, v. 19
28. MDA, f. 2918, siy. 1, iş 1, v.23

29. MDA, f.2918, siy.1, iş 1, v.29
30. ( MDA, f.2918, siy.1, iş 1, v.24
31. MDA, f.2918, siy.1, iş 1, v.34
32. Şıxlinski Ə....s.189
33. MDA, f.2898, siy.2, iş 51, v.24
34. Sülemanov Manaf. Hacı Zeynalabdin Tağıyev. Bakı, 1996, s.51
35. Yenə orada, s.51
36. Millət, 1992, 14 iyun
37. MDA, fond 2918, siy.1, iş 1, v.7
38. MDA, f.2918, siy.1, iş 2, v.59
39. MDA, f. 2918, siy.1, iş 2, v. 61
40. Millət, 1992, 14 iyun
41. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье (1918–1921). M. 1948. (siqnal nömrəsi). Bax: SSA, f.1, siy.222, iş 50, v.114
42. Сеф С.Е. Борьба за октябрь в Закавказье. Тифлис, 1932, с.69,71
43. Арутюнян А.О. Кавказский фронт 1914–1917. Ереван, 1971, с.331
44. Nağı Keyqurun. Nağı Şeyxzamanlının xatirələri və istiqlaliyyət fədailəri. Bakı, 2007, s.42–44
45. Əzimov H. İnqilab əsgərləri. Bakı, 1978, s.78
46. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı, 1963, s.34,35
47. Həsənov C. Adı çəkilən əsəri, s.39
48. MDA, f.970, siy.1, iş 86, v.22
49. Yenə orada, v.24
50. Сеф С.Е. Борьба за октябрь ...с.74
51. Сеф С.Е. Борьба за октябрь в Закавказье. Тифлис, 1932, с.72
52. Сеф С.Е. Борьба за октябрь в Закавказье. Тифлис, 1932, с.73
53. Сеф С.Е. Борьба за октябрь в Закавказье. Тифлис, 1932, с.74
54. Сталин И.В. Сочинения, т.4. М., 1947, с.57
55. Baykara H.Adı çəkilən əsəri, s.220

56. Сеф С.Е.Борьба за октябрь...с.76
57. Baykara h.Adı çəkilən əsəri, s.220
58. Сеф С.Е. Борьба за октябрь...s.77
59. Yenə orada,s.81
60. Yenə orada,s.90
61. Yenə orada,s.88–89
62. Шаумян С.Г. Статьи и речи...с.107–110
63. Сеф С.Е. Борьба за октябрь...s.83
64. MDA, f.970, siy.1, iş 86, v.22–27
65. Bax: Hayeri kotaracner ... s.14–15
66. Hayeri kotaracner ... s.14–15
67. MDA, f.2898, siy.2, iş 44,v.305
68. Stalin İ.V....s.55
69. Большевики в борьбе за победу... с.282
70. Сур. Шаумян ... с.11
71. Siyasi Sənədlər Arxivi (SSA),f.276, siy.2, iş 20, v.18
72. Millət, 1992, 14 iyun
73. Yenə orada
74. Şıxlinski Ə... s.189
75. SSA, f. 276, siy.2, iş 22, v.74
76. Сеф С.Е. Борьба за октябрь... с.142
77. Стеклов А. Армия мусаватского Азербайджана. Баку, 1928, с.4
78. MDA, f.2918, siy.1, iş 1, v.12
79. Yenə orada
80. MDA, f.2918, siy.1, iş 1, v.26
81. MDA, f. 2918, siy.1, iş 1, v.34
82. MDA, f.2918, siy.1, iş 1, v.26
83. Şıxlinski Ə...s.188–189
84. MDA, f.2918, siy.1, iş 1, v. 15
85. MDA, f.2918, siy.1, iş 1, v. 18
86. Svyatçexovski T. Rusiya Azərbaycanı 1905–1920-ci illər. Azərbaycan, 1989, №11,s.121
87. MDA, f.2918, siy.1, iş 1, v.2
88. MDA, f.2918, siy.1, iş 3,v.2–3

89. Yenə orada, v.3
90. MDA, f.2918, siy.1, iş 1, v.27
91. MDA, f.2918, siy.1, iş 1, v. 18
92. Yenə orada, v.6,11,15,16,27
93. MDA, f.2894, siy.1, iş 35, v. 28
94. MDA, f.2918, siy.1, iş 1, v.24
95. MDA, f. 2918, siy.1, iş 3,v. 33
96. Yenə orada, v.48, 49
97. MDA, f. 2918, siy.1, iş 1, v.50, 53
98. MDA, f.2918, siy.1, iş 3, v.53, 57
99. MDA, f.2918, siy.1, iş 3, v.70
100. MDA, f. 2918, siy.1, iş 1, v.18,39
101. Yenə orada,v.11
102. Yenə orada,v.8
103. MDA, f.2918, siy.1, i. 1, v.11
104. Известия Бакинского Совета, 1918, 10 января
105. MDA, f.2898, siy.2, iş 2, v.430 ; İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917–1918-ci illər). Bakı, 1957, s.342
106. Nasirov T.M. Adı çəkilən əsəri, s.22
107. İbrahimov Z. Sosialist inqilabı uğrunda...s.342
108. Азизбекова П.А. 26 Баккомиссаров. Баку, 1978, с.94
109. SSA, f.276, siy.3, iş 199, v.6

# IV FƏSİL

# MÜSTƏQİLLİYİN ELAN EDİLMƏSİ ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA HƏRBİ-SİYASİ ŞƏRAİT

## *1. 1918-ci ilin mart qırğınlarının hərbi-siyasi aspektləri*

Azərbaycan milli qüvvələrinə güclü zərbə vurmaq, Bakıda şəriksiz hakimiyyətə nail olmaq üçün istər daşnak qüvvələri, istərsə də Bakı Soveti tərəfindən hazırlıq işləri xeyli əvvəldən başlamışdı. Mart hadisələrindən 2–3 ay əvvəl Bakı erməniləri gizlətmirdilər ki, Rusiyada baş verənlər Bakıda da təkrarlanacaq və Bakıda tüğyan edəcək hadisələrin nəticələri Rusiyadakından da dəhşətli olacaqdır (1). Mart hadisələrindən təxminən 20 gün əvvəl isə daşnaklar artıq öz niyyətlərini reallaşdırmağa başladılar. Belə ki, Ramanada peyda olan erməni taborunun silahlıları adamları talan edir, onların var-yoxunu əllərindən alır və talayırdılar (2). Əhalini bu erməni soyğunçuluğundan xilas etmək üçün isə heç bir təsirli tədbir həyata keçirilmirdi.

Hadisələrin şahidləri də bildirirdilər ki, mart qırğınlarının törədilməsinə hazırlıq xeyli əvvəldən başlanmışdı. Bakı şəhər sakini Aleksandr Naumoviç Kvasnik xatırlayırdı ki, hələ 1918-ci ilin əvvəllərində şəhərin azərbaycanlı əhalisinə qarşı qırğınların həyata keçiriləcəyi haqqında söhbətlər dolaşırdı. Şəhər əhalisinin müəyyən hissəsi üçün belə söhbətlər anlaşıqlı olmasa da, bir müddətdən sonra onun mümkünlüyünün əlamətləri görünməyə başladı. Əvvəlcə gecələr atəş səsləri eşidildi və bu, nizamsız xarakter aldı. Təhlükənin reallığını hiss edən insanlar silah əldə etməyə başladılar ki, bu da silahların qiymətinin artmasına səbəb oldu. A.Kvasnik şübhə etmirdi ki, bu atəş ermənilər tərəfindən açılır və onlar bununla həm əhali arasında qorxu yaradır, həm də azərbaycanlıları cavab verməyə təhrik etmək istəyirdilər. Eyni zamanda erməni millətçiləri şəhər daxilində məqsədyönlü şəkildə şayiə yayırdılar ki, müsəlmanlar «Dikaya diviziya» (“Vəhşi diviziya”) bölmələri

ilə şəhərin digər millətlərdən olan əhalisini qırmağa hazırlaşırlar. Guya onların məqsədi bütün Qafqaza sahib olmaq idi. Ermənilər açıq müraciətlər yayaraq azərbaycanlı silahlılardan qorunmaq üçün silahlanmağa və hazırlaşmağa çağırırdılar (3).

A.Kvasnikə görə, S.Şaumyan, Avakyan, Korqanyan və digər bolşeviklər öz fəaliyyətlərini Bakıda genişləndirdikdən sonra şəhərdə vəziyyət mürəkkəbləşməyə başladı. Müəllif əslində, bu kimi ermənilərin bolşevik ola biləcəyinə öz təəccübünü gizlətmirdi. O qeyd edirdi ki, ermənilərdən təşkil olunan fəhlə, əsgər və matros deputatları soveti digər hakimiyyət qurumlarının sıxışdırılmasını müsəlman əhali çox narahatçılıqla qarşılayırdı. Bolşevikləşmiş ermənilərin hakimiyyətə sahib çıxmaları müsəlman əhali arasında bolşevizmə olan inamı sarsıtdı. A.Kvasnikə görə, şəhər erməniləri isə əksinə, yaranmış vəziyyətdən sevindilər və onlar ümid edirdilər ki, Şaumyan kimilərinin rəhbərliyi altında onlar müsəlman əhalini sıxışdırmaqla Bakını və digər məntəqələri nəzarət altına ala biləcəklər. Ona görə A.Kvasnik mart qırğınlarını Bakıda və digər məntəqələrdə müsəlman əhalini qırmaqla onların bütün əmlakının ələ keçirilməsi üçün ermənilərin müsəlman əhaliyə qarşı tətbiq etdiyi qəsd kimi qiymətləndirirdi (4).

Sovet tarixşünaslığında 1918-ci ilin mart ayının sonunda Bakıda tüğyan edən faciəli hadisələrin müsəlman milli qüvvələri tərəfindən planlaşdırıldığı və başlanıldığı barədə xeyli fikirlər mövcuddur (5). Bu məsələnin mahiyyət etibarilə belə olmadığı artıq kimsədə şübhə doğurmur. Bakıda yetişmiş olan obyektiv və subyektiv şərait, eyni zamanda S.Şaumyanın söylədiyi etiraf bunu bir daha sübut edir. O bildirirdi ki, biz əlimizə düşən bəhanədən istifadə etdik və bütün cəbhəboyu hücuma başladıq (6).

Belə bir qırğını başlamaq üçün qüvvələr nisbətində böyük üstünlüyə malik olan bolşevik-daşnak qüvvələri hücuma keçmək üçün vaxtında bir bəhanə yaratdılar və həmin bəhanədən məharətlə istifadə etdilər. Bu bəhanə «Evelina» gəmisində Lənkərana doğru hərəkət etmək istəyən milli qoşun bölmələrinin tərk-silah edilməsi ilə bağlı idi (7). Heç şübhəsiz, «Evelina» gəmisi ilə bağlı

olan hadisə ortaya çıxmasaydı, bolşeviklər niyyətlərinə nail olmaq üçün başqa bir bəhanə axtarıb tapacaqdılar. Bununla belə, burada Müsəlman korpusunun bölmələri ilə bağlı olan bir məqama diqqət yetirilməsi yaxşı olardı. Bu da ondan ibarətdir ki, «Evelina» gəmisinin tərk-silah edilməsinə toxunarkən Müsəlman korpusu bölmələrinin nə üçün gəmidə olması və onların hara getməsinin məqsədi ilə bağlı müxtəlif mülahizələr irəli sürülür. Həmin məsələnin aydınlaşdırılması mart hadisələrinin başlanmasında milli qüvvələr üzərinə atılan ittihamların əsassızlığının anlaşılmasına kömək etmiş olardı.

Bəzi məlumatlara görə, Azərbaycanın milli qüvvələri Lənkəranda bolşeviklərə qarşı mübarizəni gücləndirmək üçün ora əlavə dəstələr göndərməyi qərara almışdılar. «Evelina» gəmisindəki silahlılar da bu dəstədən idi (8). Bakı Soveti Lənkərandakı bolşevik qüvvələrinin əzilməsinə yol verməmək üçün Müsəlman korpusunun «Evelina» gəmisinə yüklənmiş dəstəsini tərk-silah etməyi qərara aldı.

Bir məlumata görə isə H.Z.Tağıyevin oğlunun dəfn edilməsi bəhanəsi ilə Bakıda bolşevik hakimiyyətinə son qoymaq üçün Lənkərandan Müsəlman korpusunun silahlı dəstəsi gəlmişdi (9). Bakı Soveti də bunun qarşısını alanda şəhərdə vətəndaş müharibəsi başlandı.

Başqa bir məlumata görə isə, «Vəhşi diviziya»nın Lənkərandakı qoşun hissəsində xidmət edən H.Z.Tağıyevin oğlu Məhəmməd təsadüf nəticəsində ölmüşdü. Xidmət yoldaşları onu Bakıda dəfn edib geri qayıdanda Bakı Soveti onları tərk-silah etməyə çalışmış və bu da mart hadisələrinin başlanmasına bir işarə olmuşdu (10). «Vəhşi diviziya »nın Lənkəran qoşun hissəsi dedikdə heç şübhəsiz ki, Müsəlman süvari divizionu nəzərdə tutulurdu. Bakı qırğınının araşdırılmasına yer verilən bir tədqiqat əsərində də buna oxşar bir versiya üzərində dayanılır və Bakıya dəfnə gəlmiş silahlıların tərk-silah edilməsi həmin vaxt yeganə müsəlman hərbi strukturu olan Lənkəran dəstəsinə vurulan ağır zərbə kimi qiymətləndirilir (11). Lakin baş verənlərin izlənməsi və faktların tutuşdurulması

bu söylənilənlərin həqiqəti tamamilə açıqlamamasını göstərir. Çünki Bakıda milli qoşun hissələri elə çox deyildi ki, Lənkərana əlavə kömək göndərilsin, ya Lənkəranda elə çox qüvvə yox idi ki, onun köməyi ilə Bakı bolşevik və daşnaklardan təmizlənsin. Özü də M.Tağıyevin dəfn mərasimində iştirak etmək üçün Bakıda Lənkərandan zabit Əsədullayev və cəmi 18 əsgər gəlmişdi (12). Bu baxımdan Həmid Sultanovun söylədiyi versiya həqiqətə daha yaxındır. Onun yazdığına görə, "Bakıda burjuaziya daim hakimiyyəti ələ keçirməyə çalışırdı. O, əsgərlərə təlim keçməyə başladıqda bu, daha aydın nəzərə çarpdı. Lakin Qızıl qvardiyanın olması əsgərlərin təlim keçməsini çətinləşdirdi. Odur ki, onları uzaq rayona göndərmək qərara alındı. Bunda məqsəd həm onların sıralarını daha da artırmaq, həm də zəhmətkeş siniflə ən yaxın vaxtlarda başlıca mübarizə üçün möhkəm baza yaratmaq idi" (13).

Müsəlman korpusu komandirinin yuxarıda toxunulan əmrindən də aydın olur ki, Bakıdakı milli qoşun bölmələrinin yaranmış vəziyyətdə Bakıdan çıxarılması məqsədəuyğun bilinmişdi (14). «Evelina» gəmisi ilə bağlı hadisənin şahidinin yazdıqlarına görə isə artıq bu işə başlanmışdı və həmin gəmidə Lənkəran süvari divizionunun silahlı dəstəsinin hərəkəti ilə bərabər, Bakıdakı müsəlman hərbi kursunun Lənkərana köçürülməsi nəzərdə tutulmuşdu (15). Bakı Soveti isə Bakıdakı qoşun hissələrinin şəhərdən çıxarılmasına nail olunması barədə qərar qəbul etsə də (16), dinc şəkildə qoşun bölmələrinin Bakıdan uzaqlaşmasına yol vermədi. Çünki bolşeviklərin və onlarla silahdaş olan daşnakların məqsədi yaranmış bəhanədən istifadə edərək Azərbaycan milli qüvvələrinə, bütünlükdə azərbaycanlılara ağır bir zərbə vurmaq idi.

Beləliklə, mart ayının 29-da Bakıda vəziyyət xeyli dəyişdi. Axşam hava qaralandan sonra «Evelina» gəmisi 16-cı liman körpüsünə yan aldı. Gəmi lövbər salan kimi onun mühafizəsi təşkil edildi. Aşağıda 5 nəfər hərbçi postda dayanmışdı. Onlardan biri praporşik rütbəsində idi. Bundan xəbər tutan şəhərin Qırmızı qvardiya komendaturası gəminin yoxlanılması üçün silahlı qrup göndərdi. 4 nəfərlik bir qrup limana gələn kimi gəminin göyərtəsinə qalxmağa

cəhd göstərdi. Postda dayanan yunkerlər icazəsiz gəmiyə qalxmaq istəyən silahlıların qapısını kəsdilər. Səs-küyə gəmidən çıxan yasavul Qırmızı qvardiyaçıların sorğu-sualına cavab verərək bildirdi ki, o, müsəlman hərbi məktəbinin komendantıdır və gəmi bu məktəbi Lənkərana köçürməlidir. Qvardiyaçılar bu məlumatı alan kimi qarnizon rəisi Avakyana xəbər çatdırdılar (17).

Gəminin kapitanı da verilən məlumatı təsdiqləyərək əlavə etdi ki, göyərtədə yüzdən artıq əsgər, yunker və zabit vardır. Onda «Evelina»nın hərəkətinin qarşısını almağa çalışan qvardiyaçıların sayı da artırıldı. Bu dəstədəkilər 90 nəfərə çatdırıldı. Bir qədərdən sonra Qabişevin və Koçarovun rəhbərliyi altında hərbi inqilab komitəsinin başqa bir dəstəsi limana gəldi. Onlar güc tətbiq edərək göyərtəyə qalxmağa səy göstərdilər. Göyərtədəki silahlılar qvardiyaçıların bu həyasızlığına qarşı lazımi cavab verdilər. Əvvəlcə, gəmiyə qalxmaq istəyənlərin bir neçəsi suya atıldı. Qvardiyaçılar yenə əl çəkmədikdə onlara qarşı silah işlədildi. Atışmada qvardiyaçılardan 2 nəfər öldürüldü, 6 nəfər isə yaralandı (18).

Bundan sonra «Evelina» gəmisi limandan aralanıb hərəkətə başladı. Alınan xəbərdən bir-birinə dəyən Bakı Sovetinin liderləri, qarnizonun bolşevik rəhbərləri Müsəlman korpusunun əsgər və zabitlərinin onlara tabe olmamasından qəzəbləndilər və bu hərbçilərə «dərs» vermək üçün təcili tədbirlər görməyə başladılar. Əvvəlcə, «Göytəpə» keşikçi gəmisi «Evelina»nın ardınca göndərildi. Sonra «Evelina» gəmisinin geri qaytarılacağı təqdirdə onun göyərtəsindəkilərin sahilə çıxa bilməməsi üçün dənizkənarı bulvara silahlı dəstə göndərildi, başqa bir dəstəyə “Parapet” bağında yerləşərək 1-ci müsəlman diviziyasının qərargahı yerləşən «İsmailiyyə»ni nəzarət altına götürmək tapşırıldı. Başqa bir silahlı dəstə isə «Qafqaz və Merkuri» cəmiyyətinin limanında döyüşə hazır vəziyyətə gətirildi. Bununla da kifayətlənməyən bolşeviklər yaxşı silahlandırılmış 60 nəfərlik dəstəni Naberejni və Merkuri küçələrinin tininə göndərdilər. F.Solntsev və Q. Popovun rəhbərliyi altında olan başqa bir dəstə isə Petrov meydanında yerləşdirildi (19). Əmirovun partizan dəstəsi və digər Qırmızı qvardiya dəstələri də

şəhərin müxtəlif məntəqələrində yerləşdirildilər (20).

Beləliklə, bolşeviklər təxminən 100 nəfərlik bir qüvvəni tərk-silah etmək üçün özlərinin bütün qüvvələrini səfərbər etdilər. Qırmızı qvardiya dəstələrinin fəaliyyətinə rəhbərlik, əsasən, erməni bolşeviklərə tapşırılmışdı. Onların arasında Avakyan, Əmirov, Martikyan, Əsriyans və başqaları var idi. «Evelina» gəmisinin qarşılanmasına hazırlıq görüldüyü bir vaxtda S.Şaumyan öz silahdaşı Əsriyansa və onun ətrafında toplaşanlara tapşırıq verdi ki, ciddi hazırlıq görüb işarəyə hazır olsunlar və onlar müsavatçıların qərargahına basqın edəcəklər (21). «Göytəpə» keşikçi gəmisinin hədələri ilə geri qaytarılan «Evelina» gəmisi 20-ci liman körpüsünə yan alan kimi qvardiyaçılar tərəfindən mühasirə olundu. Solntsev, Popov, Kvidçenko, Batmanov, Martikyan və başqaları Müsəlman korpusunun əsgər və zabitlərindən tərk-silah olunmağı tələb etdikdə gəmidəkilər «Müsavat» partiyasının rəhbərliyi ilə telefon əlaqəsinə girdilər və oradan tərk-silah olmayaraq bütün dəstə ilə qərargaha gəlmək tapşırığı aldılar (22).

Təxminən gecə saat 1-də Müsəlman korpusunun silahlı dəstəsi gəmidən düşərək İçərişəhərə doğru irəliləməyə başladı. Bu vaxt onlar üç tərəfdən qvardiyaçıların atəşləri ilə qarşılaşdılar. Müsəlman korpusunun döyüşçüləri qvardiyaçıların müqavimətini qırmağın mümkün olmadığını gördükdə yenidən geri qayıdıb 20-ci liman körpüsündə daldalandılar. Qvardiyaçılar silah gücünə onları tərk-silah etməyə çalışdılar. Atışma bütün gecəni davam etdi və yalnız səhər açılarkən müqavimət göstərməyin əbəs olduğu bilinəndə korpusun döyüşçüləri tərk-silah olmağa razılıq verdilər (23).

Beləliklə, narahatçılıq içində yaşayan azərbaycanlı əhali tərəfindən Müsəlman korpusunun döyüşçülərinin, əsasən, ermənilər rəhbərlik edən qvardiyaçılar vasitəsilə zorla tərk-silah edilməsi çox böyük qəzəblə qarşılandı. Mart ayının 30-da bütün gün ərzində azərbaycanlıların iştirakı ilə izdihamlı mitinqlər keçirildi və tərkibinin təxminən 90 faizi erməni olan Bakı Sovetinin İcraiyyə Komitəsi (24) tərəfindən azərbaycanlı əsgərlərin tərk-silah olunması kəskin etiraza səbəb oldu.

«Eyni zamanda əsgərə qəsd edilməsini ordunun və xalqın şərəfinə qanlı təhqir» (25) sayan Azərbaycan milli hərəkatının fəalları da iclas keçirib Bakı Sovetinin törətdiyi təxribata son qoyulmasını, Müsəlman korpusunun döyüşçülərindən alınmış silahların geri qaytarılmasını tələb etdilər (26). Belə bir tələblə Bakı Sovetinin rəhbərlərinə də müraciət edildi və onlarla danışıqlar aparıldı. Mart ayının 30-da gündüz saat 2-də Nəriman Nərimanov, Şaumyan və M.Ə.Rəsulzadə görüşüb baş vermiş hadisə ilə bağlı danışıqlar apardılar. Həmin görüşün iştirakçısı olan Həmid Sultanov xatirələrində yazırdı ki, ikisaatlıq danışıqlardan sonra «Hümmət» təşkilatı vasitəsilə həmin silahların geri qaytarılması qərara alındı. M.Ə.Rəsulzadə də buna razılıq verdi. Lakin iki saatdan sonra, axşam saat 6 radələrində Bazar küçəsində, Nikolayevski küçəsində, İçərişəhərdə və başqa yerlərdə atışma başladı (27).

Bakıda 3 gün tüğyan edən qırğınların şahidlərinin birinin ifadəsinə görə, həm müsəlmanlar, həm də daşnaklar silahların geri qaytarılması ilə bağlı danışıqları diqqətlə izləyirdilər. Gərginliyin dinc yolla aradan qaldırıla bilmək ehtimalı ortaya çıxanda Şamaxı yolunda gizlənmiş ermənilər təxribata əl atdılar və bolşevik patrullarını atəşə tutdular (28). Bu isə şəhərdə müsəlman əhalisinin qırılmasına başlamaq üçün bir işarə oldu.

Hadisələrin şahidi olan A.Klügenin yazdığına görə, yaxşı silahlanmış və təlim keçmiş erməni əsgərləri çoxlu miqdarda pulemyotlarla hücum edirdilər. Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlə doğrayır, süngülərlə dəlik-deşik edir, uşaqları yanan evlərin içərisinə atırdılar (29).

Elə həmin gecə S.Şaumyanın əmri ilə Əsriyansın silahlı dəstəsi müsavatçıların qərargahına basqın edib güclü atışmadan sonra oranı tutdu. Əsriyansın ifadəsinə görə, həmin qərargahda güllə və partladıcı maddələr hazırlanan xüsusi laboratoriya var idi (30). Martın 30-da axşamdan xeyli keçmiş bütün şəhər qaynar qazana çevrildi. Bakı Sovetinin silahlı dəstələri «İsmailiyyə»ni və İçərişəhəri mühasirəyə alaraq oradakı milli qoşun bölmələrini və müsa-

vatçı silahlıları susdurmağa çalışırdılar. Avakyanın təklifi ilə bir dəstə silahlı adam Dənizkənarı bulvar boyunca mövqelər tutub İçərişəhəri hədəfə aldı. Başqa bir çevik dəstə isə öz yerdəyişmələri ilə İçərişəhərdə mövqe tutmuş Azərbaycan qüvvələrinin diqqətini özünə cəlb etməklə «İsmailiyyə» və Qoşa Qala qapısı yaxınlığında vuruşan qvardiyaçıların işini yüngülləşdirməli idi (31). Burada isə «Metropol» mehmanxanasının ( indiki Nizami adına ədəbiyyat muzeyinin) damında və onunla Qoşa Qala darvazaları arasındakı binanın damında qvardiyaçıların pulemyotları qurulmuşdu. Bu pulemyotlar «İsmailiyyə» binasını və İçərişəhərdə olan atəş mövqelərini hədəfə almışdılar (32).

Sovet tarixşünaslığına aid olan bəzi tarixi ədəbiyyatda bildirilir ki, mart qırğınları günlərində bolşevik-daşnak qüvvələrinə qarşı müsavatçıların praporşiklər mərkəzi, Müəlman korpusunun 1-ci diviziyasının qərargahı mövqe tutumuşdular (33). Digər tarixi ədəbiyyatda bolşevik-daşnak cütlüyünə müqavimət göstərən qüvvələri «müsavat qoşunları», «əks-inqilabi qüvvələr» və s. kimi anlaşılmaz ifadələrlə xarakterizə edilir.

Praporşiklər məktəbinin bu qanlı döyüşlərə girmək imkanı olmamasını qeyd etməklə, hər halda nəzərə almaq lazımdır ki, Müsəlman korpusuna məxsus olan nizami hərbi bölmələr bolşevik-daşnak cütlüyünə qarşı mümkün müqavimət göstərirdi. Bakı kəndlərinin qoçu dəstələrinin də erməni vəhşilərinə qarşı səmərəli mübarizə apardığı haqqında tarixi ədəbiyyatda müəyyən məlumatlar vardır. Bununla belə, hazırda elmi dövriyyədə olan materiallarda Bakıda hansı nizami milli hərbi bölmələrin erməni-daşnak qüvvələrinə qarşı mübarizə aparması barəsində qaneedici məlumatlara rast gəlmək çətindir.

Amma ayrı-ayrı faktlar göstərir ki, belə bölmələr şəhərdə mövcud idi və azərbaycanlı əhalinin erməni qırğınlarından xilas etmək üçün onların göstərdiyi müqavimət, hətta bolşevik rəhbərliyinin xeyli narahatlığına səbəb olmuşdu. Milli silahlı dəstələrdən biri Bayıl istiqamətində bolşevik-daşnak qüvvələrinin əl-qol açmasının qarşısını almaq istəyirdi. Burada baş verən hadisələrin şahidi

olan bolşevik A.R.Kuzminski bildirirdi ki, milli qüvvələr, hətta hərbi dəniz bazasının sovet qüvvələrinin qərargahı ilə olan əlaqələrini kəsməyə müvəffəq olmuşdular. Bolşevikləşmiş olan matroslar öz qüvvələri ilə milli qüvvələrə zərbə vurub bolşevik qərargahı ilə birləşməyə cəhd göstərsələr də, buna nail ola bilmədilər. Əsasını «Qars» gəmisinin şəxsi heyəti təşkil edən dəstə qala divarları ətrafındakı Qubernator bağı yaxınlığında milli qüvvələrin müqavimətini qıra bilməyərək geri çəkilməli olmuşdu (34).

Suraxanı və Əmircan istiqamətində də milli qüvvələr kifayət qədər fəallıqla müqavimət göstərirdilər. Bu istiqamətdə cərəyan edən hadisələrin iştirakçısı olan Avak Qukasyan adlı birisi bildirirdi ki, yalnız Bakıdan bolşeviklərə məxsus olan zirehli qatar gəlib çıxandan sonra müsavatçı qüvvələrin müqavimətini qırmaq mümkün oldu (35).

Mövcud olan digər faktlara görə isə şəhərin mərkəzində, qala daxilində və azərbaycanlıların yaşadığı məhəllələrdə qoçu dəstələri erməni vəhşiliklərinin qarşısını almağa çalışırdılar (36).

Tarixi ədəbiyyatda olan məlumata görə, martın 30-da əsas hadisələr şəhərin Stanislav, Balaxanı küçələri, Parapet meydanı, Nikolayevski küçəsi, Sahil küçəsi və Dənizkənarı bulvar dairəsində davam etdi. Milli qüvvələr, əsasən, evlərin damlarında mövqe tutmuşdular. Bir sıra küçələrdə isə səngərlər qazılmışdı. Qala daxilində də milli qüvvələr könüllü müqavimət göstərirdilər. Bayılda isə hərbi dəniz limanının ələ keçirilməsinə cəhd göstərilirdi. Lakin milli qüvvələr buna nail olmadılar (37).

Mart ayının 31-də milli qüvvələrin bir silahlı dəstəsi Yasamal istiqamətində qvardiyaçı dəstələrlə üzbəüz gəlmiş, onlarla döyüşə girməkdən çəkinməmişdi. Burada, hətta qvardiyaçıların mühasirəyə alınması təhlükəsi yaranmışdı. Belə bir vaxtda Bakı Soveti ora zirehli avtomobillə bərabər, əlavə dəstə göndərmiş və yalnız bu dəstə gələndən sonra milli qüvvələr geri çəkilmişdi (38).

Elə həmin gün milli qoşun bölməsi Suraxanıda olan qvardiyaçılar dəstəsini tərk-silah etdi (39). Sonra isə həmin bölmə Əmircan və Bülbülədən keçib Sabunçu neft rayonuna doğru hərəkət etdi

(40). Milli qoşunlardan olan başqa bir dəstə isə Bayıl-Bibiheybət istiqamətində gərgin döyüşlər aparırdı. Həmin bölmə hərbi-dəniz limanına xeyli yaxınlaşa bildi (41). Lakin burada qvardiyaçıların müqavimətini qırmaq mümkün olmadı.

Döyüşlərin ən qaynar nöqtəsi Qoşa Qala qapısı və «İsmailiyyə» binaları ətrafında idi. Ətrafdakı binaların damlarında qoyulmuş pulemyotların aramsız atəşi altında milli qüvvələrin mövqelərinə hücum çəkən bolşevik dəstələrindən birinə A.Mikoyan özü rəhbərlik edirdi. Ancaq bu dəstələr də milli qüvvələrin atəş mövqeyini susdurmaqda hələlik aciz idilər (42). Belə olanda döyüşə yeni qüvvələr gətirildi. Fəhlə qırmızı qvardiyası, 1-ci Beynəlmiləl alay, 36-cı Türküstan alayı Bakı Sovetinin əmri ilə döyüşə daxil edildi (43).

Bu qüvvələrin və Xəzər donanmasının şəxsi heyətinin döyüşə qoşulması ilə Bakı Soveti və daşnak cəbhəsi xeyli gücləndirildi. Donanmanın matros və zabitlərinin diqqətini şəhərdə baş verənlərin əsas mahiyyətindən yayındırmaq üçün onların arasında belə bir şayiə yayılmışdı ki, müsavatçı qüvvələr İçərişəhərdə rus əhalisini qırıb məhv edirlər. Həmin xəbəri eşidən kimi matroslar bütün hərbi texnikalarını döyüş vəziyyətinə gətirdilər (44). Matroslardan 200 nəfərlik bir dəstə isə küçə döyüşlərində iştirak edirdi (45).

Az-çox mövcud olan tarixi faktların araşdırılması belə bir qənaətə gəlməyə əsas verir ki, mart ayının 30-da milli qüvvələr bolşevik-daşnak qırğınlarının və azərbaycanlı əhaliyə qarşı həyata keçirilən kütləvi vəhşiliklərin qarşısının alınmasında müəyyən müqavimət göstərməyə nail oldular. Bu müqavimət olmasaydı, azərbaycanlı əhali arasında qırğınların sayı sözsüz ki, daha çox olacaqdı.

Milli qüvvələrin müqavimətinin tamamilə aradan qaldırılması və milli qırğınlara kütləvi hal verilməsi üçün martın 31-də döyüşlərə əlavə bolşevik və daşnak qüvvələri cəlb edildi. Milli qüvvələrə qarşı aparılan döyüşlərin tənzimlənməsi və əlaqələndirilməsi üçün isə mart ayının 30-da bolşeviklər tərəfindən «Bakı şəhəri və rayonlarının inqilabi müdafiə komitəsi» yaradıldı. Bakının müdafiəsi adı altında yaradılmış bu komitəyə bir nəfər də olsa azərbay-

canlı daxil deyildi. Şəhərin ali hərbi-siyasi orqanı olan bu quruma rəhbərliyi yenə S. Şaumyan öz əlində cəmləşdirmişdi. Doğrudur, bəzi tarixi ədəbiyyatda N.Nərimanovun da bu komitəyə daxil olduğu bildirilir (46). Amma İnqilabi Müdafiə Komitəsinin 31 mart 1918-ci il tarixli bəyannaməsində bildirilir ki, N.Nərimanov bu komitəyə dəvət olunur. (47). Başqa sözlə, N.Nərimanov bu Komitənin üzvü deyildi. Komitənin üzvlərinin və komitəyə dəvət olunanların əksəriyyətini isə ermənilər təşkil edirdilər.

Ümumiyyətlə, mart ayının 31-də İnqilabi Müdafiə Komitəsi iki dəfə bəyanatla çıxış etdi. Birinci bəyanatda daha çox bu yeni orqanın məqsəd və vəzifələri, onun tərkibi barədə məlumat verilir və bildirilirdi ki, İnqilabi Müdafiə Komitəsi Bakı və onun rayonlarındakı bütün sovet təşkilatlarını özündə birləşdirən ali hərbi-siyasi orqandır. Yəni bütün təşkilatlar İnqilabi Müdafiə Komitəsinə tabe olmalı idilər. İkinci bəyanatda isə bolşevik qüvvələrinin həyəcanı duyulmaqda idi. Bu bəyanatda bolşeviklər Bakıda sovet hakimiyyətinin təhlükədə olduğunu bildirərək əlində silah olanların hamısını «xalq düşmənləri»nə qarşı mübarizəyə (48) çağırdılar.

Bəyanat S.Şaumyan, A.Caparidze, Q.Korqanov və İ.Suxarsev tərəfindən imzalanmışdı və onun mətnində Müsəlman korpusunun bölmələri ilə bağlı məlumat bolşevik-daşnak təfəkkürünə uyğun olaraq təhrif edilmişdi. Əvvəla, Müsəlman korpusu bütün hissə və bölmələri «Vəhşi diviziya» kimi təqdim olunurdu. Halbuki, «Vəhşi diviziya» adlı bir struktur Birinci Dünya müharibəsi dövründə mövcud olmuş və sonra da ləğv edilmişdi. Sonra da Müsəlman korpusunun 1-ci diviziyası, Lənkəran müsəlman süvari divizionu, Şamaxıdakı milli bölmələr əks-inqilabi qüvvələr kimi xarakterizə olunur və onların qurumlanması bəylər partiyası olan «Müsavat»ın əks-inqilabi planlarının həyata keçirilməsi kimi qiymətləndirilirdi. Bəyanatda fəhlə, əsgər və matros deputatlarının Bakı Sovetinin İcraiyyə Komitəsi və Qafqaz ordusunun Hərbi İnqilab Komitəsi adından Bakıdakı sovet hakimiyyətinin qorunmasına çağırış var idi. Sovet hakimiyyətinin təhlükədə olmasını deyəndə bolşevik-daşnak liderləri az-çox mövcud olan milli silahlı qüvvə-

lərin erməni-bolşevik qırğınlarının qarşısının alınması üçün göstərdikləri müqaviməti nəzərdə tuturdular. Bəyanatda sonra da işlədilən əks-inqilabi elementlər, cinayətkar elementlər, müsəlman kütlələrinin düşmənləri, şovinist elementlər ifadələrinin altında isə Bakıda qırğınlar törədən erməni-daşnak dəstələri deyil, əksinə öz evini, öz şəhərini və xalqını bu qırğınlardan qorumağa çalışan milli qüvvələr və Müsəlman korpusunun bölmələri nəzərdə tutulurdu (49).

Bolşeviklər piyada qüvvələrlə tezliklə qarşıya qoyulan məqsədə çatmağın mümkün olmadığını gördükdə Xəzər donanmasının güclü hərbi texnikasını işə saldılar. Ayın 31-də donanmaya məxsus olan hidrotəyyarə havaya qaldırıldı.

Bu təyyarə əvvəlcə, buxta üzərində 2 dövrə vurub sonra milli qüvvələrin mövqelərinə tərəf uçdu. Hadisələrin şahidinin ifadəsinə görə, bu təyyarə heç bir atəş açmadan geri qayıtdı (50).

Mövcud olan məlumatlara görə, «Qars» gəmisindən azərbaycanlı əhalinin yaşadığı məhəllələrin topa tutulmasına A.Kuzminki rəhbərlik edirdi. Açılan ilk atəşlər dağlıq məhəllələrə doğru istiqamətləndirildi. «Qars» gəmisinin ardınca «Ərdəhan» gəmisindən də şəhərin azərbaycanlı məhəlləsinə atəş açıldı. Bu gəmidə isə topların fəaliyyətinə P.Larionov adlı birisi rəhbərlik edirdi. «Krasnovodsk» gəmisi də şəhərin atəşə tutulmasına cəlb edildi. Bu gəmi sahilə yan alaraq qala daxilindəki məhəllələri pulemyot atəşlərinə tutdu (51).

Gəmilərin döyüşə qoşulmasının səbəbini İnqilabi Müdafiə Komitəsi belə əsaslandırırdı: «İnqilabi Müdafiə Komitəsi qarşısında belə sual dayanırdı – biz ya əlimizdə bomba hər bir ev uğrunda mübarizə aparmalı idik, ya da hərəkatı başqa vasitələrlə dayandırmalı idik. Səhər saat 10-da qərara alındı ki, qorxutmaq üçün toplardan bir neçə atəş açılsın (52). İnqilabi Müdafiə Komitəsinin gəmi texnikasından şəhərə atəş açılması barədə əmri gəmilərə matroslar Novak, Uvarov və Kuzminki çatdırdılar. Bu barədə göstərişi onlar İnqilabi Müdafiə Komitəsində A.Caparidzedən almışdılar (53). Atılan mərmilərin biri «İsmailiyyə» binasına, biri də İçərişəhərdəki çoxmərtəbəli yaşayış evlərindən birinə dəydi. Həmin evdə milli qüvvələrin atəş mövqeyi var idi (54). Ağır topların

işə düşməsi gözlənilmədən başlayan döyüşlərin aparılması üçün lazımi hazırlıq görməyib əlaqəsiz şəkildə vuruşan milli qüvvələrin (55) müqavimətini tam qırdı.

Aprel ayının 1-də Suraxanı, Əmircan və Bülbülədəki qüvvələr səfərbər olunaraq bir daha daşnak-bolşevik təcavüzlərinə qarşı müqavimət göstərməyə cəhd etdi. Lakin onların gücü şəhərdən göndərilmiş olan qırmızızirehli qatarın qarşısını saxlamağa çatmadı və milli qüvvələr geri çəkilmək məcburiyyətində qaldılar (56).

Saysız qırğınların qarşısının alınması üçün N.Nərimanovun təşəbbüsü ilə bolşeviklərlə milli qüvvələr arasında danışıqlar başlandı (57). Qarşıya qoyduqlarına nail olduqlarına əmin olan bolşeviklər milli qüvvələrə qarşı ultimatum irəli sürüb dərhal onun yerinə yetirilməsini tələb etdilər. İnqilabi Müdafiə Komitəsinin bu ultimatumunda aşağıdakı şərtlər var idi:

1. Bakı fəhlə, əsgər və matros deputatları sovetinin hakimiyyəti aşkar və danışıqsız olaraq qəbul edilsin və onun bütün sərəncamları yerinə yetirilsin.

2. Əks-inqilabi «Vəhşi diviziya» Bakı və onun rayonlarında saxlanıla bilməz. Digər müsəlman milli hissələri, habelə erməni milli qoşun hissələri ya Bakıdan çıxarılsın, ya da tamamilə fəhlə, əsgər və matros deputatları sovetinə tabe edilsin. Əhalinin bütün silahları fəhlə, əsgər və matros deputatları sovetinin tam nəzarəti və qeydiyyatı altında olmalıdır.

3. Bakıdan Tiflisə və Bakıdan Petrovska olan dəmir yolunun açılması təcili şəkildə təmin edilsin (58).

İnqilabi Müdafiə Komitəsi tələb edirdi ki, aprel ayının 1-də gündüz saat 3-ə kimi «Müsavat» partiyası və ya milli qüvvələri təmsil edən hər hansı bir qurum irəli sürülən tələblərin qəbul olunması barəsində cavab versinlər. Əks təqdirdə, İnqilabi Müdafiə Komitəsi milli qüvvələrə zərbə endirilməsinin davam etdiriləcəyini bildirdi.

Milli qüvvələrin bu ultimatumu qəbul etməkdən başqa bir çarəsi yox idi. Ancaq qərar heç də şəhərdəki qırğınları dayandırmadı. Erməni-daşnak qüvvələri ən amansız şəkildə şəhərin müsəlman əhalisini qırıb-çatmaqda davam edirdi. Erməni daşnakları

kimsəyə rəhm etmir, qaçan qoca və qadınları və uşaqları da güllələyirdilər (59). Onlar silahlı dəstələrlə məhəllə-məhəllə gəzib həm evləri, həm də idarələrin əşyalarını talan edir, qarşılarına çıxanları süngüdən keçirirdilər. Erməni cəlladları, hətta bolşevik olan azərbaycanlılara da rəhm etmirdilər. Bildirirdilər ki, kimliyindən asılı olmayaraq, hansı əqidəyə və hansı partiyaya məxsus olmasına baxmayaraq, müsəlman olan məhv edilməlidir (60). Onlar İrandan gəlmiş fars tacirlərini də müsəlman olduğu üçün öldürürdülər (61). Bir neçə gün ərzində şəhərin azərbaycanlı hissəsini viranəyə çevirib əhaliyə sonsuz divan tutan erməni-daşnak dəstələrinə Stepan Lalayev, Xristofor Dildarov, Dövlətov, Ambarum Melikov və s. kimi insani keyfiyyətlərini itirmiş cəlladlar rəhbərlik edirdilər (62). Əllərinə düşmüş fürsətdən ifrat bolşevik və daşnak ünsürləri elə məharətlə istifadə etdilər ki, nail olduqları nəticələrə özləri də sevinclərini gizlədə bilmirdilər. S.Şaumyan fəxrlə bildirirdi ki, əldə olunmuş qələbə o qədər böyükdür ki, baş verənləri də kölgədə qoyur (63). Rusiya Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda isə S.Şaumyan erməni-daşnak qüvvələrinin Bakıda sonsuz qırğın törətdiyinə öz münasibətini belə bildirirdi: «... Daşnakların da 3–4 min nəfərlik silahlı milli hissələri var idi ki, o da bizim sərəncamımızda idi. Məhz onların iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi. Lakin onun qarşısını almaq mümkün olmadı. Biz bu işə şüurlu surətdə getdik» (64).

Bu sətirlər mart qırğınlarının başa çatdırılması ilə əlaqədar S.Şaumyanın V.Leninə göndərdiyi məktubundan götürülmüşdür. S.Şaumyan törətdiyi milli qırğınların miqyasının kiçildilməsi üçün Müsəlman korpusunun və digər milli qüvvələrin Bakıda olan bölmə və dəstələrinin sayını da yenidən əsassız olaraq təhrif olunmuş şəkildə göstərirdi. O qeyd edirdi ki, hər iki tərəfdən döyüşlərdə iştirak edən qüvvələrin sayı 20 min nəfər idi. S.Şaumyan bunlardan 6 minini Qırmızı qvardiyaya, 4 minini isə daşnak qüvvələrinə aid edirdi. Onun sözlərindən belə bir qənaət hasil olunurdu ki, milli qüvvələrin və Müsəlman korpusunun şəhərdəki bölmələrinin şəxsi heyətinin sayı 10 min nəfər olmuşdur. Bu isə heç

bir halda mümkün deyildi. Çünki Bakıda olan bölmələrin şəxsi heyətinin sayı yaxşı halda bir neçə yüzdən artıq ola bilməzdi. Azərbaycanın milli hərbi qüvvələrinin şəxsi heyətinin 10 minə çatdırılması çox-çox sonralar mümkün olmuşdu. Şəhərdə və ətraf kəndlərdə mövcud olan silahlı qoşunların sayı da yaxşı halda bir neçə yüz nəfər ola bilərdi. Yəni, bütünlükdə Bakıda milli qüvvələrə aid olan silahlıların sayı, hətta bir mini belə haqlaya bilməzdi.

Qüvvələr nisbətində bərabərlik olsaydı, bolşevik-daşnak qüvvələri Bakıda kütləvi qırğınlar törədə bilməzdilər. Əksinə, qüvvələr nisbətinin müqayisəolunmaz dərəcədə bolşevik-daşnakların xeyrinə olmasının nəticəsi idi ki, onlar Bakı şəhərini viranəyə çevirə bildilər.

İfrat bolşevik və daşnak qüvvələrinin Bakıda azərbaycanlı əhaliyə qarşı törətdikləri kütləvi qırğın elə bir miqyas aldı ki, bolşeviklərlə əlbir olub Azərbaycanın milli qüvvələrinə qarşı döyüşə atılmış 36-cı Türküstan alayının, Xəzər donanmasının, o cümlədən «Ərdəhan» və «Krasnovodsk» gəmisinin əsgər və zabitləri baş verənlərdən dəhşətə gəldilər və günahsız qırğınların dayandırılmasını tələb etdilər. Bakı Soveti İcraiyyə Komitəsinin sədri A.Caparidze də bu tələbə tərəfdar çıxdı. Hərbi gəmilərin şəxsi heyəti bildirdi ki, şəhərdə azərbaycanlıların qırılmasına son qoyulmasa, erməni məhəllələri toplardan atəşə tutulacaqdır (65). İnqilabi bolşevik şüarları ilə Bakı hadisələrini nə qədər pərdələməyə çalışsalar da, həm S.Şaumyan (66), həm də digər bolşeviklər (67) şəhərdə müsəlman əhalisinin kütləvi surətdə qırılmasını etiraf etməyə məcbur oldular. Sovet hakimiyyəti uğrunda mübarizə kimi qiymətləndirilən bu qırğınlar türk-Azərbaycan hərbi qüvvələri Bakıya gəldiyi günə qədər davam etdi (68).

Şəhərdəki qırğınların törədilməsində erməni-daşnak qüvvələrinin iştirakı o qədər aydın idi ki, vəziyyətin normallaşdırılması da məhz həmin qüvvələrin zərərsizləşdirilməsində görülürdü. Bununla bağlı Müsəlman Sosialist Partiyasının bürosu da İnqilabi Müdafiə Komitəsinə öz təkliflərini göndərdi. Həmin təkliflərdə Erməni Milli Komitəsinin buraxılması, Erməni Milli Komitəsinə tabe olan erməni milli

ordusunun Bakıdan çıxarılması, Bakının müsəlman məhəllələrinin təhlükəsizliyinin Qırmızı qvardiyaya yazılmış müsəlmanlar tərəfindən qorunması, şəhərin müsəlman məhəllələrinin ərzaqla təmin edilməsinə diqqətin gücləndirilməsi irəli sürülürdü (69).

Hadisələrdən bir neçə gün sonra N.Nərimanov mətbuatda çıxış edərək baş verənlərin sovet hakimiyyətini ləkələdiyini, onun üzərinə qara kölgə saldığını bildirir və S.Şaumyandan təcili tədbirlər görülməsini tələb edirdi (70).

Bütün bunların nəticəsində bir neçə gün ərzində Bakıda minlərlə azərbaycanlı öldürüldü. Onların dəqiq sayı barədə göstərilən rəqəmlər bir-birindən xeyli fərqlənir. Müxtəlif mənbə və ədəbiyyatda onların sayı 10 min (71), 10 mindən çox (72), 10 minlərlə (73), 14 min (74), 15 min (75) göstərilir. Bir araşdırmada isə mart hadisələrini təhqiq edən istintaq komissiyasının materiallarına əsasən 11 min adamın öldürülməsi göstərilir (76). Müəllifin yazdığına görə, təkcə «Vulkan» cəmiyyətinin köhnə yanalma körpüsündə 6748 müsəlman meyidi qalaqlanmışdı. Bundan əlavə, şəhər əhalisinin 400 milyon manatlıq daş-qaş əmlakı oğurlanmışdı, xeyli sayda ictimai və şəxsi binalar dağıdılıb yandırılmışdı (77).

Həyata keçirilən bu qırğınlardan sonra S.Şaumyan və onun ətrafına toplaşmış olan ermənilər Bakıda bolşevik-daşnak diktaturası qurmaqla şəriksiz hakimiyyətə sahib oldular. Bununla da bolşeviklər və daşnaklar tərəfindən qarşıya qoyulmuş ilkin vəzifə yerinə yetirilmiş oldu. Amma onlar bununla da kifayətlənmirdilər və daha böyük iddialar irəli sürürdülər – Azərbaycanın milli qüvvələrini bütünlüklə məhv etmək və sonra da bolşevik-daşnak hakimiyyətini bütün Azərbaycan ərazisinə yaymaq. Bakı qırğınlarından dərhal sonra həmin iddiaların həyata keçirilməsi üçün əməli addımlar atıldı və bolşevik-daşnak qüvvələri Hacıqabul ətrafına, Lənkəran və Şamaxı istiqamətinə göndərildi.

Mart qırğınlarından dərhal sonra Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi şəhər bələdiyyəsinin buraxıldığını elan etdi (78).

### *2.Bolşevik-daşnak təcavüzünə qarşı müqavimətin təşkili sahəsində Müsəlman korpusunun fəaliyyəti*

Bakıda baş verən hadisələr həm Azərbaycan milli qüvvələri, həm də Cənubi Qafqaz hökumətinin gürcü nümayəndələri tərəfindən çox böyük həyəcan və narahatçılıqla qarşılandı. Bolşeviklərin kütləvi qırğın törətməklə hakimiyyəti ələ alması və yaranmış olan vəziyyətin sabitləşdirilməsi məsələsi 1918-ci il aprel ayının 2-də Cənubi Qafqaz seymində ciddi müzakirə edildi. Yollar naziri Məlikaslanovun Bakı şəhərində tüğyan edən hadisələr barədə verdiyi geniş məlumatdan sonra gürcü menşeviklərinin liderlərindən biri, daxili işlər naziri N.Ramişvili bildirdi ki, Bakıda hakimiyyətin ələ keçirilməsi gələcəkdə bütün Cənubi Qafqazda hakimiyyətin ələ keçirilməsi üçün bolşevik planlarının həyata keçirilməsinin başlanğıcıdır (79). Ona görə də N. Ramişvili bolşevizmin Cənubi Qafqazda genişlənməsinə yol verilməməsinə çağırırdı. İclasda çıxış edən Müsəlman sosialist blokunun lideri A.Səfikürdskinin fikrincə, Bakıda bolşeviklərin əl-qol aça bilmələrinin əsas səbəblərindən biri milli qoşun hissələrinin kifayət qədər silaha malik olmaması idi. O, bunu Şamxorda hərbi eşelonların tərk-silah edilməsində lazımi qətiyyətlilik göstərilməməsi və silah ehtiyatının artırılmaması ilə əlaqələndirirdi. A.Səfikürdski Cənubi Qafqaz hakimiyyətindən tələb edirdi ki, təcili surətdə özünümüdafiə və bolşevizmin ləğvi üçün ən qəti tədbirlər həyata keçirsin. Əks təqdirdə Səfikürdskiyə görə, Müsəlman sosialist bloku özü də müharibəyə qoşulacaq və bolşevik qüvvələrini məhv edəcəkdir (80).

M.Ə.Rəsulzadənin də Cənubi Qafqaz seymindəki çıxışı belə qətiyyəti ilə seçilirdi. Bolşeviklərin qanunsuz əməllərinə son qoyulması tələbləri onun da çıxışının əsas məzmununu təşkil edirdi. Məsələnin müzakirəsindən sonra seym Cənubi Qafqaz hökumətinə tapşırıq verdi ki, həm Bakının İnqilabi Müdafiə Komitəsi ilə danışıqlar aparılsın, həm də bolşevik-daşnak hərbi qüvvələrinə qarşı konkret addımlar atılsın. S.Şaumyanın rəhbərliyi altında olan İnqilabi Müdafiə Komitəsi ilə danışıqlar aparılması və Azərbaycan

ərazisində dinc əhaliyə divan tutulmasının qarşısının alınması yollarının araşdırılması Cənubi Qafqaz Komissarlığı daxili işlər naziri İ.Ramişviliyə tapşırıldı. İ.Ramişvili danışıqların aparılması üçün İnqilabi Müdafiə Komitəsinə məktub göndərdi və onun rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfərinə zəmanət verilməsini xahiş etdi. Bir müddətdən sonra İnqilabi Müdafiə Komitəsi bu müraciətə cavab verdi. Cavabda bildirilirdi ki, Bakıda və onun ətrafında qırğınlar baş verməyib, yalnız əks-inqilabi bəy və xanlara qarşı vətəndaş müharibəsi aparılıb. İnqilabi Müdafiə Komitəsi əks-inqilabi qüvvələr adlandırdığı milli qüvvələrlə heç bir danışığa gedilməyəcəyini və buna görə də Cənubi Qafqaz Komissarlığından hər hansı sülh heyətinin Bakıya gəlməsinə ehtiyac olmadığını bildirdi. İnqilabi Müdafiə Komitəsi əksinə, Cənubi Qafqaz Komissarlığını milli qüvvələri silahlandırmaqda ittihamlandırdı və Cənubi Qafqaz Komissarlığının da məhz İnqilabi Müdafiə Komitəsini müdafiə etməli olduğunu iddia edirdi. Buna görə bildirildi ki, Cənubi Qafqaz Komissarlığının nümayəndə heyəti Bakıya buraxılmayacaqdır.

Hökumət tərəfindən Hərbi Nazirliyə tapşırıldı ki, Bakının və onun ətrafının bolşeviklərdən təmizlənməsi üçün hərbi hissələr və xüsusi vəsaitlər ayrılsın (81).

Bu qırğınlardan sonra Zaqafqaziya hökuməti Bakı bolşevikləri ilə mübarizə üçün 100 min rubl pul, piyada və süvari hissələri, iki təyyarə, zirehli qatar, çoxlu silah və sursat ayırmaq barədə göstəriş verdi. Bəzi məlumatlara görə, Azərbaycanın milli qüvvələri Şimali Qafqazın milli qüvvələrinin lideri ilə də danışıqlar aparaq öz hərəkətlərini nizamlamağa çalışmışdılar (82).

Dağıstanın milli qüvvələrinin lideri Qotsinski ilə aparılan danışıqlardan sonra razılaşdırılmış fəaliyyət planına görə üç istiqamətdən Bakı üzərinə hücum edilməsi nəzərdə tutulmuşdu. Şimaldan imam Qotsinskinin dəstəsi, qərbdən Zaqafqaziya hökumətinin qüvvələri, Hacıqabul və Şamaxı istiqamətlərindən Müsəlman Korpusunun bölmələri irəliləməli idi. Məsələn, mövcud olan məlumata görə, Hacıqabul ətrafındakı döyüşlərdə həm 7-ci müsəlman alayının, həm də 8-ci müsəlman alayının bölmələri iştirak et-

mişdilər. Burada Müsəlman korpusunun başqa bölmələri də iştirak edirdilər. Yeni açılmış olan Milli hərbiyyə məktəbinin bağlanaraq onun zabit heyətinin Hacıqabul cəbhəsinə göndərilməsi də (83) Müsəlman korpusunun mövcud olan bütün imkanlarının səfərbər edilməsindən xəbər verir. Hacıqabula göndərilən dəstənin gürcü silahlı bölmələri də var idi. Sayı təxminən 2 min nəfərə çatan bu dəstənin keçirdiyi uğurlu döyüşdən sonra aprel ayının elə ilk günlərində Hacıqabul stansiyası tutuldu. Müsəlman korpusunun komandiri general-leytenant Ə.Şıxlinski gürcü korpusu bölmələrinin bu döyüş zamanı göstərdiyi böyük şücaəti dərin razılıq hissi ilə qarşılayırdı. O yazırdı ki, Qafqaz müsəlmanları, o cümlədən mənə həvalə olunan korpus bizim əzəli dostlarımız və bugünkü döyüş dostlarımız olan qəhrəman gürcülərin qardaşlıq köməyini heç vaxt unutmayacaqdır (84).

İsmayıl xan Ziyadxanovun rəhbərliyi altında olan 3 min nəfərlik başqa bir dəstə isə Şamaxı üzərinə hücuma keçdi, əsasını Müsəlman korpusunun süvariləri təşkil edən bu dəstə də uğurlu döyüş keçirib Şamaxı şəhərini tutdu(85). Həm Hacıqabulu, həm də Şamaxını tutan dəstələr burada möhkəmləndikdən sonra Bakı üzərinə hücuma keçməli idilər. Həmin hücumun nəticəsi imam Qotsinskinin şimaldan hərəkət edən dəstəsinin fəaliyyətindən çox asılı idi.

İmam Qotsinskidən hərbi kömək almaq üçün Azərbaycanın milli qüvvələrinin nümayəndələri Dağıstana gəlmişdilər. Temirxan Şurada azərbaycanlı nümayəndələrlə Dağıstan milli qüvvələrinin görüşü keçirildi. Dağıstandan Azərbaycana kömək göndərilməsi məsələsi müzakirə olundu (86). Sonra bu məsələ Milli Komitənin vilayət icraiyyə komitəsinin geniş iclasında müzakirə olundu və Bakıya Azərbaycanın milli qüvvələrinin köməyinə hərbi qüvvə göndərilməsi qərara alındı (287). Həmin qərara görə, Bakı üzərinə artilleriya və pulemyotlarla təchiz edilmiş iki alay və könüllü bölmələr göndərilməli idi. Bu barədə yerli qəzetlərdə də məlumatlar çap olunmuşdu. «Cəridati Dağıstan» qəzeti həmin günlərdə öz nömrələrində bolşeviklərin Bakıda törətdikləri əməllər, Azərbaycan müsəlmanlarını kütləvi surətdə qırmaları barədə

yazılar verərək dağıstanlıları məzhəb qardaşlarının köməyinə çağırırdı. Bakıda baş verənlərdən, bolşevik-daşnak elementlərinin günahsız azərbaycanlılara tutduqları divandan xəbərdar olandan sonra çoxları qardaş köməyinə hazır olduqlarını bildirdilər. Nəticədə, imam Qotsinskinin dəstəsinə 1500 nəfərlik nizami hissələrdən başqa, 1000 nəfərlik könüllü toplandı (88).

İmam Qotsinskinin Bakı üzərinə göndərilən dəstəsinə polkovniklər D.Musaliyev və M.Cəfərov komandirlik edirdilər. Dəstənin qərargah rəisi isə rus generalı Lazarev idi. Bu dəstənin Bakıya doğru hərəkəti zamanı Qubada, Xaçmazda və Dəvəçidə mövcud olan milli qoşun hissələri və silahlılar ona qoşuldular (89). Aprelin 7-də bu dəstə artıq Xırdalanda döyüşqabağı mövqe tutmuşdu. Bakı ətrafında olarkən Müsəlman korpusunun şəhərdən çıxmağa məcbur olmuş bəzi bölmələri də imam Qotsinskinin dəstəsinə qoşuldu(90).

Üç istiqamətdə planlaşdırılan hücumların qarşısını almaq üçün Bakı bolşevikləri də ciddi hazırlıq görürdülər. Bakıda şəriksiz hakimiyyətin əldə edilməsindən ilhamlanan bolşevik fəalları mövcud olan bütün potensialı səfərbərliyə aldılar. Mart ayının sonları və aprel ayının əvvəlində Bakıda cəmləşmiş olan rus hərbçiləri Dağıstanın və Şimali Qafqazın bolşevik qüvvələrin nəzarəti altında olduğunu görüb bütün silahlarını könüllü surətdə Bakı bolşeviklərinə təhvil verirdilər. Kifayət qədər silah və sursat əldə edən bolşeviklər bununla yeni dəstələr silahlandırmaq imkanı qazandılar (91). Aprel ayının 2-də S.Şaumyan Rusiyanın bolşevik dairələrinə məktub göndərdi və Bakıya təcili olaraq hidroaeroplan, döyüş aeroplanı və onlara zəruri olan təchizat əşyalarının göndərilməsini xahiş etdi. İmam Qotsinskinin dəstəsi ilə döyüş başlanana kimi bu texnika Bakıya çatdırıldı və onlar bu döyüşdə iştirak etdilər(92). Aprel ayının birinci yarısında Həştərxandan Bakıya çoxlu silah gətirildi(93). Aprel ayının 6-da Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsi Bakının varlı adamları üzərinə 50 milyon rubl təzminat qoydu ki, onlardan zorla alınacaq bu pulun əsas hissəsi Qırmızı Ordunun təşkilinə istiqamətləndirilməli idi. Aprel ayının 8-də isə İnqilabi Müdafiə Komitəsi Bakı əhalisi arasında səfərbərlik elan etdi. Bununla əlaqədar imzalanmış əmrdə

deyilirdi ki, Petrovskdan sonra Bakını işğal etməyə çalışan vəhşi ordudan xalq hakimiyyətini qorumaq üçün bütün hərbçilərin və silaha malik olanların səfərbərliyi keçirilir. Həmin şəxslər aprelin 9-dan 12-nə kimi təyin olunmuş yerlərə gəlib komandalara yazılmalı idilər. Qırmızı qvardiyanın da şəhərdə olan bütün bölmələri səfərbərliyə cəlb olunmalı idilər (94).

İmam Qotsinskinin dəstəsinin Xırdalan ətrafında döyüşqabağı mövqe tutması Bakı bolşeviklərinin ciddi təşvişinə səbəb oldu. A.Caparidze bir neçə azərbaycanlı ilə Qotsinskinin qərargahına gəlib Bakı müsəlmanları adından onunla danışıq apararaq Bakının bolşevik hökumətinin tanınmasına cəhd göstərdi. Dağıstanlı qüvvələrin qərargahında A.Caparidzenin rəhbərliyi altında olan adamlar Azərbaycan xalqının mənafeyini təmsil edəcək nümayəndə heyəti kimi qəbul edilmədi.

Aprel ayının 7-də Bakının müdafiəsi üçün İnqilabi Müdafiə Komitəsi tərəfindən Xırdalan istiqamətinə göndərilmiş olan zirehli avtomobil dağıstanlı qüvvələr tərəfindən top atəşinə tutuldu. Atışmanın başlandığı xəbərini eşidən kimi, İnqilabi Müdafiə Komitəsi şəhər əhalisinə müraciət etdi. Bu müraciətdə Bakı bolşevikləri yenidən sovet hakimiyyətinin təhlükədə olduğunu, Bakı ətrafında Cənubi Qafqazın taleyinin həll edildiyini vurğulayır və onların məğlub olacaqları təqdirdə şəhərdə orta əsrlər xanlığının, habelə türk ağalığının bərqərar ediləcəyi ilə camaatı qorxudurdular. Fəhlə-kəndli inqilabının təntənəsinə nail olunması üçün İnqilabi Müdafiə Komitəsi bütün qüvvələri döyüşə hazır olmağa çağırırdı (95).

İnqilabi Müdafiə Komitəsi sərəncamında olan bütün qüvvələri dərhal Bakının ətrafında yerləşdirdi. Əmirovun (ermənidir – M.S.) rəhbərliyi altında olan dəstə Qurd qapısında müdafiə mövqeləri tutdu. Başqa bir dəstə Qəhrəmanovun (ermənidir – M.S.) rəhbərliyi altında Xırdalan yaxınlığına göndərildi. Bu dəstə Palçıq vulkanı ilə Xırdalan stansiyası arasında müdafiə mövqeləri tutmalı idi (96). Xırdalan ətrafında matros Yelsovun komandanlığı altında Xəzər donanmasının da bir bölməsi vuruşurdu (97). Bolşevik qüvvələrinin 1-ci zirehli qatarı da bu döyüşə cəlb edilmişdi.

Bolşeviklər süvarilərdən ibarət çevik kəşfiyyat qrupu da düzəl-

dərək onu Xırdalanla Sumqayıt stansiyası arasına yerləşdirmişdilər. Ancaq irəliyə çıxardılmış olan bu bölmə xüsusi bir fəaliyyət göstərə bilməyərək elə ilk döyüşdə geri çəkilmək məcburiyyətində qaldı (98).

Xırdalan ətrafında döyüşlər aprel ayının 8–10-nu arasında oldu. Bu döyüşlər çox gərgin şəkildə başlasa da, sonradan imam Qotsinskinin dəstəsinin fəaliyyətində bir süstlük hiss olunmağa başladı. Bəzi müəlliflər dağıstanlı qüvvələrin məğlub edildiyini yazırlar (99). Əslində, onlar könüllü şəkildə döyüşdən çıxmış və Dağıstana üz tutmuşdular (100). Dağıstanlı qüvvələrin nə üçün belə etməsi barədə qəti fikir söyləmək çətindir. Ola bilsin ki, Bakı şəhəri üzərinə hücuma keçən bütün qüvvələrin birgə fəaliyyətinin nizamlanmasının qeyri-mümkün olduğu, ayrılıqda aparılan döyüşlərin isə gözlənilən nəticəni verməyəcəyi aydın olduğu üçün dağıstanlılar geri qayıtmağı lazım bilmişdilər.

Hər halda Xırdalan istiqamətindən gözlənilən təhlükənin sovuşması Bakı bolşeviklərinə əsas diqqəti Hacıqabul üzərinə cəmləşdirmək imkanı verdi. İnqilabi Müdafiə Komitəsi Hacıqabul istiqamətində müsəlman və gürcü korpuslarının birləşmiş qüvvələrinin qarşısını saxlamağa çalışaraq digər məntəqələrə də hərbi qüvvələr göndərdi. Aprel ayının 12-də pulemyot və artilleriya ilə silahlanmış yeni bir dəstə Şamaxıdan geri çəkilməkdə olan bolşevik qüvvələrinin köməyinə göndərildi. Aprel ayının 14-də Aleksandr Jander gəmisinə yüklənmiş bolşevik dəstəsi Lənkərana gəlib çıxdı. Dəstədə atıcı silahlardan əlavə 2 top, 3 pulemyot var idi. Dəstənin tərkibində əlavə olaraq 40 nəfərlik xüsusi pulemyotçular bölməsi var idi ki, ona da erməni Arustamov rəhbərlik edirdi. Bolşevik silahlı bölmələri aprel ayının 14-də Lənkəran şəhəri üzərinə hücuma başladılar və aprel ayının 19-da şəhərə nəzarəti yenidən əllərinə aldılar (101).

Daha qızğın döyüşlər isə Hacıqabul ətrafında baş verdi. Maqalovun komandanlığı altında olan müsəlman və gürcü korpuslarının hissələri Hacıqabulu tutduqdan sonra bir neçə gün onun ətrafında mövqe döyüşləri getdi. Birləşmiş milli qüvvələrin bölmələri sağ cinahdan hücuma keçərək düşmənin müdafiə xəttini yarmağa cəhd göstərdilər. Lakin onlar Duvannı ətrafında dayanan bolşevik

silahlılarının müqavimətini qıra bilməyib geri çəkildilər. Eyni zamanda bolşevik süvari bölmələri Hacıqabulu adlayıb milli qüvvələrin arxasına doğru hərəkət etməyə cəhd göstərdilər. Onların da bu cəhdi baş tutmadı və güclü müqavimətlə rastlaşdıqlarından geri çəkilmək məcburiyyətində qaldılar. Milli qüvvələrin mövqelərini dəqiqləşdirmək üçün bolşevik komandanlığı hidroplanlardan da istifadə edirdi (102).

Hacıqabul cəbhəsində qüvvə üstünlüyü yaratmaq üçün İnqilabi Müdafiə Komitəsi bura əlavə bölmələr göndərməyi planlaşdırırdı. İnqilabi müdafiə üzrə qərargah rəisi olan Korqanovun məlumatında bildirilirdi ki, Hacıqabul ətrafında döyüşlərin davam etdiyi günlərdə Petrovsk şəhərinə Xəzər donanmasının güclü bir ekspedisiyası göndərilmişdi (103). Həmin ekspedisiyanın tərkibinə daxil olan «Kazbek», «Anna Qukasova», «Vostok», «Parizyen» və «Dağıstan» nəqliyyat gəmiləri 36-cı Türküstan alayını öz göyərtəsinə alıb «Ərdəhan» keşikçi gəmisinin mühafizəsi və müşayiəti ilə aprel ayının 19-da müəyyən olunmuş nöqtəyə gəlib çıxdılar və Petrovsk şəhərinə hücum üçün döyüşqabağı mövqelər tutdular (104). Aprel ayının 20-də iki tərəfdən təşkil edilmiş hücum nəticəsində Petrovsk şəhəri tutuldu (105) və beləliklə, şimala doğru uzanan yolları bolşeviklər öz nəzarəti altına ala bildilər. Petrovsk şəhərinin tutulması Rusiya ilə yenidən əlaqələr yarada bilmək imkanı verdi.

Xəzər donanmasının şəxsi heyətinin bir bölməsi də Hacıqabul istiqamətinə göndərilmişdi. Əlavə olaraq bura zirehli qatarın da gəlməsi bolşevik hissələrinin zərbə qüvvəsini xeyli artırdı. Burada cərəyan edən hadisələr Azərbaycanın milli hərəkatı fəallarının da ciddi nəzarəti altında idi. Qoşun hissələrinin ilkin uğurlarının qarşısının alınması, bir çox cəbhələrdə əks-nəticələrin ortaya çıxması, Hacıqabul ətrafında müsbət dəyişikliklərin yaranmaması onları xeyli narahat edirdi. Yaranmış vəziyyətdən çıxış yollarının tapılması məsələsi Zaqafqaziya hökumətinin 16 aprel 1918 -ci il tarixli iclasında müzakirə edildi. İclasın qəbul etdiyi qərarda milli qüvvələrin keçirdiyi narahatçılıqlar öz əksini tapmışdı. Bu qüvvələrin təkidi ilə hökumət Bakının tutulması işini yenidən Hərbi Nazirliyə və Daxili İşlər Nazirliyinə tapşırdı. Hökumətin qərarında

qoşun hissələrinin tələb etdiyi əşyaların göndərilməsi barəsində də maddə var idi(106).

İki gündən sonra Zaqafqaziya hökuməti yenidən Bakı məsələsinin müzakirəsinə qayıtdı. F.Xoyski bildirirdi ki, Bakıda azərbaycanlıların qırılması məsələsi Yelizavetpol quberniyasının bütün məntəqələrində yerli əhali tərəfindən narahatçılıqla müzakirə olunmuş və qəbul edilmiş qərarlarda türk qoşunlarından kömək istənilməsi vurğulanmışdır. F.Xoyskiyə görə, əgər Zaqafqaziya Bakıda yaranmış vəziyyətin sabitləşdirilməsi və azərbaycanlı əhalini gözləyən təhlükənin aradan qaldırılması üçün təsirli tədbirlər görməzsə, onda Yelizavetpol quberniyasının əhalisinin qərarına qulaq asmaq lazım gələcəkdir. F.Xoyski onu da əlavə edirdi ki, aldığı məlumatlara görə, bolşeviklər Hacıqabul istiqamətində güclü döyüş planlaşdırırlar və ona görə də bu istiqamətdə görüləcək işlər sürətləndirilməlidir (107).

Zaqafqaziya hökumətinin azərbaycanlı üzvlərinin çıxış və təkidindən sonra bu məsələ ilə bağlı yeni bir qərar qəbul edildi. Həmin qərarda hökumət Hərbi Nazirliyə tapşırırdı ki, Bakının azad edilməsi üçün planlaşdırılmış hissələrin hamısı dərhal cəbhəyə yola salınsın. Eyni zamanda Bakı istiqamətinə alman hissələrinin, artilleriyanın, təyyarənin göndərilməsi təklif olundu. Maliyyə Nazirliyinə tapşırıldı ki, Bakı dəstəsinin rəisi üçün ayrılmış olan puldan qalan 300 min rubl da onun sərəncamına göndərilsin (108).

Bununla belə göstərilən səylərə baxmayaraq, Maqalovun komandanlığı altında olan dəstə bolşevik qüvvələrinə qarşı mübarizədə ciddi bir üstünlük əldə edə bilmədi. Əksinə, onların qarşısını aldıqdan sonra bolşevik qüvvələri aprelin 20-də güclü hücum təşkil etdilər və 4 saatlıq döyüşdən sonra Hacıqabulu işğal etdilər. Müsəlman və gürcü korpuslarının birləşmiş dəstəsi Hacıqabuldan geri çəkildi(109).

Hacıqabul ətrafında birləşmiş hərbi dəstənin uğursuzluğa düçar olması Bakının yaxın günlərdə bolşevik qüvvələrindən təmizlənəcəyi ümidini puça çıxardı. Bu barədə xəbər alınan kimi Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvlərinin təcili iclası keçirildi. Həyəcan və narahatçılıq içində çıxış edənlərin hamısı Hacıqabul

ətrafındakı hərbi uğursuzluğun baş verməsində gürcü menşeviklərini günahlandırdılar. Onların fikrincə, gürcü menşevikləri bu məsələdə heç də qətiyyətli mövqe tutmamışdılar. Zaqafqaziya hökumətində aparıcı rola malik olan gürcü menşevikləri bir tərəfdən bolşeviklərlə mübarizə aparmaq üçün hökumət qoşun hissələri göndərir və onları hər şeylə təchiz edəcəyinə söz verirdisə, o biri tərəfdən də qoşun dəstəsi üçün təchizat göndərilməsini hər vasitə ilə ləngidirdi. Çıxış edənlər onu da əlavə edirdilər ki, polkovnik Maqalovun hər gün həyəcan dolu teleqramlar göndərməsinə, zirehli qatar, toplar, mərmilər, pulemyotlar və patronlar göndərilməsini xahiş etməsinə baxmayaraq, hökumət bunlara heç bir diqqət yetirmir və əməli bir iş də görmürdü (110).

Hacıqabulun tutulması barədə Ələt qoşun qrupunun komandirinin Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinə göndərdiyi məlumatda bildirirdi ki, polkovnik Maqalovun dəstəsinin sayı 2 min nəfərdir. Onun tərkibinə müsəlman süvari alayı, müsəlman piyada alayı, pulemyot komandası ilə birlikdə gürcü təlim taborunun bir bölüyü, 4 ədəd top və 6 ədəd pulemyot daxil idi. Dəstəyə müsəlman, gürcü və rus zabitləri komandanlıq edirdi. Onlar bolşevik qoşunlarının hücumunun qarşısını ala bilməyib Tiflis istiqamətində geri çəkildilər (111).

Qafqaz cəbhəsi komandanının müavini olmuş general Qavril Korqanovun yazdığına görə, Hacıqabul ətrafındakı döyüşdə bolşevik silahlılarından 7 nəfər öldürüldü və 22 nəfər də yaralandı. Amma bu döyüşün nəticələrinə görə, Bakı ətrafında yaranmış olan mühasirə dairəsini xeyli genişləndirmək mümkün oldu. Bu, bir tərəfdən Bakı bolşeviklərinin rəhbərlərinin böyük sevincinə səbəb oldu, bir tərəfdən də Bakı daxilində onların hakimiyyətinin daha da möhkəmlənməsinə yol açdı. Bundan sonra Xəzər dənizindəki hərbi qüvvələr də Bakı Sovetinin hakimiyyətini qəbul etdilər (112).

Hacıqabul ətrafında döyüşlər getdiyi günlərdə, yəni aprel ayının 17-də bolşevik-daşnak qüvvələri Şamaxıda olan milli qoşun hissələrini də geri çəkilməyə məcbur etdilər. Bura göndərilmiş olan bolşevik-daşnak bölmələrinin başında Bakıda tüğyan edən qırğınların rəhbərlərindən olan T.Əmirov və S.Lalayev du-

rurdular. S.Şaumyanın təklifi və təkidi ilə bu adamların sovet hakimiyyətini təmsil edən qüvvələrin rəhbəri təyin edilməsində məqsəd Şamaxıdakı milli qüvvələrə, bütünlükdə azərbaycanlı əhaliyə güclü zərbə vurmaq və orada bolşevik dayağını möhkəmlətmək idi. Azərbaycanlılara qənim kəsilən T.Əmirov və S.Lalayev kimiləri ətrafına topladıqları daşnak elementləri ilə S.Şaumyanın və ifrat bolşevik rəhbərliyinin etimadını lazımınca doğrultdular, Şamaxı əhalisinə qanlı divan tutdular. Bakı hadisələrini təkrar edən daşnak elementləri Şamaxının müsəlman əhalisini süngüdən keçirdilər (113). Namusunun tapdanmasına razı olmayan qadınlar qızlarının əlindən tutub yanan evlərin içinə girirdilər (114). Faciələrin miqyası, hətta onun şahidi olan bəzi ermənilərı də dəhşətə gətirirdi (115).

Hələ Şamaxıya çatmamış daşnak elementləri yolları üstündə olan 8 Azərbaycan kəndini viran qoymuşdular. Şamaxı ətrafında milli qoşun bölmələri şəhəri əhatə edən qoşunlara müqavimət göstərməyə çalışsa da, gərgin döyüşlərdən sonra bolşevik qüvvələri Şamaxıya daxil ola bildilər. S.Lalayevin daşnak dəstəsi dərhal evlərə soxulmuş və məhəllələrə od vurmuşdu (116).

Yerli erməni əhalisi də S.Lalayevin dəstəsinə qoşulub talan və qətllərdə iştirak edirdi. Onlar qarşılarına çıxan heç bir azərbaycanlını sağ buraxmırdılar. Meyidlər bütün küçələrə səpələnmişdi. Yaşayış evləri ilə bərabər, Şamaxının Cümə məscidi də yandırılmışdı (117).

Bakıda olduğu kimi, Şamaxıda da daşnaklar tərəfindən törədilən faciələr elə geniş miqyas aldı ki, bolşeviklər tərəfindən ora xüsusi komissiya göndərildi. Bu komissiyanın rəyindən sonra hadisələri təhqiq etmək üçün Kojemyakovun rəhbərliyi altında fövqəladə hərbi istintaq komissiyası yaradıldı. Fövqəladə komissiya müsəlman əhalisinə qarşı törədilən vəhşiliklərdə S.Lalayevi təqsirkar bilərək həbs etdi. Lakin S.Şaumyanın şəxsən işə qarışması nəticəsində əvvəlcə S.Lalayev həbsdən azad edildi, sonra isə Şamaxıdakı qırğınların törədilməsində erməni-daşnak elementlərini təqsirkar bilən fövqəladə istintaq komissiyası ləğv edildi (118).

Qırğın günlərində Şamaxı şəhəri yerlə-yeksan edilmiş, 80 Azərbaycan kəndi viran qoyulmuş, 15 min əhali ev-eşiyindən didərgin düşmüşdü (119).

Aprel ayının 21-də Salyanda da Sovet hakimiyyəti elan edildi. M.Əzizbəyovun rəhbərliyi altına verilmiş olan bolşevik bölmələri demək olar heç bir müqavimətə rast gəlmədən Salyana daxil oldular (120).

Aprel ayının 23-də isə Quba şəhərində Sovet hakimiyyəti elan edildi. Həmin gün bura gələn bolşevik silahlı bölmələri şəhərin mərkəzi meydanında sovet hakimiyyətinin tanınması barədə əhaliyə ultimatum verdilər. Uzun çəkən söhbətlərdən, müzakirələrdən və danışıqlardan sonra camaat sovet hakimiyyətini tanıdığını bildirməli oldu (121).

Bir neçə gündən sonra ətraf kəndlərin ləzgi silahlıları Qubanı mühasirəyə alıb bolşeviklərin uzaqlaşmasını tələb etdilər. Bolşevik rəhbərliyi razı olmadıqda tərəflər arasında atışma başladı. Bolşevik qüvvələrinə bir top və pulemyotla silahlanmış əlavə kömək gəlsə də, onların müqaviməti çox sürmədi və şəhəri tərk etməli oldular. Şəhərdən çıxarkən həbsxanadan azad etdikləri erməniləri də özləri ilə apardılar (122).

Xəbər Bakıya çatanda bolşevik hökuməti sovet hakimiyyətinin elan edilməsinin Bakı və Şamaxı təcrübəsini Qubaya da tətbiq etdi. Burada sovet hakimiyyətinin qurulması üçün daşnak elementlərindən ibarət böyük bir dəstə düzəldildi. Onun rəhbəri isə qatı millətçiliyi ilə tanınan daşnak Hamazasp təyin edildi. Bu dəstə may ayının 1-də güclü top atəşlərindən sonra Qubaya daxil oldu və bununla da şəhərdə qırğınlar başladı. Ermənilər qarşılarına çıxan azərbaycanlıları öldürür və evləri yandırırdılar (123).

Qubada sovet hakimiyyətinin təmsilçisi olan Gelovaninin ifadələrinə görə, Hamazaspın dəstəsi S.Şaumyanın arzusu ilə başqa komissarlarla razılaşdırılmadan Qubaya cəza dəstəsi kimi göndərilmişdi. Dəstənin tərkibinə daxil olan 2 minədək adamın hamısı ermənilərdən ibarət idi. Bu faktı Hamazasp özü də qubalılar qarşısındakı çıxışında etiraf etdi. O açıq-açığına bildirirdi ki, bura qisas üçün gəlmişdir və Şamaxıda olduğu kimi Xəzər dənizi boyu Dağıstan sərhədlərinədək bütün kəndləri yerlə-yeksan etmək tapşırığı almışdır (124).

Beləliklə, silah gücünə və sonsuz faciələr hesabına Bakı bolşe-

vikləri Bakıda və quberniyanın bir-sıra məntəqələrində sovet hakimiyyətini qurmağa müvəffəq oldular. Lakin onlar bununla heç də kifayətlənmək fikrində deyildilər. Milli qoşun hissələrinin xeyli zəif olmasından və Zaqafqaziya seymindəki fikir ixtilafından istifadə edərək qərbə doğru irəliləmək niyyətini bolşeviklər heç də gizlətmirdilər. Onların fikrincə, bir qədər qətiyyətlilik nümayiş etdirsəydilər, 1918-ci ilin yazınadək daha böyük əraziləri öz təsir dairəsi altına ala bilərdilər. Şaumyan sonralar V.Leninə göndərdiyi məktubda belə yazırdı: "Biz Bakıdakı vətəndaş müharibəsindən sonra az bir qüvvə ilə ora (Gəncəyə) yerimiş olsaydıq, daha yaxşı olardı. O zaman vəziyyət xeyli əlverişli idi" (125).

Bakı bolşevikləri liderlərinin fikrincə, hələ 1918-ci ilin yanvarında Azərbaycanın milli qüvvələrinin cəmləşmiş olduğu Gəncəyə hücum etmək üçün yaxşı imkan var idi. Çünki o zaman Azərbaycanın milli qüvvələri çox zəif və qeyri-mütəşəkkil idi. Onların Türkiyə ilə elə bir əlaqəsi yox idi. Cəbhədən qayıdıb Bakıda toplaşmış olan rus qüvvələri isə Gəncəni almağa kömək edə bilərdi (126).

Bakı bolşevikləri münasib saydıqları imkanları əldən buraxmağa təəssüflənsələr də, nəinki Gəncəni, hətta Tiflisi tutmaq və bütün Cənubi Qafqazda sovet hakimiyyəti elan etmək niyyətindən əl çəkməmişdilər. Xüsusən 1918-ci il aprel ayının 22-də Zaqafqaziyanın müstəqil Demokratik Federativ Respublika elan edilməsindən sonra bu istiqamətdə görüləcək işlərin sürətləndirilməsinə başlandı. Qarşıya qoyulan planın reallaşdırılması üçün Qırmızı ordunun gücləndirilməsinə xüsusi fikir verilirdi və bu məsələ 1918-ci il aprel ayının 25-də yaradılmış Bakı Xalq Komissarları Sovetinin qarşıya qoyduğu başlıca vəzifələrdən biri idi. Özünün 1 may 1918-ci il tarixli bəyanatında Bakı Xalq Komissarları Soveti elan edirdi ki, sovet hakimiyyətinin son təntənəsi və bu hakimiyyətin bütün Cənubi Qafqaza yayılması üçün qalibiyyətlə başlanmış vətəndaş müharibəsi davam etdirilməlidir. Bunun üçün isə hər şeydən əvvəl güclü Qırmızı orduya malik olmaq lazımdır (127).

Məlumdur ki, bolşevik ideologiyasının xidmətində dayanan silahlı dəstələrin yaradılmasına hələ xeyli əvvəldən başlanmışdı. Bir

sıra hissələr komplektləşdirilmiş və onlar lazımi sayda silah və texnika ilə təchiz edilmişdi. Aprel ayında isə Qafqaz Ordusu Hərbi İnqilab Komitəsi nizami Qafqaz Qırmızı ordusunun formalaşdırılmasına girişdi. Bu sahədə təşkilati işlərin gücləndirilməsi üçün Hərbi İnqilab Komitəsinin sədri Q.Korqanov hərbi dəniz işləri komissarı kimi Bakı Xalq Komissarları Sovetinə daxil edildi (128).

Qırmızı bolşevizmin gücləndirilməsi istiqamətində atılan addımlardan biri bolşevik qüvvələri ilə daşnak qüvvələrinin rəsmi şəkildə birləşdirilməsinin elan edilməsi oldu.

Əslində, bu planın rəsmiləşdirilməsi üçün ilk addım aprel ayının 20-də, Hacıqabul ətrafında bolşevizm bayrağı altında birləşmiş hərbi qüvvələrin əldə etdiyi uğurdan sonra atılmışdı. Həmin gün Bakı şəhərinin İnqilabi Müdafiə Komitəsi Erməni Milli Şurasına xəbərdarlıq edərək xüsusi erməni milli dəstələrinin ləğv edilməsi və həmin qüvvələrin bolşeviklərin himayəsi altında yaradılan beynəlmiləl alayın tərkibinə daxil edilməsini tələb etdi. Həmin xəbərdarlıqda bildirilirdi ki, şəhərdə milli qoşun hissələrinin mövcudluğu qadağan olunur və belə qüvvələr yalnız sovet hakimiyyətinin bayrağı altında fəaliyyət göstərə bilərdilər (129).

Erməni milli qoşun hissələrinə qarşı irəli sürülmüş bu tələbi şərh edərkən general Qavril Korqanov bildirirdi ki, bu tələb əslində, erməni-daşnak qüvvələrinin maraqlarına cavab verirdi. «Çünki yalnız Xəzər donanmasına malik olan və Həştərxanda öz bazası olan bolşeviklər yaradılan hissələrin təchizi və mübarizənin davam etdirilməsi üçün erməniləri silah, ərzaq və təchizatla təmin edə bilərdilər». Erməni generalı Korqanov sonra da yazırdı ki, Bakı Sovetinin rəhbərliyi altında qırmızı qüvvələrin təşkili görüntüsü yaradılsa da, əslində, bu qüvvələr erməni qüvvələri idilər. Çünki onların şəxsi heyətinin 95 faizini ermənilər təşkil edirdilər. (130).

Bu addımın daşnak millətçi planlarının reallaşdırılması üçün daha münasib vasitə olduğunu anlayan Erməni Milli Şurasının liderləri dərhal bolşeviklərin tələbləri ilə razılaşdığını bildirdilər. Aprel ayının 26-da İnqilabi Müdafiə Komitəsi ilə Erməni Milli Şurasının birgə iclası oldu. İclasın qərarında deyilirdi:

1. 2-ci erməni ehtiyat piyada alayı ləğv olunur. Onun bir hissəsi

Amazaspın taboruna daxil olur, başqa hissəsi isə yaradılmaqda olan Qırmızı sovet taborlarına birləşdirilir.

2. Amazaspın taboru yenidən qurulur, tam şəkildə Sovet hakimiyyətinə tabe etdirilir və Qırmızı Ordunun 16 və 17-ci taborları adı altında Qırmızı Orduya daxil olur (131).

Əsasını ruslar və ermənilər təşkil edən silahlı dəstələrin birləşdirilməsi nəticəsində 1918-ci il may ayının ortalarında Bakıda 18 min əsgər və zabitdən ibarət 19 atıcı tabor var idi. Bu hərbi hissələr 4 atıcı briqadada birləşdirilmişdi ki, onlar da birlikdə Qırmızı Ordunun 1-ci Qafqaz korpusunu təşkil edirdilər (132). Korpusun komandanlığı erməni-daşnak elementlərinin əlində idi. Onun komandiri Qazarov, qərargah rəisi isə Avetisov idi.

Bakıdakı Qırmızı Ordunun bir neçə topçu batareyası, üç zirehli qatarı, 3 pulemyot komandası, 10-dan artıq təyyarəsi var idi (133). Artilleriya batareyalarının sərəncamında 12 səhra, 3 dağ topu və 4 ədəd mortir var idi. Mərmilər sayca az olsa da, güllə ehtiyatı təxminən 9 milyona çatırdı. Silahlı qüvvələrin fəaliyyətinə rəhbərlik etmək üçün may ayının 24-də Ali Hərbi Şura yaradıldı. Bu orqan texniki ixtisaslar üzrə kadrların səfərbər edilməsinə, təlimatçı məktəbində və topçu kursunda zabitlərin hazırlanmasına diqqəti artırdı (134).

Erməni generalı Qavril Korqanov da (Bakı Sovetinin hərbi-dəniz işləri üzrə komissarı Qriqori Korqanovla qarışdırılmamalıdır–red.) Bakı Sovetinin rəhbərliyi altında 4 briqadanın təşkil edildiyini və sonradan bu briqadaların bir diviziyada birləşdirilməsi planının olduğunu yazırdı. Onun qeydlərinə görə, ilkin plana görə, hər briqadada 4 tabor olmalı idi. Amma sonradan hərbi qüvvələrin sayının artırılması zərurəti yarandı və onda taborların sayı 29-a çatdırıldı. General Korqanovun məlumatına görə, Bakı Soveti qoşunlarının sərəncamında 54 ədəd üçdüyməli toplar var idi. Həmin toplardan da 6 səhra, 2 haubitsa, 1 dağ batareyası, bütünlükdə 9 batareya təşkil edildi. Bundan başqa, Bakı Sovetinin sərəncamında 2 atlı eskadronu, istehkam taboru və zirehli avtomobillər dəstəsi var idi (135).

Bakı Sovetinin hərbi qüvvələrinin yenidən təşkilatlandırılması başa çatan kimi dərhal da milli qüvvələrlə mübarizəyə cəlb edildi-

lər. Bu işdə əsas məqsəd Bakını şimal və cənubla birləşdirən yolları azad etmək, şəhəri mühasirədən çıxarmaq və Rusiya ilə daha davamlı əlaqələr yaratmaq idi. 1918-ci il may ayının ilk günlərində Bakı Sovet qoşunlarının bir dəstəsi şimala göndərildi və həmin dəstə əvvəlcə ciddi bir müqavimətə rast gəlmədən Temir xan Şuraya qədər irəlilədi və bu barədə xəbər Bakı Soveti tərəfindən böyük sevinclə qarşılandı (136).

Lakin sonradan yerli milli qüvvələr fəallaşaraq Bakı Soveti qüvvələrinə qarşı müqaviməti gücləndirdilər. General Qavril Korqanovun yazdığına görə, bu fəallaşmanın nəticəsi kimi milli qüvvələr tərəfindən may ayının 8-də Qubanın erməni qarnizonu məhv edildi. Bundan sonra milli qüvvələr Xaçmaz ətrafında toplaşmağa başladılar. Milli qüvvələrin Xaçmaz ətrafında güclənməsi və Qubanı da nəzarət altına alması Temir xan Şuraya qədər irəliləmiş erməni-bolşevik dəstəsini təhlükə altında qoya bilərdi. Başlıcası isə Bakının şimalla əlaqəsini kəsə bilərdi. Ona görə Bakı Soveti qərara aldı ki, şimal istiqamətinə yeni bir dəstə göndərilsin. Qavril Korqanova görə, bu dəstə 1,5 tabordan, 2 eskadrondan və 2 ədəd topdan ibarət idi. May ayının 9-da bu dəstə Xaçmaz yaxınlığında milli qüvvələrlə qarşılaşaraq onların müqavimətini qırdı. Milli qüvvələr bütün gücünü toplayaraq Quba şəhərini qorumağa çalışsalar da, 8 saatlıq müqavimətdən sonra şəhəri tərk etmək məcburiyyətində qaldılar (137 ).

1918-ci il may ayının 20-də Azərbaycan ərazisində aşağıdakı hərbi şərait mövcud idi. Bakı–Tiflis dəmir yolu xətti boyunca hər iki tərəfin qüvvələri Hacıqabul ətrafında mövqe tutmuşdular. Qırmızı qüvvələr burada hələlik müdafiə mövqeyində dayanmışdılar və onların qarşısında dayanan başlıca vəzifə milli hərbi qüvvələrin Bakıya doğru irəliləməsinin qarşısını almaq idi. Qırmızı qüvvələr 15 tabordan və toplardan ibarət idi. Milli qüvvələr isə imkanlarının yetərli olmaması üzündən qırmızı qüvvələrin müqavimətini yara bilmirdilər. Bakı–Şamaxı yolu boyunca da milli qüvvələrin hərəkəti Şamaxı ətrafında dayandırılmışdı. Buradakı qırmızı qüvvələr həm möhkəmləndirilmişdi, həm də yerli qeyri-azərbaycanlı kənd-

lərin əhalisi bu qüvvələrə dəstəyi gücləndirmişdi. Lənkəran istiqamətinə 2 qırmızı tabor göndərilmişdi və bu taborlarla Lənkərana qədər olan Xəzərsahili ərazi bolşeviklərin nəzarəti altına alınmışdı. Şimal istiqamətində isə Bakı Sovetinin böyük bir hərbi dəstəsi Petrovska qədər irəliləmişdi. Bu dəstə 2 min nəfərdən ibarət idi və zirehli qatar tərəfindən müşayiət olunurdu. Xəzərin Petrovska yaxın sahillərində «Astrabad» hərbi gəmisi və hidrotəyyarələr dayanırdı. Bir tabor qüvvə isə Biləcəri–Petrovsk arasındakı dəmir yolu xəttinin mühafizəsi ilə məşğul idi. Dərbənddə də bir qırmızı dəstə və «Qars» hərbi gəmisi var idi. Bir hərbi gəmi də Lənkəran istiqamətinə göndərilmişdi (138). Yəni Bakı Soveti milli qüvvələrin zəifliyindən istifadə edərək qısa müddət ərzində bütün istiqamətlərdə böyük təhlükəsizlik zonası yarada bilmişdilər. Bu isə artıq imkan verirdi ki, Bakı Soveti bütün qüvvələri səfərbər edərək Gəncə və Tiflis istiqamətində hücuma keçsin və sovet hakimiyyətini bütün Cənubi Qafqazda bərqərar etsin.

1918-ci ilin aprel ayında Hacıqabul ətrafındakı döyüşdə geri çəkilmək məcburiyyətində qalan müsəlman və gürcü korpuslarının birləşmiş dəstəsinin bölmələri 1918-ci il may ayının 21-də yenə burada mövqe tutmuş bolşevik qüvvələri ilə döyüşə girdilər. Ancaq bolşeviklərin burada yerləşdirdikləri qüvvələr birləşmiş qoşun bölmələrinin bu hücumunun qarşısını da aldılar (139). Əsasən, süvarilərdən ibarət olan milli qoşun bölmələri Hacıqabulda Qırmızı ordunun piyada hissəsinin və artilleriyasının müqavimətini qıra bilməyərək əvvəlki mövqelərinə çəkildilər. Hərbi dəniz işləri üzrə komissar Q.Korqanov Xalq Komissarları Sovetində bu barədə etdiyi məruzəsində Bakı ətrafında, o cümlədən Hacıqabulda milli qoşun hissələrinin növbəti hücumunun qarşısının alınmasına sevindiyini bildirsə də, bütünlükdə passiv müdafiədə dayanmağın qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün düzgün olmadığını vurğulayırdı. Onun sözlərinə görə, Ermənistanda və Gürcüstanda xalq kütlələri intizarla Qırmızı ordunun yolunu gözləyirdilər və əgər irəliyə doğru qəti hərəkət başlanmasaydı, türk qoşunları Azərbaycan ərazisində möhkəmlənərək Bakıya doğru irəliləməyə başlayacaqdılar (140).

Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan da bu mövqedə dayanmaqla bərabər, belə bir planın həyata keçirilməsinin ilhamçısı və təşkilatçısı idi. V.Lenin tərəfindən Cənubi Qafqazın fövqəladə komissarı təyin edilmiş S.Şaumyan Cənubi Qafqazda hakimliyin tezliklə ələ keçirilməsi üçün sürətlə irəli hərəkət etməyin zəruriliyini bildirirdi. Qarşıya qoyulan planların mahiyyətini inqilabi-bolşevik şüarlarla pərdələməyə çalışan S.Şaumyan milli hisslərindən güc alan niyyətlərinin reallaşdırılmasında ilk növbədə erməni-daşnak qüvvələrinə arxalanırdı. Ətrafına topladığı daşnak qoşun dəstələrinə dayaqlanmaqla bərabər, S.Şaumyan Yelizavetpolda, bu quberniyanın digər qəzalarında və Gürcüstanda yaşayan ermənilərin onunla həmfikir olacağına da şübhə etmirdi. O, Rusiya Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda gizlətmirdi ki, Yelizavetpola doğru irəliləməklə burada və sonra isə digər məntəqələrdə ermənilərin üsyanını qaldırmaq və bununla da Cənubi Qafqaz hökumətinin devrilməsinə nail olmaq lazımdır (141).

Həmin məqsədinə nail olmaq üçün S.Şaumyan və Q.Korqanov konkret plan hazırlamışdılar. Bu plana görə, onlar polkovnik Lazar Biçeraxovun İranda olan dəstəsi ilə birlikdə iki istiqamətdən: Kürdəmir–Yevlax–Gəncə və Şamaxı–Göyçay–Kaxetiya–Tiflis istiqaməti ilə hücuma keçməli idilər ( 142).

Gəncəyə və oradan da Tiflisə doğru hücumunda S.Şaumyan eyni zamanda qaniçən cəllad Andranikin yardımlarına da bel bağlayırdı. Qeyri-insani əməllərinə görə Türkiyədən qovulduqdan sonra Naxçıvan, Zəngəzur və başqa qəzalarda silahsız azərbaycanlıların qırğınına rəvac verən bu cəllad Bakıdakı sovet hakimiyyətini tanımaqla Qafqazın yeni fövqəladə komissarının əmrini yerinə yetirməyə hazır olduğunu bildirirdi. Onun Zəngəzurdan Qarabağa, oradan da Yevlaxa doğru yürüşü isə S.Şaumyanın planlarının icrasına əlverişli zəmin yaratmalı idi.

S.Şaumyanın silahdaşı və məsləkdaşı A.Əmiryan da bütün diqqətin tezliklə Yelizavetpol üzərinə hücuma istiqamətləndirilməsinə çalışırdı. O yazırdı: «Qafqazın Versalına hücum etmək əvəzinə, əks-inqilabçıların bütün başçılarını tutub dustaq etmək əvəzinə, biz

onlara toplaşmağa, möhkəmlənməyə və əks-inqilabi xarici düşmənlərimizlə ittifaqa girərək inqilab əleyhinə hücuma keçməsinə imkan verdik... İndi biz doğru yol tutmuşuq. Müdafiə deyil, necə olursa-olsun hücuma keçmək, yenə və yenə təkrar edirəm ki, hücuma keçmək lazımdır. Bizim başqa çıxış yolumuz yoxdur» (143).

Bolşevik qüvvələrinin Yelizavetpola doğru irəliləməsi planı Rusiyanın liderləri tərəfindən də hərtərəfli şəkildə dəstəklənirdi. Milli qoşun bölmələrinin may ayının 21-də Hacıqabula hücum etməsindən xəbər tutan Stalin S.Şaumyana göndərdiyi teleqramında bu məntəqənin nəyin bahasına olursa-olsun qorunub saxlanmasına çağırırdı (144). Çünki bu məntəqənin itirilməsi bolşevizmin Cənubi Qafqaza yayılması işinə ciddi bir zərbə ola bilərdi.

Qırmızı Ordu 1918-ci ilin may ayında həm say, həm də təchizat baxımından milli qoşunlardan üstün idi və mövcud imkanlar Qırmızı Ordunun qarşısının təsirli şəkildə alınması üçün bəs ola bilməzdi. Aprel ayında gedən döyüşlərdə Müsəlman korpusunun hissələrinə həm maddi, həm də ciddi mənəvi zərbə vurulmuşdu. Həmin işlərin bərpa olunması üçün isə müəyyən vaxt lazım idi. Ona görə də Müsəlman korpusunun komandiri, general-leytenant Ə.Şıxlinski etiraf edirdi ki, Azərbaycanın müstəqilliyinin elan edildiyi vaxt mənim təşkil etdiyim hissələr yarımçıq halda idi. Belə qüvvələrlə Azərbaycanın yenicə elan edilmiş müstəqilliyini qoruyub saxlamaq isə elə də asan deyildi.

Bolşevik-daşnak təcavüzünün fəallaşması Azərbaycanda təkcə hərbi vəziyyətin kəskinləşməsi ilə deyil, həm də ictimai həyatda anarxiyanın, qanunsuzluqların və cinayətkarlıqların genişlənməsi ilə müşayiət olunurdu. Dərinləşən ictimai, siyasi, hərbi böhranın qarşısının alınması üçün Cənubi Qafqaz hökumətinin təsirli imkanlara malik olmaması əhalidə, ictimaiyyətdə və milli qüvvələrin fəallarında xarici köməkdən konkret olaraq Türkiyənin kömək və yardımlarından bəhrələnmək meylini daha da artırdı. Xüsusilə 1918-ci ilin aprel ayında Hacıqabul ətrafındakı döyüşdə baş verən uğursuzluq milli qüvvələrdə belə bir əminlik yaratdı ki, Azərbaycanı bolşevik-daşnak zülmündən yalnız Türkiyənin hərbi yardımı xilas edə bilər (145).

## İstifadə olunmuş mənbə və ədəbiyyat

1. Siyasi Sənədlər Arxivi (SSA), f.276, siy.2, iş 13, v.17
2. SSA, f.276, siy.2, iş 14, v.6
3. Вах: Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX века. Часть вторая, Баку, 1994, с.61
4. Наджафов Б. ... с.61
5. Шаумян Сур. Бакинская Коммуна. Баку, 1927, 15; Маковский А.А., Радченко Б.М. Каспийская краснознаменная. Москва, 1982, с.25
6. SSA, f.5, siy.1, iş 21, v.5
7. Казиев М.А. Нариман Нариманов. Баку, 1970, с.90
8. Казиев М.А. Нариман Нариманов...90; История Азербайджана. Баку, 1963, с.105; Победа советской власти в Закавказье. Тибилиси, 1979, с.261; Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı, 1963, s.39
9. SSA, f.276, siy.2, iş 20, v.69
10. Süleymanov Manaf. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987, s.179
11. Вах: Наджафов Б. Лицо врага. История армянского национализма... с.54
12. «Millət» qəzeti, 14 iyun 1992
13. Sultanov H. Oktyabr Azərbaycanda. Bax: Sovet hakimiyyəti uğrunda. Xatirələr məcmuəsi. Bakı, 1967, s.21–23
14. Вах: MDA, f.2918, siy.1, iş 1, v.23
15. Еременко Е.П. Мартовские бои в Баку, с.41. См: Алый стяг над Закавказьем. Баку, 1980, с.38–47
16. Большевики в борьбе за победу... с.317
17. Еременко Е.П. Мартовские бои в Баку, с.41
18. Еременко Е.П. Мартовские бои в Баку, с.42
9. Еременко Е.П. Мартовские бои в Баку, с.43
20. Шаумян Сур. ... с.15

21. SSA, f.276, siy.2, iş20, v.75
22. Еременко Е.П. Мартовские бои в Баку, с.43–44
23. Еременко Е.П. Мартовские бои в Баку, с.44
24. Наджафов Б. Лицо врага ... с.61
25. Qarabəyov, «Азербайджан», 16.07.1919
26. Sultanov H. Oktyabr Azərbaycanda ... s.27
27. Sultanov H. .. s.28
28. Наджафов Б... с.62
29. İsgəndərov a. 1915–1920-ci illərdə Azərbaycanda türk və müsəlmanlara qarşı həyata keçirilən soyqırımlar, c.78. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.75–92
30. SSA, f.276, siy.2, iş 20, v.75
31. Еременко Е.П. Мартовские бои в Баку, с.46
32. Еременко Е.П. Мартовские бои в Баку, с.58
33. Маковский А.А., Радченко Б.М. Каспийская краснознаменная. Москва, 1982, с.25
34. SSA, f.276, siy.23, iş 179, v.293
35. SSA, f.276, siy.23, iş 171. v.2–3
36. SSA, f.276, siy. 23, iş 179, v.354
37. Токаржевский Е. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957. с.52
38. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeş kütlələrinin mübarizəsi (1917–1918-ci illər), Bakı, 1957, s.352
39. Ратгаузер Э. Революция и гражданская война в Баку. Часть первая, 1911–1918. Баку, 1927, с.147
40. Дарабади П. Военные вопросы в курсе истории Азербайджана. Баку. 1993, с.107
41. Токаржевски Е.А. Из истории иностранной... с.52
42. Токаржевски Е.А. Из истории иностранной... с.52
43. Азизбекова П.А. 26 Бакинских Комиссаров. Баку, 1978, с.47
44. Наджафов Б. Лицо врага ... с.58
45. Дарабади П. Военные вопросы в курсе ...107

46. Токаржевский Е.А. ... с.52
47. Большевики в борьбе за ... с.327
48. Большевики в борьбе за ... с.327, с.3
49. Большевики в борьбе за ... с.329–330
50. Алый стяг над Закавказьем. Баку, 1980, с.46
51. Маковский А.А., Радченко Б.М. ... с.28
52. Сеф С.Е. Борьба за октябрь ... с.140
53. Боевые и революционные традиции моряков Каспийской флотилии. Баку, 1960, с.54
54. Еременко Е.П. Мартовские бои .. с.46
55. Ратгаузер Э. Революция и гражданская война в Баку ... с.145
56. Большевики в борьбе за победу .. с.336
57. Ратгаузер Э. Революция и гражданская война в Баку ... с.147
58. Большевики в борьбе за ... с.333
59. SSA, f.276, siy.2. iş 25, v.21
60. Svyatçexovski T. Rusiya Azərbaycanı 1905–1920-ci illər, c.123. Bax: «Azərbaycan» jurnalı, 1989, N-11, c.117–155
61. SSA, f.276, siy.2. iş 13, v.5
62. SSA, f.276, siy.2, iş 14, v.2
63. bax: Наджафов Б. Лицо врага ... с.52
64. Большевики в борьбе за ... с.348
65. «Азербайджан», 30.03.1919
66. Шаумян С. Статьи и речи.1917–1918 гг. Баку, 1929, с.156
67. «Известия Бакинского Совета», 12.04.1918
68. SSA, f. 276, siy.2, iş 13, v. 24
69. Большевики в борьбе за победу.. с.335
70. Ратгаузер Э. Революция и гражданская война ... с.150
71. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.33
72. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixindən. Bakı, 1992, s.231
73. Çıraqzadə V. İstiqlal yollarında. Bakı, 1992, s.12
74. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992,

s.92
75. Muradzadə M. Mart hadiseyi-əliməsi. Bakı, 1996, s.4
76. Quliyev c. Tarix şahiddir ki... «Həyat» qəzeti, 22.05.1992
77. Quliyev C. Tarix şahiddir ki..
78. SSA, f.303, siy.1a, iş 19, v.121
79. История Азербайджана. Баку, 1963, с.109
80. Сеф С.Е. Борьба за октябрь в ... с.145
81. Сеф С.Е. Борьба за октябрь в ... с.146
82. История Азербайджана...s.109
83. MDA, f.2898, siy.1, iş 3, v.15; f.2898, siy.2, iş 22 , v.27; f.2918, siy.1, iş 3, v.33
84. Сеф С.Е. Борьба за октябрь в ... с.146
85.İbrahimov Z. Sosialist inqilabı uğrunda ...s. 362
86. Hacızadə Ş.Ş. 1917–1918-ci illərdə sovet hakimiyyəti uğrunda mübarizədə Bakı proletariatının Dağıstan zəhmətkeşlərinə köməyi, s.276. Bax:6 Böyük Oktyabr və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizə. Bakı, 1958, s.266–290
87. Борьба за победу и упрочение Советской власти в Дагестане. Махачкала, 1960, с.88
88. Борьба за победу и упрочение Советской власти в Дагестане... с.88–89
89. Hacızadə Ş.Ş. 1917-1918-ci illərdə sovet hakimiyyəti uğrunda mübarizədə... s.276
90. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье. М., 1960, с.91
91. Шаумян Сур. Бакинская Коммуна...с.16
92. Братья навеки. Баку, 1987, с.293
93. Şahgəldiyev H. Adı çəkilən əsəri, s.100
94. Большевики в борьбе за победу ... с.340
95. «Известия Бакинского Совета, 09.04.1918
96.Шаумян Сур...с.16
97. Боевые и революционные традиции моряков Каспийской флотилии. Баку, 1960, с.56
98. Шаумян Сур...с.17
99. Токаржевский Е.А. Из истории иностранной интервен-

ции...с.57
100. Шаумян Сур...с.17
101. Əlizadə N. Adı çəkilən əsəri, s.39
102. Большевики в борьбе за победу...с.341
103. «Бакинский рабочий», 19.04.1919
104. Larionov P.Q. Döyüş tapşırığı, s.254. Bax: Sovet hakimiyyəti uğrunda. Xatirələr məcmuəsi. Bakı, 1967, s.253–257
105. Борьба за победу упрочения Советской власти в Дагестане... с.91
106. Ратгаузер Э. Революция и гражданская война...с.155
107. Ратгаузер Э. Революция и гражданская война в Баку... с.155
108. Ратгаузер Э. Революция и... с.155
109. Большевики в борьбе за победу...с.365
110. MDA, f.970, siy.1, iş 1, v.19: Zaqafqaziya seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, 2006, s.18
111. Бакинский Рабочий, 1918, 21 апреля
112. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
113. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, s.277
114. Cəfərzadə Ə. Kimdir günahkar? S. 19. Bax: Didərginlər. Bakı,1990, s.17–19
115. Bax: SSA, f. 276, siy.2, iş 20, v.76
116. SSA, f. 276, siy.2, iş 20, v.76
117. SSA, f. 276, siy.2, iş 20, v.85
118. Azərbaycan tarixi sənədlər üzrə ... s.278–279
119. Азербайджан, 1919, 23 марта
120. Победа Советской власти в Закавказье. Тифлис, 1971, с.265
121. SSA, f.5, siy. 1a, iş 4, v.1
122. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə ... s.182

123. Azərbaycan tarixi sənədlər və .. s.183
124. Azərbaycan tarixi sənədlər və ... s.185
125. 26 Bakı Komissarları. Bakı, 1958, s.188
126. 26 Bakı Komissarları. Bakı, 1958, s.188
127. Большевики в борьбе за победу .. с.385
128. Дарабади П. Военные вопросы в курсе истории ... с.111
129. Большевики в борьбе за... с.361
130. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
131. Ратгаузер Э. Революция и гражданская война...с.163
132. İbrahimov Z. Adı çəkilən əsəri, s.405
133. Darabadi P. Adı çəkilən əsəri,s.112
134. Кадищев А.Б. Интервенция и гражданская...с.104,105
135. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
136. Большевики в борьбе за... с.397
137. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
138. Большевики в борьбе за... с.416–418
139. Большевики в борьбе за победу ... с.414
140. Большевики в борьбе за победу ... с.415–419
141. Большевики в борьбе за победу ... с.415
142. Насиров Т.М. борьба за власть в Азербайджане (1917–1920). Баку, 1993, с.29
143. 26 Bakı Komissarları. Bakı, 1958, s.189
144. Большевики в борьбе за победу ... с.426
145. SSA, f.276, siy. 2, iş 128, v.1

# V FƏSİL

# QAFQAZ İSLAM ORDUSU

## *1. Türkiyəyə hərbi yardım müraciəti*

Erməni-bolşevik qüvvələrinin təcavüzkarlıqları artdıqca Azərbaycanın milli qüvvələri tərəfindən bu təhlükənin qarşısının alınması yollarının axtarışı da genişlənmişdi. Daxildə mövcud olan imkanlarla bolşevik-daşnak təhlükəsinin aradan qaldırılması qeyri-real olduğu üçün milli qüvvələrin fəalları, xalqın ziyalıları konkret tarixi şəraitdə Türkiyə rəhbərliyinə müraciət edilməsini əsas çıxış yolu kimi qəbul edirdilər. Onlar şübhə etmirdilər ki, belə müraciət edilərdisə, XX əsrin əvvəllərindən yeni vüsət alan mənəvi birliyin və yaxınlığın məntiqi nəticəsi olaraq Azərbaycan xalqı güclü düşmən qarşısında tək qalmayacaqdır. Çünki mənəvi birliyə dayaqlanan fəaliyyət yaxınlığı istər Rusiyada yaşayan türk xalqları, istərsə də Osmanlı türklərinin siyasi qüvvələri tərəfindən ümumi düşmənə qarşı bir müqavimət forması kimi qəbul edilməkdə idi.

Bölgədə cərəyan edən hərbi-siyasi hadisələr Azərbaycanın milli mübarizə fəallarında belə bir qənaət yaratdı ki, Azərbaycan xalqının qarşılaşdığı tarixi sınaqlardan nicat tapması və xalqın milli müstəqillik yolundakı mübarizəsinin məntiqi sonluğa çatdırılması üçün Türkiyənin hərbi yardımına müraciət edilməlidir.

1917-ci ilin sonu, 1918-ci ilin əvvəllərində Azərbaycanın milli mübarizə fəalları Osmanlı Türkiyəsinin 3-cü Ordu komandanlığı ilə əlaqə yaradılması və nizami Osmanlı qoşunlarının Azərbaycan xalqına hərbi yardım etmək imkanlarının aranmasına cəhd göstərdilər. Bu məqsədlə Gəncədən bir neçə nəfərlik heyət İran ərazisindən keçməklə 3-cü Ordu komandanlığına göndərildi. Bir müddətdən sonra 3-cü Ordu komandanlığından Azərbaycandakı vəziyyətlə bağlı zəruri məlumatların toplanması və çatdırılması üçün leytenant Müzəffər və leytenant Midhət Gəncəyə gəldilər (1).

Cənubi Qafqazın cərəyan edən proseslər və bu proseslərdə ciddi

sınaqlarla üzləşmiş olan türk və müsəlman xalqlarının oyanışı Osmanlı Türkiyəsində də davamlı olaraq izlənilirdi. Bu mənada Türkiyənin müəyyən dairələrində konkret mövqelər və baxışlar da formalaşmışdı. Qeyd edilməlidir ki, türk xalqlarının mənəvi və siyasi birliyi, türkçülük ideyasının prinsipləri Birinci Dünya müharibəsi dövründə Türkiyədə iqtidarda olan Tələt bəy, Xəlil bəy, Ənvər paşa və digər şəxsləri özündə birləşdirən İttihad və Tərəqqi partiyası tərəfindən də əxz edilmiş və bununla, əslində, həmin vaxt türkçülük Osmanlı dövlətinin rəsmi görüşləri səviyyəsinə qaldırılmışdı. Türk xalqlarının birliyinə xüsusi əhəmiyyət verən hərbi nazir Ənvər paşa dövlətin xarici siyasətinin də Turançılıq ideyası üzərində qurulmasına cəhd göstərirdi (214). Ənvər paşanın Osmanlı dövlətində kifayət qədər nüfuzu var idi və bu nüfuzundan istifadə edərək reallığına inandığı Turançılıq ideyasının həyata keçməsinə dövlətin imkanlarını səfərbər etməyə çalışırdı. Azərbaycanın və Şimali Qafqazda yaşayan müsəlman xalqlarının bütünlükdə Rusiyanın tərkibinə daxil olan türk xalqlarının çar Rusiyasının əsarətindən qurtularaq böyük Turan dövlətinə qatılacağına inanan Ənvər paşa hərbi fəaliyyətində də bu planı diqqətdən qaçırmırdı. Birinci Dünya müharibəsi dövründə bu planın reallaşdırılması Azərbaycan və digər müsəlman və türk xalqlarına kömək göstərilməsi üçün Ənvər paşa tərəfindən bir fəallıq duyulurdu. 1914-cü ildə türk qoşunlarının bəzi uğurları və o cümlədən də Rusiya qoşunlarının bir sıra əraziləri tərk etmək məcburiyyətində qalması Ənvər paşa və onun silahdaşlarında Qafqaza doğru irəliləmək ümidini daha da artırdı. Birinci Dünya müharibəsində Türkiyənin müttəfiqi olan Almaniya da Qafqaza doğru irəliləməyi və xüsusilə də Bakı neftindən bəhrələnmək ideyasını dəstəklədi. Hətta daha böyük iddialar da mövcud idi. Güman edilirdi ki, Türkiyə-Almaniya qoşunları Xəzərboyu şimala doğru irəliləməklə, Rusiya ərazisindəki tatarlara, Orta Asiya türklərinə dəstək verməklə Rusiyanın hərbi gücünə zərbə endiriləcəkdir (2).

Tükiyənin Birinci Dünya müharibəsi gedişində planlaşdırdıqları həyata keçmiş olsaydı, o zaman İran ərazisinə qoşun çıxarılması, buradakı rus qoşun hissələrinin geriyə çəkilməsindən sonra Qaf-

qaza da yol açılması nəzərdə tutulmuşdu. Bu planın həyata keçirilməsinə Ənvər paşa tərəfindən Xəlil bəy, Kazım Qarabəkir, Ömər Naci kimi güvəndiyi şəxslər cəlb edilmişdi. Həmin planın həyata keçirilməsi üçün hələ 1914-cü ilin sonlarına yaxın yarbay Xəlil bəyin rəhbərliyi altında Azərbaycan və Dağıstan istiqamətinə hərbçilər qrupu göndərmişdi. Ənvər paşa Xəlil bəyə verdiyi tapşırığında bildirirdi ki, onun vəzifəsi Təbrizdən keçməklə Dağıstana doğru irəliləmək, bölgənin əhalisini üsyana qaldırmaq, Bakı–Tiflis dəmir yolu xəttini dağıtmaq, rusların Xəzərin qərb hissəsindən geri sıxışdırılmasına cəhd göstərməkdir (3).

Ənvər paşanın istəyi və dəstəyi ilə İstambulda «Qafqaz komitəsi» yaradıldı. Komitənin fəaliyyətinə Qafqaz xalqlarının nümayəndələri cəlb edilmişdi. Həmin komitə Qafqaz xalqları arasında iş aparmalı və Qafqaz xalqlarının muxtarlaşmasına öz dəstəyini verməli idi (4).

Lakin Sarıqamış ətrafında baş verən böyük hərbi uğursuzluq Ənvər paşanın Qafqazla bağlı olan siyasətinin də icrasını mümkünsüz etdi. Bununla belə çar Rusiyası tərkibində olan türk xalqlarına kömək etmək planı Ənvər paşanı bir an da olsa tərk etmədi. Məlumdur ki, hətta iqtidardan düşəndən sonra da Ənvər paşa bu istiqamətdə müəyyən fəaliyyət göstərdi və bu planın həyata keçməsi üçün Orta Asiyada bolşeviklərə qarşı vuruşar-kən həlak oldu.

1917-ci il fevral inqilabından sonra Rusiya daxilində yaranan qarışıqlıqlar, rus ordusunun cəbhələrdə uğurlar qazana bilməməsi, dövlətin zəifləməsi turançılıq ideyasının icrasına başlamaq üçün Ənvər paşada yeni ümidlər yaratmışdı. Bunu Ənvər paşa üzvü olduğu İttihad və Tərəqqi partiyasının 1917-ci il noyabr ayının 11-də verdiyi bir bəyanat da təsdiq edirdi. Həmin bəyanatda bildirilirdi: «Vətənimizin və millətimizin milli idealları bizi Moskva düşmənini imhaya (məhv etməyə–red.) dəvət etməkdədir. Beləliklə, rus idarəsindəki bütün irqdaşlarımızı içinə alan və onlarla birliyimizə imkan verəcək təbii hüdudumuz əldə edilmiş olacaqdır» (5).

Rus ordusunun dağılması gücləndikcə bu planın icrasına maraq da Ənvər paşa və onun silahdaşları arasında xeyli güclənmişdi.

Doğrudur, bu plan bütünlükdə real deyildi və Azərbaycanın milli-siyasi qüvvələrinin heç də hamısı tərəfindən dəstəklənmirdi. Ancaq Osmanlı Türkiyəsi ilə Azərbaycan arasında hərbi münasibətlər formalaşarkən bu niyyətin də ortada olduğunu inkar etmək olmaz. Heç şübhəsiz bunun nəticəsi idi ki, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının formalaşmasının ilkin mərhələsində Ənvər paşa Azərbaycanın gələcəyini Türkiyənin tərkibində görürdü. İttihad və Tərəqqi partiyası yuxarıdakı bəyanatında təbii hüdudumuz deyiləndə Türkiyənin şimal sərhədlərinin Şimali Qafqaz dağlarından keçməsi nəzərdə tutulurdu.

Azərbaycana münasibətdə Ənvər paşanın şəxsində türkçülüklə bərabər, şahlıq rejiminə xidmət edən, dünya savaşına qoşularaq ondan qələbə ilə çıxmağa çalışan bir hərbçi keyfiyyətləri birləşmişdi. Yeni ərazilər əldə etmək, konkret tarixi şəraitdə yeni-yeni fəthlərə nail olmaq bir cavan sərkərdə kimi onun da istəklərindən uzaq deyildi. Türk tarixçilərinin də təsdiq etdiyi kimi Azərbaycanı və Şimali Qafqazı Rusiyadan ayırmaqla Ənvər paşa bir növ şərq cəbhələrində itirdiyinin əvəzini çıxmaq istəyirdi(6). Ancaq bir qədər qabağa gedərək qeyd edək ki, bölgədə və Azərbaycanda gedən proseslər sonradan Ənvər paşanın və Nuru paşanın baxışlarında da bir dəyişiklik yaratdı və onların hər ikisi Azərbaycan Cümhuriyyətinin möhkəmlənməsi üçün xeyli səy göstərdilər. Qarşılıqlı münasibətlərə siyasi baxışın necə formalaşmasından asılı olmayaraq, Ənvər paşanın Azərbaycan türklərinə Rusiya əsarətindən qurtarılması üçün mümkün yardımı göstərmək əzmi isə həmişə dəyişməz qalmışdır.

Osmanlı dövlətinin Azərbaycana səmərəli yardım etmək niyyəti Azərbaycanın daxilində də milli siyasi qüvvələr tərəfindən lazımınca qiymətləndirilirdi. Ona görə də Müvəqqəti hökumətin, həm də bolşevik hökumətinin verdiyi vədlərin milli müqəddəratının müəyyənləşdirilməsi istiqamətində nəticəsiz qaldığı və eyni zamanda bolşevik hökuməti tərəfindən rəhbərlik edilən bolşevik-daşnak qüvvələrinin təcavüzkarlığı genişlənəndə Türkiyənin hərtərəfli yardımına üz tutmaq meyli də gücləndi. Yeni tarixi şəraitdə Azərbaycan xalqı təklənmişdi və mövcud olan bolşevik-daşnak təhlükəsi ilə də təklikdə mübarizə aparmaq mümkün

deyildi. Bu həqiqət lazımınca anlaşıldığı üçün idi ki, hələ 1917-ci ilin noyabr ayında Mosulda yerləşən 6-cı türk ordusu komandanlığına bir nümayəndə heyəti göndərildi. Həmin nümayəndə heyəti türk hərbçilərindən quduzlaşan daşnak qüvvələrinə qarşı mübarizədə yardım göstərilməsini xahiş etdi (7). Bu görüşün nəticəsi barədə bir fikir söyləmək çətindir. Ona toxunan müvafiq tarixi ədəbiyyatda da tərəflərin gəldiyi qərar barədə heç nə deyilmir. Ancaq sonradan Osmanlı dövləti rəhbərlərinin Azərbaycanla bağlı qətiyyətli qərar qəbul etmələrindən güman etmək olar ki, həmin görüş Ənvər paşada və onun ətrafındakılarda artıq əməli addımlar atılmasının vaxtı çatdığı qənaətini yaratmışdı.

1917-ci ilin sonlarından etibarən bu məsələ hər iki tərəf üçün yeni bir aktuallıq kəsb etmişdi. Həmin ilin dekabr ayında cəbhələrdə ruslara əsir düşmüş bir avstriyalı zabit qaçaraq türk qoşun hissələri tərəfinə keçmiş və o vaxtlar 6-cı ordu komandanı olan Xəlil paşa ilə görüşmüşdü. Həmin əsirin verdiyi məlumatlar hərbi nazir Ənvər paşanın əmisi oğlu olan Xəlil paşanı çox maraqlandırmış və onda belə bir qənaət hasil olmuşdu ki, Qafqaza doğru uğurlu yürüş həyata keçirmək üçün çox əlverişli bir şərait yaranmışdır. Çünki bu bölgədə Rusiyanın gücü çox zəifləmiş və bütünlükdə ölkə daxilində mövcud olan qarışıqlıq çoxdan düşünülən planların həyatakeçmə ehtimalını xeyli artırmışdı. Bu məlumatın doğruluğunu Ənvər paşaya çatdırmaq üçün Xəlil paşa həmin əsirin özünü onun yanına göndərdi. Əsirin verdiyi məlumatlar Ənvər paşanın özündə də əməli addımların atılması vaxtının çatdığına yəqinlik yaratdı. Bir müddətdən sonra Ənvər paşa Xəlil paşaya göndərdiyi teleqramında avstriyalı əsirlə görüşü barədə belə yazırdı: «Görüşdüyüm avstriyalı yarbayın Bakının durumu haqqında verdiyi məlumatdan anlaşıldığına görə, Azərbaycan xalqının düşmənə qarşı təşkilatlanmaya və savaşmağa istəkli olduğu, ancaq onları təşkilatlandıracaq və idarə edəcək bir lider bulunmaması nədəniylə (səbəbiylə–red.) hərəkətə keçə bilmədikləri qənaətini edindim» (8).

Xəlil paşaya 1918-ci ilin fevralında göndərdiyi həmin teleqramında Ənvər paşa Azərbaycan və Qafqazla bağlı planlarının artıq həyata keçirilməsi mərhələsinin başlandığını bildirirdi. Onun

əmrinə görə, Qafqaz, Dağıstan, Türküstan və Rusiyadakı digər müsəlman xalqlara onların ehtiyac duyduqları yardım və dəstəyin verilməsi üçün mərkəzi Tehranda olan bir təşkilat yaradılmalı və adı çəkilən yerlərə bacarıqlı türk zabitləri göndərilməli idi. Ənvər paşanın fikrincə, onun ögey qardaşı yarbay Nuru bəy Tehrandakı mərkəzin rəhbəri olmalı, yarbay Şövkət bəy Dağıstana və Xəlil paşanın münasib bildiyi başqa zabitlər isə Qafqazın digər bölgələrinə göndərilməli idi (9). Ənvər paşanın, hətta Əfqanıstana da öz hərbçilərini göndərmək fikri var idi. O, bu planı bütünlükdə əhatə edə bilməsə də, hər halda Azərbaycan və Dağıstanla bağlı niyyətlərinin həyata keçirilməsi istiqamətində konkret addımlar ata bildi.

Ənvər paşa konkret olaraq Azərbaycanla bağlı əməli fəaliyyətə başlarkən heç şübhəsiz ki, buradakı milli qüvvələrin istək və arzularını, erməni-daşnak təhlükəsindən qurtulmaq üçün Türkiyəyə bağlanılan ümidləri və Türkiyəyə ünvanlanan çoxsaylı müraciətləri də nəzərə almışdı. O şübhə etmirdi ki, atdığı addımlar birtərəfli deyil və bu addımlar Azərbaycanın milli qüvvələri və Azərbaycan xalqı tərəfindən dəstəklənəcək. Eyni zamanda qarşılıqlı şəkildə həyata keçirilən səylər bolşevik-daşnak təcavüzünə qarşı ümumi bir hərəkata çevriləcəkdir.

Ancaq Türkiyədən gözlənilən yardımın mahiyyətinə gəlincə, Azərbaycanın milli qüvvələrinin heç də hamısı vahid mövqedə dayanmırdılar. Milli mücadilə liderləri Türkiyənin yardımlarının zəruriliyini vurğulasalar da, bu yardımların bir ölkənin hakimiyyətindən qurtularaq başqa bir ölkənin hakimiyyəti altına düşməsi ilə nəticələnməsinə razı deyildilər. Onlar ümid edirdilər ki, din və dil ortağı olan türklər Azərbaycan xalqına yardım etməklə onu təhdid edən təhlükəni sovuşduracaq və Azərbaycanın müstəqilliyə qovuşmasına şərait yaradacaqdır.

Başqa bir mövqedə dayanan qüvvələr isə Türkiyədən yardım istəməklə Azərbaycanın Osmanlı dövlətinə birləşdirilməsinə tərəfdar çıxırdılar. Onlar Azərbaycanın gələcəyini Osmanlı dövlətinin tərkibində görürdülər və bunun üçün geniş təbliğat da aparırdılar. Bu cərəyanın önündə Qafqaz İttihad və Tərəqqi partiiyasının fəalları gedirdilər. Türkiyədəki İttihad və Tərəqqi partii-

yası ilə ideya yaxınlığı olan bu partiyanın fəalları özlərinə çoxlu tərəfdar toplayaraq Azərbaycanın ictimai-siyasi həyatına təsir edə biləcək bir qüvvə əldə etmişdilər. Əsas fəaliyyətini bu istiqamətdə quran Qafqaz İttihad və Tərəqqi partiyasının Mərkəzi-Ümumiyyəsi 1918-ci il mart ayında böyük bir bəyanat verib Osmanlı dövlətinə müraciətlə çıxış etdi. Qafqazın bütün müsəlmanlarının iradəsini ifadə etdiyini bildirən Mərkəzi-Ümumiyyə qeyd edirdi ki, bütün şimali və cənubi Qafqaz Ana vətənimiz olan Türkiyəyə ilhaq olunmalıdır. Özü də ittihadçılar bu fikirlərini bəyan etməklə bolşevik hökuməti liderlərinin, o cümlədən Leninin millətlərin öz müqəddəratını təyin etmək çağırışına əsaslandıqlarını açıqlayırdılar. Onlara görə bolşevik hökuməti rəhbərləri tərəfindən öz müqəddəratlarını müəyyənləşdirmək zəmanəti alan Qafqazın 6 milyonluq müsəlman əhalisi Türkiyəni Qafqaza çağırır və bütün Qafqazın Ana vətəni olan Türkiyəyə birləşdirilməsini tələb edirdilər. Bəyanatda bildirilirdi ki, indi qalib kürsüsündə oturan Türkiyə tarixin ona bəxş etdiyi haqlara istinad edərək dərhal Qafqazı almalı və onu çağıran qardaşlarını azad etməlidir. Dörd il ərzində Avropa, Asiya və Afrika cəbhələrində böyük uğurlar qazanan Türk ordusunun 3–4 milyon rusu və bir neçə yüz min erməni Qafqazdan qovmağa qadir olduğuna yəqinlik də çağırışda öz əksini tapmışdı: «Ey Türk ordusu, gəl! Gəl, Çingiz və Teymurləngin izləri buradadır. Biz, böyüklərlə gənclər sənə ilhaq etmək və səninlə bərabər əcdad yurduna doğru yürümək üçün sənə müntəzirdir. Təvəqqüv və rüxsət bitər. Yürü, şərqə yürü. Bil ki, sən yürüdükcə qızlarımız Qafqaz dəfnələrindən başına çələnglər taxacaq və millətimiz Qafqaz dağlarından ayağına güllər səpəcəkdir» (10).

Çağırışda daha sonra bildirilirdi ki, Osmanlı ordusunun Gəncəyə gəlməsi ilə erməni məsələsi birdəfəlik yox olmalı və bu millət tamamilə dünya xəritəsindən silinməlidir. Çağırışı imzalayanların fikrincə, namussuz və vicdansız hərəkətləri ilə bəşəriyyətdə ad çıxarmış olan bu millətin əməllərinə qətiyyətlə son qoyulmasının vaxtı çatmışdır. Bu vəzifəni yerinə yetirmək üçün Qafqaza göndəriləcək 1–2 güclü türk diviziyasına bir həftə də vaxt kifayət edərdi. Çağırışda o da bildirilirdi ki, silahı və sursatı

ilə gələn türk diviziyalarının Qafqazda olduğu vaxt iaşəsini, maliyyə vəsaitini, ləvazimatını yerli əhali bir il müddətində təmin edə bilər və hətta Türkiyədəki hərbi qüvvələrə də müəyyən qədər köməklik göstərə bilər (11).

Bu çağırışı Qafqaz İttihad və Tərəqqi partiyası Mərkəzi-Ümumiyyə rəisi İsa bəy (orijinalda onun soyadını oxumaq mümkün olmadı, ancaq Aşurbəyov olduğu güman edilir–M.S.), xəzinədar Sadıq Hüseynzadə, habelə Cavanşir Qayıbzadə, doktor Məhəmməd Qayıbzadə, Ağa Aşurov, Abdulla bəy Əmircanzadə və başqaları imzalamışdılar.

Azərbaycan milli mücadiləsinin fəalları da 1918-ci ilin əvvəllərində türk yardımının əldə edilməsi üçün əməli yollar axtarmağa başlamışdılar. Bu məsələ Müsəlman Milli Komitəsinin həmin ilin yanvar ayında Gəncədə təşkil edilmiş yığıncağında geniş müzakirə edilmişdi. Azərbaycanın digər məntəqələrindən də nümayəndələr iştirak edən bu yığıncaqda Nəsib bəy Yusifbəyli mövcud olan vəziyyəti toplananların nəzərinə çatdıraraq aşağıdakıları söyləmişdi: «Xalqın qüvvəsi ilə görülən işlər xalqın gözünün önündə cərəyan etmişdir. Bütün hərəkətimiz zəfərlə nəticələnmişdir. Ancaq bu qəhrəmanca hərəkətlər nəticəni əldə etməkdən çox uzaqdır. Bir kərə Azərbaycan mərkəzi – Bakı düşməndən təmizlənməlidir. Çünki başsız bədən olmaz və yaşamaz. Bizim xalq, qüvvələrimiz bunun üçün kifayət deyildirlər. Böyük bir yardıma ehtiyac vardır və bu yardımı da bizə bircə Osmanlı imperatorluğu edə bilər. İndi qərar qəbul edib Osmanlı imperatorluğuna səlahiyyətli bir heyət göndərək, Türkiyədən yardım istəyək» (12).

Yığıncaqda iştirak edənlər N.Yusifbəylinin dediklərinə tamamilə şərik çıxdılar və irəli sürülən təklifin həyata keçirilməsi üçün Milli Komitəyə lazımi səlahiyyət verdilər. Bu qərara uyğun olaraq Osmanlı dövləti rəhbərlərinin qəbuluna Milli Komitənin nümayəndəsinin göndərilməsi və onun vasitəsilə Azərbaycan xalqının istəyinin Türkiyə rəhbərlərinə çatdırılması lazım bilindi. Milli Komitə adından N.Yusifbəyli bu vəzifəni milli azadlıq hərəkatının fəallarından biri olan Nağı Şeyxzamanlıya həvalə etdi. Sonradan yazdığı xatirələrində (13) N.Şeyxzamanlı Türkiyəyə yola düşməzdən əvvəl N.Yusifbəyli ilə olan son görüşünü və onun

Türkiyə ilə qurulacaq əlaqələrin mahiyyətinə münasibətini belə açıqlayırdı. N.Yusifbəyli: «Nağı, sən İstiqlal komitəsinin üzvüsən. Bütün vəziyyəti Osmanlı dövlətinə anlat, de ki, xalqımız müstəqil yaşamağa əzm etmişdir, bu yolda hər cür fədakarlıq göstərmişdir. Azərbaycanın dörddə üçü bu gün rusların hakimiyyətindən qurtarmış vəziyyətdədir. Onlar bizim ehtiyacımız olan hərbi qüvvələriylə kömək etsinlər. Bizə qardaş əli uzatsınlar, əlimizdən tutsunlar, istiqlalımızı elan etməmizə kömək etsinlər. Ancaq bizi özlərinə ilhaq etmək istərlərsə, onda gəlməsinlər. Biz öz yağımızda qovrulub başımıza çarə taparıq».

Nağı Şeyxzamanlı ilə bərabər, Gəncədən İstambula yollanan türk zabiti Hüsaməddin Tuğac da sonradan yazdığı xatirələrində N.Yusifbəylinin Türkiyə yardımına münasibətdə məhz belə bir mövqedə dayandığını qeyd edirdi. Həmin qeydlərdən aydın görünür ki, Nəsib bəy nəinki Azərbaycanın ilhaq edilməsinin əleyhinə idi, həm də Osmanlı dövlət idarəçiliyinin artıq dövrün tələblərinə cavab vermədiyini və buna görə də Azərbaycanın İstambuldan idarə edilə bilməsi ehtimalı ilə hec cür razı deyildi. N.Yusifbəyli bu məsələ ilə bağlı öz fikirlərini belə ifadə edirdi: «Azərbaycana türk ordusunun gəlməsi ola bilsin ki, lazımdır, ancaq qorxduğumuz bir şey var ki, türklər bizi İstambuldan idarə etməyə başlamasınlar. Bizim federalizm əsasında qurulmuş proqramımız vardır, ona uyğunlaşmaq lazımdır». Nəsib bəyin bu sözü mənə bir az qəribə gəldi, soruşdum: «Siz bu federalizm prinsipini rus idarəsinə qarşı irəli sürmüş olursunuz. Türklərə gəlincə, onların ruslardan bir fərqi olmayacaqmı? Bu halda federalizmə nə lüzum var?»

Nəsib bəy gülər üzlə mənə cavab verdi: «Azərbaycanın sosial quruluşu bambaşqadır. Bakı sənaye və fəhlə mərkəzidir. Sultan rejimi buradakı əhvala uyğun gəlməz. Biz xalqın hər sinif və təbəqəsinin bərabərliyi üzərində dayanan bir hökumət qurmaq fikrindəyik. Çarlıq dövrünün aristokratik və feodal idarəsinə son qoyacağıq. Milli və demokratik bir idarə istəyirik. Halbuki, Osmanlı dövlətinin rejimi çarlıq idarəsindən heç də fərqlənmir. Əlbəttə ki, Osmanlı türkləri azəri türklərinin böyük qardaşıdır. Ancaq Bakı İstambuldan idarə oluna bilməz, bunun üçün Müsavat

partiyasının federalizm prinsipi daima Osmanlı idarəsinə qarşı qoyulmalıdır» (14).

N.Şeyxzamanlının yazdığına görə, o, 1918-ci ilin yanvarında Gəncədən hərəkət etməli olmuşdu. Bu səfərdən kimsənin xəbəri olmasın deyə o, gizli şəkildə hərəkət edirdi. Təhlükəsizlik tədbirlərinə əməl etmək məcburiyyətində qaldığı üçün onun səfəri də xeyli uzun çəkmiş və ayyarımdan sonra, 1918-ci ilin martında İstambula çatmışdı.

Müharibə şəraitində Azərbaycan nümayəndə heyətinin Türkiyəyə maneəsiz getməsi asan deyildi. Hüsaməddin Tuğacın yazdığına görə, onlar bitərəf sülhsevər nümayəndə heyəti kimi hərəkət etməli oldular. Tanınmış jurnalist Ömər Faiq Nemanzadə də bu heyətin üzvü idi. Cənubi Qafqaz seyminin üzvü Xosrov bəy Sultanovun hazırladığı sənədlərə görə, Nağı bəy Şeyxzamanlı və Hüsaməddin Tuğac Trabzon bölgəsində türklərlə rumlar arasında baş verən ixtilafların aradan qaldırılması üçün Azərbaycandan göndərilən vasitəçi heyətin üzvləri idilər (15). N.Şeyxzamanlı ilə H.Tuğac Trabzonda doğrudan da, vasitəçilik məqsədilə tərəflər arasında bir neçə görüş də keçirdilər. Ancaq onların əsas məqsədi 3-cü Ordu komandanı Vehib paşa ilə görüşmək idi. 3-cü Qafqaz Ordusu komandanı Vehib paşa Qafqazdakı vəziyyətlə çox ciddi şəkildə maraqlandı. Eşitdiyi şifahi məlumatdan əlavə, o, Hüsaməddin bəyə yazılı məlumat təqdim etməyi tapşırdı. Hüsaməddin bəy hazırladığı yazılı raportunda oktyabr çevrilişindən sonra Qafqaz cəbhəsində olan rus qoşunlarını bürümüş böhran, Azərbaycan ərazisindən keçib gedən rus hərbi eşelonlarının tərk-silah edilməsi, rusların və Tiflisdəki ingilis və fransız hərbi missiyalarının yardımı ilə erməni və gürcü korpuslarının yaradılması, Azərbaycan milli hissələrinin təchiz və təmin edilməsi üçün Cənubi Qafqaz hökumətinin yardım göstərməməsi, Azərbaycandakı ümumi siyasi vəziyyət, Bakıda qurulan bolşevik hökuməti, habelə Bakıda törədilmiş milli qırğınlar, Gəncə Milli Komitəsinin Türkiyədən kömək istəməsi barəsindəki qərar və s. haqqında məlumat verdi. H.Tuğac raportunun sonunda öz qənaətlərini belə bölüşdü:1. «Ordumuzun vaxt itirmədən irəli hərəkət etmək lüzumu. Bu iş nə qədər gec qalır-

sa, ermənilərin girişdikləri qətliam o qədər geniş olacağı və ruslardan qalan hərbə lazımlı maddələrin bəlkə də hamısının məhv olması ehtimalı;

2. Bakı və Gəncədə tanıdığım önəmli kişilərin haqqımızdakı fikirləri və bizə faydalı ola bilmə dərəcəsi haqqındakı düşüncələr» (16).

Əldə olunmuş məlumatlar Vehib paşa tərəfindən Ənvər paşaya məruzə ediləndən sonra Gəncədən gələn heyət dərhal İstambula çağırıldı. Hüsaməddin bəy heyətdən ayrıldığı üçün Nağı Şeyxzamanlı ilə Ömər Faiq Nemanzadə Türkiyənin hökumət rəhbərliyi ilə görüşə yollandı.

Jurnalist Ömər Faiq Nemanzadənin müşayiəti ilə N.Şeyxzamanlı əvvəlcə baş nazir Tələt paşa ilə görüşdü. Həmin qəbulda Baş nazir Tələt paşadan başqa hərbi nazir Ənvər paşa və Ədliyyə naziri Xəlil bəy də iştirak edirdilər. Nağı Şeyxzamanlı onu İstambula göndərmiş olan Milli Komitənin və bütünlükdə Azərbaycan xalqının arzu və istəklərini Osmanlı hökuməti rəhbərlərinə belə çatdırdı: «Əziz paşalarım, Azərbaycan xalqı yüz ildən çoxdur ki, rus idarəsinin zülmü altında əziyyət çəkir. Qafqaz ruslar tərəfindən işğal olunarkən səkkiz xanlığın xalqı olan azərilər ki, dini bir, adət və ənənələri bir olan millətimiz türk millətidir, rus idarəsinə qarşı gecəli-gündüzlü, hər fədakarlığı gözə alaraq vuruşurdular. Bu vuruşmaların rus çarlığının devrilməsində böyük rolu olmuşdur. Qafqazda başsız qalan rus ordusu qarma-qarışıq vəziyyətdədir. Xalqımızın silahlı qüvvələrinin hücumuna, təzyiqinə dözə bilmədilər. Qısa vaxt ərzində silahlarını ataraq çəkildilər. Azərbaycanın hər tərəfində xalqı idarə edə biləcək milli komitələr quruldu. Tezliklə anarxiyadan əsər-əlamət qalmadı. Ancaq bu gün üçün əlverişli olan vəziyyət sabah təhlükəlidir. İqtisadiyyatımız, cəmiyyətimiz, imanımız, mədəniyyətimiz hər sahədə rus millətindən qat-qat üstün olduğu halda azəri türklərinin gələcəyi qaranlıq görünür. Müstəqil yaşamağı əzm etmiş millətimizin böyük bir nöqsanı vardır. Xalqımızın vaxtilə hərbi təlim və tərbiyədən məhrum olunması və rus çarı I Pyotrun göstərişinə əsasən İran və Türkiyənin rus himayəsi altına düşməyincə Qafqazdan əsgər alınmamasını əmr etməsi bu çatışmamazlığı yarat-

mışdı. Azərbaycan xalqı sizdən kömək gözləyir. Millətimiz müstəqil olmaq niyyətindədir. Siz qardaş əlinizi bizə uzadın, bizə yardım edin. Müstəqil olaq. Siz bizi çəkib öz tərəfinizə yıxmayın, ayaqda qalarıq. Bizə böyük hərbi qüvvə göndərməyin. Bizə hərbi təlimçilər və serjant korpusu göndərin. Bizdə qısa bir vaxt ərzində hərbi qüvvə yaratmağın imkanı vardır. Türk olduğumuz üçün lazım olan qüvvə qanımızda mövcuddur. Xalqımızın milli qüvvəsinə güvənərək qısa bir müddət ərzində rusları torpağımızdan təmizləyib ata bilərik».

Söhbət əsnasında məlum oldu ki, elə bu qəbuldan bir gün əvvəl Tələt paşanın kabinəsində Azərbaycana yardım edilməsi məsələsi müzakirə olunmuş və Ədliyyə naziri Xəlil bəy Qafqazda bir müsəlman dövlətinin yaradılması zəruriliyini qeyd etmişdi. Ancaq lazımi yardımın göstərilməsi üçün Azərbaycana hərbi qüvvə göndərilməsi məsələsini ilk vaxtlar Tələt, Ənvər və Camal paşalardan başqa digər bir çox siyasətçilər və hərbçilər müdafiə etmirdilər. Onlar bunu müxtəlif səbəblərlə izah edirdilər. Məsələn, 3-cü Türk ordusu komandanı olan Vehib paşa da Qafqaza qoşun çıxarılması planına çox ehtiyatla yanaşırdı. 1918-ci ilin mart ayında bağlanmış Brest-Litovsk müqaviləsinə görə, Türkiyənin nəzarəti altına keçməli olan Qars, Ərdəhan və Batumun yad qoşunlardan təmizlənməsi barədə Ənvər paşanın verdiyi əmri Vehib paşa müəyyən bir narahatçılıqla qarşıladı. O, bütünlükdə Ənvər paşanın Qafqaz və Orta Asiya müsəlmanlarını çar Rusiyası əsarətindən qurtarmaq planlarına çox ehtiyatla yanaşırdı.Vehib paşanın fikrincə, vaxtilə bu əraziləri böyük qanlar hesabına ələ keçirmiş olan Rusiya asanlıqla buradakı hakimiyyətindən əl çəkməyəcəkdir. Rusiyanın zəifləməsi heç də onun bu ərazilərdən üz döndərməsi və ya yaxın gələcəkdə yenidən bu ərazilərə qayıtmayacağı demək deyildi. Ona görə də bu bölgələr üzərində Rusiya ilə Türkiyə arasında irimiqyaslı əməliyyatlar başlana bilərdi. Bu əməliyyatlar yerli əhalinin məhvinə, şəhər və kəndlərin viran qalmasına səbəb ola bilərdi. Nəticədə yardım gözləyən əhali əzab və işgəncələrlə üzbəüz qalardı. Digər tərəfdən Qafqazın müsəlman əhalisinin yaşadığı yerlər bolşevik-daşnak qoşunlarından təmizlənsə belə həmin ərazilərdə sabitliyin qorunması üçün böyük say-

da qoşun hissələri lazım idi ki, buna da Türkiyənin imkanı çatmaya bilərdi. Vehib paşaya görə, Qafqaza göndəriləcək qoşunların təminat və təchizatında da çətinlik yaranacaqdı. Ordunun yerli əhali tərəfindən lazımi səviyyədə iaşə ilə təmin ediləcəyinə də Vehib paşa inanmırdı. Ona görə də Qafqaza qoşun çıxarılmasını o, nəhayətdə Osmanlı dövlətinin mövcudluğuna bir təhlükə yarada biləcəyi kimi qiymətləndirirdi(17).

Ancaq Ənvər paşa heç də bu fikirdə deyildi. O, Batumu Qafqaza açılan bir qapı kimi görürdü. Bu liman şəhəri hərbi-strateji baxımdan da əhəmiyyətli olub Türkiyə ilə Qafqaz arasında möhkəm nəqliyyat əlaqələrinin yaradılması üçün bir bazaya çevrilə bilərdi. Lakin 1918-ci il martın 14-də Trabzonda Zaqafqaziya Seyminin nümayəndələri ilə Türkiyə arasında başlanan sülh danışıqlarında erməni və gürcü tərəfi Qars, Ərdəhan və Batumu boşaltmağa razı olmadıqda Ənvər paşa bu məsələni hərbi yolla həll etmək üçün 3-cü Ordu komandanı Vehib paşaya qəti əmr verdi. Türk qoşunları qısa müddət ərzində adları çəkilən məntəqələri öz nəzarəti altına aldı (18).

Trabzona yollanan nümayəndə heyətinin tərkibində M.Ə.Rəsulzadə, X.Xasməmmədov, M.Hacınski, Ə.Şeyxülislamov və digərləri də var idi. Onlardan başqa Trabzona həm Azərbaycandan, həm də Dağıstandan qeyri-rəsmi nümayəndələr gəlmişdilər. Konfransın başlanması ərəfəsində Türkiyəni təmsil edən nümayəndə heyətinin üzvü, Dəniz qoşunları ərkani-hərbiyyə rəisi, albay Hüseyn Rauf Orbay həm Azərbaycandan, həm də Dağıstandan gəlmiş şəxslərlə görüşdü və onlardan bölgədəki vəziyyət barədə geniş məlumat aldı. Müxtəlif siyasi mövqelərdə dayanan həmin şəxslərin hamısı bir fikirdə yekdil idilər ki, azərbaycanlılar və Dağıstan müsəlmanlarının başı üzərini kəsdirmiş olan təhlükənin qarşısını Türkiyənin yardımı olmadan almaq mümkün deyildir. Həmin görüşlər zamanı o da vurğulandı ki, ermənilərlə ingilislər, gürcülərlə almanlar arasında gizli əlaqələr gücləndikcə azərbaycanlılar bölgədə təklənirlər. Təklənən azərbaycanlılar isə Türkiyəni özünə təbii müttəfiq sayırdı və ondan kömək gözləyirdi. Bu görüşlər zamanı belə bir məqam da vurğulanırdı ki, türk qoşunlarının Qafqaza gəlməsi Qafqaz müsəlmanları arasında mövcud

olan ixtilaflara da son qoyacaq və onlar ümumi düşmənə qarşı bir cəbhədə birləşəcəklər (19). Trabzon konfransının başlanmasından az sonra, yəni 1918-ci il mart ayının sonlarında Bakıda bolşevik-daşnak qoşunları azərbaycanlıların kütləvi qırğınlarına rəvac verdilər. Milli qüvvələrin məhvinə istiqamətlənmiş olan bu qırğınlar sürətlə ətraf yaşayış məntəqələrini də bürüdü. Güclü müqavimətlə rastlaşmayan bolşevik-daşnak qoşunları Qubada, Şamaxıda, cənub bölgələrində neçə minlərlə azərbaycanlını qətlə yetirdilər və yaşayış məntəqələrini viran qoydular. Belə kütləvi qırğınlar ermənilər tərəfindən İrəvanda, Qarsda və digər yerlərdə də törədildi. Din, dil və etnik birliyə malik olan azərbaycanlılara belə divan tutulması Türkiyənin rəhbərləri tərəfindən bölgəyə yardım göndərilməsini daha da sürətləndirdi. Çox güman ki, elə bu qırğınlardan sonra Qafqaza türk qoşunlarının yeridilməsinə ehtiyatla yanaşan Vehib paşa da Azərbaycana hərbi yardımın göndərilməsi zəruriliyinə tərəfdar çıxdı. Aprel ayında o bildirirdi: «Mən belə hesab edirəm ki, Bakını tutmaq və müsəlmanları xilas etmək üçün türk ordusunun göndərilməsi zəruridir» (20).

Türkiyənin Azərbaycana hərbi yardım göndərmək əzminin reallaşması İngiltərəni və Birinci Dünya müharibəsində Türkiyənin müttəfiqi olmuş Almaniyanı ciddi narahat edirdi və Bakı neftinə susayan bu dövlətlərin hər ikisi türk qoşunlarının Qafqaza doğru irəliləməsinin qarşısını almağa cəhd göstərirdilər. Bir tərəfdən ingilis qoşunları cənub cəbhəsindən Bakıya qoşun bölmələri yeridilməsinə və bununla da Bakının əldə saxlanmasına çalışırdılar. Almaniya rəhbərliyi isə Türkiyənin Qafqaz planlarının həyata keçməsi ərəfəsində, yəni hələ 1918-ci ilin aprelində Ukraynanı işğal edərək Qara dənizin şimal sərhədlərini nəzarət altında saxlamağa çalışırdılar (21).

Məqsədlərinə çatmaq üçün almanlar bölgədəki diplomatik fəaliyyətlərini də xeyli gücləndirdilər. Bu istiqamətdə onların Gürcüstanla əlaqələri xüsusilə qabarıq xarakter aldı. Hələ Batumi sülh konfransı açılmamışdan əvvəl gürcülər öz nümayəndələrini Berlinə göndərərək almanların köməyinə möhtac olduqlarını bildirdilər (22). Əslində, belə bir əməkdaşlığın baş tutmasına almanlar daha çox cəhd göstərirdilər. Gürcüstan ərazisində möhkəm-

lənmək və buradan keçən nəqliyyat qovşaqlarına nəzarət etməklə almanlar həm türklərin Azərbaycana doğru hərəkətinin qarşısını almaq imkanı, həm də Bakıya doğru irəliləmək üçün yaxşı imkan əldə etdilər. Alman rəhbərliyi gürcü tərəfinə anlatmışdı ki, qarşılıqlı əməkdaşlığın güclənəcəyi təqdirdə onlar Batumun türklərdən geri alınmasına və yenidən Gürcüstana verilməsinə kömək edəcəklər. Batumun yenidən nəzarət altına alınması üçün bu yolun daha doğru yol olduğuna inanan gürcü tərəfi də almanlarla əlaqələrin güclənməsinə çalışırdılar.

Gürcüstanda Türkiyənin mövqelərinin daha da zəiflədilməsi məqsədilə gürcü-alman cəbhəsinin formalaşdırılması üçün alman polkovniki Kress fon Kressenşteyn xüsusilə canfəşanlıq göstərirdi. Bir vaxtlar Türkiyə qoşunları ilə bir cəbhədə vuruşan bu polkovnik Şərq cəbhələrində düçar olduğu uğursuzluqdan sonra oradan uzaqlaşmış və Tiflisə gələrək burada türklərə qarşı yeni bir cəbhə yaratmaqla məşğul idi. K.Kressenşteynin məqsədi o idi ki, edilən diplomatik cəhdlər bir nəticə verməsə, hərbi yolla türklərin azərbaycanlı qardaşlarına göstərəcəyi yardımların qarşısını alsın. Belə bir müqavimət üçün almanların Gürcüstanda kifayət qədər hərbi qüvvəsi yox idi. K.Kressenşteyn Gürcüstanda və o cümlədən də Azərbaycanda, Gəncə ətrafında yaşayan alman əhalidən, habelə buralarda mövcud olan alman əsirlərindən hərbi bölmələr yaratmaq istəyirdi. O, gürcü qoşun bölmələrini də alman zabitlərinin komandanlığı altına almaq istəyirdi və belə güman edirdi ki, gürcü və alman hərbi bölmələrinin alman komandanlığı altında birləşdirilməsi türkləri qorxudar və onların Qafqaz siyasətindəki fəallıqlarının qarşısını ala bilər(23).

Almanlar azərbaycanlılara göstəriləcək yardımların qarşısını almaq üçün hər cür vasitələrə əl atırdılar. Onlar iddia edirdilər ki, azərbaycanlılar türk deyil, tatardırlar. Yəni onların türklərlə etnik bağlılığı elə də güclü deyil və buna görə də türklərin azərbaycanlılara hərbi yardım göstərmək üçün heç bir mənəvi haqqı yoxdur (24).

1918-ci il may ayının 11-də Batumda açılan sülh konfransında bir alman nümayəndə heyəti də iştirak edirdi. Almaniyanın Türkiyədəki hərbi attaşesi general Otto fon Lossovun başçılıq etdiyi bu nümayəndə heyətinin məqsədi türklərin Qafqazda artan nüfuzu-

nun qarşısını almaq idi. Ancaq onların səyləri bir nəticə vermədi. Alman heyətinin Zaqafqaziya Seymi nümayəndəliyi ilə Osmanlı dövləti arasında vasitəçilik etmək təklifi Azərbaycan və Osmanlı heyətləri tərəfindən rədd edildi. Belə olduqda alman nümayəndələri Batumu tərk etmək məcburiyyətində qaldılar (25).

Alman nümayəndə heyətinin üzvləri yaxşıca anlayırdılar ki, Türkiyənin Qafqaza doğru irəliləməsi təkcə Türkiyənin arzu və istəyi deyildi. Bunu Qafqazın müsəlman əhalisi də böyük bir intizarla gözləyirdi. Çünki bölgədə hərbi-siyasi şərait günü-gündən kəskinləşir və müsəlman əhalinin təpədən dırnağadək silahlanmış bolşeviklərin və daşnakların qarşısını almaq üçün heç bir imkanları yox idi. Kütləvi qırğınlar kütləvi anarxiya ilə müşayiət olunurdu. Hələ Batum konfransının açılması ərəfəsində keçirilən yığıncaqların birində N.Yusifbəyli mövcud şəraiti belə qiymətləndirirdi: «Biz ölkənin daxili və xarici vəziyyətini dərindən öyrənib öz nümayəndələrimizə direktivlər verməliyik. Alınan yeni məlumatlar Zaqafqaziyanın hər yerində dəhşətli anarxiyanın hökm sürdüyünü göstərir. Kənd, kənd üstünə gedir, vətəndaş müharibəsinin dəhşətli dövrü başlanır, hər gün adamlar soyulur və öldürülür. Günün günorta çağı Gəncədə heç nədən çəkinmədən qudurmuş soyğunçular müsəlman qadının çadrasını cırır və qiymətli zinət şeylərini soyurlar. İndi təkcə Azərbaycan türklərini deyil, bütün Zaqafqaziyanı bürüyən anarxiyanı öz qüvvəmizlə dəf edə bilmərik»(26).

Belə bir anarxiyaya və cinayətkarlıqlara tezliklə son qoyulmasının etibarlı yolunu da xalq kütlələri türk qoşunlarının Azərbaycana gəlməsində görürdülər. Buna görə də may ayının 13-də Gəncə quberniyasının qəzalarından toplanıb gəlmiş xalq nümayəndələrinin və Zaqafqaziya Seyminin Azərbaycan fraksiyasının birgə iclası keçirildi. Burada mövcud vəziyyətdən çıxış yolları müzakirə edildi. Xalq nümayəndələri Batuma yollanıb orada vəziyyətin mürəkkəbliyinin türk nümayəndə heyətinə çatdırılmasını təkid edirdilərsə də, Seymin üzvləri buna ehtiyac görmür və vəziyyətin azərbaycanlı heyət üzvləri tərəfindən türk heyətinə çatdırılacağı bildirilirdi. Bununla belə xalq nümayəndələrinin təkidli tələbindən sonra qərara alındı ki, M.Y.Cəfərov, N.Yusifbəyli və

X.Xasməmmədov Batuma və İstambula ezam olunsunlar və onlar türk qoşun hissələrinin Azərbaycana gəlməsini sürətləndirsinlər. Ancaq xalqın daha geniş kütlələrinin bu cür ümidlərinin daha çox Türkiyə bağlamalarını alman nümayəndələri müəyyən narahatçılıqla qarşılayırdılar və bunun nəticəsi idi ki, fon Lossov təəssüflə qeyd edirdi: «Batumun və Qarsın alınmasından sonra savadsız müsəlman kütlələri içərisində Türkiyənin nüfuzu gündən-günə yüksəlirdi» (27).

Seymin azərbaycanlı fraksiyasının üzvləri ilə Gəncə quberniyasından olan xalq nümayəndələri arasındakı görüş zamanı kütləvi şəkildə Batuma yollanmağın lüzumsuzluğu razılaşdırılsa da, Azərbaycanın müxtəlif ictimai-siyasi qüvvələrinin, qurumların, ayrı-ayrı zümrələrin və yaşayış məntəqələrinin nümayəndələri Batuma yollandılar. Onlar türk nümayəndə heyəti ilə görüşməyə və Türkiyənin Azərbaycana hərbi yardımının sürətləndirilməsi barədə öz mövqelərini onlara çatdırmağa çalışdılar. Konfrans günlərində azərbaycanlıların Batuma gəlməsi və burada onların keçirdikləri yaşantıları hadisələrin şahidlərindən biri belə təsvir edirdi: «Yapım ay ərzində Batumun həyatında xeyli dəyişikliklər olmuş, küçələrdə adamlar çoxalmış, hotellər osmanlı rəsmi işçiləri və Qafqaz nümayəndələri ilə dolu idi. Küçələrdə, bulvarda, parkda, teatrda Qafqazın ən uzaq nöqtələrindən gələn osmanlılarla birləşmək istəyən nümayəndələrə təsadüf edilir. Bu nümayəndələr bulvarın kazinosunda masaların arxasından sərt və atəşli sözlərlə bir-birinə xitab edirlər. Onlar osmanlılarla müzakirələrdə iştirak etmək üçün Batuma gələn gəncəli, bakılı, tiflisli, qarabağlı müsəlmanlardır. Hamısının da simasında əzab və narahatlıq əlamətləri görünür. Hamısının da illərdən bəri öz pəncəsi altında əzən dövrün müvəqqəti böhranından istifadə etmək, onun yırtıcı dişlərinə qarşı ən mətin zirehlərlə təchiz olunmuş görüşmək arzusu var. Məqsədləri «Qafqazın istiqlalı» deyil, osmanlılar ilə qəti surətdə birləşmək, ilhaq... Papaq qoymaqla dini hisslərinin yox olmayacağına inanan bu zümrə millət məhəbbətini hər cür əlaqədən, hər cür qüvvədən üstün tutur. Batum–Qafqaz sülh müzakirələrinin mərkəzi. Gah Gəncədən Şeyxülislam gəlir, gah əhali nümayəndələri Tiflisə göndərilir. Müzakirələr, nitqlər, teleqraflar

bir-birinin ardınca gəlir. Qafqaz rusların hakimiyyətindən qurtarmaq arzusunu bütün fəaliyyəti ilə göstərir. Onların nəzərində ruslar ana vətəni işğal edən qiyamçılara bənzəyirlər. İndi bütün ümidləri türklərə yönəldiblər»(28).

Göründüyü kimi, Batuma toplaşan azərbaycanlılarda Türkiyəyə ilhaq meyli güclü idi. Onların Batumda sayı o qədər çox idi ki, milli mücadilə liderlərinin buradakı fəaliyyətinin səmərəliliyini də şübhə altında qoyurdu. Buna görə də Nəsib bəy Yusifbəyli Batumda bildirirdi ki, anarxiya vaxtı xalqdan çəkdiyi əzabı burada ilhaqçılar tərəfindən çəkir (29).

Osmanlı dövlətinin rəhbərləri ilə görüşdən sonra geri qayıdarkən Batumda olan Nağı bəy Şeyxzamanlı da ilhaqçılıq tərəfdarlarının sayının çox olduğunu və onların öz fikirlərindən çəkindirməyin az qala qeyri-mümkün olduğunu qeyd edirdi: «İlhaqçılar ilə mübarizə etmək mənə çox çətin olmuşdu. Ruslar ilə mücadiləmizdə bu qədər əziyyət çəkməmişdim... Onların arasında vəkil, həkim, şeyxülislam, tacir, əsnaf, mülk sahibləri, ziyalı müəllimlər, rəsmi xadimlər var idi»(30).

İlhaqçıların Türkiyə tərəfinə göstərə biləcək təsirlərini aradan qaldırmaq üçün N.Şeyxzamanlı Batum konfransındakı Türkiyə nümayəndə heyətinin rəhbəri, Ədliyyə və Xariciyyə naziri Xəlil bəylə görüşmək qərarına gəldi. O istəyirdi Xəlil bəyi bir daha inandırsın ki, Azərbaycana göndərilə biləcək hərbi yardımın əsas məqsədi Azərbaycanı Türkiyəyə ilhaq etmək deyil, Azərbaycanın müstəqilliyinin qazanılmasına və onun qorunub saxlanmasına kömək etmək olmalıdır. Xəlil bəy baş tutan görüş zamanı N.Şeyxzamanlının söylədiklərini lazımınca başa düşdüyünü qeyd etdi və onun xahişi ilə ilhaqçılıq tərəfdarlarının bir qrupunu qəbul etməyə, Azərbaycanın müstəqil qalmasının əhəmiyyətini onlara da anlatmağa söz verdi. Ertəsi gün Xəlil bəy N.Şeyxzamanlının müşayiəti ilə gəlmiş ilhaqçılardan on nəfəri qəbul etdi. N.Şeyxzamanlı öz xatirələrində həmin görüşü və bu görüş zamanı Xəlil bəyin söylədiklərini belə xatırlayırdı: «Ertəsi gün saat onda on nəfərdən ibarət heyəti Xəlil bəyin yanına gətirdim. Xəlil bəy bizi qəbul edir. Mən onları bir-bir Xəlil bəyə təqdim edirəm. Xoş-beşdən sonra onlar gətirdikləri kağızları – hərəsində minlərcə imza

vardı – Xəlil bəyə göstərirlər və hamısı birlikdə deyirlər: «Möhtərəm bəyimiz, xalqımız istiqlal istəmir, biz də istəmirik. Osmanlı dövlətinin bir hissəsi olmaq istəyirik». Xəlil bəy gözəl danışmağı ilə onları inandıra bildi. Onlara son söz olaraq dedi: «Biz süngümüz ilə Qafqaza daxil olduq. Siz bizə ilhaq olmaq istəməsəydinizsə də, biz sizi süngü ilə ilhaq edərdik. Ancaq buna imkan yoxdur. Bizim birləşməyimizi nə düşmən, nə də dost dövlətlər qəbul edər. Biz sizə yardım edirik və edəcəyik. İstiqlalı əldə edib müstəqil yaşamanız üçün nə qədər lazım olsa əsgər göndərəcəyik, hərtərəfli kömək edəcəyik. Öz vətənimiz kimi sizin vətəninizi də qoruyacağıq. Evlərinizə qayıdın və qurulacaq istiqlaliyyəti müdafiə edin» (31).

Batum konfransının gedişində Zaqafqaziya Seyminin azərbaycanlı üzvləri Bakı Soveti tərəfindən idarə olunan bolşevik-daşnak qoşunlarının Gəncəyə doğru irəliləməsinin qarşısını almaq üçün türk qoşunlarının Zaqafqaziyaya gəlməsinə razılıq verilməsi məsələsini qaldırdılar. Eyni zamanda may ayının 14-də Xəlil bəy də Bakıya doğru hərəkət edən ingilis qoşunlarının qarşısının alınması üçün türk qoşunlarının Zaqafqaziya daxilində hərəkətinə razılıq verilməsini tələb etdi (32). Ancaq müzakirələr çox ağır keçdiyindən irəli sürülən bu tələblər barədə qəti fikir aydınlığı yaranmadı.

Batum konfransında bölgədə möhkəm sülhün yaradılması üçün irəli sürülən tələblər gürcülər, ermənilər və onların arxasında dayanan qüvvələr tərəfindən qəbul edilmədi. Həmin təkliflərin qəbul edilməsinə nail olmaq üçün konfransın açılışından bir neçə gün sonra Türkiyə qoşun hissələrinə Zaqafqaziyanın içərilərinə doğru irəliləmək əmri verildi. Vehib paşanın komandan olduğu 3-cü Ordunun hissələri may ayının 15-də Gümrünü tutdu. Ordunun 1-ci Qafqaz korpusu Gümrü–Culfa, 5-ci Qafqaz diviziyası isə Gümrü–Tiflis dəmir yolunu nəzarət altına aldı. İstər Gümrünün tutulması, istərsə də adları çəkilən dəmir yolu xətlərinin nəzarət altına alınması türk qoşunlarının Azərbaycana doğru irəliləməsi yolunda ilk əməli addımlar idi. Ənvər paşa bununla da kifayətlənmirdi. Qoşunların Azərbaycana atılması üçün o, türk qoşunlarının şərq istiqamətində imkan daxilində daha irəli getməsinə və müm-

kün strateji məntəqələrin ələ keçirilməsinə çalışırdı. Bu baxımdan Ənvər paşa Qarakilsənin tutulmasına xüsusi əhəmiyyət verirdi. Çünki bu məntəqə Tiflis və İrəvana gedən yolların qovşağında yerləşirdi və oranın tutulması türk qoşunlarının bölgədəki hərəkət manevrliliyinə daha geniş imkan yaradardı. May ayının 20-də 1-ci və 2-ci Qafqaz korpusları Qarakilsə istiqamətində hərəkətə başladılar. May ayının 21-də artıq Sərdarabad nəzarət altına alınmışdı (33). May ayının 28-də isə Qarakilsə tutuldu. Türk qoşunlarının belə uğurla Qafqaz hüdudlarındakı fəaliyyəti dərhal həm Rusiya, həm də Almaniyanın çox ciddi narahatçılığına səbəb oldu. Bölgədə gedən proseslərə müdaxilə etmək üçün kifayət qədər hərbi gücü olmayan Rusiyanın xarici işlər naziri Çiçerin 1918-ci il may ayının 28-də Türkiyənin Moskvadakı səfirinə 1877 saylı notanı təqdim etdi. Həmin notada bildirilirdi ki, Sovet Rusiyası özündə iradə taparaq Qars, Ərdəhan və Batum kimi önəmi böyük olan əraziləri Brest-Litovsk müqaviləsinə görə Türkiyəyə vermişdir. Lakin Osmanlı imperatorluğunun qoşunlarının bu ərazilərin hüdudlarını aşmasını Rusiya tərəfi Brest-Litovsk müqaviləsinin pozulması kimi qiymətləndirir və türk qoşunlarının Bakı istiqamətində hərəkətinin qarşısının alınması, tutulmuş olan Gümrüdən və digər məntəqələrdən geri çəkilməsi tələb olunurdu(34).

Belə bir şəraitdə Bakıda hakimiyyəti ələ keçirmiş olan Bakı Xalq Komissarları Soveti Rusiyanın bölgədəki mənafelərinin qorunmasına xidmət edən başlıca qüvvə idi. May ayının sonlarında Bakı Sovetinin ixtiyarında olan bolşevik-daşnak qoşunlarının hərəkətə gətirilməsi və qərb istiqamətində qətiyyətli döyüşlərə hazırlaşdırılması da ilk növbədə Türkiyənin Azərbaycanla bağlı fəallığının qarşısını almağa və Azərbaycanın bütün ərazilərini Sovet hakimiyyətinin nəzarəti altına almağa və Bakı üzərindəki mövqelərini daha da möhkəmləndirməyə xidmət edirdi. Bakı Soveti qoşunlarının fəallaşması isə Azərbaycan daxilində qırğınların, faciə və anarxiyanın daha geniş miqyas alması demək idi. Hamının gözü qarşısında genişlənən bu fəlakət və anarxiyanın sovuşdurulması üçün isə daxildə təsirli bir qüvvə yox idi. Mart qırğınlarından sonra Azərbaycanda inkişaf etməkdə olan anarxia və özbaşınalıqlar bir neçə dəfə Zaqafqaziya Seymində qaldırılsa da,

onların ləğvinə qarşı təsirli və əməli bir qərar qəbul edilməmişdi. Yəni bu orqanın özünün də qeyri-işləkliyi artıq göz qabağında idi. M.Ə.Rəsulzadə yaranmış bu vəziyyəti belə şərh edirdi: «Bittəb, Bakı Tiflisin müavinətini bəkliyordu. Yalnız Bakının deyil, bütün Azərbaycan azərbaycanlıların iştirakı ilə təşəkkül edən Seym məclisi ilə Mavərayi-Qafqaz hökumətinin bu müavinətinə intizar ediyordu. Fəqət, heyhat. Azərbaycan Seym əzasının yüksək səda ilə bağırıb-çağırması Tiflis hökumətinin həqiqi sahibləri olan gürcü menşeviklərinə lüzumunca təsir etmədi. Gürcüstan daxilindəki bolşevizmi min şiddət və qəhrlərlə basdıran bu əfəndilər Bakıya qarşı quru elani-hərb belə etmək istəmədilər. Gəncə milli müsəlman komitəsinin təşkil etdiyi ixtilas ordusuna milyonlarla fişəng, onlarla mitralyoz və bir kaç top vəd edilsə də, bu vədlər həqqilə tutulmadı... Təhlükə artıq Gəncəyə gəlmişdi. Bir tərəfdən Gəncə təhdi-təhdiddə ikən, digər tərəfdən də Qarabağ erməniləri Bakı bolşevikləri ilə birləşmək üzrə bir plan təsdiq ediyorlardı. Azərbaycanın atəş və qılıncdan keçirilməsi planı!... Böylə bir təhlükə qarşısında milləti müdafiə edəcək yalnız bir Gəncə qalmışdı. Gəncə öhdəsinə düşən bu ağır vəzifəni təkbaşına davam etdirəmməzdi. Müdafiə günləri uzandıqca rişteyi-ümur əldən çıxıyor, bolşevik əlinə keçməyən yerlərdə dəxi şiddətli bir itaətsizlik və anarşi zühur ediyordu»(35).

Azərbaycan əfkari-ümumiyyəsinin fikrini ifadə edərək M.Ə.Rəsulzadə milləti bu müşkül vəziyyətdən qurtarmağın yeganə yolunu tezliklə Türkiyənin yardımını əldə etməkdə görürdü. Eyni zamanda M.Ə.Rəsulzadə bu yardımın əldə edilməsinin heç də asan olmadığını bildirirdi. Azərbaycan Türkiyəyə ümid yeri kimi baxırdısa, Zaqafqaziya Komissarlığına daxil olan Gürcüstan və Ermənistan heç də Türkiyə ilə əməkdaşlığa hazır deyildilər. Əksinə, bu dövlətlər gizlicə Türkiyəyə qarşı ittifaqlar təşkil etməkdə idilər.

Azərbaycandakı vəziyyətin nizama salınması üçün lazımi tədbirlər görülməməsindən və şəraitin günü-gündən mürəkkəbləşdiyindən narahat olan Türkiyənin Batum konfransındakı nümayəndə heyətinin rəhbəri Xəlil bəyin 1918-ci il may ayının 26-da Zaqafqaziya Seymi nümayəndə heyətinin başçısına göndərdiyi

memorandumda bildirirdi: «...Zati alilərinə məlum olduğu kimi Qafqazın vəziyyəti çox kritik və mübhəmdir və bilaxirə həllə möhtacdır. Bakı və ətrafında yüz minlərcə türk və müsəlmanlar, özlərinə inqilabçı deyən vicdansız haydutların qanlı pəncələrində inləyir və bu zavallıları təhdid edən, təmiri qeyri-qabil fəlakət gündən-günə yaxınlaşmaqdadır. Saysız mütəşəkkil quldur dəstələrinin hücumları vaqe olan Qafqazın digər hissələrindəki türk və müsəlman əhalinin də vəziyyəti təsəllibəxş deyildir. Rəis həzrətləri, qəbul edərsiniz ki, bu adı daşımağa layiq olan heç bir hökumət həmsərhəd olduğu bir ərazidə belə cinayətlərin cəzasız olaraq artmasına təhəmmül edə bilməz və yenə qəbul edərsiniz ki, Qafqazı məhv edən anarxiyaya görə Dövləti-Aliyeyi-Osmaniyyənin vəziyyəti çox nazikdir. Çünki bu anarxiya Dövləti-Aliyeyi-Osmaniyyə əhalisiylə eyni irq və dinə mənsub olan bir əhalinin əmniyyətinə də əlaqəsi vardır. Digər tərəfdən hərbi-ümumun icabatı olaraq Dövləti-Aliyyə öz ordusunu digər cəbhələrə Qafqaz yolu ilə göndərmək məcburiyyəti qarşısındadır. Bu da indiki qeyri-müəyyən vəziyyətə son verilməsini tələb edir»(36).

Hərbi-siyasi şəraitin kəskinləşərək böhranlı vəziyyətə çatdığı, Türkiyənin yardımı olmadan belə bir vəziyyətdən çıxmağın mümkün olmadığı bütün reallığı ilə xalqın gözü qarşısında idi. Qardaş Türkiyənin köməyinə yeganə ümid yeri kimi baxılırdı. Lakin Azərbaycanın milli hərəkatının fəalları təkid edirdilər ki, Türkiyənin köməyinə nə qədər ehtiyac olsa belə həmin kömək və yardım Azərbaycanın istiqlalının qazanılması və saxlanılması çərçivəsindən kənara çıxmamalıdır. N.Yusifbəyli bu məsələ ilə bağlı deyirdi: «Yalnız Azərbaycanı deyil, bütün Zaqafqaziyanı istila edən böyük dəhşətli anarxiyanı biz öz qüvvəmizlə sakitləşdirə bilmərik. Şərq tərəfdən bolşeviklərin bizim əsrlik düşmənimizlə birləşərək hücum etməsi vəziyyəti daha da ağırlaşdıraraq türk millətinə çox böyük müsibət və fəlakət gətirir. Vəziyyət belə ikən, bizə xarici bir qüvvənin müdaxiləsini istəməkdən başqa bir çarə qalmayır. İstiqlalımızın qızğın tərəfdarı olmaqla bərabər, mən bu məsələ haqqında birinci olaraq məsləhətləşmək məcburiyyətindəyəm. Fəlakətin üzünə cəsarətlə baxaraq biz sevinməliyik ki, xoş bir tale əsiri olaraq müdaxilə edəcək xarici qüvvə bizimlə

dost və qardaş olan Türkiyədir. Bəlkə, bu, bizim qonşularımızın çox xoşuna gəlməyəcəkdir. Lakin başqa çarəmiz də yoxdur. Müdhiş anarxiya qarşısında onlar da bizim kimi gücsüzdürlər...Kimin xatirinə isə xəstə yatağında yata bilmərik. Bizim heyətin Batuma gedərək Şərqi Zaqafqaziya türkləri adından Osmanlı dövlətindən yardım istəməsinin zamanı gəlmişdir...Bununla birlikdə Azərbaycanın istiqlal üsuli-idarəsini də heç vaxt unutmamalıyıq»(37).

Nəsib bəy Yusifbəyli Osmanlı dövlətinə Azərbaycan türkləri adından müraciət edirdisə, 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Türkiyəyə Azərbaycan dövləti adından müraciət etmək imkanı yarandı. Azərbaycanın dövlət müstəqilliyinin qorunması üçün ortaya çıxan bu tarixi imkandan dərhal istifadə edildi. 1918-ci il iyun ayının 4-də Türkiyənin Batumda olan nümayəndə heyəti ilə burada sülh danışıqlarında iştirak edən Seymin azərbaycanlı üzvləri arasında «Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsi» imzalandı. Müqaviləni Osmanlı dövləti adından Ədliyyə naziri Xəlil Menteşə, 3-cü Ordu komandanı Məhəmməd Vəhib paşa, Azərbaycan Xalq Cümhuriyyəti adından isə Milli Şuranın sədri M.Ə.Rəsulzadə və Xarici işlər naziri M.H.Hacınski imzaladılar. Osmanlı dövləti ilə müstəqilliyini yenicə elan etmiş Azərbaycan Cümhuriyyəti hökuməti öz aralarında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etmək üçün qarşılıqlı surətdə razılığa gələrək bir sıra mühüm və tarixi vəzifələrin icrasını öz üzərlərinə götürdülər. Başlıcası isə bu iki dövlət Azərbaycanda intizarla gözlənilən kömək və yardımların göstərilməsi üçün müstəqil surətdə və qarşılıqlı şəkildə, kimsənin razılığını soruşmadan qərar qəbul edilməsi imkanından bəhrələndilər. Bununla da ikitərəfli əlaqələrin, o cümlədən hərbi əməkdaşlığın hüquqi bazası yaradıldı. Müqavilənin birinci maddəsi Osmanlı dövləti ilə Azərbaycan arasında daimi qardaşlıq və dostluq münasibətlərinin zəruriliyi təsdiqlənirdi. Müqavilənin ikinci maddəsində Osmanlı dövləti ilə Azərbaycan, Ermənistan və Gürcüstan arasındakı sərhəd xəttinin dəqiqləşdirilməsinin vacibliyi vurğulanırdı.

Konkret tarixi şəraitdə Azərbaycan xalqı üçün xüsusi

əhəmiyyət kəsb edən məsələ ölkənin təhlükəsizliyinin təmin edilməsi üçün lazım olanda Osmanlı dövləti tərəfindən hərbi kömək göstərilməsinin mümkünlüyü məsələsi idi və bu məqam müqavilənin 4-cü maddəsində təsbit olunmuşdu. Azərbaycanla Türkiyənin hərbi əməkdaşlığı da məhz bu maddə üzərində bərqərar edilə bilərdi. Sonrakı maddəyə əsasən isə Azərbaycan Cümhuriyyəti sərhədləri daxilində mövcud olan quldur dəstələrinin tərk-silah edilməsini öz üzərinə götürürdü.

İki dövlət arasındakı 4 iyun 1918-ci il tarixli müqavilə və bu müqaviləyə əlavə olaraq sonradan bağlanmış sazişlərlə Osmanlı dövləti Azərbaycan daxilində hər cür hərbi daşınmaları həyata keçirmək, bunun üçün quru və dəmir yollarından sərbəst istifadə etmək, Bakı limanında və Xəzər dənizində Azərbaycana aid olan vasitələrdən istifadə etmək hüququ əldə edirdi(38).

Batumda Azərbaycan Cümhuriyyəti ilə Osmanlı dövləti arasında sülh və dostluq müqaviləsi imzalayan Azərbaycan təmsilçiləri dərhal gözlənilən hərbi yardımın alınması üçün rəsmi olaraq Türkiyə tərəfinə müraciət etdilər. M.Ə.Rəsulzadə Milli Şura adından, M.H.Hacınski isə Azərbaycan hökuməti tərəfindən Osmanlı dövlətinin təmsilçiləri ilə danışıqlar apardılar. M.Ə.Rəsulzadə yazırdı: «Azərbaycanın nə kimi müşkilata məruz qaldığı və bu təhlükəli müşkilatdan çıxa bilmək üçün Türkiyənin müavinətinə möhtac olduğunu Azərbaycan müməssilləri Trabzon ilə Batumda türklərlə vaqe olan təmasları əsasında gərək şifahən və gərək təhlilən anlatmışlardı. Bu kərə Azərbaycan Şurayi-Millisi namına biz və Xariciyyə nəzarəti namına da Məmməd Həsən bəy salifüzzikr müqavilənin 4-cü maddəsinə istinadən Türkiyə hökumətinə müraciətlə qəvayi-imdadiyyə istədik»(39).

Azərbaycan hökuməti adından xarici işlər naziri M.H.Hacınskinin Türkiyə nümayəndə heyəti adına göndərdiyi müraciətində deyilirdi ki, hökuməti-mətbuamdan aldığım əvamiri-sərihə üzərinə aşağıdakı istidamın surəti-mümkünə ilə hökuməti-Səniyyəyə bildirilməsini rica edirəm. Rusiyadakı inqilabın nəticəsi olaraq Azərbaycanda mürəkkəb bir vəziyyət yaranıb. Bolşeviklər Bakını və Bakı vilayətini tutub, əhalini qırır, Azərbaycan hökumətini tanımır. Bakıdan başqa Şamaxı, Quba və Lənkəran

kimi ərazilərdə də qırğınlar törədilmişdir. Şimalda güclənməkdə olan müttəfiqləri, habelə İrandakı ingilislərdən yardımlar almaqda olan bu qüvvənin qarşısını yeni yaranmış cümhuriyyət ala bilməz.

Müraciətdə bildirilirdi ki, Bakının bolşevik işğalından qurtulması Azərbaycan hökumətinin ilk vəzifəsini təşkil edir. Bu məsələ yaxın zamanlarda həll edilməzsə, Cümhuriyyətin mövcudiyyəti təhlükə altında olacaq, əhali fəlakətə məruz qalacaq.

Söylənilən bu təhlükənin mövcudluğunu nəzərə alaraq və iki dövlət arasında bağlanan müqavilənin 4-cü maddəsinə uyğun olaraq M.H.Hacınski öz müraciətində Türkiyədən Azərbaycana hərbi yardım göndərilməsini xahiş edirdi(40).

Azərbaycan hökumətinin başçısı kimi F.Xoyski də sonradan öz çıxışlarından birində istiqlaliyyətin elan edildiyi ilk günlərdə ölkədə vəziyyətin son dərəcə ağır olduğunu qeyd edir və bu vəziyyətdən çıxmaq üçün daxildə lazımi qüvvə olmadığı üçün Türkiyənin rəsmi yardımına müraciət edilməsinin tarixi əhəmiyyətini vurğulayırdı: «...Daxili vəziyyətimiz isə qayət fəna idi. Hökumətimiz öylə bir zamanda təşəkkül etmiş idi ki, bir kənddən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, malı əlində deyildi... Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura hökuməti təyin edib məmləkətin müqəddəratını ona tapşırdı. Hökumətimiz təsdiq edilməmişdi. Hökumətin səyi ilə Türkiyə ilə müzakirat tez qurtarıb sülhnamə bağlandı. Fəqət bununla bərabər, daxili işlər o qədər pərişan olan bir zamanda hökumət daxilində qanun və asayiş bərpasından aciz idi. Zira nə əsgəri qüvvəmiz vardı, nə silahımız. Bittəb daxilindən düzəltmək mümkün deyildi. Binaənəleyh xarici bir qüvvəyə lüzum görülərək türklərə müraciət edildi. Türkiyə-Azərbaycan sülhnaməsinin bir maddəsinə görə məmləkətimizə nə vaxt lazım olsa, hüququmuzun müdafiəsi üçün türklər bizə o qədər əsgər verməli idilər. Ona görədir ki, darda qaldıqda bu çarəyə təvəssül edildi. Türklər iltizamlarına əməl və vəzifələrini hüsnü-ifa etdilər. Əlbəttə, qoşunsuz, gücsüz görünməsi pək müşkül olan işlər çətinliklə, yavaş-yavaş işləniyordu. Bizə xaricdən qüvvə almaq üçün başqa millət və dövlətə müraciət etmək bəzi şəraitdən dolayı mümkün deyildi. Müraciət etsəydik də, heç bir nəticə hasil olmazdı. Ona görədir ki, dindaş

və millətdaşlarımız olan Türkiyəyə müraciət edildi»(41).

Bu sətirlərdə də qeyd olunduğu kimi Türkiyə tərəfi Azərbaycan hökumətinin xahişinə dərhal cavab verdi. Onsuz da artıq başlamış olan hərbi əməkdaşlıq iki dövlət arasında mövcud olan rəsmi aktlara dayaqlanaraq daha geniş və səmərəli bir xarakter aldı.

Ancaq bu iki qardaş xalqın bir-birinə qarşılıqlı surətdə kömək etmək arzu və istəkləri bölgədə öz fəallığını genişləndirməyə və Azərbaycanı təsir dairəsinə salmağa çalışan Almaniyanı çox güclü şəkildə qəzəbləndirdi. Azərbaycanın öz müstəqilliyini elan etməsi və müstəqil dövlət kimi qardaş Türkiyə ilə əlaqələrini qurması Almaniyanın Bakı neftinin ələ keçirilməsi ilə bağlı bütün planlarını alt-üst edirdi. Ona görə də qarşıya qoyulan vəzifələrə nail olunması üçün Almaniyanın Türkiyəyə olan təzyiqləri son dərəcə şiddətləndi. Bu təzyiqlərin təsirini artırmaq üçün Almaniyanın əlində kifayət qədər imkanlar da var idi. Osmanlı dövlətinin ordusunun tərkibində çoxlu sayda alman generalları və hərbçiləri işləyirdilər. Onlar istər Hərbi Nazirliyin aparatında, istərsə də qoşun birləşmələrinin komandanlıqlarında yüksək postlara təyin edilmişdilər. Həmin zabitlərin vasitəsilə Almaniya türk ordusunun fəaliyyətinin müəyyən çərçivəyə salınması üçün hiss ediləcək imkanlara malik idi. Digər tərəfdən Almaniyanın Osmanlı hökumətinə təsiri də böyük idi və bu təsirdən də istifadə etməyə çalışırdı.

Batum konfransının davam etdiyi günlərdə türk qoşunlarının Gümrünü tutduğu və Zaqafqaziyanın içərilərinə doğru hərəkət etdiyi vaxt Almaniya ilə Türkiyə arasında münasibətlər çox gərgin bir mərhələyə qədəm qoydu. Nəzərə alınmalıdır ki, bu gərginliklərin kökündə Bakının, Bakı neftindən bəhrələnmək imkanının itirilməsi təhlükəsi dayanırdı. Türkiyə Azərbaycan arasında artan yaxınlığın eyni zamanda din, dil, etnik və mənəvi bağlılığından doğduğunu Almaniya heç bir vəchlə qəbul etmək istəmirdi. Onu Azərbaycan xalqının düşdüyü vəziyyətdə nicat yolunu aramaq cəhdləri də maraqlandırmırdı. Buna görə də Birinci Dünya müharibəsində Türkiyə ilə müttəfiq olan Almaniya Azərbaycana münasibətdə Türkiyəyə zidd gedən bir dövlətə çevrilmişdi.

Almanlar Osmanlı dövlətinin Hərbi Nazirliyində yüksək vəzifədə işləyən general fon Zekt vasitəsilə öz narahatçılıqlarını Ənvər paşaya belə çatdırmışdılar: «Türkiyənin Qafqaza hərəkəti oradakı müsəlmanlara yardım məqsədiylə də olsa, bu yardım dərhal durdurulmalı və bütün qüvvələr dərhal geri çəkilməlidir»(42).

Belə bir xəbərdarlıq ardınca Almaniya Silahlı Qüvvələri Baş Qərargah rəisi marşal Hindenburq Türkiyənin Azərbaycana doğru irəliləməsinə etiraz olaraq Ənvər paşaya rəsmi nota göndərdi. Həmin notada deyilirdi: «Şimali İranda və Əlcəzairdəki ingiliz təərrüzlərinin(hücumlarının–M.S.) önlənməsi və Əlcəzairdə qeyb edilən(itirilən–M.S) məmləkətlərin geri alınması xüsusunun zərərinə olaraq Qafqaz daxilində əmniyyət qüvvələri bulundurmaya məcbur edəcək surətdə və müttəfiq dövlətlərin, yeni Qafqaz hökumətləri arasında yeni düşmənlər çıxarmağa hərbi ümumi vəziyyəti müsaid deyildir. Bilxassə Bakı petrol məntəqəsinin hərbin idarəsi üçün pək böyük olan əhəmiyyəti diqqətə alınaraq Bakı sancağından əhalinin türk birlikləri və ya türk-tatar könüllüləri tərəfindən istirahətlərinin bozulmasından vaz keçilməsini tələb edirəm:

I. Ümumi komandanlıq namına sizdən aşağıdakı maddələrin yapılmasını rica edirəm.

1. Qars, Ərdəhan, Batum sancaqları müstəsna olmaq üzrə Qafqaz daxilindəki türk birliklərinin kamilən geri çəkilməsi;

2. Bu üç sancaq daxilində də yalnız asayişi təmin edəcək qədər əsgər buraxılmalıdır.

3. Gümrü xaric, Təbriz dəmir yolunun ancaq zəif türk qaraqolları tərəfindən mühafizə edilməsi;

4. Geridə qalan bütün türk birliklərinin kamilən Əlcəzairə və Şimali İrandakı ingilislərə qarşı istifadə edilməsi;

II. Yuxarıdakı maddənin 4-cü fikrində zikr edilən hərəkatın Qafqaz daxilində təminini və körpülərin qorunmasını Alman Ümumi Qərargahı üstünə alacaqdır. Bu məntəqə daxilində bullunan Poti–Tiflis və Tiflis–Bakı və Tiflis–Gümrü dəmir yollarını, xəttin əmniyyətini qorumaq üçün alman xətt qaraqolları işğal edəcəkdir.

III. 1.Xətlərin işlədilməsi indiyə qədər bu xətlərdə bulunan

dəmir yolları məmurlarına tapşırılmışdır. Qars, Gümrü, Culfa–Təbriz qismi üzərində bir türk nümayəndəsi və II maddədə zikr edilən hissələr üzərində bir alman nümayəndəsi Qafqaz dəmir yolu məmurları ilə bərabər, əsgəri nəqliyyat tənzim edəcəklər.

2. Bir alman rəisinin altında alman-türk və qafqazlılardan ibarət bir komissiyon da toplanaraq Qafqaz xətlərinin bərpası üzərində və Culfa–Təbriz qismi üzərində lokomotiv və vaqon təmin edilməsi və sairə ilə məşğul olmalıdır...»(43).

General-feldmarşal Hindenburq bu notasında bildirdiyi kimi Türkiyəni Qafqazdan sıxışdırmaq, Qafqazın bütün nəqliyyat qovşaqlarını öz nəzarəti altına almaq üçün əməli tədbirlərə də əl atırdı. Gürcüstanla əlaqələri genişləndirən Almaniya onunla imzaladığı ikitərəfli müqavilədən sonra bura hərbi qüvvələr də gətirmişdi. İyun ayının 3-də Krımda olan alman hərbi qüvvələrindən iki tabor Gürcüstan ərazisinə gətirildi. Bundan başqa məlumdur ki, alman hərbçiləri Gürcüstandakı yerli alman əsirlərindən ibarət qüvvələrin təşkilinə də xüsusi diqqət yetirirdilər. Doğrudur, bütünlükdə Gürcüstanda alman bayrağı altında birləşən hərbi qüvvələr türk qoşunlarının qarşısını almağa qadir olacaq dərəcədə deyildilər. Bununla belə bu qüvvələr Gürcüstanın müstəqilliyi elan edildikdən sonra Zaqafqaziya dəmir yolunu nəzarət altına aldılar. Alman-gürcü müştərək hərbi qüvvələri tezliklə Suxumi və Poti limanlarında, Tiflisdə, Gürcüstanla Azərbaycan arasındakı stansiyalarda, Tiflisdən Aleksandropola gedən dəmir yolu və quru yolları üzərində də görünməyə başladılar. Qafqazdakı mövqelərini möhkəmləndirmək üçün Berlin, Suriya cəbhəsindəki alman dəstəsini geri çağırdı və Ukraynadakı 217-ci piyada diviziyasının Gürcüstana göndərilməsini məqsədəuyğun saydı. Bütün bunların nəticəsi idi ki, Türkiyə ilə Almaniya arasında olan ixtilaflar dərinləşməyə başladı. Yaranmış vəziyyətdə çıxış yolunun tapılması üçün 1918-ci il iyun ayının 5-də Ənvər paşa ilə general fon Zekt Batuma gəldilər (44).

Ancaq görünür alman tərəfi Ənvər paşanın Batuma gəlməsinin Türkiyənin Qafqaz siyasətində Almaniyanın tələb etdiyi bir geriləmənin baş verəcəyinə inanmırdı. Alman marşalı Lyudendorfun

1918-ci il iyun ayının 6-da Ənvər paşaya yazdığı məktubundan da aydın görünür ki, Türkiyə Qafqaz siyasətində din, dil, mənəvi qardaşları olan Azərbaycan xalqına yardım etmək niyyətindən nəinki dönməmiş əksinə, bölgədə vəziyyətin gərginləşdirilməsində Almaniyanı günahlandırmışdı. Adı çəkilən məktubda deyilirdi: «Qafqaza çıxarılan Alman Ümumi Qərargahının səbəb olaraq göstərilməsinə təəccüb və heyrət etdiyimi sizə ərz etmək istəyirəm. Türkiyə Brestdə bağlanılan anlaşmaların Zaqafqaziyaya aid olan qismini müttəfiqlərini heç bir vəchlə diqqətə almadan pozmuşdur. Almaniya hökuməti buna qarşı əvvəlcə ehtiyat ifadə etmiş və belə bir hərəkətin nəticələrinə diqqəti yönəltmişdir».

Marşal Lyudendorf daha sonra öz məktubunda Ənvər paşanın nəzərinə çatdırırdı ki, general fon Lossov Poti–Tiflis–Aleksandropol dəmir yolu qismində xəttin mühafizəsini alman birliklərindən təşkil etmiş və bu sürətlə yalnız alman mənafelərini deyil, həm də Türkiyə mənafelərini təmin etmişdir. O, bir daha xəbərdar edirdi ki, əks təqdirdə müvafiq qərarlar qəbul etmək haqqını özündə saxlayır(45).

Marşal Lyudendorfun ardınca marşal Hindenburq da yenidən Qafqaz siyasətinə görə Türkiyəni hədələməyə başladı. Onun göndərdiyi məktubda deyilirdi: «Türkiyə ilə Zaqafqaziya hökumətləri arasında Almaniya, Avstriya-Macarıstan və Bolqarıstanın məlumatı olmadan yapılmış olan anlaşmaları təsdiq və qəbul etməyəcəyini indidən bildirir»( 46).

Almaniya rəhbərlərinin və hərbi liderlərinin bu hədə-qorxuları istər Ənvər paşa, istərsə də digər yüksəkrütbəli hərbçilər tərəfindən çox ciddiyyətlə qarşılanırdı. Almaniyanın Krım ətrafını ələ keçirməsi, Rusiyanın içərilərinə doğru hərəkət etməsi və nəhayət, Zaqafqaziyada möhkəmlənmək istəyini heç bir müttəfiqinin rəyini soruşmadan həyata keçirilməsinə baxmayaraq, Türkiyənin din, dil və etnik bağlılığı olan azərbaycanlıların rəsmi və qeyri-rəsmi kömək müraciətlərinə cavab verməsinin belə qəzəblə qarşılanması Osmanlı dövlət və hökumət dairələrində də qəzəblə qarşılanırdı. Elə bunun üçün idi ki, almanların hədə-qorxusunun əksinə olaraq Məhəmməd Vehib paşa tabeliyində olan hissələrin Aleksandropoldan Tiflisə doğru hərəkət etməsi barədə əmr verdi.

9-cu Qafqaz piyada alayının hərəkətə başlayan hissələri iyun ayının 10-da Borçalı vadisindən keçən dəmir yolu üzərində, habelə Xram vadisindən keçib Tiflisə gedən əsas yol üzərində yerləşən Voronsovkada alman-gürcü hərbi bölmələrinin müqaviməti ilə üzbəüz gəldi. Alman-gürcü müştərək qüvvəsinin tərkibinə fon Kressin yerli alman əhalidən təşkil etdiyi iki bölük və bir qədər də gürcü könüllü dəstəsi var idi. Elə ilk döyüşdə alman-gürcü qüvvələri pərən-pərən salındı. Çoxlu əsir götürüldü. Bu hadisə almanları yenidən qəzəbləndirdi. Alman Baş Qərargahından türklərə belə bir xəbər göndərildi ki, əgər türklər hərəkətlərindən əl çəkməsələr, Türkiyə ordusunda xidmət edən bütün alman zabitləri geri çağırılacaqdır(47). Marşal Hindenburq isə general fon Zektə belə bir xəbər göndərdi: «Türkiyənin müttəfiqlərinin məlumatı olmadan yaratdığı vəziyyətin ciddiyyəti haqqında Ənvər paşanın diqqətini Sizin də cəlb etmənizi rica edirəm. Osmanlı dövləti tutduğu və istiqaməti dəyişdirməyəcək olursa, bu dövlətə bu siyasətində artıq yardım edəcək bir vəziyyətdə qalmayacağıq» (48).

Almaniya ilə münasibətlərin bu dərəcədə kəskinləşməsinə yol verməmək üçün Ənvər paşa türk hərbi hissələrinin alman-gürcü qüvvələrinə qarşı hərəkətinin dayandırılması barədə əmr verdi. Onlardan alınmış əsirlər azad edildi. Almanların qəzəbinə düçar olmuş Vehib paşa Şərq Ordular Qrupu komandanlığından azad edildi və İstambula çağırıldı. Ənvər paşa bununla həm almanları razı salmağa çalışdı və digər tərəfdən də Azərbaycanla bağlı olan planların həyata keçirilməsinə rəhbərlik edəcək bir strukturun komandanlığına daha çox etibar etdiyi əmisi oğlu Xəlil paşanı təyin etdi. Bundan başqa, Yaqub Şövqi paşanın komandanlığı altında 9-cu Ordu təşkil edildi və bu ordu Aleksandropol–Culfa dəmir yolu ilə Aleksandropola göndərildi. 9-cu Ordu həmin bölgədə fəaliyyət göstərərək İrandan Bakıya doğru irəliləmək niyyətində olan ingilis qüvvələrinin qarşısını almalı idi. Bu addım da almanların planlarına müəyyən qədər cavab verirdi və onları razı salmalı idi(49).

Azərbaycanda yaradılacaq hərbi strukturlara Qafqaz İslam Ordusu adı verilməsi almanların qıcıqlandırılmaması üçün Ənvər paşanın irəli sürmüş olduğu bir təklif idi. Bununla, almanların nə-

zərinə çatdırılırdı ki, Azərbaycana türk ordusu yeridilmir. Əksinə, Azərbaycanda yalnız türk hərbçilərinin iştirakı ilə əsasını yerli əhali təşkil edəcək bir ordu yaradılır. İlk vaxtlar Qafqaz İslam Ordusunun elə bu cür də yaradılması nəzərdə tutulurdu. Lakin qısa vaxt ərzində mövcud təhlükənin aradan qaldırılması üçün yeni ordu yaradılması mümkün olmadığına görə, iki dövlət arasındakı müqaviləyə uyğun olaraq Azərbaycana türk qoşun hissələri də yeridildi (50).

Almaniya ilə münasibətlərin kəskin şəkildə pisləşməsinin qarşısının alınması üçün Ənvər paşa müəyyən ehtiyat tədbirlərinə əl atsa da, Azərbaycana yardım göstərmək, Azərbaycan xalqını bolşevik-daşnak işğalından və təhlükəsindən qurtarmaq niyyətindən heç vaxt əl çəkməmişdi. O, ardıcıl olaraq bu planın həyata keçirilməsi xəttini tutmuşdu və bu istiqamətdə atılan addımlar tezliklə öz nəticəsini də verdi.

## *2. Qafqaz İslam Ordusunun təşkilatlandırılması*

Azərbaycan xalqının intizarında olduğu yardımların göstərilməsi və bütünlükdə Osmanlı dövlətinin Azərbaycan və Qafqazla bağlı planlarının həyata keçirilməsi üçün lazımi hərbi qüvvələrin yaradılması 1918-ci ilin əvvəllərində artıq Ənvər paşa və onun silahdaşlarının diqqət mərkəzində idi. Həmin ilin yanvar və fevral aylarında, hətta bu qüvvələrin strukturu müəyyənləşdirilmiş və ona rəhbərlik edə biləcək bir neçə namizəd nəzərdən keçirilmişdi. Ənvər paşanın fikrincə, hər biri üç piyada alayından ibarət olan üç piyada diviziyasının yaradılması məqsədəuyğun idi. Bu üç diviziya bir korpusda birləşməli idi. Hərbi Nazirlik qərar vermişdi ki, 1-ci və 2-ci piyada diviziyalarının təşkili ilə məşğul olacaq iki zabit heyəti seçilib Mosulda yerləşən 6-cı Ordu komandanlığına, 3-cü piyada diviziyasının təşkili ilə məşğul olacaq başqa bir zabit heyəti isə Trabzona, 3-cü Ordu komandanlığına göndərilsin. Lazımi təlimatları aldıqdan sonra həmin heyətlərdəki zabitlər Azərbaycanda qurulacaq ordunun təşkilinə başlamalı idilər. Azərbaycana yollanacaq zabitlər üçün bir sıra güzəştlər nəzərdə tutulmuşdu. Bu zabitlərin rütbəsi bir pillə artırılmalı və onlara maaşlarının

iki misli həcmində aylıq vəsait verilməli idi(51).

Azərbaycanda yaradılacaq korpusa komandanlığın bir neçə başqa şəxsə təklif edilməsini Nuru paşa da öz xatirələrində təsdiq edirdi (52). N.Şeyxzamanlının yazdıqlarına görə, Azərbaycanda qurulacaq korpusun komandanlığına namizədliyi nəzərdən keçirilən şəxslərdən biri Prins Fərrux imiş. Ancaq təəssüf ki, N.Şeyxzamanlı bu şəxsin kimliyi haqqında əlavə bir məlumat verməmişdir. Ənvər paşa Prins Fərruxun Azərbaycandakı korpus komandanlığına namizədliyini nəzərdə tutmaqla bərabər, həmin korpusun qurulmasında iştirak edəcək zabitlərin seçilməsi üçün xüsusi bir komissiya da təşkil etmişdi. Onun tərəfindən N.Şeyxzamanlıya da bu komissiyanın işində iştirak etmək təklif olunmuşdu. N.Şeyxzamanlı bu barədə belə yazırdı: «...Paşa sonra mənə qərar qəbul etdiyini, Qafqaz İslam Ordusunun yaradılmasına başlanmasını və bir əlavə rütbə ilə zabit qeyd ediləcəyi üçün bir komissiya təşkil olunduğunu anlatdı və dedi: «Sizin də bu komissiyada olmağınızı məqsədəuyğun hesab edirik. İndi Siz yaradılacaq Qafqaz İslam Ordusunun komandiri Prins Fərrux ilə tanış edəcəm». İçəriyə bir zabit daxil oldu. Ənvər paşa bizi tanış etdi»(53).

N.Şeyxzamanlı onu da əlavə edir ki, Prins Fərruxun spirtli içkiyə aludəliyinin şahidi olduqdan sonra Ənvər paşa ilə növbəti görüşlərin birində Prins Fərruxun dəyişdirilməsini və onun yerinə qardaşı Nurunun Qafqaz İslam Ordusunun komandanı təsdiq edilməsini xahiş etdi. Ənvər paşa əvvəlcə Nurunun gənc olmasına görə tərəddüd etdi. Ancaq sonradan onu bu vəzifəyə təsdiq etdi. Nuru bəy dərhal lazım olan zabitlərin seçilməsi üçün təşkil edilən komissiyanın işinə rəhbərliyə başladı. N.Şeyxzamanlı da bu komissiyanın işində iştirak etdi. Lakin zabitlərin seçilməsi işinə qarışmırdı. Yalnız bir dəfə Qafqazdan olan bir mollanın təşkil edilən heyətin tərkibinə düşmək istəyinə qarşı çıxaraq buna lüzum olmadığını bildirdi və Nuru bəy də onun təklifini müdafiə etdi (54).

Nuru bəy Qafqaz İslam Ordusu komandanlığına təklif olunanda rütbəsi yarbay idi. Onu da yenicə almışdı. Belə bir rütbə ilə bir neçə diviziyadan ibarət olacaq bir orduya komandanlıq etməsi onunla ona tabe olacaq zabitlər arasında bir rütbə uyğunsuzluğu yarada bilərdi. Bu uyğunsuzluğu aradan qaldırmaq üçün ona

Sultan Mehmet tərəfindən feriqlik rütbəsi (general-leytenant) və bütün Qafqaz İslam Ordu hissələrinə komandanlıq vəkaləti verildi (55). Padşah tərəfindən verilən fərmanla Nuru paşa həm də padşah yavəri elan edildi və Qafqazda ona padşahın siyasətinin təmsilçisi səlahiyyəti verildi.

Nuru bəydən öncə Qafqaz İslam Ordusuna rəhbərlik etmək o vaxtlar albay(polkovnik) olan Kazım Qarabəkir paşaya da təklif olunubmuş. Kazım Qarabəkir paşanın sonralar yazdığına görə, bu təklif ona Ənvər paşa tərəfindən 1918-ci il fevral ayının 23-də edilibmiş. Ancaq Kazım bəy həmin vaxt Ərzurumun azad edilməsi uğrunda döyüşlərdə iştirak etdiyindən o, Ənvər paşadan hələlik Ərzurum ətrafında qalmasına razılıq verilməsini xahiş etmiş və belə bir razılığı da almışdı. Ərzurum alındıqdan və Trabzon konfransı işə başladıqdan sonra bu ərazilərdə bir sakitlik yarandığı üçün Kazım Qarabəkir paşa daha qaynar bir cəbhə olacaq Qafqaza getməyə və Azərbaycanda yaradılacaq orduya rəhbərlik etməyə hazır olduğunu Ənvər paşaya çatdırmışdı. Lakin Ənvər paşa bu vəzifəyə artıq qardaşı Nurunun təsdiq edildiyini və Şimali Qafqazda yaradılacaq qüvvələrə komandanlıq etməyi ona tapşıra biləcəyini söylədi. Kazım bəy biləndə ki, Şimali Qafqaza gedərsə, birdən-birə yarbaylıq rütbəsindən feriqlik rütbəsinə yüksəlmiş Nuru paşanın rəhbərliyi altında çalışacaq, onda bu təklifdən də imtina etdi(57).

İstambulda təşkil edilmiş komissiya tərəfindən zabitlərin seçilməsi Qafqaz İslam Ordusunun qurulması istiqamətində atılan ilk əməli addımlardan biri idi. Həmin komissiya tərəfindən Qafqaz İslam Ordusunun qərargahı üçün 20 nəfərədək zabit seçildi. Komissiya işini bitirən kimi Nuru paşa təyyarə ilə Mosula yola düşdü. Onun seçdiyi zabit heyəti isə quru yolla hərəkətə başladı və 1918-ci il mart ayının 25-də Mosula çatdı. Nuru paşa burada ikən 6-cı Ordu komandanlığından vəziyyətin öyrənilməsi üçün Qafqaza göndərilmiş zabit Müzəffər bəyin geri qayıtdığını eşitdi və onunla görüşdü. Müzəffər bəyin verdiyi məlumat mart qırğınlarından sonra Azərbaycanda vəziyyətin xeyli mürəkkəbləşdiyini təsdiqləyirdi. Eşitdiyi bu xəbərdən sonra Nuru paşa Azərbaycana doğru hərəkəti sürətləndirməyə çalışdı. Ancaq Mosulda da o, bir

sıra təşkilati işlərlə məşğul olmalı idi. Hər şeydən əvvəl isə Qafqaz İslam Ordusunun təşkili üçün zəruri olan kadrları seçməli idi. Bunun üçün Mosulda 6-cı Ordudan 149 zabit və məmur, 488 gizir və əsgər seçildi. Bütün bu şəxslər də 1918-ci il aprel ayının əvvəllərində Azərbaycana yola salındı. Seçiləcək digər zabitlər və hərbçilər isə sonradan Azərbaycana yola salınmalı idi(58).

Nuru paşa Mosuldan 1918-ci il aprel ayının 8-də yola düşdü. Səfər zamanı ərzaq çətinlikləri olduğu üçün o, bütün dəstəni 20–30 nəfərlik qruplara böldü və bu qruplar bir-birinin ardınca hərəkətə başladı(59).

Nuru paşanın Mosuldan hərəkətə başlaması ərəfəsində, yəni 1918-ci il aprel ayının 5-də Ənvər paşa Qafqaz İslam Ordusunun təşkili və vəzifələrinə aid Təlimatnaməni təsdiq etdi. Bu Təlimatnamə Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələri və fəaliyyət istiqamətlərini müəyyənləşdirən bir rəsmi sənəd idi. Həmin sənəddə deyilirdi:

«1. Qafqaz ordusunun təşkilində məqsəd qafqazlıların təşkil edəcəyi ordunun əsasını vücuda gətirmək və bu əsası tədricən genişləndirmək və qafqazlı əsgərlərə təlim vermək və Qafqazda yüksək islam mənfəətlərini və hüquqi-müqəddəsi-xilafəti və Dövləti-Osmaniyyə ilə rəvabiti-siyasiyyə və əsgəriyyəni təsis etməkdir. Bu təşkilat tədricən böyük Rusiya daxilindəki islamların imkanı dairəsində təşkil ediləcəkdir.

2. Ordu komandanı indilik Osmanlı hökumətinin və İslam xəlifəsinin Qafqazda ən böyük müməssilidir (nümayəndəsidir-red.).

3. Ordu Kurmay başqanı (qərargah rəisi–red.) yalnız əsgəri məsələlərlə məşğul olacaq və heç bir şərtlə bunun xaricindəki işlərə müdaxilə etməyəcəkdir.

4. Ordu komandanı siyasi məsələləri Siyasi işlər şöbəsinin köməyi ilə müstəqimən həyata keçirəcəkdir.

5. Ordu komandanı lüzum gördüyü zaman Kurmay başqanı və Siyasi işlər şöbəsi müdirliyinin işlərini yoxlayaraq qərar verə bilər.

6. Orduya rəhbərlik və komandanlıq işlərinin həyata keçirilməsi və təchizinə aid olan məsələlər eynən digər ordular kimi Hərbiyyə Nazirliyi aparatı və müvafiq şöbələr tərəfindən icra edi-

ləcək və buna görə də həmin məsələlər barədə Nazirliyə müraciət ediləcəkdir.

7. İslam məsələləri, siyasət, iqtisadi məsələlər birbaşa hərbiyyə nazirinə ərz olunacaqdır.

8. Ordunun sıravi heyətinin yerlərdən toplanması Ordu komandanlığına aiddir.

9. Ordunun silahlandırılması və təchizi, geyim və iaşəsi və s. məsrəfləri hələlik Osmanlı Hərbiyyə Nəzarəti tərəfindən ödəniləcəkdir.

10. Qafqaz Ordusunun şəxsi heyəti arasında cərəyan edən hüquqi münasibətlər və cəza işləri tamamilə Osmanlı Ordusunda cari olan qanunlar və qaydalara tabedir. Ancaq Ordu komandanı yerli şəraitə görə yerli əsgərlər haqqında bəzi xüsusi qanunların müsaidəsi nisbətində cəzanı azalda və çoxalda bilər.

11. Fəxri olaraq üst rütbə daşıyan zabitlər Qafqazda olduqları müddət ərzində fəxri rütbələrin səlahiyyətlərinə malikdirlər.

12. Ordunun İstambula aid olan işlərinin və Ordunun şəxsi heyətinin ailələrinə aid olan işlərin icrası və sürətləndirilməsi Omuri-Şərqiyyədəki xüsusi şöbə tərəfindən icra ediləcəkdir (60)».

Nuru paşanın zabit heyəti çətin yol şəraiti ilə irəliləyərək Rəvandüzdən keçib aprelin 26-da Pesvaya, aprelin 29-da Savucbulağa və may ayının 9-da Təbrizə çatdı. Heyət bir neçə gün Təbrizdə ləngiməli oldu. Bu da Urumiya gölü ətrafında gedən döyüşlərlə və Təbrizin özündə mövcud olan ictimai-siyasi şəraitlə bağlı idi. Urumiya gölü ətrafında türk qoşunları ilə erməni silahlı dəstələri üz-üzə gəlmişdilər. Yerli əhali erməniləri müdafiə edən ingilislərin və fransızların mühasirəsindən qorxaraq Təbrizə axışırdı. Digər tərəfdən də Təbrizdə osmanlıpərəst İttihad partiyası ilə irançı Demokrat partiyası tərəfdarları arasında silahlı qarşıdurma olmuşdu. Azlıqda qalan İttihad partiyasının tərəfdarları qaçaraq Nuru paşanın olduğu yerə pənah gətirmişdilər. Hələ Təbrizdə ikən Nuru paşa Bakıya can atan ingilis qoşun hissələri barədə məlumat toplamaq üçün onunla birlikdə olan İbrahim Kamal bəyə tapşırıq verdi. Yüzbaşı İbrahim Kamal bəy Urumiya gölü ətrafından geri çəkilən ingilislərin vəziyyəti haqqında mümkün məlumatı topladıqdan sonra Gilan məntəqəsinə hakim olan Kiçik xanla

görüşməli, Azərbaycandakı İslam Ordusu hissələri ilə Kiçik xanın silahlı dəstələrinin İrandakı ingilis qoşunlarına qarşı birgə fəaliyyətinin nizamlanması imkanlarını öyrənməli idi. Sonra İbrahim Kamal bəy Ənzəlidən dəniz yolu ilə Bakıya gəlməli və şəhərdəki hərbi vəziyyət barədə məlumat toplayaraq Gəncəyə yollanmalı idi (61).

Nuru paşanın heyəti 1918-ci il may ayının 12-də Savucbulaq–Təbriz–Alacücə yolu ilə Təbrizdən hərəkət edərək həmin ayın 20-də Araz çayına çatdı və heyət çayı sal ilə adladı. Nuru paşanın dəstəsi Azərbaycanın Zəngəzur bölgəsinə daxil oldu və elə ilk andan da yerli əhalinin böyük sevinci və rəğbəti ilə qarşılandı. Dəstənin Zəngəzura çatdığı vaxt burada erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı təcavüzkarlığı çox böyük miqyas almışdı. Bu təcavüzkarlığın qarşısını almaq və yerli əhalidən müqavimət dəstələri yaratmaq üçün Nuru paşa bir neçə türk zabitini həmin bölgədə saxladı. Yüzbaşı Xəlil bəy adlı bir zabitlə başqa iki türk zabiti isə Naxçıvan və Ordubad bölgələrinə göndərildi. Həmin zabitlər də bu məntəqələrdə erməni təcavüzünə qarşı yerli müqavimət dəstələrinin təşkilatlandırılması ilə məşğul olmalı idi (62).

Nuru paşa xatirələrində qeyd etdiyinə görə o, Cəbrayıl–Ağdam–Tərtər marşrutu ilə Yevlaxa gəlmişdi. May ayının 24-də Yevlaxda böyük qarşılanma mərasimi oldu(63). Nuru paşa heyəti ilə birlikdə hələ Qarabağda olarkən bundan Gəncədə xəbər tutulmuş və həmin heyətin qarşılanması üçün xüsusi bir heyət təşkil edilmişdi. Bu heyət Nuru paşanı hələ Qarabağda ikən qarşılamış və oradan Yevlaxa qədər müşayiət etmişdi(64).

Azərbaycanın bir çox məntəqələrinin nümayəndələri də Nuru paşanın qarşılanmasına toplanmışdı. Nuru paşaya görə, Qafqaz İslam Ordusu qərargahının əvvəlcə Nuxada yaradılması qərara alınmışdı. Lakin bir tərəfdən Nuxa ətrafında erməni dəstələrinin fəallığı, digər tərəfdən də oranın əsas nəqliyyat xətlərindən uzaqlığı nəzərə alındığı üçün qərargahın Gəncədə təsis edilməsi məqsədəuyğun bilindi. May ayının 24-də axşam Yevlaxdan yola düşən heyət səhərisi gün, yəni 1918-ci il may ayının 25-də Gəncəyə daxil oldu (65).

Türkiyə hərbi qüvvələrinin tərkibində Azərbaycanda olmuş za-

bit Mucib Kamalyeri Nuru paşanı müşayiət edən dəstənin tərkibi haqqında belə yazmışdı: «Ənvər paşanın qardaşı və Qafqaz İslam Ordusunun komandanı ünvanı daşıyan fəxri feriq (fəxri korgeneral) Nuru paşa böyük qərargahı ilə birlikdə İran yolu üzərindən və alayımızdan iki həftə əvvəl Gəncəyə gəlmiş bulunurdu. Qərargahını şu zevatdan təşkil etmişdi – ordu kurmay başqanı bir alman albay, ərkani-hərbiyyəsi – kurmay minbaşı Nazim bəy (Kutahyada şəhid olmuşdur), kurmay minbaşı Tofiq bəy (cümhur başqanının əski ümumi katibi), kurmay minbaşı Nəim bəy, topçu komandanı minbaşı Kamal Doğan (əski Qırxlareli məbusu), ordu yavəri teğmən Asif əfəndi ( Qılınc Əli bəy), üstteğmən Müzəffər (təqaüddə olan orgeneral Müzəffər Tuğsavul), süvari yüzbaşı ədirnəli Sami (Atatürkün yavərlərindən minbaşı Sami Yanardağ), Əhməd Ağaoğlu (Səməd Ağaoğlunun babası – siyasi müşavir) və s.» (66).

M.Ə.Rəsulzadə Nuru paşanın Gəncədə qarşılanmasını belə təsvir edirdi: «Mavərayi-Qafqas heyəti-mürəxxəsəsi ilə türk heyəti-mürəxxəsəsi Batumda məşğuli-müzakirə ikən Nuru paşa ilə bərabər, məiyyətində bulunan bir kaç zabiti İran və Qarabağ təriqilə Gəncəyə varid olmuşlardı. O zaman müdhiş bir anarşiyə məruz, digər tərəfdən də bolşevik təcavüzü ilə təhdid olunan Gəncə Nuru paşanı göydən enmiş xilaskar bir mələk kimi tələqqi etmişdi. Xəlqin kəndisinə yapdığı istiqbal Gəncə tarixində görülməmişdir» (67).

Nuru paşa Gəncəyə gəldikdən sonra dərhal Azərbaycanın müxtəlif məntəqələri ilə əlaqə yaratdı və həmin məntəqələrdə müqavimət dəstələrinin təşkilinin genişləndirilməsinə cəhd göstərdi. Onun sözlərinə görə, az zaman içərisində Gəncə-Qazax, Zaqatala, Nuxa, Ağdam, Ağdaş, Cəbrayıl, Qarabağ və Zəngəzurun şərq tərəflərini əhatə edən məntəqələrdə asayişin təmini üzrə idarə və komandalar təsis edilmişdi (68).

Qazax istiqamətində isə Gürcüstanla sərhəddə vəziyyət heç də belə sakit deyildi. Alman hərbçiləri tərəfindən rəhbərlik edilən müştərək gürcü-alman hərbi bölmələri Gürcüstanın bütün hərbi nəqliyyat qovşaqlarını nəzarət altına almaqla Sadaxlı ilə Qarayazını da işğal etmişdilər. Bununla kifayətlənməyən müştərək

qüvvələr Poylu körpüsünün cənubuna adlayaraq Poylu və Ağstafa stansiyalarını da nəzarət altına aldılar. Bu stansiyaların hər birində bir müştərək dəstə yerləşdirilməklə bərabər, orada alman və gürcü bayraqları qaldırılmışdı. Nuru paşa bildirirdi ki, bunun dözülməz olduğu üçün yerli əhali ayağa qalxmış, gürcü və alman bayraqlarını yerə endirməklə bərabər, yad qüvvələri də Kür çayının o biri tərəfinə qovmuşdu (69).

Mövcud olan faktlardan aydın olur ki, Nuru paşa Gəncəyə çatması barədə Kərim bəy Vəkilov adlı birisi ilə Batumda olan 3-cü Ordu komandanı Vehib paşaya məlumat göndərmiş və onun diqqətini Azərbaycanda olan milli qüvvələrin azlığına cəlb etmişdi. Həmin məlumatda bildirilirdi ki, bolşeviklər Dağıstan və Şimali Qafqazı tamamilə ələ keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı şəhəri tezliklə tutulmazsa, buralarda vəziyyət daha təhlükəli bir hal alacaqdır.

Nuru paşa daha sonra qeyd edirdi ki, azərbaycanlılardan təşkil olunmuş korpusda şəxsi heyətin sayı çox azdır. Burada əsgərdən daha çox zabit vardır. Nuru paşaya görə, korpusda cəmi 1000 nəfər var idi və onların da yarısı türk əsirləri idi. Ona görə də qeyd edirdi ki, Bakı məsələsi yardımsız həll edilə bilməz. İslam Ordusu komandanı əlavə edirdi ki, Azərbaycanda xeyli taxıl ehtiyatları mövcuddur və əhali səbirsizliklə türk qüvvələrinin gəlməsini gözləyir (70).

Bu yazdıqları ilə Nuru paşa da Azərbaycanda çox mürəkkəb bir vəziyyətin mövcud olduğunu təsdiqləyirdi. Məhz belə bir mürəkkəb vəziyyətdə Azərbaycan xalqının həyatında tarixi bir hadisə baş verdi. 1918-ci il may ayının 28-də fəaliyyətini dayandırmış Cənubi Qafqaz Seyminin Azərbaycan fraksiyasının üzvlərindən təşkil edilmiş Milli Şura Azərbaycanın dövlət müstəqilliyini elan etdi. Milli Şura tərəfindən qəbul edilən və yeni dövlət quruculuğunun əsas istiqamətlərini müəyyənləşdirən «İstiqlal bəyannaməsi»ndə Azərbaycanın müstəqilliyinin qazanıldığı tarixi şərait belə təsvir olunurdu: «Böyük Rusiya inqilabı gedişində Rusiyada dövlət orqanizminin ayrı-ayrı hissələrinin dağılması və rus ordusunun Cənubi Qafqazı tərk etməsi ilə burada yeni siyasi vəziyyət yarandı. Taleləri öz ixtiyarına buraxılmış Cənubi Qafqaz xalqları isə Cənubi

Qafqaz Xalqları Demokratik Federativ Respublikasını yaratdılar. Lakin siyasi hadisələrin sonrakı gedişində gürcü xalqı Cənubi Qafqaz Federativ Respublikasının tərkibindən çıxmağı və müstəqil Gürcüstan Demokratik Respublikası yaratmağı münasib bildi. Rusiya və Osmanlı imperiyası arasındakı müharibənin dayandırılması, eyni zamanda ölkə daxilindəki görünməmiş anarxiyanın ləğvi ilə bağlı olan Azərbaycanın mövcud siyasi durumu Azərbaycan xalqlarını düşdükləri ağır vəziyyətdən çıxartmaq üçün Şərqi və Cənubi Qafqazdan ibarət olan Azərbaycanın öz dövlət orqanizmini yaratmaq zərurətini qarşıya çıxarır» (71).

Dövlət müstəqilliyi elan edilərkən Milli Şuranın hakimiyyəti Azərbaycanın yalnız bir hissəsinə yayılırdı. Bakı və onun ətrafı bolşeviklərin hakimiyyəti altında idi. Bu parçalanmanı aradan qaldırmaq, Azərbaycanın ərazisində mövcud olan hər cür anarxiyaya son qoymaq və bütünlükdə qazanılmış olan dövlət müstəqilliyini qorumaq üçün milli müdafiə qüvvələrinin möhkəmləndirilməsi yeni dövlət quruculuğunun aktual vəzifələrindən biri kimi qəbul edildi. Ona görə də may ayının 28-də təsdiq edilmiş Azərbaycanın ilk hökumət kabinəsinin tərkibində hərbi nazir postu da nəzərdə tutulmuş və bu vəzifə Xosrov bəy Sultanova həvalə edilmişdi (72).

Yeni yaradılmış Nazirliyin qarşısında çox mürəkkəb və mühüm vəzifələr dayanırdı. Həmin vəzifələrin mühümlüyü tarixi şərait və zərurətlə bağlı idisə, mürəkkəbliyi müstəqil dövlətin hərbi strukturlarının yaradılması işində təcrübənin olmaması, vəsait və imkanların məhdudluğundan irəli gəlirdi. Müstəqilliyin elan edilməsi ilə Gürcüstan dövləti Azərbaycan ərazisində olan qoşun bölmələrini geri çağırmış (73), milli hissələrin Tiflisdən həyata keçirilən təchizatı dayandırılmışdı (74). Ona görə də, Müsəlman Korpusunun formalaşdırılmasının davam etdirilməsi bütünlüklə yeni hökumətin üzərinə düşdü.

Bu proses nə qədər ağır olsa belə, Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi və ordu yaradılmasının yeni keyfiyyətdə davam etdiriləcəyi Azərbaycan milli hərbçiləri tərəfindən sevinclə qarşılandı. Müsəlman korpusunun komandiri, general-leytenant

Ə.Şıxlinski 1918-ci il may ayının 28-də Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən dərhal sonra yeni dövlətin Hərbi Nazirliyinin təşkil edilməsinin layihəsini hazırladı. O, bu layihəyə lazımi sxemlər, zəruri qeydlər əlavə etmiş və bitkin bir sənəd kimi hökumətə göndərmişdi (75).

Ə.Şıxlinskiyə görə, Hərbi Nazirliyin strukturu ordunun təşkili, təlim və tərbiyəsi, təchizatı üçün zəruri olan bütün komponentləri özündə birləşdirməli idi. Bu prinsipi əsas götürərək general hazırladığı layihədə Nazirliyin strukturunda – 1) Dəftərxana, 2) Ərkani-hərb (Baş Qərargah), 3) Ləvazimat idarəsi, 4) Topçu idarəsi, 5) Hərbi-texniki idarə, 6) Məhkəmə və 7) Tibb xidməti nəzərdə tutulmuşdu. Bundan əlavə, güman edilirdi ki, hərbi nazir vəzifəsinə mülki şəxs təyin edilərsə, o, öz yanında azsaylı, lakin bacarıqlı şəxslərdən ibarət Hərbi Şura təşkil etməli və qoşunların təşkilini, təlim və tərbiyəsini daim nəzarət altında saxlamaq üçün öz müavinini təyin etməlidir.

Layihəni hazırlamaqla bərabər, general Ə.Şıxlinski göstərilən vəzifələrə kimlərin təyin edilə bilməsini də dəqiqləşdirmiş və həmin şəxslərin razılığını almışdı. O, Nazirliyin Dəftərxanasının təşkilinə xüsusi diqqət yetirir və bu işi təşkil etmək üçün Rusiya Hərbi Nazirliyində uzun müddət çalışmış Genşelmanın dəvət edilməsini məsləhət bilirdi.

Ordunun idarəetmə orqanlarının çevikliyinə, vəsaitlərin istifadə edilməsində qənaətçiliyə nail olmaq üçün Ə. Şıxlinski Müsəlman korpusunun qərargah və idarələrinin şəxsi heyətinin ixtisar edilməsini və azad olmuş zabitlərin Hərbi Nazirliyin aparatının təşkilində istifadə edilməsini lazım bilirdi. O, döyüş keyfiyyətləri ilə seçilən yapon ordusunu nümunə gətirərək göstərirdi ki, bu orduda heç vaxt korpus sistemindən istifadə olunmayıb. Ona görə Azərbaycanda da korpusun saxlanılmasına ehtiyac yoxdur və diviziyaları birbaşa hərbi nazirə, ya da onun köməkçisinə tabe etmək lazımdır. Zabit kadrlarının çatmadığı üçün Ə.Şıxlinski yeni Nazirliyin idarə və şöbələrinin ştatını da mövcud imkanlara uyğun olaraq qurmağı məsləhət görürdü (76).

Bütün bu deyilənlər Hərbi Nazirliyin yaradılması üçün Ə.Şıxlinskinin hazırladığı birinci layihənin əsasını təşkil edirdi. Bundan başqa, general ikinci bir layihə də hazırlamışdı. Həmin layihəyə görə, Müsəlman korpusunun komandiri hərbi nazirin müavini təyin edilməli və hərbi məsələlərlə bağlı hökumət orqanlarında aparılan bütün müzakirələrdə nazirlə birlikdə iştirak edərək həlledici səsə malik olmalı idi. Yəni hərbi nazirin mülki şəxs olması ilə bağlı sırf hərbi xarakterli məsələlərin müzakirəsinin və icrasının ağırlıq mərkəzi, əsasən, korpusun komandanlığı üzərinə keçirilməli idi. Bununla bağlı olaraq bəzi hərbi vəzifələri, o cümlədən çağırış və səfərbərlik, təchizat məsələlərini öz üzərinə götürəcək ştatların Hərbi Nazirliyin aparatında deyil, korpusun qərargahında açılması təklif olunurdu (77).

Ancaq Ə.Şıxlinski birinci layihəyə daha çox üstünlük verirdi. Bu layihənin tətbiq edilməsi böyük qıtlığı hiss olunan zabitlərin, çin dərəcəsi olan məmurların səmərəli istifadəsinə, maliyyə vəsaitlərinin qənaətlə işlədilməsinə, aralıq idarəetmə orqanlarının ləğvinə və bununla da bütünlükdə idarəetmənin çevik xarakter almasına yol aça bilərdi.

General Ə.Şıxlinskinin hökumətə təqdim etdiyi layihələrin hər ikisi həyata keçməmiş qaldı. Hökumətin sədri F.Xoyski sonralar parlamentdəki çıxışında bildirmişdi ki, bu vaxt Azərbaycanın öz ordusu yox idi (78). Hərbi böhran isə dərinləşməkdə davam edirdi. Ona görə də belə bir vaxtda Hərbi Nazirliyin formalaşdırılmasına xeyli vaxt və vəsait ayrılması məqsədəuyğun bilinmirdi.

Belə bir vəziyyətdə Nuru paşa məktubla Ənvər paşaya müraciət etdi və Azərbaycanda mövcud olan qüvvələrlə Qafqaz İslam Ordusu komandanlığı qarşısına qoyulan vəzifələrin həllinin qeyri-mümkün olduğunu onun nəzərinə çatdırdı. İyun ayının 2-də yazdığı cavab məktubunda Vehib paşa Nuru paşanı Gəncəyə çatması münasibətilə təbrik etdi və qaldırdığı məsələ ilə əlaqədar bunu bildirdi: "....Azərbaycan hökuməti-müstəqileyi-islamiyyəsinin tələbi əsasında islamları bolşevik təcavüzündən qurtarmaq üçün qarışıq qüvvətli bir müfrəzəni (dəstəni–red.) Qazax üzərindən Gəncə istiqamətinə göndərəcəyəm. Bu müfrəzənin süvari-

ləri Qazax ilə Gəncə arasındakı stansiyaları mühafizə edəcəkdir". Vehib paşanın yazdıqlarından aydın olurdu ki, bu dəstə Qafqaz İslam Ordusunun tərkibinə daxil olmalı deyildi və müstəqil fəaliyyət göstərməli idi(79).

3-cü Ordu komandanının bu qərarına uyğun olaraq 5-ci Qafqaz diviziyası 9-cu Qafqaz alayına hərəkətə hazırlaşmaq əmri verildi. İyun ayının 2-də verilmiş həmin əmrdə (80) göstərilirdi ki, nəzərdə tutulan məntəqələrdə alman hərbi dəstələri mövcud olarsa, onlara məntəqəni tərk etmək təklif edilsin. Əgər bu xəbərdarlığa qulaq asmazlarsa, onda silahları əllərindən alınaraq əsir edilsinlər və Qarsa yola salınsınlar. Müqavimət göstəriləcəyi halda silahdan istifadə olunmasına icazə verilirdi.

Əmrə əsasən Qazaxdan başlayaraq Gəncəyədək olan dəmir yolu xəttini süvari minbaşısı Zehni bəyin komandası altında olan mürəttəb ikinci süvari alayı (türk süvari alayı idi–M.S.) qorumalı idi. Tərkibinə 19-cu və 42-ci bölüklər daxil olan bu alay Cəlaloğludan yola düşməli və ən qısa yolla özünü Qazaxa çatdırmalı idi. Alayın bir bölməsi Qazaxda qalaraq stansiyanın mühafizəsini öz üzərinə götürməli, qalan hissəsi isə irəli hərəkət etməli idi. Gəncəyə kimi olan stansiyaların hər birində bir zabit tərəfindən rəhbərlik edilən bölmələr dayanmalı idi.

Zehni bəyin komandası altında olan süvari alayı müstəqimən Qrup (3-cü Ordu komandanına tabe olan bir hərbi vahid idi–M.S.) komandanlığına tabe olmalı və bu komandanlıqla öz əlaqəsini 5-ci Qafqaz diviziyası vasitəsilə qurmalı idi. Bu əlaqəni yaratmaq üçün Sadaxlı və Sənain stansiyalarının hər birində bir zabitin rəhbərliyi altında 15 süvari dayanmalı idi. Həmin süvarilər Tiflis–Qarakilsə dəmir yolu xəttini də nəzarət altında saxlamalı idilər. Borçalı bölgəsində türk zabitlərinin rəhbərliyi altında yaradılmış olan könüllü müqavimət dəstələri Sadaxlıdakı süvari postlarına qoşularaq onları möhkəmləndirməli idilər. Qazax ətrafında təşkil edilmiş könüllü dəstələr isə buradakı süvari alayına qoşulmalı idilər.

Zehni bəyin süvari alayı Qazaxdan Gəncəyə qədər olan dəmir yolu xəttinin mühafizəsini təmin etdikdən sonra 5-ci Qafqaz diviziyasının minbaşı Cəmil Cahid bəyin komandası altında olan

9-cu piyada alayı Gəncəyə doğru hərəkətə başlamalı idi. Alay Gəncədə yerləşməli və Qrup komandanlığının tabeliyində qalmalı idi. Gəncədə olduğu vaxt alay xidmətin təşkili ilə bağlı Nuru paşanın əmrlərini yerinə yetirməli idi. Gəncəyə hərəkət edən 9-cu piyada alayının tərkibində iki tabor, 10 ədəd pulemyot və iki ədəd top var idi. Qrup komandanının əmrinə əsasən 9-cu alay mümkün qədər toplu halda yerləşərək heç yerə dağılmamalı idi. Say tərkibi etibarilə iyunun 4-də səhər saat 6-da Cəlaloğlu–Privolnaya yolu ilə Gəncəyə doğru hərəkətə başlayan 9-cu alayda 1336 nəfər var idi ki, onlardan da 61 nəfəri topçu idi .

1917-ci il iyun ayının 7-də 9-cu Qafqaz alayı Qazaxa çatdı. Bu alayın 1-ci taborunun bölük komandiri Mucib Kamalyeri öz xatirələrində Qazaxda qarşılanmalarını belə təsvir edirdi: «Mayıs 1918 sonlarına doğru 9-cu Qafqaz alayı yalnız başına Azərbaycana hərəkət etməli idi. Alay komandanı yenə Cəmil Cahid bəy idi (Toydəmir). Bu sətirlərin naçiz yazarı üstteğmən Mucib 25-ci taborun birinci bölüyünə komandirlik etməkdə davam edirdi... uzun və məşəqqətli bir yürüşdən sonra Azərbaycana təbii Bakı–Batum dəmir yolu üzərindəki Qazax şəhərinə 7 haziran (iyun – M.S.) 1918-də xalqın sonsuz göstəriləri içində girildi... Ertəsi gün istasyonda bizim üçün hazırlanmış trenə mindik və o zaman Azərbaycanın mərkəzi sayılan Gəncəyə hərəkət etdik» (81).

Bir gün sonra, yəni 1918-ci il iyun ayının 9-da 9-cu Qafqaz alayının Gəncədə qarşılanması oldu. Bu alayın Gəncəyə yetişməsi yerli xalqın, milli mübarizə fəallarının və o cümlədən də elə Nuru paşanın böyük sevincinə səbəb oldu. Çünki bu alayın fəaliyyəti ilə Azərbaycanın istiqlalının qorunması, Azərbaycanın istiqlalına qənim kəsilmiş qüvvələrə güclü zərbə endirilməsi və nəhayət, Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının konkret nəticələrə çatması üçün əməli işlər görə bilərdi.

Alayın bölük komandiri Mucib Kamalyeri öz xatirələrində Gəncədə necə qarşılanmalarını da təsvir etmişdir: «Qatarın sürəti birdən-birə azalmağa başladı. Lokomotivin uzun-uzun solumaları da getdikcə azalırdı. Qatarın pəncərələrini dolduran yağış başlar Azərbaycan bayraqları ilə bəzədilmiş olduqca böyük bir vağzala

girildiyini gördülər. Şübhəsiz burası Gəncə idi (9 iyun 1918).

Gəncə istasyon meydanında möhtəşəm qarşılanmanın sevinc və həyəcanı alayımızı həqiqətən sərxoş etmişdi. Artıq incəbelli, Qafqaz qiyafətli azəri türklərinin sıcaq çevrəsi içində idik. İndi o anı görmənin, yaşamanın həyəcanını dilə gətirmək asan deyildir. Ancaq bu qədər deyə bilərik ki, əsrlərdən bəri əsarət altında qalmağa məhkum edilmiş olan irqdaşlarımızın hürriyyət və istiqlallarına qovuşmalarının sonsuz sevincini paylaşdığımız olağanüstü bir bayram günü idi o gün.

Qatarımız Gəncə stansiyasına girdiyi zaman Nuru paşa məiyyəti ilə bizi qarşılayanların ən başında yer almışdı. Çox gənc, qarasaqqallı və yaraşıqlı bir insan idi. Qatardan endiyimiz yerdə, həmən oradaca ona qarşı toplu halda rəsmi vəziyyət alan subaylara bu qısa müraciətdə bulundu:

– Ənvər paşanın Azərbaycanda və Rusiyadakı bütün türk aləmində ümid və sevgilərlə anıldığını, onun böyləsinə yayılmış şöhrətindən istifadə edilməsi məqsədilə özünün ordu komandanlığına təyin edilmiş olduğunu söylədi. Fəqət ən ağır vəzifə məsuliyyətlərinin tarixi şərəfi ilə bərabər, bizlərin çiyinlərinə yüklənmiş olduğunu bilməyimizin lazım gəldiyini də əlavə etdi...

İndi bizdən əvvəl Gəncəyə gəlmiş bulunan Nuru paşa və kurmay heyətinin Azərbaycanın iç savaşlarını dəqiq anlayışla gözdən keçirmiş olduqları pək təbii idi. İşdə bu ordu qərargahından alınan əmrə görə, bacarıqlı alay komandirimiz daha o gecə taborları mümkün olan cəldliklə və düzənlə hərəkətə keçirdi. Bu səfərdə Azərbaycanın müqəddəs istiqlalı uğruna yeni başdan müharibələr verilməsi gərəkiyordu» (82).

Türk qoşun hissələrinin Azərbaycana göndərilməsi ilə bağlı Qrup komandanlığının istər yuxarıda toxunulan, istərsə də digər əmrlərində açıq-aydın qeyd edilirdi ki, bu hissələr təşkilati baxımdan Qafqaz İslam Ordusuna daxil deyildir. Lakin həmin hissələr Nuru paşaya da onun qarşısında dayanan vəzifələrin həllində lazımi yardımlar göstərməli idilər.

Türk ordusunun ilk qoşun hissələrinin Azərbaycana hərəkətə başladığı günlərdə Qafqaz İslam Xeyriyyə Cəmiyyətindən Rza

bəy adlı birisi 3-cü Ordu komandanlığının və Qrup komandanlığının yerləşdiyi Qarsda idi. Qrup komandanlığının yazışmalarından aydın olur ki, Rza bəy və onun yoldaşları Qarsda Ordu rəhbərləri ilə görüşərək həm türk qoşun hissələrinin Azərbaycana hərəkətini tezləşdirməyə çalışmış, həm də türk qoşun hissələrinin və bölmələrinin mövcud olacağı ərazilərdə yerli əhalidən könüllü dəstələrin təşkilində öz yardımlarını təklif etmişlər. Qrup komandanlığı tərəfindən Qafqaz İslam Xeyriyyə Cəmiyyəti üzvlərinin bu təşəbbüsü maraqla qarşılandı və onun həyata keçirilməsi üçün Azərbaycana göndərilən piyada və süvari alaylarının komandirləri Cəmil Cahid bəyə və Zehni bəyə lazımi tapşırıqlar verildi. Yerli əhalidən toplana biləcək dəstələrin rabitə postlarının gücləndirilməsində istifadə edilməsi, xüsusilə məqsədəuyğun sayılırdı.

Bu planın həyata keçirilməsi üçün Qrup komandanlığı tərəfindən həm Gəncəli Rza bəy və yoldaşlarına şifahi təlimat verildi və həm də onların qaldırdığı təşəbbüsün icrası üçün «Cəlaloğlu, Voronsovka, Sadaxlı, Qaçağan, Şıxlı kəndləri ilə Poylu stansiyasından etibarən Gəncəyə qədər olan on bir stansiyada təşkil edilmiş milis müxabirə postları və Gəncə, Qazax və Sadaxlı məntəqələrində cəm ediləcək milis əfradı haqqında təlimat» hazırladı (83). Bu təlimatdan aydın görünürdü ki, türk ordusu rəhbərləri türk qoşun hissələrini Azərbaycana göndərərkən yerli əhalinin, ayrı-ayrı şəxslərin vətənpərvərlik təşəbbüskarlığına, onların gücünün və imkanlarının səfərbər edilməsinə, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində fəaliyyət birliyinə böyük əhəmiyyət verirdilər. Yəni həm xalqın türk qoşunlarına bəslədiyi sonsuz ümid və rəğbət lazımınca dəyərləndirilirdi, həm də xalq könüllülərinin Azərbaycanın nicatı üçün qarşılıqlı fəaliyyətə hazır olduğu nəzərə alınırdı. Rza bəy və yoldaşlarına verilən şifahi təlimatda Osmanlı dövlətinin Qafqaz müsəlmanlarının çağırışına səs verməsinin əsas məqsədi belə açıqlanırdı: «Osmanlı hökumətinin Qafqaz islamları ilə birləşməsində bu məqsədlərin mövcud olması məmuldur:

1. Ermənilərin bilaxirə İrandakı ingilislərlə birləşərək Bakını işğal etmələrinə mane olmaq;
2. Bakıda islamlar ilə bolşeviklər arasındakı vüquya gəlməkdə

olan müharibəyə müdaxilə etmək;

3. Əğləbi-ehtimal Bakı mənbələrinə vəziyyət etmək həvəsində bulunan almanların ehtiraslarına mane olmaq;

4. Xülasə, Qafqaz islamlarını hər türlü təcavüzdən qurtarmaq» (84).

Şifahi təlimatda bildirilirdi ki, Azərbaycandakı türk hərbi hissələri komandirləri Azərbaycanda olan türk hərbi əsirlərini də hərbi xidmətə cəlb etməli və onların yaşayış məntəqələrində özbaşına gəzmələrinə imkan verməməlidirlər.

Azərbaycanlılardan ibarət könüllü dəstələrin təşkilinə gəlincə isə şifahi təlimatda bildirilirdi: «Qafqazın vəziyyəti yenidən başqa şəklə girə bilər. Belə bir hal baş verəndə Gəncədə bulunan əsgərlərimizlə irtibatımızın (əlaqələrimizin–M.S.) kəsilməməsi üçün indidən bu tədbirlər qəbul edilməlidir–Borçalı, Qazax, və Gəncə məntəqələrinin hər birində 2–3 min kişilik milis (könüllü–red.) qüvvəsi hazır edilməlidir. Bunlar lazım olanda Gəncə ilə Gümrü arasındakı yolu açıq bulundurmağa və yaxud başqa ehtiyaca görə istifadə ediləcəkdir. Milislərin təşkili sürəti haqqında təlimatda izahat vardır. Bu məqsədlə toplanacaq milislərə beş-altı min tüfəng və cəbbəxana verə bilərik. Bunlar hazırdır. Həqiqətən, işə yaraya biləcək nə qədər min kişinin çıxa biləcəyi mənə dərhal xəbər verilməsi kifayətdir. Mən silah və cəbbəxana göndərim.

Bu milislərin təyin edilən məntəqələrdə bütünlüklə toplu halda olmalarına ehtiyac yoxdur. Fəqət hər halda əldə bir qüvvə buluna bilməsi üçün bunların kafi miqdarı, yəni mövcudun yarısına qədəri daimi toplu olmalı və ara-sıra biri digəri ilə əvəz edilməlidir. Kəndlərində olanlar öz işləri ilə məşğul ola bilərlər»(85).

«Cəlaloğlu, Voronsovka, Sadaxlı, Qaçağan, Şıxlı kəndləri ilə Poylu stansiyasından etibarən Gəncəyə qədər on bir stansiyada təşkil ediləcək milis müxabirə postları və Gəncə, Qazax və Sadaxlı məntəqələrində cəm ediləcək milis əfradı haqqında təlimat» adları çəkilən stansiyalar və Azərbaycan ərazisindəki bir sıra məntəqələrdə rabitə postlarının təşkilinə, bu postların, habelə nəqliyyat qovşaqlarının mühafizəsinə azərbaycanlı milis dəstələrinin cəlb edilməsinə həsr olunmuşdu. Bu məntəqələrdə canlı rabitə sisteminin necə qurulması və bu işə nə qədər sayda

adamların cəlb edilməsinin mükəmməl şərhi verilmişdir. Rabitə işlərinin təşkilinə Gəncəli Rza bəy və onun yoldaşları da cəlb edilmişdilər. Təlimatın 5-ci bəndində deyilirdi ki, Gəncəli Rza bəy yoldaşlarından ikisini Privolnaya ilə Qaçağan, üçünü isə Şıxlı və Gəncə arasındakı məntəqələrdə bu işlərin təşkili üçün vəzifələndirməli və onlar da hər həftənin bazar ertəsi və cümə günləri öz fəaliyyətlərinin nəticələri barədə raport verməli idilər. Sadaxlı və Qazax bölgələrində yarısı süvari və yarısı qeyri-süvari olmaq üzrə 3 min nəfərlik milis(könüllü) dəstələrinin təşkili üçün də Rza bəy və yoldaşları məsul şəxsləri müəyyən etməli idilər(86).

Qazax–Gəncə arasındakı nəqliyyat qovşaqlarının təhlükəsizliyini təmin edəcək türk qoşun hissələrinin hərəkətə başlayacağı günlərdə, yəni 1918-ci il iyun ayının 4-də Batumda Azərbaycan Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Azərbaycan tərəfindən hərbi yardımın istənilməsi hərbi əlaqələr istiqamətində yeni bir səhifə açıldı. Bu müqaviləyə əsasən Azərbaycana təkcə mühafizə qüvvələri deyil, əməliyyat tapşırıqlarını yerinə yetirməyə qadir olacaq qüvvələrin göndərilməsi imkanı yarandı. Müqavilənin imzalandığı gün Vehib paşa 5-ci Qafqaz diviziyasının Qafqaz İslam Ordusunun tabeliyinə verilməsi barədə əmr imzaladı. Bu əmrə görə diviziyanın 9, 10, 13-cü piyada alayları, bir topçu alayı dərhal öz mövqelərini təhvil verərək Azərbaycana doğru hərəkətə başlamalı idi(87). Bu diviziyanın qərargah rəisi olmuş Rüşdü bəy sonralar öz xatirələrində onların üzərinə hansı vəzifə və məsuliyyət düşdüyünü belə təsvir edirdi: «Osmanlı dövlətinin şan və şərəfi və ordusunun qiymət və qüdrəti etimad edilib də Azərbaycana göndərilən 5-ci Qafqaz diviziyasının icraat və hərəkatındakı müvəffəqiyyətlə ölçüləcəkdi. Bütün dost və düşmən Qafqaz millətlərinin və hətta müttəfiqlərimiz almanların dəxi gözləri 5-ci Qafqaz diviziyasına dikilmişdi. 5-ci Qafqaz diviziyası Azərbaycanda hər şeyi yapacaqdı. O, müharibə edəcək, asayişi-məhəlliyi təmin edəcək, türk əsgəri görməmiş məntəqələrdə hökumətin gücünü həyata keçirəcək və məhəlli təşkilati-əsgəriyyəni vücuda gətirəcəkdi. Bu mühüm işlər böyük əzm və imanı, fövqəlbəşər səy və qeyrəti və nəhayətsiz bir fəraqəti-nəfsi tələb edirdi»(88).

5-ci Qafqaz diviziyasının əsas hissəsi 1918-ci il iyun ayının 8-də Cəlaloğludan hərəkətə başlamalı idi. Bu ərəfədə Qrup komandanı Cəlaloğlunun şərqindəki Cərgəri kəndi ətrafında diviziyanın hissələrinə baxış keçirdi və zabit heyətinə belə bir müraciət etdi: «Baş komandandan başlayaraq hamımızın etimadını qazanmış və hər bir sahədə müntəzəm olan Beşinci Qafqaz diviziyasını Azərbaycana–Gəncəyə göndərirəm. Burada olduğu kimi, orada da fədakaranə çalışacağınıza əminəm. Allah müvəffəqiyyətlər versin»(89).

5-ci Qafqaz diviziyası əsas tərkibi ilə hərəkətə başlamazdan əvvəl Qazax–Gəncə yolunun mühafizəsi üçün vəzifələndirilmiş 9-cu piyada alayı, habelə mürəttəb 2-ci süvari alayı artıq Azərbaycan ərazisinə daxil olmuşdular. Alman hərbi hissələrinin Qazax–Gəncə dəmir yolu xəttinə ola biləcək hər cür müdaxilə və təxribatlarının qarşısını almaq vəzifəsi daşıyan və minbaşı Zehni bəyin komandası altında olan iki bölükdən ibarət 2-ci süvari alayı iyunun 6-da artıq Azərbaycan ərazisində idi və tapşırılan vəzifənin icrası üçün lazım olan mövqelərdə qərar tutmuşdular(90).

9-cu piyada alayı iki piyada bölüyü ilə iyunun 4-də Cəlaloğludan hərəkət edib iyunun 7-də Qazaxa çatdı. Alayın bir taboru əvvəlki məntəqəsində qalmalı idi. Həmin tabor sonradan diviziyanın əsas qüvvələri ilə birlikdə Azərbaycana gəldi. Alayın əsas qüvvələri isə iyunun 9-da artıq Gəncədə idi. Bu alayla 2-ci süvari alayının ümumi qüvvəsinə «Gəncə müfrəzəsi» (dəstəsi–red.) adı verildi (91).

5-ci Qafqaz diviziyası əsas qüvvələri ilə birlikdə Azərbaycana doğru iyun ayının 8-də hərəkətə başladı. Bir gün əvvəl isə, yəni iyun ayının 7-də 5-ci diviziyanın hərəkətə hazırlaşması barədə 3-cü Ordu komandanı Qrup komandanına belə bir əmr verdi: «5-ci Qafqaz diviziyasının əqsami sairəsinin də Qazax təriqi ilə Gəncəyə hərəkətini rica edirəm. Diviziyanın Ağstafa stansiyasından Gəncəyə qədər qatarla nəqliyyatı üçün indidən hazırlıq görünüz və bunun üçün təcili tələb olunanları Qazaxa göndəriniz. Müsəlman zabitlərindən Gəncəli İbrahimzadə Nazim əfəndi Ağstafa stansiyası ilə Gəncə arasındakı nəqliyyatı tənzim üçün əvvəlcə Batumdan Gəncəyə göndərilmişdi. Məmurlarımız Nazim əfəndi

ilə təmas etsinlər, diviziyanın nəzdində 2-ci Qafqaz korpusu telsiz (radio–red.) stansiyasının verilməsini rica edirəm. Diviziya hələlik tabeliyinizdə və Gəncədə qalacaqdır»(92).

Ordu komandanının bu əmrinə əsasən elə həmin gün Qrup komandanı da 5-ci diviziya komandanlığına aşağıdakı əmri verdi:

«1. Beşinci Qafqaz diviziyası təkmil qüvvəti ilə və iki qədəmə halında olaraq və hər qədəmədə bir topçu taboru bulunmaq şərtiylə 8.6.1334(1918) səhərisi Cəlaloğludan hərəkətə başlayacaq və əvvəlcə hərəkət etmiş olan pişdarı Qazax üzərindən təqib edərək yenə Qrup əmrində bulunmaq üzrə Gəncəyə gedəcəkdir. Hər qədəmənin qüvvəti və hərgünkü iqamət məhəlləri Qrupa bildiriləcək və diviziya qərargahı birinci qədəmə ilə bərabər bulunacaqdır.

2. Beşinci Qafqaz diviziyasının Ağstafa stansiyasından etibarən qatarla Gəncəyə nəqli üçün tərtibat ittixaz (qəbul–red.) etmək üzrə ordu tərəfindən Ağstafa stansiyasına Gəncəli İbrahimzadə Nazim bəy adında bir zat göndərilmişdir. Beşinci diviziya komandanı bu zat ilə pişdarı vasitəsiylə təmas və irtibata gələrək diviziyanın qatarla nəqli tərtibatını vaxt və zamanı ilə hazır və ittixaz etməlidir.

3. Beşinci diviziyanın vəsaiti-nəqliyyə kadrosundan artıq qalan merkeplər (heyvanlar–red.) bir qol halında cəm olunaraq diviziyanın birgünlük ərzağını təhmil və bərabərcə nəql olunacaqdır. Bilümum diviziyanın iaşəsi bulunacağı məntəqə daxilindən surəti-müxtəlifeyi-münasibə ilə tədarük və təmin ediləcəkdir. Bu məqsədlə pişdara və Borçalı və Qazax məntəqələrindəki təşkilata vəzifələnmiş zabitlərə və diviziya nəzdinə göndərilmiş olan millət vəkillərinə əmrlər və təlimati-lazımə göndərilməsi və bunların çatdırılması lazım və münasibdir.

4. Diviziyanın vəsaiti-nəqliyyə kadrosundan əsbabi-müxtəlifə ilə tənaqüs vaqi olursa, mübaya ilə tədarük və ikmal olunacaq və kadrodan artıq heyvan əxz və istixdama çalışılmayacaqdır.

5. İkinci qolordunun telsiz teleqraf taqımı yalnız taqım komandanı ilə və stansiyanı idarə edəcək qədər əfradla və müqtəzi vəsaiti nəqliyyəsilə Beşinci diviziyanın əmrinə verilmişdir. Bu taqım 8.6.334(1918) günü səhər qatarla Qarsdan hərəkət və Sadaxlı

stansiyasına qədər qatarla göndəriləcəkdir. Bu müfrəzənin Sadaxlı stansiyasına qədər salamat göndərilməsini On birinci diviziya təmin edəcəkdir.

6. Beşinci diviziya hər gün ən azı bir müharibə raportu və bir gündəlik raport verəcəkdir və bunları telsiz teleqrafla və yaxud düşmənin ələ keçirməsi ehtimalı olan vəsaitlə göndərilmək məcburiyyəti olarsa, şifrə olaraq yazacaqdır. Diviziya digər rabitələrində də eyni üsulu tətbiq etməlidir. Diviziyanın Qrupla rabitə və müxabirəsi üçün istifadə edəcəyi vəsait bunlardır:

a) Beşinci diviziya tərəfindən çəkilməkdə olan teleqraf xətləri;

b) On birinci diviziya tərəfindən çəkilməkdə olan telefon xətləri;

c) Cəlaloğludan Sadaxlı və Qazax üzərindən Gəncəyə qədər təsis ediləcək olan müxabirə xətti;

d) telsiz teleqraf stansiyası.

On birinci diviziya Beşinci diviziyanın telefon və müxabirə-poçt xətti ilə olan müxabirələrinə təvəssüt və müavinət edəcəkdir. Beşinci diviziyanın telefon müxabirəsi bir başa Gümrü mərkəzi ilə və telsiz telefon müxabirəsi birbaşa Qars mərkəzi ilə yapılacaqdır.

7. Beşinci diviziya Gəncədə bulunan İslam Ordusu komandanı feriq Nuru paşaya təcili bir xəbər göndərərək öz qüvvətini, tərtibatını və tərzi-hərəkətini bildirəcəkdir.

8. Beşinci diviziya Ağstafa stansiyasında bir taborunu tərk edəcək və bu tabor qismi-küllüsü ilə bu stansiyada bulunaraq əvvəlcə əmr edilmiş olan 11 stansiyadan Gəncənin qərbində qalan 9 stansiyanı təhti-işğal və təminə alacaqdır. Bu tabor komandanı Qazax məntəqəsində bulunan yüzbaşı Səbri əfəndini də yanına cəlb edərək Səbri əfəndinin görməkdə olduğu işləri müştərəkən icra, tövsü və təqviyəyə çalışacaqdır.

9. On birinci diviziya Beşinci Qafqaz diviziyasının tərk edəcəyi təkmil məntəqəsini və məntəqədəki bilümum mənbələri təslim alacaq və Sadaxlı civarına qədər müxabirə-poçt xəttini təsis etmək və Qarakilsə–Sadaxlı dəmir yolu xəttini işğal və mühafizə etmək üçün mürəttəb süvari alayı bölüklərindən birini vəzifələndirəcəkdir. Digər süvari bölüyü Cəlaloğlunda cəm halında qalacaqdır.

10. Bu əmr Beşinci və On birinci Qafqaz diviziyaları komandanlarına ita edilmiş və bir surəti məlumat üçün Birinci Qafqaz qolordusuna verilmişdir»(93).

Beləliklə, səfər əmri alan Beşinci Qafqaz diviziyası çox qısa müddətdən sonra hərəkətə başladı. Böyük sayda şəxsi heyəti olan qoşun birləşməsinin uzun səfərə çox qısa müddət ərzində, yəni cəmi bir gün ərzində hazırlıq görməsi istər diviziya komandanlığının, istərsə də yuxarı komandanlıqların qarşıya qoyulan vəzifənin icrasına xüsusi diqqət və məsuliyyətlə yanaşmalarını nümayiş etdirirdi.

Diviziyanın Azərbaycana nəqli üçün ən münasib yol Gürcüstan ərazisindən keçən nəqliyyat yolları idi. Ancaq bu nəqliyyat yolları, o cümlədən də dəmir yolu üzərində almanların güclü nəzarəti olduğu üçün Beşinci diviziyanın hissələri Batum–Artvin–Ərdəhan–Qarakilsə–Dilican marşrutu ilə Qazaxa doğru hərəkət etmək məcburiyyətində qaldı(94).

Qrup komandanının əmrinə əsasən Beşinci diviziyanın hissələri iki qədəmədə (qrupda–red.) iyun ayının 8-də hərəkətə başladılar. Qədəmələrin tərkibinə aşağıdakı hissə və bölmələr daxil idi:

**1-ci qədəmə**

Diviziya qərargahı
Onuncu Qafqaz alayı
Doqquzuncu Qafqaz alayına mənsub 26-cı tabor
Şnayder dağ-topçu taboru
İstehkam bölüyü
Teleqraf taqımı
Orkestr bölüyü
1-ci qədəmənin cəmi: – 147 zabit, 2812 əsgər və 698 baş heyvan

**2-ci qədəmə**

13-cü Qafqaz alayı
güclü dağ-topçu taboru
Səhiyyə bölüyü

24-cü səyyar xəstəxana
Səyyar mətbəx taqımı
2-ci qədəmənin cəmi: – 110 zabit, 2763 əsgər, 668 baş heyvan (95).

İyunun 8-də hərəkətə başlayan hissələr həmin günün axşamını Ağkirpidə, ayın 9-u axşamını isə Ləmbəlidə keçirdi. Beşinci diviziya komandanı Ləmbəlidən Nuru paşaya göndərdiyi məktubunda iyunun 11-də diviziyanın birinci qədəməsinin, iyunun 12-də isə ikinci qədəmənin Qazaxda olacağı, sonra isə onların Ağstafa stansiyasından qatarla Gəncəyə yola salınacağını bildirirdi(96).

Çətin yol şəraiti ilə hərəkət edilməsinə baxmayaraq, diviziyanın qədəmələri nəzərdə tutulan mənzil başına yetişdilər. Qazaxa daxil olan türk qoşun hissələrini könüllü silahlı dəstələr, onların rəhbəri yüzbaşı Səbri əfəndi və minlərlə yerli əhali qarşıladı. Bütün xalq ümid və intizarla gözlədikləri türk qoşunlarının pişvazına çıxmışdı. Həmin gün yerli əhalinin toy-bayramına çevrildi. Bütün dükanlar bağlandı. Azərbaycanlıların at üzərində göstərdikləri hərəkətlər, hətta türk əsgər və zabitlərini də heyrətə salmışdı (97).

Qazaxdan dərhal qatar vasitəsilə Beşinci diviziya hissələrinin Gəncəyə nəqlinə başlandı. Hissə-hissə daşınan qoşunlar iyun ayının 15-də artıq Gəncə ətrafında cəm edilmişdi. Həm Beşinci diviziyanın hissə və bölmələri, həm də 2-ci süvari alayı buradan nəzərdə tutulan istiqamətlərə, döyüş tapşırıqlarının icrasına yollanmalı idilər.

5-ci diviziyanın və 2-ci süvari alayının Gəncə ətrafına gəlməsi ilə Qafqaz İslam Ordusunun da döyüş qüdrətinə qabil olan hərbi vahid kimi formalaşması başa çatdı. 5-ci diviziyanın 9-cu alayı və 2-ci süvari alayı Gəncə ətrafına hələ iyun ayının 9-da yetişmişdilər və dərhal Qafqaz İslam Ordusu komandanlığının tabeliyinə daxil olmuşdular (98). Digər hissə və bölmələr isə Gəncəyə gəldikləri gündən Qafqaz İslam Ordusunun strukturuna qatıldılar. Bunun üçün türk ordusunun Qafqaz istiqamətində olan qoşun birləşmələrinin strukturlarında dəyişiklik aparılmış və bu strukturlarda Qafqaz İslam Ordusunun yeri də dəqiqləşdirilmişdi.

Qafqaz İslam Ordusunun strukturlarının formalaşması Azər-

baycanın ictimai-siyasi həyatında müəyyən iz buraxmış bir hadisə ilə müşayiət olundu. Bu da ilhaqçıların fəaliyyətinin güclənməsi ilə bağlı idi. Türk qoşunlarının Azərbaycana gəlməsi ilə Osmanlı dövlətinin tərkibinə qatılmaq tərəfdarı olan ilhaqçıların həm Nuru paşa və ətrafındakılara, həm də ictimai-siyasi həyata olan təsirini xeyli gücləndirməklə dövlətdə siyasi böhranın da yaranmasına yol açdılar. Azərbaycanın istiqlal mübarizəsinin tədqiqatçılarından olan H.Baykara bu hadisəyə qiymət verərkən yazırdı ki, Azərbaycan İslam Ordusunun komandiri olan Nuru paşa ağıllı bir general olsa da, siyasi görüşü o qədər də yetkin deyildi. Mürtəce ilhaqçılar Nuru paşanın bu vəziyyətindən istifadə etmək istəyirdilər (99).

Nuru paşa özünün siyasi müşaviri Əhməd Ağaoğlunun dili ilə siyasətə qarışmayacağını və bir əsgər olaraq qaldığını bildirsə də, ilhaqçılara geniş meydan verməklə əslində, Azərbaycanın ictimai-siyasi həyatında dəyişiklik yarada biləcək bir mövqedə dayanmışdı ki, bu mövqe də Milli Şuranın buraxılması və hökumət böhranı ilə nəticələndi. Nuru paşa Azərbaycanda öz istəyinə uyğun gələn bir hökumət qurmaq fikrini də həyata keçirmək istəyirdi. Halbuki, türk qoşunlarının Azərbaycana gəlişi Azərbaycanı müstəqil bir dövlət kimi Osmanlı dövləti ilə bağladığı müqavilə əsasında baş vermişdi və onların başlıca vəzifəsi də müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsinə yardım etmək idi. 3-cü Ordu komandanı Vehib paşa da 1918-ci il iyun ayının 2-də Nuru paşaya göndərdiyi məktubunda bildirirdi ki, «Azərbaycan hökuməti müstəqileyi-islamiyyəsinin tələbi ilə islamları bolşevik təcavüzündən qurtarmaq üçün» (100) Azərbaycana qarışıq bir dəstənin göndərilməsi qərara alınmışdır. Nəsib bəy Yusifbəylinin fikrincə, Nuru paşa da əslində, belə bir mövqedə olmuşdu. Lakin onun ətrafını bürümüş olan qüvvələr paşanı başqa bir mövqeyə sürükləyə bilmişdilər: «Aydındır ki, paşa həzrətləri Dövləti-Aliyeyi-Osmaniyyə Azərbaycanın müstəqil qalıb da özünə bir hökumət təşkil etməsinə tərəfdardır. Məlum işdir ki, onlar bizim işlərimizə qarışmaq istəməzlər. Fəqət paşanın ətrafını mənhus adamlar, şübhəli şəxslər tutmuşlar... Bu adamlara qarşı bizim əlimizdə bulunan hüquqdan istifadə etmək lazımdır»(101).

Xarici işlər naziri M.H.Hacınski Milli Şurada yaranmış vəziyyətlə bağlı çıxış edərkən bildirirdi ki, onlar həqiqətən də, müstəqil Azərbaycan hökumətinin yaradılmasını istəyirlər(102).

Azərbaycanın milli qüvvələri Nuru paşaya və onun ətrafındakılara da bu mövqeni çatdıra bildilər. Bu qüvvələrin Azərbaycanın müstəqilliyini qorumaq əzminin nəticəsi idi ki, Milli Şura buraxılsa da, Azərbaycanın milli qüvvələrindən ibarət olan hökumətin təşkilinə nail olundu.

İstər Azərbaycanın milli qüvvələrinin mübarizəsinin ardıcıllığı, istərsə də ölkədə cərəyan edən proseslər heç şübhəsiz ki, ilhaqçıların təsiri altında olan Nuru paşanın mövqeyinin müəyyənləşməsinə zəmin yaratmışdı. Çünki Qafqaz İslam hərəkatı ilə bağlı sonralar yazdığı xatirələrində Nuru paşa Azərbaycanı bütün sahələrdə öz siyasətini yeridən müstəqil bir dövlət kimi təqdim edir və rəhbərliyi altında olan türk qoşunlarının Azərbaycanda olmasını isə qardaş Azərbaycan xalqının müstəqilliyinin qorunmasına göstərdiyi bir yardım kimi qiymətləndirirdi.

Yuxarıda qeyd edildiyi kimi, yenidən yaradılan hökumət kabinəsində artıq Hərbi Nazirlik yox idi. Hərbi Nazirliyin hökumət kabinəsinə düşməməsi bir tərəfdən Azərbaycan Ordusunun təşkilinə rəhbərliyin Nuru paşaya həvalə olunması ilə bağlı idisə, digər tərəfdən də yəqin ki, hərbi işlərə rəhbərliyin mərkəzləşdirilməsi zərurəti ilə bağlı idi. Bununla belə, ordunun təşkilini hökumət səviyyəsində dövlət və hökumət orqanları ilə tənzimləyəcək bir qurumun mövcudluğu zərurət doğururdu. Bu orqanın hansı şəkildə olacağını müəyyənləşdirmək üçün iyun ayının 21-də Azərbaycan hökuməti Nazirlər Şurasının sədrinə və xarici işlər nazirinə tapşırdı ki, Qafqaz İslam Ordusunun komandanı Nuru paşa ilə əlaqə yaradaraq hökumətin tərkibində Hərbi Nazirliyin yaradılması və onun fəaliyyətinin təşkili barədə məsələ müzakirə etsin. Müzakirələr zamanı hökumətlə Qafqaz İslam Ordusu arasında əlaqələrin yaradılması üçün Hərbi Nazirliyin və ya onu əvəz edəcək hər hansı bir orqanın təşkilinin məqsədəuyğunluğu nəzərdən keçirilməli idi(103).

Bu qərarın qəbulundan qısa müddət keçdikdən sonra Azərbaycan hökumətinin tərkibində hərbi işlər üzrə Baş müvəkkil vəzifə-

sinin təsis edilməsindən (104) güman etmək olar ki, Hərbi Nazirliyin yaradılması məqsədəuyğun bilinməmiş və qoşunların ali idarəetmə orqanlarında ciddi keyfiyyət dəyişikliyi baş verməmişdi.

Qafqaz İslam Ordusunun komandanı Nuru paşa da sonradan yazdığı xatirələrində Azərbaycanın Hərbi Nazirliyinin təşkili məsələsinə toxunaraq qeyd edirdi ki, bu orqanın yaradılmasını o, özü məqsədəuyğun bilməmiş və hərbi nazir səlahiyyələrini də öz üzərinə götürmüşdü: «Azərbaycan hökumətində bütün Nəzarətlər (nazirliklər–red.) mövcud idi. Yalnız Hərbiyyə Nəzarəti və təşkilatı mövcud olmadığı kimi Omuri-diniyyəyə aid Nəzarəti də mövcud deyildi. Çar Rusiyası zamanındakı İdareyi-ruhaniyyə də əsaslı təbəddülat yapmamışdı. Tiflis müftiliyi Bakıya nəql etmişdi. Azərbaycanın Hərbiyyə Nəzarəti təşkilatını İstambul ordu dairəsinin rəis müavini miralay Behic bəy yapıyordu. Buna aid bir kadro tənzim edilmişdi və bu kadroya nəzərən bəzi məqamlar Osmanlı ordusu mənsublarına ayrılmışdı. Yerlərdə Osmanlı Hərbiyyə Nəzarətində staj görəcəklərdi. Staj xidmətinin zamanı və tərzi ifasını miralay Behic bəy tənzim edəcəkdi. Binaənəleyh Azərbaycan hökuməti Hərbiyyə Nəzarəti omuru (işləri–red.) felən (hələlik–red.) Qafqaz İslam Ordusu komandanı tərəfindən idarə olunurdu. Azərbaycan ordusu ilə Qafqaz İslam Ordusu komandanlığı arasındakı münasibət və irtibatın təmininə Qafqaz İslam Ordusu «Omuri-siyasiyyə» şöbəsi çalışırdı»(105).

Nuru paşa bu qeydlərində 1918-ci il sentyabr ayının ortalarına aid olan sənədlər və faktlardan istifadə etmişdir. Ona görə də Nuru paşanın təsvir etdiyi bu qarşılıqlı münasibətlərin Azərbaycanın müstəqilliyinin təşkilindən dərhal sonra yarandığını iddia etmək çətindir. Ancaq onun sözlərindən də aydın olur ki, Hərbi Nazirliyə aid olan müəyyən vəzifələrin əlaqələndirilməsi və tənzimlənməsi üçün bir qurum mövcud olmuşdur. Bu quruma miralay Behic bəy rəhbərlik edir və bu qurumun vəzifələrinin bir qismi Osmanlı zabitlərinə tapşırılmışdı. Demək aydın olur ki, oradakı vəzifələrin başqa bir qismi də azərbaycanlı zabitlərə və işçilərə tapşırılıbmış. Çox güman ki, burada söhbət yuxarıda qeyd edilən hərbi işlər üzrə müvəkkildən gedir. Azərbaycan hökuməti ilə Hərbi Nazirlik funksiyalarını yerinə yetirən Qafqaz İslam

Ordusu komandanlığı arasındakı əlaqələr Qafqaz İslam Ordusu «Omuri-siyasiyyə şöbəsi» tərəfindən tənzimlənirdisə, Azərbaycan hökuməti tərəfindən də bu vəzifəni heç şübhəsiz ki, hərbi işlər üzrə Baş müvəkkil yerinə yetirirdi.

Qafqaz İslam Ordusunun Azərbaycanda mövcudluğu zamanı Azərbaycan Cümhuriyyətinin ali hərbi orqanlarının təşkili ilə bağlı bir məqam da maraq doğurmaya bilməz. Bəzi araşdırmalarda belə bir fikir irəli sürülür ki, Azərbaycan Cümhuriyyətinin Hərbiyyə Nəzarəti 1918-ci il sentyabr ayının 1-də təşkil edilmiş, F.Xoyski hərbi nazir, S.Mehmandarov isə nazir müavini təyin edilmişdi (106). Bu faktın doğruluğunu qəbul etməli olsaq, onda belə çıxır ki, türk – Azərbaycan qoşunlarının sentyabr ayının 1-dən sonrakı fəaliyyətinə, türk – Azərbaycan qoşunlarının Bakı şəhəri üzərinə qəti hücumlarına və Bakının azad edilməsinə S.Mehmandarov rəhbərlik etmiş və ya heç olmasa Nuru paşa ilə birlikdə bu işi istiqamətləndirmişdilər. Halbuki belə deyil. Nazirlər kabinəsinin tərkibinə 1918-ci il 6 oktyabr tarixli dəyişiklikdən sonra hərbi işlər üzrə müvəkkil vəzifəsi hökumətin tərkibinə daxil edilmiş və İ.Ziyatxan bu vəzifəyə təsdiq olunmuşdu(107). Yəni hələ bu vaxt da Hərbi Nazirlik mövcud deyildi və məlum olduğu kimi bu Nazirlik hökumətin qərarı ilə 1918-ci il noyabr ayının 1-də bərpa olunmuşdu.

Ancaq Azərbaycan Xalq Cümhuriyyətinin nəşr etdiyi «Adres-kalendar» (Bakı, 1920-ci il) sorğu kitabında da Hərbi Nazirliyin sentyabr ayının 1-də yaradıldığı göstərilir. Əslində, burada texniki səhvə yol verilmişdir. Noyabr ayı əvəzinə sentyabr ayı yazılmışdır. Kitabın digər bölmələrini diqqətlə oxuduqda da bu aydın olur.

Türkiyə Silahlı Qüvvələrinin ATASE Başqanlığı arxivində 1918-ci il sentyabr ayının 3-də istifadə edilmiş bir blankın künc yazısında da «Военное Министерство Азербайджанской Республики. Azərbaycan Cümhuriyyətinin Hərbiyyə Nəzarəti» qeyd olunmuşdur (108). Bu sənədi imzalayan şəxs isə «Omuri-hərbiyyə müdriyyəti rəisi» kimi göstərilmişdir. Nuru paşanın qeyd etdiyi–«Azərbaycan Hərbiyyə Nəzarəti təşkilatını İstanbul ordu dairəsi rəisi müavini Behic bəy yapıyordu. Buna aid bir kadro

(ştat–red.) tənzim edilmişdi»–fikrindən güman etmək olar ki, Omuri-hərbiyyə müdriyyəti elə Behic bəyin təmsil etdiyi qurum idi və bu qurum Hərbi Nazirliyin müəyyən əlaqələndiricilik funksiyalarını öz üzərinə götürdüyündən çox güman ki, elə bu ad altında da tanınmışdı.

### *3. Qafqaz İslam Ordusunun strukturu*

Konkret tarixi şəraitdə qarşısında olan vəzifələrin xarakterindən asılı olaraq Qafqaz İslam Ordusu müxtəlif struktur dəyişikliklərinə məruz qalmışdı. Bu məsələyə hərbi şərait, çağırışçı ehtiyatlarının miqdarı, maddi-texniki baza müəyyən təsir göstərsə də,




**Azərbaycanda yaradılması nəzərdə tutulan Qafqaz İslam Ordusunun ilkin variantı**

Bakının azad edilməsinə kimi baş verən struktur dəyişiklikləri başlıca olaraq döyüş vəzifələrinin miqyası və xarakteri ilə bağlı olmuş, Bakı azad edildikdən sonra həyata keçirilən struktur dəyişiklikləri isə əsasən, daha çox dinc şəraitdə ordu quruculuğunun təkmilləşdirilməsi, Azərbaycan Ordusunun daha da möhkəmləndirilməsi planları ilə əlaqədar olmuşdur.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanda Qafqaz İslam Ordusunun yaradılması planı ortaya çıxanda hər biri üç alaydan ibarət olan üçdiviziyalı bir korpusun təşkili nəzərdə tutulmuşdu

Heç şübhəsiz ki, qolordunun tərkibində süvari, topçu hissələri, habelə yardımçı bölmələr də olmalı idi. Bu struktur onu nəzərdə tuturdu ki, Qafqaz İslam Ordusunun birləşmə, hissə və bölmələrinin şəxsi heyəti, əsasən, azərbaycanlılardan ibarət olacaq. Yəni Azərbaycana gəlmiş olan türk zabitlərinin rəhbərliyi və iştirakı ilə yerli qüvvələrdən ibarət ordu təşkil edilməli idi.




**3-cü Ordunun 1918-ci il mart-aprel aylarındakı ümumi quruluşu**

Azərbaycanın müstəqilliyinin elan edildiyi ilk günlərdə təxminən bu struktura yaxın olan bir struktur mövcud idi. Həmin strukturun saxlanılacağı təqdirdə də heç şübhəsiz ki, Qafqaz İslam Ordusu komandanlığının ikili tabeliyi qalacaqdı. Yəni Qafqaz İslam Ordusunun komandanlığı öz fəaliyyətini həm Azərbaycan hökuməti, həm də yaxın bölgədəki türk qoşunları komandanlığı ilə əlaqələndirməli idi.

Qafqaz İslam Ordusunun əsasını təşkil edən 5-ci Qafqaz diviziyası Azərbaycana göndərilmək ərəfəsində 3-cü Ordu komandanlığına tabe idi.

Azərbaycana yola düşmək ərəfəsində 5-ci Qafqaz diviziyasına aşağıdakı hissələr və bölmələr daxil idi: 9-cu, 10-cu və 13-cü piyada alayları, 19-cu və 42-ci bölüklərdən ibarət mürəttəb 2-ci süvari alayı, 5-ci Qafqaz səhra-topçu alayı, 1-ci və 2-ci batareyalardan ibarət Şnayder-topçu taboru, 4-cü və 5-ci batareya-

lardan ibarət Dağ-topçu taboru, telsiz teleqraf taqımı, İstehkam bölüyü, Səhiyyə bölüyü, 24-cü səyyar xəstəxana, orkestr və iaşə taqımı. 9-cu piyada alayına 25-ci, 26-cı və 27-ci piyada taborları, 10-cu piyada alayına 28-ci, 29-cu və 30-cu piyada taborları, 13-cü piyada alayına isə 4-cü, 46-cı və 60-cı taborlar daxil idi. Diviziyanın komandiri qayməqam Mürsəl bəy idi.




**5-ci Qafqaz diviziyasının quruluşu**

9-cu Qafqaz alayının komandiri minbaşı Cəmil Cahid bəy, 10-cu Qafqaz alayının komandiri qayməqam Osman bəy, 13-cü Qafqaz alayının komandiri qayməqam Əhməd Rza bəy, mürəttəb 2-ci süvari alayının komandiri minbaşı Zehni bəy, 5-ci Qafqaz topçu alayının komandiri minbaşı Abdulla bəy idi. Diviziyada 330 zabit, 5277-si döyüşən hissələrdə, 2126-sı isə qeyri-döyüş hissə və bölmələrində olan 7403 əsgər və 1939 heyvan var idi(109).

Yeni şəraitdə Zaqafqaziyaya yayılmış olan türk qoşunlarının idarə olunmasını təkmilləşdirmək və daha çevik mexanizm yaratmaq məqsədilə türk ordusu Baş komandanlığı 1918-ci il iyun ayının 7-də və 8-də verdiyi əmrlə 3-cü Ordu strukturunda dəyişiklik

etdi. Aparılan dəyişikliklərin nəticəsi kimi Şərq Ordular Qrupu yaradıldı (110). Şərq Ordular Qrupu 3-cü və 9-cu ordulardan təşkil edilmişdi. Maraqlı olan budur ki, bu struktur dəyişikliklərindən sonra Azərbaycana göndərilmiş olan 5-ci Qafqaz diviziyası birbaşa 3-cü Orduya tabe oldu(111).




**Şərq Ordular Qrupunun 1918-ci il iyun ayının 9-na olan quruluşu**

Bu struktura görə, Azərbaycana göndərilmiş olan 5-ci Qafqaz diviziyası hələlik 3-cü Ordu komandanlığının tabeliyində qalmışdı. Şərq Ordular Qrupu komandanlığının verdiyi əmrə görə 5-ci Qafqaz diviziyası Azərbaycandakı fəaliyyətini Nuru paşanın rəhbərliyi altında qurmalı və 3-cü Ordu ilə bağlılığı da Nuru paşanın vasitəsilə həyata keçirməli idi (112). Bununla da 5-ci Qafqaz diviziyasının həm Qafqaz İslam Ordusuna, həm də 3-cü Orduya bağlılığı saxlanılırdı.

1918-ci il iyul ayının 9-da Şərq Ordular Qrupunun quruluşunda aparılan dəyişikliklərdən sonra 5-ci Qafqaz diviziyası 3-cü Ordunun tabeliyindən çıxarıldı (113). Bu, heç şübhəsiz ki, 5-ci Qafqaz diviziyasının qatılmış olduğu Qafqaz İslam Ordusunun bir başa Şərq Ordular Qrupu komandanlığının tabeliyinə verilməsi ilə bağlı idi. Baş komandan vəkili Ənvər paşa təkcə Şərq Ordular Qrupu quruluşunda dəyişiklik etməmişdi. Eyni zamanda Şərq Ordular Qru-

punun rəhbərliyində də dəyişiklik edildi. 1918-ci il iyun ayının 29-da Vehib paşanın yerinə Şərq Ordular Qrupunun komandanı vəzifəsinə Xəlil paşa təyin edildi(114). Xəlil paşa, Ənvər paşa ilə Nuru paşanın əmisi idi.

Xəlil paşa öz xatirələrində qeyd edirdi ki, bu təyinatla bağlı o, Ənvər paşadan belə bir teleqram almışdı: «6-cı Ordu əmrinizdə qalmaq üzrə (Xəlil paşa bu Ordunun komandanı idi–M.S.) Qafqaz ordularının da tövhidi ilə təşkil edilən Şərq Orduları Qrupu komandanlığına təyin edilmiş bulunursunuz. Yeni vəzifəni öhdənizə götürmək üçün İstambul üzərindən Qafqaza hərəkətiniz təbliğ edilir»(115).

İstambulda olarkən Baş Qərargahda Xəlil paşa qarşısında belə bir vəzifə qoyulmuşdu ki, Batum–Tiflis dəmir yolundan faydalanaraq Xəzər dənizinə çıxsın, burada Bakıdan Ənzəliyə gedən dəmir yolunu nəzarət altına götürsün ki, sonra Qəzvin–Həmədan yolundan istifadə edərək Bəsrə körfəzinə çıxmaq və İrandakı ingilis qüvvələrini məhv etmək mümkün olsun. Həmin vəzifənin yerinə yetirilməsi üçün əvvəlcə Bakının ələ keçirilməsinin zəruriliyi vurğulanırdı. Xəlil paşanın nəzərinə o da çatdırılmışdı ki, Bakıda ermənilərdən və ruslardan təşkil edilmiş silahlı hissələr Gəncəyə doğru hərəkətə başlamışdır. Bundan başqa ingilislər də Bakıya bir briqada çıxarmaqla erməni və rus dəstələrinin gücünü artırmağa çalışırlar(116).

Ənvər paşa Şərq Ordular Qrupu komandanlığına Xəlil paşanı təyin etməklə heç şübhəsiz ki, Qafqazda və yaxın bölgələrdə cərəyan edən hərbi proseslərə rəhbərliyi daha etibar etdiyi bir şəxsə tapşırmış və Qafqaz İslam Ordusunu da birbaşa ona tabe etmişdi. Tədqiqatçıların da qeyd etdiyi kimi, Ənvər paşa Azərbaycanla bağlı planlarının həyata keçirilməsi üçün bir növ ailə üçbucağı yaratmışdı. Bu da sözsüz ki, Qafqaz İslam Ordusu üçün manevr çevikliyini saxlamağa və yersiz bürokratik əngəllərin aradan qalxmasına imkan verirdi.

Qafqaz İslam Ordusunun ikili tabeliyi saxlanmaqda idi. Nuru paşa əvvəlcə 3-cü Ordu komandanına, sonradan isə Şərq Ordular Qrupu komandanına tabe olsa da, Azərbaycanla bağlılığı da qalmaqda idi. Çünki Nuru paşa sadəcə olaraq Azərbaycandakı türk qoşunlarının

komandanı deyildi. O, müştərək qüvvələrdən təşkil olunmuş Qafqaz İslam Ordusunun komandanı idi. Bu ordunun bir qütbündə 5-ci Qafqaz diviziyası, digər qütbündə isə Azərbaycan korpusu dayanırdı. Azərbaycan hökuməti də Azərbaycan Ordusunun qurulmasını Nuru paşaya tapşırmışdı. Bununla belə, Qafqaz İslam Ordusu komandanlığı ilə Azərbaycan hökuməti arasındakı əlaqələrin kifayət qədər işgüzar olduğunu iddia etmək düzgün olmazdı.

Qafqaz İslam Ordusunun tərkibində olan türk qoşun hissələri və bölmələri ilə Azərbaycan korpusu arasında struktur əlaqələndirilməsinin də müəyyən maraqlı məqamları vardır. Azərbaycan korpusunun hazırda dövriyyədə olan çox kasad arxivindən görmək mümkündür ki, Azərbaycana gələn türk qoşun hissələri Nuru paşanın Azərbaycan korpusunun yenidən qurulması barəsində verdiyi əmrə qədər Azərbaycan korpusunun tərkibinə daxil edilmişdi. Bu hissələrin Qafqaz İslam Ordusu ilə əlaqələri Azərbaycan korpusu vasitəsilə həyata keçirilirdi.

Azərbaycan korpusunun komandiri, general-leytenant Ə.Şıxlinskinin 27 iyun 1918-ci il tarixli 189 saylı əmrində bu məsələ ilə bağlı maraqlı faktlar mövcuddur. Əmrdə deyilir:

«1. Osmanlı hökuməti ilə Azərbaycan Cümhuriyyəti hökuməti arasında müqavilənin 4-cü maddəsinə uyğun olaraq Azərbaycan tərəfindən ölkədə anarxiyanın yatırılması, Bakı şəhərini və Bakı quberniyasının bir hissəsini tutmuş bolşeviklərlə mübarizə üçün Türkiyə Silahlı Qüvvələri dəvət edilmişdir. Hazırda Qafqaz İslam Ordusu komandanı general-adyunkt, general-leytenant Nuru paşanın rəhbərliyi altında bu qüvvələr Azərbaycana gəlmişdir.

Hökumət qərara almışdır ki, Azərbaycan Cümhuriyyəti ordusunun təşkilini və Azərbaycan daxilində fəaliyyət göstərən bütün qüvvələrin birləşdirilməsini öz üzərinə götürməsini Nuru paşa həzrətlərindən xahiş etsin.

2. 5-ci Türk diviziyası 3-cü atıcı diviziya adı ilə tabeliyimdə olan korpusun tərkibinə daxil edilmişdir.

3. Qafqaz İslam Ordusu komandanlığının əmri ilə aşağıdakılar birbaşa mənə tabe etdirilmişlər:

1) Bu ordunun baş təbibi;

2) Azərbaycan dəmir yolu ilə qoşunların daşınması rəisi;

3) Yelizavetpol məhəlli komendantı.

4. Baş təbib qayməqam İbrahim Haki bəyə həvalə edirəm:

a) Xəstələrin və yaralıların təxliyəsi səlahiyyətini;

b) Korpusun hissələrinin sanitar vəziyyətinə nəzarəti.

Səhiyyə sahəsinə aid olan ehtiyaclar barədə bütün məlumatlar, habelə xəstələrin və yaralıların qəbulu və xaric edilməsi barədə gündəlik cədvəllər diviziyadan korpus həkiminə və baş təbibə təqdim olunmalı, o isə mənə məruzə etməlidir.

115 saylı sanitar qatarını baş təbibin tabeliyinə verirəm.

Xəstələrin və yaralıların daşınması və yerləşdirilməsi üçün aşağıdakı tədbirlər qəbul edilsin:

1) Döyüş əməliyyatları rayonundakı xəstələr və yaralılar Ucar stansiyasına daşınsın;

2) Baş təbibin göstərişi ilə bu stansiyada 100 nəfərlik lazaret açılsın;

3) Yelizavetpol stansiyasında doktor Rəfibəyovun nəzarəti altında şəhərdəki 200 nəfərlik lazaretdən başqa 300 nəfərlik bir lazaret də açılsın» (117).

5-ci Qafqaz diviziyasının Azərbaycan korpusuna tabe etdirilməsini bu diviziyanın ərkani-hərb rəisi Rüşdü bəy də təsdiq edirdi. Diviziyadan gündəlik raportlar həm Qafqaz İslam Ordusu komandanlığına, həm də Azərbaycan korpusunun komandanlığına göndərilirdi. Deyilənlər nəzərə alınarsa, 1918-ci il iyun ayının sonlarında Qafqaz İslam Ordusunun quruluşunda dəyişiklik edildi. Bu dəyişikliyə əsasən, döyüş hissələri və birləşmələri hamılıqla Əlahiddə Azərbaycan Korpusunun tabeliyinə verildi. Ona görə də Qafqaz İslam Ordusunun ümumi quruluşu aşağıdakı kimi oldu:



## Azərbaycan korpusunun komandanlığı

5-ci Qafqaz diviziyası 3-cü piyada diviziyası adı altında Azərbaycan korpusuna tabe etdirilsə də, Azərbaycan korpusunun əvvəlki quruluşunun uzun müddət saxlanıldığını iddia etmək mümkün deyildir. Mövcud olan sənədlərdə Qafqaz İslam Ordusunun mövcudluğunun ilk aylarında Azərbaycan korpusunda olan piyada diviziyalarının, topçu briqadalarının, süvari diviziyasının adlarına rast gəlinmir. Çox güman ki, bu vahidlər ləğv edilmişdi. Çünki məlumdur ki, Azərbaycan diviziyaları da sonradan yenidən qurulmuşdu. Milli hissə və bölmələr isə türk hissə və birlikləri arasında əridilmişdi. Azərbaycan istiqlal mübarizəsinin tarixi barədə samballı araşdırmanın müəllifi olan Hüseyn Baykara da bu faktı təsdiq edir: «Mürtəce mollalar və hacıların İslam Ordusu ətrafında fırlanaraq xaincəsinə nəsihət verməmələri də orduya öz təsirini göstərmişdi. İslam Ordusu daxilində müstəqil komanda və quruluşa malik olan Azərbaycan birlikləri 5-ci və 15-ci diviziyalar arasında bölüşdürülmüşdü» (118).

Azərbaycan hissə və birliklərinin bu cür parçalanaraq Qafqaz İslam Ordusu tərkibində əridilməsi bir tərəfdən H.Baykaranın qeyd etdiyi kimi, ilhaqçı qüvvələrin təsiri altında olan Nuru paşanın Azərbaycanın hərbi qüvvələrini də özünün tam nəzarəti altında saxlamağı istəməsindən doğa bilər, digər tərəfdən Azərbaycan korpusunun tərkibində olan hissə və birliklərin kifayət qədər komplektləşdirilməməsi və onların döyüş keyfiyyətlərinin çox aşağı olması ilə də bağlı ola bilərdi.

1918-ci il iyun ayının sonlarına aid olan döyüş raportlarında Azərbaycan milli bölmələrinin Müsüslü dəstəsinin tərkibində olduğu bildirilir. 5-ci Qafqaz diviziyasının əməliyyat tabeliyinə verilmiş olan bu dəstədə aşağıdakı bölmələr var idi: dəstənin qərargahı, dəstənin bir bölüyü, 1-ci süvari alayının 1-ci və 2-ci bölükləri, 2-ci süvari alayının 1-ci bölüyü, Qarayazı atlı piyada bölüyü, dəstənin pulemyot bölüyü, zirehli qatar, dəstə səhra batareyası, dəstə teleqraf taqımı, Göyçay milli əsgər bölüyü (119).

1918-ci il avqust ayının 13-də Nuru paşanın əmri ilə Azərbaycan korpusunun ləğv olunması ilə (bu barədə aşağıda daha ət-

raflı danışılacaqdır) bu korpusun tabeliyində olan bütün hissələr birbaşa İslam Ordusu komandanlığına tabe etdirildi.

Azərbaycan korpusunun ləğv olunmuş piyada hissələrinin yerinə tamamilə yeni milli hissələr yaradılmasına başlandı. Bu hissələrin başında türk zabitləri dayanırdı. Nuru paşanın Azərbaycan korpusu komandirinə 2 avqust tarixli məktubunda hazırda təşkil olunmaqda olan 1-ci Qazax, 2-ci Qarabağ, 3-cü Zaqatala piyada alaylarının adları çəkilir (120).

1918-ci il avqust ayının 2-nə aid olan və Nuru paşa tərəfindən imzalanan başqa bir sənəddə isə belə yazılmışdı:

«1. Azərbaycan daxilində indi təşkilati-əsgəriyyə Ordu (Qafqaz İslam Ordusu–M.S.) tərəfindən yapılacaqdır;

2. İkidiviziyalı bir qolordu təşkil olunacaq nizami hərbi hissələr əvvəla ordu əmrində (tabeliyində–red.) olmaq üzrə müxtəlif məntəqələrdə alaylar təşkil olunacaq və biləxirə bunlar birləşdirilib diviziya və qolordu meydana gələcək»(121).

Elə bu əmrdə də təşkil olunmuş alayların adları və yerləşdikləri məntəqələrin adları çəkilir. 1-ci alay–Qazax, 2-ci alay–Qarabağ, 3-cü alay–Zaqatala, 4-cü alay–Ağdaş.

İslam Ordusu komandanlığının yazışmalarından aydın olur ki, 1918-ci il avqust ayının ortalarına kimi Azərbaycanda dörd süvari alayı da mövcud idi (122). Bu alaylar iki bölükdən ibarət idi. Piyada alayının tərkibi isə 3 tabordan, pulemyot bölüyündən, depo bölüyündən, istehkam bölüyündən və digər bölmələrdən ibarət idi.

Ola bilsin ki, Azərbaycan korpusu hissələrinin təşkili gedişi Qafqaz İslam Ordusu komandanlığını lazımi şəkildə qane etməmişdi. Xüsusən korpusda qeyri-müsəlman zabitlərin mövcudluğu və sənədləşmənin rus dilində aparılması türk zabitlərini razı salmırdı. Bunları nəzərə alaraq 1918-ci il avqust ayının 13-də Qafqaz İslam Ordusu komandanı Nuru paşa Azərbaycan korpusunun ləğv olunması və onun yenidən qurulması barədə əmr verdi. Həmin əmrdə deyilirdi:

«1. Azərbaycan Cümhuriyyətində ordu təşkiletmə işlərini Qafqaz İslam Ordusu tənzim və idarə edəcəkdir.

2. Qurulacaq qolordunun hərb tüzüyü hazırlanmış olub, 6 avqust 1918 – tarix və şöbə 1735 nömrə ilə göndərilmişdir.

3. Süvari qitələri müxtəlif məntəqələrdə təşkil edilərək bunların sonradan ehtiyaca görə daha böyük birliklər halında təşkilatlanacaqlar.

4. Təşkil edilməkdə olan kiçik birliklər korpus və tümən qərargahının təşkilinə qədər birbaşa Qafqaz İslam Ordusuna bağlı olacaqdır.

5. Qolordunun subaylarının tümü (zabitlərinin hamısı–red.) müsəlman olacaqdır. Bütün subaylar və əsgərlər Osmanlı uniforması geyəcəklər. Süvarilər mərasimlərdə çərkəz uniforması geyəcəklər.

6. Mövcud Azərbaycan qolordusu həmən (dərhal–red.) ləğv olunacaqdır. Qolordunun Gəncə və digər məntəqələrdə bulunan hər növ silah, cəbbəxana, mühimat, araba, heyvan və əlbəsələri yeni təşkil ediləcək qolordunu donatmaq (təchiz etmək–red.) üzrə Qafqaz İslam Ordusu əmrinə veriləcəkdir. Azərbaycan qolordusu 15 avqust 1918-ci il tarixinə qədər bunların listini Qafqaz İslam Ordusuna göndərəcəkdir.

7. Yeni təşkil olunacaq birliklərdə danışıq və yazışma türkcə olacaqdır. Yayınlanan bu təmim Azərbaycanda fəaliyyət göstərən bütün Osmanlı birlikləri ilə Azərbaycan qolordusu komandanlığına və Azərbaycan hökumətinə göndərilmişdir» (123).

Qeyd etmək lazımdır ki, bütün yazışmalar əl ilə aparıldığı üçün surəti çoxaldılan əmrlərin bir çoxunda redaktə xarakterli fərqlər vardır. Elə bu əmrin özünün də redaktə fərqinə malik olan başqa variantı da vardır(124). Həmin variantda bir fikir də var ki, onun üzərindən xətt çəkilibdir.Yuxarıda bütünlükdə verilən əmrdə isə bu fikir öz əksini tapmamışdır. O da Azərbaycan qolordusunda olan qeyri-müsəlman zabitlərin ordudan kənarlaşdırılması tələbidir.

Bu əmrin ardınca Nuru paşa başqa bir əmr imzaladı və orada Azərbaycan qolordusunun əmlakının kimə və hara təhvil verilməsi və bəzi təşkilati dəyişiklikləri təsbit etdi. Burada bildirilirdi ki, Azərbaycan korpusunun ləğv edilməsi ilə əlaqədar onun hissələrinə aid olan təchizat, əlbəsə və əşyalar Təlimgah komandasının ixtiyarına keçəcək və orada 4-cü tabor təşkil ediləcək. Topçu bölmələrinə aid olan təchizat və əşyalar korpusun topçu müfət-

tişinə, korpusun qərargahında olan xəritələr və sxemlər ordu qərargahına təhvil verilməlidir. Korpusa aid olan səhiyyə bölmələri və müəssisələri ordu sərtəbibinin səlahiyyətinə keçməli idi. Əmrdə göstərilirdi ki, bundan sonra bütün yazışmalar ordu komandanlığı ilə aparılmalıdır. Struktur dəyişikliklərinə gəlincə isə bildirilirdi ki, 4-cü süvari alayının şəxsi heyəti süvari alayları arasında bölüşdürüləcəkdir. Birinci süvari alayı Qarayazı alayı adlandırılmalı idi. Korpusun qərargahının tabeliyində olan süvari bölüyü ilə Ordu komandanlığı tabeliyində olan süvari taqımı birləşdirilərək bir güclü bölük yaradılmalı idi(125).

Azərbaycan korpusunun ləğv edilməsi ilə bağlı olan bu və ya başqa sənədləri nəzərdən keçirməklə belə bir qənaətə gəlmək olar ki, yeni yaradılacaq korpusda keyfiyyət dəyişikliyi yalnız qeyri-müsəlman zabitlərin oradan uzaqlaşdırılması, bir də ordu rəsmi dili olaraq türk dilinin elan edilməsidir. Korpusun struktur quruluşunda isə elə bir ciddi dəyişikliyin edilməsi nəzərdə tutulmurdu. Məsələn, Nuru paşanın yuxarıda toxunulan 2 avqust 1918-ci il tarixli, yəni Azərbaycan korpusunun ləğv edilməsindən əvvəl imzaladığı əmrində göstərilirdi ki, Azərbaycanda ikidiviziyalı bir korpus təşkil olunacaq və elə burada da yeni təşkil edilmiş dörd alayın adı çəkilir. Azərbaycan korpusunun ləğvindən sonra, avqust ayının 22-də imzaladığı başqa bir sənəddə isə Nuru paşa bildirirdi ki, Azərbaycan daxilində iki piyada və bir süvari diviziyası təşkil olunacaqdır (126). Burada Nuru paşa əlavə olaraq süvari diviziyasından söhbət açır. Həmin diviziyanı təşkil edəcək süvari alayları artıq mövcud idi. Qalırdı yalnız diviziyanın qərargahını yaratmaq. O da qeyd olunan sonuncu sənəddən aydın olur ki, türk süvari zabitləri olmadığı üçün diviziya qərargahını təşkil etmək çətinləşir.

Bir sözlə, Azərbaycan korpusunun ləğv edilməsi və onun yenidən qurulması barədə əmrin nəyə görə verildiyinin səbəblərini tamamilə anlamaq çətindir. Əgər söhbət qeyri-müsəlman zabitlərin ordudan çıxarılması və ordu dilinin türk dili elan edilməsi ilə bağlı idisə, bunu korpusu ləğv etmədən də həyata keçirmək mümkün idi. Ola bilsin belə bir addım atmağa Nuru paşanı başqa səbəblər sövq etmişdi ki, bu barədə hələlik kifayət qədər

məlumat yoxdur. Qeyri-müsəlman zabitlərə və orduda dillə bağlı tələblərə gəldikdə isə Nuru paşanın həmin əmrindən sonra qeyri-müsəlman zabitlərin hamısı ordudan azad edilmişdi. Dil məsələsinə gəlincə isə Azərbaycan korpusunun arxivi əldə olmadığından bu faktı təsdiqləyəcək bir söz demək çətindir. Azərbaycan korpusunun arxivinin hazırda dövriyyədə olmaması üzündən bu korpusun yenidən nə vaxt qurulduğu barədə qəti fikir yürütmək də mümkün deyil. Ancaq bir məsələ həqiqətdir ki, Azərbaycan korpusunun qərargahı bərpa olunmuş, Ə.Şıxlinski yenidən korpusun komandanı təyin edilmişdi.

1918-ci il avqust ayının axırı, sentyabr ayının birinci yarısında Qafqaz İslam Ordusu strukturunda aparılan dəyişikliklər, əsasən, Bakı şəhəri üzərinə qəti hücuma hazırlıqla bağlı idi. Burada baş verən başlıca dəyişiklik ondan ibarət idi ki, sentyabr ayının 9–10-da Süleyman İzzət bəyin komandirliyi altında 15-ci diviziya Bakı ətrafına çatdı və Qafqaz İslam Ordusunun tərkibinə qatıldı. 15-ci diviziyanın yetişməsi ilə Qafqaz İslam Ordusu qarşıya qoyulan mühüm vəzifələrin icrasına qabil olacaq bir hərbi vahidə çevrildi.

### *4. Qafqaz İslam Ordusunun təminat və təchizat məsələləri*

Qafqaz İslam Ordusu tərkibinə daxil olan hissələrin maddi təminatının həlli komandanlıq qarşısında dayanan mühüm məsələlərdən biri idi. İstər Türkiyənin, istərsə də Azərbaycanın mövcud şəraitdə iqtisadi imkanlarını nəzərə alaraq bu sahədə obyektiv çətinliklərin olduğunu qeyd etmək lazımdır. Bəzi hallarda maddi təminat sahəsində ortaya çıxan gərginlik bu və ya digər döyüşlərin ilkin nəticələrinə də öz təsirini göstərmişdi. Ancaq lazımi tədbirlərin həyata keçirilməsi, səmərəli yolların axtarılması, imkanların səfərbər edilməsi çətinliklərin böhran həddinə çatmasına yol verməmişdi. Qafqaz İslam Ordusu qarşısında dayanan başlıca vəzifənin yerinə yetirilməsi, yəni Azərbaycan ərazisinin bolşevik-daşnak qoşunlarından təmizlənməsi də maddi təminat sahəsində meydana çıxan çətinliklərin kafi dərəcədə həllini göstərir.

Maddi təminat sahəsindəki çətinliklər həm qoşunların silah, sursat və döyüş təchizatı, həm də bütünlükdə iaşə təminatı istiqamətində mövcud olmuşdur. Bunlardan ikincisi,əsasən, Azərbaycanın daxili imkanları hesabına həll olunurdusa, birincisinin həllində əsas ağırlıq Türkiyənin üzərinə düşürdü. Çünki Azərbaycanda silah-sursat ehtiyatları xeyli az idi. O da başlıca olaraq, cəbhədən qayıdan rus hərbçilərindən alınmışdı. Hətta bu baxımdan Azərbaycanda olan bolşevik-daşnak qoşunları Azərbaycanın milli qüvvələrinə nisbətən xeyli yaxşı təchiz olunmuşdular.

Türkiyənin isə bu sahədə imkanları daha geniş idi. Azərbaycan milli qüvvələrinin istifadəsində olan silah sistemi türk qoşunlarının istifadəsində olan silah sistemindən fərqli olduğu üçün İslam Ordusu komandanlığı onlar üçün lazım olan sursatın, əsasən, türk anbarlarından gətirilməsi məcburiyyətində qalırdı.

Bolşevik-daşnak təcavüzkarlığının bölgədə genişlənən cinayətlərinin qarşısının alınması üçün türk hərbi dairələri hələ Azərbaycanla Türkiyə arasında bağlanan müqavilədən əvvəl də buradakı müqavimət dəstələrinə silahla kömək göstərmək yolları arayırdılar. Məsələn, 1918-ci il iyun ayının 2-də Qrup komandanlığı Borçalı–Qazax–Gəncə ətrafında könüllü dəstələrin təchizi üçün 5 min ədəd tüfəng göndərməyə hazır olduğu barədə əlaqədar şəxslərə məlumat verirdi. Ümumiyyətlə, Qrup komandanlığı bildirirdi ki, əgər bu bölgələrdə daha çoxsaylı könüllü müqavimət dəstələri toplanarsa, dərhal həmin sayda tüfəng göndərilməsi barədə göstəriş veriləcəkdir(127).

3-cü Ordu komandanlığından 1918-ci il iyun ayının 3-də verilən açıqlamada isə bildirilirdi ki, Borçalı və Qazax məntəqələrinin müsəlman əhalisinin silahlandırılması üçün Ərzurum, Olti, Ərdəhan, Qars və Gümrüdə 9800 böyük və 2200 kiçikçaplı rus tüfəngi mövcuddur. Bundan başqa isə 4-cü Ordu məntəqəsində həyata keçiriləcək təşkilatlanma üçün Culfaya 5 min ədəd rus tüfənginin göndəriləcəyi bildirilirdi(128).

Ancaq şübhəsiz ki, tək silah göndərilməsi bütün məsələləri həll etmirdi. Azərbaycana yol düşməzdən əvvəl 5-ci Qafqaz diviziyasının komandanlığını narahat edən başlıca məsələ Azərbaycana sursatın gətirilməsi məsələsi idi. Müharibə şəraitində bu mə-

sələ gündəlik bir problemə çevrilmişdi. Diviziya komandanlığının narahatçılığını artıran bir də o idi ki, istifadə edilən mauzer tüfənglərinin, Şnayder və qüdrətli topların güllə və mərmiləri yalnız Türkiyədən gətirilməli idi. Azərbaycan ətrafında mövcud olan şəraitin mürəkkəbliyi Türkiyədən həyata keçiriləcək daşınmaların ardıcıl olacağına heç bir zəmanət vermirdi. Bir tərəfdən ermənilərin türklərə qarşı münasibəti, digər tərəfdən də Gürcüstan ərazisindən keçən dəmir yolu xəttinin almanların nəzarəti altında olması Türkiyədən həyata keçiriləcək təchizat işlərinin kifayət qədər mürəkkəbləşəcəyinə obyektiv zəmin yaradırdı. Azərbaycan ərazisində olan dəmir yolu xəttinin daşıma imkanlarının aşağı olması, xüsusilə vaqonların çatışmaması bu sahədəki çətinlikləri daha da artırırdı. Zaqafqaziya Federasiyası dağıldıqdan sonra bölgədə istifadə olunan vaqonlardan 5 min ədəd Gürcüstanda saxlanmışdısa, Azərbaycana cəmi 150 ədəd vaqon verilmişdi (129). Bu da haqlı narahatçılığı artırmaqda idi.

Digər tərəfdən də Gürcüstana sərhəd bölgələrdən keçən yük karvanları talanır və Qafqaz İslam Ordusu üçün nəzərdə tutulan əşyalar və təchizat bəzi vaxtlar mənzil başına çatmırdı. Məsələn, 1918-ci il iyun ayının 14-də Sadaxlı istiqamətində hərəkət edən silah, sursat, əşya dolu 40 araba gürcülər tərəfindən saxlanmış və bütün arabalar talan edilmişdi. Yəni Gürcüstan ərazisindən keçən dəmir yolları bağlı olduğu kimi, quru yolları ilə getmək özü də təhlükəli idi (130).

Daşınma və nəqliyyatda olan çətinliklər dərhal cəbhə bölgələrində də özünü hiss etdirirdi. Sərf edilən sursatın əvəzi gətirilmədiyi üçün şəxsi heyət güllə və mərmi sarıdan xeyli qıtlıq çəkirdi. İlk döyüşlər zamanı bu cəhət xüsusilə özünü göstərirdi. Həmin qıtlığın qarşısının alınması üçün hissə komandirləri müxtəlif yollara əl atırdılar. 5-ci Qafqaz diviziyası komandanının əmri ilə piyada alaylarında sursatın çatışmaması üzündən taborların şəxsi heyətindən mauzer tüfənglər toplanır, əvəzinə isə rus tüfəngləri verilirdi. Bu ondan ötrü edilirdi ki, mauzer tüfənglərinin gülləri Türkiyədən gətirilməli idi. Nəqliyyatda yaranan çətinlik daşınmada gərginlik yaratdığından güllə çatışmırdı. Rus tüfənglərinə isə Azərbaycanda güllə tapmaq mümkün idi. Bu yolla üçüncü ta-

borlarda qənaət edilən güllələr alayların digər taborlarına paylanırdı. Ancaq elə üçüncü taborlara paylanmalı olan rus tüfəngləri də kifayət qədər deyildi. 5-ci Qafqaz diviziyasının ixtiyarında nəzərdə tutulan silah dəyişməsini həyata keçirmək üçün cəmi 600-ə yaxın tüfəng var idi. Əslində isə 1400 ədəd tüfəng lazım idi. Ona görə də diviziya komandanlığı çatışmayan 800 ədəd tüfəngin və rus tüfəngləri üçün zəruri olan 600 min güllənin göndərilməsini Ordu komandanlığından xahiş etdi.

Sursat gərginliyi ilə bağlı 5-ci Qafqaz diviziyası komandanının 1918-ci il iyun ayının 21-də Göyçaydan Qafqaz İslam Ordusu komandanına yazdığı məktubda bildirilirdi ki, diviziyanın vətənlə əlaqəsi kəsilib, hər cür təchizat mənbəyindən uzaqlarda, islam aləminə düşmən kəsilmiş ermənilərlə dolu bir məntəqədə yerləşmişdir. Qoşun hissələrinin ixtiyarında olan sursat son döyüşlər zamanı işlədilmiş və indi onun bərpa edilməsinə böyük ehtiyac vardır. Diviziya komandanı daha sonra əlavə edirdi ki, Qafqaz əhalisinin, xüsusilə ətraf məntəqələrin müsəlman əhalisinin mövcud təhlükədən çıxmaq üçün yeganə ümid yeri olan 5-ci Qafqaz diviziyasının ona həvalə edilmiş vəzifələri yerinə yetirməsi yalnız bütün təchizat ehtiyaclarının aradan qalxdığı təqdirdə mümkündür. Bununla bağlı İslam Ordusu komandanlığından xahiş olunurdu ki, piyadaların hər birinə 500 ədəd güllə hesabı ilə diviziyaya 3 min sandıq mauzer gülləsi, Şnayder və qüdrətli toplar üçün isə 4 min mərmi göndərilsin (131).

Silah və sursata ehtiyac təkcə düşmənlə təmas xəttində deyil, ermənilərin və rus qoşunlarının təhlükəsi hiss olunan başqa bölgələrdə də vardı. Ona görə də Qafqaz İslam Ordusu komandanlığının həm döyüşən hissələrin, həm də müqavimət dəstələrinin ehtiyacını aradan qaldırmaq üçün lazımi tədbirlər həyata keçirməyə çalışırdı. 1918-ci il iyun ayının sonlarında 300 ədəd tüfəng və 200 sandıq güllə Şimali Dağıstan və ətraf bölgələrdə olan könüllü dəstələrə paylandı. Onlardan 200 ədəd tüfəng və 150 sandıq güllə Axtıya, 20 ədəd tüfəng və 20 sandıq güllə Qutqaşenə, 12 sandıq güllə Padara və Xaçmaza göndərildi. Vaxtilə rus hərbçilərindən alınmış 51 ədəd tüfəng isə Şəkinin kəndlərinə paylandı (132).

Lakin bunlar da hələ bütün ehtiyacı ödəmirdi. Xüsusilə cəbhə

bölgəsində silah və sursata olan zərurət hələ də davam edirdi. 1918-ci il iyun ayının sonlarında 5-ci Qafqaz diviziyası komandanlığının zabitləri gizlətmirdilər ki, onların ciddi narahatçılığına səbəb olacaq iki başlıca məsələ var idi – birincisi sursat, digəri isə içməli su (133).

Sursata olan ehtiyacın daha sürətlə aradan qaldırılması üçün iyun ayının 26-da Əmənulla əfəndi adlı birisi 5-ci Qafqaz diviziyası komandanlığı tərəfindən Gəncəyə göndərilmişdi. Qafqaz İslam Ordusu komandanlığından isə ərkani-hərb rəisi Nazim bəy bütünlükdə İslam Ordusunun ehtiyaclarını aradan qaldırmaq üçün Gəncədən Qars və Gümrüyə göndərilmişdi. Geri qayıdanda o, Dilican yolu ilə Qazaxa müəyyən miqdarda sursat da gətirmişdi. Sursatın bütün ehtiyacı ödəyəcək səviyyədə olmaması İslam Ordusu komandanlığını da ciddi narahat edirdi. Xüsusilə sursatın olmaması üzündən irəliyə doğru hərəkətin ləngiməsi Ordu komandanlığını qane etmirdi. İyun ayının 29-da 5-ci Qafqaz diviziyası komandanlığına göndərilən məktubda bu məsələ belə dəyərləndirilirdi: «Hərəkəti-təərrüzədə bir az bitaət (ləngimə–red.) hiss ediliyor. Hər qədər mövsüm pək sıcaq (isti–red.) isə də yenə sabahın ilk və axşamın gec saatlarından əzəmi dərəcədə və kəmali-sürətlə istifadə edilməsi lazımdır. Ərkani-hərb rəisi Nazim bəy övdət etdi (qayıtdı–red.). Bütün mətalibimiz yapılacaqdır. 9-cu Ordudan 80 sandıq mauzer cəbbəxanası ilə 800 atım top mərmisi Dilican yolu ilə Qazaxa vürud etdi. Bunlar Ağstafadan qatarla Ucara göndəriləcəkdir» (134).

Türkiyədən daşınan silah və sursat, adətən, quru yolla Dilicandan keçməklə Qazaxa gətirilir və buradan da dəmir yolu vasitəsilə düşmənlə təmas xəttinə yaxın olan stansiyalara daşınırdı. Məsələn, 1918-ci il iyul ayının ortalarına aid olan raportların birində bildirilirdi ki, Ağstafadan Kürdəmirə 162 sandıq güllə, 362 sandıq isə top mərmisi yola salınmışdır (135).

Silah və sursatın Türkiyədən gətirilməsi məsələsinə istər Qafqaz İslam Ordusu, istərsə də Şərq Ordular Qrupu komandanlığı tərəfindən xüsusi diqqət yetirilirdi. İslam Ordusu komandanlığı tərəfindən qaldırılan vəsatətlər, bir qayda olaraq, Şərq Ordular Qrupu komandanlığı tərəfindən də yerinə yetirilirdi. Elə bunun

nəticəsi idi ki, müəyyən vaxtlarda yaranan gərginliklər bir müddətdən sonra qismən aradan qaldırılırdı.

Silah və sursata olan ehtiyac həm də qismən Azərbaycanın daxili imkanları hesabına ödənilirdi. Könüllü müqavimət dəstələri, əsasən, bu dəstələrin üzvlərinin öz silahları hesabına silahlandırılırdı. Bundan başqa, dəstələrə yazılmayan əhali arasından da silah toplanırdı. Verilən əmrə görə əhali arasından silahlar heç bir basqın təhlükəsi olmayan yaşayış məntəqələrindən toplana bilərdi (136).

5-ci Qafqaz diviziyasının hissələri Bakıya yaxınlaşdığı vaxt İslam Ordusu komandanlığının əmri ilə azad olunmuş Göyçay və Şamaxı ərazisində çağırış keçirmək qərara alındı. Bu əmrin ilk bir neçə bəndi əhalidəki silahların da çağırış altına alınması ilə bağlı idi:

«1. Göyçay və Şamaxı əhalisindən 19-dan 25 yaşına qədər olanı silah altına alınacaq.

2. Hər kəs tüfəng və patronu ilə gəlməlidir.

3. Tüfəngi olmayanlara əsgər idarəsi komisyonu tüfəng və cəbbəxana tədarük edəcək.

4. Tüfənglərini Vətən müdafiəsi vəzifəsi ilə toplaşan cavanlara verənlər əsgər idarəsindən vəsiqə alacaqlar.

5. Əsgərə tüfəng verilməsi xüsusunda əsgər idarəsi və hökumətdən tədbirlər yapılacaqdır. İşin axırında tüfənglərini belə müqəddəs və ali bir yolda verməyib də öz evində təsadüf edəcəklərini ümid etmirəm.

6. Evlərdə qalacaq hər tüfəng üçün bir şəhadətnamə olması lazımdır. Tüfənglər üçün şəhadətnamələri əsgər idarəsi komisyonu verəcəkdir. Vəsiqəsiz tüfəng saxlayanlara əmrə itaət etməmək cəzası veriləcək. Bu xüsusda idareyi-ürfiyyə qanunu tətbiq olunur.

7. Tüfənglərin şəhadətnaməsi olub-olmadığını Osmanlı əsgəri komandanlığı kontrol edir...» (137).

İslam Ordusu ərkani-hərb rəisi Nazim bəy tərəfindən imzalanan bu əmr əslində, təlimat xarakteri daşıyan və adları çəkilən qəzaların yaşayış məntəqələrindən silah toplanmasını nizamlamalı idi.

Bakının azad edilməsi üçün qəti hücumlara hazırlaşarkən silah və sursat ehtiyatlarının yaradılmasına da diqqət, xüsusilə artdı. Bu məsələ ilə Nuru paşadan başlamış hərbiyyə naziri Ənvər paşa-

yadək bütün səviyyələrdə olan komandirlər məşğul idilər. Məsələn, 1918-ci il 7 avqust tarixli məktubu ilə Ənvər paşa Nuru paşaya bildirirdi ki, bu günlərdə Qarakilsədən Ağstafaya bir min sandıq güllə və 5 min ədəd top mərmisi göndərilmişdir (138). Bir neçə gün sonra Şərq Ordular Qrupu komandanı Xəlil paşa bildirirdi ki, Bakının azad edilməsi üçün Batumdan tezliklə haubitsa-topçu batareyası və bütün növlərdən olan mərmilər göndəriləcəkdir (139). Maştağa sakinlərindən təşkil edilmiş könüllü dəstəni silahlandırmaq üçün Ağdaş əhalisindən 400 ədəd tüfəng toplanıb gətirilmişdi. Nuru paşa Xəlil paşadan xahiş edirdi ki, Maştağa dəstəsini tam silahlandırmaq üçün Batumdan da müəyyən miqdar silah göndərilsin (140).

Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın milli qoşun hissələrinin də təchiz səviyyəsində müsbət dəyişikliklər baş verirdi. Məsələn, 1918-ci il avqust ayının ikinci yarısında 633 nəfər şəxsi heyəti olan 3-cü alayda 122 ədəd müxtəliftipli tüfəng var idi (141). Qərargahı Ağdaşda yerləşən 4-cü alayın birinci taborunda 665 nəfərə qarşı 581 ədəd silah var idi. Həmin alayın Göyçayda olan ikinci taborunda isə 662 nəfərə qarşı 414 müxtəlifnövlü silah var idi (142).

Göründüyü kimi 4-cü alaya nisbətən 3-cü alayın təchizat səviyyəsi daha aşağı idi. Ağdamda yerləşən 2-ci alayın təchizat səviyyəsi, hətta bundan da aşağı idi (143). Yəni göstərilən bütün cəhdlərə baxmayaraq, maddi-texniki təchizat səviyyəsində çatışmazlıqlar qalmaqda idi. 1918-ci il avqust ayının axırı, sentyabr ayının əvvəlləri Qafqaz İslam Ordusunun bütün imkanları Bakının azad edilməsi üçün səfərbər edilmişdi. Bu istiqamətdə atılan addımlar öz məntiqi nəticəsini verdikdən sonra Azərbaycanın milli qoşun hissələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də bir sıra səmərəli tədbirlər həyata keçirildi.

Qafqaz İslam Ordusu hissələrinin iaşə təminatına gəldikdə isə içməli su istisna olmaqla, bu sahədə vəziyyət nisbətən daha yaxşı idi. Su ilə bağlı olan çətinliklər də, əsasən, Azərbaycanın təbii şəraitindən irəli gəlirdi. Bir çox ərazilərdə içməli su mənbəyinin olmaması və onun uzaqdan daşınması üçün nəqliyyat vasitələrinin çatışmaması qoşun hissələrində bəzən çox böyük narahatçılıqlar

yaradırdı. 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy öz xatirələrində yazırdı ki, bəzi döyüşlərin gedişində su qıtlığı əsgərlərə mərmi və ya güllə qıtlığından daha çox əziyyət verirdi. Güllə qurtardığı təqdirdə əsgərlər hələ süngü ilə döyüşə bilərdilərsə, susuzluğa qarşı isə ediləcək bir çarə yox idi (144).

Susuzluq, əsasən, Göyçayla Qaraməryəm, Mərəzə ilə Bakı arasında, dəmir yolu xətti boyunca isə Kürdəmirdən başlayaraq Bakıya qədər olan ərazidə hiss edilmişdi. Dəmir yolu boyunca hərəkət edən hissələrə su çatdırılması üçün vaqon-sisternlərdən istifadə olunurdu. Lakin dəmir yolunun işlək vəziyyətdə olmaması, düşmənlə təmas xətlərində dəmir yolu xətlərinin düşmən tərəfindən xarab edilməsi bu sahədə də müəyyən çətinliklər yaradırdı.

Azərbaycan daxilində ərzaq ehtiyatlarının kifayət qədər olması Qafqaz İslam Ordusunun iaşəsini təmin etməyə imkan verirdi. İaşə təminatı ümumən Azərbaycanın daxili imkanları hesabına ödənirdi. Çünki bir tərəfdən Türkiyədən çox böyük miqdarda ərzağı daşımaq mümkün deyildi, digər tərəfdən də bu qədər ərzağı əldə etmək də artıq Türkiyənin imkanları xaricində idi. Neçə il davam edən müharibə ölkənin iqtisadi imkanlarını xeyli zəiflətmişdi. Bu isə orduların təchizat səviyyəsində artıq özünü göstərməkdə idi. Hələ 1918-ci ilin aprel ayında 3-cü Ordu komandanlığının ərzaqla bağlı sorğularına Baş komandanlıqdan bildirilmişdi ki, indi bütün ordu iaşə çətinlikləri ilə üzbəüz qalmışdır. Aprel ayından başlayaraq oktyabr ayına kimi 3-cü Ordunun iaşəyə olan ehtiyacı bütünlükdə 38305 ton təşkil edirdi. Onun iaşə anbarlarında mövcud olan iaşə isə 12000 ton idi (145). Yəni tələb olunan ərzağın yarısından da az idi.

Türk qoşunlarının ərzağa olan ehtiyacının aradan qaldırılması üçün də Azərbaycanın daxili imkanlarından istifadə edilirdi. Bunun üçün 9-cu Ordu komandanlığından Azərbaycana xüsusi bir heyət göndərilmişdi. Bu heyətə tapşırılmışdı ki, Gəncə ətrafındakı əhalidən nə qədər mümkündürsə ərzaq toplansın, dəyəri ödənilsin, anbarlara yığılsın və sonra da orduya daşınsın. Qafqaz İslam Ordusunun komandanı Gəncə ətrafından 16800 ton ərzaq toplanılacağına söz vermiş və Bakı azad ediləndən sonra bu miqdarın artırılacağını bildirmişdi. Gürcüstan ərazisindən keçən Qazax–Qara-

kilsə dəmir yolu bağlı olduğu üçün Azərbaycanda toplanan ərzağı Qafqaz İslam Ordusuna silah və sursat gətirən yük avtomobilləri və arabalar geri qayıdanda aparırdılar (146).

Azərbaycana gələn ilk türk qoşun hissələrinin iaşəsini təmin etmək üçün nəzərdə tutulmuşdu ki, xristianlar tərəfindən tərk edilmiş ərzaq və yem anbarlarının yeri müəyyənləşdirilsin, onlar qoşunların xeyrinə müsadirə edilsin. Əgər bunlar olmazdısa onda, əhalidən pulla ərzaq alınması təmin edilməli idi(147).

Qafqaz İslam Ordusunun iaşəsinin təmin edilməsi üçün Azərbaycan Cümhuriyyəti də öz imkanlarından istifadə edirdi. Dövlətin iqtisadi imkanlarının məhdud olmasına baxmayaraq, Azərbaycan hökuməti türk qoşun hissələrinin təminatını qismən öz üzərinə götürdü. Hökumətin 21 iyun 1918-ci il tarixli qərarında bildirilirdi ki, hərbi hissələrin və türk qoşun hissələrinin iaşə təminatı bir ay müddətində bütünlüklə dövlət xəzinəsi hesabına ödənilsin (148). Qoşunların ərzaqla təchizatı sonradan da Azərbaycandan ödənilmiş və ərzaq ehtiyatlarının toplanması türk hərbi birləşmələrinin iştirakı ilə aparılmışdı (149).

Bütün qoşunların ərzaq və yemlə təchiz edilməsi əkinçilik nazirinə tapşırılmışdı. Bu çətin məsələnin həlli üçün əhalidən toplanan vergilər artırılmışdı. Hökumətin razılığı ilə Qafqaz İslam Ordusunun ərzaq ehtiyacının ödənməsi üçün kəndlilər bağlardan, heyvandarlıqdan aldığı məhsulun onda birini orduya verməli idi. Əhali tərəfindən tərk edilmiş torpaq sahələrində becərilən məhsulun isə yarısı ordunun hesabına keçirilməli idi. Bundan başqa döyüş səfərlərinin hazırlığı zamanı ərzağın daşınması üçün əhalinin nəqliyyat imkanlarından istifadə edilirdi. Bir çox yerlərdə onsuz da iqtisadi imkanları aşağı olan kənd əhalisindən bu sahədə sui-istifadəyə yol verilirdi ki, nəticədə bəzən kənd əhalisi arasında narazılıqlar da ortaya çıxırdı (150).

Qoşunlara isə çox böyük miqdarda iaşə tələb olunurdu. Təkcə 5-ci Qafqaz diviziyasının iaşəyə olan tələbatını aşağıdakı rəqəmlərdən görmək mümkündür(151):

| | bişirmək | yemək üçün | arpa üçün | ət məhsulları | cəmi |
|---|---|---|---|---|---|
| 1 günlük tələbat(kq) | 3830 | 1150 | 3878 | 1916 | 10774 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 20 günlük tələbat(pud) | 4780 | 1440 | 4880 | 2380 | 13480 |

## 5-ci Qafqaz diviziyasının iaşə tələbatı

Böyük miqdarda ərzağın toplanması və vaxtlı-vaxtında qoşunlara çatdırılması özü də lazımi təşkilatçılıq işi tələb edirdi. Qoşunların iaşə təminatında fasiləliyə yol verməmək üçün ərzaq anbarları yaradılmışdı. Əhalidən yığılan ərzaq bu anbarlarda toplanır və oradan da qoşunlara paylanırdı. Qafqaz İslam Ordusu Bakıya doğru irəlilədikcə bu ərzaq anbarlarının yeri də dəyişdirilirdi. Qoşunların hərəkətinin həm şimal xətti boyunca, həm də cənub xətti boyunca ərzaq anbarları yaradılmışdı (152).

Bu sahədə görülən işləri nizamlamaq üçün 1918-ci ilin iyul ayının 2-ci yarısında 5-ci Qafqaz diviziyasında Mənzil müfəttişi vəzifəsi yaradıldı və həmin vəzifəyə Qafqaz İslam Ordusu komandanlığı tərəfindən qayməqam Həlim Pərtöv bəy təyin edildi. Qoşunların yerləşdiyi Mərəzə ilə Kürdəmir arasında nəqliyyat və daşınmaların təşkili, silah və sursatın təmin edilməsi, sahələrdə olan ərzaq məhsullarının toplanılıb anbarlara yığılması, rabitə, habelə arxa ilə əlaqələrin qorunması, qoşunların iaşə təminatı vəzifələri mənzil müfəttişinə həvalə edilirdi. Diviziyanın mənzil müfəttişinin qərargahı Şamaxıda yerləşirdi. Qərargah burada ona həvalə edilmiş işlərin təşkilinə başlamalı idi(153).

Qoşunların iaşə ilə təmin edilməsində Mənzil komandanlığının üzərinə də böyük vəzifələr düşürdü. Nuru paşa tərəfindən yaradılmış olan Mənzil komandanlığı və onun qurumları azad edilmiş ərazilərdə asayişin təmini ilə məşğul olmalı olsalar da, yerlərdə ərzağın toplanması və lazımi yerlərə daşınması da onların yerinə yetirməli olacaqları mühüm işlərdən biri idi.

Azərbaycan daxilində hərəkət məntəqəsi mənzil komandanlığı və məntəqə komandanlıqlarının vəzifələri haqqında, onların vəzifələrinin icrasının təşkili barədə Qafqaz İslam Ordusu komandanlığı tərəfindən aşağıdakı məzmunda bir təlimat qəbul edilmişdi:

«1. Hacı İlci gölü (Cavadın 44 km cənubundadır)–Xırman gölü–Hacıqabul stansiyası və Şamaxıdan keçən xəttin şərqindəki ərazi hərəkət məntəqəsidir. Bu məntəqənin mənbələri və asayi-

şin təmini Şərq cəbhəsi komandanlığına aiddir.

Mənzil məntəqəsi: Kürdəmir və Ağdaş sancaqlarını əhatə edir.

Mənzil komandanlığı birbaşa Orduya aiddir. Vəzifəsi aşağıdakılardır:

a) Şərq cəbhəsini iaşə etmək. Bunun üçün hər gün nə qədər ərzağın haraya göndərilməsi icab edəcəyini doğruca diviziya ilə təmasda bulunaraq anlayacaqdır;

b) məntəqəsində bulunacaq və ya keçəcək qitəatı (hissələri–red.) iaşə etmək;

c) mənzil məntəqəsi daxilində asayişi təmin etmək.

Mənzil məntəqəsindəki mənbələrdən əzəmi bir surətlə istifadə edərək Kürdəmir və Ləki stansiyalarında iddiharata (toplamağa–red.) bulunacaqdır. Mənzil komandanı gündəlik iaşənin təmini üçün Şərq cəbhəsinə nə qədər ərzaq sövq etdiyini (göndərdiyini–red.) və hansı anbarlarda nə qədər ərzaq bulunduğunu hər gün Orduya bildirəcəkdir.

Mənzil komandanının kadrosu şimdilik aşağıdadır:

İdarə rəisi: icab edən mövqe komandanı olaraq istixdam edilmək üzrə indilik dörd zabit də veriləcəkdir. Mənzil komandanının əmrində bir milis bölüyü təşkil olunacaqdır. Bunun üçün bir bölük komandanı ilə taqım komandanı olaraq üç kiçik zabit Kürdəmirə göndəriləcəkdir.

2. Məntəqə komandanları bunlardır:

a) Qarabağ məntəqə komandanlığı: Şuşa, Gorus və Qarabağ sancaqlarını ehtiva edir. Məntəqə komandanlığı mərkəzi Ağdamdır;

b) Gəncə məntəqə komandanlığı: Qazax, Gəncə və Tərtər sancaqlarını ehtiva edir. Məntəqə komandanlığı mərkəzi Gəncədir;

c) Zaqatala məntəqə komandanlığı. Zaqatala və Nuxa sancaqlarını ehtiva edir. Mərkəzi Nuxadır.

Məntəqə və mövqe komandanlıqlarının vəzifələri bunlardır – hər məntəqə komandanlığı daxilində bir neçə mövqe komandanlığı bulunacaqdır. Məntəqə komandanı məntəqəsi daxilində asayişin təmin və məntəqənin ehtiyacından artıq ərzağı biləxirə veriləcək əmrə görə göndərmək üçün məntəqə mərkəzinə cəm və iddihar edəcəkdir.

Məntəqə komandanları məhəlli hökumətlərlə irtibatda bulluna-

raq çalışacaqdır. Hökuməti-məhəlli məntəqə komandanlarının həp əmrlərini infaza (icra etməyə–red.) məcburdurlar. Mövqe komandanları məntəqəsi daxilində yuxarıda zikr olunan vəzifələri məntəqə komandanlarının təlimatına nəzərən ifa edirlər. Hər hansı bir məntəqədə bulunacaq milis (könüllü–M.S.) və nizami qitəat komandanlarının əhali və idareyi-məhəlli ilə münasibət və əlaqələri yoxdur.

Qitəat ehtiyaclarını məntəqəsində bulunduqları məntəqə və mövqe komandanları vasitəsilə təmin edəcəklər.

Məntəqə komandanlığının kadrosu indilik bir komandan və yavərdən ibarətdir. Məntəqə komandanları alay komandanı səlahiyyətinə malikdirlər»(154).

Yerlərdə qoşun hissələri üçün ərzağın toplanmasının və daşınmasının daha yaxşı təşkili üçün Ağdaş mövqe komandanlığı tərəfindən yaradılmış iki nəqliyyat dəstəsi Mənzil komandanlığının ixtiyarına verildi (155).

Nəqliyyat dəstələri təkcə Ağdaş alayının deyil, digər milli alayların tərkibində də yaradılmışdı. Bu nəqliyyat dəstələrinin gücü 50 arabadan ibarət idi. Nəqliyyat dəstələrinin yük heyvanları əhalidən toplanırdı. Əhalidən toplanmış olan heyvanlar tələf olduğu təqdirdə onun əvəzi hökumət tərəfindən ödənilməli idi(156).

Qafqaz İslam Ordusunun qoşun hissələrinin təchizat və təminatını daha da mərkəzləşdirmək və bu işləri daha ciddi nəzarət altında saxlamaq üçün Ordu Mənzil müfəttişliyi yaradıldı. Qaymaqam Şefik bəy bu vəzifəyə təyin edildi. Şefik bəyə Ordu Mənzil müfəttişi kimi Osmanlı hissələrinin və yerli hissələrin iaşəsini təmin etmək, Gəncə, Kürdəmir, Nuxa, Ağdaş və Ağdamda 100 min insan və 50 min heyvan üçün birillik ərzaq ehtiyatı toplamaq, ordunun ehtiyacı təmin olunmadan əhalinin sərbəst ticarətinə yol verməmək vəzifələri həvalə olunmuşdu (157).

Ordu Mənzil müfəttişliyi Bakı şəhəri üzərinə qəti hücum hazırlanarkən yaradılmışdı. Bu dövrdə ərzağa olan tələbat getdikcə artmaqda idi. Çünki 15-ci diviziyanın Bakı ətrafına gətirilməsi gündəlik sərf olunan iaşənin miqdarının daha da artmasını tələb edirdi. Bundan başqa, Bakının azad edilməsindən sonra Azərbaycanın milli qüvvələrinin sayının xeyli artırılması üçün də cəhdlər göstərildi.

Sayı çoxalan qüvvələrin ərzaq ehtiyacını ödəmək üçün Qafqaz İslam Ordusunun komandanlığı ən müxtəlif vasitələrə əl atırdı. Həmin məqsədlə müsəlmanların verməli olduğu zəkatın da ordu xeyrinə toplanması qərara alınmışdı. Bununla bağlı əhali arasında yayılmış olan elanda deyilirdi: «Şəriət qanuni-cəliləsinə məbni müsəlman əhalisi tərəfindən məhsulatın 1/10 zəkat mollalara, fəqirlərə və cəmiyyəti-xeyriyyələrə verilməməsi təyin olunmuşdur. Bu sənə Azərbaycan hökuməti və Qafqaz İslam Ordusu komandanı həzrətlərinin əmrinə məbni zəkatdan toplanılacaq məhsulların orduya sərf olunması qərara alınmışdır. Buna görə zəkat türk zabitanının rəhbərliyi altında xüsusi komissiyalar tərəfindən toplanacaq» (158).

Zəkatdan gələn ərzaq türk zabiti Asim bəyin rəhbərliyi altında toplanmalı idi.

Mövcud olan tələbatın ödənməsi üçün zəkatın da ordu xeyrinə toplanmasından belə bir qənaətə gəlmək olar ki, Qafqaz İslam Ordusunun iaşə təminatında gərginlik olmasa da, bu sahədəki vəziyyətin bütün ehtiyaclara cavab verdiyini də iddia etmək olmaz. Türk qoşun hissələrinin Azərbaycanı tərk etməsindən az sonra Həbib bəy Səlimovun ordunun maddi təminatının vəziyyəti barədə Nazirlər Şurasına məktubunda yazılanlar da sonradan təchizat və təminat məsələlərinin kifayət qədər zəifləməsini göstərirdi. Polkovnik H.Səlimov yazırdı: «Atlar pis vəziyyətdədir, 2 aydır ki, maaş yoxdur. Toplar var, ancaq onu çəkən atlar yoxdur, pal-paltar həddən artıq azdır, əsgərlər acından ölür, nə qədər «un şorbası» yemək olar? Yeməksiz, geyimsiz ordu olar?» (159).

Yeri gəlmişkən, polkovnik H.Səlimov iaşə təminatında Qafqaz İslam Ordusunda tətbiq edilən sistemin təkmilləşdirilməsini də vacib bilirdi. Həmin sistemə müvafiq olaraq yerlərdə yığılan ərzaq məhsulları mərkəzi anbarlara toplanır və oradan paylanırdı. H.Səlimovun fikrincə, bu, iaşə təminatında fasiləliyə səbəb olurdu. O isə təklif edirdi ki, buna son qoyulmalıdır, hər bir korpusun, diviziyanın və alayın öz iaşə anbarı olmalıdır və hər bir hissə və birlik özü öz imkanlarını ölçüb-biçmək, habelə ərzaq təminatını çevik şəkildə həyata keçirmək imkanına malik olmalıdır.

## *5. Qafqaz İslam Ordusunda kadr və səfərbərlik məsələləri*

Qafqaz İslam Ordusunun qarşısında dayanan vəzifələrin həyata keçirilməsi üçün kadrlarla işin qurulmasına, səfərbərlik sahəsində lazımi nəticələrin əldə edilməsinə kifayət qədər əhəmiyyət verilirdi. Türk qoşunlarının Azərbaycanda olduğu beş ay müddətində bu problemin həlli istiqamətində aydın bir siyasətin formalaşdırılmasına və onun həllinin ardıcıllığına nail olunmasına müəyyən cəhd göstərilmişdi. Belə çoxşaxəli və miqyaslı problemlərin nəzəri və praktiki həlli üçün beşaylıq müddət çox az vaxt olsa da, əldə edilən nəticələr görülmüş işlərin səmərəsiz qalmadığından xəbər verir. Xüsusilə yeni-yeni qoşun hissələrinin yaradılması, ordunun şəxsi heyətinin bütün gücünün səfərbər edilməsi, Bakının işğaldan azad olunması, dövlət müstəqilliyi üzərində olan real təhlükənin sovuşdurulması kadrlarla işin qurulmasına, səfərbərliklə bağlı tədbirlərin vaxtlı-vaxtında həyata keçirilməsinə lazımi səviyyədə diqqət yetirildiyini nümayiş etdirir. Azərbaycana gəldiyi ilk günlərdən Nuru paşanın bu sahədə aydın siyasəti mövcud idi. Həmin siyasət də ondan ibarət idi ki, milli Azərbaycan qoşun hissələrinin kadr heyətini milli azərbaycanlı və müsəlman zabitlər təşkil etməli və Azərbaycandakı çağırışçı ehtiyatı milli qoşunların yaradılmasına cəlb edilməlidir. Azərbaycanın milli hərbi kadrlarının azlığı, əhalinin hərbi xidmətdən yadırğadıldığı, habelə müharibənin və tarixi şəraitin çətinlikləri tüğyan etdiyi bir vaxtda bu məsələlərin həlli asan olmasa da, atılan bir sıra qətiyyətli addımların nəticəsi çox böyük tarixi əhəmiyyətə malik idi. Xüsusilə ilk hərbi təhsil ocağının fəaliyyətinə diqqətin artırılması Azərbaycanda professional milli hərbi kadrlar hazırlığı istiqamətində atılan ilk addım kimi tarixi dəyərini indiyə kimi qoruyub saxlamaqdadır.

Əvvəldə qeyd edildiyi kimi, Azərbaycanın ilk milli hərbiyyə məktəbinin təşkilinə hələ dövlət müstəqilliyinin elan edilməsindən əvvəl təşəbbüs göstərilsə də, onun praktiki fəaliyyətə başlaması türk zabitlərinin adı ilə bağlıdır. Nuru paşanın əmri ilə bu məktəbin rəhbəri Qafqaz İslam Ordusunun ən təcrübəli zabitlərindən biri olan miralay Atif bəy təyin edildi (160). Nuru paşa özü

şəxsən bu məktəbin açılmasını və fəaliyyət göstərməsini çox böyük maraqla izləyirdi. Qafqaz İslam Ordusunun formalaşdırılması üçün həmin məktəbə hansı ümidlər bağlandığını Nuru paşanın xatirələrində mövcud olan qeydlərindən də görmək mümkündür. O yazırdı: «İslam Ordusu təşkilatı üçün fazla (çoxlu–red.) zabitə möhtac idi. Və bu ehtiyacın təmin edilməsini mütəəddid dəfələr İstambuldan tələb edildiyi kafi miqdarda zabit göndərilməmişdi»(161). Buna görə də Nuru paşa Azərbaycanın ilk milli hərbiyyə məktəbinin fəaliyyətə başlamasına və milli zabit kadrlarının yetişdirilməsinə böyük əhəmiyyət verirdi. Qafqaz İslam Ordusu komandanı hərbiyyə məktəbinin müdiri Atif bəyi də öz xatirələrində xüsusi bir rəğbətlə anırdı.

1918-ci il iyun ayının əvvəllərində fəaliyyətə başlayan milli hərbiyyə məktəbinin qəbul norması 100 nəfər olsa da, orada oxumaq istəyən azərbaycanlıların sayı xeyli çox idi (162). Məktəbin tədris rejimini nizamlayan əsasnamədə bu təhsil ocağının qarşısında dayanan vəzifələr belə açıqlanırdı: Tələbələrin bir taqım komandiri olaraq yetişməsi, onların bölüyün idarə edilməsinə qadir olması, hissələrdəki şəxsi heyətin təlim və tərbiyəsinə rəhbərlik edə bilməsi. Bu keyfiyyətlərin əldə edilməsi üçün müvafiq tədris proqramı hazırlanmışdı. Onun bütünlüklə həyata keçirilməsi tələbələrin lazımi tələblərə cavab verə biləcək zabit kimi yetişməsinə zəmin yaratmalı idi. Həmin tədris proqramının qayəsi aşağıdakılar idi:

– müasir müharibənin tələblərinə uyğun hazırlığa malik olmaq;

– manqa və taqım daxilində həm yanaşı, həm də ərazi üzərində dağılaraq hərəkət etmək, bölüklərin idarə edilməsi vərdişlərinə yiyələnmək və bu sahədə məharət əldə etmək;

– bölüyün yanaşı və dağınıq hərəkətinin müxtəlif döyüş şəraitində tətbiqini bacarmaq, piyada taborunun ayrıca və alay tərkibində hərəkət edərək açılmasını müşahidə etmək və bu əmrlərin icrasını bacarmaq;

– cərgə, manqa, taqım daxilində döyüş atışları icra etmək və istifadə olunan silahların atəş xüsusiyyətlərinə bələd olmaq. Atış nizamnaməsini öyrənmək, atışın nəzəri əsaslarına yiyələnmək. Pulemyotlar haqqında nəzəri biliklərə malik olmaq və ondan

praktiki olaraq istifadə etməyi bacarmaq(163).

Gələcək zabitlərin bu döyüş keyfiyyətlərinə yiyələnməsi üçün təlim-tərbiyənin hansı istiqamətlərdə aparılması da əsasnamədə öz əksini tapmışdı. Təlim prosesi bütünlüklə 5–6 aylıq bir müddəti əhatə etməli və üç dövrə bölünməli idi. Birinci dövrdə əsas diqqət tələbələrin fərdi hazırlığına, fərdi vərdişlərin qavranılmasına yönəldilmişdi. Bu dövr ərzində tələbələr aşağıdakı nəzəri və praktiki biliklərə yiyələnməli idilər:

– sırada əsas vəziyyət, istiqamət və dönmələr, müxtəlif yürüşlər, təzim və nizam, əsgər təchizatı, onun mühafizə və istifadəedilmə qaydaları, diz çökmək, silahdan istifadə, rəsmi-təzim;

– süngü və onun işlədilməsi qaydaları. Xəncərin işlədilməsi;

– hər növ maneələri aşmaq, dırmanmaq, atlanmaq təlimləri (çantalı və çantasız), üzməyi bacarmaq;

– nişanalmanın müxtəlif vəziyyətləri, sipər gerisindən və müxtəlif əşyaların arxasından, mağzaldan nişan almaq, atışa hazırlıq təlimləri (müxtəlif atış siniflərinə aid vəzifələr komandirlər tərəfindən seçilir);

– ərazini bilmək, ərazi əşyalarından məharətlə istifadə etmək;

– müxtəlif şəkillərdə toplanmaq, açılmaq, topçu və digər piyada atəşi təsiratı altında geri və yanlara hərəkət;

– müxtəlif bombaları öyrənmək, onların hər şəraitdə işlədilməsini bacarmaq;

– qaz maskası, onun necə və harada istifadəsini öyrənmək;

– hücum və mühafizədə nəfərin ümumi vəzifəsi və özünü aparması qaydaları;

– müharibə işarələri, telefon haqqında məlumat;

– yürüş qaydaları haqqında məlumat. Yürüşlərdə və dayanarkən tibbi kömək barədə məlumata malik olmaq;

– tüfəngin quruluşu, onun ibtidai sökülüb-yığılması;

– çanta və çadırların istifadəsi;

– yaxın müharibə, müharibədə işlədilən toplar, odlu silahlar, müxtəlif piyada və kəşfiyyat silahları, təyyarələr haqqında məlumat;

– ərazidə kəşf və təhlükəsizlik tədbirləri, xəbərgöndərmə, əmrgöndərmə, müxtəlif vəziyyətdə rabitə və əlaqə yaratmağı bacarmaq;

– bəsit bir körpünün tənzimi, əsgəri körpülər haqqında məlu-

mat, istehkam, piyada, topçu, süvari, nəqliyyat və s. qoşun qisimləri və onların vəzifələri haqqında biliklərə malik olmaq;

– müxtəlif sipərlər, ara sipərləri, məhəlli mühafizə yerlərinə yaxınlaşma yolları, tərəssüd mövqeləri, sipərdən tərəssüd (müşahidə–red.) və müharibə qurğuları, bomba mövqeləri, yaxın müharibə silahlarının istifadə olunacağı yerlər, qaz hücumu, işarə tapançaları və s. haqqında məlumat;

– gecə şəraitində səssiz hərəkət etmək, silah hərəkətləri, silahı doldurmaq, müəyyən nöqtəyə hərəkət etmək, gecə şəraitində müxtəlif görünüşlərə gözü alışdırmaq. Fərdi tərbiyəyə aid olan hər növ tədbirlər(164).

Hər bir dövr üçün həftəlik dərs proqramı tutulmuşdu. Məsələn, birinci həftə üçün həftəlik dərs proqramı belə idi:

1. Münfərid qitəyə(bölməyə) aid atış qaydaları.....2 dərs
2. Təşkilat və məlumati-əsgəriyyə.........................2 dərs
3. Mövqe müharibəsi və xidmət nəzəriyyəsi..........2 dərs
4. Daxili xidmət və müxtəlif xidmət və ədəb normaları..............................................................2 dərs
5. Gigiyena............................................................1 dərs
6. Osmanlı tarixi....................................................1 dərs
7. Musiqi...............................................................1 dərs

Hər gün axşamlar tələbələrlə məşğələ-müzakirələr aparılırdı. Həftəlik dərs cədvəlinə xüsusi olaraq qeyd edilmişdi ki, axşam müzakirələri türkcə aparılmalıdır (165). Buradan belə bir qənaətə gəlmək olar ki, tədris prosesindən müəyyən dərslərin aparılmasına yerli kadrlar cəlb edilmiş və onlar da bu dərsləri rus dilində aparmışlar.

Təlim-tərbiyə prosesinin ikinci dövriyyəsi manqa və taqımla bağlı nəzəri və praktiki biliklərin əldə edilməsi ilə bağlı idi. Həmin biliklər konkret olaraq əsasnamədə aşağıdakı şəkildə təsbit edilmişdi:

– manqa və taqımın müxtəlif vəziyyətdə tərtib və təşkili, onların yanaşı nizamda müxtəlif hərəkətləri, silah işlədilməsi, yanaşı nizamda hücum və yürüş qaydaları;

– manqa və taqımın müxtəlif atəşlərə qarşı sipərlər vasitəsilə mühafizəsi, onların dağınıq və toplu nizamda müxtəlif yürüşləri,

fırlanmaq, yürüş istiqamətini dəyişdirmək;

– manqa və taqımın praktiki təlimlərində müəyyənləşdirilmiş bir mövqeni (irəlidə,geridə, yanda) işğal etmək. Topçu, pulemyot və piyada atəşləri, habelə təyyarə bombardmanı və atəşləri altında yürüşlər icra etmək, müxtəlif hücum dalğalarını təşkil etmək, gözləmə və hərəkət mövqelərində olmaq, sıçramaq, sıçrayarkən atəş himayəsi yapmaq;

– kəşfiyyat və müxtəlif təhlükəsizlik tədbirləri həyata keçirmək, rabitə təsis etmək, qoşun qisimlərinə yardım etmək, istirahət çadırları açmaq, düşərgə təsis etmək, körpü, tunel və s. kimi müxtəlif obyektləri mühafizə etmək;

– hücum və mühafizədə manqa və taqımın qarşısında dayanan vəzifələri bilmək, keçidlərdən keçmək, dağınıq nizamda hücum və təqib etmək, topçu, pulemyotçu və süvariyə qarşı hücum və müdafiədə olmaq, gecə şəraitində yanaşı nizamda hərəkət edə bilmək, gecə şəraitində köməkçi vəsaitlə atəş açmaq;

– müharibə şəraitində müşahidə mövqeləri düzəltmək, mərmi daraqlarından istifadə etmək, 2-ci dərəcəli mövqeləri təchiz etmək;

– qarşı qarovulda dövriyyəyə keçmək və böyük qarovul ehtiyatına mənsub olmaq. İrəli çıxarılmış qarovulun vəzifələrini bilmək. Təyyarələrə atəş;

– manqa və taqımın müstəqim və ya bölük daxilində vəzifə alıb həyata keçirmək haqqında nəzəri bilik və praktiki vərdişlərə malik olmaq(166).

Üçüncü dövr isə tələbələrdə bölük hazırlığı barədə zəruri biliklər aşılamalı idi. Bölüyün istər ayrıca, istərsə də tabor daxilində döyüş vəzifələri və onların yerinə yetirilməsi yolları əsasnamədə nəzərdə tutulan proqramın məğzini təşkil edirdi. Bununla bağlı tədris prosesinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

– bölüyün yanaşı nizamda idarə edilməsini və hərəkətini bilmək, hücum etmək;

– bölüyün irəli, yanlara və geriyə sürətlə yayılmasını, hər hansı mövqe tutmasını, təyyarəyə qarşı atəşaçma üsullarını, dağınıq nizam zamanı ümumi hərəkətini bilmək;

– praktiki təlimlərdə bölüyün tabor daxilində müstəqimən müxtəlif müharibə məqsədlərinə nəzərən istifadəsini, hücum və müda-

fiədə vəzifəsini, süvari hücumlarına qarşı müdafiə tərzini, mövqe müharibələrində fəaliyyətin təşkilini öyrənmək;

– yürüşdə, dayananda və istirahətdə irəli çıxarılmış qarovulun istifadəsi qaydası. Pişdar (ön mühafizə dəstəsi), canebdar (yan mühafizə dəstəsi) və dümdarda (arxa mühafizə dəstəsi) vəzifə icra etmək;

– bir piyada taboru daxilində hücum. Müdafiəyə keçməklə bir neçə təlim icra etmək. Taborun ayrıca və alay daxilindəki yeri barədə məlumata malik olmaq;

– yayılmış tabor daxilində hər növ rabitə, əlaqə, müxabirə, telefon, bayraqlarla rabitə, tabor daxilində pulemyotlardan istifadə edilməsi və təyinatı, qonşu bölmələrlə və alayla rabitə;

– taborun ictimai nizamı, yüyürərək müxtəlif istiqamətlərə yan almaq, yürüş qaydaları, taborun alay daxilində açılması, öz daxilində açılış, yürüşdən istirahətə keçmək, dayanmaya keçmə tərzi, işarələrlə idarə, təyyarə atəşləri və topçu atəşləri altında hərəkət, gecə yürüşü;

– taborun gözləmə mövqeyində dayanması, taborun hazırlıq və hərəkət mövqeyində dayanması və həmin mövqelərdən yayılması;

– pişdar, canebdar və dümdarda olmaq. Mühafizə dəstəsi təşkil etmək;

– tabor daxilində əfradın yetişdirilməsi haqqında zəruri biliklərə malik olmaq (167).

Məktəbin tələbələri üçün nəzəri dərslərdən başqa praktiki dərslər də nəzərdə tutulmuşdu. Bir sıra məsələlər üzrə təlimlərin keçirilməsi əsasnaməyə də salınmışdı. Həmin təlimlər döyüş hazırlığının müxtəlif sahələrini əhatə edirdi:

1) bomba təlimləri; 2) silahı doldurma, nişanalma və atış təlimi; 3) ərazi təsisatı təlimləri; 4) mübarizə təlimləri; 5) qaz maskasından istifadə etmək təlimləri; 6) gecə təlimləri; 7) müxabirə (rabitə) tətbiqatı (168).

Məktəb komandanlığı tərəfindən atış təlimlərində icra edilməli olan atış təmrinləri də müəyyənləşdirilmişdi:

– cərgənin müharibə atışına hazırlığı və onun icra edilməsi;

– müxtəlif vəziyyətlərdə və vəzifələrdə döyüş atəşi açmaq. Manqa daxilində atəş açmaq;

– müxtəlif vəziyyətdə taqım daxilində atəş açmaq;

Döyüş atışlarının icrası üçün hər bir tələbəyə aşağıdakı sayda güllə ayrılırdı: cərgə atışı üçün–5 güllə, manqa daxilində atış üçün–10 güllə və taqım daxilində atış üçün–15 güllə (169).

Milli hərbiyyə məktəbinin ilk zabit buraxılışı Bakı şəhəri azad edildikdən sonra baş verdi (bu barədə aşağıda danışılacaqdır).

Qafqaz İslam Ordusu komandanı Nuru paşanın yazdıqlarından və arxivlərdə mövcud olan sənədlərdən aydın olur ki, Gəncədə başqa bir hərbi məktəb də açılmışdı. Bu məktəb qoşun hissələrinin formalaşması üçün çox böyük ehtiyac duyulan kiçik komandir heyətinin, çavuşların yetişdirilməsi üçün açılmışdı. Milli qoşun hissələrinin təşkili prosesində onsuz da az olan milli zabit kadrlarının kiçik zabit heyətinin vəzifələrinin icrasını da öz üzərinə götürmələri təlim-tərbiyə prosesini xeyli ləngidirdi. Buna görə də Qafqaz İslam Ordusu komandanlığı 1918-ci ilin avqust ayında kiçik komandir heyətini hazırlayan məktəbi açdırdı. Həmin məktəb belə adlanırdı –Ehtiyat zabit namizədləri təlimgahı(170).

Ehtiyat zabit namizədləri təlimgahının təsdiq edilmiş təlimatında bildirilirdi ki, bu təhsil ocağını açmaqda əsas məqsəd çoxlu sayda çavuşlar yetişdirməkdir. Təlimgahın fəaliyyətə başlaması, xüsusilə piyada qoşunlarında kiçik komandir heyətinə olan ehtiyacı aradan qaldırmalı idi. Təlimgah bir başa İslam Ordusu komandanına tabe idi. Təlimgah komandanının səlahiyyətləri isə diviziya komandirinin səlahiyyətlərinə bərabər tutulurdu. Təlimgahın komandanlığının tabeliyində ehtiyat zabit namizədlərinin təlim alayı var idi. Bu alayda piyada qoşunları üzrə kiçik komandir heyətinin hazırlığı aparılmalı idi. Digər qoşun növləri üzrə də İslam Ordusu komandanlığı tərəfindən təlim hissələri və bölmələri müəyyənləşdirilmişdi. Yəni Təlimgahda təlim-tərbiyə təkcə bir tədris korpusunda deyil, eyni zamanda müvafiq ixtisaslar üzrə yaradılmış təlim hissələrində aparılmalı idi(171).

Təlimgaha çağırış yaşına çatmış gənclər qəbul edilməli idilər. Arzu edənlər yerli əxzi-əsgər şöbələrinə müraciət etməli və onların göndərişi ilə Təlimgaha gəlməli idilər. Burada onlar əvvəlcə tibbi yoxlamadan keçməli idilər. Əgər səhhətləri lazımi tələblərə cavab verərdisə, onlar yenidən geri qayıtmalı və

Təlimgaha qəbul üçün yararlı olmaları barədə əxzi-əsgər idarəsinə məlumat verməli idilər. Sonra burada ona çağırışçı kimi lazımi sənədlər hazırlanır və yenidən Təlimgaha göndərilirdi.

Topçu, ağır topçu, süvari, istehkam, qumbaraçı, pulemyotçu, dəmir yolu xidməti, nəqliyyat, avtomobil, teleqraf, təyyarəçilik, maşinistlik, kimya, mühəndis və konstruktorluq ixtisasları üzrə nə qədər kiçik komandir heyətinin hazırlanması Qafqaz İslam Ordusu komandanlığı tərəfindən müəyyənləşdirilməli və Təlimgaha bildirilməli idi. İxtisas üzrə müəyyənləşdirilən namizədlər Təlimgaha gəldikdən sonra müvafiq təlim hissələrinə göndərilirdilər. Namizədlər ixtisas üzrə seçilərkən onların arzusundan başqa, ixtisası və qabiliyyətləri də nəzərə alınırdı(172).

Təlimgahda və təlim hissələrində namizədlərin keçməli olduqları hazırlıq üç dövrə bölünməli idi: 1-ci dövr –ilkin təlim dövrü, 2-ci dövr – böyük təlim dövrü və 3-cü dövr – sövq və idarə (idarəçilik) təlim dövrü. 3-cü təlim dövründə namizədlər manqa, nisf, taqım və bölüklərin idarə edilməsi vəzifələrini öyrənməli idilər. Ümumi təlim müddəti 4 ay olmalı idi. Həmin müddət ərzində namizədlər taqım komandiri kimi yetişməli idilər. Namizədlər Təlimgahda atəş hazırlığı keçməli və istifadə etdikləri silahlardan atəş təmrinləri icra etməli idilər. Hazırlıq müddəti başa çatdıqdan sonra namizədlərin bilik səviyyəsi qiymətləndirilir və onlara üç kateqoriya üzrə qiymət verilirdi. Hər bir kateqoriyaya aldığı qiymət üzrə vəsiqə verilir və onların xidmət vəzifəsi həmin qiymətlər nəzərə alınmaqla müəyyənləşdirilirdi. Bu kateqoriyalar aşağıdakılar idi:

1-ci dərəcə – A sinfi – ən əla (ali)

2-ci dərəcə – B sinfi – əla

3-cü dərəcə – c sinfi – orta

3-cü kateqoriyaya daxil olanlar zəifhazırlıqlı namizədlər sayılırdı və onlar öz hazırlıq səviyyəsinə görə anbarlarla bağlı vəzifələrə qəbul edilə bilməz, Təlimgahda müəllim qala bilməz və taqım komandiri təyin edilə bilməzdilər. Yəni bu vəzifələr onlara etibar edilmirdi.

Namizədlər göndərildikləri hissələrdə əvvəlcə manqa komandiri, sonra nisf və taqım komandiri təyin oluna bilərdilər. Yəni on-

lar pillə-pillə bu mərhələləri ardıcıllıqla keçərək lazımi təcrübə toplamalı idilər. Onların bu vəzifələrin hər birində nə qədər xidmət etmələri aldıqları qiymət dərəcəsinə görə hissə komandirləri tərəfindən müəyyənləşdirilməli idi. Namizədlər göstərilən vəzifələrdə təcrübə toplamaqla bölüklərə rəhbərlik etmək vərdişlərini də qazanmalı idilər. Onların tutduğu vəzifələrdəki fəaliyyəti alay komandirlərinin daimi nəzarəti altında davam etməli idi. Bu barədə təlimatda belə yazılmışdı: «Alay komandirləri bunların layiqincə yetişdirilməsinə və bir zabit üçün lazım olan vüqar və əsgərlik şərəfinə, amirlik nüfuz və sifətinin qazanılmasına pək ziyadə çalışmaları, kəndilərini daimi nəzarət altında bulunduracağı kimi nəzəri məlumatlarını genişləndirmək üçün hər dürlü tədbirləri yapacaqdır» (173).

A və B kateqoriyalarına aid olan namizədlər ən azı iki həftə manqada xidmət etməli və orada özlərini yaxşı göstərdikləri halda sonradan nisf və taqımlara təyin edilə bilərdilər. Bu vəzifələrdə xidmət edərkən geyimlərində namizəd – fərqlənmə nişanlarını daşımağa məcbur idilər. A kateqoriyasına mənsub olanlar – baş çavuşa, B kateqoriyasına mənsub olanlar – çavuşa, C kateqoriyasına mənsub olanlar isə – onbaşıya bərabər tutulurdular. Bu şəxslər tutduqları vəzifələrdə uğurla xidmət etdikləri və bütün mərhələləri keçdikləri halda zabit rütbəsinə layiq görülə bilərdilər. Həmin vaxta kimi isə onlar ehtiyat zabiti namizədi adlanmalı idilər.

Ən aşağı kateqoriya olan C kateqoriyasına mənsub olanlar təyin edildikləri vəzifələrdə yaxşı xidmət etdikləri halda müəyyən müddətdən sonra onlar bölük və tabor komandirlərinin vəsatəti və alay komandirinin əmri ilə B kateqoriyasına daxil edilirdilər. B kateqoriyasına aid olanlar isə yaxşı xidmət etdikləri halda ən azı iki həftədən tez olmayaraq alay komandirinin vəsatəti və diviziya komandirinin əmri ilə A kateqoriyasına daxil edilirdilər. A kateqoriyasına mənsub olanlar isə uğurlar qazandıqları halda ilkin zabit rütbəsinə layiq görülürdülər. Bunun üçün onlar ən azı üç ay qüsursuz xidmət etməli və onun zabit rütbəsinə layiq görülməsi bütün səviyyəli komandirlər tərəfindən təsdiq edilməli idi. Namizədlərə ilkin zabit rütbəsi Qafqaz İslam Ordusu komandanının əmri ilə ve-

rilirdi. Həmin şəxslər yüzbaşı rütbəsinə qədər yüksələ bilərdilər.

Təlimgahı bitirərkən A kateqoriyasına mənsubluğu haqqında vəsiqə əldə etmiş namizədlər ilk dörd ay müddətində yaxşı xidməti ilə özünü doğrulda bilməzdisə və ilkin zabit rütbəsi ala bilməzdisə, onda o, namizədlər siyahısından xaric edilir və baş çavuş müavini kimi hissələrə xidməti davam etdirməyə göndərilirdi. C kateqoriyasına mənsub olanlar isə üç ay müddətində yuxarı kateqoriyalara keçə bilməzdisə, onda onlar da namizədlər siyahısından çıxarılırdı və hissələrə onbaşı vəzifəsinə göndərilirdi. Bu məsələ diviziya komandirinin səlahiyyəti daxilində idi. Namizədlər xidmət vaxtı ciddi bir cəza almış olduqları təqdirdə əvvəlki uğurlarına baxmayaraq, dərhal namizədlik siyahısından çıxarılır və hissələrə adi əsgər kimi xidmətə göndərilirdi(174).

Ehtiyat zabit namizədləri Təlimgahda nəzərdə tutulmuş təlim-tərbiyə proqramının yerinə yetirilməsi üçün tədris planı tərtib edilmişdi. Həmin tədris planı aşağıdakı kimi idi:

I həftə:

– yürüş, qaçmaq, adi yürüş, mövqedən yürüş, müxtəlif nizamların təması, sıra, cərgə başının tərifi və icrası;

– yürüş və dönüşlər (sağa, yarımsağa, yarımsola dönüşlər), durdurmaq;

– səfin hərbi təşkili, cərgələr arasında və ortasındakı məsafə;

– manqa qolu təşkili, təmas, sıra və aralıq istiqamət;

– diz çökmək və yerə yatmaq. Onların tərifi və icrası;

– silah və qırıcı qisimlər;

II həftə:

– rəsmi-təzim, qitə ilə sinfin hərb ilə bir komandanı salamlaması, əl ilə, baş ilə salamlamaq;

– nişangahın tənzimi və nişanalma vəzifələri;

– müxtəlif aralıqda üç səfdə yüyürmək və üç səfdə salam;

– saysız dönüşlər (fərdi), bölmə ilə dönüşlər;

– vücudun müxtəlif vəziyyəti;

– qılınc təlimi üçün bir bölmənin dağılması və yenidən toplanması. Qılınc təlimi olacaq komandada yapılacaq hərəkətlər. Dönmə hərəkətləri, sağ və sola, sola-sağa dönüşlər. Qılınc ilə vəziyyət almaq. Komanda və hərəkət;

III həftə:
– hissəni çox sayda sağa və sola döndərmək;
– bölmə ilə diz çökmək və yerə yatmaq;
– bölmə ilə yürüş, komanda ilə durmaq, geriyə dönmək;
– bir manqanın duruşu, yürüşü və müxtəlif istiqamətdə açılması;
– ərazi tərifi və müxtəlif hədəflər;
– oturuşlar, sinif oturuşu;
IV həftə:
– atış üçün silahla davranmaq, atəş açmaq;
– tüfəngi geri almaq, silah qapamaq, rahat oturmaq, davranışlar, icra tərzi;
– mizraq haqda müxtəlif məlumat;
– hücum və müdafiə üsulu;
– ərazinin qapalı və açıq olmasının hədəf üzərinə təsiri;
V həftə:
– indiyə qədər olan təlimlərin təkrarı. Toplanmaq üçün yürüşlər, geri yüyürmək, fırlanma və geri dönmələr, oturuş;
– köşədən keçmək;
– mahmızdan istifadə edilməsi;
– duruş və müxtəlif yürüşlərə keçmək. Karabinlə yürüş (175).

Süvarilər üçün tərtib olunmuş təlim proqramına aşağıdakı sualların öyrənilməsi daxil edilmişdi:
– süvari təchizatı, üzəngi, qantarma;
– qantarma, yəhərləmə;
– yük heyvanlarının istifadəsi və tumar edilməsi;
– bölmə daxilində tənzim olmaq;
– bölməni bir az geri almaq;
– bayğır üzərinə sıçramaq və yerə atlanmaq;
– bayğır üzərində oturmaq, oturuşun müntəzəm olması və vücudun üst qisminin dəxi tamamən dik olması;
– dizginləri bağlamaq və çözmək;
– əsas xətt üzərində və aralıqda durarkən bölməni bölük və marş komandası ilə sağa və sola döndərmək(176).

Təxminən bir həftə üçün tərtib edilmiş bu proqram sonrakı bir neçə həftə ərzində təkrar edilməli və namizədlərin bilik və vərdişləri daha da möhkəmləndirilməli idi.

Nuru paşa xatirələrində bildirirdi ki, Təlimgahın birinci buraxılışı zamanı oranı 400 nəfər bitirmişdi (177). Həmin buraxılış oktyabr ayının sonlarında baş vermişdi. Avqustda başlamış olan təlim müddəti noyabr ayında bitməli olsa da, Nuru paşanın xahişi ilə tədris bir qədər qısaldılmış və buraxılış vaxtından əvvəl baş vermişdi. Bu da yeni formalaşdırılan milli qoşun hissələrində kadrların çatışmaması ilə bağlı idi (178).

Zabit çatışmazlığı elə bir problem idi ki, Qafqaz İslam Ordusunun bütün mövcudluğu dövründə o, özünü kəskin şəkildə hiss etdirirdi. Kadrların çatışmaması üzündən milli qoşun hissələrinin formalaşması xeyli ləng gedirdi. Yeni yaradılan hissələrdə mövcud olan vəziyyəti aradan qaldırmaq üçün Nuru paşanın əmri ilə bir çox kiçik zabitlər hissə və bölmələrdən toplanmış və milli hissələr arasında bölünmüşdü. Bununla belə, Nuru paşa Azərbaycan korpusunun komandirinə göndərdiyi məktubunda xahiş edirdi ki, 1-ci Qazax, 2-ci Qarabağ, 3-cü Zaqatala alaylarına göndərilməli olan mülazimi-əvvəl və sani (leytenant) rütbələrində olan zabitləri ordu qərargahına göndərsin. Çox güman ki, həmin zabitlər Ordu komandanlığında təlimatlandırılandan sonra hissələrə göndərilmişdi. 1918-ci il avqust ayının əvvəllərində Qazax alayına–30, Qarabağ alayına–20, Zaqatala alayına–20, Təlimgaha–20, Ağdaş alayının iki taboruna–10 nəfər kiçik zabit göndərilmişdi(179).

Yeni yaradılan milli qoşunlarda Qafqaz İslam Ordusu komandanının əmri ilə alay, tabor və bölük komandirləri hələlik Osmanlı zabitləri təyin edilməli idi(180).

Avqust ayının 2-ci yarısında isə Nuru paşa bildirirdi ki, Azərbaycanın milli qoşunlarından ibarət iki piyada və bir süvari diviziyası təşkil olunması üzərində iş getsə də, bu qoşun hissələrinə təyin edilmək üçün Osmanlı süvari zabitləri ümumiyyətlə yoxdur. Piyada zabitlərinin mühüm qismi isə arxa hissə və bölmələrdə olduğundan onların da çatışmazlığı vardır. Bir tərəfdən də azərbaycanlı kadrların olmadığı üçün 2-ci Azərbaycan diviziyasının qərargahında və iki alayın zabit heyətində çatışmazlıqlar var idi (181).

Nuru paşa zabit kadrlarına olan ehtiyacın aradan qaldırılması üçün Azərbaycana gəldiyi ilk vaxtlar Müsəlman korpusunun tərki-

bində olmuş qeyri-müsəlman zabitlərdən istifadə edilməsini də məqsədəuyğun bilirdi, hətta bəzi vaxtlarda hissələrdəki rus zabitlərinə qeyri-səmimi münasibət göstərilməsinə etirazını bildirmişdi. Məsələn, 1918-ci il iyun ayının 20-də 5-ci Qafqaz diviziyası komandanına göndərdiyi məktubunda yazırdı ki, Osmanlı ordusu mənsubunun rus zabitanına münasibət və müaşirələrdə bəzi yersiz hadisələrin vaqe olduğunu eşitdim. Rus zabitanı bolşeviklərə qarşı bizimlə bərabər çalışmaq və iyi xidmətlər görməkdədirlər. Ona görə də Nuru paşa tələb edirdi ki, bütün zabitlər siyasi hissiyyatlarını bir kənara qoyaraq sırf bir əsgər kimi yalnız öz vəzifələrinin icrası ilə məşğul olmalıdırlar(182).

Lakin görünür, qoşun hissələrinin qurulması və möhkəmləndirilməsi işində qeyri-müsəlman zabitlərə bağlanan ümidlər özünü doğrultmadığı üçün Nuru paşanın Azərbaycan korpusunun ləğvi və yenidən qurulması ilə bağlı 13 avqust 1918-ci il tarixli əmrinə əsasən bütün qeyri-müsəlman zabitlər Azərbaycan Ordusundan xaric edildi(183). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Nuru paşa qeyri-müsəlman zabitlərin təkcə milli qoşun hissələrində xidmət etməsinə deyil, həm də dəmir yolu nəqliyyatında rus və gürcü mütəxəssislərinin çoxluğuna narahatçılığını bildirirdi. Baş komandan vəkili Ənvər paşaya göndərdiyi məktubunda Nuru paşa qeyd edirdi ki, Azərbaycan dəmir yolu işçilərinin çoxu rus və gürcüdür. Bu da müəyyən risklərə yol açır, cəbhə ilə əlaqələrin sabitliyinə təhlükə törədir. Ona görə də Nuru paşa xahiş edirdi ki, mümkünsə Türkiyədən Azərbaycana dəmir yolu mütəxəssisləri də göndərilsin(184).

Ləğv olunmuş Azərbaycan korpusu bərpa edilənədək onun azərbaycanlı və müsəlman zabitləri Qafqaz İslam Ordusu tərkibində müxtəlif vəzifələrə təyin edildilər. Bununla bağlı, Nuru paşanın xüsusi bir əmri də var idi. 1918-ci il avqust ayının 20-də hazırlanmış əmrdə zabitlərin hansı vəzifələrə göndərildiyi tələb edilmişdi. Həmin əmrə görə:

Ə.Şıxlinski–Qafqaz İslam Ordusu qərargahına göndərilib;
H.Səlimov–Qafqaz İslam Ordusu qərargahına göndərilib;
Mirzə Kazım paşa–təqaüdə göndərilib;
Həmid bəy Qaytabaşı–İslam Ordusu qərargahına göndərilib;

Paşa Murad Tlexas (korpusun topçu müfəttişi) – Ordu topçu müfəttişliyinə göndərilib;

İbrahim paşa Usubov–Ordu tabeliyində qalır;

1-ci alay komandiri miralay Süleymanov–Mənzil müfəttişliyinə göndərilib;

2-ci alay komandiri miralay Məmmədov–3-cü alaya göndərilib;

Əmənulla Mirzə–təqaüdə göndərilib.

Siyahıda bütünlükdə 124 zabitin adı vardır (185).

Qoşun hissələrinin bolşevik-daşnak qüvvələrinə qarşı apardığı döyüşlərdə də zabitlərdən ölən və yaralananlar var idi. Bu da zabit çatışmazlığı ilə bağlı vəziyyəti nisbətən çətinləşdirirdi. İslam Ordusu komandanlığından əmr verilmişdi ki, döyüş şəraitində şəhid düşən və yaralanan zabitlərin düzgün hesabı aparılsın və onların əvəz edilməsi üçün nə qədər sayda zabit lazım olduğu bilinsin (186).

Mövcud olan bu çatışmazlığa baxmayaraq, İslam Ordusu komandanlığı bütün zabitlərin xidmətinə və davranışlarına və hazırlıq səviyyələrinə ciddi tələbkarlıqla yanaşırdı. Onların döyüş hazırlığının qaldırılması, hərbi intizamın tələblərinə cavab vermələri, bütün səviyyələrdə olan zabitlərin və komandirlərin xidmətlərinin düzgün təşkili daima diqqət mərkəzində idi. Məsələn, Nuru paşanın məktublarından birində göstərilirdi ki, ordu hissələrində təlim-tərbiyə aşağı səviyyədədir. Orduda təlim-tərbiyə səviyyəsinin qaldırılması üçün o, ilk növbədə zabitlərin bilik səviyyəsinin qaldırılmasını lazım bilirdi. Ona görə də kiçik zabitlərin hazırlığının təkmilləşdirilməsi üçün təlim taboru yaradılmışdı və onun işinin düzgün qurulmasını tələb edirdi (187).

Başqa bir əmrində Nuru paşa göstərirdi ki, bəzi zabitlər qarşılaşarkən bir-birinə rəsmi salam vermədiklərinin şahidi oldum. O tələb edirdi ki, zabitlərin rəsmi salam verməli tələbinə riayət olunmalıdır. Əks təqdirdə buna riayət etməyənlər ciddi cəzalandırılmalı idi(188).

Qoşun hissələrinin daima döyüş hazırlığı vəziyyətində olması üçün İslam Ordusu komandanlığı tərəfindən zabitlər qarşısında yüksək tələblər qoyulmuşdu. Məsələn, Gəncə qarnizonunda olan hissə və bölmələrin komandirləri qarşısında qoyulan vəzifələrə görə hissə və bölmələr harada yerləşmələrindən asılı olmayaraq

daima döyüş əmrinə hazır olmalı, Ordu komandanlığı ilə daima əlaqə saxlamalı, işarə verilərkən dərhal müəyyənləşdirilmiş yerlərdə cəmləşməli idilər. Hissə və bölmə komandirləri verilən işarədən 15 dəqiqə sonra döyüşə hazır vəziyyətdə həmin məntəqədə dayanmalı idilər. Belə bir çevikliyə malik olmaq üçün Ordu komandanlığından tələb edilirdi ki, zabitlər xidmət etdikləri hissəyə yaxın yerlərdə yaşamalı və növbətçi-zabit yanında əmr nəfərləri olmalıdır ki, dərhal zabitləri evdən çağıra bilsin. Ordu qərargahındakı növbətçi-zabitdə bütün zabitlərin ünvanı olmalı idi. Bu da onların axtarılıb tapılmasını sürətləndirə bilərdi(189).

İslam Ordusu komandanlığında xidmətin təşkili, xüsusilə yazışmaların aparılması istiqamətində şöbələrin və müvafiq zabitlərin fəaliyyətinin təşkili və tənzim edilməsi üçün Ordunun ərkani-hərb rəisi Nazim bəy tərəfindən xüsusi bir təlimat hazırlanmışdı. Bu təlimat komandanlığa daxil olan bütün sənədlərin öyrənilməsi və icra edilməsi üçün şöbələrin və zabitlərin məsuliyyətini müəyyənləşdirirdi (190). Təlimatda göstərilirdi ki, Ordu komandanlığına gələn bütün sənədlər və teleqraflar əvvəlcə Dəftərxanaya (Evraq müdriyyəti) daxil olmalı və burada şöbə zabitləri tərəfindən qəbul edilməli, sonra da qeydiyyatı aparılmalı idi. Dəftərxana müdirindən isə tələb olunurdu ki, o, sənədləri dərhal öyrənsin və icrasını sürətləndirmək üçün müvafiq şöbələrlə əlaqə saxlasın. Nazim bəy tələb edirdi ki, şəxsən ona ünvanlanmış məktublar ağzı açılmadan ona təqdim olunmalıdır. Digər məktub və sənədlərin hansı Ordu komandanına çatmalı idisə, Nazim bəy öyrəndikdən sonra həmin sənədlərin kənarına «komandan paşaya» qeydi etməli və sonra bu sənəd Ordu komandanına çatdırılmalı idi. Ordu komandanı ona çatası sənədlər üzərinə qırmızı qələmlə, Ordu qərargah rəisi isə göy qələmlə dərkənar qoymalı idilər. Təlimata görə Nuru paşanın dərkənar qoyduğu bütün sənədlər və verdiyi göstərişlər məsul zabit tərəfindən qərargah rəisinə məruzə edilməli və onların icrası qərargah rəisi tərəfindən nəzarət altına götürülməli idi. Verilən göstərişlər yerinə yetirilərkən nizam-intizama və məxfiliyin qorunmasına riayət olunmalı idi.

Təlimatda yazışmalarla bağlı Ordu komandanlığı şöbələrinin

və orada çalışan zabitlərin vəzifə və məsuliyyətləri də dəqiqləşdirilmişdi. Hər şeydən əvvəl yazışmalarda qaldırılan məsələlərin vaxtında icrası üçün şöbə zabitlərindən çeviklik, digər şöbələrlə qarşılıqlı fəaliyyət və işə məsuliyyət tələb olunurdu.

Ordu komandanlığında olan şöbələrin zabitlərinin fəaliyyət sahəsi aşağıdakı kimi təsbit olunmuşdu:

1-ci şöbə (hərəkat şöbəsi)–hər növ hərəkat, dəmir yolu nəqliyyatı, məmləkətdə yapılacaq hər cür hərəkat, istixbarat (xüsusi xidmət), iaşə, səhiyyə və baytarlığa ümumi nəzarət;

2-ci şöbə–personal şöbəsi (müamilati-zati şöbəsi)–zabitlərin qeydiyyatı və sənədlərin işlənməsi (mükafatlandırma, təltif və s.), şəxsi heyətin sənədlərə işlənməsi;

3-cü şöbə–Mühakimə şöbəsi–Divani hərb və məhkəmə;

4-cü şöbə–Ləvazim şöbəsi–iaşənin tənzimi, məmləkət mənbələrindən istifadə (birinci şöbə ilə əlaqəli şəkildə), geyim əşyaları;

5-ci şöbə–Sərtəbibin şöbəsi–səhiyyə işləri;

6-cı şöbə–Sərbaytarlıq şöbəsi–baytarlıq işləri;

7-ci şöbə–Makinalı tüfəng müfəttişliyi–pulemyotçu zabitlərin istifadə edilməsi haqqında təkliflər verir, pulemyotlar üçün zəruri olan ehtiyat əşyaları təşkil və mühafizə edir;

8-ci şöbə–Qərargah komandanlığı–qərargahın iaşəsi və yerləşdirilməsi.

Bundan başqa təlimatda Topçu müfəttişliyinin, İstehkam müfəttişliyinin, Teleqraf müdriyyətinin, Səhra haubitsa müdriyyətinin adları da çəkilirdi ki, həmin şöbələrdə xidmət edən zabitlər müvafiq sahələrə görə məsuliyyət daşıyırdılar.

İslam Ordusu komandanlığının zabitləri üçün belə bir iş rejimi müəyyənləşdirilmişdi: səhər saat 8-dən günorta saat 1-dək, axşam saat 4-dən saat 6-dək. Təcili işi olanlar həmin vaxtdan sonra da qalıb işlərini yerinə yetirməli idilər. Qərargahda gündəlik bir nəfər zabit növbətçi qalmalı idi. Səhər saat 8-dən başlayıb o biri gün səhər saat 8-dək növbətçiliyi davam edən zabit axşam bütün zabitlər dağılandan sonra məktubları qəbul etməli və edilən müraciətlərə cavab verməli idi. Təcili bir məsələ ortaya çıxanda o, bu barədə dərhal birinci şöbə rəisinə və ya ərkani-hərb rəisinə xəbər verməli idi.

Bir sözlə, zabitlər arasında xidmətin təşkilinə ciddi diqqət yetirilməsi, digər tərəfdən də bir sıra zabitlərin onlara tapşırılan vəzifələrin icrasına çox böyük məsuliyyət, daxili intizam, qətiyyət, iradə, təşəbbüskarlıq və s. müsbət keyfiyyətlər nümayiş etdirməsi onların xidmətinin səmərəliliyini daha da artırır və zabit qıtlığına görə xidmətin təşkilində hər hansı bir gərginliyin yaranmasına imkan vermirdi. Bu zabitlər onların üzərinə düşən bütün işləri layiqincə yerinə yetirirdilər. Eləlləri istər azərbaycanlı zabitlər, istərsə də Osmanlı zabitləri arasında az deyildi. Qafqaz İslam Ordusunun qazandığı uğurlar da ilk növbədə bu insanların təşkilatçılığının və zəhmətsevərliyinin məntiqi nəticəsi idi. Həmin zabitlərdən böyük bir qrupu hələ Bakı şəhəri azad edilməmişdən əvvəl Osmanlı dövlətinin yüksək orden və medallarına layiq görülmüşdülər. Onların arasında azərbaycanlı zabitlər də var idi. Heç şübhəsiz ki, həmin zabitlər elə bir vətənpərvərlik və qəhrəmanlıq nümayiş etdirmişdilər ki, onların xidməti və insani keyfiyyətləri Osmanlı dövlətinin rəhbərləri tərəfindən də layiqincə qiymətləndirilmişdir. Nəticədə Azərbaycan vətəndaşları da Osmanlı dövlətinin orden və medalları ilə mükafatlandırıldılar. 1918-ci il sentyabr ayının 3-nə aid olan təltif siyahısında aşağıdakı azərbaycanlı zabitlərin adları vardır (191):

| Sıra №-si | h/hissə | rütbəsi | adı | təltifi |
|---|---|---|---|---|
| 1 | 1-ci alay | süvari qayməqamı | Həmid xan | Hərb medalı, 5-ci qılınclı Məcidiyyə ordeni |
| 2 | 1-ci alay | süvari qayməqamı | Nuh bəy | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 3 | 1-ci alay | yüzbaşı vəkili | Sultanov | Hərb medalı |
| 4 | 1-ci alay | süv. yüzbaşı vək. | Əliyev | Hərb medalı |
| 5 | 1-ci alay | mülazimi-əvvəl | Aslanbəyov | Hərb medalı |
| 6 | 1-ci alay | mülazimi-sani | Əliyev | Hərb medalı |
| 7 | 1-ci alay | mülazimi-sani | Zeynalov | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 8 | 1-ci alay | mülazimi-sani | Gülməmmədov | 5-ci qılınclı Məcidiyyə ordeni |

| | | | | |
|---|---|---|---|---|
| 9 | 2-ci alay | yüzbaşı vəkili | Həşimbəyov | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 10 | 2-ci alay | mülazimi-əvvəl | Mehmandarov | Hərb medalı |
| 11 | 2-ci alay | mülazimi-əvvəl | Savkov | Hərb medalı |
| 12 | 2-ci alay | süv.zabit vəkili | Qaratiklinski | Hərb medalı |
| 13 | 2-ci alay | süv.zabit vəkili | Kavzar | Hərb medalı |
| 14 | 2-ci alay | topçu miralayı | C.Şıxlinski | Hərb medalı |
| 15 | 2-ci alay | yüzbaşı | Sultanov | Hərb medalı |
| 16 | Az.zirehli qatarı | yüzbaşı | İsrafilov | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 17 | Təlimgah | yüzbaşı vəkili | Nəsirbəyov | Hərb medalı |
| 18 | Təlimgah | yüzbaşı vəkili | Əhmədiyev | Hərb medalı |
| 19 | Təlimgah | miralay | Məmmədov | 5-ci qılınclı Məcidiyyə ordeni |

## Osmanlı orden və medallarına layiq görülmüş azərbaycanlı zabitlərin siyahısı

Həmin vaxtda Azərbaycanda xidmət edən türk zabitlərinin də bir qrupu Osmanlı dövlətinin orden və medallarına layiq görülmüşdülər. Aşağıdakı siyahıda onların adları göstərilmişdir:

| Sıra №-si | Vəzifəsi | Rütbəsi və adı | təltifi |
|---|---|---|---|
| 1 | Ordu ərkani-hərb rəisi | qayməqam Nazim bəy | Altun ləyaqət medalı |
| 2 | Ordu sərtəbibi | qayməqam Həqqi bəy | Gümüşü imtiyaz medalı |
| 3 | Xətt komissarı | istehkam yüzbaşısı | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 4 | Ordu səryavəri | yüzbaşı Asəf bəy | Gümüşü imtiyaz medalı |
| 5 | Naxçıvan müfrəzə komandanı | minbaşı Xəlil bəy | Gümüşü imtiyaz medalı |
| 6 | Ağdaş müfrəzə komandanı | topçu minbaşı Ehsan bəy | 5-ci Məcidiyyə ordeni |
| 7 | 2-ci şöbə müd. | minbaşı Süleyman bəy | 5-ci qılınclı |

| | | | |
|---|---|---|---|
| | | | Məcidiyyə ordeni |
| 8 | Tərtər mövqe komandanı | yüzbaşı Həqqi əfəndi | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 9 | Cəbrayıl mövqe komandanı | minbaşı İsmayıl Fəhmi bəy | Gümüşü ləyaqət medalı |
| 10 | Zəngəzur mövqe komandanı | yüzbaşı Anut əfəndi | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 11 | Qubada | yüzbaşı Fəxri əfəndi | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 12 | Ordu mərkəzində | topçu yüzbaşı Müzəffər bəy | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 13 | Mənzil müfəttişliyi | mülazimi-əvvəl Ehsan əfəndi | 5-ci qılınclı Məcidiyyə ordeni |
| 14 | Ordu sərtəbib müavini | mülazimi əvvəl Zehni əfəndi | Hərb medalı |
| 15 | Qazaxda | minbaşı Səbri bəy | 5-ci qılınclı Məcidiyyə ordeni |

## Azərbaycanda xidmət edən zaman Osmanlı orden və medallarına layiq görülmüş türk zabitləri

Təəssüf ki, siyahılar bütöv deyil. Buradakı zabitlərin adı və soyadı tam göstərilmədiyi üçün onların bir çoxunun kimliyini dəqiqləşdirmək müəyyən qədər çətindir. Yuxarıdakı siyahılarda göstərilənlərdən başqa, Bakı şəhəri azad edildikdən sonra türk zabitlərinin böyük bir dəstəsi yenidən Osmanlı dövlətinin orden və medallarına təqdim olundular.Təkcə səhra haubitsa batareyasından dövlət mükafatları üçün təqdim olunan siyahıda 82 türk zabitinin və əsgərinin adı var idi (192).

Milli qoşun hissələrinin təşkilində, türk ordu hissələrinin potensialının haqq işi uğrunda mübarizəyə səfərbər edilməsində türk

komandirlərinin rolu xüsusilə böyük idi. Tarixi ədəbiyyatı və arxiv sənədlərini nəzərdən keçirməklə Azərbaycanda olan türk qoşun hissələrinin və onların adlarını da dəqiqləşdirmək mümkündür: Qafqaz İslam Ordusunun komandanı, həzrəti-Şəhriyar yavəri feriq Nuru paşa, Qafqaz İslam Ordusu ərkani-hərb rəisi qayməqam Nazim bəy, 5-ci Qafqaz diviziyası komandiri mirliva Mürsəl Bakı, 5-ci Qafqaz diviziyası ərkani-hərb rəisi minbaşı Rüşdü bəy, 9-cu alay komandanı–əvvəlcə Cəmil Cahid bəy, sonradan qayməqam Həmdi bəy, 10-cu alay komandiri–əvvəlcə miralay Osman bəy, sonradan Dəmirəli bəy, 106-cı alay komandiri qayməqam Nuru bəy, 13-cü alay komandiri–miralay Əhməd Rza bəy, 15-ci diviziya komandiri–miralay Süleyman İzzət bəy, 15-ci diviziya ərkani-hərb rəisi–minbaşı Ehsan bəy, 38-ci alay komandiri–miralay Səlim bəy, 56-cı alay komandiri–qayməqam Fəzli bəy,107-ci alay komandiri–qayməqam Fəhmi bəy, 1-ci Azərbaycan diviziyası komandanı-miralay Cəmil Cahid bəy, 1-ci Azərbaycan diviziyası ərkani-hərb rəisi minbaşı Tahir bəy, 1-ci alay komandiri–qayməqam Məhyəddin bəy, 2-ci alay komandiri əvvəlcə İsmayıl Həqqi bəy, sonra Əhməd Həmdi bəy, 3-cü alay komandiri–qayməqam Xalis bəy, 1-ci Azərbaycan diviziyası tərkibində yaradılmış Sərhəd alayının komandiri–İsmayıl Həqqi bəy, 2-ci Azərbaycan diviziyasının komandiri qayməqam Nazim bəy, 2-ci Azərbaycan diviziyasının ərkani-hərb rəisi–minbaşı Cəmil bəy, 4-cü alay komandiri–Həlim Pərtöv bəy, 5-ci alay komandiri–Yusif Ziya bəy, 6-cı alay komandiri– miralay Dəmirəli bəy.

Adları çəkilən komandirlərdən isə Mürsəl paşanın, Nuru paşanın, habelə Xəlil və Ənvər paşaların zəhmət və xidmətləri xüsusilə qeyd olunmalıdır. Mürsəl paşa Bakı şəhərinin azad edilməsi istiqamətində göstərdiyi çox ciddi səylərin nəticəsi kimi özünə Bakı təxəllüsü götürmüş və türk və Azərbaycan xalqlarının yaddaşında Mürsəl Bakı kimi qalmışdır. Bakının azad edilməsi və bütünlükdə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi Nuru paşanın da hərbi taleyinin sözsüz ki, ən parlaq, ən tarixi hadisəsidir. Sonsuz enerjisi, bitib-tükənməyən iradəsi, qarşısına qoyduğu vəzifələrə sədaqəti Nuru paşanı Qafqaz İslam Ordusu hərəkatının

fəal bir liderinə çevirmişdi. Onun hərbi təcrübəsi, təşkilatçılıq qabiliyyəti, sərkərdəlik duyumu isə ən mürəkkəb vəziyyətdə düzgün yolu seçməyə, qoşun hissələrini ən çətin tapşırıqların icrasına səfərbər etməyə imkan verirdi. Malik olduğu işgüzar keyfiyyətləri ilə o, özünün bacarıqlı bir hərbçi olduğunu nümayiş etdirmiş və bununla da təkcə komandanı olduğu Qafqaz İslam Ordusunun şəxsi heyətinin deyil, bütün Azərbaycan xalqının hörmət və məhəbbətini qazanmışdı.

Nuru paşa öz fəaliyyətində qardaşı, Baş komandan vəkili və hərbiyyə naziri Ənvər paşaya, habelə Şərq Ordular Qrupu komandanı, əmisi Xəlil paşaya arxalanmasaydı, heç şübhəsiz ki, lazımi uğurları əldə edə bilməzdi. Ənvər paşa daha yüksək səviyyədə Qafqaz, o cümlədən Azərbaycan hərəkatının ilhamvericisi və təşkilatçısı, Nuru paşa isə onun icraçısı idi. Xəlil paşa da bu iki qütb arasında bir növ aralıq mərhələ təşkil edirdi. Dünyagörüşündə sonralar baş verən dəyişiklikləri nəzərə almadan, Bakının və bütünlükdə Azərbaycanın bolşevik-daşnak qüvvələrindən təmizlənməsində Xəlil paşanın xidmətləri də az deyil. O, qarşıya qoyulan hər bir vəzifənin həlli üçün bütün imkanların operativ şəkildə səfərbər edilməsinə çalışırdı. Ancaq həm Xəlil paşanın, həm də Nuru paşanın fəaliyyəti Ənvər paşa tərəfindən istiqamətləndirilirdi. Azərbaycanda gedən bütün hərbi proseslər onun ciddi nəzarəti altında idi. Mövcud olan arxiv sənədlərinin öyrənilməsi göstərir ki, Ənvər paşanın Azərbaycanda baş verən hadisələrdən müfəssəl məlumatı olmuş və bu hadisələrə lazım gəldiyi halda dərhal öz münasibətini bildirmişdi. Bakının azad edilməsi onun çox böyük sevincinə səbəb olmuşdu. Azərbaycanın milli qüvvələrinin möhkəmləndirilməsini də o, eyni maraqla izləyirdi.

İstər Azərbaycanın milli qoşun hissələrinin təşkili və möhkəmlənməsi, istərsə də Qafqaz İslam Ordusu qarşısında dayanan vəzifələrin həyata keçirilməsi çağırış və səfərbərlik işində də ciddi irəliləyişlərin olmasını tələb edirdi. Azərbaycan şəraitində bu məsələnin həlli digər bir sıra məsələlərin həllindən fərqlənirdi. Bu da artıq irəlidə qeyd edildiyi kimi çar Rusiyası dövründə azərbaycanlıların hərbi xidmətə çağırılmaması və əhalidə əsgəri xidmətə qarşı bir daxili müqavimətin mövcudluğu ilə bağlı idi. Ona görə

də həmin məsələnin tələblərə cavab verəcək dərəcədə həlli üçün əhalinin psixoloji durumunda bir dəyişiklik yaradılmalı və işlək səfərbərlik sistemi təşkil edilməli idi. Mövcud olan hərbi şərait heç şübhəsiz ki, bütün xalqda bolşevik-daşnak təcavüzünün aradan qaldırılması üçün səfərbər olmaq qənaəti yaratmışdı. Ayrı-ayrı məntəqələrdə könüllü müqavimət dəstələrinin təşkili də bunu nümayiş etdirirdi. Digər tərəfdən Müsəlman korpusunun təşkilinə başlanması ilə Azərbaycanda çağırış və səfərbərlik işinin ilkin təcrübəsi əldə edilmişdi. Qafqaz İslam Ordusu komandanlığının, o cümlədən də Azərbaycan korpusunun qarşısında dayanan vəzifə ilk növbədə bu müsbət məqamlardan istifadə edərək çağırış-səfərbərlik işini dövrün tələbləri səviyyəsinə qaldırmaq idi.

Göstərilən dövrdə Azərbaycanda kifayət qədər çağırışçı ehtiyatı var idi və bu ehtiyatlara əsaslanaraq səfərbərlik tələbatını ödəmək üçün Azərbaycan hökuməti və İslam Ordusu komandanlığı tərəfindən bir sıra addımlar atıldı. Bu məsələnin həlli üçün obyektiv çətinliklər və çağırış işinə məsul olan şəxslər tərəfindən yol verilən nöqsanlar nəzərə alınsa belə, qeyd edilməlidir ki, əsgəri xidmətə münasibətdə əhalidə bir dönüş baş vermişdi. Ona görə çağırış və səfərbərlik işində də xeyli irəliləyişlər meydana çıxmışdı. Həmin sahədə nəzərəçarpacaq müsbət meyllər olduğunu, hətta Ənvər paşa özü də qeyd edirdi. Türkiyəyə diplomatik missiya ilə gəlmiş Əlimərdan bəy Topçubaşovla görüşündə azərbaycanlıların xidmətə münasibətini belə ifadə etmişdi: «Mənə məlumdur ki, çağırışda böyük çətinlik olmayıb, adamlar həvəslə gəlirlər. Belə də olmalıdır. Qafqaz müsəlmanları əsgəri mükəlləfiyyətə cəlb olunmamışlar. Onlar əsgəri tələbkarlıqla tanış deyillər. Ancaq görünür ki, əsgəri ruh hələ də qalmaqdadır. Bu isə zəruri şərtdir»( 193).

Mövcud mənbələrin araşdırılması və eləcə də tarixi ədəbiyyatın öyrənilməsi göstərir ki, Azərbaycanda çağırış və səfərbərlik imkanları təkcə orduya çağırılan gənclərin miqdarı ilə ölçülməməlidir. Xidmətə daha çox çağırışçı cəlb etmək mümkün idi. Buna əngəl təkcə yerlərdəki çətinliklər deyil, həm də orduda hər bir əsgər üçün zəruri olan silah, sursat, təchizat və maddi təminatın çatışmaması idi. Yəni orduda say artımı sadəcə məqsəd deyildi.

Orduya çağırılan hər bir çağırışçı əsgər kimi yetişdirilməli idi. Bu sahədəki imkanlar lazımi səviyyədə olmadığı üçün bütün çağırışçı ehtiyatını cəlb etmək də mümkün deyildi. Çağırışın təşkilində baş verən bir sıra subyektiv nöqsanlar da, əsasən, çağırışçılar arasında seçmək imkanının olması ilə bağlı idi (bu barədə aşağıda danışılacaqdır). Çağırışçı ehtiyatının kifayət qədər olmasına, ancaq silah və geyimin çatışmamasına Ə.M.Topçubaşov da Ənvər paşa ilə İstanbuldakı görüşündə toxunmuşdu: «Təcrübəli təlimatçılar olarsa, bizim əhalidən həm kəmiyyətinə, həm də keyfiyyətinə görə yaxşı qoşun təşkil etmək mümkündür. Ancaq bizdə silah, geyim və digər hərbi təchizat çatışmır»(194).

Ancaq Nuru paşanın bir sıra məktublarında bu cəhəti təkzib edən məqamlar vardır. Məsələn, 1918-ci il iyun ayının 28-də Nuru paşa Baş komandan vəkalətinə göndərdiyi məktubda belə yazırdı: «Yeni təşkilatdan bir sonuc (nəticə–red.) əldə edilməməkdədir. Gənclərdən silah altına 30000 kişi gəlməsi bəklənirkən bunun yerinə ancaq 37 kişi gəlmişdir. Bunlardan istifadə edilməyəcəyi anlaşılmışdır. Bakı məsələsini kəndi başımıza çabuçak (tezliklə–red.) həll etmək üçün bu bölgəyə bir tümən daha göndərilməsi uyğun olardı».

1 iyul 1918-ci il tarixli başqa bir məktubunda isə Nuru paşa baş komandan vəkili Ənvər paşaya və Şərq Ordular Qrupu komandanı Xəlil paşaya belə yazırdı: «İslamların həmiyyət və fədakarlığı az görünür. Bakı məsələsinin həlli Osmanlı nüfuzunun əhali arasında qiymətini mühafizə üçün lazımdır. 5-ci tümən təqviyəsinə təcili ehtiyac vardır. Əks təqdirdə vəziyyətimiz yaxşı deyildir»(195).

Toxunulan bu məktublar Qafqaz İslam Ordusu hərəkatının ilkin dövrünə aiddir. Azərbaycanda qeyd olunan obyektiv çətinlikləri, təşkilati işin mürəkkəbliyi nəzərə alınsa belə, mövcud olan bir sıra faktlar Nuru paşanın iddiaları ilə heç də uyğunluq təşkil etmir. Elə Nuru paşanın özünün xatirələrində yazdıqları yuxarıdakı məktublarda olan fikirlərlə daban-dabana ziddir. Həmin xatirələrdə belə sətirlər mövcuddur: «5-ci diviziyanın mütəbaqi hissələri Batum–Tiflis yolu məsdud (bağlı–red.) bulunduğuna binaən Qars–Qarakilsə və Dilican yolu üzərindən vürud etdiyindən hissələrin arxası ancaq 22 haziranda (iyunda–red.) alına bilmiş və bu

zamana qədər də cəbhədə müdafiə vəziyyətində qalınaraq nöqsanlarımızın ikmalı ilə vaxt keçirmişdik. Azərbaycanın müxtəlif yerlərində toplatdırılmaqda olan könüllülər də peydərpey (dayanmadan–red.) cəbhəyə sövq olunmaqda idilər» (196). Bu, doğrudan da belə idi. Yəni azərbaycanlılar böyük sayda silahlanaraq Qafqaz İslam Ordusunun tərkibinə qatılmış və bolşevik-daşnak qüvvələrinə qarşı mübarizəyə başlamışdılar. Hər halda onların miqdarı 37 nəfər deyildi, xeyli çox idi. Məsələn, hələ 1918-ci il iyun ayının 22-nə olan məlumatda göstərilir ki, 9-cu, 10-cu və 13-cü Qafqaz alaylarının tərkibinə verilmiş olan Ağdaş bölüklərinin tərkibinin ümumi sayı 389 nəfər idi(197). Müsüslü dəstəsinin tərkibinə verilmiş olan Göyçay milli əsgər bölüyündə 150 adam var idi (198). İyun ayının 23-nə olan bir məlumatda bildirilirdi ki, Cavanşir qəzasında xeyli sayda süvari toplanıb və həmin süvarilər Azərbaycan süvari alayından 20 nəfər ilə bir dəstə şəklində təşkil edilərək 5-ci diviziyanın tabeliyinə göndəriləcəkdir (199). İyun ayının 27-nə olan məlumatda bildirilirdi ki, Nuxa və Zaqatalada 2 min nəfərlik bir dəstə toplanıb və iyun ayının 3-də oradan Yusif bəyin komandası altında böyük bir qrup cəbhəyə yola düşmüşdü. İyunun 30-na olan məlumatda Gəncə ətrafında da 500 nəfərlik bir dəstənin toplandığı və yaxın günlərdə onların Yevlaxdan cəbhə xəttinə göndəriləcəyi qeyd edilirdi (200). Elə həmin günlərdə yazdığı bir məktubunda Nuru paşa özü Lahıc kəndi ətrafında əhalinin 6 aydan bəri erməni və bolşeviklərə qarşı müqavimət göstərdiyini bildirməklə buranın xalqını cəsur bir xalq adlandırırdı(201).

Bu faktların sayını çoxaltmaq da olar. Nəzərə almaq lazımdır ki, 2 milyon əhalisi olan Azərbaycanın (202) ərazisinin az qala yarıdan çoxu və özü də əhalinin daha sıx yaşadığı yerlər erməni və bolşeviklərin nəzarəti altında idi. Ona görə də 1918-ci ilin iyununda 30 min çağırışçı toplamaq o qədər də real deyildi və bu rəqəmin Nuru paşa tərəfindən haradan götürüldüyü məlum deyil. Bununla belə, çağırış aparılırdı. Özü də çağırış təkcə Azərbaycan milli qoşunlarına deyil, həm də türk qoşun hissələrində olan itki və çatışmazlıqların ödənməsinə də istiqamətləndirilirdi. Yəni Azərbaycana göndərilmiş olan türk qoşunlarının sonradan kom-

plektləşdirilməsi üçün Türkiyədən yeni sıravi heyət göndərilmirdi. Bu qoşun hissələri Azərbaycanda olan çağırışçılar hesabına dəstləşdirilirdi. 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy də bu faktı təsdiq edirdi: «Azərbaycanda veriləcək müharibələr insanca vaqe olacaq zayeatın Azərbaycan xalqı ilə təlafi (əvəz edilməsi–red.) edilə biləcəyi düşünülmüşdür. Vaqiən Azərbaycanda əsgərlik çağında pək çox insan var idi» (203). Onun yazdıqlarına əsasən aşağıdakı cədvələ diqqət yetirilərsə, təkcə iyulun ilk 15 günü ərzində 5-ci Qafqaz diviziyasının hissə və bölmələrinə və Müsüslü dəstəsinə nə qədər yeni qüvvə gətirildiyini görmək mümkündür. Bu yeni gətirilən sıravi qüvvələrin sayı 2 min nəfərə bərabər idi. İki həftə ərzində Azərbaycanın işğal altında olmayan məntəqələrindən 2 min nəfər çağırışçının 5-ci Qafqaz diviziyasının hissə və bölmələrinə cəlb edilməsi Nuru paşanın yuxarıdakı faktlarının o qədər də obyektiv olmadığına dəlalət edir. Aşağıdakı cədvəldə ( 204) yenidən qurulmaqda olan milli qoşun hissələrinə nə qədər gəncin cəlb edildiyi göstərilməmişdir. Ancaq şübhəsiz ki, bu istiqamətdə də lazımi iş aparılırdı:

| hərbi hissələr | mövcud 30.06.1918 | | itkilər 1–15.07.1918 | | yeni gələnlər 1–15.07.1918 | | mövcud 15.07.1918 | |
|---|---|---|---|---|---|---|---|---|
| | zabit | əsgər | zabit | əsgər | zabit | əsgər | zabit | əsgər |
| 5-ci diviziya qərargahı | 22 | 169 | 1 | 6 | - | - | 21 | 163 |
| 9-cu alay | 79 | 1857 | - | 192 | 4 | 425 | 83 | 2090 |
| 10-cu alay | 71 | 1649 | 6 | 174 | 4 | 464 | 79 | 1939 |
| 13-cü alay | 79 | 1948 | 13 | 403 | 1 | 512 | 67 | 2057 |
| Səhra topçu alayı | 28 | 737 | 3 | 33 | 2 | 16 | 27 | 720 |
| 2-ci süvari alayı | 14 | 280 | - | 37 | - | - | 14 | 243 |
| Diviziya istehkam bölüyü | 5 | 169 | - | 5 | - | 11 | 5 | 175 |
| Diviziya səhiyyə bölüyü | 7 | 188 | - | 6 | - | 6 | 7 | 188 |
| Diviziya teleqraf taqımı | 2 | 79 | 1 | 11 | - | 29 | 1 | 97 |
| Diviziya iaşə taqımı | 2 | 111 | - | - | - | - | 2 | 111 |
| 24-cü səyyar xəstə | 8 | 98 | 1 | 3 | - | - | 7 | 95 |
| 13-cü alay orkestri | 2 | 44 | - | - | - | - | 2 | 44 |
| Diviziya səhra | 50 | - | - | - | - | - | - | 50 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| anbarı | | | | | | | | |
| Telsiz teleqraf taqımı | 1 | 24 | - | - | - | - | 1 | 24 |
| Diviziya xidmət dəstəsi | - | - | - | - | 9 | 202 | 9 | 202 |
| Müsüslü dəstəsi | 31 | 680 | 8 | 184 | 6 | 327 | 29 | 823 |
| Göyçay milli əsgər bölüyü | 3 | 146 | 3 | 146 | - | - | - | - |
| Ümumi cəmi | 364 | 8229 | 36 | 1200 | 26 | 1992 | 354 | 9021 |

Bəs belə olduğu təqdirdə Nuru paşanın haqqında danışılan məktublarındakı rəqəmlərin göstərilməsini aşağıdakı səbəblərlə izah etmək mümkün ola bilərdi. Heç şübhəsiz ki, ilk döyüşlərin ağır təəssüratı Nuru paşanı xeyli təmkinli olmağa sövq etmişdi. Birinci məktub Göyçay ətrafındakı ilk uğursuzluqdan sonra, ikinci məktub isə Göyçay ətrafındakı növbəti döyüşün qaynar çağında yazılmışdı. Nuru paşa məktubda yazdığı kimi, türk qoşunlarına bağlanan etimadın doğruldulması üçün Azərbaycanda mövcud olan imkanları kifayət qədər dəyərləndirmədən ilk ağır təəssüratların təsiri altında məktub yazıb çıxış yolunu əlavə bir türk diviziyasının bölgəyə göndərilməsində görmüşdü. Heç şübhəsiz ki, o, faktlarda bir qədər tələskənliyə yol verməklə Ənvər paşada Azərbaycandakı vəziyyətin ağırlığına bir əminlik yaradılmasına nail olmağa çalışmışdı.

Qeyd olunan faktlardan əlavə, Nuru paşanın istinad etdiyi bəzi digər faktlara da diqqətlə yanaşılması tələb olunur. Bu baxımdan Nuru paşanın başqa bir məktubu da xarakterikdir. 3-cü Ordu komandanı Vehib paşaya göndərilmiş 31 may 1918-ci il tarixli məktubunda Nuru paşa yazırdı: «Bolşeviklər Dağıstan və Quzey Qafqazı əllərinə keçirmək üzrədirlər. Hər yerdə ermənilərin təcavüzü artmaqdadır. Bakı sürətlə zəbt edilməzsə, buralarda durum daha da təhlükəli olacaqdır. Bakıya, islamlara yardıma gələn gürcü qüvvətlərinə çəkilmə əmri verildi.

İslamların təşkil etməkdə olduğu qolorduda (korpusda–red.) əsgərdən çox zabit vardır. Qolordunun mövcudu 1000 nəfərə qədər olub bunun yarısı əsir türk əsgərləridir. Bakı məsələsinin yardımsız həlli mümkün deyil. İngilislərin Bakını təqviyə etdiyi zənn edilir. Burada taxıl ürünləri ixracat yapacaq qədər çoxdur. Əhali

türklərin gəlməsini səbirsizliklə bəkləməkdədir. Gəncə vilayətində bəzi yerlərdə gürcülər binalara alman bayrağı ilə birlikdə öz bayraqlarını da çəkmişlər» (205).

Bu məktubda şübhə doğuran fakt türk qoşunlarının Azərbaycana gəlməsi ərəfəsində Azərbaycan korpusunun mövcudunun 1000 nəfər göstərilməsidir. Çox güman ki, Azərbaycanda hərbi vəziyyətin mürəkkəbliyi barədə yuxarı komandanlıq qarşısında inandırıcı təsəvvür yaratmaq üçün Nuru paşa ixtiyari bir rəqəm göstərmişdir.

Bu rəqəmin qeyri-doğruluğunu əsaslandırmaq üçün əvvəlcə qeyd etmək lazımdır ki, bu məktubun müxtəlif variantları vardır və həmin variantlarda göstərilən rəqəmlər də müxtəlifdir. Məsələn, 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü öz xatirələrində bu məktubun fərqli olan variantlarından birini olduğu kimi vermişdir. Orada deyilir: «Qitəati-Osmaniyyənin Gəncəni işğal və Bakını bolşeviklərdən təthir edəcəyini qeyri-rəsmi bir surətdə öyrəndim. Bu babda bəzi məlumat verməyi müvafiq görürəm.

Mərkəzi Gəncə olmaq üzrə milli qolordu namı ilə təşəkkül edən qolordunun mövcudu 600 nəfərdir. Bunun bir qismini Osmanlı əsirləri təşkil edir. 250-yə yaxın zabiti olub 23-ü islam, mütəbaqisi rusdur. Bakıya qarşı Kürdəmir stansiyasında 400-ə qədər əsgər vardır. Cəbhə komandanı knyaz Maqalov namında miralay rütbəsində bir gürcüdür. Gürcülər indiyə qədər məzkur cəbhədə bulunduqları 300 nəfər miqdarındakı qüvvətini də Tiflisə çəkdilər. Tədbiri acil olmaq üzrə ərkani-hərb rəisi qayməqam Nazim bəyi bir kaç zabitlə məzkur cəbhəyə göndərdim.

O tərəflərdə bulunan islamlar çoxsa da, qeyri-müntəzəmdir. Əsgərliyə pək talib çox insan varsa da, əlbəsə, silah və cəbbəxana ehtiyatı yoxdur. Yanımda pək az para vardır. Xüsusən əlbəsəsiz əsgər yapmaq mümkün olmayacaqdır. Burada qumaş tədarükü indilik qeyri-qabildir. Əsləhə və cəbbəxana ilə birlikdə beş-on min qat əlbəsənin də irsalı mümkün olduğu təqdirdə həmən əsgər qeydi qabildir...» (206).

Bu məktubun başqa bir variantı da elmi dövriyyədə mövcuddur. Həmin məktubda Azərbaycan korpusunun mövcudu 1000 nəfər göstərilsə də, ümumi məzmunu etibarilə ikinci məktuba daha

yaxındır. Ancaq yenə də fərqli məqamların mövcudluğu nəzərə çarpır. Yuxarıdakı faktların təkrarına yol vermədən bu məktubun bir məqamı maraq doğura bilər. Nuru paşa yazırdı: «Əsgərliyə istəkli insanlar varsa da, silah, cəbbəxana və əlbəsə yoxdur...» (207). Bu fikir Nuru paşanın özünün azərbaycanlıların əsgəri xidmətə münasibəti ilə bağlı yuxarıda toxunduğumuz fikrini təkzib edir. Qaldısa milli korpusun şəxsi heyətinin say tərkibinə elə bu məktublardan da fakta bir qədər qeyri-dəqiq yanaşıldığı aydın görünür. Müsəlman milli komitələrinin, Müsəlman korpusu komandanlığının yeni təşkilinə başlanmış Müsəlman korpusu hissələrinə azərbaycanlıların cəlb edilməsi üçün hansı çətinliklərlə qarşılaşdığı məlumdur. Milli qoşun hissələrinə cəlb edilmiş hər bir əsgər Azərbaycan şəraitində aparılan ardıcıl yə yorulmaz işin əməli nəticəsi idi. Ona görə də Müsəlman korpusunun say tərkibini müəyyənləşdirərkən təqribiliyə yol vermək cəlb edilən hər bir əsgərə çəkilmiş zəhmətə natamam qiymət vermək olardı.

Nuru paşanın məktubuna görə, Kürdəmir ətrafında olan Azərbaycan qoşun bölmələrinin say tərkibi 400 nəfərdən ibarət idisə, 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdünün xatirələrində verilmiş 22 iyun tarixli bütün qüvvələr cədvəlində Müsüslü dəstəsinin say tərkibi 900 nəfər göstərilir (208). Azərbaycan tarixşünaslığında isə bu dəstənin Hacıqabul yaxınlığında olarkən say tərkibi 2 min nəfər olduğu bildirilir (209). Ancaq Rüşdünün göstərdiyi rəqəm reallığa daha uyğundur. Çünki o, bu dəstəyə daxil olan hər bir bölmədəki zabitlərin, döyüşə qabil və qeyri-qabil əsgərlərin dəqiq sayını vermişdir. Lakin Nuru paşanın məktubunun tarixi ilə Rüşdünün tərtib etdiyi cədvəlin tarixi arasında 3 həftəlik vaxt fərqi var. Bu müddət ərzində dəstənin say tərkibi dəyişə bilərdi. Bununla belə, onu da nəzərə almaq lazımdır ki, Müsüslü dəstəsi, əsasən, dəyişməmiş qalmışdı. Çünki Azərbaycan daxilində təşkilati işlərə başlıca olaraq türk qoşunları gəldikdən sonra başlanmışdı. Onda da ilk günlər əsas diqqət Göyçay ətrafına istiqamətlənmişdi. Toplanan qüvvələr də bura göndərilirdi. Müsüslü dəstəsinin tərkibi göstərir ki, orada, əsasən, əvvəldən yaradılmış bölmələr birləşmişdilər. Onların da əsasını süvari qüvvələri təşkil edirdi. Əgər təkcə Müsüslü dəstəsinin say tərkibi 900

nəfər qəbul edilərsə, bu elə Nuru paşanın göstərdiyi ümumi rəqəm qədərdir. Ancaq bura Müsəlman korpusunda mövcud olmuş 8 piyada alayının, topçu briqadalarının şəxsi heyətinin sayı da əlavə edilməlidir. Doğrudur, həmin hissələrin tam komplektləşdirilməsini də iddia etmək olmaz. Bununla belə, hər alayda ən aşağısı bir bölük qədər (150–200) şəxsi heyətin olması güman edilsə, onda Nuru paşanın göstərdiyi rəqəmin qeyri-doğru olduğu aydın olar.

Dövrün tədqiqinə həsr edilmiş bir sıra əsərlərdə isə tamamilə fərqli olan rəqəmlər göstərilmişdir. Məsələn, türk tədqiqatçısı A.Kurat Azərbaycana gələn türk qoşun hissələrinin ümumi sayının 6 min və az sonra onlara qatılmış olan Azərbaycan qüvvələrinin sayının 10–12 min olduğunu vurğulayır (210). Başqa bir türk tədqiqatçısı N.Erdaş 5-ci Qafqaz diviziyasına 10–12 min nəfər Azərbaycan könüllüsünün qoşulduğunu qeyd edir (211). Azərbaycan tarixşünaslığında da bu fikri təsdiqləyən müəlliflər vardır (212). A. və P.Muratoflar isə Qafqaz İslam Ordusunun təşkili zamanında onun ümumi sayının 10 min olduğunu və bunun da 6 mininin 5-ci Qafqaz diviziyasına mənsub olduğunu göstərirlər (213). Yəni azərbaycanlılardan ibarət olan qoşun hissələrinin say tərkibi 4 min idi. İngilis kəşfiyyatının məlumatına görə də Qafqaz İslam Ordusunun ümumi say tərkibi 12 min nəfər idi(214).

Adları çəkilən müəlliflər öz əsərlərində 5-ci Qafqaz diviziyasının say tərkibini az göstərmişlər. Əslində, məlumdur ki, bu say 6 min deyil, 7733 nəfər olmuşdur. Bu rəqəmi əsas kimi götürmüş olsaq, onda Azərbaycanın milli qüvvələrinin say tərkibinin müəyyənləşdirilməsi üçün A. və P.Muratofların və ingilis kəşfiyyatının gətirdiyi rəqəmlər reallığa daha yaxındır.

Bütün bunlarla bərabər, qeyd edilməlidir ki, türk qoşun hissələri Azərbaycana gəldikdən sonra çağırış və səfərbərlik işinin lazımi səviyyədə təşkili üçün bir sıra zəruri addımlar atıldı. Əvvəlcə Azərbaycan hökumətinin qərarı ilə çağırışçılar üçün yaş senzi 19-a salındı. Yəni 19 yaşı tamam olan hər bir azərbaycanlı hərbi xidmətə çağırılmalı idi. Sonra isə 1894, 1895, 1896, 1897, 1898 və 1899-cu illərdə doğulmuş və islam dininə mənsub olan gənclərin xidmətə çağırılması barədə qərar qəbul edildi. Höku-

mətin qərarı ilə Yelizavetpol əxzi-əsgər idarəsi Azərbaycan əxzi-əsgər idarəsi adlandırıldı və bu idarə Daxili İşlər Nazirliyinə tabe etdirildi (215). Çağırış-səfərbərlik işinin təşkili, siyahıların tərtib edilməsi, əyintilərin qarşısının alınması üçün hökumət Daxili İşlər Nazirliyinin sərəncamına 5 min rubl vəsait ayırdı (216).

1918-ci ilin iyun ayında İslam Ordusu komandanlığının əmri ilə çağırışdan azad oluna biləcək kateqoriyaların siyahısı təsdiq edildi. Həmin əmrə görə : 1) dəlilər və xəstələr; 2) həbs edilənlər; 3) nazirlər, nazir müavinləri, valilər, ziraət idarələri müdirləri, dövlət xəzinədarı, məhkəmə rəisləri, prokurorlar, prokuror müavinləri, polislər; 4) ruhanilər; 5) xəstə olduğundan 60 yaşına çatmış və ya dul qalmış ananın tək bir oğlu; 6) atadan, anadan yetim qalıb himayəsində kiçikyaşlı qardaşı olanlar; 7) baba və ya nənənin himayəsində olan tək nəvələr; 8) bir-neçə uşağı olanlar əsgəri xidmətə çağırışdan azad olunurdular (217).

Çağırışdan azad olanlara və yaxud qanuni möhlət alanlara aşağıdakı formada sənəd verilirdi(218):

| | | |
|---|---|---|
| Vilayəti............... | Adı.................... | Varsa fotoşəkli vurulmalı və şöbə möhürü ilə təsdiq olunmalıdır |
| Qəzası.................... | Atasının adı.... | |
| Məhəllə və ya qəzası.................... | Soyadı.............. | |
| Sokakı(küçəsi).... | Yaşı................. | |
| Ev nömrəsi........... | Qəzası............. | |

---

hansı qanuni maddəyə görə məmuriyyət, müayinlik, xəstəlik və ya əsgər olaraq tərk edilmiş isə əsbabı mucibəsilə və maddeyi qanunəsiylə bura dərc edilməlidir

---

Kinəsi balada mühərriri müəllif bər vəchi bala iraə edilən əsbabi dolayısilə ...........................................olunmuşdur

| | | | | |
|---|---|---|---|---|
| əxzi-əsgər rəisi.......... | Qəza qayməqamı ................. | Qazi ....... | Bələdiyyə əzası......... | Bələdiyyə əzası......... |

Çağırış işinin təşkili üçün Qafqaz İslam Ordusu komandanlığı tərəfindən əxzi-əsgər şöbələrinin vəzifələrinə aid təlimat da ha-

zırlanmışdı. Həmin təlimatda bildirilirdi ki, hər qəzada ən azı bir əxzi-əsgər şöbəsi təşkil olunacaq. Şöbənin rəisi zabit olmalı idi. Əhatə olunan qəzanın böyüklüyünə görə şöbəyə əlavə zabit, mülki məmur və digər işçilər də verilə bilərdi. Çağırışçıların xidmətə cəlb olunması barədə əmr verilən kimi əxzi-əsgər şöbələri öz komissiyasını toplayıb fəaliyyətə başlamalı idi. Əxzi-əsgər komissiyası çağırışçı kontingenti müəyyən etmək, ərizə və şikayətlərə baxmaq üçün həftədə 1 və ya 2 dəfə toplanmalı idi. Ya da bu işləri görmək üçün əxzi-əsgər komissiyası bir işçi qrupu yarada bilərdi. Əxzi-əsgər şöbələrindən yuxarı orqan vilayətlərdə təşkil olunmuş diviziya əxzi-əsgər idarəsi idi. Bu idarə qəza əxzi-əsgər şöbələrinə nəzarət etməli və onların həll edə bilmədiyi məsələlərin həlli ilə məşğul olmalı idi. Diviziya əxzi-əsgər idarələri isə Azərbaycan hökuməti yanında yaradılmış əxzi-əsgər heyətinə tabe olmalı idi. Ordunun əxzi-əsgər rəisi Qafqaz İslam Ordusu komandanının tabeliyində idi. Sülh dövründə bu orqanların fəaliyyəti ayrıca bir təlimatla nizamlanmalı idi. Ancaq hələlik bu orqanlar çağırış haqqındakı əmrdə göstərilən yaşda olan gəncləri siyahıya alıb yoxlamalı idilər. Əgər çağırışçı çağırış vaxtı başqa qəzada olardısa, onda orada siyahıya alınmalı və sonra bu barədə yaşadığı qəzanın əxzi-əsgər şöbəsinə məlumat verməli idi. Təyin olunan gündə komissiya toplanıb çağırışçıları müayinə edir və xidmətə yararlı olanlar müşayiət altında hissələrə göndərilirdi. Komissiyanın təsdiq etdiyi siyahının biri hissəyə verilir, digəri isə əxzi-əsgər şöbəsində qalırdı(219).

Göyçay və Şamaxı qəzalarında çağırışın təşkili ilə bağlı imzalanan əmrdə çağırış yaşı artıq 19-dan 25 yaşına qədər müəyyənləşdirilmişdi. Həmin əmrin çağırışçıların özləri ilə tüfəng və patron gətirmələri ilə bağlı olan ilk maddələrinə yuxarıda toxunulmuşdu. Sonrakı maddələrdə isə deyilirdi:

– Əxzi-əsgər komissiyası qəza mərkəzində fəaliyyət göstərir. Məhəlli mərkəzlərdə toplaşmış olan çağırışçılar komissiya tərəfində müayinədən keçirilmək üçün mərkəzə göndərilir. Müayinə üçün qəza mərkəzinə gələn çağırışçılar ikigünlük azuqələrini də özləri ilə gətirməli idilər. Yolda və qəza mərkəzində onlar öz hesabına qidalanmalı idilər. Xidmətə yararlılığı təsdiq olunduqdan

sonra isə onlar hökumət hesabına qatarlarla xidmət yerinə göndərilməli idilər.

– Atı ilə gələn çağırışçılar müvafiq hissə və bölmələrə göndərilməli idilər.

– Əxzi-əsgər komissiyasını keçdikdən sonra çağırışçılar əsgər idarəsi tərəfindən iaşə və təchizatla təmin edilməli idi.

– Mövcud olan Milli Müdafiə cəmiyyətləri əhalini və çağırışçıları xidmətə maraqlandırmaq üçün lazımi təbliğat və təşviqat işləri aparmalı idilər.

– Əxzi-əsgər şöbələrinin hərbi komissiyaları çağırışçılarla apardığı işin hesabatını əxzi-əsgər idarəsinin hərbi komissiyasına təqdim etməli idi.

– Yerləşdirmə komissiyası əxzi-əsgər komissiyalarından keçən çağırışçıların, habelə şöbələrə gəlmiş zabitlərin gecələməsi üçün yer tapmalı və heyvanlarla bağlı lazımi tədarükü görməli idi.

– Yerləşdirmə komissiyası çağırışçılar arasında ayaqqabı ustalarını seçməli və onları ayrıca yerləşdirməli idi.

– Milli Müdafiə Cəmiyyətinə aidiyyatı olan qadınlar əsgərlərə qayğı istiqamətində köynək, corab və digər əşyaların hazırlanmasını davam etdirməli idilər.

– Hərbi komissiyalar heyvanların və nəqliyyat vəsaitlərinin səfərbərliyi ilə məşğul olmalı idilər. Heyvanlardan damazlıq olanlar, xüsusi cinsdən olanlar, cavan olanlar səfərbərliyə alınmamalı idilər. Seçilmiş heyvanların pulu ya dərhal ödənilir, ya da heyvanlar nisyə alınırdı. Nağd pul olmadıqda heyvan sahiblərinə xüsusi bir sənəd verilirdi. Əsgər komissiyası əhali tərəfindən hədiyyə kimi verilən heyvanları da xidmətə qəbul edirdi.

– Nəqliyyat vəsaiti üzrə komissiyalar əhali tərəfindən daxil olan ərizə və şikayətlərə də baxmalı və müvafiq qərarlar qəbul etməli idi.

– Əsgər idarəsi komissiyası ilə Yerləşdirmə komissiyası Göyçayda nə qədər çağırışçını yatacaq və iaşə ilə təmin edəcəkləri barədə və görülmüş işlər haqqında Qafqaz İslam Ordusu komandanlığının ərkani-hərb rəisinə məlumat verməli idilər (220).

Əxzi-əsgər şöbələrində müayinədən keçən çağırışçıların aşağıdakı forma üzrə siyahısı tutulurdu (221):

sıra nömrəsi ……….............................................…….
ailə ismi………..........................................................……
vilayəti ………..............................................................
yaşı…………………………………………………………
qəsəbə ………………………………………………...……..
doğulduğu yer…………………………………………......
əxzi-əsgər şöbə rəisi …...............................................…
sənəti və savadı………………………………………….
kənd və məhəlləsi………………………………………..
silahlı və ya silahsız olması………………………………..
ev nömrəsi……………………………………………..…
ehtiyat zabit namizədliyinə haqqı olması …………………….
ismi …………….......................................................……..
məhəlli mərtəbəsi………………………………………..
atasının adı.........................................................................
qeyd………………………………………………………

Milli qoşun hissələrinin təşkilinin genişləndirilməsi ilə nəqliyyat vəsaitlərinə, minik və yük heyvanlarına olan ehtiyac da artmaqda idi. Bu ehtiyacı aradan qaldırmaq üçün 1918-ci il avqust ayının 12-də İslam Ordusu komandanlığı tərəfindən müvafiq əmr imzalandı. Həmin əmrdə deyilirdi:

– Azərbaycanda arabalarla bərabər, arabaçı və dəvəçilərin də orduya cəlb olunması nəzərdə tutulur.

– Arabaçıların və dəvəçilərin, habelə heyvanların və dəvələrin iaşəsi ordu tərəfindən təmin olunacaq.

– Hər bir əxzi-əsgər şöbəsində baytar həkimi və zabitlərdən təşkil olunmuş komissiya nəqliyyat vasitələrinin və heyvanların qeydiyyatını aparmalı idi.

– Müraciət edən şəxslərin araba və heyvanları bu komissiya tərəfindən müayinədən keçirilməli idi.

– Bu əmr alınan kimi əxzi-əsgər şöbələri onun icrası istiqamətində fəaliyyətə başlamalı idi.

– Orduya səfərbər edilən heyvanlar düşmən güllələrindən öldükləri təqdirdə onun qiyməti ordu tərəfindən ödənməli idi (222).

Elə həmin gün, yəni avqustun 12-də imzalanmış başqa bir əmr

isə çağırışçıların xidmətə cəlb edilməsinin sürətləndirilməsi ilə bağlı idi. Bu əmrdə göstərilirdi ki, artıq 19 yaşından 34 yaşına qədər olanlar əsgərliyə cəlb olunmalıdırlar. Əmrdə Azərbaycanın milli qoşun hissələrinin komplektləşdirilməsinə xüsusi diqqət yetirilirdi. Orada, hətta hansı qəzanın hansı alay üzərində təhkim olunduğu da təsbit edilmişdi. Yəni qəzalardan toplanan çağırışçılar təhkim olunduqları alaya göndərilməli idilər. Əmrə əsasən bu, aşağıdakı şəkildə təsbit olunmuşdu (223):

Qazax qəzası–1-ci piyada alayı;

Şuşa və Qarabağ qəzası–2-ci piyada alayı;

Ağdaş qəzası–4-cü alayın 1-ci və 2-ci taboru və iki süvari bölüyü;

Cavanşir qəzası–4-cü alayın 3-cü taboru.

Əslində, çağırışın ərazi prinsipi qəbul edilmişdi. Yəni hər bir çağırışçı yaşadığı qəza daxilində hərbi xidmətini keçməli idi. Hər qəzada təhkim olunan hissənin tələbindən artıq çağırışçı toplanardısa, onlara möhlət verilə bilərdi. Əmrdə bir taborda 1500 nəfər olacağı göstərilirdi. Ancaq bunun müvəqqəti hal olduğu, ya ştatın genişləndirildiyi və ya əlavə ehtiyat qüvvənin toplanması ilə bağlı olduğu bildirilmirdi. Çünki təsdiq olunmuş ştatlara görə, alayın və taborun say tərkibi bu qədər deyildi. Məsələn, piyada alayının ştatı aşağıdakı kimi idi (224):

| ştatların adı | zabit | sıravi heyət | | heyvan | |
|---|---|---|---|---|---|
| | | revolver | tüfəng | minik | yük |
| Alay komandiri (qayməqam miralay) | 1 | | | 1 | |
| Komandir yavəri (mülazim) | 1 | | | 1 | |
| Baytar həkimi | 1 | | | 1 | |
| Ağırlıq komandanı (mülaz.) | 1 | | | 1 | |
| Yazıçı (onbaşı) | | | 1 | | |
| Yazıçı (nəfər) | | | 1 | | |
| Xidmət nəfəri | | | 1 | | |
| Rabitəçi | | | 5 | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Əmr nəfəri | | | 1 | | |
| Nəqliyyat onbaşısı | | | 1 | | |
| Alayın ağırlıq yekunu | | 5 | 1 | 8 | |
| Üç tabor | 57 | 264 | 2356 | 36 | 236 |
| Alayın yekunu | 61 | 270 | 2366 | 48 | 236 |

Üçbölüklü taborun ştatı isə belə idi: zabit 19 nəfər, sıravi heyət–772 nəfər, minik heyvanı 12 baş, yük heyvanı–76 baş. Hər bir bölükdə 280 nəfər sıravi heyət, 1 minik atı və 22 yük atı var idi (225).

12 avqust tarixli əmrdə çağırışçıların silahları, heyvanları və nəqliyyat vasitələri ilə birlikdə orduya cəlb olunması nəzərdə tutulmuşdu. Hər bir alay ərzaq qolu təşkil etməli idi. Bu ərzaq qollarında ən azı 50 ədəd araba və onu çəkəcək yük heyvanları olmalı idi. Bu qədər heyvan və vəsait də əhalidən toplanmalı idi. Əmrə əsasən alay komandirləri yerləşdikləri qəzalarda çağırışçıların toplanması, səfərbərliyin aparılması ilə məşğul olmalı və hər iki gündən bir görülən işlər barədə ordu komandanlığına məlumat təqdim etməli idi( 226).

Bu əmrdən iki gün sonra, yəni avqustun 14-də imzalanan əmrdə bildirilirdi ki, 2-ci piyada alayının qərargahı Ağdamda, taborları isə Ağdam, Qarabulaq və Zəngilanda yerləşdiklərindən bu hissələrə çağırışçı da həmin ərazilərdən toplanmalı idi. Ancaq istisna hal kimi qeyd edilirdi ki, erməni kəndləri ilə qonşu olan Azərbaycan kəndlərindən çağırışçılar toplanmasın ki, onlar hələlik öz kəndlərini müdafiə edə bilsinlər (227).

Bütün bu təlimat, əmr və sərəncamlar əsasında 1918-ci ilin yayında Azərbaycanın işğal altında olmayan ərazilərində geniş çağırış və səfərbərlik işləri aparıldı. Bu işlər həm hərbi mükəlləfiyyətli olan çağırışçıların, həm də könüllülərin toplanması istiqamətində aparılırdı. Mövcud olan arxiv sənədləri də deyilənləri təsdiq edir. 1918-ci il iyun ayında çağırış və səfərbərliyin aparılması ilə bağlı bir neçə fakt yuxarıda göstərilmişdir. Sonrakı aylar bu sahədəki fəallıq daha da artdı. Məsələn, 1918-ci il iyul ayının 7-nə olan sənəddə Nuru paşa Ağdaş və Xaldan ətrafında yığılmış qüvvələrin Müsüslüyə göndərilməsini tələb edirdi. İyulun 9-na aid

olan sənəddə isə Qazax ətrafından 350 nəfər silahsız könüllünün toplandığı bildirilirdi (228). İyulun 2-nə aid olan məlumatda Ağdamda 162 atlının yığıldığı, 6 iyula aid olan məlumatda Şuşada 28 süvaridən ibarət inzibat bölüyünün və 70 nəfərdən ibarət piyada bölüyünün təşkil edildiyi, 7 iyula olan məlumatda Ağdamda yığılan atlıların sayının 320-yə çatdırıldığı və növbəti iki gündə daha 70 atlı toplanılacağı (229), 27 iyula aid olan məlumatda Ağdamda toplanan qüvvədən 300 nəfərin Gəncəyə göndərilməsi, 29 iyula aid olan məlumatda Ağdamda daha 162 süvarinin toplandığı (230) bildirilirdi.

Avqust ayının ikinci yarısında 3-cü alayın tərkibində 19 kiçik zabit, 1 baş çavuş, 14 çavuş, 8 onbaşı, 51 süvari, 8 əmr nəfəri, 460 əsgər mövcud idi. 4-cü Ağdaş alayının birinci taborunun mövcudu–665 nəfər, ikinci taborunun mövcudu–662 nəfər, 3-cü taborunun mövcudu–701 nəfər, 2-ci Ağdam alayının birinci taborunun mövcudu–373 nəfər, 2-ci taborunun mövcudu–520 nəfər, atlı süvari bölüyünün mövcudu 125 nəfər idi. Şəki dəstəsində olan 252 nəfərin sayı bir neçə gün ərzində 285-ə çatdırılmışdı. Bərdə ətrafındakı hissələrdə piyadaların sayı 472 nəfər, süvarilərin sayı isə 245 nəfərə çatmışdı. Tərtərdə 245 nəfər süvari toplanmışdı (231). Bu rəqəmlər aparılan işlərin nəticəsi kimi vaxtaşırı olaraq dəyişirdi. Məlumatların qıtlığı üzündən çağırış və səfərbərlik işinin nəticələrinin bütöv mənzərəsini yaratmaq çətin olsa da, bu proses İslam Ordusu komandanlığının və Azərbaycan hökumətinin ciddi nəzarəti altında idi və istər Bakının azad edilməsinə qədər, istərsə də Bakının azad edilməsindən sonra bu sahəyə nəzarət bir an da olsa zəifləməmişdi.

Heyvanların səfərbərliyi istiqamətində də müəyyən işlər görülürdü. 1918-ci il iyul ayının 1-də Qafqaz İslam Ordusunda 2374 heyvan mövcud idisə, 15 gündən sonra bu rəqəm 2417 oldu. 15 gün ərzində 297 heyvan tələf olmuş, əvəzində isə 340 yeni heyvan səfərbərliyə alınmışdı (232).

Əldə edilən nəticələrlə bərabər, çağırış və səfərbərlik işinə məsul olan şəxslər bir sıra çətinliklərlə də qarşılaşmışdılar ki, bu da onlardan əlavə səy və zəhmət tələb edirdi. Məsələn, Cəbrayıl komandanı yazırdı ki, burada kəndləri gəzdim və bir-birinə düş-

mən olmayan kənd görmədim. Kəndlər arasındakı bu qarışıqlıq heç şübhəsiz ki, səfərbərlik işinin təşkilinə də əks-təsir göstərirdi. Cəbrayıl komandanı İsmayıl Fəxri bəy bu işlərin düzgün qurulması üçün uzun müddət kəndlər arasındakı qan düşmənçiliyinin ortadan götürülməsi ilə məşğul olmuşdu(233).

Ağdam komandanı Ordu komandanlığına iyulun 2-də verdiyi məlumatda bildirirdi ki, qəzada səfərbərlik işini məcburiyyət altında keçirmişdir. Toplanan süvarilərin əksəriyyəti qaçıb-dağıldılar. Saxlaya bildiyimiz 162 atlını qaçıb-dağılmasın deyə müşayiət altında Bərdəyə göndərdim. Qəza komandanı qaçıb-dağılan atlıların yenidən toplanması ilə məşğul olacağını qeyd edirdi (234).

İyul ayının 12-də Yevlax körpüsündə təyin edildikləri məntəqədən icazəsiz geri qayıdan 90 könüllü süvari saxlanmışdı. Sonradan onlar yenidən Ordu komandanlığının səlahiyyətinə göndərildilər. Həmin ayın 19-da isə cəbhə xəttindən, Padar ətrafından 200 nuxalı süvari fərarilik etmişdi (235). Belə halların təkrarlanmaması üçün hissə komandirləri tərəfindən nəzarətin gücləndirilməsinə diqqət artırılırdı.

Qəzalardakı əsgəri təşkilat haqqındakı təlimatda da bu nəzarətin gücləndirilməsi üçün bəzi tədbirlər nəzərdə tutulmuşdu. Təlimat Bakı şəhəri azad edildikdən sonra qəbul edilmişdi. Burada bildirilirdi ki, hər qəza mərkəzində bir inzibat bölüyü təşkil ediləcək və onun tərkibində ən azı 30 nəfər olacaqdır. Bundan başqa, çağırış işinin gücləndirilməsi də bu təlimatda təsbit edilmişdi. Həmin təlimata görə, çağırışçıların yeni yaş senzi 20–30 yaşları arasında müəyyənləşdirilmişdi (236).

Çağırış və səfərbərlik işində eyni zamanda bu sahəyə məsul olan şəxslərin səhlənkarlığı üzündən baş verən nöqsanlar da mövcud idi. 1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri S.Mehmandarov fərariliklə mübarizənin gücləndirilməsi üçün Daxili İşlər nazirinə yazdığı məktubunda bu bəlanın kökünün hələ Qafqaz islam Ordusu dövründə qoyulduğunu bildirirdi. Onun fikrincə, bunun əsas səbəblərindən biri bir sıra Osmanlı zabitləri tərəfindən rəhbərlik edilən əxzi-əsgər şöbələrinin fəaliyyətinin düzgün təşkil edilməməsi ilə bağlı idi. Əxzi-əsgər şöbələrinin bəzi rəisləri çağırışın təşkili üçün əllərində əsas tutmalı

olduqları sənədlərə bir çox hallarda məhəl qoymurdular və bu işi, əsasən, öz istəkləri əsasında qurmağa çalışırdılar. Bəzi imkanlı şəxslər əxzi-əsgər şöbələri ilə qeyri-qanuni əlaqələr yaradır və müəyyən məbləğ əsasında övladlarını əsgəri xidmətdən azad edirdilər (237).

Çağırış və səfərbərlik işinin aparılması ilə yanaşı təcavüz təhlükəsinin mövcud olduğu məntəqələrdə «Akınçı dəstələri» deyilən dəstələr də təşkil edilməli idi. Bu dəstələr könüllü dəstələr idi. Silahı olan əhali (çağırışa düşməyən) bu dəstələrə daxil olmalı idilər. Həmin dəstənin vəzifəsi məntəqənin təhlükəsizliyini təmin etmək idi. Akınçı bölüyünün tərkibi 150 nəfər olmalı idi. Hər bölüyə yerli əhalidən nüfuz sahibi olan bir şəxs komandir seçilməli idi. Bölükdə hər 50 nəfərə bir mülazim və hər bölüyə isə bir yüzbaşı təyin olunmalı idi. Bölükdəki zabitlərin və bölük üzvlərinin təlim-tərbiyə ilə məşğul olmasını məntəqə komandanı təmin etməli idi. Dəstə üzvləri öz evlərində yaşamalı idilər. İşarə olan kimi dərhal ən azı üçgünlük azuqə ilə təyin olunmuş məntəqələrdə toplanmalı idilər (238).

1918-ci il iyun ayının əvvəllərində Şuşa ətrafında vəziyyət mürəkkəb olduğu üçün orada artıq belə bir dəstənin yaradılmasına başlanması qərara alınmışdı (239).

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Hüsamettin Tuğac. Bir neslin davamı. Ankara, 1966, s.153
2. Yılmaz Reha. Birinci Dünya müharibəsi başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti, s.71. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.57–74
3. Yılmaz Reha .. s.62, 66
4. Yılmaz Reha ... s.68
5. Yılmaz Reha ... s.68
6. Yuceer N... s.45
7. Onk Nizamettin. Yeni Azerbaycan Cümhuriyyeti kurulurken. Türk dünyası tarih dergisi, şubat, 1992, s.34
8. Türkiye Silahlı Kuvvetleri Askeri Tarih ve Strateji Etüt Başkanlığı arşivi (ATASE), Klassor(K) 1, Dosye(D) 1, Fehrest(F) 1–121 (ATASE arxivinə istinadlar bu arziv sənədlərinin köhnə nömrələnməsi əsasında aparılmışdır)
9. ATASE,K.1, D.1, F.1–121; Yuceer N...s.42
10. ATASE, K.3818, D.2, F.1–12, 1–13
11. Yenə orada, F.1–17
12. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997, s.57
13. Şeyxzamanlı N. Adı çəkilən əsəri, s.68–69
14. Husamettin Tuğac ... s.155
15. Husamettin Tuğac ... s.157
16. Husamettin Tuğac ... s.170
17. ATASE, K.2927, D.628, F.16
18. Yuceer N...s.20–21
19. Halil Ball. Kuzey Kafkasyanın istiklalı ve Türkiyenin askeri yardımı. 1917–1918. Bax:Kafkas araşdırmaları. C.III, İstambul, 1997, s. 43 : Yuceer ...s.18
20. Həsənov C. Adı çəkilən əsəri, s.74
21. Allen W.E.D. ve P.Muratof. 1828–1921. Türk–Kafkas sınırındakı harpleri tarihi. Ankara, 1966, s.437
22. Həsənov C. Adı çəkilən əsəri, s.72
23. Allen W. ve P.Muratof...s.437

24. Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya Enver paşa. C.III, İstambul, 1993,s.415
25. Halil Ball. Kuzey Kafkasyanın istikbalı... s.48
26. Bax: Həsənov C. Adı çəkilən əsəri, s.74
27. Yenə orada,s.74
28. Şeyxzamanlı N. Adı çəkilən əsəri, s.78
29. Yenə orada, s.79
30. Yenə orada
31. Yenə orada, s.80
32. Həsənov C. Adı çəkilən əsəri, s.75
33. Yuceer N....s.27–28
34. Kurat...s.529–530
35. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti...s.37
36. Məmmədzadə M.B. Adı çəkilən əsəri…, s.87
37. Həsənov C. Adı çəkilən əsəri, s.79
38. Yuceer N....s.33
39. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti...s.39–40
40. Kurat A.N..., s.669–670
41. Hərbi Bilik,1996, № 6, s.65
42. Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya...s.420
43. Yenə orada, s.421–422
44. Allen W. ve P.Muratof...s.443
45. Süreyya A.Ş....s.412
46. Yenə orada
47. Allen W. ve P.Muratof...s.444
48. Süreyya A.Ş...s.414
49. Allen W. ve P.Muratof...s.444 : Yuceer N...s.44
50. Erdaş Nilgün. Milli mücadile döneminde Kafkas cümhuriyyetleri ile ilişkiler (1917–1921). Ankara, 1994, s.39
51. Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının Əsgəri Tarix və Strateji Etüd başqanlığının arxivi (ATASE), klassor–3818, dosye–4, fehrest 5,5–1
52. ATASE, k.3823, d.22,f.7
53. Şeyxzamanlı N.Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997, s.71
54. Yenə orada,s.72–73

56. Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya Enver paşa. C.III, İstambul, 1993, s.360
57. Yüceer N. Birinci dünya savaşında Osmanlı ordusunun Azerbaycan və Dağıstan harekatı. Ankara, 1993, s.44
58. ATASE, k.1, d.1, f.1–120
59. ATASE, k.3823, d.22, f.7
60. ATASE, k.1. d.1, f.1–120, 1–121
61. ATASE, k.3823, d.22, f.7
62. Yenə orada, f.7–1
63. Yenə orada
64. Şeyxzamanlı N. Adı çəkilən əsəri, s.81
65. ATASE, k.3823, d.22, f.7–1
66. Kamalyeri M. ....125
67. Rəsulzadə M.C. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.38–39
68. ATASE, k.3823, d.22, f.7–3
69. ATASE, k.3823, d.22, f.7–3, 7–4
70. ATASE, k. 3819, d.6, f.1
71. Azərbaycan tarixi. Bakı, 1993, s.245
72. Rüştü. Büyük harpte Bakü yollarında 5-ci Kafkas piyada firkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. № 34, 1934, s.6–7
73. Birinci Dünya harbinde türk harbi Kafkas cephesi 3-cu ordu harekatı. Cild II, Ankara 1993, s.555
74. MDA, f.2918, siy.1, iş 2, v.62
75. Hərbi Bilik, N–1, 1993, s.105–106
76. Hərbi Bilik, N–1, 1993, s.106
77. Hərbi Bilik, N–1, 1993, s.106
78. «Азербайджан», 10.12.1918
79. Rüştü. Büyük harpte Bakü yollarında 5-ci Kafkas piyada firkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. № 34, 1934, s.6–7
80. Rüştü... s.8–9
81. Kamalyeri M. ... s.117
82. Kamalyeri M. ... s.124, 125, 126

83. Rüştü, s.13-15
84. Yenə orada, s.13
85. Yenə orada, s.14
86. Yenə orada, s.16
87. Birinci Dünya harbinde türk harbi Kafkas cephesi 3-cü ordu harekatı. c.11 . Ankara, 1993, s.555–556
88. Rüştü.... s.19
89. Yenə orada, s.23
90. Birinci Dünya harbinde türk harbi.... s.556
91. Yenə orada
92. Rüştü... s.21
93. Yenə orada, s.22–23
94. ATASE, k.3823, d. 22, f.7–4
95. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı , 1992, s.236
96. Rüştü... s.25
97. Bilen Tayyar. Kafkas Azerbaycan harekatı və Bakünün kurtulması. «Azerbaycan» dergisi, eylul-ekim 1990, s.24
98. Yenə orada
99. Baykara H....s. 240
100. Rüştü... s.6
101. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Ankara, s.94
102. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı, 1990, s.82
103. Гулиев Дж. Борьба Коммунистической партии за осушествление Ленинской национальной политики в Азербайджане. Баку, 1970, с. 77
104. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA), f. 2898, siy. 2, iş 11, v. 174
105. ATASE, k. 3823, d.22, f.6–17
106. Балаев А. Азербайджанское национальное демократическое движение. 1917–1920. Баку, 1990, с.34
107. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990, s.87; Дарабади П. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991, с.131
108. ATASE, k.3821, d.15, f.70

109. Yüceer N. ... s.75; Bilen T.... s.23
110. Birinci Dünya harbinde... s.525–526
111. Yenə orada, s.526
112. Yenə orada, s. 556
113. ATASE, k.3187, h.9, f. 5–131
114. ATASE, k.3187, h.7, f. 3–26
115. Halil paşa. Bitmeyen savaş. İstambul, 1972, s.219
116. Yenə orada, s.220
117. MDA, f.2918, siy.1, iş 1, v.45
118. Baykara H. .... s. 241
119. ATASE, k.3827, d.38, f.144–1
120. ATASE, k.3821, d.16, f.1–7
121. ATASE, k.3821, d.16, f.1–9
122. ATASE, k.3819, d.5, f.62
123. ATASE, k.3821, d.15, f.4
124. ATASE, k.3819, d.5, f.61
125. ATASE, k.3819, d.5, f.62
126. ATASE, k.3821, d.16, f.1–56
127. Rüştü... s.14
128. Rüştü... s.17
129. Rüştü ... s.39
130. Rüştü ... s.43
131. Rüştü ... s.53
132. ATASE, k.3813, d.3, f.2–3
133. Rüştü ... s.62
134. Rüştü.. s.66–67
135. ATASE, k.3819, d.5, f.26
136. ATASE, k.3819, d.5,f.60
137. ATASE, k.3819, d.13, f.8
138. ATASE, k.3818, d.4, f.67–11
139. ATASE, k.3818, d.4, f.67–12
140. ATASE, k.3821, d.15, f.67, 67–1
141. ATASE, k.3821, d.15, f.21
142. ATASE, k.3818, d.4, f.71–22
143. ATASE, k.3818, d.4, f.71–29, 71–30
144. Rüştü,... s.64

145. Birinci Dünya harbinde türk harbi... s.764
146. Birinci Dünya harbinde türk harbi ... s.765
147. Rüştü ... s.13
148. Az. MDA, f.2898, siy.1, iş1 , v.3
149. SSA, f.277, siy.2, iş 92, v.121
150. Quliyev C. Adı çəkilən əsəri, s.78
151. Rüştü ... s. 42
152. Rüştü ... s.104
153. Rüştü ... s. 121
154. ATASE, k. 3813, d.3 , f.1-4, 1–5
155. ATASE, k.3813, d.3, f. 1–7
156. ATASE, k.3819, d.5, f.60
157. Rüştü, ... s.149
158. ATASE, k.3824, d.27, f.75–1
159. MDA, f.2894, siy.1, iş 21, v.1
160. ATASE, k.3823, d.22, f.7–10
161. ATASE, k.3823, d.22, f.7–10
162. MDA, f.2918, siy.1, iş 3, v.67, 69
163. ATASE, k.3821, d.16, f. 1–86
164. ATASE, k.3821, d.16, f.1–86, 1–87
165. ATASE, k.3821, d.16, f.1–91
166. ATASE, k.3821, d.16, f.1–87
167. ATASE, k. 3821, d.16, f.1–87
168. ATASE, k. 3821, d.16, f.1–89
169. ATASE, k.3821, d.16, f.1–88
170. ATASE, k.3823, d. 22, f.7–10
171. ATASE, k.3824, d.26, f.1031
172. ATASE, k.3824, d.26, f.103 1–3
173. ATASE, k. 3824, d.26, f. 103 8
174. ATASE, k.3824, d.26, f.103 8–30
175. ATASE, k.3825, d.34, f.1–8
176. ATASE, k.3825, d.34, f.1–10
177. ATASE, k.3823, d.22, f.7–10
178. ATASE, k.3821, d.16, f.1–104
179. ATASE, k.3821, d.16, f.1–14
180. ATASE, k.3821, d.16, f.1–9

181. ATASE, k.3821, d.16, f.1–56
182. ATASE, k.3818, d.4, f.27
183. ATASE, k.3821, d.16, f.1–56
184. ATASE, k.3821, d.15, f.85
185. ATASE, k.3821, d.15, f.50
186. ATASE, k. 3819, d.5, f.36–4
187. ATASE, k.3821, d.16, f. 1–97
188. ATASE, k.3821, d.16, f.1–132
189. ATASE, k.3821, d.16, f.1–43
190. ATASE, k.3818, d.4, f. 65
191. ATASE, k.3821, d.15, f.57
192. Yüceer ... s.195
193. Топчибашев А.А. Дипломатические беседы в Стамбуле (1918-1919 гг.). Баку, 1994, с.16
194. Топчибашев А.А. ... s.17
195. ATASE, k.1, d.1, f.1–116, 1–118 ; Yüceer ... s.85
196. ATASE, k.3823, d.22, f.7–4
197. Rüştü, bütün kuvvet cedveli
198. Rüştü, bütün kuvvet cedveli
199. ATASE, k.3823, d.22, f.3
200. ATASE, k.3823, d.22, f.3
201. ATASE, k.3823, d.22, f.7
202. Yüceer ... s.85
203. Rüştü ... s.19
204. ATASE, k.3819, d.6, f.1; Birinci Dünya harbinde türk harbi... s.555
205. ATASE, k.3819, d.6, f.1; Birinci Dünya harbinde türk harbi... s.555
206. Rüştü ... s.5
207. ATASE, k.1, d.1, f.1–120; Yüceer ... s. 73
208. Rüştü, bütün kuvvet cedveli
209. История Азербайджана. Баку, 1963, с.109
210. Kurat A.N.Türkiye ve Rusya. Ankara, 1990, s.531
211. Erdaş N. Milli mücadile döneminde Kafkas cümhuriyyetleri ile ilişkiler (1917–1921). Ankara, 1994, s.40
212. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemin-

də. 1918–1920. Bakı, 1993, s.101
213. Allen W.E.D. ve P.Muratof. 1828–1921 Türk–Kafkas sınırındakı harplerin tarihi. Ankara, 1966, s.445
214. Darabadi P. 1918–1920-ci ilərdə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr. ADR-də hərbi quruculuq. Hərbi Bilik, 1994, № 4–5, s.96
215. MDA, f.2894, siy.1, iş 12, v.17,20
216. Азербайджан, 1918, 11 октября
217. ATASE, k.3818, d.4, f.55–1
218. ATASE, k.3821, d.16, f.1–73
219. ATASE, k.3825, d.34, f.1–133
220. ATASE, k.3821, d.13, f.8
221. ATASE, k.3821, d.16, f.1–167
222. ATASE, k.3821, d.16, f.1–28
223. ATASE, k.3819, d.5, f.60
224. ATASE, k.3825, d.34, f.1–21
225. ATASE, k.3825, d.34, f.1–22
226. ATASE, k.3819, d.5, f.60
227. ATASE, k.3821,d.16, f.1–36
228. ATASE, k.3823, d.28, f.8,9
229. ATASE, 3827, d.39, f.1–60, 1–63, 1–69
230. ATASE, k.3819, d.5, f.42, 51–1
231. ATASE, k.3818ü, d.4, f.71–14, 71–42
232. ATASE, k.3827, d.38, f.144–2
233. ATASE, k.3827, d.39, f.1–5
234. ATASE, k.3827, d.39, f.1–60
235. ATASE, k.3819, d.5, f.16, 25
236. ATASE, k.38215, d.34, f.1–95
237. MDA, f.2898, siy.1, iş 20, v.15
238. ATASE, k.3825, d.34, f.1–95
239. ATASE, k.3827, d.39, f.1–64

# VI FƏSİL

# QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏSİ

## *1.Gəncə ermənilərinin tərk-silah edilməsi*

Türk qoşun hissələri Azərbaycana gəldiyi gündən ağır döyüş şəraitinə düşdülər. Çünki bolşevik-daşnak qoşunları həm Şamaxı yolu ilə, həm də dəmir yolu xətti boyunca qərbə doğru irəliləməkdə idi. Belə bir vaxtda hər hansı bir lənglik göstərmək əlavə neçə-neçə kəndin itirilməsi, qanlar bahasına geri qaytarılacaq mövqelərin əldən verilməsi demək idi. Qəti və sürətli tədbirlərin həyata keçirilməməsi həm də nə qədər insanın öz yurd-yuvasından qovulması, əzab və işgəncələrə düçar olması ilə nəticələnə bilərdi. Ona görə də Qafqaz İslam Ordusu komandanlığı türk qoşunları yetişənə kimi şərqə doğru hərəkətin başlanmasına qərar verdi. Ancaq 5-ci Qafqaz diviziyasının əsas qüvvələri yetişənəcən Nuru paşa Gəncə ətrafında mövcud olan təhlükəni aradan qaldırmağı, buradakı erməniləri tərk-silah etməyi və beləliklə cəbhə arxasını möhkəmləndirməyi məqsədəuyğun bildi. Həmin vaxt Gəncənin erməni məhəlləsində xeyli sayda erməni yaşayırdı. Onlar şəhərin Gəncə çayı ilə ayrılan şərq hissəsində yerləşmişdilər. Ermənilərin bu təcavüzkar əməlləri nəticəsində şəhərin şərq hissəsi ilə qərb hissəsi arasındakı əlaqələr demək olar ki, kəsilmişdi. Azərbaycanlılardan kimsə şəhərin şərq hissəsinə keçib orada sərbəst dolana bilmirdi. Şəhərin şərq hissəsində yerləşən ermənilər öz xislətləri etibarilə heç şübhəsiz ki, türk qoşunlarının Azərbaycana gəlməsi və Gəncədə qərargah yaratmaları ilə razılaşa bilmirdilər. Onlar daha çox Şaumyan ordusunun Gəncəyə doğru sürətlə hərəkətinin intizarında idilər və Qafqaz İslam Ordusu hissələrinə arxadan zərbə vurmaq üçün kifayət qədər hərbi gücə malik idilər. Onların xeyli qüvvəsi var idi. Gəncənin şərq hissəsində yaşayan ermənilər 600 nəfərlik bir tabora malik idilər. Həmin tabor pulemyotlarla və digər atıcı silahlarla təchiz olunmuşdu (1).

Gəncə ermənilərinin tərk-silah edilməsini Nuru paşanın əmri ilə 9-cu Qafqaz alayı və mürəttəb 2-ci süvari alayından ibarət olan Gəncə dəstəsi (müfrəzəsi) həyata keçirməli idi(2). Bu dəstə iyun ayının 10-da gecə saat 23.30-da pulemyot bölüyünün bir taqımını qərargahın mühafizəsi üçün saxlayaraq qalan şəxsi heyəti ilə Gəncə çayının qərb tərəfi ilə Yelenedorf (indiki Xanlar) istiqamətində hərəkətə başladı. Belə uzun bir yol keçməkdə məqsəd ondan ibarət idi ki, dəstə Yelenedorf yaxınlığında Gəncə çayının şərq tərəfinə adlasın və buradan da yenidən Gəncəyə doğru irəliləyərək ermənilər yaşayan şərq hissəni arxadan mühasirəyə alsın. O zaman Yelenedorf əhalisinin əsasını almanlar təşkil edirdilər. Buradakı alman icması da bir milli tabor təşkil etmişdi. Bu alman taborunda 4 ədəd pulemyot və digər silahlar var idi. Həmin tabor yerli əhalinin müdafiəsi məqsədilə təşkil edilmişdi. Ona görə ondan Gəncə əhalisi üçün hər hansı bir təhlükə gözlənilmirdi. Bununla belə, Gəncə dəstəsinin rəhbərliyi bu tabordan da ermənilər əleyhinə birgə mübarizədə istifadə etməyi qərara aldı. Gəncə dəstəsinin komandanlığı tərəfindən alman taboruna əməkdaşlıq təklif edildi. Əks təqdirdə alman taborunun tərk-silah ediləcəyi bildirildi. Alman taboru müqavimət göstərilməsinin mənasız olduğunu anlayıb Gəncə dəstəsi ilə birgə fəaliyyət göstərməyə razı oldu. Dəstə komandirinin qərarı ilə alman taboru Zurnabad–Hacıkənd xəttində yerləşdirildi. Bununla da Gəncə ermənilərinin ətrafdakı erməni kəndləri ilə əlaqələri kəsilmiş oldu. Alman taborunun göstərilən məntəqələrdə yerləşdirilməsi əslində, Gəncənin şərq hissəsinin mühasirəsinin bir elementi idi. Bu taborun fəaliyyətinə tam arxayınçılıq əldə etmək üçün onun komandanlığına türk zabiti təyin edildi (3).

İyunun 11-də Gəncə dəstəsi erməni məhəlləsini mühasirə etdi. İlk döyüş tapşırığı alanlar içərisində bölük komandiri Mucib Kamalyeri də var idi. O, öz xatirələrində Gəncə ermənilərinin tərk-silah edilməsini belə təsvir edirdi: «Böyük Gəncə şəhərinin xəritəsinə baxılacaq olursa, erməni məhəllələrini çevrələyən bağların gerilərində, türk bölgəsi tərəfindən geniş bir düzlüyün varlığı gözə çarpır. Ertəsi sabahın alaca karanlığında alayımız işdə bir düzlüyün üzərində səffi-hərb nizamında toplandı. Daha gerilərimizdə bir

azəri səhra batareyası açıqlıqda yer almışdı» (3a).




**Gəncədə mövcud olan silahlı erməni dəstəsinin tərk-silah edilməsi üçün keçirilən döyüşün planı (kitabdakı xəritələr Rüşdünün «Büyük harpte Bakü yollarında» kitabından götürülmüşdür.)**

M.Kamalyerinin sonrakı qeydlərindən hiss olunur ki, alay komandiri Cəmil Cahid bəy ermənilərin tərk-silah olunmasına dinc şəkildə nail olmaq istəyirdi. Görünür, elə bunun üçün idi ki, alay komandiri tabor komandirlərini ətrafına toplayıb onlarla uzun-uzadı müzakirələr apardı. Səhər saat 9 radələrində Gəncənin erməni məhəlləsinin nümayəndələri də Cəmil Cahid bəyin yanına gəldilər. Bu nümayəndəlik 5 nəfərdən ibarət idi və onlardan biri də erməni keşişi idi: «Cəbhə aldığımız erməni məhəlləsi tərəfindən gələn yol üzərindən iki arabanın bizim tərəfə doğru irəlilədiyi göründü. Bəyaz bayraqlar sallanırdı. Arabalar tam qarşımızda durdu. Enənlərin içində bir papaz da vardı. Bu adamlar beş kişi idilər. Daha əvvəldən tanıyırlarmış kimi alay komandanının bulunduğu topluluğa doğru yürüdülər. Mübaliğəli salamlardan sonra 10–15 dəqiqə konuşmadan sonra komutanla birlikdə həmən müayinə nizamına keçən taborlarımızın önündən yavaş-yavaş keçdilər. Həpimizi ayrı-ayrı süzürlərdi. Erməni heyəti Cəmil Cahid bəyə vida edib ayrılarkən tabor komandanımız taborun eşidəcək bir səslə bu bilgini verdi:

– Gəncə erməniləri bolşevik ixtilalından sonra o bölgədəki köylü ermənilərlə silahlanmışlar, vaxtilə rus ordularında subaylıq yapmış kişilərin komutası altında əsgəri birliklər təşkil edərək müstəqil bir idarə qurmuşlar və Azərbaycan hökumətini tanımamışlardır. Ancaq Osmanlı ordusu Gəncəyə girdiyi təqdirdə mal və canlarını onun hökumətinin himayəsinə, ədalətinə təslim edəcəklərini bildirmişlər» (4).

Osmanlı zabitlərində belə bir təsəvvür yaranmışdı ki, Gəncə erməniləri doğrudan da, tərk-silah olunmağa hazırdırlar və onların verdiyi vədə etibar etmək olar. Hətta dəstənin şəxsi heyətinə istirahət belə verilmişdi və güman edilirdi ki, vəd olunan vaxt yetişəndə ermənilər öz silahlarını gətirib təhvil verəcəklər. Lakin bu, heç də belə olmadı və tezliklə Osmanlı zabitləri başa düşdülər ki, nümayəndə heyətinin göndərilməsi də ermənilərin əl atdığı məkrli oyundur. Saat 11 radələrində Cəmil Cahid bəy bəzi bölmə komandirlərinə erməni məhəlləsinə doğru irəliləmək əmri verdi. Verilən tapşırığa əsasən Osmanlı bölmələri erməni məhəlləsində olan poç-

tu, hotelləri və rəsmi qurumların yerləşdiyi binaları nəzarət altına almalı idilər. Sonradan Osmanlı bölmələrinə azərbaycanlı zabit Səməd bəy Rəfibəyov da qoşuldu. Bölmələr erməni məhəlləsinə yaxınlaşarkən erməni silahlıları tərəfindən atəşə tutuldular. Ermənilərin əlverişli mövqelər tutması onlara qarşı müqavimət göstərilməsini xeyli dərəcədə çətinləşdirdi. Bu da Qafqaz İslam Ordusu hərbçiləri arasında ilk itkilərə yol açdı.

Dəstə komandirinin tapşırığı ilə döyüşə süvarilər də qatılmışdı. Piyada qüvvələri yaxınlaşanda süvarilər şimal-şərqə çəkilərək mühasirə xəttini genişləndirməli idilər. Süvari alayının əsgər və zabitləri döyüşqabağı mövqe tutmaq ərəfəsində 4 erməni müşahidəçisini və keşikçisini əsir götürdülər. Bunun ardınca 2 zabit erməni məhəlləsinə göndərildi ki, onlara tərk-silah olmağın zəruriliyini anlatsın. Bu cəhd uğursuzluğa düçar oldu. Ermənilər nəinki heç bir təklifi qəbul etmədilər, əksinə həmin zabitlərə atəş açdılar. Sonra da bütün qüvvələri ilə hücuma keçərək Gəncə dəstəsinin bölmələrini, xüsusilə də 9-cu Qafqaz alayının bölmələrini mühasirəyə almağa cəhd göstərdilər. Vəziyyət elə bir təhlükəli xarakter aldı ki, dəstə komandanlığı bölmələri geri çəkmək məcburiyyətində qaldı. Bölük komandiri M.Kamalyeri iştirakçısı olduğu döyüşü belə təsvir edirdi: «Artıq ətrafımız yavaş-yavaş saralır, ağacların təpəsindən üzərimizə atəş edilir. Az sonra içində düşürüldüyümüz kargaşalıqdan cəsarət alan 20–30 qədər erməni fədaisi üzərimizə atıldı. Qarşı tərəf atəşi kəsdi. Bundan sonra talimini heç yapmadığımız sokak müharibəsinin ən müdhiş bir anı başladı. Subaylar ilk dəfə tapançalarını kullanırlar, süngü taxmağa vaxt bulmayan mehmetciklər də türlü təcrübələrinin verdiyi tərifəsığmaz ustalıqla saldırğanları təpəliyirlərdi. Boğuşma az sürdü. Sonunda sağ qalan 15-ə qədər basqınçı birdən-birə ortadan qeyb oldular. Biz də bu fürsətdən istifadə edərək 10 ağır yaralımızı sırtlarda daşıyaraq yavaş-yavaş geri çəkilməyə başladıq. Ən irəlidəki manqamızdan şəhid düşən dörd əri orada buraxmağa məcbur qaldıq» .

Burada baş verən ağır döyüşün gedişində Gəncə dəstəsindən 13 nəfər şəhid oldu, biri zabit olmaqla 7 nəfər isə yaralandı (4a).

Gəncə dəstəsinin bölmələri bir qədər geri çəkilsə də, etibarlı

mövqe tutaraq erməni silahlılarına cavab verdi. Döyüş axşama qədər davam etdi. Gün ərzində dəstə komandanlığı Yelenedorfdan olan bir alman vasitəsilə ermənilərə xəbər göndərdi ki, əgər atəşi dayandırıb təslim olmasalar, erməni məhəlləsi toplardan bombardman ediləcək. Bu xəbəri alandan sonra saat 11-də bir keşiş, bir erməni zabiti və bir komissar əllərində ağ bayraq dəstə komandanlığının qərargahına gəldilər. Danışıqlardan sonra onlar tərk-silah olmağa razılıq verdilər. Axşam saat 17-yə kimi onlara möhlət verildi. Lakin verilən vaxt ərzində ermənilər vədlərinə əməl etmədilər. Onda dəstə komandanlığı Yelenedorfda yaşayan bir erməni vasitəsilə erməni məhəlləsinə xəbər göndərdi ki, onlar tərk-silah olmazsa, saat 18-də top atəşlərinə başlanacaq və bundan sonra kimdə silah tutularsa, dərhal edam ediləcəkdir. Ancaq vaxtın keçdiyi və axşamın düşdüyü üçün əməliyyatın o biri gün, yəni iyunun 12-də davam etdirilməsi qərara alındı.

İyun ayının 11-də baş verən döyüş ermənilərin nisbi uğuru ilə başa çatdı. Bu cəhət erməni tərəfinin əhval-ruhiyyəsini qaldırdı. Ermənilərin göstərdiyi ilk müqavimət, habelə verilən itkilər türk qoşun hissələrinə isə mənfi təsir göstərə bilərdi. Bunu nəzərə alaraq Gəncə dəstəsinin komandiri ayın 12-də qətiyyətli addımlar ataraq erməni silahlılarını tərk-silah etməyi və ötəngünkü döyüşdən yaranan ağır təəssüratı aradan qaldırmağı qərarlaşdırdı. Onun planı belə idi ki, ermənilər könüllü surətdə tərk-silah olmazdılarsa, bölmələri erməni məhəlləsi üzərinə həlledici hücuma istiqamətləndirsin. Bundan əvvəl isə toplardan erməni məhəlləsinə bir neçə xəbərdarlıq atəşi açılsın. Top mərmiləri az olduğu üçün çox atəş açmaq imkanı yox idi. Səhərin açılması ilə bu planın həyata keçirilməsinə başlandı. Toplardan atılan atəşlər sərrast olmasalar da, onların davam etdiriləcəyi qorxusu ermənilərin iradəsini qırdı və bununla da erməni silahlıları tərk-silaha razı olduqlarını bildirdilər (5). Elə həmin gün qoşun hissələri erməni məhəlləsinə girib silahların toplanmasına başladı. Gün ərzində 150 ədəd silah yığılsa da, Nuru paşanın fikrincə, ermənilər öz silahlarının bir hissəsini gizlətmişdilər (6). İyun ayının 13-ü və 14-də erməni məhəlləsi mühasirədə saxlanıldı və orada silah toplanılması davam etdirildi.

Qafqaz İslam Ordusuna arxadan gözlənilən təhlükə təkcə ermənilərlə bağlı deyildi. Türkiyənin Qafqaz siyasəti ilə barışa bilməyən Almaniyanın gürcülərin vasitəsilə həyata keçirilən təcavüzkarlığı iyun ayının sonlarında genişlənməyə başladı(7).

Həmin ayın 24-də Şərq Ordular Qrupu komandanı Vehib paşa Nuru paşaya göndərdiyi teleqramında bildirirdi ki, Azərbaycan ərazisində Osmanlı ordusundan başqa digər bir ordu ola bilməz. O, alman-gürcü qüvvələrini nəzərdə tutaraq qeyd edirdi ki, əgər kimsə bu tələblə razılaşmasa, onda məhv edilsin(8).

Elə həmin tarixdə Vehib paşa Nuru paşaya göndərdiyi başqa bir teleqramında göstərirdi ki, Qazax və Zaqatala Azərbaycana aiddir. Əgər bu ərazilərə kənar silahlı qüvvə daxil olarsa, onlara silahla da cavab verin və Azərbaycan ərazilərindən çıxarın (9).

Azərbaycanın Gürcüstanla sərhədlərinin qorunması üçün Qafqaz İslam Ordusu komandanlığı tərəfindən lazımi tədbirlər görülürdü. Məlumdur ki, türk-Azərbaycan qüvvələri ilə alman qüvvələri arasında toqquşmalar da olmuşdu. Sərhəd xətlərinin pozulmasının qarşısını almaq üçün həm Qazax istiqamətində, həm də Zaqatala istiqamətində silahlı qüvvələr saxlanılırdı. Bu qüvvələrin tərkibində həm nizami, həm də könüllü bölmələr var idi.

## *2. Göyçay ətrafında baş verən döyüşlər*

Məlumdur ki, Azərbaycan Xalq Cümhuriyyətinin dəvəti ilə türk qoşun hissələrinin Gəncəyə gəlməsi, Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusunun təşkil edilməsi, Azərbaycanın milli qoşun hissələrinin yenidən qurulmasına başlanması Bakı Xalq Komissarları Sovetinin rəhbərliyini ciddi təşvişə salmışdı. Bütün Cənubi Qafqazı sovetlərin bayrağı altına gətirmək istəyən S.Şaumyan və onun məsləkdaşları yaxşı anlayırdılar ki, Qafqaz İslam Ordusunun fəaliyyətinin genişlənməsi bolşeviklərin niyyətlərinin reallaşmasına imkan verməyəcəkdir. Ona görə də Bakı Xalq Komissarları Soveti rəhbərliyi Rusiya bolşevik hökumətinin hərbi yardımına dayaqlanaraq mövcud bütün qüvvələri səfərbərliyə alıb Cəncə üzərinə qəti hücuma keçməyi və bununla da hərbi təşəbbüsü ələ almağı qərarlaşdırdı.

S.Şaumyan başlanan hücumun bolşeviklər üçün uğurla nəticələnəcəyinə dərindən əmin idi. O, 1918-ci il iyun ayının əvvəllərində V.Leninə göndərdiyi məktubunda bildirirdi ki, biz özümüzü çox möhkəm hesab edirik (10). Görünür, elə bunun üçün idi ki, Bakı bolşeviklərinin lideri Yevlaxa çatıb Kür çayı boyunca müdafiə mövqeləri tutmaqla qane olmur, buradan Yelizavetpol (Gəncə) və sonra da Tiflis üzərinə hücum etməyi planlaşdırırdı. Türk-Azərbaycan qoşunlarına qarşı döyüşlərin başlanmasından az sonra V.Leninə yazdığı başqa bir məktubunda S.Şaumyan hərbi planları barədə belə yazırdı: «Əlbəttə, biz bunu gözləyirdik və özümüzü möhkəmləndirirdik. Ancaq zənn edirəm ki, Bakıdakı vətəndaş müharibəsindən dərhal sonra az qüvvələrlə ora (Gəncəyə–red.) hərəkət etsəydik, daha yaxşı olardı. Onda vəziyyət daha əlverişli idi və biz Batumda və Batum danışıqlarından sonra (Batumda Osmanlı dövləti ilə Cənubi Qafqaz dövlətləri arasında müqavilələr bağlanması nəzərdə tutulur–M.S.) bütün baş verənlərin qarşısını ala bilərdik. ...Bizim üçün bir şey aydındır. İrəli getmək lazımdır. Biz fikirləşirdik ki, Yevlaxa qədər gedək, orada bir qədər dayanıb irəli Yelizavetpola gedək. Birbaşa Tiflisə getməyə cəsarət etmirdik. Ancaq axır vaxtlar bizdə bu barədə də söhbətlər gedir» (11).

Bolşeviklərin malik olduqları hərbi qüvvə də bu planların həyata keçirilməsinə müəyyən əsas verirdi. Qafqaz Qırmızı Ordusunun ixtiyarında olan qüvvələr istər sayca, istərsə də təchizat baxımından Qafqaz İslam Ordusundan geri qalmırdı. S.Şaumyan bolşevik-daşnak qüvvələrinin imkanlarını belə qiymətləndirirdi: «Hərb işindən xəbərdar olan adamların ordu haqqında ümumi təəssüratı belədir ki, bu adi sovet ordusu deyil, əsl nizami qoşunlardır. Rusiyadan gələn bütün yoldaşlar bu ordu ilə tanış olduqdan sonra heyrətlərini gizlədə bilmirlər.Və hələlik bu ordu özünü çox əla aparır» (12).

S.Şaumyan əksəriyyətini ermənilər təşkil edən və Azərbaycan xalqını, onun müstəqil dövlətini qan içində boğmaq üçün toplaşan silahlı dəstələri belə səxavətlə tərif edirdi. Bununla belə, o, əldə etdiyi nəticələrlə kifayətlənmirdi və Qırmızı Ordunun möhkəmləndirilməsi davam etdirilirdi. 1918-ci il may ayının sonu, iyun

ayının əvvəllərində Qafqaz Qırmızı ordusunun 19-cu və 20-ci taborlarının təcili təşkilinə başlandı. 19-cu taborun əsasını Petrovsk (Mahaçqala) şəhərini işğal etmiş bolşevik qüvvələri təşkil etməli idi. Eyni zamanda xüsusi hücum bölüyünə və Dəmir bölüyə könüllülər toplanırdı. Mühəndis və texniki bölmələrin sürətlə dəstləşdirilməsi üzərində də iş aparılırdı (13).

Qırmızı Ordunun sayı 18 minə çatdırılmışdı. Onun da şəxsi heyətinin böyük hissəsini ermənilər təşkil edirdi(14).

Qafqaz Qırmızı ordusunun möhkəmləndirilməsi üçün Rusiya tərəfindən göndərilən hərbi yardımların da ardı-arası kəsilmirdi. 1918-ci il iyun ayının elə ilk günlərində Rusiyadan 12 ədəd dörddüyməlik top, onun ekipajı və təchizatı yüklənmiş qatar Bakıya yola salındı. Tula silah zavodundan Bakıya isə xeyli sayda pulemyot, tüfəng və patron göndərildi (15).

Dəniz işləri üzrə Rusiya Xalq Komissarlığı Soveti Xəzər hərbi donanmasının gücləndirilməsi üçün üç keşikçi gəmisi və üç minadaşıyan gəmi ayırıb onları etibarlı şəxsi heyətlə dəstləşdirdi(16).

İyun ayının sonlarına Ter-Qabrielyan Rusiyadan 4 ədəd zirehli avtomobil, 13 ədəd təyyarə və çoxlu silah, sursat, təchizat gətirdi. Elə həmin günlərdə Bakı Xalq Komissarları Soveti Rusiya Hərbi İnqilab Şurasına göndərdiyi xahişnamədə 1-ci Qafqaz Qırmızı korpusunun ehtiyacları üçün 2-3 diviziyanın, 6 ədəd təyyarənin, 6 ədəd zirehli avtomobilin, 180 pulemyotun, bir neçə topun, 18 milyon tüfəng gülləsinin, 25 min dəst hərbi geyimin və s. ayrılması zəruriliyini vurğulayırdı(17).

Canlı və texniki qüvvələr artdıqca Qafqaz Qırmızı ordusunun rəhbərliyi mühəndis-istehkam işlərinin gücləndirilməsinə də xüsusi fikir verirdi. Hərbi və dəniz işləri üzrə komissar Q.Korqanovun əmri ilə 1918-ci ilin iyun ayının 3-də xüsusi mühəndis-tikinti idarəsinin və onun sərəncamında olan 5 tikinti dəstəsinin, 4 fəhlə artelinin təşkilinə başlandı(18).

Nəhayət, kifayət qədər qüvvə və ehtiyat yaradıldıqdan sonra Bakı Xalq Komissarları Soveti hərbi və dəniz işləri üzrə komissar Q.Korqanov 1918-ci il iyun ayının 4-də 1-ci Qafqaz Qırmızı Korpusunun Zaqafqaziya dəmir yolu boyunca Hacıqabuldan qərbə doğru hücuma keçməsi barədə 8 saylı əmri imzaladı. Həmin əmrə

müvafiq olaraq Qırmızı Ordu hissələrinin hücumu iyun ayının 6-da başlamalı idi. Qoşunların döyüş fəaliyyətinə ümumi rəhbərliyi komissar Q.Korqanov və onun yanında yaradılmış Hərbi Şura öz üzərinə götürdü(19).

Döyüş şəraitində qoşunların idarə edilməsini nizamlayacaq bu əmrlə briqada komandirləri yanında qırmızı komissarlar da təyin edildi. 1-ci briqadanın komissarı A.Quloyan, 2-ci briqadanın komissarı Ter-Sarkisov, 3-cü briqadanın komissarı A.Qabişev, artilleriya rəisi yanında isə komissar T.Şaumyan təsdiq edildi (20). Yəni bu dörd komissardan üçü erməni idi. Qoşun hissələrinin komissarlarının, əsasən, ermənilərdən təyin edilməsi onun milli-etnik tərkibinə və izlədiyi niyyətlərin mahiyyətinə tamamilə müvafiq idi.

Gəncəyə doğru hərəkətə başlamazdan əvvəl, iyun ayının 6-da Q.Korqanovun korpusun əsgər və zabitlərinə ünvanlanmış müraciət xarakterli əmri də başlanan hücumun nəyə xidmət etdiyini açıq göstərirdi. Həmin əmrdə bəyan edilirdi ki, artıq Zaqafqaziyada fəhlə-kəndli inqilabının taleyinin, Zaqafqaziya xalqlarının özünün taleyinin həll edilməsi vaxtı çatmışdır. Guya Zaqafqaziya respublikalarının öz müstəqilliklərini elan etməsi gürcü zadəganları ilə müsavat bəylərinin istəyi idi. Xalq onları istəmir və Azərbaycana türk qoşunlarının gəlməsi də xalqın istəyinin əksinə olaraq edilmişdir. Türk generalları qoşunları ilə Bakıya gələrlərsə, Bakı fəhlələrini əzəcək, sovet hakimiyyətini isə məhv edəcəkdir. Əmrdə daha sonra deyilirdi: «Yoldaş 1-ci Qafqaz Qırmızı Korpusunun əsgərləri! Sizin üzərinizə Zaqafqaziyada əks-inqilaba birinci zərbə endirmək, milliyyətindən asılı olmayaraq bütün fəhlə və kəndliləri birləşdirib üsyana qaldıran bir qüvvə olmaq kimi çox böyük bir vəzifə düşür. Qələbə çalmaqla siz Qafqaz xalqlarını məhv olmaqdan xilas edəcəksiniz. Siz neft sənayesi mərkəzi Bakını bütün Sovet Respublikası üçün xilas edəcəksiniz... Sizə Şimali Qafqazdan və Rusiyadan mümkün olan lazımi kömək gəlir və gələcəkdir»(21).

S.Şaumyan Qırmızı Ordu hissələrinin hücuma başlamasını öz xəyallarının həyata keçməsi istiqamətində ilk addım sayırdı. O, üzləşəcəkləri türk qoşunlarının güclü olması barədə məlumat aldığını bildirsə də, Qırmızı Ordunun onları çətinlik çəkmədən

məğlub edəcəyinə əmin idi. Bu barədə o, V.Leninə göndərdiyi məktubunda belə yazırdı: «Əgər qarşımızdakı yalnız Yelizavetpol (Gəncə) quldur dəstələri olsaydı, onlar nə qədər çoxsaylı olsaydılar və hətta bütün menşevik gürcü qüvvələri qoşulsaydılar belə onlar bizim üçün qorxulu olmazdılar. Onlara, hətta türk qüvvələri qoşulsaydılar belə, bizim üçün qorxulu olmazdılar. Ancaq bizi almanlar qorxudur» (22).

Bolşevik-daşnak qüvvələri üç istiqamətdən hücuma başladılar. Əsas qüvvələr Hacıqabul–Kürdəmir istiqamətində hücum etməli idi. S.Şaumyanın məlumatına əsasən bu istiqamətdə 10 min nəfərlik bir dəstə hücuma qoşulmuşdu. Başqa bir məlumata görə, bu istiqamətdə hücuma qoşulan daşnak-bolşevik qüvvələri 9 taborda birləşdirilmişdi. Hücumun digər bir istiqaməti kimi Şamaxı–Göyçay marşrutu seçilmişdi. General Qavril Korqanovun məlumatına görə, bu istiqamətdə 4 piyada taboru və 2 ədəd top var idi. Bolşeviklərin məlumatına görə isə Ağsu istiqamətində Qafqaz Qırmızı Korpusunun 3-cü briqadası və 2-ci briqadasının bir hissəsi hücuma qoşulmuşdular. Bu isə 4 tabordan çox idi. Nəhayət, hücumun başqa bir istiqaməti kimi cənub istiqaməti seçilmişdi. Nəzərdə tutulmuşdu ki, daşnak-bolşevik qüvvələri bu istiqamətdə Salyan ətrafına qədər irəliləsin, sonra da Kür çayına çıxarılmış hərbi gəmilər vasitəsilə çayboyu üzüyuxarı hərəkət davam etdirilsin (23).

General Qavril Korqanov Qafqaz Qırmızı Korpusunun qüvvələrini birmənalı şəkildə erməni qüvvələri adlandırırdı. Çünki bu qüvvələrin əsasını ermənilər təşkil edirdi, onların komandirlərinin də əksəriyyəti erməni idi. Bakı Sovetinin süqutundan sonra Bakıda hakimiyyəti ələ almış «Sentrokaspi Diktaturasının» hərbi naziri olan A.Baqratuninin həmin dövrdə Bakıdakı fəaliyyətini araşdıran bir erməni tarixçisi isə bildirirdi ki, Bakıdan qərbə doğru irəliləyən və əsasını ermənilər təşkil edən qüvvələrin məqsədi yalnız Tiflisin ələ keçirilməsindən ibarət deyildi. Həmin qüvvələr Türkiyə ərazisinə daxil olaraq oradakı ermənilərə də öz «kömək»lərini çatdırmalı idilər (24).

Bakı-Tiflis dəmir yolu boyunca hərəkət etməli olan Qafqaz Qırmızı Korpusunun əsas qüvvələri Hacıqabul stansiyasına

cəmləşdirildikdən sonra iyun ayının 10-da buradan hücum başlandı. Bu zaman onların qarşısında Müsəlman korpusunun və gürcü korpusunun müştərək qüvvəsi dayanmışdı. Həmin qüvvələrə gürcü knyazı, Müsəlman korpusu Tatar süvari alayının komandiri polkovnik Maqalov komandirlik edirdi. Maqalovun qərargahı Ucarda yerləşirdi. Qırmızı Ordu qoşunları ilə müqayisədə xeyli az olan müştərək qüvvələr isə Kürdəmir ətrafında idi və irəliyə çıxarılmış qüvvələrə polkovnik Qlebov rəhbərlik edirdi. Onun sərəncamında bir neçə top da var idi(25).

Polkovnik Qlebovun azsaylı qüvvəsi Qafqaz Qırmızı Korpusunun əsas qüvvələrinin qarşısını saxlamağa qadir deyildi. Türk qoşunlarından isə bura bir kömək gəlməmişdi. Bütünlükdə, türk qoşunları hələ tam şəkildə heç Gəncəyə gəlib çıxmamışdılar. Bolşevik-daşnak qüvvələri də bundan mümkün qədər çox faydalanmağa çalışırdılar.

İyun ayının 11-də Qırmızı Ordu hissələri Sığırlı stansiyasında olan milli qoşun bölmələri üzərinə hücum etdilər. Bu hücum zamanı ciddi bir müqavimətə rast gəlməyən Qırmızı Ordu hissələri iyunun 11-də axşamçağı Sığırlı stansiyasını işğal etdilər. Bu xəbəri S.Şaumyan çox böyük sevinclə qarşıladı və o, dərhal Moskvaya, V.Leninə teleqram göndərdi: «Yelizavetpol istiqamətində hərbi əməliyyatlara başlamış Bakı Soveti qoşunları komandanının ilk məlumatını göndərirəm. Məlumat bu gün, iyun ayının 11-də axşam saat 9-da alınmışdır. Bizim qoşunların ön dəstələri Sığırlı stansiyasını tutmuşdur. Bizim kəşfiyyat qatarımız Kərrar stansiyası istiqamətindən düşmən topları vasitəsilə atəşə tutulmuşdur. Qoşunlarımız irəli hərəkət edir...» (26).

İyun ayının 11-də Ucar stansiyasında olan podpolkovnik Həbib bəy Səlimov bu istiqamətdə vəziyyətin mürəkkəbləşdiyi barədə dərhal Qafqaz İslam Ordusu ərkani-hərb rəisi Nazim bəyə teleqram göndərdi. Həmin teleqramda bildirilirdi ki, dəqiq məlumatlara görə, Sığırlıya üç piyada taboru, bir haubitsa və bir mortir batareyası, dəmir yolu bölüyü və süvari bölməsi hücum etmişdir. Onlara əlavə kömək gəlməkdə davam edir. Hacıqabul və Qarasu stansiyalarında çoxlu bolşevik qüvvələrinin toplanması müşahidə edilmişdir. H.Səlimova görə, burada olan milli qüvvələr həmin çoxsaylı

qoşunun qarşısını almağı bacarmazdı. Bu qüvvələr yaxşı halda bolşevik-daşnak qoşunlarının sürətlə irəliləməsini ləngitməyə çalışaraq geri çəkilə bilərdilər. Ona görə də H.Səlimov ora yeni qüvvələrin göndərilməsini xahiş edirdi. Bu barədə o, Müsəlman korpusunun komandiri Ə.Şıxlinskiyə də məlumat verdi(27).

Ancaq məlumdur ki, iyunun 11-də Gəncədə olan türk qüvvələri buradakı ermənilərin tərk-silah edilməsi ilə məşğul idilər. Ona görə də Gəncədən əlavə kömək gələcəyi hələ real deyildi.

Milli qoşun hissələrinin zəif olduğunu görən Qırmızı korpusun komandanlığı iyunun 12-də hücumu davam etdirdi. Kürdəmir ətrafında baş verən növbəti döyüş də bolşevik-daşnak qüvvələrinin uğuru ilə sona çatdı. Müsəlman korpusunun süvariləri müqavimət göstərməyə cəhd etsələr də, düşmən xeyli güclü idi. Ona görə Kürdəmir kəndi və stansiyası da bolşeviklərin əlinə keçdi .

Kürdəmir stansiyası tutulduqdan sonra Qriqori Korqanov öz qərargahını buraya köçürdü. 2-ci briqadanın hissələri də bu istiqamətdə cəmləşdirildi. Ordunun səhra cəbbəxanası da Kürdəmirdə təşkil edildi. Burada müdafiə mövqeləri tutub gələcəkdə hücumu davam etdirmək üçün yaxşı imkan vardı. Qırmızı Ordunun sol cinahı Kür çayı ilə məhdudlanırdı. Bu ərazilər Qırmızı ordu hissələrinin nəzarəti altında idi. Dəmir yolu xəttindən başlayaraq həm cənuba, həm də şimala doğru uzanan bataqlıqlar da müdafiə imkanlarını artırırdı. Cəbhə mərkəzində çox dar sahədə milli qüvvələr hücuma keçməyə cəhd göstərsələr də, bir nəticə əldə edə bilmədilər və geri çəkildilər .

İyunun 14-də V.Leninə Kürdəmir stansiyasının işğalı ilə bağlı teleqram göndərən S.Şaumyan bildirirdi ki, qırmızı hərbi qüvvələr irəliyə doğru irəliləməkdədirlər. General Qavril Korqanov isə yazırdı ki, Kürdəmir ələ keçiriləndən sonra qırmızı qüvvələrin dəmir yolu xətti boyunca hərəkəti dayandırıldı. Onun sözlərinə görə, daşnak-bolşevik qüvvələrinin komandanlığı belə bir qərara gəlmişdi ki, sağ cinah üzrə hərəkət edən qüvvələr Ağsudan Qaraməryəmə doğru hərəkət etsin, bu məntəqəni, ardınca da Göyçayı ələ keçirsin və bundan sonra bu qüvvələr Müsüslüyə doğru hərəkət edərək dəmir yolu boyunca toplaşmış milli hərbi qüvvələrin arxasına çıxa

bilsin. Bu planın icrasını asanlaşdırmaq üçün Ağsu–Qaraməryəm istiqamətində irəliləyən daşnak-bolşevik qüvvələrinin şimalında Əmirovun (Əmiryanın) rəhbərliyi altında partizan dəstəsi də fəaliyyət göstərirdi. Bu partizan dəstəsi dağlıq ərazi ilə irəliləyərək Göyçaya daxil olmalı və bununla şosse yolu boyunca irəliləyən qüvvələrin Göyçaya soxulmasını asanlaşdırmalı idi. Eyni zamanda dəmir yolu xətti boyunca toplaşan daşnak-bolşevik qüvvələri də irəli hərəkət edərək milli qüvvələrə ciddi zərbə vurmalı idi (28).

Dəmir yolu xətti boyunca milli qüvvələrin gücü isə böyük deyildi və əlavə qüvvələr göndərilmədən bolşevik-daşnak qoşunlarına qarşı ciddi müqavimət göstərməyin mümkün olmayacağı artıq Qafqaz İslam Ordusu komandanlığına da aydın idi. Əgər burada qarşısı alınmasaydı, bolşevik-daşnak qoşunları düz xətt boyunca qısa müddətdən sonra Yevlaxa çatıb Kür çayı üzərindən keçən körpünü nəzarət altına ala bilərdi. Bundan sonra Bakıya doğru irəliləmək Qafqaz İslam Ordusu qoşunları üçün xeyli mürəkkəb ola bilərdi. Belə bir real təhlükəyə baxmayaraq, Nuru paşa əsas diqqəti Göyçay–Qaraməryəm şosse yolu istiqamətinə cəmləşdirdi və 10-cu Qafqaz alayını Qaraməryəm ətrafına göndərdi. Hadisələrin sonrakı inkişafı göstərdi ki, bu qərar çox incəliklə düşünülmüş bir qərar idi və Nuru paşanın döyüşlərin gedişində qəbul etdiyi strateji əhəmiyyətli ən mühüm qərarlardan biri idi. Çünki bu istiqamətdə baş verənlər bütünlükdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizənin gedişinə həlledici təsir göstərdi. Azərbaycana daxil olan 10-cu Qafqaz alayının hissə və bölmələri Ağstafadan qatarlara yüklənərək birbaşa Ucara gətirildi və buradan Qaraməryəm istiqamətinə göndərildi.

Müsüslü–Kürdəmir istiqamətinə isə Müsəlman korpusunun zirehli qatarı və bir də Nuru paşanın əmri ilə Qafqaz İslam Ordusunun ərkani-hərb rəisi Nazim bəy göndərildi. İyun ayının 14-də Nazim bəy Müsüslüdən göndərdiyi məlumatda Qafqaz İslam Ordusu komandanına yazırdı ki, Allahın lütfünə dayanaraq bu qolda komandanlığı öhdəmə götürdüm. O, dəstədə müəyyən qruplaşma apardı, heyətdə dəyişiklik etdi. Bu, dəstədəki zabitlərin bəzilərinin heç də xoşuna gəlmədi. Nazim bəy vəziyyətin sabitləşdirilməsi üçün Ordu komandanlığından əlavə qüvvə göndə-

rilməsini də xahiş etdi. Eyni zamanda onu da bildirdi ki, aldığı məlumata görə Qaraməryəm ətrafında da vəziyyət mürəkkəbləşmişdir və orada Müəmmər əfəndinin rəhbərliyi altında olan Ağdaş bölüyü üzərinə güclü hücum təhlükəsi artmaqdadır (29).

Kürdəmir–Müsüslü ətrafındakı vəziyyəti ətraflı təhlil etdikdən sonra Nuru paşa belə bir qərara gəldi ki, həmin istiqamətdə süvari bölmələrini bolşevik-daşnak qüvvələrinin arxasına göndərməklə gözlənilməz zərbə endirsin və arxadan dəmir yolu xətləri dağıdılsın. Ona görə də Gəncədən bir süvari bölüyünün ora göndərilməsi barədə əmr verildi. Bundan başqa Nuru paşa Nazim bəyə bildirdi ki, yaxın vaxtlarda Azərbaycana gəlməsi gözlənilən İstehkam bölüyü də onun ixtiyarına veriləcəkdir. Dəmir yolu xətti boyunca mövqelərin möhkəmləndirilməsi üçün Nuru paşa Cavad məntəqəsində olan minbaşı Nazim Ramazanzadənin dəstəsini də Müsüslü dəstəsinin tərkibinə daxil etdi (30).

Yaranmış vəziyyət barədə Nuru paşa eyni zamanda 3-cü Ordu komandanı Vehib paşaya da məlumat verdi. O qeyd edirdi ki, Bakı bolşevikləri böyük bir qüvvə ilə irəliləyib Müsüslü ətrafındakı bataqlıq sahəyə yaxınlaşmışlar. Başqa bir dəstə isə Şamaxı yolu ilə Qaraməryəm üzərinə hücuma keçmişdir. 10-cu Qafqaz piyada alayı həmin dəstənin qarşısını saxlamağa göndərilmişdir. Bu vəziyyəti təsvir etdikdən sonra Nuru paşa Vehib paşadan Azərbaycana əlavə türk qüvvələrinin göndərilməsinin mümkünlüyünü öyrənməyə çalışırdı. Nuru paşa onu da əlavə edirdi ki, hazırda 5-ci Qafqaz diviziyasında tüfəng başına 200-ə yaxın güllə mövcuddur və baş verə biləcək bir döyüşdən sonra diviziya tamamilə güllələsiz qalacaqdır. Ona görə də yaxın vaxtlarda Azərbaycana əlavə güllə və mərmi göndərilməsi Vehib paşadan xahiş edilirdi (31).

İyun ayının 15-də Müsüslü cəbhəsində olan Nazim bəy Nuru paşaya vəziyyət haqqında növbəti məlumat göndərdi. Həmin məlumatda o bildirirdi ki, məntəqəyə gəlməsindən sonra həyata keçirdiyi bir sıra tədbirləri narahatçılıqla qarşılayan bir neçə rus və gürcü teleqrafçıları gecə ikən dəstədən fərarilik etmişlər. Onların getməsilə Müsüslüdən Yevlaxa qədər çəkilməli olan teleqraf xətti də yarımçıq qalmışdır. Mütəxəssis qıtlığı üzündən Nazim bəy dəmir yolu ilə nəqliyyatın dayanacağından ehtiyat edirdi. Bu-

na görə də o, Müsüslüyə belə mütəxəssislərin tapılıb göndərilməsini xahiş edirdi. 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy bu hadisəni öz xatirələrində təsvir edərkən baş verənlərə heç də təəssüflənmədiyini bildirir, əksinə buradan irəli gələn məntiqi nəticəni qabartmağa çalışırdı. O yazırdı: «15.6.334(1918)-də yazılmış olan yuxarıdakı raport məmləkət müdafiəsi və əhvali-ruhiyyəsi nöqteyi-nəzərindən çox şayani-tədqiqdir. Müsəlman Türk Azərbaycan Cümhuriyyətinin müdafiəsi də nəhayət və nəhayət, kəndi ünsürünə, kəndi övladlarına tərəttüb edən nəcib və ali bir vəzifeyi-vətəniyyədir. Vətənə və irqinə mərbut olan azərbaycanlı türk ancaq qanını sevgili milləti və məmləkəti üçün axıda bilər. Yoxsa gürcülər və ruslar vəziyyətin ciddiyyətini və təhlükəsini görüncə dərhal sivişmək yolunu ararlar» (32).

Müsüslü stansiyasında olan Ordu ərkani-hərb rəisi Nazim bəy bütün cəbhəni öz nəzarəti altında saxlamağa çalışırdı. O istəyirdi ki, həm Qaraməryəm istiqamətində, həm də dəmir yolu boyunca keçiriləcək döyüşləri sıx şəkildə əlaqələndirsin, müəyyən vaxtda hansı istiqamətdə isə qüvvə üstünlüyü yaradaraq düşmənə ağır zərbə vursun. Sonra isə hücumun ağırlıq mərkəzini digər istiqamətə keçirsin. Bunun üçün hər şeydən əvvəl o, Kürdəmir ətrafında olan düşmən qüvvələrinin miqdarını və imkanlarını öyrənməyə cəhd göstərdi. Ona görə kəşfiyyat dəstələri təşkil edib düşmən mövqeləri istiqamətinə göndərdi. İyunun 15-də Nuru paşaya yazdığı raportunda Qaraməryəm cəbhəsində vəzifələndiriləcək dəstənin qayməqam Osman bəyin komandası altında olan 10-cu Qafqaz alayından, Ağdaş və Göyçay milli bölüklərindən, bir süvari bölüyündən, alaya verilən topçu taqımından və əlavə bir topçu batareyasından təşkil edilməsini məqsədəuyğun bilirdi. O təklif edirdi ki, bu dəstə iki bölüyü müşahidə aparmaq üçün Ağsu–Gürcivan istiqamətində yerləşdirib sürətlə Kürdəmirə doğru irəliləsin. Müsüslüyə də bir piyada alayı verilsəydi, Nazim bəy də dəmir yolu boyunca Kürdəmirə doğru irəliləyə bilər və ikitərəfli zərbə ilə Kürdəmiri azad etmək olardı. Bu hücum zamanı Cavad qəzasında olan Nazim Ramazanzadənin dəstəsindən istifadə edilməsi nəzərdə tutulmuşdu (33).

Nazim bəy təklif etdiyi planın nəticə verəcəyinə əmin olsa da,

mövcud qüvvələr və imkanlar daxilində onu həyata keçirmək mümkün deyildi. Hələlik əlavə kömək alana kimi Qafqaz İslam Ordusu qarşısında bolşevik-daşnak qoşunlarının sürətlə irəliləməsini dayandırmaq və gələcək uğurlu hücumlar üçün zəmin hazırlamaq vəzifəsi dayanırdı.

Qaraməryəm ətrafına Qafqaz Qırmızı ordusunun 1-ci və 3-cü briqadaları gətirilmişdi (34). Onlar burada döyüşqabağı mövqe tutmuşdular. Bolşevik-daşnak qoşunlarına Qaraməryəmlə Göyçay arasındakı erməni kəndlərinin silahlı dəstələri də kömək edirdilər. Bu dəstələri zərərsizləşdirmək üçün Göyçaya gəlib çıxmış olan 10-cu Qafqaz alayının 30-cu taboru iyunun 15-də Mollaishaqlı və Sultankənd kəndləri istiqamətinə göndərildi. Bu qüvvəyə qarşı güclü müqavimət göstərə bilməyəcəyini anlayan erməni silahlıları Kalaker kəndinə tərəf geri çəkildilər (35).

İyunun 16-da isə Qaraməryəm ətrafında ciddi bir döyüş oldu. Səhər saat 9-da başlayan həmin döyüşdə Qafqaz Qırmızı ordusunun 3-cü briqadasının qüvvələri azərbaycanlılardan, gürcü və dağıstanlılardan ibarət dəstənin üzərinə hücuma keçdi. S.Şaumyan və Q.Korqanov orada Qırmızı Ordu hissələrinin əldə etdiyi növbəti uğurun qiymətini şişirtmək üçün milli müdafiə dəstələrində olan döyüşçülərin sayının 2 minə çatdığını söyləyirdilər. Halbuki belə deyildi. Qırmızı Ordu hissələrinin irəlilədiyi istiqamətlərdə onun qarşısında sayca xeyli az olan qüvvələr dayanmışdılar. General Qavril Korqanovun yazdığına görə, milli qüvvələr bir tabordan və bir atlı bölüyündən ibarət idi. (36).

Buna görə də Qırmızı Ordu hələlik ciddi bir müqavimətə rast gəlmədən irəliləyirdi. Qaraməryəm ətrafında dayanan müdafiə dəstələri qeyri-bərabər döyüşə girmələrinə baxmayaraq, 7 saat ərzində bolşevik-daşnak qoşunları ilə vuruşdular. Onlar Qaraməryəmə can atan düşmənin qarşısını almağa nə qədər səy göstərsələr də, geri çəkilmək məcburiyyətində qaldılar və beləliklə, Qaraməryəm bolşevik-daşnak qoşunları tərəfindən işğal edildi (37).

Qaraməryəm ətrafındakı döyüşdə əldə edilən hərbi uğurdan ilhamlanan bolşevik-daşnak qüvvələri iyunun 17-də Müsüslü istiqamətində də irəli hərəkət etməyə cəhd göstərdilər. Ancaq bu dəfə onların cəhdi bir nəticə vermədi və itkilər verərək geri çəkil-

mək məcburiyyətində qaldılar.

Sonrakı gün, yəni iyun ayının 18-də hadisələr yenidən Qaraməryəm ətrafında cərəyan etdi. Həmin gün burada qanlı döyüşlər baş verdi. Müsüslüdə olan ərkani-hərb rəisi Nazim bəy və Göyçayda olan 10-cu Qafqaz alayı komandiri Osman bəy diviziya qərargahı və Qafqaz İslam Ordusu komandanlığı ilə razılaşdırmadan iyun ayının 18-də Qırmızı Ordu üzərinə hücum etməyi qərara aldılar. Ciddi bir hazırlıq olmadan planlaşdırılan bu döyüşün uğurla bitəcəyinə həm Nazim bəydə, həm də Osman bəydə bir əminlik var idi. İyunun 16-da 10-cu Qafqaz alayının 30-cu taborunun ətraf erməni kəndlərinin silahlı dəstələrinin heç bir itki vermədən qovub dağıtması, habelə Müsüslü istiqamətində hiss edilən uğurlar sözsüz ki, türk-Azərbaycan qüvvələrinin əhval-ruhiyyəsinə müsbət təsir göstərmişdi. Digər tərəfdən də düşmənin Qaraməryəmi tutması və Göyçaya doğru irəliləməsi qətiyyətli əks-tədbirlərin görülməsini tələb edirdi.

10-cu Qafqaz alayının qüvvələri iyunun 18-də səhər tezdən iki dağ topunun müşayiəti ilə Göyçay ətrafındakı mövqelərdən şərqə doğru hücuma keçdi. Alayın 29-cu taboru Müsüslü ətrafında idi. Gündüz saat 12-də tərəflər arasında döyüş baş verdi. 10-cu Qafqaz alayının bu döyüşə hazır olmadığı dərhal hiss olundu. Çünki irəli çıxarılmış olan 28-ci tabor qəflətən Qırmızı Ordu hissələrinin atəşi altına düşdü. Elə ilk atəşlərdən sonra 28-ci tabor təşəbbüsü əldən verdi və qeyri-münasib coğrafi şəraitdə ağır müdafiə döyüşünə keçməli oldu. Belə bir vəziyyətdən çıxmağa, qüvvələri yenidən qruplaşdırmağa cəhd göstərilsə də, Qafqaz Qırmızı ordusu 3-cü briqadasının 16-cı taborunun tutmuş olduğu əlverişli mövqelər bütün səyləri nəticəsiz qoydu. Qırmızı Ordunun 17-ci taborunun da döyüşə qoşulması bolşevik-daşnak qüvvələrinin şanslarını daha da artırdı. 28-ci tabor üzbəüz cəbhədən və yanlardan ciddi atəşə tutuldu. Havanın çox isti olması, içməli suyun çatışmaması, ağır fiziki gərginlik türk döyüşçülərinin çoxunu əldən saldı. Bolşevik-daşnak əsgərləri haldan düşmüş türk əsgərlərini əsir tutaraq onları süngü ilə doğrayır və görünməmiş vəhşiliklər edirdilər. Qırmızı Ordunun 18-ci taborunun da fəal şəkildə döyüşə qoşulması 10-cu alayın 28-ci taborunun vəziyyətini daha da çətin-

ləşdirdi. Yəni bir türk taboru üç bolşevik-daşnak taborunun zərbəsi altına düşdü. Belə olduqda tabor geri çəkilmək məcburiyyətində qaldı. Bolşevik-daşnak qoşunları bunu görüb təzyiqi daha da gücləndirəndə 10-cu alayın 30-cu taboruna 28-ci taboru himayə etmək tapşırığı verildi. Yalnız bundan sonra 28-ci taborun üzərinə düşən ağırlıq nisbətən səngiməyə başladı.

Qaraməryəm cəbhəsində baş verənləri 10-cu Qafqaz alayı komandiri Osman bəy Müsüslüyə, Ordu ərkani-hərb rəisi Nazim bəyə xəbər verdi. Nazim bəy döyüşün gedişində bir dəyişiklik yaratmaq üçün dərhal 29-cu tabora hərəkət əmri verdi. Bu tabor Qaraməryəmin qərb tərəfində döyüşə qoşularaq Qırmızı Ordu hissələrinin sol cinahına və arxasına zərbə vurmalı idi. S.Şaumyan döyüşün gedişi barədə Moskvaya, V.Leninə və İ.Stalinə göndərdiyi teleqramda etiraf edirdi ki, bu istiqamətdə türk qüvvələrinin döyüşə qoşulması ilə Qırmızı Ordunun sol cinahı 20 verst uzunluğunda sıxışdırıldı. Belə olanda Qırmızı Ordu hissələri 28-ci türk taborunun təqibindən əl çəkdilər və nəzarət altında olan yüksəkliklərdə əlverişli mövqelər seçərək açıq sahədə hücum edən 29-cu taborun qarşısını saxlamağa müvəffəq oldular. Bolşevik-daşnak qoşunlarının bütün zərbə qüvvəsinin bu istiqamətə yönəldilməsi ilə 29-cu taborun uğurla başlayan hücumu nəinki dayandırıldı, hətta onun mühasirə olunmaq təhlükəsi yarandı. Belə olanda 29-cu tabor Veysəlli kəndinə tərəf bir qədər geri çəkildi (38).

Beləliklə, gün ərzində gedən döyüşlər havanın qaralması ilə səngidi və türk qüvvələrinin ilk böyük hücumu gözlənilən nəticəni vermədi. 10-cu Qafqaz alayının hissə və bölmələri Qaraməryəmdən geri çəkilmək məcburiyyətində qaldılar. Hamazaspın komandir olduğu 3-cü briqadanın hissələri isə əksinə, Qaraməryəmdə daha da möhkəmləndilər və Göyçay üzərinə uğurlu hücum üçün əlverişli mövqelər ələ keçirdilər.

Türk tədqiqatçılarının fikrincə, Qaraməryəm ətrafında 10-cu Qafqaz alayı hissələrinin uğursuzluğa düçar olması ilk növbədə döyüşün hazırlanmasında taktiki səhvlərə yol verilməsi ilə bağlı idi. Düşmənin qüvvələri və mövqeləri barədə əldə kifayət qədər məlumat yox idi. Digər tərəfdən döyüşün aparılması üçün lazımi ehtiyat qüvvə də yaradılmamışdı (39). Bütün bunlar, habelə dö-

yüşçülərin psixoloji hazırlığının zəifliyi, ilk hücumdan yaranan çaşqınlıq, eləcə də cinah döyüşlərindən lazımınca istifadə edilməməsi və həm də cinah mühafizəsinin lazım olan səviyyədə təmin olunmaması türk qoşun hissələrinin itkilərinə və geri çəkilməsinə yol açdı. Başlıcası isə türk-Azərbaycan döyüşçülərinə böyük mənəvi zərbə vuruldu. Qırmızı Ordu qüvvələri çaşqınlıq halında olan 10-cu alay bölmələrini təqib etsəydilər, daha böyük hərbi uğurlar da qazana bilərdilər. Onların Qaraməryəm ətrafında möhkəmlənməklə kifayətlənmələri əslində, 10-cu alayı daha böyük itkilərdən xilas etdi.

Qaraməryəm ətrafında gedən döyüşlərdə 28-ci tabordan ehtiyat mülazimi Lütfü Əfəndi itkin düşdü, 29-cu tabordan mülazim–əvvəl İsmayıl Həqqi və mülazim Zəki əfəndilər, 30-cu tabordan mülazim Kazım və İbrahim əfəndilər şəhid oldular. Bütünlükdə bu taborlardan və dağ-topçu taqımından 122 nəfər şəhid və itkin düşən, 121 nəfər isə yaralanan oldu. Bundan başqa, 28-ci taborda 75 mauzer tüfəngi və 101 ədəd süngü sıradan çıxmış, 30 sandıq güllə qismən istifadə edilmiş, qismən də sıradan çıxmışdı. Dağ-topçu taqımında 2 ədəd top, 10 ədəd tüfəng və 41 mərmi düşmən əlinə keçmişdi. 29-cu taborda 18 mauzer tüfəngi və 19 süngü sıradan çıxmışdı. 30-cu taborda isə 13 mauzer tüfəngi ilə 35 süngü sıradan çıxmışdı (40).

General Q.Korqanova görə də, milli qüvvələrdən 2 ədəd 75 millimetrlik top, 3 ədəd pulemyot və s. ələ keçirilmişdi. Daşnak-bolşevik qüvvələrindən 12 nəfərin öldürüldüyü və 46 nəfərin də yaralandığı bildirilirdi (40a).

İyun ayının 18-də Müsüslü yaxınlığında da türk-Azərbaycan və bolşevik-daşnak qoşunları arasında döyüş baş verdi. Qafqaz Qırmızı ordusu 21-ci taborunun iki bölüyü döyüş tapşırığını yerinə yetirərkən əsasını Azərbaycanın milli qüvvələri təşkil edən Müsüslü dəstəsinin döyüşçüləri ilə qarşı-qarşıya gəldilər. Sovet qoşunlarının əsgərləri bu döyüşdə ciddi bir təşəbbüskarlıq nümayiş etdirə bilməyərək öz mövqelərini tərk etmək məcburiyyətində qaldılar. Gəncəyə kimi dayanmadan irəliləyəcəklərinə əmin olan sovet komandirləri öz əsgərlərinin geri çəkilməsini xəyanət kimi qiymətləndirdilər və onları tərk-silah edib tribunala verdilər (41).

Qırmızı Ordu döyüşçülərinin döyüş mövqeyindən geri çəkilməsi ilə bağlı bu yeganə fakt deyildi. Baxmayaraq ki, cəbhədə hərbi təşəbbüs Qafqaz İslam Ordusunun əlində idi, bəzi bölmələr çox güman ki, strateji planda uğursuzluqlara düçar olacaqlarını anlayır və cəbhədən uzaqlaşmağa çalışırdılar. Qafqaz Qırmızı ordusunun 7-ci taborunun bir bölüyü də döyüş tapşırıqlarını yerinə yetirməkdən imtina etmiş və bunun üçün tərksilah edilərək Bakıya göndərilmişdi (42).

Qaraməryəm ətrafındakı ağır döyüşdən sonra bir neçə gün cəbhədə sakitlik yarandı. Bu sakitlikdən hər iki tərəf öz planlarına uyğun olaraq istifadə etməyə çalışdı. Qırmızı Ordu irəli hərəkət etdikcə bolşevik-daşnak qüvvələri Azərbaycan kəndlərinə daxil olur, əhalidən bütün silahları toplayırdılar. Şamaxı qəzasındakı kəndlərin tərk-silah edilməsi üçün Bakı Soveti İcraiyyə Komitəsinin sədri A.Caparidze qəzanın yeni rəhbərliyinə xüsusi bir məktub göndərmişdi. Bu məktubda ancaq Azərbaycan kəndlərinin əhalisindən silah toplanması barədə söhbət gedirdi. Bölgəyə qənim kəsilmiş olan erməni kəndlərinin tərksilah edilməsindən isə söz açılmırdı (43).

İşğal altına alınmış kəndlərin əhalisini Qafqaz İslam Ordusu qoşunları əleyhinə qaldırmaq üçün onların arasında xüsusi təbliğat dəstəsi fəaliyyət göstərirdi. Həmin təbliğat dəstəsinə F.Solntsev rəhbərlik edirdi. Bolşevik-daşnak ünsürlərinin ayaq basdığı kəndlərdə sovet hakimiyyəti elan edilir, orada bolşevik orqanları yaradılırdı. İyun ayının 22-də Kürdəmir ətrafındakı 12 kənddə sovetlər qurulmuş və bu sovetlərin güc dayağı olan qırmızı dəstələr təşkil edilmişdi(44).

Bolşeviklər yaranmış sakitlikdən həm də qoşunların təchizatının təmin edilməsi və onların sıralarının genişləndirilməsi üçün istifadə edirdilər. Sovet Rusiyasından gətirilən silah, sursat və texnika dərhal cəbhə xəttinə yola salınırdı. Qırmızı Ordunun canlı qüvvələrinin bərpası və yeni hissələrin təşkili üçün iyun ayının 24-də Bakı Xalq Komissarları Soveti tərəfindən 1893–1897-ci illərdə anadan olanların çağırışı elan edildi. İyun ayının 21-də Bakıda «Astoriya» mehmanxanasında Qafqaz Qırmızı ordusunun 1-ci Dəmir dəstəsinə könüllülərin yazılmasına başlandı. Bir gün

sonra isə Bakı Soveti İcraiyyə komitəsi yeni yaradılacaq sovet taborlarına könüllülərin cəlb edilməsi üçün bəyanatla çıxış etdi. Bəyanatda bildirilirdi ki, ən intizamlı və bolşevik ideyalarına ən sadiq şəxslərdən təşkil ediləcək Sovet taboru Bakı ətrafında və quberniyasında məhsulun toplanması və şəhərə göndərilməsinin təşkili ilə məşğul olacaqdır (45).

Qaraməryəm ətrafındakı döyüşün nəticələri Qafqaz İslam Ordusu komandanlığında da ciddi təhlil olundu. Vəziyyətlə daha yaxşı tanış olmaq, qüvvələri yenidən qruplaşdırmaq, mövcud imkanları bütünlüklə səfərbər etmək üçün Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Müsəlman korpusu komandanı Əliağa Şıxlinski, 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy cəbhə xəttinə yola düşdülər. Döyüşün səhəri günü onlar Müsüslü yaxınlığında qatardan düşüb İslam Ordusunun ərkani-hərb rəisi Nazim bəylə, habelə 29-cu taborun komandiri ilə görüşüb onların məlumatını dinlədilər. Sonra Nuru paşa və onu müşayiət edən şəxslər faytonla Göyçaya gəldilər. 10-cu Qafqaz alayının komandiri miralay Osman bəyin döyüş barədə geniş məlumatını dinləyən Nuru paşa bu qədər insan tələfatına yol verilməsini, iki ədəd topun itirilməsini çox ciddi bir hadisə kimi qiymətləndirdi (46).

Bununla belə, vəziyyətdən çıxış yolları da arandı. Nuru paşa təkcə hərbçilərlə deyil, yerli əhalinin nümayəndələri ilə də görüşdü, onları türk-Azərbaycan qoşun hissələrinə hərtərəfli yardım göstərməyə çağırdı. Xüsusilə Nuru paşa Göyçay əhalisindən qoşunların, Azərbaycan torpaqlarını erməni-daşnak təcavüzündən qorumağa çalışan döyüşçülərin içməli su ilə təchiz edilməsinin zəruriliyini vurğuladı. Həmin görüş zamanı Nuru paşa Göyçay əhalisinə belə müraciət etdi: «Azərbaycanı və azərbaycanlıları düşməndən qurtarmaq üçün Osmanlı ordusu məmləkətinizə gəldi. Bu orduya canla-başla yardım etməniz lazımdır. Silahla yardım edilmirsə, heç olmasa əsgərə yiyəcək və sularını daşıyınız. Bu şiddətli sıcaqda (istidə–red.) müharibə edən zabit və əsgərlərdən bir çoxları susuzluqdan ölmüşdür» (47).

Nuru paşa eyni zamanda burada olan qüvvələrin möhkəmləndirilməsi üçün də bir sıra cəhdlər göstərdi. Hər şeydən əvvəl məhəllə komandanlıqlarına göstəriş verildi ki, azərbaycanlılardan

ibarət olan silahlı dəstələrin təşkilini və Göyçay ətrafına göndərilməsini sürətləndirsinlər. İyunun 19-da Nuru paşa Ordunun ərkani-hərb rəisinə göndərdiyi teleqrafda bildirirdi ki, Göyçayda olan Ağdaş bölüyünün öz yerinə qaytarılması əvəzinə Ağdaşdan 2 minlik silahlı dəstənin təşkil edilib Göyçaya göndərilməsini 10-cu Qafqaz alayı komandiri Osman bəylə razılaşdırmışdır. Bundan başqa, digər ərazilərdən də silahlı dəstələrin təşkili nəzərdə tutulmuşdu (48).

İyunun 19-da Nuru paşa Göyçaydan Gəncəyə döndü. O, hələ Göyçayda ikən qərara alındı ki, 5-ci Qafqaz diviziyasının komandiri Mürsəl bəyin qərargahı ilə birlikdə Göyçaya gəlməsi buradakı qoşun hissələrinin daha çevik idarə edilməsini təmin edə bilər.

Yolüstü Yevlaxda olarkən Nuru paşa ərkani-hərb rəisi Nazim bəyə başqa bir teleqraf göndərdi. Ordu komandanı ona cəbhədə vəziyyətin düzəldilməsi üçün hansı qüvvələrin gələcəyini xatırladır və bu qüvvələrin fəaliyyətinin nizamlanmasını lazım bilirdi. Onun qeyd etdiyinə görə, yaxın günlərdə cəbhə xəttinə yola düşmək üçün Bərdədən 500 atlı Yevlaxa gələcəkdi. Göyçaydan geri qayıdan Ağdaş bölüyünün əvəzinə Ağdaşdan 2–3 min silahlının gələcəyi gözlənilirdi. Nuru paşa Nazim bəyə bildirirdi ki, silahların toplanması üçün Ağdaşa lazımi göstəriş göndərsin. Eyni zamanda o əlavə edirdi ki, Gəncədən bir Osmanlı süvari bölüyü və 9-cu Qafqaz alayının iki bölüyü dərhal cəbhə xəttinə göndəriləcəkdir. İslam Ordusu komandanı bu teleqrafında bolşevik-daşnak dəstələrinin Qutqaşen istiqamətində 20-dən artıq Azərbaycan kəndini viran qoymasına narahatçılığını bildirir və bu istiqamətdə də lazımi tədbirlərin həyata keçirilməsinin zəruriliyini qeyd edirdi (49).

İyun ayının 20-də 5-ci Qafqaz diviziyasının qərargahı Göyçaya köçdü və burada Göyçay sakini Sadıq paşa və Həzrət bəyin evində yerləşdirildi. Diviziya komandiri elə həmin gün cəbhə xəttindəki vəziyyəti diqqətlə öyrəndi və bolşevik-daşnak hissələrinə güclü zərbə vurmaq üçün Ordu komandanından Qazaxda mövcud olan 800 nəfərlik süvari dəstəsinin, Qazaxda və Gəncə ətrafında toplanması nəzərdə tutulan 4500 nəfərlik süvari dəstəsinin, Göyçay, Ağdaş və Bərdədə toplanılacaq atlıların, Xaldana göndə-

rilmiş olan hərbi qüvvələrin Göyçay ətrafına istiqamətləndirilməsini xahiş etdi. Mürsəl bəy Ordu komandanına cəbhəxana sarıdan vəziyyətin çox gərgin olduğunu çatdırdı və hələlik heç olmasa hər bir silah üçün ən azı 500 güllə hesabı ilə 3000 sandıq güllə ilə 4000 mərmi göndərilməsini xahiş etdi (50).

Nuru paşa cavabında diviziya komandiri Mürsəl bəyin qənaətləri ilə razılaşdığını  və ona kömək üçün Gəncədən 46-cı taborun, 26-cı taborun, İstehkam bölüyünün, Gəncədəki Şnayder və qüdrətli dağ toplarının, 9-cu alayın pulemyot bölüyünün və toplanan könüllülərin göndəriləcəyini bildirdi. Nuru paşa onu da əlavə edirdi ki, bundan başqa imkan yoxdur və arxadan nə vaxt Osmanlı hissələrinin gələcəyini gözləmək vəziyyəti daha da pisləşdirə bilər: «Bizim ümidimiz ancaq diviziyamızın hərəkətinə və onun ən böyük düşməni olan qarşısındakı bolşevik isimli qüvvələrini əzməsinə bağlıdır. Zaman daha çox intizara müsaid deyildir. Geridən təzə qüvvə göndəriləcəyinə aid bir işarə yoxdur. Bu nöqteyi-nəzərdən zabitan və əfradımızın düşü(çiyin–red.) fədakarisinə düşən vəzifə ciddən ağırdır. Məamafih (ancaq–red.) zəruriyül-icradır» (51).

Nuru paşaya görə, bu hücum uğurla başa çatsaydı, Qafqazın bu bölgəsində möhkəm bir mövqe əldə edilmiş olardı. Ona görə də o məsləhət bilirdi ki, bu vəzifənin həm ağırlığı, həm də əhəmiyyəti döyüşçülərə lazımi şəkildə çatdırılsın və bununla da onların psixoloji hazırlığına diqqət yetirilsin. Nuru paşa qeyd edirdi ki, Göyçaya göndərilməsi nəzərdə tutulan qoşun hissələri ayın 23–24-də, könüllü silahlı dəstələr isə ayın 26-da bölgəyə gəlib çıxacaqlar. Buna görə də iyunun 26-da və ya 27-də bolşevik-daşnak qüvvələri üzərinə qəti hücuma başlanması məsləhət görülürdü.

Nuru paşa şübhə etmirdi ki, ilk uğursuzluğa baxmayaraq, türk-Azərbaycan qoşunları mövcud imkanları tam səfərbərliyə almaqla hərbi təşəbbüsü ələ keçirə bilər. Ona görə də o, əlavə köməyin göndərilməsinin zəruriliyini istisna etmədən yeni döyüşə hazırlaşmaq üçün əmr verdi.

Cəbhə xəttində baş verənlər Azərbaycan hökumətini də ciddi narahat edirdi və ona görə də Qafqaz İslam Ordusunun gücləndirilməsi üçün mövcud imkanlardan istifadə edilməsinə cəhd göstərilir-

di. Xarici İşlər naziri İstambulda səfərdə olan M.Ə.Rəsulzadəyə baş verən döyüşlərin nəticələrinin ümidverici olmadığını Osmanlı dövlət nümayəndələrinə çatdırmaqla Azərbaycana əlavə bir diviziyanın göndərilməsinə nail olunmasının və bunun üçün müvafiq işin aparılmasının məqsədəuyğunluğunu vurğulayırdı (52).

Beləliklə, iyun ayının 27-nə qədər cəbhə xəttində hazırlıq işləri aparıldı. Müsüslü ətrafında toplaşan hissə və bölmələr Müsüslü dəstəsi (müfrəzəsi) adlandırıldı və onun komandiri podpolkovnik Həbib bəy Səlimov təyin edildi. Ordu ərkani-hərb rəisi Nazim bəy yenidən Gəncəyə, öz vəzifələrini yerinə yetirməyə qayıtdı. Nəzərdə tutulan qüvvələr cəbhə xəttinə gətirildi. 5-ci Qafqaz diviziyasının arxada qalan hissələri, habelə azərbaycanlılardan təşkil olunacaq könüllü dəstələrin bəzilərinin də iyunun 27-də Göyçay ətrafına gəlib çıxacağından düşmən üzərinə qəti hücumun iyunun 28-də başlanması nəzərdə tutulmuşdu. İmkan daxilində görülməsi mümkün olan təchizat və təminat işləri də iyun ayının 27-dək başa çatdırılmalı idi. Hazırlıq işlərinin gizliliyinə nail olmaq üçün Göyçay qəsəbəsində yaşayan bütün ermənilər diviziya qərargahının qarşısında olan Aleksandr adlı erməni həkiminin evinə cəmləşdirildi və onların üzərinə mühafizə qoyuldu.

İyun ayının 28-nə planlaşdırılan hücumla türk-Azərbaycan qoşunları əvvəlki uğursuzluğun əvəzini çıxmaq və irəli hərəkət etməklə təşəbbüsü əllərinə almaq istəyirdilərsə, növbəti döyüş üçün bolşeviklər qarşılarına daha böyük vəzifələr qoymuşdular. Nəzərdə tutulmuşdu ki, türk-Azərbaycan qoşunlarına əsas zərbə şimal istiqamətindən vurulsun. Qırmızı Ordunun qüvvələri sağ cinahdan Qafqaz İslam Ordusunu adlayaraq dəmir yoluna çıxmaqla, buradakı hissələrə də zərbə vurub Kür çayı boyunca müdafiə mövqeləri tutmağı planlaşdırırdılar. Hərbi və dəniz işləri üzrə Bakı komissarının müavini B.Şeboldayevin fikrincə, Kür üzərindəki körpüyə nəzarət etməklə möhkəm müdafiə xətti yaratmaq olardı. Çünki Kür çayı boyunca bataqlıq sahələrdən keçə bilməyən türk-Azərbaycan qoşunlarının qarşısını burada etibarlı şəkildə kəsmək olardı. Bununla bərabər, B.Şeboldayev gizlətmirdi ki, türk-Azərbaycan qoşunlarının qarşısını qəti şəkildə almaq üçün lazımi hazırlıq işləri aparılmalı və arxada da müdafiə xətləri

yaradılmalıdır. Bu müdafiə xətlərinin biri Hacıqabul–Ağsu arasındakı dağlardan keçməli, o biri isə Bakı şəhərini əhatə edən hündürlüklər boyunca qurulmalı idi. Hər iki xətdə yenicə yaradılmış olan mühəndis-tikinti hissələri istehkam işləri aparırdılar (53).

Qafqaz İslam Ordusu hissələrinin döyüşə hazırlıq üçün həyata keçirdiyi tədbirlər iyun ayının 26-da bolşevik-daşnak qüvvələrinin kəşfiyyatçılarına məlum oldu. Qırmızı Ordu komandanlığında bu məlumat alınan kimi dərhal hücuma keçmək, türk-Azərbaycan qoşun hissələrinin hücumunu qabaqlamaq və bununla da hərbi təşəbbüsü yenidən əldə saxlamaq qərara alındı (54).

General Qavril Korqanov Qaraməryəm ətrafında daşnak-bolşevik qüvvələrinin əldə etdiyi uğurdan sonra təxminən 10 günlük fasilə yaranmasını və qırmızıların öz uğurlarına ara verməsini onların əlavə kömək gözləməsi ilə əlaqələndirirdi. Onun yazdığına görə, Qafqaz İslam Ordusu qüvvələrinin güclü əks-hücuma hazırlaşmaları barədə daşnak-bolşevik qüvvələrində məlumat əldə edilmişdi və ona görə də Qafqaz İslam Ordusu qüvvələrini önləmək üçün hücuma ilkin olaraq başlamaq barədə qərar qəbul edildi (55).

Həmin hücum iyun ayının 27-də başladı. Səhər saat 6-da Qırmızı Ordunun üç taboru Göyçay-Qaraməryəm şossesi boyunca və bu şossenin şimal tərəfindən, iki bölük piyada qüvvəsi isə daha şimaldan 10-cu Qafqaz alayının sol cinahına hücuma keçdi. 10-cu Qafqaz alayı, əsasən, şosse yolun şimal tərəfində döyüş mövqeləri tutmuşdusa, cəbhəni gücləndirmək üçün bura göndərilmiş olan 13-cü alay isə şosse yolu boyunca, Göyçayla Bığır kəndi arasında mövqe tutmuşdu. Köməyə gəlmiş olan süvari və piyada milli könüllü qüvvələri isə Ləkiçıplaq və Qaraxızır məntəqələrində idilər. Bolşevik-daşnak qüvvələri Göyçayın şimalından hücuma keçib Qafqaz İslam Ordusu hissələrini qəfildən mühasirəyə almaq və zərbə endirmək niyyəti aydın olanda azərbaycanlı könüllü qüvvələrə Veysəlli istiqamətində hücuma başlamaq, düşmənin cinahlarına və arxasına zərbə vurmaq və mümkün olduğu təqdirdə Ağsu–Qaraməryəm yolunu kəsərək düşmənin geri çəkilməsinə mane olmaq əmri verildi. Saat 10-a yaxın bolşevik-daşnak qoşunlarının 10-cu alayın sol cinahına keçmək təhlükəsi güclənəndə ehtiyatda saxlanmış olan 25-ci tabor döyüşə qoşuldu. Eyni zamanda

13-cü alaydan alınan raportdan məlum oldu ki, bolşevik-daşnak qüvvələri bu alayın cinahlarına da zərbə vurmaq niyyətindədir. 500 nəfərlik bir qüvvə Bığır kəndinə doğru irəliləməkdə idi. 150 nəfərlik bir qüvvə isə artıq Əlikənd məntəqəsinə daxil olmuşdu. Belə olanda 5-ci diviziya komandanlığı tərəfindən Azərbaycan dəstələrinə düşmənin bu istiqamətdə qarşısının alınması tapşırıldı. Göyçayın şimalından bir bölük qədər olan süvari dəstəsi və Göyçayın özündə olan Ağdaş döyüşçüləri 13-cü alayın sağ cinahına göndərildi. Bunlardan başqa Müsüslü dəstəsindən də 13-cü alayın sağ cinahına kömək göndərildi. Bu köməyin də əsasını azərbaycanlı qüvvələr təşkil edirdi. 119 nəfərlik süvari və 188 nəfərlik piyada qüvvə 13-cü alay cəbhəsində döyüşə girməli və bu istiqamətdə düşmən qüvvələrinə zərbə endirməli idilər (56).

Müsüslü dəstəsindən gələn köməyin qarşısını almaq üçün bolşevik-daşnak qoşunları topları işə saldılar və bununla da süvarilərin hərəkətini ləngitməyə nail oldular. Təxminən saat 15-də Bığır istiqamətində irəliləyən bolşevik-daşnak qoşunlarının hərəkəti dayandırıldı. Bununla da Qırmızı Ordu hissələrinin fəallığının qarşısı alındı və onların qəfildən Qafqaz İslam Ordusu hissələrinə zərbə vurmaq niyyəti boşa çıxdı. 10-cu Qafqaz alayı cəbhəsində düşmən qüvvələrinin fəallığının qarşısı alındı və burada əks-hücum üçün yaxşı zəmin yaradıldı. 5-ci Qafqaz diviziyası komandanlığı bu imkandan istifadə edərək saat 18-də hər iki alaya əks-hücum əmri verdi. 10-cu alay əks-hücuma keçib düşmən qüvvələrini 3 kilometr geriyə atdı. Lakin hava qaralmaq üzrə olduğu və qüvvələrin təhlükəsizliyinin təmin edilməsi üçün alaya öz əvvəlki mövqelərinə qayıtmaq əmri verildi. Müsüslü dəstəsindən köməyə göndərilmiş olan qüvvələr də bu döyüşdə fəal iştirak etdilər və Veysəlli ilə Əlikəndi tam nəzarət altına aldılar (57).

Beləliklə, iyunun 27-də qəfildən başlanmış olan bu döyüşün nəticələrinin Qafqaz İslam Ordusu üçün böyük hərbi-psixoloji əhəmiyyəti var idi. Döyüşün nəticələri göstərdi ki, bolşevik-daşnak qüvvələri heç də məğlubedilməz bir qüvvə deyil və düzgün qurulmuş döyüşlə onların bütün niyyətlərini alt-üst etmək olar. Görünür, bir neçə hərbi uğurdan sonra çox ciddi müqavimətlə rastlaşdıqlarını Qırmızı Ordu rəhbərliyi də hiss etmişdi. Çünki

əvvəlki döyüşlər barədə Bakıya ətraflı məlumat verildiyi halda bu döyüşün nəticəsi barədə Q.Korqanov ayın 28-də cəmi bir cümləlik məlumatla kifayətləndi: «Göyçay qarşısındakı cəbhədə iyunun 27-dən döyüşlər davam etdirilir. Düşmən güclü müqavimət göstərir» (58).

İyun ayının 28-də cəbhədə nisbi sakitlik keçdi. 5-ci Qafqaz diviziyasının komandanlığı qazanılmış ilk uğurları genişləndirməyi və vaxtı uzatmadan bolşevik-daşnak qüvvələri üzərinə hücuma keçməyi qərara aldı. Ayın 29-da planlaşdırılan bu hücumda yenə 10-cu və 13-cü Qafqaz alayları, Müsüslü dəstəsindən gəlmiş süvari dəstə, habelə topçular iştirak etməli idilər. Süvari dəstəsi düşmənin sol cinahına və arxasına zərbə vurmaq tapşırığı almışdı. Bununla onlar bolşevik-daşnak qoşunlarını vəlvələyə salmalı və onların geri çəkilməsinə mane olmalı idilər (59).

10-cu və 13-cü alaylar hücumun uğuru üçün cinah döyüşlərinə xüsusi diqqət yetirməli idilər. Bu alaylar düşmənin əhatə edilməsi təhlükəsini yaratmaqla onları geri çəkilməyə məcbur etməli idilər. Kürdəmir ətrafında olan Qırmızı Ordu hissələrinin Göyçay istiqamətinə kömək göndərmələrinin qarşısını almaq üçün Müsüslü dəstəsi də döyüşə girməli və beləliklə, qarşısındakı düşmənin diqqətini yayındırmalı idi.

İyun ayının 29-da səhər tezdən Qafqaz İslam Ordusu hissələrinin daha böyük uğurla nəticələnən döyüşü başladı. Döyüşə qoşulan hissə və bölmələrin mübarizlik əzmi, qətiyyəti və yüksək əhval-ruhiyyəsi nəticəsində elə ilk anlardan təşəbbüs ələ alındı. Şosse yolu boyunca hərəkət edən 13-cü alayın sol cinahındakı döyüşçülərin əzmkarlığı ilə onların qarşısında olan düşmən Şərqə doğru geri çəkilmək məcburiyyətində qaldı. Bu alayın önündə olan bolşevik-daşnak qüvvələri təzyiqə davam gətirməyib mövqelərini tərk etdilər. 10-cu alayın döyüşçüləri də düşmənə heç bir imkan vermədi və cəbhəboyu başlanan uğurlu hücum onlar tərəfindən də davam etdirildi. Azərbaycanlı süvarilərin Veysəlli kəndi istiqamətindən çox böyük sürətlə döyüşə qoşulmaları isə hətta türk zabitlərinin özlərini də heyrətə salmışdı (60).

Döyüş hər iki tərəf üçün ağır hava şəraitində keçirdi. Hədsiz yüksək olan istilər hərbçilərin susuzluqdan əziyyət çəkməsinə

səbəb olurdu. Türk-Azərbaycan qoşunları bu çətinliyə daha yaxşı dözüm göstərdilər və nəticədə döyüşlərin getdiyi vaxt ərzində ilk dəfə belə nəzərə çarpacaq üstünlük əldə edildi.

Hərbi təşəbbüs ələ alınsa da, 5-ci diviziya komandanlığı döyüşün gedişini çox diqqətlə izləyirdi. Qazanılan uğurların daha da genişləndirilməsi və möhkəmləndirilməsi üçün hələ döyüş başa çatmamış növbəti bir əmr hazırlanaraq hissə və bölmələrin komandirlərinə çatdırıldı. Həmin əmrdə bildirilirdi ki, düşmən qüvvələr geri çəkilsə də, bir çox mühüm mövqeləri əllərində saxlamaqdadır. Ona görə də tələb olunurdu ki, ən yaxın vaxtda bu mövqelər də nəzarət altına alınsın. Bu məqsədlə 10-cu alay Sultankənd istiqamətindəki təpələrdə qalan düşmən qüvvələrini, 13-cü alay Bığır bağlarının şərqindəki təpələrdə olan düşmənləri məhv etməli, milli süvari qüvvələr düşmənin cinahlarına və arxasına istiqamətlənmiş hücumunu, Müsüslü dəstəsi isə Kürdəmir ətrafındakı bolşevik-daşnak qüvvələrinin diqqətinin yayındırılmasını davam etdirməli idilər (61).

Döyüşlər axşam 18.15-dək davam etdi və Qırmızı Ordu hissələrinin məğlubiyyəti ilə başa çatdı. Döyüşlərin sonunda Qaraməryəmin qərb hissəsi tamamilə, şərq hissəsi isə qismən Qafqaz İslam Ordusu hissələrinin nəzarəti altına keçdi. Uğursuzluğa düçar olduqlarını Qırmızı Ordu komandirləri etiraf etmək məcburiyyətində qaldılar. Bakıya göndərilən raportda deyilirdi ki, ikigünlük qızğın döyüşlərdən sonra düşmən iyunun 29-u səhəri Göyçay istiqamətində bizim qüvvələrimizi Ağsuya doğru geri çəkilməyə məcbur etdi.

Ancaq Qırmızı Ordu rəhbərləri görünür, Qafqaz İslam Ordusu hissələrinin bu uğurunu heç də məntiqi saymırdılar. Onlar cəbhədə vəziyyəti yenidən öz xeyirlərinə dəyişəcəklərinə əmin idilər. Buna görə də səhərisi günü, yəni iyun ayının 30-da 1000 nəfərlik dəstə, iki ədəd top və iki ədəd pulemyotla saat 6.15-də Pezəvənd kəndi istiqamətindən gözlənilmədən Göyçay qəsəbəsi üzərinə hücuma keçdilər. Bolşevik-daşnak qüvvələrinə erməni Əmirov rəhbərlik edirdi. Bu hücum elə qəfil və sürətlə baş verdi ki, qısa vaxt ərzində bolşevik-daşnak qoşunları Göyçayın şimal məhəllələrini işğal edə bildilər(62).

Çox güman ki, 5-ci Qafqaz diviziyasının komandanlığı Göyçaydan xeyli uzağa atılmış düşmən qüvvələrinin belə bir manevr edəcəklərini, bir gün əvvəl aldıqları zərbədən sonra sürətlə hücuma keçəcəklərini güman etmirdi. Göyçayın həndəvərində bu məntəqənin müdafiəsi üçün heç bir qüvvə saxlanılmamışdı. Bütün qüvvələr düşmənlə təmas xəttində idi. Bolşevik-daşnak qüvvələri bunu vaxtında və dəqiqliklə qiymətləndirə bilmiş və bütün gecəni cinahdakı dağlıq ərazi ilə irəliləyərək səhər tezdən Göyçaya hücum etmişdilər. Bu çox incə düşünülmüş bir plan idi. Onun həyata keçirilməsinə kifayət qədər ardıcıllıq və hərbi duyum nümayiş etdirilsəydi, Göyçay qəsəbəsi işğal edilməklə Qafqaz İslam Ordusu qoşunları da mühasirəyə düşə bilərdilər. Ancaq türk-Azərbaycan qoşunlarının, onlara rəhbərlik edən komandirlərin düzgün qərarları, mübarizliyi və əzmkarlığı bir daha göstərdi ki, cəbhədə hərbi təşəbbüsün ələ keçirilməsi heç də təsadüfi deyildir.

Qəfil hücum və şimal məhəllələrinin işğal edilməsi Göyçay əhalisi içərisində böyük bir panika yaratdı. Əhali var-yoxunu ataraq Ucar və Ağdaş istiqamətinə qaçır və heç olmasa canlarını qurtarmağa çalışırdılar.

5-ci Qafqaz diviziyası komandiri Mürsəl bəy bolşevik-daşnak qüvvələrinin qarşısını saxlamaq üçün gecə ikən Qazaxdan gəlib çıxmış Azərbaycan süvarilərinə irəli getmək əmri verdi. Sonra isə Qaraməryəm ətrafındakı qüvvələrlə əlaqə saxladı, oradan Göyçaya kömək göndərilməsini tələb etdi. Cəbhə xəttindən diviziya ehtiyatı kimi saxlanılan 25-ci taborun və bir rus səhra top taqımının dərhal Göyçaya göndərilməsinə əmr verdi. Eyni zamanda Ağdaş mövqe komandanı Ehsan bəyə göstəriş verildi ki, orada toplanan süvarilər, piyadalar və məntəqədəki toplar dərhal Göyçaya göndərilsin. Diviziya komandiri yaranan vəziyyət barədə Nuru paşaya da məlumat verdi və ondan kömək istədi (63).

Göyçayda vəziyyətin mürəkkəb olaraq qaldığı bir vaxtda Qazaxdan gəlmiş olan süvarilərin Əmirovun qüvvələrinin müqavimətinə davam gətirməyərək dağıldığı barədə məlumat alındı. Çox güman ki, gecə ikən Göyçaya çatan və kifayət qədər istirahət edə bilməyən Qazax süvariləri top və pulemyot atəşləri səngimək bilməyən bolşevik-daşnak qüvvələrinin çoxsaylı qoşununun qarşı-

sını ala bilməyərək geri çəkilməli olmuşdu.




Ancaq iyulun 2-də Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında Qazax süvarilərinin mübarizliyini və əzmkarlığını təqdir edirdi(64). Ola bilsin ki, Qazax süvariləri sonradan 5-ci diviziyanın bölmələri və Göyçaya gəlmiş Azərbaycan könüllüləri ilə birlikdə yenidən döyüşə girmiş və nəyə qadir olduqlarını nümayiş etdirmişdilər.

5-ci Qafqaz diviziyası komandanının öhdəsində yalnız qərargah mühafizə taqımı qalmışdı. Bu taqım da hücum olan istiqamətə göndərildi. Diviziya qərargahı isə qəsəbəni tərk etməli oldu. Qaraməryəmə doğru irəliləyərkən diviziya qərargahı köməyə

tələsən 25-ci taborla üzbəüz gəldi. Mürsəl bəy elə buradaca onların vəzifəsini bir də dəqiqləşdirdi, düşmən qüvvələrinin hansı yüksəkliklərdə mövqe tutduğunu nişan verdi (65).

Göyçayda vəziyyətin mürəkkəbləşməsi xəbərini alan kimi Nuru paşa da bir sıra tədbirlərə əl atdı. İlk növbədə, Ordunun ərkani-hərb rəisinə yenidən bölgəyə getmək və vəziyyəti nəzarət altına almaq tapşırığı verildi. Nazim bəy dərhal 300 süvari ilə Yevlaxa gəldi. Buradan Nuxadakı miralay Yusif bəyə göstəriş verdi ki, orada toplamış olduğu çoxsaylı dəstəsi ilə Qumlax-Padar istiqamətinə hərəkət etsin. Yusif bəy türk əsiri idi. O, Nuxaya gələrək burada müdafiə dəstələrinin təşkilinə öz köməyini göstərirdi. Sonra Gəncə ətrafında toplaşan könüllülərə də Göyçaya doğru hərəkət etmək tapşırıldı. Bu qüvvələrin hamısı azərbaycanlılar arasından toplanmış könüllülər dəstələri idi (66).

Nazim bəy Ləki stansiyasına gələrək Göyçayla Ucar ətrafındakı qüvvələrlə, habelə Ordu komandanlığı ilə əlaqə yaratdı, vəziyyət və görülməli olan işlər barədə Nuru paşaya məlumat verdi. O, Göyçaydakı vəziyyətin mürəkkəbliyi ilə əlaqədar Bərgüşad stansiyasına yeni qüvvələr göndərilməsini lazım bilirdi. Ağdaşda yerli əhalidən toplanan qüvvələrin, habelə Gəncədən Ucara gətirilmiş olan könüllü dəstələrin Göyçaya yola salınmasını təşkil edəndən sonra Nazim bəy Nuru paşaya ikinci bir raport göndərdi. Həmin raportda Nazim bəy Ağdaşdan faytonlar ilə piyada və ayrıca olaraq süvari qüvvələrinin Göyçay istiqamətinə sövq olunduğunu, yüzbaşı Həqqi əfəndinin komandası altındakı atlıların da Ucardan (Ucar stansiyasında atlıların boşaldılması münasib olduğundan qatar orada dayandırılmışdı–M.S.) Göyçaya hərəkət etmək üzrə bulunduğunu, Göyçayın şimalında bulunan düşmən toplarının atəşə davam etdiyini, 25-ci taborun müxabirəyə (rabitəyə–red.) girdiyini, Ləki və Ağdaş yolu ilə Göyçaya hərəkət edəcəyini bildirdi (67).

İstər Qafqaz İslam Ordusu komandanlığının, istərsə də 5-ci Qafqaz diviziyası komandanlığının göstərdiyi operativlik və çeviklik, Göyçayın müdafiəsi üçün zəruri olan qüvvələrin vaxtında bura gətirilməsi, türk-Azərbaycan qoşun hissələrinin mübarizliyi Əmirovun rəhbərliyi altında olan bolşevik-daşnak qüvvələrinin

göstərdiyi bütün cəhdləri nəticəsiz qoydu. Cəbhə xəttindən gətirilmiş 25-ci tabor və topçu taqımı, Ağdaşdan gəlmiş milli süvari və piyada qüvvələri və Nazim bəylə Gəncədən gəlmiş süvarilər birlikdə Göyçaya girmiş olan qüvvələrə ağır zərbə vurub onları geri qaçmağa məcbur etdilər. Vəziyyətin daha da mürəkkəbləşə biləcəyindən ehtiyatlanan 5-ci diviziya komandanlığı cəbhə xəttində olan 10-cu alaya da Göyçaya doğru irəliləmək əmri verdi. Lakin bu hissə Veysəlliyə çatana kimi Göyçay artıq düşməndən təmizlənmişdi. Ona görə də 10-cu alaya əmr verildi ki, yenidən Qaraməryəmə qayıtsın. Göyçay ətrafındakı döyüşdə isə düşmən sadəcə olaraq geriyə atılmadı, eyni zamanda onun iki topu və iki pulemyotu da ələ keçirildi(68).

Bolşevik-daşnak qüvvələri Göyçaydan çıxarılsa da, onlar qəsəbədən 5–6 kilometrlik bir məsafədə qərar tutmuşdular. Səhərisi gün, yəni iyulun 1-də bu qüvvələr yenidən hərəkətə gələrək irəliləməyə cəhd göstərdilər. 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy bu hücumda bolşevik-daşnak qüvvələrinin 25-ci taborun mövqelərini atəşə tutduğunu, ancaq heç bir nəticə əldə edə bilmədiyini yazırdı (69). Sovet tarixçiləri, habelə cəbhədən verilən məlumatlar Əmirovun dəstəsinin yenidən Göyçaya girdiyini, lakin burada möhkəmlənə bilmədiyini bildirirlər (70). Cəbhə xəttində olan Q.Korqanovun raportuna əsaslanan S.Şaumyan iyul ayının 2-də Moskvaya V.Leninə və Saritsın şəhərində olan İ.Stalinə göndərdiyi teleqramda iyunun 27-dən başlanan döyüşləri belə təsvir edirdi : «Göyçay ətrafında iyunun 27-dən 30-dək olan dördgünlük döyüşlər başa çatmışdır. Mühasirə üçün göndərilən dəstə Göyçayı bombardman etmişdir. Qoşunlar düşmənin arxasına keçmişdir. Bir sıra əlverişsiz şərtlərə görə cəbhəboyu mövqe tutan qoşunlarımız Qaraməryəmə geri çəkilmişdir. Düşmən əhatə edilib darmadağın olunmaq təhlükəsi altından çıxaraq öz növbəsində bizi mühasirə etməyə başladı. Yaranmış vəziyyətə görə və qoşunları gələcək döyüşlər üçün qorumaq niyyəti ilə sağ kolonna (qol) geri çəkilməli oldu. Süngü həmlələri ilə müşayiət olunan qanlı döyüşlər keçdi. Dəhşətli istilərdən və su tapmaq imkanı olmadığından əsgərlər huşsuzluq dərəcəsinə çatmışdılar. Ancaq onlar öz mövqelərini igidliklə qoru-

dular, hücuma atıldılar. Lakin sol cinahdakı bir bölmə düşmənin çoxsaylı süvarisinin mühasirəsi altına düşməkdən qorxub geri çəkildi. Bu hal bütün cəbhəyə təsir göstərdi. Hər iki tərəfdən itki çoxdur. Düşmən sıralarında nizami türk hissələri var. Topçuların və pulemyotçuların komandir heyətinin əksəriyyəti türklərdir. 6 ədəd zirehli avtomobil döyüşün sonuna gəlib çatdı. Onlardan biri döyüşdə iştirak edə bildi. Düşmənin arxasına keçdi. Bu zirehli avtomobil öz vəzifəsini məharətlə yerinə yetirdi və bəzi hissələri çətin vəziyyətdən xilas etdi, habelə arxadakı hissələrin geri çəkilməsini asanlaşdırdı. İyulun 1-də axşam saat 5.15-də Kürdəmirdən teleqram alınmışdır. Orada bildirilir ki, bizim cəbhədəki vəziyyətimiz bərpa olunmuşdur. Yenicə məlumat alınmışdır ki, Göyçay Əmirovun dəstəsi tərəfindən tutulmuşdur» (71).

5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdüdən başqa mövcud olan arxiv sənədləri də Əmirovun dəstəsinin təkrarən Göyçayı tutmasını təsdiqləmirlər. Ola bilsin ki, Əmirov qarşısına belə bir məqsəd qoymuş və onun həyata keçirilməsinə çalışmışdı. Ancaq təkrar uğursuzluğunu gizlətmək üçün Bakı Sovetinin Kürdəmirdə olan hərbi naziri Q.Korqanova Göyçaya girdiyi, lakin sonra çoxsaylı türk qoşunlarının təzyiqi ilə geri çəkilməli olduğunu bildirmişdi. İyul ayının 1-də Ağdaş və həvalisinin komandanının Nuru paşaya göndərdiyi raportda ermənilər tərəfindən hücumun başlandığını qeyd etsə də, Göyçayın düşmən əlində olmadığını təsdiqləyirdi: «Düşmənin səhər Göyçay üzərinə hücumunu təhlükəli görərək bir süvari bölüyü və bir piyada dəstəsi və kifayət qədər camaatla həmən (dərhal–red.) Göyçayın qərbindəki Ərəbkəndinə yürütdüm. Düşmən şimala atılmışdır. Dəstələr şimala doğru hərəkət edərək düşmənin Göyçaya həmləsinin qarşısını almışdır. Dəstə Nazim bəylədir. Göyçay əhalisi Göyçayı təxliyə etmişdir. Düşmən Göyçayı topa tutsa da, dağıntı çox deyil» (72).

Nazim bəy isə iyulun 1-də Nuru paşaya göndərdiyi raportunda məlumat verirdi ki, düşmən Göyçayın 5–6 kilometrliyindədir. Çox güman ki, Əmirovun dəstəsinin hücumu tez də dəf edilmişdi. Çünki Nazim bəy raportunda qeyd edirdi ki, bu gün intizar vəziyyətidir. Əlavə olaraq o, silaha və cəbbəxanaya böyük ehtiyac olduğunu da Nuru paşanın diqqətinə çatdırırdı (73).

Beləliklə, Göyçay və Qaraməryəm ətrafında iyunun 27–30-u arasında baş verən döyüşlər Qafqaz Qırmızı ordusunun məğlubiyyəti ilə başa çatdı və bu hissələr Ağsuya tərəf sıxışdırıldı. Həmin döyüşlər cəbhədəki dönüş nöqtəsinin başlanğıcını qoydu. Qafqaz Qırmızı ordusunun hücumları dayandırıldı və onlar dərin müdafiəyə çəkildilər. Bolşevik qüvvələri bu döyüşdən sonra bir daha hərbi təşəbbüsü əsaslı şəkildə ələ ala bilmədilər. Döyüşlərə uğursuzluqla başlayan Qafqaz İslam Ordusu hissələri, habelə hərbi əməliyyatlara qoşulan Azərbaycan könüllüləri Göyçay ətrafındakı döyüşdən sonra müdafiə vəziyyətindən çıxıb hücuma keçdilər. Sovet tarixşünaslığında Qafqaz İslam Ordusu hissələrinin Göyçay ətrafındakı uğuru onların say üstünlüyü ilə izah edilsə də, döyüşdə hansı hissələrin və qüvvələrin iştirak etməsi, onların say tərkibinin nəzərdən keçirilməsi Göyçay ətrafındakı döyüşlərdə Qafqaz İslam Ordusu hissələrinin say üstünlüyünə malik olmadığını sübut edir. Əksinə, bu döyüşdə bolşevik qüvvələri üstünlüyə malik idilər və həmin üstünlüyü azaltmaq üçün təcili şəkildə Azərbaycan könüllülərindən dəstələr təşkil edilir və cəbhəyə göndərilirdi.

General Qavril Korqanovun müxtəsər təsvirinə görə, daşnak-bolşevik qüvvələri hər iki cinahdan sıxışdırıldığını görəndə Qaraməryəmdən Ağsuya doğru geri çəkilməli oldu. Onun yazdığına görə, iyunun 10-dan başlayaraq iyulun 1-nə kimi daşnak-bolşevik qüvvələrindən (general Q.Korqanovun təbirincə isə erməni qüvvələri – M.S.) 7 zabit və 265 əsgər öldürüldü, 16 zabit və 534 əsgər yaralandı (73a).

Göyçay ətrafındakı döyüşlərin nəticələrinin səbəbi hər şeydən əvvəl tərəflərin qarşılarına qoyduqları vəzifələrin xarakteri ilə bağlı idi. Cəbhə xəttinin bir tərəfində Azərbaycanı bolşevik-daşnak hakimiyyəti altına gətirmək istəyən və əsasən, qeyri-azərbaycanlılardan təşkil edilən bir qüvvə dayanırdısa, digər tərəfində də Azərbaycanı bolşevik-daşnak talanlarından, Bakı, Şamaxı, Quba qırğınlarının təkrarlanmasından qorumağa çalışan Azərbaycanın milli qüvvələri və onların qardaş çağırışına gəlmiş olan türk hərbi qüvvələri dayanırdılar. Birincilər Azərbaycan əhalisinə divan tuturdusa, ikincilər öz yurddaşlarını və qardaşlarını bu faciələrdən qorumağa çalışırdı. Buna görə Azərbaycan əhalisi də

türk-Azərbaycan qüvvələri ətrafında səfərbər oldular və bütün xalqın onu qoruyan qüvvələrlə yekdilliyi güclü bir sədd kimi bolşevik-daşnak qüvvələrinin hücumlarının qarşısını aldı.

O biri tərəfdən də döyüşlərin gedişi göstərdi ki, Qafqaz İslam Ordusu hissələri hərbi keyfiyyətləri baxımından heç də bolşevik qüvvələrindən geri qalmır. Döyüşün təşkilinin, idarə edilməsinin əsaslandırılması, operativliyi, vəziyyətə uyğun olaraq qarşıda dayanan vəzifələrin vaxtında dəqiqləşdirilməsi, müdafiə ilə hücumun düzgün əlaqələndirilməsi, atəş vasitələrindən səmərəli istifadə edilməsi əldə edilən uğurun əsas səbəblərindən idi. Döyüşlərdə Azərbaycan qüvvələri də çox fəal iştirak edirdilər. Bu sahədə onlar ciddi təcrübəyə malik olmasalar da, bütövlükdə milli qüvvələrdə düşmənə qarşı bir qətiyyət və əzmkarlıq mövcud idi.

### *3. Salyan döyüşü*

Göyçay ətrafında döyüşlər cərəyan etdiyi vaxt Kür çayı boyunca, Salyan yaxınlığında da bolşevik-daşnak qoşunları ilə türk-Azərbaycan qoşun bölmələri arasında döyüş baş verdi. Əsas qüvvələrin Göyçay ətrafında toplaşdığı zaman bu istiqamətdə yeni cəbhə açılması heç də təsadüfi deyildi. Hər iki tərəf bu bölgəni nəzarət altında saxlamağa böyük əhəmiyyət verirdi. Bu, bir tərəfdən Muğanın bol taxıl ehtiyatlarından bəhrələnmək istəyindən irəli gəlirdi. Qarşıdan gələn qışda aclıq çəkməmək üçün hər iki tərəf Muğanın taxıl ehtiyatlarını öz nəzarəti altına gətirmək istəyirdi.

Digər tərəfdən Kürboyu ərazilərin nəzarət altında saxlanması təhlükəsizlik baxımından da Qafqaz İslam Ordusu üçün zəruri idi. Ən başlıcası isə mühüm strateji əhəmiyyətə malik olan Yevlax körpüsünün təhlükəsizliyinin tamamilə təmin edilməsi Cavad qəzasında Kür çayı boyu məntəqələrin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı idi. Bakı bolşevikləri, habelə bolşevik-daşnak qoşunlarının rəhbərləri Gəncəyə doğru başladıqları hücumda Yevlaxa çatıb Kür çayı üzərindəki körpünü ələ keçirə bilmədikdə başqa vasitələrə əl atdılar. Onlar ixtiyarında olan gəmiləri Xəzər dənizindən Kür çayına çıxararaq bu yolla Yevlaxa xüsusi dəstələr

göndərmək və bu dəstənin vasitəsilə Yevlax körpüsünü partlatmaq istəyirdilər. Qafqaz İslam Ordusu komandanlığı bundan xəbər tutub lazımi təhlükəsizlik tədbirlərinə əl atdı. Çar ordusunda xidmət keçmiş mayor Nazim Ramazanovun komandirliyi altında Cavadda bir dəstə təşkil olundu. Dəstəyə 10-cu Qafqaz piyada alayının 28-ci taborundan bir bölük, 30-cu taborundan bir pulemyot taqımı və iki rus topu verildi. Azərbaycan süvarilərindən ibarət 140 nəfərlik bir dəstə də N.Ramazanovun rəhbərliyi altında idi. Bu dəstə artıq iyunun 16-da Cavad qəzasında öz mövqelərini tutmuşdu (74).

Dəstə bölgədə asayişin təmin edilməsinə çalışmaqla Kür çayında hərəkətin təhlükəsizliyini təmin etməli və bolşevik gəmilərinin Yevlaxa doğru hərəkətinə yol verməməli idi.

Taxıla olan ehtiyac Bakı komissarlarını da bu bölgəyə hakim olmağa sövq edirdi. Taxıl ehtiyatlarının qorunması və tədarükü ilə məşğul olacaq Sovet dəstəsinin təşkili başa çatan kimi dərhal bölgəyə göndərildi. Bu dəstə iyun ayının 26-da Qarabucaq kəndinə gəldi. Səhərisi gün isə, yəni iyun ayının 27-də Sovet dəstəsinin şəxsi heyəti Kür çayının iki sahili boyunca irəliyə hərəkətə başladı. Surra kəndinə iki verst qalmış N.Ramazanovun dəstəsinin mühafizə postlarında dayanmış döyüşçüləri Sovet dəstəsini atəşə tutdular. Tərəflər arasında ikisaatlıq bir döyüş baş verdi. Ona görə də N.Ramazanovun dəstəsinin buradakı bölmələri bolşevik qüvvələrinin təzyiqinə davam gətirə bilməyərək geri çəkildilər.

Ertəsi gün səhər saat 4-də Surra ilə Qarabucaq kəndləri arasında döyüşlər yenidən qızışdı. Kür çayında dayanan hərbi gəmilərin aramsız atəşləri türk-Azərbaycan qoşunlarını öz mövqelərini bir daha tərk etməyə məcbur etdi. Onlar geri çəkilərkən Ərəbqardaşbəyli kəndi yaxınlığında yeni mövqeləri tutub Sovet dəstəsinin qarşısını kəsməyə cəhd göstərdilər. Lakin bu cəhd də bir nəticə vermədi (75).

Burada döyüşən Sovet dəstəsinin tərkibində 2 mindən çox piyada, 12 pulemyot və 6 ədəd top var idi. Dəstə eyni zamanda Kür çayında üzən iki hərbi gəmi və bir nəqliyyat gəmisi tərəfindən müşayiət olunurdu. Dəstənin tərkibində 200 rus, 300 iranlı, qalanların isə erməni olması güman edilirdi. Ancaq Muğanın bol-

şevik komissarı bu qədər qüvvə ilə də kifayətlənmir, bölgənin rus əhalisi arasında səfərbərlik keçirərək qüvvələrin sayını 6 minə çatdırmağı planlaşdırırdı. Bu qədər qüvvənin silahlandırılması üçün zəruri olan silah və sursatı isə komissar Bakıdan istəyirdi (76).

Surra–Qarabucaq kəndləri ətrafında baş verən döyüşün uğursuz nəticəsi barədə xəbər alınan kimi Cavad dəstəsinin komandiri bolşevik qüvvələrinə qarşı bir piyada bölüyü, bir pulemyot taqımı və bir dağ topundan ibarət qrup göndərdi. Bu qrup Salyan ətrafında döyüşən türk-Azərbaycan bölmələri ilə birləşərək bolşevik qüvvələrinə qarşı döyüşə başladı. İyul ayının 2-də bolşevik qüvvələri türk-Azərbaycan qoşun bölmələrinin hücumunu dəf edə bilməyərək Bakıya doğru geri çəkildilər. Türk mənbələrinə görə, bu döyüşdə bolşevik qüvvələri 600 nəfərədək itki verdilər (77).

Salyan ətrafında olduqları vaxt Sovet dəstəsinin əsasını təşkil edən ermənilər özbaşınalıqlar edir, dinc əhaliyə divan tuturdular. Məsələn, buradakı 5-ci Qırmızı taborun birinci bölüyünün komandiri Danilov əhalini güllələyə basmış, kəndləri talan etmişdi. O, Cavad qəzasının Xıllı kəndinin əhalisi üzərinə 150 min rubl təzminat qoymuş və kəndlilərdən zorla 30 min rubl birdəfəlik təzminat yığmışdı. Türk-Azərbaycan qüvvələrinin uğurlu hücumundan sonra isə erməni Danilov talanla topladığı sərvəti də götürərək Bakıya qaçdı (78).

### *4. Biçeraxov dəstəsinin Qafqaz İslam Ordusuna qarşı mübarizəyə cəlb edilməsi*

Göyçay ətrafındakı döyüşlərdən sonra tərəflər qarşıda dayanan vəzifələrə nail olmaq üçün verilən itkiləri bərpa etmək, qarşı tərəflə müqayisədə daha böyük qüvvə üstünlüyü yaratmaq üzərində düşünürdülər. Bolşevik-daşnak qoşunları hərbi təşəbbüsün yenidən ələ alınması, Qafqaz İslam Ordusu qüvvələrinin müqavimətinin sındırılması məsələsini həll etməli idilərsə, Qafqaz İslam Ordusu komandanlığı da əldə olunan uğurları genişləndirmək, bolşevik-daşnak qüvvələrinin artan müqavimətini qırmaq və əlavə qüvvələr əldə etmək məsələsi üzərində düşünürdülər. Təkcə 5-ci Qafqaz diviziyasının gücü ilə Bakı şəhərini tutmağın

mümkün olmayacağı Şərq Ordular Qrupu komandanlığına bildiriləndə bu orqan Baş komandanlıq vəkaləti qarşısında Batumdakı 38-ci piyada alayının və bir dağ-topçu taborunun Azərbaycana göndərilməsi təklifini qaldırdı. Ənvər paşa da bu təkliflə razılaşdı. İyun ayının 30-da Azərbaycana yola salınan 38-ci piyada alayının tərkibinə aşağıdakı qüvvələr daxil idi: 37 zabit, 2731 əsgər, 2092 tüfəng, 16 dəzgahlı pulemyot, 4 güclü dağ topu, 1 güclü dağ batareyası. Alay iyul ayının 14-də Ağstafaya çatdı. Elə həmin gün də onun nəqlinə başlandı. Əvvəlcə bir tabor, sonra bir batareya, sonra da digər bölmələr yola salındı (79).

Qoşunların gücləndirilməsi üçün Bakı komissarları tərəfindən də müəyyən tədbirlər həyata keçirilirdi. Sadəcə say üstünlüyü yaratmaq hesabına cəbhədə ciddi keyfiyyət dəyişikliklərinin baş verəcəyini güman edən Bakı bolşevikləri iyunun son günlərində və iyulun əvvəllərində bir sıra işlər gördülər.

Moskvadan alınmış zirehli avtomobillər dəstəsi cəbhəyə yenicə gətirilmişdi və onlar hələ tam şəkildə döyüşdə iştirak etməmişdilər. Bu zirehli texnikaya böyük ümidlər bağlanırdı. İyulun ilk günlərində Bakı Qırmızı təlimatçılar məktəbinin şəxsi heyəti də cəbhəyə göndərildi (80).

İyun ayının 30-da Bakı Xalq Komissarları Soveti 1893–1897-ci illərdə anadan olmuş gənclərin səfərbərliyini elan etdi. Əmrə görə, Bakı şəhərində müvəqqəti və ya daimi yaşayan həmin təvəllüdlü gənclər səfərbərliyə cəlb edilməli idilər. Səfərbərlikdən yayınanlara qarşı ciddi cəza tədbirlərinin tətbiq ediləcəyi bildirilirdi (81).

Xəzər hərbi donanmasının komplektləşdirilməsi üçün iyul ayının əvvəlində 1900–1917-ci illərdə xidmətdə olmuş dənizçilərin səfərbərliyi elan edildi. Bakı Xalq Komissarları Sovetinin müvafiq dekretində bu səfərbərliyin məcburi olduğu bildirilirdi (82). Cəlb olunacaq dənizçilərin əsasında yeni dəniz taborunun yaradılması planlaşdırılırdı. Bakı şəhəri və onun rayonlarının komendantı B.Avakyan əhalini elan olunmuş səfərbərlikdən yayınmamağa, Qırmızı Ordu sıralarına yazılmağa çağırırdı. O, xüsusi olaraq qeyd edirdi ki, səfərbərlik işinə mane olanlara qarşı ciddi cəzalar tətbiq ediləcəkdir (83).

İyul ayının 7-də isə Bakı Xalq Komissarları Soveti bütün Zaqafqaziya xalqlarına müraciət qəbul edərək onları əldə silah türk-Azərbaycan qoşunlarına qarşı mübarizə aparmağa, bolşeviklərin qırmızı bayrağı altında toplanmağa, fəhlə və kəndli hakimiyyətini bərqərar etməyə çağırırdı (84).

Bu tədbirləri həyata keçirməklə bərabər, cəbhədə təşəbbüsün yenidən ələ alınması üçün Bakı bolşeviklərinin liderləri başlıca ümidlərini polkovnik L.Biçeraxovun dəstəsinə bağlayırdılar.

Milliyyətcə osetin olan və keçmiş quruluşa sədaqəti ilə seçilən bu rus zabiti ilə əməkdaşlığa gedilməsi üçün Bakı bolşevikləri çox düşünməli oldular. Lakin Qafqaz İslam Ordusunun güclənən hücumları qarşısında başqa bir seçim tapılmadıqda Biçeraxovun tabeliyində olan hərbi qüvvədən bəhrələnmək qərarına gəlindi.

1882-ci ildə anadan olmuş Lazar Fyodoroviç Biçeraxov həyatını çar ordusu tərkibində xidmətə bağlamışdı. Onun xidmət yolunun böyük bir hissəsi kazak qüvvələri ilə bağlı idi və dəfələrlə çar Rusiyasının yüksək mükafatlarına layiq görülmüşdü (85).

L.Biçeraxovun Azərbaycanın hərb tarixində maraqlı yeri olan və «Vəhşi diviziya» kimi tanınan Qafqaz süvari diviziyası ilə də müəyyən bağlılığı vardır. Belə ki, o, 1915-ci ildə Qafqaz süvari diviziyasının komandanı olmuş böyük knyaz Mixail Aleksandroviç Romanovun sərəncamına verilmişdi (86).

1916-cı ilin əvvəlindən L.Biçeraxovun xidmət yolu Qafqaz cəbhəsi ilə bağlıdır. O, 1916-cı ilin yanvarından general N.N.Baratovun rəhbərliyi altında Şimali İranda yerləşdirilmiş olan rus korpusunun tərkibində xidmətə başladı. İki ildən bir qədər artıq müddətdə L.Biçeraxov İranın şimalında xidmətdə oldu, burada polkovnik rütbəsi aldı. Lakin yaddaqalan hər hansı bir xidməti ilə seçilmədi. Onun bu dövr fəaliyyəti məhz Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə qarşı cəbhə tutması, Qafqaz İslam Ordusuna qarşı Bakı kommunarları ilə bir cəbhə tutması, bütövlükdə bir neçə il Azərbaycanla bu və ya digər dərəcədə olan əlaqələri ilə tarixçilərin diqqətini özünə cəlb etmişdir.

L.Biçeraxovun tərkibində xidmət etdiyi rus ekspedisiya korpusunun İrana yerləşdirilməsi 1915-ci ilin yayına təsadüf edir. İlkin

olaraq sayının 10 min nəfər olacağı planlaşdırılan korpusun əsas hissəsi İranın şimal-qərbində, müəyyən bir hissəsi isə Orta Asiya sərhədi boyu yerləşdirilmişdi. Bu qüvvələrin İrana gətirilməsində əsas məqsəd də Almaniya-Türkiyə qoşunlarının İranın şimalına nüfuz etmək təhlükəsinin və bununla da gələcəkdə həmin qüvvələrin Qafqaz cəbhəsinin arxasında möhkəmlənmək ehtimalının qarşısının alınması zəruriliyi ilə bağlı idi. Rusiya-İngiltərə hərbi komandanlığı bunun üçün real imkan olduğunu da görürdülər. Çünki müharibənin ilk illərində Qafqaz cəbhəsində müəyyən uğurlar əldə etmiş Almaniya-Türkiyə hərbi komandanlığı İran əhalisinin güclənməkdə olan antirus və antiingilis əhval-ruhiyyəsindən istifadə etməklə burada daha əlverişli mövqelərin əldə olunmasına çalışırdılar. İranın müəyyən ərazilərinin nəzarət altına alınması da onların bu ölkədəki mövqelərinin möhkəmlənməsinə yol açırdı. Bu isə hərbi ittifaqda olan Rusiya-İngiltərə hərbi komandanlığını təmin etmirdi. Ona görə də ingilis hərbi komandanlığının təklifi ilə Rusiya İrana ekspedisiya korpusu yeritməyə razı oldu (87).

İrana göndərilərkən general N.N.Baratovun komandirlik etdiyi 1-ci Qafqaz (ekspedisiya) süvari korpusunun 39 kazak bölüyü, iki piyada taboru, könüllülərdən ibarət iki drujinası və 20 ədəd topu var idi. Yuxarıda qeyd edildiyi kimi, 1916-cı ildə bu korpusa göndərilmiş L.F.Biçeraxova 1917-ci ilin iyununda müstəqil fəaliyyət göstərə bilən süvari reyd dəstəsinin formalaşdırılması tapşırıldı. Bu reyd dəstəsi partizan dəstəsi kimi də tanınırdı və onun vəzifəsinə düşmən mövqelərinə və kommunikasiya xətlərinə hücum, gecə hücumlarının təşkili, düşmənin arxasında reydlər edilməsi, əsirlər götürülməsi və s. daxil idi. Bu dəstənin fəaliyyətinə xüsusi diqqət yetirilirdi və ona görə də general N.Baratovun əmri ilə həmin dəstənin tərkibinə seçilmiş zabit və əsgərlər cəlb edildi. Dəstənin formalaşdırılması 1917-ci ilin avqustunda başa çatdırıldı. Bu vaxt onun tərkibində 30 zabit, 1000 nəfər kazak, top, pulemyot və nəqliyyat vasitələri var idi. Dəstə ilkin olaraq Qəsri-Şirin məntəqəsi ətrafında mövqe tutdu. Bu məntəqənin nəzarət altına alınması ilə rus ekspedisiya korpusunun Osmanlı qoşunları tərəfindən ehtimal

edilən təhlükənin qarşısı alındı (88)

Bir müddətdən sonra L.Biçeraxovun dəstəsi Rusiyanın hərbi ittifaqda olduğu Böyük Britaniyanın bölgədə olan hind süvari alayı ilə birləşdi və ərzaq ehtiyatları qurtardığı üçün L.Biçeraxovun dəstəsi ingilis alayının ərzaq təminatına götürüldü. Buradan da L.Biçeraxovun ingilislərlə əməkdaşlığı başlanır. Ekspedisiya korpusunun qərargahı ilə əlaqələrin kəsilməsi üzündən L.Biçeraxov bir müddət tabeliyində olan dəstənin fəaliyyətini müstəqil şəkildə istiqamətləndirməli oldu. Digər tərəfdən Fevral inqilabından sonra Rusiya ordusu daxilində baş verən böhran L.Biçeraxovun dəstəsini, o cümlədən də ekspedisiya korpusunu çətin vəziyyətə saldı. L.Biçeraxov dəstəsini böhrandan kənarda saxlamaq və kazakların xidmətdən boyun qaçırmalarının qarşısını almaq üçün kifayət qədər ciddilik nümayiş etdirməli oldu. Buna baxmayaraq, 1917-ci ilin sonunda dəstənin buraxılmalı olduğu haqda L.Biçeraxov korpus komandiri general N.Baratovdan da göstəriş aldı. Belə bir göstərişin verilməsi L.Biçeraxovun dəstəsinin vəziyyətini daha da çətinləşdirdi. Çünki ekspedisiya korpusunun şəxsi heyətinin nəzarətdən çıxması və dağılmağa başlaması L.Biçeraxovun kazaklarına da dağıdıcı təsir göstərirdi (89).

İngilis generalı Denstervil L.Biçeraxovla ilk dəfə 1918-ci il fevralın 3-də görüşdü. Həmin vaxt İrandakı rus ekspedisiya korpusunun şəxsi heyəti arasında fərarilik və xidməti tərketmə halı geniş miqyas almışdı. General Denstervil L.Biçeraxovun yüngül yaralanmasına işarə edərək tabeliyindəki kazakların hələlik fərarilik etmədiyini qeyd edirdi (90).

L.Biçeraxovla ilk görüş baş verməzdən əvvəl general Denstervil Cənubi Qafqaza ingilis qüvvələri çıxarmaq və Böyük Britaniyanın Bakı şəhərinə olan iddiasını həyata keçirmək haqqında müvafiq tapşırıq aldı. Bakıya yollanmaq üçün ilk cəhd alınmayandan sonra o, Həmədana döndü və burada L.Biçeraxovla da görüşdü. Bu görüşdən sonra ingilis generalı L.Biçeraxovun dəstəsini qarşısında dayanan vəzifələrin icrasına cəlb etməyi qərarlaşdırdı. L.Biçeraxovun dəstəsi istər şimali İran ərazisində Böyük Britaniyanın ma-

raqlarının qorunması, istərsə də Böyük Britaniyanın Cənubi Qafqaz siyasətinin həyata keçirilməsi üçün maraq kəsb edirdi. General Denstervil L.Biçeraxovun dəstəsinin vasitəsilə dağılıb geri dönmüş rus qoşun hissələrinin nəzarəti altında olan müəyyən məntəqələrin yenidən nəzarət altına alınmasını istəyirdi. Görünür, L.Biçeraxov belə bir planın icrasında iştirak etməyin ciddi perspektivi olacağına ümid etmirdi. Ona görə o da dəstəsi ilə Rusiyaya dönmək barəsində fikirləşirdi. Xüsusilə general Denstervil Qəzvin şəhərinin nəzarət altından çıxmasından ehtiyatlanırdı. Belə bir təhlükə də mövcud idi. Oradakı rus qoşunları şəhəri tərk etdikdən sonra Gilan meşələri ətrafında silahlı dəstə toplamış olan Kiçik xanın (Kuçek xan) Qəzvini tutmaq ehtimalı böyük idi. Qəzvinin tutulması isə ingilis hərbi qüvvələrinin Bakıya çıxarılmasını xeyli çətinləşdirə bilərdi.

Aparılan danışıqlardan sonra L.Biçeraxovla müəyyən razılaşma əldə etmək mümkün oldu. General Denstervil öz xatirələrində qeyd edirdi ki, L.Biçeraxovun vətənə dönmək arzusu dərhal həyata keçsəydi, onda Qəzvini nəzarət altında saxlamaq çətinləşərdi və cəngəlilər (Kiçik xan tərəfdarları cəngəlliklərdə toplaşdığı üçün onlar belə adlandırılırdı – M.S.) tezliklə Qəzvini tutardılar. Onun yazdığına görə, danışıqlardan sonra əldə edilmiş razılaşma aşağıdakı kimi idi:

1. İngilis hərbi qüvvələri ilə əvəz olunana qədər Biçeraxov öz dəstəsini Persiyadan çıxarmamalı idi;

2. İngilis komandanlığı da bunun əvəzində Biçeraxova maliyyə dəstəyi göstərməyi öz boynuna götürürdü. General Denstervil Biçeraxovun kazaklarına maaş verilməsi üçün maliyyə vəsaitinin lazım olduğunu etiraf edirdi. Eyni zamanda belə bir şərt də irəli sürürdü ki, maliyyə vəsaiti tələb etməkdə Biçeraxov ifratlığa varmasın və sui-istifadəyə yol verməsin;

3. İngilislərlə razılaşdırmadan Biçeraxov heç bir əməliyyat həyata keçirməməli idi. Əks təqdirdə ingilis hökuməti tərəfindən ona göstərilən maliyyə yardımı dayandırıla bilərdi.

4. İlk hərbi əməliyyat Kiçik xanın dəstəsinə qarşı keçirilməli və Qəzvindən Xəzər dənizinədək olan yol açılmalı idi.

L.Biçeraxov İranda general Denstervilə lazımi kömək göstərəcəyi halda onlar gələcəkdə Qafqazda birgə fəaliyyət göstərə bilərdilər (91).

Bu razılaşmanın nəticəsi olaraq Biçeraxovun dəstəsi 1918-ci il mart ayının sonlarında Qəzvinə gəldi və bu şəhəri nəzarət altına götürdü. Qəzvinə gəliş ingilislərlə əldə edilmiş razılaşma əsasında baş versə də, əslində, Biçeraxov məsafəcə Rusiyaya daha da yaxınlaşdı. İran hökuməti Biçeraxovdan Qəzvini tərk etməyi tələb etsə də, o, Qəzvin–Rəşt yolunun Kiçik xan tərəfindən tutulduğunu bəhanə gətirərək geri dönməyi bir qədər təxirə saldı. Görünür, Qəzvində ləngiməsi həm də Biçeraxovun ingilislərdən daha çox maliyyə vəsaiti qoparmaq istəyi ilə bağlı idi. Çünki general Denstervil də xatırlayırdı ki, Biçeraxov ondan çox pul tələb edirdi. General Denstervil bu tələblərin müəyyən dərəcədə ödənməsinə tərəfdar idi. Çünki Biçeraxov ingilis qüvvələrinin Bakıya aparan yolun bir hissəsinin təhlükəsizliyini təmin edə bilərdi. Bu hesabla Biçeraxov öz dəstəsi ilə aprel və may aylarında da Qəzvində dayanmalı oldu.

Biçeraxov Qəzvində olduğu vaxt Bakı Xalq Komissarları Soveti Kiçik xanın dəstəsi ilə əlaqə yaratmağa müvəffəq oldu. Mövcud olan məlumatlara görə, Bakı kommunarları Kiçik xanın dəstəsindən istifadə etməklə ingilis qüvvələrinin Bakıya irəliləməsi planlarının qarşısını almağa çalışırdılar. İran əhalisi arasında güclü antiingilis əhval-ruhiyyəsi olduğu üçün Bakı bolşevikləri Kiçik xanla tezliklə dil tapa bildilər. Razılığa gəlindi ki, Kiçik xanın dəstəsi və havadarları tərəfindən həm ingilislər, həm də Biçeraxovun dəstəsi blokadaya alınsın, onlara ərzaq və at yemi satılmasına bölgədə qadağa qoyulsun. Bakı Soveti tərəfindən Biçeraxov həm vətənin, həm də İranın düşməni hesab edildi. Bakı bolşevikləri Biçeraxovun ingilislərdən maliyyə dəstəyi almasından da xəbərdar idi. S.Şaumyanın əlində olan casus məlumatlarına görə, İran ərazisində olduğu son aylar ərzində Biçeraxov ingilislərdən 9 milyon rubl vəsait almışdı (92).

1918-ci il iyun ayının əvvəllərində ingilis qüvvələri Bakıya doğru irəliləmək əmri aldı. Bu əmrə uyğun olaraq Biçeraxov da öz

dəstəsi ilə Qəzvindən Ənzəliyə doğru hərəkətə başladı. İngilis mənbələrində olan məlumatlara görə, Biçeraxov tabeliyində olan ruslar, 14-cü Qusar alayının bir bölüyü, 6-cı zirehli avtomobil batareyasına məxsus olan iki zirehli avtomobil və iki ingilis təyyarəsi ilə Qəzvindən hərəkət etdi. General Denstervil Biçeraxovun öz dəstəsinin 1000 nəfərlik kazak dəstəsindən ibarət olduğunu bildirirdi. Biçeraxov qarşıya düşməklə həm özünə yol açmalı, həm də ingilis qüvvələrinin Ənzəliyə doğru yolunu açmalı idi. İyun ayının 12-də Biçeraxovun dəstəsi Qəzvin–Rəşt yolunun üzərində yerləşən Məncil məntəqəsində Kiçik xanın dəstəsinin müqaviməti ilə rastlaşdı. Lakin Biçeraxovun dəstəsi bu müqaviməti qıraraq Ənzəliyə doğru yolu aça bildi (93).

İngilis mənbələrinin məlumatına görə, belə bir qənaətə gəlmək olar ki, 1918-ci il iyun ayının ortalarında dəstəsi ilə Ənzəliyə yetişdikdən sonra Biçeraxov Bakı bolşevikləri ilə yaxınlaşmağa başladı. Digər məlumata görə isə hələ Azərbaycan öz müstəqilliyini elan etməzdən əvvəl S.Şaumyan V.Leninə göndərdiyi məktubunda Qırmızı qvardiyada komandir kadrlarının çatışmamasına toxunur və belə bir vəziyyətdə diqqətin Biçeraxova yönəldilməsinin vacibliyinə toxunurdu.

S.Şaumyanın məktubundan aydın olur ki, o, əvvəllər də Biçeraxovla bağlı V.İ.Leninə müraciət edibmiş. Bakı Soveti Ənzəli limanında olan təmsilçisi İ.Kolomiysev vasitəsilə Biçeraxovla əlaqə qura bilmişdi. Biçeraxovun adından poruçik Səlim Əlhəvi bolşeviklərlə danışıqlara gedirdi. Bakı Sovetinin liderləri özlərini Rusiyanın mərkəzi hakimiyyətinin rəsmi nümayəndəsi kimi aparır və İran ərazisindəki rus qoşunlarının təchizatına qanuni haqları olduğunu irəli sürürdülər. Bu iddiadan çıxış etməklə Bakı bolşevikləri Biçeraxov qarşısında da dəstənin hərbi təchizatının Bakı bolşeviklərinə verilməsi tələbini qoymuşdu. Biçeraxov aid olduğu korpusun əmlakının bir hissəsini özü Ənzəlidən İnqilabi müdafiə Komitəsinə təhvil verdi və əvəzində dəstəsi üçün pul, benzin və s. ala bildi (94).

Ənzəlidə təşkil olunmuş İnqilab Komitəsinin üzvlərindən biri

erməni-daşnak N.Cigityan idi. O, Şaumyanın təmsilçisi kimi çıxış edir və Biçeraxovun dəstəsinin Bakı Soveti tərəfinə keçməsinə xüsusi canfəşanlıq göstərirdi. O cümlədən Şaumyan da ondan istifadə edilməsi üçün təkrar-təkrar Moskvanı razı salmağa çalışırdı.

L.Biçeraxov bolşeviklərlə əlaqə yaradaraq onun dəstəsinin Qafqaz Qırmızı ordusuna qatılmasına razı olduğunu bildirmişdi (95). Bu heç də o demək deyildi ki, L.Biçeraxovun bolşeviklərə qarşı xüsusi bir hüsn-rəğbəti var idi. Rus şovinizmi ruhunda tərbiyələnmiş zabitlərin tipik nümayəndəsi olan L.Biçeraxovu bolşeviklərə yaxınlaşdıran əsas cəhət onların hər ikisinin keçmiş imperiyanın ucqarlarında yaranan milli, müstəqil respublikaların mövcudluğuna qarşı barışmaz mövqedə dayanmaları idi. Əslində isə L.Biçeraxovun bolşeviklərlə müəyyən münasibətlər yaratmaqda məqsədi Cənubi Qafqaza gəlmək və buradan da dəstəsi ilə birlikdə Şimali Qafqaza yollanmaq idi (96).

Bunu Biçeraxov yazdığı məktublarında da qeyd edirdi. Məsələn, məktublarının birində yazırdı ki, o, yalnız rus xəttinə sədaqətli olanlarla cığırdaş ola bilər. General Denstervil isə onun «bolşevikləşməsini» müvəqqəti səbəblərlə izah edir və bu yolla Şimali Qafqaza yollanmaq niyyətindən söz açırdı. Biçeraxov da dəstəsinin üzvlərinə deyərmiş ki, Tiflisdən və hərbi Gürcüstan yolundan keçməklə evlərinə çatacaqlar (97).

L.Biçeraxov bolşeviklərə etibar etmədiyi kimi bolşeviklər də ona qarşı xüsusi bir rəğbət göstərmirdilər. Təklifinin razılıqla qarşılanması üçün L.Biçeraxov parçalanmaqda olan Rusiyanın ancaq bolşeviklər tərəfindən birləşdiriləcəyinə inandığını bildirirdi. Tezliklə bütün Cənubi Qafqazda Sovet hakimiyyətini bərqərar etmək və Azərbaycana gələn türk qoşunlarını əzmək istəyi bolşeviklərdə L.Biçeraxovun təklifinə əməli maraq yaratdı. Bakı Xalq Komissarları Soveti L.Biçeraxovun Qırmızı Ordu hissələri ilə birlikdə Qafqaz İslam Ordusu hissələrinə qarşı vuruşmaq təklifinə razılıq verdi və onun qarşısında belə bir tələb qoydu ki, Bakıdakı Sovet hakimiyyətini qeyd-şərtsiz tanımalı, Bakı Xalq Komissarları Sovetinin işlərinə qarışmamalı və fəaliyyətinin Bakı Xalq Komissarları Sovetinin hərbi orqanları tərəfindən nəzarət altında saxla-

nılmasına razı olmalıdır (98).

Poruçik Əlhəvi Biçeraxovun adından Bakı Sovetinin nümayəndələri ilə tərəflərin ilkin əməkdaşlıq razılaşmasını da imzaladı. Həmin razılaşmada deyilirdi: «Biçeraxov sovet hakimiyyətini, eləcə də Bakı hakimiyyətini ümumrusiya hakimiyyəti kimi tanıyır. Biçeraxov Qafqaz Qırmızı ordusunun hissələrindən birinin komandiri təyin olunur və hərbi dəniz işləri üzrə komissar Korqanovun nəzarəti altında olur. Əməliyyat baxımından o, tamamilə müstəqildir. Lakin onun bütün əmrləri komissarın imzası ilə təsdiq olunur. Hərbi əməliyyatların müvəqqəti dayandırılması və qurtarılması Bakı Xalq Komissarları Sovetindən asılıdır. Döyüş tapşırıqları qərargah tərəfindən hazırlanır və komandan tərəfindən müstəqil şəkildə həyata keçirilir. Biçeraxovun dəstəsi vəsaiti ümumi əsaslarla Bakı Xalq Komissarları Sovetindən alır və Qafqaz Qırmızı ordusunun tərkibinə daxil olur. Bakı Xalq Komissarları Soveti gələcəkdə Biçeraxov tərəfindən Şimali Qafqazda yarana və Qırmızı ordunun tərkibinə daxil ola biləcək bütün dəstələrin saxlanmasını öz üzərinə götürür» (99).

Bu razılaşmanın imzalanmasından əvvəl Biçeraxov iki kazakın müşayiəti ilə Bakıda olmuş, Bakı Sovetinin rəhbərlərinə öz dəstəsi haqqında məlumat təqdim etmişdi. Mövcud olan məlumatlara görə, bu görüş zamanı Biçeraxov Osmanlı-Almaniya qoşunlarına qarşı bolşeviklərlə oxşar mövqedə dayandığını, Bakıdakı sovet hakimiyyətinə kömək etməyə hazır olduğunu, siyasi proseslərdən kənarda qalmaq, sonra isə Kuban və Terek istiqamətində yollanmaq arzusunda olduğunu bildirmişdi (100).

L.Biçeraxovun Bakıda olmasını Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan da 1918-ci il iyunun 23-də V.İ.Leninə yazdığı məktubunda təsdiq edirdi. Onun yazdıqlarından belə aydın olur ki, Biçeraxov öz dəstəsini Ənzəliyə gətirdikdən sonra Bakıya gəlmiş və onu maraqlandıran suallara və məsələlərə Bakı bolşeviklərindən cavab almağa çalışmışdı. Biçeraxov S.Şaumyanla da görüşmüş və lazım olan cavabı almışdı. Tərəflər müzakirələrdən sonra onları qane edəcək razılığa gəldilər. S.Şaumyana görə, artıq

bolşeviklər Biçeraxovun ingilislərin və daşnakların təsiri altında ola bilməsindən qorxmurdular. Eyni zamanda da Biçeraxovda da bir əminlik hasil oldu ki, bolşeviklər onun dəstəsini tərk-silah etməyəcəklər. Görüş zamanı məlum oldu ki, L.Biçeraxov özü ilə ingilis zirehli avtomobillərini texniki heyəti ilə birlikdə və aeroplanlar gətirmək istəyir. Bolşeviklər təkid edirdilər ki, L.Biçeraxov özü ilə ingilis hərbi qulluqçularını gətirməsin. Biçeraxov öhdəsinə götürdü ki, Azərbaycan milli qüvvələrinə qarşı açılan bolşevik-daşnak cəbhəsinin sağ cinahını öz öhdəsinə götürsün və irəli hərəkət edə biləcəyi halda ona gələcəkdə Tiflisə doğru irəliləmək və oradan da Osetiyaya keçmək şansı verilsin (101).

Mənbələrdə olan məlumata görə, Biçeraxovun dəstəsi aşağıdakı tərkibdə idi: 880 kazak, 80 qeyri-nizami, 37 könüllü, 544 nizami, 30 zabit və 221 araba atı. Struktur baxımından isə Biçeraxovun dəstəsi aşağıdakı bölmələrdən ibarət idi: Zaporojes yüzlüyü, Dağ-Mazdok yüzlüyü, Uman yüzlüyü, xətti-xopyor yüzlüyü, sərhəd osetin yüzlüyü, Kuban kazak atlı dağ batareyası, 1-ci piyada dağ batareyası, pulemyot komandası, 1-ci və 2-ci atlı radiostansiya, lazaret və avtomobil komandası (102).

Genaral Denstervil isə yazırdı ki, o, Biçeraxovun dəstəsinə bir neçə ingilis zabiti və bir bölük zirehli avtomobil də verdi (103).

Stepan Şaumyan isə əlavə olaraq bildirirdi ki, Biçeraxovun dəstəsində köhnə intizam qalmaqdadır. Onun sözlərinə görə, Biçeraxovun dəstəsində 4 ədəd aeroplan və 8 ədəd zirehli avtomobil də var idi. Zirehli avtomobillərin şəxsi heyəti ingilislər idi. S.Şaumyan isə ingilislərin Bakıya ayaq qoymasına tərəfdar deyildi (103a).

İrəli sürülən tələblərə razılığını bildirən L.Biçeraxovun dəstəsi iyun ayının ortalarında Bakıya doğru üz tutdu. Ancaq İranda, Qəzvinlə Ənzəli arasında Kiçik xanın dəstələri L.Biçeraxovun dəstəsinin qarşısını kəsməyə cəhd göstərdi. Osmanlı dövləti ilə xoş münasibətdə olan Kiçik xan bununla Biçeraxovun Azərbaycana gəlməsinə və Qafqaz İslam Ordusuna qarşı cəbhə tutmasına mane olmaq istəyirdi. S.Şaumyanın iyun ayının 14-də V.Leninə göndərdiyi teleqramda bir həftədən sonra L.Biçeraxovun dəstəsinin Azərbaycanda olacağı bildirilirdi(104). Lakin Kiçik xan ilə apa-

rılan döyüşün uzanması Biçeraxovun dəstəsinin Azərbaycana çatmasını bir neçə gün ləngitdi.

Bakı Xalq Komissarları soveti hərbi dəniz işləri üzrə xalq komissarı Korqanovun müavini Şeboldyayev 1918-ci ilin iyun ayına aid olan məktubunda yazırdı ki, Biçeraxov öz dəstəsi ilə artıq Ənzəlidə gəmilərə yüklənməkdədir. Bu məktubdan hiss olunmaqdadır ki, Biçeraxovun dəstəsi ilə bolşeviklərə qoşulması Bakı Sovetinin rəhbərliyində xoş əhval-ruhiyyə yaratmışdı. Şeboldyayev Biçeraxovun dəstəsini köhnə nizam-intizamı saxlamış, atlara və texniki təchizata malik bir dəstə adlandırırdı. Göstərilirdi ki, Biçeraxovun dəstəsində radiostansiyalar, zirehli maşınlar və aeroplanlar vardır. Bu texniki vasitələr bolşeviklərdə yox idi. Məktubdan görünür ki, bolşeviklər Biçeraxovun texniki vasitələrinin texniki heyətinin Bakıya gəlməsinə icazə vermişdilər. Biçeraxovun dəstəsinin gəlişi Şeboldyayevi o dərəcədə sevindirmişdi ki, hətta həmin dəstənin köməyilə Tiflisə yetişməyə də ümid edirdi. Nəzərdə tutulurdu ki, ora yetişəndən sonra L.Biçeraxovun dəstəsinə Osetiyaya adlamağa icazə veriləcəkdir (105).

Başqa sözlə, bolşeviklər belə bir qənaətdə idilər ki, Biçeraxovun dəstəsinin yetişməsi ilə Azərbaycanın milli qüvvələrinin müqaviməti qırılacaq, Azərbaycanın müstəqilliyinə son qoyulacaq və bolşeviklər Tiflisə qədər irəliləyə biləcəklər.

L.Biçeraxova bolşevik-daşnak cəbhəsinə komandanlıq etmək təklif olunmuşdu. Ona görə də Azərbaycana çatan kimi Biçeraxov dərhal cəbhəyə yollanmalı və bütün döyüşlərə rəhbərliyi öz üzərinə götürməli idi. Bununla belə, L.Biçeraxov birbaşa gəmi ilə Bakıya gəlməyə ehtiyat edirdi. O ehtiyat edirdi ki, dəstəsi ilə Bakıya gələcəyi təqdirdə bolşevik-daşnak qüvvələri tərəfindən tərk-silah edilə bilər. Buna görə də L.Biçeraxov qərara aldı ki, Bakıda deyil, Ələtdə quruya çıxsın və buradan da cəbhəyə yollansın (106).

İngilis generalı Denstervil Biçeraxovun Azərbaycana yollanmasına toxunarkən göstərirdi ki, iyul ayının 1-də türk qoşunları hələ Kür çayını keçməmişdilər və ona görə də Biçeraxov Kür çayı üzərindəki körpünü tutaraq onların hərəkətini çətinləşdirmək istə-

yirdi (107).

Qafqaz İslam Ordusu hissələrinin hərəkəti və dayandıqları mövqe barədə ingilis generalının yazdıqları həqiqəti əks etdirmirdi. Ancaq Biçeraxovun Kür körpüsünü tutmaq planları haqqında dedikləri həqiqətdən heç də uzaq deyildi. Biçeraxov sonralar özü də bildirirdi ki, Bakının Rusiya tərkibində etibarlı şəkildə saxlanması üçün Azərbaycanın Yevlaxa qədər olan ərazisi işğal edilməlidir (108).

Kür çayı üzərindəki körpünün tutulması Bakı Soveti rəhbərlərinin də milli qüvvələrə qarşı mübarizəsinin elementlərindən birini təşkil edirdi. S.Şaumyanın fikrincə, Bakının qorunub saxlanması üçün Kür çayı boyunca qurulmuş olan mövqelər Bakının milli qüvvələrdən müdafiəsinin ilkin xəttini təşkil edə bilərdi. O, milli qüvvələrin hücumlarının genişlənəcəyi təqdirdə Kür çayı üzərindəki körpünün partladılmasını da istisna etmirdi. S.Şaumyana görə, Kür çayı üzərində körpünün partladılmasından sonra sahilboyu bataqlıqlar uzanan Kür çayını adlamaq milli qüvvələr üçün çətin olardı. Bu isə daşnak-bolşevik qüvvələrinin işinə yaraya bilərdi. Əgər milli qüvvələr Kür çayını adlasaydılar, onda S.Şaumyanın fikrincə, Ağsu-Hacıqabul xətti Bakının saxlanmasının ikinci xətti ola bilərdi. Bu xətt üzrə daşnak-bolşevik qüvvələrinin müqavimət imkanlarının artırılması üçün səngərlər qazılır və tikanlı məftillərlə istehkamlar qurulurdu. Nəhayət, Bakı ətrafındakı yüksəkliklər bu şəhəri milli qüvvələrdən qorumağın son müdafiə xətti kimi qəbul edilirdi. Burada da səngərlərin qurulmasına, tikanlı məftillərlə istehkamlar yaradılmasına xüsusi diqqət yetirilirdi. S.Şaumyana görə, əgər Rusiyadan canlı qüvvə və əlavə artilleriya gətirilsəydi, Bakı ətrafında uzunmüddətli müdafiə xətti yaratmaq mümkün ola bilərdi (Большевики в борьбе за..., с.525).

İyul ayının 1-də Biçeraxov dəstəsi ilə İranda gəmilərə yükləndi. Mövcud məlumatlara görə, o, 4 ədəd zirehli avtomobili və 5 nəfər ingilis zabitini özü ilə Azərbaycana gətirə bilmişdi. İyulun 2-də isə Biçeraxov artıq S.Şaumyanla cəbhə xəttində idi. Buradakı vəziyyətlə ötəri tanışlıqdan sonra Biçeraxov xahiş etdi ki, bir həftə ərzində cəbhəyə əlavə 2 min nəfər əsgər göndərilsin (109).

Belə bir qüvvənin göndəriləcəyini vəd edən S.Şaumyan Bakıya qayıdan kimi elan olunmuş səfərbərliyin gedişi ilə maraqlandı. Məlum oldu ki, bu tədbirin nəticələri heç də ürəkaçan deyil. Bir neçə gün ərzində nəzərdə tutulan heyətin yalnız 30 faizi xidmətə cəlb edilmişdi. Buna görə də şəhərdə təcili silahlı yoxlamalar keçirildi və müəyyən sayda adamlar tutularaq hissələrə göndərildilər (110).

İyul ayının 6-da Biçeraxov Qafqaz İslam Ordusuna qarşı döyüşən bolşevik-daşnak qüvvələrinin komandanı elan edildi (111) və ona dəstəsi ilə Kürdəmirə yollanmaq tapşırıldı.




**Nuru bəy yaxın qohumları ilə bir arada**


باب عالى

دائرهٔ صدارت

ASLININ FOTOKOPİSİDİR

Cengiz EROĞLU
Svl.Me. (MS.994-GN.66)
Belge Araştırma Uzmanı

EK - 3: Padişahın 15 Ağustos 1331 tarihli Fahrî Feriklik Fermanı
(M.S.B. Nuri Killigil'in Şahsi Dosyası)

**Nuru bəyə fəxri feriq (general) rütbəsinin verilməsi haqqında Osmanlı sultanının fərmanının surəti**




**Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşa**



**Nuru paşa**




**9-cu Qafqaz alayının komandiri Cəmil Cahid bəy**



5-ci Qafqaz piyada diviziyasının komandanı Mürsəl paşa.



5-ci Qafqaz piyada diviziyasının qərargah rəisi Rüşdü bəy.



**Mürsəl paşa**

### *5. Ağsu və Kürdəmir döyüşləri*

Beləliklə, Göyçay-Qaraməryəm döyüşündən sonra hər iki tərəf növbəti döyüşlərə ciddi hazırlıq görmüşdü. Türk-Azərbaycan qoşunları Müsüslünün şərqi və Ağsu-Qaraməryəm xətti boyunca mövqe tutmuşdular. Qafqaz İslam Ordusunun komandanlığı yaxın vaxtlarda Şamaxının azad edilməsini əsas vəzifələrdən biri kimi qarşıya qoymuşdu. Bu məntəqəyə Bakı üzərinə hərəkət üçün əsas dayaq məntəqəsi kimi baxılırdı. Ancaq Şamaxıya çatmazdan əvvəl İslam Ordusu komandanlığı Kürdəmir-Ağsu xəttinə çıxmağı planlaşdırırdı.

Nuru paşa Şamaxı üzərinə hücumun müvəffəqiyyətlə başa çatdırılması üçün Qarabağdakı erməni silahlı dəstələrinin fəaliyyətinin məhdudlaşdırılması və Culfa-Ordubad üzərindən Şuşaya silahlı dəstə göndərilməsinin məqsədəuyğunluğu barədə Şərq Ordular Qrupu komandanlığı qarşısında məsələ qaldırdı (112).

Qafqaz İslam Ordusu komandanlığını narahat edən təkcə Qarabağ erməniləri deyildi. Azərbaycanın müxtəlif məntəqələrində yaşayan ermənilər bu və ya digər dərəcədə Qafqaz İslam Ordusuna qarşı əks-fəaliyyət göstərirdilər. Şəki, Qutqaşen, Göyçay və Şamaxı ətrafındakı ermənilər təcavüzkar hərəkətlərini genişləndirməkdə idilər. Nuru paşa öz xatirələrində də bu məsələnin diqqət çəkdiyini qeyd edirdi (113). Qayabaşı və Söyüdlü məntəqələrinin erməniləri hələ Göyçay döyüşlərindən əvvəl fəallaşmağa başlamışdılar. Göyçay döyüşlərindən sonra Nuru paşa ordunun ərkani-hərb rəisi Nazim bəyə göstəriş verdi ki, Ağdaş, Xaldan və Nuxadakı milli qüvvələrə ümumi rəhbərlik edərək Söyüdlü və Qayabaşı ermənilərinin təcavüzkarlığına son qoysun (114).

İyul ayının əvvəllərində Qayabaşı və Söyüdlüdəki erməni yığnaqları darmadağın edildi. İyul ayının 12-də Ağdaş mövqe komandanı Nuru paşaya göndərdiyi teleqramında bildirirdi ki, Nic və Söyüdlü İsmayıl Həqqi bəyin rəhbərliyi altında olan Şəki dəstəsinin tam nəzarəti altındadır. Bu dəstə Söyüdlünün şimal tərəfindəki təpələrdə mövqe tutmuşdu. Ermənilərin silahlarının toplanmasına başlananda onların bir çoxu silahları ilə birlikdə gizlənməyə çalışırdılar (115).

Silahı yerə qoymayan bir çox ermənilər qaçıb ətraf kəndlərə, meşələrə dağılışmışdılar. Şəki–Qutqaşen istiqamətində erməni millətçilərinin yarada biləcəyi təhlükəyə birdəfəlik son qoymaq üçün Nuru paşa Xaldan dəstəsinin komandirindən tələb edirdi ki, Qayabaşıdan qaçıb ətraf kəndlərdə dolaşan və silahı yerə qoymayan erməniləri axtarıb tapsın və onları zərərsizləşdirsin. Nuru paşa belə bir vəzifəni Nuxaya göndərilmiş olan Gəncə mövqe komandanı Cəmil Cahid bəyin qarşısında da qoymuşdu. Ona tapşırılırdı ki, ətrafa qaçıb dağılan təcavüzkar ermənilər təqib edilsin, onların zərərsizləşdirilməsi məqsədilə həyata keçirilən əməliyyat bütünlüklə başa çatdırılsın (116).

Göyçay ətrafında olan erməni kəndlərinin tərk-silah edilməsinə də xüsusi diqqət yetirilirdi. Çünki bu kəndlərdə toplanan erməni qüvvələri istənilən vaxt 5-ci Qafqaz diviziyasının arxasında təhlükəli vəziyyət yarada bilərdilər. İyul ayının 2-də Pezəvəng və Qırdadul kəndləri tutuldu. Burada olan erməni qüvvələri Əmirvan və Bəylərkənd istiqamətində geri çəkildi. 5-ci Qafqaz diviziyası cəbhəsinin sol cinahı boyunca geri çəkilmək məcburiyyətində qalan bolşevik-daşnak qüvvələrinin qarşısını kəsərək onlara güclü zərbə vurmaq üçün İvanovka kəndinə 10-cu alaydan bir piyada taboru və iki ədəd dağ topu göndərildi. Həmin dəstə İvanovkaya çatana qədər  yolu üstünə çıxmış kiçik düşmən qruplarını məhv edərək İvanovka ətrafında mövqe tutdu. Ağ bayraqlarla onları qarşılamağa çıxan kənd əhalisi qüvvələrə kənddə yerləşməyi təklif etsələr də, kənd ətrafında qalmaq üstün tutuldu. Qoşun hissəsinin burada yerləşməsi ilə bolşevik-daşnak qüvvələrinin bir dəstəsinin geri çəkilmək yolu kəsildi. Göyçayın şimalındakı kəndləri ermənilərdən təmizləyən türk-Azərbaycan qüvvələri şərqə doğru irəlilədikcə 100 nəfərə qədər olan süvari və piyada bolşevik-daşnak dəstəsi İvanovkaya sıxışdırıldı. İyul ayının 3-də ermənilərin dayaq məntəqələrindən biri olan Çanaqbulaq kəndi də türk-Azərbaycan qoşun  hissələrinin əlinə keçdi (117).

Göyçayın ətrafındakı kəndlərin təmizlənməsi üçün iyulun 2-si və 3-də keçirilən əməliyyatda Ağdaşda təşkil edilmiş dəstə də iştirak edirdi. Ağdaş mövqe komandanı minbaşı Ehsan bəy bildirirdi ki, 100 nəfərlik bu dəstə Göyçay ətrafında keçirilən təmizləmə

əməliyyatını gücləndirmək üçün göndərilmişdir. İyulun 3-də Çanaqbulaq kəndi tutulduqdan sonra bu dəstə geri qaytarıldı (118).

Geri çəkilməkdə olan düşmən qüvvələri İvanovkada onların yolunu kəsmiş türk-Azərbaycan qüvvələri ilə rastlaşdıqda çaşqınlıq içində qaldılar. Burada qarşılarının kəsiləcəyini güman etməyən bolşevik-daşnak qüvvələri qaçıb canlarını qurtarmaq məcburiyyətində qaldılar. Onlar elə bir təşvişə düşdülər ki, ixtiyarlarında olan iki ədəd topdan birini atmalı oldular (119).

İyul ayının 4-də də Qaraməryəm ətrafındakı kəndlərin erməni qüvvələrindən təmizlənməsi davam etdirildi və beləliklə, Ağsu üzərinə irimiqyaslı hücumu həyata keçirmək üçün zəruri mövqelər tutuldu. Ancaq bir neçə gün ərzində davam edən təmizləmə əməliyyatları həm də itkilərlə nəticələndi. İyul ayının 1-dən 4-dək baş verən bu əməliyyatlarda 7 zabit və 39 əsgər şəhid olmuş, 9 zabit və 93 əsgər yaralanmış, bir zabit və 74 əsgər itkin düşmüşdü (120).

Beləliklə, iyulun 5-də Ağsu-Kürdəmir xəttinin tutulması üçün Qafqaz İslam Ordusu hissələrinin hücumu başladı. Strateji təşəbbüsün ələ alınmasında bu döyüşün böyük əhəmiyyəti olduğu üçün Ordu komandanı Nuru paşa da Ağsu cəbhəsinə gəldi. 5-ci Qafqaz diviziyası komandanı Mürsəl bəyin imzaladığı döyüş əmrində hissə və bölmələr qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu: Müsüslü dəstəsi qarşısında dayanan düşmənin daha zəif cinahını adlamaq şərtilə Kürdəmirə doğru irəliləməli və bu məntəqəni ələ keçirməli idi. Mürəttəb süvari alayı ona verilmiş bölmələrlə Xəlilli–Qarasaqqal istiqamətində hərəkət etməli, Kürdəmir-Ağsu xəttini kəsərək Kürdəmir uğrunda aparılan döyüşün uğuruna yardım etməli idi. 13-cü piyada alayının qarşısına Şamaxı-Ağsu xəttini işğal etmək vəzifəsi qoyulmuşdu. Alay komandanlığı sol cinaha diqqəti xüsusilə artırmalı idi. 10-cu piyada alayı İvanovkada olan dəstəsini geri çəkərək Kəlağayılı və Ağsunun şimalındakı dağlarda olan düşmən qüvvələrinin cinahını əhatə edərək Gürcüvana doğru hərəkət etməli idi. Göyçay dəstəsi də irəli hərəkət edərək diviziyanın arxasında qala biləcək erməni dəstələrini məhv etməli idi. Bu dəstə sonra da İvanovka–Qoşakənd xətti ilə irəliləyib diviziyanın əsas qüvvələri ilə birləşməli idi (121).

Hücum planı belə düşünülmüşdü ki, 13-cü alay Ağsu cəbhəsinin sağ cinahı, 10-cu alay isə dağlardan keçən sol cinah ilə irəliləyib düşmənin cinahlarını adlamalı və onu mühasirə vəziyyətinə salmalı idi. Düşmənin burada güclü zərbə alması Kürdəmir istiqamətindəki döyüşün də uğurla sona çatmasına kömək edə bilərdi. İyulun 5-də başlanan döyüşdə 13-cü alay müəyyənləşdirilmiş mövqelərə çıxsa da, 10-cu alay çətin dağ şəraiti ilə irəlilədiyi üçün nəzərdə tutulmuş mövqelərə xeyli gec gəlib çıxdı. Ona görə də iyulun 5-də döyüş əmri ilə müəyyənləşdirilən vəzifələr tamamilə yerinə yetirilmədi. Hər iki alay tutduqları mövqelərdə gecələyib səhər tezdən hücumu davam etdirmək əmri aldılar. Ancaq istər 10-cu alay, istərsə də 13-cü alay gün ərzində irəli hərəkətləri zamanı düşmən dəstələri ilə rastlaşmış və onların müqavimətini qırmışdılar. Bu da heç şübhəsiz ki, bolşevik-daşnak qoşunlarının ümumi əhval-ruhiyyəsinə öz təsirini göstərirdi. Müsüslü dəstəsi də güclü düşmənə qarşı döyüşdə nəzərəçarpacaq bir nəticə əldə etməmişdi. Ona görə diviziya komandanlığı qərara aldı ki, ayın 6-da mürəttəb süvari alayını Müsüslü dəstəsinin gücləndirilməsinə göndərsin (122).

İyulun 6-da davam edən döyüşlər həm 10-cu, həm də 13-cü alaylar üçün uğurla başladı. 13-cü alay tezliklə Ağsuya yaxınlaşdı. Bolşevik-daşnak qüvvələri ixtiyarlarında olan zirehli avtomobillərdən başqa, bir təyyarədən də istifadə edilməsinə əl atsalar da, İslam Ordusu hissələrinin müzəffər yürüşünün qarşısını ala bilmədilər. Günortaüstü 13-cü alay artıq Ağsuda idi. Ancaq alay öz hücumunu dayandırmayıb bolşevik-daşnak qüvvələrini Şamaxıya uzanan yolun yoxuşuna qədər qovdu. 10-cu alay isə şimalla irəliləyərək Ağsudan Şamaxıya qaçmaq istəyən düşmənə güclü zərbə endirdi. Alayın sərəncamına verilmiş könüllü milli süvarilər geri qaçan düşməni xeyli təqib etdilər. Bolşevik-daşnak döyüşçüləri canlarını bu süvarilərin əlindən güclə qurtardılar. Ağsu ətrafında düşmənin 100-ə qədər süvarisi və piyadası qalmışdı. Şamaxı yolu tutulandan sonra onlar Kürdəmirə çəkilməyə cəhd göstərdilər. Çünki onların başqa bir çıxış yolu da qalmamışdı. 10-cu alay Gürcüvan kəndini tutaraq öz mövqelərini orada yerləşdirdi. Döyüşün gedişində bir səhra topu, bir cəbbəxana arabası, 5 ədəd pulemyot,

30-a qədər silah, talan edilən əhalinin var-yoxu ilə doldurulmuş 10–15 nəqliyyat arabası və s. ələ keçirildi(123).

Ayın 6-da Müsüslü cəbhəsində yenə də ciddi bir irəliləyişə nail olunmadı. Yalnız Ağsu cəbhəsindən köməyə gəlmiş 46-cı piyada taboru ilə mürəttəb süvari alayından ibarət Həsən bəyin dəstəsi Qaraqoyunluda Ağsu ilə Kürdəmirdə cəmləşən düşmənin rabitə xəttini qırdı. Həsən bəyin dəstəsinin buradakı cəbhə xəttinə yetişməsi ayın 7-də gözlənilirdi. Ayın 7-də döyüşlərin əsas ağırlığı da elə Müsüslü cəbhəsinə keçirildi. Həmin gün Müsüslü dəstəsinə dəmir yolu boyunca, Həsən bəyin dəstəsinə isə şimaldan irəliləməklə Kürdəmiri tutmaq vəzifəsi verilmişdi. Qafqaz İslam Ordusunun əsas qüvvələri Ağsu ətrafında cəmləşdiyindən Kürdəmir üzərinə hücum edən qüvvələr L.Biçeraxovun dəstəsi və zirehli avtomobilləri ilə gücləndirilmiş Qırmızı Ordunun müqavimətini qırmağa bəs etmədi.

Bolşevik-daşnak qoşunları Kürdəmirin ətrafında dairəvi müdafiə xətti yaratmışdılar. Türk-Azərbaycan qoşunlarının şimaldan ehtimal edilə biləcək hücumunun qarşısını almaq üçün Kürdəmirdən şimala uzanan yolun üzərindəki Qarasaqqal kəndinə müdafiə postu qoyulmuşdu. Həmin yolla Kürdəmirə doğru irəliləyən Həsən bəyin dəstəsinin buradakı ilk döyüşü də elə bu postda dayanan qüvvə ilə oldu. 150 nəfərlik təxmin edilən bu düşmən qüvvəsi ilə döyüş Həsən bəyin dəstəsi üçün uğurla başa çatdı və tezliklə Qarasaqqal kəndi ələ keçirildi. Qırmızı Ordu qərargahında Qarasaqqalın ələ keçirildiyi xəbəri alınan kimi bu istiqamətə dərhal əlavə qüvvələr göndərildi. Q.Korqanovun S.Şaumyana göndərdiyi döyüş raportundan aydın olur ki, bu istiqamətdə Qırmızı Ordunun 1-ci briqadası, Biçeraxovun dəstəsi və Təlimatçılar məktəbinin bölmələri iştirak edirdilər (124). Çünki dəmir yolu xətti boyunca olan bataqlıqlar burada müdafiəni etibarlı qurmağa imkan verdiyi halda Qarasaqqal istiqamətində təbii maneələr yox idi. Ona görə də bu istiqamətdəki döyüşlər Kürdəmirin taleyi üçün daha böyük əhəmiyyətə malik idi. Bunu yaxşı anlayan Qırmızı Ordu komandanlığı Qarasaqqal istiqamətinə əlavə olaraq xeyli qüvvə göndərdi.

Əvvəlcə Kürdəmirdən 350-yə qədər piyada, 3 pulemyot və 2

topdan ibarət bir qüvvə Həsən bəyin dəstəsinin qarşısına çıxarıldı. Günortadan az keçmiş isə 5 top, 2 pulemyot və 250 nəfərlik başqa bir qüvvə Həsən bəy dəstəsinə qarşı göndərildi. Bolşevik-daşnak qüvvələrinin çoxluğu Həsən bəyin dəstəsini çətin vəziyyətə saldı. Dəstənin mühasirə olunmaq təhlükəsi yarananda Həsən bəy döyüşçülərə geri çəkilmək əmri verdi. Dəstə həmin günün axşamını Müsüslü kəndində keçirdi(125).

Müsüslü dəstəsi də səhər erkən hücuma keçdi. Dəstədən üç bölük miqdarında bir qüvvə bataqlıq sahənin şərq tərəfinə keçib bolşevik qoşunları üzərinə hücum etdi. İki taqım miqdarında bir qüvvə isə dəmir yolunun şimal tərəfi ilə Kürdəmirə doğru irəliləməkdə idi. Qarşı tərəflər arasında döyüşlər 12 saata qədər davam etdi. Müsüslü dəstəsinin süvariləri Kürdəmirin cənub tərəfi ilə xeyli irəli gedə bilmişdilər. Lakin Biçeraxov ixtiyarında olan bütün qüvvələri səfərbər edə bilməklə Müsüslü dəstəsinin hücumlarının qarşısını saxlaya bildi. Daha ağır vəziyyətə düşməmək üçün irəli hərəkət etmiş milli qüvvələr yenidən bataqlığın qərb tərəfinə, ilkin mövqelərə qayıtdılar. Gün ərzində gedən döyüşlər zamanı Həsən bəyin dəstəsindən 5 nəfər şəhid olmuş, 12 nəfər isə yaralanmışdı. Müsüslü dəstəsindəki Azərbaycan milli qüvvələrindən 8 nəfər şəhid olmuş, 2-si zabit olmaqla 12 nəfər yaralanmışdı. Müsüslü dəstəsinin sərəncamına verilmiş 60-cı tabordan da 5 nəfər şəhid olmuş, 50-dən çoxu isə yaralanmışdı (126).

Kürdəmir uğrunda aparılan döyüşün ilk günlərində türk-Azərbaycan qoşun hissələrinin verdiyi itkilər daha çox idi. Mərmi və cəbbəxana ehtiyatı da azalmaq üzrə idi. Heç şübhəsiz ki, iyulun 7-də ilk döyüşə girən Biçeraxov ona bağlanan ümidlərin heç də əbəs olmadığını sübut etmək üçün bütün imkanlarını və qüvvələrini səfərbər etmişdi. Türk-Azərbaycan qoşun hissələrinin azlığı və coğrafi şəraitin bolşevik-daşnak qoşunları üçün daha münasib olduğundan onlar Müsüslü dəstəsi ilə Həsən bəyin dəstəsinin qarşısını saxlaya bilmiş, hətta şimal istiqamətində Ağsuya doğru müəyyən qədər irəliləyə bilmişdilər.

Qarşıya qoyulan vəzifəni icra etmək və bolşevik-daşnak qoşunlarının hücumlarının genişlənməsinə yol verməmək üçün 5-ci Qafqaz diviziyası komandanlığı Kürdəmir cəbhəsindəki qüvvələri

yenidən qruplaşdırdı. 13-cü piyada alayı Kürdəmir ətrafına yönəldildi. Bu alay Həsən bəyin dəstəsini yenidən öz sərəncamına alaraq şimal tərəfdən Kürdəmir üzərinə hücum etməli idi. Diviziya komandanlığı əsas diqqəti məhz bu istiqamətə yönəltmişdi. Cəbhənin qarşı tərəfində böyük bataqlıq ərazilərin olması burada hücumların genişləndirilməsinə imkan vermirdi. Ona görə də cəbhənin qarşı tərəfindən hərəkətə başlayacaq Müsüslü dəstəsinə, əsasən, düşmənin diqqətini yayındırmaq, onun əsas zərbə gücünün şimal tərəfə, 13-cü alay cəbhəsinə istiqamətlənməsinə yol verməmək idi. İyulun 8-də 10-cu alay da Şamaxıya doğru hücumlarını davam etdirməli idi (127).

Müsüslü cəbhəsində qüvvələrin gücləndirilməsi üçün İslam Ordusu komandanlığı digər imkanları da arayırdı. İyulun 7-də Nuru paşa Ordu ərkani-hərb rəisi Nazim bəyə göstəriş verdi ki, Ağdaş və Xaldan məntəqələrində toplana biləcək bütün qüvvələri təcili surətdə Müsüslüyə göndərsin. Bir gün sonra Nuru paşanın Mürsəl bəyə göndərdiyi teleqramında deyilirdi ki, Qazaxa gətirilmiş olan 350 nəfər silahsız könüllü də Bərgüşad stansiyasına göndərilir (128).

İyulun 7-də döyüşlər, əsasən, Kürdəmir ətrafında cərəyan etdiyi bir vaxtda Göyçayın şimalındakı erməni kəndlərindən bolşevik-daşnak qoşunlarının bir bölməsi 5-ci Qafqaz diviziyasının arxasına zərbə vurmağa cəhd göstərdi. Burada döyüş axşama qədər davam etdi. 5-ci Qafqaz diviziyası komandanlığı tərəfindən döyüşə əlavə qüvvələrin gətirilməsi ilə bolşevik-daşnak bölməsinin müqaviməti qırıldı və o, şimala doğru geri çəkilmək məcburiyyətində qaldı(129).

Elə həmin gün, yəni iyulun 7-də Qafqaz İslam Ordusu komandanı yeni Osmanlı padşahı VI Mehmet Vəhidəddindən teleqram aldı. İyulun 3-də vəfat edən qardaşı V Mehmet Rəşadın yerinə iyulun 4-də taxta çıxan VI Mehmet Vəhidəddinin Qafqaz İslam Ordusu komandanına göndərdiyi teleqramında deyilirdi: «Əmirəlmömünün Ulu Xaqan Baş komandanımız qardaşım Sultan Mehmet xan həzrətlərinin həpimizi ağladan zayesi ilə əmri-komandanınızı ələ alıram. Sənələrdən bəri pək müşkülat içində Osmanlı və islam tarixinə xanədanım üçün şanlı səhifələr əlavə edən

siz arslanlara, yurdun qəhrəman yavrularına məmnuniyyəti-şahanəmi bəyan edir, bu uğurda haqqın rəhmətinə qovuşaraq ər meydanında can vermiş olan şühədayı kəmali-hörmətlə anıram. Vətənimizin səlaməti üçün şimdiyə degin pək şanlı bir surətdə qəhrəman mütəfəkkirlərimizlə omuz-omuza davam etdiyiniz müvəffəqiyyətlə dolu hərb sənələri hər halda azalmaqdadır. Fəqət hənuz bitməmişdir. İştə bu ana qədər olduğu kimi cənabi-haqqın haqlı davamızda daima bizimlə bərabər olacağına zərrəcə şübhə etməyərək eyni savleti-cəsuranə ilə düşmənlə savaşmaya davam ediniz. Hər yerdə kəmali-şan və şərəflə daşıdığınız sancağım sizə daima zəfər və müvəffəqiyyət yolu göstərsin. İnayəti-bəri və imdadi-ruhaniyyət həzrəti-peyğəmbəri siz qəhrəman əsgərlərimizin tuin və zəfəri olsun. Mehmet Vəhidəddin» (130).

İyul ayının 8-də Kürdəmir cəbhəsində tərəflər arasında ağır döyüşlər oldu. Düşmənə əsas zərbənin 13-cü alay tərəfindən vurulacağı nəzərdə tutulsa da, Qırmızı Ordu komandanlığının bura xeyli qüvvə çıxarması vəziyyəti kifayət qədər mürəkkəbləşdirdi. Döyüşün əhəmiyyətini yaxşı başa düşən Biçeraxov və onun yanındakılar 13-cü alaya qarşı 8 top və 8 pulemyotla müşayiət olunan bir qüvvə göndərmişdilər. Döyüş gecəyə kimi davam etdi. Ciddi müqavimətlə rastlaşan 13-cü alay iyulun 8-i gecəsini İbrahimbəyli və Qarasaqqal kəndləri arasında keçirməli oldu. Müsüslü dəstəsinin fəaliyyəti də gün ərzində cəbhədəki mövqelərdə ciddi bir dəyişiklik yaratmadı. Düşmənin zirehli qatardan istifadə etməsi və Kürdəmirin ətrafındakı yaşıllıqdan müdafiə məqsədilə bacarıqla bəhrələnməsi onların müqavimətini xeyli artırırdı(131).

Kürdəmir ətrafında türk-Azərbaycan qoşunları ağır döyüşə girib tutduqları mövqelərdən geriləməyə yol verməsələr də, Şamaxı istiqamətində hücum etməli olan 10-cu alay düşmənin təzyiqinə davam gətirməyib müəyyən qədər geri çəkilmək məcburiyyətində qaldı. Bununla da Gürcüvan kəndi yenidən bolşevik-daşnak qüvvələrinin əlinə keçdi. Bolşevik qoşunları Ağsuya doğru irəliləməyə başladılar. Buradakı döyüşün nəticələri barədə Bakıya göndərilən teleqramda bildirilirdi ki, Qırmızı Ordu qüvvələri artıq Ağsunun 10 kilometrliyindədir və bu istiqamətdə yalnız sonuncu hündürlüyü tutmaq qalmışdır. Həmin döyüşlərdə

Şamaxının erməni kəndlərinin əhalisindən təşkil edilmiş taboru fəal iştirak edirdi. 800 nəfərdən ibarət olan həmin tabora erməni Qazarov rəhbərlik edirdi. Bolşevik-daşnak qoşunlarının rəhbərləri Qarakənd və Mədrəsə kəndlərinin əhalisinin onlara göstərdiyi yardımlardan da razılıq edirdilər (132).

Şamaxı istiqamətində Meysarı və Mədrəsə ətrafındakı döyüş xüsusilə gərgin keçdi. Çoxsaylı toplarla himayə olunan bolşevik-daşnak qüvvələri Meysarı-Mədrəsə ətrafında 10-cu alayın ön bölmələrinin müqavimətini qıraraq onları geri atdılar. Muğanlı kəndi yaxınlığında 10-cu alayın qüvvələri düşmənin qarşısını kəsməyə cəhd göstərdilər. Sol cinahda olan 30-cu tabor düşmənə kifayət qədər müqavimət göstərə bilsə də, sağ cinahda olan 29-cu taborun güllələrinin qurtarması döyüşün uduzulması ilə nəticələndi. 29-cu taborun döyüşçüləri öz mövqelərini, hətta süngü ilə qorumağa çalışsalar da, bu, bir nəticə vermədi. Nəticədə, 10-cu alay Şərədil dağlarına tərəf geri çəkildi (133).

İyul ayının 9-da Kürdəmir ətrafında döyüşlər davam etdirildi. Mövqe xarakteri daşıyan bu döyüşlərdə 13-cü alay Kürdəmirin şimal tərəfindən azacıq irəliləməyə nail ola bildi. Bununla belə, cəbhədə ciddi bir mövqe dəyişikliyi baş vermədi.

İyul ayının 10-da Kürdəmir ətrafındakı döyüşlər yenidən davam etdirildi. 13-cü alay yenə də şimal istiqamətində, Müsüslü dəstəsi isə dəmir yolu xətti boyunca hücumu davam etdirməli idi. Hələ gecə ikən başlayan bu döyüşün gedişində 13-cü alayın tərkibində olan mürəttəb süvari alayından bir dəstə Kərrar stansiyasına göndərildi ki, düşmənin arxasında dəmir yolu xəttini dağıtsın və onun geri çəkilməsini çətinləşdirsin. Həmin dəstə ona verilən tapşırığı yerinə yetirdikdən sonra Kürdəmirlə Kərrar stansiyası arasında özünə döyüş mövqeyi tutdu. 13-cü alayın hücumu da uğurla başladı. Bu alay onun qarşısındakı düşmən qüvvələrini Kürdəmirə doğru xeyli sıxışdıra bildi. Əgər bu ərazidə yaşıllıqlar olmasaydı, düşmənin müqaviməti daha tez qırıla bilərdi. Qırmızı Ordu komandanlığı Kürdəmirin şimalında gedən döyüşün heç də onların xeyrinə cərəyan etmədiyini görəndə Müsüslü dəstəsi ilə üzbəüz olan bəzi bölmələri 13-cü alayın cəbhəsinə atdı. Həmin bölmələrin gətirilməsi Kürdəmirin şimalındakı bolşevik-daşnak qüvvələ-

rinin güclənməsinə səbəb oldu və nəticədə 13-cü alayın sağ cinahına ciddi təhlükə yarandı. Bir tərəfdən alay bölmələrinin fədakarlığı, digər tərəfdən də diviziyadan 13-cü alaya mümkün kömək göndərilməsi bolşevik-daşnak qüvvələrinin təzyiqinin qarşısını almağa imkan verdi. Qazaxdan Bərgüşada gətirilmiş 350 nəfərlik dəstə də silahlandırılaraq 13-cü alayın tabeliyinə verildi. Həbib bəy Səlimovun rəhbərlik etdiyi Müsüslü dəstəsi isə onun qarşısında düşmən qüvvələrinin zəifləməsindən məharətlə istifadə etdi və saat 13.55-də Müsüslü dəstəsi düşmənin müdafiə xəttini yarmağa müvəffəq oldu.

Bolşevik-daşnak qüvvələri bütün cəhdlərinə baxmayaraq, 13-cü alay cəbhəsində də hücumun qarşısını saxlaya bilmədilər.

Axşama yaxın 13-cü alayın sağ cinahı ilə Müsüslü dəstəsinin sol cinahı Kürdəmirin qərbində birləşdi. Bir neçə saatdan sonra isə 13-cü alayın və Müsüslü dəstəsinin bütün qüvvələri Kürdəmirin şərqində birləşdilər və qəsəbə düşməndən tamamilə azad edildi (134).




**Kürdəmirin azad edilməsi üçün keçirilən döyüşün planı**

Müsüslü dəstəsinin komandanı Həbib bəy Səlimov iyulun 10-da Azərbaycan korpusunun komandanına və Qafqaz İslam Ordusunun komandanına göndərdiyi teleqramında hücumun uğurla davam etdiyini və düşmənin geri çəkilməkdə olduğunu bildirirdi. «Mən üstün düşməni təqib edirəm.» – yazan H.Səlimov bu teleqramı artıq polkovnik(miralay) rütbəsində imzalamışdı (135).

Kürdəmir ətrafındakı döyüşün gedişində Müsüslü dəstəsinin tərkibində olan 1-ci Tatar süvari alayının komandanlığı ikinci bölüyə tapşırıq vermişdi ki, bolşevik qüvvələrinin arxasına keçib onlara zərbə vursun. İkinci bölüyün süvariləri də dərhal bu tapşırığın icrasına yollandılar. Kürdəmir azad ediləndə bu bölük cənub istiqamətindən stansiyaya yaxınlaşırdı. Türk-Azərbaycan qoşunlarının hissələri arasındakı rabitədə müəyyən gərginlik yarandığından şimaldan stansiyaya yaxınlaşan qüvvələr ikinci bölüyün süvarilərini bolşevik süvariləri güman edib onları güclü atəşə tutdular. Bu vaxt 13-cü alay və onun sərəncamına verilmiş bölmələrdən ibarət olan dəstədən yunker Qasımov kəşfiyyata göndərildi və o, vəziyyəti öyrəndikdən sonra xəbər gətirdi ki, cənubdan yaxınlaşan süvarilər heç də bolşevik süvariləri deyildir (136).

Kürdəmir ətrafındakı döyüşdən sonra Qırmızı Ordu qüvvələri Kərrar stansiyasına çəkilib burada yeni müdafiə mövqeləri tutdular. Bu qüvvələrin geri çəkilməsi zirehli avtomobillər tərəfindən himayə olunurdu. Türk-Azərbaycan qoşun bölmələri həmin zirehli avtomobilləri mühasirəyə almağa cəhd göstərdilər. Əgər sonradan Qırmızı Ordunun piyada bölmələri yetişməsəydi, zirehli avtomobillərin mühasirədən çıxması da çox çətinləşəcəkdi (137).

Kürdəmirin azad edilməsi hərbi təşəbbüsün türk-Azərbaycan qoşunlarının əlində daha da möhkəmlənməsinə kömək etdi. Qırmızı ordunun vəziyyəti isə pisləşməkdə davam edirdi. Bunu iyulun 13-də V.Leninə göndərdiyi teleqramında S.Şaumyan da etiraf edirdi. Bakı bolşeviklərinin lideri V.Leninə çatdırırdı ki, Rusiyadan ciddi kömək gəlməsə, vəziyyəti düzəltmək mümkün olmayacaqdır: «Cəbhədə vəziyyət pisləşir. Təkcə bizim qüvvələrimiz kifayət deyildir. Rusiyadan ciddi kömək lazımdır. Mən Həştərxana və Saritsinə İ.Stalinə teleqram göndərmişəm. Siz də göstəriş verin. Vəziyyət çox qarışıqdır...»(138). V.Lenin isə elə

həmin gün Dəniz işləri üzrə Xalq Komissarlığına göndərdiyi məktubunda təkidlə xahiş edirdi ki, Xəzər dənizinə hərbi gəmilərin göndərilməsi sürətləndirilsin (139).

Ağsu cəbhəsində də Qırmızı Ordu bölmələrinin irəliləməsinin qarşısı alındı. Qüvvə və sursat qıtlığı üzündən qətiyyətli hücuma keçə bilməyən Qafqaz İslam Ordusu qüvvələri Şərədil dağlarında müdafiə olunaraq bolşevik və daşnakların bütün hücumlarını dəf etdilər. İyulun 10–12-si arasında bu istiqamətdə gedən döyüşlərdə bolşevik qoşunları artıq irəliyə gedə bilmədilər (140).

Kürdəmir azad edildikdən sonra 5-ci Qafqaz diviziyası komandanlığı 13-cü piyada alayını yenidən şimala tərəf çəkməyi planlaşdırırdı. Bu alay Ağsu–Şamaxı–Bakı yolu boyunca 10-cu alayla bərabər hücumlarını davam etdirməli idi. Dəmir yolu boyunca isə yenə də Müsüslü dəstəsi irəliləməli idi. Dəstənin bəzi bölmələr hesabına gücləndirilməsi planlaşdırılırdı. Ən yaxın vaxtlar üçün bu dəstənin qarşısında dayanan vəzifə düşməni Kərrar stansiyasından vurub çıxarmaq idi.

Kərrar üzərinə hücumun uğurlu təşkili üçün Müsüslü–Kürdəmir yolunun düşmən tərəfindən dağıdılmış hissələri təmir edildi ki, bu da arxa ilə əlaqələri xeyli yaxşılaşdırmağa imkan verdi. Kərrar stansiyasına hücumla bağlı iyulun 11-də axşam 5-ci Qafqaz diviziyası komandanı Mürsəl bəy Müsüslü dəstəsinə belə bir döyüş əmri verdi: «Bir tabor piyada, mürəttəb süvari alayı, Müsüslü müfrəzəsindəki süvari bölükləri və səhra topları ilə piyadaları və 13-cü alayın əmrindəki rus səhra taqımından ibarət müfrəzə qayməqam Həbib bəy (H.Səlimov artıq miralay idi–M.S.) komandanlığında 12.7.334 (1918) günü hərəkət və Kərrar stansiyasını və civarındakı düşməni tərd etməli və bu stansiyanı işğal etməlidir. Eyni zamanda bir qisim qüvvətlə də Qarasaqqal köyündəki düşmən də tərd edilməlidir» (141).

İyul ayının 12-də Müsüslü dəstəsi Kərrar stansiyası üzərinə hücum etdi. Döyüş bütün günü davam etsə də, dəstənin qarşısına qoyulan vəzifəni həll etmək mümkün olmadı. Bunun əslində, bir neçə obyektiv səbəbi var idi. Əvvəla, düşmən xeyli güclü idi. Onun 2 zirehli qatarı, bir neçə zirehli avtomobili və 8 ədəd topu var idi. Kərrar stansiyasının ətrafı düzənlik sahələr idi. Ona görə

də Müsüslü dəstəsinin irəliyə hərəkəti açıqca müşahidə edilir və mövcud olan güclü silahlar vasitəsilə onların qarşısı saxlanılırdı. Qarasaqqal kəndi ətrafında olan düşmən qüvvəsini məhv etmək üçün Ağsudan diviziya ehtiyatı kimi saxlanılan 25-ci taborun iki bölüyü və bir pulemyot taqımı gətirildi. Ancaq bu qüvvələrin də bolşevik-daşnak qüvvələrini Qarasaqqaldan çıxarmağa gücü çatmadı. Belə olanda diviziya komandanlığı şimala çəkilməsi nəzərdə tutulan 13-cü piyada alayını yenidən Müsüslü dəstəsi ilə bir cəbhədə döyüşə qatmağı qərara aldı (142).

İyulun 13-də 13-cü piyada alayının iştirakı ilə Kərrar stansiyası üzərinə hücum yenidən davam etdirildi. Döyüşlərin gedişində Müsüslü dəstəsi stansiyanın 400 metrlik bir məsafəsinə, 13-cü alay isə şimaldan 800 metrlik yaxınlığına çatdı. Qarasaqqal kəndi isə düşməndən təmizləndi. Bununla belə, stansiyanı almaq yenə mümkün olmadı. Bolşevik-daşnak qüvvələri sərəncamlarında olan ağır texnikanın bütün imkanlarından istifadə edərək stansiyanı müdafiə edə bildilər. Xüsusilə də zirehli qatarlar düşmənin müqavimətini xeyli artırırdı. Nuru paşa elə həmin gün Mürsəl bəyə göndərdiyi teleqramında tələb edirdi ki, düşmənin zirehli qatarının zərərsizləşdirilməsi üçün ya dəmir yolu xətti dağıdılsın, ya da topların atəşi ilə qatar xarab edilsin (143).

Buna müvafiq olaraq Mürsəl bəy Müsüslü dəstəsinin sərəncamında olan diviziya istehkam bölüyünə əmr verdi ki, gecə ikən Kərrarın şərq tərəfinə hərəkət etsin və burada dəmir yolu xəttinin bir hissəsini dağıtsın. Sonra isə bölük digər bölmələrlə birlikdə döyüşü davam etdirsin. (144).

İyulun 14-də Kərrar stansiyasına hücum davam etdirildi. 13-cü alayın bölmələri stansiyanın şərqinə doğru irəliləyib düşmənin arxasını kəsməyə cəhd göstərdi. Bolşevik-daşnak qüvvələri görünür, Kərrar stansiyasının taleyinin artıq həll olunduğunu görüb əvvəlki kimi müqavimət göstərmədi və Sığırlı stansiyasına tərəf geri çəkildi. Beləliklə, iyulun 14-də Kərrar stansiyası Qafqaz İslam Ordusu hissələri tərəfindən azad edildi. Döyüşün gedişi ilə bağlı verilən raportlarda bildirilirdi ki, Kürdəmir-Qarasaqqal ətrafındakı döyüşlərdə xüsusi xidməti olan Həsən bəy iyulun 13-də aldığı yaradan şəhid olmuşdur (145).

İyul ayının 14-də S.Şaumyan yenidən cəbhə bölgəsinə gəldi. O, Kərrar stansiyası ətrafında uğursuzluq məngənəsindən çıxa bilməyən Qırmızı Ordu hissələrinin vəziyyəti ilə tanış oldu. L.Biçeraxov vəziyyətin düzəldilməsi üçün bir də ondan yeni hissələrin təşkil edilib cəbhə xəttinə göndərilməsini xahiş etdi. S.Şaumyan bu xahişə əməl olunacağına söz verib geri qayıtdı(146). Geri qayıtdıqdan sonra S.Şaumyan Bakı Sovetinin fövqəladə iclasında cəbhədə vəziyyətin heç də onların xeyrinə olmadığını bildirdi və təcili tədbirlər görülməsinin zəruriliyini vurğuladı (147). Ancaq hərbi təşəbbüsün artıq Qafqaz İslam Ordusunun əlindən alınmasının heç də asan olmayacağı artıq çoxlarına məlum idi. Kürdəmir-Kərrar stansiyası ətrafındakı döyüşlərdən sonra bunu L.Biçeraxov da anlamışdı. Xüsusən də Qırmızı Ordu döyüşçüləri arasında anarxiyanın güclənməsi, özbaşınalıq və məsuliyyətsizlik L.Biçeraxovun kazak dəstəsi ilə bolşevik-daşnak qüvvələri arasında gərginliyi xeyli artırmışdı. Bu məsələ ilə bağlı ingilis generalı Denstervil öz xatirələrində belə bir hadisəni təsvir edirdi: «Bir dəfə Biçeraxov öz kazaklarının bir eskadronuna əmr etdi ki, zirehli avtomobilin müşayiəti ilə kəşfiyyata yollansın. Bu dəstə körpülərdən birinin üstündən keçib kəşfiyyata getdi. Onlar gedən vaxt körpü Qırmızı Ordunun əlində idi. Qayıdanda isə gördülər ki, körpü türk-Azərbaycan qoşunları tərəfindən tutulub. Kazak süvariləri öz əsas dəstəsi ilə birləşmək üçün döyüşə girdilər. Gərgin keçən bu döyüşdə onlar çoxlu itki verərək özlərinə yol aça bildilər. Zirehli avtomobil isə türk-Azərbaycan qoşunlarının əlində qaldı. Qırmızı Ordu əsgərləri tərəfindən ağır vəziyyətə salınan və heç bir kömək almayan kazak süvarilərində bu hadisədən sonra bolşevik qüvvətlərinə qarşı narazılıq xeyli artmışdı» (148).

Bununla belə, L.Biçeraxov türk-Azərbaycan qoşunlarının qarşısını saxlamaq üçün Bakıdan kömək göstəriləcəyinə ümidini kəsmirdi. O təkid edirdi ki, Bakıda toplanmış olan çağırışçılar dərhal cəbhə xəttinə göndərilsin. Yeni qüvvələrin bir hissəsini L.Biçeraxov ön xəttə göndərmək, bir hissəsini isə Hacıqabulda saxlayaraq ehtiyat yaratmaq istəyirdi(149).

Cəbhə xəttinin gücləndirilməsi üçün iyulun 14-də Qafqaz İslam Ordusu tərəfindən bəzi tədbirlər həyata keçirildi. Həmin gün Ləzgi

süvari alayı Yevlaxdan dəmir yolu vasitəsilə Kürdəmirə göndərildi. Bu alayın döyüş təcrübəsini nəzərə alaraq Qafqaz İslam Ordusu komandanlığı onun dağlıq şəraitdə istifadə edilməsini məqsədəuyğun bilirdi. Bundan başqa, yenicə Azərbaycana gəlib çıxmış olan 38-ci alayın cəbəl top batareyasının da Ağstafadan Kürdəmirə göndərildiyi bildirilirdi (38-ci alay 15-ci diviziyaya aid idi–M.S.). Ordu komandanlığı bu qüvvənin də şimal xətti boyunca istifadəsini lazım görürdü. Əlavə olaraq Ağstafadan dəmir yolu ilə Kürdəmirə 250 sandıq güllə və 600 ədəd mərmi göndərilmişdi (150).

İyul ayının 15-i cəbhədə sakitlik oldu. Sabahısı gün isə yalnız şimal istiqamətində 150–200 nəfərlik düşmən qüvvəsi Zərnəva ətrafında fəallaşmağa cəhd göstərsə də, 10-cu Qafqaz piyada alayı tərəfindən bu qüvvənin hücumlarının qarşısı alındı (151).

### *6. Cəbhədə struktur dəyişikliyi. Şamaxı və Hacıqabul ətrafında baş verən döyüşlər*

Qırmızı Ordu hissələrinə qarşı aparılan mübarizənin daha çox səmərəliliyinə nail olmaq və Bakıya doğru hərəkəti sürətləndirmək məqsədilə Qafqaz İslam Ordusu komandanlığı cəbhədə vuruşan qoşun hissələrində yenidən qruplaşma apardı. Bu qruplaşmanın aparılmasını şərtləndirən əsas amil ondan ibarət idi ki, Göyçay–Şamaxı şosse yolu və Tiflis–Bakı dəmir yolu boyunca irəlilədikcə qoşun hissələri bir-birindən məsafəcə daha da uzaqlaşırdılar. Belə olanda onları çevik idarə etmək, sürətli manevrlər aparmaq xeyli çətinləşirdi. Nuru paşa hələ iyulun 14-də 5-ci Qafqaz diviziyası komandanı Mürsəl bəyə göndərdiyi teleqramında soruşurdu ki, dəmir yolu boyunca hərəkət edən dəstə ilə şimaldakı dəstə ayrı-ayrı komandalara bölünəcək, yoxsa diviziya tərkibində bir komanda halında qalacaqdır? Ordu komandanı dəstələrin ayrı-ayrı komandalara bölünəcəyi halda həmin komandalara rəhbərliyin kimlərə tapşırıla bilməsi barədə Mürsəl bəyin təkliflərini də öyrənmək istəyirdi (152).

Kürdəmir və Kərrar ətrafındakı döyüşlər də göstərdi ki, hissələrin bir istiqamətdən digərinə atılması həm fiziki imkanların məhdudluğu üzündən münasib deyildi, həm də bir istiqamətdə

qüvvələrin gücləndirilməsi ilə digər istiqamətdə qüvvələr zəifləyirdi. Güclü düşmənə qarşı belə bir şəraitdə mübarizə aparmaq isə heç də həmişə müsbət nəticələr verə bilməzdi. Ona görə də 5-ci Qafqaz diviziyası, 15-ci diviziyanın 38-ci alayının bölmələri və Azərbaycan milli qüvvələrindən ibarət olan hissələr və bölmələr iki taktiki qrupa bölündü. Həmin qruplar Şimal (quzey) və cənub (güney) qrupu adlandırıldılar. Şimal qrupu Şamaxı üzərindən Bakıya doğru irəliləməli idi. Qrupun komandanı 10-cu piyada alayının komandiri yarbay Osman bəy təyin edildi. Şimal qrupuna yarbay Əhməd Rza bəyin komandirliyi altında olan 13-cü Qafqaz piyada alayı, yarbay Səlim bəyin komandirliyi altında olan 10-cu Qafqaz piyada alayı, süvari minbaşı Zehni bəyin komandirliyi altında olan Zehni bəy dəstəsi və ehtiyatda saxlanılan 25-ci, 26-cı və 28-ci taborlar daxil idi. Cənub qrupunun komandanı isə Həbib bəy Səlimov təyin edilmişdi. Bu qrupa Müsüslü dəstəsi, 26-cı tabordan bir piyada bölüyü, diviziyanın istehkam bölüyü, iki ədəd top və bir zirehli qatar daxil idi. Azərbaycana yenicə daxil olmuş 38-ci alayın yalnız bir taboru Cənub qrupunun tərkibinə verilmişdi. Alayın 3-cü taboru Gəncədə, 1-ci taboru isə ehtiyatda saxlanılmışdı. Alay belə parçalandığı üçün onun komandiri Səlim bəy 10-cu alaya komandir təyin edildi. Həmin alayın komandiri Şimal qrupuna komandan təyin edildiyindən bu alay başsız qalmışdı. Şimal və Cənub qrupları isə Şərq cəbhəsi komandanlığı altında birləşdirildi (bu komandanlıq bəzən Bakı cəbhəsi komandanlığı da adlandırılır–M.S.). Cəbhənin komandanı Mürsəl bəy təyin edildi (153).

İyulun 16–18-də Şimal və Cənub qruplarının təşkilatlanması başa çatdı. Həmin günlər ərzində qrupların cəbhəxana və ərzaq təchizatı istiqamətində də bir sıra addımlar atıldı.

Kərrar stansiyası ətrafında döyüşlər getdiyi vaxt Salyan ətrafında da hərbi şərait mürəkkəbləşdi və burada bolşevik-daşnak qoşunları ilə türk-Azərbaycan qoşunları arasında növbəti döyüş baş verdi. Qırmızı Ordunun 3-cü və 5-ci taborlarından təşkil edilmiş bir dəstə burada mövqe tutmuşdu. Dəstənin komandiri öz daşnak fəaliyyəti ilə bölgədə ad çıxarmış erməni Ter-Avakimov idi (154). Bu dəstəyə qarşı isə Nazim bəy Ramazanovun komandirliyi altında

35–40 nəfərlik kiçik bir bölmə mövqe tutmuşdu. Bu bölmənin iki ədəd «maksim» pulemyotu və iki ədəd topu var idi. Nazim bəyə başqa bir azərbaycanlı zabit Sultan Hüseynzadə kömək edirdi. Döyüşün başlanması ərəfəsində Sərxan Şirvanlının rəhbərliyi altında yerlilərdən ibarət könüllülər dəstəsi də bolşeviklərə qarşı mübarizəyə qoşuldular (155).

Türk mənbələrinə görə, Qırmızı Ordu dəstəsinin tərkibində 50 süvari, 400 piyada, 12 pulemyot, 2 top və iki gəmi var idi. Hacıqabulda olan iki düşmən təyyarəsi də havaya qalxaraq hər gün buradakı türk-Azərbaycan bölmələrinin mövqelərinə bomba atırdı (156).

Əlavə olaraq 100 nəfər salyanlının qoşulduğu türk-Azərbaycanlı dəstəsi Salyanın kənarında olan Qaraqaşlı kəndini tutub müdafiə mövqeləri yaratmışdı. Qırmızı Ordu dəstəsi burada onların üzərinə hücuma keçdi. Qarşı duran tərəflər arasında döyüşlər üç gün davam etdi. Qırmızı Ordu qüvvələri Salyanı güclü top atəşinə tutub orada güclü dağıntılar yaratmaqla bərabər, 3–4 dəfə türk-Azərbaycan qüvvələrinin mövqelərinə hücuma keçdilər. Ancaq hər dəfə böyük itkilər verərək geri cəkildilər (157).

Çox böyük üstünlüyə malik olmasına baxmayaraq, bolşevik qüvvələri döyüşlərin 4-cü günü Salyandan geri çəkildilər. Türk-Azərbaycan döyüşçülərinin müqavimətini qırmağa qadir olmadığını görən dəstə komandiri Ter-Avakimov, əsasən, ermənilərdən təşkil olunmuş 3-cü tabora döyüş mövqelərini tərk etmək əmri verdi. Törətdikləri fəlakətlərin haqlı cəzasını alacağından qorxan daşnak elementləri xəstələri, yaralıları, silah və təchizatı ataraq canlarının xilas edilməsi hayına qaldılar(158).

Türk qoşun bölməsinin yardımı ilə Xıllı kəndi üzərinə hücum başlandı. Bu kənd də bolşevik-daşnak qüvvələrindən azad edildi. Geriyə qaçan Qırmızı Ordu bölmələri Bankədə toplaşmışdılar. Ciddi hazırlıq görüləndən sonra türk-Azərbaycan qoşun bölmələri və könüllü dəstələri iyul ayının axırlarında Bankə üzərinə hücuma keçdilər. Qırmızı Ordu bölmələri böyük sürət və dəqiqliklə həyata keçirilən bu hücumun qarşısını ala bilmədilər. Onlardan sağ qalanları çoxlu hərbi ləvazimatı ataraq gəmilərlə Bakıya qaçdılar (159).

Kür çayının mənsəbi bolşevik qüvvələrindən azad edildi. Sovet

hərbi gəmilərinin Kür çayı ilə üzüyuxarı irəliləməsinin qarşısının alınması üçün onun mənsəbində bir neçə gəmi və barj batırıldı. Salyan dəstəsinin komandiri Kür çayının mənsəbində aparılmış döyüşlərin nəticəsi barədə 5-ci Qafqaz diviziyası komandanlığına göndərdiyi məlumatında yazırdı: «...Qovulan düşməndən dördmakinalı tüfəng, 63 piyada tüfəngi, 100 sandıq piyada və top mərmisi, 7 kiçik vapur (qayıq–red.), bir miqdar benzin, duzlu balıq və sair əşya iqtinam (qənimət–red.) edilmiş, biri erməni və digərləri əcəm olmaq üzrə otuz bir kişi əsir edilmişdir. Müfrəzədən ikisi milis (azərbaycanlı könüllü–red.) olmaq üzrə 11 nəfər şəhid, 1 zabitlə 13 nəfər məcruh olmuşdur (yaralanmışdır–red.). Bu hərəkat və müharibədə 28-ci taborun 3-cü bölük komandiri, birinci mülazim Bəsri və 26-cı taborun 1-ci bölük komandan vəkili Həmdi əfəndilər ibrazi - fədakari eylədiklərindən təltifləri istənilmişdir» (160).

Türk-Azərbaycan qoşunlarının uğurları genişləndikcə Qırmızı ordu hissələrinin məğlubiyyətini bolşevik liderləri müxtəlif səbəblərlə, o cümlədən daşnakların satqınlığı və müqavimət göstərmədən vaxtından əvvəl geri çəkilməsi ilə bağlayırlar (161).

Həm Salyan–Bankə ətrafındakı döyüşlərin nəticələri, həm də Şamaxı ətrafındakı böyük məğlubiyyət də elə daşnak qüvvələrinin etibarsızlığı ilə əlaqələndirilirdi. Amma əslində, Azərbaycanın bolşevik-daşnak qüvvələrindən təmizlənməsində çox böyük əhəmiyyəti olan bu uğurun qazanılması Qafqaz İslam Ordusu komandanlığının təşkilatçılıq məharətinin, həyata keçirdiyi əsaslandırılmış hücumun məntiqi nəticəsi, habelə bolşevik-daşnak qoşunlarına qarşı cəbhə tutmuş əsgər və zabitlərin mübarizliyinin, qətiyyət və igidliyinin nümayişi idi.

Şamaxının azad edilməsi Qafqaz İslam Ordusunun döyüşlərin gedişində əldə etdiyi ən əhəmiyyətli uğurlardan biri idi. Mürəkkəb bir coğrafi şəraitdə yerləşən Şamaxının azad edilməsi həm qoşunlardan çox böyük gərginlik tələb edirdi, həm də buraların əhalisində erməni xofunu birdəfəlik silib atmalı idi. Şamaxı eyni zamanda Bakıya doğru hücum üçün başlıca strateji baza hesab edilirdi. Buna görə də Qafqaz İslam Ordusu komandanlığı Şamaxı üzərinə kifayət qədər hazırlıq görülməsini və bu hücumun qısa vaxt ərzində başa çatdırılmasını lazım bilirdi. Cəbhədə hələ struk-

tur dəyişikliyi aparılmadığı zaman Nuru paşa Mürsəl bəyə göndərdiyi teleqramında tələb edirdi ki, Şamaxı–Bakı yolunun üzərindəki, Şamaxının cənubundakı Göylər kəndinə üç qoşun növündən ibarət və süvarisi daha çox olan bir dəstə göndərsin. Onun fikrincə, Şamaxı ətrafındakı Azərbaycan kəndlərinin əhalisi silahlı idi. Qafqaz İslam Ordusu bölmələri kəndə daxil olduğu təqdirdə yerli əhali onlara sığınıb böyük müqavimət dəstələri təşkil edər və ümumi mübarizəyə öz paylarını verərdilər (162).

Tezliklə Şamaxı üzərinə irimiqyaslı hücumu həyata keçirmək qərara alındı. Həmin hücum iyulun 19-da başlanmalı idi. Mürsəl bəyin Şərq cəbhəsi komandanı kimi imzaladığı ilk sənədlərdən biri olan bu döyüş əmrində deyilirdi :

«1. Cənub qrupu qarşısında düşmənin 200 süvarisi və 700 piyadası ilə zirehli qatar və zirehli avtomobillər vardır.

Şimal qrupu qarşısında 2–3 tabor piyada, bir kaç top və makinalı tüfəng (pulemyot–red.) vardır. Bakıdan Dağıstana və Şamaxıya təqviyə qüvvətləri göndərildiyi də müstəxbərdir (məlumdur–red.).

2. Şimal qrupu 19.7.334 (1918-də) qarşısında düşməni imha etmək üzrə təərrüzə keçəcəkdir. Bunun üçün qrupun əmrinə verilən 13-cü alay şifahən görüşüldüyü vəchlə – düşmənin xətti-ricətinə düşəcək surətdə sövq olunmalıdır.

3. Cənub qrupu düşmənin təərrüzünü dəf edəcək surətdə hazır bulunmalı və Şimal qrupunun yapacağı təərrüzə düşmənin qüvvət ifraz etməsinə və göndərilməsinə mane olmalıdır. Binaənəleyh (buna görə–red.) təərrüz nümayişi yapacaq və düşmən çəkilərsə, üstünə atılacaqdır.

4. 38-ci alayın birinci taboru, mürəttəb süvari alayı və qərargahda bulunan rus dağ taqımı Şərq cəbhəsinin ehtiyatını təşkil etmək üzrə indilik Ağsuda bulunacaq. Milis süvarilərini, mürəttəb alay komandanı tərtib və tənzim edəcəkdir...» (163).

Verilmiş döyüş əmrinə görə, konkret olaraq 10-cu və 13-cü alaylara aşağıdakı vəzifələr verilmişdi. 13-cü Qafqaz alayı Ağsu ətrafındakı döyüşqabağı mövqedən Göylər kəndinə tərəf hərəkət etməli, oradan isə Şamaxının şərqinə çıxaraq Şamaxı–Bakı yolunu kəsməli və bolşevik-daşnak qüvvələrinin geri çəkilməsinin

qarşısını almalı idi. 10-cu Qafqaz piyada alayı isə Gürcüvan kəndi ətrafındakı döyüşqabağı mövqelərdən birbaşa Şamaxı üzərinə hərəkət etməli idi(164).

İyulun 19-na keçən gecə Şamaxı ətrafına şiddətli yağış yağdı. Döyüşçülər tamamilə yaş olduqları kimi, onların özlərinin və vəsaitlərinin yağışlı havada və dağ şəraitində irəliləməsi xeyli çətinləşdi. Buna baxmayaraq, hər iki alayın şəxsi heyəti sonsuz fiziki dözüm və fədakarlıq nümayiş etdirərək düşmənə ağır zərbə endirdi. Ancaq ağır hava şəraiti 13-cü alayı döyüş əmri ilə nəzərdə tutulmuş marşrutdan çıxmağa məcbur etdi. Alay döyüşqabağı mövqelərdən Göylər kəndinə və sonradan Şamaxının şərqinə deyil, Mədrəsə kəndinə gəldi. Bu isə nəzərdə tutulduğu kimi bolşevik-daşnak qüvvələrinin geriçəkilmə yolunun bağlanmasına imkan vermədi. Bununla belə, bolşevik-daşnak qüvvələri hücumun qarşısını ala bilməyəcəklərini yəqin edib hələ saat 11-də geri çəkilməyə başladılar. 10-cu Qafqaz alayının vurduğu zərbə də düşmənin vəziyyətini xeyli çətinləşdirdi. Baş verən döyüşlərdə bolşevik-daşnak qüvvələri heç bir uğur qazana bilmədilər. Saat 16.35- də isə bolşevik-daşnak qüvvələri kütləvi şəkildə Şamaxıya doğru üz tutdular (165).

İyulun 19-da düşmən öz mövqelərindən geri atılsa da, Nuru paşa ümumən həmin gün baş verən döyüşün gedişindən razı qalmadı. Onun fikrincə, 13-cü Qafqaz alayının döyüş əmrində nəzərdə tutulan marşrutdan çıxması düşməni mühasirəyə alıb məhv etmək imkanını aradan qaldırmışdı. Bolşevik qüvvələrinin ümumən sağ-salamat geri çəkilməsi onların Bakı ətrafında cəmləşməsi və Bakının müdafiəsinin möhkəmləndirilməsi ilə nəticələnə bilərdi: «Bugünkü hərəkatın nəticəsi məni məmnun etməmişdir. Çünki mən düşmənin əsarət və imhası və dolayısı ilə Bakıya çəkilməkdə müvəffəq olmamasını istəyirdim. Bunu əvvəlcə də sizə Göylər köyü üzərindən Şamaxı–Bakı yolunu kəsmək üzrə bir qolun təhrikinin (hərəkətini–red.) münasib olacağını yazmışdım. Düşmənin qüvvəsi az və hali-ricətdə (geri çəkilməkdə–red.) ikən ufaq-təfək (yüngül–red.) artçı (aryerqard–red.) qitəatı ilə iki alayın iştiğalı və bunlardan 13-cü alayın Mədrəsə köyü üzərinə dönməsi məqsədə müvafiq bir hərəkət deyildir. Binaənəleyh, əli-

nizdəki süvari qüvvətlərinin kailən və qayət erkən, düşməni uzaqdan çevirəcək surətdə təhrik ediniz. Ya səbükbar (yüngül-red.) piyada qüvvəti sövq edərək və ya hər süvari heyvanına bir piyada mindirərək əsl süvari qüvvəsini təqviyə edə bilərsiniz. Yarınki hərəkətin nəticəsinin buna görə istehsalına intizar ediyoram» (166).

Bundan başqa, Nuru paşa İstambuldan aldığı teleqramın surətini də Şərq cəbhəsi komandanlığına göndərdi. Həmin teleqram «İstambuldan alınan məhrəm (məxfi–red.) əmrdən Bakının qayət səri (sürətlə–red.) hərəkətlə işğal edilməsinin işar buyurulduğu və buna görə də hərəkət edərək düşməni təqib və əhatədə fəaliyyət göstərilməsi» haqqında idi (167).

İyul ayının 20-si üçün Şimal qrupuna Çuxanlı-Məlikçoban məntəqələri arasındakı mövqelərə çıxmaq və düşmən qüvvələrini təqib etmək tapşırığı verilmişdi. Baxmayaraq ki, hava yenə çox yağmurlu keçdi. Ayın 19-da başlanan uğurlu hücum ayın 20-də davam etdirildi. Düşmənin bütün müqavimətini qıran Şimal qrupu Çuxanlı-Məlikçoban xəttinə çıxa bildi. Döyüşlərin gedişində düşmənin bir topu, üç toparlağı, iki pulemyotu, biri zirehli olmaq üzrə üç ədəd avtomobili, 15 sandıq güllə və s. əşyaları ələ keçirildi (168).

Ümumən gün ərzində gedən döyüşlərdə bolşevik-daşnak qoşunlarını əhatə etmək fikri öz qüvvəsində qalmaqda idi. Bu fikir Qırmızı Ordu komandirləri tərəfindən də başa düşülmüşdü və ona görə də buna yol verməməyə çalışırdılar. Şamaxı ətrafındakı Qırmızı Ordu dəstəsinin komandiri Qazarova görə, türk-Azərbaycan qoşun hissələri Mədrəsədəki mövqelərindən Acıdərə hündürlüyü xətti ilə Mərəzəyə çıxmağa can atırdılar.

Mərəzənin tutulacağı təqdirdə çox ağır vəziyyətə düşə biləcəklərindən ehtiyatlanan Qırmızı Ordu hissələri heç Şamaxıda da dayanmayaraq yalnız geri çəkilmək barəsində fikirləşirdilər (169).

İyulun 21-i üçün verilmiş döyüş əmrinə görə düşmənin təqibi davam etdirilməli idi. Şimal qrupuna Mərəzə kəndinə çıxmaq əmri verilmişdi. Cənub qrupu isə yenə də yayındırıcı döyüşlər aparmalı və buradan Şimal istiqamətindəki bolşevik-daşnak qüvvələrinə kömək göndərilməsinin qarşısını almalı idi (170)

Bolşevik-daşnak qoşunları elə bir təlaş içindəydilər ki, yalnız geri çəkilmək barəsində düşünürdülər. İyulun 21-də günortaüstü

Mərəzə kəndi yaxınlığında tərəflər arasında yüngül bir döyüş oldu. Qırmızı Ordu bölmələri bu döyüşdə də lazımi müqavimət nümayiş etdirə bilməyərək yenidən geri çəkilmək məcburiyyətində qaldılar. Onlar Mərəzə kəndini də müdafiəsiz qoydular. Buralarda yaşayan xristian əhali də Qırmızı Ordu hissələrinə qoşularaq geri çəkildi.

Bakı bolşeviklərinin liderlərindən biri olan və Şamaxı istiqamətindəki 3-cü briqadanın komissarı təyin edilmiş A.Mikoyan Şimal qrupunun hücumlarının qarşısının alınmamasında və mühüm strateji əhəmiyyət kəsb edən Şamaxının əldən verilməsində 3-cü briqadanın komandiri Hamazaspı günahlandırırdı. Bu daşnak komandirinin Şamaxı istiqamətində başlanan elə ilk döyüşlərdən sonra biabırcasına geriyə üz tutması onun özü kimi eynixasiyyətli daşnak döyüşçülərinin də geriyə üz tutmasına səbəb oldu. Şamaxı ətrafında yaranmış vəziyyətlə bağlı Şaumyanın məlumatına istinadən Həştərxandan V.Leninə göndərilmiş teleqramda belə deyilirdi: «Şaumyan xəbər verir: İyulun 20-də cəbhədə vəziyyət belədir. Şamaxı ətrafında düşmən hazırlıqdan sonra cinahlara doğru hücuma keçmişdir. Onun beş topu var. Satqınlıq üzündən, briqada komandiri Hamazasp geri çəkilmək barədə heç bir ehtiyac olmadan verdiyi əmrə əsasən, bizim ordu əvvəlcə Şamaxıya, sonra isə daha arxaya geri çəkildi. Mərəzə də bizimkilər tərəfindən tərk edilib. Sonrakı geriləmənin qarşısını almaq üçün tədbirlər görülür. Günahkarlar məhkəməyə verilir...» (171).

Güclü təşvişdən yaxalarını qurtara bilməyən Qırmızı Ordu hissələri iyulun 22-də də geri çəkilməkdə davam etdilər. Bakı bolşeviklərinin nümayəndələri qoşun bölmələrini, yerli qeyri-azərbaycanlı əhalini səfərbər edərək Şimal qrupunun irəliləməsinin qarşısını almağa çalışsalar da, bir nəticəyə nail ola bilmədilər (172). Əslində, iyulun 22-də Mərəzə ətrafında qarşı tərəflər arasında bir döyüş baş vermədi. Buna baxmayaraq, bolşevik-daşnak qoşunlarının geriyə qaçması davam edirdi. Bu qüvvələr Cəngidən 6 verst geri çəkilib şosse yolu boyunca müdafiə mövqeləri tutdular.

İyulun 22-də Cənub qrupu da uğurlu döyüşlər keçirərək düşməni xeyli geriyə atdı. Günortaüstü, saat 13.30-da Cənub qrupu Sığırlı stansiyasına daxil oldu. Qrupa daxil olan azərbaycanlı sü-

varilər isə düşmən qüvvələrinin təqibini davam etdirdilər. Bu süvarilər Padar stansiyasını da ələ keçirdilər və düşmən bölmələrini şərq istiqamətində daha da geriləməyə məcbur etdilər (173).




**Şamaxının azad edilməsi üçün keçirilən döyüşün planı**

İyulun 23-nə aid olan döyüş məlumatında bildirilirdi ki, dəmir yolu boyunca fəaliyyət göstərən düşmən Hacıqabula doğru geri

çəkilmişdir (174). Düşmən qüvvələri yol boyunca mövcud olan körpüləri, habelə dəmir yolu xəttinin müxtəlif hissələrini dağıdırdılar.

Qafqaz İslam Ordusu hissələrinin Mərəzə və Sığırlı-Padar məntəqələrini ələ keçirməsi ilə cəbhəboyu bir neçə günlük nisbi sakitlik yarandı. Təchizat və təminat məsələlərinin həlli üçün istər Şimal qrupu, istərsə də Cənub qrupu üçün belə bir sakitlik böyük əhəmiyyət kəsb edirdi. Cəbbəxana və ərzaq ehtiyatları yaradılmadan yenidən ağır döyüşlərə qatılmaq təhlükəli nəticələrə gətirib çıxara bilərdi. Nuru paşa isə mümkün qədər sürətlə irəliləməyin, düşməni hələ təşviş içində olduğu vaxt məhv etməyin tərəfdarı idi. İyulun 23-də o, 5-ci Qafqaz diviziyasının komandanı Mürsəl bəyə yazdığı məktubunda öz fikrini belə ifadə edirdi:

«1.Cəbhədəki düşmən halən pərişandır. Qüvvəti az, mənəviyyatı isə qırıqdır. Çoluq-çocuqdan ibarət, hərcü-mərc halında bir qafilə düşmənin zəfini artırmaqdadır. Sığırlıdakı düşmənin təvəqqüfü, Şimal qrupunun irəli hərəkəti ilə əkamətə (uğursuzluğa–red.) məhkum olacaq və fəlakətini intac (səbəb–red.) edəcək bir təvəqqüfdür. Zatən Cənub qrupu qarşısındakı qüvvəni hər ehtimala qarşı müdafiəyə və ani təsbitə kafidir. Bakıdakı düşmən üç-dörd günlük məlumata görə siyasi bir anarşi içindədir. Biçeraxov ingilis parası ilə və erməni qüvvəti ilə hər türlü idarəni ələ alacaq kimi görünür. Ümumi bir müzakirədə ingilislərin Ənzəlidəki qüvvələrinin Bakıya gəlməsi görüşülmüş, fəqət nəticə anlaşılmamışdır. Məmafih Biçeraxov zorla rast gəldiyini əsgər yapmaq və qüvvəsini artırmaq istəyir. Bu mülahizata nəzərən biz mümkün olduğu qədər aclığa və susuzluğa baxmayaraq, xassətən Şimal qrupu ilə doğru Bakıya yüyürməkdə fayda və nicat buluruz.

2. Bugünkü təvəqqüfü ancaq bir şəkil ilə münasib görərdim. O da süvari, topçu və piyadadan mürəkkəb (ibarət–red.) bir təqib müfrəzəsinin düşmənin peşini (arxasını–red.) buraxmamaq idi. Su məsələsinin orduca da nəzəri etibara alındığı məlumunuzdur. Cəngi çayından istifadə etmək imkanını da siz buyurursunuz ki, su məsələsi bu surətlə həll edilmişdir. Məvadi-iaşəyə gəlincə, diviziyanın əti bol və əkməgi (çörəyi–red.) də qismən şimdi bulunduğu miqdarda və qismən də arxadan sövq edilmək surətilə qabi-

li-tədarükdür. Bakıya yaxın olan müsəlman köylərinin müsəlləhən yardımları qəviyyən məmul olmaqla bərabər, sizə su, ət və əkmək xüsusunda yardım edəcəkləri də mülhəqqdir. Siz bu köylərdən halən əzəmi (ən çoxu–red.) 70 kilometr məsafədəsiniz. Müharibəsiz üç gündə qət ediləcək bu məsafə daxilində indiyə qədər təcrübə etdiyiniz düşmən qarşısında iki gündən fazla müharibə üçün sərf edəcəyinizi zənn etmiyoram. Buna görə hazırlanmaq isə bir kaç gün təvəqqüfü intac etməz...» (175).

Nuru paşa həmin məktubunda Şimal qrupundan xüsusi bir dəstə düzəldilib Hacıqabuldan Bakıya gedən dəmir yolu xəttinin dağıdılması üçün göndərilməsinin, habelə Cənub qruppunun irəliyə hərəkət etməsinin və Hacıqabulu tutmasının zəruriliyini vurğulayırdı. Hücum edəcək qüvvələrin vəziyyətini və imkanlarını daha yaxşı bilən Mürsəl bəy Ordu komandanının təkliflərinin belə bir şəraitdə həyata keçirilməsinin qeyri-mümkün olduğunu bildirdi və öz fikirlərini yazdığı məktubunda Nuru paşaya da əsaslandırdı. Bakıya doğru dayanmadan irəliləməyin tərəfdarı olmaqla bərabər, Nuru paşa Mürsəl bəyin mövqeyi ilə razılaşdı və qrupların təminat və təchizat məsələlərinin həllinə vaxt verilməsinə etiraz etmədi. Mürsəl bəy Nuru paşaya göndərdiyi məktubunda onun diqqətinə çatdırırdı ki, Mərəzə kəndi əhali tərəfindən tərk edilmişdir. Yerli əhalidən kömək ummaq mümkün deyil. Taxıl biçilsə də, hələ döyülməmişdir. Qısa vaxt ərzində burada ərzaq ehtiyatı toplamaq mümkün deyildi. Ona görə də həm ərzaq ehtiyatını, həm də cəbbəxana ehtiyatını böyük bir çətinliklə arxadan gətirməli olan diviziya əvvəlcədən hər şeyi götür-qoy etməlidir. Mürsəl bəy onu da əlavə edirdi ki, Mərəzədən Bakıya qədər olan ərazidə demək olar ki, əhali yaşamır, su mənbələri isə yoxdur. Ona görə bu məqam da nəzərə alınmalı, arxa xidməti lazımi şəkildə tənzimlənməlidir. O, yalnız bundan sonra Bakıya doğru irəliləməyin mümkünlüyünü qəbul edirdi. Mürsəl bəyin fikrincə, iyulun 26-na kimi bu hazırlıq işlərini başa çatdırmaq və Bakıya tərəf hərəkətə başlamaq olardı(176).

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Birinci Dünya harbinde türk harbi Kafkas cephesi 3-cü ordu harekatı.c.II, Ankara,1993, s. 556

2. Türkiyə Silahlı Qüvvələri Əsgəri Tarix və Strateji Etüd (ATASE) Başqanlığı arxivi, k.3823, d.22, f.7-3; Bilen Tayyar. Kafkas Azerbaycan harekatı ve Bakünün kurtulması. «Azerbaycan» dergisi, eylul-ekim 1990, s.24

3. Rüştü. Büyük harpte Bakü yollarında 5. Kafkas piyada firkası. 93 saylı Askeri mecmuanın tarih kısmı. 1934, s.28–29

3a. Kamalyeri .. s.126–127

4. Kamalyeri M. ... s.127

4a. ATASE, k.3819, d.6, f.2

5. Rüştü... s.32

6. ATASE, k.3819 , d.6, f.2

7. ATASE, k.3823, d.22, f.2 ; k.3819, d.6, f.2–2

8. ATASE, k.3827, d.38, f.2

9. ATASE, k.3827, d.38, f.2–1

10. Шаумян Л.С. Расстрел 26 Бакинских Комиссаров английскими интервентами. М., 1949, с.8

11. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы 1917–1918 гг.Баку, 1957, с.519

12. Большевики в борьбе за победу... с.519

13. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с. 519

14. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана в начале XX века. Баку, 1991, с.114

15. Военные моряки в борьбе за советов в Азербайджане и Прикаспии. Баку, 1971, с.39

16. Военные моряки в борьбе за ... с.38, 40

17. Токаржевский Е.А. ... с.103

18. Siyasi Sənədlər Arxivi (SSA) , f.303, siy.1a, iş 2, v. 16

19. SSA, f.303, siy. 1a, iş 2, v. 6

20. SSA, f.303, siy. 1a, iş 2, v. 7

21. Большевики в борьбе за победу ... с.508
22. Большевики в борьбе за победу ... с.518
23. Большевики в борьбе за победу... с. 508, 524; Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
24. Аветисян Г. Генерал Акоп Багратуни (1879–1943)......
25. 26 Bakı komissarları. Bakı, 1958, s.190
26. Большевики в борьбе за победу ... с.507
27. ATASE, k.3827, d.40, f.8-3
28. Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
29. Rüştü ... s. 34
30. Rüştü ... s.34–35
31. ATASE, k. 3823, d.22, f.2
32. Rüştü ... s.35
33. Rüştü ... s.36
34. Токаржевский Е.А. с. 110
35. Rüştü ... s. 42
36. Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http:russia-armenia.infonode10296
37. Большевики в борьбе за победу ... с. 514 ; Токаржевский Е.А. ... с. 111
38. Большевики в борьбе за победу ... с. 514 ; Токаржевский Е.А. ... с.111 ; Yüceer... s.84 ; Bilen Tayyar... s. 25
39. Bilen T. ... s.25
40. Rüştü ... s. 46
40a. Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http:russia-armenia.infonode10296
41. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье .М., 1960, с. 114
42. Большевики в борьбе за... с. 524
43. SSA, f. 303, siy. 1, iş1, v. 10 ; Большевики в борьбе за победу ... с.509
44. Известия Бакинского Совета, 1918, 2 июля
45. Большевики в борьбе за победу... с. 516

46. Rüştü ... s. 47
47. ATASE, k. 1, d.1, f. 1–118
48. Rüştü ... s. 48
49. Rüştü ... s. 48
50. ATASE, k. 3789, h.11, f.1–11
51. Rüştü ... s. 54
52. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917–1918-ci illər). Bakı, 1957, s.476
53. Большевики в борьбе за победу ... с. 524–525
54. Bilen T. ... s. 26
55. Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
56. Rüştü ... s.60
57. Rüştü ... s. 60–61
58. Большевики в борьбе за победу ... с. 528
59. Birinci Dünya harbinde ... s. 561
60. Rüştü ... s.62
61. Rüştü ... s. 62
62. Birinci Dünya harbinde ... s. 561
63. ATASE, k. 3823, d. 22, f.6 ; Birinci Dünya harbinde ... s. 561; Yüceer N. ...s. 87
64. ATASE, k. 3827, d. 38, f. 11
65. Rüştü ... s. 70
66. ATASE, k. 3823, d.22, f.6 ; Birinci Dünya harbinde ... s. 561
67. Rüştü ... s. 71
68. Birinci Dünya harbinde ... s. 561
69. Rüştü ... s. 74
70. Токаржевский Е.А. ... с. 119 ; Большевики в борьбе за победу ... с. 536
71. Большевики в борьбе за победу ... с. 536–537
72. ATASE, k.3827, d.38, f.5
73. ATASE, k. 3827, d.38, f.5–1
73a. Генерал Гаврил Корганов... Глава XXIV. Борьба за город и район Баку. http://russia-armenia.info/node/10296
74. Rüştü ... s. 43 ; Yüceer N. ... s. 89
75. Известия Бакинского Совета, 1918, 2 июля

76. Birinci Dünya harbinde ... s. 654 ; Yüceer N. ... s. 88 ; Большевики в борьбе за победу... с. 534
77. Birinci Dünya harbinde ... s. 565
78. İbrahimov Z ... s. 483
79. Baykara h. Adı çəkilən əsəri, s. 237 ; ATASE, k. 3827, d. 38, f.98
80. Köçərli T. Tarixi saxtalaşdıranlar əleyhinə. Bakı, 1972, s. 120
81. Известия Бакинского Совета, 1918, 6 июля
82. Военные моряки в борьбе за советов... с.43
83. Известия Бакинского Совета , 1918, 6 июля
84. Большевики в борьбе за победу ... с. 546
85. Личности. www.garavat.ru/personslies2.php?people=57
86. Безугольный А.Ю. Генерал Бичерахов и его Кавказская армия. Страницы истории гражданской войны и интервенции на Кавказе.1917–1919. http://fictionbook.ru/ alekseyi_yurevich_bez ugolniyyi/general_ bicherahov.. online. html? page=2
87. Корсун Н.Г. Кавказский фронт первой мировой войны. Москва, 2004, с.376–379
88. Безугольный А.Ю. Генерал Бичерахов и..
89. Безугольный А.Ю. Генерал Бичерахов и..
90. The diaries of general Lionel Dunsterville.1911–1922. www.gwpda.org/ Dunsterville/Dunsterville_1918.html
91. Денстервиль. Британский империализм в Баку и Персии. Тифлис, 1926
92. Безугольный А.Ю. Генерал Бичерахов и...
93. İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları, s.492. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.486–532; The diaries of general Dunsterville ..
94. Безугольный А.Ю. Генерал Бичерахов и..
95. Большевики в борьбе за победу ... с. 508
96. Денстервиль. Британский империализм в Баку и Персии. 1917–1918 г.Тифлис, 1925, с.146

97. Безугольный А.Ю. Генерал Бичерахов и..
98. Darabadi P.Q. ... s. 120
99. Безугольный А.Ю. Генерал Бичерахов и... с.5
100. İran ərazisində düşmənin ... s.493; Безугольный А.Ю. Генерал Бичерахов и... с.5
101. Большевики в борьбе за победу... с.519
102. Безугольный А.Ю. Генерал Бичерахов и... с.5
103. Денстервиль. Британский империализм в Баку и Персии. Тифлис, 1926
103а. Большевики в борьбе за..., с.524
104. Большевики в борьбе за победу ...с. 508
105. Большевики в борьбе за победу... с.519
106. Денстервиль ...с. 147
107. Денстервиль ... с. 148
108. SSA, f. 303, siy. 1a, iş 14, v.29
109. SSA, f. 303, siy. 1a, iş 14, v.88
110.MDA , f. 970, siy. 1, iş 1, v. 1
111.MDA, f. 970, siy. 1, iş 1, v. 1
112. Birinci Dünya harbinde...s. 565; Токаржевский Е.А....s. 120
113. ATASE, k. 3823, d. 22, f. 7–5
114. Rüştü ... s. 79
115. ATASE, k. 3827, d. 38, f. 90
116. ATASE, k. 3823, d. 22, f. 11
117. Rüştü ... s. 76–77
118. ATASE, k. 3827, d.38, f. 16 ; Rüştü, ... s. 77
119. Rüştü, ... s. 78
120. Birinci Dünya harbinde ...s.565
121. Rüştü, ... s.81
122. Rüştü, ... s. 84
123. Birinci Dünya harbinde ... s. 566 ; Rüştü, ... s. 85
124. Большевики в борьбе за победу ... с. 550
125. Rüştü, ... s. 87–88 ; Yüceer N. ... s.89
126. Большевики в борьбе за победу ... с. 550 ; Rüştü ... s. 88
127. Birinci Dünya harbinde ... s. 567
128. ATASE, k. 3823, d.22, f.9

129. ATASE, k. 3827,d.38, f. 18–1
130. ATASE, k.3838, d. 5, f. 23
131. Yüceer N. ... s. 90 ; Birinci Dünya harbinde ... s. 567
132. Большевики в борьбе за победу... с. 553
133. Токаржевский Е.А. ... с. 121 ; Rüştü, ... s. 90
134. Rüştü, ... s. 94–95 ; Birinci Dünya harbinde ... s. 567
135. ATASE, k. 3827, d.38 , f.75–1
136. MDA, f. 2898, siy.2, iş 33, v. 3
137. Токаржевский Е.А. ... с. 121
138. Большевики в борьбе за победу ... с.556
139. Большевики в борьбе за победу ... с. 557
140. Большевики в борьбе за победу ... с. 559
141. Rüştü, ... s.98
142. Birinci Dünya harbinde ... s. 568
143. ATASE, k.3823, d. 22, f. 13
144. Rüştü, ... s. 98
145. Rüştü, ... s. 98
146. SSA, f. 303, siy. 1a, iş 14, v.88
147. Кадищев А.Б. ... с. 119
148. Денстервиль ... с. 174
149. SSA, f. 5, siy. 1, iş 28, v. 3
150. ATASE, k. 3823, d.22, f.13
151. ATASE, k. 3823, d.22, f. 13
152. ATASE, k. 3823, d.22, f. 13, 14
153. Yüceer N. ... s. 91
154. Токаржевский Е.А. ... с. 124
155. SSA, f. 276, siy. 2, iş 28, v. 64
156. Rüştü, ... s. 102-103
157. SSA, f. 276, siy. 2, iş 28, v. 64
158. Токаржевский Е.А. ... с. 124
159. SSA, f. 276, siy.2, iş 28, v.64
160. Rüştü, ... s. 103
161. Большевики в борьбе за победу... с. 582, 587
162. ATASE, 3823, d.22, f. 15
163. Rüştü, ... s. 104

164. Birinci Dünya harbinde... s. 570
165. Birinci Dünya harbinde... s. 570 ; Yüceer N. ... s. 92–93
166. Rüştü ... s. 106
167. Rüştü, ... s. 107
168. ATASE, k. 3819, d.6, f. 5
169. Большевики в борьбе за победу... с. 57
170. Кадищев А.Б. ... с. 119
171. Большевики в борьбе за победу ... с. 582
172. Токаржевский Е.А. ... с.125
173. ATASE, k. 3819, d. 6, f. 8
174. ATASE, k.3819, d.6, f. 12
175. Rüştü, ... s. 113
176. Rüştü, ... s. 115–116

# VII FƏSİL

## BAKI ŞƏHƏRİ BÖYÜK DÖVLƏTLƏRİN MÜHARİBƏ PLANLARINDA

### *1. Almaniyanın Bakı neftinə sahib olmaq planları*

Cənubi Qafqaz bölgəsi Birinci Dünya müharibəsi cəbhələrinin əhatə etdiyi ərazilərə daxil olmasa da, bu müharibənin iştirakçısı olan böyük dövlətlərin geostrateji planlarında mühüm yer tuturdu. Xüsusilə Bakı neftini əldə etmək istəyi Rusiya, Almaniya və İngiltərə kimi dövlətləri müxtəlif planlar qurmağa vadar edirdi. Çünki müharibə tələbatının və eləcə də ölkədaxili iqtisadi ehtiyacların aradan qaldırılmasında Bakı neftinin əhəmiyyətli rol oynayacağı gizli deyildi.

Rus ağqvardiya hərəkatının rəhbəri Denikin Bakı neftinə olan beynəlxalq iddiaları belə xarakterizə edirdi: «Bakı nefti Avropa və Asiya siyasətçilərinin ağıl və hisslərinə tam hakim kəsilmişdi. Yaydan (1918–M.S.) başlayaraq müharibə və siyasət sahəsində Ənzəlidən ingilislərin, Azərbaycandan Nuru paşanın (Ənvər paşanın qardaşı) və Gürcüstandan almanların son məqsədi olan Bakı ilə bağlı kəskin yarış və "qovhaqov" başlamışdı» (1).

Bolşevik Rusiyası ölkənin iqtisadiyyatının dirçəldilməsi üçün nəyin bahasına olursa-olsun Bakının neftini əldən çıxarmaq istəmirdi. Məhz bunun üçün idi ki, Rusiya hökumət dairələri ölkənin kifayət qədər ağır bir dövründə S.Şaumyanın rəhbərliyi altında olan Bakı kommunasını müdafiə edir, Bakı kommunasının Qırmızı qvardiyasının gücləndirilməsi və bununla da Bakının əldə saxlanması üçün böyük maliyyə vəsaitləri, silah və texnika ayırırdı.

Eyni zamanda Almaniya da Bakı neftinə iddialı idi və bu iddianı Birinci Dünya müharibəsi cəbhələrində Rusiyaya qarşı apardığı müharibənin təbii göstəricisi hesab edirdi.

Almaniyanın siyasi və hərbi rəhbərliyi ən yüksək səviyyədə bu niyyətini gizlətmirdi. Məsələn, ölkənin Baş naziri Hartlinqin, Xa-

rici İşlər naziri Külmanın, Almaniya orduları Baş Qərargah rəisi general Lyüdendorfun və marşal Hindenburqun iştirakı ilə keçirilən toplantıda Almaniyanın Cənubi Qafqaza olan münasibəti müzakirə edilmiş və bu müzakirələrin nəticəsi kimi belə bir qənaət hasil olmuşdu ki, Cənubi Qafqazdakı yeraltı sərvətlərin ələ keçirilməsi müharibə sınaqları ilə üzləşmiş ölkə iqtisadiyyatının çətinliklərini azaldar və bununla da müharibənin tezliklə və uğurla bitməsinə yol açar. Xüsusilə Lyüdendorf Cənubi Qafqazın təbii sərvətlərinin Almaniyanın xidmətində olacağına çox ümidli idi (2).

Yalnız ümidləri ilə kifayətlənməyən general Lyüdendorf tezliklə Batum–Tiflis–Bakı dəmir yolunu tutmağı və bununla da Bakıya aparan yolları ələ keçirməyi təkid edirdi (3).

1918-ci il mart ayının 3-də imzalanmış Brest-Litovsk müqaviləsindən sonra digər dövlətlər kimi, Almaniyanın da Bakı nefti uğrunda mübarizəsi daha ciddi xarakter aldı. Özü də almanlar öz niyyətlərində o qədər israrlı idilər ki, bu niyyətlərə çatmaq üçün müttəfiq olduqları Osmanlı Türkiyəsindən gizli və fərqli siyasət yeritməkdən də çəkinmədilər. Azərbaycan və türk xalqları arasında olan milli bağlılığın Osmanlı Türkiyəsinin bölgədəki nüfuzunu gücləndirəcəyi ehtimalını almanlar Bakı iddialarının həyata keçməsi yolunda maneə hesab edirdilər və ona görə də Bakı ilə bağlı həyata keçirilən siyasətdə Almaniya ilə Türkiyə arasında mövqe müxtəlifliyi ortaya çıxdı. Almaniya Azərbaycan xalqının çağırışı ilə köməyə gələn Osmanlı Türkiyəsinin Azərbaycanda möhkəmlənməsinin qarşısını almaq üçün bir sıra yollardan istifadə edirdi. Məlumdur ki, həmin dövrdə Almaniyanın Osmanlı Türkiyəsi ordusu daxilindəki mövqeləri güclü idi və onların Osmanlı hərbi rəhbərliyinə təsir etmək imkanları çox idi. Osmanlı ordusunun rəhbər strukturlarında çoxlu sayda alman zabitləri var idi. Bu zabitlər Osmanlı ordusunda gedən proseslərə nəinki nəzarət edir, hətta qəbul edilən qərarların məzmununa da təsir göstərə bilirdilər. Bu imkandan istifadə etməklə Almaniya Azərbaycan ərazisinə qoşun çıxarılmasına, sonradan isə Osmanlı hərbi qüvvələrinin Bakıya doğru irəliləməsinə mane olmaq istəyirdi. Bu məqsədlə Almaniya,

hətta Osmanlı qoşun hissələrinin Azərbaycandan geri çağırılması barədə Osmanlı rəhbərliyi qarşısında məsələ qaldırmışdı. Bundan başqa, alman hərbçiləri Almaniyadan Türkiyəyə göndərilməli olan hərbi təchizatın miqyasının azaldılması və bununla da Osmanlı Türkiyəsinə özünəməxsus şəkildə təzyiq göstərilməsi məsələsini də müzakirəyə çıxarmışdılar (4).

Almaniya müstəqil şəkildə Cənubi Qafqaza qoşun çıxarmaq və bununla da Bakıya doğru təkbaşına irəliləmək istəyirdi. Bu planı həyata keçirmək üçün Almaniya ilə gürcülər arasında tərəfdaşlıq münasibətləri qurulmuşdu və almanlar Cənubi Qafqazdakı fəaliyyətində gürcülərə istinad etmək istəyirdilər. Gürcülər özləri də belə bir münasibətin qurulmasına meylli idilər və güman edilirdi ki, almanların dəstəyi ilə müəyyən milli məsələlərin həllinə nail ola bilərlər. Hətta Gürcüstanın Milli Şurası 1918-ci il may ayının 14-də gürcülərin xarici təhlükədən qorunması məqsədilə Gürcüstana qoşun hissələri çıxarılmasını Almaniyadan xahiş etmişdi. Bu xahiş əslində, almanların da maraqlarına cavab verirdi və ona görə də 1918-ci il may ayının 25-də Poti şəhərinə 3 min nəfərlik alman əsgəri çıxarıldı. May ayının 30-da isə alman diplomatik missiyası Tiflis şəhərinə gəldi (5).

Gürcüstan ərazisinə qoşun çıxarılması Osmanlı Türkiyəsi rəhbərliyinin xəbəri olmadan həyata keçirilmişdi. Ənvər paşa belə addımın atılmasından və müttəfiqliyə baxmayaraq, Türkiyənin maraqlarına cavab verməyən qərar qəbul edilməsindən narazı idi. O, öz narazılığını Almaniyanın Baş Qərargah rəisi Lyudendorfa göndərdiyi məktubunda da gizlətmirdi: «Almaniya Qafqazda olan marağımızı bilməsinə baxmayaraq, bərabər istifadə edəcəyimiz Tiflis-Poti dəmir yolu üçün bizə xəbər vermədən iki alman batalyonunu Gürcüstana göndərir. Bundan başqa alman müharibə əsirlərindən yaradılan iki xüsusi dəstəni də bu yol üzərinə yerləşdirir. Müttəfiqlərimizin səfirləri ilə burada hər mövzunu müzakirə edirik. Ancaq bizim üçün çox əhəmiyyətli olan bir mövzuda bizim görüş və düşüncələrimiz nəzərə alınmır» (6).

Almanların müttəfiqliyə olan sədaqətsizliyi o dərəcəyə çatmışdı

ki, onların Cənubi Qafqazdakı qoşun bölmələri türk qoşun bölmələrinə qarşı ermənilərlə əlbir olmaqdan belə çəkinmədilər. Ənvər paşa belə hallara yol verilməsini də qeyri-ciddi sayırdı. O öz məktubunda bu hadisəyə münasibətini belə bildirirdi: «Qarakilsə yaxınlığında ermənilərlə girdiyimiz bir döyüşdə alman xüsusi qoşunlarının ermənilərin yanında bizə qarşı döyüşdüyü xəbəri gəldi. Buna əvvəl inanmaq istəmədim və ermənilərin bir oyunu olaraq düşündüm. Ancaq bunun həqiqət olduğu anlaşılınca bu xüsusi birliklər silahsızlaşdırılaraq geri göndərildi. Göründüyü kimi, bu plan general Lossov tərəfindən icra olunmuşdu. Əgər belə olarsa, ermənilər və gürcülər Omanlı dövləti ilə Almaniya arasında Qafqaz mövzusu ilə bir problem olduğunu düşünəcəklər və bu da bizim zərərimizə olacaqdır. Bu səbəbdən müttəfiqlər arasındakı səhv addımlarımız qarşısını almaq üçün Qafqaz mövzusundakı düşüncələrinizi vaxtında bizə bildirməniz çox əhəmiyyətlidir « (7).

Yuxarıda qeyd edildiyi kimi, Almaniya Gürcüstan ərazisinə qoşun bölmələri çıxarmaqla Osmanlı hərbi qüvvələrinin Gəncəyə doğru irəliləməsinə müəyyən çətinliklər yarada bildilər. Gürcüstan ərazisindəki dəmir yolları almanların nəzarəti altında olduğundan Osmanlı qoşun hissələri Ermənistan ərazisindən keçməklə Gəncə istiqamətində hərəkət etdilər.

Osmanlı qoşun hissələrinin Azərbaycana doğru hərəkət etdiyi günlərdə Almaniyanın Qafqaz üzrə xüsusi təmsilçisi general Kress də bölgəyə gəlmiş və Gəncədə Nuru paşa ilə görüşmüşdü. General Kress bölgədə hərbi-siyasi vəziyyətlə tanış olmalı və burada Almaniyanın maraqlarının qorunması yollarını araşdırmalı idi. Bölgədəki vəziyyətlə tanışlıqdan sonra general Kress də belə bir qənaətə gəldi ki, Azərbaycan xalqı mürəkkəb hərbi şəraitdədir və Osmanlı qüvvələrinə burada həmin mürəkkəb şəraitin aradan qaldırılması üçün ümid gözü ilə baxılır. Ona görə o bildirirdi ki, Osmanlı qüvvələri buradan Almaniyanın təzyiqi ilə geri çağırılarsa, onda yerli xalqın Almaniyaya qarşı olan etibarı itəcəkdir. Onun fikrincə, əgər Osmanlı qüvvələri geri çağırılacaqdısa, onda Azərbaycan xalqını bolşevik və ermənilərdən qorunması üçün gərək bir

alman diviziyası bura göndərilsin. Amma bunun mümkün olacağına general Kress inanmırdı. Ona görə də təklif edirdi ki, Almaniya çox da böyük olmayan Osmanlı qüvvələrinin Azərbaycanda qalmasına icazə versin. Əvəzində isə Osmanlı Türkiyəsindən tələb oluna bilərdi ki, Almaniyanın Gürcüstanda qalması ilə razılaşsın (8).

İyun ayının 22-də səhər bir alman təyyarəsi Bakının Salyan qışlaları ətrafında yerə enmişdi. Hadisə yerinə gələn matroslar pilotu və yanında olan bir zabiti tutduqdan sonra məlum oldu ki, onlar Tiflisdəki alman hərbi missiyası tərəfindən göndərilmişdir. Guya məqsədləri də Bakıda saxlanılan alman əsirlərinin vəziyyəti ilə tanış olmaq imiş. Sonradan məlum olmuşdu ki, alman komandanlığı Bakıda əsir saxlanılan minədək almanı silahlandıraraq onların vasitəsilə Bakını ələ keçirmək imkanlarını öyrənməyə çalışırlarmış.

Bakı neftini əldə etmək üçün Almaniya, hətta düşməni olduğu Rusiya ilə də iş birliyi yaratmağın yollarını arayırdı. Birinci Dünya müharibəsi cəbhələrində düşmən olan bu iki dövləti Bakı nefti ilə bağlı oxşar maraqlar birləşdirirdi. Doğrudur, bolşevik Rusiyası Azərbaycanı və o cümlədən Bakını özünün tərkib hissəsi sayırdı. Lakin konkret tarixi şəraitdə bolşevik Rusiyasının Bakını tam nəzarət altına almaq imkanı yox idi. Bakı kommunası da törətdiyi bütün milli qırğınlara baxmayaraq, lazımi gücə və imkanlara malik deyildi. Bir tərəfdən Osmanlı qoşunlarının Bakıya istiqamət götürməsi, digər tərəfdən də Böyük Britaniyanın Bakı haqqındakı iddialarını ortaya qoyması Rusiyanı da Almaniya ilə Bakı ilə bağlı sövdələşməyə getməyə sövq etdi.

Bu istiqamətdə Osmanlı qoşunlarının Azərbaycana dəvət edilməsindən sonra Berlində Rusiyanın Almaniyadakı səfiri İoffe ilə alman rəsmiləri arasında danışıq və müzakirələrin aparılmasına başlandı. Bu müzakirələrin gedişində almanlar Bakıya doğru irəliləyən türk qoşunlarının qarşısını saxlamağı öz üzərlərinə götürərək əvəzində Rusiya ilə Bakı neftinin bir hissəsi barədə sövdələşməyə çalışırdılar. Birinci Dünya savaşında düşmən cəbhələrdə olan Rusiya ilə Almaniya Bakı nefti uğrunda birgə fəaliyyət razılığına gələ bilmişdilər. Almaniyanın öz üzərinə götürdüyü öhdəlik əvəzində Rusiya da Bakı neftinin bir hissəsini ona verməyə

razı olmuşdu. Berlində aparılan ikitərəfli danışıqların nəticələri barədə V.Lenin iyul ayının əvvəllərində Stalinə göndərdiyi teleqramda bildirirdi: «Bakı ilə bağlı olaraq ən mühümü odur ki, siz Şaumyanla daimi əlaqədə olun və Berlində səfir İoffeyə neftin bir hissəsini almanlara verəcəyimiz təqdirdə türklərin Bakıya hücumunu saxlamağa razı olmaları haqqında edilmiş təklifdən Şaumyanın xəbəri olsun. Əlbəttə ki, biz razılaşacağıq» ( 9).

İ.Stalin dərhal bu barədə Şaumyana müvafiq teleqram göndərdi. Almaniya ilə münasibətlərin necə qurulması barədə həmin teleqramda belə deyilirdi:

«1. Bizim Zaqafqaziya məsələsi ilə bağlı ümumi siyasətimiz belədir ki, gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili işi kimi tanınmasına Almaniyanı məcbur etdik. Onların həllində almanlar iştirak etməməlidirlər. Məhz buna görə də biz Gürcüstanın Almaniyanın diktəsi ilə əldə edilmiş müstəqilliyini tanımırıq.

2. Ola bilsin ki, biz Gürcüstan məsələsində almanlara güzəştə getməli olduq. Ancaq biz bu güzəştə yalnız Almaniyanın Ermənistanın və Azərbaycanın işlərinə qarışmayacağına razılaşacaqları təqdirdə gedəcəyik.

3. Almanlar Bakının bizdə qalmasına razılaşaraq xahiş edirlər ki, əvəzində onlara bir qədər neft ayıraq. Biz bu «xahişi» əlbəttə ki, yerinə yetirə bilərik.

4. Sizin uğurlarınız bizi sevindirir. Ancaq biz istərdik ki, siz almanlarla münasibətlərin mürəkkəbləşməsinə yol verməmək üçün Yelizavetpoldan (Gəncədən) o tərəfə keçməyəsiniz, daha doğrusu, müstəqilliyi Almaniya tərəfindən tanınmış Gürcüstanın hüdudlarına daxil olmayasınız» (10).

Rusiya, üzərinə götürdüyü öhdəliyi yerinə yetirmək üçün Almaniya Türkiyəyə qarşı təzyiqləri daha da gücləndirməyə çalışırdı. Almanlar hər vasitə ilə Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini dayandırmağa cəhd göstərirdi. Əks təqdirdə onlar yenidən türk ordusunda xidmət edən alman zabitlərini geri çağıracaqları ilə qorxudurdular. Almaniya Türkiyəyə diplomatik təzyiqi də gücləndirirdi. Xüsusilə yuxarıda qeyd edildiyi kimi, Rusiya ilə danışıqlar xeyli fəallaşmışdı. Qafqaz İslam Ordusu

tərkibinə bir alman hissəsinin daxil edilməsi təklifinə rədd cavabı verildikdən sonra Almaniya Rusiya ilə danışıqlara xüsusi əhəmiyyət verirdi. Türkiyəyə qarşı istiqamətlənmiş təzyiqlər elə bir xarakter aldı ki, Ənvər paşa artıq Qafqaz İslam Ordusunun Bakıya doğru hərəkətini açıq şəkildə müdafiə edə bilmirdi. Onun bütün yazışmaları almanların nəzarəti altında olduğu üçün özünün rəsmi əmrlərində Bakıya doğru hücumun dayandırılmasını tələb edirdi. Həqiqətdə isə o, belə bir mövqedən uzaq idi və Qafqaz İslam Ordusunun fəaliyyəti ilə bağlı zəruri göstərişləri gizli yolla Nuru paşaya çatdırırdı. Bu məsələ ilə bağlı o, Nuru paşanı lazımınca məlumatlandırmışdı. Məsələn, Göyçay döyüşlərindən sonra Qafqaz İslam Ordusunu gücləndirmək üçün Ənvər paşa Azərbaycana əlavə qoşun hissələri göndərmək barədə əmr verdi. Bu əmr gizli şəkildə müvafiq orqanlara çatdırıldı. Həmin əmrdə bildirilirdi: «38-ci piyada alayı ilə bir dağ-topçu taborunu Qazax şossesi ilə Nuru paşaya yardıma göndərdim».

Əmrin rəsmi şəkildə yayılmış variantında isə Qafqaz İslam Ordusuna heç bir kömək göndərilməyəcəyi və bütünlükdə Bakı üzərinə hücumun dayandırılması fikirləri ifadə olunmuşdu. İyul ayının 1-də Ənvər paşa tərəfindən imzalanmış həmin əmrdə deyilirdi: «Sizə təqviyə göndərmək qabil deyildir. Vəzifəniz Bakı üzərinə getmək olmayıb birliklərinizi toplu bulunduraraq bolşeviklərin Gəncə üzərinə hərəkətini mənn (qadağan–red.) etmək olduğunu bir daha təkrar edirəm». Bu xarakterli bir teleqram da Şərq Orduları Qrupu komandanına göndərildi. Almanların diqqətinin yayındırılmasına xidmət edən bu teleqramda deyilirdi: «Müsaidəm olmadan Nuru paşaya heç bir təqviyə göndərməmənizi, Nuru paşa üçün yola çıxarılan birlikləri geri almanızı rica edirəm. Əvvəlcə bildirildiyi üzrə Nuru paşa qüvvələrini toplu bulunduraraq yalnız bolşeviklərin irəliləməsinə mane olmağa yetinməlidir» (11).

Şərq Ordular Qrupu komandanına göndərdiyi başqa bir teleqramında da Bakıya doğru hücumun dayandırılması «zərurətindən» söhbət açılır: «Bakı üzərinə irəliləmənin Bakıdakı petrol qaynaqlarının bolşeviklər tərəfindən təxrib edilməsi təhlükəsini doğuracağından genəl hərb sövq və idarəsi baxımından behəmin

hal bundan qaçınmaq lazımdır. Bu nədənlə (səbəblə–red.) 5-ci Qafqaz tüməninin mənim müvafiqətim olmadan qətiyyən Bakı istiqamətinə təərrüz etməməsini əmr edirəm» (12).

Ənvər paşanın Şərq Ordular Qrupu komandanının müavini Esat paşaya yazdığı 1–2 iyul tarixli məktubu yuxarıdakı əmr və teleqramların məcburiyyət üzündən yazıldığı, əsas məqsədin almanların diqqətinin yayındırılması olduğunu, Bakının erməni-bolşevik qüvvələrindən təmizlənməsinin gündəlikdən çıxarılmadığını bir daha təsdiq edir. Məktubun elə birinci sətrində adı çəkilən Feldman–alman zabiti olub Türkiyə Hərbiyyə Nazirliyi hərbi hərəkat (əməliyyat–red.) şöbəsinin müdiri idi: «Hərəkati-hərbiyyə şöbə (1-ci şöbə) müdiri Feldman son hərb durumu haqqında görüşmək və Kress (Almaniyanın Tiflisdə bulunan siyasi müməssili) ilə irtibat hasil etmək üzrə torpedo ilə bu gün Batuma hərəkət etdi. Feldmana Ənvər paşanın Şərq Ordular Qrupu komandanlığına göndərdiyi teleqraflardan heç bilgi verilməyəcək və yapılan hərəkətin Ordular qrupunun kəndi inisiativi ilə yapıldığı söylənilocəkdir.

Almanlar, əsasən, bizim Bakı və Gəncə həvalisində bulunmamızı arzu etməməklə bizdə siyasi durum tamamən qazanıncaya qədər oralarda bulunmaq istədiyimiz üçün Nuru paşa ilə bu əsas daxilində və xəbərləşmə ilə qərargahını hər vaxt xəbərdar etməyə lüzum olmadan vəziyyətin idarə edilməsini rica edirəm. Ehtimal ki, mən yenə buradakı duruma görə Azərbaycana və Quzey Qafqaza silah göndərilməməsini də qərargahdan yazmağa məcbur olacağam. Fəqət siz indidən Quzey və Güney Qafqaz üçün Nuru paşaya istədiyi qədər silah, cəbbəxana və para göndərərək müşkülatını giderib qərargahın olumsuz bildirişinə qarşı məsələni indidən həll etmiş olursunuz.

Bolşeviklərin hər gün daha ziyadə qüvvətlənən təərrüzlərinə qarşı güney Qafqazdan bir müqavimət göstərmək və onların Qafqazlar daxilində daha batıya irəliləmələrinə mane olmaq və ordunun müharibə durumunun güvəni baxımından lüzumlu olduğunu Kress və Feldman bəyə izah və ikna eyləmək, güneyə qarşı yapılacaq hərəkətin bu güvənlə mümkün ola biləcəyini qəbul etdirmək xüsusların qeyrət sərf edilməsini özəlliklə çox önəmli görürəm.

Özətlə, Nuru paşanın və Gəncədəki qüvvətlərimizin mümkün olan ikmal erlərin silah və cəbbəxana ilə təqviyəsinə, vaxt gecikmədən Feldmanın gəlməsi ilə durum çox pərişan bir hal almadan ola bilən sürətlə önəm verilməsini və sizə kişiyə özəl və gizli olaraq yazdıqlarımın eyni şəkildə Nuru paşaya da duyurulmasını və almanlara duyurulması kəskinliklə doğru olmayan bu xəbərləşmənin sizcə və Nuru paşaca üsul edilməsinin ingilislərə duyurulmasını təkrar rica edirəm. Ənvər» (13).

Almaniyanın bu təzyiqləri nə qədər güclü olsa da, bu dövlətin nümayəndələri hələlik Qafqaz İslam Ordusunun irəliyə doğru hərəkətini saxlamaq gücündə deyildi. İslam Ordusunun komandanlığı da daha çox bu təzyiqlərin aradan qaldırılması ilə deyil, qarşıda dayanan vəzifələrin həlli üçün qüvvələrin möhkəmləndirilməsi ilə məşğul idi.

Bu vəziyyət isə öz növbəsində nə Rusiyanı, nə də Almaniyanı təmin edirdi. Xüsusən Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsini dayandırmaq öhdəliyini öz üzərinə götürmüş olan Almaniyanın öz öhdəliyinə əməl edə bilməməsi Rusiyanın ciddi narahatçılığına səbəb oldu. Ona görə də Rusiyanın Xarici İşlər komissarı Çiçerin 1918-ci il iyunun 25-də Almaniyanın Rusiyadakı səfirliyinə etiraz notası göndərdi. Həmin notada deyilirdi ki, sovet hökumətinin Almaniya ilə dostluq münasibətləri qurmaq üçün yorulmaz səylərinə və alman hökumətinin təkrar vədlərinə baxmayaraq, alman-türk qüvvələri Bakıya irəliləyirlər və artıq Şamaxıdadırlar. Biz Brest müqaviləsinin belə pozulmasına və sovet hökumətinə sadiq olan Bakı vilayətinə qarşı yönəldilən bu hücuma qarşı qətiyyətlə etiraz edirik. Biz qəti şəkildə ümid edirik ki, alman hökuməti bu orduların hərəkətinin dayandırılmasına sərəncam verəcək və ərazimizin toxunulmazlığına edilən qəsdə son qoyacaqdır (14).

Bu notada alman-türk birgə qüvvələrinin Bakıya doğru irəliləməsinə işarə edilir. Amma əvvəlki fəsillərdən göründüyü kimi, Qafqaz İslam Ordusu Osmanlı və azərbaycanlı qüvvələr hesabına formalaşdırılmışdı. Qafqaz İslam Ordusu tərkibində hər hansı bir alman qrupunun və ya bölməsinin olduğu doğru deyildir. Almanlar Osmanlı hərbi komandanlığına yalnız Osmanlı qoşunlarının yük-

sək hərbi strukturlarında yerləşdirilmiş alman zabitləri vasitəsilə təsir edə bilərdilər.

Çiçerin tərəfindən eyni zamanda bir məktub da Rusiyanın Almaniyadakı səfiri İoffeyə göndərildi. Sovet dövləti İoffedən tələb etdi ki, türk qoşunlarının Bakı üzərinə hərəkətinin dayandırılması üçün Almaniyanın fəallaşmasına çalışsın. Sovet Rusiyasının istəkləri Almaniya tərəfindən öyrənildikdən sonra İoffeyə cavab verildi. Alman tərəfinin qənaətinə görə, Rusiyanın narahatçılığına elə bir əsas yox idi. Çünki verilən cavaba görə, Bakı neftinə maraqlı olan Almaniya Azərbaycanda türk qoşunlarının fəaliyyəti ilə bağlı məsələni nəzarət altına almışdı və buna görə də türk qoşunlarının Bakıya doğru irəliləməsinin dayandırılacağına da təminat verilirdi (15).

Osmanlı dövləti rəhbərləri, o cümlədən Ənvər paşa üzdə müttəfiqləri olan Almaniyanın Brest-Litovsk müqaviləsinin şərtlərindən kənara çıxmamaq, Azərbaycandan öz qoşunlarını geri çəkmək tələblərinə razı olduğunu bildirsə də, əslində, yuxarıda qeyd edildiyi kimi, Bakının alınmasını çox tezliklə başa çatdırmağa çalışırdılar. Azərbaycan ərazisində gedən döyüşləri ardıcıl olaraq izləyən Rusiya rəhbərləri iyul ayının sonunda yenidən öz narahatlığını Almaniya dövlətinə çatdırdı. Qafqaz İslam Ordusu qoşunlarının Bakı ətrafına gəlib çıxması Bakıda sovet hakimiyyətinin süqutuna da təkan verdi. Çiçerin iyulun 29-da İoffeyə göndərdiyi teleqramda bildirirdi ki, Bakıda Sovet hakimiyyətinin xilas edilməsinin başlıca yolu oradakı türk qüvvələrinin geri çəkilməsidir. Bu məsələ ilə bağlı İoffe Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Her Busşe ilə görüşdü və Rusiyanın Bakı ilə bağlı narahatçılığını onun nəzərinə çatdırdı. Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi bu narahatçılığın əbəs olduğunu, türk qoşunlarının Bakıya doğru irəliləməsinin doğru olmadığını bildirdi. Onun sözlərinə görə, həm İstambuldan, həm də Tiflisdən alınan məlumatlar türklərin almanların tələbləri ilə razılaşmasından, türk qoşunlarının irəli hərəkət etməyəcəklərindən və Bakıya girməyəcəklərindən xəbər verir. Almanlar İoffeyə onu da bildirdilər ki, türklər verdikləri sözə əməl etməsələr, onda onları buna məcbur edəcəklər (16).

Sovet səfiri İoffenin avqustun 1-də Moskvaya göndərdiyi məktubunda Almaniya Xarici İşlər Nazirliyində ona deyilənlərin doğruluğunu başqa kanallar vasitəsilə də yoxladığını qeyd edirdi. O yazırdı ki, Almaniya Xarici İşlər Nazirliyinin şöbə müdiri Kruger və Almaniyanın İstambuldakı elçisi Kont Brensdorfdan alınan məlumatlar da Sədr-əzəm Tələt paşanın, hərbiyyə naziri Ənvər paşanın və Xarici işlər naziri Nəsimi bəyin də Nuru paşaya Bakı üzərinə hücumu dayandırmaq barədə qəti göstəriş verdiklərini təsdiq edirdi. İstambuldakı alman səfirinə görə də türklərin Bakıya doğru hücumu davam etdirmələri xəbəri doğru deyildi. Onun Osmanlı rəhbərlərinə istinadən verdiyi məlumata görə, bu, olsa-olsa Azərbaycanın milli qüvvələrinin təşəbbüsü ola bilərdi (17).

Rusiya rəsmiləri bu izahatla razı deyildilər. Bakı üzərinə hücumda hansı qüvvələrin iştirak etməsi barəsində Moskva hələ Bakı kommunası tərəfindən lazımınca məlumatlandırılmamışdı. Ona görə də Çiçerin avqustun 2-də Almaniyanın diplomatik nümayəndəsinə müvafiq nota göndərdi. Həmin notada deyilirdi: «Biz Qafqazdan Bakıya irəliləyən qoşunlar haqqında məsələni dəqiqləşdirən məlumatlar almışıq. Bir neçə həftə bundan əvvəl türk qoşunu yanında könüllü ordu korpusu yaranmışdır. Buraya Kornilov qiyamı zamanı onun ardınca gedən və Qafqaz xalqlarından yaranmış, köhnə quruluş zamanı süvarini təmsil edən keçmiş «Vəhşi diviziya»nın qalıqları daxildir. Bu qalıqlar hücum zamanı türk ordusunun batalyonları tərəfindən birləşdirilmiş və bundan əlavə, türklər, onlar tərəfindən işğal olunmuş rayonlarda müsəlman əhalisi zorla hərbi mükəlləfiyyətə cəlb edilmişlər, əvvəllər bu geniş yayılmışdı. Məhz bu «könüllü ordu» Bakıya irəliləyir. Biz əminik ki, türk ordusuna qarşı münasibətdə bizə verilmiş təminatlar bu ordunun yuxarıda xarakterizə olunmuş hissələrinə də aiddir» (18).

Almanlarda yaranan təşviş və təlaşlara son qoymaq üçün Ənvər paşa avqust ayının 2-də yazırdı: «...Alman qərargahına qarşı hərəkəti-təərrüzünün icra edilməyəcəyinin təəhhüdatına bulunuyoram. Binaənəleyh, Osmanlı qitəatının Şamaxı-Kürdəmir xəttindən daha irəliyə gedəcəklərini təxmin etmiyoram. Bakının 40 kilometrliyində bulunan qitəatın yerli Dağıstan və Azərbaycan qi-

təatı olduğunu təxmin ediyoram...» (19).

Bununla belə, Qafqaz İslam Ordusunun Bakı üzərinə hücumu dayandırılmadığından Lyudendorf avqustun 4-də Ənvər paşaya teleqram göndərərək bildirdi ki, Bakı üzərinə hücum tezliklə dayandırılmasa və ordu geri çəkilməsə, o, Kayzerdən türk ordusundakı alman zabitlərini geri çağırmağı xahiş edəcəkdir (20).

Bu təkidli tələbdən sonra Ənvər paşa bir daha Osmanlı qüvvələrinin Bakıya doğru hücumunun dayandırılmasına tərəfdar olduğu görüntüsü yaratdı. O, avqustun 4-də 3-cü Ordu komandanına ünvanlanmış məktubunda Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsinin qarşısının alınması üçün Nuru paşaya daha «qəti göstərişlər» verirdi. Məzmunun daha çox alman nümayəndələrinin diqqətinə çatdırılması üçün nəzərdə tutulmuş həmin məktubda deyilirdi: «...Nuru paşaya çatdırılması lazımdır: əmri-qəti təkrar edirəm ki, Bakıya heç bir surətlə tərəfimizdən düçari-təərrüz olmayacaqdır. Bundan başqa, hansı çətə (silahlı dəstə–red.) olursa-olsun və haradan gəlirlərsə-gəlsinlər Bakıya qarşı heç kimsənin irəliləməsi haqda təkmili-nüfuzunuzu istemal etməlisiniz. Şorsu–Salyan–Kürdəmir–İbrahimbəyli–Zərqova–Qonaqkənd–Giləzi irəlisində nə bizim əsgərlər, nə də bizə dost çətələrdən heç kimsə bulunmayacaqdır. Bu xəttin irəlisində bu sürətlə bizdən kimsə varsa geri çəkilməlidir.

Xidməti–Osmaniyyədə və Şərq ordular qrupu qərargahında bir alman ərkani-hərb zabiti gərək Baş komandanlıq vəkaləti, gərəksə Şərq ordular qrupu irtibat (rabitə–red.) zabiti olaraq nəzdinizə gələcəkdir. Bunun vəzifəsi vəziyyət haqqında 3-cü Ordu vasitəsilə mənə və ayrıca Şərq ordular qrupuna məlumati-lazımi verməkdir» (21).

Ənvər paşanın bu cəhdləri alman zabitlərinin diqqətini həqiqətən də müəyyən qədər yayındırmışdı. Bir tərəfdən ingilis qoşun hissələrinin Bakıya girməsi, digər tərəfdən də 5 avqust döyüşündən sonra xeyli vaxt ərzində Qafqaz İslam Ordusu tərəfindən irimiqyaslı hücumun təşkil edilməməsi almanlarda artıq türk qoşunlarının Bakıya girmək niyyətindən əl çəkdikləri qənaətini yaratmış və onları sakitləşdirmişdi. Yaranan vəziyyət Rusiya rəhbərlərində də nisbi bir sakitliyə səbəb oldu. Bununla belə, öz gücü

ilə yenidən Bakıya yiyələnməyin asan olmadığını görən Rusiya Bakı nefti uğrunda Almaniya ilə sövdələşmələrini davam etdirirdi. Bakı neftindən pay almaq şərtilə Almaniya Rusiya qarşısında türk qoşunlarının Bakı üzərinə hücumuna yol verməyəcəyinə təminat verməyə razı oldu. Ancaq bu şərtlə ki, ingilis qoşunlarının Bakıdan qovulmasını Rusiya öz üzərinə götürsün (22).

1918-ci il avqust ayının ortalarında Bakıdan gəlmiş olan bir bolşevikin verdiyi geniş məlumatdan sonra Rusiya rəhbərliyi anladı ki, son günlər ərzində Bakı ətrafında sakitliyin yaranması ilə bağlı onların gümanları heç də doğru deyilmiş. Bakı ətrafında yaranmış olan nisbi sakitlik türk qoşunlarının Bakı üzərinə hücumdan imtina etməsi ilə yox, əksinə qəti hücuma hazırlıq işlərinin davam etdirilməsi ilə bağlı imiş. Çiçerin dərhal avqustun 18-də İoffeyə yeni bir teleqram göndərdi. Xarici İşlər naziri bu teleqramda bildirirdi ki, Almaniya Bakı ətrafında nələrin baş verdiyinə görə ya Rusiyanı aldadır, ya da ola bilsin ki, orada cərəyan edən hadisələrdən ümumiyyətlə, xəbəri yoxdur. Çiçerin teleqramda Bakı ətrafında döyüşlərin baş verməsini, Bakının təslim edilməsi ilə bağlı buradakı hakimiyyət orqanlarına türk komandirləri tərəfindən məktublar göndərilməsini də səfir İoffenin nəzərinə çatdırırdı.

Elə həmin günlərdə Osmanlı dövlətinin Moskvadakı səfiri Qalib Kamal bəylə də Çiçerinin görüşü oldu. Həmin görüşdə tərəflər bir-birini Brest-Litovsk müqaviləsinin şərtlərini pozmaqda günahlandırdılar. Çiçerin türk qoşunlarının Bakıya doğru irəliləməsini səfirin diqqətinə çatdıraraq bildirdi ki, Türkiyə bununla artıq adı çəkilən müqavilənin müddəalarını pozmuşdur və Rusiyanın ərazilərinə girmişdir. Türk səfiri isə Çiçerinin diqqətini belə bir məsələyə yönəltdi ki, Brest-Litovsk müqaviləsini Türkiyə deyil, Rusiya pozmaqdadır və ola bilsin ki, Çiçerinin baş verənlər barədə ətraflı məlumatı yoxdur. Türk səfirinin fikrincə, Osmanlı qoşunlarının Azərbaycana gəlməkdə məqsədi heç də bu ərazini tutmaq yox, buradakı erməni silahlı dəstələri ilə mübarizə aparmaq, Azərbaycan əhalisini və Azərbaycanda olan türk əsirlərini bu quldur dəstələrindən qorumaqdır (23).

Avqustun 19-da Çiçerin Rusiya Xarici İşlər Nazirliyi adından

Almaniyanın Moskvadakı baş konsuluna da bir nota göndərdi. Çiçerin bu notada həm Almaniyanı, həm də Türkiyəni Bakıya girməmək barədə verdiyi vədlərə əməl etməməkdə ittihamlandırırdı. Rusiya Xarici İşlər nazirinin notasında deyilirdi: «Şübhə yeri qalmayan mənbələrdən göründüyü kimi, Almaniya və Türkiyə tərəfindən bizə verilmiş bəyanatlara baxmayaraq, son həftələr ərzində türk qoşunları Bakıya hərəkətini davam etdirir və artıq şəhərin özünə hücum da etmişdir. Elə indi Bakıdan gələn, bizə yaxşı tanış olan şəxs məlumat verir ki, iyunun əvvəlində türk qoşunları Kürdəmiri tutmuşlar. İyulun ortasında qoşunlarımız türkləri Göyçaya qədər sıxışdırdı. Lakin iyulun 22-si üçün xəstəliklərin yayılması, suyun çatışmaması və digər çətinliklər ucbatından Ələtə çəkildilər və artıq iyulun 28-də türklər Biləcəriyə çatdılar. Türklərin gəlişi ilə Bakı əhalisi arasında yaranmış təşviş iyulun 18-də Şamaxının tutulması ilə əlaqədar olaraq qaçqınların yaranması ilə daha da gücləndi. İyulun onunda şəhərin vəziyyəti çox ümidsiz görünürdü. Bakı yaxınlığında iyulun 31-də Şıxov və Bibiheybət yüksəkliklərini ələ keçirən türklər bolşevik qoşunlarının artilleriya hücumlarına rast gəldi və avqustun 4-də türklər Biləcəridən çıxarıldılar.

Hələ iyulun 30-da Bakıda türk qoşunlarına komandanlıq edən Şövkət paşanın (yəqin ki, Mürsəl paşa nəzərdə tutulur – M.S.) şəhərin verilməsini tələb edən müraciətnaməsi alındı. Türklər müsəlmanlar arasında vərəqələr paylamağa başladılar. Bu vərəqələrdə deyilirdi: biz vəhşi deyilik, ancaq biz sizi vəhşilərdən xilas etməyə gəlmişik. Son günlərdə bu ərazidə baş verən hadisələr haqqında məlumatlar daxil olmamışdır. Son məlumatlara görə, şəhərdə vəziyyət çox ağırdır. Brest sülh müqaviləsinin biabırcasına pozulmasına, Almaniya və Türkiyə hökumətləri tərəfindən verilmiş çoxsaylı təminatlara qarşı qəti etiraz bildirərək xahiş edirik ki, Siz Almaniya hökumətinə bir daha bildirəsiniz ki, Bakının türklər tərəfindən tutulması böyük faciə olacaq və böyük həcmdə sərvətlərin dağılmasına səbəb olacaqdır. Yenə də ümid edirik ki, Almaniya hökuməti bu faciənin baş verməsinə yol verməyəcəkdir. Xüsusən də ona diqqəti yönəldirik ki, Bakı nefti bütün Rusiyanın xalq təsərrüfatı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə də Rusiya, ona

əhəmiyyətli olan ölkələrlə iqtisadi münasibətlərə daxil olmağa çalışır» (24).

Avqust ayının 19-da Rusiyanın Berlindəki səfiri İoffe də oxşar məzmunlu bir notanı Almaniyanın Xarici İşlər Nazirliyinə təqdim etdi. Notada bildirilirdi ki, türk qoşunları Bakını ələ keçirmək cəhdlərini davam etdirirdilər. Bunun nəticəsi kimi iyul ayının 31-də türk qoşunları Bakı ətrafındakı Şıxov və Bibiheybət yüksəkliklərinə çatmış, avqustun 4-də isə onların Biləcəriyə girmək cəhdi alınmamışdı. İoffeyə görə, türk qoşunları Biləcəriyə sovet qoşunları tərəfindən buraxılmamışdı. Sonra da iddia olunurdu ki, türk qoşunlarının əldə etdikləri nailiyyətlər alman təlimatçılarının xidməti sahəsində olmuşdu. Notada daha sonra deyilirdi: «Almaniya imperiya hökumətinin türklərin Bakıya buraxılmaması haqqında təminatlarına müvafiq olaraq Rusiyanın səlahiyyətli nümayəndəliyi yuxarıda gətirilmiş faktlar və Almaniya imperiya hökumətinin təlimatları əsasında ziddiyyətlərə aydınlıq gətirmək üçün Xarici İşlər Nazirliyindən kömək istəmək məcburiyyətindədir. Rusiya səlahiyyətli nümayəndəliyi bunu da təəccüblə qeyd etməlidir ki, Almaniya imperiya hökumətinin təminatlarına zidd olaraq türk qoşunlarının tərkibində alman təlimatçıları xidmət edir və türklərin nailiyyətləri də bu təlimatçıların kömәkləri ilə izah olunur... Rusiyanın səlahiyyətli nümayəndəsi ümid edir ki, Xarici İşlər Nazirliyi bununla əlaqədar olaraq tədbirlər görəcək və bununla da Almaniya imperiya hökumətinin Bakıya dair təlimatlarına hörmətsizliyə son qoyulacaqdır « (25).

Bakı ilə bağlı bu yazışmalar və Bakı ətrafında cərəyan edən proseslər Almaniya və Rusiyanı daha qətiyyətli fəaliyyət göstərməyə sövq etdi. İki dövlət arasında Bakı nefti ilə bağlı gedən sövdələşmələr sürətləndirildi. Bu sövdələşmənin nəticəsi kimi avqust ayının 27-də Almaniya və Sovet Rusiyası arasında bir saziş imzalandı. Sazişdə iki dövlət üçün maraq doğuran bir sıra məsələlərdən başqa Azərbaycan və Bakı neftinin gələcək taleyi ilə bağlı da bir sövdələşmə var idi. Sazişin 6-cı fəslinin 14-cü maddəsi konkret olaraq Azərbaycana həsr edilmişdi. Hər iki dövlətin həyati maraqlarını əks etdirən bu maddədə bildirilirdi: «Sülh

müqaviləsinin IV maddəsinin III abzasına əsasən Almaniya Gürcüstan daxilində və ya onun hüdudlarından kənarda Qafqazda baş verə biləcək hərbi əməliyyatlarda hər hansı bir üçüncü ölkəni dəstəkləməyəcəkdir. O, Qafqazda üçüncü ölkənin hərbi qüvvələrinin aşağıda göstərilən xətləri keçməməsi üçün öz təsirini göstərəcəkdir: Kür çayının mənsəbindən Petropavlovsk kəndinə qədər, sonra Şamaxı qəzası sərhədindən Ağrıoba kəndinə qədər, Bakı, Şamaxı, Quba qəzalarının sərhədlərinin birləşdiyi nöqtəyə qədər düz xətt boyunca, daha sonra Bakı qəzasının şimal sərhədindən dənizə qədər.

Rusiya imkan daxilində Bakı ərazisində neft və neft məhsullarının əldə olunmasına yardım edəcək, əldə olunmuş məhsulun dörddə bir hissəsini Almaniyaya verəcəkdir. Belə ki, hər ay hələ təyin olunacaq müəyyən miqdarda (tondan az olmayaraq): Bakı ərazisində əldə olunan miqdar müəyyən olunmuş həcmi təchiz etmək üçün kifayət deyildir və yaxud da ki, başqa məqsədlər üçün istifadə edilməlidir, ona başqa yerlərdə əldə olunmuş miqdar əlavə olunur; satış qiyməti kömürün miqdarının qiyməti ilə hesablanır» (26).

Müqavilədə adı hallanan üçüncü bir dövlət kimi konkret şəraitdə Türkiyə nəzərdə tutulmuşdu. Belə bir müqavilənin bağlanması müttəfiqlik əlaqələrində olan Osmanlı Türkiyəsinə qarşı böyük bir üzüdönüklük idisə, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə isə müdaxilə hərəkətlərinin rəsmiləşdirilməsi idi. Azərbaycanın xəbəri olmadan onun mənafelərinə toxunan bu müqaviləni M.Ə.Rəsulzadə belə qiymətləndirirdi: «Almaniya dövləti bolşevik hökuməti ilə Brest-Litovsk müahidəsinə zeyl olaraq yapdığı bir müahidə mucibincə Bakı vilayətinin ta Kür nəhrinə qədər ruslara tərkinə riza göstərmiş, müqabilində kəndisinə petrol imtiyazını təmin eyləmişdi. Ustadımız Əhməd bəyin təbirincə bizi təngə bir qaza satmışdı. Bu münasibətlə bizə müraciət qəzetəçilərə "Bakısız Azərbaycan başsız bədəndir." – demişdik» (27).

Adı çəkilən sazişin imzalanmasından bir neçə gün sonra, sentyabrın 12-də Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi İstambulda olan M.Ə.Rəsulzadə Azərbaycan hökuməti adından Almaniyanın buradakı səlahiyyətli nümayəndəsi qraf Valdburqa bu sazişlə bağlı etiraz notası təqdim etdi. Həmin etiraz notasında

deyilirdi: «Almaniya ilə Rusiya arasında sazişin Bakıya aid maddəsindən həddindən artıq qəmə batan və heyrətdə olan hökumətimizdən aldığım təlimata müvafiq surətdə aşağıdakıları sizin nəzərinizə çatdırmağı özümə şərəf bilirəm: Azərbaycan əhalisi rus hökuməti tərəfindən elan olunan və Brest-Litovskda onlar tərəfindən təkidlə bir daha təsdiq edilən «hər millətin öz müqəddəratını təyin etməsi hüququ» haqqındakı şüarına istinad edərək əsrlərdən bəri altında əzildiyi rus boyunduruğunu üzərindən ataraq elani-istiqlal etmişdisə də, bağlanan müahidələr Azərbaycanın təbii paytaxtı, elm və mədəniyyət mərkəzi, iqtisadi və siyasi mərkəzi olan Bakı şəhərinin yenidən rus hakimiyyəti altına alınmasına təminat vermişdir.

...Elm və fənlər, mədəniyyət nöqteyi-nəzərindən Bakı Azərbaycana bağlıdır. Siyasi, iqtisadi və ictimai təşkilatlar, tədris, xeyriyyə, zehni mərkəzlər, əhalinin ziyalı nümayəndələrinin toplandıqları başlıca yer Bakıdır.

Bütün bu məlum səbəblərə görə məmləkətin istiqlalını fəth etmək fikrindən heç bir zaman sərf-nəzər etməyən Azərbaycan əhalisi Bakını geri qaytarmaq arzusundan da heç bir zaman əl çəkə bilməz. Bu məsələ Azərbaycan üçün yalnız ərazi məsələsi deyil, o indi xalq üçün ölüm-dirim məsələsinə çevrilmişdir.

...Yuxarıda deyilən faktlara əsasən mən Almaniya imperatorluğu hökumətinin nəzərinə çatdırıram ki, Bakının Rusiyada qalmasına razılıq verən rus-alman əlavə müqaviləsi Azərbaycanın həyata maraqlarını məhv edir. Bununla əlaqədar milli hökumət və Azərbaycan xalqı böyük narahatlıqla bildirir ki, böyük dost ölkələrin razılığı ilə onu həyati marağı olan mərkəzə sahib olmaqdan məhrum edilməsi kimi təhlükə gözləyir və onun bu şəhərə qeyd-şərtsiz olan hüququ Almaniya imperator hökuməti tərəfindən nəzərə alınmalıdır»(28).

Türkiyənin bir müttəfiq kimi maraqlarını nəzərə almadan Almaniyanın Sovet Rusiyası ilə gizli saziş bağlaması həm Osmanlı hökuməti rəhbərlərinin, həm də Türkiyə ictimaiyyətinin ciddi narazılıq və narahatlığına səbəb oldu. Türkiyədə nəşr olunan «İqdam» qəzeti həmin sazişlə bağlı belə yazırdı: «Almaniya ilə Rusiya arasındakı müzakiratın nəticəsi ciddi bir həyəcan ortalığa

çıxarıb... Bizim bu halda alman dostlarımızdan sorulacaq bir sualımız var: İndiyə kimi hərbi-ümuminin ən ağır yükünə cüssə və qüvvətinə nisbətlə Türkiyə yükləndi. Öylə olduğu halda Türkiyə son hərblərdə yalnız öz nöqteyi-nəzərini təqib etsəydi, hər halda neft yağından çox böyük mənfəətlər və bu günkü Rusiya ilə sülh sazişi məcburiyyətindən çox daha böyük və həyati məcburiyyətlərlə müttəfiqinin mənfəətini fəda eləsəydi, əcəba məzur görüləcəkmiydi» (29).

Almaniya-Rusiya sövdələşməsinin yaratdığı narahatçılığı və gərginliyi aradan qaldırmaq üçün Sədr-əzəm Tələt paşa sentyabr ayının 6-da Berlinə gəldi. Burada o, Almaniya Xarici İşlər Nazirliyinin nümayəndəsi Fon Hinze ilə görüşdü, adı çəkilən müqavilənin Türkiyənin mənafeyinə yaratdığı təhlükəli məqamları müzakirə etdi. Xüsusilə Tələt paşa Türkiyənin xəbəri olmadan Qafqaza aid Rusiya ilə saziş bağlanmasına dair öz narazılığını F.Hinzenin diqqətinə çatdırdı. F.Hinze isə Tələt paşa tərəfindən söylənilən iradları nəinki qəbul etmədi, əksinə Türkiyəni verdiyi vədlərə əməl etməməkdə günahlandırdı. İki dövlət arasında yaranan anlaşılmazlığın həll edilməsi üçün Tələt paşa Almaniyada apardığı danışıqların nəticəsi kimi bir anlaşma imzalanmasını təklif etdi. Həmin anlaşmanın 6-cı və 8-ci maddələri Qafqaz və Azərbaycanla bağlı idi. Bu maddələrdə deyilirdi:

«6-cı maddə – Rusiyanın dış gəlişmələri göz önündə tutularsa və bu dövlətin Türkiyəyə qarşı daima yıxıcı bir fəaliyyət təqib etdiyi və Türkiyənin tərəqqi yoluna girməsini əngəlləmək üçün hər türlü vasitələrlə çalışdığı diqqət nəzərinə alınarsa, türk hökuməti Qafqazlarda qüvvətli və müstəqil bir dövlətin qurulmasını kəndisi üçün bir məsələ ədd etməkdədir(hesab etməkdədir–red.)...

8-ci maddə–Bakı məsələsinə gəlincə bu əyalətdə müsəlman əhali nüfuzun 85 faizi nisbətində olub xalqı kamilən islam olan Azərbaycan (hər halda İran Azərbaycanı nəzərdə tutulur–M.S.) və quzey Qafqaz tərəfindən ihtiva edilmişdir. Bakı coğrafi durumu etibarilə Azərbaycan dövlətindən başqasına aid ola bilməz...» (30).

Anlaşmada belə bir məqam da var idi ki, Bakı şəhəri olmadan qüvvətli bir Azərbaycan dövləti qurmaq olmaz. Sədr-əzəm Tələt pa-

şa anlaşma layihəsini alman tərəfinə təqdim etməklə bərabər, belə bir təklif də irəli sürdü ki, Almaniya dövlətinin Bakı da tərkibinə daxil olan Azərbaycanı, Gürcüstanı və Ermnistanı müstəqil dövlətlər kimi tanıması yaxşı olar. Ancaq Almaniya tərəfi sədr-əzəm Tələt paşanın təkliflərinin öyrənilməsinə müstəqil bir iradə nümayiş etdirə bilmədi. Əslində, Almaniya heç belə bir iradənin nümayiş etdirilməsi marağında deyildi. Çünki Türkiyə sədr-əzəminin irəli sürdüyü təkliflərin qəbul edilməsi Almaniyanın Bakı neftinə olan iddialarından əl çəkməsi demək olardı. Alman tərəfi Tələt paşanın təqdim etdiyi anlaşma layihəsi barədə fikrini bildirməzdən əvvəl onu Rusiyanın Berlindəki səfiri İoffeyə göstərdi. İoffe həmin anlaşma layihəsinə dair öz mülahizələrini aşağıdakı şəkildə ifadə etdi:

1. Mavərayi-Qafqazdan rus hissələrinin geri çəkilməsi və idarə mexanizminin qeyri-fəal bir hala gəlməsi bu sahənin dövlət hüququ baxımından statusu üzərində heç bir hökmü olmadığı kimi, türk əsgəri birliklərinin oraya girməsi və millətlərarası münasibət təsis etməsinə heç bir haqq verə bilməz.

2. Mavərayi-Qafqaz Cümhuriyyəti deyilən bir dövlət nə Rusiya Sovet hökuməti və nə də başqa bir hökumət tərəfindən tanınmışdır. Dolayısı ilə bunlar əvvəldə olduğu kimi indi də Sovet Rusiyası ərazisi hesab olunmaqdadır.

3. Türk ordusu komandanlığı rus hissələrinin münəzzəm bir şəkildə geri çəkilməsinə imkan verməmək üçün heç bir möhlət qoymamış və dərhal irəliyə doğru hərəkətə başlamışlar.

4. Türkiyənin Zaqafqaziyadakı hökumətlərlə qəbul etdiyi anlaşmalar Sovet Rusiyası tərəfindən tanınmamışdır.

5. Sovet Rusiyası Türkiyə ilə Rusiya arasında bir Qafqaz dövləti olmasını məmnuniyyətlə qəbul etməkdədir. Belə bir müsəlman dövlətinin qurulması üçün Şimali və Cənubi Qafqazdakı azərbaycanlıların (müsəlmanların) bir araya gətirilməsini isə Sovet hökuməti qəbul etməməkdədir (31).

Bir sözlə, Sovet Rusiyasının nümayəndəsi Türkiyənin irəli sürdüyü təkliflərin qəbul edilməzliyini bildirdi. Rusiyanın bu məsələyə münasibəti ilə tanış olduqdan sonra Almaniya da Tələt paşanın təkliflərinə mənfi münasibətini və beləliklə də avqustun 27-də Rusiya ilə imzalanmış sazişin müddəalarına sədaqətini

ifadə etdi. Almaniyanın Türkiyənin irəli sürdüyü təkliflərə münasibəti bütünlükdə belə idi – Almaniya hökuməti Rusiyanın da razılığı ilə Ermənistan və Azərbaycanın təsdiq və tanınmalarını haqlı çıxaracaq hər hansı bir millətlərarası hüququn olmadığını bildirir və buna görə də onların müstəqilliyini tanıyacaq durumda olmadığını qeyd edir. Çünki Brest-Litovsk müzakirələrində də açıqca vurğulandığı kimi Sovetlər tərəfindən elan edilmiş olan millətlərin öz müqəddəratını özləri təyin etmələri və müstəqilliyini elan etmələri hüququ yalnız Sovet hökuməti ilə həmin millətlər arasında həll edilə bilər. Kənardan hər hansı bir millətin bu işə qarışmaq haqqı yoxdur. Yəni vaxtilə Rusiyanın tərkibinə daxil olmuş xalqlar indi yalnız Sovet hökuməti ilə qarşılıqlı şəkildə razılaşdırıldıqdan sonra Rusiyadan ayrıla bilərlər. Almaniya tərəfi Türkiyə rəhbərlərinin verdiyi cavabında Gürcüstanı belə müstəqil bir dövlət kimi tanımağa meylli olduğunu bildirirdi. Azərbaycana gəlincə isə münasibət tamamilə başqa şəkildə idi. Alman hökumət dairələrinin fikrincə, Sovet hökuməti türk qoşunlarının Azərbaycandakı fəallığının qarşısını almaq üçün Sovet hökuməti Almaniya ilə razılığa gəlmişdir. Buna görə də Sovet Rusiyasının razılığı olmadan Almaniya Azərbaycanın müstəqilliyini tanımayacaqdır. Əgər Azərbaycanda vəziyyət dəyişərsə və Azərbaycanda müəyyənləşdirilmiş bir durum yaranarsa, onda Almaniya da Azərbaycana münasibətinə yenidən baxacaqdır. Belə bir vəziyyətin meydana gəlməsini isə Almaniya hər şeydən əvvəl türk qoşunlarının Almaniya-Rusiya sazişində qəbul olunmuş xəttin qərbinə çəkilməsində görürdü (32).

Türkiyənin Qafqaz siyasəti ilə bağlı Almaniyanın təzyiqlərinin bu dərəcədə genişlənməsi Ənvər paşanı da çox ciddi narahat edirdi. Bu təzyiqlərin qarşısında hər hansı bir güzəştə gedilə biləcəyinə etiraz əlaməti olaraq Ənvər paşa istefa ərizəsini yazdı və bu barədə Tələt paşaya da xəbər verdi. Tarixi qoyulmamış həmin istefa ərizəsi indiyə kimi saxlanmaqdadır. İstefa qərarına gəlmiş Ənvər paşa Tələt paşaya belə yazırdı: «... Dərhal İstambula övdət edəcəyimi və Ümumi Baş komandanlığın mənə təbliğ etdiyi maddələri icab edən qərar ittixaz etmək üzrə zati-şahanəyə (padşaha–red.) ərz edəcəyimi zati-dövlətlərinə təbliğ edirəm. Şəxsən tə-

rəfi-dövlətlərindən icra edilən təbliğatı tamamən icra edəcək vəziyyətdə olmadığım cəhətilə eyni zamanda zati-şahanəyə məni Baş komandanlıq vəkalətindən əfv eləmələrini də istirham eyləyəcəyəm. Şimali və Şərqi Qafqaz müsəlmanlarına vəd və təmin eylədiyim müavinəti geri almağın məncə imkanı yoxdur»(33).

Ənvər paşanın istefa ərizəsinin Türkiyə sultanına göndərib-göndərməməsi məlum deyil. Onun Tələt paşaya yazdığından da aydın görünür ki, istefa qərarını qəbul etməyə Ənvər paşanı Qafqaza hərbi köməyin dayandırıla bilməsi təhlükəsi sövq etmişdi. Əgər nəzərə alınsa ki, Osmanlı dövləti Almaniyanın təzyiqləri qarşısında güzəştə getmədi və Qafqaz siyasətində qarşıya qoyulan vəzifə yerinə yetirildi, onda güman etmək olar ki, Ənvər paşa istefa ərizəsini işə salmaq fikrindən daşınmış və diqqətini daha çox Bakı şəhərinin alınmasına yönəltmişdi.

### *2. Bakı şəhərinin işğalının ingilis planları*

Bakı şəhərinin işğalı planı Birinci Dünya müharibəsi illərində və sonrakı bir neçə il ərzində Böyük Britaniyanın şərq siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Bakı şəhərinə belə önəm verilməsi bir sıra səbəblərlə bağlı idi. Mahiyyət etibarilə bu səbəblərin mərkəzində Böyük Britaniyanın Yaxın Şərqdə daha da möhkəmlənmək niyyətləri dayanırdı. Qərb tarixçilərinin fikrincə, ingilislər iki çay arasında türklərə qarşı, Cənubi Qafqazda isə ruslara qarşı vuruşmağı öhdəsinə götürmüşdü. Bildirilirdi ki, ingilis dövlətinin Cənubi Qafqazda xüsusi marağı var idi. Çünki bu məntəqəni ələ keçirməklə ingilislər iki çay arasında işğal etdikləri ərazilərin şimaldan və şərqdən təhlükəsizliyini təmin edər və Bakı neftinə sahib çıxmaq imkanı əldə edərdi (34).

Bakı şəhərinin işğalının geosiyasi əhəmiyyəti qeyd edilsə də, mənbələr və tarixçilər bu şəhərin tutulmasında əsas məqsədlərdən birinin Bakı nefti olduğunu da vurğulayırdılar. Bakının ələ keçirilməsi bir sıra məntəqələrdə, o cümlədən Xəzər dənizində söz sahibi olmaq fürsəti qazandırmaqla bərabər, Bakı nefti ilə ingilislər müharibə ehtiyaclarını asanlıqla ödəmək və bununla da öz düş-

mənlərini neftsiz qoymaq imkanı da əldə edə bilərdi. İngilis mənbələrinin birində göstərilirdi ki, Böyük Britaniyanın Hərbi Nazirliyindən alınan teleqramların birində Bakının işğalının əhəmiyyəti xüsusi qeyd olunurdu. 1918-ci ilə aid olan həmin teleqramda Yaxın Şərqdəki ingilis qoşunlarının qarşısında dayanmış vəzifələr aşağıdakı kimi müəyyənləşdirilirdi:

1. Xəzər dənizindəki gəmilərə hakim olmaq;
2. Bakını işğal etmək;
3. Krasnovodsku daimi olaraq işğal altında saxlamaq.

Sonra da bildirilirdi ki, Bakını işğal etməkdə məqsəd ilk növbədə Xəzər dənizindəki gəmilərə hakim olmaq və sonra da Bakını nəzarət altında saxlamaq idi. Bununla da neft qaynaqları və şəhər limanı ingilislərə düşmən olan qüvvələrin əlindən çıxarılmış olardı (35).

General Persi Sayksın yazdıqlarından aydın olur ki, Xəzər hövzəsini ələ keçirməklə ingilislər eyni zamanda alman hərbi qüvvələrinin Hindistana doğru irəliləməsi ehtimalının qarşısını ala bilərdilər. İngilis generalının yazdığına görə, Rusiya ərazisində 110 min alman və Avstriya hərbi əsiri var idi. Onları yenidən hərbi strukturlarda birləşdirmək mümkün olduğu halda, almanlar Əfqanıstan üzərindən Hindistana yol aça bilərdilər. Bunu isə ingilislər heç də arzulamırdılar (36).

Bakıya ilk dəfə çıxarılan ingilis hərbi qüvvələrinin komandanı general Denstervil 1918-ci ilin yayında ölkəsi üçün Bakının əhəmiyyətini və zəruriliyini aşağıdakı məqamlarla əlaqələndirirdi – 1917-ci ilin martında Bağdad ingilislər tərəfindən işğal edilmişdi. Onun türklər tərəfindən geri alınması imkanı artıq yox idi. Ona görə də alman qoşunları Asiyanın dərinliklərinə doğru irəliləmək istəsəydilər, onda Berlin–Bakı–Buxara marşrutunu ələ keçirməli idilər. Bakının ingilislər tərəfindən tutulması həmin marşrutun işləkliyini mümkünsüz edə bilərdi.

General Denstervil fikrinə davam edərək yazırdı ki, türk-alman qoşunları tərəfindən Tiflisin ələ keçirilməsi Qara dənizdən Xəzər dənizinə qədər uzanan Batum–Bakı dəmir yolu xəttini, habelə Bakının qiymətli neft mədənlərini, Xəzər kənarındakı böyük taxıl və

pambıq ehtiyatlarını, Qafqaz dağlarının təbii sərvətlərini də onların ixtiyarına verə bilərdi. İngilis generalının fikrincə, bu, ölkəsinin marağına cavab vermirdi və bölgəyə qoşun çıxarılması ilə alman-türk planlarının qarşısını almaq olardı (37).

Xatirələrinin başqa bir yerində general Denstervil Bakının işğalının konkret bir vəzifə kimi qarşılarında durduğuna toxunaraq yazırdı: «Beləliklə, bizim planımız Xəzər dənizi üzərində hakimiyyətdən ibarət idi. Biz buna Bakının işğalı ilə nail ola biləcəyimizdən lazım idi ki, şəhər düşmən işğalından müdafiə edilsin. Bakının əhəmiyyəti çox böyük idi və onun əldə edilməsi üçün risk cəhdi, şübhəsiz ki, özünü doğruldardı» (38).

General Denstervil bu qəti və konkret mövqeyini həm də onunla əsaslandırırdı ki, Bakı nefti yanacaq mənbəyi olmaqdan əlavə, onun nəzarət altında saxlanılması Bakı–Batum dəmir yolu xəttini və Qara dəniz gəmiçiliyini böhran vəziyyətinə salardı. Çünki onların fəaliyyəti daha çox Bakı neftinin daşınmasından ibarət idi. Dəmir yolunun və Qara dəniz gəmiçiliyinin böhranı isə öz növbəsində Almaniya-Türkiyə ittifaqının bölgədəki siyasətini çətinləşdirə bilərdi.

General Denstervil Bakının işğalı zəruriliyinə də toxunmuşdur. O yazırdı: «Xəzər dənizi üzərində hakimiyyət hələ də bizim son məqsədimiz olaraq qalmaqda idi. Ona görə mən inanırdım ki, mənim rəhbərlərim nəhayət ki, dəniz üzərində nəzarətin yalnız Bakıya sahib olmaqdan keçdiyi qənaətinə gələcək və gəldi də. Ona görə də biz bu şəhəri işğal etməli idik» (39).

Bakı şəhəri eyni zamanda İranın şimal-qərbinin qapısı sayılırdı. Ona görə ingilislər istəmirdilər ki, bu qapı alman-türk qüvvələrinin əlinə keçsin. Bu da ingilislərin Bakıya doğru irəliləmək motivlərindən biri idi (40)

Birinci Dünya müharibəsi illərində rus ekspedisiya korpusunun İranın şimalında olması ingilislərin nigarançılığının qarşısını müəyyən dərəcədə alırdı. Çünki onların mövcudluğu zamanı alman-türk qoşunlarının İran üzərindən Hindistana çıxmaq imkanı yox idi. Rusiyada baş verən silahlı çevrilişlərlə bağlı İran ərazisin-

dəki rus qoşunlarının dağılmasından sonra ingilislər öz maraqlarını qorumaq üçün konkret addımlar atmağı qərarlaşdırdılar.

İngilislər əvvəlcə belə bir fikrə düşdülər ki, Van ermənilərinin, Urmiya assurlarının və kürdlərin köməyi ilə İranın şimal-qərbini, əvvəllər rus qoşunlarının nəzarəti altında olan əraziləri nəzarət altında saxlasınlar. Lakin ingilislərin bu planı alınmadı. İngilislər, hətta müstəqilliyini elan etmiş Ermənistan və Gürcüstana hərbi yardım göstərməklə də alman-türk hərbi qüvvələrinin bölgəyə girmək istəyinin qarşısını almağa cəhd göstərdilər. Amma bu cəhd də alınmadı (41).

Tarixi ədəbiyyatda və bəzi ingilis mənbələrində bunu Bağdad ilə Bakı arasındakı məsafənin xeyli uzaq olması və Cənubi Qafqaza aparan yolların rahatsızlığı ilə əlaqələndirirdilər. Belə olduqda Böyük Britaniya Hərbi Nazirliyi Tiflisə ingilis hərbçilərindən ibarət nümayəndə heyətinin göndərilməsini qərara aldı. Nəzərdə tutulmuşdu ki, ingilis hərbçiləri bölgəyə yetişəndən sonra burada alman-türk qüvvələrinə qarşı çıxa biləcək erməni və gürcülərdən ibarət dəstələri səfərbərliyə alsınlar, onların təchizatı ilə məşğul olsunlar. Güman edilirdi ki, təşkilat və təchizat baxımından gücləndirilmiş bu dəstələr vasitəsilə türk hərbi qüvvələrinin qarşısını almaq mümkün olacaqdır. Çünki ingilislərə görə, 1916-cı ildən sonra Osmanlı qoşunları zəifləməkdə idi və onun qarşısını kəsmək üçün güclü bir müqavimətə ehtiyac yox idi. Qərargahı Bağdadda yerləşən ingilis hərbi qüvvələrinin komandanı general Marşall bu planın əleyhinə çıxdı. O, belə bir vəsatət qaldırdı ki, Cənubi Qafqaza ingilis hərbi heyəti göndərilməkdənsə, iki çay arasında türk hərbi qüvvələrinə qarşı hücum təşkil edilsin. Onun qənaəti belə idi ki, burada türk hərbi qüvvələrinə güclü zərbə endirilərsə, türklər Cənubi Qafqaza qoşun çıxarmaqdan daşınarlar. Böyük Britaniyanın İrandakı səfiri Şarlz Morninq Böyük Britaniya Hərbi Nazirliyinin Cənubi Qafqaza hərbi heyət göndərmək planına üstünlük verdi və ona görə də general Marşallın təklifi qəbul olunmadı (42).

General Denstervil də bu planın əleyhinə oldu. Çünki onun fikrincə, müharibə fəaliyyətini 800 mil uzaqda olan bir əraziyə kö-

çürmək və bunun üçün zəruri olan qoşun hissələrinin, təchizatın nəqlini etmək elə də asan deyildi.

General Denstervil Tiflisə hərbi heyətin göndərilməsi ideyasını dəstəkləyirdi. Həmin heyətə Denstervil rəhbərlik etməli idi və bununla bağlı o, 1917-ci ilin sonlarında xidmətdə olduğu Hindistan ərazisindən Bağdada çağırıldı. Burada ona Cənubi Qafqaza yollanacaq hərbi heyətə rəhbərlik etibar olunacağı açıqlandı. General Denstervil öz xatirələrində 200 ingilis zabitinin və bir o qədər də əsgərinin hərbi heyətə daxil olacağını və onların Cənubi Qafqazda yenidən qurulan hərbi hissələrdə təlimatçı vəzifəsini yerinə yetirəcəyini qeyd edirdi. Tarixi ədəbiyyatda isə xüsusi hərbi heyətin tərkibinə 150 zabitin və 300 əsgərin planlaşdırıldığı bildirilir. Heyətin tərkibi Kanadadan, Avstraliyadan, Yeni Zelandiyadan, Cənubi Afrikadan olan və Fransada, Salonikidə, Misirdə və Mesopotamiyada döyüş tapşırıqları icra etmiş təcrübəli zabit və əsgərlərdən seçilməli idi (43).

General Denstervil özü də təcrübəli və hazırlıqlı hərbçi idi. Bundan əlavə, o, rus dilini bilirdi və onun bu keyfiyyətinə xüsusi diqqət yetirilirdi.

1918-ci il yanvar ayının sonlarına yaxın heyətin bir hissəsi toplandı. General Denstervil qərara aldı ki, ilk toplanan qrup hərbi heyətin avanqard dəstəsi kimi səfərə yollansın. Onun yazdıqlarından belə aydın olur ki, qrupun tərkibi 52 nəfərdən ibarət idi ki, onların da 12-si zabit idi. Sonradan zabitlərin sayının bir neçə nəfər də artdığı məlumdur. Heyət Bağdad, İran sərhədində olan Xanəkən məntəqəsindən başlayaraq Kermanşah–Həmədan–Qəzvin–Rəşt–Ənzəli marşrutu üzrə hərəkət etməli idi. Bu səfəri başa vurmaq üçün general Denstervilin həm təchizat çətinlikləri var idi, həm də Gilan vilayətində və Ənzəlidə onu gözləyən çətinliklərdən nigarançılıq keçirirdi. Çünki yuxarıda qeyd edildiyi kimi, Gilandan keçən 70 km yol Kiçik xanın rəhbərlik etdiyi cəngəlilər hərəkatının nəzarəti altında idi. Ənzəli isə bolşeviklərin nəzarəti altında idi. Denstervilin dəstəsi yanvarın 27-də hərəkətə başladı. Amma gözlənildiyinin əksinə olaraq general Denstervilin dəstəsi

Gilan ərazisində hər hansı bir silahlı müqavimətə rast gəlmədi. 1918-ci il fevral ayının ortalarında dəstə Ənzəliyə çatdı. Amma dəstə burada bolşeviklərin müqaviməti ilə üzləşdi. Bolşevikləşmiş olan rus qoşunlarının Ənzəli ərazisində qalmış qalıqları toplaşaraq «Qafqaz cəbhəsinin Şərqi-Fars rayonunun Hərbi-İnqilab Komitəsini» yaratmışdılar. Bütünlükdə şəhərdə 2 min nəfərlik rus hərbçilərinin olduğu bildirilirdi. Adı çəkilən Hərbi İnqilab Komitəsinin Bakı bolşevikləri ilə sıx əlaqəsi var idi. Ənzəliyə yetişən kimi, general Denstervil Hərbi İnqilab Komitəsinə gəlməsi barədə çağırış aldı. Fevral ayının 17–18-də general Denstervil Hərbi İnqilab Komitəsinin üzvləri ilə görüşüb Bakıya yollanmasının məqsədinin Rusiya hökumətinə kömək göstərilməsi olduğunu bildirdi. Hərbi İnqilab Komitəsinin üzvləri general Denstervilin dəstəsinin Bakıdan keçməklə Tiflisə getmək və ermənilərə və gürcülərə yardım göstərməklə müharibəni davam etdirmək planından xəbərdar olduqlarını bildirdilər. Onlar belə bir təklif irəli sürdülər ki, ingilis hərbçiləri bolşevik hakimiyyətini yazılı şəkildə tanısaydılar, onda bolşeviklərin nəzarəti altında onların Bakıya getməsinə icazə verilə bilər (44).

İngilis hərbçilərinin Bakıya çıxmaq üçün göstərdikləri ilk cəhd alınmadığı üçün onlar yenidən Həmədana qayıtmağı və münasib anın yetişməsini gözləməyi qərarlaşdırdılar. Qeyd etmək lazımdır ki, 1918-ci ilin fevralı Bakıda hərbi-siyasi vəziyyətin kifayət qədər mürəkkəb olduğu bir zaman idi. Bakı bolşevikləri Azərbaycanın milli qüvvələri üzərində öz üstünlüklərini təmin edə bilmədikləri bir vaxtda ingilis hərbi qüvvəsinin Bakıya gəlməsi buradakı hərbi-siyasi vəziyyətə gözlənilməz təsir göstərə bilərdi. Ona görə Ənzəlidəki Hərbi İnqilab Komitəsinə xəbər göndərilmişdi ki, Böyük Britaniya artıq Rusiyanın müttəfiqi deyildir. Rusiya Almaniya və onun müttəfiqləri ilə sülh imzalamışdır və Tiflisə yollanmaq istəyən ingilis heyətinə etimad bəsləmirlər. Ənzəli Hərbi İnqilab Komitəsi isə mövcud olan məlumata görə, ingilis hərbi heyətinin qarşısının saxlanması üçün Bakı bolşeviklərindən hərbi kömək istəmişdi. Bakıdan xüsusi bir Qırmızı qvardiya dəstəsi Ənzəliyə gön-

dərilsə də, bu dəstə gec gəlib çatdı və əslində, yuxarıdakılardan göründüyü kimi onların gəlməsinə bir ehtiyac da olmadı (45).

Bakıda yerləşən İran konsulluğunun verdiyi məlumata görə, general Denstervilin rəhbərliyi altında olan ingilis hərbi heyətinin Bakıya səfər məqsədilə Ənzəliyə qədər gəlib çıxması Bakıdakı fəhlə və əsgər deputatları sovetinin üzvləri ilə bərabər, burada çalışan iranlıların da qəzəbinə səbəb olmuşdu. Bu, İran əhalisi arasında mövcud olan antiingilis əhval-ruhiyyəsi ilə bağlı idi. Bildirilir ki, ingilis hərbçilərinin planlarından və niyyətlərindən daha geniş məlumat əldə edilməsi üçün 2 nəfər Rəşt və Ənzəliyə göndərildi və eyni zamanda ingilislərə qarşı göstərilən yumşaq münasibətə görə Ənzəlidəki Hərbi İnqilab Komitəsinə Bakının fəhlə və əsgər deputatları soveti tərəfindən ciddi etiraz çatdırıldı (46).

Bununla belə, ilk cəhdin uğursuz alınması ingilis hərbi komandanlığının heç də Bakı iddialarından əl çəkməsi demək deyildi. Bakının işğal edilməsi Böyük Britaniyanın şərqdəki hərbi kampaniyasının əsas məqsədlərindən birini təşkil edirdi. Məhz bunun nəticəsi idi ki, 1918-ci ilin martında Böyük Britaniya Hərbi Nazirliyi nəzdində Şərq komitəsi yaradıldı. Komitəyə rəhbərlik lord Kerzona tapşırıldı. Bu komitəyə tapşırılmışdı ki, Böyük Britaniyanın Yaxın və Orta Şərq, o cümlədən Qafqaz siyasəti əlaqələndirilsin. Eyni zamanda İran ərazisinə əlavə ingilis bölmələrinin göndərilməsi haqqında qərar qəbul edildi (47).

Denstervil özü də Cənubi Qafqaza qoşun çıxarılmasının və Bakı şəhərinin işğal edilməsinin tərəfdarı idi. Lakin bunun üçün kifayət qədər hərbi qüvvəyə malik deyildi. Belə bir qüvvəyə malik olmadan isə Kiçik xanın dəstəsinin müqavimətini qırıb irəliləmək mümkün deyildi. Kiçik xan isə öz növbəsində tək Gilan vilayətini öz nəzarəti altında saxlamaqla kifayətlənmir və hətta Qəzvinə doğru da hərəkət etmək istəyirdi. Qəzvinin Kiçik xan nəzarəti altına düşməsi ingilislərin Bakıya olan iddialarının həyata keçirilməsini xeyli çətinləşdirə bilərdi. 1918-ci il aprel ayının əvvəllərində Mesopotamiyadan bir ingilis hərbi dəstəsi general Denstervilin sərəncamına göndərildi. Həmin dəstənin gücündən istifadə etməklə

general Denstervil may ayında Həmədandan Qəzvinə hərəkət etdi və bu şəhəri nəzarət altına aldı (48).

Həmədanda olduğu vaxt general Denstervil Tiflisdə və Bakıda olan ingilis və fransız nümayəndəliklərindən qiymətli məlumatlar alırdı. Onun yanına, hətta Bakıdakı Erməni Milli Şurasının nümayəndəsi də gəlmişdi.

Alınan məlumatları və Cənubi Qafqazda cərəyan edən hadisələri təhlil edəndən sonra general Denstervil belə bir qənaətə gəldi ki, Tiflisə gələrək orada erməni və gürcü hərbi hissələrinin formalaşmasına və təchizinə yardım göstərməklə qarşıya qoyulan məqsədə nail olmaq mümkün deyildir. General Denstervil belə bir qənaətə gəldi ki, Cənubi Qafqazda ingilis maraqlarının təmin edilməsi üçün Xəzər dənizinə nəzarəti ələ keçirmək lazımdır. Xəzər dənizinə nəzarətin ələ keçirilməsi üçün isə Bakı şəhəri mütləq işğal edilməli idi (49).

Bakının işğal edilməsi üçün general Denstervilin sərəncamında lazımi qüvvə hələlik yox idi. Yuxarıda qeyd edildiyi kimi, general Denstervillə Biçeraxov arasında razılaşma əldə edilməsinin səbəbi də o idi ki, lazımi sayda ingilis qüvvələrinin yoxluğu şəraitində Biçeraxov öz dəstəsi ilə Qəzvin şəhərini qorusun.

Bakıdakı Erməni Milli Şurasından gələn nümayəndə də general Biçeraxovdan yalnız hərbi qüvvənin göndərilməsini xahiş etdi. Erməni elçisi ingilislər tərəfindən rəhbərlik və ya təlimat üçün ingilis nümayəndələrinin göndərilməsini kafi saymırdı və Azərbaycanın milli qüvvələrinin qarşısının alınması üçün ingilis hərbi qüvvəsinə ehtiyac duyduqlarını dedi. General Denstervil isə hərbi qüvvənin yoxluğu üzündən erməni elçisinə onu qane edəcək cavab vermədi (50).

May ayının 1-də general Denstervil Təbriz şəhərinin Osmanlı qüvvələri tərəfindən tutulması barədə məlumat aldı. Elə may ayının əvvəllərində general Denstervil Azərbaycan milli qüvvələrinin yardımına göndərilən Nuru paşanın da 25 nəfərlik heyətlə Təbrizə daxil olması haqqında məlumat əldə etdi (51). Bu məlu-

matlar general Denstervildə də tezliklə irəliyə doğru hərəkət etmək əminliyi yaratdı.

1918-ci ilin mart-aprel aylarında general Denstervilin sərəncamına bəzi yeni ingilis bölmələri göndərildi. May ayında isə daha bir dəstə general Denstervilin sərəncamına daxil oldu. Bu dəstənin yetişməsindən sonra general Denstervil planlaşdırılanların icrası üçün imkan əldə edildiyini bildirirdi. Onun yazdığına görə, may ayının axırlarında da polkovnik Keyvortun rəhbərliyi ilə 50 zabit və 150 əsgərdən ibarət yeni bir dəstə ona qoşuldu. Bununla general Denstervilin dəstəsi xeyli gücləndi. Bundan istifadə edərək general Denstervil Zəncan ətrafındakı bəzi məntəqələri nəzarət altına aldı və bununla müəyyən təhlükəsizlik tədbirlərini həyata keçirmiş oldu. Bu müddət ərzində general Denstervil 20-yə qədər rus zabitini də öz dəstəsinə cəlb edə bildi. Onların əksəriyyəti Bakıdakı aviaməktəbdən idi. General Denstervil həmin zabitlərin vasitəsilə həm Bakı ilə lazımi əlaqələr qurur, həm də Bakı haqqında lazımi məlumatlar əldə edirdi. Bakıya qoşun çıxarılacağı təqdirdə general Denstervil bu zabitlərdən istifadə etməyi planlaşdırırdı (52).

1918-ci il iyun ayının 1-də general Denstervil öz qərargahını Həmədandan Qəzvinə köçürdü. Bu andan demək olar ki, general Denstervilin Bakıya doğru hərəkət etməsinə yenidən hazırlıq başlandı. O, özü də öz xatirələrində qeyd edirdi ki, Bakıya planlaşdırılan ilk yürüş baş tutmasa da, ingilislər Bakıya yeni yürüşü yaddan çıxarmamışdı və ehtiyat edirdi ki, ikinci yürüşün vaxtında təşkil edilməməsi Bakının türklər tərəfindən ələ keçirilməsinə səbəb ola bilər. İngilis generalı Bakıya hərbi qüvvə çıxarmaqla bərabər, İranda əldə edilmiş mövqelərinin qorunmasını vacib sayırdı. Bunun üçün də hərbi qüvvə lazım idi (53).

1918-ci il iyun ayının əvvəllərində də general Denstervilin dəstəsi yeni ingilis hərbi bölmələri ilə möhkəmləndirildi. Bu bölmələrin yetişməsindən sonra general Denstervil Biçeraxovun dəstəsi ilə birlikdə son məqsəd Bakı olmaqla Qəzvin–Məncil–Rəşt–Ənzəli marşrutu üzrə irəliləmək haqqında qəti qərara gəldi. Onun bu qərarı Yaxın Şərqdə fəaliyyət göstərən ingilis hərbi qüvvələrinin ko-

mandanı general Marşall tərəfindən dəstəkləndi. General Marşall iyun ayının 4-də Böyük Britaniyanın baş qərargah rəisinə göndərdiyi teleqramda yazırdı: «General Denstervil Qəzvindədir. O, qərargahını bir-iki gün əvvəl ora nəql etmişdir. Biçeraxov orada general Denstervilin əmrinə müntəzirdir. Denstervil qüvvələrinin zirehli avtomobil bölüyü və səyyar motorlu alayı Qəzvin–Ənzəli xəttini tutmaq üçün Qəzvinə gələr-gəlməz Biçeraxov Bakı və Həştərxana gedəcəkdir. General Denstervilin zirehli avtomobil bölüyünün Biçeraxov ilə göndərilməsi və axırda bu bölüyü özünün təyin etdiyi bölüklərin təqib etməsini təklif etmişdir. Çünki indi ən sərfəli bir fürsətin ələ düşdüyü hesab edilməkdədir. General Denstervil Bakı nefti ilə Krasnovodsk pambığını qazanmaq və Xəzər dənizinə tamamilə hakim olmaq üçün hələ vaxt keçmədiyini düşünərək, nəhayət, özünün də Bakıya getməyini məqsədəuyğun bilir. Çünki bu qəsəbə bizdən ciddi yardım gözləyir. Neft quyularının da dağıdılıb sıradan çıxarılmasına ehtiyac hiss etmirəm. Bakıya ingilis qüvvələri göndərmək barədə general Denstervilə hərəkət sərbəstliyi verilməsini yalnız bu birliklərin onun özünün idarəsi altında olması şərtilə təkrar edirəm»(54).

Tezliklə Böyük Britaniyanın Baş Qərargahından cavab alındı və həmin cavabdan görünür ki, Bakı ətrafında vəziyyət aydınlaşana kimi Denstervilin ora yollanması məsləhət bilinmirdi. Baş Qərargahın cavabında deyilirdi: «İngilis hökuməti general Denstervilin Bakıya silahlı qüvvə göndərmək üçün hazırlıq görməsinə etiraz etmir. Lakin səyyar motorlu qoşunun İrana girib Qəzvin–Ənzəli yoluna hakim olanadək general Denstervil və ya bir ingilis tüməninin və ya Biçeraxovun, eləcə də onun əmrində olan rusların Bakıya daxil olmasını məqsədəmüvafiq hesab etmir. İngilis hökuməti bu fikirdədir ki, haqqında bəhs olunan yoldakı vəziyyət yaxşılaşdırılsa belə, Bakı üzərinə hərəkət yenidən Londona müraciət etmədən və oradan təlimat almadan mümkün deyildir (55).

Böyük Britaniyanın Baş Qərargahı ilə, Yaxın Şərqdə olan hərbi qüvvələrin komandanlığı ilə aparılan sonrakı yazışmalar da göstərdi ki, Denstervilin rəhbərliyi altında Bakıya qoşun çıxarılması

məqsədəuyğun sayılmırdı. Bakıdakı hərbi-siyasi şəraitlə yaxından tanış olmaq üçün yalnız Biçeraxov dəstəsinin tərkibində zabit göndərilməsinə etiraz edilmirdi. Qeyd etmək lazımdır ki, ingilis hərbi bölmələrinin Bakıya gətirilməsinə Bakı bolşevikləri də razı deyildi. Onlar Biçeraxovun dəstəsini qəbul etməyə razı olsalar da, ingilis qüvvələrini bolşevik hakimiyyətinə bir təhlükə kimi görürdülər.

İyunun əvvəllərində Qəzvinə xeyli sayda rus hərbçiləri toplanmışdılar. Həm bu hərbçilər, həm də Biçeraxovun dəstəsi Bakıya doğru hərəkətin başlanmasında təkid edirdilər. Yuxarıda qeyd edildiyi kimi, general Denstervil daha bir ingilis bölməsinin yetişməsindən sonra Biçeraxovun dəstəsinin irəliləməsinə etiraz etmədi. Amma Qəzvin–Rəşt yolunun cəngəlilərin nəzarəti altında olması müəyyən narahatçılıqla müşayiət olunurdu. Bununla belə, cəngəlilər rus hərbçilərinin asayişin qorunmasını təmin edəcəkləri halda dinc şəkildə Ənzəliyə buraxılmasına etiraz etmirdilər. Bunun üçün onlar, hətta Qəzvinə toplaşmış olan rus hərbçilərinin yanına öz nümayəndələrini göndərdilər və qərarlarını da onlara çatdırdılar. Onlarla aparılan danışıqlar zamanı aydın oldu ki, cəngəlilər yalnız rusları buraxmağa hazırdırlar, ingilis qüvvələrini isə yox (56).

Mövcud faktlar göstərir ki, Biçeraxov bu təklifi qəbul etməyib və ingilislərsiz Qəzvindən hərəkət etməyib. Hər halda Biçeraxovla general Denstervil arasında müəyyən tərəfdaşlıq əlaqələri qalmaqda idi. 1918-ci il iyun ayının əvvəlində Qəzvin–Rəşt yolunun açılması məqsədilə danışıqlar aparılması üçün general Denstervil polkovnik Stoksu cəngəlilərin yanına göndərdi. General Denstervil öz xatirələrində qeyd etdiyi kimi, polkovnik Stoks həm də cəngəlilərin yanında olan əsirlərin azad olunmasını müzakirə etməli idi (57). General Denstervil daha çox cəngəlilərin həbsində olan kapitan Noel haqqında düşünürdü. Bu kapitan general Denstervilin tapşırığı ilə mülki geyimdə Bakıya səfər etmiş, orada ingilis hərbi komandanlığını maraqlandıran məlumatlar toplamışdı. Geri qayıdanda isə onu malik olduğu sənədlərlə birlikdə cəngəlilər tutub saxlamışdırlar (58).

Polkovnik Stoksu Nikitin adlı bir rus da müşayiət edirdi. Lakin onların apardıqları danışıqlar bir nəticə vermədi. Nə əsirlər azad edildi, nə də yol açıldı. Belə olanda general Denstervil irəli hərəkət etmək haqqında əmr verdi. İyun ayının 12-nə keçən gecə öndə Biçeraxovun dəstəsi, ardınca da ingilis bölmələri Rəştə doğru hərəkətə başladılar. İngilis-rus hərbi bölmələrini havadan ingilis təyyarələri də müşayiət edirdi. Məncil adlanan məntəqədə ingilis-rus bölmələri cəngəlilərin müqaviməti ilə qarşılaşdılar. Bu məntəqədə yol daralaraq dağların arasından keçirdi və cəngəlilər də bu təbii şəraitdən bəhrələnməyə çalışırdılar. Lakin onlar Biçeraxovun dəstəsinin zərbəsi qarşısında duruş gətirə bilmədilər.

Cəngəlilərin silahlı dəstələrinə milliyyətcə alman olan mayor fon Paxen adlı birisi rəhbərlik edirdi. Döyüşün gedişində Kiçik xan mayor fon Paxeni Biçeraxovun yanına göndərdi və bir daha ruslar üçün yolun açıq olacağını bildirdi. Lakin Biçeraxov bu təklifi qəbul etmədi (59).

Bir neçə gündən sonra Biçeraxovun dəstəsi Ənzəliyə çatdı. İyun ayının sonlarında Biçeraxov və Denstervil gələcək fəaliyyət imkanlarını uzun-uzadı müzakirə etdilər. Bundan sonra Biçeraxov dəstəsi ilə gəmilərdə Ələtə, general Denstervil isə Qəzvinə yola düşdü. General Denstervil öz xatirələrində qeyd etdiyi kimi, o, Bakıda baş verən prosesləri yaxından izləyirdi və ümid edirdi ki, ən yaxın günlərdə Bakı Soveti devrilərək yerində yeni hakimiyyət qurulacaq və həmin hakimiyyət ingilis qüvvələrini Bakıya dəvət edəcəkdir. Bu dəvətin lazımınca yerinə yetirilməsi üçün general Denstervil yenə də əlavə hərbi qüvvələrin onun sərəncamına göndərilməsini istəyirdi. 1918-ci il iyun ayının əvvəlində 39-cu piyada briqadasının onun tabeliyinə göndərilməsi general Denstervildə Bakıya olan ingilis iddialarının reallaşdırılmasına inamı daha da artırdı.

### *3. Bakı uğrunda ingilis-bolşevik qarşıdurmasının kəskinləşməsi*

Cəbhədə yaranmış olan nisbi sakitlikdən bolşevik-daşnak qüvvələri də səmərəli şəkildə istifadə etməyə cəhd göstərirdilər. Qafqaz İslam Ordusundan alınan ağır zərbədən sonra Qırmızı Ordu hissələri geri qaçmaqda davam edirdi. Bu orduda hakim olan bolşevik-daşnak ideologiyasının böhranı və süqutu Bakı Xalq Komissarları Sovetini də süqut dərəcəsinə çatdırmışdı. Bu bolşevik qurumunu və onu təmsil edən bolşevikləri məhv olmaqdan yalnız cəbhədə dönüşün yaradılması, Qafqaz İslam Ordusu hissələrinin hücumu qarşısının alınması xilas edə bilərdi. S.Şaumyanın ətrafına topladığı və dayaqlandığı erməni-daşnak qüvvələri bunun öhdəsindən gələ bilmədilər. Həmin qüvvələr Qafqaz İslam Ordusu hissələrinin güclü zərbəsi ilə parçalanıb nicat üçün geriyə qaçmağa başladılar. S.Şaumyan bunun başlıca səbəbini ətrafına topladığı qoşunun oğru-quldur olmasında deyil, onun komandir heyətinin qorxaqlığında görürdü. V.Leninə göndərdiyi teleqramlardan birində o qeyd edirdi ki, bizim qoşunların əsas kontingenti olan erməni hissələri əvvəlcə igidliklə vuruşsalar da, hissələrin komandir heyətinin qorxaqlığı və ingilis təbliğatı nəticəsində böhrana uğramışdır (60).

S.Şaumyanın L.Biçeraxova bağladığı ümidlər də özünü doğrultmadı. Əslində, heç doğrulda da bilməzdi. Çünki L.Biçeraxovun tutduğu yolun strateji puçluğu əvvəlcədən də aydın idi. Onun sərəncamına verilmiş Qırmızı Ordu hissələri isə mənəvi tənəzzül içərisində olan, yalnız fərdi və şəxsi mənafeləri üçün silahsız və müdafiəsiz Azərbaycan xalqını talamaq üçün cəbhəyə yollanan elementlərdən ibarət idi. Azərbaycana yollanarkən ingilislərdən 180 milyon rubl alaraq 15 gün ərzində 10 minlik ordu toplayacağına söz versə də (61), L.Biçeraxovun orduya çağırış səsinə yalnız 600-ə qədər adam toplandı (62). Böyük vədlərlə və ümidlərlə Azərbaycana yollanan L.Biçeraxov cəbhəyə komandanlıq etdiyi müddət ərzində bir dəfə də olsa qələbə sevincini duymadı. Böyük sürətlə özünü Kürdəmirə çatdırdığı kimi, böyük sürətlə də oradan geri qaçdı. Bacarıqsızlığını, azərbaycanlı zabit Həbib bəy Səlimovun komandanlığı altında olan Cənub qrupunun hücumlarının qarşısını

almağa qüdrəti çatmadığını görəndə L.Biçeraxov cəbhə komandanı vəzifəsindən əl çəkdiyini söyləyib bu vəzifəni erməni Avetisova həvalə etdiyini bildirdi. Bununla belə, o, özünün və dəstəsinin cəbhədə qaldığını və Bakının Qafqaz İslam Ordusundan qorunmasında iştirak edəcəyini bildirdi (63).

İyulun 22-də Avetisov artıq müvəqqəti olaraq cəbhə komandanının vəzifəsini icra etməyə başlamışdı (64).

Bakı bolşeviklərinin fikrincə, Biçeraxovun dəstəsinin yetişməsi onların həm hərbi, həm də siyasi mövqeyini möhkəmləndirə bilərdi. Lakin Biçeraxov dəstəsinin elə ilk ciddi döyüşdə ciddi uğursuzluğa düçar olması Bakı bolşeviklərinin ümidlərini sarsıtdı və Bakı Sovetində bolşeviklərdən narazı olanların sayının artmasına səbəb oldu. Artıq iyul ayının ortalarından Azərbaycanın milli qüvvələrindən və Azərbaycanın müstəqilliyindən elə bolşeviklər kimi qorxan eser-menşeviklər və onların daşnak tərəfdaşları arasında İrandakı ingilis hərbi qüvvələrinin Bakıya çağırılması istəyi xeyli gücləndi. Eser və menşeviklər Azərbaycan milli qüvvələrinin qarşısının kəsilməsi işində bolşeviklərin aciz olduğunu gördülər. Bu isə daşnakların da onlardan aralanmasına yol açırdı. Yaranmış vəziyyətdə daşnaklar da, eser və menşeviklər də yalnız ingilis qüvvələrini dəvət etməklə Qafqaz İslam Ordusu qüvvələrinin uğurlu yürüşünün qarşısını almağa və mövqelərini qorumağa ümid edirdilər. Bakı bolşevikləri isə qətiyyətlə ingilis hərbi qüvvələrinin Bakıya çağırılmasına qarşı çıxırdılar. Çünki ingilis hərbi qüvvələrinin Bakıya gəlməsi ilə Bakı Sovetinin hakimiyyətinə son qoyula bilərdi.

Bakı Xalq Komissarları Sovetinin sədri, məktublarını Qafqazın fövqəladə komissarı adı ilə imzalayan S.Şaumyan 1918-ci il iyulun 13-də V.Leninə ünvanladığı məktubunda ingilis hərbi qüvvələrinin Ənzəliyə doğru irəlilədiyini yazırdı (65). Əslində isə ingilis hərbi komandanlığında hələ Bakıya hərbi bölmələr çıxarılması barəsində aydın qərar formalaşdırılmamışdı. Hətta general Denstervil belə bir qərarla bolşeviklərin qıcıqlandırılmasını da hələlik məqsədəuyğun saymırdı.

Böyük Britaniya Hərbi Nazirliyinin İraqdakı hərbi qüvvələri komandanlığına göndərdiyi teleqramda general Denstervil tərəfindən əvvəlcə Ənzəlidəki bolşevik komitəsinə zərbə endirilməsi təklif olunurdu. Sonra da bildirilirdi ki, Həmədan–Ənzəli yolu nəzarət altına alınmaqla general Denstervilin rəhbərliyi altında Bakıya məhdud sayda hərbi qüvvə çıxarıla bilər. General Denstervil isə bunun cavabında bildirirdi ki, Ənzəlidə şəhərə nəzarəti ələ almaq bolşeviklərin qəzəbinə səbəb ola bilər. Ona görə hələlik Ənzəliyə və Bakıya qoşun çıxarılması arzu olunan deyil. General Denstervil ümid edirdi ki, Biçerxov uğurlar qazanmaqla ingilis bölmələrinin Bakıya çıxarılması üçün daha münasib hərbi şərait yarada bilərdi (66).

Biçeraxovun isə öz dəstəsi ilə Azərbaycanın milli qüvvələrinə qarşı mübarizədə uğur qazana bilməməsi Bakıda toplanmış olan eser-menşevik və daşnak dairələri arasında ingilislərin hərbi yardımına müraciət etmək meylini daha da gücləndirdi. Bu dairələr arasında belə bir əminlik yaranmışdı ki, ingilis hərbi qüvvələrinin gəlişi ilə Qafqaz İslam Ordusunun Bakıya doğru yürüşünün qarşısını saxlamaq mümkün olacaqdır. Bununla bağlı söz-söhbətlər müxtəlif səviyyələrdə açıq şəkildə aparılırdı. Güclənməkdə olan belə bir əhval-ruhiyyə isə Bakı bolşeviklərini ciddi təşvişə salmışdı. Mövcud olan faktlar göstərir ki, 1918-ci ilin iyul ayının ortalarında Bakı Soveti ingilislərin Bakıya dəvət edilməsinin yolverilməzliyi haqqında qərar qəbul etmişdi. Amma bolşeviklərin bu qərarı artıq Bakıda formalaşmaqda olan yeni siyasi şəraitə ciddi təsir göstərmək imkanında deyildi.

1918-ci il iyul ayının 14-də Xəzər hərbi donanmasının bəzi hissələri ingilis hərbi qüvvələrinin Bakıya dəvət olunması haqqında qərar qəbul etdi. Bu qərarın qəbul olunması onu göstərirdi ki, Bakı bolşeviklərinin etibarlı dayaq hesab etdikləri Xəzər hərbi donanması daxilində bolşeviklərə qarşı etimadsızlıq yaranmışdı. Xəzər donanmasının bolşevizmə sədaqətli olan hissəsi isə iyulun 17-də iclas çağıraraq ingilisləri imperialist adlandırdı və onların köməyinə müraciət edilməməsini qərara aldı. Bunun əvəzində isə təklif olunurdu ki, Bakının bütün əhalisi Qırmızı ordu sıralarına çağırılsın

və Bakının müdafiəsi təşkil olunsun (67).

"İzvestiya Bakinskoqo Soveta" qəzeti yazırdı ki, Bakıda ingilis hərbi yardımına müraciət edilməsi əhval-ruhiyyəsinin güclənməsi ingilis agentlərinin şəhərdə təxribatçı və antisovet təbliğat aparmasının nəticəsi idi. Qəzetin yazdığına görə, bu təbliğatın arxasında burjuaziya dayanırdı və burjuaziya ingilis hərbi qüvvələrinin Bakıya gətirilməsi ilə milliləşdirilmiş sənaye obyektlərini geri almaq istəyirdi. Adı çəkilən qəzet də Bakının bütün əhalisini ingilislərlə mübarizəyə səfərbər olmağa çağırırdı ( 68).

1918-ci il iyulun 19-da Tağıyevin qız məktəbində mühazirə oxuyan D.Bünyadzadə ingilis hərbi qüvvələrinin Bakıya dəvət olunmasında daşnakların xüsusi fəallıq göstərdiyini qeyd edirdi. D.Bünyadzadə onu da əlavə edirdi ki, bolşeviklər heç bir şəraitdə ingilis hərbi qüvvələrinin Bakıya daxil olmasına yol verməyəcəklər (69).

Lakin bolşevik-daşnak hərbi qüvvələrinin davam edən uğursuzluqları bolşevik təbliğatının kəsərini də heçə endirirdi. S.Şaumyanın rəhbərliyi altında olan Bakı Sovetinin siyasi şəraitə təsir göstərmək imkanları günü-gündən məhdudlaşırdı. Bakı bolşeviklərinin böhranlı vəziyyətə düşməsi sovet Rusiyası rəhbərliyinin də ciddi narahatçılığına səbəb oldu və bunun nəticəsi idi ki, həm Stalin, həm də V.Lenin qətiyyətlə Bakıya ingilis hərbi qüvvələrinin dəvət edilməsinə qarşı çıxdılar (70).

Yaxınlaşan süqutdan xilas olmaq üçün əsas ümid yeri isə Rusiyadan gələ biləcək köməyə bağlanılırdı. Zorakı yolla hakimiyyətə gələn Bakı Xalq Komissarları Sovetinin ömrünün uzadılmasının da yalnız zorakılıqla mümkün olacağına şübhə etməyən Rusiya bolşevik hökuməti iyunun 2-ci yarısından etibarən Bakıya hərbi yardımı xeyli artırmışdı. V.Leninin göstəriş və tapşırıqlarından sonra xeyli silah, hərbi sursat və bir neçə silahlı dəstə, o cümlədən Petrovun komandirliyi altında 780 nəfərlik yaxşı silahlanmış Sovet qoşun dəstəsi Ukrayna cəbhəsindən Bakıya göndərildi. İyul ayının 19-da «İzvestiya Bakinskoqo Soveta» qəzeti bu xəbəri böyük bir sevinclə oxuculara çatdırırdı (71). 100–200 nəfərlik kazak atlı dəstəsindən, 6 topçu batareyasından, Baltik və Qaradənizçilər bölüyündən və süvari kəşfiyyatçılar bölməsindən ibarət olan Petrovun dəstə-

si Bakını türk-Azərbaycan qoşunlarından qorumalı idi.

Bakını azərbaycanlılardan qorumaq üçün Azərbaycana göndərilmiş olan Petrovun dəstəsi Sovet qoşunlarının intizamlı və döyüşkən bir dəstəsi kimi təqdim edilsə də əslində, bu dəstənin rəhbəri də, onun üzvləri də xisləti etibarilə, daşnaklardan heç də geri qalmırdılar. Çünki bu dəstə Voronej quberniyasında olarkən elə böyük talanlarla, özbaşınalıqlarla məşğul olmuşdu ki, yerli əhali elliklə V.Leninə xəbər göndərib onları bu dəstənin əlindən xilas etməyi xahiş etmişdi (72). V.Lenin və onun ətrafındakılar isə Azərbaycanı, Azərbaycanın milli qüvvələrinə qarşı mübarizəni bu dəstə üçün ən yaxşı fəaliyyət meydanı bilib ora yolladılar.

İyulun 19-da dəstəsi ilə Bakıya gələn Petrov Bakı rayonunun hərbi komissarı təyin edildi və o, bu vəzifədə Rusiyanın fəhlə və kəndlilərinə bir müraciət imzaladı. Tamamilə şovinist və təcavüzkar bir ruhda yazılmış olan bu müraciətdə Petrov rus fəhlələrini və kəndlilərini silaha sarılmağa, Bakıya gəlməyə və burada Sovet Rusiyası uğrunda mübarizə aparmağa çağırırdı. Onun müraciətində belə cümlələr var idi: «Silaha sarılın, Rusiya Federativ Sovet Respublikasının azadlığı uğrunda bizim yanımıza, bizim mübarizlərin sırasına gəlin... Rusiya Federativ Sovet Respublikası təhlükədədir. O, kimin üçün əzizdirsə, bizim yanımıza, bizim sıralarımıza gəlsin» (73).

Ancaq S.Şaumyan yaxşı başa düşürdü ki, təkcə Petrovun dəstəsi Qafqaz İslam Ordusu qoşunlarının uğurlu hücumlarının qarşısını kəsməyə kifayət deyildir. Ona görə də iyulun 20-də böyük bir təlaş içərisində S.Şaumyan yenidən kömək göndərilməsi adı ilə V.Leninə göndərdiyi teleqramında yazırdı: «Vəziyyət daha da ciddiləşir. Bakı üçün hərbi qüvvələrin göndərilməsi gücləndirilməli və sürətləndirilməlidir. Tez yola salın, göstəriş verin ki, yollarda yerli sovetlər Bakıya göndərilən hissələri saxlamasınlar. Xəbər verin, biz kömək gözləyə bilərikmi və nə vaxt? Təkrar edirəm ki, qoşunlarla təcili və ciddi kömək zəruridir» (74).

Bakı Sovetinin Moskvada olan nümayəndəsinin hərbi işlər üzrə Xalq Komissarlığına göndərdiyi təqrirində isə qeyd edilirdi ki, Bakıda vəziyyətin düzəldilməsi üçün təchizat və təminat məsələləri həll edilməli, bu qüvvələr ən yaxın zamanda yola

salınmalı və Qafqaz cəbhəsinə məsuliyyətli rəhbərlər təyin edilməlidir (75).

İyul ayının 23-də S.Şaumyana istinadən V.Leninə göndərilmiş digər teleqramlarda da çıxılmaz vəziyyətin aradan qaldırılması üçün yeni qüvvələrin, siyasi cəhətdən etibarlı komandir heyətinin yola salınması xahiş olunurdu (76).

S.Şaumyan və onun ətrafındakılar Rusiyadan əllərini üzməməklə bərabər, Bakının özündə də mümkün imkanları səfərbər etməyə çalışırdılar. Bu məqsədlə onlar Bakı əhalisinə müraciətlər edir, əsasən də qeyri-azərbaycanlı əhalidə millətçi-şovinist hissləri qıcıqlandırmağa və bununla da bolşevik-daşnak cəbhəsinə əlavə qüvvələr cəlb olunmasına cəhd göstərirdilər. Bakı Sovetinin fəhlələrə və qırmızı qvardiyaçılara ünvanlanmış 24 iyul 1918-ci il tarixli müraciətində deyilirdi: «Yoldaş fəhlələr və qırmızı qvardiyaçılar! Vəhşi Türkiyə bizə qarşı öz qoşunlarını yeritmişdir. Silaha sarılmış Bakı fəhlələri bu qoşunlara qarşı çıxdılar və bir sıra qəhrəmancasına döyüşlərdə sübut etdilər ki, onlar inqilab uğrunda mübarizə etməyi və ölməyi bacarırlar. Döyüşə gedərkən həmişə təkcə qələbəni deyil, həm də məğlubiyyəti gözləmək lazımdır. Budur, biz indi belə bir məğlubiyyət anlarını yaşayırıq. Bizim yorulmuş, əldən düşmüş qoşunlarımız dəyişdirilmədiyindən və möhkəmləndirilmədiyindən sağ cinahda geri çəkilirlər. Ancaq bu bizdə çarəsizlik yaratmalıdırmı? Yəni biz elə bir vəziyyətə çatacağıq ki, silahı yerə qoyacağıq və düşməni şəhərə buraxacağıq? Yox, yoldaşlar! Bizim aramızda silahı yerə qoyub nifrətamiz türk zorakılarına təslim olmağı təklif edən satqın tapılmaz. Bizim cəbhədə hələ təzə qoşunlarımız var. Biz hələ öz aramızdan da yeni taborlar yarada bilərik. Bununla yanaşı, yorulmuş və geri çəkilmiş dəstələr də bir qədər istirahət edib və özünə gəlib yenidən silaha sarılacaqlar və düşmənlə vuruşacaqlar» (77).

Müraciətdə daha sonra bir sıra partiyaların və dairələrin ingilis imperializmi ilə əməkdaşlıq etdiyi, onların ingilis qızılına aldandığı və ingilis imperializminin şüursuz qulluqçuları olduqları bildirilirdi. Bakı Sovetinin İcraiyyə Komitəsi qətiyyətlə ingilislərin Bakıya dəvət edilməsi əleyhinə çıxır və bu mövqe ilə razı olanları səngərlərə səsləyirdi.

Qeyd etmək lazımdır ki, 1918-ci il iyul ayının ortalarından etibarən ingilis hərbi komandanlığında da Bakıya hərbi qüvvələr çıxarılması istiqamətində konkret fikirlər formalaşdırılmağa başlanmışdı. İyulun 20-də Hərbi Nazirlikdən Bağdaddakı ingilis hərbi qüvvələri qərargahına göndərdiyi teleqramda bildirilirdi ki, Ələt stansiyasına bir və ya iki piyada taborunun, bir batareyanın və bir neçə zirehli avtomobilin göndərilməsi məqsədəuyğun sayıla bilər. Həmin qüvvələrin general Denstervilin rəhbərliyi altında olması təklif edilirdi. Hərbi Nazirlik bununla bağlı lazım bilirdi ki, Ənzəlidə hakimiyyət ingilislərin əlinə alınsın və hərbi qüvvələri Bakı ətrafına daşıyacaq gəmilər də general Denstervilə verilsin. (78).

Hərbi Nazirliyin verdiyi tapşırığın icrası istiqamətində ingilis qüvvələri iyulun 20-də Rəşt şəhərini nəzarət altına aldılar(79) və Ənzəlidə hər hansı bir çətinliklə rastlaşmamaq üçün bu şəhərin bolşevik hakimiyyətinin nümayəndələri ilə danışıqlara başladılar.

Qafqaz İslam Ordusu hissələri Bakıya yaxınlaşdıqca Bakı komissarlarının ətrafına toplaşmış siyasi qüvvələrdə də parçalanma baş verirdi. Azərbaycan xalqının milli mənafelərinin təmsilçisi olacaq şəxslərin təmsil olunmadığı bu qüvvələr Bakının azad ediləcəyi təqdirdə törətdikləri faciələrə, qanunsuzluqlara görə cavab verməli olacaqlarından vəziyyətdən çıxış yolu axtarır və bunu ingilis qoşunlarının Bakıya gətirilməsində görürdülər. Uzun müddət Bakı Sovetinin cığırdaşı olan bu eserlər, daşnaklar güman edirdilər ki, ingilislər Bakıya gəlməklə həm Qafqaz İslam Ordusunun qarşısını alacaq, həm də onların Bakıdakı mövqelərini möhkəmləndirəcəklər. Ona görə ingilis qoşunlarının Bakıya gətirilməsinə meyl edənlər çoxalırdı. Yuxarıdakı müraciətin bir hissəsi də ingilis qoşunlarının Bakıya gətirilməsinə qarşı  həsr edilmişdi.

Ancaq S.Şaumyanın və onun məsləkdaşlarının göstərdiyi cəhdlər bir nəticə vermədi. Aparılan bütün təbliğat işlərinə baxmayaraq, Qafqaz İslam Ordusu hissələrinin və bölmələrinin nəyə qadir olduğunu əyani şəkildə görmüş olan bolşevik-daşnak tör-töküntüləri cəbhədən qaçmaqda davam edirdilər. Hətta öz dəstəsi ilə cəbhəyə yollanmış olan Bakı rayonunun komissarı Petrovun əməliyyat bölməsində vəziyyəti yaxşılaşdırmaq səyləri də bir nə-

ticə vermirdi. S.Şaumyana və Q.Korqanova iyulun 24-də yazdığı məktubunda o, düşdüyü vəziyyəti belə təsvir edirdi: «Yoldaş Şaumyan və yoldaş Korqanov! Mən başa düşə bilmirəm insanların «xalq işi uğrunda canından keçmək» kimi böyük işə getdiyi cəbhəyə düşmüşəm, yoxsa Allah bilir hara?

Məlumat verirəm ki, Əmirovun və Hamazaspın süvarilərini o vaxt cəbhədən çəkmək istədilər ki, onları mən heç kimlə əvəz edə bilməzdim... Mən Hamazaspın süvarilərinin rəisi Vartanova, ikinci rəisin soyadını isə xatırlamıram, bildirdim ki, cəbhədən əvəz edilmədən getmək cəbhəni boşaltmaq deməkdir və əgər belə olarsa, mən Moskvaya Xalq Komissarları Sovetinə məlumat verəcəyəm... Süvarilər getmədilər. Yəqin ona görə ki, onlar nə etdiklərini başa düşdülər. Ancaq onların bu qərarından sonra Əmirovun süvarilərinə onların təlimatçıları tərəfindən Bakıya getmək əmri verildi. Hamazasp isə iki nəfər buyruqçusunu göndərdi və bu sərəncamı şifahi olaraq çatdırdı»(80).

Əslində, Petrovun belə bir müraciətdə olması heç də təsadüfi deyildi. Çünki Azərbaycan milli qüvvələrinin məhv edilməsi üçün bolşeviklərin ətrafına toplaşmış olan bolşevik-daşnak silahlı dəstələrinin vəziyyəti onu başqa yollar axtarmağa sövq edirdi.

Bakı Soveti hərbi qüvvələrinin problemləri yalnız bir Hamazaspın dəstəsinin intizamsızlığından ibarət deyildi. Qafqaz İslam Ordusunun qətiyyəti Qırmızı ordu hissələrini demək olar ki, bütünlüklə iflic vəziyyətinə salmışdı. Məsələn, Bakı Sovetinin Qırmızı qvardiya qüvvələrinin tərkibində olan 3-cü taborun komandiri intizam baxımından hissəsində acınacaqlı vəziyyətin yarandığını bildirirdi. Onun sözlərinə görə, komandirlik etdiyi şəxsi heyətdə öz vəzifələrinə şüurlu münasibət yox idi, komandirlərin əmrləri yerinə yetirilmirdi, komandirlərlə şəxsi heyət arasındakı münasibət kobudluq və söyüş üzərində qurulurdu, talançılıq, qadınların zorlanması adət halını almışdı. Taborun siyahısında olan 700 nəfərdən yalnız 300 nəfəri xidmətini davam etdirirdi. Qalanları isə qaçıb dağılmışdı (81).

Əslində, bolşevik Qırmızı qvardiyasının belə bir vəziyyətə düşməsi onun mahiyyətindən irəli gəlirdi. Bolşevik fəallarının özləri

də gizlətmirdilər ki, Azərbaycan milli qüvvələrinə qarşı cəbhə tutan Qırmızı qvardiyanın tərkibində çoxluğu ermənilər təşkil edirdilər. Bu insanların məqsədi isə azərbaycanlıları qırmaq, onların var-yoxuna sahib olmaq, Azərbaycan ərazisində erməni iqtidarını təmin etmək idi. Bakının ruslardan ibarət olan fəhlə kütləsi istehsalatla məşğul olduğundan Yelizavetpol quberniyası ərazisinə səpələnmiş olan erməni əhalisi Qırmızı qvardiya sıralarına kütləvi şəkildə səfərbər edildilər. Bu erməni kütləsi bolşeviklərin aldadıcı gücünə inanaraq onların ideologiyasına uyğunlaşmağa da razı oldular. Lakin bolşevik dövləti iflic vəziyyətinə düşəndə erməni-daşnaklar qulluğunda dura biləcəkləri yeni ağaları axtarmağa başladılar. Daşnak ideoloqlarının fikrincə, belə bir ağa onlar üçün ingilislər ola bilərdilər. Ona görə də Qırmızı qvardiyada toplanmış olan erməni silahlıları yeni bir şəraitə uyğunlaşmaq üçün kütləvi fərariliyə başladılar. Bakı ətrafında belə bir hərbi şərait yaranması Rusiya bolşevik rəhbərliyinə də yaxşı məlum idi və onlar güman edirdilər ki, Petrovun dəstəsi həm Bakı ətrafındakı hərbi şəraiti bolşeviklərin xeyrinə dəyişər, həm də bununla ingilislərin Bakıya gəlməsinin qarşısını ala bilər.

Əslində, Petrovun belə bir müraciətdə olması heç də təsadüfi deyildi. Çünki Azərbaycan milli qüvvələrinin məhv edilməsi üçün bolşeviklərin ətrafına toplaşmış olan bolşevik-daşnak silahlı dəstələrinin vəziyyəti onu başqa yollar axtarmağa sövq edirdi.

Bakı Soveti hərbi qüvvələrinin problemləri yalnız bir Hamazaspın dəstəsinin intizamsızlığından ibarət deyildi. Qafqaz İslam Ordusunun qətiyyəti Qırmızı ordu hissələrini demək olar ki, bütünlüklə iflic vəziyyətinə salmışdı. Məsələn, Bakı Sovetinin Qırmızı qvardiya qüvvələrinin tərkibində olan 3-cü taborun komandiri intizam baxımından hissəsində acınacaqlı vəziyyətin yarandığını bildirirdi. Onun sözlərinə görə, komandirlik etdiyi şəxsi heyətdə öz vəzifələrinə şüurlu münasibət yox idi, komandirlərin əmrləri yerinə yetirilmirdi, komandirlərlə şəxsi heyət arasındakı münasibət kobudluq və söyüş üzərində qurulurdu, talançılıq, qadınların zorlanması adət halını almışdı. Taborun siyahısında olan 700 nəfərdən

yalnız 300 nəfəri xidmətini davam etdirirdi. Qalanları isə qaçıb dağılmışdı (82).

Baxmayaraq ki, iyulun 23–24-də Rusiyadan Bakıya xeyli silah-sursat, ərzaq gətirildi, lakin artıq Bakı Sovetinin düşdüyü böhranı aradan qaldırmaq mümkün deyildi. Şamaxı–Bakı yolu üzərindəki bolşevik-daşnak qoşunlarının xeyli geri çəkilməsi şəhərdəki vahimə və gərginliyi daha da artırdı. Bolşeviklərin acizliyi, gücsüzlüyü onların nüfuzunu xeyli aşağı saldı. Azərbaycan xalqına qarşı cinayətlər və qırğınlar törətmiş daşnaklar, sabit əqidəsi olmayan eserlər, vəziyyətə görə bu və ya digər tərəfə meyl edən qüvvələr Bakının azad edilməsinə yol verməmək üçün ingilis qoşunlarının Azərbaycana çağırılmasını lazım bildilər. İyul ayının 25-də çağırılmış fəhlə, qırmızı əsgər, matros və kəndli deputatları Bakı Sovetinin fövqəladə iclasında bolşeviklər siyasi cəhətdən də ağır məğlubiyyətə məruz qaldılar. Onların bütün səylərinə baxmayaraq, sağ eserlər, daşnaklar və menşeviklər ingilis qoşunlarının Bakıya dəvət edilməsi lehinə səs verdilər(83).

S.Şaumyan bu iclasda geniş nitq söyləyərək Bakıya çağırılacaq ingilis qoşunlarının Qafqaz İslam Ordusunun qarşısını saxlaya bilməyəcəyini, türk-Azərbaycan qüvvələrinin şəhərə girməsinə yol verməmək üçün yeganə ümidin Sovet Rusiyasında olduğunu sübut etməyə çalışdı: «Sovet Rusiyası bizə çox böyük vəsaitlər verir. Bu gün Həştərxandan gələn beş gəmi 80 ədəd top, 160 pulemyot, 10 min tüfəng, 20 min güllə, çoxlu geyim əşyaları gətirəcək. Rusiya indiyə kimi qüvvəsini bizdən əsirgəməyib və indi də əsirgəmir. Xaricilərlə əlaqəyə girməkdənsə, daha yaxşı olar ki, biz Rusiyaya müraciət edək. Ona kimi isə bütün proletar qüvvələrimizi, ordu və donanmamızı səfərbər edərik. Hökumətlə əlaqələrimizi qırmamaq naminə sizi ingilislərin çağırılması barədə məsələni gündəlikdən çıxarmağa və Sovet Rusiyası ilə birgə cəbhəni müdafiə etmək məsələsinin müzakirəsinə dəvət edirəm» (84).

Bolşeviklərin iclasın müzakirəsinə təklif etdikləri qərar layihəsi də S.Şaumyanın çıxışından irəli gələn müddəaları əks etdirirdi :

«1. İcraiyyə Komitəsinə və Xalq Komissarları Sovetinə tapşırılsın ki, cəbhədən qayıtmış yorğun hissələrin istirahət etməsi,

özünə gəlməsi, yenidən təşkil olunması və döyüşə qabil hissələrə çevrilməsi üçün təcili şəkildə bütün tədbirlər icra edilsin.

2. Səfərbərliyə alınmamış və ya fərari adı altında Bakıda olan bir neçə min təlim keçmiş və xidmətdə olmuş adamlar toplanılsın və onlardan yeni hərbi hissələr yaradılsın.

3. Yeni səfərbərlik elan edilsin və Xalq Komissarları Sovetinə tapşırılsın ki, yayınanlara qarşı ən ciddi cəzaların tətbiqindən çəkinməməklə bu səfərbərliyin tez və tam şəkildə həyata keçirilməsi üçün ən fəal tədbirlərə əl atsın.

4. Bakı şəhərinin müdafiəsinin gücləndirilməsi üçün təcili kömək göndərilməsi çağırışı ilə inqilabi Rusiyaya müraciət edilsin...» (85).

Eser-menşeviklər və daşnaklar bolşeviklərin təklifləri ilə razılaşmadılar və buna görə də bolşeviklər iclasda say üstünlüyünü itirdilər. Bolşeviklər öz çıxışlarında ingilislərin Bakıya gətirilməsini yolverilməz hesab edir və fikirlərini aşağıdakılarla əsaslandırmağa çalışırdılar:

1. İngilislər bolşeviklərlə mübarizə aparmaq və Bakı neftini əldə etmək üçün bura gəlirlər. Bizim daxili işlərimizə qarışmamaq haqqında ingilislərin dedikləri yalan və hərbi hiylədir.

2. İngilislərin hərbi qüvvələri və ərzaq ehtiyatları çox azdır və Bakının müdafiəsi üçün ciddi əhəmiyyət kəsb etmir.

3. Bakının müdafiəsi Həştərxandan əlavə qüvvələr gələnə kimi mövcud hərbi qüvvələrlə təmin edilməlidir. Bolşevik fraksiyası belə bir köməyin gələcəyinə zəmanət verirdi (86).

Lakin S.Şaumyanın və digər bolşeviklərin iclasda göstərdiyi cəhdlər heç bir nəticə vermədi və Bakı Soveti Qafqaz İslam Ordusunun qarşısının saxlanmasının yeganə yolu kimi ingilis qoşunlarının çağırılmasını qərarlaşdırdı. S.Şaumyan və başqa komissarlar Bakı Sovetinin iclasında düçar olduqları məğlubiyyətdən sonra istefa verəcəklərini elan etsələr də, cəbhədəki böhranın qarşısının alınacağına hələ də ümidlərini kəsməmişdilər. Ona görə hakimiyyəti təhvil verməyə heç də tələsmirdilər. Əksinə, niyyətlərinə nail olmaq üçün mümkün olan bütün vasitələrdən istifadə etməyə çalışırdılar.

İyulun 26-da S.Şaumyan yenə V.Leninə teleqram göndərdi.

Ondan təkidlə xahiş etdi ki, təcili olaraq Bakıya nizami hərbi hissələr göndərilsin. Çünki Bakını yalnız bu yolla qurtarmaq olardı: «Bakını Rusiyadan ötrü xilas etmək üçün Rusiyadan təcili qoşunlarla kömək lazımdır. Təkidlə xahiş edirəm ki, nizami qoşun hissələrinin göndərilməsi üçün dərhal bütün tədbirləri görəsiniz. Bizə qarşı nizami türk qoşun hissələri vuruşur. Onların arasında alman təlimatçıları da var. Qoşun hissələrinin göndərilməsi barədə sizin təcili göstərişlərinizi və ingilislərin dəvət edilməsi qərarı ilə bağlı sizin sərəncamlarınızı gözləyirəm»(87).

Yaranmış vəziyyətdən çıxış yolunun tapılması məqsədilə iyulun 26-da Bakı Soveti İcraiyyə Komitəsinin də iclası keçirildi. Şəhərdə və onun ətrafında cərəyan edən proseslər müzakirə edildikdən sonra İcraiyyə Komitəsi hakimiyyətin qorunması üçün qətiyyətli tədbirlərin həyata keçirilməsini məqsədəuyğun bildi. İclasın qəbul etdiyi qərarda deyilirdi ki, Biçeraxovun dəstəsinin hissələri və qərargahı şəhərdən çıxarılsın və cəbhəyə göndərilsin, bu dəstənin müstəqil hərbi-texniki aparatı ləğv edilsin və dəstə Qırmızı Orduya tabe etdirilsin. Hərbi dəniz işləri üzrə Xalq Komissarlığına isə tapşırılırdı ki, İcraiyyə Komitəsini real qüvvələrlə təmin etsin və bu qüvvələr yeri gələndə İcraiyyə Komitəsinin qərarlarını həyata keçirməyə qadir olsun, şəhərdə əməli olaraq hərbi vəziyyət tətbiq olunsun, saat 10-dan sonra küçələrdə gəzmək qadağan edilsin, yerlərdə bolşeviklərin fəaliyyəti gücləndirilsin, İcraiyyə Komitəsinin bəyannaməsi yayılsın və s. İcraiyyə Komitəsi bütün xalq komissarlarına tövsiyə edirdi ki, hələlik yerlərində qalsınlar və vəzifələrinin icrasını davam etdirsinlər (88).

İcraiyyə Komitəsinin bu qərarına uyğun olaraq iyulun 28-də bu təşkilatın Sovet hakimiyyətini qorumaq çağırışı ifadə olunan bəyannaməsi Bakı əhalisi arasında yayıldı. İcraiyyə Komitəsi bu bəyannamədə iyulun 25-də Bakı Sovetinin iclasında qəbul edilən qərarın bolşeviklərin istəyinə cavab vermədiyini qeyd etməklə hələ də fəhlə və kəndli Sovet hökumətinin keşiyində dayandığını bildirirdi. Bəyannamədə o da bildirilirdi ki, Bakıda Sovet hakimiyyətinin devrilməsinə istiqamətlənmiş hər bir cəhdin qarşısı dərhal alınacaqdır. İcraiyyə Komitəsi bu bəyannamədə eyni zamanda hərbi hissələrə, əsgər və matroslara müraciət edir və onları Bakıya yaxınlaşan

Qafqaz İslam Ordusu qoşunlarının hərəkətini dayandırmaq üçün bütün imkanlarını səfəbərliyə almağa çağırırdı (89).

Elə həmin gün, yəni iyulun 28-də Bakı Soveti şəhər əhalisi arasında əlavə səfərbərliyin keçirilməsi haqqında əmr imzaladı. Həmin əmrə görə, Bakıda daimi və müvəqqəti yaşayan, 1885-ci ildən başlayaraq 1892-ci ilədək anadan olmuş bütün şəxslər məcburi surətdə xidmətə çağırılmalı idilər. Həmin adamlar 6 ay müddətində xidmət keçməli idilər. Bu müddət ərzində onların bir hissəsi cəbhədə olmalı, digər bir hissəsi isə arxada xidmətin təşkilinə cəlb edilməli idilər. Əmrdə göstərilirdi ki, çağırışdan yayınanlara qarşı ən sərt tədbirlər həyata keçiriləcəkdir(90).

Bakı qəzasının İcraiyyə Komitəsi isə əmək mükəlləfiyyətinin tətbiqi ilə bağlı müvafiq qərar qəbul etdi. Bu qərara görə, Bakı qəzasının kənd sovetləri iki gün ərzində 50 nəfərlik dəstələr yaratmalı idilər. Həmin dəstələrin Bakı ətrafındakı müdafiə mövqelərinin möhkəmləndirilməsinə, istehkam-müdafiə işlərinin aparılmasına cəlb edilməsi nəzərdə tutulmuşdu (91).

Bakıdakı Sovet hakimiyyətinin rəhbərləri cəbhəni gücləndirmək üçün təkcə arxada deyil, ön xətdə də bir canlanma yaratmağa çalışırdılar. Bu məqsədlə Q.Korqanov, A.Mikoyan, A.Caparidze, İ.Malıgin, F.Solntsev, E.Berq cəbhədə qüvvələrin mənəvi-psixoloji əhval-ruhiyyəsini qaldırmağa, ümumi müqavimət gücünü artırmağa, müdafiəni gücləndirməyə çalışırdılar. Caparidze və Malıgin hissələrin təchizat və təminat məsələlərinin həlli ilə bağlı Cəngi yaxınlığındakı cəbhə xəttinə gəlmiş və bura xeyli ərzaq məhsulları və içməli su gətirmişdilər. Bolşevik mətbuatının verdiyi məlumatlara görə, Caparidze ilə Malıgin 6–7 gün yatmayaraq Qafqaz İslam Ordusunun hücumunun qarşısını almaq üçün burada müdafiə işlərinin gücləndirilməsi ilə məşğul olmuşdular (92).

Matros E.Berq isə öz dəstəsi ilə Şamaxıdan Bakıyadək teleqraf xəttinin çəkilməsi tapşırığını almışdı. Bakı ilə cəbhə xətti arasında daimi rabitənin yaradılması üçün Berq dərhal fəaliyyətə başlamış və Şamaxı ətrafına kimi teleqraf xəttini çəkməyə nail olmuşdu. Ancaq Qafqaz İslam Ordusu hissələri tərəfindən Şamaxı alınanda o da gördüyü işləri ataraq geri çəkilmək məcburiyyətində qalmışdı (93).

Qafqaz İslam Ordusu komandanlığı öz kəşfiyyatının, habelə

Bakıdan qaçıb gəlmiş azərbaycanlıların verdiyi məlumat əsasında şəhərdə cərəyan edən prosesləri nəzarət altında saxlayırdı. Düşmən cəbhəsində yaranmış olan panika və təlaşdan mümkün qədər çox yararlanmaq üçün Nuru paşa iyulun 24-də Mürsəl bəyə göndərdiyi teleqramında iyulun 26-da Bakı üzərinə qəti hücuma başlamağı tövsiyə edirdi(94).

Ancaq Mürsəl bəy Ordu komandanından yenə rica etdi ki, Bakı üzərinə qəti hücumun başlanması vaxtı dəyişdirilsin. Onun fikrincə, qüvvələr üçün zəruri olan cəbbəxana hissələrə çatdırılmamışdı. Kürdəmirə gətirilmiş olan cəbbəxana ehtiyatı lazım olan qədər nəqliyyat vasitələri toplanmadığı üçün hissələrə çatdırılması ləngidilmişdi. Digər tərəfdən dəmir yolu xəttinin sökülməsi, körpülərin partladılması üzündən Cənub qrupunun hərəkəti də ləngiməkdə idi. Bu qrup Bakı ətrafına gəlib çatmadan Bakı üzərinə qətiyyətli və səmərəli hücumu həyata keçirmək də mümkün deyildi. Ona görə də Mürsəl bəy xahiş edirdi ki, Bakı üzərinə qəti hücumun vaxtı iyulun 28-nə keçirilsin (95).

Təchizat və təminat məsələlərinin həlli ilə bərabər, Cənub qrupu sahəsində olan yaxın yaşayış məntəqələrinin təmizlənməsi davam etdirilirdi. İyulun 26-da Cənub qrupunun bölmələri daha üç kəndi azad edərək Padara çatdılar. Qarasu stansiyası da düşməndən təmizlənmişdi və iyulun 27-də Cənub qrupu qərargahının Qarasuya köçürüləcəyi nəzərdə tutulmuşdu. Döyüşlərin gedişi barədə Cənub qrupundan verilən raportda bildirilirdi ki, düşmən geri çəkildikcə dəmir yolu xəttini sökür və bununla da Cənub qrupu hissələrinin hərəkətini ləngidərək özünün güclənməsi üçün vaxt qazanmağa çalışır (96).

İyulun 26-da Cənub qrupu ilə Kür çayı boyunda yerləşən Əhməd Həmdi bəyin dəstəsi ilə rabitə əlaqəsi yaradıldı. Ordu komandanlığının qərarına görə, Cənub qrupu irəlilədikcə Əhməd Həmdi bəyin dəstəsi ilə birləşməli və Bakı üzərinə hücumda birgə iştirak etməli idilər. Cənub qrupu ilə birləşmək üçün Əhməd Həmdi bəyin dəstəsi də Hacıqabul–Bakı dəmir yoluna tərəf irəliləməkdə idi. Bolşevik-daşnak qüvvələri Əhməd Həmdi bəy dəstəsinin onlar üçün yarada biləcəyi təhlükəni başa düşdükləri üçün iyulun 26-da heç bir döyüşsüz Hacıqabulu tərk etmək

məcburiyyətində qaldılar. Çünki Əhməd Həmdi bəyin dəstəsinin bolşevik-daşnak qoşunlarının arxasına keçdikləri halda onlar mühasirəyə düşə bilərdilər.

Hacıqabulun itirilməsi bolşevik-daşnak qüvvələri üçün növbəti strateji məntəqələrdən birinin itirilməsi demək idi və bununla bağlı Bakıdan aldığı teleqramı V.Lenin iyulun 29-da Moskvada Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin, Moskva Sovetinin, Moskvanın fabrik-zavod komitələrinin və həmkarlar ittifaqlarının birgə iclasında dərin bir təəssüflə oxudu. Leninə göndərilmiş həmin teleqramda bildirilirdi ki, hərbi və dəniz işləri komissarı Q.Korqanovun əmri ilə iyulun 26-da bolşevik dəstəsi Hacıqabuldan Ələtə doğru geri çəkilmişdir. Kür çayı istiqamətindən çoxsaylı süvarilərin irəlilədiyi xəbəri alınmışdır. Hacıqabul tərk edilməsəydi, bolşevik qüvvələri üç cəbhədə döyüşməli olacaqdı ki, bu da mövcud şəraitdə qeyri-mümkün idi. Ona görə də geri çəkilmək, Hacıqabuldan hərəkət edən qüvvələrlə, Kür çayı istiqamətindən hərəkət edən qüvvələrə qarşı müqaviməti bir cəbhədə birləşdirmək qərara alındı (97).

Bununla belə, bolşevik-daşnak qüvvələrinin geri çəkilməsi bu istiqamətdə Cənub qrupunun irəliləməsini elə də asanlaşdırmadı. Çünki təkcə Qarasu stansiyası ilə Hacıqabul stansiyası arasında 6 körpü partladılmışdı (98). Belə təxribat işlərinin aparılması barədə Bakıdan Leninə göndərilən teleqramda da məlumat verilirdi. Yuxarıda toxunulan teleqramda qeyd edilirdi ki, Hacıqabuldan geri çəkilərkən Hacıqabul stansiyasında və dəmir yolu üzərində mövcud olan mühüm yol qurğuları, habelə kerosin və neft sisternləri partladılmışdır.

Partladılmış körpülərin bərpa edilməsi və Cənub qrupunun daha sürətlə irəliləməsinə şərait yaradılması üçün istehkam bölüyünə müvafiq bərpa işlərinin aparılması tapşırılmışdı. Əslində, bu qrupun irəliləməsi təmir-bərpa işlərinin aparılması ilə bağlı idi. Ona görə də istehkam bölüyü üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşırdı. Xətt komissarının Ordu komandanlığına verdiyi məlumata görə, təkcə iyul ayının 27-də Padar stansiyasına qədər olan 3 körpü və bu stansiyanın şərqində olan bir böyük körpü təmir edilmişdi (99).

İyulun 27-də dəmir yolu xətti boyunca geri çəkilən bolşevik-daşnak qüvvələri Pirsaat stansiyasında mövqe tutmuşdular. Şimal qrupunun ayın 28-də başlanacaq hücumunun gücləndirilməsi üçün Cənub qrupu sərəncamında olan 38-ci alayın 2-ci taboru Şimal qrupu sərəncamına göndərildi. Bu qrupun gələcəkdə daha da gücləndirilməsi üçün Qafqaz İslam Ordusu komandanlığı tərəfindən 38-ci alayın Gəncədə olan 3-cü taborunun da Kürdəmirə yola salınması barədə qərar qəbul edildi (100).

İyul ayının 28-nə verilmiş döyüş əmrinə görə, Şimal qrupu Bakı istiqamətində hücumu davam etdirərək Cəngi mövqelərini ələ keçirməli idi. Gecə saat 3-də hücuma başlayan Şimal qrupunun xəttində mürəttəb süvari alayı hərəkət edirdi. Saat 11.30-da bolşevik-daşnak qoşunlarının 150 nəfərlik süvarisi 2 ədəd top və zirehli avtomobilin müşayiəti ilə 2-ci mürəttəb süvari alayının qarşısını kəsdi. Bu qüvvələr arasındakı döyüşü uğurla başa çatdırmaq üçün Qırmızı Ordudan ora 200 nəfər piyada və 50 nəfər süvari göndərildi. Bolşevik-daşnak qüvvələrinin güclənməsi 2-ci süvari alayının vəziyyətini xeyli ağırlaşdırdı. Yalnız 10-cu Qafqaz alayının köməyə yetişməsi bolşevik-daşnak qüvvələrini geri çəkilməyə məcbur etdi. Şimal qrupu bölmələri hücumu davam etdirərək axşama qədər onun qarşısında qoyulmuş döyüş tapşırığını yerinə yetirdi. Cənub qrupu isə gün ərzində bir qədər irəliləyərək Pirsaat stansiyasının qərb tərəfinə yaxınlaşdı(101).

İyul ayının 29-da və 30-da Qafqaz İslam Ordusu hissələrinin Bakıya doğru irəliləməsi davam etdi. Şimal qrupu Bakıya xeyli yaxınlaşa bilmişdi. İyul ayının 30-da bu istiqamətdə olan bolşevik-daşnak qüvvələri Xırdalanadək geri çəkildi. Şimal qrupunun zərbələri altında bolşevik-daşnak qüvvələri geri çəkilməkdə idi. Bu qüvvələrin bir dəstəsi Sumqayıta doğru üz tutdu. Həmin dəstənin 4 topu var idi ki, bununla da Şimal qrupuna arxadan təhlükə yaratmaq olardı. Ona görə də həmin dəstənin zərərsizləşdirilməsi üçün Şimal qrupundan bir dəstə ayrıldı (102). Cənub qrupu qarşısında olan bolşevik-daşnak qüvvələri isə Heybət stansiyasına qədər geri çəkildi. Ona görə də iyulun 31-nə olan döyüş əmrində Cənub qrupuna Heybət stansiyasına qədər irəliləmək və iki istiqamətdən də Bakıya yaxınlaşmaq tapşırığı verildi. Şimal qru-

pu, hətta daha da irəli gedərək Bakı şəhərini tutmalı və onu düşmən qüvvələrindən təmizləməli idi. Şərq cəbhəsi komandanının imzaladığı döyüş əmrində bildirilirdi ki, Şimal qrupu Bakını ələ keçirdikdən sonra yalnız 13-cü alay şəhər daxilində qalacaq, şəhərin mühüm obyektlərini, habelə şəhərə giriş və çıxış yollarını nəzarət altına götürəcəkdir (103).

Belə bir çətin tapşırıq alan qruplar iyulun 31-i gecə ikən hücuma başladılar. Şimal qrupundan bir gün əvvəl Sumqayıt istiqamətinə göndərilmiş dəstə burada toplanmaqda olan bolşevik-daşnak qüvvələrinə güclü zərbə vuraraq onları da Bakıya tərəf çəkilməyə məcbur etdi. Sonra Şimal qrupunun başqa bölmələri Heybət stansiyasının 2 kilometr şərqindəki 905 rəqəmli təpəni ələ keçirdilər. Düzgün təşkil edilmiş başqa bir həmlə isə Xırdalanın düşmən qüvvələrindən tamamilə təmizlənməsi ilə nəticələndi və Bakı üzərinə qəti hücum üçün çox mühüm məntəqələr ələ keçirildi. Geri çəkilməkdə olan düşmən qüvvələri Bakı ətrafında yeni müdafiə mövqeləri tutmağa cəhd göstərdilər. Xırdalandan geri çəkilib dəmir yolu xəttinin şərq tərəfində cəmləşən qüvvələrlə Heybətə çəkilmiş qüvvələr birləşərək Xəzər dənizində dayanan hərbi gəmilərin toplarının himayəsi altında 905 rəqəmli təpəyə əks-hücuma keçdilər və təpəni yenidən işğal etdilər (104). Ancaq onlar bu təpəni uzun müddət əllərində saxlaya bilmədilər. Şimal qrupunun hissə və bölmələrinin təkrar hücumu ilə 905 rəqəmli təpəyə qalxmış olan bolşevik-daşnak döyüşçüləri tezliklə oradan qaçıb-dağılmalı oldular. Şəhər ətrafındakı əlverişli mövqelər Şimal qrupunun əlində qaldı. Bolşevik-daşnak qüvvələrinin Xəzər dənizindəki hərbi gəmilərdən başqa iki təyyarədən də istifadə etmələri və onların vasitəsilə Şimal qrupunun mövqelərini bombardman etmələri Qafqaz İslam Ordusu döyüşçülərinin iradəsini qıra bilmədi. Əksinə, uğurla başlanan hücum yeni mövqelərin ələ keçməsi ilə nəticələndi. Xırdalan kəndi yaxınlığındakı Corat kəndi ətrafında mövqe tutan bolşevik və daşnaklara ciddi zərbə endirildi. Hacı Həsən kəndinin qərb və cənub-qərb yüksəklikləri də Şimal qrupunun əlinə keçdi. Cənub qrupu isə döyüş əmri ilə müəyyənləşdirilən xəttə çata bilməsə də, Nəvai və Ağbulaq stansiyalarını ələ keçirdi (105). Həbib bəy Səlimov elə həmin gün

Ordu komandanı Nuru paşaya göndərdiyi raportunda döyüşlərin nəticəsi barədə məlumat verməklə bərabər, sürətlə irəliləməyə mane olan amillərə də toxunurdu:

«1. Bu gün Ağbulaq stansiyasını işğal edirəm. Yarın (1 avqust 1918-ci il–red.) Ələti düşmən olsa dəxi Allahın inayəti ilə işğal etmək üzrə irəliləyəcəyəm.

2. Mütəaqibən (sonra–red.) Bakı istiqamətində hərəkət edəcəyəm. Fəqət qrupun suyu qətiyyyən yoxdur. Susuzluqdan əfrad bayılmış bir haldadır. Sürətlə su yetişdirilməsi üçün icab edənlərə əmr bulunmasını təkrar-təkrar rica edirəm.

3. Ələtdən sonra qaradan (torpaq yol–red.) hərəkət edəcəyimdən bir minik avtomobilinin təhriki üçün əmr buyrulmasını rica edirəm»( 102).

Cənub qrupunda susuzluqdan fəallığını itirən təkcə insanlar deyildi. Tələb olunan texniki suyun olmaması lokomotivlərin işinə də pis təsir göstərirdi. Ona görə də dəmir yolu ilə hərəkət dayanmışdı. Bu problemin həll edilməsi üçün Nuru paşanın əmri ilə həmin gün axşama yaxın Yevlaxdan 18 qazan su göndərilmiş və daha 6 qazanın göndərilməsi üçün hazırlıq aparılırdı (103).

Qafqaz İslam Ordusu qüvvələrinin Bakı həndəvərində çox ciddi bir müqavimətə rast gəlməməsi və həmin qüvvələrin Bakıya bu dərəcədə yaxınlaşması şəhərin tezliklə süqut edəcəyinə bir inam yaratmışdı. Şəhər üzərində son döyüşlərdə yersiz itkilərə yol verilməməsi üçün iyul ayının 31-də Bakıya Qafqaz İslam Ordusu adından bir nümayəndə heyəti göndərildi. Bu nümayəndə heyəti şəhər hakimiyyətinin rəhbərlərinə Bakının təslim edilməsi təklifi ilə bir məktub gətirmişdi. Məktubda bildirilirdi ki, şəhər təslim edilərsə, ermənilərin oradan istədikləri yerə çıxıb getmələrinə şərait yaradılacaqdır(104).

Bu nümayəndə heyətinin göndərilməsi, onun apardığı məktuba hansı cavabın veriləcəyi ilə şəxsən Ənvər paşa da maraqlanırdı. Ondan alınan teleqramda deyilirdi ki, ermənilər dincliklə Bakını təhvil versələr, onların Bakıdan çıxıb Ermənistana keçmələrinə şərait yaradıla bilər. Teleqramda o da qeyd edilirdi ki, bu, tezliklə baş verməlidir. Əgər ermənilər tezliklə cavab verməzdilərsə, onda hücum dayandırılmadan davam etdirilməli idi (105).

Ancaq məlumdur ki, Bakıdakı ermənilər və onların ətrafına toplaşanlar heç də bu fikirdə deyildi və onlar ingilis qoşunlarının gəlişi ilə vəziyyətin tamamilə dəyişəcəyinə ümidlərini itirməmişdilər.

İyulun 30-da və 31-də Qafqaz İslam Ordusunun əldə etdiyi hərbi uğurlar S.Şaumyan və onun ətrafına toplaşmış bolşevik-daşnak qüvvələrinin hərbi və siyasi süqutunu sona çatdırdı. Onlar artıq heç nə ilə cəbhədəki vəziyyəti arzu etdikləri istiqamətə yönəldə bilmədilər. Baş verən uğursuzluqları onlar müxtəlif səbəblərlə izah etməyə çalışsalar da, həqiqət belə idi ki, millətçi erməni tör-töküntülərindən təşkil edilmiş silahlı dəstələr Qafqaz İslam Ordusunun qarşısını kəsməyə artıq qadir deyildilər. L.Biçeraxov da öz dəstəsini Cənub qrupu qarşısından geri çəkərək 1 saylı zirehli qatarla birlikdə Biləcəriyə doğru üz tutdu (106). Bakı–Tiflis dəmir yolu boyunca döyüşlərin taleyinin artıq həll edildiyini başa düşən L.Biçeraxov Biləcəri stansiyası ilə dəniz arasında elə bir mövqe tutdu ki, istədiyi vaxt maneəsiz dərhal qatarla Dağıstana tərəf çəkilə bilsin. İngilis generalı Denstervil Biçeraxovun geri çəkilməsini bolşeviklərin ona xəyanət etməsi, onu heç nə ilə təchiz etməməsi və hətta onun tutularaq türklərə təhvil verilməsi niyyəti ilə əlaqələndirirdi (107). Bolşeviklərdən sonra şəhərdə hakimiyyətə gəlmiş qüvvələr də Biçeraxova qarşı xəyanət işlədildiyini, İrandan çağırılmasına baxmayaraq, heç bir yardım almadığını və Qafqaz İslam Ordusu hissələrinə qarşı uğurla vuruşması üçün lazımi şəraitin yaradılmadığını bildirirdilər (108).

Biçeraxovun bu hərəkəti ilə Qafqaz İslam Ordusu qarşısındakı müqavimət daha da azaldı. Bakı bolşeviklərinin hərbi komissarı Korqanovun verdiyi məlumata görə, Ələtdən geri çəkilən 1600 nəfərlik qüvvədən Bakı ətrafındakı cəbhə xəttində 200 nəfər qallmışdı. 200 nəfər də sağ cinahda, Şimal qrupu ilə üzbəüz mövqe tutmuş Petrovun dəstəsində var idi (109).

Bolşevik-daşnak liderlərinin verdiyi məlumatdan belə çıxırdı ki, gəlişinə böyük ümid bağlanılan Petrovun 780 nəfərlik dəstəsində Qafqaz İslam Ordusu hissələri ilə bir neçə günlük döyüşdən sonra cəmi 200 nəfər qalmışdı. Heç şübhəsiz ki, belə bir vəziyyət bolşevik-daşnak rəhbərlərini və şəxsi maraq hərisliyi ilə onların

ətrafına toplaşmış olan erməni silahlılarını da qorxuya salmaya bilməzdi. Sayı 3 mindən çox olan erməni silahlıları pal-paltar çatmamasını bəhanə edərək cəbhə xəttini tərk edir və şəhərdə toplaşırdılar. Bununla da bolşeviklərin verdiyi məlumata görə, uzunluğu 32 kilometr olan döyüş xəttində cəmi 400 silahlı qalmışdı. Nicat tapmağın yeganə yolunu ağ bayraq qaldırıb təslim olmaqda görən Qırmızı Ordu komandanı Avetisov tezliklə Qafqaz İslam Ordusu komandanlığı ilə sülh danışıqlarına başlamağı təklif etdi. Onun fikrincə, əks təqdirdə şəhərin 160 min xristian əhalisinin həyatı təhlükə altında qala bilərdi (110). Doğrudur, Bakı Xalq Komissarları devrildikdən və yeni hökumətdə də yüksək vəzifə tutduqdan sonra Avetisov təkid edirdi ki, heç vaxt Qafqaz İslam Ordusu qarşısında ağ bayraq qaldırmağın tərəfdarı olmamışdır. Əksinə, türk qoşunlarına qarşı mübarizə aparmağı, türk döyüşçülərinin Qafqazdan çıxarılmasını özünün başlıca vəzifəsi bilmişdi və bu yoldakı mübarizəsini yeni hakimiyyətin dövründə də davam etdirirdi (111).

İyul ayının 30-dan 31-nə keçən gecə bolşeviklər öz hakimiyyətini qoruyub saxlamaq üçün sonuncu dəfə cəhd göstərdilər. Hələ gecə ikən Xalq Komissarları Soveti şəhərdə olan bütün hissələri və silahlıları cəbhəyə yollanmağa çağırdı, fəhlələrə müraciət etdi ki, silahlanıb şəhərin küçələrinə çıxsınlar. Eyni zamanda erməni silahlı dəstələrinin rəhbərləri Hamazasp, Qazarov və Daşnaksutyun partiyasının rəhbərləri ilə razılıq əldə edildi ki, sülh danışıqlarının aparılacağı təqdirdə belə öz dəstələrini cəbhəyə göndərsinlər ki, şəhər müdafiəsiz qalmasın. Qərara alındı ki, erməni silahlılarından ibarət 16-cı və 18-ci taborlar cəbhə xəttinə göndərilsin. Bu iki taborda 1300 silahlı olmalı idi. Həmin gecə Daşnaksutyun partiyasının rəhbəri bəyan etdi ki, iyulun 31-də cəbhə xəttinə çıxarılacaq silahlıların sayı 3 minə çatdırılacaqdır (112).

Ancaq Bakı bolşevikləri yenə də cəhdlərinin nəticəsiz qalması ilə rastlaşdılar. İyulun 31-də cəbhə xəttinə gözlənilən sayda deyil, 16-cı tabordan cəmi 320 nəfər qüvvə göndərildi. Bakı bolşevikləri ümidi yalnız Rusiyadan gələcək qüvvələrə bağlaya bilərdilər. Bu kömək gələnə kimi isə onlar şəhərdəki mümkün qüvvələri səfərbər edərək şəhərin müdafiəsini təşkil etməyə çalışırdılar.

Daşnak liderləri və fəalları isə artıq nəzərlərini Rusiya tərəfə deyil, İrandan gələ biləcək ingilis qüvvələrinə dikmişdilər. Onlar da şəhərin müdafiəsini uzatmaqla vaxt qazanmağa və ingilislərin yetişməsinə çalışırdılar.

Qafqaz İslam Ordusu hissələrinin güclü zərbəsinə davam gətirə bilməyən Petrovun dəstəsi də geri çəkiləndə Şaumyan və onun məsləkdaşları artıq bütün hakimiyyəti təhvil verməк məcburiyyətində qaldılar. İyul ayının 31-də, Bakı komissarları hakimiyyətdən tamamilə əl çəkdiyini elan etdiyi gün Rusiya Kommunist (bolşevik) Partiyası Bakı komitəsi bir bəyanat yaydı. Həmin bəyanatda hakimiyyətin təhvil verilməsi ilə bağlı belə deyilirdi: «Ordu komandanı Avetisovun və Petrovun dəstəsinin qərargah rəisi yoldaş Stepanovun şəhərin təslim edilməsinin qaçılmaz olduğu və bunun bir neçə saatdan sonra baş verəcəyi barəsindəki qəti bəyanatlarını, o biri tərəfdən də əhalinin qaliblərin lütfünə təslim olmaq kimi axırıncı vasitədən istifadə etmək arzularına mane olmamağı nəzərə alaraq Xalq Komissarları Soveti öz səlahiyyətlərini təhvil verməyi, Sovet Rusiyasının dövlət əmlakını və hərbi qüvvələri gəmilərə yığmağı qərara aldı» (113).

Bakı kommunistlərinin bu bəyanatı bütünlüklə türk qoşunlarına qarşı bir nifrət ruhunda yazılmışdı və şəhərin türk qoşunları tərəfindən tutulduğu təqdirdə belə nə vaxtsa onun yenidən geri alınacağına və Bakının bolşevik hakimiyyəti altına düşəcəyinə ümid kəsilməmişdi. Bəyanatın bir yerində deyilirdi: «Biz nə öz dərilərini xilas etmək naminə bolşeviklərin və rus qoşunlarını türk bandalarının cənginə verib türk paşalarının lütfünə təslim olanların, nə də vətənpərvərlik haqqında yalançı ifadələrinə baxmayaraq, Bakını ingilislərə təhvil verməyə hazırlaşanların sırasında ola bilməzdik. Biz qərara aldıq ki, Rusiya sovet hakimiyyətinə sadiq olan inqilabi qüvvələri xilas edək və Həştərxandan gələn qoşunlar çatan kimi onlarla birlikdə iki cəbhədə–türk və ingilis imperializminə qarşı müharibə elan edək, Bakını inqilabi Rusiya üçün qoruyaq» (114).

Bakı kommunistlərinin fikrincə, Bakının «nicatı» qorxaq avetisovların və hamazaspların qaldırdığı ağ bayraqda, ingilislərdən gözlənilən xəyali köməkdə deyil, Rusiyadan gələcək sovet qüv-

vələrində idi. Yalnız bu qüvvələr Bakını əvvəlki kimi yenə də sovet Rusiyasının əlində saxlaya bilərdi.

Bakı Sovetinin fövqəladə iclasının təşkil edildiyi 25 iyul tarixindən həmin ayın sonunadək S.Şaumyanla V.İ.Lenin arasında fəal yazışmalar aparıldı, Bakıdakı bolşevik hakimiyyətinin qorunması, habelə ingilislərin Bakıya gəlməsinin qarşısının alınması yoları arandı. Lakin bolşeviklərin bu cəhdləri heç bir nəticə vermədi. Bakıdakı bolşevik hakimiyyətinin iflasa uğraması isə ingilis hərbi komandanlığının bu şəhərə olan iddiaların həyata keçməsinə daha əlverişli zəmin yaratdı. Bakıda baş verən siyasi dəyişikliklər dərhal general Denstervilə də çatdırıldı. Eyni zamanda Bakı Sovetinin fövqəladə iclasındakı səsvermədə üstünlük əldə etmiş eserlər, menşeviklər, daşnaklar dərhal general Denstervilin yanına öz nümayəndələrini göndərdilər və ingilislərdən hərbi yardım istədilər (115).

Eyni zamanda Biçeraxovun dəstəsində olan ingilis polkovniki Klaterbuk general Denstervilə göndərdiyi teleqramında Sentrokaspi rəhbərliyinin də təcili ingilis hərbi yardımı istədiklərini yazdı (116).

General Denstervil bu xəbərləri məmnunluqla qarşıladı. O, öz xatirələrində Bakı Sovetinin devrilməsi xəbərinə sevincini gizlədə bilmədiyini yazmaqla, tezliklə Xəzəri ələ keçirməyə ümid edirdi. O güman edirdi ki, Bakını türklərdən və almanlardan xilas etmək üçün hələ şans vardır. General Denstervil sonrakı qeydlərində yazırdı ki, Bakıda vəziyyət çox böhranlıdır və biz gecikə bilərik (117).

General Denstervilin Qafqaz İslam Ordusu haqqında az-çox kəşfiyyat məlumatları var idi və şübhə etmirdi ki, bu ordunun qarşısına ciddi qüvvələrlə çıxmalıdır. İyul ayının sonunda isə Bakıya göndərilməsi üçün nəzərdə tutulan bütün hərbi qüvvələr general Denstervilin sərəncamına daxil olmuşdu. İyul ayının 29-na aid olan məlumatlara görə, 39-cu piyada briqadasının ilk eşelonu Qəzvinə yetişmək üzrə idi, ikinci eşelon Həmədan yaxınlığında idi, 3-cü eşelon isə dəmir yolu ilə göndərilməli idi. Nəzərdə tutulurdu ki, 39-cu briqadanın əsas hissələri avqustun yalnız 4–5-də Həmədana çata biləcəkdir. Bakı ətrafında yaranmış olan hərbi vəziyyət isə ingilislərin xeyrinə olmayaraq dəyişməkdə idi. Ona görə Bakının

Azərbaycanın milli qüvvələrinin əlinə keçməsini əngəlləmək üçün təcili tədbirlərin görülməsinə də ehtiyac var idi. Bakıdan alınan məlumatlar da bunu təsdiq edirdi. Həmin məlumatlarda bildirilirdi ki, Bakı ətrafındakı yüksəkliklər Qafqaz İslam Ordusu qüvvələrinin əlindədir. Biçeraxov öz dəstəsi ilə şimala doğru çəkilmişdi. O, hətta Denstervilə də ingilis qüvvələrini ilkin olaraq Dərbəndə çıxarmağı təklif edirdi. Belə bir şəraitdə general Denstervil polkovnik Stoksun rəhbərliyi altında kiçik bir dəstəni Bakıya göndərməyi qərara aldı. Polkovnik Stoksun dəstəsinin Bakıya yola salınması iyulun 30–31-nə planlaşdırılmışdı (118).

1918-ci il iyulun 31-də S.Şaumyanın sədrliyi altında olan Bakı Xalq Komissarları Soveti hakimiyyətdən birdəfəlik əl çəkdi. Qısa tarixi Azərbaycan xalqının həyatında faciəli izlər buraxmış bu hökumətin yerinə avqust ayının 1-də «Sentrokaspi və sovetlərin müvəqqəti icraiyyə komitəsi rəyasət heyətinin diktaturası» hökuməti yaradıldığı elan edildi (119). Bu hakimiyyətin eserlər, menşeviklər və ermənilər tərəfindən təşkil edildiyi bildirilsə də, onun əsas postları erməni-daşnak elementlərinin əlində cəmləşmişdi. Bir vaxtlar birgə fəaliyyət göstərdikləri bolşeviklərdən ayrılsalar da, onların mahiyyətində ciddi bir dəyişiklik baş verməmişdi. Türkçülüyə qarşı çıxmaq, milli istəklərini həyata keçirmək üçün onlar konkret şəraitdə yeni qüvvələrlə birləşməyin səmərəliliyinə daha çox inanırdılar.

Qavril Korqanovun yazdığına görə, Bakı Xalq Komissarları Soveti Qafqaz İslam Ordusu qüvvələrinin qarşısının alınmasının mümkünsüzlüyünə əmin olandan sonra əlavə itkilər verilməsinin qarşısının alınması məqsədilə şəhərin təslim edilməsini məqsədəuyğun bildilər. Amma Daşnaksutyun partiyasının nümayəndələri qətiyyətlə xalq komissarlarının bu qərarına qarşı çıxdılar. Onlar sosialistləri, sosialist inqilabçıları və Xəzər donanması dənizçilərini öz tərəflərinə çəkərək «Bakı diktaturası» hökumətini yaratdılar. Bu hökumət isə ingilis hərbi qüvvələrini köməyə çağırmaqla Bakını öz hakimiyyətləri altında saxlamağı qərarlaşdırdı. Q.Korqanov onu da əlavə edirdi ki, Bakının milli qüvvələrdən qorunmasının əsasını ermənilər təşkil edirdilər (120).

«Sentrokaspi» diktaturasının hərbi naziri vəzifəsinə 1918-ci ilin mart ayında Bakının azərbaycanlı əhalisinin qırğınları zamanı daşnak erməni hərbi qüvvələrinə rəhbərlik edənlərdən biri olan və bu qırğınlar ərəfəsində ayağının birini itirən genaral Akop Baqratuni təyin edildi. O şübhə etmirdi ki, ingilis hərbi qüvvələrinin köməyi ilə Bakının milli qüvvələrin əlinə keçməsinə imkan verilməyəcəkdir. General Baqratuninin nəzərincə, Bakıda erməni-daşnak hakimiyyətinin yaradılması ümumerməni işinin tərkib hissəsi idi və Bakının milli qüvvələrin əlinə keçməsinə mane olmaqla Qarabağda, İrəvan ətrafında, hətta Türkiyə ərazisində də erməni hakimiyyətini bərqərar etmək mümkün olacaqdı (121).

Hakimiyyət «Sentrokaspi diktaturası»na keçəndən sonra bolşeviklərə tabe olan qüvvələr şəhərin Petrovsk meydanına toplaşdı və burada onların qərargahı yaradıldı. Həmin qüvvələrə Q.Popovun 19-cu alayı, Petrovun dəstəsinin qalıqları, bolşevik hərbi drujinası, silahlı fəhlə qrupları və s. daxil idi. «Sentrokaspi diktaturası»na tabe olmaq istəməyən bu qüvvələrin bir neçə topu və zirehli avtomobilləri də var idi(122).

Bakı komissarları hakimiyyəti təhvil verən kimi şəhərdən qaçmağa cəhd göstərdilər. Ancaq onların mindiyi gəmi «Sentrokaspi»nin nəzarəti altında olan Xəzər donanmasının gəmiləri tərəfindən Bakıya qaytarıldı. Komissarlar həbs olunsalar da, Petrovun və Əmirovun dəstələrinin səyi ilə həbsdən azad edildilər (123).

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Sitat Pərvin Darabadinin «XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində» məqaləsindən (səh.24) götürülmüşdür. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.23–38
2. Mustafa Çolak. Almaniyanın Qafqaz siyasəti (1917–1918-ci illər), s.147. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.135–190
3. Людендорф Э. Мои вспоминания о войне 1914–1918 гг. Т.2, Москва, 1924, с.188
4. Mustafa Çolak .. s.152
5. Darabadi P. ...s.28
6. Mustafa Çolak, ... s. 153
7. Mustafa Çolak ... s. 153
8. Mustafa Çolak, .. s.155
9. Большевики в борьбе за победу ... с. 545
10. Большевики в борьбе за победу ... с. 547
11. Birinci Dünya harbinde ... s. 563
12. Birinci Dünya harbinde ... s.563
13. Birinci Dünya harbinde ... s.564
14. Qasımlı M. Bolşevik Rusiyasının Güney Qafqaz siyasəti (1917–1918), c.114; Bax: Azərbaycan xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.93–134
15. Kurat A.N. Türkiye və Rusiya . Ankara, 1990, s.544–545
16. Kurat ... s.545–546
17. Kurat ... s.546
18. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə. Bakı, 2004, s.174
19. Türkiyə Silahlı Qüvvələri Əsgəri Tarix və Strateji Etüd (ATASE) Başqanlığı arxivi, ATASE, k.3819, d.7, f. 3
20. Qasımlı M. Bolşevik Rusiyasının Güney Qafqaz siyasəti... s.115
21. ATASE, k.3824, d.27, f. 1–3, 1–4
22. Большевики в борьбе за победу... с. 627

23. Kurat ... s. 548
24. Qasımlı M. Birinci Dünya müharibəsində ... s. 174–175
25. Qasımlı M. Birinci Dünya müharibəsi ... s,176
26. Qasımlı M. Birinci Dünya müharibəsi ... s. 178–179
27. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 43
28. Həsənov C. ... s.122
29. Yenə orada, s.120
30. Kurat ... s. 517–519
31. Kurat ... s. 521–522
32. Kurat ... s.522–524
33. Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya Enver paşa. c.111, İstambul, 1994, s.424–425
34. Kamali H. Estesmar-e engilis dər mavəra-ye Qəfqaz. 1917–1921. Tehran, 1376, s.45
35. İran ərazisində düşmənin... s.507. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.486–522
36. General ser Persi Sayks. Tarix-e İran. Tehran, 1363, s.682
37. Denstervil ...2
38. Denstervil. .. s.123
39. Denstervil. .. s.126
40. Diplomatic history of Persia.1917–1923. New York, 1952, s.142
41. General ser Persi Sayks ... s.682–683
42. Kamali H. Estesmar-e engilis dər mavəra-ye... s.23
43. General ser Persi sayk .. s.683
44. Denstervil , ... s.40
45. General ser Persi sayks ... s.686; Kamali H. Estesmar-e engilis ... s.24
46. Kave Bayat. Tufan bər fəraz-e Qəfqaz. Tehran, 1380, c.70
47. Qasımlı M. Antanta ölkələrinin Güney Qafqaz siyasəti, s.200; Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.191–224
48. Sabahi H. British policy in Persia 1918–1925. London, 1990, s.38
49. Kamali H. Estesmar-e engilis ... s.25–26

50. Denstervil. VII fəsil
51. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə. Bakı, 2004, s.393–394
52. Denstervil.. VIII fəsil
53. Denstervil ... IX fəsil
54. İran ərazisində düşmənin ... s.489
55. İran ərazisində düşmənin .. s.489
56. Fəxrai İbrahim. Sərdar-e cəngəl. Tehran, 1366, .111–112
57. Denstervil .. X fəsil
58. Fəxrai İ. Sərdar-e cəngəl .. s.113
59. Fəxrai İ. .. s.132
60. Большевики в борьбе за победу ... с. 582
61. Birinci Dünya harbinde ... s. 571
62. SSA, f. 303, siy. 1a, iş 14, v.88
63. SSA, f.303, siy. 1a, iş 14, v. 88, 89
64. Большевики в борьбе за победу ... с. 579
65. Большевики в борьбе за победу.. s.557
66. İran ərazisində düşmənin ... s.497–498
67. Большевики в борьбе за победу ... s.561
68. Большевики в борьбе за победу с.563–564
69. Большевики в борьбе за победу... с.567
70. Большевики в борьбе за победу... с.574, 579
71. Большевики в борьбе за победу ... с. 566
72. SSA, f. 303, siy 1, iş 18, v. 22
73. SSA, f. 276, siy. 1, iş 75d, v. 1
74. Большевики в борьбе за победу ... с. 569
75. Большевики в борьбе за победу ... с. 573
76. Большевики в борьбе за победу ... с. 582
77. Большевики в борьбе за победу ... с. 585
78. İran ərazisində düşmənin .. s.500
79. Denstervil ... s.181
80. Большевики в борьбе за победу ... с. 587
81. Шаумян Сур. Бакинская коммуна. Баку, 1927, с.35
82. Шаумян Сур. Бакинская коммуна. Баку, 1927, с.35
83. Шаумян Сур. Бакинская коммуна. Баку, 1927, с. 50

84. Большевики в борьбе за победу ... с. 594
85. Большевики в борьбе за победу ... с. 597
86. Шаумян Сур. Бакинская коммуна... с.45
87. SSA, f. 5, siy. 1, iş 33, v. 3
88. Большевики в борьбе за победу ... с. 600
89. Большевики в борьбе за победу ... с. 608
90. Большевики в борьбе за победу ... с. 607
91. Токаржевский Е.А. ... с. 137
92. Токаржевский Е.А. ... с. 122
93. Токаржевский Е.А. ... с. 124
94. ATASE, k. 3819, d. 6, f. 18
95. Rüştü ... s. 117–118
96. ATASE, k. 3819, d.6, f. 26
97. Большевики в борьбе за победу ... с. 610
98. Rüştü, ... s. 119
99. Rüştü, ... s. 120
100. Birinci Dünya harbinde ... s. 572
101. Birinci Dünya harbinde ... s. 572–573 ; Rüştü, ... s. 120
102. Rüştü , ... s. 124
103. Rüştü, ... s. 125
104. ATASE, k. 3819, d. 6, f. 43–3, 45, 46
105. ATASE, k. 3819, d.6, f.46–5
102. Rüştü, ... s. 127
103. Rüştü, ... s. 127
104. ATASE, k. 3819, d.6, f. 46–9
105. ATASE, k. 3819, d.6, f.53–1
106. 26 Bakı komissarları. Bakı, 1958, s. 234
107. Денстервиль ... с. 175
108. SSA, f. 303, siy.1a, iş 18, v. 3
109. Большевики в борьбе за победу ... с. 616
110. Большевики в борьбе за победу ... с. 617
111. SSA, f. 303, siy. 1a, iş 18, v. 6
112. Большевики в борьбе за победу ... с. 617
113. Большевики в борьбе за победу ... с. 619
114. Большевики в борьбе за победу ... с. 619

115. Denstervil .. s.185
116. İran ərazisində düşmənin ... s. 502
117. The diaries of general Lionel Dunsterville 1911–1922. www.gwda.org/Dunsterville/Dunsterville_1918/html
118. İran ərazisində düşmənin .. s.503
119. История Азербайджана. Баку, 1963, с. 152
120. Генерал Гаврил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XXIV. http://russia-armenia.info/node/10296
121 Аветисян А.Г. Генерал Акоп Багратуни (1879–1943).
122. Darabadi P.Q. ... s. 122
123. SSA, f. 303, siy. 1a, iş 14, v. 2

# VIII FƏSİL

# BAKI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİ

## *1. Bakı şəhərinin azad edilməsi üçün göstərilən ilk cəhdlər*

Bakı Xalq Komissarları Sovetinin hakimiyyətdən salınması ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizənin mühüm bir dövrü tamamlanmış oldu. Müxtəlif istiqamətdən hərəkət edən Qafqaz İslam Ordusu hissələri qarşılarına qoyulan döyüş vəzifələrini uğurla yerinə yetirərək Bakı ətrafına yaxınlaşdılar. Qarşıda Bakı şəhərinin azad edilməsi uğrunda birgə fəaliyyət göstərilməsi, döyüşlər aparılması dayanırdı.

Bakı Xalq Komissarları Sovetinin hakimiyyətdən uzaqlaşması Azərbaycan xalqının milli mənafelərinə əks-mövqe tutan qüvvələr cəbhəsində də bir dövrün başa çatması və yeni bir dövrün başlanması demək idi. 1918-ci il avqust ayının 1-nə qədər Qafqaz İslam Ordusuna qarşı mövqe tutan qüvvələrə S.Şaumyan və onun ətrafında toplanan bolşevik və erməni ünsürləri rəhbərlik edirdilərsə, həmin gündən sonra bu qüvvələrə «Sentrokaspi diktaturası» rəhbərlik edirdi. Yeni hökumətin başlıca məqsədi də Bakı şəhərinin Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtına çevrilməsinə imkan verməmək idi. Azərbaycan xalqının milli mənafeyinə, Qafqaz İslam Ordusu qoşunlarının izlədiyi məqsədə münasibətdə Bakı Soveti ilə «Sentrokaspi diktaturası» arasında mahiyyətcə elə bir fərq yox idi. Hər iki qurum Azərbaycan Xalq Cümhuriyyətini tanımır, Azərbaycan xalqının öz müqəddəratını müəyyənləşdirmək istəyini heç bir vəchlə qəbul etmək istəmir, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin dəvəti ilə Azərbaycan xalqının imdadına çatmış türk qoşunlarına işğalçı qoşunlar kimi baxırdılar. «Sentrokaspi diktaturası» dairələrinin Bakı komissarlarından üz döndərməsinin başlıca səbəbi heç də onların Azərbaycanın milli qüvvələrinə qarşı yeritdikləri siyasətdən narazılıqla bağlı deyildi. Əksinə, «Sentrokaspi diktaturası» liderləri Bakı komissarlarını məhz Azərbaycanın milli qüvvələrinə, Qafqaz İslam Ordusuna qarşı səmərəli mübarizəni təşkil edə bilməməkdə it-

tihamlandırır və bu işi daha yaxşı qura biləcəklərinə ümid edirdilər. Onlar Bakı komissarlarını Qırmızı Ordunu dağıtmaqda və beləliklə də Qafqaz İslam Ordusu hissələrinin Bakıya yaxınlaşmasına imkan verməkdə günahlandırırdılar. «Sentrokaspi» liderlərinin fikrincə, Qriqori Korqanov və digər bolşevik strateqləri həç kəsin məsləhətinə qulaq asmadan cinayətkar qərarlar qəbul edir və bununla da ordunun mütləq tənəzzülünü yaxınlaşdırırdılar. Nəticədə, nizamdan çıxmış, tənəzzülə məruz qalmış, ovqatı korlanmış Qırmızı Ordu qısa müddət ərzində Kürdəmirdən Bakıya qədər geri çəkilməli olmuşdu (1).

Avqust ayının ilk günlərində Bakı ətrafında erməni-daşnak qüvvələrinin tutduğu mövqelər Xəzər sahillərindən başlayaraq Badamdar – Sallaxana (Yasamal təpəlikləri)–Biləcəri – Palçıq vulkanı və Böyükdağ dağı xətti üzrə yerləşmişdi. General Qavril Korqanovun məlumatına görə, erməni-daşnak qüvvələrinin sağ cinahındakı 4000 nəfərlik qüvvədən cəmi 1800 nəfər qalmışdı. Bu cinah yenidən komplektləşdirmək üçün Bakıya qaytarılmışdı və nəzərdə tutulmuşdu ki, bu qüvvələrin yerini Biləcəri ətrafında Biçeraxovun dəstəsi tutsun. Biçeraxov bu planla razılaşmadı və milli qüvvələrə arxadan zərbə vurmaq adı altında dəstəsi ilə Sumqayıta çəkildi. Belə olanda sağ cinahın Bakıya çəkilmiş bölmələri yenidən cəbhə xəttinə çıxarıldı(2).

Mürəkkəbləşməkdə olan vəziyyətdən çıxış yolunu yeni hökumət ingilis qoşunlarının Bakıya çağırılmasında görürdülər. Erməni Milli Şurasının və daşnak liderlərinin təkidi ilə «Sentrokaspi diktaturası» hakimiyyəti əlinə aldığı andan ingilislərin Bakıya gəlməsinin sürətləndirilməsi üçün yollar aramağa başladı. Əslində, Erməni Milli Şurası ilə daşnak elementləri İranda olan ingilis qoşunları komandanı ilə əlaqələr yaradaraq Bakıya qoşun çıxarılması məsələsini dəfələrlə müzakirə etmişdilər. İngilis qoşunları komandanlığı bu məsələdə «Sentrokaspi» ilə razılığa gəlmiş və həmin məsələnin texniki icrası üçün müəyyən işlər də görülmüşdü.

Yeni hökumətin sərəncamına keçmiş olan hərbi hissələr «Qafqaz Qırmızı Döyüşən Ordusu» adı altında birləşdirildi (3) və L.Biçeraxov onun baş komandanı təyin edildi (4). Bu barədə L.Biçeraxova da xəbər göndərildi. Eyni zamanda tabelikdə olan qoşun

hissələri Bakının qorunmasına səfərbər edildi.

Avqustun 1-də Qafqaz İslam Ordusu hissələri Bakı şəhəri üzərinə hücumu yenə davam etdirdilər. Şərq cəbhəsi komandanı Mürsəl bəyin avqustun 1-də imzaladığı döyüş əmrində də əsas vəzifə kimi Bakı şəhərinin tutulması müəyyənləşdirilmişdi. Bu vəzifəni Şimal qrupu yerinə yetirməli idi. Qrupun qüvvələri şəhərə girdikləri təqdirdə küçə döyüşləri aparmalı, düşmənin müqavimətini qırmalı və düşmən qaçmalı olduqda onu təqib etməli idi. Şəhərdəki asayiş də bu bölmələr tərəfindən təmin edilməli idi. Heybət stansiyası yaxınlığına gəlib çatmış Cənub qrupu da Bakı üzərinə hücumda iştirak etməli idi. Döyüş əmrində göstərilirdi ki, düşmən gəmilərinin top atəşlərinin qarşısını almaq üçün lazım olan tədbirlər həyata keçirilsin. Şərq cəbhəsi komandanlığının ehtiyatına verilmiş olan 38-ci piyada alayının 2-ci taboru, qüdrətli dağ-topçu taqımı və Ləzgi süvari alayı Şamaxı yolu ilə hərəkət edib artıq Bakıya yetişməkdə idi. Döyüş əmrinə görə, ehtiyat qüvvələr Güzdək yaxınlığında yerləşməli və vəziyyət tələb edərdisə, onda bu qüvvələr də hücumun gücləndirilməsində iştirak etməli idi. Şərq cəbhəsi komandanlığının qərargahı Hökməli kəndində yerləşmişdi (5).

Şərq cəbhəsi komandanlığından verilən başqa bir məlumatda isə bildirilirdi ki, şəhərdə asayişin yaradılması ilə konkret olaraq 13-cü piyada alayı məşğul olacaqdır. Alayın bir taboru azərbaycanlılar yaşayan hissədə, digər tabor xristian əhali yaşayan hissədə yerləşməli idi. Şimal qrupunun digər bölmələri isə Bakının şimal-qərbində və şəhərin kənarında münasib yerlərdə mövqe tutmalı idilər (6).

Avqustun 1-də səhər tezdən başlanan döyüşdə əsas hadisələr Qurd qapısı ilə Xəzər dənizi arasındakı ərazidə, yəni Şimal qrupunun sağ cinahında cərəyan etməli idi. Bu sahə şəhərə ən yaxın sahə olsa da, orada «Sentrokaspi» qoşunlarının güclü müdafiə xətti mövcud idi. Ərazinin coğrafi şəraiti də Şimal qrupunun hücumlarının qarşısını az qüvvə ilə almağa imkan verirdi. Heybət–Biləcəri dəmir yolunun şərqində sərt hündürlüklər üzərində qurulmuş olan «Sentrokaspi» mövqelərini aşmaq, xüsusilə çətin idi. Əlavə olaraq burada düşmənin 3 səhra topu Şimal qrupunun

hücumlarının qarşısını almağa çalışırdı. Həmin topların zərərsizləşdirilməsi üçün qüdrətli topçu batareyasına tapşırıq verildi və bir müddətdən sonra bu tapşırıq yerinə yetirildi.

Sağ cinahda irəliləyən 13-cü piyada alayı şiddətli döyüşlərdən sonra 14.30-da dənizə yaxın olan 763 rəqəmli hakim yüksəkliyi ələ keçirdi. Bu yüksəklik strateji əhəmiyyətə malik olduğu üçün düşmən buradan asanlıqla geriləmək istəmirdi. Gün ərzində bu yüksəklik ətrafında şiddətli döyüşlər davam etdi. 13-cü alayın sol cinahı ilə irəliləyən 10-cu alayın 29-cu taboru Qurd qapısı məntəqəsindəki Sallaxana və Qışla ətrafındakı yüksəkliklərə qalxmış və şəhərin 2 kilometrliyində mövqe tuta bilmişdi. 60-cı tabor isə Hacıhəsən kəndini ələ keçirmiş və bu məntəqədə münasib mövqelərdə yerləşərək dəmir yolu xəttini nəzarət altına götürmüşdü. Bununla da düşmənin zirehli qatarının cəbhə xəttinə gəlməsi və «Sentrokaspi» qoşunlarının himayə etmək imkanının qarşısı alınmışdı. Şimal qrupunun hücumlarının qarşısını almaq üçün Xəzər dənizindəki gəmilərin topları, habelə üç ədəd təyyarə «Sentrokaspi» qoşunlarını himayə edirdi(7).

Topçu cəbbəxanasının qıtlığı, habelə Bakının keçmiş komissarlarının tabeliyində olan qoşun bölmələrinin döyüşdə iştirakı Şimal qrupunun hücumunun daha da genişlənməsinə imkan vermədi. Petrovun dəstəsinin Bakının Petrovsk meydanında qurulmuş olan iki batareyası çarpaz atəşlərlə Bibi-Heybət istiqamətində 13-cü alayın mövqelərini, habelə Qurd qapısı ətrafında Şimal qrupunun ön mövqelərini güclü bombardman etdi. Bununla da Şimal qrupunun sürətli hücumunu müəyyən qədər ləngitmək mümkün oldu (8).

Döyüşün gedişində Bakıdan Həsənov adlı bir şəxs tərəfindən göndərmiş olan gizli məktub Şərq cəbhəsi komandanına çatdırıldı. Şəhərdəki vəziyyəti təsvir edən məktubda bildirilirdi ki, ermənilər qorxu və təlaş içərisindədirlər, təslim olmağa meyllidirlər. Ancaq həyatları üçün qorxurlar. Onlara təminat verilərsə, ermənilər öz nümayəndələrini danışıqlar üçün göndərərdilər (9).

Bu məlumat şəhərdə qorxu və təlaşın hələ də qaldığını, Bakının ələ keçirilməsi üçün münasib şəraitin mövcud olduğunu göstərirdi. Qəti və uğurlu bir hücumun təşkil edilməsi üçün Cənub qrupunun da Bakı ətrafına çatması gözlənilirdi. Ancaq avqus-

tun 1-də Cənub qrupu nəzərdə tutulduğu kimi Heybət stansiyasına yetişə bilmədi. Edilən xahişlərə baxmayaraq, arxadan hələ də Cənub qrupuna su çatdırılmamışdı. Susuzluq qrupun fəaliyyətini xeyli məhdudlaşdırmışdı. Avqust ayının 1-də Qrupun komandanı Həbib bəy Səlimov Ordu komandanı Nuru paşaya göndərdiyi teleqramında bildirirdi ki, bu axşam Ələti işğal etdim. Dəfələrlə müraciət etməyimizə baxmayaraq, biz hələ də geridən su almamışıq. Döyüşçülər susuz qaldığı kimi lokomotivlər də su olmadığı üçün işləmirlər. H.Səlimov susuzluğun qrupda ağır vəziyyət yaratdığını və su gətirilməyincə Ələtdən o yana hərəkət etməyin mümkünsüzlüyünü vurğulayırdı (10).

Cənub qrupunun Bakıya doğru hərəkətinə eyni zamanda «Sentrokaspi» gəmilərinin Ələt–Bakı dəmir yolu xəttini nəzarət altında saxlaması da mane olurdu. Həm dəmir yolu, həm də şosse yolu dənizə xeyli yaxın olduğundan gəmilərin top atəşlərinin altında idi. Həmin yolların nəzarət altında olduğu üçün Şimal qrupu üçün nəzərdə tutulan əşyaları da dəmir yolu ilə daşımaq çətin idi. Ona görə də Ordu komandanı Nuru paşa Şərq cəbhəsi komandanlığına Ələtdən Bakı ətrafına gedən başqa bir yolun tapılması və ondan istifadə edilməsi haqqında əmr verdi. Nuru paşanın fikrincə, Hacıqabul stansiyası–Nəvai–Muğanlı–Ötəmki qışlağı–Çarbulaq–Güzdək məntəqələrindən keçən yol nəzərdə tutulan daşınmaların həyata keçirilməsi üçün daha münasib idi. Ordu komandanı əlavə edirdi ki, bu marşrut qısa zaman ərzində öyrənilsin və ondan istifadənin təşkili üçün nə qədər qüvvə və vəsaitin zəruri olduğu Ordu komandanlığına bildirilsin (11).

Avqustun 1-də axşam Qafqaz İslam Ordusunun hissə və bölmələri aşağıdakı xətt üzrə mövqe tutmuşdular: Cənub qrupu Ələtdə idi. 10-cu və 13-cü Qafqaz piyada alayları Qurd qapısı hündürlükləri ilə Hacıhəsən kəndi arasındakı sahədə yerləşmişdilər. 60-cı piyada taboru Xırdalan yaxınlığında, 38-ci piyada alayının 1-ci taboru ilə 2-ci mürəttəb süvari alayı və bir səhra top taqımı Sumqayıt stansiyasında, Şərq cəbhəsi komandanlığının ehtiyatını təşkil edən 38-ci piyada alayının 2-ci taboru ilə Ləzgi süvari alayı Güzdəkdə dayanmışdılar(12).



**Ön sırada ortada Əliağa Şıxlinski və Nuru paşa**



**Nuru paşa və türk zabitlərindən bir qrupu**



**15-ci Piyade Tümen Komutanı**
**Kurmay Yarbay Süleyman İzzet Bey**



**Şark Orduları Grubu Komutanı Halil (KUT) Paşa**




**Qafqaz İslam Ordusu qüvvələrinin Bakı şəhərinin azad edilməsi üçün hücumqabağı düzülüşü**

Bu qüvvələr avqustun 2-də Bakıya doğru hücumu davam etdirməli idilər. 60-cı tabora diqqəti yayındırmaq tapşırığı verilmişdi. Həmin hissə fəaliyyəti ilə «Sentrokaspi» qoşunlarının müəyyən qisminin diqqətini özünə cəlb etməli idi. Bu da digər qüvvələrə tutduqları mövqelərdə daha yaxşı möhkəmlənməyə və mümkün olduqca uğurlu hücumu davam etdirməyə daha yaxşı zəmin yaratmalı idi. Cəbhə komandanının imzaladığı döyüş əmrində Cənub qrupuna nəyin bahasına olursa-olsun Heybət stansiyasına gəlib çatmaq tapşırığı verilmişdi (13).

Avqust ayının 2-də gecə ikidə başlayan döyüş bütün gün davam etdi. Cəbhə komandanlığının verdiyi məlumatda bildirilirdi ki, şiddətli döyüşlər üç gündür ki, səngimək bilmir. Şəhər ətrafında «Sentrokaspi» qoşunlarının müqaviməti xeyli artmışdır. Düşmən qüvvələrinin gücləndiyi hiss olunur (14). Komandanlıq tərəfindən verilən başqa bir məlumatda isə bildirilirdi ki, şəhərin qərb və cənub-qərb hissəsindəki düşmən qüvvələrinə əlavə kömək gətirildiyi müşahidə olunmuşdur. Aldığı yardımdan sonra «Sentrokaspi» qoşunları arabir hətta hərbi təşəbbüsü də ələ almağa cəhd göstərirdilər (15). Xüsusən 13-cü alaya qarşı vuruşan bölmələr bir neçə dəfə əks-hücuma keçməyə cəhd göstərdilər və hər dəfə də 13-cü alay bölmələrinin qətiyyətli zərbələrindən sonra «Sentrokaspi» qoşunları geri çəkilməyə məcbur olurdu. Qurd qapısı keçidi ilə üzbəüz mövqe tutmuş 29-cu və 60-cı taborlar da qarşı tərəfdən göstərilən müqavimətə baxmayaraq, «Sentrokaspi» qoşunlarına güclü zərbə endirməyə nail oldular. Onlara qarşı mövqe tutmuş piyadalar bütünlüklə məhv olmaq təhlükəsindən sovuşmaq üçün şəhərə doğru geri çəkilməyə cəhd göstərdilər. Lakin arxada dayanmış olan süvari cəza dəstələri piyadaların geri çəkilməsinə yol vermədilər. Bu sahədə müdafiə mövqelərinin müəyyən qədər zəif olduğu üçün «Sentrokaspi» qoşunları komandanlığı bura şəhərdən toplanmış yeni qüvvələr göndərdi. «Sentrokaspi» rəhbərləri bu döyüşlərin onlar üçün taleyüklü döyüşlər olduğunu yaxşı anlayırdılar. Ən yaxın günlərdə ingilis qoşunlarının gələcəyinə və onların Qafqaz İslam Ordusu hissələrinin qarşısını alacağına böyük ümidlərlə yanaşan «Sentrokaspi» rəhbərləri bütün imkanlarını və qüvvələrini səfərbərliyə almışdılar. Cəbhə xəttinə əlavə

qüvvələrin tapılıb göndərilməsi, şəhərin Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməsini istəməyən keçmiş komissarların tabeliyində olan qüvvələrin də top atəşləri ilə «Sentrokaspi» qoşunlarını himayə etməsi Şimal qrupu hissələrinin hücumunu müəyyən qədər zəiflədə bildi. Xüsusilə top mərmilərinin qıtlığı hücumları istənilən şəkildə genişləndirməyə imkan vermirdi. Ona görə də mərmi göndərilməsi üçün yenidən Ordu komandanlığına müraciət edildi (16).

Cənub qrupu isə avqustun 2-də yenə də Heybət stansiyası ətrafına yetişə bilmədi. Qrup verilən döyüş tapşırığının icrası üçün irəli hərəkətə başlasa da, Səngəçal yaxınlığındakı körpünün dağıdılması üzündən xeyli ləngiməli oldu. Qrup komandanı H.Səlimovun verdiyi məlumata görə, o, avqustun 3-də Heybət stansiyası ətrafına çatacağını planlaşdırırdı (17).

Beləliklə, gün ərzində davam edən şiddətli döyüşlər tərəflərin mövqelərində ciddi bir dəyişiklik yaratmadı. Ancaq Sentrokaspi qoşunları cəbhəsində müəyyən bir fəallaşma baş verirdi. Şəhərdən gətirilən əlavə qüvvələrin döyüşə atılması onların müqavimətini artırırdı. Qafqaz İslam Ordusu cəbhəsində isə bir neçə gün davam edən şiddətli döyüşlər, cəbbəxana və mərmi çatışmazlığı qoşunların yorğunluğunu artırmaqla döyüş imkanlarına mənfi təsir göstərirdi. Qafqaz İslam Ordusu komandanı qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün Şərq ordular qrupu komandanına müraciət edərək bölgəyə əlavə qüvvələr göndərilməsini xahiş etdi. Nuru paşa əvvəlcə 15-ci piyada diviziyasına aid olan 56-cı piyada alayının Qafqaza göndərilməsini istədi. Ancaq şimaldan L.Biçeraxovun, İrandan isə ingilis qoşunlarının Bakıya əlavə qüvvələr göndərdiyini eşidəndə Nuru paşa 15-ci diviziyanın bütünlüklə Azərbaycana göndərilməsi məsələsini qaldırdı(18).

Nuru paşa eyni zamanda Baş komandan vəkalətinə məktub yazıb İrandan Bakıya gəlmək niyyətində olan ingilis qoşun hissələrinin hərəkətinə maneçilik yaratmaq üçün lazımi tədbirlərin həyata keçirilməsini xahiş etdi. Onun fikrincə, Ənzəliyə türk qüvvələri göndərilməsi mümkün deyildisə, heç olmasa Kiçik xana silah və zabitlə kömək göstərilməsi yaxşı olardı. Kiçik xan isə ingilislərin Ənzəliyə doğru və oradan da Bakıya hərəkətinə mane ola

bilərdi (19). Baş komandanlıq vəkaləti də bu təklifi məqsədəuyğun qəbul edirdi. Çünki ingilis qoşun hissələri yetişəndən sonra Bakının ələ keçirilməsi xeyli çətinləşə bilərdi. Nuru paşanın verdiyi məlumata görə isə ingilis qoşun hissələrinin gətirilməsi üçün artıq 7 gəmi Bakıdan Ənzəliyə göndərilmişdi və onların 1–2 gün ərzində geri qayıdacağı gözlənilirdi (20).

İran ərazisində ingilis qoşunlarının hərəkətini ləngitmək üçün Rəşti tutmuş Kiçik xan döyüşə başlasa da, ingilis qoşun bölmələrinin müqavimətini qıra bilmədi. Doğrudur, ingilislər bir neçə gün vaxt itirdilər. Bununla belə, onlar Ənzəliyə doğru özlərinə yol aça bildilər (21).

İngilis qoşunlarının Bakıya «Sentrokaspi» diktaturasının yardımına gələcəyi gözlənildiyi günlərdə Ağsu ətrafında yaşayan erməni kəndlərində təşkil edilmiş 200 nəfərlik bir qüvvə Qafqaz İslam Ordusu qüvvələrinin arxasında gərginlik yaratmağa cəhd göstərdi (22). Cəbhə arxasında yaranan gərginliyi dərhal yatırmaq üçün Nuru paşa Zaqataladakı milli süvari qüvvələrin bir dəstəsinin Ağsu ətrafına göndərilməsinə əmr verdi. Eyni zamanda Ordu komandanının göstərişi ilə Ağdaş taborunun Ləki bölüyü Ələt–Bakı arasındakı dəmir yolu xəttinin mühafizəsi üçün bu məntəqəyə yola salındı (23).

Avqust ayının 3-də tərəflər arasında döyüş davam etdirildi. Hələ gecəyarı ikən həm 13-cü piyada alayının, həm də 29-cu taborun sahəsi şiddətli top və pulemyot atəşinə tutuldu. «Sentrokaspi» qüvvələrinin Biləcəri ətrafından Xırdalan üzərinə hücuma hazırlaşması barədə də xəbər alındı. Ona görə bu istiqamətdə müvafiq müdafiə tədbirləri həyata keçirildi. Bununla belə, Biləcəri istiqamətində düşmən qüvvələrinin çox olmadığı güman edilirdi. Onun üçün Ordu komandanlığı Bakı üzərinə hücumu bu istiqamətdən gücləndirməyi təklif edirdi. Ordu komandanlığının fikrincə, əsas qüvvələrin bu istiqamətdə cəmlənməsi onların gəmi toplarının atəşlərindən də qorunmasına imkan verərdi. Şərq cəbhəsi komandanlığı İslam Ordusu komandanlığına göndərdiyi cavab məktubunda bu təklifi məqsədəuyğyn saymırdı və bunu belə əsaslandırırdı: Bakının qərbində yerləşdirilmiş qüvvələrin şimala, Biləcəriyə atılması xeyli vaxtın itməsinə səbəb ola bilərdi. Digər

tərəfdən Biləcəri ətrafına gətirilmiş qüvvələr gəmi toplarının atəş sahəsindən çıxarılsa da, düşmən təyyarələrinin təsir sahəsinə düşə bilərdilər. Çünki bu sahə açıqlıq bir sahə idi və orada qüvvələr düşmən təyyarələri tərəfindən asanlıqla müşahidə edilə bilərdilər. Biləcəri istiqaməti həm də məsafəcə şəhərdən çox uzaq idi. Buradan şəhərə qədər böyük bir məsafəni qət etmək lazım gələrdi. Ehtiyat qüvvələrin kifayət qədər olmadığı bir vaxtda bu çox təhlükəli idi (24).

Avqustun 3-də günortadan sonra Xırdalanla Biləcəri arasında Qafqaz İslam Ordusu qüvvələri ilə «Sentrokaspi» qoşunları arasında yeni bir döyüş baş verdi. Sumqayıtdan Xırdalan ətrafına gətirilmiş olan 2-ci mürəttəb süvari alayının üzərinə əvvəlcə düşmənin 70–80 nəfərlik bir dəstəsi hücum etdi. Az sonra «Sentrokaspi» qoşunları 300–400 nəfərlik başqa bir dəstə ilə möhkəmləndirildilər. Belə olanda Şimal qrupundan süvari alayına da əlavə kömək göndərildi və yalnız bundan sonra «Sentrokaspi» qoşunlarının hücumunun qarşısını almaq mümkün oldu(25).

Baş komandanlıq vəkalətinin Bakının dinc yolla azad edilməsi təkliflərinə uyğun olaraq avqust ayının 3-də Şərq cəbhəsi komandanı Mürsəl bəy yenidən şəhərdəki qüvvələrə məktub yolladı. Mürsəl bəyin məktubunun biri rus, digəri isə türk dilində yazılmışdı. Həmin məktublar «Sentrokaspi» ordusunun komandanına və Bakıdakı Erməni Milli Şurasının sədrinə ünvanlanmışdı. Bu məktublar 60-cı tabordan olan bir zabit vasitəsilə Biləcəri istiqamətinə göndərilmiş və orada «Sentrokaspi» hərbçilərinə təhvil verilmişdi. Məktubda deyilirdi: «Cənab Bakıdakı Erməni Milli Şurasının sədri! Şübhəsiz sizə aydındır ki, Bakı şəhəri ətrafında türk qoşunu döyüşür. Əgər siz şəhəri döyüşsüz təslim etməyə razı olsanız, milliyyətindən və məzhəbindən asılı olmayaraq hamının hüquqlarının qorunmasına zəmanət veriləcəkdir. Xüsusilə siz ermənilərə zəmanət veriləcəkdir ki, arzuladığınız halda maneəsiz Bakıdan Ermənistana gedə biləsiniz. Əgər şəhər təslim edilməzsə, o, onsuz da alınacaqdır və həmin vaxt axıdılan qanların və yetirilən ziyanların məsuliyyəti sizin üzərinizdə qalacaqdır. Şəhəri təslim etməyə razısınızsa, onda xahiş edirəm ki, dərhal nümayəndəniz vasitəsilə cavab göndərin ... Osmanlı ordusu Şərq cəbhəsi ko-

mandanı Mürsəl» (26).

Erməni Milli Şurasının və «Daşnaksutyun» partiyasının fəalları bu məktuba cavab vermədilər və Qafqaz İslam Ordusu qoşunlarına qarşı mübarizəni davam etdirməyi qərara aldılar.

Avqustun 3-də L.Biçeraxov «Sentrokaspi diktaturası»na teleqram göndərdi. Həmin teleqramda deyilirdi: «Hücuma keçirəm. Köhnə hakimiyyət yalvarışlara baxmayaraq, mənə ərzaq vermədi və bununla da məni məcbur etdi ki, müvəqqəti olaraq hərəkətsiz qalım. Tezliklə ümumi cəbhəyə yetişəcəyəm, qəhrəmanlar və müdafiəçilər əvəz oluna biləcəklər. Əminəm ki, düşmən məhv ediləcək. Dəstə, müdafiəçilərə salam göndərir və xahiş edir ki, bizim birləşmək saatımızın yaxın olmasına inanasınız. Mən ingilislərdən təcili olaraq piyada, zirehli avtomobil, pulemyot və toplarla kömək edilməsini və onların birbaşa Bakıya göndərilməsini tələb etdim. Bütün Rusiya Bakının müdafiəçilərinə baxır. Bizim qələbəmiz azad Rusiyanın dirçəldilməsinə zəmanətdir» (27).

L.Biçeraxovun Qafqaz İslam Ordusu və Azərbaycanın milli qüvvələri əleyhinə döyüşə girməsi haqqında göndərdiyi teleqram «Sentrokaspi» liderlərini, daşnak elementlərini o qədər sevindirmişdi ki, həmin teleqramın mətni rus və erməni dilində böyük vərəqələrdə çap olunub şəhərdə yayılmışdı.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, L.Biçeraxov «Sentrokaspi» diktaturasının hakimiyyəti dövründə Bakı ətrafına qayıda bilmədi. Avqust ayının ilk günlərində Azərbaycanın şimal məntəqələrində, habelə Dağıstan ərazisində genişlənən milli hərəkat L.Biçeraxovun dəstəsini burada ciddi sınaqlarla üzbəüz qoydu. L.Biçeraxov nəinki Bakıya dönə bilmədi, hətta onun dəstəsi bütünlükdə ciddi bir təhlükə ilə qarşılaşdı.

Azərbaycanın şimal məntəqələrinə gəlmiş türk zabitlərinin rəhbərliyi altında yaradılan milli könüllü dəstələr həmin ərazilərin bolşevik-daşnak və biçeraxovpərəst dəstələrdən təmizlənməsi üçün səmərəli fəaliyyətə başladılar. Türk zabiti minbaşı Səbri bəyin rəhbərliyi altında olan 1000 nəfərlik silahlı dəstə əvvəlcə Qusarı ələ keçirdi və burada qənimət kimi 4 ədəd puleymotla bərabər, bir bolşevik-gürcü bölüyü əsir götürüldü. Sonra isə üç istiqamətdən Quba üzərinə hücum təşkil edildi. Dağıstan ərazisində

genişlənən milli hərəkata yardım üçün bura gəlmiş Osmanlı ordusu 4-cü diviziyasının komandiri Şükrü bəy də Quba üzərinə təşkil edilmiş hücumun uğurla başa çatmasında iştirak etdi. Avqust ayının 2-də Quba şəhəri də milli qüvvələr tərəfindən ələ keçirildi və buradakı bolşevik-daşnak qüvvələri Xaçmaza qaça bildilər. Həmin qüvvələr avqustun 8-nə kimi Xaçmazda müqavimət göstərdilər. Avqustun 8-də L.Biçeraxov öz dəstəsi ilə Xaçmaza gəldi və buranı öz nəzarəti altına aldı. Ancaq Biçeraxov Xaçmazda olarkən anladı ki, buradakı milli qüvvələr daha böyük gücə malikdirlər və onların müqavimətini qırmaq, nəticədə bölgədə bütün nəzarəti ələ almaq elə də asan deyildir. Açıq mübarizədə məhv olmaq təhlükəsinə məruz qalmamaq üçün Biçeraxov milli qüvvələrə və türk zabitlərinə xəbər göndərdi ki, o da bolşeviklərin düşmənidir və fəaliyyətinin əsas məqsədi də Qafqazı bolşeviklərdən təmizləməkdir. Bununla belə, o, Azərbaycan ərazisində qalmağı da özü üçün təhlükəli sayırdı və buna görə də Dərbəndə doğru irəlilədi və avqustun 15-də Dərbəndə nəzarəti ələ keçirdi (28).

L.Biçeraxovun şimala doğru irəliləməkdə əsas məqsədi Şimali Qafqaz kazakları içərisindən öz dəstəsinə yeni qüvvələr cəlb etmək idi. Xaçmazdan ayrılmazdan əvvəl Biçeraxov «Sentrokaspi» rəhbərlərinə növbəti bir teleqram göndərdi və orada nə üçün Bakıya deyil, şimala doğru irəlilədiyini əsaslandırmağa çalışdı: «Bakının artıq təhlükəsiz olduğu üçün mən Bakı cəbhəsinin sağ cinahını tərk etdim. Bakının Rusiya tərkibində qalmasının Yevlaxa qədər olan bütün ərazilərin tutulduğu təqdirdə mümkün olduğunu, bunun isə böyük qüvvələr tələb etdiyini başa düşərək mən Petrovska gedirəm. Orada mənim dəstəm Terek və Kuban vilayətlərindən olacaq böyük qüvvə axını hesabına yeniləşəcək və möhkəmlənəcək. Böyük hərbi qüvvələrin mövcudluğu mənə imkan verəcək ki, yenidən Bakı cəbhəsində görünüm. Bu dəfə təkcə Bakının müdafiəsi üçün deyil, eyni zamanda Yelizavetpol üzərinə hücum üçün. Petrovskun tutulması ilə Şimali Qafqaz yolu açılacaq və oradan Bakı taxılla təchiz olunacaq. Petrovskdakı bolşeviklər Rusiyanın maraqlarına az narahatçılıq keçirirlər və mənim planlarıma mane olmağa çalışırlar. Ancaq güman edirəm ki, onların səyi əbəsdir. Ona da dərindən əminəm ki, hərbi diktaturanın rəhbərliyi

altında ordu və donanmanın şücaətli səyləri nəticəsində Bakı qətiyyətlə qorunacaqdır» (29).

Teleqramın ilk cümləsində Bakının təhlükəsiz olduğunu vurğulayarkən L.Biçeraxov ingilis qoşunlarının şəhərə daxil olmasını və onların vasitəsilə Qafqaz İslam Ordusu qüvvələrinin şəhər ətrafından uzaqlaşdırılacağını nəzərdə tuturdu. Dərbəndə daxil olduqdan sonra L.Biçeraxov Quba və Bakı qəzalarının, habelə Dağıstan vilayətinin xanlarına, bəylərinə və bütün müsəlman əhalisinə ünvanlanan bir müraciətini yaydı. Həmin müraciət göstərirdi ki, L.Biçeraxov özününü iddia etdiyi kimi təkcə bolşeviklərin yox, eyni zamanda Azərbaycanda olan Osmanlı qoşunlarının, türk döyüşçülərinin və Azərbaycanın milli qüvvələrinin də düşməni idi. Müraciəti onun adından dəstənin qərargah rəisi imzalamışdı. Bu sənəddə L.Biçeraxov Qafqaz qoşunları və donanmasının baş komandanı kimi təqdim olunurdu. Müraciətdə deyilirdi: «Dəstə rəisi Biçeraxov ona ünvanlanmış müraciətinizi aldı. Onun tapşırığı ilə sizə çatdırıram ki, Biçeraxov nə bolşevikdir, nə də menşevik. O, rus kazakı, rus vətəndaşı və döyüşçüsüdür. Bizim dövlətimiz Rusiya eyni zamanda sizin də vətəninizdir və L.Biçeraxov onu türklərdən və almanlardan qorumaqdadır. Sizin atalarınız, babalarınız və sizin özünüz indiyə kimi rus vətəndaşları idiniz və rus vətəndaşı kimi də L.Biçeraxov indi sizə müraciət edir. Əgər siz Rusiyadan dönüb türk olmusunuzsa, onda o, sizinlə danışmayacaq. Siz fikirləşirsiniz ki, türklər Bakını alacaq. Ancaq L.Biçeraxov bəyan edir və siz də yadınızda saxlayın ki, türklər Bakını ala bilməyəcək. Terek vilayətində onun qardaşı bolşeviklərə qarşı vuruşur və artıq onları məğlub etmişdir. L.F.Biçeraxov öz dəstəsi ilə müharibədən qayıdırdı və onun rastına çıxan ilk rus şəhəri Bakı idi. İndi orada bolşeviklər yoxdur. Biçeraxov onları Dərbənddən və Petrovskdan də qovacaq. Ona görə ki, rus xalqı və Rusiya bu bolşeviklərdən əziyyət çəkməkdədir. L.Biçeraxov erməniləri də müdafiə etmir. O, ancaq Rusiyanı müdafiə edir. Əgər ermənilər günahkardırsa, bunu Baş komandan kimi L.Biçeraxovun Bakı, Dərbənd və Petrovskda təyin etdiyi xüsusi məhkəmələr araşdıracaqdır. Əgər məhkəmə 10 min ermənini günahkar bilsə, onda L.Biçeraxov onların hamısını asacaqdır. Müsəlmanlardan heç kim

bu məhkəməyə kimi silaha və zora əl atmamalıdır. Əgər siz və Bakı, Quba qəzalarının, Dağıstan vilayətinin bütün müsəlmanları özünüzü Rusiya vətəndaşları sayırsınızsa, onda siz hamınız quldur dəstələri ilə mübarizə aparmalı, dəmir yolunu və teleqrafı qorumalı, məhsulun toplanmasına mane olmamalısınız. L.Biçeraxov Bakıdan bolşevikləri qovanda xalq onu bütün Quru qoşunlarının və donanmanın baş komandanı seçdi. Son vaxtlara kimi Biçeraxov müsəlmanlara hörmət edirdi, onlara öz doğma qardaşı kimi inanırdı. İndi yolboyu bütün dağlardan müsəlmanlar səbəbsiz yerə qoşunlara atəş açırlar, dəmir yolunu xarab edirlər, körpüləri yandırırlar... Fikirləşin, L.Biçeraxov sizə dost kimi baxa bilərmi? Yolların xarab edilməsi onun irəliləməsini saxlaya bilməz. Dərbənddə L.Biçeraxov müsəlmanların nümayəndələrini toplayacaq, onlarla danışacaq, bütün məsələləri izah edəcəkdir. Sizə isə məsləhət görür ki, ona və onun dəstəsinə mane olmayasınız. Yadda saxlayın ki, türklər sizin yanınıza gəlməyəcək və siz yenə ruslarla yaşamalı olacaqsınız. Əgər siz L.Biçeraxovun göstərişlərini yerinə yetirsəniz, ondan kömək alacaqsınız. Əgər xidmət etmək istəsəniz, onda o, sizə maaş da verəcək» (30).

Beləliklə, L.Biçeraxov Azərbaycanın şimal bölgələrində güclü müqavimətlə rastlaşdı və buna görə də Dağıstana çəkilmək məcburiyyətində qaldı. Nəticədə o, «Sentrokaspi diktaturası»na gözlənildiyi qədər hərbi yardım göstərə bilmədi.

Ona görə də «Sentrokaspi» rəhbərləri məcbur oldular ki, şəhər daxilində əlavə qüvvələr axtarsınlar. Bu məqsədlə avqust ayının axırında şəhərdə bütün əhalinin ümumi və məcburi səfərbərliyi elan edildi. Üzürlü səbəbi olmayan bütün əhali xidmətə, Bakının müdafiəsinə cəlb edilməli idi. Bu qərarın yerinə yetirilməsi ilə bağlı Bakı və onun rayonlarında səfərbərlik üzrə komissar R.Bekzadyanın və Komissarlığın katibi Qukasyanın şəhər əhalisinə ünvanlanmış xüsusi bir müraciəti qəbul edildi. Müraciətdə səfərbərlik işinin yarıtmaz vəziyyətdə olduğu qeyd edilir və bunun üçün əhalinin ciddi cəzalandırılacağı vurğulanırdı. Müraciətdə daha sonra bütün ev, zavod və mədən komitələrindən avqustun 3-də axşam saat 6-dək qeydiyyatda olan bütün kişi əhalisinin siyahılarının təqdim edilməsi tələb olunurdu. Əks təqdirdə cəza təd-

birlərinin tətbiqinə başlanacağı bildirilirdi (31).

Avqust ayının 4-də nəhayət, polkovnik Stoksun rəhbərliyi altında İrandakı ingilis qoşunlarının bir dəstəsi Bakıya gəldi(32). Alınan hərbi yardım «Sentrokaspi diktaturası»nın döyüş imkannlarını artırmaqla bərabər, onun liderlərində ümidverici bir əhval-ruhiyyə də yaratdı. Heç şübhəsiz ki, bu əhval-ruhiyyə Qafqaz İslam Ordusuna qarşı cəbhə tutmuş «Sentrokaspi» ordusunun fəaliyyətində bir canlanma yaratdı. Ona görə də avqustun 4-də davam etdirilən döyüşlər Qafqaz İslam Ordusu hissələri və bölmələri üçün yeni bir uğur gətirmədi. Həmin gün üçün müəyyənləşdirilmiş döyüş vəzifələrinə görə Şimal qrupu əvvəlki mövqelərindən hücumu davam etdirməli idi. Sağ cinahdakı bölmələrə daha da fəal olmaq tapşırılmışdı. Göründüyü kimi, Şərq cəbhəsi komandanlığı hələ də Bakıya qərbdən hücum etmək taktikasından əl çəkməmişdi. Bu taktika isə Şimal qrupuna arzu edilən nəticəni gətirmədi. Avqust ayının 4-də də Şimal qrupunun bölmələri irəliyə doğru çox hərəkət edə bilmədilər. Həmin gün daha çox tərəflər növbəti döyüş üçün öz qüvvələrini yenidən qruplaşdırmaqla məşğul idilər. İngilis bölmələrinin gəlməsi ilə «Sentrokaspi» qoşunlarının Biləcəri və Binəqədi istiqamətindəki mövqeləri möhkəmləndirildi, bura əlavə hərbi qüvvələr göndərildi. Cənub qrupunun Puta stansiyasına çatması ilə Bakı ətrafında olan İslam Ordusu qüvvələri də yenidən qruplaşdırıldı. Cənub qrupunun piyada və topçu bölmələri Şimal qrupunun sərəncamına verildi. Cənub qrupundakı süvarilər də Şimal qrupunun son cinahında mövqe tutan mürəttəb süvari alayına qatıldı (33).

Bakı üzərinə hücumun Şimal qrupu tərəfindən icra edilməsi nəzərdə tutulmuşdu. Cənub qrupuna isə daha çox yardımçı rol ayrıldı. Bu qrupun yetişməsi ilə Bakı ətrafındakı qoşunlar əlavə qüvvə aldılar və ona görə də Şərq cəbhəsi komandanlığı vaxt itirmədən Bakı üzərinə qətiyyətli hücuma keçməyi qərara aldı. Bu hücum avqust ayının 5-nə təyin edildi. Şərq cəbhəsi komandanı Mürsəl bəyin bu məqsədlə imzaladığı döyüş əmri aşağıdakı məzmunda idi:

«1. Düşmən Volçi varota dağını qüvvətli bir surətdə və əqsami-sairəni nisbətən xəfif bir halda işğal etmişdir. Volçi varota

üzərində fazla miqdarda makinalı tüfəngi və dörd topu, Sallaxana civarında 7 topu və Bayılın şərqində də üç hərbi gəmisi vardır.

2. Yarın (5.8.1918–M.S.) Şimal qrupu təkmili piyada və süvarilərilə saat dörddə basqın tərzində təərrüzə başlayacaq, düşmən xətti-müdafiəsi yarıldığı təqdirdə heç bir şeyə baxmadan təqib edəcək və sokak (küçə–red.) müharibəsini nəzəri-diqqətdə tutacaqdır.

a) Bayıl burnuna qonacaq səhra topu ilə limandan gəmilərin qaçmasına meydan verməyəcəkdir.

b) Zehni bəy müfrəzəsinin, Bakı şimal-şərqindəki bütün müsəlman əhalini toplayaraq Bakı üzərinə yürümək üçün göndərilmiş olan zabitlərin bir-birilə irtibat və müxabirədə bulunmalarını və hərəkətlərini Şimal qrupu komandanı tənzim edəcəkdir.

c) Sumqayıt istiqamətinin boş buraxılmaması və uzaqlara qədər kəşfi lazımdır.

3. Cənub qrupu tələb vüquunda Şimal qrupuna yardım edəcək, zirehli terən (qatar–red.) yarınkı müharibədə iştirak edəcəkdir.

Cənub qrupu komandanı Puta stansiyasından Ələtə qədər sahil qismini və dəmir yolunu dənizə qarşı mühafizə edəcək və bu xəttin işləməsini tənzim edəcəkdir.

4. Şimal qrupu Putaya gələn rus cəbbəxanasından 30 sandığı həmən Zehni bəy müfrəzəsinə göndərəcəkdir.

5. Gəncə–Kürdəmir–Puta dəmir yolu ilə ərzaq və cəbbəxana cəlb olunacaq, yaralılar və xəstələr səhiyyə terəni ilə nəql olunacaqdır.

6. Səhiyyə bölüyü Qobuda yaralıları və xəstələri qəbul edəcək və Cənub qrupuna verilmiş olan səhiyyə qədəməsi Zehni bəy müfrəzəsinə iltihaq edəcəkdir.

7. Şərq cəbhəsi qərargahı 45–8–1918 gecəsini Qobuda keçirəcək, yarın ələssabah Qobunun şərq sırtlarındakı müharibəni idarə məhəllində bulunacaqdır(34).

5 avqust döyüşündə iştirak etməsi nəzərdə tutulan qüvvələr və onların döyüşqabağı mövqeləri aşağıdakı şəkildə idi:

## Şimal qrupu komandanı Osman bəy

13-cü Qafqaz alayı–alay komandiri qayməqam Əhməd Rza bəy
4-cü tabor
46-cı tabor birinci Qurd
30-cu tabor xətdə qapısı
38-ci alayın 2-ci taboru–alay ehtiyatı dağında
13-cü alay məntəqəsindəki topçu bölmələr ( sağ cinah qrupu)
Qüdrətli top – 4 ədəd
Şnayder topu – 6 ədəd
Rus səhra topu – 4 ədəd
Rus dağ topu – 3 ədəd
10-cu Qafqaz alayı komandiri 38-ci alay komandiri qayməqam Səlim bəy
29-cu tabor birinci 13-cü alayın sağ
60-cı tabor xətdə cinahı ilə Xır-
38-ci alayın 1-ci taboru–alay ehtiyatı dalan arasında
10-cu alay məntəqəsində topçu bölmələri ( sol cinah qrupu)
6 ədəd qüdrətli top–cəbhə xəttində
2 ədəd qüdrətli top–Xırdalan ətrafında
Şimal qrupu ehtiyatı
25-ci tabor
26-cı tabor
28-ci tabor
Süvari minbaşı Zehni bəy dəstəsi
Türk əsirlərindən ibarət piyada bölüyü
Mürəttəb süvari alayı (19-cu və 42-ci bölüklərdən ibarət idi. 19-cu bölük Şimal qrupunun sağ cinahında idi)
Azərbaycan milli süvari bölükləri( bir alay halında)
Ləzgi süvari alayı (iki bölük olub biri Bakının şimalındakı silahlı müsəlman əhalini toplamaq üzrə Maştağa ətrafına göndərilmişdi)
9-cu Qafqaz alayının pulemyot bölüyü
Sumqayıt dəstəsi( müfrəzəsi)
38-ci alayın 1-ci taborundan bir piyada bölüyü
Milli könüllü süvari taqımı

Bir ağır pulemyot taqımı

**Cənub qruppu komandanı miralay Həbib bəy Səlimov**
Zirehli qatar – Putada
Diviziya istehkam bölüyü – Putada

| | |
|---|---|
| 28-ci tabordan bir bölük piyada<br>Bir taqım süvari<br>2 ədəd rus səhra topu | Ələtdə dəniz<br>sahilinin müşahidə<br>və müdafiəsində |

Bunlardan başqa 38-ci alayın 3-cü taboru Şamaxı yolu ilə Bakıya doğru irəliləməkdə idi. 27-ci taborun iki bölüyü isə qatarla Gəncədən Bakıya doğru yola salınmışdı (35).

Beləliklə, yuxarıdakı döyüş əmri və qüvvələr tərtibatı ümumiləşdirildikdə məlum olurdu ki, 5 avqust döyüşü ərəfəsində 4-cü, 10-cu və 36-cı tabordan ibarət 13-cü alay Qurd qapısı dağının 763 rəqəmli yüksəkliyi ətrafındadır. 38-ci piyada alayının 2-ci taboru 13-cü alayın ehtiyatına verilmişdi. Bu alay döyüş zamanı 17 ədəd müxtəlif toplarla himayə olunmalı idi. Döyüşün əsas ağırlığı bu alayın üzərinə düşdüyündən Şimal qrupunun ehtiyatını təşkil edən 25-ci, 26-cı və 28-ci taborlar onun sağ qanadının arxasında yerləşdirilmişdi. 19-cu süvari bölüyü də 13-cü alayın sağ qanadında mövqe tutmuşdu.

10-cu Qafqaz piyada alayı 29-cu və 60-cı taborları ilə 13-cü Qafqaz alayının sol cinahı ilə Xırdalan arasındakı cəbhə xəttində mövqe tutmuşdu. Alay döyüş vaxtı 8 ədəd topla himayə olunmalı idi. Onun ehtiyatına 38-ci piyada alayının 1-ci taboru verilmişdi.

Tərkibində 42-ci bölük qalmış mürəttəb süvari alayı, bir alay şəklində qruplaşdırılmış olan milli süvari qüvvələr, Ləzgi süvari alayının bir bölüyü, türk əsirlərindən ibarət bir piyada bölüyü ilə 9-cu Qafqaz alayının pulemyot bölüyü süvari minbaşı Zehni bəyin rəhbərliyi altına verilmiş və bu qüvvələr Şimal qrupunun sol cinahında, Xırdalan kəndinin şimal hissəsində, Masazır kəndi yaxınlığında yerləşdirilmişdi.

Sumqayıt stansiyasının şimalında isə 38-ci piyada alayının 1-ci taborundan bir bölük, bir milli süvari taqımı və bir pulemyot taqımı mövqe tutmuşdu. H.Səlimovun komandası altında olan Cənub

qrupu isə Ələtlə Bakı arasında mövqe tutaraq dənizdən baş verə biləcək təhlükənin qarşısını almalı idi (36).

Qafqaz İslam Ordusu komandanı Nuru paşa da 5 avqust döyüşünə böyük əhəmiyyət verirdi. O güman edirdi ki, ingilis qoşunlarının ilk dəstəsi Bakıya gətirilməmişdir və buna görə şəhərin müdafiə xəttində çox ciddi keyfiyyət dəyişiklikləri baş verməmişdir. Bu isə Bakı üzərinə uğurlu hücum üçün zəmin yarada bilərdi (37).

Səhər tezdən saat 4.25-də başlayan döyüşlərdə əvvəlcə Qafqaz İslam Ordusu hissələri hərbi təşəbbüsü ələ aldılar. Onların üstünlüyü bütün cəbhə xətti boyu hiss edilməkdə idi. İlk zərbələrdən sonra «Sentrokaspi» qoşunları tədricən geri çəkilməyə başladı. Xüsusən 13-cü alay cəbhəsində düşmən qüvvələri daha çox geri çəkilmişdi. Bayıl ətrafındakı yüksəkliklər bu alayın əlinə keçdi. Buradan şəhəri və Xəzər dənizindəki gəmiləri artıq aydınca müşahidə etmək olurdu. Cəbhənin mərkəzində, Qurd qapısı keçidində də hücum uğurla başladı. Bu istiqamətdə «Sentrokaspi» qoşunları Sallaxana və qəbiristanlığa tərəf geri çəkilməkdə idi. Ələ keçirilən telefon danışıqlarından anlaşılırdı ki, düşmən cəbhəsində güclü təlaş vardır. «Sentrokaspi» qoşunlarının komandirləri vəziyyətin xeyli mürəkkəb olduğundan şikayətlənirdilər. Döyüşlərin belə uğurla başladığı üçün idi ki, Şərq cəbhəsi komandanı Bakının güclü bir dağıntıya məruz qalmadan ələ keçiriləcəyini güman edirdi (38).

Tezliklə «Sentrokaspi» qoşunlarının Qurd qapısı dağı boyunca uzanan birinci müdafiə xətti ələ keçirildi. Qarşıda «Sentrokaspi» qoşunlarının ikinci müdafiə xətti yerləşirdi. Ancaq vaxt keçdikcə düşmən qüvvələri təlaş vəziyyətindən çıxırdı. Bu döyüşdə Bakının itirilə biləcəyindən qorxan «Sentrokaspi» liderləri, onun ordusunun rəhbərləri bütün imkanlarını Şimal qrupunun hücumunun qarşısını almağa yönəltdi. Buna görə getdikcə onların müqaviməti də artırdı. Bu müqaviməti qırmaq və döyüşü uğurla sona çatdırmaq üçün Şimal qrupunun yetərincə top mərmiləri yox idi. Cəbbəxana tükənməkdə idi. Ona görə də topçuların piyadaları himayə etməsi zəifləməkdə idi. Belə bir məqamda Bakı meydanlarında qərar tutmuş bolşevik qüvvələri də Qafqaz İslam Ordusuna qarşı döyüşə girdilər. Çünki Qafqaz İslam Ordusu qoşunlarının Bakı

üzərinə başlanan uğurlu hücumu bolşevikləri və keçmiş komissarları da ciddi təşvişə salmışdı. Şəhərin alınacağı təqdirdə haqq divanı qarşısında dayanmalı olacaqlarından qorxan keçmiş komissarlar sərəncamlarında olan qüvvələrdən istifadə etmək qərarına gəldilər. S.Şaumyanın təklifi ilə Petrov gəmilərə yüklənmiş bir batareyanı şəhər meydanlarından birində döyüş vəziyyətinə gətirdi. Topların atəşini nizamlamaq üçün batareya komandiri avtomobilə minib Bayıla qədər simli rabitə xətti çəkdi. Onun işarəsi ilə atılan mərmilər Qafqaz İslam Ordusu bölmələrinin ən sıx yerlərinə düşdü (39). Nəticədə həm 10-cu Qafqaz alayının, həm də 13-cü Qafqaz alayının bölmələrinə ağır itkilər yetirildi. 10-cu alayın beş ədəd pulemyotu tamamilə, digərləri isə qismən sıradan çıxarıldı. 13-cü alayın bir sıra pulemyotları da top atəşlərindən xarab oldu. Bölmələrin qruplaşdırılması və yenidən döyüşə atılması ilə Sentrokaspi qoşunları tədricən Şimal qrupunun sol cinahında qüvvə üstünlüyü yaratmağa nail oldular və saat 11 radələrində 29-cu tabor da 13-cü alayın sol cinahında döyüşə qoşuldu. Bundan bir qədər əvvəl 29-cu və 60-cı taborların üzərinə olmuş hücum 10-cu alayın ehtiyatında saxlanılan 38-ci alay taborunun döyüşə qoşulması ilə dəf edilmişdi. Ancaq növbəti hücum «Sentrokaspi» qoşunlarının toplarının və pulemyotlarının daha təsirli atəşləri ilə müşayiət olunduğu üçün onun qaşısını almaq mümkün olmadı. Şimal qrupunun ehtiyatında saxlanılan qüvvələrin naməlum səbəblərə görə döyüşə salınmaması 10-cu alayın bütün müqavimətini qırdı və əvvəlcə bu alay, onun ardınca isə 13-cü alay bir neçə gün ərzində Qurd qapısı yüksəkliklərində əldə etmiş olduqları bütün mövqeləri tərk etdilər(40).

5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdünün fikrincə, Şimal qrupunun bölmələri, xüsusən 10-cu və 13-cü alaylar böyük itkilərə məruz qaldılar. «Sentrokaspi» qoşunları Qurd qapısı yüksəklikləri boyunca yerləşən müdafiə mövqelərini nəinki Şimal qrupu bölmələrinin əlindən aldılar, hətta əgər təqib davam etdirilsəydi, Qafqaz İslam Ordusu qüvvələri Heybət–Biləcəri dəmiryolunun qərbindəki yüksəkliklər üzərindən də qovula bilərdi (41).

Əslində, Qafqaz İslam Ordusu hissələrinə elə bir zərbə vuruldu ki, onlar dəmir yolu xəttinin qərbindəki yüksəkliklərdən də qərbə

tərəf çəkilmək niyyətində idilər. Ancaq Şərq cəbhəsi komandanlığının zabitlərinin səyləri ilə hissələrin bu hərəkəti dayandırıldı və onlar dəmir yolunun qərbindəki yüksəkliklərdə mövqe tutdular.

Saat 17.00-da Şərq cəbhəsi komandanı Mürsəl bəy döyüşlərin gedişi barədə İslam Ordusu komandanı Nuru paşaya belə bir raport göndərdi:

«1. Təərrüzümüz kəmali-müvəffəqiyyətlə davam edirdi. Əsasən, Cənub qrupunun dün vasil olan səhra və rus dağ toplarında və digərlərində mövcud cəbbəxananın tükənməsi bizzərur topçu atəşinin kəsilməsi dolayısı ilə sərbəst qalan düşmən bidayətdə 10-cu alay cəbhəsinə və cinahına və bir az sonra da 13-cü alay cəbhəsində pək faiq qüvvələrlə müqabil təərrüzə keçmiş və qitəat topçu atəşinin himayəsinə məruz olmadan çəkilmək məcburiyyətində qalmışdır.

2. İndiki halda sərf edilən qeyrətlə Heybət–Biləcəri dəmir yolunun qərbindəki yüksəkliklərdə yerləşdirilmişdir.

3. Qüdrətli və Şnayder topları cəbbəxanasızlıq üzündən geriyə alınmışdır...» (42).

«Sentrokaspi» qüvvələri avqustun 5-də axşama yaxın, saat 17.00-da Biləcəri–Xırdalan arasında da hücumu genişləndirməyə cəhd göstərdi. Burada Masazır ətrafında yerləşmiş olan Zehni bəy dəstəsi ilə «Sentrokaspi» bölmələri arasında döyüş axşama kimi davam etsə də, ciddi bir mövqe dəyişiklikləri baş vermədi. Bu məlumatı Ordu komandanlığına çatdıran Mürsəl bəy onu da əlavə edirdi ki, bu gün Bakıya əlavə ingilis qoşunları gətirilmişdir. «Sentrokaspi» qüvvələri Biləcəri ətrafında zirehli qatardan, Bayıl tərəfdə isə dənizdə dayanan gəmilərin toplarının atəşlərindən istifadə etməklə növbəti hücuma hazırlaşırlar. Mürsəl bəyin fikrincə, əgər bu hücum səhərisi gün baş versəydi, onda Bakı ətrafındakı Qafqaz İslam Ordusu qüvvələrinin vəziyyəti çox mürəkkəbləşə bilərdi. Ona görə də Mürsəl bəy yeni qüvvələrin Bakı ətrafına göndərilməsi xahişi ilə Nuru paşaya müraciət edirdi (43).

Gün ərzində baş verən döyüşlərin gedişində 9 zabit şəhid olmuş, 19-u yaralanmış, sıravi heyətdən 139 nəfər şəhid olmuş, 444-ü yaralanmış, heyvanlardan 43-ü ölmüş, 32-si yaralanmış,

19-u yoxa çıxmış, 485 mauzer tüfəngi, 62 rus tüfəngi, 3 ağır pulemyot, 4 revolver və s. sıradan çıxmışdı(44). Başlıcası isə Qafqaz İslam Ordusu qüvvələrinə ağır mənəvi zərbə vurulmuşdu. Qoşun hissələrində və bölmələrində yaranmış olan ağır psixoloji vəziyyəti və bütünlükdə 5-ci Qafqaz diviziyasının durumunu avqustun 6-da cəbhə xəttinə gəlmiş İslam Ordusu ərkani-hərb rəisi Nazim bəy belə təsvir edirdi: «İki gün susuz və yiyəcəksiz, dörd saat da yaya yüyürərək bu gün öynədən sonra Qobuya, yeni tutulacaq mövqeyə gəldim. Əsgər yorğun, zayiat fazla, mənəviyyat qırıqdır. Düşmən təqviyə almış, hərəkətində intizam var və miqdarı 1000-ə yaxındır. İaşə və sudan zəhmət çəkmirsə də cəbbəxanasızlıq, ər və subay azlığı acı sonuclar doğuracaq bir haldadır. 15-ci piyada tüməninin kamilən və top başına 850 mərmi ilə Batum–Tiflis yolu ilə gətirilməsini gərəkli görürəm. 5-ci Qafqaz tüməni mövcudunun yarısını zayiat və xəstəlik nədəniylə (səbəbiylə–red.) zaye etmişdir» (45).

Bakı üzərinə hücumun uğurla başa çatdırılması üçün indi bura təkcə yeni qüvvələr gətirmək deyil, həm də mövcud olan qüvvələrin mənəvi-psixoloji durumunu bərpa etmək, onlara qələbə inamı qaytarmaq lazım idi. 5 avqust hücumundan bir neçə gün sonra Qafqaz İslam Ordusu döyüşçüləri arasında yayılmış olan bir müraciətnamənin məzmunu da elə bu məqsədə xidmət edirdi. Türk əsgərinə ünvanlanmış olan həmin müraciətnamənin mətni eynilə aşağıdakı kimi idi:

«Bakı deyilən milyon və milyard şəhərinin qapıları önündə günlərdən bəri zəfər quşunun qanadını yaxalamaq istəyən Türk ordusuna!

Bu gözəl könül qapısı şəhərini əgər siz zəbt etməsəniz, Türkün, və ordusunun şərəfini indi içində bulunduğunuz xəndəklərə göməcəksiniz. Əgər siz bu sərvət və altun şəhərini zəbt etməsəniz, sevgili böyük vətənimizə ən qiymətli bir hədiyyə etmək fürsətini qaçırmış olacaqsınız. Əgər siz yaşıl dənizin bu məşhur şəhərini zəbt etməsəniz, Qafqaz türkləri və Türküstan müsəlmanlarının qəlbinə saplanmış olacaq zəhri-xəncərin üzərinə «Eyvah ki, Türk bizə imdada gəlmədi» cümləsi yazılmış olacaqdır. Qafqaz fəryad edəcək, Türküstan ağlayacaqdır. Əgər siz bu böyük is-

lam şəhərini zəbt etməsəniz, Allah deyənlərin varlığını sənaətli şükürlərlə ortadan qaldıran və qaldırmaq istəyən düşmənlər öndən və arxadan sizi saracaq və qıcırdayan dişlər yeni zülmlər üçün bilenmiş olacaqdır. Əgər siz dəmir oluklardan dünyaya dövlət axıdan və sülhün tərəzisində çox ağır basacaq olan bu hərb şəhərini zəbt etməsəniz, tarixin hüzurunda məhcubanə yerə baxacaqsınız. Və bu gün dost-düşmən məmləkətlərində ən kiçik bir evdə ən işsiz adamların belə dillərində gəzən Bakı şəhəri hadisə və hailəsi, türklərin bozqunluğuyla bitmiş olacaqdır. Düşmənlər əzim və pək əzim bir zəfərin anaxtarını (açarını–red.) əllərinə keçirmiş olduqlarını bəlkə də az haqlı olaraq elan edəcəklərdir.

Dostlar belə bir zayedən hasil olacaq hayıflarını gizləməyəcəklər və bizi şəmləriylə qəhr edəcəklər.

Ey türk əsgəri! Əgər sən bu şəhəri almasan, Bakıda sənin üçün hazırlanan süfrələr müsafirsiz qalacaq, sənin üçün tikilən əlbəsəni düşmən geyəcəkdir. Sənin üçün yapılan adaklar (vədlər–red.) yerinə gətirilməyəcək, sənin ayağına kəsiləcək qurbanlar düşmənə qalacaqdır. Sənin üçün hazırlanan altun kəsələrini düşmən yağma edəcəkdir. Əgər sən bu şəhəri almasan, islam gəlinlərinin duvaqlarını kafirlər yırtacaq, yenə mübarək islam qanları qırmızı şərablar kimi vəhşi işgəncələr uğrunda axacaqdır. Sənin zəfərin üçün duaya qalxan əlləri zalımlar kəsəcəkdir.

Əgər sən bu sarı işıqla altun şəhəri almasan, qadınlar saçlarını yolacaq, ağıllarını qeyb edəcəklər. İndiyə qədər axan qanlar boş yerə axmış olacaq. Sən də bu tozlu-torpaqlı yerlər içində pərişan və səfil qalacaqsan. Türkün gözlərini oyub ipliklərə düzən düşmənlərə bayramlar hazırlayacaqsan.

Fəqət sən, ey türk əsgəri, ingilislərin gücünü kəndi zorunla Çanaqqalada qırdın. Ən böyük hərb gəmilərinin böyük güllələrinə aylarca doğuş gərdin. Kütülamaredə 14 minini əsir aldın. Qarşıdakı düşmənin çoxunu–erməniləri bəlkə, Azərbaycandan, Qarsdan bəri önünə qataraq ta bu şəhərə dikdin. Türk adını böyüdən Çanaqqala, Kütülamare, Qaliçiya, Rumıniyadan sonra Qafqaza gələcək və Bakı şəhəri də igidlik tacının bir almazı olacaqdır. Al Bakını! Vətəninə bir altun ərmağan apar» (46).

Bəzi türk tədqiqatçılarının fikrincə, bu müraciətnamə Bakıda

yaşayan azərbaycanlılar tərəfindən yazılmış və bütün türk əsgərlərinə ünvanlanmışdı (47). Ancaq bu müraciətnamə elə Osmanlı zabitlərinin özləri tərəfindən də tərtib edilə bilərdi. Müraciətnamənin arxivdə saxlanılan nüsxəsi kimsə tərəfindən imzalanmamışdır. Onun bəzi məqamları və dili bu müraciətnamənin Osmanlı zabitləri tərəfindən tərtib edildiyini güman etməyə əsas verir. Ancaq bu heç də o demək deyildi ki, Bakıda yaşayan azərbaycanlılar türk qoşunlarının tezliklə şəhərə girməsini istəmirdilər. Azərbaycan xalqı Bakının azad edilməsini və bu şəhərin müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrilməsini səbirsizliklə gözləyirdilər. Bu məsələ Azərbaycanın taleyüklü məsələsi idi və Azərbaycan xalqı bu məsələyə heç də biganə deyildi. 5 avqust döyüşündən iki gün sonra İstambulda olan M.Ə.Rəsulzadədən Xarici İşlər naziri M.H.Hacınskinin adına daxil olmuş məktubda Bakının nəyin bahasına olursa-olsun azad edilməsinin zəruriliyi belə təsdiqlənirdi: «Hansı yolla, nəyin bahasına olursa olsun Bakı tezliklə tutulmalıdır. Əks təqdirdə baş vermiş fakt qarşısında çətin vəziyyətdə qalarıq». M.H.Hacınskiyə ünvanlanmış başqa bir məktubunda isə M.Ə.Rəsulzadə belə yazırdı: «Əgər Bakı alınmasa, hər şey bitdi. Əlvida, Azərbaycan» (48).

### *2. Bakı ətrafında hərbi şərait və şəhər üzərinə qəti hücuma hazırlığın davam etdirilməsi*

5 avqust döyüşündən sonra Bakı ətrafnda bir müddət nisbi sakitlik oldu. «Sentrokaspi» və ingilis qoşunları həmin gün qazanmış olduqları hərbi uğuru sonradan genişləndirməyə cəhd göstərdilərsə də, Qafqaz İslam Ordusu hissələri onlara lazımi cavabı verir və eyni zamanda öz müdafiə mövqelərini möhkəmləndirməyə çalışırdılar. Yeni hücuma təşəbbüs göstərilmədən əsas diqqət qüvvələrin istirahətinə və bərpasına, cəbhə xəttinə əlavə hissə və bölmələrin gətirilməsinə yetirilirdi. 5 avqust döyüşündən sonra istər cəbhə komandanlığı, istərsə də İslam Ordusu komandanlığı belə bir qənaətdə idi ki, əlavə qüvvələr gətirilmədən Bakının azad edilməsi heç də asan olmayacaqdır. Ordu ərkani-hərb rəisi Nazim bəyin Şərq cəbhəsinin durumu barədə yuxarıda toxunulan

6 avqust tarixli teleqramında Bakı ətrafına 15-ci diviziyanın bütünlüklə gətirilməsini məqsədəuyğun bilirdi.

İslam Ordusu komandanı Nuru paşa isə Bakı üzərinə hücumun uğurla başa çatdırılması üçün əlavə 5000 nəfərlik piyada qüvvələrinin, 2 səhra batareyasının, 4 ağır batareyanın, bir təyyarə dəstəsinin, bir telefon bölüyünün, 28 min ədəd top mərmisinin, 1000 sandıq mauzer gülləsinin, rus piyada tüfəngi üçün 500 sandıq güllənin, arxa xidmətinin təşkili üçün 20 yük avtomobilinin göndərilməsini məqsədəuyğun bilirdi (49).

Nuru paşa bu təklifi 3-cü Ordu komandanlığı qarşısında qalldırırdı. Bu təklif daxilində xatırlanan 4 ağır batareyanın Ələtlə Puta stansiyaları arasında, dənizin sahili boyu yerləşdirilməsi nəzərdə tutulmuşdu. Çünki «Sentrokaspi» gəmiləri dənizdən bu sahəni çox ciddi nəzarət altında saxlayırdılar. Bu da həmin sahədə daşınmaların həyata keçirilməsini çox çətinləşdirirdi.

Qafqaz İslam Ordusunun möhkəmləndirilməsi üçün Şərq ordular qrupu komandanlığı tərəfindən bir sıra qərarlar qəbul edildi. Əvvəlcə 9-cu Ordudan 107-ci Qafqaz alayının Azərbaycana göndərilməsi əmr olundu. Bu alayın şəxsi heyətinin sayı 1200 nəfər miqdarında idi. Alayda 12 ədəd pulemyot var idi. Avqust ayının 9-da bu alay Qarakilsədən Bakıya doğru hərəkətə başladı(50).

Ancaq Şərq ordular qrupu komandanı Xəlil paşa Bakının azad edilməsi üçün bu alayın kifayət etməyəcəyini yaxşı anlayırdı. Ona görə də Xəlil paşa 36-cı diviziyanın bir alayının və diviziya topçu bölmələrinin Nuru paşanın sərəncamına göndərilməsi barədə 9-cu Ordu komandanına əmr etdi. Bundan başqa, Xəlil paşa Baş komandanlıq vəkaləti qarşısında Bakı cəbhəsinə yeni bir diviziyanın göndərilməsi barədə təklif qaldırdı (51).

Nuru paşa Xəzər dənizində «Sentrokaspi» gəmilərinin hakimliyinə son qoymaq barədə də lazımi işlərin görülməsinə çalışırdı. Türkiyədən su yolu ilə bura gəmilər gətirmək imkanı olmadığı üçün Nuru paşa təklif edirdi ki, bir neçə kiçik gəmi parça halında Azərbaycana gətirilsin və Kür çayı mənsəbində mövcud olan gəmi təmiri zavodlarında yığılsın. Sonra da bu gəmilər Xəzər dənizində məqsədi üzrə istifadə edilsin(52). Ancaq Nuru paşanın bu təklifi həyata keçməmiş qaldı.

Bakı cəbhəsinin yeni qüvvələrlə möhkəmləndirilməsi üçün eyni zamanda daxili imkanlardan da istifadə edilirdi. Bu məqsədlə Ağdaş alayının bölmələri Bakı ətrafına gətirildi və Şərq cəbhəsi komandanının sərəncamına verildi. Şərq cəhbəsi komandanı Qazax və Gəncə ətrafında toplanmış olan milli qüvvələrin də Bakı ətrafına göndərilməsini xahiş etdi. Mürsəl bəyin fikrincə, həmin qüvvələrin Bakı cəbhəsinə gətirilməsi buradakı qüvvələrin əhval-ruhiyyəsinin qalxmasına müsbət təsir edərdi. Avqust ayının 6-da İslam Ordusu komandanlığından bildirilirdi ki, bir hücum bölüyü, dörd tüfəng bölüyü və bir rus pulemyot bölüyü Gəncədən Ələtə yola salınmışdır. Elə həmin günlərdə Nuru paşa bildirirdi ki, 7 zabit və 234 nəfərdən ibarət olan və milli qüvvələrdən təşkil edilən bir dəstə Gəncədən qatarla Bakıya göndərilmişdir(53).

Bunlardan başqa, Bakı ətrafındakı kəndlərdən könüllülərin toplanması üçün də iş aparılırdı. Bu məqsədlə Ləzgi süvari alayının bir bölüyünə və bir neçə türk zabitinə müvafiq tapşırıqlar verilərək Maştağa kəndinə göndərilmişdilər. Doğrudur, ilk günlər bu sahədə nəzərəçarpacaq nəticələr əldə edilmədi(54). Ancaq sonradan məlumdur ki, Bakı ətrafında toplanmış olan könüllülərdən xüsusi bir dəstə də təşkil edilmişdi. Bütünlükdə, 5 avqust döyüşündən sonra Bakının ətraf kəndlərinin Sentrokaspi-ingilis qoşunlarına qarşı fəallığı xeyli gücləndi. «Sentrokaspi» mənbələrinin verdiyi məlumata görə, avqust ayının 10-da Bakının ətraf kəndlərinin azərbaycanlı əhalisi kütləvi şəkildə «Sentrokaspi» hakimiyyətinə qarşı çıxışlara başladılar(55).

Yuxarıda qeyd edildiyi kimi, L.Biçeraxovun qüvvələri Azərbaycan–Dağıstan sərhədində döyüşlərə qatılsa da, bu dəstənin bir taboru 5 avqust döyüşündə iştirak edirdi. Həmin tabor, əsasən, Bakının və Muğanın rus əhalisindən təşkil edilmişdi. Təxminən ayyarım ərzində Bakı ətrafında Qafqaz İslam Ordusu qüvvələrinə qarşı vuruşan bu tabor qısa müddət ərzində alaya, sonra da briqadaya çevrildi. Bakı Qafqaz İslam Ordusu tərəfinndən azad edildikdən sonra bu briqada Petrovska çəkildi və L.Biçeraxovun əsas qüvvələrinə birləşdi(56).

L.Biçeraxovun əsas qüvvələri isə Bakıya deyil, şimala doğru irəlilədiyindən və Bakı cəbhəsindən uzaq düşdüyündən «Sen-

trokaspi» qoşunlarına yeni baş komandan təyin edildi. 5 avqust döyüşündən sonra «Sentrokaspi» qoşunları üzrə verilən ilk əmrlərdə baş komandan kimi polkovnik Avetisov göstərilir və əmrlər də onun tərəfindən imzalanırdı(57). İngilis generalı Denstervil isə «Sentrokaspi» qoşunlarının baş komandanı kimi general-mayor Dokuçayevin adını çəkir. Onun xatirələrində Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən alınan günə kimi Dokuçayev «Sentrokaspi» qoşunlarının baş komandanı, polkovnik Avetisov bu qoşunların qərargah rəisi, genaral-mayor Baqratuni isə «Sentrokaspi» hökumətinin hərbi naziri kimi təqdim olunur(58). L.Biçeraxovdan sonra qoşunlar üzrə əmrləri baş komandan kimi Avetisovun imzalamasına gəlincə isə ola bilsin ki, yeni baş komandan təyin edilənə qədər o, bu vəzifəni icra etmişdi. Avetisovun baş komandan kimi avqust ayının 8-də imzaladığı 21 saylı əmr 5 avqust döyüşlərinin nəticələrinə həsr edilmişdi. Avetisov «Sentrokaspi» qoşunlarının fəaliyyətini ağızdolusu tərifləyir və onların türk ordusuna üstün gəlməsindən xüsusi razılığını ifadə edirdi. Başçılıq etdiyi ordunun nəticələrini qabartmaq üçün Avetisov Qafqaz İslam Ordusu qoşunlarının itkilərini şişirtməkdən də çəkinmirdi. Onun fikrincə, avqust ayının 5-də Qafqaz İslam Ordusu qoşunlarının hücumunu dəf edib əks-hücuma keçən «Sentrokaspi» qoşunları 12 pulemyot, çoxlu hərbi əşyalar ələ keçirmişdi. Guya ki, bu döyüşlərdə 3 türk taboru məhv edilmiş, 500 döyüşçü həyatı ilə vidalaşmalı olmuşdu. Avetisov hərbi uğurun qazanılması üçün bütün qoşunlara, Petrovun dəstəsinə, Biçeraxov dəstəsinin bölmələrinə, Xəzər donanmasına, təyyarəçilər məktəbinə, Kuban təyyarə dəstəsinə, cəbhənin təchizat hissəsinə, habelə döyüşün uğurla başa çatmasında, yeni dəstələrin yaradılmasında iştirak edən bütün partiyaların fəallarına minnətdarlığını bildirirdi (59).

Avetisovun fikrincə, 5 avqust döyüşündə uğur qazanılmasının əsas səbəbi guya ki, bütün şəhərin ayağa qalxması və döyüşə qatılması olmuşdu. O, bütün şəhər dedikdə heç şübhəsiz ki, şəhərin erməni və rus əhalisini nəzərdə tuturdu. Şəhərdə yaşayan azərbaycanlılar sözsüz ki, əsasını ermənilər təşkil edən «Sentrokaspi» qoşunları ilə çiyin-çiyinə azərbaycanlılara və türklərə silah qaldırmazdılar. General Denstervil də 5 avqust döyüşünün uğurla

başa çatdırılmasında Bakı əhalisinin səfərbər olunduğunu yazırdı. Ancaq o, şəhər əhalisinin ingilis qoşunlarının Bakıya gəlməsindən sonra ruhlandığını xüsusilə qeyd edirdi. Onun yazdığına görə, avqustun 4-də polkovnik Stoksun rəhbərliyi altında Hent alayından kiçik bir dəstə Bakıya daxil olanda şəhərdəki şovinist ruslar və ermənilər böyük bir ümidsizliyə qapıldılar. Çünki onların gümanınca, şəhərə saysız-hesabsız ingilis qoşunu gəlməli və qısa müddət ərzində Qafqaz İslam Ordusunu Bakı ətrafından uzaqlaşdırmalı idi. Denstervilin qeydlərinə görə, ingilis döyüşçülərinin sayı az olsa da, onların gümrah və şən görkəmləri həmin ümidsizliyə qapılanlara elə bir mənəvi-psixoloji təsir göstərdi ki, avqustun 5-də türk qoşunları hücuma keçəndə onların hamısı silaha sarıldılar və döyüşə atıldılar (60).

5 avqust döyüşündən sonra Qafqaz İslam Ordusu cəbhəsində olduğu kimi «Sentrokaspi» cəbhəsində də növbəti döyüşlərə hazırlıq aparılırdı. Başlıca ümid isə yenə də Bakıya əlavə gətiriləcək ingilis qoşunlarına idi.

İngilislər özləri də Bakıdakı hərbi qüvvələrin sayının artırılmasını vacib hesab edirdilər. Ona görə də avqustun 4-də polkovnik Keyvortun zabitləri ilə kiçik zabitləri, iki zirehli avtomobil, Denstervil qüvvələrinin zirehli avtomobil dəstəsi, "B" və "C" bölüklərinin heyəti, təşkil edilən pulemyot bölüyü 7-ci Stafford taborunun 140 silahlısı Ənzəlidən Bakıya doğru hərəkətə başladılar və avqustun 5-də bu qüvvələr artıq Bakıda idilər. Avqustun 5-də general Denstervilin qərargahı da bir neçə gün əvvəl ingilislərin nəzarəti altına düşən Ənzəliyə doğru hərəkətə başladı (61).

Bakıda olan polkovnik Stoks Qafqaz Ordusu qüvvələrinin hücumunun qarşısının alınması üçün bu hissə və bölmələrin yetərli olmamasında Sentrokaspi hökumətinin rəhbərliyinin və daşnak nümayəndələrinin qənaətlərini bölüşürdü. Apardığı müşahidələrindən sonra polkovnik Stoks hazırladığı raportda vəziyyəti belə xarakterizə edirdi – Biçeraxov öz dəstəsi ilə yenidən Bakıya gələrsə, onda şəhəri ingilis hərbi qüvvələrinin köməyi ilə qorumaq mümkündür. Bakıya bir ingilis piyada briqadası göndərilməsini lazım bilirəm.

Polkovnik Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən azad ediləcəyi təqdirdə şəhərdəki bütün gəmilərin Krasnovodsk, Astrabad və Ənzəliyə aparılmasını vacib sayırdı. O, eyni zamanda neft mədənlərinin təxrib edilməsi haqqında da düşünürdü. Lakin neft mədənlərində çalışan azərbaycanlı və rus fəhlələr bu plana mane olurdular. Polkovnik Stoks mövcud qüvvələrlə Bakını əldə saxlayacaqlarına heç də əmin deyildi. Ona görə o, zərurət yarananda geri dönüşün təmin edilməsi yolları haqqında da öz təkliflərini irəli sürürdü (62).

Mövcud qüvvələrlə Bakının əldə saxlanılmasına polkovnik Keyvort da əmin deyildi. Avqust ayının 7-də ingilis hərbi komandanlığına göndərdiyi teleqramında o bildirirdi ki, Bakının yerli hərbi qüvvələri ciddi bir təşkilatlanmaya malik deyildirlər və şəhərin saxlanması üçün general Denstervilin bütün qüvvəsinin Bakıya gətirilməsinə ehtiyac vardır (63).

Avqustun 7-də general Denstervil Bakıdan gəlmiş erməni həkimi Araratyansla görüşdü və ona anlatdı ki, Qafqaz İslam Ordusuna qarşı müqaviməti bütünlüklə ingilis qoşunlarının üzərinə atmaq arzusu əbəsdir. İngilis generalı başlıca olaraq Bakı hökumətini və şəhər əhalisini tam səfərbər olmağa və Qafqaz İslam Ordusuna qarşı mübarizə aparmağa çağırırdı. General Denstervil Bakı əhalisini Qafqaz İslam Ordusuna qarşı mübarizəyə kökləmək məqsədilə Araratyansa bir məktub yazıb verdi ki, onu şəhər ictimaiyyəti arasında yaysın. Əslində, bu məktubu Qafqaz İslam Ordusuna qarşı səmərəli mübarizə aparmaq üçün Denstervilin tövsiyələri də adlandırmaq olardı. İngilis generalı Bakı ermənilərini türk qoşunlarına qarşı xüsusilə fəal olmağa çağırırdı: «... Zənnimcə, Bakının müdafiəsi mümkün olan işdir, düşmən qüvvələri tərəfindən şəhərin tutulması ehtimalı isə mənə görə azdır. Bir şərtlə ki, Bakı əhalisi bizim düşməni dəf etmək qərarımızı bütün qüvvələri ilə müdafiə etmiş olaydı. Düşmən əleyhinə təkcə şəhərin qorunması kifayət deyildir. Müdafiə o vaxt uğurlu ola bilər ki, Bakının müdafiəçiləri özləri hücuma keçsinlər, şəhərdən çıxaraq döyüş meydanında düşməni məğlub etsinlər. Bu məsələ müdafiəçilərin böyük hissəsini təşkil edən ermənilərə xüsusilə aid olmalıdır» (64).

Denstervil məktubunda daha sonra bildirirdi ki, Bakı şəhərinin müdafiəsinin təşkilində qüsurlar mövcuddur. Yaxın vaxtlarda onun tabeliyində olan zabitlərin sayı artan kimi bu zabitlərin müəyyən hissəsini Bakıya göndərəcək ki, şəhərin müdafiəsində olan qüsurları aradan qaldırsın. İngilis generalı onu da əlavə edirdi ki, hazırda sərəncamında az qüvvə var. Bu qüvvələr İran və İraq cəbhəsinə yayılıblar. Bakı ilə nəqliyyat əlaqələri isə çox çətindir. Ona görə Denstervil məktub vasitəsilə Bakı əhalisini də türk qoşunlarına qarşı birgə mübarizəyə çağırırdı. Bununla bərabər, general bakılılara vəd edirdi ki, Qafqaz İslam Ordusu ilə mübarizə aparmaq üçün nə qədər qüvvə göndərmək mümkündürsə, onu edəcəkdir (65).

General Denstervil Qafqaz İslam Ordusuna qarşı mübarizənin uğurla aparılması, Bakı şəhərinin etibarlı şəkildə qorunması üçün Lənkəran bölgəsində yaşayan rus əhalisinin hərbi qüvvələrinə də ümid bağlayırdı. Əslində, 5000 nəfərlik hərbi dəstəsi, bir neçə səhra topu olan bu əhalinin liderləri özləri Denstervillə əlaqə yaratmış və türk qoşunlarına qarşı birgə mübarizə aparmağı təklif etmişdilər. Onların nümayəndələri avqust ayının 10-da Denstervilin İrandakı qərargahına gəlmişdilər. Bu nümayəndələr özləri ilə ingilis qüvvələri üçün un, taxıl və digər ərzaq əşyaları da pay gətirmişdilər. Muğan ruslarının nümayəndələri Azərbaycandakı türk qoşunlarına qarşı birgə mübarizəyə hazır olduqlarını bəyan etdilər və ingilislərə qarşı xoş niyyətin nümayiş etdirilməsi üçün iki ədəd kiçik gəmi də Denstervilə bağışlandı. İngilislər birgə hərəkətə razı olacaqları təqdirdə onlar xahiş etdilər ki, öncə Muğana ingilis hərbi təlimatçıları göndərilsinlər (66).

General Denstervil bu təklifi çox böyük məmnuniyyətlə qarşıladı. Onun fikrincə, Lənkəranın Gəncə–Bakı dəmir yolu xəttinin sağ cinahında yerləşməsi Qafqaz İslam Ordusunun arxasına zərbə vurmağa imkan verə bilərdi. Bundan əlavə, Muğanda bol taxıl ehtiyatlarının olması, məntəqənin dənizlə bağlılığı və nəhayət, yaxşı silahlanmış 5 min nəfərlik bir qüvvənin Qafqaz İslam Ordusuna qarşı vuruşmağa hazır olması onu çox sevindirirdi. General vəziyyətlə yerində tanış olmaq üçün dərhal Muğana ingilis əsgər və zabitlərindən ibarət kiçik bir dəstə göndərdi. O, bu dəstəyə iki rus

zabiti, kapitan Stepanovu və kapitan Qurlyandı da qoşdu (67).

Lənkəran bölgəsində yerli rus əhalisinin millətçi qüvvələrinin fəallaşması barədə Qafqaz İslam Ordusu komandanlığına da məlumatlar daxil olurdu. Onların malik olduğu qüvvənin sayı barədə əldə edilmiş məlumat da Denstervilin göstərdiyi rəqəmə yaxın idi. Həmin qüvvənin heç də az olmadığı və Qafqaz İslam Ordusunun arxasına zərbə vurmaq üçün kifayət qədər gücə malik olduğu haqlı bir narahatçılıq doğurmaqda idi. Kür çayı mənsəbindəki döyüşlərdən sonra Salyanda saxlanmış olan azsaylı türk-Azərbaycan dəstəsinin komandiri Nazim bəy Ramazanov Muğan ruslarının təşkilatlanması barədə məlumatı Ordu komandanlığına çatdırmaqla bu qüvvələrin törədə biləcəyi təhlükənin aradan qalldırılması üçün əlavə kömək göndərilməsini xahiş etdi. Onun verdiyi xəbərə görə, Lənkəranda olan rus qüvvəsinin sayı 3-4 min nəfər hüdudunda olub 6 ədəd topa, bir neçə pulemyota və zirehli avtomobillərə malik idi. Bu qüvvələr son günlər xüsusilə fəallaşmış və onun böyük bir hissəsi Biləsuvardan Təkliya adlı məntəqəyə gətirilmişdi. Bu məntəqə Biləsuvardan 24 kilometr şərqdə idi. N.Ramazanova görə, bu yerdəyişmələr və fəallaşma Lənkəran dəstəsinin hərbi əməliyyatlara hazırlaşması ilə bağlı idi. Salyan dəstəsinin möhkəmləndirilməsi və Lənkərandakı rus qüvvələrinin şimala doğru irəliləməsinin qarşısının alınması üçün o, konkret olaraq 27-ci taborun iki bölüyünün və pulemyot taqımının Putadan və bir piyada bölüyünün isə Gəncədən göndərilməsini xahiş edirdi (68).

N.Ramazanovun məlumatı dərhal Ordu komandanlığının diqqətini cəlb etdi. Bakı üzərinə qəti hücuma hazırlıq görüldüyü bir vaxtda ordunun başlıca nəqliyyat xətti olan Bakı–Gəncə dəmir yolunun Lənkəran istiqamətindən hər hansı bir təhlükəyə məruz qalmasının arzuedilməz olduğu üçün Salyan ətrafına əlavə qüvvələr gətirilməsi qərara alındı. Ancaq bu yardımın Bakı ətrafındakı qüvvələr hesabına deyil, Qarakilsədən yola salınmış olan 107-ci alay hesabına edilməsi məqsədəuyğun bilindi. Ordu komandanının bu məsələ ilə bağlı müvafiq əmrində deyilirdi:

«1. Qarakilsədən gəlməkdə olan 1200 müharib mövcudlu 107-ci alay Şərq cəbhəsi komandanının əmrində olmaq üzrə

Salyan məntəqəsinə və Ələt–Puta sahil qisminə məmur ediləcəkdir. İşbu alayın ilk gələcək taboru Hacıqabula çıxarılaraq Salyana gedəcəkdir. Bunu mütəaqib Salyanda bulunan 5-ci diviziyaya mənsub qitəat Bakı cəbhəsindəki alaylarına ilhaq edəcəkdir. Salyanda bulunan dağ-topçu taqımı qalacaqdır.

2. 107-ci alayın ikinci gələcək taboru Ələt–Puta qismini təslim alacaqdır. Ələtdə bulunan İslam Ordusu hücum bölüyü ilə makinalı tüfəng bölüyü mövqeyinin təslimindən sonra Yevlax stansiyasına nəql olunacaq və daha cənubda Bərdə mövqeyinə gedərək burada Ağdaş milis bölüyü Ələtdə 107-ci alayın əmrində qalacaqdır. Alay bu bölüyün təlim və tərbiyəsini təmin edəcəkdir.

3. 107-ci alayın üçüncü gələcək taboru və alay pulemyot bölüyünün Salyana göndərilməsi lazım görülməzsə, Şərq cəbhəsi ehtiyatı olmaq üzrə Güzdək kəndinə gedəcəkdir.

4. Şərq cəbhəsi komandanlığı Salyan–Ələt–Puta qismində bulunan 5-ci diviziya qitəatının mövqeləri 107-ci alay tərəfindən təslim alındıqdan sonra Bakı cəbhəsinə cəlb ediləcəkdir.

5. Şərq cəbhəsi komandanlığı minbaşı Nazim bəy Ramazanovu əhaliyi-islamiyyəyi idarə etmək və Lənkərana qarşı bir hərəkatı hazırlamaq və tədqiq etmək üzrə Lənkəranın qərbindəki dağlara göndərəcəkdir» (69).

Əmrin sonuncu bəndi ilə Ordu komandanlığı Şərq cəbhəsi komandanlığından tələb edirdi ki, Nazim Ramazanov Lənkəranın qərb hissəsindəki dağlıq məntəqələrə getsin və buradan Lənkərandakı rus qüvvələrinə qarşı daha təsirli tədbirlərin həyata keçirilməsinə rəhbərlik etsin. Ancaq Şərq cəbhəsi komandanlığı Nazim bəy Ramazanovun Salyan ətrafına cəmləşdirilən İslam Ordusu bölmələrinə rəhbərlikdə saxlanılmasını məqsədəuyğun bildi və bu barədə Ordu komandanlığı qarşısında məsələ qaldırıldı. Çünki yuxarıdakı əmrə əsasən müdafiə tədbirləri görüldüyü təqdirdə Lənkərandakı rus qüvvələrinin şimala doğru hərəkət təhlükəsini etibarlı şəkildə istisna edirdi. Nuru paşanın bu əmri ilə cənubdan gözlənilə biləcək təhlükəyə qarşı ikiqat və çox ciddi bir müdafiə səddi çəkilmiş olurdu. Bu müdafiə sədlərindən biri Salyan məntəqəsindən, Kür çayı boyunca keçirdisə, digəri Ələt–Puta dəmir yolu boyunca qurulmalı idi.

5 avqust döyüşü ərəfəsində ingilis qoşunlarının Bakıya az bir hissəsi gətirilmişdi. Bura göndərilməsi nəzərdə tutulan qüvvələrin daşınması bütünlükdə avqustun 17-də başa çatdı. Həmin gün general Denstervil də Bakıya gəldi və ingilis qoşunlarının fəaliyyətinə rəhbərliyi öz üzərinə götürdü. 39-cu briqadanın hissələrindən təşkil olunmuş bu dəstəyə Denstervilin özünün yazdığına görə, 1000-ə yaxın əsgər və zabit, bir neçə top və zirehli avtomobil daxil idi (70). Sentrokaspi diktaturasının rəhbərliyi cəbhənin ingilislərə tabe etdirilməyəcəyini, yalnız onların nümayəndələrinin cəbhə qərargahına daxil etdiriləcəyini bildirsələr də (71), əslində, ingilislərin gəlməsi ilə Bakının qorunmasının təşkili onların nəzarəti altına keçdi. İngilis qoşunlarının komandanlığı iki məsələnin həllinə xüsusi diqqət yetirirdi. Birincisi, Bakı ətrafında müdafiə işlərinin düzgün qurulması, ikincisi isə «Sentrokaspi» qoşunlarının təkmilləşdirilməsi və gücləndirilməsi. Birinci məsələ ilə bağlı Denstervil hələ İranda olarkən ondan öncə Bakıya gəlmiş polkovnik Keyvort şəhər ətrafındakı müdafiə xəttinin və qurğularının müfəssəl xəritəsini hazırlayıb ona göndərmişdi. Xəritədən məlum olurdu ki, «Sentrokaspi» qoşunlarının müdafiə xətti, əsasən, daş qayalıqların və yüksəkliklərin üzərindən keçir. Yalnız Bayıl tərəfdə və şimal cinahda müdafiə xətti nisbətən düz ərazidən keçirdi. Müdafiə xəttinin ümumi uzunluğu 21 min yard idi. Keyvorta görə, müdafiə səngərlərində atəş nöqtələri çox pis təchiz olunmuşdu. Burada mövqe tutan döyüşçünün Qafqaz İslam Ordusu bölmələrinin hərəkətini sərbəst izləmək imkanı yox idi. Təhlükəsizliyə riayət etməli olsaydı, bu döyüşçü yalnız göyə güllə ata bilərdi. Qarşı tərəfi sərrast nişan almaq üçün səngərdən qalxmalı idi ki, bu da təhlükəli idi. Polkovnik Keyvortun fikrinə görə, müdafiə səngərləri qurularkən orada etibarlı atəş mövqeləri yaradılmamışdı. Bu səngərlərdə pulemyotlardan da səmərəli şəkildə istifadə etmək mümkün deyildi. Müdafiə xəttinə tikanlı məftillərin çəkilməməsi, səngərlər arasında əlaqələrin olmaması da ingilis zabitlərini razı salmırdı.

Bakı ətrafındakı müdafiənin təşkilində ingilis hərbçilərini narahat edən ciddi məsələlərdən biri də Qafqaz İslam Ordusu möv-

qelərinin həddən artıq şəhərə yaxın olması idi. Onların fikrincə, İslam Ordusu mövqelərinin şəhərə bu dərəcədə yaxın olması Bakının mühüm obyektlərinin istənilən vaxt bombardman edilməsi təhlükəsini artırırdı. Xüsusilə də Bakının qərbindəki mövqelər şəhərə xeyli yaxın idi. Ona görə ingilislər çox istəyirdilər ki, Qafqaz İslam Ordusu qüvvələrini dayandıqları mövqelərdən bir qədər geri çəkilməyə məcbur etsinlər. Ancaq onu da yaxşı bilirdilər ki, bunu etmək elə də asan olmayacaqdır (72).

Bakıya ilk gəlmiş olan Şimali Stafford alayının bölmələri şəhərin müdafiə xəttinin sol cinahına göndərildi. Bu alayın 100 nəfərlik bir dəstəsi isə cəbhənin mərkəzinə yaxın olan bir sahəyə göndərildi.

Bu işlərlə bərabər, ingilis hərbçiləri eyni zamanda «Sentrokaspi» qoşunlarının yenidən qurulmasına və onların zərbə gücünün artırılmasına çalışırdılar. Yerli qoşunlar arasında mövcud olan hərbi intizamın səviyyəsi ingilis hərbçilərini xeyli narahat edirdi. General Denstervilin fikrincə, bu vəziyyət davam etdiyi halda onlar Qafqaz İslam Ordusu hissələrinin təzyiqinə çox da müqavimət göstərə bilməzdilər. Onun yazdığına görə, 22 taborda qruplaşdırırılan bu qoşunun əsgər və zabitləri ingilislərin Bakıya gəlməsindən sonra vaxtlarının çoxunu istirahətdə keçirir, istədikləri vaxt istədikləri yerə gedib-gəlirdilər. Bu isə ingilis hərbçilərini heç də təmin etmirdi. General Denstervilə görə, yerli qoşunlar dağınıq silahlı dəstələri xatırladırdılar və onlara heç də arxayın olmaq olmazdı. Heç şübhəsiz ki, general Denstervil ingilis bölmələrini tərifləmək, sonradan düçar olduqları məğlubiyyəti sığortalamaq üçün "Sentrokaspi" qoşunlarının döyüş imkanlarını müəyyən dərəcədə qaralamaqdan da çəkinmirdi. Çünki 22 taborluq bir qüvvəni bu şəkildə hesabdan silmək həqiqətə heç də uyğun deyildi.

Bakıya gələn ingilis qüvvələri dərhal müdafiə mövqelərinə göndərildi və onlara müdafiə xəttinin daha da təkmilləşdirilməsi tapşırıldı. General Denstervil də Bakıya gələn kimi buradakı fəaliyyətini məhz müdafiə xəttinin öyrənilməsindən başladı. Təmas xəttinin sol cinahında yerləşdirilmiş olan Şimali Stafford alayının bölmələri Bibiheybət ətrafındakı yüksəkliklərdə müdafiə xəttini kifayət qədər təkmilləşdirmişdilər. Bu yüksəkliklərin yer

quruluşundan mövqelərin qurulması zamanı düzgün istifadəsinə diqqət yetirilmişdi. Qazılmış və möhkəmləndirilmiş səngərlər həm səmərəli atəş açmağa, həm də Qafqaz İslam Ordusu hissələrinin top atəşlərindən qorunmasına imkan verirdi. Şimali Stafford alayının sağ qanadında erməni taboru mövqe tutmuşdu. Erməni taboru da müdafiə mövqelərini kifayət qədər möhkəmləndirməyə nail olmuşdu. Sonra müdafiə xətti Qurd qapısı keçidindən başlayıb şimala doğru uzanan sərt qayaların üzərindən keçirdi. Təbii şəraiti baxımından bu ərazi az qüvvə ilə etibarlı müdafiə olunmağa imkan verirdi. İngilis hərbçilərinin yazdığına görə, bu ərazilər də Şimali Stafford alayının bölmələri ilə yerli bölmələrin nəzarəti altında idi. Sonra qarşı tərəflər arasındakı təmas xətti Biləcərinin qərbindən Palçıq vulkanına doğru, oradan da Binəqədi yüksəklikləri ətrafına və oradan da şərqə, dənizə doğru uzanırdı. Şimali Stafford alayının kiçik bir dəstəsi də Palçıq vulkanı ətrafındakı müdafiə xəttinin müdafiəsinə cəlb edilmişdi. Bura eyni zamanda yerli qüvvələrdən iki tabor göndərilmişdi. Sonradan Bakıya gələn Vervik və Uorçester taborları da məhz bu mövqelərə göndərildi. İngilis qoşunlarının bu cür yerləşdirilməsi demək olar ki, son ana kimi dəyişməz qaldı. Ön xətdə olan ingilis qoşunlarına rəhbərliyi polkovnik Keyvort, bütünlükdə isə piyada briqadasına komandirliyi polkovnik Faviel edirdi (73).

Qafqaz İslam Ordusuna qarşı etibarlı qüvvə üstünlüyü yaradılması üçün həm «Sentrokaspi» rəhbərliyi, həm də ingilis qoşunları mövcud olan başqa imkanları da nəzərdən keçirirdilər. Avqust ayının ikinci yarısında general Denstervil dəniz yolu ilə Dağıstana səfər edib orada L.Biçeraxovla görüşmək və sonra onun qüvvələri ilə geri qayıtmaq istəyirdi. Lakin Xəzər dənizində bolşevik gəmiləri təhlükəsinin olması onu bu planı həyata keçirməyə imkan vermədi (74).

«Sentrokaspi» rəhbərliyi eyni zamanda şəhər əhalisinin daha geniş şəkildə silaha sarılmasına çalışırdı. Bunun üçün həm səfərbərlik aparılır, həm də təbliğat işləri genişləndirilirdi. Avqust ayının ortalarında şəhər ətrafında səngər tutmuş bir sıra hissə və bölmələrin şəxsi heyəti bu məqsədlə şəhər əhalisi arasında öz bəyannamələrini yaydılar. Həmin bəyannamədə deyilirdi: «Biz,

cəbhənin müdafiəsi üzrə 1-ci və 2-ci nümunəvi alayların döyüşçüləri (ön mövqelərdəki qoşunların veteranları), habelə 2-ci və 4-cü bölüklərin pulemyotçuları düşmənin üç tərəfdən bizi əhatə etdiyi, düşmənin mühasirə həlqəsinin ətrafımızda daha da sıxlaşdığı, mərmilərin şəhərin küçələrində partladığı indiki məqamda silah tutmağı bacaran bütün vətəndaşları, vətəni sevən hər bir adamı, qəlbində Rusiyanın nicatı üçün hələ də qığılcım yanan şəxsləri çağırırıq ki, cəbhəyə gəlsin və öz maraqlarını qorusun. Hazırkı məqamda çıxışlar və mitinqlər üçün artıq vaxt yoxdur. Hamı bir nəfər kimi cəbhəyə getməli və öz doğma şəhərini qorumalıdır...» (75).

«Sentrokaspi» diktaturasının rəhbərləri keçmiş Bakı komisssarlarının əlində olan silahları və qüvvələri də Qafqaz İslam Ordusuna qarşı mübarizəyə cəlb etməyə çalışırdılar. Bu isə elə də asan məsələ deyildi. Hələ iyulun 31-də qaçmağa cəhd göstərən keçmiş komissarlar geri qaytarıldıqdan sonra avqustun 3-də S.Şaumyan məsləkdaşı Ter-Qabrielyanla ikilikdə keçmiş silahdaşlarını ataraq yenidən qaçmağa cəhd göstərdi (76). Ancaq bu dəfə də onlar «Sentrokaspi» gəmiləri tərəfindən saxlanılaraq geri qaytarıldılar. Növbəti qaçmaq cəhdindən sonra «Sentrokaspi» rəhbərləri keçmiş komissarlara və onların məsləkdaşlarına bildirdilər ki, əgər fəaliyyətləri barədə hesabat təqdim etsələr və əllərindəki silahla hərbi texnikanı təhvil versələr, onda onların Bakıdan getməsinə etiraz etməzlər. Keçmiş komissarlar buna razı oldular və hətta Petrov yazılı şəkildə iltizam da verdi ki, ixtiyarında olan bütün silahları, hərbi texnikanı və digər ləvazimatı təhvil verəcəkdir. «Sentrokaspi» rəhbərliyi isə əvəzində istədikləri vaxt keçmiş komissarlara hərəkət üçün 10 ədəd gəmi ayıracağını vəd etdi (77).

Ancaq avqust ayının 10-da Bakı bolşeviklərinin partiya təşkilatı qərara aldı ki, «Sentrokaspi Diktaturası»na heç bir silah verilməsin və hakimiyyəti yenidən ələ almaq məqsədilə şəhərdə vətəndaş müharibəsinə hazırlığa başlansın. Partiya təşkilatı eyni zamanda şəhərin tərk edilməsini qərara aldı. Avqust ayının 13-də keçmiş bolşeviklər 19 gəmiyə yüklənərək yenidən qaçmağa cəhd göstərdilər. Bu dəfə də onlar tutulub geri qaytarıldı və Petrovun dəstəsi tərk-silah edildi. Keçmiş komissarlar isə əks-inqilabla mübarizə üzrə fövqəladə komissiyanın istintaqına verildilər (78).

İstər Qafqaz İslam Ordusu qüvvələri, istərsə də «Sentrokaspi» və ingilis qüvvələri gələcək fəaliyyətləri üçün hazırlıq apardıqları bir vaxtda qarşı dayanan tərəflər arasında kiçikmiqyaslı mövqe döyüşləri davam edirdi. Bu döyüşlər, əsasən, daha yaxşı mövqelərin ələ keçirilməsi üçün aparılırdı. Bu istiqamətdə qarşıya qoyulan planın mahiyyəti barədə Nuru paşa belə yazırdı: «Düşmən dəmir yolunun şərqində və Bakının qərb sırtlarındakı təhkimatı şimala uzadaraq Abşeron yarımadasını qərbə qarşı müdafiə üçün düz bir müdafiə xətti təsisə çalışırdı. Biz də həm bu təhkimata mane olmaq və həm də düşməni şimal və şərq-şimaldan işğal etmək üçün Abşeron yarımadasının şərq və şimalındakı islam kəndlərində təşkilat yaparaq Suraxanı, Sabunçu, Balaxanı, Binəqədi tərəflərində cəbhə təşkili ilə düşməni icaaza başladıq. Bakı cəbhəsi şəhərə pək yaxın olduğundan hücum cəbhəsi olaraq burasını münasib görürdük. Hər nə qədər 5 avqust hücumu ilə düşmənin nəzəri bu cəbhəyə cəlb edilmiş idi, düşmənlə aramızı ayıran dəmir yolu vadisinin umaclarının pək sərp bulunmasından burası hücuma pək müsaid deyildi. Ərazinin bu xüsusiyyətinə təhkimat əlavə edildiyi təqdirdə bu cəbhədən yapıla biləcək hücumun müvəffəqiyyətlə nəticələnməsi ehtimalı məşquq bulunurdu. Binaənəleyh burada təhkimat yapdırmaqdan sərfi-nəzər etdirmək üçün düşmənin nəzər-diqqətini cəlb edəcək vəchi ilə Biləcəri və Bakının şimal cəbhəsində tərəfimizdən fəaliyyətə keçilmiş idi. Təşəbbüslərimiz lazım olan təsiri yapmış və düşmən də Biləcəri stansiyası şimalındakı Yanardağ və daha şərqdəki Binəqədi sırtlarında və Biləcəri stansiyası civarı ilə cənubdakı sırtlara əhəmiyyət verməyə başlamışdı» (79).

Ancaq mövqe döyüşlərinin təşəbbüsçüsü təkcə Qafqaz İslam Ordusu qüvvələri deyildi. General Denstervil də şəhərin əldə saxlanılmasının ən yaxşı yollarından birini fəal müdafiədə görürdü. İmkan yarandıqca «Sentrokaspi» və ingilis bölmələri də hücuma keçir, hərbi təşəbbüsü genişləndirməyə, mühasirə həlqəsini daha da arxaya atmağa çalışırdılar. Hələ avqust ayının 6-da «Sentrokaspi» və ingilis qoşunları Şimal qrupunun 60-cı taboru bölmələrinə hücuma keçdilər. Bu hücumda onları bir zirehli qatar da müşayiət edirdi. Qısamüddətli döyüşdən sonra «Sentrokaspi» və ingilis

qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar. Zirehli qatar Xırdalana doğru irəliləyərkən dəmir yolunun sökülmüş hissəsində qəzaya uğradı və öndəki bir vaqon çevrildikdən sonra Zirehli qatar yenidən geri, Biləcəriyə çəkildi. Çevrilmiş vaqonun içərisindən 75 mm-lik bir top, üç ədəd pulemyot, rus pulemyotu üçün 7 sandıq güllə və s. əşyalar ələ keçirildi. Baş verən döyüşün gedişində 60-cı tabordan 3 nəfər şəhid oldu, 6 nəfər isə yaralandı (80).



**Bakıya çıxarılmış ingilis hərbi qüvvələrinin komandanı general Denstervil**



**İngilis hərbçiləri Bakıda**





**İngilis hərbçiləri Bakıda**



**İngilis hərbçiləri Bakıda**





**İngilis hərbçiləri Bakıda**

Cəbhənin digər sahələrində də atışmalar davam edirdi. Xüsusən Puta–Ələt dəmir yolu xətti «Sentrokaspi» və ingilis qoşunlarının nişangahı altında idi. Dəmir yolunun bu sahəsi həm dənizdən, həm də havadan aramsız atəşə tutulurdu. Avqustun 7-nə keçən gecə yaralıları daşıyan qatar «Sentrokaspi» gəmiləri tərəfinndən atəşə tutuldu. Nəticədə 13 nəfər şəhid oldu. Gündüz isə başqa bir qatar təyyarə bombardmanı altına düşdü. Bu dəfə isə 7 nəfər şəhid oldu. Ələt məntəqəsi özü də «Sentrokaspi» təyyarələrinin hücumuna məruz qaldı. Puta–Ələt sahəsinin bombardman edilməsi avqustun 8-də də davam etdi (81).

Avqustun 9-da Nuru paşa tərəfindən imzalanan əmrdə Bakı şəhəri üzərinə qəti hazırlığın davam etdirilməsi istiqamətində nələrin həyata keçirilməsinin vacib olduğu vurğulanırdı. Şəhər ətrafında cərəyan edən prosesləri və buradakı hərbi şəraiti ətraflı təhlil etdikdən sonra Ordu komandanı Nuru paşa belə bir qənaətə gəlmişdi:

«1. Cəbbəxana mövcuduna nəzərən düşmənin təhkimat yapmasına mane olmaq və atəşlə düşmən batareyalarını kəşf və onları məhv etmək;

2. Əsgər, zabitan və əhalidən münasib və etimada şayan kimsələrin Bakıya göndərilərək düşmənin qüvvəti və əməlləri haqqında aydın məlumat toplamaq. Bunun üçün sərf olunacaq pul ordudan veriləcək;

3. Gecə və gündüz fəalanə kəşf yaparaq düşmənin işğal və təhkim etməkdə olduğu mövqelərin və təhkimatın dərəcəsi haqqında daima məlumat almaq və bunu davam etdirmək;

4. Qitəatın təərrüz meylini mühafizə və tənmiyə etmək. Yaxında təərrüz üçün təzə qüvvələr gələcəyindən Bakıya təərrüzü-qətinin hansı tərəfdən icra edilməsi icab edəcəyi haqqında təhqiqat və kəşf icra etmək. Buna görə dörd səhra və iki ağır topçu batareyası üçün mövqe intixab etmək;

5. Bulunulan xətti təhkim edərək pək faiq bir təərrüzə qarşı əldə qüvvə bulundurmaq, bunun üçün cəbhənin qüvvətli təhkimi ilə az piyada və pulemyotla mühafizəsi və ərazinin təbii müdafiəyə əlverişli məhəllərində az qüvvə təxsisi və müqabil təərrüzlər üçün daha geridə toplu ehtiyat qüvvələri bulundurmaq» (82).

Avqustun 10-da cəbhənin şimal sahəsində «Sentrokaspi» və ingilis qoşunları xeyli fəallıq göstərdilər. Gündüz saat 11 radələrində 150–200 nəfərlik bir dəstə Maştağa kəndi ətrafında qərar tutan Ləzgi süvari alayının mövqelərinə hücum etdi. Bu dəstənin təxminən 50 nəfəri süvari idi və 3–4 pulemyota malik idi. Ancaq Ləzgi alayının süvariləri hücumu uğurla dəf etdi və «Sentrokaspi» qüvvələrini geri çəkilməyə məcbur etdi. Həmin istiqamətdə təkrarlana biləcək növbəti hücumların qarşısının etibarlı alınması üçün Şərq cəbhəsi komandanlığı Maştağa ətrafındakı mövqeləri möhkəmləndirmək əmri verdi. Bu əmrə əsasən Ləzgi süvari alayının bir bölüyü Xırdalana aparıldı. Əvəzində ora bir piyada bölüyü və bir pulemyot taqımı göndərildi (83).

Avqustun 10-da «Sentrokaspi» və ingilis qoşunlarının 150 nəfərlik süvari dəstəsi Hacı Həsən kəndi ətrafındakı mövqelərə də hücum etdi. Şimal qrupunun burada yerləşən qüvvələri bu hücumu dəf etdilər. Ələt–Puta sahəsindəki mövqeləri bombalayan «Sentrokaspi» təyyarələrindən biri həmin gün sərrast atəşlə vurulub məhv edildi (84).

Avqustun 11-də Maştağa kəndi üzərinə hücum yenə davam etdirildi. Düşmənin bu sahəyə xüsusi diqqət yetirməsini nəzərə alaraq 38-ci alayın 2-ci taboru ilə bir ədəd Şnayder dağ topu ora göndərildi. «Sentrokaspi» qüvvələrinin apardığı top atəşlərinə görə müəyyənləşdirilmişdi ki, onların 6 topu Bayılda, dörd ədəd topu Salyan qışlaları ətrafında və bir neçə topu da Biləcəri ətrafında yerləşdirilmişdi (85).

Avqustun 11-də «Sentrokaspi» qoşunları komandanlığı Puta–Ələt sahəsinə desant çıxarmağa cəhd göstərdi. Gündüz saat 1-dən sonra 50-yə qədər silahlı gəmilərdən sahilə çıxsalar da, Cənub qrupunun tabeliyində olan Zirehli qatarın aramsız atəşlərindən sonra geri çəkilməyə məcbur oldular (86).

Avqust ayının 13-də Maştağa ətrafına göndərilmiş olan qüvvələr bir dəstədə birləşdirilərək Maştağa dəstəsi adlandırıldı. Şərq cəbhəsi komandanı Mürsəl bəyin əmri ilə 38-ci alayın 2-ci taborunun komandiri qayməqam Həsən bəy bu dəstənin komandiri təyin edildi. Minbaşı Tofiq bəyə isə mövqe komandanlığı həvalə olundu. Elə həmin gün miralay Həbib bəy Səlimov Gəncəyə apa-

rıldı. Onun yerinə isə Cənub qrupunun komandanı vəzifəsinə Cəmil Cahid bəy təyin olundu. Avqustun 13-də 106-cı piyada alayı, səhərisi gün isə 107-ci alay Azərbaycan ərazisinə daxil oldu. Həmin alaylar Ağstafada qatarlara mindirilib cəbhə bölgəsinə yola salındı (87).

Avqust ayının 15-də «Sentrokaspi» və ingilis qoşunları bölmələri Buzovna–Mərdəkan ətrafında fəallaşmağa cəhd göstərdilər. Maştağa dəstəsinin bölmələri onların qarşısını nəinki aldı, eyni zamanda Ləzgi alayının süvariləri tərəfindən içərisində iki ingilis hərbçisi olan bir minik avtomobili də ələ keçirildi(88).

Ötən günlər ərzində mövqe döyüşlərinin aparılması ilə bərabər, 5-ci Qafqaz diviziyasının komandanlığı Bakı üzərinə qəti hücumun necə təşkil edilməsi barədə də mövcud olan təklif və mülahizələri öyrənir və ümumiləşdirirdi. Əldə olunan qənaətlər sistemləşdirilərək avqustun 15-də Ordu komandanlığına təqdim edildi. 5-ci diviziya komandanlığı belə bir qənaətə gəlmişdi ki, Bakı üzərinə qəti hücum mütləq Azərbaycana gətiriləcək yeni türk diviziyası ilə birlikdə həyata keçirilməlidir. 5-ci diviziyanın Bakının qərb tərəfində saxlanılması, yeni gələcək diviziyanın isə Bakının şimal tərəfinə göndərilməsi məqsədəuyğun bilinirdi. Qəti hücuma başlamazdan əvvəl Biləcərinin şimalındakı Yanardağ yüksəkliyinin, habelə Binəqədi–Xırdalan xəttinin tutulması yeni gələcək diviziyanın ilkin vəzifəsi sayılırdı. 5-ci diviziya komandanlığının qənaətincə, bununla yeni diviziya həm qəti hücum üçün əlverişli mövqe tutar, həm də əsas hücumun bu istiqamətdən həyata keçiriləcəyi barədə düşməndə yanlış təsəvvür yaratmaqla onun əsas qüvvələrinin buraya cəlb olunmasına yol açardı. Belə olduğu təqdirdə güman edilirdi ki, 5-ci diviziyanın döyüş sahəsində ikialaylı bir qüvvə topçu atəşlərinin himayəsi ilə Qurd qapısı yüksəkliyini daha asanlıqla ələ keçirəcəkdir. Bu hadisə hücumun ikinci günü baş verməli idi. Bununla, düşmən çaşqın hala düşə bilərdi. Üçüncü gün isə hər iki istiqamətdə sürətli hücum davam etdirilməli idi. 5-ci diviziya Bakının qərbindən, o biri diviziya isə Biləcəri istiqamətindən hücumu davam etdirməli idi. Bu hücumun həyata keçirilməsinə Bakı ətrafındakı kəndlərdən toplanmış qüvvələrin cəlb olunması da nəzərdə tutulurdu (89).

Bakının şimalında adları çəkilən məntəqələr və mövqelər şəhərdən nisbətən uzaq olsalar da, həmin məntəqələrdə möhkəmlənməyin Bakının qorunması istiqamətində mühüm hərbi əhəmiyyətə malik olması «Sentrokaspi» və ingilis qoşunları komandanlığı tərəfindən də kifayət qədər reallıqla qiymətləndirilirdi. Məhz elə onun üçün idi ki, 5 avqust döyüşündən sonrakı mövqe döyüşləri, əsasən, bu sahədə baş vermişdi. General Denstervilin yuxarıdakı qeydlərindən də görünürdü ki, «Sentrokaspi» və ingilis qoşunları Abşeron yarımadasında olan Qafqaz İslam Ordusu hissələrini və bölmələrini qərbə doğru, Bakı–Sumqayıt yoluna tərəf sıxışdıraraq müdafiə mövqelərini şimala qalxan düz xətt üzrə qurmaq istəyirdilər. Ona görə də bu sahədə döyüşlər getdikcə daha da fəallaşırdı. Bu cəhət nəzərə alındığı üçün idi ki, Maştağa dəstəsi xeyli gücləndirildi. 38-ci piyada alayının qüvvələrinin əksəriyyəti Maştağa, Fatmayı və Novxanı ətrafında yerləşdirildi. Maştağa dəstəsinə komandirlik isə miralay Səlim bəyə həvalə edildi. Avqustun 17-nə keçən gecə saat 4.30-da «Sentrokaspi» və ingilis qoşunlarının 1 ədəd topu və 5 ədəd pulemyotu olan 500 nəfərlik piyada və 100 nəfərlik süvari qüvvəsi Fatmayı kəndi üzərinə hücuma keçdi. Həmin qüvvələr Fatmayının bir kilometr cənubunda olan yüksəkliklərə qədər irəliləyə bilmişdi. Hücumun qarşısının alınması üçün Fatmayı ətrafına Şimal qrupunun ehtiyatından bir bölük göndərilməsi və Novxanı ətrafında olan 2-ci mürəttəb süvari alayının hücuma qoşulması əmr edildi. Eyni zamanda «Sentrokaspi» və ingilis qoşunlarına da əlavə kömək gəldi. Bu qüvvələrin sayı 1500 piyadaya və 250 süvariyə çatdırıldı. Xeyli uzanan döyüş «Sentrokaspi» və ingilis qüvvələrinin yenidən əvvəlki mövqelərinə çəkilməsi ilə nəticələndi. Döyüşün gedişində 5 nəfər şəhid oldu, 20 nəfər isə yaralandı. Elə həmin gün ərzində Zabrat və Binə kəndləri də «Sentrokaspi» və ingilis qoşunlarının hücumuna düçar olsa da, buradakı müdafiə qüvvələrinin müqavimətini qırmaq mümkün olmadı (90).

Avqustun 19-da «Sentrokaspi» və ingilis qoşunları Maştağa cəbhəsində yenidən bir sıra mühüm məntəqələri ələ keçirməyə cəhd göstərdilər. 500 nəfərlik piyada, 700 nəfərlik süvari qüvvəsi 3 zirehli avtomobilin müşayiəti ilə Maştağanın cənubundan Bu-

zovnaya gedən yolla hərəkət etmək istəsələr də, Maştağa dəstəsinin Maştağa kəndi ətrafındakı bölmələri, habelə Binə kəndi ətrafında olan Ləzgi süvari alayının süvariləri tərəfindən sıxışdırılaraq geri çəkilməyə məcbur edildilər (91).

Mövqe döyüşləri aparmaqla bərabər, Bakı üzərinə qəti hücumun planının hazırlanması üçün şəhərətrafı mövqelərin, ərazinin və şəraitin öyrənilməsi davam edirdi. Bu məqsədlə İstambuldan Osmanlı Ordusu Ümumi Qərargahının hərəkət (əməliyyat–red.) şöbə müdirinin müavini minbaşı Səffət bəy və İslam Ordusu komandanlığı 1-ci şöbə müdiri Tofiq bəy Bakı ətrafına gəldilər. Minbaşı Tofiq bəy vəziyyətlə ətraflı tanışlıqdan sonra avqustun 21-də Gəncəyə, Ordu komandanlığına aşağıdakı şifrəni göndərdi. Həmin şifrədə əksini tapan fikirlər yenicə fəxri olaraq bir üst rütbə almış Mürsəl paşa və Səffət bəylə də razılaşdırılmışdı:

«Ərazi üzərindəki tədqiqatımızdan sonra hücum haqqındakı fikrim aşağıdakılardır:

1. Puta–Hacı Həsən xəttini müdafiə etmək;

2. Hacı Həsən–Biləcəri xəttinin 2 kilometr şərqindəki yol arasından qəti təərrüz icra etmək. Bunun üçün Xırdalanın şimal-şərqindəki 364 və 311 rəqəmli təpələri zəbt və bu xəttin gerisində təərrüz qüvvətlərini hazırlamaq və təərrüzümüz müvəffəq olmadığı təqdirdə tutula bilməmiz üçün bu xətti həmən təhkim etmək.

Qüvvələrin təşkilinə gəlincə:

Müdafiə cəbhəsinə bir alay, 364 və 311 təpələrinin təərrüz xəttinə iki alay və cəbhə ehtiyatı olaraq Hökməliyə bir alay göndərmək;

Maştağa və Fatmayıda bulunan taboru təərrüz xəttinin sol yanını himayə etmək üzrə Binəqədiyə çəkmək və ümumsüvariləri də (6 bölük) Balaxanıda cəm etmək;

763 rəqəmli təpənin (Qurd qapısında–M.S.) zəbti müşkül və bir-biri gerisində mükəmməl iki xətti-müdafiəyə haiz bir mövqe olduğundan buraya və onun daha şimalına cəsuranə ufaq təşəbbüslər və müxrib bir topçu atəşilə iktifa etmək;

Müdafiə cəbhəsinə 4 Şnayder və 4 rus səhra və Biləcəri tərəfdən yapılacaq təərrüzü-qətini himayə etmək üzrə bütün

qüdrətli topları Hacı Həsənin qərbində toplamaq, mütəbaqi topçunu təərrüz qoluna istiqamətləndirmək. Bütün qüdrətli top cəbbəxanasının Qobuda cəmləşdirilməsi məqsədilə dərhal Putaya göndərilməsi lazımdır» (92).

Qafqaz İslam Ordusu komandanlığı bu təkliflərlə razılaşdı və onların həyata keçirilməsi üçün 107-ci piyada alayının Salyanda və Ələt–Puta arasındakı taborları Bakı ətrafına gətirilərək Şərq cəbhəsi komandanlığının sərəncamına verilməsi qərara alındı. Həmin taborlar Ağdaşdakı Azərbaycan milli qüvvələri ilə əvəz edilməli idi. Ordu komandanının əmri ilə Ağdaş süvari bölüyü, 4-cü Ağdaş piyada alayının 1-ci və 2-ci taborları, habelə Ağdaşda olan rus Şnayder top taqımı avqustun 23-də Ləki və Ucar stansiyalarından qatarlarla yola salınmalı idi. 4-cü Ağdaş piyada alayının 1-ci taboru 107-ci alayın Salyandakı 2-ci taborunu, Ağdaş alayının 2-ci taboru isə 107-ci alayın Puta–Ələt arasındakı 3-cü taborunu əvəz etməli idi. Ağdaşdan gətirilən Şnayder top taqımı isə Putada yerləşməli idi (93).

Avqustun 21-də Ordu komandanlığından Şərq cəbhəsi komandanlığına daxil olan məktubda bildirilirdi ki, yaxın vaxtlarda Azərbaycana yeni qüvvələr gətiriləcəkdir. Bunu Gəncəyə qısamüddətli səfər etmiş olan Şərq Ordular Qrupu komandanı Xəlil paşa da təsdiq etmişdi. Əlavə kömək kimi Azərbaycana yeni bir diviziyanın gətiriləcəyi nəzərdə tutulurdu. Ona görə Ordu komandanlığına əmr edilirdi ki, irimiqyaslı döyüşlərdən hələlik imtina edilsin, qüvvələr əldə olan mövqelərdə möhkəmlənsin və düşmən haqqında ətraflı məlumatlar toplanması davam etdirilsin. Avqustun 22-də Ordu komandanlığından daxil olan yeni bir əmrdə isə Bakı üzərinə qəti hücuma hazırlıq məqsədilə bəzi tədbirlərin həyata keçirilməsi zəruri bilinirdi. Bu tədbirlərin içərisində Xırdalanın şimal-şərqində olan 311 və 364 rəqəmli təpələrin işğalı başlıca vəzifə kimi irəli sürülürdü. Əmrdə daha sonra göstərilirdi ki, Fatmayıdakı qüvvələr Digaha doğru, Saraydakı qüvvələr isə Balaxanıya doğru irəliləməlidir. Ordu komandanlığı əmr edirdi ki, bu tapşırıqlar avqustun 23-də icra edilsin (94).

Ancaq avqust ayının 23-də yuxarıda adları çəkilən təpələr üzərinə hücum təşkil edilmədi. Bu da onunla bağlı idi ki, avqustun

22-də Şərq Ordular Qrupu komandanlığında yüksək vəzifə tutan üç alman zabiti Bakıya gəlmişdi və onlarla birlikdə yenidən Bakı üzərinə qəti hücumun həyata keçirilməsi imkanları öyrənilirdi. Almaniya tərəfi Rusiya ilə sövdələşməyə girsə də, hiss edirdi ki, bu sövdələşmə gözlənilən nəticəni verməyəcəkdir. Buna görə də həmin sövdələşmədən istifadə etməklə bərabər, türklərlə də yaxınlığı qorumağa, heç olmazsa Bakı üzərinə hücumda iştirak etmək imkanını əldə etməklə Bakı neftinə olan ümidini saxlamağa çalışırdı. Bakıya gəlmiş alman zabitlərindən biri qayməqam Parakuin Şərq Ordular Qrupunun ərkani-hərb rəisi idi.

Avqust ayının 22-də qayməqam Parakuinlə Mürsəl paşa Bakı şəhərinin təhvil verilməsi ilə bağlı Bakıdakı Erməni Milli Şurasına ultimatum göndərdilər. Ultimatumun mətnindən görünür ki, o, Parakuin tərəfindən yazılıb və Mürsəl paşa da ona öz imzasını atıb. Alman zabiti bildirirdi ki, hazırda Bakı ətrafındadır və Bakının döyüşsüz təhvil verilməsi üçün Erməni Milli Şurası ilə danışıqlar aparmaq istəyir. Ultimatumda bildirilirdi ki, Bakı şəhəri döyüşsüz təhvil verilsə, onda şəhərdəki ermənilərin təhlükəsizliyinə və əmlaklarının qorunmasına zəmanət verilə bilər. Əks təqdirdə şəhərdə döyüşlər davam edəcək və nəticədə də erməni həyatı və erməni əmlakı məhv ediləcəkdir. Sonra konkret olaraq aşağıdakı tələblər irəli sürülürdü:

1. Bakı şəhərinin salamat şəkildə təhvil verilməsi və bu neft şəhərindən istifadəyə imkan verilməsi;

2. Sülh və dostluq.

Bu şərtlərə əməl ediləcəyi halda aşağıdakılar vəd edilirdi:

1. Bakıya türk qoşunları yeridilməyəcək. Arzu edildiyi halda Bakının ətrafı və bütün yolları alman qüvvələri tərəfindən mühafizə edilə bilər;

2. Şəhərin bütün əhalisinin həyatı, əmlakı və azadlığı toxunulmaz qalacaqdır;

3. Şəhərin atəşə tutulması dayandırılacaq;

4. Bağlanmış olan su kəməri dərhal açılacaq.

Sonra təklif olunurdu ki, danışıqların aparılması üçün Xırdalanla Biləcəri arasındakı neytral zonaya nümayəndələr göndərilsin.

Lakin Erməni Milli Şurası bu təklifləri qəbul etmədi. Əksinə, alınan məktubu «Sentrokaspi diktaturası»na təqdim etdi. Sonra həm Erməni Milli Şurası, həm də «Sentrokaspi diktaturası» bəyanat yayaraq Bakının təhvil verilməyəcəyini bildirdilər (95).

Avqust ayının 23-də türk və alman zabitlərindən ibarət müştərək qrup Bakı cəbhəsində hərbi şəraiti diqqətlə nəzərdən keçirdilər, hansı tədbirlərin necə icrası ətraflı şəkildə götür-qoy edildi. Elə həmin gün Bakıda saxlanılan avstriyalı əsirlər içərisindən bir zabit Qafqaza İslam Ordusu qüvvələri mövqelərinə qaçaraq «Sentrokaspi» və ingilis qoşunlarının miqdarı, imkanları və yaxın planları barədə maraqlı məlumatlar gətirdi. Bu məlumatlardan sonra cəbhədəki şəraiti öyrənən zabitlər qrupu belə bir qənaətə gəldi ki, ən yaxın vaxtlarda Bakı üzərinə qəti hücum təşkil edilməlidir. Çünki Türkiyədən əlavə qüvvələr gələnə kimi «Sentrokaspi» və ingilis qoşunları da xeyli güclənə bilərdi. Ona görə də qərara alındı ki, 311 və 364 rəqəmli təpələr üzərinə hücumlar təxirə salınsın və şəhər üzərinə qəti hücumlar ərəfəsində burada əlavə itkilərə yol verilməsin (96).

Şərq Ordular Qrupu komandanlığının təmsilçisi kimi cəbhə xəttinə gəlmiş Parakuinin də Bakı üzərinə qəti hücumla bağlı özünün mülahizələri və qənaətləri var idi. Həmin qənatlərə görə, Binəqədi və Masazır kəndlərinin şimalındakı göllərarası sahə Novxanıda olan 29-cu tabor tərəfindən, Masazırın cənubu 2-ci mürəttəb süvari alayı tərəfindən nəzarət altına alınmış, 38-ci alay isə 311 və 364 rəqəmli təpələrin şimalında yerləşmişdi. Bu məntəqələr nəzarət altında olduğundan adları çəkilən təpələrə hücuma ehtiyac görülmürdü. Əvəzində isə təklif edilirdi ki, bütün süvari qüvvələrini Bakının şərqinə, digər qüvvələri isə Heybət–Hacı Həsən xəttinə toplayaraq şəhər üzərinə aşağıdakı şəkildə hücuma başlanılsın:

«a) beş alay( bir tabor istisna olmaqla) ilə Hacı Həsən, Heybət stansiyasının bir kilometr şimalı arasından fəcrlə (səhər tezdən–red.) Bakı istiqamətində qayət səri və şədid bir təərrüz yapmaq və bu qüvvədən bir alayı da ümumi ehtiyatda tutmaq;

b) bir tabor ( 38-ci alaydan) iki topdan ibarət bir qüvvə şimal kəndlərindəki silahlı əhalinin qismi-əzəmi ilə eyni gündə Zabratı

işğaldan sonra Balaxanı, Sabunçu arasından Bakı şəhərinin şərq qisminə yürüyərək zəbt etmək;

c) süvari alayı eyni gündə Hövsan kəndindən, Zığ üzərindən Bakıya irəliləmək və Zabratdan enəcək taborla tövhidi-hərəkət etmək;

d) həqiqi təərrüzü icra edən alaylardan üçünün hər birinə topçu taqımı vermək;

e) mütəbaqi topçuları da üç qrup halında topçu komandanı əmri altında təərrüzü qorumaq üzrə xətti-əslidə bulundurmaq» (97).

Ancaq Ordu komandanlığı nə alman zabitlərinin qənaətləri ilə razılaşdı, nə də türk zabitlərinin qənaətləri ilə. Avqustun 25-də Ordudan gələn yeni bir əmrdə 311 və 364 rəqəmli təpələrin ələ keçirilməsi təkidlə tələb olunurdu. Hücum avqustun 26-da təşkil edilməli idi. Əmr alınan kimi dərhal da onun icrasına hazırlıq işləri başlandı. Şərq cəbhəsi komandanının müvafiq döyüş əmrində hücumda iştirak edəcək hissə və bölmələrə aşağıdakı tapşırıqlar verilirdi–13-cü alayın tabeliyində olan 6 ədəd Krup dağ topu hücumdan əvvəl 364 rəqəmli təpəni güclü atəşə tutmalı və buradakı düşmən qüvvələrinə ilkin zərbə endirməklə 38-ci alayın hissə və bölmələrinin irəliyə hərəkətini asanlaşdırmalı idi. Maştağa dəstəsi isə 311 rəqəmli təpənin üzərinə hücuma keçməli idi. Bu dəstənin kiçik bir qüvvəsi Masazır və Mürdəlabi gölləri arasında yerləşdirilməli, qalan qüvvələr isə 29-cu taborla birlikdə təpə üzərinə hücumu həyata keçirməli idi. Cəbhənin sol cinahında olan rus topları Xırdalan ətrafına gətirilməklə onlar həm 13-cü alayın 364 rəqəmli təpə üzərinə top hazırlığını gücləndirməli, həm də Biləcəri ilə Yanardağ arasındakı ərazini nəzarət altında saxlamalı və Biləcəridən yardım göndəriləcəyi halda onları atəşə tutmalı idi (98).

İslam Ordusu komandanı Nuru paşanın bu təpələrin tutulmasına xüsusi diqqət yetirməkdə məqsədi Bakı üzərinə qəti hücum zamanı cəbhənin sol cinahının hər hansı bir təhlükəyə məruz qallmasının qarşısını almaq idi. Əks təqdirdə «Sentrokaspi» və ingilis qüvvələri həmin təpələrdə toplar yerləşdirməklə Biləcəri–Xırdalan ətrafından şəhərə doğru hücumun qarşısını saxlaya bilərdilər (99). Onun üçün hücumun uğurla başa çatmasına da lazımi

qədər qüvvə ayrıldı. Ancaq bu qüvvələr hücumun gedişində qarşıya qoyulan bütün vəzifələrin icrasına nail ola bilmədilər. 13-cü Qafqaz alayı toplarının səmərəli atəşlərindən, habelə düşünülmüş şəkildə həyata keçirilən hücumdan sonra saat 11.40-da artıq 364 rəqəmli təpə alınmışdı. 311 rəqəmli təpənin ələ keçirilməsi isə mümkün olmadı. Maştağa dəstəsinə verilmiş 29-cu taborun hücumu güclü müqavimətlə rastlaşanda ora əlavə qüvvə göndərilməsi, 13-cü alay toplarına da buradakı hücumun himayə edilməsi əmr olundu. 13-cü alay toplarının bu dəfə kifayət qədər səmərəli atəşlər aça bilməməsi, «Sentrokaspi» və ingilis qüvvələrinə əlavə köməyin gəlməsi və s. üzündən təpənin ələ keçirilməsi mümkün olmadı(100).

Avqust ayının 26-da baş verən döyüşləri ingilis generalı Denstervil də öz xatirələrində ətraflı təsvir etmişdir. İngilislərin 39-cu briqadasının komandiri polkovnik Favielin həmin döyüşün gedişi barədə general Denstervilə yazdığı raportunda deyilirdi :

«Türklərin hücumu. 26 avqust 1918-ci il.

Palçıq vulkanı sahəsi Şimali Stafford alayının «D» bölüyü tərəfindən qorunurdu. Ona kapitan Sparrou komandirlik edirdi. Palçıq vulkanının cənub-qərbində düşmənin hərəkəti qeydə alındı. O, sol cinahda süvari dəstəsi olmaqla dörd düzxətli zəncir şəklində hücum edirdi. Hücum edənlərin qüvvəsi təxminən 1000 nəfər idi. Hücum çox gərgin keçirdi və bizim mövqelərimizə tuşlanan ağır və yüngül topların atəşləri ilə himayə olunurdu. Bizim pulemyot və tüfəng atəşlərimiz zəncirvari hərəkət edən bölmələrin qarşısını xeyli saxladı. 1-ci post üzərinə beş dəfə hücum oldu. Beşinci hücumla bu sahənin müdafiəçiləri səngərlərdən uzaqlaşdırıldılar. Gündüz saat birin yarısında düşmən Palçıq vulkanının sağ cinahına çıxmağa müvəffəq olaraq ora pulemyot yerləşdirdi. Onlar 2-ci və 3-cü postları cinahdan atəşə tutdular. Bu vaxt biz düşmənin sol cinahımıza istiqamətlənmiş hücumunun qarşısını aldıq. Saat 2-nin yarısında  2-ci və 3-cü postlar düşmən tərəfindən tutuldu. Bu döyüşdə yalnız 6 nəfər xilas ola bildi. Bütün zabitlər sıradan çıxarılmışdı. Zabitlərlə birlikdə biz 80 nəfər itirdik. Saat 1.30-da Bakıdan yük avtomobillərində göndərilmiş Şimali Stafford alayından 60 nəfər, Varvik taborundan mayor Leyin rəhbərliyi altında 70

nəfər kömək çox gec gəlib çıxdı ki, vəziyyəti düzəltmək mümkün olsun. Mayor Leyin əmri ilə əlavə kömək kimi saat 3.00-da 9-cu Uorçester alayından göndərilən bir bölük bizim yanımıza 3.30-da gəlib çatdı. Təsvir olunan döyüşdən əlavə düşmən Binəqədi kəndinin şimalındakı yüksəklik üzərinə də hücuma keçdi. Bu yüksəklik erməni taboru tərəfindən qorunurdu. Palçıq vulkanına hücum zamanı Şimali Stafford alayının bir bölüyü Binəqədi kəndinə göndərildi ki, oradakı erməni taboruna kömək etsin. Həmin bölük saat 12.15-də ora çatanda qoşunlardan heç kimi tapmadı və özü yüksəkliyə qalxmağa başladı. Bölük yüksəkliyə qalxandan sonra əks-tərəfdən (şimaldan) ora 250 türk əsgərinin irəlilədiyini gördü. Avanqardda olan əsgərlər yüksəkliyin təpəsinin bir qədər aşağıdan keçən səngərlərinə girib tüfəng və Lüis pulemyotlarından güclü atəş açdılar. Düşmən böyük itki ilə geri qovuldu» (101).

Başqa bir ingilis mənbəyində isə avqustun 26-da Qafqaz İslam Ordusu ilə ingilis və Sentrokaspi qüvvələri arasında baş verən döyüş aşağıdakı kimi təsvir olunurdu: ilk hücum səhər saat 10.30-da cəbhənin cənub-qərbində başladı. Döyüş başlayanda polkovnik Faviel Palçıq vulkanı ətrafındakı qüvvələrin möhkəmləndirilməsi üçün Bakıya döndü ki, oradan əlavə bölmələr göndərilməsini təmin etsin. Mənbə də təsdiq edir ki, Qafqaz İslam Ordusu təxminən 1000 nəfərlik bir qüvvə ilə hücuma keçmişdi. Eyni zamanda təsdiq edilir ki, Qafqaz İslam Ordusu qüvvələri yüksək əzmkarlıqla vuruşurdular və onları haubitsalar və ağır toplar müşayiət edirdilər. Sentrokaspi qüvvələrinin topları qarşı tərəfin hücumuna maneçilik yaratmaqda gücsüz idi. Yalnız ingilis pulemyotları müəyyən müqavimət göstərə bilirdi. Qafqaz İslam Ordusu qüvvələrinin beşinci hücum cəhdindən sonra Stafford taborunun şimal tərəfi mühasirəyə alındı. Bu da taborun ağır itkilərlə üzləşməsinə yol açdı. Zabitlərin və əsgərlərin yarıdan çoxu sıradan çıxarıldı. Belə olanda ingilislər geri çəkilməyi qərara aldılar. İngilis mənbəyi təəssüflə qeyd edirdi ki, Sentrokaspi üzvləri ingilislərin köməyinə gəlmədilər. Hətta Biləcəri stansiyasında olmalı olan iki erməni taboru heç öz mövqelərini də tutmamışdılar. Yerli topçular da mövqelərə çıxmaqdan imtina etmişdilər. Günortadan sonra saat 14.30-da mayor Leyin rəhbərliyi

altında Şimalı Stafford və Varvik taborlarına mənsub olan 70 əsgər cəbhəyə gətirildi. Həmin dəstə 2 yerə bölündü. Bir hissə Palçıq vulkanına doğru hərəkət etdi. İkinci hissəni mayor Ley özü ilə Binəqədinin qərbində olan təpəni tutmağa apardı. Həmin təpə də Qafqaz İslam Ordusu qüvvələrinin hücumuna məruz qalmışdı. Böyük çətinliklə ingilislər bu təpəni qorumağa müvəffəq oldular (102).

Binəqədi yaxınlığındakı 311 rəqəmli yüksəklik ətrafında ciddi kəşfiyyat işi aparmadan hakim nöqtəyə qalxmaq cəhdi Şərq cəbhəsi qüvvələrinə xeyli itki ilə başa gəldi. Əlavə qüvvələrin cəlb edilməsi ilə ikinci dəfə təpəni tutmaq cəhdi də burada əlverişli mövqe tutmuş «Sentrokaspi» və ingilis qüvvələri tərəfindən dəf edildi. General Denstervilin yazdıqlarından da aydın göründüyü kimi təpənin qorunub saxlanmasında ingilis qoşun bölmələri xüsusi fəallıq göstərirdilər.

364 rəqəmli təpədən geri çəkilən ingilislər Binəqədi kəndinin şimalından Biləcəri stansiyasına gedən xətt üzrə mövqe tutdular. Bu xətt üzrə iki yerdə müdafiə postu quruldu. Palçıq vulkanının şərqindəki neft buruqları Varvik taborunun bir bölüyü ilə qorunurdu. Şimali Stafford alayının bir bölüyü isə bir qədər cənubda, Biləcəri stansiyası yaxınlığında postda dayanmışdı. Biləcəri yaxınlığında ehtiyat qüvvə təşkil etməli olan iki tabor isə ayın 26-da bura gəlib çıxmışdı. Həmin qüvvələrin qorxaqlığını, nizamsızlığını vurğulayaraq general Denstervil qeyd edirdi ki, ingilis qüvvələri olmasaydı, avqustun 26-da Qafqaz İslam Ordusu qüvvələri Bakıya girə bilərdilər (103).

Avqustun 26-da baş verən döyüşdən sonra «Sentrokaspi» qoşunlarının komandanlığı fəallaşan İslam Ordusu qüvvələrinə qarşı əks-hücuma keçmək barədə müfəssəl bir əmr hazırladı. Bu əmrdə «Sentrokaspi» qoşunları «Bakı və onun rayonlarının ordusu və donanması» adlandırılırdı. Həmin döyüş əmri qarşı tərəflərin mövqelərini, Qafqaz İslam Ordusu qüvvələrinə müqavimət göstərən «Sentrokaspi» ordusunun tərkibini və keyfiyyətini, onların qarşılarına qoyulan vəzifələri öyrənmək baxımından maraqlıdır.

Avqust ayının 26-da saat 16-da imzalanan bu əmrdə(104) göstərilirdi ki, Qafqaz İslam Ordusu qoşunları artıq Novxanı, Goradil, Pirşağı, Kürdəxanı və Fatmayı kəndlərini tutmuşlar. Fatmayı kən-

dində topçu batareyası yerləşdirilmişdir. Maştağa kəndində, Hökməli kəndində, habelə Şabandağ yüksəkliklərindəki mövqelər möhkəmləndirilmişdir. Zihli dağı ətəyində simli maneələr aşkar edilmişdir. Qoşunların komandanı əmr edirdi ki, planlaşdırılan hücumla Fatmayı, Goradil və Pirşağı kəndləri ələ keçirilsin. Buradakı göllərlə dəniz arasındakı sahədə mövqelər möhkəmləndirildikdən sonra hücum davam etdirilməli və Novxanı kəndi də ələ keçirilməlidir. Bu tapşırıqların icrası üçün əməliyyat rayonu döyüş sahələrinə bölünürdü. Əmrdə həmin sahələrə ayrılmış qüvvələrin miqdarı və bu qüvvələrin mövqeləri da müəyyənləşdirilmişdi.

Podpolkovnik Stepanovun rəhbərlik etdiyi Dağ döyüş sahəsinin piyada qüvvələrinə Biçeraxov dəstəsinin nümunəvi alayının iki bölüyü, ingilis qoşunlarının bir bölüyü, «Sentrokaspi» ordusunun 3-cü taborunun dörd bölüyü, 4-cü taborun dörd bölüyü, 5-ci taborun dörd bölüyü və bir yığma bölük, topçu qüvvələrinə isə hərəsində iki top olmaqla haubitsa batareyasının, 5-ci batareyanın, dağ batareyasının hər birindən bir taqım, 6 topu olan ingilis batareyası və bir ədəd zirehli avtomobil daxil idi. Bu döyüş sahəsinə süvari bölmələr də verilmişdi.

Sağ döyüş sahəsi avqustun 27-də Fatmayı, Goradil və Pirşağı kəndləri üzərinə hücuma keçməli və bu kəndləri ələ keçirdikdən sonra oradakı göllərlə dəniz arasındakı sahədə möhkəmlənməli idi. Hücumdan əvvəl güclü topçu hazırlığı aparılmalı idi. Fatmayı kəndi tutulan kimi Maştağa dəstəsinə xəbər verilməli və bu dəstə Maştağa kəndindən Qafqaz İslam Ordusu qüvvələrinin Novxanı kəndinə tərəf geri çəkilməsinin qarşısını almalı idi. Fatmayı kəndinin tutulması xəbərini eşidən kimi Maştağa dəstəsi Maştağa kəndindəki qüvvələrə təslim olmaları üçün ultimatum göndərməli və onlar üçün verilmiş olan yarım saat bitəndən sonra hücuma keçib kəndi tutmalı idi.

Ştabs-kapitan Firzadyanın komandirlik etdiyi Maştağa dəstəsinə 20-ci taborun 7 pulemyotu olan dörd bölüyü, 7-ci taborun iki bölüyü, Keşlə dəstəsinin bir bölüyü, 6-cı səhra batareyasının dörd topu, ingilis qoşunlarının üç pulemyotu, iki zirehli avtomobil və bir süvari bölüyü daxil idi.

Hücum üçün ümumi ehtiyat qüvvəsi də müəyyənləşdirilmişdi. Bura Biçeraxov dəstəsinin bir alayı, hər biri dörd bölükdən ibarət olan 10-cu və 15-ci taborlar daxil idi. Biçeraxovun dəstəsindən olan alayla 15-ci tabor Ermənikənddə, 10-cu tabor isə Sağ döyüş sahəsinin sağ cinahının arxasında, Biləcəri stansiyası yaxınlığında dayanmalı idi.

Qafqaz İslam Ordusu qoşun hissələri Sağ döyüş sahəsinin qarşısında qoyulan döyüş vəzifələrinin icrasına mane olmaq üçün cəbhənin digər nöqtələrində hücuma keçərdilərsə, onda onlara müqavimət göstərmək məqsədilə əlavə üç döyüş sahəsi də yaradılmışdı. 1-ci, 2-ci və 3-cü döyüş sahələri qarşılıqlı fəaliyyət göstərilməsi üçün zəruri əlaqələr yaradaraq ümumi döyüş tapşırığının icrasına zəmin yaratmalı idi.

1-ci döyüş sahəsinə Biçeraxovun 1-ci alayından bir bölük, 19-cu tabordan iki bölük, 5-ci tabordan bir bölük, 22-ci tabordan iki bölük, partiya dəstəsindən bir bölük, ingilis qoşunlarından bir bölük, 2-ci batareyadan dörd top, Klin taqımından iki top, Dəniz təyyarə məktəbindən dörd pulemyot daxil idi. Polkovnik Qazarovun komandirlik etdiyi 2-ci və 3-cü döyüş sahələrinə isə 4-cü, 5-ci , 16-cı, 17-ci, 18-ci. 21-ci taborlar, Biçeraxov dəstəsindən bir nümunəvi tabor, Dəmir dəstə, bir bölük, 4-cü tabordan dörd top, 5-ci batareyadan iki top daxil idi.

Bunlardan başqa, ayrıca topçu döyüş sahəsi də yaradılmışdı. Bura daxil olan 8 top, habelə dəniz hidrotəyyarə divizionu və Kuban təyyarə divizionu Qafqaz İslam Ordusu qüvvələrinin Xırdalan yaxınlığında, Şabandağ, Atəşgah yüksəkliklərində, Saray və Novxanı kəndlərində olan toplarını susdurmalı idi. «Göytəpə» hərbi gəmisi də döyüşün aparılmasına cəlb olunmuşdu. Bu gəmi şəhərdən hərəkət edərək Pirşağı və Goradil kəndləri yaxınlığında sahilə yan almalı, bu kəndləri, habelə Novxanı kəndini toplardan atəşə tutmalı idi.

«Sentrokaspi» ordusunun avqustun 27-nə planlaşdırdığı hücumun taleyi barədə fikir söyləmək çətindir. Mövcud arxiv sənədlərində, habelə türk mənbələrində, Rüşdünün və general Denstervilin xatirələrində bu barədə heç bir qeyd yoxdur. Avqustun axırlarında cərəyan edən hadisələrdən danışarkən general Denstervil

avqustun 26-da və 31-də baş vermiş döyüşlərin üzərində dayanır. Avqustun 27-nə planlaşdırılan və ingilis qoşun bölmələrinin cəlb edilməsi də nəzərdə tutulan bu irimiqyaslı hücum keçirilmiş olsaydı, heç şübhəsiz ki, general Denstervil onu diqqətdən kənarda qoymazdı. Ona görə güman etmək olar ki, «Sentrokaspi» ordusu qərargahının əmrlə rəsmiləşdirdiyi bu hücum elə kağız üzərində də qaldı.

Növbəti irimiqyaslı döyüş tərəflər arasında avqust ayının 31-də baş verdi. Bu döyüş, əsasən, Binəqədi yüksəklikləri ətrafında cərəyan etdi. Ancaq avqustun 26-sı ilə 31-i arasında tərəflər heç də fəaliyyətsiz dayanmamışdılar. İngilis generalı Denstervil həmin müddət ərzində Qafqaz İslam Ordusu hissələrinin aramsız olaraq hücumlara cəhd göstərdiyini qeyd edirdisə, 5-ci Qafqaz diviziyası ərkani-hərb rəisi Rüşdü də öz xatirələrində «Sentrokapsi» və ingilis qüvvələrinin xeyli fəallaşması barədə çoxlu faktlara toxunurdu (105). Məsələn, avqustun 27-də «Sentrokaspi» və ingilis qüvvələri 364 rəqəmli təpə üzərinə hücumlar təşkil etmiş, Maştağa dəstəsi aramsız atəşə tutulmuş, 13-cü alayın mövqelərinə toplardan atəş açılmış, «Sentrokaspi» təyyarələri 10-cu alayın mövqelərini bombardman etmiş, gəmilər isə Abşeron yarımadasının şimalında döyüşə qoşulmağa cəhd göstərmişdilər. Avqustun 28-də və 29-da da Bakının kəndləri ətrafında xeyli fəallıq hiss edilmişdi. Bu mövqe döyüşlərində «Sentrokaspi»nin təyyarələri və gəmiləri də yaxından iştirak edirdilər. Avqustun 30-da Nasoslu yaxınlığına yan alan üç gəmidən 150–200 nəfər silahlı sahilə çıxmış, Nasoslunun 3–4 kilometr şimalında olan Qaratəpəyə qədər hərəkət etmiş və burada həmin qüvvələr Qubadan gələn 20-yə qədər yüklü arabaların qarşısını kəsmişdilər. Sahil müşahidə postlarından bu barədə xəbər alınan kimi dərhal «Sentrokaspi» silahlılarına qarşı qüvvə göndərildi. Bundan başqa, 2-ci mürəttəb süvari alayından da bir bölük bir pulemyotla hadisə yerinə göndərildi. Süvarilər çatana qədər «Sentrokaspi» silahlıları üç arabanın yükünü gəmilərə daşıyıb oradan uzaqlaşmışdılar (106).

31 avqust döyüşündən əvvəl Qafqaz İslam Ordusunun Bakı ətrafında olan qüvvələri yenidən qruplaşdırıldı və üç taktiki qrup yaradıldı: Şimal, Cənub və Qərb qrupları. Şimal qrupu Xırdalanın

şimal-şərqindəki boyun nöqtəsindən başlayıb Mərdəkandan keçən və dənizə qədər uzanan sahədə yerləşməli idi. Qrupun komandiri Osman bəy təyin edildi. Onun qərargahı Masazırda idi. Şimal qrupu yerləşdiyi sahədən şimalda olan əraziləri də müşahidə altında saxlamalı idi. Qərb qrupunun sahəsi Şimal qrupunun Xırdalan ətrafındakı təmas nöqtəsindən başlayaraq Puta stansiyasına qədər uzanırdı. Qrupun komandiri Cəmil Cahid bəy idi. Cənub qrupu isə Puta ilə Ələt arasındakı sahədə yerləşməli idi. Qrupa komandir qayməqam Həlim Pərtöv bəy təyin olundu. Onun qərargahı isə Hacıqabulda idi. Hacıqabul–Bakı arasındakı daşınmaların təhlükəsizliyi bu qrupun nəzarəti altında idi. Salyanda dayanan dəstə də bu qrupun tabeliyinə verildi (107).

Adları çəkilən qrupların yaradılması və onların fəaliyyət sahəsinin dəqiqləşdirilməsi ilə Bakı şəhəri üç tərəfdən əhatə edildi və mühasirə həlqəsi qapadıldı. Qafqaz İslam Ordusu qüvvələri bu mühasirə həlqəsi daxilində «Sentrokaspi» və ingilis qoşunlarına zərbə endirərək addım-addım şəhərə yaxınlaşmalı idi. Avqust ayının 31-də keçirilən döyüş də «Sentrokaspi» və ingilis qoşunlarının nəzarəti altında olan mühüm məntəqələrin ələ keçirilməsi məqsədinə xidmət edirdi. Bu döyüş şimal qrupunun qüvvələri tərəfindən aparılmalı idi. Qrup komandirinin imzaladığı döyüş əmrinə görə, qrupun hissə və bölmələri bu döyüşlə Digah–Binəqədi xəttində mövcud olan hakim yüksəklikləri ələ keçirməli idi. 13-cü alay səhər tezdən saat 4-də hücuma başlayaraq Masazır gölünün cənubundan keçməklə Binəqədi təpəsində möhkəmlənməli idi. 38-ci alayın birinci taboru ilə 29-cu tabor eyni vaxtda döyüşə başlayaraq Binəqədi ətrafındakı digər yüksəkliklər uğrunda mübarizə aparmalı idi. Döyüşə 2-ci mürəttəb süvari alayının bir bölüyünün cəlb edilməsi də nəzərdə tutulurdu. Bu bölük piyadaların qazandıqları uğurun genişləndirilməsində iştirak etməli idi. Döyüş eyni zamanda qrupun tabeliyində olan topların atəşləri ilə himayə olunmalı idi (108).

Avqustun 31-də Şimal qrupunun döyüş tapşırığı alan bölmələri hücuma keçdilər. 13-cü alayın, 38-ci alayın birinci taborunun, habelə 29-cu taborun şəxsi heyəti böyük bir sürət, iradə, qətiyyət və döyüşkənlik nümayiş etdirərək hələ səhər tezdən Binəqədidəki

311 rəqəmli təpəni ələ keçirdilər. Bu təpədə mövqe tutan «Sentrokaspi» və ingilis qüvvələri başlanan hücumun qarşısını ala bilməyərək Biləcəriyə doğru geri çəkildilər.

İngilis hərbçiləri öz aralarında Binəqədi ətrafındakı 311 rəqəmli təpəni Stafford təpəsi adlandırırdılar. Bir neçə gün ərzində Stafford taboru hərbçilərinin nəzarəti altında olduğu üçün ona bu ad verilmişdi. İngilis mənbələrinə görə, həmin gün təpəni Stafford alayından Pittinin rəhbərliyi altında olan 80 nəfərlik bir dəstə qoruyur və Qafqaz İslam Ordusu qüvvələri isə 500 nəfərlik bir qüvvə ilə hücum edirdi. Həmin mənbə də artıq səhər saat 8-də ingilislərin həmin təpədən geri çəkilməli olduqlarını təsdiqləyirdi

Qrup komandanlığı 38-ci alaya əlavə yardım göndərərək cinahlarda olan düşmən qüvvəsini geri atmaqla gün ərzində Digah və Məhəmmədi kəndlərini tutmağı və orada möhkəmlənməyi əmr etdi. Bu qüvvələr irəliyə doğru hərəkəti davam etdirərək günün sonuna Digahın şimal və qərb ətrafını nəzarət altına aldılar. Hava qaraldığı üçün qüvvələrin elə həmin mövqelərdə də gecələməsi məqsədəuyğun bilindi(109). Bununla da növbəti hücumla Bakı ətrafında bir neçə mühüm mövqelər ələ keçirildi və düşmən qüvvələri şəhərə doğru xeyli sıxışdırıldı. Başlıcası isə «Sentrokaspi» və ingilis qoşunlarının mənəvi-psixoloji əhval-ruhiyyəsində Qafqaz İslam Ordusu qüvvələrinin qarşısının saxlanmasının qeyri-mümkünlüyü barədə artıq bir əminlik yaranmağa başlamışdı.

General Denstervil həmin mövqelərin itirilməsində başlıca olaraq «Sentrokaspi» qüvvələrini ittiham edirdi. Bu döyüşün gedişi ilə bağlı o, polkovnik Favieldən aldığı yazılı raportu eynilə öz xatirələrinə daxil etmişdi. Həmin raportda deyilirdi: «Leytenant Pittinin komandirliyi altında olan 1-ci Şimali Stafford alayının 80 nəfərlik bir bölüyünün yerləşdiyi Binəqədi yüksəkliklərindən təkəm-seyrək tüfəng atəşləri eşidilməyə başladı. Pitti ona güclü türk dəstəsinin yaxınlaşması barədə məlumat verdi. Səhər saat 6-da ikinci yazılı məlumat daxil oldu. Orada bildirilirdi ki, 500 nəfərlik düşmən qüvvəsi yüksəkliyin qərb tərəfinin ətəklərində toplaşırlar.

Bütün bunlar haqqında mən dərhal dəstənin qərargahına xəbər verdim. Digah ətrafında olan Varvik taborunun bir bölüyünə əmr

etdim ki, Binəqədi neft mədənlərinin mərkəzinə doğru irəliləsin və ehtiyat qüvvə kimi orada qalsın. Eyni zamanda mən mövqelərin sağ sahəsinin komandiri polkovnik Qazarovdan xahiş etdim ki, zirehli qatarı Biləcəri stansiyasına hərəkət etdirsin və Palçıq vulkanına qarşı nümayiş hücumuna başlasın. 12 dağ və səhra toplarının, habelə pulemyotların himayəsi altında saat 6-ya yaxın hücum başladı» (110).

Binəqədi ətrafındakı yüksəkliklərin əldən verilməsindən, habelə çoxsaylı itkilərin verilməsindən çox təəssüflənən general Denstervil elə həmin gün "Sentrokaspi" rəhbərlərinə məktub göndərdi və orada ingilis dəstəsinin rastlaşdığı çətinliklərə toxundu. O, xüsusi olaraq, vurğuladı ki, Bakıya əlavə ingilis qüvvələri gətirilməyəcək və ona görə də Bakının əldə saxlanması üçün Bakı hökuməti də lazımi işlər görməlidir: "Bakıdakı ingilis qoşununun daha çox dərəcədə qüvvətləndirilməsi gözlənilmir. Bu sabah Bakı qoşunlarının əksəriyyəti döyüş olacaq yerdən çəkilmişdir. Şübhəsiz çox yaxın vaxtlarda dəmir yolu xəttinə çəkilmək lazım gələcəkdir. Bu dəmir yolu xətti də tutulması hər an mümkün olan son müdafiə mövqeyidir. Hətta o zaman Bakı qüvvələri göstərmədiyi döyüş əzmini indi göstərərlərsə, qəsəbə və liman yenə xilas oluna bilər. Lakin nə zaman güllə səsi eşidərkən geri çəkilərsə və daha çox müdafiə mövqeyi tutacaqlarsa, zaman və can israfı olacaq. Mən qoşunumla yaxşı bir nəticə əldə edilməsinə qədər müdafiəyə davam arzusunda isəm də, döyüş niyyətində olmayan qoşunla bu işi görməyə çalışmaq tamamilə bihudədir" (111).

Hava qaranlıq ikən Şimal qrupunun qüvvələri ingilis mövqelərinə xeyli yaxınlaşa bilmişdilər. İngilis bölmələrinin irəli çıxarılan pulemyotları və topları hücumun qarşısını saxlamağa cəhd göstərsələr də, cinahlardan olan təzyiqlərin qarşısını almaq mümkün olmadı. Top atəşlərinin sərrastlığı ingilis bölmələrinin müqavimətini xeyli zəiflətdi. Saat 7.50-də ingilis bölmələri Şimal qrupunun hücumuna davam gətirməyərək geri çəkilməyə başladı. Xüsusilə leytenant Pittinin öldürülməsi bölmədə bir çaşqınlıq yaratdı. Saat 8.30-da təpəni müdafiə etməyə çalışan bölmə oranı tamamilə tərk etdi və sağ cinaha tərəf geri çəkildi. Digahdakı Var-

vik taborunun bölüyü bu məntəqəyə çox gec gəlib çatdı. Buna görə də onlar döyüşdə bir dəyişiklik yarada bilmədilər. Polkovnik Favielin yazdıqlarına görə, saat 11.15-də Şimal qrupunun bölmələri Varvik taborunun üzərinə hücum etdi. Binəqədi yüksəkliyinin itirilməsi, habelə erməni hissələri tərəfindən heç bir yardım göstərilməməsi Varvik taborunu ciddi təhlükə ilə üzləşdirdi. Taborun hər iki cinahı kifayət qədər müdafiə olunmadığı üçün mühasirə qorxusu yarandı. «Sentrokaspi» və ingilis qüvvələri geri çəkilərək Biləcəri və Binəqədi kəndinin şərqi və Digah kəndi arasındakı ərazidə mövqe tutdular. Ancaq həmin ərazidə dayanmaq da onlar üçün təhlükəsiz deyildi. Ona görə də qərara alındı ki, ingilis bölmələri bir qədər də geri çəkilsinlər. Beləliklə, avqustun 31-də axşam ingilis bölmələri Biləcəriyə gələn dəmir yolu və Dərnəgülün qərb hissəsi arasında müdafiə mövqeləri tutdular (112).

Avqustun 31-də keçirilən uğurlu hücumda Qafqaz İslam Ordusu hissələrinin əlinə 6 pulemyot, xarab olmuş bir səhra topu, yük arabaları, 38 mətbəx arabası, xeyli güllə və mərmi keçdi(113). Başlıcası isə yenidən bir neçə strateji məntəqə «Sentrokaspi» və ingilis qüvvələrindən təmizləndi və bu qüvvələr yenidən Bakıya doğru sıxışdırıldılar. Bu hücumdan sonra Şimal qrupunun qüvvələrinin vəziyyəti belə idi: 107-ci alay (2-ci tabor istisna olmaqla) iki taboru ilə Binəqədidəki 311 rəqəmli təpədə idi. 38-ci alay 2-ci taboru ilə Maştağada, digər taborları və 29-cu tabor Digahın şimalında və qərbində mövqe tutmuşdular. 107-ci alayın 2-ci taboru 38-ci alayın ehtiyatını təşkil edirdi. 13-cü Qafqaz alayının bir taboru 364 rəqəmli təpədə, digər iki taboru isə Şimal qrupunun ehtiyatında saxlanılırdı. 2-ci mürəttəb süvari alayı ilə milli Azərbaycan süvari alayları Fatmayıda, Ləzgi milli süvari alayı isə Binədə yerləşirdilər. Şimal qrupunun 38-ci alay məntəqəsində 2 ədəd Krup və 4 ədəd Şnayder topu, 311 və 364 rəqəmli təpələrdə isə 2 ədəd rus dağ, 4 ədəd rus səhra və 4 ədəd Krup topları var idi. Digər qrupların qüvvələri avqust ayının sonu üçün aşağıdakı mövqelərdə qərar tutmuşdular. Qərb qrupu üzrə – 9-cu Qafqaz piyada alayı Puta stansiyası ilə Hacı Həsən kəndinin 3 kilometr cənub nöqtəsi arasında idi. 10-cu Qafqaz alayı (29-cu tabor istisna olmaqla) 9-cu alayın sol cinahı ilə Xırdalanın şimal-şərq ətəyi ara-

sında idi. Qrupun tabeliyində 14 ədəd top var idi. Cənub qrupunda isə 4-cü alayın 2-ci taboru və Ağdaş süvari bölüyü Salyanda, 4-cü alayın 1-ci taboru Puta–Ələt arasında, xidmət bölmələri Hacıqabulda və Güzdəkdə yerləşmişdilər. Qrupun tabeliyində 8 ədəd top var idi (114).

Cənub və Qərb qruplarının mövqeləri dəyişməz qalsa da, Şimal qrupunun sahəsində Qafqaz İslam Ordusu qüvvələrinin xeyrinə əhəmiyyətli mövqe dəyişiklikləri baş vermişdi. Bu isə istər «Sentrokaspi» rəhbərlərini, istərsə də ingilis qüvvələri komandanlığını çox ciddi təşvişə saldı. Elə avqustun 31-də axşam saat 8-də «Sentrokaspi diktaturası»nın Hərbi Şurasının iclası keçirildi. Şəhərdə mövcud olan hər türlü qurumların, o cümlədən Erməni Milli Şurasının nümayəndələri burada yaranmış vəziyyət barədə uzun-uzadı müzakirələr apardılar. Ancaq ağlabatan bir çıxış yolunu tapa bilmədilər. Səhərisi gün general Denstervil də özlüyündə vəziyyəti ciddi götür-qoy etdi və belə bir qərara gəldi ki, müqavimət göstərmək əbəsdir. Artıq Qafqaz İslam Ordusunun hücumlarının qarşısını saxlamaq mümkün deyil. O, bu qərarını açıqlamaq üçün şəhərdəki müxtəlif qurumların rəhbərlərini saat 4-də yanında keçiriləcək müşavirəyə dəvət etdi. Həmin müşavirədəki çıxışında general dedi: «Yer üzərində heç bir qüvvə Bakını türklərdən qoruya bilməz. Şəhərin müdafiəsinin davam etdirilməsi yalnız süqut məqamının çatması vaxtının uzadılması demək olardı. İndiyə kimi yalnız mənim əsgərlərim döyüşürdü. Hər döyüşdə də mənim əsgərlərimin igidliyinə baxmayaraq, türklər üstün gəlirdilər. Özü də yalnız ona görə ki, yerli qoşunlar bizimkilərə kömək göstərmirdi. Mən razı ola bilmərəm ki, mənim adamlarımın həyatı mənasız yerə qurban verilsin. Biz bura gəlmişdik ki, türklərə qarşı vuruşmaqda sizinkilərə kömək edək. Gəlməmişdik ki, sizin yurddaşlarınızın məsxərəsi altında özümüz müharibə aparaq... Mən sizə məsləhət görərdim ki, düşmən yanına dərhal nümayəndə heyəti göndərin və müəyyənləşdirin ki, türklər hansı şərtlərlə sizinlə sülh bağlamağa razı olacaqdır. Şəhərdən qadınların çıxarılmasına imkan verən əlverişli şərtlərin əldə edilməsi sizin üçün çətin olmayacaqdır. Heç olmasa bununla siz türklərin və azərbaycanlıların şəhəri silah gücünə tutmasındansa

hadisələrin gedişinə daha yaxşı istiqamət vermiş olardınız» (115).

Heç şübhəsiz ki, «Sentrokaspi» rəhbərləri və şəhərdəki erməni qurumlarının fəalları belə bir təkliflə razı deyildilər. «Sentrokaspi diktaturası»nın rəhbərləri dərhal bu təklifə öz münasibətlərini bildirdilər və general Denstervilə rəsmi məktub göndərdilər. Məktubda deyilirdi: «Ayın 1-i tarixli məktubunuza cavab olaraq nəzərinizə çatdırırıq ki, şəhəri tərk etmək üçün ingilis qoşunlarına icazə yalnız bizim qoşunlarla şəhərdən birgə çıxacaqları təqdirdə və özü də şəhərin dinc əhalisinin təxliyəsindən tez olmamaq şərtilə verilə bilər» (116).

Sentyabr ayının 4-də isə «Sentrokaspi diktaturası»nın rəhbərləri general Denstervilə daha müfəssəl bir cavab göndərdilər (117). Bu cavab adi cavabdan daha çox ingilis generalına ünvanlanmış hədələr idi. «Sentrokaspi» rəhbərləri çox açıq şəkildə bildirirdilər ki, ingilis qoşunlarını nəinki şəhərdən buraxmayacaqlar, əksinə onlardan tələb edirdilər ki, əlavə qüvvələr gətirsinlər və Qafqaz İslam Ordusunun hücumlarının qarşısını alsınlar. Hətta «Sentrokaspi» rəhbərləri Bakı ətrafında hərbi şəraitin mürəkkəbləşməsində ingilisləri təqsirkar bilirdilər və buna görə də tələb edirdilər ki, onların günahı üzündən mürəkkəbləşmiş hərbi şəraiti onlar özləri də sabitləşdirməlidirlər: «Biz sizinlə hərbi saziş bağlayanda Bakı şəhərinin və rayonunun həm Rusiya Respublikası naminə, həm də ümumi müttəfiqlik naminə qorunması məsuliyyətini birlikdə öz üzərimizə götürdük. Sizinlə olan ittifaqımız Rusiya bolşevikləri ilə bizim aramızda olan münasibətlərin tamamilə qırılmasına gətirib çıxardı. Onda onların adamlarla, silahla, hərbi təchizatla və ərzaqla Bakıya köməyi də sona yetdi. Güman edirik sizin xəbəriniz var ki, Bakıda bolşevik hakimiyyəti devriləndə Leninin nümayəndələri burada koalisiyon hökumət yaratmaq istəyirdilər və söz verirdilər ki, ingilis qoşunlarının Bakıdan və onun rayonlarından çıxarılacağı təqdirdə bizə zəruri olan bütün hərbi təchizatı göndərəcəklər və türklərə qarşı mübarizədə də ən səmərəli yardımı göstərəcəklər».

Məktubda sonra bildirilirdi ki, Lenin tərəfindən irəli sürülən təkliflər qəbul edilmədi. Çünki Bakının azad edilməsi, bütünlükdə Brest-Litovsk müqaviləsinin ləğv edilməsi üçün bütün ümidlər

ingilis qüvvələrinə bağlanılırdı. Ona görə də belə bir inam var idi ki, ingilislər Bakıya kifayət qədər qüvvə ilə gələcəklər və nəinki Bakını, o cümlədən də Bakının ətrafını yadların əlindən xilas edəcəklər: «Bədbəxtlikdən biz səhv etdik. Sentyabrın 3-nə kimi olan müddət ərzində siz Bakıya bir mindən azacıq artıq adam, 16 ədəd top və az miqdar texniki material gətirdiniz. Göndərdiyiniz köməyin azlığını əsaslandırmaq, habelə sizin Bakı dəstəsinin hərbi keyfiyyətlərinin və texniki təchizatının üstünlüyünü sübut etmək üçün hansı səbəbləri gətirməyə çalışsanız da sizin nəzərinizə çatdırmağı zəruri bilirəm ki, (xahiş edirik bunu hökumətinizə də çatdırasınız) bizim haqlı olaraq gözlədiyimiz həcmdə bizə yardım göstərmədiniz...»

«Sentrokaspi» liderləri onu da əlavə edirdilər ki, əgər Lenin hökumətindən vaxtında kömək alınsaydı, nə Bakı ətrafında vəziyyət onlar üçün bu qədər mürəkkəbləşərdi, nə də baş verən döyüşlərdə əlavə itkilərə yol verilərdi. Əksinə, güman edilirdi ki, bolşeviklər köməyə gəlmiş olsaydılar, Qafqaz İslam Ordusuna qarşı dayanan qüvvələr xeyli möhkəmlənərdi. Belə bir ittihamı irəli sürməklə «Sentrokaspi» rəhbərləri aşağıdakı tələblərini də general Denstervilin diqqətinə çatdırırdılar: «Bütün baş verənlərin nəticəsi olaraq indi biz təkid edirik ki, siz dərhal ya İrandan, ya da Bağdaddan Bakıya kafi miqdarda qoşun gətirəsiniz. Biz bu köməyi özümüz üçün zəruri, sizin üçün isə məcburi sayırıq (Biz eyni zamanda Petrovskdan, Biçeraxov tərəfindən və Şimali Qafqazdan əlavə qüvvə gözləyirik). Bu köməyi gözlədiyimiz vaxt bir neçə gün də türklərə qarşı duruş gətirməyimizi xüsusi zəruri sayırıq. İnanırıq ki, biz buna nail olacağıq. Biz şəhərin düşmənə təslim edilməsi barədə hər cür təklifi rədd edirik və bu barədə sizin təkidli təkliflərinizə öz təəccübümüzü bildiririk. Biz bütün imkanlardan istifadə etməklə mübarizəni son anadək aparmaq əzmindəyik».

Beləliklə, «Sentrokaspi» rəhbərləri açıq-aydın bildirirdilər ki, onlar ingilis qoşunlarını Bakıdan heç yana buraxmayacaqlar. Bu tələbin yerinə yetirilməsi üçün kifayət qədər imkan da mövcud idi. «Sentrokaspi»nin hərbi gəmiləri gecə- gündüz Bakı buxtasında keşik çəkir, şəhərə gəlib-gedən gəmiləri yoxlayırdılar. Həmin gəmilər ingilisləri də asanlıqla saxlaya bilərdilər. Ona görə ge-

neral Denstervil tabeliyində olan qoşun bölmələrinin gəmilərə yüklənib şəhərdən çıxarılmasına da ürək etmirdi və sentyabr ayının əvvəlində ingilislər artıq iki cəbhə arasında qalmışdılar. Bir tərəfdən Qafqaz İslam Ordusu qoşunları onları sıxışdırırdısa, digər tərəfdən də «Sentrokaspi» hökuməti onların şəhəri tərk etməsinə imkan vermirdi və Bakıdan yola düşəcəkləri təqdirdə bu hökumətin təxribatları ilə qarşılaşa bilərdilər.

Çarəsiz qalan ingilis komandanlığı yerli qoşunların möhkəmləndirilməsi və bununla da dərinləşməkdə olan hərbi böhranın qarşısının alınması üçün yeni bir cəhd göstərdi. «Sentrokaspi» qoşunlarının yenidən qurulması üçün layihə hazırlandı və bu layihə hökumətin hərbi nazirinə təqdim edildi. Hərbi hissələrin təlim və tərbiyəsi nəzarət altına götürüldü, şəhər ətrafındakı müdafiə xəttinin möhkəmləndirilməsinə diqqət artırıldı. «Sentrokaspi»nin rəhbərləri də vəziyyətin onlar üçün artıq çıxılmaz olduğunu görüb hərbi qüvvələrin möhkəmləndirilməsinə daha məsuliyyətlə yanaşırdılar. General Denstervil yazırdı ki, bir həftə içərisində «Sentrokaspi» hissələrinin təlim və tərbiyəsində xeyli müsbət keyfiyyət dəyişikliyi yarandı. Lakin intizam əvvəlki kimi qalmaqda davam edirdi(118).

General Denstervili həm də o sevindirirdi ki, onların ixtiyarında iki rus təyyarəsi, iki ingilis təyyarəsi və altı ədəd zirehli avtomobil var idi. Qafqaz İslam Ordusunun sərəncamında təyyarə olmadığı üçün döyüşlərin gedişində müəyyən üstünlük əldə etmək mümkün idi(119).

«Sentrokaspi» və ingilis qoşunlarının ixtiyarında olan bu təyyarələrdən artıq döyüşlərdə istifadə edilirdi. Avqustun 31-dəki irimiqyaslı döyüşdən sonra itirilmiş mövqelərin bərpa edilməsi üçün də bu təyyarələr havaya qaldırılmışdı. Ancaq hərbi təşəbbüs artıq Qafqaz İslam Ordusunun əlinə keçmişdi. Ona görə də «Sentrokaspi» qoşunlarında yaranmış müsbət dəyişikliklər barədə general Denstervilin yazdıqları da nəticəsiz qaldı. Sentyabr ayının 1-də Şimal qrupunun qüvvələri hücumu davam etdirdilər. Artıq elə günün birinci yarısında Digah və Məhəmmədli kəndləri, habelə Digahın cənubundakı 345 rəqəmli təpə ələ keçirildi. «Sentrokaspi» və ingilis qoşunları böyük bir vahimə içərisində Balaxanı və

Ramana kəndləri istiqamətində geri çəkildi. Bu istiqamətdə gedən döyüşlərdə Şimal qrupunun bölmələri bir düşmən təyyarəsi vurdular. Həmin təyyarə Salyan qışlası yaxınlığında yerə düşüb məhv oldu (120).

İngilis mənbələrinə görə, Digah kəndi ətrafında Varvik taborunun iki bölüyü ilə rus və erməni taborları mövqe tutmuşdular. Buradakı müdafiə mövqelərinin güclü olmadığı üçün ingilislər rus və erməni taborlarının geri çəkilməsini məsləhət bildilər. Lakin yerli qüvvələr bunu qəbul etmədilər. Səhər tezdən döyüş başlayanda rus və erməni taborları uzun müddət müqavimət göstərə bilmədilər və tezliklə mövqelərini tərk edib geri qaçmağa başladılar. Belə olanda Varvik taborunun bölükləri iki tərəfdən atəş altına düşdülər. Onlar geri çəkilə bilsələr də, xeyli itki də verdilər. Mənbədə göstərilir ki, həmin döyüşdə ingilislər 70-dən çox zabit və əsgər itirdilər. Bundan sonra general Denstervil belə bir qənaətə gəldi ki, ingilis qüvvələri artıq Bakıdan çıxarılmalıdır (121).

Elə həmin gün, yəni 1918-ci il sentyabr ayının 1-də ingilis hərbi qüvvələrinin Bağdaddakı hərbi qüvvələrinin qərargahına ingilis qüvvələrinin Bakıdan çıxarılmasının məqsədəuyğunluluğu barədə teleqram göndərildi. Bundan əvvəl Böyük Britaniya Hərbi Nazirliyindən göstəriş alınmışdı ki, general Denstervil Bakını tərk etməli olduğu halda neft yataqlarını xarab etsin. General Denstervil Bağdada göndərdiyi teleqramda bu məsələyə də münasibət bildirdi. O yazırdı: “Bakını xilas etməyin mümkün olacağı şübhəlidir. İngilis yardımçı qüvvələrinin Bakıya gəlmələrindəki gecikmə düşmənin üstünlüklər əldə etməsinə səbəb olmuş, qoşunlarımız son müdafiə xəttinə çəkilmək məcburiyyətində qalmışdır. Bakıda 900 nəfərlik ingilis qüvvəsinə və güvənə biləcəyim təqribən 1000 nəfər rusa malikəm. Bakı qüvvələrinin qalan qismi faydasızdır. Düşmənin təqribən 6000 nəfərlik nizami və 8000 nəfərlik qeyri-nizami qüvvəsi vardır. Qəsəbədə bir çox düşmən tərəfdarları ilə casuslar da mövcuddur. Hərbiyyə Nazirliyinin əmrini gizli tutsam da, Bakı hökuməti bizim yeganə məqsədimizin neft quyularını xarab etmək, hərb flotuna hakim olmaq, onların düşmənlə sülh bağlamaq üçün yeganə vasitələrini əllərindən aldıqdan sonra onları tərk etmək olduğunu

düşünməyə başlamaqdadırlar və buna yardım üçün vaqe olan dəvətlərinə qarşı şərəfsiz bir cavab sayırlar. Lakin üzərində dəniz topu yerləşdirilə bilən gəmi əldə etmək xüsusunda böyük bir əzmlə çalışdım və nəhayət, ancaq heyəti rus olmaq şərtilə mənə iki gəmi ayırdılar. Bakını əlimizdə saxlamağa davam etdiyimiz halda hərb flotuna hakim olmaq və ya neft quyularını düşmənə buraxmaq barəsində hər vaxt öz fikrimi demişəm. İngilis hökumətinin bu mənada xəyallara qapılmadığına və Bakı alındığı zaman nifrət qazanacağımızı və ağır günahlarda ittiham ediləcəyimizi bildiyinizə əminəm".

Bakı ətrafında hərbi təşəbbüsün bir dəfəlik Qafqaz İslam Ordusunun əlinə keçdiyi üçün Ənvər paşa da şəhərin ələ keçirilməsini sürətləndirməyi təkid edirdi. Bir tərəfdən Bakı ilə bağlı beynəlxalq çəkişmələrin kəskinləşməsi, digər tərəfdən də ingilislərin şəhərə əlavə qüvvələr gətirə biləcəyi Ənvər paşanı ehtiyatlandırırdı və ən yaxın vaxtlarda məsələnin həllini tələb edirdi. Onun Bakı ilə bağlı son fikirləri belə idi: «Bakıya ingilis qüvvələrinin gəlməsi və Bakının ingilislər tərəfindən savunulması (müdafiə edilməsi–red.) ilə bu cəbhədəki əsgəri durum tamamilə dəyişmişdir. Rus bolşevik hökumətinin kəndilərinə tərk edilən Bakını ingilislərdən alaraq oradakı qaynaqlardan kəndlilərinin istifadə etməsinə yetəcək qüvvələr yoxdur. Halbuki ingilislər Bakıya daha bir müddət buraxılarsa, bu cəbhədə iyidən-iyiyə yerləşəcəklər və cəbhəni ələ keçirilməz bir hala qoyacaqlardır. Bu sürətlə Bakıda yerləşən ingilislərin Azərbaycanın çoxunu ermənilərə verərək bir ermənilik vücuda gətirməyə, bununla gərək Qafqaz və İran girişmələrini, gərəksə də gürcü müstəqil hökumətini təhdidə çalışacaqları şübhəsizdir. Bu mühtəməl duruma görə, hər halda Bakıya təərrüz edilməsi, ingilislərlə erməni bolşeviklərinin buradan atılması lazımdır» (122).

Bakıya əlavə ingilis qüvvələrinin göndərilməsinin qarşısının alınması üçün Ənvər paşa tələb edirdi ki, 9-cu Ordudan İranın Təbriz, Qəzvin və daha cənub məntəqələrinə qoşun dəstəsi göndərilsin və buradakı ingilis qüvvələrinin diqqəti yayındırılsın. Bununla da ingilislərin bölgəyə əlavə qüvvə gətirmək imkanı olsa da, onu Bakıya deyil, İrandakı vəziyyətin düzəldilməsinə istiqamətləndirsinlər (123).

Osmanlı ordusu Baş komandanlıq vəkaləti tərəfindən Bakının yaxın vaxtlarda ələ keçirilməsi üçün eyni zamanda buradakı qüvvələrin möhkəmləndirilməsi üçün də konkret tədbirlər həyata keçirirdi. Bu məqsədlə 15-ci diviziyanın 9-cu Ordudan alınaraq Qafqaz İslam Ordusunun tərkibinə verilməsi və Bakı ətrafına gətirilməsi qərara alındı. Həmin diviziyanın Bakı ətrafına yetişməsi ilə şəhər üzərinə qəti hücum başlanmalı idi. Bu hücuma rəhbərlik etmək üçün Şərq Ordular Qrupu komandanı Xəlil paşa da Bakı ətrafına gəlməli idi. 15-ci diviziyanın Bakı ətrafına gətiriləcəyi və onun gəlməsi ilə şəhər üzərinə hücum üçün hansı işlərin görülməli olacağı, qüvvələrin qruplaşdırılmasında hansı dəyişikliklərin ediləcəyi barədə Nuru paşa sentyabr ayının 1-də belə bir əmr imzaladı:

«1. Bakı cəbhəsini təqviyə etmək üzrə 9-cu Ordudan 15-ci diviziya qərargahı ilə 56-cı və 106-cı piyada alayları ilə bir qüdrətli, bir 105 mm-lik Şkada dağ haubitsa və bir də 105 mm-lik səhra haubitsa batareyası gəlməkdədir.

2. Bakıya təərrüzü-qəti işbu qitəatın vürudunun ardınca yapılacaqdır.

3. 364 rəqəmli Yanardağ–Biləcəri stansiyası xətti əğləbi-ehtimal hər iki diviziya arasında xətti-fasil olacaqdır. Yanardağ 15-ci diviziyaya aid olmaq üzrə 15-ci diviziya işbu xəttin şərqində bulunacaqdır.

4. Təərrüzə hazırlıq olmaq üzrə xüsusati-atiyənin icrası lazımdır. İcralar ayrıca orduya bildirilməlidir:

a) mürəttəb süvari (türk–M.S) alayı və «Vəhşi diviziya» (Azərbaycan–M.S.) süvariləri həmən (dərhal–red.) Mərdəkana gedərək Ləzgi (Azərbaycan–M.S.) alayı ilə birləşəcəkdir. Hamısı Zehni bəyin komandasına veriləcəkdir;

b) dağınıq qitəat birliklərinə iltihaq edəcəkdir (birləşəcəkdir–red.). 15-ci diviziya əmrində 106-cı, 56-cı və 38-ci alaylar bulunacaqdır;

c) Gəncədə və Kürdəmirdə mövcud rus səhra və dağ mərmiyyatı kamilən sövq olunur. Buradan alınaraq icab edən məhəllərə sövq ediniz. Rus səhra topları üçün top başına mindən çox atım olduğundan bilxassə təərrüzü-qəti məntəqəsində bunlardan

çoxluca istifadə edilməmişdir;

d) 5-ci diviziya qərargahı Qobu və 15-ci diviziya qərargahı Masazırda olacaqdır. İndidən bu mövqelərlə Güzdək arasında telefon irtibatı tənzim və islah olunmalıdır. Teleqraf xətlərinin təsisi üçün Ordu teleqraf müdiri göndərildi;

e) əfrad təərrüzü-qəti gününə qədər yaxşı iaşə olunmalı və cəbhə gerisində ehtiyat ərzaq bulundurmalıdır» (124).

15-ci diviziyanın Bakı ətrafına göndəriləcəyi xəbəri Qafqaz İslam Ordusu tərəfindən rəsmi olaraq sentyabrın 1-də təsdiqlənsə də, 15-ci diviziyanın özünə bu barədə əmr avqust ayının 27-də verilmişdi. Diviziya komandiri Süleyman İzzət bəy həmin gün saat 11.50-də 9-cu Ordu komandanlığından telefonla aldığı əmrə əsasən diviziyanın 56-cı və 106-cı alaylarına, qüdrətli cəbəl batareyasına, qüdrətli haubitsa taborundan bir batareyaya, teleqraf taqımına, səhiyyə bölüyünə, iaşə bölməsinə Qarakilsə–Qazax yolu ilə hərəkətə hazırlaşmaq tapşırığı verildi. 9-cu Ordu tabeliyindəki haubitsa səhra batareyası da 15-ci diviziyanın sərəncamına verilməli idi (125).

Azərbaycana doğru hərəkətə başlamaq barədə diviziya üzrə 23 saylı döyüş əmri avqustun 28-də imzalandı(126). Həmin əmrə görə, diviziya Qarakilsə–Dilican–Karvansara–Qazax–Ağstafa marşrutu ilə hərəkət etməli, sonra isə yoluna dəmir yolu ilə davam etməli idi. Hərəkəti yerinə yetirmək üçün diviziya üç böyük dəstəyə bölünürdü. Dəstələr hərəkət zamanı Nikito, Çarhac, Karvansara və Qazaxda dayanacaq etməli idilər. Çarhacda dəstələrə birgünlük istirahət verilməli idi. Dayanacaq məntəqəsinə çatmazdan əvvəl ora dəstələrin zabitləri göndərilməli və dəstənin istirahəti üçün orada lazımi şərait yaradılmalı idi.

Birinci dəstəyə 106-cı alay, səhra haubitsa batareyası, səhiyyə bölüyü, iaşə bölməsinin yarısı daxil idilər. 106-cı alayın komandirinin rəhbərliyi altında olan bu dəstə sentyabrın 1-də səhər erkən Qarakilsədən hərəkətə başlamalı idi. İkinci dəstəyə 56-cı alay və digər topçu bölmələri daxil idi. Bu dəstə sentyabrın 3-də Qarakilsədən hərəkət etməli idi. Əsasən, yardımçı bölmələrdən ibarət olan üçüncü dəstə isə sentyabrın 4-də Qarakilsədən çıxmalı idi.

15-ci diviziyanın Azərbaycana doğru hərəkətə başladığı bir vaxtda almanların da hərbi qüvvə ilə Bakı üzərinə hücumda iştirak etməyə hazırlaşdıqları barədə xəbər alınmışdı. Göstərilən xarici təzyiqlərin, Rusiya ilə bağlanılan sövdələşmələrin nəticəsiz qaldığını anlayan almanlar Bakı neftindən faydalanmaq imkanını əldən buraxmamaq üçün Tiflisdəki qüvvələrindən bir taboru Bakı ətrafına göndərməyi qərara aldı. Nuru paşa dərhal bu məlumata öz münasibətini bildirdi. Tiflisdəki Osmanlı dövləti nümayəndəsi Əbdülkərim əfəndi vasitəsilə almanların nəzərinə çatdırıldı ki, onların Bakı ətrafına gəlməsinə ehtiyac yoxdur. Bakını azad etmək üçün Qafqaz İslam Ordusunun kifayət qədər qüvvəsi vardır. Ənvər paşa da bu məsələyə dərhal öz münasibətini bildirdi. Nuru paşadan tələb etdi ki, Osmanlı hökumətinin razılığı alınmadan Azərbaycan ərazisinə alman qüvvələri buraxılmasın(127).

15-ci diviziyanın Bakıya gəlib çatması ilə şəhər ətrafındakı qüvvələr nisbətində, buradakı hərbi şəraitdə yarana biləcək dəyişiklikləri, yeni qüvvələrin gəlməsi ilə qəti hücuma hazırlıq yollarını öyrənmək üçün İslam Ordusu ərkani-hərb rəisi Nazim bəy də cəbhə xəttinə göndərildi. Nazim bəy 15-ci diviziyanın da cəlb olunacağı qəti hücumun təşkili barədə öz mülahizələrini sentyabrın 3-də ümumiləşdirərək Güzdəkdən Ordu komandanı Nuru paşaya göndərdi. Nazim bəyin də qənaəti belə idi ki, Bakı üzərinə qəti hücum iki istiqamətdən həyata keçirilməlidir: şimaldan və qərbdən. Bu iki istiqamət arasındakı xətt isə Biləcəri ilə Hacı Həsən arasından keçməli idi. Nazim bəyin fikrincə, hər istiqamətdə bir diviziyanın yerləşdirilməsi, onların ehtiyat qüvvələrinin ayrılması və hücum planının da bu qüvvə bölgüsü üzərində qurulması məqsədəuyğun idi. Artıq bu bölgüyə uyğun olaraq hücuma hazırlığa da başlanmışdı. Xüsusən də toplar üçün yerlər seçilir, cəbbəxana, səhiyyə obyektlərinin yerləşdiriləcəyi məntəqələr müəyyənləşdirilirdi. Maştağada 10 min nəfər üçün ərzaq ehtiyatı yaradılması planlaşdırılırdı. Qəti hücumdan bir gün əvvəl Bakı üzərinə şərqdən və şimali-şərqdən süvarilər və yerli əhalidən təşkil edilmiş könüllü dəstələrlə hücum edilməsi təklif edilirdi. Bakı üzərinə qəti hücuma kimlərin rəhbərlik etməsi barədə də Nazim bəy öz mülahizələrini Nuru paşa ilə bölüşdürdü. Onun

fikrincə, 15-ci diviziyanın Süleyman İzzət bəyin komandanlığı altında qalması, 5-ci diviziyaya rəhbərliyin Cəmil Cahid bəyə tapşırılması məqsədəuyğun idi. Şərq cəbhəsi komandanı kimi yenə də Mürsəl paşanın qalmasını, Şərq cəbhəsi ərkani-hərb rəisliyinə isə müvəqqəti olaraq öz namizədliyini təklif edirdi. 5-ci diviziyanın ərkani-hərb rəisi Rüşdü bəyə isə təchizat, təminat məsələlərinin tapşırılması barədə vəsatət qaldırırdı. Nazim bəy öz qənaətlərinə onu da əlavə edirdi ki, Kütülamare və Trablus komandanlarının (müvafiq olaraq Xəlil paşa ilə Nuru paşa nəzərdə tutulurdu–M.S.) hücum günü cəbhəyə gəlib döyüşü müşahidə etmələri şəxsi heyətin əhval-ruhiyyəsini xeyli qaldırardı (128).

Nazim bəyin qənaətləri elə həmin gün İslam Ordusu komandanlığı tərəfindən öyrənildi və dərhal da ona münasibət bildirildi. Ordu komandanlığı hərəkat şöbəsinin verdiyi cavabdan aydın olurdu ki, diviziyalara və cəbhəyə kimlərin rəhbərlik etməsi barədə verilən təkliflərə etiraz yoxdur. Ancaq Nuru paşa Bakı ətrafına müşahidəçi kimi deyil, şəhər üzərinə hücuma birbaşa rəhbərlik edəcək şəxs kimi gələcəkdir. Bunu həm də Şərq Ordular Qrupu komandanı Xəlil paşa ondan tələb edirdi. Bütünlükdə, vurğulanırdı ki, Bakı üzərinə hücumun komandanlığının kimə həvalə olunacağı Xəlil paşa ilə Nuru paşa Bakı ətrafına gələndən sonra müəyyənləşdiriləcəkdir(129).

Sentyabrın 3-də Ordudan alınan başqa bir teleqramda bildirilirdi ki, 15-ci diviziyanın alayları ayın 7–10-u arasında Bakı cəbhəsinə yetişəcəkdir. Həmin vaxta qədər Bakı ətrafındakı qüvvələrin mövqe döyüşlərini davam etdirməsi, Sabunçu və Biləcəri ətrafındakı düşmən qüvvələrinə güclü zərbə endirilməsi, onların mövqelərinin ələ keçirilməsi məqsədəuyğun bilinirdi. Belə mövqe döyüşləri ilə həm də düşmənin imkanları bir daha aydınlaşdırılmalı idi (130).

Qeyd edilməlidir ki, «Sentrokaspi» və ingilis qoşunları da hələ ki, öz fəallıqlarını itirməmişdilər. Əks-hücum imkanı olan kimi bunu əldən qaçırmırdılar. Məsələn, sentyabrın 2-də Şimal qrupunun bölmələri Zabratı ələ keçirmişdilərsə, sentyabrın 3-də «Sentrokaspi» və ingilis qoşunları bu kəndi yenidən geri aldılar. Bu istiqamətdə 3 ədəd topa malik olan 700–800 nəfərlik bir düş-

mən dəstəsi fəaliyyət göstərirdi. «Sentrokaspi» və ingilis qüvvələri Digah, Binəqədi kəndlərini, 311 rəqəmli təpəni güclü top atəşlərinə tutdu. Həmin gün eyni zamanda Hövsan ətrafında da döyüşlər davam etdi. Bu döyüşdə Ləzgi süvari alayının qüvvələri də iştirak edirdi. Həmin alayın 3-cü eskadronunun 1-ci taqımı yunker Cavarxan Ansoxskinin rəhbərliyi altında Hövsan kəndini qoruyurdu. Düşmənin iki bölük piyada, bir eskadron süvari, 3 ədəd pulemyot və iki topla bu kənd üzərinə hücuma keçəndə Ləzgi süvari alayının döyüşçüləri onlara mətanətlə sinə gərdilər və əlavə kömək yetənə kimi 4 saatlıq müdafiə döyüşü apardılar (131).

15-ci diviziyanın Bakıya gəlməsi ərəfəsində ingilis qüvvələrinin əlavə kömək alacaqları barədə xəbərlər yayılmaqda idi. Bu xəbərlərə görə, Bakıda olan 39-cu ingilis briqadasının başqa bir taborunun yaxın günlərdə Bakıya gələcəyi gözlənilirdi (132).

İngilis mənbələrində də sentyabr ayının əvvəllərində Bakıya əlavə ingilis hərbi qüvvələrinin gətirilməsi ehtimalına toxunulurdu. Əslində, general Denstervil Bakının əldə saxlanmasının artıq qeyri-mümkün olduğunu bilirdi və sentyabr ayının 3-də yuxarı komandanlığa göndərdiyi teleqramında da ingilis hərbi qüvvələrinin Bakıdan təxliyə edilməsinə hazırlaşdığını bildirirdi. Sentyabrın 5-də göndərdiyi teleqramında isə general əlavə qüvvələrin gələcəyi təqdirdə Bakının əldə saxlanmasının mümkünlüyünə də toxunurdu. Həmin teleqramda deyilirdi: “Geri çəkilmək əmrini aldım, lakin hərbi flotun («Sentrokaspi» hərbi gəmiləri nəzərdə tutulur – M.S.) top atəşləri altında çəkilməyin imkansız olduğu qənaətindəyəm. Biçeraxov Petrovsku zəbt etmiş və bir həftə ərzində Bakıya 1000 piyada gətirməyi vəd etmişdir. Yerli vəziyyət daha ümidli görünür. Sonuna qədər qalacağımı və ancaq işlər ümidsiz bir şəklə düşərsə, geri çəkiləcəyimi burada hökumətə bildirdim. Bakının daşıdığı böyük dəyərə təkrar diqqətinizi cəlb edirəm. 39-cu piyada sancağının hələ Bakıya gəlməmiş hissələri göndərilərsə, qəsəbənin xilas edilməsi mümkündür” (133).

“Sentrokaspi” hərbi qüvvələrinin kifayət qədər zəif və nizamsız olmasına və onlara bel bağlanmasının qeyri-mümkünlüyünə baxmayaraq, Bakının tərk edilməsi general Denstervil üçün heç də

əsas məsələ deyildi. Əksinə, anlaşılırdı ki, Bakının tərk edilməsi ilə bu şəhərə olan ingilis iddialarının üstündən birdəfəlik xətt çəkilə bilər. Mövcud olan faktlardan aydın olur ki, 1918-ci il sentyabr ayının 5-də Biçeraxovun göndərdiyi bir dəstə Bakı ətrafına yetişdi və bu, Denstervildə müəyyən ümidlər yaratdı. Bunu o, sentyabrın 5-də Bağdaddakı ingilis qüvvələri qərargahının rəhbəri general Marşalla göndərdiyi teleqramında da ifadə edirdi. General Denstervil bildirirdi ki, onun sərəncamında olan gəmilərin silahları yoxdur. Sentrokaspi gəmiləri isə toplarla təchiz edilmişdi. Ona görə ingilis gəmiləri "Sentrokaspi" gəmilərinin atəşindən yaxa qurtara bilməzdilər. "Sentrokaspi" rəhbərliyi nəyin bahasına olursa-olsun Bakını nəzarət altında saxlamağa çalışır və ingilis qüvvələrinin də Bakını tərk etməsinə razı deyildi. Ona görə general Denstervilin təxliyə fikrindən hələlik daşınmaqdan başqa bir seçimi yox idi. General Marşalla göndərdiyi teleqramda general Denstervilin hələ də Bakının əldə saxlanılmasının mümkünlüyünü yazır və bunu belə təsvir edirdi: "Aşağıdakı səbəblərdən dolayı uğurlu bir müdafiənin mümkün olduğunu zənn edirəm. Müdafiə mövqeyi son dərəcə qüvvətlidir və güvənilə biləcək qüvvələr əlimizdə olduğu təqdirdə Bakı zəbt edilə bilinməyəcək bir hala gətirilə bilər. Türk əsgərlərinin əhval-ruhiyyəsi döyüşkən bölükləri arasında ağır itkilər səbəbi ilə pozulmuşdur. Müttəfiqlərin itilaf dövlətlərinə qarşı Fransadakı müvəffəqiyyətləri  Qafqazdakı vəziyyətə təsir etməkdədir. Qafqazdakı gürcülərin almanlara qarşı ayağa qalxmağa başlaması israrla xəbər verilir və ermənilərdən ibarət bir qüvvənin Kür nəhri üzərindəki dəmir yolu körpüsünü təhdid etməkdə olduğu söylənilir. Bakıda düşmənin bu mövqeyə qarşı da gətirə biləcəyi qədər top, cəbbəxana və hərbi sursat vardır. Bakı hökuməti dənizə hakim olduğundan oraya bir maneəyə rast gəlmədən başqa yerlərdən qoşun, ləvazimat gətirə bilir. Biçeraxov qoşununun ilk qədəməsi bu gün gəldi və Biçeraxov önümüzdəki on beş gün ərzində daha 5000 nəfər göndərəcəyinə vəd vermişdir. Lənkəranın hərəkətə hazır olmaq üzrə 4000 nəfəri vardır. Bakı qüvvələrinin yenidən tənzim edilməsi nəticəsində təqribən 3000

nəfərlik arxalana bilinən bir qoşun hasilə gətiriləcəkdir. Buna görə də bir ingilis alayına istinad etdiyim təqdirdə yuxarıdakı qüvvənin düşmənin Bakının üstünə gətirəcəyi hər hansı bir qüvvəyə qarşı bu qəsəbəni əldə saxlaya biləcəyinə tamamilə əminəm. Digər çarə (yəni geri çəkilmək) tam fəlakət və gözümüzü dikərək əldə edilməsinə çalışdığımız bütün məqsədlərin əbədi olaraq itirilməsi deməkdir" (134).

Qafqaz İslam Ordusu komandanlığı hücumun uğurla davam etdirilməsi üçün 15-ci diviziyanın Bakıya yetişməsini və qəti hücuma başlanmasını səbirsizliklə gözləyirdi. 15-ci diviziyanın hələ də Bakı ətrafına yetişməməsi ilə bağlı narahatlığını əvvəlcə Nazim bəy sentyabrın 4-də Nuru paşaya çatdırdı. Bununla bağlı Gəncəyə göndərdiyi teleqramında Nazim bəy gizlətmirdi ki, 15-ci diviziya yetişənəcən ingilislərə kömək gələrsə, onda Bakını almaq xeyli müşkül olacaq (135). Həmin məzmunlu başqa bir teleqramı isə elə həmin gün Nuru paşa Şərq Ordular Qrupu komandanı Xəlil paşaya göndərdi və o da öz növbəsində 15-ci diviziyanın hələ də yetişməməsinə narahatçılığını bildirdi (136).

Ordu ərkani-hərb rəisi Nazim bəy Nuru paşaya göndərdiyi teleqramında Mürsəl paşa ilə birlikdə döyüş sahəsinin öyrənilməsini davam etdirdiklərini açıqlayırdı. Gəldikləri birgə qənaət barədə həm Nazim bəy, həm də Mürsəl paşa ayrı-ayrılıqda Nuru paşaya məlumat verdilər. Hər ikisinin qənaəti belə idi ki, qəti hücumdan əvvəl Biləcərinin cənub-qərbindəki köşə ələ keçirilməlidir. Belə olduqda düşmənin müdafiə xətti yarılmış olardı və şəhəri qorumaq onlar üçün xeyli çətinləşərdi. Mürsəl paşa teleqramında əlavə edirdi ki, Balaxanı, Ramana, Sabunçu və Suraxanıda olan düşmən dəstələrinin ayrı-ayrılıqda mühasirə olunub əsir götürülməsi və ya məhv edilməsi barədə ordu komandanlığından alınan əmrin icrası mümkünlüyü də öyrənilməkdədir (137).

Sentyabrın 5-də isə həm Nazim bəy, həm də Mürsəl paşa Balaxanı, Ramana, Sabunçu və Suraxanı məntəqələrində olan düşmən dəstələrinin məhv edilməsinin məqsədəuyğunluğu barədə öz fikir və mülahizələrini ayrı-ayrılıqda Nuru paşaya göndərdilər. İstər Nazim bəy, istərsə də Mürsəl paşanın gəldiyi qənaət eyni idi və onların heç biri adları çəkilən məntəqələrdə döyüş

keçirilməsinə lüzum görmürdülər. Onların fikrincə, bu döyüşlərin keçirilməsi xeyli itkilərə yol açа bilərdi. Digər tərəfdən bu döyüşün keçirilməsinə elə bir ehtiyac da yox idi. Çünki bu məntəqələr Bakıdan xeyli uzaq idilər. Şəhər üzərinə qəti hücum başlayan günü həmin məntəqələrdə aldadıcı bir döyüş başlamaqla oradakı qüvvələrin diqqətini cəlb etmək və onların Bakıya köməyə gəlmələrinin qarşısını almaq olardı. Əvəzində isə Biləcəri ətrafındakı köşənin ələ keçirilməsi zəruri sayılırdı. 15-ci diviziyanın 106-cı alayı yetişən kimi həmin köşə üzərinə hücumun başlanması mümkün hesab edilirdi (138).

Sentyabrın 6-da 15-ci diviziya qərargahı Ağstafaya çatdı və oradan da dərhal qatarla Gəncəyə yola düşdü. Elə həmin gün saat 10-da Gəncə dəmir yolu stansiyasında diviziya qərargahını Nuru paşa, Azərbaycan qolordusu (korpusu) komandanı Əliağa Şıxlinski, Azərbaycan hökumətinin üzvləri, alman zabiti, minbaşı Mayer və digərləri qarşıladılar. Nuru paşa Bakı ətrafında yaranmış vəziyyətlə əlaqədar olaraq vaxt itirmədən yola düşməyi lazım bildi. İslam Ordusu komandanının əmrinə müvafiq olaraq səhərisi gün Süleyman İzzət bəy Bakıya doğru yola düşdü. Bəzi çətinliklərlə qarşılaşmamaq üçün bir sıra yardımçı bölmələr Gəncədə saxlanıldı. Elə həmin gün, yəni sentyabrın 7-də 15-ci diviziya qərargahı Hacıqabula çatdı (139).

15-ci diviziya qüvvələrinin Bakı ətrafına nə vaxt çatacağını və döyüşə hazırlıq üçün nə qədər vaxt lazım gələcəyini nəzərə almaqla Nuru paşa sentyabrın 7-də Xəlil paşaya bildirirdi ki, qəti hücuma sentyabrın 12-də başlamağı planlaşdırır. Bu qərar hələ ilkin qərar idi və onun haqqında Nuru paşa əvvəlcə Xəlil paşaya məlumat verib onun razılığını almaq istəyirdi. Çünki Bakı üzərinə hücumun nə vaxt başlanacağı çox gizli saxlanılırdı və xüsusilə də almanların bundan xəbər tutacağından ehtiyat edilirdi. Nuru paşa Xəlil paşaya göndərdiyi teleqramında onu da bildirirdi ki, almanların diqqətinin azdırılması üçün Bakı üzərinə hücumun sentyabrın 15-də başlanacağı barədə xəbərlər yayılmasına çalışacaqdır (140).

Ancaq sentyabrın 7-si tarixli başqa bir sənəddə Nuru paşa Bakı üzərinə son hücumun ayın 11-dək həyata keçirilməsini məq-

sədəuyğun bilirdi və Şərq cəbhəsi komandanlığından da buna müvafiq olaraq hazırlıq işlərini tamamlamaq tələb olunurdu. Şərq cəbhəsi komandanlığına o da bildirilirdi ki, 15-ci diviziya Bakı ətrafına çatan kimi cəbhə komandanlığının tabeliyinə daxil olacaqdır. Mürsəl paşa isə cəbhənin komandanı kimi iki diviziyanın fəaliyyətinə rəhbərlik etməli idi(141).

Qəti hücumun başlanması tarixi ilə bağlı Nuru paşanın əmri Şərq cəbhəsi komandanlığında ciddi şəkildə təhlil olundu və 15-ci diviziya qüvvələrinin ayın 10-dan tez Bakı ətrafına yetişməyəcəyi nəzərə alınaraq ayın 11-nə kimi hər hansı bir hücumun başlanmasının qeyri-mümkünlüyü Ordu komandanlığına çatdırılırdı. Sentyabrın 8-də göndərilən teleqramda bildirilirdi ki, 15-ci diviziya qüvvələri ayın 10-da bütünlüklə Bakı ətrafına yetişəcəkləri təqdirdə onlara ən azı bir gün istirahət verilməlidir. Ona görə də Bakı üzərinə qəti hücumun ayın 12-də və ya 13-də başlanması məqsədəuyğun bilinirdi (142).

Sentyabrın 9-na keçən gecə 15-ci diviziya qərargahı 5-ci diviziya qərargahının yerləşdiyi Güzdək kəndinə çatdı. Mürsəl paşa şəhər ətrafındakı hərbi şərait barədə Süleyman İzzət bəyə ətraflı məlumat verdi. Səhər açılan kimi Mürsəl paşa, 5-ci diviziya ərkani-hərb rəisi Rüşdü bəy və Süleyman İzzət bəylə birlikdə Şimal qrupu komandanlığının yerləşdiyi Masazır kəndinə, oradan da Binəqədi topçu müşahidə məntəqəsinə yollandılar. Burada onlar Biləcəri və onun ətrafındakı düşmən mövqelərini diqqətlə müşahidə etdilər (143).

Sentyabrın 9-na keçən gecə Şərq cəbhəsi komandanlığına Nuru paşanın yeni bir əmri daxil oldu. Əmrdə bildirilirdi ki, Bakı şəhəri üzərinə qəti hücuma keçmək üçün qərar verilmişdir və bu hücuma ümumi rəhbərliyi öz üzərinə götürmək üçün Nuru paşa artıq Gəncədən yola düşmüşdür. Hücum planının təfərrüatının Nuru paşa Bakı ətrafına çatmasından sonra açıqlanacağı bildirilirdi. Ancaq Ordu komandanı tələb edirdi ki, sentyabrın 9-dan 10-na keçən gecə hücumda iştirak edəcək qüvvələr aşağıdakı mövqelərdə öz yerlərini tutsunlar: 13-cü alay Hökməlinin cənubunda, 106-cı alay isə Qobu kəndi ətrafında dayanmalı idi. 13-cü alay cəbhəsi müvəqqəti olaraq 107-ci alay tərəfindən təhvil alınmalı idi. 29-cu tabor isə

bu alayın ehtiyatına verilməli idi. 345 rəqəmli təpə və Maştağa cəbhələri 38-ci alayın nəzarəti altında olmalı, 5-ci diviziya qərargahı Qobuya köçürülməli idi. Nuru paşa əmr edirdi ki, hissələr yeni müəyyənləşdirilən məntəqələrə gizli şəkildə hərəkət etməlidirlər. Düşmənin bu yerdəyişmələrdən xəbəri olmaması üçün hərəkətlər əvvəla gecə vaxtı icra edilməli, sonra da köhnə düşərgələrdəki çadırlar sökülməməli idi(144).

Sentyabrın 10-da Şərq ordular qrupu komandanı Xəlil paşa, Qafqaz İslam Ordusu komandanı Nuru paşa, Azərbaycan qolordusunun komandanı Əliağa Şıxlinski və digər zabitlər Bakı ətrafına gəldilər. İslam Ordusu qərargahı və Xəlil paşa Güzdəkdə yerləşdilər. Elə həmin gün onlar cəbhəni müşahidə etməklə məşğul oldular. Diviziya komandirləri ilə bərabər, Xəlil paşa, Nuru paşa, Ə.Şıxlinski müşahidə məntəqələrində düşmən mövqelərini nəzərdən keçirdilər, hücumun təşkili ilə bağlı diviziya komandirlərinin mülahizələrini dinlədilər. 15-ci diviziya komandanı Süleyman İzzət bəy təklif edirdi ki, Şimal qrupu ləğv edilsin və bu qrupdakı qüvvələr 15-ci diviziyanın tabeliyinə verilsin. 5-ci diviziya qərbdən, 15-ci diviziya isə tərkibində 3 alay və milli qüvvələr olmaqla şimaldan şəhər üzərinə hücuma keçsin. Səhər erkən güclü top hazırlığından sonra 15-ci diviziyanın üç alayının Biləcərinin şərqindən, milli Azərbaycan qüvvələrinin isə Sabunçu və Əhmədli istiqamətlərindən hücuma keçməsi məqsədəuyğun sayılırdı. Süleyman İzzət bəyin fikrincə, qərb təmas xətti şəhərə daha yaxındır və düşmənin əsas qüvvələri də burada yerləşmişdi. Bundan başqa, Xəzərdə olan hərbi gəmilərin topları da qərb tərəfdən olan hücuma maneəçilik edə bilərdilər. Ona görə də düşmənin daha az olduğu və daha az ehtiyat etdiyi şimal istiqamətindən daha uğurlu hücum təşkil etmək olardı (145).

Cəbhənin vəziyyəti ilə tanışlıqdan və komandirlərin mülahizələri dinlənildikdən sonra İslam Ordusu komandanı Bakı şəhəri üzərinə qəti hücuma son hazırlıqla bağlı sentyabrın 10-da əmr imzaladı. Həmin əmr belə idi:

«1. Bakıya qəti təərrüz üçün aşağıdakı hazırlıqlar yapılacaq və yapıldığı 11.9.334 (1918) axşamı saat 21-ə qədər mənə bildiriləcəkdir.

2. İndiyə qədər Şərq cəbhəsi komandanlığı əmrində bulunmuş olan qitələr 5-ci, 15-ci diviziyalar və Cənub qrupu halında doğruca (birbaşa–red.) mənə mərbut (aid–red.) olacaqlar.

5-ci diviziya – 9-cu, 10-cu, 13-cü və 56-cı piyada alayları ilə dağ obus batareyası 13 rus səhra topu, 4 rus dağ topu, 2 ədəd 105-lik səhra obus topu, 10 topdan ibarət 3 qüdrətli dağ batareyası, iki Osmanlı Şnayder topu ilə piyada alaylarını rəfaqət (himayə–red.) üçün 6 Şnayder dağ topundan mürəkkəb (ibarət–red.) olacaqdır. Bu 6 Şnayderdən 4-ü Digahdadır və həmən cəlb olunmalıdır.

15-ci diviziya – 38-ci və 107-ci piyada alayları ilə mürəttəb 2-ci süvari alayı, Azərbaycan süvari alayları, «Vəhşi diviziya» (milli Azərbaycan) ilə milis (milli könüllü–M.S.) taborlarından və iki 105 mm-lik səhra obus, iki rus Şnayder dağ, yeni gələcək 15-ci diviziya qüdrətli dağ batareyasından və piyada rəfaqət topçusu olaraq Digahdakı 4 Krup dağ topundan və Maştağadakı Krup dağ taqımından mürəkkəbdir.

Cənub qrupu – 4-cü piyada alayının (Azərbaycan təşkilatındandır) 1-ci və 2-ci taborları ilə iki süvari bölüyü, Azərbaycan süvarilərindən bir bölük, iki Krup dağ, iki rus səhra topundan mürəkkəbdir.

Səngəçalda tərk olunan 106-cı alaya mənsub bölük 5-ci diviziya tərəfindən həmən alayına iltihaq ediləcəkdir.

3. 106-cı piyada alayı iki taboru ilə ehtiyatım olaraq Hökməlinin cənubundakı sırtların gerisində bulunacaqdır. Bu alaydan bir tabor 5-ci diviziyaya veriləcək və buna müqabil 26-cı tabor 25-ci tabor məntəqəsini iki bölüklə işğal edəcəkdir.

4. 5-ci diviziya sağ cinahı ilə Hacıhəsən – Ermənikənd istiqamətində irəliləmək üzrə bu xəttin cənubundakı 1500 metrlik imtidadda düşmən cəbhəsinə təərrüz edəcək və təərrüzünü Bakının şərq kənarına qədər davam etdirəcəkdir. Heybət stansiyasından, dəniz sahilindən Volçi vorotaya qədər qüdrətli və fədakar bir kəşf qolu göndərəcək və düşməni oradan işğal və mümkünsə təpəni zəbt edəcəkdir. Diviziya qərargahı Qobuya nəql olunacaqdır.

5. 15-ci diviziya böyük qismi ilə Biləcərinin şərqindən sağ cinahı (Biləcəri köyünün şərq kənarı – Ermənikənd) istiqamə-

tində olmaq üzrə təərrüz edəcək və təərrüzünü Ermənikənd üzərindən Bakıya davam etdirəcəkdir. Əqsami -sairəsi ilə süvari və milislər Sabunçu–Balaxanı məntəqəsindəki düşməni təsbit və Hövsandan Əhmədli və Kişlə istiqamətində təərrüz edəcəkdir.

Sumqayıtdakı süvari bölüyü də cəlb olunmalıdır. Yalnız yüzbaşı Fəxri əfəndi əmrindəki milislər və 8 nizamiyyə atlısı sahili vəzifəsi ilə yerlərində qalacaqdır...» (146).

Əhatəli şəkildə hazırlanmış olan bu əmrdə daha sonra deyilirdi ki, diviziyalar biri digərinin irəliləməsini gözləmədən hərəkət etməlidirlər. Yalnız cinahlarının təmas xəttində lazım və mümkün olardısa, topçular bir-birinə atəşləri ilə kömək etməli idilər. Hücumun günü və başlanacağı saat əmrdə göstərilməmişdi. Bu barədə əlavə olaraq diviziyalara bildirilməli idi. Ancaq əmrdə qeyd edilmişdi ki, düşmənin ilk müdafiə xətti gecə ikən ələ keçirilməlidir. Ona görə də zabitlər və əsgərlər hücum edəcəkləri sahəni əvvəldən yaxşıca müşahidə etməli və öyrənməli idilər, onlara həvalə olunan vəzifələri özləri üçün dəqiqləşdirməli idilər. Diviziya komandanlarına göstəriş verilirdi ki, ayın 11-də tabeliklərində olan hissə və bölmələrin komandirlərini toplasınlar və verilən tapşırıqları ərazi üzərində dəqiqləşdirsinlər. Bütün cəbhənin iaşə təminatı 5-ci diviziyaya həvalə olunmuşdu. Cənub qrupunun komandiri yenidən Cəmil Cahid bəy təyin olundu. Qısa vaxt ərzində bu vəzifəni icra etmiş olan Həlim Pərtöv bəy isə 4-cü Ağdaş alayına komandir təyin edildi.

Əmrdən göründüyü kimi, Qafqaz İslam Ordusu qüvvələrinin əsas ağırlıq mərkəzi cəbhənin qərb istiqamətinə salınmışdı. Burada eni cəmi 1500 metr olan döyüş sahəsində təkcə 4 piyada alayı yerləşdirilmişdi. İki piyada alayı və milli qüvvələrdən ibarət olan 15-ci diviziyaya isə daha geniş bir döyüş sahəsi verilmişdi. Bu sahə Biləcəridən başlayıb Abşeron yarımadasının şərqinə doğru uzanırdı. Süleyman İzzət bəy Ordu komandanlığından aldığı əmri öyrəndikdən sonra ayın 11-də diviziya üzrə müvafiq döyüş əmri verdi (147). Həmin əmrə görə 107-ci alay Biləcəri–Ermənikənd–Təpələr sahəsində, 38-ci alay isə onun solunda döyüşə girməli idi. Alaylar iki taboru irəli çıxarmalı, bir taboru isə ehtiyatda saxlamalı idilər. 107-ci alaydan iki bölük, 38-ci alaydan bir bölük və alay pu-

lemyot bölükləri birlikdə diviziyanın ehtiyat qüvvəsini təşkil etməli və Binəqədi təpəsinin arxasında yerləşməli idi. Diviziyanın tabeliyində olan toplar Binəqədi və Digah qrupları olmaq üzrə iki yerə bölünürdülər. Binəqədi qrupunda 8 top, Digah qrupunda isə 4 top olmalı idi. Minbaşı Tofiq bəyin rəhbərliyi altında Maştağada olan 3 könüllü milli tabordan ibarət dəstə Balaxanı–Sabunçu istiqaməti ilə, mürəttəb süvari alayından, Ləzgi süvari alayından və digər Azərbaycan süvari alayından ibarət olan süvari dəstəsi minbaşı Zehni bəyin rəhbərliyi altında Hövsanda toplaşaraq Əhmədli–Kişlə istiqamətində hücum etməli idi.

Yazılı əmr verməkdən əlavə Süleyman İzzət bəy alay və dəstələrin komandirlərini toplayıb Binəqədi müşahidə məntəqəsində verilən tapşırıqları ərazi üzərində dəqiqləşdirdi. Bu səyyar müşavirə zamanı hücum taktikası, topçularla pulemyotların fəaliyyətlərinin əlaqələndirilməsi və s. məsələlər müzakirə edildi. Bununla belə, Bakı üzərinə qəti hücum ərəfəsində diviziyanın tərkibində edilmiş dəyişikliklər Süleyman İzzət bəyi müəyyən qədər narahat edirdi. Çünki onun əsas qüvvələri müvəqqəti olaraq diviziyanın tərkibindən çıxarılıb başqa komandirlərin tabeliyinə verilmişdi. Ona görə də diviziyaya yeni verilmiş hissə və dəstələr arasında qarşılıqlı fəaliyyətin nizamlanması üçün müəyyən vaxt lazım idi. Belə ki, diviziyanın 45-ci alayı Batumda saxlanmışdı, 56-cı alay 5-ci diviziyanın sərəncamına verilmişdi. 38-ci alay isə 5-ci diviziyanın tərkibində vuruşub müəyyən itkilərə məruz qaldıqdan sonra 15-ci diviziyaya qaytarılmışdı. 56-cı alayın yerinə diviziyaya vaxtilə 36-cı Qafqaz diviziyasına mənsub olmuş 107-ci alay verilmişdi. Süleyman İzzət bəy bu alayın döyüş imkanlarına hələ tam bələd deyildi. Hücuma hazırlıqla bağlı görülən işlər və mövcud olan çatışmazlıqlar və çətinliklər barədə Süleyman İzzət bəy günortadan sonra telefonla Nuru paşaya məruzə etdi(148).

Sentyabrın 12-də Süleyman İzzət bəy hücuma hazırlıqla bağlı diviziya üzrə yeni bir əmr imzaladı. Həmin əmrlə 38-ci və 107-ci alayların cəbhə sahəsi bir qədər daraldıldı. Hər iki alay Biləcəri ətrafında döyüşməli idi. Günortaya yaxın düşmən qüvvələrinin nəzər diqqətini cəlb etmək üçün Süleyman İzzət bəyin əmri ilə Əhmədli istiqamətindəki milli süvari qüvvələr fəallaşmağa

başladılar. Düşmən topları atəşinin tuta bilməyəcəyi bir sahədə süvarilər nümayişkaranə hərəkətə başladılar. Qüdrətli cəbəl topları ilə Balaxanı ətrafındakı «Sentrokaspi» və ingilis qoşunlarının mövqeləri atəşə tutuldu. Bu hərəkətlər düşmənin diqqətini cəlb etdi. Bir təyyarə havaya qaldırıldı. Binəqədi arxasındakı qüvvələr bombardman edildi. Nəticədə 107-ci və 38-ci alaydan 20 nəfər yaralandı. Süleyman İzzət bəyin əmri ilə Biləcəri ətrafındakı «Sentrokaspi» və ingilis qüvvələrinin mövqeləri güclü top atəşinə tutulsa da, əslində, qarşıya qoyulan məqsədə nail olunmuşdu və düşməndə bu istiqamətdə çoxlu qüvvə toplandığı təəssüratı yaradılmışdı (149).

Sentyabrın 12-də Ordu komandanı Nuru paşa qəti hücuma hazırlıqla bağlı yeni bir əmr verdi. Birinci əmrlə müqayisədə bu əmr qüvvələrin qruplaşdırılmasında ciddi dəyişikliklər nəzərdə tuturdu. Belə ki, 107-ci alay da 15-ci diviziyanın tabeliyindən alınırdı və Ordunun ehtiyatına verilirdi. Habelə haubitsa, qüdrətli və Şnayder batareyaları da tam şəkildə 5-ci diviziyanın tabeliyinə verilirdi. 15-ci diviziyanın tabeliyində 38-ci piyada alayı və bir də yuxarıda adları çəkilən milli qüvvələr qalırdı. Ağır silahlardan isə yalnız 6 ədəd Krup topu diviziyada saxlanılırdı. Nəticədə, 15-ci diviziya xeyli zəiflədilmiş oldu. Hətta 15-ci diviziya gəlməmişdən əvvəl onun sahəsində mövcud olan Şimal qrupunun qüvvələri Ordu komandanlığının 12 sentyabr tarixli əmrindən sonra 15-ci diviziyanın tabeliyində qalan qüvvələrdən çox idi. Süleyman İzzət bəyin hesablamasına görə Şimal qrupunun tərkibində 10 piyada taboru, biri nizami olmaq şərtilə 3 süvari alayı var idisə, indi 15-ci diviziyanın tərkibində 3 piyada taboru, Krup topu və milli könüllü taborlarla, milli süvari alayları qalmışdı (150). Əslində, bu istiqamətdəki qüvvələrin əsasını Azərbaycan milli qüvvələri təşkil edirdilər. Bütünlükdə, Bakı üzərinə qəti hücumda iştirak edən Azərbaycan qüvvələrinin sayı xeyli çox idi. Mövcud olan məlumata görə, Bakı üzərinə son hücumda 8000-ə yaxın Osmanlı qüvvəsi ilə 6–7 min arasında Azərbaycan qüvvələri iştirak edirdi (151).

Həlledici hücum ərəfəsində Qafqaz İslam Ordusu komandanlığı bütün gün ərzində həm təchizat-təminat məsələləri ilə məşğul olur, həm ərazini öyrənir, həm də kəşfiyyat işlərini davam

etdirirdi. Bununla həm düşmənin imkanları dəqiqləşdirilir, həm də onun mənəvi-psixoloji durumu öyrənilirdi. Sentyabrın 11-də Bakıda məlumat toplayıb geri qayıdan Əmənulla əfəndinin verdiyi məlumata görə, şəhər ətrafında qalan ingilis qüvvələrinin miqdarı 900 nəfər idi. Erməni taborlarında fərarilik artmışdı, düşmənin əsas qüvvələri Heybət, Biləcəri və Balaxanı cəbhəsində toplanmışdı. Bundan əlavə bildirilirdi ki, Bakıya L.Biçeraxov tərəfindən 500 nəfərlik bir qüvvə göndərilib (152).

L.Biçeraxov tərəfindən Bakıya kömək göndərilməsi barədə məlumatı general Denstervil də təsdiq edirdi. Onun yazdığına görə, 10 ədəd pulemyotla birlikdə 500 nəfərlik bir qüvvə Biçeraxov tərəfindən Bakıya göndərilmişdi (153).

Bakı üzərinə gözlənilən həlledici hücumu dəf etmək üçün ingilis qoşunlarının komandanlığı da hazırlıq işlərini davam etdirməkdə idi. Baxmayaraq ki, Qafqaz İslam Ordusu komandanlığı qəti hücumun nə vaxt başlanacağını gizli saxlamağa çalışırdı, ancaq ingilis qoşunları komandanlığı bu barədə dəqiq məlumat əldə edə bilmişdi. General Denstervilin yazdığına görə sentyabrın 12-də Qafqaz İslam Ordusundan milliyyətcə ərəb olan bir hərbçi qaçıb onların tərəfinə keçdi və hücumun sentyabrın 14-də başlayacağı, əsas zərbənin qərb tərəfdən vurulacağı barədə məlumat verdi.

"Bu zabit əsl hücumun müdafiə xəttinin hansı hissəsindən ediləcəyini söyləməklə bərabər, bu hücumun sol tərəfimizə qarşı ola biləcəyi qənaətində olduğunu ifadə etdi. Bu zabitin verdiyi digər məlumatlar, əsasən, belə idi: Bakı qarşısındakı türk qüvvəsi 5-ci Qafqaz tüməni ilə 15-ci tümən və 36-cı Qafqaz tüməninin bir qismindən təşkil edilmişdi. Zabitin təxmininə görə, bu qüvvənin sayı 7000 idi. Bütün süvari qeyri-nizami və piyadanın böyük bir qismi nizami idi. Türklər silah altına almış olduqları qeyri-nizami piyadalardan istifadə etməyə hələ başlamamışdılar. Bu zabitin zənnincə, türk qüvvəsində otuz iki səhra topu və dağ topu vardır. Lakin zabit ancaq dörd top görmüşdü. Biləcərinin qərbində toplanmış olan 5-ci Qafqaz tüməni türk xəttinin sağına hərəkət etmiş və zabitin qənaətinə görə, 15-ci tümən sola hərəkət etməkdə idi. İstix-

barat işləri fəna olan türklər Bakıda 3000 ingilis, 4000 rus, 6000 erməni olduğunu zənn edirdilər və ermənilərin müqavimət göstərəcəyinə əmin olduqlarından qəsəbəni zəbt etmək niyyətində idilər. Bu dəfə hücum uğursuzluqla nəticələndiyi təqdirdə 10-cu Qafqaz tüməni əlavə güc olaraq köməyə göndəriləcəkdi»(154).

Bu məlumatı alandan sonra general Denstervil həlledici döyüşə hazırlıqla bağlı nəzərdə tutulan bir sıra tədbirlərin icrasının məqsədəuyğunluğuna yenidən baxdı. Həmin tədbirlərdən birinə görə, polkovnik Raulinson Qafqaz İslam Ordusu qüvvələrinə arxadan zərbə vurulmasını təşkil etməli idi. Bəyənilmiş plana görə, polkovnik Raulinson Lənkərana getməli, orada yerli rus əhalisindən olan qoşun bölmələri ilə birlikdə avtomobillərdə Muğan səhrasının şimalına hərəkət etməli və Qafqaz İslam Ordusunun əsas təchizat xətti olan dəmir yolu xəttini, dəmir yolu körpülərini dağıtmalı, bununla da Qafqaz İslam Ordusu qüvvələrini təchizat sarıdan çətin vəziyyətə salmalı idi. Ancaq general Denstervil yaxın günlərdə gözlənilən döyüş barədə məlumat alan kimi polkovnik Raulinsonun Lənkərana getməsinə lüzum görmədi(155).

Həlledici hücum ərəfəsində Bakı şəhərində çox mürəkkəb bir ovqat hökm sürürdü. Şəhərin müsəlman əhalisi Qafqaz İslam Ordusunun gəlişini səbirsizliklə gözləyirdisə, eser, menşevik və daşnak fəalları, Erməni Milli Şurasının üzvləri qorxu və təlaş içərisində idilər. Əhalinin əhval-ruhiyyəsini qaldırmaq üçün məqsədyönlü şəkildə təbliğat aparılır, şəhəri mühasirə edən Qafqaz İslam Ordusunun yalnız bir alay yarımdan ibarət olduğu və onların da tezliklə məğlub ediləcəyi barədə bəyanatlar verilirdi. Əhali kütləvi səfərbərlik adı altında kazarmalara doldurulur, səngərlərə göndərilirdi. Az qala küçəyə çıxan hər bir adam, o cümlədən xəstələr, qocalar, yeniyetmələr, şikəstlər, hətta əlini, ayağını, bir gözünü itirənlər belə «Sentrokaspi» ordusuna qatılırdı. Yerli rus əhalisinin nümayəndələri erməni-daşnak elementləri tərəfindən onların Qafqaz İslam Ordusuna qarşı səngərlərə göndərilməsinə heç də hamılıqla razı deyildilər(156).

Zorla səfərbərliyə alınmış təkqollu Bakı vətəndaşlarından biri xatırlayırdı ki, «Sentrokaspi» ordusunun siyahılarına görə, 72 min adam xidmətə cəlb edilmişdi. Onların 30 mini «ölü canlar» idi,

rüşvət verərək canlarını səngərdən qurtarmışdılar. 40 min nəfərə silah paylanmışdı ki, onlardan da yalnız 3–5 min nəfəri cəbhə xəttinə yollanmışdı. Müxtəlif adlar altında dəstələr yaradılmışdı. Məsələn, hüquqşünasların dəstəsi, artistlərin dəstəsi, dükançıların dəstəsi və s. Ştata görə 26 piyada taboru, bir neçə divizion, topçu briqadası, xeyli süvarilər və s. qüvvələr mövcud olmalı idi (157).

Çaşqınlıq içərisində fəaliyyətlərini artıq ciddi şəkildə tənzimləmək iqtidarında olmayan «Sentrokaspi» rəhbərləri yaxınlaşan süqutun qarşısını almaq üçün bütün şəhəri səfərbər etmək istəyirdilər. Lakin onlar Bakının azad edilməsi istiqamətində Qafqaz İslam Ordusunun qətiyyətinin, əzmkarlığının qarşısını almağa artıq qadir deyildilər.

### *3. Bakı şəhəri üzərinə 14 sentyabr tarixli hücum*

Bakı şəhəri üzərinə son hücum ərəfəsində Ordu komandanının əmri ilə döyüşdə iştirak edən qüvvələr arasındakı təmas xətti bir də dəqiqləşdirildi. Cənub qrupu ilə 5-ci diviziya arasındakı təmas xətti Puta körfəzindən, 283 rəqəmli təpədən və Puta stansiyasından keçməli idi. Zirehli qatar 5-ci diviziyanın tabeliyinə verilirdi. 5-ci diviziya ilə 15-ci diviziya arasındakı təmas xətti isə Xırdalanın şimalındakı Yanardağ–Biləcəri–Ermənikənd istiqaməti üzrə müəyyənləşdirilmişdi (158).

Böyük hazırlıq işlərindən sonra Bakı üzərinə həlledici hücumun nə vaxt başlayacağını Qafqaz İslam Ordusunun bütün zabitləri böyük intizarla gözləyirdilər. Sentyabr ayının 13-də, Bakı üzərinə ilk hücumdan 39 gün sonra 5-ci Qafqaz diviziyasının ərkani-hərb rəisi Rüşdü bəy son hücum ərəfəsində keçirdiyi hisslərini belə ifadə edirdi: «Bunu ərz etməliyəm ki, 5-ci Qafqaz diviziyası ona Vətən əqsamının istihlas və istirdadında Azərbaycanda olduğu qədər müşkülata, qanlı və ələmli zayiata uğramamışdı. Həm din və həm irqini qurtarmaq üçün mənsub olduğu millətin və ordunun qəhrəmanlıq dastanını yerə düşürməmək üçün zabitan və əfradımız böyük bir fərağati-nəfislə çalışmış, qiymətli qanlarını axıtmış və bilafütur müəzzəz canlarını da fəda etmişlərdi.

İstiqlalına aşiq Anadolu türkü nəhayət qonşu və qardaş millətin istiqlalını da həmin mücadilələr ilə təmin və Azərbaycanlıların əlinə tövdü və təslim etmişdi.

Bakısız Azərbaycan başsız bir vücuddur. Onsuz bir işə yaramazdı. Binaənəleyh Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətini behəmehal Bakı ikmal və itmam edəcəkdi. 5-ci Qafqaz diviziyası bunu əldə etmək üçün avqust bidayətlərində günlərcə boğaz-boğaza düşmənlə müharibə və mücadilə etdi. Fəqət məaləsəf Bakının alınması 39 günə qədər təəhhür etdi. Artıq bu da bu dəfə behəmehal Osmanlı silahları ilə alınacaqdı» (159).

Bakı üzərinə həlledici hücum sentyabrın 14-nə, şəhər üzərinə ilk hücumdan keçən 40-cı günə təyin edilmişdi. Qafqaz İslam Ordusu komandanlığı bu 40 gün ərzində görülən hazırlıq işlərini uğurlu hücum üçün kifayət sayırdı. İstər zəruri ehtiyatların yaradılması, istər qoşunların qruplaşdırılması və yerləşdirilməsi, istərsə də icra edilən digər tədbirlər şəhərin ələ keçirilməsinə obyektiv bir zəmin yaratmışdı.

General Denstervilin yazdığına görə, sentyabrın 14-də Bakı üzərinə hücum ərəfəsində «Sentrokaspi» və ingilis qoşunlarının müdafiə mövqeləri aşağıdakı kimi qurulmuşdu: sol cinahda, Bibiheybət mədənləri önündəki yüksəkliklərdə Şimali Stafford alayının 60 nəfərlik «A» bölüyü dayanmışdı. Təxminən 100 nəfərdən ibarət olan bir erməni taboru bu istiqamətdə ehtiyat qüvvə kimi saxlanmışdı. Qurd qapısı yüksəkliklərində 2 ədəd pulemyotu olan rus dəstəsi mövqe tutmuşdu. Şimali Stafford alayının 100 nəfərlik bir bölməsi «A» bölüyünün dayandığı istiqamətə ehtiyat qüvvə kimi göndərilmişdi. Qurd qapısı yüksəkliklərinin şimal tərəfində, 800 addımlıq sahədə Şimali Stafford alayının «B» bölüyü dayanmışdı. Hacıhəsən kəndi ilə üzbəüz səngərlərə qoyulmuş erməni hissələri bu bölüklə yanaşı idi. Həmin sahəyə bir haubitsa batareyası və bir ədəd üçdüyməlik top gətirilmişdi. Bundan 1,5 mil aralı olan Ağ ev yaxınlığında bir erməni taboru ehtiyat qüvvə kimi saxlanmışdı. Cəbhənin sol cinahının qərargahı da burada yerləşirdi. Ona polkovnik Veqsuraba rəhbərlik edirdi. Sol cinahın sol qanadı da toplarla möhkəmləndirilmişdi. Ora üçdüyməlik iki ədəd top göndərilmişdi. Sağ

cinah polkovnik Qazarovun rəhbərliyi altında idi. Bu cinahın sol qanadını, Hacıhəsən kəndindən Biləcəriyə kimi olan sahəni Biçeraxov dəstəsinin 600 nəfərlik bir qüvvəsi qoruyurdu. Biləcəri stansiyası Uorçester taborunun 2 bölüyünün nəzarəti altında idi. Biləcəridən Dərnəgülə qədər olan sahədə isə bu taborun digər bir bölməsi dayanmışdı. Dərnəgül gölünün cənub tərəfinin müdafiəsi bir erməni taboruna, bu gölün şərq tərəfi isə ingilis qoşunlarının 4 ədəd pulemyotu olan pulemyot komandasına tapşırılmışdı. Bu müdafiə xəttinə Şimali Stafford alayının 50 nəfərlik bir bölüyü ehtiyat qüvvə kimi verilmişdi. Bakı–Binəqədi yolundan 2 mil şərqə tərəf, 39-cu ingilis briqadasının qərargahının yerləşdiyi binanın yaxınlığında isə Varvik taborunun 100 nəfərlik bir bölüyü ehtiyatda saxlanmışdı. Sağ cinah səhra topçusunun 8-ci batareyası və bir haubitsa batareyası ilə möhkəmləndirilmişdi. 2 ədəd ingilis zirehli avtomobili Biləcəridə, 3-cüsü isə şəhərdə ehtiyatda dayanmışdı. Sağ cinahın sağ qanadını 500 nəfərlik erməni dəstəsi üçdüyməlik top batareyası, 3 ədəd rus zirehli avtomobili və bir eskadron süvari ilə qorumalı idi. Onlar bu istiqamətdən Suraxanı ətrafında daim fəaliyyətdə olan türk və Azərbaycan süvarilərinin qarşısını saxlamalı idilər. Bunlardan başqa, bir sıra yerli silahlı bölmələr də var idi ki, onlar heç bir əmrə tabe olmurdular və istədikləri istiqamətdə hərəkət edirdilər.

«Sentrokaspi» ordusuna general Dokuçayev, ingilis qoşunlarına isə polkovnik Keyvort rəhbərlik edirdi. Müdafiə işlərinə ümumi nəzarət isə «Sentrokaspi»nin hərbi naziri Baqratuni ilə ingilis generalı Denstervil tərəfindən həyata keçirilirdi(160).

"İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları" adlı arayışda da Bakı şəhəri üzərinə hücum ərəfəsində ingilis və «Sentrokaspi» qüvvələrinin müdafiə xətti boyu yerləşməsi haqqında məlumat vardır. Bu məlumat bir sıra təfərrüatların olması baxımından maraq doğurur. Həmin arayışda aşağıdakıları oxumaq mümkündür: " Müdafiə xəttini tutmaqda olan qoşun birliklərinin 13 sentyabr günü, saat 9.30-da yerləşmə vəziyyəti belə idi: Bibiheybətin qərbində Şimali Statford taborunun "A" bölüyü (kapitan Bollington komandasında 60 nəfər) xəttin solunu tutur və bir erməni taboru (təqribən 100

nəfər) məntəqə ehtiyatını təşkil edirdi. Qurd Qapısı gədiyində iki pulemyotla bərabər, bir rus bölüyü qərar tutmuşdu. Şimali Statford taborunun qərargahı ilə "C" bölüyü təqribən 80 nəfər və Varvik və Uorçestr taborlarından cəmi 20 tüfəng mayor Ley komandası altında olaraq qəsəbədəki ümumi ehtiyat yerindən hərəkət etmiş və "A" bölüyünün arxasında və səhra topları ilə kiçikçaplı toplardan ibarət bir yerli batareya yaxınında hakim bir mövqe tutmuşdu. Polkovnik Keyvort ehtiyat qüvvəni bir gecə hücumu olacağı ehtimalı ilə qarşı göndərmiş və lüzum olmadığı təqdirdə bunu sabah ertə ikən geri çağırmaq niyyətində idi.

Biçeraxovun qoşun birlikləri müdafiə mövqeyinin sağ məntəqəsinin sol hissəsini tuturdular və bu hissəyə xəttin şərqə dönərkən təşkil etdiyi guşə də daxil idi. Bu qoşunların sağında Biləcəri stansiyası ilə kəndindən keçən və təqribən iki mil uzunluğunda olan bir xətt Uorçestr taborunun "A" və "C" bölükləri tərəfindən tutulmuş və eyni taborun "B" bölüyü də yuxarıdakı iki bölüyün məntəqə ehtiyatını təşkil edirdi. Varvik taboru Böyük Duzlu gölə qədər uzanır və bu taborun 4-cü bölüyü (kapitan Boşel komandasında 100 nəfərlik) ehtiyatda durmaqla Biləcərinin təqribən 1,5 mil cənubunda və Bakı–Binəqədi yolu üzərindəki 39-cu sancağın qərargahında idi. Şimali Statford taborunun "D" bölüyü (mayor Havlok komandası altında 50 nəfər) də sancaq məntəqəsinin təqribən iki mil qərbində ehtiyatda idi. Müdafiə mövqeyinin sağ məntəqəsində bir top batareyası ilə 8-ci ingilis batareyası daxil olmaqla dörd səhra batareyası vardı. Varvik taborunun sağında Böyük Duzlu gölün cənub sahili erməni taboru tərəfindən tutulmuş və bu gölün şərqindəki keçiddə Donstar qüvvəsinin dörd ədəd pulemyot yerləşdirilmiş zirehli avtomobili dayanmışdı. Donstar qüvvəsinə məxsus zirehli avtomobillərdən iki ədəd Biləcəridə və bir ədədi də Bakıda ehtiyatda idi. Düşmənin atlı alayları tərəfindən təhdid edilən xəttin sağ yanı təqribən 500 erməni piyadası, bir süvari bölüyü, bir batareya və üç rus zirehli avtomobili qoruyurdu. Göstərdiyimiz yerləşim vəziyyətində yerli qoşunların böyük bir hissəsi hesaba alınmamış-

dır. Çünki bunlar ingilislər üçün naməlum idi, onlar aldıqları əmrə əsla itaət etmirdilər" (161).

Sentyabr ayının 13-də saat 17.11-də Hacıhəsən kəndinin qərbindəki müşahidə məntəqəsində Nuru paşa Bakı üzərinə həlledici hücumu başlamaq barədə döyüş əmrini imzaladı. Həmin əmrdə deyilirdi:

«1. Bakıya qarşı qəti təərrüzə Allahın lütfü ilə 14.9.334 (1918) sabahı başlanacaqdır.

2. 5-ci Qafqaz diviziyası piyadası ilə 14.9.334 sabahı saat 2-də hazırlıq möqeyindən Hacıhəsən köyü cənubundan Sarıhacılı kilsə istiqaməti-ümumiyyəsində irəli hərəkətə başlayaraq basqınla düşmənin ilk kənar mövqeyini zəbt edəcək və burada yerləşəcəkdir. İşbu xətt yalnız bomba və süngü ilə zəbt olunacaqdır.

3. Düşmənin ilk mövqeyinin zəbtini mütəaqib qitəat ikinci xətti də eyni zamanda işğal edəcəkdir. Daha irəliləmək üçün ortalığın ağarması və topçu atəşinin himayəsini bəkləyəcəklər və irəliyə kəşf qolları sürəcəkdir. Qazanılan ilk xəttə lüzumu qədər makinalı tüfəng yerləşdirilməlidir.

4. Topçu, piyadamızın irəliləməsi əsasında atəş etməyəcəkdir. Düşmən piyada təərrüzümüzü kəşf edər-etməz təqviyə (gücləndirmə–red.) qitəatının irəliləməsini mən (dayandırmaq–red.) üçün düşmənin ikinci, üçüncü və geridəki təkərrüb yollarını və topçu mövqelərini atəş altına alacaqdır. Buna görə indidən atəş təqsim olunmalıdır. İlk düşmən xətti basqınla zəbt olunacağından gecəliklə bu xəttə topçu əndaxt etməyəcəkdir. Ortalıq ağarar-ağarmaz piyadamızın daha da irəliyə təərrüzünü himayə edəcəkdir. Piyadə rəfaqət topları hər an irəliləməyə hazır bulunacaqdır.

5. Ordu ehtiyatı olan 106-cı və 107-ci alaylar hər an hərəkətə hazır bulunacaqlar. Alay, komandanları yanında, Ordu tərəssüd (müşahidə–red.) civarında bulunacaqlar.

6. 5-ci diviziya ortalıq ağarınca zirehli qatarı Heybət stansiyasına doğru irəlilədərək Volçi Varota məntəqəsindəki düşmən atəşini üzərinə cəlb edəcək və diviziyanın sağ cinahını mühafizə edəcəkdir.

7. 15-ci diviziya nisfilleyndən (gecəyarıdan–red.) etibarən Bi-

ləcəri, Balaxanı, Suraxanı və Əhmədli istiqamətlərində qüvvətli kəşf qolları və topçu atəşilə qarşısındakı düşməni təsbit edəcək və Əhmədlini zəbt edəcəkdir» (162).

Bu əmrə müvafiq olaraq hər iki diviziya komandirləri diviziya üzrə döyüş əmrlərini verdilər. 5-ci diviziyanın 75 saylı döyüş əmri çox geniş və əhatəli bir əmr idi. Bu əmrdə Bakı şəhəri üzərinə həlledici hücum zamanı 5-ci diviziyanın tabeliyində olan bütün hissə və bölmələrin qarşısında dayanan vəzifələr təfərrüatı ilə müəyyənləşdirilmişdi. Əmrin elə ilk bəndlərində deyilirdi ki, Allahın inayəti ilə sentyabrın 14-də Bakı üzərinə hücum başlanacaq. Bu hücumda 5-ci diviziya tabeliyində olan 9-cu, 10-cu, 13-cü, 56-cı piyada alayları ilə 11 qüdrətli, 3 rus səhra, 8 Şnayder, 5 rus dağ topları və 8 haubitsa iştirak etməli idi. Diviziyanın döyüş sahəsinin sağ cinahında 9-cu piyada alayı mövqe tutmuşdu. Bu alayın döyüş sahəsi Şubanıdan Bakıya gedən yola qədər gəlib çatırdı. 9-cu alayın sol cinahında, Şubanıdan Bakıya gedən yolun ətrafında isə 56-cı alay mövqe tutmuşdu. Hücum zamanı bu iki alayın qarşısında dayanan ilkin vəzifə güllə işlətmədən «Sentrokaspi» və ingilis qoşunlarının ilk müdafiə xəttini tutmaq idi. Sonra alaylar hücumu davam etdirməli və düşmənin ikinci müdafiə xəttini də ələ keçirməli idilər. Yalnız bundan sonra qüvvələr əllərinə keçirdikləri mövqelərdə dayanıb səhərin açılmasını gözləməli idilər ki, topların himayəsi ilə daha da irəliləyə bilsinlər. Alaylar cinahların mühafizəsinə diqqət yetirməli idilər ki, düşmənin qəfil basqınına məruz qalmasınlar. İkinci müdafiə xətti ələ keçiriləndən sonra 13-cü alay da hərəkət edib 9-cu alayın sağ cinahının arxasında mövqe tutmalı idi. Bu alay həm 9-cu alayın sağ cinahının mühafizəsini təmin etməli idi, həm də alayın sağ cinahını möhkəmləndirməli idi. Hücum gecə saat 1-də başlanmalı idi. Diviziya komandiri alaylardan tələb edirdi ki, müdafiə xətləri tutulan kimi bu mövqelər dərhal möhkəmləndirilsin və ora pulemyotlar qoyulsun.

Düşmənin ikinci müdafiə xətti tutulandan sonra hücum belə davam etdirilməli idi – 56-cı alay, əsasən, Sallaxananın şimal hissəsi ilə, 9-cu alay isə Sallaxana ilə Maşatlıq adlanan məntəqə arasında, yəni 56-cı alayın sağ cinahında irəliləməli idi. Bakı şəhə-

rindəki hündür kilsənin qızılı rəngli qülləsi hər iki alay üçün hücumun ümumi istiqamətini müəyyənləşdirməli idi. Şəhərə hakim olan yüksəkliklər ələ keçirildikdən sonra alaylar yenidən burada möhkəmlənib növbəti əmri gözləməli idilər. Döyüşçülərə şəhərə girmək, binalara soxulmaq qəti qadağan edilmişdi. 13-cü alay yenə də 9-cu alayın sağ cinahına yaxın hərəkətini davam etdirməli idi. 10-cu piyada alayı isə diviziyanın ehtiyat qüvvəsi kimi saxlanılırdı. Diviziyanın tabeliyində olan toplar üç qrupda birləşdirilmişdi. 1-ci və 2-ci qruplar sağ cinahı himayə etməli, Bayıl və Bibiheybət istiqamətindən ehtimal edilən düşmən hücumlarını dəf etməli idi. Üçüncü topçu qrupu isə cəbhənin sol cinahını öz himayəsi altında saxlamalı idi. Zirehli qatarlar da döyüşə cəlb olunmalı və Ordu komandanının döyüş əmrində müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etməli idi (163).

15-ci diviziya komandiri Süleyman İzzət bəyin imzaladığı döyüş əmrinə görə isə diviziya tabeliyində olan qüvvələrə aşağıdakı tapşırıqlar verilmişdi: 38-ci alaydan bir taqım 2 pulemyotla Binəqədinin cənubundakı Yanardağ təpəsi ətəyindən Biləcəriyə doğru hücuma keçməli, səhərin açılması ilə isə alayın iki taboru Biləcərinin şərqinə doğru hücuma keçməli idi. 38-ci alayın 3-cü taboru ehtiyatda qalmalı idi. Hücumdan öncə Biləcəri istiqamətinə hər biri 40 nəfərdən ibarət olmaqla iki kəşfiyyat qrupu göndərilməli idi. Azərbaycan könüllülərindən ibarət taborlar Balaxanı üzərinə hücuma başlamalı və bu məntəqəni ələ keçirdikləri təqdirdə Suraxanının cənubundan hücumu davam etdirməli idilər. Zehni bəyin rəhbərliyi altında olan mürəttəb 2-ci süvari alayı və Azərbaycan süvari alayları da Əhmədli istiqamətində hücuma qoşulmalı idilər. Döyüş əsnasında diviziyanın tabeliyində olan toplar hissələrin və dəstələrin hücumunu himayə etməli idilər(164).

Beləliklə, Bakı şəhərinə qəti hücum üçün artıq hər şey hazır idi. İndi yalnız onun icrası qalırdı.Verilmiş döyüş əmri, müəyyənləşdirilmiş vəzifələr tamamilə real idi. Hiss olunurdu ki, ilk hücumda düçar olunan uğursuzluğa yol verməmək üçün bütün ehtiyat tədbirləri nəzərə alınıb. Ola bilsin burada, hətta ifratlığa da yol verilmişdi. Hissə və bölmələrin az qala hər addımı sığortalan-

mış, ikiqat, üçqat mühafizə elementləri nəzərdə tutulmuşdu. Ələ keçirilən bir döyüş xəttində kifayət qədər möhkəmləndikdən sonra növbəti döyüş xətti üzərinə hücuma keçilməli idi. Bundan başqa, cinahların mühafizəsinə, ehtiyat qüvvələrin ayrılmasına xüsusi diqqət yetirilirdi. Şəxsi heyətin əhval-ruhiyyəsi də mübariz ruhda köklənmişdi. 5-ci diviziya ərkani-hərb rəisi Rüşdü bəy xatirələrində yazırdı ki, o gecə heç kim yatmamışdı. Döyüşçülər 5 avqust döyüşünün intiqamını almaq üçün hücum saatının çatmasını səbirsizliklə gözləyirdilər. Ancaq Rüşdü bəy onu da əlavə edirdi ki, qarşıda ağır bir döyüş dayanırdı. Qurd qapısı üzərindən hücuma keçmək elə də asan deyildi. Bu sərt təpəliklərə qalxmaq üçün yalnız ensiz bir yol var idi. Qoşunlar isə daha geniş bir cəbhədə hərəkət etməli idilər. Onlar gecə ikən Şubanı yüksəkliklərindən enməli, dəmir yolunu keçdikdən sonra sərt təpəliklərə dırmaşmalı idilər. Hələ gündüz ikən bu təbii maneələri adlamaq çox böyük zəhmət tələb edirdi. Gecə isə tam səssizliyə riayət edilməsi, düşmənin duyuq düşməsinə yol verilməməsi lazım idi(165).

Qarşıda iki alay hərəkət edirdi. 9-cu və 56-cı piyada alayları. 56-cı alay Sallaxanaya gedən yolun hər iki tərəfi ilə hərəkət edərək yüksəkliklərə qalxdı və saat 3-də düşmənin ilk müdafiə xəttini ələ keçirdi. 9-cu alay isə sərt yüksəkliklərdə yerləşən düşmən xəttini saat 3.30-da ələ keçirdi. Adları çəkilən alayların hücumu elə bir sürətlə həyata keçirildi ki, general Denstervil özü də heyrət içərisində qaldı. O yazırdı: «İnanılası mümkün deyildi ki, cəbhəmizin ən güclü sahəsi düşmən tərəfindən belə asanlıqla ələ keçirildi. Xüsusilə də bütün qoşunlar gözlənilən hücum barədə xəbərdar edildikləri bir vaxtda. Nə qədər inanılması mümkün olmasa da, bu, məhz belə idi. Bütün üstünlüklərin bizim tərəfimizdə olmasına baxmayaraq, hücumun elə ilk anlarından darmadağın edilən belə qoşunlarla heç nəyə ümid etmək mümkün deyildi və bizim indi yeganə vəzifəmiz geri çəkilməyi təmin etmək və qoşunların düzgün təxliyəsini təşkil etmək üçün düşmən hərəkətini ləngitmək idi» (166).

Gecəyarı 15-ci diviziya da hücuma qoşuldu. Əvvəlcə diviziyadan 40 nəfərlik kəşfiyyat qrupları irəli göndərildi. Qərb istiqamətində ilk müdafiə xətləri ələ keçirildikdən sonra şimaldan

ora əlavə yardım göndərilməməsi üçün səhərə yaxın saat 6-da «Sentrokaspi» və ingilis qoşunlarının mövqeləri güclü atəşə tutuldu. Şimal istiqamətində, Biləcəri ətrafında «Sentrokaspi» və ingilis qüvvələrinin əsas hissələri yerləşdirilmişdi. Bunu general Denstervil də etiraf edirdi. Çünki Qurd qapısı yüksəkliklərinin təbii şəraitindən yaxşı istifadə etməklə orada güclü müdafiə mövqeləri yaratmaq mümkün olduğu halda, şimal istiqamətindəki təbii şərait müdafiə üçün o qədər də əlverişli deyildi. Burada 39-cu ingilis briqadasının əsas qüvvələri, Biçeraxov dəstəsinin bir hissəsi və yerli qoşunların topları yerləşdirilmişdi (167). Alınan əsirlərin verdiyi məlumata görə, bu istiqamətdə konkret olaraq 800 erməni, 700 rus, 100 ingilis döyüşçüsü, çox yaxşı gizlədilmiş 16 pulemyot, ikisi uzun olmaqla 12 ədəd top 38-ci alaya qarşı mövqe tutmuşdu. Buna baxmayaraq, ilk həmlədən sonra 38-ci alayın qüvvələri düşmənlə 500–600 metr məsafəyədək yaxınlaşdı. Ancaq Biləcərinin şərqində məharətlə gizlədilmiş düşmən topları 38-ci alayın sağ qanadını güclü atəş altına aldı. Bu mövqedən qərbə doğru sahə boş olduğu üçün Ordu ehtiyatında olan alayların bura çıxarılacağına, heç olmasa 5-ci diviziya toplarının bu istiqamətə atəş açması ilə düşmən atəşinin zəiflədilməsinə ümid bağlanırdı. Eyni zamanda 38-ci alayın sol cinahı ilə üzbəüz mövqelərdən düşmən topları, o cümlədən uzun topları kifayət qədər sərrast atəşlər açırdı. 15-ci diviziyanın tabeliyində olan toplar əvvəlcə Biləcərinin şərqində olan pulemyot mövqelərini atəşə tutdular. Ancaq bu pulemyotlar yaxşı gizlədildiyindən onları zərərsizləşdirmək mümkün olmadı. Belə olanda Süleyman İzzət bəy toplara düşmən toplarının mövqelərini nişan almağa göstəriş verdi. Belə çətin vəziyyətlə qarşılaşmasına baxmayaraq, 38-ci alay xeyli irəliləyə bildi(168).

Qərb cəbhəsində birinci müdafiə xətti ələ keçirildikdən sonra 9-cu və 56-cı alaylar yeni qüvvələr vasitəsilə bir qədər də gücləndirildilər. 9-cu alayın 26-cı taborundan geridə saxlanmış iki bölüyü yenidən döyüş xəttinə, öz taborunun sərəncamına göndərildi. Qərb cəbhəsinin sağ cinahında 9-cu alayın döyüş sahəsində mövqe tutan ingilis qüvvələrinə mayor Ley rəhbərlik edirdi. Güclü hücum başlayanda mayor Ley öz döyüşçülərini bir

qədər geri çəkdi və arxadakı hündürlüklərin birində mövqe tutdu. Sonradan isə bir bölüyü irəliyə göndərdi(169).

56-cı alayın sol cinahı yaxşı mühafizə olunmadığından diviziya komandanlığı Ordu komandanlığı qarşısında ehtiyatda saxlanılan alaylardan birinin bu istiqamətdən döyüşə qatılması barədə məsələ qaldırdı. Ordu komandanlığının əmrinə görə, diviziya ehtiyatı olan 10-cu alay 56-cı alayın sol cinahında döyüşə qatıldı. Diviziya ehtiyatına isə Ordu ehtiyatında olan 106-cı alay verildi. Səhər saat 6-da uğurla davam etdirilən hücumla 56-cı alay «Sentrokaspi» və ingilis qoşunlarının ikinci müdafiə xəttini də ələ keçirdi(170).

Qərb cəbhəsində hücuma keçən alayların düşmənin müdafiə mövqelərini ələ keçirdikdən sonra döyüşə ara vermələri «Sentrokaspi» və ingilis qoşunlarını nəfəs dərməyə imkan verdi. Qafqaz İslam Ordusu qüvvələrinin hücumunda yaranan bu fasilə, hətta general Denstervilin özünü də təəccübə saldı. Onun fikrincə, qərb cəbhəsində irəliləyən hissələr yürüşlərinə ara verməsəydilər, çox qısa bir zamanda şəhəri tuta bilərdilər. Çünki iki müdafiə xəttini itirən «Sentrokaspi» və ingilis qüvvələri çaşqınlıq içərisində geri qaçmaqda idilər. İslam Ordusu qüvvələrinin döyüşə ara verməsi isə heç də onların güclü müqavimətlə rastlaşması ilə bağlı deyildi. Bu fasilə döyüşə bir lənglik gətirsə də, döyüş planı ilə nəzərdə tutulmuş bir fasilə idi. Plana görə hücum edən qüvvələr düşmənin birinci və ikinci müdafiə xətlərini ələ keçirdikdən sonra orada möhkəmlənməli və bu vaxt ərzində arxada qalan toplar da irəli çəkilməli idi. Topları Qurd qapısı yüksəkliyinə qaldırmaq isə elə də asan deyildi. Digər tərəfdən ola bilsin ki, İslam Ordusu komandanlığı piyadaların belə sürətlə düşmənin müdafiə xətlərini tutacağını güman etmirdi. Yoxsa ola bilsin ki, piyadaların hərəkətinin ardınca topların da aparılmasına başlanardı. Hər halda «Sentrokaspi» və ingilis qüvvələrinin şəhərin qərbindəki müdafiə mövqelərinin ələ keçirilməsi xəbəri alınanda Nuru paşa təkcə yüngül topların deyil, cəbhə arxasında yerləşdirilmiş ağır topların bir batareyasını da Qurd qapısı yüksəkliklərinə qaldırmaq, habelə hissələrin hücumuna çevik rəhbərlik etmək üçün 5-ci diviziya qərargahını da ora köçürmək barədə əmr verdi(171).

Döyüşlərin səngiməsindən istifadə edən ingilis komandanlığı qərb cəbhəsində mövcud qüvvələri yenidən qruplaşdırdı, bura əlavə qüvvə cəlb edildi. Polkovnik Keyvort tabeliyində olan qüvvələrdən bu istiqamətə kömək göndərdi. Digər istiqamətlərdən bura əlavə qüvvə gətirmək mümkün deyildi. Çünki şimalda da ağır döyüşlər gedirdi. Əsasən, yerli qüvvələrdən ibarət olan bölmələr qərb cəbhəsinə atıldı. Hər halda general Denstervil yazırdı ki, səhər saat 8-də bu istiqamətdəki çaşqınlıq aradan qaldırılmış və qərb cəbhəsinin mərkəz sahəsi xeyli möhkəmləndirilmişdi (172).

İngilis komandanlığı tərəfindən qüvvələrin yenidən qruplaşdırılması 9-cu Qafqaz alayının sağ cinahında müəyyən bir gərginlik yaratmışdı. Ona görə həm 13-cü alaya bu cinahda fəallaşmaq, həm də topçulara bu cinahı himayə etmək əmri verildi. Səhər saat 8.23-də Ordu komandanlığı diviziya tabeliyində olan bütün topların yüksəkliklərə qaldırılması barədə əmr verdi. Həmin topların Qurd qapısı yüksəkliklərinə qaldırılması ilə hücumun uğurla davam etdirilməsinə bir zəmin yarandı. Əvvəlcə topların köməyi ilə 9-cu alayın sağ cinahında, Bibiheybət istiqamətində yaranan gərginlik aradan qaldırıldı. Sonra isə hücuma keçən alaylarla üzbəüz cəbhədə düşmənin müqaviməti qırıldı. Səhər saat 9.15-də 5-ci diviziya komandanı Mürsəl paşanın Ordu komandanlığına verdiyi raportda deyilirdi: "Piyada hissələr məzarlığın qərbində və Sallaxanada düşmənin ikinci xəttinin tutub. Bir qüdrətli taborun irəli hərəkətinə əmr verilmiş və bir batareya irəli getmişdir. Volçi Varota ilə Bayıl təpələri tərəfdə düşmənin 20 nəfərlik bir qüvvəsi var. Onların hücumu gözlənilmir. Lazımi tədbirlər görülür" (173).

Ancaq bir tərəfdən əlverişli mövqelərin tutulması, digər tərəfdən də topların səmərəli fəaliyyətə başlaması «Sentrokaspi» və ingilis qoşunlarının müqavimət göstərmək imkanını məhv etmişdi. Az sonra 56-cı alay sol cinahda şəhərə hakim olan yüksəklikləri və düşmənin üç ədəd pulemyotunu ələ keçirdi (174). Bu mövqedən şəhərin bombardman edilməsi xeyli asanlaşdı və düşmən qüvvələrinin təşvişini artırmaq üçün arabir toplardan şəhərə atəş açılırdı.

56-cı alaya qarşı cəbhə tutmuş qüvvələr Qırmızı Qışlaya tərəf

geri çəkilərək burada müqaviməti davam etdirirdilər. Alınan məlumata görə, Qışlanın arxasında 3 ədəd zirehli avtomobil düşmən qüvvələrini himayə edirdi. Bu avtomobilləri zərərsizləşdirmək üçün toplara atəş açmaq əmri verildi. Haubitsa batareyasının bir neçə sərrast atəşindən sonra Qışla həm piyadalar, həm də zirehli avtomobillər tərəfindən tərk edildi. Sağ cinahdan irəli çıxarılmış olan 13-cü alay isə Maşatlıq adlanan məntəqəni, habelə Bayıl yüksəkliklərini ələ keçirdi. Bu mövqelərdən artıq top atəşi ilə limandakı gəmilərin hərəkətinə mane olmaq mümkün idi. Qərb cəbhəsində hücumu genişləndirmək üçün Putadakı zirehli qatar da saat 11.45-də Heybət stansiyası istiqamətinə hərəkətə başladı. Qatar top atəşləri vasitəsilə hücumu himayə edə bilərdi. Beləliklə, sentyabrın 14-də günortaya kimi qərb cəbhəsində əsas mövqelər ələ keçirilmiş və düşmənin müqaviməti tamamilə qırılmışdı. 5-ci diviziya ərkani-hərb rəisi Rüşdü bəy etiraf edirdi ki, əgər toplar döyüşə daha yaxşı qoşula bilsəydilər, onda gün ərzində əldə edilən nəticələr daha böyük ola bilərdi(175).

Gərgin döyüşlər şimal cəbhəsində də davam edirdi. Polkovnik Favielin rəhbərliyi altında olan Varvik və Uorçester taborları 38-ci alaya qarşı güclü müqavimət göstərməkdə idilər. Gündüz başlanan hücum ingilis bölmələri tərəfindən dəf edildi və onlar mövqelərini əllərində saxlaya bildilər. Biləcəri ətrafındakı toplar və pulemyotlardan başqa 2 ədəd aeroplan və 6 ədəd zirehli avtomobil də ingilis bölmələrini himayə edirdi. Aeroplan təkcə bomba atmaqla kifayətlənmir, eyni zamanda pulemyotlarla da 38-ci alayın mövqelərini atəşə tuturdu(176).

Biləcəri ətrafındakı düşmən qüvvələrinin müqavimətini qırmaq və sağ cinahın təhlükəsizliyini təmin etmək üçün Süleyman İzzət bəy Ordu komandanlığı qarşısında diviziyaya əlavə bir batareya və ehtiyatda saxlanılan piyada qüvvələrindən əlavə yardım ayırmaq barədə məsələ qaldırdı. Nuru paşa Biləcəri ətrafında yaranan gərgin vəziyyəti nəzərə alaraq dərhal Süleyman bəyin qalldırdığı məsələni müsbət həll etdi. Çünki Biləcəri alınmadan Bakını ələ keçirmək çətin olardı. Nuru paşa Ordu ehtiyatında olan 107-ci alaya Biləcəriyə doğru irəliləmək əmri verdi. Əlavə olaraq Süleyman İzzət bəyə bildirildi ki, ta-

beliyinə verilmiş olan 107-ci alayın malik olduğu 4 ədəd topu da lazım bildiyi kimi istifadə etməklə top atəşlərini gücləndirmiş olar (177).

107-ci alay 5-ci diviziyanın sol cinahı ilə Biləcəri arasında mövqe tutmalı idi. Bu alayın döyüşə qatılmasının hər hansı bir anlaşılmazlıq yaratmaması üçün Ordu komandanlığından 5-ci diviziyaya bu barədə məlumat verildi və tələb edildi ki, həmin alayla əlaqə yaradılsın və təmas xəttində qüvvələrin fəaliyyəti tənzimlənsin (178).

Biləcəri ətrafında düşmənin müqavimətini qırmaq üçün Nuru paşa 15-ci diviziya komandanından daha da irəli getməyi tələb etdi. O əmr edirdi ki, atəşlərin səmərəliliyini təmin etmək üçün toplar da irəli aparılsın. 107-ci alayın diviziya sərəncamına verilməsini bildirməklə Nuru paşa 38-ci alaydan da mümkün qədər ehtiyat qüvvə saxlanılmasını lazım bilirdi. Ancaq görünür bu istiqamətdə əldə edilən nəticələrdən tam razı qalmayan Nuru paşa az sonra Süleyman İzzət bəyə yeni bir əmr göndərdi. Bu əmrdə də Nuru paşa bildirirdi ki, Biləcərinin gerisinə Hacıhəsəndən bir alay göndərmişdir. Süleyman bəy bundan sonra irəliyə hərəkətini davam etdirməli idi. Çünki İngilis qüvvələri artıq Biləcərinin cənubundakı mövqeləri tərk etmək üzrə idilər (179).

Günortadan sonra 38-ci alay yenidən hücuma başladı. Bir saata qədər davam edən şiddətli döyüşdən sonra saat 3-də nəhayət ki, Biləcərinin ətrafı tam şəkildə nəzarət altına götürüldü. Alayın sağ cinahı ilə irəliləyən 3-cü tabor ingilislərin pulemyot mövqelərini ələ keçirməklə bərabər, xeyli sayda əsir də götürə bildi(180).

Günortadan sonra 107-ci Qafqaz alayı da iki diviziya arasında qalmış boşluğa, Hacıhəsən kəndindən Biləcəriyə doğru döyüşə göndərildi. Ancaq burada ingilis və «Sentrokaspi» qoşunlarının əlverişli mövqe tutmaları üzündən bu alayın ilk hücum cəhdləri bir nəticə vermədi və alay hərəkətini dayandırmaq məcburiyyətində qaldı. 38-ci alay Biləcəri ətrafını ələ keçirdikdən sonra Süleyman İzzət bəy 107-ci alayla əlaqə yaratdı və bu alayın komandirinə də hücumu davam etdirmək əmri verdi. Günün sonunda bu alay xeyli irəliləyib 38-ci alayın sağ cinahında möhkəmləndi (181).

Biləcəri ətrafı ələ keçirildikdən sonra 38-ci alayın sol cinahında pulemyot və topçu atəşlərinin himayəsi altında «Sentrokaspi» və ingilis qüvvələri hücuma keçdilər. Bu hücumun qarşısını almaq üçün diviziya komandiri Süleyman İzzət bəy özü həmin istiqamətə yollandı. Elə bu vaxt o, Ordu komandanlığından əmr aldı ki, diviziya qüvvələrinin daha çevik idarə edilməsi üçün qərargahını Biləcərinin cənubuna köçürsün. Ancaq S. İzzət bəy böyük bir əraziyə səpələnmiş qüvvələrin yaxşı idarə edilməsi üçün həmin məntəqəni əlverişli saymırdı. Ona görə də o, Ordu komandanlığından vəziyyətə uyğun surətdə hərəkət edilməsinə razılıq verilməsi barədə icazə istədi(182).

15-ci diviziyanın sol cinahında, yarımadanın şərq tərəfində Azərbaycan qüvvələri döyüşə girmişdilər. Könüllü qüvvələrdən ibarət olan tabor döyüşə uğurla qoşularaq müqavimət göstərən düşməni geri çəkilməyə məcbur etmiş və Sabunçunu ələ keçirmişdi. Süvari qüvvələri isə Zığdan Əhmədliyə doğru irəliləyə bilmişdi (183).

Beləliklə, bütün istiqamətlərdə, bütün döyüş sahələrində düşmənin müqaviməti qırıldı. İngilis qüvvələrinin komandanlığı gün ərzində baş verən döyüşlərdən sonra Qafqaz İslam Ordusunun hücumlarının qarşısının alınmasının qeyri-mümkünlüyü haqqında qəti əminlik əldə etdi. Ona görə də axşam saat 8-də ingilis qüvvələrinə geri çəkilmək əmri verildi. General Denstervilin yazdığına görə, ingilis qüvvələrinin 40 gün Bakıda mövcudluğu ərzində 180 nəfər ölmüş, yaralanmış və itkin düşmüşdü. Axşam saat 10-da bütün ingilis qüvvələri «Kruger» gəmisinə yüklənmişdi. Biçeraxovun dəstəsindən olan bölmələr isə öz gəmilərinə yüklənib Petrovska doğru istiqamət götürdülər. İngilis qüvvələrinin geri çəkilməsi «Sentrokaspi» liderlərini yenidən çətin vəziyyətə saldı. Onların hərəkətinə yol verməmək üçün axşam «Sentrokaspi» rəhbərlərindən Lyamlin və Sadovski «Kruger» gəmisinə, general Denstervilin yanına gəldilər. Sadovski təmsil etdiyi hökumət adından generala belə bir bəyanat verdi: «Mən sizə Bakı hökumətinin yazılı qərarını gətirmişəm. Orada sizə xəbərdarlıq olunur ki, geri çəkilməniz satqınlıq kimi qiymətləndiriləcək və buna qarşı müvafiq tədbirlər qəbul ediləcəkdir. Əgər siz öz qoşunlarınızı artıq mövqelərdən çıxarmısı-

nızsa, onda siz onları dərhal geri göndərməlisiniz. Türklər hələ şəhərə girməmişlər və biz döyüşü davam etdirmək fikrindəyik» (184).

General Denstervil ona belə cavab verdi: «Zəhmət olmazsa, Bakı hökumətinin nəzərinə çatdırın ki, mənim getməyim heç də satqınlıq deyil. Çünki mənim niyyətlərim bütünlüklə sizin hökumətə bəlli idi. Mənim qoşunlarım əvəz edilmədən, kömək almadan 16 saat ərzində bütün günü döyüşdə iştirak etmişlər. Həmin vaxt sizin qoşunlar isə xeyli zəif döyüşmüşlər. Belə bir vəziyyətdə mən öz əsgərlərimin həyatını qurban verməkdən imtina edirəm. Qoşunlarımın dərhal ön mövqelərə qaytarılması barədə sizin tələbinizə gəldikdə isə bildirirəm ki, əvəz edilmədən 16 saat atəş altında qalan əsgərlərin döyüşü davam etdirməsi fiziki cəhətdən mümkün deyil. Belə bir əmri mən verməyəcəyəm və təcili olaraq yola düşürəm» (185).

Sentyabr ayının 14-ü gecəsi ingilis qoşunları Bakını tərk etdilər. Təxliyə planı əvvəlcədən diqqətlə tərtib olunduğundan geri çəkilmə hərəkatı da asanlıqla və fövqəladə bir hadisə olmadan icra edilirdi. Təxliyəyə qarşı çıxan yerli əhalinin və qoşunların bu təxliyəyə də mane olacağı gözlənilirdi. General Denstervil niyyətini günortadan sonra diktatorlara bildirdi və onlar ilk anlar etiraz etmədilər. Xəstələrlə yaralılar bəzi pərakəndə və özbaşına hərəkətlərlə “Kursk” və “Argo” gəmilərinə, general Denstervil ərkani-hərbiyyəsi ilə bərabər, qüvvələrin də böyük hissəsi “Prezident Kruger” gəmisinə mindirildi. Döyüş sursatları isə “Armeniya” gəmisinə yükləndi.

Saat 10-da qüvvənin əksəriyyəti “Prezident Kruger”ə minmiş, “Argo” isə artıq yola düşmüş, “Kursk” hərəkət etmək üzrə idi. Bundan bir az əvvəl diktatorlardan ikisi ingilis hissəsinin təkrar müdafiə xətlərinə dönmələrinə dair vaxtsız bir əmr bildirmək üzrə limana gəlmişdilər. Düşmənin topçu atəşi kəsilmişdi. Türklər hələ də qəsəbəyə girməmişdilər, diktatorun ifadəsinə görə, Bakı xalqı müharibəyə davam etmək niyyətində idi. Lakin general Denstervil bihudə yerə yenidən insan tələfatından imtina etdi. Bundan sonra diktatorlar hərbi gəmilərə general Denstervilin və qüvvələrinin mindiyi gəmilərin batırılması əmrini verəcəklərini söylədilər.

Lakin hərbi gəmilərin şəxsi heyəti bu əmri necə qarşılayacağı şübhəli idi. Çünki hərbi dənizçilər diktatorları sevmirdi və ingilislərə düşmən deyildi. Yeganə həqiqi təhlükə giriş yerindəki mühafizə gəmisindən gələ bilərdi. Lakin bu gəminin böyük topları yox idi və general Denstervil qaranlıqda gözə görünmədən həmin gəminin yanından keçə biləcəyinə ümid edirdi.

"Prezident Kruger" gəmisinin hərəkəti gəmi işçilərinin ailələri üzündən gecəyarısına qədər gecikdi. Lakin gəmi nəhayət, hərəkət etdi. Mühafizə gəmisinin yanından keçərkən bu gəminin bütün elektrik işıqları "Prezident Kruger"ə tərəf çevrildi. Bu hal mühafizə gəmisindən "dur" işarəsinin verilməsini və atəş açılmasının qanuni hal olduğunu göstərirdi. Lakin mühafizə gəmisindən açılan atəşin bir nəticəsi olmadı. Qoşunu daşıyan üç gəmi ertəsi gün salamat şəkildə Ənzəliyə çatdılar" (186).

Bununla da «Sentrokaspi» rəhbərləri ümid bağladıqları əsas qüvvələrdən məhrum oldular. Ayın 14-də Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən ələ keçirilməmişdisə də, artıq onun taleyi həll olunmuşdu. Gün ərzində gedən döyüşlərin nəticəsi barədə axşam 5-ci diviziya komandanı tərəfindən Ordu komandanlığına belə bir raport verildi:

«1. 13-cü alay Maşatlıq və bunun şimalında şəhərə hakim sırtları kamilən işğal etmiş olub düşmən civarındakı binalara girərək atəş etməkdədir. Şəhər daxilində toplaşmaqda olan düşmənin 13-cü alay cəbhəsinə yapdığı birinci müqabil təərrüz tərd edilmiş və ikinci təərrüzün də tərdinə çalışılmaqda olduğu anlaşılmışdır. Məzkur alay cəbhəsindəki düşmən məhkum və şaşqın bir vəziyyətdə mütəmadiyən piyada və makinalı tüfəng atəşi icra etməkdədir.

2. 56-cı alay cəbhəsindəki düşmən Qırmızı və Bəyaz qışlaların önündədir. Qırmızı Qışlanın önündəkilər piyada və makinalı tüfənglərlə və daxilindəkilər yalnız makinalı tüfənglərlə və Bəyaz Qışla civarındakı zirehli avtomobillər də top və makinalı tüfənglərlə atəş etməkdədirlər.

3. 10-cu alay cəbhəsindəki düşmən 56-cı alayın sol cinahına gətirdiyi qüvvələr ilə 3–4 dəfə təərrüz təşəbbüsündə bulunmuş və

fəqət hər dəfə tərd edilmişdir. Düşmən saat 13-də 107-ci alay cəbhəsindəki qüvvəni təqviyə edərək Hacıhəsən köyünün şimal-qərbindəki sırt və daha şərqindəki bir kaç sırtı işğala müvəffəq olmuşsa da, 28-ci taborun düşmən gerilərinə yapdığı təsir və təərrüz üzərinə düşmən saat 16-da ricətə məcbur edilmiş və 107-ci alayın da məzkur sırtlara çıxdığı tərəssüd olunmuşdur. 10-cu alay sol cinahı qarşısına iki zirehli avtomobil gəlmiş və fəqət topçu atəşlərimizlə tərd edilmişdir.

4. Diviziya qitəatının vəziyyəti aşağıdadır :

a) 13-cü alay Maşatlıq sırtı cənubundakı bina ilə Sallaxana civarındakı bina qrupları arasındakı xətdə;

9-cu alay 13-cü alayın sol cinahından Sallaxananın şimalındakı qırmızı binaya qədər;

56-cı alay 9-cu alayın sol cinahında, bulunduğu cəbhədə;

10-cu alay 56-cı alayın sol cinahından etibarən diviziya sol cinahına qədərki xətdədir;

b) 10-cu alayın iki və digər alayların bir taboru cəbhələri gerisində ehtiyatda bulunmaları əmr olunmuşdur;

c) 106-cı alayın bir taboru Heybət–Bakı caddəsinin kəskin daşlıq sırtı qət etdiyi məhəldə, digər taboru Zavotlarda. Hər iki tabor diviziya ehtiyatındadır.

d) Səhra obus batareyasından məada digər topçu qitəatı da bu gecə şiməndifər (qatar–red.) xəttinin şərqinə keçəcəkdir.

e) İstehkam və dəmir yolu bölükləri Puta–Biləcəri dəmir yolu xəttinin təmiri ilə məşğuldurlar.

f) Zirehli terən Heybətdə qalacaqdır.

g) Diviziya müstəqil xəttinin vəziyyətində təbəddül yoxdur.

h) Diviziya qərargahı Zavotlardadır.

5. Şnayder, Krup və Obus topları qışlalar, iskele (liman–red.) və yol kimi mühüm yerlərə gecə atəşləri üçün təsbit olunmuşdur.

6. 13-cü alay tərəfindən bir avtomatik tüfənglə iki ağır makinalı tüfəng iğtinam (qənimət–red.) və iki nəfər əsir edilmişdir. İğtinam olunan makinalı tüfənglərdən biri düşmənin əleyhinə istemal edilməkdədir. 56-cı alay tərəfindən həmən beşmakinalı tüfəng iğtinam edilmiş və qismən düşmən əleyhinə istemal edilmişdir.

7. Bu müharibədə yalnız 56-cı alay bir zabit, 16 nəfər şəhid vermiş, 2 zabit, 74 nəfər məcruh və 8 heyvan yaralı vermiş, 105 sandıq piyada və makinalı tüfəng mərmisi və 465 bomba sərf edilmişdir» (188).

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, gün ərzində 15-ci diviziyanın tabeliyində olan 38-ci alaydan 1 zabit şəhid olmuş, 1 zabit və 116 əsgər yaralanmışdı. 107-ci alaydan isə 8 zabit və 80 əsgər yaralanmışdı(189).

Axşam hər iki diviziya komandiri gün ərzində gedən döyüşlərin nəticələri barədə diviziya üzrə əmr imzaladılar. 5-ci diviziya üzrə verilən əmrdə günün sonunda hissələrin hansı mövqelərdə olduqları, harada gecələməli olacaqları açıqlanmışdı. Əmrdə qeyd edilirdi ki, hissə və bölmələr yerləşdikləri mövqelərin mühafizəsini də təmin etməli, düşmən qüvvələrinin hücumları baş verdikdə onun dəf edilməsinə hazır olmalıdırlar. Dəmir yolu və istehkam bölmələrinə dəmir yolu xəttinin Biləcəriyə qədər olan hissəsinin yoxlanılması və xarab olan hissələrin bərpası tapşırıldı. Dəmir yolu xəttinin qərbində qalmış olan topların gecə ikən Qurd qapısı yüksəkliklərinə  nəql edilməsi də əmrdə öz əksini tapmışdı. Əmrdə, habelə təchizat-təminat, səhiyyə, rabitə məsələləri ilə bağlı müvafiq bölmələrə və strukturlara da lazımi göstəriş verilirdi (190).

15-ci diviziya komandiri Süleyman İzzət bəyin sentyabrın 14-ü axşamı imzaladığı 9 saylı əmrdə deyilirdi :

« 1. 107-ci alay işğal etdiyi mövqedə qalaraq hissələrin tərtib və tənzim və hər türlü ehtimala qarşı mövqeyini mühafizə edəcək və 10-cu alay ilə irtibatı təsis edəcəkdir.

2. 107-ci alay eyni zamanda sola yanaşaraq 38-ci alay ilə sıx bir irtibat təsis edəcəkdir. Bunun üçün 5-ci diviziya əmrində bulunan 10-cu alaydan bir miqdar uzaqlaşmasında beis (ziyan–red.) yoxdur.

3. 107-ci və 38-ci alay hər biri bir taboru ehtiyata alacaqlar və dış cinahları gerisində bulunduracaqlar.

4. Zehni və Tofiq bəy müfrəzələri bu gecəni əldə etdikləri mövqelərdə keçirərək düşmənlə təması qoruyacaqlar...»(191).

Sonra diviziya komandirinin əmrində qeyd edilirdi ki, qüvvələr gecə düşmən tərəfindən baş verə biləcək hər cür hücumun

qarşısının alınmasına hazır olmalıdırlar. Belə hücumların qarşısının vaxtında alınması üçün irəliyə kəşfiyyat qruplarının göndərilməsi tələb olunurdu. Topçulara Biləcərinin şərqinə doğru irəliləmək, istehkamçılara isə Biləcərinin şərq tərəfində dəmir yolu xəttini sökmək əmr olunurdu. 15-ci diviziya komandiri də əmrinin sonunda təchizat-təminat, səhiyyə və rabitə məsələləri üzrə lazımi göstərişlər verirdi.

Sentyabrın 14-də gedən döyüşlərin nəticələri ümumən Qafqaz İslam Ordusu komandanı Nuru paşanı razı salmışdı. O, öz təəssüratını belə bölüşürdü: "Hər iki qol (qərb və şimal cəbhələri nəzərdə tutulur–M.S.) verilən əsas daxilində vəzifəsini tamamilə tətbiq və ifa etmiş və fəcirdən əvvəl Bakıya hakim olan qərb sırtları kamilən hissələrimizin əlinə keçmiş idi. Bu hərəkətdə əsl hücum qolumuz pək az zayeatla hədəfinə vasil olduğu halda, şimal qolumuz düşmənin qismi-küllüsünü üzərinə çəkdiyindən fazla zayeata məruz qalmış idi. O günün axşamına qədər Bakının qərb-şimalındakı düşmən mövqeləri düşməndən təmizlənmiş idi. Bol pulemyot, tüfəng və zirehli avtomobil ilə mücəhhəz olan düşmənlə sokak (küçə–red.) müharibəsi yapıldığı təqdirdə fazla zayeat veriləcəyi nəzər diqqətə alınaraq gecə şəhər xaricində keçirilmiş və yalnız topçu atəşi ilə düşmənin irkap işləkləri ilə müqavimət nöqtələri döyülməklə iktifa edilmiş idi" (192).

Şərq ordular qrupu komandanı Xəlil paşa da öz xatirələrində Bakı ətrafında gedən döyüşlərə toxunurdu. Həmin xatirələrində Xəlil paşa başına gələn belə bir hadisəni təsvir edirdi: «...Bu savaşda zaman-zaman özümü əlimdə mauzer irəlidəki xətlərin arasında bulduğum zamanlar oldu. Bir ara savaşdaydıq ki, bir əsgərin yalvara-yalvara yanıma soxulduğunu gördüm:

– Komandan paşam,... güllə dəyəcək, komandan paşam...

Tutdum bu yaşı qırxı keçmiş dəliqanlının alnından öpdüm. Omuzunu buraxanda ovcumun içində qan ləkələrini gördüm.

– Yaralısan, oğlum...

Əlini omuzuna apardı. Basdırdı, bir ara üzü acı ilə buruldu.

– Unutmuşam, komandan paşam, – dedi və sıçraya-sıçraya irəli doğru qaçdı, bir yandan mauzerindən güllə atırdı. Yanımdan bir zabiti gəncəcik bədəni parçalanmış olaraq keçirdilər. Pulemyot

yarısını biçib aparmışdı» (193).

Sentyabrın 14-ü üçün qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirən Qafqaz İslam Ordusu qüvvələri həmin günün gecəsini istirahət etməklə bərabər, həm də son döyüşə hazırlıqda keçirirdilər.

## *5. Bakı üzərinə 15 sentyabr tarixli hücum. Şəhərin azad edilməsi*

Bakı şəhəri üzərinə hücumu sona çatdırmaq üçün Nuru paşa sentyabr ayının 14-də axşam saat 20.30-da Ordu üzrə 100 saylı əmri imzaladı. Bu əmrlə Ordu komandanlığı sentyabr ayının 15-də diviziyaların qarşısında dayanan vəzifələri müəyyənləşdirdi. Əmrdə deyilirdi :

«1. Yarın sabahleyn hərəkəti-təərrüzəyəyə davam olunaraq Bakı şəhəri zəbt olunacaqdır.

2. 5-ci Qafqaz diviziyası Volçi Varotaya qarşı sağ cinahını təmin etməklə bərabər böyük qismi ilə 56-cı alay məntəqəsindən sol cinahı Erməni kəndin cənubundan keçmək üzrə təərrüz edərək şəhərin Çornı qorod deyilən neft şəhərinə qədər qərb qismini zəbt edəcəkdir. Diviziya kəndisinə təxsis edilən Bakı qismində bir alay piyada ilə caddə və meydanların lüzumunda müdafiəsi üçün iki dağ batareyası bulunduracaqdır. Diviziyanın əqsami-sairəsi şəhərin zəbtindən sonra Bakının şimal-şərqindəki və Xırdalan–Bakı caddəsinin hər iki tərəfində toplu bulunacaqdır.

3. 15-ci diviziya sağ cinah ilə Erməni kəndini təmizləmək üzrə şimal və şərqdən Bakının Çornı qorod qismini zəbt və işğal edəcəkdir. Diviziya bu qismin mühafizəsi üçün bir alay və bir batareya təxsis edəcək və mütəbaqi əqsamını şəhərin xaricində toplu bulunduracaqdır.

4. 15.9.334(1918) sabahı piyada təərrüzü ortalıq ağardıqdan topçu ilə ihzar olunduqdan sonra yapılacaqdır. Çox topçu atəşinin bir nöqtədə təmərküz etdirilməsi diqqət nəzərindən uzaq tutulmasın.

5. Şəhərin zəbtini mütəaqib (ardınca–red.) bellibaşlı caddə və

meydanların atəş altına alınması üçün makinalı tüfənglər və daha mühüm yerlərə toplar yerləşdirilməlidir» (194).

Ordu komandanının bu əmrinə əsasən diviziya komandirləri özlərinin sentyabr ayının 15-i üçün döyüş əmrini imzaladılar. Həmin əmrlə diviziya komandirləri tabeliklərində olan hissələrin və dəstələrin qarşısında dayanan vəzifələri dəqiqləşdirdilər. 15-ci diviziya komandirinin döyüş əmrində (195) bütün qüvvələrin əsas vəzifəsi kimi Bakının ələ keçirilməsi müəyyənləşdirilirdi. Əmrdə bildirilirdi ki, Ermənikəndin cənubundan keçmək şərti ilə şəhərin qərb hissəsinin ələ keçirilməsi 5-ci diviziyaya həvalə olunmuşdur. 15-ci diviziya isə sağ cinahı Ermənikənddən keçmək şərtilə şəhərin şimal və şərqindən irəliləməli, Bakının Qara şəhər qismini nəzarət altına almalıdır. Qarşıya qoyulan vəzifə yerinə yetirildikdən sonra şəhərin həmin hissəsində bir piyada alayı və bir cəbəl-topçu batareyası saxlanılmalı və qalan qüvvələr isə şəhərin kənarına çıxarılmalı idi. Sentyabrın 15-də diviziya qüvvələrinin hücumu topçu hazırlığı ilə başlamalı idi. 107-ci alay sol cinahda Ermənikənddən keçərək limana qədər irəliləməli idi. 38-ci alay 107-ci alayın sol cinahından irəliləyib Qara şəhərin dəniz kənarına qədər olan ərazilərini düşmən qüvvələrindən təmizləməli idi. Tofiq bəyin rəhbərliyi altında olan Azərbaycan könüllü taborları Sabunçudan şəhərə gələn dəmir yolu xətti boyunca hücuma keçib Keşləyə girməli və orada möhkəmlənməli idi. Zehni bəyin süvari dəstəsinə isə Əhmədli istiqamətindən şəhərə doğru hücuma keçmək həvalə olunmuşdu. Süleyman İzzət bəyin yazdığına görə, Zehni bəyin rəhbərliyi altında Əhmədlidən irəliləməkdə olan və əsasını milli qüvvələr təşkil edən süvari dəstəsinə Nuh bəyin rəhbərliyi altında Qarayazı süvari alayı, Xosrov Mirzə Qacarın rəhbərliyi altında olan Ləzgi süvari alayı, yüzbaşı Haşım bəyin rəhbərliyi altında süvari bölüyü və eləcə də digər bir milli süvari bölüyü daxil idi (196).

Süleyman İzzət bəy döyüş əmrində xüsusi olaraq qeyd edirdi ki, şəhərdə talançılıq hərəkətlərinə qətiyyən yol verilməməlidir.

5-ci diviziya komandiri imzaladığı 77 saylı döyüş əmrində bildirirdi ki, Bakının Qara şəhərə qədər olan hissəsi ələ keçirildikdən sonra yalnız bir alay və iki topçu batareyası şəhərdə

saxlanacaq. Qalan qüvvələr isə Bakı–Xırdalan yolunun ətrafına cəmləşdiriləcək. Hücum gecə saat 4.30-da topçu hazırlığı ilə başlamalı və 5.30-da isə piyadalar şəhərə doğru hərəkətə başlamalı idilər. Topçular əvvəlcə Qırmızı və Bəyaz qışlaları atəşə tutub buradakı düşmən qüvvələrinin müqavimətini qırmalı idilər. Bundan başqa diviziyanın sol cinahı və Sallaxana ilə Qırmızı Qışla arasındakı qüvvələr topçu himayəsi altında hərəkət etməli idi. Şəhərin mühüm obyektlərinin və xüsusən də limanın atəşə tutulması topçulara tapşırılırdı. Bakı ələ keçirildikdən sonra şəhərin mühafizəsi 13-cü alaya həvalə olunurdu. Mürsəl paşa da şəhərdə talançılığa meyl edilməsini yolverilməz hesab edir və belə hallar üçün hissə komandirlərinin də məsuliyyət daşıyacağını vurğulayırdı (197).

15 sentyabr döyüşünün gedişində qüvvələrin qruplaşdırılmasında da dəyişiklik baş verdi. Sentyabrın 14-də əgər diviziyalar müstəqil olub birbaşa Ordu komandanlığına tabe idilərsə, sentyabrın 15-də 15-ci diviziya da 5-ci diviziya komandanına tabe etdirildi (198). Yeri gəlmişkən 15-ci diviziya komandiri Süleyman İzzət bəy sonradan yazdığı xatirələrində bunu, habelə diviziyanın 56-cı alayının 5-ci diviziyaya verilməsini, əvəzində başqa diviziyaya mənsub olan 107-ci alayın 15-ci diviziyaya verilməsini elə də məqsədəuyğun saymırdı. Onun fikrincə, 56-cı alayı elə diviziya tərkibində saxlamaq olardı. Əvəzində də 107-ci alay 5-ci diviziyanın möhkəmləndirilməsinə göndərilə bilərdi (199).

15 sentyabrda döyüşlər səhər saat 4.30-da topçu hazırlığı ilə başlamalı idi. Ancaq 5-ci diviziya tabeliyində olan bütün topları Qurd qapısı yüksəkliyinə qaldıra bilməməsi üzündən topçu hazırlığı bir saat gecikdi və saat 5.30-da başladı. Bu hazırlıq 6.30-a qədər davam etməli idi. 56-cı alayın qüvvələri topçu hazırlığının sona yetməsini gözləmədən irəli hərəkət etdilər. Çox qısa müddətdən sonra 56-cı alayla bərabər, 9-cu və 13-cü alaylar artıq şəhərin kənarına çatmışdılar. Düşmən qüvvələrinin şəhərin qərb istiqamətində müqavimət göstərmək imkanı artıq yox idi. Adları çəkilən alayların şəxsi heyəti limanda gəmilərin yüklənərək şəhərdən uzaqlaşmasını  müşahidə edə bilirdilər (200).

15-ci diviziya da səhər saat 5.20-də hücuma başladı. Diviziya

komandiri ilə diviziya ərkani-hərb rəisi şəxsən ön xətdə olaraq hücumun başlanmasına rəhbərlik edirdilər. Əvvəlcə 38-ci alayın 2-ci taboru hücuma qalxdı. Düşmən qüvvələri geri çəkilmək məcburiyyətində qaldılar. Sonra alayın 1-ci taboru da 2-ci taborun sol qanadında hücuma qatıldı. 3-cü tabor isə ehtiyatda saxlanıldı. Ermənikənd ətrafında düşmənin müqaviməti bir qədər güclənmişdi. Ancaq buradakı döyüş də 38-ci alay qüvvələrinin uğuru ilə nəticələndi. Düşməndən 2 ədəd uzunmənzilli, 8 ədəd səhra, 2 ədəd dağ topları ilə 2 ədəd təyyarə və bir xeyli əsir ələ keçirildi. Saat 8.30-da irəliyə doğru hücumu davam etdirən 38-ci alayın 2-ci taboru artıq Qara şəhər ətrafındakı hakim yüksəkliklərə sahib olmuşdu. Əhmədli istiqamətindən irəliləyən milli qüvvələrin qarşısında mövqe tutmuş düşmən bölmələri də aldıqları zərbələrdən sonra şəhərə doğru geri çəkildi. Bu qüvvələr şəhərin daxilində müdafiə olunmağı üstün tutdular və ona görə də pulemyotlar və silahlar binalarda quraşdırıldı. Diviziya komandirinin əmri ilə 107-ci alayın 3-cü taboru da dayandığı mövqedən döyüşə girdi. Saat 10-da topların himayəsi ilə hücuma qoşulan bu tabor qarşısındakı düşmənin müqavimətini qıra bilməyib geri çəkildi. Diviziya komandirinin yazdıqlarına görə, 3-cü taborun geri çəkilməsi 107-ci alayın digər taborlarının şəxsi heyətinə mənfi psixoloji təsir göstərdi. Alay az qala idarəolunmaz bir vəziyyətə düşə bilərdi. Belə olanda diviziya komandiri daha çox döyüş təcrübəsi olan 38-ci alaydan iki pulemyotlu bir bölüyü həmin istiqamətə göndərdi və bununla da düşmənin müqaviməti qırıldı (201).

Həmin dövrdə İranın Bakıda konsulu olan Saədülvüzəranın Tehrana göndərdiyi arayışlarında da mövcud şəraitlə bağlı maraqlı məlumatlar mövcuddur. Onun göndərdiyi məlumatlardan belə aydın olur ki, hələ 1918-ci il sentyabr ayının 2-də Sentrokaspi və Erməni Milli Şurası rəhbərliyi onu yanına dəvət edərək ondan şəhərdəki hakimiyyətlə Qafqaz İslam Ordusu arasında vasitəçilik etməyi xahiş etdilər. İran konsulundan xahiş olundu ki, Danimarka və İsveç konsulları ilə birlikdə cəbhə xəttinə yollansın, həm Bakı əhalisinin təhlükəsizliyi üçün türk komandanlığından təminat istəsin, həm də şəhərin təslim edilməsi şərtlərini müzakirə etsin. Məsləhətləşmələrdən sonra İran konsulu yalnız əhalinin təhlükəsizliyinin

təmin edilməsi ilə bağlı vasitəçilik etməyə hazır olduğunu bildirdi. O təklif etdi ki, şəhər hakimiyyəti nümayəndələri ilə Qafqaz İslam Ordusu nümayəndələrinin görüşü təşkil edilsin və şəhərin təslim edilməsi şərtləri həmin görüşdə qarşılıqlı şəkildə müzakirə edilsin. Lakin İran konsulunun iştirakı ilə ehtimal edilən ilk vasitəçilik cəhdi baş tutmadı (202).

Saədülvüzəranın Bakıdakı vəziyyət haqqında ölkəsinin Xarici İşlər Nazirliyinə göndərdiyi raportlarında bildirilirdi ki, ingilis hərbi qüvvələrinin Bakıda olduğu vaxt şəhərin müsəlman əhalisinin vəziyyəti dözülməz idi, erməni əsgərlərinin vəhşilikləri ən yüksək səviyyəyə çatmışdı. Saədülvüzəra ingilis hərbi qüvvələrinin rəhbərliyi qarşısında da bir neçə dəfə erməni silahlılarının vəhşiliklərinin qarşısının alınması barəsində məsələ qaldırmışdı. İngilis komandanlığı bu məsələyə dərhal reaksiya verdi və ermənilərin vəhşiliklərinin cilovlanacağı barədə İran konsuluna söz verdi (203).

Sentyabr ayının 14-də axşam saat 8-də Saədülvüzəradan bir daha Bakı üzərinə hücumun dayandırılması üçün vasitəçilik etməsi xahiş olundu. Bu təklifi alandan sonra Saədülvüzəra iki nəfəri məktub və ağ bayraqla döyüş mövqelərinə göndərdi. Lakin onlar Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqə yarada bilmədilər. Səhəri gün, yəni sentyabrın 15-də İran konsulu yenidən vasitəçilik missiyasının icrasını davam etdirdi. O, əvvəlcə təklif etdi ki, Bakıdakı hakimiyyətin, onun hərbi qüvvələrinin və şəhər ictimaiyyətinin nümayəndələri onunla birlikdə ağ bayraq qaldırıb döyüş xəttinə yollansınlar. Lakin "Sentrokaspi"nin nümayəndələri bunu qəbul etmədilər. Belə olanda Saədülvüzəra özü döyüş xəttinə yollandı, həmin məntəqədəki «Sentrokaspi» qoşun bölməsinin rus komandirini yanına alaraq xüsusi avtomobillə Qafqaz İslam Ordusu mövqelərinə doğru hərəkət etdi (204).

Saat 10.30-da üzərində İran bayrağı ilə böyük ağ bayraq olan bir avtomobil şəhərdən çıxıb 13-cü piyada alayının mövqelərinə yaxınlaşdı. Qafqaz İslam Ordusu qüvvələri ilə əlaqə yaratmaq üçün bu avtomobildə İran konsulu ilə «Sentrokaspi» ordusunun qərb cəbhəsinin komandanı gəlmişdi. Onlar şəhərin artıq təslim olmağa hazır olduğunu bildirdilər və təslim şərtlərinin müzakirəsi

üçün Bakı hökuməti ilə İran, Amerika, İsveç, Danimarka konsulları və bir ingilis zabitindən ibarət nümayəndə heyətinin qəbul edilməsini xahiş etdilər. 5-ci diviziya komandanı bu barədə dərhal Ordu komandanına məlumat verdi və nümayəndə heyətinin gətirilməsi üçün 5-ci diviziya ərkani-hərb rəisi yarbay Rüşdü bəy də avtomobillə şəhərə göndərildi. Ordu komandanlığına göndərdiyi raportunda diviziya komandanı onu da bildirirdi ki, şəhərin kənarı və giriş yolları artıq nəzarət altına alınmışdır. Qoşunların şəhərə girməsi hələlik dayandırılmışdır (205).

Şəhərin təslim edilməsi üçün 5-ci diviziya cəbhəsində atəş dayandırılan kimi bu barədə 15-ci diviziyaya da xəbər göndərildi ki, həmin diviziyanın cəbhəsində də atəş dayandırılsın. Ancaq bu xəbər diviziyaya elə bir anda gəlib çatmışdı ki, atəş dayandırılan kimi düşmən öz qüvvələrini qruplaşdırıb yenidən əks-hücuma keçə bilərdi. Ona görə də diviziya komandiri alınan xəbərin doğru olub-olmadığını dəqiqləşdirənə kimi hücumu davam etdirməyi lazım bildi. Yalnız günortadan azacıq keçmiş əlaqə zabiti atəşin dayandırılması əmrinin doğru olduğunu və şəhərin təslim edilməsi üçün danışıqlar getdiyini təsdiq etdi (206).

Danışıqları aparacaq heyətin gətirilməsi üçün şəhərə yollanmış Rüşdü bəy burada xoşagəlməz vəziyyətin şahidi oldu. Onun yazdığına görə, məğlubiyyət anının çatdığını hiss edən ermənilərin şəhərdə vəhşiliyi xeyli artmışdı. Onlar talanlarla məşğul olur, azərbaycanlılara və İrandan gəlmiş müsəlman işçilərə divan tuturdular. Azərbaycanlıların müqavimət göstərməsi isə küçə döyüşlərinin genişlənməsini artırmışdı. Rüşdü bəy və onu müşayiət edən şəxslər Danimarka konsulluğuna yollandılar. Danimarka konsulunun köməyi ilə danışıqlarda iştirak etməli olan digər şəxslər də toplandıqdan sonra nümayəndə heyəti bir neçə avtomobildə 5-ci diviziya qərargahına yollandı. Rüşdü bəy yazırdı ki, Danimarka konsulluğunun yerləşdiyi binanın pəncərələrindən şəhərin kənarı və şəhərin kənarı boyunca düzülən İslam Ordusu qüvvələri açıqca görünürdü.

5-ci diviziya qərargahında danışığa gəlmiş nümayəndə heyəti ilə aşağıdakı məsələlər müzakirə edildi:

– Şəhərin qeyd-şərtsiz təslim edilməsi;

– Şəhərdəki düşmən qüvvələrinin təslim olması;
– Top və silahların, binaların və digər obyektlərin təslim edilməsi;
– Nargin adasında olan türk, alman və avstriyalı əsirlərin təslim edilməsi;
– Silah anbarlarının, ərzağın, avtomobillərin, yük maşınlarının, zirehli avtomobillərin, təyyarələrin və digər hərbi mülkiyyətin təslim edilməsi(207).

Bu şərtlər irəli sürülməklə bərabər, əhalini sakitliyə çağıran, onların həyatları və mallarının təhlükəsizliyi üçün əmin olmalarına zəmanət verən vərəqələr şəhərdə yayılması üçün nümayəndə heyətinə verildi.

15-ci diviziyanın cəbhəsi önündəki sakinlərdən də üç nəfər günortadan sonra 38-ci alay kolmandanlığına gələrək təslimə hazır olduqlarını bildirdilər. Atəş dayandırılan kimi əhali dəstə-dəstə ağ bayraqlarla gəlib təslim olduqlarını bildirirdilər. Saat 15-də 38-ci alayın bölmələri Qara şəhərdə əsirləri və silahları toplamağa başladılar. İlk cəhddə 800 tüfəng, 6 pulemyot toplanmaqla iki zabit və 80 əsgər əsir götürüldü(208).

5-ci diviziya qərargahına gəlmiş nümayəndə heyəti ilə aparılan danışıqlardan sonra bu diviziyanın bütün hissələrinin şəhərə girməsinə artıq lüzum qalmadı. Yalnız 56-cı alay Bakının Qara şəhərədək olan hissəsinin asayişini öz nəzarəti altına götürdü. Qara şəhərdə asayişin təmin olunmasını isə 38-ci alay öz üzərinə götürdü. Xəzər dənizindən gözlənilə biləcək təhlükənin qarşısının alınması üçün Zığ və Bayıl burunlarının hər birində bir batareya yerləşdirildi. Bundan sonra 15-ci diviziyanın yerdə qalan üzvlərinin Əhmədli yüksəkliklərində, 5-ci diviziya qüvvələrinin isə Bakının qərbində toplanması əmr edildi(209).

Bakı şəhəri tutularkən 17 erməni, 9 rus, 10 gürcü zabiti ilə 1151 erməni, 383 rus, 4 ingilis, habelə 113 nəfər müxtəlif millətdən olan əsgər əsir götürüldü (210).

Bakıda asayişin yaradılması və normal həyatın təmin edilməsi məqsədilə İslam Ordusu komandanlığının əmri ilə Cəmil Cahid bəy Bakı mövqe komandanı təyin edildi və onun dərhal Hacıqabuldan Bakıya gəlməsi əmr edildi(211).

Beləliklə, Bakı şəhəri bütünlüklə Qafqaz İslam Ordusunun nəzarəti altına düşdü. «Sentrokaspi diktaturası»nın şəhərdəki dayaqları olan qüvvələr gəmilər vasitəsilə qaçıb canlarını qurtardılar. Qaçmaq imkanı olmayanlar isə təslim oldular. Əllərində silah küçələri dolaşıb azərbaycanlılara divan tutmaqda olan bir çox ermənilər gizlicə öz əməllərindən əl çəkmirdilər. Bununla belə, Azərbaycandan ayrı salınmış olan Bakı şəhəri tarixdə ilk dəfə müstəqil Azərbaycan dövlətinin paytaxtına çevrildi. Şəhər bütünlüklə nəzarət altına alınan kimi Nuru paşa 5-ci diviziya komandanına belə bir teleqram göndərdi: «Bakının zəbti üçün cərəyan edən müharibatda bütün qitəat zabitan və əfradının göstərdiyi qeyrət və fədakarlıqdan dolayı bəyani-təşəkkür edirəm. Gecəleyn müvəffəqiyyətlə ilk piyada təərrüzünü icra eyləyən 9-cu və 56-cı alaylara və gündüz faiq düşmənə qarşı təərrüzlə Biləcərinin cənub-şərqindəki sırtları zəbt edən 38-ci alaya xassətən təşəkkür edirəm. 56-cı alay topçu atəşi olmadan gecəleyn düşmənin ikinci xəttini zəbtə müvəffəq olduğundan təqdirə şayandır. Alay komandiri minbaşı Fəhmi bəyin qayməqamlığa tərfi üçün nəzarəti-cəliləyə ərz edilmişdir.

İşbu müharibədə fədakarlıq və qeyrəti səbk edən zabitan və əfradın təltifləri haqqında inhaların 17.9.334(1918) axşamına qədər Orduya göndərilməsini rica edirəm»(212).

Bu teleqrama uyğun olaraq Mürsəl paşa da diviziya üzrə müvafiq əmri imzaladı və hissə komandirlərindən fərqlənən əsgər və zabitlərin mükafatlandırılması üçün siyahıların sentyabr ayının 16-sı axşamınadək təqdim olunmasını tələb etdi (213).

Nuru paşa Bakının ələ keçirilməsi ilə bağlı eyni zamanda Gəncədəki Azərbaycan hökumətinə, habelə Ənvər paşaya, 3-cü və 9-cu Ordu komandanlarına da teleqram göndərdi. Azərbaycan hökumətinə göndərilmiş teleqramda Nuru paşa müxtəsər olaraq bildirirdi ki, Bakı şəhəri ayın 15-də saat 9-a qalmış hissələr tərəfindən zəbt edildi. Nuru paşa başqa bir teleqramında isə Azərbaycan hökumətindən xahiş edirdi ki, Bakıda asayişin təmin edilməsi üçün Gəncədən polislər göndərilsin(214).

İslam Ordusu komandanının Osmanlı dövləti Baş komandan vəkili və hərbiyyə naziri Ənvər paşaya göndərdiyi teleqramda isə

deyilirdi: «Bakı şəhəri 36 saatlıq şiddətli müharibədən sonra 15-də saat 9-da zəbt olunub. Bütün hissələrin, xüsusən minbaşı Fəhmi bəyin komandasındakı 56-cı alayın qəhrəmanlığı şayani-zikrdir» (215). 3-cü və 9-cu Ordu komandanlıqlarına göndərilən teleqramlar da həmin məzmunda idi.

Qafqaz İslam Ordusu komandanlığı şəhərə girməzdən əvvəl qoşunların rəsmi keçidinin keçirilməsini qərara aldı. Nuru paşa Mürsəl paşaya bildirirdi ki, sabah sentyabrın 16-da Xəlil paşa ilə birlikdə Puta stansiyasından hərəkət edəcək. O təklif edirdi ki, qoşun hissələri Bakının şimal ətəklərində, münasib yerdə cəmləşdirilsin və orada rəsmi keçid təşkil edilsin(216).

Sentyabrın 16-da səhər tezdən Qafqaz İslam Ordusunun Bakının asayişində dayanan hissələrindən başqa qalan qüvvələrinin rəsmi keçidi keçirildi. Bu rəsmi keçid Qırmızı Qışla adlanan məntəqədə təşkil edilmişdi. Rəsmi keçiddə Xəlil paşa, Nuru paşa, Əliağa Şıxlinski, Həbib bəy Səlimov, Azərbaycan hökumətinin bir sıra üzvləri də iştirak edirdilər. Rəsmi keçid bitdikdən sonra adları çəkilən şəxslər, qonaqlar və qoşun hissələri şəhərə daxil oldular. Generallar və hörmətli şəxslər  at belində idilər. Onların ardınca isə nizami şəkildə piyada, topçu, süvari və köməkçi hissələr hərəkət edirdi. Bütün xalq küçələrə çıxaraq Qafqaz İslam Ordusunun qalib qoşunlarını salamlayırdı. Mövcud olan bəzi məlumatlara görə, qoşunlar və onların pişvazına çıxmış xalq Xəzər dənizi sahilindəki böyük meydana (bu meydanın indiki «Sahil» bağı olduğu güman edilir–M.S.) toplaşdılar. Nuru paşa toplaşanlar qarşısında çıxış etdi. O, öz çıxışında bildirdi ki, bundan sonra din, dil və irq ayrılığına yol verilmədən hər bir insan bərabər olacaq, onların canları və malları təminat altına alınacaq, bütün insanlara qarşı eyni qanunlar tətbiq ediləcək və duruma nəzarəti Azərbaycan hökuməti öz üzərinə götürəcəkdir(217).

Şərq ordular qrupu komandanı Xəlil paşa isə öz xatirələrində qeyd edirdi ki, Nuru paşa şəhərə ondan əvvəl girmişdi. Ancaq o, öz xatirələrində Nuru paşanın şəhərə hansı əhval-ruhiyyə ilə girməsini xüsusi olaraq qeyd edirdi: «Nuru paşa məndən öncə şəhərə girərək böyük bir hoteli özünə qərargah olaraq seçdi. Mən daha sonra şəhərə girdim. Bu, cəngavər ruhlu və böyük vətən-

sevər Nuru paşanın bəlkə də həyatının ən gözəl günüydü» (218).

15-ci diviziya komandanı Süleyman İzzət bəy isə qoşunların rəsmi keçidini və onların şəhərə girməsini belə xatırlayırdı: «16.9.334(1918)-də İslam Ordusu komandanlığının əmri ilə Bakı şəhərinin inzibatına təyin edilən 56-cı alaydan başqa 5-ci və 15-ci diviziyalara mənsub 38-ci, 9-cu, 10-cu, 13-cü, 106-cı və 107-ci alaylarla ümumi süvarilər 59 pulemyot və müxtəlif çapda 50 ədəd top Qırmızı Qışla civarında iki xətt üzərində düzülmüşdü.

Şərq ordular qrupu və Qafqaz İslam Ordusu komandanları ətrafındakılarla gəldilər. Atlı olaraq sürətlə yapılan yoxlama mərasimində hissələr təqdim edildi. 38-ci alayın birinci taboruna xüsusi təşəkkür edildi. Manqalarla 2 saatlıq bir rəsmi keçid oldu. Sonra böyük komandalarla Azərbaycan hökumətinin mühüm şəxslərinə və ərkani-hökumətə Bristol hotelində toplanıb günorta yeməyi verildi.

Milislərin (könüllülərin–red.) bir hissəsinə evlərinə getmək icazəsi verildi. Geri qayıtmaq şərtilə. Süvarilərin Əhmədli və Keşlədə və 38-ci alaydan bir bölüklə 2 süvari bölüyünə minbaşı Tofiq bəyin komandasında Sabunçu və Balaxanıda bulunması və asayişi təmin etmək tapşırıldı» (219).

Nəzərdə tutulan tədbirlərdən sonra Nuru paşa «İsmailiyyə» ilə üzbəüz olan ikimərtəbəli mehmanxanada yerləşdi (indiki ədəbiyyat muzeyi – red.). Mürsəl paşa isə bir vaxtlar Müzəffərəddin şahın qalmış olduğu hoteldə yerləşdirildi. Xəlil paşa tezliklə Şərq ordular qrupu komandanlığı qərargahının yerləşdiyi Təbrizə dönməli olacağından H.Z.Tağıyevin dəvətini qəbul edərək onun evində qonaq qaldı (220). Verilən məlumatlara görə, türk qoşunlarının Bakıya gəlib bu şəhəri azad edəcəyi təqdirdə ikimərtəbəli böyük malikanəsini (indiki Tarix muzeyi–M.S.) türk qoşunları komandanlığına təqdim edəcəyini vəd edən H.Z.Tağıyev vədinə sadiq çıxdı. O, öz mülkünü türk qoşunlarının istifadəsinə verdi. Həmin günün axşamı Bakının azad edilməsi münasibətilə Mayılov teatrında böyük bir tədbir oldu (221).

Bakı şəhərinin azad edilməsi həm Azərbaycan ictimaiyyətinin, həm də Türkiyə dövlət rəhbərlərinin, xüsusilə Ənvər paşanın çox böyük sevincinə səbəb oldu. O, Şərq ordular qrupu komandanı

Xəlil paşaya yazdığı teleqramda deyirdi: «Bakı başarısından dolayı gözlərindən öpərək təbrik edirəm. Bakının zəbti üzərinə birliklər bir az dinləndikdən (dincəldikdən–red.) sonra Azərbaycanda indilik bir tümən buraxaraq, üst tərəfini 9-cu Orduya geri almaq fikrindəyəm...» (222).

Bu teleqramın bir surəti də Nuru paşaya göndərilmişdi. Tarixi ədəbiyyatda bu teleqramın başqa bir variantına istinad edilmişdir. Həmin varianta görə, Ənvər paşa Xəlil paşaya, surətini isə Nuru paşaya göndərdiyi teleqramında yazırdı: «Böyük Turan imperatorluğunun Xəzər kənarındakı zəngin bir qonaq yeri olan Bakı şəhərinin zəbti xəbərini böyük bir sevinc və mutluluqla qarşılarım. Türk və İslam tarixi sizin bu xidmətinizi unutmayacaqdır. Qazilərimizin gözündən öpər, şəhidlərimizə fatihələr ithaf edərim» (223).

Bakının azad edilməsi xəbərini M.Ə.Rəsulzadə İstambulda olarkən eşitmişdi. O, dərhal Azərbaycan hökumətinin sədri F.Xoyskiyə teleqram göndərib Azərbaycan xalqını və hökumətini bu tarixi hadisə münasibətilə təbrik etdi. Teleqramda deyilirdi: «Hürriyyət və istiqlaliyyət uğrunda çarpışan türk millətinin istinadgahı olan Bakının qurtuluşu münasibətilə rəisi bulunduğunuz hökumət ərkanını candan təbrik edər və salamlarım» (224).

Bu tarixi günün və hadisənin Azərbaycan xalqının həyatındakı yerini isə M.Ə.Rəsulzadə belə dəyərləndirirdi: «Azərbaycan xalqının tarixində bu gün, adətən, 28 mayıs qədər böyük bir dəyərə malikdir. 28 mayısda Cümhuriyyətin istiqlalı bütün cahana elan edilmişsə, 15 eylulda (sentyabrda–red.) bu istiqlal maddətən təəyid olunmuş, Azərbaycan hökuməti kəndi təbii mərkəzinə müvəffəqiyyətlə girmişdir.

Yaxın tarixdə 15 sentyabr zəfəri kimi mücadilə günlərinə malik olan Azərbaycan xalqı gələcək bu fürsəti istifadəyə şübhə etmiyoruz ki, 1918-ci il olduğundan daha hazırdır...

Qızıl rusluğun çökəcəyi bir tarixi zamanda 15 sentyabrda kəndisi ilə müttəfiq bulunan qardaş qüvvətlər təkrar onunla bulunacaq, nihayi zəfəri kəndisiylə birlikdə təmin edəcəklərdir.

Bu qüvvələrin vəzifələrini qəhrəmanca əda edərək indi Bakı məzarlığının bir guşəsində haqq etdikləri milli şükran təzahüratını dörd gözlə gözləyən şəhidlər ruhuna bizdən min rəhmət, min

salam» (225).

Azərbaycan milli mücadiləsinin liderlərindən biri olan Nəsib bəy Yusifbəyliyə görə, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ilk sədri Fətəli xan Xoyski Bakının azad edilməsi uğrunda türk hərbçilərinin göstərmiş olduğu xidmətləri Nuru paşaya xitab edərkən üç kəlmə ilə qiymətləndirmişdi: «Millət sizə minnətdardır». N.Yusifbəylinin fikrincə, Azərbaycan durduqca bu üç kəlmə azərilərin dilində və qəlbində yaşayacaqdır (226).

Bakının alınması münasibətilə F.Xoyskinin Nuru paşaya göndərdiyi teleqramı isə bütünlükdə aşağıdakı kimi idi :

« Qafqaz İslam Ordusu komandanı, səadətli Nuru paşa həzrətlərinə !

Komandanız altında bulunan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətim, zati-həmiyyəti-pərvəranələrizə və dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumu ərz etməklə iftixar edərim» (227).

Bakı şəhəri azad edildikdən sonra Nuru paşanın adına həm Azərbaycan daxilindən, həm də xaricindən saysız-hesabsız teleqramlar gəldi. Bu teleqramların hamısında neçə aylıq mübarizədə göstərdikləri qəhrəmanlıqlara görə, türk əsgərinə misilsiz heyranlıq ifadə olunurdu. Zaqatala valisi İlyas bəyin göndərdiyi teleqramda deyilirdi: «Qafqazın qəlbi sayılan Bakı şəhərinin komandanız altındakı əsgərlərinizlə almanızdan dolayı əhali və mən daxildən təşəkkürlərimizi sunaraq zati-alilərinizi təbrik edirik. Bu müvəffəqiyyətiniz sayəsində qurulmuş olan Azərbaycan hökuməti tarixinin ilk səhifəsindən etibarən gələcəyinin parlaq olacağına inanırıq. Bütün əhali müzəffər əsgəriniz haqqında cənabi-haqqa səcdeyi-şükran eylədik. Bakı və sizə duaçıyıq» (228).

Türkiyədə nəşr olunan «Tənin» qəzeti sentyabr ayının 17-də Bakı şəhərinin azad edilməsini öz oxucularına belə xəbər verirdi: «Güvənilən qaynaqlardan xəbər aldığımıza görə, Bakı şəhəri 36 saat sürən şiddətli bir müharibədən sonra Azərbaycan ordusu tərəfindən zəbt edilmişdir. Bakıda məhzur bulunan ingilis və bolşevikliyi qurtaranın nə olduğu haqqında hənuz məlumat gəlməmiş isə də qaçmaq pək mümkün olmadığından mühüm bir miqdarda

əsir alınmış olması qüvvətlə mühtəməldir. Bakının zəbti və istirdadı xəbəri şəhərimizdə bulunan Qafqaz heyəti arasında milliyyətpərvəranə təzahürata nədən (səbəb–red.) olmuşdur. «Para palas» hotelində iqamət edən Qars, Batum və Ərdəhan heyətləri bu mutlu xəbər üzərinə Azərbaycan heyəti mürəxxəsəsi nəzdində izzətlə Rəsulzadə bəyi təbrik və böylə məsud bir olayı bayram ədd (hesab–red.) etdiklərini bəyan etmişlər və Xilafəti-müəzzəmi-islamiyyənin o tərəfində böylə iki bayramı (Bakının azad edilməsi Qurban bayramı günlərinə düşmüşdü–M.S.) birdən idrak-şərəfiylə ovunc duyduqları cəhətilə «Padşahım, çox yaşa» duasını təkrar-təkrar əda etmişlərdir. Quzey Qafqasiya heyəti nəzdində bu, bilaxirə təkrar bütün heyətlər bir arada olduqları halda eyni təzahürat təkrar etmişlər» (229).

Azərbaycanda nəşr olunan «Açıq söz» qəzetində isə sentyabr ayının 20-də Abdulla Şaiqin bir şeiri çap olunmuşdu. Bu şeir türk döyüşçülərinin qardaş köməyinə öz ümidlərini bağlamış azərbaycanlıların daxili hiss və həyəcanlarını ifadə edirdi:

İntizar qarşısında
Neyçün böylə gecikdin?
Sənsiz qəlbim qırıq, çiynənmiş, xırpalanmış
Ömrü-şişəm daşa dəymiş, həyatım parçalanmış
Qırıq bir saz kimi sızlar qanlı, yorğun telləri
Yıxılır da, yaxar da bütün qayğı vurmuş illəri
Şu vətənin öksüzləri, gəlinləri, dulları
Göz yaşıyla sulamış həp keçdiyiniz yolları
Yolunuzu bəkləməkdən bənizləri saralmış
Heç gəlmədi. O şən, gülər ürəkləri qəm almış
Sən gəlməsən dolumsanmış ürəklər heç şad olmaz
Sən gəlməsən xarabaya dönən qəlb abad olmaz
Sən gəlməsən günəş doğmaz, ümid gülüm olmaz
Dodaqlarım gülməz, sönük bəxtimə nur saçılmaz
Başqasını istəməm də. Ey türk, çabuk sən gəl, sən
Bəkləməkdən yoruldum. Oh, iştə gec qaldın, nədən ?
Yollarına daşmı qalanmış? Ya azğın quldurlar
Buraxmıyor ? Daş, dəmir, polad olsa da onlar
Ürəyində şölələnən mətin qızğın atəşlə

Yax onları, ərit, söndür, çiynə, boğ, əz, xırpala
Xain alçaq düşmənlərə qol gücünü həp göstər
Aç yolları, çabuk gəl ki, qəlbim səni pək istər (230).

Bakı şəhərinin alınması Azərbaycan xalqının həyatında tarixi bir hadisə idisə, bu şəhərlə bağlı tamam başqa iddialarla yaşayan erməni millətçilərinin və tör-töküntülərinin niyyətlərinin puç olması demək idi. Onların daxilində kükrəyən qəzəb və nifrət isə Bakı şəhərində növbəti faciələrə, talanlara yol açdı. Küçə döyüşlərində yerli əhaliyə qarşı olmazın vəhşiliklərə əl atan erməni silahlılarının bu hərəkətləri türk və Azərbaycan döyüşçülərində, habelə yerli əhalidə əks-əməllərə səbəb olurdu. Mart ayında törədilən kütləvi qırğınlarda həlak olanların qohumlarının intiqam əhval-ruhiyyəsi də şəhərdəki durumu mürəkkəbləşdirdi. Nəticədə, Qafqaz İslam Ordusu komandanlığının, habelə Azərbaycan hökumətinin ciddi tədbirləri olmasaydı, vəziyyət, hətta nəzarət altından çıxa bilərdi. Hadisələrin şahidi olan Xəlil paşa öz xatirələrində Bakıdakı vəziyyəti belə təsvir edirdi: «Bu sırada sokaklarda ermənilər tərəfindən qətl edilmiş bulunan yerli türk xalqının cəsədləri toplanır və yüzlərlə çocuq, gənc, ixtiyar qadın, erkək kəndiləri üçün qazılan məzarlarında son uyqularını tərk edirdilər. İnsanlığın gördüyü vəhşətlərdən birisi də ingilislərin işğalı altında olan Bakıda türk xalqına qarşı ermənilər tərəfindən göstərilmiş olan bu vəhşətdir» (231).

Nuru paşa şəhərdə yarana biləcək gərginliyə yol verməmək üçün hələ sentyabrın 15-də yuxarıda qeyd edildiyi kimi, Cəmil Cahid bəyi Bakı üzrə mövqe komandanı təyin etdi. Onun başqa bir əmrində isə göstərilirdi ki, Cəmil Cahid bəy mövqe komandanı kimi yalnız İslam Ordusu komandanına tabedir və şəhərdə asayişin bərpası üçün məsuliyyət daşıyır. Nuru paşa həm ondan, həm də diviziya komandirlərindən tələb edirdi ki, talançılığa son qoyulsun və bununla məşğul olan əhali və əsgərlər edam edilsin (232).

Sentyabrın 17-də diviziya komandirlərinə göndərdiyi məktubunda Nuru paşa stansiya və erməni məhəllələri ətrafında vəziyyətin mürəkkəb olması barədə xəbər aldığını bildirirdi. Onun fikrincə, buna bir səbəb də verdiyi əmrin yerinə yetirilməməsi və bütün hissələrin şəhərdən çıxarılmaması idi. Ona görə də Nuru

paşa tələb edirdi ki, şəhərdə asayişin təmin edilməsinə məsul olan hissələrdən başqa qalan qüvvələr dərhal şəhərdən çıxarılsın. İslam Ordusu komandanı mövqe komandanı qarşısında da bir daha ciddi tələb qoyurdu ki, şəhərdəki gərginlik aradan qaldırılsın (233).

Bakının ələ keçirilməsindən sonra şəhərdə yaranmış gərginlik barədə Nuru paşa Ənvər paşaya da müfəssəl məlumat verdi. Göndərdiyi teleqramında Nuru paşa qeyd edirdi ki, Bakının zəbti əsnasında müsəlman xalqla ermənilər arasında meydana gələn bu çatışmalarda bir qisim erməni ilə bir neçə rus öldürülmüşdü. Ancaq bu öldürülənlər mart qırğını zamanı öldürülən müsəlmanların yüzdə birini təşkil etmir. Başqa bir teleqramda isə o, şəhərdə ordunun əmniyyəti saxlamasına qədər bir qisim talan hərəkətlərini yaşadığı, ancaq bu talanların azəri türklərinin deyil, iranlı işçilərin etdiklərini açıqlayır, şəhərdə nizam və intizamın bərpası üçün ordudan dərhal istifadə edildiyini, talanlarda iştirak edən yüzdən artıq adamın edam edildiyini bildirirdi. Nuru paşaya görə, bu sərt tədbirlər əhali tərəfindən, müxtəlif millətlərin nümayəndələri tərəfindən rəğbətlə qarşılanmışdı (234).

Belə sərt tədbirlərin həyata keçirilməsi üçün Bakının Quba, Quru bağ, Parapet, Vağzal, Bulvar meydanlarında, şəhər körpüsündə dar ağacları quruldu, talan və qarətdə günahlandırılan şəxslər bu dar ağaclarından asdırıldı. Nəticədə çox qısa zaman ərzində şəhərdə asayiş bərpa olundu(235).

Azərbaycan hökumətinin ilk sədri F.Xoyski də sonrakı çıxışlarından birində bu məsələyə toxunmuşdu: «...Doğrudur, şəhər alınarkən bəzi müəssəfi hadisələr vaqe olmuşdur, hökumət bunu gizlətmiyor və gizlətməyi layiq bilmiyor. Doğrudur, çox adam əziyyət çəkmişdir, fəqət mümkün idimi ki, hökumət bu hadisənin qabağını tamamilə ala idi? Zənnimcə, insaf gözü ilə baxanlar etiraf edirlər ki, dünyada heç hökumət ola bilməzdi ki, burada müsəlmanlar qırılmış, hüquqları ayaqlar altında tapdalanmış, şəhər üç ay dava etdikdən sonra alınmış, nəticədə acıqlı camaat–hökumət əlbəttə acıqlı deyildir və əsgər şəhərə girərkən hadisənin önünü almaq mümkünmü idi? Bilxassə ki, hökumət şəhərə ancaq üç gün sonra daxil olmuşdur. Hökumətin vürudunadək nə olmuşsa və ondan sonra heç bir şey vaqe olmamışdır. Hökumət

şəhərə varid olar-olmaz tədbirlər görüb, yüzədək müsəlman asdırdı, qurşuna dizdirdi və asayişi təcdid etdi» (236).

Bakıda asayişin nəzarətini etibarlı şəkildə təmin etmək üçün bütün şəhər 10 sahəyə bölündü. Şəhərin komendantı vəzifəsi təsis edildi və Nazim bəy bu vəzifəyə təyin olundu (237).

Sentyabr ayının 18-də Qafqaz İslam Ordusunun komandanı Nuru paşa Bakı əhalisinə ünvanlanmış əmrnamə imzaladı. Həmin əmrnamədə deyilirdi ki, milliyyətindən asılı olmayaraq bütün şəhər əhalisi sentyabrın 18-də saat 6-ya kimi ov tüfənglərindən başqa onlarda olan adi və soyuq silahları təhvil verməlidirlər. Silahları mənzil komitələri toplamalı və sonra onları tərtib olunmuş siyahılar üzrə Sahə Mənzil komitələrinə təhvil verməli idilər. Mənzil komitəsi olmayan evlərin sakinləri silahları bir başa Sahə mənzil komitələrinə təhvil verməli idilər. 1-ci, 8-ci, 9-cu, 10-cu sahələrin, habelə Ermənikənd məntəqəsinin əhalisi silahları milis məntəqələrinə aparmalı idilər. Digər sahələrin əhalisi isə silahları yuxarıda qeyd olunan şəkildə təhvil verməli idilər. Əmrnamənin sonunda bildirilirdi ki, bu tələbləri yerinə yetirməyən şəxslərə qarşı güllələnmə tətbiq olunacaqdır(238).

Şəhərdə asayişin yaradılması məqsədilə Bakı komandanı Cəmil Cahid bəy tərəfindən də xüsusi bir əmrnamə imzalanıb əhali arasında yayıldı. Bu əmrnamədə nizam və intizamın bərqərar olması üçün bir sıra konkret tələblər irəli sürülürdü. Əmrnamədə deyilirdi ki, Osmanlı ordusuna pənah gətirən bütün əhalinin cinsi və dini mənsubiyyəti nəzərə alınmadan həyatının və mülkiyyətinin təhlükəsizliyi təmin edilir. Ona görə də tacirlər dükanlarını açıb ticarəti ilə, digər adamlar da öz işləri ilə məşğul olmalıdırlar. Əmrnamədə şəhərdə talanla, oğurluqla, adam öldürməklə məşğul olmağın qəti qadağan edildiyi bildirilirdi. Belə əməllərdə günahlandırılan şəxslər şəhərdəki növbətçilər tərəfindən tutularaq öldürülməli idlər. Bundan başqa, axşam saat 7-dən səhər saat 7-dək şəhərdə qadağan saatı qoyulurdu. Həmin müddət ərzində kimsə bayıra çıxmamalı idi (239).

Sentyabr ayının 18-də Bakı şəhər əhalisi arasında Azərbaycan hökumətinin bəyanatı yayıldı. F.Xoyski tərəfindən imzalanmış olan bu bəyanat da şəhərdə tezliklə asayişin və normal rejimin bər-

pası məqsədinə xidmət edirdi. Yenicə Bakıya köçmüş olan Azərbaycan hökumətinin sədri F.Xoyski qarşıya qoyulan məqsədə yetmək üçün ən ağır cəzalara əl atılacağını da əhalinin nəzərinə çatdırırdı. Bəyanatda deyilirdi: «Paytaxtı olan Bakıya təzə varid olmuş Azərbaycan Hökuməti-Cümhuriyyəsi bununla şəhərdə və ətrafda yaşayan ümum əhaliyə bilafərq din və millət əmr edir ki, Azərbaycan hökumətinin təhti-təbiətində yaşayan heç bir millətə təfavüt qoyulmayaraq caniləri, qarətgərləri, qatilləri və camaatın asayişini pozanları hökumət böyük cəzaya, edama varıncaya qədər düçar edəcəkdir. Əhali bunu bilməlidir ki, türk milləti-nəcibəsinin qəhrəman və fateh əsgərlərinə əmr verilmişdir ki, cinayət, qətl və qarətlə məşğul olanları harda görsələr güllə baran etsinlər, türk–Azərbaycan hökumətinin şan-şərəfinə yaraşmaz ki, onun paytaxtında günahsız adamların haqq və hüququna təcavüz olunsun» (240).

Azərbaycan hökumətinin və Qafqaz İslam Ordusu komandanlığının səyləri təkcə cinayətkarlığın aradan qaldırılmasına yönəldilməmişdi. Atılan qətiyyətli addımlar nəticəsində çox işlənən malların qiymətinin artmasına da yol verilmədi. Məsələn, şəhər azad edilməmişdən əvvəl bir pud unun qiyməti 800 rubl idisə, sentyabrın 15-dən sonra artıq 100–150 rubla, 20 rubla olan qoyun əti 6 rubla düşmüşdü. Digər ərzaq və meyvələrin qiyməti də xeyli aşağı düşmüşdü(241).

Bakıda və istərsə də digər yaşayış məntəqələrində normal həyat şəraitinin bərqərar edilməsi və onun nəzarət altında saxlanmasında Azərbaycan hökumətinin fəaliyyəti getdikcə daha da genişlənməkdə idi. Nuru paşa artıq hərbi sahəyə aid olmayan işlərin icrasını Azərbaycan hökumətinin öhdəsinə buraxmışdı və Azərbaycanın daxili işlərinə qarışmağa son dərəcə ehtiyatla yanaşırdı (242).

Döyüşlərin davam etdiyi vaxt yerlərdə idarəetmə orqanlarına, əsasən, türklər rəhbərlik edirdilər. Bakı şəhəri azad edildikdən sonra F.Xoyski idarəetmə işlərinin tamamilə Azərbaycan hökumətinə verilməsini məqsədəuyğun saydı. Bununla bağlı o, Nuru paşanın da diqqətinə çatdırırdı ki, dövlət idarəçiliyi yalnız təkhakimiyyətliliyə əsaslandıqda hökumətin və xalqın mənafeyinə xidmət etmiş olur. İkihakimiyyətlilik və çoxhakimiyyətlilik isə

hökuməti hörmətdən salır, dövlət və ictimai həyatın bütün sahələrində anarxiyaya gətirib çıxarır(243).

Azərbaycan hökuməti Bakıya köçən kimi Almaniya özünün hərbi və ticarət nümayəndəsi baron Fon der Qoltsı bura göndərdi (244). Qafqaz İslam Ordusunun Bakıya doğru irəliləməsini dayandıra bilməsə də, Almaniya nəyin bahasına olursa olsun Bakıda möhkəmlənmək və Bakı neftindən lazımi şəkildə bəhrələnmək istəyirdi. Bu məqsədlə Almaniya yenidən Bakıya hərbi qüvvə yeritmək təşəbbüsünü ortaya atdı. Bəhanə də bu edildi ki, Bakıda asayişin bərpasına Almaniya da yardım etmək istəyir. Bunun üçün Gürcüstanda olan qüvvələrdən bir tabora hazırlıq əmri verilmişdi. Həmin taborun Bakıya gətirilməsi üçün almanlar nə Azərbaycan hökumətinin, nə Qafqaz İslam Ordusu komandanlığının razılığını almaq fikrində idilər. Bu isə nə Azərbaycan hökumətini, nə də Qafqaz İslam Ordusu komandanlığını razı salırdı. Ona görə də almanların Bakıya qoşun hissəsi gətirməsinin qarşısının alınması üçün əməli tədbirlərə əl atıldı. Xəlil paşanın öz xatirələrində qeyd etdiklərinə görə, almanların Bakıya qoşun gətirmək cəhdi Bakı şəhəri azad ediləndən əvvəl baş vermişdi. Ancaq mövcud arxiv sənədləri göstərir ki, Xəlil paşanın xatirələrində Bakı hücumu ərəfəsində baş verdiyi təsvir edilən hadisə əslində, sentyabr ayının 20-dən sonra baş vermişdi. Xəlil paşa Bakıya alman taborunun gətirilməsinin qarşısının alınması üçün hansı tədbirə əl atıldığını belə təsvir edirdi: «...Anlaşılırdı. Taboru geri göndərmək daha fəna olurdu. Ötəndən bəri güvəndiyim bir çavuşum vardı. Çağırtdırdım, gəldi. Dikildi durdu.

– Çavuş, bir bölük hazırla, həmən bir kənarda təkmil hazır ol!

Yarım saat sonra çavuşun bölüyü hazır idi, qarşımda əsas duruşdaydılar. Çavuşu kənara çəkdim, ona bu əmri verdim:

– gürcü hüdudundakı dəmir yolu körpüsü bu gecə atılmalı və teleqraf xətti də kəsilməlidir. Sabaha icrasını istərəm.

Və sabaha qarşı dəmir yolu körpüsünün atıldığı, teleqraf xətlərinin kəsildiyi xəbəri gəldi. Fon Kressin (Almaniyanın Tiflisdəki nümayəndəsi–M.S.) birliklərinin də Bakının zəbtinə qatılmaları ehtimalı aradan qalxdı» (245).

Arxiv sənədlərinə görə isə sentyabr ayının 18-də Nuru paşa

Mürsəl paşaya əmr edirdi ki, böyük körpünü partlada biləcək bir təxribat dəstəsi istehkam bölüyündən ayrılsın və lazımi təchizatla birlikdə Gəncəyə, xətt komissiyasının tabeliyinə göndərilsin (246). Heç şübhəsiz ki, bu vaxt artıq körpünün partladılması qərara alınmışdı. Ancaq Xəlil paşa sentyabrın 21-də İstambula, Ənvər paşaya teleqram göndərib körpünün partladılması məsələsini onunla razılaşdırdı. Sentyabrın 22-də Ənvər paşa Xəlil paşanın teleqramına cavab verdi. O qeyd edirdi ki, hökumətdən icazə alınmayınca alman taborunun Bakıya buraxılmasının qeyri-mümkünlüyü Fon Kressin nəzərinə çatdırılsın. Ənvər paşa onu da əlavə edirdi ki, xəbərdarlığa baxmayaraq, Fon Kress öz niyyətindən əl çəkməsə, onda körpü partladılsın» (247).

Körpünün partladılması almanların qarşısının alınması üçün sonuncu çarə idi. Başqa cür alman taborunun qarşısını artıq almaq mümkün deyildi. Körpü partladılandan sonra qatarın hərəkətinin qeyri-mümkünlüyü üzündən almanlar da Bakıya doğru hərəkətlərini təxirə saldılar. Sonradan beynəlxalq şəraitin kəskinləşməsi ilə görünür almanların bu niyyətinə birdəfəlik son qoyuldu.

Bakı şəhəri alındıqdan sonra onun daxilində çox az qüvvə saxlanıldı. Qalan qüvvələr şəhərin kənarına çıxarıldı və bu qüvvələr Bakının, eyni zamanda Abşeron yarımadasının təhlükəsizliyinin qorunması ilə məşğul olurdu. 5-ci diviziyanın hissə və bölmələri Puta, Biləcəri, Hacıhəsən, Xırdalan, Hökməli, Masazır və Binəqədidə yerləşdirilmiş bu qüvvələr Bakı ətrafında müdafiə mövqelərində dayanmalı idilər(248).

15-ci diviziya isə yarımadanın şərq burnundan başlayaraq Qaratəpəyə qədər olan sahil xəttini müşahidə etməli idi. Bununla bağlı Ordu komandanlığından verilən əmrdə bildirilirdi ki, 15-ci diviziyanın qüvvələri Suraxanı, Sabunçu və Balaxanıda yerləşdirilsin. Həmin qüvvələr bu məntəqələrdəki asayişin bərpasına da nəzarət etməli idilər. Diviziya komandiri Süleyman İzzət bəy bu əmrə müvafiq olaraq müəyyən edilən sahil xəttini iki hissəyə ayırırdı. Dəniz sahilinin şərq hissəsinin müşahidəsi Qarayazı süvari alayına, digər hissəsinin müşahidəsi isə Ləzgi süvari alayına tapşırıldı. 38-ci piyada alayının bölmələri Sabunçu və Suraxanıda, 107-ci alayın bölmələri Ramana və Balaxanıda, topçular Bülbülə-

də, teleqraf taqımı ilə diviziya qərargahı Sabunçuda, səhiyyə bölüyü isə Keşlədə yerləşdirildi. Sentyabrın 17-dən etibarən 15-ci diviziyanın qüvvələri bu adları çəkilən məntəqələrdə idilər(249).

Bakı şəhəri alındıqdan sonra Qafqaz İslam Ordusu komandanlığının qarşısında dayanan başlıca məsələlərdən biri Qarabağa və Şimali Qafqaza hərbi qüvvələrin göndərilməsi idi. Bu vəzifələrin yerinə yetirilməsi üçün Qafqaz İslam Ordusu qüvvələri yenidən qruplaşdırıldı. 15-ci diviziya 5-ci diviziya komandanlığının tabeliyindən çıxarıldı və yenidən birbaşa Ordu komandanlığına tabe etdirildi. Bu diviziyanın sərəncamında olan 107-ci alay ondan alındı. Əvəzində isə 5-ci diviziya tabeliyinə verilmiş olan 56-cı alay yenidən 15-ci diviziyaya qaytarıldı. Azərbaycan qüvvələrindən ibarət olan Ləzgi və Qarayazı süvari alayları Dağıstana hərəkət edəcək 15-ci diviziyanın əsas qüvvəsini təşkil edirdi. Ordu komandanının əmrinə əsasən bu alaylar Bakıda və Bakı ətrafındakı mövqelərini 5-ci diviziyanın qüvvələrinə təhvil verərək sentyabrın 22-dən Biləcəri–Xırdalan ətrafında toplaşmalı idilər. Həmin günlər ərzində 15-ci diviziya yarımadanın şimaldan müşahidəsini həyata keçirməli, Biləcəridən başlayaraq şimala doğru uzanan dəmir yolu xəttinin xarab hissələrini bərpa etməli idi. Bunun üçün 15-ci diviziyaya ikizirehli qatar və digər zəruri qüvvələr ayrıldı (250).

Beləliklə, Bakı şəhəri üzərinə hücumda xüsusi xidməti olmuş 38-ci və 56-cı alaylar sentyabrın 22-də şəhər daxilindəki və ətrafındakı bütün mövqeləri təhvil verdilər və səhərisi gün Bakıdan ayrılıb Dağıstana doğru hərəkətə başladılar.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Siyasi Sənədlər Arxivi (SSA), f.303, siy. 1a, iş 18, v.1
2. Генерал Гаврил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава XXIV. http://russia-armenia.info/node/10296
3. SSA, f.303, siy. 1a, iş 14, v.23
4. Yenə orada, v.2
5. Rüştü. Büyük harpte Bakü yollarında 5.Kafkas firkası. 93 saylı Askeri mecmuanın tarih kısmı, ə 94, 1934, s.128
6. Türkiyə Silahlı Qüvvələri Əsgəri Tarix və Strateji Etüd (ATASE) Başqanlığı arxivi, k.3819, d.6, f.46.12
7. Yüceer N. Birinci Dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı. Ankara, 1996, s.101–102
8. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917–1918 гг. Баку, 1957, с.626
9. ATASE, k.3819, d.6, f.48
10. Rüştü, ...s.130
11. Rüştü, ... s. 131
12. Birinci Dünya harbinde türk harbi Kafkas cephesi 3-cü Ordu harekatı.c.11, Ankara,1993, s.576
13. Birinci Dünya harbinde... s.576
14. ATASE, k.3819, d.6, f.51
15. ATASE, k. 3819, d.6, f. 48–4
16. Rüştü, ... s. 132
17. Rüştü, ... s. 132
18. Birinci Dünya harbinde... s.576
19. ATASE, k.3819, d.6, f.54
20. ATASE, k.3819, d.6, f.55–1
21. Berkuk İ. Büyük harpte Şimali Kafkasiyadakı faaliyetimiz ve 15-ci firkanın harekatı ve müharibeleri. 94 saylı Askeri mecmuanın tarih kısmı. C. 35, 1934, s.38
22. ATASE, k. 3819, d. 6, f. 59–5
23. ATASE, k.3819, d.6, f. 59–7
24. Rüştü, s.133

25. Rüştü, ... s.134
26. Азербайджан, 1919, 15 сентября
27. SSA, f.276, si1.7, iş 284, v. 1
28. Berkuk İ.... s.42–44; Nalil Ball. Kuzey Kafkasiyanın istiklalı ve Türkiyenin askeri yardımı, 1917–1918. Bax: Kafkas araşdırmaları,c.111, İstambul, 1997, s.53
29. SSA, f.303, siy. 1a, iş 14, v. 29
30. ATASE, k. 3821, d.17, f.39
31. SSA, f. 276, siy. 7, iş 257, v.1
32. İbrahimov Z. İngilis-amerikan müdaxiləsinə qarşı Azərbaycan xalqının mübarizəsi. Bakı, 1950, s.28
33. Rüştü,...s.136
34. Rüştü, ... s. 137
35. Rüştü, ... s.138–139
36. Birinci Dünya harbinde ... s.578–579
37. ATASE, k. 3823, d.22, f. 7–6
38. ATASE, k. 3819, d.6, f.61 ; Yüceer N. ... s.104
39. Шаумян Сур. Бакинская Коммуна. Баку, 1927, с.55
40. ATASE, k.3819, d.6, f.61 ; Rüştü, ... s. 140
41. Rüştü, ... s.140
42. Rüştü, ... s. 140–141
43. Rüştü, ... s. 142–143
44. Rüştü, ... s. 143
45. ATASE, k. 3819, d.6, f. 63–3
46. ATASE, k. 5309, d.51, f. 72
47. Taşkıran Cemalettin. Geçmişten günümüze Karabağ messelesi. Ankara, 1995,s. 103
48. Həsənov C. ... s.117, 123
49. ATASE, k. 3819, d.6, f.69–2
50. ATASE, k. 3819, d.7, f.31–3
51. ATASE, k. 3819, d.7, f.21–2, 21–3
52. ATASE, k.3819, d. 7, f. 5–4
53. ATASE, k.3819, d.6, f.60–22, 63–1, 63–2, 69–1
54. Rüştü, ...s. 145
55. SSA, f.303, siy.1a, iş 14, v.2
56. SSA, f.276, siy.3, iş 177, v. 11

57. SSA, f.303, siy. 1a, iş 14, v. 23
58. Денстервиль. Британский империализм в Баку и Персии 1917–1918. Тифлис, 1925, с.205
59. SSA, f. 303, siy. 1a, iş 14, v. 23
60. Денстервиль , ... с.184
61. İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları, s.504. / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.486–522
62. İran ərazisində düşmənin ... s.505
63. İran ərazisində düşmənin... s.505
64. Денстервиль , ... с.189
65. Yenə orada, s.190
66. Yenə orada, s. 194–195
67. Yenə orada
68. Rüştü, ... s.153
69. Rüştü, ... s.153–154
70. Денстервиль, ... с.263
71. SSA, f. 303, siy. 1a, iş 14, v.24
72. Денстервиль , ...с. 195
73. Yenə orada, s.202, 203
74. Yenə orada, s.220
75. Yenə orada, s. 210
76. SSA, f.303, siy.1a, iş 18, v. 8
77. Yenə orada, v.14, 16
78. SSA, f.303, siy.1a, iş 14, v.3–5
79. ATASE, k.3823, d.22, f. 7–6, 7–7
80. Rüştü, ... s.145
81. ATASE, k. 3819, d.6, f.65–9, 68–1 ; Rüştü, ... s.146
82. ATASE, k.3819, d.7, f.10
83. ATASE, k.3819, d. 7, f.18–2
84. ATASE, k.3819, d.7, f. 15, 18–4
85. Rüştü, ... s. 151–152
86. ATASE, k.3819, d. 7, f.23–3
87. ATASE, k.3819, d.7, f.31–2, 33, 35–1, 37–2

88. ATASE,, k.3819, d.7, f.40
89. Rüştü, .. s.157
90. ATASE, k.3819, d.7, f.59, 60–3
91. Rüştü, ... s.160
92. ATASE, k.3819, d.7, f.66–1
93. ATASE, k.3819, d.7, f.64, 64–2, 64–6
94. Rüştü, .. s.163–164
95. Hayeri kotoracner Baqvum ev Elizavetpolum. İrəvan, 2003, c.82, 84,85
96. Rüştü, .. s. 166–167
97. Rüştü, ... s.168
98. Rüştü, ... s.169
99. ATASE, k.3823, d.22, f.7–7
100. Rüştü, ... s. 170–171
101. Денстервиль , ... c.234
102. İran ərazisində düşmənin ...s. 511
103. Yenə orada, s.235
104. SPİHA f.276, siy. 3, iş 177, v.8–10
105. Денстервиль ... s.238 ; Rüştü, ... s.172–173
106. Rüştü, ... s.172–173
107. Rüştü, ... s.174
108. Rüştü, ... s.175
109. Rüştü, ... s.176
110. Денстервиль, ... s. 239
111. İran ərazisində düşmənin ... s.512
112. Денстервиль, ... s.239–240
113. Birinci Dünya harbinde ... s. 582
114. Rüştü, ... s. 177–178
115. Денстервиль, ... s.246–247
116. Yenə orada, s.248
117. Yenə orada, s.250–251
118. Yenə orada, s.255–257
119. Yenə orada, s.257
120. ATASE, k.3820, d.9, f.2
121. İran ərazisində düşmənin ... s.512
122. Birinci Dünya harbinde ... s.583

123. ATASE, k.3820, d.9, f.2–6
124. ATASE, k.3820, d.9, f.26
125. Süleyman İzzet. 15. piyade tümeninin Azerbaycan ve Şimali Kafkasyadakı harekatı ve müharibeleri.103 saylı Askeri mecmuanın tarih kısmı, 1936, c. 44, s.21
126. Süleyman İzzet, ... s.23–25
127. Birinci Dünya harbinde ... s. 584
128. ATASE, k.3820, d.9, f.2–33
129. Rüştü, ... s.184
130. Rüştü, ... s.186
131. MDA, f.2898, siy.2, iş 33, v. 139
132. ATASE, k.3818, d.4, f.67–35
133. İran ərazisində düşmənin... .s. 514
134. İran ərazisində düşmənin ... s.516
135. Rüştü, ... s.186
136. ATASE, k.3818, d.4, f.67–31
137. ATASE, k.3818, d.4, f.67–36 ; Rüştü, .. s.186
138. ATASE, k.3818, d.4, f.67–38, 67–39
139. Süleyman İzzet, ... s.29
140. ATASE, k.3818, d.4, f.67–41
141. ATASE, k.3818, d.4, f.67–43
142. Rüştü, ... s.190
143. Süleyman İzzet, .. s.29
144. Rüştü, ... s.191
145. Süleyman İzzet, ... s.30
146. ATASE, k.3820, d.9, f.2–128, 2–129
147. Süleyman İzzet, ... s. 37
148. Süleyman İzzet, ...s. 37–38
149. Süleyman İzzet, .. s.38
150. Süleyman İzzet, ...,s.39
151. Allen W.E.D. ve P.Muratof. 1828–1921 Türk-Kafkas sınırındakı harplerin tarihi. Ankara, 1966, s.458 ; Yüceer N. ...s.116
152. Rüştü, ... s.194
153. Денстервиль, ... s. 258
154. İran ərazisində düşmənin ... s.516–517

155. Денстервиль, ...s.257–258
156. Азербайджан, 1919, 15 сентября
157. Азербайджан, 1919, 15 сентября
158. ATASE, k.3820, d.11, f.7–6, 7–18
159. Rüştü, ... s.197
160. Денстервиль , ... s.260–261
161. İran ərazisində düşmənin ... s.517
162. ATASE, k.3820, d.11, f.7–38
163. Rüştü, ... s.199–202
164. Süleyman İzzet,... s.39
165. Rüştü, ...s.202
166. Денстервиль, ... s.263
167. Yenə orada, s.263
168. Süleyman İzzet, ... s.41
169. Rüştü, ... s.203 ; Denstervil , ... s.263
170. ATASE, k.3820, d.11, f.7–71
171. ATASE, k.3820, d.11, f.7–73
172. Денстервиль, ... s.264
173. ATASE, k.3820, d.11, f.7–86
174. ATASE, k.3820, d.11, f.7–86
175. Rüştü, ... s.204–205
176. Денстервиль, ... s. 265
177. ATASE, k.3820, d.11, f.7–49, 7–60
178. ATASE, k.3820, d.11, f.7–75
179. ATASE, k.3820, d.11, f.7–69, 7–74
180. Süleyman İzzet, ... s.42
181. Birinci Dünya harbinde... s.588
182. Süleyman İzzet, ...s.42
183. ATASE, k.1, d.1, f.1–111
184. Денстервиль, ... s.272
185. Yenə orada
186. İran ərazisində düşmənin ... s.521
187. İran ərazisində düşmənin ... s.521
188. Rüştü, ... s.206–207
189. Yüceer N. ... s.118

190. Rüştü, ... s.207–208
191. Süleyman İzzet, ... s.43
192. ATASE, k.3823, d.22, f.7–8
193. Halil paşa. Bitmeyen savaş. İstambul, 1972, s.226
194. ATASE, k.3820, d.11, f.7–57
195. Süleyman İzzet, ... s.44
196. Süleyman İzzet, ... s.49
197. Rüştü, ... s.210
198. ATASE, k.3820, d.11, f.7–112
199. Süleyman İzzet, ... s.58
200. Birinci Dünya harbinde... s.589
201. Süleyman İzzet, ... s.46 ; Birinci Dünya harbinde... s.589
202. Kave Bayat. Tufan bər fəraz-e Qafqaz. Tehran, 1380, s.74–75
203. Kave Bayat ... s.75
204. Kave Bayat, ... s.76
205. Rüştü, ... s.212
206. Süleyman İzzet, ... s.46
207. Rüştü, ... s.213
208. Süleyman İzzet, ... s.47
209. Birinci Dünya harbinde ... s. 591
210. ATASE, k.3821, d.14, f.28
211. ATASE, k3820, d.11, f.7–116
212. ATASE, k.3820, d.12, f.3
213. Süleyman İzzet, ... s.47
214. ATASE, k.3820, d.11, f.7–113, 7–114
215. ATASE, k.3820, d.11, f.7–126
216. ATASE, k.3820, d.11, f.7–129
217. Onk Nizamettin. Yeni Azerbaycan cümhuriyyeti kurularken. «Türk dünyası» tarih dergisi, nisan, 1992, s.34
218. Halil paşa, ... s.228
219. Süleyman İzzet, ... s.48–49
220. Onk Nizamettin, Yeni Azerbaycan cümhuriyyeti kurulurken ... s.35
221. Onk Nizamettin, ... s.35
222. ATASE, k.3820, d.12, f.12
223. Yüceer N. ... s.127–128

224. «Azebaycan» dergisi, 1962, № 7–8–9, s.29
225. «Azerbaycan» dergisi, 1993, eylül-ekim, s.80
226. «Azerbaycan» dergisi, 1962, № 7–8–9, s.29
227. Yüceer N. ... s.128
228. ATASE, k.3831, d.6, f.5–10
229. Yüceer N, ... s.129
230. Yüceer N , ... s.127
231. Halil paşa, ... s.229
232. ATASE, k.3820, d.12, f.9, 9–7
233. ATASE, k.3820, d.12, f.9–9
234. Yüceer N, ... s.124
235. Onk Nizamettin. Yeni Azerbaycan cümhuriyyeti kurulurken... s.33
236. Həsənov C., ... s.128
237. SSA, f.276, siy.7, iş 255, v.1
238. SSA, f.276, siy.7, iş 254, v.1
239. SSA, f.276, siy.7, iş 256, v. 1
240. SSA, f.276, siy.7, iş 253, v.1
241. Kurat, ... s.539
242. Yüceer N, ... s.130
243. Həsənov C. ... s.130
244. Yenə orada, s.129
245. Halil paşa, ... s.224
246. ATASE, k.3820, d.12, f.20
247. ATASE, k.3820, d.12, f.20–1, 19–2
248. Rüştü, ... s.217
249. Süleyman İzzet, ... s.49
250. Süleyman İzzet, ... s.51

# IX FƏSİL

# QAFQAZ İSLAM ORDUSU HƏRƏKATININ SONU

## *1. Qarabağda erməni təcavüzünə qarşı mübarizə*

Qafqaz İslam Ordusu tərəfindən Qarabağa və Dağıstana göndəriləcək qüvvələr eyni vaxtda formalaşdırılırdı. Nəqliyyat vasitələri kifayət qədər olmadığı üçün əvvəlcə Qarabağa göndəriləcək qüvvələr daşındı. Bu qüvvələrə Qarabağda erməni təcavüzünə son qoymaq, separatçı qüvvələri məhv edərək bölgəni Azərbaycan hökumətinin nəzarəti altına gətirmək vəzifəsi tapşırılmışdı. Çünki erməni millətçi qüvvələrinin həddindən artıq fəallaşması bölgədə vəziyyəti xeyli mürəkkəbləşdirmişdi.

Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Qarabağda erməni separatizmi xüsusilə genişlənmişdi. Erməni millətçi qüvvələri hər vasitə ilə Qarabağı Azərbaycandan qoparmağa, azərbaycanlıları bu ərazilərdən sıxışdırmağa çalışırdılar. Doğrudur, Şuşada ilk əvvəl yaradılan idarəetmə orqanına həm erməni, həm də azərbaycanlıların milli komitələrindən bərabər sayda nümayəndələr daxil edilmişdi. Bu idarəetmə orqanı 1918-ci il iyul ayının ikinci yarısına kimi fəaliyyət göstərdi (1).

Ancaq çox güclü hərbi qüvvəyə malik olan erməni millətçi dairələri getdikcə Azərbaycan və azərbaycanlılarla hər cür bağlılığın qırılmasına çalışırdılar. Onlar azərbaycanlıların Qarabağın idarə edilməsində iştirak etmələri ilə heç cür barışa bilmirdilər. Ona görə də müştərək idarəetmə orqanı tezliklə ləğv edildi. 1918-ci ilin avqust ayında ermənilər Şuşada qurultay çağırdılar. Həmin qurultayda 7 nəfərlik bir qurum seçib onu Qarabağ hökuməti adlandırdılar və bütün hakimiyyətin ona verilməsini tələb etdilər (2).

Erməni milli komitəsinin fəallarından təşkil edilən bu oyuncaq qurumun bütün fəaliyyəti azərbaycanlıların fiziki məhvinə, onların ata-baba məskənlərindən sıxışdırılıb çıxarılmasına istiqamətlənmişdi. Erməni millətçiləri azərbaycanlıları məcbur etmək istəyirdilər ki, Qarabağı Azərbaycandan ayrı bir qurum kimi tanısın-

lar. Bu məqsədə nail olmaq üçün ermənilər silahlı dəstələr yaradır, Qarabağ azərbaycanlılarını Azərbaycanın digər bölgələrindən təcrid etməyə çalışırdılar. Əsgərana, Ağdama və Qaryaginə gedən yolları kəsməklə ermənilər azərbaycanlıların Aran Qarabağla əlaqələrini xeyli məhdudlaşdırmışdılar. Erməni millətçiləri çalışırdılar ki, payızın və qışın gəlməsi və bununla yaşayışın çətinləşməsi, habelə ehtiyacların artması ilə bağlı olaraq azərbaycanlılara təzyiqi gücləndirsinlər, onları Qarabağın erməni qurumunu tanımağa məcbur etsinlər(3).

Çətin şəraitdə fəaliyyət göstərən Azərbaycan hökumətinin kömək və yardımından uzaq düşən Qarabağ azərbaycanlıları kənardan olan müdaxilələrlə qızışdırılan erməni millətçilərinin təcavüzlərinə, təzyiqlərinə mərdliklə sinə gərir və hətta bu təzyiqlərin qarşısını almaq, özlərinin dinc yaşayışını qorumaq üçün qətiyyətli tədbirlərə də əl atırdılar. Bu məqsədlə Şuşada azərbaycanlılardan ibarət bir könüllü müdafiə dəstəsi yaradılmışdı. Şəhərdə 15 yaşından 60 yaşınadək sağlam azərbaycanlı kişilərin hamısı qeydiyyata alınmış və 14 komitə yaradılmışdı. Bu komitələr silah və sursat üçün pul toplayır, sahələr üzrə siyahıları tərtib edirdilər. Varlıdan yoxsula hamı silahlanırdı. Yaşayış məhəllələrinin kənarı ilə xəndəklər qazılmış, erməni məhəlləsinə yaxın olan evlər müdafiə üçün möhkəmləndirilmişdi. Səngərlərdə gecə-gündüz keşik çəkilirdi və keşikçilərin növbəsi xüsusi patrullar tərəfindən yoxlanılırdı. Şuşada hərbi kurs da təşkil edilmişdi. Şəhərdə olan zabitlər bu kursda gənclərə piyada və süvarilər üçün zəruri olan bilikləri öyrədirdilər. Kursda məşğələ keçən 50 nəfər gənc hər gün səhər saat 9-dan 12-yə qədər, günortadan sonra isə 4-dən 6-ya qədər məşğul olurdular. Üç Mıx dağında və şəhərətrafındakı digər yüksəkliklərdə azərbaycanlıların səngərləri var idi. Hakim yüksəkliklərdə olan bu səngərlər Şuşa ilə yaxınlıqdakı Azərbaycan kəndləri arasında əlaqələrin təhlükəsizliyini təmin etməyə imkan verirdi (4).

Lakin özünümüdafiə xarakteri daşıyan bu tədbirlərlə bütünlükdə Qarabağda güclənməkdə olan millətçi separatçılığın və milli zülmün qarşısını tamamilə almaq mümkün deyildi. Xüsusilə qeyri-insani vəhşilikləri ilə silahsız azərbaycanlı əhalini qıran

Andronikin dəstəsinin Zəngəzura gəlməsi Qarabağda da hərbi şəraitin pisləşməsinə zəmin yaratdı. 1918-ci il iyun ayının 22-də Osmanlı qoşunlarının 12-ci piyada diviziyası tərəfindən ağır zərbə alan Andronik və onun tör-töküntüləri Naxçıvana çəkilib orada da öz vəhşiliklərindən əl çəkmədilər. Belə olanda 4-cü korpusun tabeliyində olan 11-ci Qafqaz diviziyası Naxçıvana doğru irəlilədi və 3000 piyada ilə 600 süvaridən ibarət olan erməni quldur dəstəsini məğlub edərək iyulun 20-də Naxçıvan ətrafında vəziyyəti sabitləşdirdi. Naxçıvan ətrafında aldığı ağır zərbədən sonra Andronik öz qüvvələrini Zəngəzura və Qarabağa topladı və burada da kütləvi qırğınlara rəvac verdi(5).

Bu bölgədə baş verən proseslər müstəqil Azərbaycanın imdadına yetən Osmanlı dövləti rəhbərlərini və eləcə də Qafqaz İslam Ordusu komandanlığını da narahat edirdi. Yuxarıda qeyd edildiyi kimi Nuru paşa Azərbaycana ilk gəlişi zamanı heyətindən bir neçə nəfəri təlimatçı kimi Qarabağda saxlamış və Azərbaycana gələn ilk türk alaylarının bir bölməsini də Qarabağa göndərmişdi. Ənvər paşa hələ iyul ayının ortalarında Şərq ordular qrupu komandanı Xəlil paşaya bildirirdi ki, Osmanlı və İran erməniləri Qarabağa keçərək orada azərbaycanlılara qarşı vuruşmaq istəyirlər. O, Xəlil paşadan və Nuru paşadan tələb edirdi ki, ermənilərin bu istəklərinin qarşısı təsirli şəkildə alınsın (6).

Avqust ayının 9-da Nuru paşaya göndərdiyi məktubunda Qarabağ məntəqəsi komandanı yarbay İsmayıl Həqqi bəy bölgədə genişlənən təcavüzlərin qarşısının alınması üçün yerli qüvvələrin kifayət etmədiyini bildirirdi. Onun sərəncamında olan qüvvələr də çox az idi. Buna görə də o, Nuru paşadan Qarabağa əlavə hərbi qüvvələr göndərilməsini xahiş edirdi(7). Bununla bağlı avqust ayının ikinci yarısında Ənvər paşaya göndərilən teleqramda Qarabağda vəziyyətin xeyli mürəkkəbləşməsi, erməni təcavüzünün xeyli genişlənməsi, milli dəstələrin kəndləri viran qoyaraq qadınlara və uşaqlara rəhm etməməsi bildirilməklə ora əlavə qüvvələrin göndərilməsinin məqsədəuyğunluğu vurğulanırdı (8). Bu teleqram o vaxt göndərilmişdi ki, bütün diqqət Bakı şəhərinin azad edilməsinə və bu məqsədlə əlavə qüvvələrin aranıb tapılmasına istiqamətlənmişdi. Ona görə də Qarabağda genişlənən erməni

təcavüzünün qarşısının alınması üçün münasib şərait yalnız Bakı şəhəri azad edildikdən sonra yarandı.

Avqustun sonu və sentyabrın əvvəllərində Qarabağ məntəqəsi komandanı İsmayıl Həqqi bəydən Nuru paşanın adına gələn teleqramlarda Zəngəzurda və Qarabağda erməni vəhşiliklərinin çox geniş bir miqyas aldığı açıqlanırdı. İsmayıl Həqqi bəy hətta onu da vurğulayırdı ki, əgər yaxın vaxtlarda təsirli tədbirlərə əl atılmasa, bölgədə salamat azərbaycanlı əhali qalmayacaqdır(9).

Bakı ələ keçirildikdən və şəhər ətrafındakı vəziyyət sabitləşdikdən sonra Qafqaz İslam Ordusu komandanlığı Qarabağa hərbi qüvvələrin göndərilməsini məqsədəuyğun bildi. Ora qoşun hissələrinin yeridilməsi Azərbaycanın müstəqilliyinə mövcud olan təhlükənin aradan qaldırılması üçün nəzərdə tutulan planın vacib həlqələrindən biri idi. Osmanlı dövləti rəhbərliyi və o cümlədən də, Qafqaz İslam Ordusu komandanlığı belə hesab edirdi ki, Bakıdan qaçaraq Petrovska və Ənzəliyə toplaşmış qüvvələr əzilməyincə Azərbaycanın təhlükəsizliyinə təminat vermək olmaz. Bundan başqa, Qarabağ və Lənkəran bölgəsi də Azərbaycanın müstəqilliyinə yad olan qüvvələrin nəzarəti altında idi. Həmin ərazilərin də təmizlənməsi başlıca vəzifə kimi qarşıda dururdu. Sentyabrın 16-da Baş komandanlığın ərkani-hərb riyasətindən alınan teleqramda yaxın gələcək üçün aşağıdakı işlərin görülməsi tapşırılırdı:

1. Toplarla və pulemyotlarla möhkəmləndirilmiş bir piyada alayı Şimali Qafqaza göndərilsin və Terekə qədər olan ərazi düşməndən təmizlənsin.

2. Lənkəranı təmizləmək və Ənzəlini tutmaq üçün Xəzər dənizi boyunca bir dəstə göndərilsin.

3. Bir diviziya da Bakı ətrafında hazır vəziyyətdə saxlanılsın (10).

Ancaq Şimali Qafqazdakı vəziyyətin öyrənilməsi göstərdi ki, bir alayla orada qarşıya qoyulan vəzifəni yerinə yetirmək mümkün deyil. Həmin istiqamətə 15-ci diviziyanın göndərilməsi, habelə Lənkəran istiqamətinə dəstə göndərilməsinin təxirə salınması qərara alındı. Çünki bir tərəfdən mövcud olan qüvvələr azlığı buna imkan vermirdi. Digər tərəfdən də Lənkəran yad qüvvələrin nəzarəti altında olsa da, burada vəziyyət Qarabağda oldu-

ğu qədər mürəkkəb deyildi. Ona görə də hərbi qüvvələrin əvvəlcə Qarabağa göndərilməsi məqsədəuyğun bilindi (11). Həmin bölgədə genişlənən təcavüzün qarşısının alınması, qətl və qarətlərə son qoyulması formalaşmaqda olan Birinci Azərbaycan diviziyasına tapşırıldı (Bu diviziyanın təşkili barədə aşağıda danışılacaqdır).

Birinci Azərbaycan diviziyasının komandiri Cəmil Cahid bəy idi. Qarabağ hərəkatında bu diviziyanın 1-ci, 2-ci və 3-cü Azərbaycan süvari alayları, 2-ci Azərbaycan piyada alayı, milli könüllü bölmələr, habelə bir Şnayder dağ taboru və zirehli avtomobillər iştirak etməli idi(12). 1-ci Azərbaycan diviziyası 9-cu və 106-cı türk alayları ilə möhkəmləndirilmişdi. Bu alayların hər biri bir diviziyadan götürülmüşdü. Müşahidəçilərin fikrincə, bu, məqsədyönlü şəkildə belə edilmişdi. 36-cı diviziyaya mənsub olan 106-cı və 107-ci alaylar nisbətən az döyüş təcrübəsinə malik idilər. 5-ci diviziyaya aid olan 9-cu və 10-cu alaylar isə daha böyük döyüş təcrübəsinə malik idi. Ona görə də iki təcrübəli alayın və ya da iki təcrübəsiz alayın 1-ci Azərbaycan diviziyasının möhkəmləndirilməsinə göndərilməsi məqsədəuyğun bilinmirdi. Belə olanda onların hərəsindən birisinin Qarabağa göndərilməsi qərara alındı (13). Qeyd etmək lazımdır ki, 9-cu piyada alayının gələcəkdə bütünlüklə 1-ci Azərbaycan diviziyasına verilməsi və onun ləğv edilərək Azərbaycan alayları arasında bölüşdürülməsi nəzərdə tutulmuşdu.

Qarabağa göndərilən hərbi qüvvələrin sayı haqqında türk və Azərbaycan mənbələrində dəqiq məlumat yoxdur. Erməni mənbələrində və araşdırmalarında isə bir-birindən fərqli olan rəqəmlər mövcuddur. Burada 4000, 5000 və 6000 rəqəmləri ilə rastlaşmaq mümkündür (14).

Türk-Azərbaycan qoşun hissələrinin Qarabağdakı fəaliyyəti ilə bağlı erməni müəlliflərinin yazdıqlarına etibar edilməsinin mümkün olmadığını bir-iki xarakterik faktlardan aydınlaşdırmaq mümkündür. Məsələn, bu müəlliflərdən biri yazır ki, Qarabağdakı erməni müqavimətinin zərərsizləşdirilməsi üçün polkovnik Cəmil Cahid bəyin rəhbərliyi altında türk hərbi hissələrindən Birinci Azərbaycan diviziyası yaradıldı. Elə həmin səhifədə müəllif Cəmil

Cahid bəyin komandanlığı altında olan diviziyanın Qaliboli diviziyası olduğunu qeyd edir (15).

9-cu piyada alayının bölük komandiri Mucib Kamalyeri Qarabağa doğru hərəkətini öz xatirələrində belə təsvir edirdi: « Biz də bir həftə sonra İran hüduduna yaxın sayılan və 4 ayı aşan zamandan bəri mühasirədə bulunan Qarabağ elinin mərkəzi Şuşaqala türklərinin qurtarılması üçün digər bir alay ilə və bir xəfif tank bölüyü ilə bərabər hərəkət əmrini aldıq. Qaranlıq bir gecədə trenlə yola çıxıldı. Arxada hüzur və sükut içində buraxdığımız böyük Bakı şəhərinin elektrik işıqları göy üzünü tutuşdurmuş kimi idi. Bu qızıllıq əksi İstambul yanğınları kimi çox, həm pək çox uzaqlardan görülüyordu. Xəzər dənizinin əsrarəngiz qıyılarından keçən dəmir yolu bu mədəni görünüşə ayrı bir gözəllik qatıyordu. Cənub istiqamətinə doğru çılğın bir çabuklukla gedən trenimiz ilk və son dəfə dəniz banyosunu aldığımız Ələt stansiyasına ulaşı verdi. Bundan sonra dəmir yolu qərb cəhətinə dönüyor və artıq Xəzərdən ayrılıyoruz...

Tren yoluna davam ediyor, çox sərt müharibələrə səhnə olan məşhur Hacıqabul stansiyasını, ucu-bucağı görünməyən düz ərazini keçiriz. Və nəhayət, Qarabağ şossesinin tren yoluna qovuşdurduğu Yevlax stansiyasına varıyor, burada eniriz. Üç gün yürüşdükdən sonra böyük Ağdam şəhərinə xalqın sevgi dolu göstəriləri içində giriyoruz. Burada da «Allah kömək etsin!» səsləri, «Allah yardım etsin!» uğultuları halında göylərə yüksəlir. Fəqət dayanmadan şəhərin dışına çıxıyoruz. Bir kaç gündən sonra Şuşaqala istiqamətində müharibə tərtibləri alınmaq sürətiylə yürüşə keçiyoruz» (16).

Nuru paşa sentyabr ayının 21-də artıq Qarayazı və Ləzgi süvari alaylarının Yevlaxa və oradan da Bərdəyə yola salınmasına hazırlaşmaları barədə əmr verdi. 23 sentyabr tarixli əmrində isə Nuru paşa həmin gündən etibarən Qarabağa yola salınacaq qüvvələrin göndərilməsinə başlanmasını tələb etdi. Həmin əmrdə əvvəlcə 9-cu piyada alayının yola salınması lazım bilinirdi (17).

Qarabağ hərəkatını başlamaqla Qafqaz İslam Ordusu komandanlığı bu bölgəni erməni silahlı dəstələrindən təmizləyərək eyni zamanda Azərbaycanla Türkiyə arasında birbaşa və təhlükəsiz quru

əlaqələrinin yaradılmasını da qarşısına məqsəd qoymuşdu (18).

Nuru paşa Ənvər paşaya göndərdiyi teleqramında bildirirdi ki, Qarabağ hərəkatını üç həftə ərzində başa vurmağa çalışacaqdır (19).

Yola salınan dəstələr sentyabrın 25-dən etibarən Qarabağ ərazisinə daxil olmağa başladılar. Dərhal da Cəmil Cahid bəy Qarabağ ermənilərinə tərk-silah olmaları barədə ultimatum verdi. Erməni millətçi dairələri türk-Azərbaycan qoşunlarının Qarabağa gəlməsini ciddi narahatçılıqla qarşıladılar. Qısa vaxtdan sonra bütün niyyətlərinin puç ola biləcəyini anlayan millətçilər sentyabrın sonlarında növbəti qurultay çağırıb bir daha Azərbaycan hökumətini tanımayacaqlarını bildirdilər. Qurultayın qərarı 5 nəfər erməni vasitəsilə Ağdama, 1-ci Azərbaycan diviziyasının komandanlığına çatdırıldı. Cəmil Cahid bəy bu qərarla tanışlıqdan sonra onu gətirən ermənilərdən üçünü – Arşavir Kamalyansı, Aşot Melik-Osipovu və Gerasim Məlik-Şahnəzəryanı həbs etməyi əmr etdi. Ayrapet və Danil adlı digər iki erməni isə azad buraxıldı ki, Azərbaycan tərəfinin xəbərdarlığını ermənilərə çatdırsınlar. Onlara bildirildi ki, ən qısa vaxt ərzində ermənilər təslim olmasalar, onda Şuşa istiqamətində hücum başlayacaqdır (20). Türk mənbələrində bu ultimatumdan sonra ermənilərə bir gün vaxt verildiyi (21), Azərbaycan mənbələrində isə 3 gün və 5 gün vaxt verildiyi bildirilir (22).

Cəmil Cahid bəyin Ağdama gəlməsi və onun Qarabağın azad edilməsi sahəsindəki fəaliyyəti barədə o vaxtlar Qarabağda ermənilər tərəfindən elan edilmiş oyuncaq qurumda hərbi komissar vəzifəsini öz üzərinə götürmüş Arutyun Tumyanın xatirələrində də müəyyən qeydlər vardır. Qarabağda azərbaycanlılara qarşı istiqamətlənmiş təcavüzün təşkilatçılarından biri olan A.Tumyanın xatirələri heç şübhəsiz ki, Azərbaycan xalqına, türk qüvvələrinə və bütünlükdə türkçülüyə qarşı barışmazlıq ruhunda yazılmışdı və müəllif C.Cahid bəyin Qarabağdakı fəaliyyəti barədə iftiralara yol verməkdən də çəkinməmişdir. Bununla belə həmin xatirələrə diqqət yetirilməsi erməni millətçilərinin keçirdikləri həyəcanları və onların C.Cahid bəyə bəslədikləri münasibətləri aydınlaşdırmaq baxımından maraqlıdır. Qarabağın «hərbi komissarı» türk-Azər-

baycan qüvvələrinin Ağdama gəlməsini belə təsvir edirdi: «Güclü müdafiə tədbirləri ilə yanaşı Ağdama beş nəfərdən ibarət heyət göndərildi ki, türklərlə danışıqlar aparsın. Yolun təhlükəsizliyinin təmin edilməsi və danışıqlar zamanı kömək göstərilməsi üçün heyətə müsəlman zəhmətkeşləri arasında böyük nüfuz sahibi olan Lütfəli bəy də qoşuldu. Ağdamda onları Birinci Qafqaz müsəlman diviziyasının komandiri Cəmil Cahid bəy qəbul etdi. Danışıqların çox maraqlı epizodlarından birinin təsviri aşağıdakı kimidir: «Ağdamda heyət birdəfəlik inandı ki, Bakı həqiqətən də, məğlub olub və türklər böyük enerji ilə Qarabağa hücuma hazırlaşırlar. Ağdam hərbi düşərgəyə çevrilmişdi. Burada Cəmil Cahid bəy adlı birisinin komandanlığı altında olan Birinci Qafqaz müsəlman diviziyasının hissələri yerləşmişdi. Qarabağın erməni heyətinin gəlməsindən xəbər tutan kimi Cəmil Cahid bəy əmr etdi ki, onları yanına gətirsinlər. Sonra isə hindquşu kimi özünü şişirtmiş bəy tərcüməçi vasitəsilə bildirdi ki, heyət üzvlərini girov kimi Ağdamda saxlayır və onlardan tələb etdi ki, türk komandanlığının silahı yerə qoymaq və Azərbaycana müti olmaq barədə təkliflərini yazılı şəkildə xalqa çatdırsınlar.

Heyətin rəhbəri Ayrapet Musaelyan Cəmil Cahid bəyin alman dilinə yaxşı bələd olduğunu bildiyindən ona müraciət edərək onların girov kimi Ağdamda saxlanılması qərarına etiraz etdi:

– Cənab komandan, heyət Qarabağdan bura sülh missiyası ilə gəlib ki, qarşılıqlı razılaşma əsasında, qüvvə tətbiq etmədən Qaraqışlağın erməni kəndlərinə, öz doğma kəndlərinə qayıtmalarına və yenidən dinc və yaradıcı işə girişmələrinə imkan verilsin. Bu, erməni və müsəlman xalqları arasında, şəhərdə və rayonlarda möhkəm sülhü saxlamağa kömək edər. Ona görə də cənab komandan, izin verin nəzərinizə çatdırım ki, tərk-silah və mütilik haqqında ultimatum və tələblər sülh işinə xidmət edə bilməz. Onlar yalnız Qarabağ xalqının qəzəb və nifrətinə səbəb ola bilər. Bunun nəticəsini anlamaq da çətin deyil. Sizə yəqin ki, yaxın gələcəkdə keçiriləcək və üç Cənubi Qafqaz respublikasının sərhəd məsələsini həll edəcək Konstantinopol konferensiyasından xəbərdarsınız. Nəyə

görə bu konferensiyanın qərarını gözləməyək?... Cənab komandan, məsləhətim budur ki, Qarabağ erməniliyi ilə dost və sülh dilində danışın və vəziyyətin mürəkkəbləşməməsi üçün bizə azad surətdə Qarabağa qayıtmağa icazə verin.

Musaelyanın sözlərindən əsəbiləşən bəy cavab verdi:

– Biz çoxdan sizinlə silah dilində danışmağa hazırıq. Qaraqışlağa gəlincə isə o, bizim göstərişimizlə dağıdılıbdır və heç bir vaxt bərpa edilə bilməz.

– Cənab komandan, Qarabağ qorxmağa və müti olmağa adət etməyibdir. Düşmən bizim qabağımızda silahını oynatmağa başlayanda bu, böyük qan tökülməsinə səbəb ola bilər. Nəticəsi isə hər iki tərəf üçün eyni səviyyədə ağır ola bilər. Tarixin dərslərini yaddan çıxarmayın, Qarabağ erməniləri bütün tarixi boyu birinci dəfə deyil ki, osmanlıları sərhədlərində qarşılayırlar. Əgər unutmamısınızsa, Qarabağ sizin qoşunlarla bu «görüşlər» zamanı heç vaxt məğlub olmamışdır.

– Keçmişi tarixdə saxlayaq – deyə Cəmil Cahid bəy bir qədər yumşalaraq cavab verdi. – Bu gün bizim qüvvələrimiz məğlubedilməzdir. Biz Bakı uğrundakı döyüşlərdən qalib çıxdıq. Orada bizə qarşı əksərən Qarabağ erməniləri vuruşurdular və onlar ağır məğlubiyyətə düçar oldular...

Əsas qərarın qəbul edilməsi, yəni osmanlılarla sülh bağlanması və ya müharibə elan edilməsi məsələsinin həlli üçün erməni heyətinin üzvləri olan Kamalyan, Məlik-Ovsepyan və Məlik-Şahnəzəryan türk komandanına ən nüfuzlu partiyanı təmsil edən Musaelyanın və Arakelyanın Şuşaya qaytarılmasının məqsədəuyğunluğu barədə təklif verdilər. Cəmil Cahid bəy razılaşdı. O, Musaelyan və Arakelyana təklif etdi ki, onun yazılı tələblərini Qarabağın rəhbərliyinə çatdırsınlar. Heyətin girov kimi Ağdamda qalan üç üzvü isə bəyin əmri ilə Ağdamın cənub-şərq hissəsində yerləşən ikimərtəbəli evə atıldı...» (23).

Qarabağ hərəkatına xüsusi fikir verildiyi üçün idi ki, oktyabrın 1-də Nuru paşa Ağdama gəldi (24).

A.Tumyanın yazdığına görə, Nuru paşa Qarabağa gələndən

sonra o da ermənilərə ultimatum verdi. O, Nuru paşanın Qarabağ ermənilərinə ultimatum verməsi barəsində belə yazır: «...Hərbi komandan Nuru paşadan ultimatum alındı. Orada qarabağlılardan tələb olunurdu ki, 1) 24 saat ərzində silahlar təhvil verilsin; 2) Azərbaycan hökuməti tanınsın; 3) Azərbaycan və türk qoşunlarının Şuşaya yolu açılsın. Ultimatumun sonunda paşa türk qoşunlarına müqavimət göstərməyə cəsarət etmiş Sasun və Zeytunun taleyini yada salırdı».(25)

Ermənilər isə onlara verilən ultimatumun qarşısında çaş-baş olub qaldılar. Erməni Milli Şurası bu ultimatuma cavab verə bilmədi. Məsələnin ciddiliyi nəzərə alınaraq Qarabağ ermənilərinin üçüncü qurultayının çağırılması və orada alınan ultimatumun müzakirə olunması qərara alındı. Hələ sentyabrın 29-da ultimatum alınan günü Erməni Milli Şurasının sədri Cəmil Cahid bəyə məktub göndərərək Qarabağ ermənilərinin növbəti qurultayı çağırılanadək hücuma başlamamağı xahiş etdi. Həmin məktubda deyilirdi: «Birinci Qafqaz diviziyasının komandirinə. Bizim heyətin bir hissəsi Sizin ultimatumu bizə çatdırdı. Sizin istədiyiniz kimi ona cavab Qarabağın erməni əhalisi tərəfindən verilməlidir. Kəndlərin nümayəndələri bu gün yığışacaqlar. Xahiş edirik ki, bunu nəzərə alasınız və bizə imkan verəsiniz ki, əhalinin nümayəndələrindən soruşaraq sizə cavab verək» (26).

Erməni Milli Şurasının sədri Ağdamda girov saxlanılan erməni nümayəndələrinə də bir məktub göndərdi. Həmin məktubda bildirilirdi ki, türklərin tələbinə Erməni Milli Şurası özbaşına cavab verə bilməz və girov saxlanılan ermənilərdən də xahiş edilirdi ki, onlar da vaxtın uzadılmasına çalışsınlar: «Ağdamdakı heyətin üzvlərinə: Arşavir Kamalyana, Aşot Melik-Osipova və Gerasim Melik-Şahnəzəryana. Türk komandanlığının təklifi elə ciddidir ki, Qarabağ erməni Milli Şurası özbaşına buna cavab verə bilməz. İrəli sürülmüş məsələnin obyektiv müzakirəsi və ona hərtərəfli cavab verilməsi üçün kənd nümayəndələrinin qurultayı çağırılmışdır. Qurultay bu gün axşam açılır. Həm ermənilər, həm də tatarlar üçün arzuedilməz olan qan tökülməsinin qarşısının alınması üçün siz

türk komandanlığının razılığını almalısınız ki, müstəqil qurultayın qərarını gözləsin. Həmin qərar dərhal sizə göndəriləcək» (27).

Oktyabr ayının 3-də Qarabağ ermənilərinin qurultayı çağırıldı. Burada uzun müzakirələr aparıldı. 3 iclasdan sonra qərara alındı ki, Azərbaycan hökuməti tanınsın, ancaq ermənilərin öz silahlarını saxlaması barəsində türk komandanlığı qarşısında məsələ qaldırılsın (28). "Азербайджан" qəzetinin verdiyi məlumata görə, ermənilərin müzakirələri bir neçə gün uzandı.

A.Tumyan ermənilərin qurultayının gedişi barəsində belə yazır: «Hökumət üzvlərinin böyük səylərindən, Şuşanın nüfuzlu ziyalılarının nümayəndələrinin hər biri ilə şəxsi görüşlərindən, uzun-uzadı izahlarından və nəhayət, hərbi komissarın Türkiyənin Birinci Dünya müharibəsində qaçılmaz məğlubiyyəti haqqındakı dəqiq məlumatlardan sonra qurultayın iştirakçılarının əksəriyyətini ultimatuma cavabın proyektinin qəbul edilməsinə inandırmağa çətinliklə də olsa nail olundu. Ancaq nəzərdə tutulmuşdu ki, əgər türklər Qarabağı tərk-silah etmək və onu Azərbaycana tabe etmək tələbindən əl çəksələr və lakin Şuşaya qoşun yeritmək tələbində qalsalar, onda aşağıdakı şərtlərlə razılıq verilsin: Şuşaya yalnız sayı 800–1000 nəfərdən çox olmayan bir türk nizami qoşun hissəsi daxil ola bilər. Azərbaycanın silahlı qüvvələri nizami qoşun olub-olmamasından asılı olmayaraq Şuşaya və Qarabağa yeridilməməlidir. Türk qoşunları eyni zamanda kənd rayonlarına getməməli və Şuşanın müsəlman hissəsində yerləşdirilməli idi.

Qurultay getdiyi vaxt qarabağlılar türk nizami qoşun hissələrinin və dağınıq Azərbaycan bandalarının çoxsaylı basqınlarının uğuru türk komandanlığını inandırdı ki, Qarabağla müharibə ağır nəticələr verə bilər. Nuru paşa nə qədər qışqırsa da, hay-küy salsa da, ultimatumuna verilən cavabı eşidəndə onunla razılaşmaq məcburiyyətində qaldı» (29)

A.Tumyanın bu təsvirində ermənilərə məxsus bir saxtakarlıq var. Hər halda Nuru paşa ermənilərin şərti ilə deyil, ermənilər Nuru paşanın şərti ilə razılaşdı. Eləcə də onun yazdığının əksinə olaraq

nəinki türk qoşunları, hətta Azərbaycan qoşun dəstələri də Şuşaya daxil oldular.

Erməni mənbələrindən biri türk-Azərbaycan qoşun hissələrinin Ağdama gəlməsini, Cəmil Cahid bəyin dərhal döyüşə başlamayaraq Qarabağda kök salmış terror qruplarının silahı yerə qoymasına dəvət etməsini təsvir edərkən xatırladır ki, silahını təhvil verənlərin həyatının və əmlakının toxunulmazlığına vəd verildi. Bu məqamın üzərindən erməni araşdırmaçıları sükutla keçsələr də, türk-Azərbaycan qüvvələrinin komandanlığı və bütünlükdə Azərbaycan hökumətinin başlıca məqsədi məhz bölgədəki terrorçu qrupların zərərsizləşdirilməsi və iki xalqın dinc yanaşı yaşayışının təmin edilməsi idi. Cəmil Cahid bəy eyni zamanda erməni yeparxiyasının rəhbərliyinə də xəbər göndərdi və yeparxiyadan 3 gün ərzində erməni silahlılarının tərk-silah olunmasına kömək göstərilməsini xahiş etdi. Dərhal toplantı çağıran ermənilər uzun-uzadı müzakirələrdən sonra Azərbaycan hökumətini tanıdığını qərara aldı. Ermənilərin qurultay adlandırdıqları toplantı eyni zamanda türk-Azərbaycan hərbi hissələrinin komandanlığından xahiş etdi ki, Bakıya erməni nümayəndə heyəti göndərilməsinə və Azərbaycan hökuməti ilə danışıqlar aparılmasına imkan verilsin. Qoşun komandanlığı bu təklifi qəbul etmədi və mənbənin fikrincə, türk-Azərbaycan qoşun hissələri gözlənilmədən qəfil şəkildə Pircamal, Kətik, Xanabad və digər kəndlərin üzərinə hücuma keçdi (30).

Elə erməni mənbələri bildirirlər ki, türk-Azərbaycan qoşun hissələrinin Əsgərana doğru irəliləməsi heç də gözlənilən deyildi. Əksinə, ermənilər tərəfindən yubadılmasına çalışılan proseslərin məntiqi nəticəsi idi.

Başqa bir erməni mənbəyində də Qarabağ ermənilərinin Cəmil Cahid bəyin ultimatumu ilə bağlı çağırılan toplantı haqqında maraqlı qeydlər vardır. Həmin toplantının iştirakçılarından biri olan Arso adlı birisinin verdiyi məlumatdan aydınlaşır ki, toplantı son dərəcə gərgin bir şəraitdə keçdi. Toplantı iştirakçılarının hamısı müzakirələrə silahlanaraq gəlmişdilər və onların silahlı şəkildə gəlmələri tərk-silah haqqında verilən təklifə münasibətlərinin

nümayişi idi. Ona görə, hətta toplantı iştirakçıları da yanındakı silahlıların qorxusundan başqa fikir söyləməyə ehtiyat edirdilər. İlk çıxışlar göstərdi ki, məsələnin sülh yolu ilə həllinə heç bir şans yoxdur. Arso elə belə də qeyd edir və bu, bir daha onu göstərir ki, terrorçu qrupların, erməni silahlı quldurlarının iki xalqın dinc yaşayışı üçün verilən təklifi qəbul etmək niyyətləri yox idi. Əksinə, onlar öz çıxışlarında türk-Azərbaycan qüvvələrinə qarşı müharibəyə çağırış edirdilər. Toplantıda 78 nəfər çıxış etdi. Çıxışların çoxu ermənilərin tərk-silah edilməsi əleyhinə oldu. Lakin bu çıxışlar sonda reallığın qəbul olunması ilə bitdi və Azərbaycan hökumətinin tanınması haqqında qərar qəbul olundu. Arso sonra etiraf edirdi ki, qərarın qəbul olunması bir məsələ idi, onun həyata keçirilməsi isə başqa bir məsələ idi. Erməni terrorçu qrupları Azərbaycan hökumətini tanımaq haqqında qərar qəbul etsələr də, onun həyata keçməsini əngəlləməyə çalışırdılar. Azərbaycan hökumətinin tanınması haqqında xəbəri Cəmil Cahid bəyə aparan erməni heyəti Əsgəran yaxınlığında yerləşən erməni silahlıları tərəfindən dayandırıldı. Arso qeyd edirdi ki, ermənilərin bu təxribatı toplantı iştirakçılarında böyük bir həyəcan yaratdı. Çünki aydın idi ki, təyin olunmuş vaxtda cavab almayan Cəmil Cahid bəy hücuma başlamaq əmri verə bilərdi. Həqiqətdə elə belə də oldu. Çünki erməni nümayəndə heyəti vaxtında Ağdama yetişmədiyi üçün Cəmil Cahid bəy Əsgərana doğru hərəkət etmək əmri verdi. Ermənilərdə belə bir təsəvvür var idi ki, onlar Əsgəranda kifayət qədər möhkəmləniblər və Əsgəran alınmaz bir qaladır. Arsonun “alınmaz” sözünü dırnaq arasında işlətməsindən güman etmək olar ki, o özü də ermənilərin bu iddialarına inanmırdı və qeyd etdiyi kimi 2–3 saat ərzində “alınmaz” hesab olunan Əsgəran mövqeləri və yaxın ətrafda olan 8 erməni kəndi erməni silahlılarından azad edildi (31).

Ermənistan İnformasiya Bürosu da Şuşada keçirilən toplantının çox gərgin şəraitdə davam etdiyini və Arso İonesyanın toplantının 5-ci günü geniş çıxışından sonra Azərbaycan hökumətinin tanınması və eyni zamanda erməni silahlılarının tərk-silah edilməməsinə cəhd göstərilməsi haqqında qərar qəbul etdi. Ermənistan İnforma-

siya Bürosu onu da bildirir ki, türk-Azərbaycan hərbi komandanlığına sentyabrın 20-də (oktyabrın 2-si) axşam saat 7-yə qədər cavab verilməli idi (32). Lakin elə erməni mənbələrinin məlumatlarından məlumdur ki, türk-Azərbaycan qoşun hissələri Əsgərana doğru hücuma sentyabrın 22-də (oktyabrın 4-də) başlayıblar (33). Deməli, hətta ultimatum üçün verilən vaxt bitəndən sonra da türk-Azərbaycan hərbi qüvvələri 2 gün gözləmiş və yalnız bundan sonra erməni quldur-terror dəstələrinin tərk-silah edilməsinə qərar verilmişdi.

Yeri gəlmişkən, Arso İonesyanın yuxarıda söylədiyi fikirlərinin bir maraqlı məqamı var ki, Əsgərandakı erməni mövqeləri 2–3 saat ərzində türk-Azərbaycan qüvvələri tərəfindən nəzarət altına alındı. Amma saxtalaşdırılmış tarix həvəskarları olan və elmlər doktoru adına iddia edən müasir erməni təbliğatçıları yazırlar ki, topu, pulemyotu və kifayət qədər patronu olmayan erməni əhalisi 4 gün ərzində türk-Azərbaycan qüvvələrinin hücumunu dəf etməyə müvəffəq oldular (34). Əslində isə bu, mümkün deyildi. Çünki elə erməni mənbələri də təsdiq edirlər ki, türk-Azərbaycan qüvvələri sentyabrın 25-də (oktyabrın 7-də) Şuşaya daxil oldular (35). Erməni araşdırmaçıları sentyabrın 26-da (oktyabrın 8-də) türk-Azərbaycan qoşunlarının Şuşaya daxil olduğunu qeyd edirlər.

Ermənilərin qurultayı öz işini bitirən günün səhərisi Ağdamda saxlanılan ermənilər də Şuşaya qayıtdılar və bildirdilər ki, şəhərin təslim edilməsi və silahların təhvil verilməsi üçün 34 saat vaxt verilmişdir. Bunu eşidən kimi şəhər erməniləri Şuşa komendantına bir ədəd əldəqayırma top, bir pulemyot, 80 tüfəng təhvil verib Azərbaycan hökumətinə təslim olduqlarını bəyan etdilər. Bu barədə Ağdamda olan Qarabağ məntəqə komandanı İsmayıl Həqqi bəyə və Cəmil Cahid bəyə də xəbər göndərildi (36).

Oktyabrın 4-də Qarabağ dəstəsi Şuşaya doğru hərəkətə başladı və elə həmin gün Əsgəran ətrafında güclü döyüş baş verdi. Əsgəran boğazının təbii şəraitindən istifadə edən ermənilər burada möhkəm müdafiə mövqeləri yaratmışdılar. Üzbəüz döyüşlə bu mövqeləri yarıb keçmək çətin olacağından 2-ci Azərbaycan piyada alayı və bir süvari alayı Kətik-Daşbaşı istiqamətinə göndərildi. 9-cu Qafqaz

piyada alayı isə Ağbulağa doğru hərəkət etdi və bu məntəqəni ələ keçirərək ermənilərin cənuba doğru geri çəkilmək yolunu bağladı. 9-cu alayın bu məntəqəni ələ keçirməsi və həmin alayın 25-ci taborunun cənubdan Əsgəran üzərinə hərəkəti burada mövqe tutan ermənilərin müqavimətini tamamilə qırdı və onların geri çəkilməkdən başqa çarəsi qalmadı. Bununla da Şuşa yolunda əsas müqavimət ocağı aradan qaldırıldı (37).

Bunlardan başqa, Xramord, Xanabad, Daşbaşı, Aranzəmin, Qarakənd erməniləri də müqavimət göstərməyə çalışdılar. Adları çəkilən bu kəndlərin bəzilərinin sakinləri silahlarını götürüb dağlara çəkildilər. Şuşaya doğru hərəkət zamanı erməni silahlıları ilə baş verən döyüşlər müəyyən itkilərə səbəb olsa da, Qafqaz İslam Ordusu qüvvələri irəliləməkdə davam etdilər. Oktyabrın 6-da Əsgəranla Şuşa arasındakı Əyrikənd ətrafında növbəti döyüş baş verdi. Burada xeyli erməni qüvvəsi toplaşmışdı. 1-ci Azərbaycan diviziyasının sərəncamında olan topların sürəkli atəşindən sonra həmin qüvvələr qaçıb dağıldılar. Xanabad, Qılıncbağı və Kətik kəndlərinin dağlara qaçmış əhalisi müqavimətin əbəs olduğunu anladıqca geri qayıdır və silahlarını təhvil verirdilər. Ancaq bu zaman onlar mümkün qədər az silah verməyə çalışırdılar. Ona görə də ermənilərdən toplanan silahların miqdarı az oldu. Abdallarda da yerli əhali silahları təhvil verməyə vəd etmişdi. Şuşa ətrafındakı kəndlərə xəbər edilmişdi ki, onlar öz silahlarını toplayıb Əsgərana gətirsinlər və buradakı komissiyalara təhvil versinlər (38).

Təkcə Şuşaya gedən yolun ətrafındakı kəndlərdə deyil, Bərdə-Tərtər, Goranboy-Gəncə ətrafındakı erməni kəndlərinin tərk-silah edilməsi üçün də lazımi tədbirlər həyata keçirilirdi. Oktyabrın 6-dan Bərdə-Tərtər ətrafındakı erməni kəndlərindən 150-yə qədər tüfəng toplandı (39).

Şuşa istiqamətində oktyabrın 6-dək davam edən döyüşlərdə bir zabit və 32 əsgər şəhid oldu, 65 nəfər yaralandı, 16 min güllə və 276 top mərmisi istifadə olundu. Ayın 7-də Şuşa istiqamətində irəliləyən əsas qüvvələr Xankəndinə doğru hərəkəti davam etdirdilər. Əsas qüvvələr irəli hərəkət etdikcə arxada qalan yolun və

məntəqələrin mühafizəsi təmin edilirdi. Bu məqsədlə bir piyada taboru Ağdamda saxlanıldı, bir piyada taboru isə Şuşa–Ağdam yolunun mühafizəsinə təyin edildi (40).

Oktyabrın 7-də digər məntəqələrdə də ermənilərin tərk-silah etdirilməsi davam etdirildi. Həmin günə qədər Gəncə ətrafında 400 ədəd silah toplandı. Tərtər ətrafında 2-ci süvari alayı dağ ətəklərinə qədər olan erməni kəndləri əhalisinin itaətinə nail oldular. Ancaq yığılan silahların sayı çox az idi. Alay komandanlığından verilən xəbərə görə, Tərtərin erməni kəndlərinin silahlarının çoxu Talış və Madagiz kəndləri ətrafında toplanmışdı. 1-ci Azərbaycan diviziyası komandanlığı tərəfindən həmin kəndlərə də qüvvə göndərmək və oradakı erməniləri tərk-silah etmək əmri verildi. Goranboy istiqamətindəki Qaraçinar və Xarxaput erməni kəndlərinin gəncləri silahları ilə birlikdə dağlara qaçmışdılar. Onların geri qayıtması üçün oktyabrın 7-dək möhlət verildi. Yuxarı Ağcakənd və Başkənd keşişi, habelə bu kəndlərin nüfuzlu adamları türk-Azərbaycan qüvvələri ilə təslim şərtlərini müzakirə edib razılığa gəldikdən sonra dağlara qaçan gəncləri geri qaytarmağa başladılar (41).

Oktyabrın 8-də Goranboy istiqamətinə göndərilmiş olan Süleyman əfəndinin dəstəsi Ağcakəndə daxil oldu. Ağcakənd, Ortakənd və Erməni Borisi kəndlərindən dağlara qaçan silahlılar geri dönməkdə davam edirdilər. Süleyman əfəndi öz qərargahını Ortakənddə yerləşdirdi. O, Talış, Çaylı və Marquşevan ətrafındakı silahlı erməni dəstələri ilə əlaqə yarada bilmişdi. Ona görə də həmin məntəqələrdəki vəziyyət sakitlik idi. Cəbrayıldan alınan məlumatlara görə, oraların erməniləri də Azərbaycan hökumətini tanımağa razı olduğunu bildirmişdilər (42).

Cəmil Cahid bəy bu barədə belə yazırdı: «Gəncədən verilən xəbərə görə, Süleyman əfəndinin dəstəsi 7–8-də (oktyabrın 7–8-i nəzərdə tutulur–M.S.) Ağcakəndə daxil olmuş, Ağcakənd, Ortakənd, Boris kəndlərindən müxtəlif 110 silah cəm edilmişdir. Qaraçinar və ona yaxın kəndlərdə dağlara qaçan ermənilər geri dönüb. Dəstənin qərargahı Ortakənddədir...Talış, Çaylı, Marquşevan ətrafındakı erməni silahlıları ilə Süleyman əfəndi arasında bir əlaqə yaranıb.

Buralarda sakitlikdir...Keşişkənd ətrafında olan 50 nəfərlik erməni dəstəsinin rəisi Karapet dağlara qaçan adamları geri qaytarmağa mane olur. Oradakı bir heyətlə əlaqə saxlanılıb, əhalinin geri qaytarılmasına çalışılır. 91 ədəd silah toplanılıb. Cəbrayıldan alınan məlumata görə, əhali Azərbaycan hökumətinə itaət etməyə hazırdır» (43).

1-ci Azərbaycan diviziyasının və onun tabeliyinə verilmiş hissələrin oktyabrın 4-də Ağdamdan hərəkət edən qüvvələri oktyabrın 8-də nəhayət ki, Şuşaya daxil oldu. Yalnız oktyabrın 4-də Əsgəran ətrafında döyüşə girən bu qüvvələr sonrakı günlər Şuşa istiqamətində elə bir ciddi müqavimətlə rastlaşmadan yol üzərindəki kəndlərdən silah toplamaqla məşğul idilər. Şuşa əhalisi Qafqaz İslam Ordusu qüvvələrinin şəhərə çatmasını səbirsizliklə gözləyirdi. Qoşunların qarşılanması üçün xüsusi hazırlıq da görüldü. Bu hazırlıq işlərinə rəhbərlik Müsəlman Milli Komitəsi tərəfindən edilirdi. Yerli əhalinin arzusu ilə Gövhər ağa məscidində 20 min rubl könüllü vəsait toplandı. Bu vəsait qoşun hissələrinin yerləşdirilməsinə, onların ərzaqla təchizatına sərf edilməli idi. Şuşa bəylərindən biri Şuşaya gələn qoşunların birgünlük bütün xərclərini öz üzərinə götürdü. Digər bəylər və imkanlı adamlar da qoşunların ərzaqla təminatı üçün böyük miqdarda çörək, çay, şəkər və s. Aldılar (44).

9-cu alayın bölük komandiri Mucib Kamalyeri qoşun hissələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi: «...Şuşaqala istiqamətindəki sərp dağların möhkəm nöqtələrinə yerləşmiş bulunan düşmən cəbhəsinə də belə olağanüstü həyəcanın verdiyi qeyrətlə təərrüz edildi və bir hücumda yarıldı. Qarşı tərəfdən gələn səlahiyyətli deleqelər müharibəyə son verəcəklərini, bir kaç gün sonra belirli saatda Şuşaqalanı qeydsiz-şərtsiz təslim edəcəklərini təəhhüd etdilər.

Təbiət gözəlliklərinə sahib Şuşaqalaya şəhərin varoşlarında bizləri maraq və həyəcanla bəkləyən türklərin candan alqışları içində və pək çabuk hazırlanmış üç böyük Zəfər tağının altından keçərək girdik. Birincisində «Yaşasın Ənvər!», ikincisində «Yaşasın sultan!», üçüncüsündə «Bir gün olacaq şəmsi-həqiqi doğacaq,

şərqin bu əsir valdeləri hürr olacaq.» yazılmışdı. Üçüncüsünü Şuşaqala qızları bolşevik ihtilalından sonra yazmağa başlamışlar, iki ay içində tamamlaya bilmişlərdi. Bu bilgiləri bizə şəhərin türk məhəllələrinin qadınlarıyla birlikdə boy siperləri içində müdafiə edən azəri mücahidləri veriyorlardı» (45).

«Азербайджан» qəzeti Qafqaz İslam Ordusu hissələrinin Şuşaya daxil olmasını belə təsvir edirdi: «Məhərrəm ayının 1-də qoşunlar şəhərə yaxınlaşdılar. Onların qarşılanması üçün hamısı qara çərkəzi geyimdə olan yerli gənclərdən ibarət 30 nəfərlik fəxri qarovul göndərildi. Şəhərin girişində məktəblilərdən ibarət olan orkestrlə bərabər yerli könüllü hissələr dayanmışdı. Birinci zəfər qapısının yanında isə ruhanilər və Beynəlmiləl komitə üzvləri əllərində şəhərin açarını tutmuşdular. Sonra isə şəhərin tanınmış adamları əllərində duz-çörək, məktəblilər əllərində bayraqlar və qadınlar əllərində çiçək dəstələri dayanmışdılar. Ermənilər tərəfdən də musiqi orkestri və 15 bayraqla 300 nəfərlik bir nümayəndə dəstəsi gəlmişdi.

Səhər saat 10-da qoşunlar aşağıdakı tərkibdə şəhərə daxil oldular: Qabaqda süvarilər, arxasında topçular və pulemyotçular. Qoşuların arxasınca isə Qaladərə qəhrəmanları Sultan bəy və İldırım bəy hərəkət edirdilər. Azərbaycanlı qadınlar dəstə komandirinə qırmızı məxmər üzərində mirvarilərlə bəzədilmiş hədiyyə verdilər. Cəmil Cahid bəy şəhərə daxil olduqdan sonra əhali qarşısında çıxış etdi və dedi: «Bizim məqsədimiz qan tökmək deyil. Əksinə, sakitlik yaratmaqdır. Dövlətin bütün xalqları eyni hüquqlara malik olacaqlar. Hamı öz hökumətinin hakimiyyətini tanıyacaqdır və dinc əmək fəaliyyətinə başlamalıdır».

Qarşılanma mərasimi başa çatdıqdan sonra zabitlər onlar üçün hazırlanmış mənzillərdə yerləşdilər. Əsgərlər üçün köhnə qışlalar ayrıldı. Yerləşməyənlər isə müvəqqəti olaraq Realnı məktəbin və seminariyanın binasına göndərildilər» (46).

Türk mənbələrinə görə, ermənilərlə azərbaycanlılar arasında münasibətlərin daha da kəskinləşməməsi üçün Cəmil Cahid bəy ermənilərə qarşı nisbətən mülayim mövqe tutdu. Erməni millət-

çilərinin xislətinə yaxşı bələd olsa da, o çalışırdı ki, mümkün qədər dinc yolla qarşılıqlı anlaşma əldə edilməsinə nail olsun. Mövcud olan məlumatlara görə, Cəmil Cahid bəy şəhərdə qarşılandıqdan sonra Şuşanın ən böyük məscidində (çox güman ki, Gövhər ağa məscidində) nüfuzlu və sözükeçən azərbaycanlılarla bir daha söhbət etdi və onların qarşısında da müəyyən tələblər qoydu. Bu söhbət zamanı C.Cahid bəy dedi: «İyiliyinə mətuf sözlərimi həmən etməz, əmrlərimə hərfiyyən itaət etməsəniz, haiz olduğum səlahiyyətlə ən əzəmi surətlə haqqınızda şiddətli müamilə tətbiqinə zərrə qədər təəhhür etməm. Ermənilərə indi itaət təklif edəcəyəm. Qəbul etmədikləri təqdirdə bir orduya itaətsizliyin cəzası nə isə onlara verəcəyəm. İtaət edərlərsə, həyat, namus və malları təhti-əmanımda olduğundan heç bir fərqin ufaq bir hərəkətinə müsaidə etməyəcəyəm. İtaət etmədikləri halda dəxi haqlarında tərtib ediləcək müamiləyi-ifaya yalnız əsgərim məmur olacaqdır. Xalqın tamamən seyrçi qalmasını və hər kəsin iş və gücünə bu dəqiqədən etibarən başlamasını tələb və əmr edirəm» (47).

Yəni albay Cəmil Cahid bəy mülki əhaliyə çatdırırdı ki, ermənilərlə bağlı olan bütün məsələləri o, özü həll edəcəkdir. Camaat isə gündəlik məşğuliyyətinə dönüb adi həyatını davam etdirməli idilər.

Cəmil Cahid bəy Şuşanın azərbaycanlılar yaşayan hissəsində vəziyyətin sabitləşdirilməsi üçün zəruri tədbirlər gördükdən sonra ermənilərin nümayəndələri vasitəsilə onlara xəbər göndərdi və onların ən yaxın vaxtlarda tərk-silah olunmasını tələb etdi. Ermənilər bir daha bu tələblə və silahları təhvil verməyə hazır olduqlarını bildirdilər. Cəmil Cahid bəy Şuşa ermənilərinin nümayəndələri ilə ayrıca şəhər kilsəsində də görüşdü. Söhbət əsnasında bildirdi ki, ermənilər Türkiyə ərazisində böyük faciələr törətsələr də, Osmanlı dövləti bir daha humanistlik göstərib onları bağışlayır. Cəmil Cahid bəy onların bütün əməllərinin bağışlandığını qeyd edib silahları təhvil verməyə çağırdı.

Şuşada Qafqaz İslam Ordusu hissələrinin rəsmi keçidi də təşkil edildi. Bu rəsmi keçid həm azərbaycanlılar, həm də ermənilər tərəfdən izlənilirdi. Şəhərin həm azərbaycanlılar yaşayan, həm də

ermənilər yaşayan hissəsində postlar quruldu və asayişin təmin edilməsi postlara tapşırıldı(48).

Bakıda yerləşən erməni məlumat bürosu türk-Azərbaycan qüvvələrinin Şuşaya daxil olması barədə xüsusi məlumat yaymışdı. Həmin məlumatda bildirilirdi ki, guya ermənilər nahaq qanın axıdılmasının qarşısını almaq üçün güzəştə getməyə razı olmuşdular. Məlumata görə, ermənilər əmin idilər ki, türklər Qarabağda uzun müddət qala bilməyəcəklər. Çünki Birinci Dünya müharibəsi cəbhələrində türklərin məruz qaldığı məğlubiyyətlər onların tezliklə geri çəkilməsi ilə nəticələnəcəkdir. Məlumatda o da bildirilirdi ki, Cəmil Cahid bəylə birlikdə Azərbaycan hökumətinin müvəkkili İsmayıl xan Ziyadxanov da Şuşaya daxil oldu( 49).

Şuşaya daxil olduqdan sonrakı ilk günlər ərzində qoşunlar, əsasən, silah toplanması ilə məşğul oldular. Oktyabrın 10-da müxtəlif kəndlərdən 152 ədəd silah toplanmışdı. Lakin ermənilər öz silahlarını yalnız məcburiyyət qarşısında qaldıqları üçün təhvil verirdilər. Özü də daha çox yararsız və yüngül silahlar toplanırdı. Əslində isə onlar təslim olmaları barədə bir təsəvvür yaradaraq gizlində türk-Azərbaycan qoşunlarına qarşı hazırlıqlarını davam etdirirdilər. Bu məqsədlə onlar digər bölgələrdə yaşayan ermənilərdən də çox böyük kömək alırdılar. Türkiyədən də 600 nəfərlik erməni Qarabağ ərazisinə gələrək burada Qafqaz İslam Ordusu hissələrinə qarşı vuruşurdular. Bununla bərabər, türk qoşun hissələrinin Qarabağa girməsi ilə ermənilərin buna qarşı təbliğat fəaliyyəti xeyli genişlənmişdi. Erməni millətçi dairələri müxtəlif dövlətləri və dünya ictimaiyyətini inandırmağa çalışırdılar ki, Osmanlı qoşunları Qarabağdan Ermənistan ərazisinə yeridilmişdir. İslam Ordusu ərkani-hərb rəisi isə bildirirdi ki, bu heç də belə deyil. Ermənistanla sərhəddə yalnız Azərbaycanın milli qoşun hissələri dayanmışdır (50).

Qarabağın erməni Milli Şurasının sədrinin də türk-Azərbaycan qoşun hissələrinin Şuşaya daxil olması haqqında qeydləri mövcuddur. Onun sözlərinə görə, ermənilər verilən ultimatumu icra etməkdən imtina etdilər və belə olanda türk-Azərbaycan hissələri

erməni yaşayış məntəqələri üzərinə hücuma keçdilər. Qeydlərdə sonra guya erməni əhalinin təzyiqlərə və soyğunçuluqlara məruz qalması, ermənilərin isə patronları qurtardığı üçün geri çəkilməsi barədə məlumat verilir. İsmayıl xan Ziyadxanovun da bu döyüşlərdə iştirak etdiyi bildirilir. Qeydlərdən o da aydın olur ki, Şuşa şəhəri türk-Azərbaycan qüvvələri tərəfindən nəzarət altına alındıqdan sonra Andronik Qarabağ məsələlərinə qoşulmalı oldu. Onun rəhbərliyi altında olan silahlı dəstələr Şuşa ətrafındakı bütün strateji məntəqələri ələ keçirdilər. Elə bu vaxtlarda türklər geri çəkilməli oldular və onların yerini Qarabağda ingilis qüvvələri tutdular (51)

Erməni mənbələrinin məlumatlarından aydın olur ki, türk-Azərbaycan hərbi qüvvələri Şuşaya daxil olmazdan əvvəl erməni silahlılarının tərk-silah edilməsinin dayandırılması haqqında qərar verilmişdi. Bu məsələdə də qoşun komandanlığı daha dinc yolun tapılmasına üstünlük verdi. Nəzərdə tutulmuşdu ki, hər iki tərəfin nümayəndələrinin iştirakı ilə qarışıq komissiya yaradılsın və silahların toplanması da bu komissiyaya tapşırılsın. Erməni mənbələri bildirirlər ki, sentyabrın 26-da (köhnə stillə) səhər saat 10-da türk-Azərbaycan hərbi qüvvələri sakit şəkildə Şuşaya daxil oldular. Cəmil Cahid bəy avtomobildə erməni kilsəsinə gəldi və ətrafındakılarla birlikdə erməni kilsəsinə daxil oldu, erməni nümayəndələrinin duz-çörəyini qəbul etdi, qısa nitqindən sonra azərbaycanlılar yaşayan məhəlləyə yollandı. Şəhərin erməni məhəlləsindəki Realnı məktəbdə, erməni qadın gimnaziyasında, Ambarsumovların evində və mövcud qışlalarda türk-Azərbaycan bölmələri yerləşdirildi. Yeni şəraitdə türk-Azərbaycan hərbi komandanlığı ilə danışıqlar aparmaq üçün erməni heyəti seçildi. Bu heyətə Krikor bek Minasbekov, Qriqori Kələntərov, Alikobek Pirumov, Ruben Şahnəzərov və başqaları daxil idi. Məlumatdan o da aydın olur ki, şəhərdə qanunsuzluqların qarşısının alınması üçün hərbi vəziyyət elan olunmuş və komendant saatı müəyyən olunmuşdu (52).

Hadisələrin şahidi olan erməni müəlliflərinin yazdığına görə, türk-Azərbaycan hərbi qüvvələri Şuşaya daxil olandan sonra müvəqqəti barışıq elan olundu. Bu barışıq əsasında Ağdam–Şuşa yolu

da açıldı. Qarşılıqlı etimadın möhkəmləndirilməsi xatirinə qoşun komandanlığı Əsgəran ətrafında olan erməni kəndlərinin əhalisinə öz silahlarını saxlamağa icazə verdi. Bir şərtlə ki, bu kəndlərin əhalisi öz silahları ilə yaşadıqları kənddən kənara çıxmamalı idilər. Başqa sözlə, türk-Azərbaycan qüvvələri komandanlığı razı oldu ki, Əsgəran ətrafındakı erməni kəndlərinin əhalisinin narahatlığına son qoymaq və kənd əhalisinin özünümüdafiəsini təmin etmək üçün onların silahları özlərində saxlanılsın. Qoşun komandanlığı tərəfindən azərbaycanlı əhaliyə də silahla bu kəndlərə daxil olmaq qadağan olundu. Bölgədə real asayişin yaradılmasına istiqamətlənmiş bu qərarlara ermənilərin cavabı belə oldu ki, heç bir şərtlə silahlar təhvil verilməsin və türk-Azərbaycan qüvvələri ilə mübarizə dayandırılmasın. Bunun nəticəsi kimi, türk-Azərbaycan hərbçiləri harada görünürdüsə, onların üzərinə basqınlar edilirdi (53).

Türk-Azərbaycan qoşun hissələrinin Ağdamdan Şuşaya doğru irəliləməsi erməni müəllifləri tərəfindən tamamilə başqa bir rəngdə təqdim olunur. Həmin müəlliflərdən biri qeyd edir ki, Əsgəran ətrafındakı erməni kəndləri dağıdılıb məhv edildi və bu işdə Azərbaycan hökumətinin hərbi naziri Ziyatxanov xüsusi amansızlıq göstərdi (54).

Amma yuxarıda sitat gətirilən erməni müəllifi və hadisələrin şahidi isə bunun tamamilə əsassız olduğunu anladır. Onun qeydlərindən aydın olur ki, əksinə, həmin erməni kəndlərinin təhlükəsizliyinin təmin edilməsi üçün, hətta azərbaycanlı silahlıların da ora daxil olması qadağan edilmişdi. Ziyatxanovun həmin hadisələrdəki fəaliyyətinə gəlincə isə o zaman Azərbaycan hökumətinin tərkibində ümumiyyətlə hərbi nazir yox idi.

Başqa bir erməni müəllifi isə türk-Azərbaycan qüvvələrinin Qarabağa daxil olmasını təsvir edərkən (yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu dövrün hadisələrinə toxunan erməni müəllifləri Qarabağı – “Dağlıq Qarabağ” kimi təqdim edirlər. Amma məlumdur ki, Dağlıq Qarabağ termini elmi-siyasi və coğrafi dövriyyəyə çox-çox sonradan gətirilmişdir) göstərir ki, türk əsgərləri öz yolları boyu zorakılıq və talanlar nümayiş etdirir, sınanmış metodlarla

erməni əhalisini tərk-silah edir və bölgənin tanınmış erməni fəallarını həbs edirdilər (55).

Türk-Azərbaycan qoşun komandanlığının dinc erməni əhalisinə qarşı hansı münasibət göstərdiyi yuxarıda açıqlandı. Tanınmış erməni fəallarının həbsinə gələndə isə Arso İonesyanın ifadələrindən aydın olur ki, söhbət erməni millətçi separatizminin və terrorçu qrupların Şuşaya toplanmış liderlərinin və fəallarının həbsindən gedir. Arso İonesyan bildirir ki, Şuşada 94 nəfər inqilabçı-sosialist element həbs edildi. Sonra da əlavə edir ki, Qarabağda qiyam qaldıran ermənilər başsız qaldılar. Nəticədə qiyamçıların rəhbərliyinə Sokrat bəy kimi təsadüfi adamlar gəldilər (56).

Türk-Azərbaycan qoşun komandanlığı Şuşada asayişin və qanunçuluğun bərpası üçün qətiyyətli tədbirlərə əl atdı. Qanunçuluğa tabe olmayan sakinlər ciddi şəkildə cəzalandırılırdılar. Məlumdur ki, şəhərin həm erməni, həm də müsəlman məhəlləsində dar ağacları quruldu və asayişin pozulmasında günahı olan insanlar dar ağacından asıldılar. Mövcud olan faktlardan belə aydın olur ki, müsəlman məhəlləsində asılanların sayı erməni məhəlləsində asılanlardan çox idi (57).

Erməni müəlliflərinin narahatlıqla haqqında danışdıqları məhbuslar isə azərbaycanlı əhaliyə fəlakətlər gətirən, dinc erməni əhalisinin də yaşayışını pozan Andronik və onun ətrafındakıların davamçıları idi. Arso İonesyan haqlı olaraq qeyd edirdi ki, xmbapetlər orada-burada təcavüzkarlıq göstərməklə qarşı tərəfin cavabını daha da gücləndirirdi ki, bu da qarşılıqlı inamsızlığı, xüsusilə gücləndirirdi (58).

Əslində isə türk-Azərbaycan qoşun hissələri Şuşaya daxil olanda Azərbaycan hökuməti bəyan etmişdi ki, ermənilər silahlı təcavüzə son qoysalar, onda heç bir erməni öz əvvəlki fəaliyyətinə görə təqibə məruz qalmayacaqdır (59). Tarixdən məlumdur ki, hətta Nuru paşa da Qarabağa gələndən sonra Azərbaycan ermənilərinə ünvansız bəyanat vermiş və erməniləri dinc yaşayışa dəvət etmişdi. Əslində, Azərbaycan hökumətinin məqsədi də Qarabağda və eləcə də Azərbaycanın digər məntəqələrində azərbaycanlı və erməni

əhalisinin dinc yaşayışına qarşılıqlı inamın möhkəmləndirilməsinə nail olunması idi. Belə olduğu təqdirdə, Qarabağa qoşun hissələrinin yeridilməsinə də ehtiyac qalmazdı.

Amma Zəngəzurun azərbaycanlı əhalisini qırıb çataraq Şuşanın həndəvərinə qədər irəliləyən Andronik və onun məsləkdaşları bölgənin erməniləşdirilməsi üçün azərbaycanlı əhaliyə qarşı ən vəhşi üsullarla əl atırdılar. Bölgədə etnik təmizləmə tətbiq edən erməni millətçi-separatçıları Qarabağı silah anbarına çevirməklə, hətta yerli ermənilərin fərqli mövqe nümayiş etdirmələrini amansızlıqla yatırırdılar. Türk-Azərbaycan qoşun hissələri Şuşaya doğru irəliləməyə başlayanda Cavanşir qəzasının erməni başbilənləri toplantı keçirdilər və bu toplantıda Azərbaycan hökumətini tanımamaq, tərk-silah olunmamaq haqqında qərar qəbul etdilər (60) ki, bu da qəzada hərbi-siyasi şəraiti xeyli mürəkkəbləşdirdi.

Aldıqları ilk zərbədən sonra öz xislətlərinə uyğun olaraq ermənilər Qafqaz İslam Ordusu hissələri qarşısında geri çəkilməyə razılıqlarını bildirsələr də, əslində, məqam gözləyir, gizli şəkildə öz dəstələrini gücləndirirdilər. Buna görə Qarabağ dəstəsinin əsas qüvvələrinin Şuşaya girməsindən bir neçə gün sonra erməni silahlılarının müqaviməti də güclənməyə başladı. Oktyabr ayının 15-də Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi teleqramında Tərtər istiqamətində 2-ci süvari alayının fəaliyyət sahəsində atəşlər baş verdiyini, Çaylı kəndi ətrafında bir silahlı erməni dəstəsinin mövcud olduğunu qeyd edirdi. Ayın 17-də göndərilən teleqramda isə 2-ci süvari alayının fəaliyyət sahəsində döyüşlərin davam etdiyi vurğulanırdı (61).

Elə həmin günlərdə Zəngəzurda da vəziyyət mürəkkəbləşməyə doğru gedirdi. Erməni silahlı dəstələri Azərbaycan kəndlərinə hücumlar edir, silahsız insanlara qarşı kütləvi qırğınlar törədirdilər. Təkcə Sisyanda belə vəhşiliklər nəticəsində bir neçə gün ərzində 500-dən artıq azərbaycanlı öldürülmüşdü (62).

Oktyabrın 18–19-da isə Ağbulaq ətrafında xeyli itkilərlə nəticələnən böyük bir döyüş baş verdi. Həmin döyüş Ağbulaq kəndi ətrafındakı erməni silahlıları ilə buradakı əhalidən silah toplamağa

göndərilmiş Qafqaz İslam Ordusu bölmələri arasında baş verdi. Qafqaz İslam Ordusu qüvvələri oktyabrın 18-də saat 10.30-da Şuşadan Şuşikənd, Keşişkənd istiqamətində hərəkətə başlayıb saat 4.30-da Ağbulağa çatdı. Türk-Azərbaycan qoşun dəstəsinin yaxınlaşması xəbərini alan kimi Ağbulaq və ətraf kəndlərin nümayəndələri onun pişvazına çıxdılar və dəstə komandirinə təslim olduqlarını, habelə hər ev başına bir ədəd silah toplayıb təhvil verəcəklərini bildirdilər. Oktyabrın 19-na keçən gecəni Qafqaz İslam Ordusu hissələri Ağbulaq ətrafında keçirdi. Dəstənin rəhbəri minbaşı Nazim əfəndi Xankənd ətrafındakı silahlıların rəhbəri Ohan bəyi yanına çağırtdıraraq təslim olmağı ondan tələb etdi. Ondan da silahları təhvil vermək barədə razılıq alındı. Ağbulaq ətrafında Sokrat adlı birisi ermənilərin silah gəzdirməkdə məqsədinin azərbaycanlılardan qorunmaq olduğunu bildirirdi. Erməni dəstələri Nazim minbaşıya təslim olmaq vədi verdikləri halda onun diqqətini yayındırıb güclü hücuma hazırlaşırdılar. Oktyabrın 19-da ilkin olaraq elə Sokratın dəstəsi Nazim minbaşının dəstəsi üzərinə hücumda iştirak edirdi. Türk-Azərbaycan qüvvələri sərəncamlarında olan top və pulemyotlarla Sokratın dəstəsinin qarşısını saxlamağa çalışdı. Bu vaxt Ağbulağın şərqindən başqa bir erməni dəstəsi hücuma qoşuldu. Nazim minbaşının dəstəsindən bir ədəd topla bir bölük bu istiqamətdən olan hücumun qarşısını saxlamaq tapşırığı aldı. Bir azdan cənub istiqamətində başqa bir erməni dəstəsi də göründü. Bütünlükdə, minbaşı Nazim bəyin dəstəsinin dörd tərəfdən mühasirə olunmaq təhlükəsi yarandı. Dəstə bir qədər cənuba çəkilib yaxınlıqdakı təpədə müdafiə mövqeyi tutdu. Pulemyot və toplar da təpəyə gətirildi. Yaxınlıqda olan başqa bir təpəni isə ermənilər tutmağa çalışırdılar. Həmin təpənin tutulacağı təqdirdə müdafiə olunmağın xeyli çətinləşəcəyi üçün ora bir pulemyot və bir taqım piyada göndərildi. Saat 4-də Ağbulaqdan ermənilərə 200 nəfərlik kömək gəldi. Yeni qüvvələr ermənilərin təzyiqini daha da gücləndirdilər. Pulemyot atəşləri və piyadaların fədakarlığı ilə ermənilərin təzyiqini bir qədər zəiflətmək mümkün oldu. Mühasirə vəziyyətində qalmağın daha ağır nəticələrə gətirib çıxaracağı anlaşıldığı

üçün bir istiqamətdən hücuma keçmək və düşmənin müdafiə xəttini yarmaq qərara alındı. Belə bir hücum Keşişkənd istiqamətindən həyata keçirildi. Həmin hücumla düşmənin bu istiqamətdəki mühasirə həlqəsi yarıldı və Nazim minbaşının dəstəsi Dağdağan kəndinə doğru geri çəkilə bildi. Bu döyüşün gedişində ölən və yaralananlar olmuş və bir top da dərəyə yuvarlanmışdı. Qafqaz İslam Ordusu komandanlığı Ağbulaq ətrafında baş verən döyüşün nəticələrinə çox ciddi yanaşdı. Ordu komandanlığından bu döyüşün uğursuzluğu və itkilər verilməsi ilə bağlı Nazim minbaşı günahkar bilindi və onun barəsində təhqiqat işlərinin başlanması tələb edildi (63).

Ağbulaq ətrafındakı döyüşdən sonra ermənilərin güclənməsi və fəallaşması hiss olunurdu. Kənardan alınan yardımlar da onların daha yaxşı təşkilatlanmasına və təchizinə kömək edirdi. Cəmil Cahid bəy oktyabrın 23-də yazırdı ki, Şuşanın erməni əhalisi də silahlarını artıq təhvil vermirlər. Ağbulaq ətrafındakı dəstənin rəhbəri Sokrat və Keşişkənd dəstəsinin rəhbəri Karapet ermənilərin öz silahlarını Azərbaycan hökumətinə təhvil vermələrinin qarşısını almağa çalışırlar. Nuru paşaya göndərdiyi başqa bir teleqramında Cəmil Cahid bəy özü də ermənilərin qüvvələrinin və silahlarının artmasını təsdiq edirdi. Məsələn, Dovşanlı və Marağalıda 1000 nəfərlik bir silahlı dəstə toplanmışdı. Dəstənin kifayət qədər silahı, hərbi geyimi və təchizatı var idi. Arşak adlı birisi bu dəstəyə rəhbərlik edirdi. Ağdərə ətrafında toplanan qüvvələr Ağdam–Dovşanlı yolunu kəsməyə çalışırdılar. Andronik isə öz dəstələri ilə Şuşaya təzyiq etməyə cəhd göstərirdi. Gorusda onun 700 nəfərlik piyada, 200 nəfərlik süvari qüvvəsi, 11 pulemyot və 2 topu olması barədə xəbər alınmışdı. Şahnəzərov adlı birisinin rəhbərliyi altında isə 600 nəfərlik Gəncə alayı, 400 nəfərlik Şuşa alayı və 200 nəfərlik Samsun alayı var idi. Ola bilsin ki, bu alayların şəxsi heyəti adları çəkilən məntəqələrdən toplandığı üçün belə adlanırdı. Bütün bu qüvvələr Qafqaza gəlmiş olan Qafqaz İslam Ordusu hissələrinə qarşı təzyiqi günü-gündən gücləndirirdilər. Həmin qüvvələrin müqavimətini qırmaq və Şuşa ətrafında vəziyyəti sabitləşdirmək üçün Cəmil Cahid bəy öz qüvvələrini aşağıdakı şəkildə bölüşdür-

məyi qərara aldı: 2-ci Azərbaycan piyada alayının bir taboru Xankəndi yolunda dayanmalı idi. Alay özü isə Şuşada dayanmalı idi və ona bir topçu batareyası da verilməli idi. 1-ci süvari və Ləzgi süvari alayları Əsgəranda mövqe tutmalı idi. Süvarilər və Xankəndindəki taborun bir bölüyü bu iki məntəqə arasında asayişi mühafizə etməli idi. 25-ci taborla topçu Şnayder taboru Ağdamda qalmalı idi. 1-ci Azərbaycan diviziyasının qərargahı da Ağdama köçürülməli idi. Könüllü milis dəstələri Ağdama cəmləşdirilərək hərəkətə hazır vəziyyətdə saxlanmalı idi. Cəbrayıl ətrafında isə yerli qüvvələrdən silahlı dəstələrin yaradılması nəzərdə tutulmuşdu (64).

1-ci Azərbaycan diviziyasının qərargahının Şuşada yerləşdirilməsi planlaşdırılırdı. Diviziya bölgənin təhlükəsizliyini təmin etməli idi. Ancaq erməni silahlı dəstələri artdıqca diviziyanın qərargahının daha təhlükəsiz bir yer olan Ağdama köçürülməsi məsləhət bilindi. Cəmil Cahid bəy Nuru paşaya göndərdiyi teleqramlarından birində bölgədəki proseslərin artıq Azərbaycanın əleyhinə inkişaf etməkdə olduğunu qeyd edirdi. O bildirirdi ki, ermənilərin verdiyi vədlərə inanmaq mümkün deyil. Onları susdurmaq üçün burada güclü qüvvə saxlamaq lazımdır.

Mövcud tarixi şəraitdə Qarabağa göndərilə biləcək əlavə qüvvələr Azərbaycanda daha yox idi. Ermənilərə isə əlavə qüvvə və yardım gəlməkdə davam edirdi. Məsələn, mövcud olan məlumatlara görə, canlı qüvvələrdən əlavə Qarabağdakı silahlı dəstələrə silah və sursat almaq üçün Ermənistandan 2 milyon rubl, Bakı və Şuşa ermənilərindən isə 200 min rubl vəsait toplanmışdı (65).

Bundan başqa, erməni millətçiləri beynəlxalq aləmdə də kifayət qədər səs-küy yaradaraq türk qoşunlarının Qarabağda «günahsız» erməniləri qırması barədə xəbərlər yayırdılar. Xüsusilə Osmanlı ordusu Baş komandanlıq ərkani-hərbiyyə riyasətini öz öhdəsinə götürmüş yeni sədri-əzəm Əhməd İzzət paşanın Qafqazda və o cümlədən Azərbaycanda vəziyyətlə kifayət qədər tanış olmaması ermənilər tərəfindən qaldırılan təbliğata qarşı sabitlik nümayiş etdirməsinə mane olurdu. Onunla görüşmək imkanı olan erməni nümayəndəliyinin hələ Bakının azad edilməsi zamanı 30 min

ermənin in öldürülməsi, sonra da bu qırğınların Qarabağda davam etdirilməsi barəsindəki hay-küyləri Əhməd İzzət paşanı Azərbaycanla bağlı əvvəlki hökumətin yeritdiyi siyasətdən geri çəkilməyə sövq etdi və artıq oktyabrın 23-də o, Qarabağ hərəkatının dayandırılmasını tələb etdi (66).

Əhməd İzzət paşa kabinetini belə addımlar atmağa bir tərəfdən də müttəfiq dövlətləri məcbur edirdilər. Ermənilər öz təbliğatları ilə müttəfiq dövlətlərdən istifadə etməyə çalışdıqları kimi, müttəfiq dövlətlər də ermənilərdən istifadə etməyə çalışır və onların hay-küylərini həqiqət kimi qələmə verərək bu yolla Türkiyəni Qafqazdan tamamilə sıxışdırmağa cəhd göstərirdilər. Müttəfiqlərin Birinci Dünya müharibəsində məğlub olması isə Türkiyəni Amerika və İngiltərənin hər cür tələbləri qarşısında müqavimətsiz qoymuşdu. Bunu Əhməd İzzət paşa özü də Azərbaycandan İstambula gəlmiş diplomatik nümayəndə Əlimərdan bəy Topçubaşova etiraf etmişdi. Oktyabr ayının 21-də olan görüş zamanı Ə.Topçubaşov yeni sədr-əzəmə Türkiyənin göstərdiyi köməklərə görə Azərbaycan xalqının minnətdarlığını çatdıranda Əhməd İzzət paşa ona belə cavab vermişdi: «...Böyük qardaş bacardığı kimi həmişə kiçik qardaşa kömək etməlidir və edəcək. Ancaq siz özünüz görürsünüz ki, şərait dəyişmişdir. Bizim və bizim müttəfiqlərimizin vəziyyəti kəskin dəyişikliklərə məruz qalmışdır. İndi məsələləri biz yox, Vilson və onun tərəfdarları həll edirlər» (67).

Türkiyənin Qafqazdan sıxışdırılması üçün müttəfiq dövlətləri Qarabağ məsələsindən bir bəhanə kimi istifadə edirdilər. Qarabağda ermənilərin kütləvi şəkildə qırıldığını bəhanə edərək təcili şəkildə oradakı türk qoşunlarının çıxarılması tələb edilirdi. Ermənilər Qarabağ məsələsi ilə bağlı 1918-ci ilin oktyabr ayında İstambulda konfrans çağırılmasına da nail olmuşdular. Ermənilər iddia edirdilər ki, Azərbaycan və türk qoşun hissələri Ermənistan ərazisinə daxil olublar və burada «günahsız» erməniləri qırırlar. Oktyabrın 27-də Osmanlı dövlətinin yeni Xarici İşlər naziri Nəbi bəylə görüşən Ə.Topçubaşov bu təbliğatın cəfəng olduğunu bildirməklə qeyd etdi ki, Gəncə quberniyasının Şuşa, Cavanşir, Cəbrayıl və

Zəngəzur qəzaları Azərbaycan torpaqlarıdır və bu ərazilərə olan səlahiyyətinin bərpa edilməsi üçün ora Azərbaycan qoşun hissələrinin göndərilməsi heç də qanuna zidd deyildir (68).

Bununla belə, Osmanlı dövlətinə təzyiqlər güclənməkdə idi və dünya müharibəsində məğlub durumda olan Osmanlı dövləti bu təzyiqlərin qarşısını almaqda gücsüz idi. Türkiyənin növbəti sədr-əzəmi Tofiq paşa noyabr ayının 16-da Ə.Topçubaşovla görüşündə bu məsələyə münasibətini belə açıqladı: «Siz Azərbaycan türklərinə qarşı bizim hisslərimizə şübhə etməməlisiniz. Biz sizin daimi təəssübkeşlərinizik. Ancaq siz özünüz görürsünüz ki, vəziyyət necə dəyişmişdir. Təəssüf ki, bizi, sizi və sizin müstəqilliyinizi müdafiə etmək imkanından məhrum etmişlər. Bax indi bizdən tələb edirlər ki, Qafqazdan öz qoşunlarımızı çıxardaq. Biz isə bunu yerinə yetirməliyik və yerinə yetirəcəyik. Belə qəti tələbin irəli sürülməsinə səbəb isə Qarabağ məsələsidir. Bizə deyirlər ki, bizim qoşunlarımız Qarabağa getmiş və orada erməniləri qəddarcasına qırmışlar» (69).

İngilislərin tamamilə ermənipərəst mövqedən çıxış etmələri və bunu dövlət siyasəti səviyyəsinə qaldırmalarını İstambulda Ə.Topçubaşovla görüşündə ingilis polkovniki Tamplın söylədikləri də sübut edirdi: «Biz eşitmişik ki, siz bu yaxınlarda Qarabağa ekspedisiya korpusu göndərmisiniz və o da çoxlu erməni qırmışdır. Bu hal türk-Azərbaycan birləşmiş qoşunlarının Bakını işğal etməsi zamanı da baş vermişdir. Erməni millətindən olan əhalinin demək olar ki, yarısı məhv edilmişdir. Ermənilərin sizin tərəfinizdən qırılması xəbərini eşitmək bizim üçün ağır idi» (70).

Bütün bu danışıqların hamısının erməni hay-küyünün nəticəsi olmasını, ermənilərin özlərinin hansı vəhşiliklər törətməsini Ə.Topçubaşov İstambuldakı görüşləri zamanı sübut etsə də, Türkiyə artıq məcburiyyət qarşısında qalmışdı. Müttəfiq dövlətlər Türkiyədən qəti şəkildə tələb edirdilər ki, Qarabağdakı erməni əhalisinin «təhlükəsizliyi» təmin edilsin. Bununla müttəfiq dövlətlər birinci növbədə Qarabağa göndərilmiş olan Qafqaz İslam Ordusu hissələrinin geri çağırılmasını nəzərdə tuturdular (71).

Belə bir vəziyyətdə Qarabağda və Zəngəzurda genişlənməkdə olan erməni təcavüzünə qarşı nəinki əlavə yardım göndərmək mümkün olmadı, əksinə oradakı türk alaylarının geri çağırılması zərurəti yarandı. Qarabağ dəstəsinin erməni silahlılarına qarşı kifayət qədər gücə malik olmadığı artıq aydın idi. Cəmil Cahid bəyin noyabr ayının ortalarında Nuru paşaya göndərdiyi teleqramından aydın olurdu ki, Şuşaya iki istiqamətdən çox güclü hücum gözlənilir. Biri Keşişkənd istiqamətindən, Karapetin dəstəsi tərəfindən gözlənilən hücum idi. Digəri isə Gorus istiqamətindən gözlənilirdi. Burada Qaladərəsi yaxınlığında 2 min nəfərlik bir erməni dəstəsi toplaşmışdı. Bu dəstə Şuşa–Gorus yolunu tutmaqla bərabər, Qaraqışlaq üzərindən Qaladərəsi və Şuşadakı taborlara hücum etməyə hazırlaşırdılar. Cəmil Cahid bəy yazırdı ki, Qaladərəsindəki tabor üzərində mövcud olan təhlükənin aradan qaldırılması üçün erməni dəstələrinə qarşı təsirli bir döyüşün həyata keçirilməsi lazım idi. Onun fikrincə, belə bir döyüşün keçirilməsi isə nə türklərin indiki siyasi vəziyyətinə uyğun idi, nə də ki, Azərbaycandakı silah məhdudluğu buna imkan verirdi. Ona görə də Cəmil Cahid bəy 2-ci Azərbaycan alayının Qaladərəsində olan 3-cü taborunu Şuşaya qaytarılması barədə əmr verdi (72). Bu yolla C.Cahid bəy taborun Qaladərəsində çox təhlükəli bir vəziyyətdə qalmasının qarşısını aldı.

Az sonra Mudros müqaviləsinin tələblərinə uyğun olaraq türk alayları bütünlüklə Qarabağı tərk etməli oldular. Qafqaz İslam Ordusu komandanlığının əmri ilə Qarabağa göndərilmiş 9-cu və 106-cı türk alayları geri qaytarıldı. Bu alaylar digər türk qüvvələri ilə birlikdə Azərbaycanı tərk etməli idilər. 1-ci Azərbaycan diviziyası isə qüvvə etibarilə zəifləsə də, hələ də Qarabağda qalmaqda davam edirdi. General-mayor Usubov bu diviziyanın komandiri təyin edildi. O, dərhal Ağdama yollanaraq 1-ci diviziyanın komandanlığını öz üzərinə götürdü (73).

Bununla da Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı başa çatdı. Hərəkatın ilkin dövründə müəyyən uğurlar əldə edilsə də, beynəlxalq şəraitin, habelə Qarabağ ətrafındakı beynəlxalq müna-

sibətlərin Türkiyənin və Azərbaycanın mənafeləri ziddinə kəskinləşməsi həmin uğurların daha da genişlənməsinə imkan vermədi.

### *2. Azərbaycan ordusunun möhkəmləndirilməsi üçün həyata keçirilən tədbirlər*

1918-ci il sentyabr ayının sonu və oktyabr ayının əvvəllərində Qafqaz İslam Ordusu komandanlığını və eləcə də Ənvər paşanı narahat edən məsələlərdən biri də ingilis qüvvələrinin yenidən Bakıya hücum etmək ehtimalı idi. Doğrudur, Bakı alındıqdan sonra şəhərin və yarımadanın mühafizəsi təşkil edilmişdi. Ancaq 1-ci Azərbaycan diviziyasının Qarabağa, 15-ci piyada diviziyasının Dağıstana yollanması ilə Abşeron yarımadasının mühafizəsində dayanan qüvvələr xeyli zəifləmiş oldu. Ona görə də Ənvər paşa Bakı ətrafında dayanmış qüvvələrin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Bu məsələ ilə bağlı onun istər Nuru paşa, istərsə də Xəlil paşa ilə ardıcıl yazışmaları da Bakının mühafizəsinə necə əhəmiyyət verildiyini nümayiş etdirirdi.

Oktyabr ayının 1-də Ənvər paşa Nuru paşaya yazdığı məktubunda qeyd edirdi ki, Bakının dəniz tərəfdən mühafizəsi ilə bağlı lazımi tədbirlərin görülməsini Xəlil paşaya da tapşırmışdır. Ənvər paşa Nuru paşadan tələb edirdi ki, bu məsələnin həlli üçün silah, sursat, təchizat, hərbi təyyarə və s. nə lazımdırsa Xəlil paşaya məlumat verin. O isə imkan daxilində mövcud olan hər şeyi sizə göndərəcəkdir (74).

Nuru paşa Bakının dənizdən mühafizəsinin möhkəmləndirilməsi üçün zəruri olan silah, sursat, təchizat və s. siyahısını dərhal Xəlil paşaya göndərdi. Göndərilməsi xahiş edilən silah və təchizat həm də formalaşmaqda olan Azərbaycan milli hissələrinin möhkəmləndirilməsi üçün nəzərdə tutulmuşdu. Ənvər paşanın göstərişinin icrası, Nuru paşanın isə müvafiq xahişinin yerinə yetirilməsi üçün Xəlil paşa tərəfindən dərhal əməli tədbirlərə əl atıldı. Çox qısa zamandan sonra, yəni oktyabr ayının 4-də Xəlil paşa Nuru paşaya yazdığı məktubunda bildirirdi ki, aşağıdakı silah, sursat və təchizat sizin sərəncamına göndərilmişdir:

1. 4 ədəd 15-lik adi atəşli uzun top;

2. 8 ədəd 15-lik adi atəşli qısa top;
3. 4 ədəd 10,5-lik adi uzun top ;
4. 10 ədəd 87-lik səhra topu;
5. 4 ədəd 7,5-lik səri (sürətli–red.) səhra topu;
6. 4 ədəd 12-lik səri atəşli haubitsa;
7. 50 ədəd Maksim pulemyotu;
8. 23 ədəd pulemyot;
9. 16 ədəd tüfəng;
10. 200 sandıq tüfəng gülləsi;
11. 20 ədəd səyyar mətbəx;
12. 200 cüt top qoşqu qurğusu;
13. Hər bir top üçün 500 mərmi ( 87-lik topların hər biri üçün 230 mərmi );
14. 7800 böyükçaplı rus tüfəngi;
15. 10165 sandıq böyükçaplı rus cəbbəxanası;
16. 598 kiçikçaplı rus tüfəngi;
17. 900 sandıq kiçikçaplı rus tüfəngləri üçün güllə;

Bütün bu adları çəkilən silah və sursat Bakıya Qarsdan göndərilməli idi(75).

Oktyabr ayının 5-də Ənvər paşa Xəlil paşaya göndərdiyi teleqramında ingilislərin təkrar Bakıya hücum etməsi barədə yenidən xəbərlər alındığını bildirirdi. Onun fikrincə, Bakıdakı qüvvələrdən iki alay kifayət qədər hazırlığa malik olardısa, ingilislərin hücumlarının qarşısını ala bilərdi. Elə həmin gün Ənvər paşa Xəlil paşaya göndərdiyi ikinci teleqramında ingilislərin Bakıya təkrar hücum edəcəyinə inanmadığını bildirir və bu ehtimalın baş verməməsi üçün ruslardan alınan uzunmənzilli toplardan bir və ya iki batareya Nuru paşanın sərəncamına göndərilməsini lazım bilirdi. Bu batareyalar dəniz kənarında qurularaq Bakının dənizdən müdafiəsini gücləndirməli idi (76).

İngilis qoşunlarının Bakıya hücum edəcəyi ehtimalının çox da inandırıcı olmaması barədə Ənvər paşanın yazdığının əsası var idi. Oktyabrın 5-də Qafqaz İslam Ordusu komandanlığına ingilis qüvvələri barədə daxil olmuş bir məlumatda bildirilirdi ki, Bakıdan çəkilən və Ənzəli ətrafında olan ingilis bölmələrinin döyüş vəziyyəti heç də yaxşı deyildi. Həmin məlumata görə, Bakıda

olan ingilis hərbçilərindən dörd yüzü Ənzəliyə, 500 nəfəri isə Krasnovodska qaçmışdı. Ənzəliyə gələn ingilislərin də yarısı Tehrana göndərilmişdi. İranda olan ingilis qüvvələri Kiçik xan tərəfindən təqib olunurdu. Onlar Kiçik xanla əlaqələr yaratmağa çalışsalar da, bu, heç bir nəticə vermirdi. Krasnovodska qaçan ingilislər isə Kiçik xanın qorxusundan Ənzəliyə gedə bilmirdilər. Beləliklə, ingilis qüvvələri çox dağınıq halda idi və ona görə də yaxın günlər üçün onların təkrarən Bakıya hücum edəcəkləri heç də inandırıcı görünmürdü (77).

Bununla belə, Bakının dənizdən müdafiəsinin möhkəmləndirilməsi üçün mümkün olan əməli işlər görülməkdə idi. 15-ci diviziyanın və 1-ci Azərbaycan diviziyasının Bakıdan uzaqlaşması ilə bu vəzifə 5-ci Qafqaz diviziyasının üzərinə düşmüşdü. Həmin diviziya tərəfindən şəhərin dənizdən müdafiəsi aşağıdakı kimi təşkil edilmişdi: Putadan Yaşburunadək olan sahil zolağı bir tabor tərəfindən müşahidə edilirdi. Bu taborun tabeliyinə bir haubitsa batareyası verilmişdi. Nargin adasını adlayaraq Bakı buxtasını bombardman etmək istəyən düşmən gəmilərinin hərəkətinin qarşısının alınması üçün Zığ burnunda güclü bir topçu mərkəzi yaradılmışdı. Bu mərkəzə bir səhra haubitsa batareyası, iki haubitsa batareyası və bir taqım 105 mm-lik top göndərilmişdi. Bu toplar üçün atəş mövqeləri də hazırlanmışdı. Zığdan Sumqayıta qədər olan sahil zolağını 30-cu tabor müşahidə və mühafizə edirdi. Zığda piyada bölüyü də var idi. Bu bölük Zığ burnunun şimal və şimal-qərb hissəsində müdafiə üçün daş divarlar qurmuşdu. Zığ burnu, Zığın qərbindəki 555 rəqəmli təpə, Suraxanının qərb ətəkləri, Böyük Şorun cənub hissəsi, Biləcərinin cənubu, Heybət dəmir yolunun şərqi şəhərin kənar müdafiə xətti hesab olunurdu. Bu xətt boyunca müdafiə mövqelərinin qurulması üçün lazımi tədbirlər görülürdü (78).

Bakının mühafizəsinin etibarlı təmin edilməsi üçün Azərbaycanın milli qüvvələrinin təşkilinə də ciddi diqqət yetirilirdi. Bütünlükdə, 1918-ci ilin sentyabr və oktyabr ayları Qafqaz İslam Ordusu tərkibində Azərbaycanın milli qüvvələrinin təşkilatlanmasının səmərəli bir dövrü adlandırıla bilər. Azərbaycan korpusunun yenidən qurulması barədə Qafqaz İslam Ordusunun yuxarıda qeyd

edilən müvafiq əmrindən sonra müəyyən addımların atılmasına başlansa da, Bakının azad edilməsi ilə bu iş daha da sürətləndirildi. Azərbaycanın milli hərbi qüvvələrinin təşkilatlandırılmasına güclü təkan verilməsinin səbəbini Nuru paşa aşağıdakı kimi izah edirdi: «5-ci Fələstin cəbhəsinin təqviyəsi məqsədilə Azərbaycana təxsis edilmiş olan Osmanlı hissələrinin geriyə cəlb olunacağı hərbiyyə nəzarəti tərəfindən bildirildiyindən Qafqaz İslam Ordusunca Azərbaycan ordusunun təşəkkülünə sürət verilmişdi. Əsasən, Azərbaycana vürudumuz günündən etibarən yerlərindən müntəzəm qüvvət təşkili daima nəzəri əhəmiyyətdə tutulmuş isə də heyəti təxliyə və zabitanın mövcud olmamasından dolayı Bakının zəbtinə və hissələrimizin qismən sərbəst qalmasına qədər bir imkan hasil olmamışdı. Azərbaycana gələn hissələrin zabit nöqsanı çox olduğundan məzkur hissələrin zabitanından istifadə etmək imkanı olmamış, biləks, İslam Ordusu qərargah zabitanından bir qismini cəbhəyə göndərmək məcburiyyəti hasil olmuş idi» (79).

Sonra Nuru paşa xatirəsində onu da qeyd edirdi ki, Azərbaycanın milli qüvvələrinin təşkilatlandırılması üçün milli hərbi məktəblər açıldı. Ancaq Azərbaycanın milli qüvvələrinin möhkəmləndirilməsinə Qafqaz İslam Ordusu komandanlığı tərəfindən diqqətin gücləndirilməsi təkcə türk hissələrinin Fələstin cəbhəsinə göndərilməsi zərurəti ilə bağlı deyildi. Sentyabr ayının ikinci yarısından etibarən beynəlxalq münasibətlər xeyli kəskinləşdi və Türkiyə ilə onun müttəfiqlərinin vəziyyəti pisləşdi. Artıq Osmanlı hökuməti rəhbərliyi, o cümlədən də Ənvər paşa anlayırdı ki, dünya səhnəsində gedən proseslər heç də onların xeyrinə cərəyan etmir və yaxın vaxtlarda məğlubiyyət ağırlığı onların üzərinə çökəcəkdir. Ona görə də Ənvər paşa həm Xəlil paşanın, həm də Nuru paşanın diqqətini Azərbaycanın milli qüvvələrinin təşkilatlanmasına və möhkəmləndirilməsinə yönəldirdi ki, əgər Osmanlı qüvvələri Azərbaycanı tərk edərsə, Azərbaycan mövcud milli qüvvələri ilə öz müstəqilliyini qoruya bilsin. Hələ 1918-ci il oktyabr ayının 5-də Ənvər paşa Xəlil paşaya və Nuru paşaya yazırdı: «Bəlkə zahirən Azərbaycandan və Şimali Qafqazdan çəkiləcəyiz. Qüvvələrimizi çəkmiş görünməyə məcbur olacağıq. Belə bir halda Azərbaycanın və Şimali Qafqazın

öz qüvvələrinə istinad etmələri lazım gələcəkdir. Binaənəleyh, indidən Qafqazda qalacaq qüvvələr Azərbaycan və Şimali Qafqaz qüvvələri olaraq qalmaq üçün indidən bu qüvvələri əsas sayaraq həm bunları genişlətmək, həm də yeni təşkilat yaparaq bu sürətlə orada qüvvətlənməyə baxmalıdır. Ermənilərlə qovğa etməyərək artıq iyi keçinməyə baxılmalıdır. Sülh müzakirəsində onlarla bərabər istiqlalları üçün çalışmaq mühümdür. Orada çalışacaq zabitan və s. Azərbaycan təbəəsi olaraq qalsın. Və hökumət çəkilmək əmri verirsə belə orada qalmaq üzrə tərtibat alınsın. Rus silahı və cəbbəxanasından olmaq üzrə Azərbaycana mümkün olduğu qədər çox silah və cəbbəxana göndərilsin» (80).

Bir neçə gün sonra Xəlil paşaya göndərdiyi teleqramının bir yerində Ənvər paşa yenidən Azərbaycanın milli qüvvələrinin möhkəmləndirilməsi məsələsinə toxunaraq yazırdı: «Hökumə-ti-Osmaniyyənin Azərbaycanı himayə edəməməsi və Azərbay-candakı qüvvələrini çəkməsi halında orada Azərbaycanın yerli əhalisi ilə nə dərəcəyə qədər müvəffəqiyyətlə çalışmaq imkanı-nın olduğunu bildirmənizi rica edirəm. Sizə göndəriləcək cəb-bəxana və top məsələsi qayət mühüm olduğundan bir an əvvəl varsa, qatar göndərmənizi rica edirəm» (81).

Azərbaycan korpusunun yenidən qurulması ilə bağlı Qafqaz İslam Ordusu komandanının yuxarıda qeyd olunan 5 avqust tarixli əmrində göstərilirdi ki, Azərbaycanda ikidiviziyalı bir korpus təşkil ediləcəkdir. Həmin əmrə əsasən əvvəlcə ayrı-ayrı alaylar yaradılmalı və sonra da bu alaylar diviziyalarda qruplaşdırılmalı idi(82). Məlumdur ki, artıq avqustda bir neçə milli piyada alayı mövcud idi. Sentyabr ayının 23-də 1-ci, 2-ci və 3-cü piyada alay-ları 1-ci Azərbaycan diviziyasında birləşdirildi və Cəmil Cahid bəy diviziya komandiri təyin edildi. Sentyabr ayının 25-də isə Nuru paşa artıq 2-ci Azərbaycan diviziyasının təşkili barədə əmr verdi. Bu əmrə əsasən 2-ci Azərbaycan diviziyasını 4-cü, 5-ci və 6-cı Azərbaycan alayları təşkil etməli idi. 4-cü piyada alayı artıq mövcud idisə, 5-ci və 6-cı piyada alayları formalaşmaqda idi. Sonuncunun təşkilini sürətləndirmək üçün 5-ci alayın 2-ci taboru onun tabeliyinə verildi. Diviziyanın komandiri vaxtilə Qafqaz

İslam Ordusu ərkani-hərbiyyə rəisi olmuş Bakı mövqe komandanı Nazim bəy təyin edildi (83).

Sentyabrın 27-də Nuru paşa artıq Nazim bəydən tələb edirdi ki, 2-ci Azərbaycan diviziyasının sürətlə təşkili üçün öz mülahizələrini və təkliflərini Ordu komandanlığına bildirsin (84). Nuru paşanın başqa bir əmri ilə Azərbaycan korpusunun təşkilinin sürətləndirilməsi üçün 9-cu Qafqaz alayı 1-ci Azərbaycan diviziyasına, 10-cu piyada alayı isə 2-ci Azərbaycan diviziyasına verilirdi. Bu alayların bir taboru bir milli alayın bazasını təşkil etməli idi. Bu taborların bölükləri isə milli taborların bazasını təşkil etməli idi. Elə bu əmrdən görünür ki, Nuru paşa gələcəkdə 2-ci Azərbaycan korpusunun təşkilini də planlaşdırırmış. 13-cü piyada alayı da həmin korpusun əsasını təşkil etməli imiş(85).

1-ci Azərbaycan diviziyasının komandanlığı təşkil olunan kimi bu diviziyanın əsas qüvvələri Qarabağa göndərildi. Diviziya təşkilatlanmanı orada başa çatdırmalı idi. Onun qərargahının əvvəlcə Şuşada yerləşdirilməsi nəzərdə tutulmuşdu. 2-ci diviziyanın qərargahı isə Bakıda yerləşdirilməli idi. Nazim bəy Nuru paşaya göndərdiyi mülahizələrində 2-ci diviziya üçün Bakıdakı Salyan qışlalarından istifadə etmək fikrində olduğunu bildirirdi. O, diviziyanın 6-cı alayını Sabunçuda, 5-ci alayını isə Muğanda komplektləşdirmək fikrində idi. 10-cu alayın 29-cu taboru 5-ci alaya, 30-cu taboru isə 6-cı alaya verilməli idi. Bu alayın 28-ci taboru 4-cü alaya verilmişdi. Parçalanmış olan 10-cu alayın komandiri Dəmirəli bəyin 6-cı alaya komandir təyin edilməsi nəzərdə tutulmuşdu. 5-ci alay Muğanda təşkil edildikdən sonra Bakıya qaytarılmalı və Salyan qışlalarında yerləşdirilməli idi(86).

Diviziyalar təşkil edildiyi ilk vaxtlar rəsmi olaraq Qafqaz İslam Orldusunun birinci və ikinci diviziyası adlanırdı. Azərbaycan korpusu təşkil edildikdən sonra onlar bu korpusun müvafiq diviziyaları adlandırıldılar (87).

Azərbaycan korpusunun formalaşma prosesi davam etdikcə onun tərkibində bir sıra struktur dəyişiklikləri baş verdi. 1918-ci il oktyabr ayının əvvəllərində Azərbaycan korpusunun tərkibi aşağıdakı şəkildə idi. 1-ci Azərbaycan diviziyasının 1-ci, 2-ci və 3-cü




**1918-ci il oktyabr ayının ilk günlərində Azərbaycan korpusunun quruluşu**

piyada alayları, 1-ci süvari alayı, 1-ci topçu alayı, istehkam taboru, 1-ci teleqraf bölüyü, 1-ci səhiyyə bölüyü, 1-ci iaşə taqımı, 1-ci səyyar xəstəxana və 1-ci cəbbəxana taboru (3 piyada, bir cəbəl, bir səhra bölüyü) daxil idi. 2-ci diviziyaya 4-cü, 5-ci , 6-cı piyada alayları, 2-ci süvari alayı, 2-ci topçu alayı, 2-ci istehkam taboru, 2-ci teleqraf bölüyü, 2-ci səhiyyə bölüyü, 2-ci iaşə taqımı, 2-ci səyyar xəstəxana və 2-ci cəbbəxana taboru daxil idi. Birbaşa korpusa isə aşağıdakı hissə və bölmələr daxil idi: 3-cü süvari alayı, 1-ci ağır topçu taboru, 1-ci haubitsa taboru, teleqraf taboru, dəmir yolu taboru və təyyarə dəstəsi (88).




**1918-ci ilin oktyabr ayının ortalarında 1-ci Azərbaycan diviziyasına daxil olan alayların quruluşu**

1918-ci il oktyabr ayının birinci yarısı ərzində Azərbaycan korpusunun tərkibində bir sıra dəyişikliklər baş verdi. Əvvəlcə süvari alayları 1-ci diviziyanın tərkibinə verildi. 2-ci diviziyanın tərkibində isə 4-cü süvari alayının təşkilinə başlandı. Bu süvari alaylarından başqa korpusa və İslam Ordusu komandanlığına tabe olan iki süvari bölüyü və Zəngəzurda ayrıca bir süvari bölüyü yaradıldı. Süvari alaylarının hər birində bir pulemyot bölüyünün təşkili başa çatdırıldı. Ordu komandanlığına tabe olan Ordubad piyada taboru yaradıldı. Sərhəd alayının təşkilinə başlandı. Bu alay Azərbaycanın Gürcüstanla və Ermənistanla olan sərhədlərini qorumalı idi. Alay üç tabordan ibarət idi. Onun tərkibinə xidmət etmək üçün 25 yaşından 35 yaşınadək olan azərbaycanlılar cəlb edilməli idi. Nuru paşanın əmrinə əsasən alayda bir miqdar Osmanlı əsgərlərinin xidmət etməsinə də icazə verilirdi. Hər bir tabor dörd bö-

lükdən və 6 pulemyotlu pulemyot bölüyündən ibarət idi. Sərhəd alayı 1-ci Azərbaycan diviziyasının tərkibinə daxil edilmişdi. Zaqataladan başlayaraq Araz çayına qədər olan sərhəd zolağı bu alay tərəfindən qorunmalı idi. Alayın 1-ci taboru Zaqatalada, 2-ci taboru Qazaxda, 3-cü taboru isə Qarabağda yerləşməli idi(89). Qafqaz İslam Ordusu komandanlığı 1-ci Azərbaycan diviziyası tərkibində olan 1-ci, 2-ci və 3-cü süvari alaylarını bu diviziyanın tərkibindən çıxararaq ayrıca bir süvari diviziyası yaratmaq istəyirdi. Ancaq Mudros müqaviləsinin tələbləri və türk qoşunlarının Azərbaycanı tərk etməsi buna imkan vermədi. Struktur dəyişikliyi, əsasən, 1-ci diviziyanın tərkibində baş verdi. Arxiv sənədlərində mövcud olan quruluş sxemlərində 9-cu Osmanlı alayı 1-ci diviziyanın tərkibində ayrıca göstərilmişdir. Halbuki bu alay diviziyanın milli alayları arasında bölüşdürülməli idi. Oktyabr ayının ortalarında 1-ci Azərbaycan diviziyasının quruluşu aşağıdakı kimi idi(90):

1-ci Azərbaycan diviziyasına əlavə olaraq zirehli avtomobillər dəstəsi və Ordu teleqraf bölüyünün bir taqımı verilmişdi. 1918-ci il oktyabr ayının ortalarında Qafqaz İslam Ordusunun quruluşu daha da təkmilləşdi (91):

Mövcud imkanlar daxilində qoşun hissələrinin maddi-texniki təchizinə, komplektləşdirilməsinə və təlim-tərbiyəsinə diqqət gücləndirilirdi. Bakı şəhəri ələ keçirildikdən sonra bu məsələlərin həllinə daha çox vaxt sərf etmək imkanı qazanıldı.

Bakı şəhəri üzərinə hücum uğurla başa çatdırıldıqdan sonra düşməndən bir miqdar silah, sursat və texnika hərbi qənimət götürülmüşdü ki, bu da qoşun hissələrinin təchizini yaxşılaşdırmağa kömək edirdi. Lakin qənimət alınan topların çoxunun detalları çıxarılmış və onlar xarab edilmişdi. Bu detalların tapılması və təhvil verilməsi üçün qəzetlərdə bildirişlər çap olunmuş və hər bir detal üçün mükafat ayrıldığı yazılmışdı. Məsələn, topun durbini üçün 2 min rubl, topun qəməsi üçün bir min rubl mükafat təyin edilmişdi (92).

Diqqət mərkəzində dayanan başlıca məsələlərdən biri də çağırış və səfərbərlik məsələsi idi. Bu iş Qafqaz İslam Ordusunun Əxzi-əsgər riyasətinin nəzarəti altında aparılırdı. Bəzi hallarda xalqın milli xüsusiyyətlərini, dövrün və şəraitin tələblərini,

ümumvətəndaşlıq borclarını nəzərə almadan aparılan bu iş müəyyən nöqsan və çatışmazlıqlarla müşayiət olunsa da, qoşun




**1918-ci il oktyabr ayının ortalarında Qafqaz İslam Ordusunun quruluşu**

hissələrinin komplektləşdirilməsində hiss olunacaq addımlar da atılmışdı. Bakının azad edilməsi, türk-Azərbaycan qoşunlarının müzəffər yürüşləri gənclərin müəyyən qismində vətənpərvərlik hisslərini xeyli coşdurmuşdu və onlar könüllü surətdə xidmətə yazılırdılar. Qafqaz İslam Ordusunun Əxzi-əsgər riyasəti bununla bağlı hətta qəzetdə məlumat vermiş və xidmətə yollanmaq üçün kənd və şəhərlərdə müvafiq orqanlara müraciət edənlərin artmasından məmnun olduğunu bildirmişdi. Həmin məlumatda deyi-

lirdi: «Dinlərin, vətənlərin mühafizəsi üçün İslam Ordusuna qeyd olunmaq üzrə Bakı şöbəsinə və digər kənd və qəsəbələrdəki komandanlara müraciət edənlərin miqdarı günü-gündən çoxalmaqda, hər kəsin ətrafımızı saran din, Vətən, ərz və namusu və düşmənlərinə qarşı hazırlanmaqda olduğu böyük şükranla görülməkdədir» (93).

Çağırış və səfərbərlik işində irəliləyişlərin olmasının nəticəsi idi ki, təkcə 1-ci Azərbaycan diviziyasının 1918-ci il noyabr ayının 12-də yalnız azərbaycanlılardan ibarət olan sıravi heyəti aşağıdakı sayda idi(94):

Diviziya qərargahı – 65 nəfər
1-ci alay. 1-ci tabor – 174 nəfər
2-ci tabor–133 nəfər
3-cü tabor– 103 nəfər
2-ci alay. 1-ci tabor – 454 nəfər
2-ci tabor – 283 nəfər
3-cü tabor – 490 nəfər
pulemyot bölüyü – 36 nəfər
3-cü alay. 1-ci tabor – 139 nəfər
2-ci tabor – 131 nəfər
3-cü tabor – 741 nəfər
pulemyot bölüyü – 34 nəfər
27-ci tabor və bölüklər – 113 nəfər
Cəmi – 2898 nəfər

Qoşun hissələrində xüsusi peşələrə olan ehtiyacı ödəmək üçün 19 yaşından 24 yaşınadək olan bütün çəkməçilər, nəccarlar, dülgərlər, dəmirçilər, xəyyatlar, nalbəndlər, bərbərlər, dənizçilər və s. məcburi surətdə xidmətə cəlb olunurdular. Bu və ya digər peşələrə sahib olan 25–30 yaş arasındakı gənclər isə xidmətə könüllü surətdə yazıla bilərdilər(95).

Azərbaycanda hərbi xidmətə çağırışın hüquqi əsaslarının müəyyənləşdirilməsi üçün 1918-ci il oktyabr ayının 11-də «Azərbaycan hökumətinin əsgəri mükəlləfiyyətinin müvəqqəti qanunu» qüvvəyə mindi. Bu qanun Azərbaycan hökumətinin hərbi qanunvericilik sahəsində qəbul etdiyi ilk böyük sənədlərdən biri idi

və heç şübhəsiz ki, həmin dövrdə əhali arasında bu işin nizamlanmasında müəyyən əhəmiyyətə malik idi(96).

Müvəqqəti qanuna görə Azərbaycanın bütün vətəndaşları qanunun tələbləri çərçivəsində hərbi mükəlləfiyyət keçməli idi. 18 yaşından etibarən gənclər artıq hərbi mükəlləfiyyətçi idilər. Ancaq 18 və 19 yaşlı gənclər xidmətqabağı ehtiyatda sayılırdılar. Bu kontingent 2-ci dərəcəli ehtiyat adlanırdı və onlar yalnız müharibə dövründə xidmətə çağırılırdılar. Sülh dövründə isə həqiqi xidmət 20 yaşından başlanırdı. Piyada və nəqliyyat qoşunlarında xidmət 2 il, digər qoşunlarda isə 3 il müəyyənləşdirilmişdi. Həqiqi hərbi xidmət qurtardıqdan sonra keçmiş piyada əsgərlər üçün 1-ci dərəcəli ehtiyatda xidmət 40 yaşına, digər qoşunlardan olanlar üçün isə 38 yaşınadək davam etməli idi.

Müvəqqəti qanunun böyük bir hissəsi çağırışdan möhlət və güzəştlərə həsr edilmişdi. Həmin hissədə konkret olaraq göstərilirdi ki, kimlərə ailə vəziyyətinə, səhhətinə, tutduğu vəzifələrə görə möhlət və güzəşt verilə bilər.

Müvəqqəti qanunla qəzalarda əxzi-əsgər məclisinə qəzanın vəzifəli şəxsləri daxil olmalı, şəhər və qəzalarda çağırış işləri bu məclislərin nəzarəti altında aparılmalı idi. Çağırışla bağlı ortaya çıxan suallara da ilk növbədə bu məclisdə baxılmalı idi.

Əxzi-əsgər şöbələrinin nəzdində həkim-müayinə komissiyaları da təşkil edilməli idi. Bu komissiya çağırışçıları müayinə etməli, onların xidmətə yararlılığını müəyyənləşdirməli idi. Çağırışçıların hansı qoşun növünə göndərilməsi üçün həkim komissiyasının qərarı nəzərə alınmalı idi. Çağırışçı və ya onun valideynləri həkim komissiyasının qərarı ilə razılaşmadıqda 2 nəfərdən az olmayaraq başqa bir həkim komissiyasının təyin edilməsini tələb etmək hüququna malik idi.

1918-ci ilin oktyabrında Gəncədəki hərbi məktəbin ilk buraxılışı oldu. Bu hadisə Azərbaycanın ordu hissələrinin milli kadrlarla təmin edilməsində tarixi əhəmiyyətə malik idi. Oktyabrın 22-də hərbi məktəbin rəisi Atif bəy Azərbaycan korpusunun komandiri Əliağa Şıxlinskiyə məktub yazaraq buraxılış imtahanlarının başlanması barədə ona məlumat verdi və xahiş etdi ki, imtahanlarda iştirak etmək üçün onun özünün və ya korpusun qərargah rəisi Həbib bəy Sə-

limovun, habelə 2-ci diviziya komandiri Nazim bəyin və digər zabitlərin imtahanda iştirak etmələri yaxşı olardı (97).

Bu teleqrama cavab olaraq Atif bəyə bildirildi ki, hərbi məktəbin buraxılış imtahanlarında iştirak etmək üçün Ə.Şıxlinski öz yavəri ilə, 2-ci diviziya komandiri Nazim bəy, miralay Seyfulla Mirzə Qacar, Həmid bəy və Məmmədov adlı birisi oktyabrın 24-də səhər saat 7-də 3 avtomobildə Bakıdan Gəncəyə yola düşəcəklər. Əlavə olaraq göndərilən başqa bir teleqramda isə bildirilirdi ki, Nuru paşanın atası Hacı Əhməd bəy də Gəncəyə gələn qonaqlar arasında olacaqdır (98). Buraxılış imtahanında Azərbaycan hökumətinin üzvü, maarif naziri Nəsib bəy Yusifbəyli də iştirak edirdi.

Milli hərbi məktəbdə nəzərdə tutulan tədris müddəti 4 aydan artıq çəkmişdi. Məktəbdə oxuyanlar müvəffəqiyyətlə buraxılış imtahanları verəcəyi təqdirdə qoşunlara göndərilməli və 6 aydan sonra onlara zabit rütbəsi verilməli idi. İlk imtahan oktyabrın 26-da məktəbdə oldu. İmtahanda iştirak etməyə gələn qonaqları məktəbdə fəxri qarovul qarşıladı (99).

Səhərisi gün, yəni oktyabrın 27-də buraxılış imtahanı verənlər şəhərin kənarındakı təlim meydanına çıxarıldılar. Burada imtahanların keçirilməsi üçün xəndəklər və səngərlər qazılmış, süni maneələr yaradılmış, zəruri olan əşya və cisimlər yerli-yerində sahmana salınmışdı. Bakıdan gələn qonaqlar səhər tezdən təlim meydanına daxil oldular. Məktəbin ilk buraxılışını sevinclə qarşılayan xeyli şəhər əhalisi də bura toplanmışdı. Azərbaycan korpusunun komandiri Ə.Şıxlinski nizami sırada düzülmüş yunkerləri salamladıqdan sonra buraxılış imtahanı başladı. Yunkerlər aşağıdakı proqram üzrə imtahan verməli idilər:

1. Komandir və rəislərə özünü təqdimetmə qaydaları;
2. Yerində sıra təlimi;
3. Hərbi fəaliyyət zamanı hərəkətin çevikliyi;
4. Süngü döyüşü;
5. Müxtəlif məsafələrə atış, nişangah;
6. Düşmən hücumunun dəf edilməsi;
7. Bomba atmaq;
8. Hərbi gimnastika;

9. Səngərlərdən qumbara atmaq;
10. Fitil qoyulmuş qumbaraların yaxınlaşan düşmənə tərəf atılması;
11. Simli maneələrin bomba və qayçılarla məhv edilməsi;
12. Pulemyotçu dəstələrin məhv edilməsi, səngərlərin döyüş vəziyyətinə gətirilməsi;
13. Atış komandaları;
14. Komandaya görə işarə vermək;
15. Hissələrin sahədə və açıq sahədə yerləşməsi;
16. Silahın sökülməsi və yığılması;
17. Raportvermə qaydaları;
18. Manevretmə (100).

İmtahana digər proqram və fənlər üzrə də suallar salınmışdı. Səhər saat 8-də başlayan imtahan günorta saat 2-yə kimi davam etdi. Bütün müdavimlər buraxılış imtahanlarını müvəffəqiyyətlə başa vurdular. Günortadan sonra şəhər rəhbərliyinin bu münasibətlə təşkil etdiyi ziyafətdə hərbi məktəbin ilk buraxılışında türk zabitlərinin böyük zəhməti minnətdarlıqla qeyd olundu. Ziyafətdə çıxış edən maarif naziri N.Yusifbəyli milli zabit kadrlarının hazırlığı ilə bağlı öz təəssüratlarını belə bölüşdü: «Bu gün bütün qonşu millətlərin nümayəndələri əyani olaraq inandılar ki, Azərbaycan oğulları necə qabiliyyətli və istedadlıdırlar. Belə bir qüvvəyə malik olmaqla ölkənin gələcəyinə qorxmamaq olar» (101).

Milli kadrların ilk buraxılışının necə böyük əhəmiyyətə malik olması Qafqaz İslam Ordusunun ləğvindən sonra xüsusi aydınlıqla hiss olunurdu. Həm bu məktəbin təşkili və fəaliyyəti, həm də Qafqaz İslam Ordusu çərçivəsində həyata keçirilmiş bir sıra tədbirlər türk qoşunları Azərbaycanı tərk etdikdən sonra milli hərbi qüvvələrin təşkilində özünəməxsus bir əhəmiyyətə malik idi.

### *3. Qafqaz İslam Ordusunun ləğvi*

1918-ci il sentyabr ayının 15-də Bakının azad edilməsi, Qafqaz İslam Ordusunun şəhərə daxil olması Azərbaycan xalqı və o cümlədən də Osmanlı hökuməti rəhbərliyi üçün tarixi bir hadisə idi. Çünki Bakı uğrunda beynəlxalq iddiaların hədsiz kəskin-

ləşməsinə baxmayaraq, Osmanlı hökuməti rəhbərlərinin bu istiqamətdə izlədiyi qətiyyətli və ardıcıl siyasət öz məntiqi nəticəsi ilə başa çatdı. Bakının azad edilməsi xəbərini eşidəndə Ənvər paşa böyük bir sevincə büründü və bu sevinci dərhal Berlində olan sədr-əzəm Tələt paşaya da çatdırdı. Ancaq sentyabr ayının 15-i başqa bir cəhəti ilə də Ənvər paşa və onun üzvü olduğu hökumətin yaddaşında qalan tarixi bir hadisəyə çevrildi. Həmin gün Makedoniyada türklərlə bir ittifaqda dünya müharibəsinə qoşulmuş olan bolqar qoşunları ciddi uğursuzluğa düçar oldu və Bolqarıstan müttəfiqlərinin heç də xeyrinə olmayan sülh danışıqlarının aparılmasına məcbur edildi. Nəticədə sentyabr ayının 29-da Bolqarıstan məğlubiyyət aktını imzaladı. Bolqarıstan təslim şərtlərini imzalamağı ilə Türkiyə ilə müttəfiq olan digər bir dövlət, Avstriya-Macarıstan cənubdan mühasirə olunmaq təhlükəsi altına düşdü. Bütünlüklə məhv olmaq təhlükəsindən qurtulmaq üçün 1918-ci il oktyabrın 5-də Avstriya-Macarıstan da müttəfiq dövlətlərlə danışıqlara girməyə məcbur oldu. Belə olduqda şimaldan Türkiyə üçün də ciddi bir təhlükə yarandı. Bu isə onun hərbi süqutuna yol aça bilərdi. Çünki Avstriya-Macarıstan və Bolqarıstanın müharibədən çıxarılması ilə Türkiyə onun üçün şimaldan yarana biləcək təhlükənin qarşısını təklikdə almağa qadir deyildi. Mövcudluğunun qorunması üçün Türkiyənin də danışıqlara getməkdən başqa ayrı bir çarəsi qalmadı (102).

Cəbhədə baş verən uğursuzluqlar və Türkiyə üçün yaranan təhlükə Tələt paşa kabinetinin vəziyyətini də xeyli mürəkkəbləşdirdi və 1918-ci il oktyabr ayının 8-də Tələt paşa kabinetin istefasını Osmanlı sultanına təqdim etdi. Osmanlı sultanı Tələt paşanın istefasını qəbul etdi. Ancaq yeni hökumət qurulana qədər Tələt paşa hökuməti öz fəaliyyətini davam etdirdi(103).

Osmanlı hökumətinin sülh danışıqlarına getmək məcburiyyəti onun Qafqazla bağlı siyasətindən də əl çəkməsinə gətirib çıxaracağı artıq göz qabağında idi. Çünki Qafqaz İslam Ordusunun Bakıya girməsi nəinki Türkiyənin qeyri-müttəfiqləri, hətta onun müttəfiqləri tərəfindən də çox kəskinliklə qarşılanmışdı. Ona görə də Osmanlı dövlətinin Qafqaz siyasətinin təşəbbüskarlarından biri olan Ənvər paşa türk qoşunlarının Azərbaycanı tərk edə-

cəyi təqdirdə burada Azərbaycanın müstəqilliyinin qorunmasına və möhkəmləndirilməsinə cəhd göstərilməsinə xüsusi diqqət yetirirdi. Yeni şəraitdə Ənvər paşa, Xəlil və Nuru paşalarla yazışmalarında Azərbaycanın müstəqilliyinin qorunmasını onların qarşısında dayanan başlıca vəzifə hesab edirdi. Bu məqsədə nail olmaq üçün Ənvər paşa Azərbaycanın həm beynəlxalq nüfuzunun genişlənməsinə, həm də Azərbaycanın milli hərbi qüvvələrinin təşkilatlanmasına və möhkəmlənməsinə çalışırdı. O, Azərbaycanın müttəfiq dövlətlər tərəfindən tanınmasını Azərbaycanın müstəqilliyinin qorunmasına əsas təminatlardan biri sayırdı. Bunun üçün Ənvər paşa Azərbaycanın özü tərəfindən müəyyən təşəbbüslər göstərilməsini vacib sayır və Nuru paşanı da Azərbaycanda xüsusi mövqeyə malik şəxs kimi bu təşəbbüslərin həyata keçirilməsinə köməklik göstərməyə çağırırdı. Onun oktyabrın 15-də Nuru paşaya yazdığı məktubunda deyilirdi: «Düşmənlərlə ... sülh yapmaq məcburiyyətinə girdik. Binaənəleyb yaxınlarda sülh müzakirələri başlayacaqdır. Sülhü bizim aradığımıza görə oyunu qeyb etdik (itirdik–red). Bizim vəziyyətdə Azərbaycanın istiqlalını təmin qayət mühümdür. Bir tərəfdən ermənilərlə iyi keçinməklə bərabər, digər tərəfdən Amerika və ingilislərlə doğrudan-doğruya anlaşmaq bu xüsusa yardım edəcəkdir. Binaənəleyh hökumət doğruca Tehrana bir deleqe göndərsin. Oradakı Amerika və ingilis səfirlərinə müraciətlə kəndilərinin istiqlallarını rica etsinlər. Kəndiləriylə iyi münasibətdə bulunacaqlarını söyləsinlər və tərəfsiz qalmaq istədiklərini əlavə etsinlər» (104).

Ancaq bir gün sonra, yəni oktyabrın 16-da Nuru paşaya yazdığı məktubunda Ənvər paşa Tehrana nümayəndə heyətinin göndərilməsini təxirə salmağı məsləhət bilirdi. Bunun nə ilə bağlı olduğunu söyləmək çətindir. Çox güman ki, Ənvər paşa bu ideyanın həyata keçirilməsinin çətin olacağından onu hələlik təxirə salmağı və bu barədə kimsəyə məlumat verilməməsini lazım bilmişdi: «Sülh əzminin yaxın olması hesabiylə Azərbaycan hökumətinin kəndisini rəsmən tanıtdırmaq üzrə Tehranda Amerika və ingilis səfirlərinə bir deleqe ilə müraciət etmələri haqqında qayət məhrəm olaraq sizə dün yazdığım təbliğatı şimdilik icra etməyiniz. Və məalından heç kimsəyə, bilxassə azərbaycanlılara bəhs etmə-

yiniz» (105).

Görünür, bu fikri həyata keçirmək istəyi Ənvər paşanı bir an da olsa rahat buraxmamışdı. Çünki oktyabrın 17-də o, həmin məsələ ilə bağlı yazışmalarını davam etdirmiş və Xəlil paşaya göndərdiyi məktubunda ondan tələb etmişdi ki, Nuru paşa ilə əlaqə saxlasın və müttəfiq dövlətlərlə Azərbaycan hökumətinin danışıqları başlamasının lazım olduğunu onun nəzərinə çatdırsın. Ənvər paşa həmin məktubunda danışıqların hansı istiqamətdə aparılması barədə öz mülahizələrini də açıqlayırdı. Onun fikrincə, Azərbaycanın və Dağıstanın öz bitərəfliyini saxlamaları və bolşevizmlə mübarizə üçün müttəfiq dövlətlərlə əməkdaşlığa hazır olmalarını bəyan etmələri həmin dövlətlərin Azərbaycanın müstəqilliyinə daha ciddi münasibət bəsləməyə sövq edə bilər. Xəlil paşa oktyabrın 17-də Nuru paşaya göndərdiyi məktubunda Ənvər paşadan aldığı göstərişləri ona belə çatdırırdı: «Ağabəyindən aldığım teleqrafda əvvəlcə siz Azərbaycan namına Tehrana birisini göndərərək ingilis, amerikan səfirlərilə görüşməsini yazmış olduğunu bilaxərə də bunun bir az təxir edilməsini bildirdiyini yazır. Vəziyyəti-ahizeyi-siyasiyyənin almış olduğu şəkil təkrar bu təşəbbüsün icrasına bizi məcbur elədiyindən təşəbbüsə davamı müvafiq bulunan müşarinəleyh bunu sizə yazmaqlığımı əmir və müraciətinizin bər vəchi ati olmasını əmr buyurmuşdur:

1. Azərbaycan ilə Şimali Qafqazın istiqlalları təsdiq edildiyi halda özlərinin bitərəf qalacaqlarını məzkur səfirlərə təbliğ ilə bu yolda müzakirələrdə bulunulmasını və əgər səfirlər buna razı edilməz isə bir az daha müsaid davranılmasını, istiqlallarını tanımaq sürətiylə bolşeviklərə qarşı itilafçılarla (müttəfiqlərlə–red.) bərabər hərəkət edilməsini, velhasil bunu ətraflıca müzakirə və mühakimə edərək hər halda Azərbaycan və Şimali Qafqazın istiqlalının müttəfiq hökumətlərinə tanıtdırılmasını təmin etmək müraciəti vaqiə haqqında yalnız Azərbaycan hökuməti ilə qayət əmin olduğundan şübhə bulunmayan bir neçə şəxs ilə qayət məhrəm olaraq görüşülməsi və bu zevatdan başqasının durumdan xəbərdar edilməməsi qətiyyən lazımdır. Əgər belə şayani-etimad kimlərsə yoxsa, hər halda siz Azərbaycan və Şimali Qafqaz Ordusu komandanı sifətiylə səfirlərə bu təklifi kəndi tərəfinizdən yaparsınız...» (106).

Azərbaycanın müstəqilliyinin qorunması üçün Ənvər paşa Şimali Qafqaz hökuməti ilə yaxınlaşmaq və ya onunla bir ittifaq yaratmaq imkanlarının aranmasını da Nuru paşaya məsləhət görürdü. Bununla bağlı Ənvər paşa 13 oktyabr 1918-ci il tarixli məktubunda Nuru paşaya belə yazırdı: «Vəziyyəti-siyasiyyə bizim üçün qeyri-müsaid bir şəkil aldığından Qafqaz dövlətlərinin istiqlallarında müttəfiq dövlətlərinin pək ziyadə müşkilat göstərəcəkləri məlumdur. Buna görə Qafqaz müsəlmanlarının müttəhidən çalışmalarını və bu səbəblə Azərbaycan hökuməti ilə Şimali Qafqaz hökumətinin ayrı-ayrı zəif qalmamaları üçün ya birləşərək «Şərqi Qafqaz hökuməti» namı ilə İslam hökuməti vücuda gətirmələri və yaxud da konfederasiyon şəklində yek digəri ilə dərhal anlaşma yapmaları pək elzəm görürəm» (107).

Xəlil paşanın qeydlərinə görə, Nuru paşa Ənvər paşanın bu təkliflərinin həyata keçirilməsi istiqamətində müəyyən addımlar atmağa başlamış, ancaq ümid edilən nəticələrə nail ola bilməmişdi. Buna əsas səbəb kimi Şimali qafqazlıların sünnü olmasını, Azərbaycanın isə şiə olmasını səbəb gətirirdi. Başqa səbəblərə toxunulmadan qeyd edilməlidir ki, Xəlil paşanın gətirdiyi səbəb Azərbaycan və Şimali Qafqaz hökuməti arasında xatırlanan münasibətlərin qurulmaması üçün əsaslı dəlil ola bilməz. Hər şeydən əvvəl ona görə ki, Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində milli mücadilə fəalları üçün məzhəb ayrılığı əngəl ola bilməzdi. Belə olsaydı onda əhalisi sünnü olan Türkiyənin özü ilə də heç bir münasibətlər yaradılmazdı.

Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində Ənvər paşanın xüsusi diqqət yetirdiyi və ciddi nəzarət altında saxladığı mühüm məsələlərdən biri də yuxarıda qeyd edildiyi kimi Azərbaycanın milli hərbi qüvvələrinin möhkəmləndirilməsi və bunun üçün mümkün olan vasitələrdən istifadə edilməsi idi. Xəlil paşa və Nuru paşa ilə yazışmalarında o, bu məsələyə təkrar-təkrar qayıdırdı. Oktyabrın 15-də Şərq ordular qrupu komandanı Xəlil paşaya göndərdiyi məktubunda Ənvər paşa yazırdı: «Almaniya da daxil olduğu halda pək yaxında sülh müzakirələrinə başlanması və bu müzakiratın sürətlə sona erməsi mühtəməldir. Sülh müzakirəsində milliyyət əsaslarına nəzərən haqq tələb edilmək lüzumu

hesabiylə bizim Qafqazdakı vəziyyətimiz hər halda qüvvətli olmalı. Və bilxassə Azərbaycan və Şimali Qafqaz hökumətləri təqviyə edilməlidir. Bunun üçün 5-ci diviziyanın nəqlini ən sonraya buraxınız. 15-ci diviziyadan sonra 12-ci diviziya nəql olunur. Zatən buna sıra gəlincəyə qədər vəziyyətin tamamilə açıqlığa qovuşacağını təxmin edərək Azərbaycan məhəlli qüvvələrinin sürətlə tənziminə çalışmaqla bərabər, gərək hala Azərbaycanda bulunan qüvvələrimiz, gərək 5-ci diviziya Azərbaycan birlikləri olaraq orada buraxıla və Azərbaycan əsgəri təşkilatına qatıla. Azərbaycana çox silah və cəbbəxana göndəriniz» (108).

Ənvər paşa müttəfiq dövlətlərinin etiraz etməyəcəkləri təqdirdə Azərbaycandakı 5-ci Qafqaz diviziyasının burada qalmasını və Azərbaycanın milli qüvvələrinin tərkibinə verilməsini təklif edirdi. Azərbaycanın milli qüvvələrinin kifayət qədər təşkilatlanmadığı və möhkəmlənmədiyi bir vaxtda kifayət qədər döyüş təcrübəsi və hərbi potensialı olan 5-ci diviziyanın onun tərkibinə qatılması Azərbaycanın müdafiə imkanlarını xeyli artıra bilərdi.

Xəlil paşaya göndərdiyi başqa bir məktubunda o, Nuru paşadan bu istiqamətdə fəaliyyətini genişləndirməyi, lazımi hazırlıq işləri aparmağı, hərbçilərdən, zabitlərdən kimlərin Azərbaycanda qalıb yeni keyfiyyətdə xidməti davam etdirməyə hazır olmalarını vaxtında müəyyənləşdirməyi tələb edirdi: «Mövcud durumdakı dəyişiklik nədəni (səbəbi–red.) ilə ehtimal bizdən sonrakı kabinet Azərbaycan və quzey Qafqazın boşaldılmasını qəbul edəcək və boşaldacaqdır. Əvvəlcə yazıldığı kimi Nuru orada kəndisiylə çalışmaq üzrə qalacaq subay, astsubay və birlikləri indidən ona görə hazırlasın ki, boşaltma əmri alarıqsa çalışmaq üzrə qala bilsin» (109).

1918-ci il oktyabr ayının 19-da Əhmət İzzət paşanın yeni hökuməti qurmasından sonra Tələt paşa kabinəsi iqtidardan uzaqlaşdırıldı (110). Yeni hökumət heç olmasa Brest-Litovsk müqaviləsi ilə Türkiyəyə verilmiş Qars, Ərdahan və Batumun itirilməsi təhlükəsinin aradan qaldırılması üçün bu ərazilərdən kənarda, o cümlədən Azərbaycanda olan qoşun hissələrinin geri çağırılmasını qərara aldı. Hələ sülh danışıqlarının başlanması ərəfəsində, yəni 1918-ci il oktyabr ayının 21-də Baş komandanlığın Qərargah rəisliyi qərara aldı ki, Şərq ordular qrupu, 1-ci Qafqaz korpusu və

bir sıra digər strukturlar ləğv edilsin, 5-ci Qafqaz diviziyası, 36-cı Qafqaz diviziyası və 15-ci diviziya İstambula nəql edilsin(111).

Həmin qərara əsasən Şərq ordular qrupu ləğv edildiyi üçün onun tərkibinə daxil olan Qafqaz İslam Ordusu və Quzey Qafqaz ordusu da ləğv edildi və oktyabrın 24-dən başlayaraq altı həftə ərzində türk qoşunları Dağıstanı və Azərbaycanı tərk etməli idilər. Ancaq bu qərar türk əsgər və zabitlərindən arzu edənlərin Azərbaycan və Dağıstan ərazisində qalmasına icazə verirdi. Bu sənədə görə, Nuru paşa türk ordusunun tərkibindən çıxdığını bəyan edərək Azərbaycan ordusu komandanlığını öhdəsinə götürdü və Azərbaycanda qalmağı qərara aldı(112).

Türk qoşunlarının geri çağırılmasının məcburiyyət üzündən olduğunu və arzu edənlərin Azərbaycanda qala bilmələrini yeni hökumətin üzvləri də təsdiq edirdilər. 1918-ci il oktyabrın 21-də Ə.M.Topçubaşovu qəbul edərkən sədr-əzəm Əhmət İzzət paşa vəziyyəti ona belə açıqladı: «Bəli, vaxt sürətlə gedir və hər şey dəyişir. İndi isə günbəgün yox, hətta saatbasaat dəyişir. Baxın, dünən necə idi, bu gün nə baş verir. Dünən hələ bizim vəziyyətimiz yaxşı idi, özümüzü yaxşı hiss edə bilərdik. Bu gün isə biz məğlub olmuşuq. İndi biz birgə çalışmalıyıq ki, öz maraqlarımızı qoruya bilək. Heç kəsə sirr deyil ki, biz sizin Azərbaycanı sevirik və indiyə kimi bacardığımız hər şeyi edirdik» (113).

Oktyabr ayının 27-də Ə.Topçubaşovla görüşən yeni xarici işlər naziri Nəbi bəy isə Türkiyənin yeni şəraitdə Azərbaycana qarşı tutduğu mövqe barədə belə deyirdi: «Bizə gəldikdə isə sədr-əzəm sizi əmin etdiyi kimi Azərbaycana gələcəkdə də məhəbbətlə yanaşacaq və bacardığımız qədər kömək edəcəyik. Arzu edirik ki, sizin gənc dövlətiniz təşkilatlansın və möhkəmlənsin. Ancaq kəskin şəkildə dəyişmiş olan vəziyyət imkan vermir ki, əvvəlki sürətlə fəaliyyət göstərək... Şübhə yoxdur ki, bizim qoşunların Azərbaycandan çıxarılmasına təkid göstəriləcək. Biz isə aydın olan səbəblərə görə bunu etməliyik. Ancaq hansı vəzifədə olmasından asılı olmayaraq bütün arzu edənlər sizin xidmətinizdə qala bilərlər. Digərləri də sizdə qalacaqlar. Başqa məsələlərdə də lazım olsa kömək edəcəyik...»(114)

İqtidardan uzaqlaşmasına baxmayaraq, Ənvər paşa Azərbay-

canın müstəqilliyinin qorunması istiqamətindəki səylərini yenə də davam etdirməkdə idi. Oktyabrın 23-də o, Türkiyənin İsveçrədəki səfiri Fuad Səlim bəyə məktub göndərdi və ondan Azərbaycanın müstəqilliyinin tanınması üçün lazımi işlərin görülməsini rica etdi. Ənvər paşa xahiş etdi ki, ingilislərlə görüşlərin keçirilməsinə, onların Azərbaycanın sərvətlərindən istifadə edə bilmək imkanına malik olmalarını bildirməklə Azərbaycanın tanınmasına nail olmağa çalışsın(115).

Oktyabrın 23-də Ənvər paşa Xəlil paşaya növbəti məktub göndərdi. Bu məktubda da əsas diqqət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi üzərində cəmləşdirilmişdi: «Ümumi vəziyyətin sülhə getməmizi icab etdiyini yazmışdım. Bu vəziyyətdə Azərbaycanın təşəkkülünü təmin etməyi mühüm bir vəzifə bilirəm. Əvvəla oranan təşkilatının ikmalı üçün adam, silah, cəbbəxana ilə həmən yardım edilsin.

Buradan ora 700 min lirə göndəririk. Tələt paşa kabinəsi, yəni başladığımız hərbi işi bitirmədiyimiz üçün çəkilmək üzrəyiz. Mən işsiz indi sıxılacağımdan bəlkə Azərbaycana indilik səyahət üçün bilaxərə də orada bir həyat əsəri görərsəm büsbütün qalmaq üçün hərəkəti düşünürəm. Bu xüsusda mütaliəniz nədir?» (116).

Məktubdan aydın görünürdü ki, Ənvər paşa Azərbaycana gəlmək və Azərbaycanın qüvvələrinin təşkilatlanması üçün öz yardımlarını göstərmək əzmində idi. Əqidəsinə uyğun fəaliyyətlə məşğul ola biləcəyi təqdirdə Ənvər paşa, hətta büsbütün Azərbaycanda qalmasını da istisna etmirdi. Oktyabrın 26-da Nuru paşaya yazdığı məktubunda Ənvər paşa bir daha bu məsələyə toxunurdu: «Burada çalışacağım mühüm bir iş olmazsa, sıxılmamaq üçün Azərbaycana gələrək həm orada, həm Şimali Qafqazda çalışmaq xatirimə gəlir. Sənin hər iki məmləkətin atisi və bir həyat əsəri göstərib-göstərməyəcəkləri haqqında indiyə qədər hasil etdiyim qənaət nədir? Və mənim oraya gəlib-gəlməməyim haqqında nə düşünürsən? Bu iş görülə bilərmi?» (117).

Nuru paşanın bu xüsusda Ənvər paşaya nə cavab verdiyini söyləmək çətindir. Ancaq o məlumdur ki, Xəlil paşa Ənvər paşaya cavabında onun Azərbaycana gəlməsini məqsədəuyğun bilməmişdi (118).

1918-ci il oktyabr ayının 30-da Egey dənizində olan Lemnos adasının Mudros limanında Türkiyə ilə İngiltərə arasında barışıq imzalandı. Barışığı Türkiyə tərəfindən Dəniz naziri albay Rauf Orbay imzaladı. Bu barışıq həm Türkiyə üçün, həm də Azərbaycan üçün kifayət qədər əlverişsiz olan şərtləri özündə əks etdirirdi. Xüsusən də barışığın 11-ci və 15-ci maddələri Azərbaycanın müstəqilliyinə real təhlükə yaradırdı. 11-ci maddədə deyilirdi: «İranın şimal-qərb qismindəki qüvveyi-Osmaniyyəni dərhal hərbdən əvvəlki hüdud gerisinə cəlbi xüsusunda əvvəlcə ita edilən əmr icra ediləcəkdir. Mavərayi-Qafqazın qüvveyi-Osmaniyyə tərəfindən qismən təxliyəsi əmr edildiyindən qismi-mütəbaqi müttəfiqlər tərəfindən vəziyyəti-məhəlliyyə tədqiq edilərək tələb olarsa təxliyə ediləcəkdir». 15-ci maddə isə barışıqda bu şəkildə təsbit olunmuşdu: «Bilcümlə hüdutü-hadidiyyeyə (dəmir yolu xəttinə–red.) itilaf (müttəfiq–red.) mürakibə zabitləri məmur ediləcəkdir. Bunlar miyanında hökuməti-Osmaniyyənin təhti-mürakibəyində bulunan Mavərayi-Qafqaz hüdudü-hadidiyyesi əqsamı daxildir. İşbu Qafqaz hüdudu sərbəst və tam olaraq itilaf məmurları təhti-idarəsinə vaz ediləcəkdir. Əhalinin ehtiyacının təmini nəzəri-diqqətə alınacaqdır. İşbu maddədə Batumun işğalı daxildir. Hökuməti-Osmaniyyə Bakının işğalına mütəriz (etiraz–red.) bulunmayacaqdır»(119).

Bu maddələrə görə, Türkiyə öz qoşunlarını Azərbaycandan çıxarmalı, Bakının müttəfiq qoşunları tərəfindən tutulmasına etiraz etməməli idi. Zaqafqaziyanın, o cümlədən Azərbaycanın dəmir yolları da Müttəfiq dövlətlərin nəzarəti altına keçməli idi. İstambulda olan Ə.Topçubaşov Azərbaycan hökuməti adından müstəqil Azərbaycanın iştirakı olmadan onun hüquqlarının müzakirə obyektinə çevrilməsinə etiraz ifadə edən notanı Türkiyənin Xarici İşlər Nazirliyinə təqdim etdi. Xarici İşlər Nazirliyinin yüksəkvəzifəli əməkdaşları, habelə Mudros barışığını imzalayan Rauf bəylə görüşlərində Əlimərdan bəy Topçubaşov belə bir addımın atılmasını müstəqil Azərbaycanın hüquqlarına qarşı istiqamətləndiyini onun nəzərinə çatdırmağa çalışsa da, görüşlərin gedişində aydın oldu ki, Mudros barışığının tələbləri Türkiyəyə zorla qəbul etdirilmişdir. Türkiyə müstəqil Azərbaycanın hüquqlarına hör-

mətlə yanaşmağa çağırsa da, bu istək lazımi diqqətlə qarşılanmamışdı. Ə.Topçubaşovla Rauf bəy arasında noyabrın 3-də olan görüşlərindəki söhbətdən aşağıdakı məqamlara nəzər yetirmək məsələnin necə həll edildiyini təsəvvür etmək baxımından maraqlıdır:

«Topçubaşov – Sizin tərəfinizdən imzalanmış barışığın bugünkü qəzetlərdə çap olunmuş tam şərtləri ümumiyyətlə, məni təşvişə saldı və bizim Azərbaycanımız haqqında həyəcanlanmağa məcbur etdi. 11-ci və 15-ci maddələrdə bizə kifayət qədər hiss ediləcək zərbələr vurulmuşdur. Sizin antantaçılarla danışıqlarınızda iştirak etməmişik və bizim xəbərimiz olmadan Azərbaycanın paytaxtı Bakı və bizim Zaqafqaziya dəmir yolu ingilislərə verilmişdir.

Rauf bəy (söhbəti kəsərək) – əksinə, Bakını və Zaqafqaziya dəmir yolunu biz heç kəsə verməmişik və vermək hüququna da malik deyilik. Həqiqətən də, antantaçılar danışıqlar zamanı buna təkid edirdilər. Ancaq biz daima onlara sübut edirdik ki, Bakı da, Zaqafqaziya dəmir yolu da bizə aid deyildir və onlar barəsində ingilislərlə hər hansı danışıq aparmaq səlahiyyətinə malik deyilik... Ancaq ingilislər qəti surətdə bəyan edirdilər ki, onlar nəyin bahasına olursa olsun Bakını alacaqlar. Onlar deyirdilər ki, orada bizim hərbi adamlarımız olduğu üçün, biz türklər Bakının tutulmasına mane olmamaq barədə zəmanət verməliyik. Onlar tələb edirdilər ki, bu, barışıq şərtlərinin mətninə daxil edilsin...» (120).

Beləliklə, Mudros barışığının şərtlərinə görə, bir sıra digər məntəqələr kimi Bakı da müttəfiq dövlətlərin nəzarəti altına düşməli idi. Ən yaxın vaxtlarda buradan ingilis qoşunlarının çıxarılması gözlənilirdi. Türk qoşunlarının Azərbaycanı tərk edəcəyi isə artıq qaçılmaz idi. Baş komandanlığın bu tələbi rəsmiləşdirən 21 oktyabr 1918-ci il tarixli əmri Nuru paşaya çox gec, noyabr ayının 11-də gəlib çatdı və dərhal da həmin əmrin icrası ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsinə başlandı. Ancaq Nuru paşanın həyatının son illərinə aid olan fotoşəklini qeyd etmək lazımdır ki, bu rəsmi əmri almazdan bir gün əvvəl, yəni 1918-ci il noyabr ayının 10-da Azərbaycan hökuməti Bakı İctimai məcli-

sinin yay binasında Azərbaycan Ordusunun baş komandanlığını öz üzərinə götürmüş Nuru paşanın şərəfinə ziyafət verdi.




Ziyafətdə iştirak edən Fətəli xan Xoyski, M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev və başqaları çıxış etdilər. F.Xoyski çıxışında dedi: «Azərbaycan çöllərində bizim türk qardaşlarımızın qanı bizim türklərin qanı ilə bir-birinə qarışdı. Mənşə etibarilə biz bir-birimizə qohumuq, indi bizim bir-birinə qarışan qanımız bunu daha da möhkəmləndirdi. Azərbaycanın azadlığı uğrunda tökülmüş qanlar Osmanlı və Azərbaycan türkləri arasında yaxınlaşmanın və qırılmaz əlaqələrin möhkəm təminatıdır» (121).

M.Ə.Rəsulzadə də öz çıxışında türk qoşunlarına öz minnətdarlığını bildirdi. O qeyd edirdi ki, Azərbaycan xalqı qan qardaşlarının köməyi ilə öz hüquqlarına nail ola bilmişdir. Əhməd bəy Ağayev isə çıxışında belə dedi: «Vaxt var idi ki, Azərbaycan türklərinin öz qardaşları olan Osmanlı türkləri haqqında danışmaq az qala cinayət hesab edilirdi. Bolşeviklər Rusiyası xalqların hüquq bəyannaməsini elan etdi və bildirdi ki, siz öz müqəddəratınızı təyin edə bilərsiniz, lakin biz istədiyimiz kimi......». Ziyafətdə çıxış edən Nuru paşa onun və türk qoşunlarının ünvanına söylənilən bütün xoş sözlər üçün öz minnətdarlığını söylədi və Azərbaycanın mənafeyi naminə bundan sonra da lazım olanları etməyə hazır olduğunu bildirdi: «Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir... Əgər Azərbaycanın azadlığı yolunda yeni qurbanlar lazım olarsa, ona da hazırıq» (122).

Sədr-əzəm Əhmət İzzət paşanın 26 oktyabr 1918-ci il tarixli 5236 saylı əmrinə görə Azərbaycanda xidmət etmək istəyən türk hərbçilərinin orada qalmasına icazə verilirdi. Bu əmrə müvafiq olaraq Nuru paşa Osmanlı ordusundan istefa verərək Azərbaycandakı türk qoşunlarının komandanlığını Mürsəl paşaya verdi. Özü isə Azərbaycan Ordusunun komandanı vəzifəsini öz üzərinə götürdü (123). Eyni zamanda Nuru paşa Azərbaycanda qalmaq istəyən türk zabitlərinin hüquqlarının tənzimlənməsi üçün bir müqavilə tərtib etdi.

15 maddədən ibarət olan bu müqavilə «Azərbaycan hökuməti ilə burada qalacaq zabitan üçün əqd edilən müqavilə şəraiti» adlanırdı. Həmin müqavilədə aşağıdakı məsələlər əhatə olunmuşdu:

«1. Azərbaycan xidmətinə girəcək zabitan və məmurin məzkur hökumət təbəəsi olacaqdır. Cəza və mükafat xüsusunda da Azərbaycan qəvaninin ə tabe olacaqdır.

2. Zabitanın rütbeyi-haliyyələri qalacaqdır (fəxri təbiri qalacaqdır). Türkiyədə gidemen tərfi edənlər burada bir dərəcə müvafiq rütbə qazanacaqdır.




**Nuru paşanın İstambuldakı qəbrinin ilkin görünüşü (Nuru paşa sahibi olduğu hərbi zavodda 1949-cu il mart ayının 2-də baş verən güclü partlayışda həlak olmuş və onun cəsədi tapılmamışdır. Bu qəbir onun üçün yaradılmış simvolik qəbirdir. Hazırda bu simvolik qəbir abadlaşdıırlmışdır)**

3. Hər zabitə sənədə (ildə–red.) əzimət və övdət (gediş-gəliş–red.) daxil olmaq üzrə iki ay məzuniyyət veriləcəkdir. Bu iki ay maaşı hərəkətindən əvvəl peşinən (nağd–red.) və kamilən olacaqdır. İzinli gələcək zabit məzuniyyət bidayətindən bir ay əvvəl mafövqünə məlumat verəcəkdir.

4. Hər zabit bir sənədən əvvəl kontraktını fəsh (ləğv–red.) etmək haqqına malik deyildir. Ancaq mazerati–səhiyyə və meşre-

zasına binaən daha əvvəlcə fəshi icab edərsə, beşinci maddədəki təzminat ita edəcəkdir.

5. Hökumət kontraktı fəsh etmək istəmədiyi təqdirdə altı maaş nisbətində təzminat verəcəkdir. Cəza sürətiylə fəsihlərdə təzminat verilməz.

6. Osmanlı zabitanından olub Azərbaycan xidmətinə daxil olan zabitanın orduda məhəlli-məhəlli izdihamını Azərbaycan qolordusu komandanı təyin edəcəkdir. Hərbiyyə nəzarəti və buna mərbut müəssisata təyin olunacaq bu kimi zabitan haqqında hərbiyyə nəzarəti  və Baş komandanlıq arasında iltihaf lazımdır.

7. Azərbaycan hökumətinin kəndi qəvanini yapılıncaya qədər Osmanlı qəvanini cari olacaqdır.

8. İşbu məvaddan biri hökumət tərəfindən yapılmadığı təqdirdə kontraktın hökumət tərəfindən fəsh edilmiş nəzəriylə baxılaraq altı maaş nisbətində təzminat verəcəkdir.

9. Maaşat rütbeyi-haziranın Osmanla və Azərbaycan zailəri yekunundan aşağı olmayacaqdır.

10. Azərbaycandakı xidmət müddətində xidməti-əsgəriyyəyə qabiliyyətini zaye edəcəkləri üç sənədən beş sənəyə qədər olmaq üzrə maaş nisbətində təzminat verəcəkdir.

11. Üç sənəni tamamən Azərbaycanda keçirəcəkləri xidmət müddətində altıaylıq mükafat veriləcəkdir. Üç sənənin xitamında kontraktı üç sənədən aşağı olmamaq üzrə təcdid edəcəkləri bir dəfəyə məxsus olmaq üzrə bir sənəlik maaş nisbətində mükafat verilir.

12. Zabitanın Türkiyədəki ailələrinə verilməkdə olan sifarişat və ərzağın fimabait də verilməsi üçün Azərbaycan hökumətincə tədabiri ləvazimedə bulunacaqdır. Bunun üçün sərf olunacaq təbaliğ Azərbaycan hökumətinin borcu olacaq və iki hökumət arasında məhsubu yapılacaqdır.

13. Hər zabit 4.11.18 tarixli və 2113 nömrəli şərtnamə məvadına nəzərən Azərbaycanda xidmət edəcəyini mübəyyən bir kontraktnamə və bundan məada hər zabit Azərbaycanda qalacağını orduya bir bəyannamə ilə bildirəcəkdir. İşbu kontraktnamə nüsxəteyn olaraq Azərbaycan baş vəkili tərəfindən hökumət namına imza ediləcək, bir nüsxəsi zabitə və bir nüsxəsi hökumətə qalacaqdır. Kontraktnamə və bəyannamələr bir həftəyə

qədər orduya göndərilmiş bulunacaqdır».

Müqavilənin sonrakı bəndləri kontraktın bağlanmasının texniki məsələlərinə həsr olunmuş və müqaviləyə əlavə olaraq kontrakt və bəyannamənin nümunələri verilmişdi. Müqavilə Azərbaycan Ordusunun komandanı Nuru paşanın 4 noyabr 1918-ci il tarixli 2113 nömrəli əmri ilə rəsmiləşdirildi. Azərbaycan Ordusu tərkibində qalmaq istəyən türk hərbçiləri yuxarıdakı müqavilənin şərtləri ilə razılaşacağı təqdirdə belə bir kontrakt imzalamalı idi:

Azərbaycan ordusu komandanının 4.11.34(1918) və 2113 nömrəli şərtnaməsinə əsasən_____ sənə(il) Azərbaycan ordusunda xidmət edəcəyimi təəhhüd edirəm.

____________ İmza

Həmin şəxsin verməli olduğu bəyannamə aşağıdakı məzmunda idi:

____ sənə müddətində Azərbaycan ordusunda xidmət etmək arzusunda bulunduğumu ərz edirəm.

__________ İmza

Ancaq Osmanlı Hərbiyyə Nazirliyinin oktyabr ayının 27-də verdiyi əmr türk hərbçilərinin Azərbaycanda qalması məsələsini tamamilə qadağan etdi. Xeyli gecikərək Azərbaycana yuxarıdakı işlər görüləndən sonra gəlib çatmış həmin əmrdə deyilirdi:

« 1. 27.10.18 və 11.Ş.5887 nömrəli əmr vəziyyəti-axıra mucibincə məhfuzdur. Binaənəleyh Şimali və Cənubi Qafqazda bulunan bilümum zabitan və əfrad iki ayı keçməmək şərtilə 9-cu Ordu komandanlığına təyin ediləcək müddət ərzində 9-cu Orduya ilhaq ediləcəkdir.

2. Əsliha və cəbbəxana dəxi 9-cu Orduya təslim ediləcəkdir.

3. İşbu əmrə itaət etməyənlər haqqında təqibati-qanuniyyə yapılacaqdır və 9-cu Ordu komandanlığı bu əmri Nuru paşaya, Mürsəl paşaya və Yusif İzzət paşaya isal edəcəkdir və nəticəsini bildirəcəkdir» (124).

Şərq ordular qrupu ləğv edildiyindən Azərbaycanda və Dağıstanda olan türk qoşunları 9-cu Orduya tabe etdirilmişdi. Ona görə Hərbiyyə Nazirliyinin yuxarıdakı əmri ilə bağlı 9-cu Ordu

komandanı Yaqub Şövqü paşa da müvafiq əmri imzaladı. Həmin əmrdə də bildirilirdi ki, Azərbaycanda və Şimali Qafqazda heç bir Osmanlı zabiti, əsgəri, silah və sursatı qalmamalıdır. 1918-ci ilin sonuna kimi türk qoşunlarının şəxsi heyəti və mülkiyyəti Azərbaycandan, habelə Dağıstandan çıxarılmalı idi. Bu əmrə tabe olmayanlara qarşı qanuni cəza tədbirləri tətbiq edilməli idi (125).

Bu əmrlər Nuru paşanın da Azərbaycan Ordusunun komandanı kimi Azərbaycanda qalmasını mümkünsüz edirdi. Eyni zamanda ingilis qoşunları komandanlığı da hansı keyfiyyətdə olmasından asılı olmayaraq türk hərbçilərinin Azərbaycanda qalmasına qətiyyən razı deyildilər.

1918-ci il noyabr ayının 12-də Ənzəlidə olan ingilis qoşunları komandanı Tomson Bakıya bir heyət göndərdi. Həmin heyət noyabr ayının 17-də saat 10-da Bakının ingilis qoşunları tərəfindən tutulacağını bildirərək həmin günə kimi şəhərin türk qoşunları tərəfindən boşaldılmasını tələb etdi. Nuru paşa Dağıstan və Azərbaycanda olan qoşunların daşınması üçün verilən vaxtın çox az olduğunu bildirsə də, ingilis komandanlığı vaxtın uzadılmasına razı olmadı. Bununla belə, ayın 17-nə kimi Bakı şəhəri tərk edilsə də, türk qoşunlarını bir neçə gün ərzində Azərbaycandan daşımaq mümkün deyildi. Noyabrın 16-da 5-ci Qafqaz diviziyasının Bakı ətrafında olan 13-cü və 106-cı Qafqaz alayları, habelə Güzdək ətrafında olan 5-ci diviziya qərargahı və 2-ci Azərbaycan diviziyası qərargahı Xırdalana nəql edildilər. Türk qoşunlarının komandanlığı da bura köçürüldü (126).

Noyabr ayının 17-də general Tomsonun komandanlığı altında 1200-dək ingilis silahlısı Bakıya daxil oldu. Nuru paşanın yazdığına görə, ingilislər türk qoşunlarının Bakı ətrafında cəmləşməsindən narahat olsalar da, dəmir yolunun pisliyi bəhanə gətirilərək təxliyə müddətinin uzadılmasına razılıq alındı (127).

Nuru paşa Qafqaz İslam Ordusu komandanlığından istefa verdiyi üçün türk qoşunlarının Dağıstandan və Azərbaycandan çıxarılmasına albay Mürsəl bəy (paşalıq ona fəxri rütbə kimi verilmişdi. Qafqaz İslam Ordusunun ləğv edilməsi ilə bu Ordunun bütün zabitləri, o cümlədən Mürsəl bəy fəxri rütbələrdən məhrum olundular. Ancaq məlumdur ki, özünə «Bakı» təxəllüsünü seçmiş

olan Mürsəl sonradan general rütbəsinə layiq görülmüşdü) rəhbərlik edirdi. O, ingilis qoşunları komandanlığına verdiyi məlumatda bildirirdi ki, noyabrın 24-dək Bakı ətrafında olan türk qoşunları Biləcəridən qatarla yola salınacaqdır. Dağıstanda olan qüvvələr isə noyabrın 26-dək Biləcərini keçməli idilər (128). Lakin Bakı–Dərbənd dəmir yolu xətti üzərindəki körpülərin xarablığı üzündən Dağıstandan daşınan qüvvələrin sonuncu eşelonu Biləcərini noyabr ayının 29-da tərk etdi.

Türk qüvvələrinin Qarabağdan çıxarılacağı təqdirdə vəziyyətin yenidən kəskinləşməməsi üçün Nuru paşa ora ingilis qoşun bölməsi göndərilməsi barədə məsələ qaldırdı. İngilis qoşunları komandanlığı bu məsələ ilə razılaşaraq Qarabağa hərbi bölmə göndərdi və bundan sonra oradakı türk qoşunları da Gəncəyə daşındı (129).

Noyabr ayının 19-da türk qoşunlarının hissə və birliklərinin komandirləri Gəncədə idilər. Qoşunların böyük əksəriyyəti də artıq Gəncə ətrafına toplaşmışdılar. Buradan da onlar dəmir yolu vasitəsilə Azərbaycanı tərk etməli idilər. Həmin gün günortaüstü şəhər bələdiyyə idarəsi Azərbaycanda öz xidmətlərini sədaqətlə yerinə yetirmiş olan türk zabitlərinin şərəfinə böyük bir ziyafət verdi. Şəhər bələdiyyə rəisi bu ziyafəti açaraq onun türk zabitlərinin şərəfinə təşkil edildiyini, Azərbaycan xalqına göstərdikləri yardımlar üçün onların heç vaxt unudulmayacağını bildirdi. Bələdiyyə rəisindən sonra Mürsəl bəy və digərləri cavab nitqi söylədilər. Əhməd bəy Ağayev də ziyafətdə nitq söylədi və türk qoşunlarının Azərbaycana gəlməsi ilə Azərbaycanın müstəqilliyinin reallığa çevrilməsini ifadəli şəkildə ziyafət iştirakçılarının nəzərinə çatdırdı. O, eyni zamanda əlavə etdi ki, türk qoşunlarının gəlişi ilə ayaq açan müstəqil Azərbaycanın qorunması indi milli qüvvələrin qarşısında dayanan başlıca vəzifələrdən biridir.

Ziyafətdə Nuru paşa da uzun bir nitq söylədi. 15-ci diviziya komandiri Süleyman İzzət bəy öz xatirələrində bu məqama toxunsa da, təəssüf ki Nuru paşanın çıxışının təfsilatını verməmişdir. Süleyman İzzət bəy yazırdı: « Bundan sonra Nuru paşa çox uzun və turançılığa təmas edən bir nitq söylədi. Mühərrir Ruşen Əşrəf bəyin israrı ilə Nuru paşadan şöylə bir müsaidə istədim: «Mən

həmən gedəcəyim üçün bir kaç söz söyləmək məcburiyyətindəyəm. Fəqət siz təkəddüm etdiniz. Binaənəleyh müsaidə edərsiniz bən də söylələlim». Həmən ayağa qalxdı və hazirana: «Bakı təərrüzündə bulunan 38-ci alay və 56-cı alay diviziya komandanıdır. Dərbəndi və Petrovsku da kəndisi zəbt etdi. Qiymətdar üməramızdandır. Təqdim edirəm» – deyərək məni təqdim etdi. Mən də əsgərcə bir kaç söz söylədim. Əz cümlə bələdiyyə rəisinə xitabən dedim: « Yollarda gəlirkən heç bir şühəda məzarı görmədim. Bəlkə əlan ölülərimiz kırlardadır. Binaənəleyh bu şəhidlərimizi toplatınız və münasib bir yerə gömünüz. Bu şühəda içində heç olmasa zabitanımızın isimlərini və fotoqraflarını qitələrindən istəyiniz. Məmləkətinizin istiqlalı uğrunda şəhid olan bu qəhrəman arkadaşlarımızı müstəqbəl tarixinizə keçiriniz. Bunu bilxassə bələdiyyə rəisi bəydən rica edirəm»–dedim. Möhtərəm rəis bəy behəmehal yapılacağını vəd etdi» (130).

Azərbaycanın müstəqilliyinin qorunması, Azərbaycan xalqının bolşevik-daşnak zülmündən qurtarılması üçün silahlı çarpışmalarda şəhid olan türk hərbçilərinin sayı heç də az deyildi. Təkcə 5-ci Qafqaz diviziyasının Bakı şəhəri azad edildiyi günədək 1130 nəfərə qədər şəhid vermişdi. Bakı uğrundakı döyüşlə Azərbaycanda gedən müharibəyə qoşulan 15-ci diviziyanın 14–15 sentyabr tarixində məruz qaldığı itkilər belə idi: 11 zabit yaralanmış, 84 əsgər şəhid olmuş, 347 əsgər yaralanmış və 73 nəfər isə itkin düşmüşdü. Bakı uğrundakı döyüşlərdə Azərbaycanın milli qüvvələrindən ibarət olan tək Maştağa dəstəsində 11 nəfər şəhid olmuş, 44 nəfər isə yaralanmışdı(131). Digər milli dəstələrdə isə itkilərin sayı barədə dəqiq məlumat yoxdur.

5-ci Qafqaz diviziyası ərkani-hərb rəisi Rüşdü bəy bu diviziyanın Azərbaycandakı hərbi fəaliyyəti haqqında yazdığı müfəssəl xatirələrinin sonunda qardaş köməyinə gələn türk qoşunlarının verdiyi şəhidlərlə bağlı aşağıdakı qeydləri etmişdi: «Beşinci Qafqaz diviziyasının dörd buçuq (yarım–red.) aydan bəri Azərbaycanın istiqlalı uğrunda çarpışaraq verdiyi şəhid və məcruhların qanları ilə sulanan bu qardaş məmləkət torpaqları üzərində Gəncədə, Göyçay–Ağsu–Şamaxı–Bakı şossesinin hər iki tərəfində, Müsüslü–Kürdəmir–Kərrar–Hacıqabul–Bakı dəmir yolu

boyunda, Qarabağda və Kür nəhri sahillərində xalqın ziyarətgah halına qoyduğu bir çox mütəvazi və həzin məzarlara təsadüf olunur ki, iştə bunlar irqinin imdadına segirtən Anadolu mehmetçiyinin mübarək məzarıdır. Əksər yerlərdə mehmetçiklə bərabər, qoyun-qoyuna yatan Azəri türkləri də vardır» (132).

M.Ə.Rəsulzadə isə Azərbaycanda şəhid olaraq Azərbaycan torpağına tapşırılmış türk hərbçilərini belə anırdı: «...Sonra mənhus bir ixtilal nəticəsində məzarları münis qalan Anadolu mehmetçikləri Bakıdakı şəhadətləri ilə Türkiyəyə yeni bir siyasi vücud əta ediyorlardı. Maddətən münsi, fəqət, mənən bütün qəlblərdə mədfun bulunan bu qəhrəman şəhidlər yalnız Bakıdamıdırlar? Naxçıvandan, Qarabağdan, Şamaxıdan, Gəncədən ta Bakıya qədər bir yer varmı ki, orada böylə bir fədakar yatmasın?!

Əvət, Azərbaycanın hər cəhətində şairin təsvir etdiyi «Sarmaşıqlı bir məzar» bulursunuz ki, «qızlar, gəlinlər» tərəfindən ziyarətgah halına qoyulan bu məzar qardaş imdadına qoşan «TÜRK» məzarıdır» (133).

Dəmir yollarında yaranan çətinliklər üzündən türk qoşun hissələrinin təxliyəsi yenə bir qədər gecikdi və 1919-cu il yanvar ayının ortalarında sonuncu türk qoşun dəstəsi Ağstafadan qatarlara yüklənib Azərbaycan ərazisini tərk etdi. Bununla da Qafqaz İslam Ordusu hərəkatı başa çatdı.

## İstifadə olunmuş mənbə və ədəbiyyat


1. Siyasi Sənədlər Arxivi ( CSA), f.276, siy.9, iş 65, v.38
2. SSA, f.276, siy. 9, iş 65, v.49 ; Cemalettin Taşkıran. Geçmişdən günümüze Karabağ meselesi.Ankara, 1995, s.105
3. Азербайджан, 1918, 21 октября
4. Азербайджан, 1918, 23 октября
5. Yüceer N. ... s. 131
6. Türkiyə Silahlı Qüvvələri Əsgəri Tarix və Strateji Etüd (ATASE) Başqanlığı arxivi, k.3827, d.38, f.76
7. ATASE, k.3822, d.18, f.25
8. ATASE, k.3824, d.27, f.18–3
9. ATASE, k.3822, d.18, f.76, 77
10. Berkuk.... s.53
11. Yenə orada, s.55
12. ATASE, k.3823, d.23, f.88
13. Berkuk. ... s.56
14. Заре Мелик Шахназаров. Записки Карабахского солдата... http://sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-sildier-notes-6.htm
15. SSA, f.276, siy.9, iş1, v.16
16. Kamalyeri M. Çanakkale ruhu nasıl doğdu ve Azerbaycan savaşı (1917–1918). İstambul, 1972, s.142–143
17. ATASE, k.3820, d.12, f.49, 67
18. Yenə orada, f.1–47
19. ATASE, k.3821, d.14, f.31–3
20. ATASE, k.3824, d.12, f.49, 67
21. Taşkıran C. ... s.108
22. SSA, f.276, siy.9, iş 1, v.16; Azerbaydjan, 1 noyabr 1918
23. Hərbi Bilik, N–6, 2001, s.65–66
24. Taşkıran C. ... s.109
25. Hərbi Bilik-66
26. ATASE, k.3824, d.26, f.6–4
27. Yenə orada, f.6-6
28. SSA, siy.276, siy. 9, iş 1, v.16

29. Hərbi Bilik–68
30. SSA, f.276, siy.9, iş 4, v.50–51
31. Yenə orada, iş 4, v.50–51
32. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том 1. Москва, 2008, с.236
33. Заре Мелик Шахназаров. Записки Карабахского солдата...
34. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том II. Автор Ю.Барсегов. Москва, 2009, с. 72
35. Заре Мелик Шахназаров. Записки Карабахского солдата...
36. Azerbaydjan, 1 noyabr, 1918
37. ATASE, k.3823, d.23, f.88; Yüceer N. ... s.133–134
38.ATASE, k.3827, d.39, f.46–21
39.Yenə orada
40. Yenə orada, f.46–21, 46–23
41. Yenə orada, f.46–62, 46–45
42. Yenə orada, f.46–66
43. Hərbi Bilik ... s.70
44. Azerbaydjan, 1 noyabr 1918
45. Kamalyeri M. .. s.144
46. Azerbaydjan, 1 noyabr 1918
47. ATASE, k.1141, d.582, f.1–7; Yüceer N. .. s.134
48. Yüceer N. ... s.134–135
49. SSA, f.276, 9–4, v.11
50. ATASE, k.3827, d.39, f.46-63, 46–68
51. SSA, f.276, siy.9, iş 15, v.32–33
52. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том 1. Москва, 2008, с. 237
53. Заре Мелик Шахназаров. Записки Карабахского солдата...
54. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том II. ... с.72

55. Демоян Гайк. Турция и Карабахский конфликт в конце XX начале XXI веков. Историко-сравнительный анализ
56. SSA, f.276, siy.9, iş 4, v.51
57. Заре Мелик Шахназаров. Записки Карабахского солдата http://sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-soldier-notes-6.htm
58. SSA, f.276, siy.9, iş 4, v.51
59. Yenə orada, v.11
60. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том 1. Москва, 2008, с. 244
61. ATASE, k.3827, d.39, f.46–61, 46–64
62. Yenə orada, f.46–69
63. Yenə orada, f.46–70, 46–73, 46–77, 46–80, 46–81, 46–86
64. Yenə orada, f.46–81, 46–84, 46–86
65. Yenə orada, f.46–81
66. ATASE, k.3823, d.22, f.6-26; Yüceer N. ... s.136
67. Топчибашев А.А, Дипломатические беседы в Стамбуле (1918–1919 гг). Баку, 1994, с20.
68. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918–1920). Bakı, 2009, s.182
69. Topçubaşov Ə. ..., s.58
70. Yenə orada, s. 67
71. Yenə orada, s.73
72. ATASE, k.3827, d.39, f.46–116, 46–118
73. Yüceer N. ... s.136
74. ATASE, k.3823, d.23, f.2
75. Yenə orada, f.40
76. Yenə orada, f.49, 49–4
77. ATASE, k.3824, d.26, F.91–1
78. ATASE, k.3823, d.23, f.48–1
79. ATASE, k.3823, d.22, f.7–10
80. ATASE, k.3823, d.25, f.5 ; Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya Enver paşa. C.III, İstambul, 1993, s. 445
81. Halil paşa. Bitmeyen savaş. İstambul, 1972, s.248

82. ATASE, k.3821, d.15, f.4–1
83. ATASE, k.3821, d.14, f.9
84. ATASE, k.3821, d.16, f.1–95
85. Yenə orada, f.1–127
86. Yenə orada, f.1–137
87. Yenə orada, f.1–129
88. Yenə orada, f.1–10, 1–11
89. Yenə orada, f.1–133
90. Yenə orada, f.1–160
91. Yenə orada
92. Азербайджан, 1918, 9 октября
93. Yenə orada, 20 oktyabr
94. ATASE, k.3823, d.22, f.6–27, 6–28
95. Азербайджан, 1918, 23 октября
96. Азербайджан, 1918, 11 октября
97. ATASE, k. 3825, d.34, f.1–58
98. Yenə orada, f.1–59, 1–64
99. Азербайджан, 1918, 7 ноября
100. Yenə orada
101. Yenə orada, 11 noyabr
102. Birinci Dünya harbinde ... s. 620–621
103. Yüceer N. ... s.158
104. Süreyya A.Ş ... s.443
105. Yenə orada, s.438
106. Halil paşa. Bitmeyen savaş. ... s.248
107. Yenə orada, s.249–250
108. Süreyya A.Ş. ... s.440
109. Birinci Dünya harbinde ... s.622
110. Yüceer N. ... s. 158
111. Birinci Dünya harbinde ... s. 622
112. Yüceer N. ... s.160
113. Топчибашев А.А. ... с.19–20
114. Yenə orada, s.23
115. Süreyya A.Ş. ... s.441
116. Yenə orada, s.446
117. Yenə orada, s.447

118. Yenə orada, s.444
119. Yüceer N. ... s.158–159
120. Топчибашев А.А. .. s.34–35
121. Азербайджан, 1918, 12 ноября; Həsənov C. Adı çəkilən əsəri, s.145
122. Yenə orada
123. Kurtulan E. Türk ordusunun Azerbaycanda kalması meselesi. «Azerbaycan» dergisi, 1969, ə 4–5–6
124. Süleyman İzzet. ... s. 248
125. Yenə orada
126. Birinci Dünya harbinde ... s. 640
127. ATASE, k.3823, d.22, f.6–28
128. Birinci Dünya harbinde ... s.641 ; Yüceer N. ... s.163
129. ATASE, k.3823, d.22, f.6–28
130. Süleyman İzzet. ... s.251–252
131. Rüştü. ... s.216 ; Yüceer N. ... s.121–122
132. Rüştü. ...s.216
133. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s.43

# NƏTİCƏ

Beləliklə, mövzunun öyrənilməsi bir daha göstərdi ki, müstəqilliyinin elan edilməsi ərəfəsində Azərbaycanda çox mürəkkəb ictimai-siyasi və hərbi şərait mövcud idi. 1917-ci ilin fevralında çarizm üsuli-idarəsinin devrilməsi ilə Rusiya imperiyasının zülmü altında olan xalqların milli-azadlıq hərəkatının fəallaşmasına şərait yaransa da, ölkədə hakimiyyətə gəlmiş olan Müvəqqəti hökumət və tezliklə onu əvəz etmiş Sovet hökuməti öz fəaliyyəti ilə göstərdi ki, bu qurumların Azərbaycana münasibəti yalnız deklarativ xarakter daşıyır. Əslində isə bir-birini əvəz edən hökumətlər Azərbaycanı Rusiyadan ayrı təsəvvür edə bilmir və Azərbaycanın sonsuz sərvətlərinin istismar edilməsi üçün milli-azadlıq hərəkatının boğulmasına böyük səy göstərirdilər. Sovet hökumətinin Azərbaycandakı dayağı olan Bakı bolşevikləri zor gücünə burada hakimiyyəti qəsb edərək Azərbaycanın milli qüvvələrinə divan tutdular. Azərbaycanlılara və türklərə qarşı kütləvi vəhşiliklər törədən erməni-daşnak qüvvələrinə dayaqlanan Bakı bolşevikləri əməlləri ilə daşnak qəddarlığından geri qalmayan S.Şaumyanın rəhbərliyi altında əvvəlcə 1918-ci il mart ayının sonunda Bakıda böyük bir qırğın təşkil etdilər. Sonra bu qırğınlar Bakı ətrafında, Şamaxıda, Qubada, Salyanda və başqa yerlərdə təkrar olundu. İfrat bolşevik və erməni-daşnak qüvvələrinin Gəncəyə doğru irəliləməsi Azərbaycanın bütün əhalisini həqiqətdə məhv olmaq təhlükəsi qarşısında qoydu. Bu qüvvələr qərbə doğru irəlilədikcə Zəngəzur və Qarabağdakı millətçi erməni silahlı dəstələri, habelə Şamaxı–Şəki arasındakı erməni yaşayış məntəqələrində təşkil olunmuş silahlı dəstələr də fəallaşır və azərbaycanlı əhaliyə qarşı həyata keçirilən təcavüzün miqyası bütün hədləri aşırdı. Azərbaycanın daxilində bu təcavüzün qarşısını ala biləcək qüvvə mövcud deyildi. Yeni yaradılmaqda olan milli hərbi qüvvələr isə kifayət qədər təşkilatlanmamışdı. İstər milli-azadlıq hərəkatının fəalları, istərsə də bir sıra milli-ictimai qurumların fəalları bu vəziyyətdən yeganə çıxış yolunu Türkiyədən kömək alınmasında görürdülər. Bunun üçün hələ 1917-ci ilin sonundan başlayaraq Türkiyə hökumətinə müxtəlif müraciətlər edildi. An-

caq Türkiyədən gözlənilən köməyin mahiyyəti və xarakteri ilə bağlı müraciət edən qüvvələrin heç də hamısı eyni mövqedə dayanmırdı. Bir sıra milli-ictimai qurumların fəalları və dini təmayüllü qüvvələr Azərbaycanın Türkiyəyə birləşdirilməsinə cəhd göstərirdilər. Milli-azadlıq hərəkatının fəalları isə Türkiyədən alınan yardımla Azərbaycanın tam müstəqilliyinə nail olmaq və bu müstəqilliyi möhkəmləndirmək istəyi ilə çıxış edirdilər. Bununla belə, bu müxtəlif qüvvələr bir fikirdə yekdil idilər ki, Türkiyədən gözlənilən kömək alınmasa, Azərbaycan çox böyük təhlükə ilə üzbəüz qalmalı olacaqdır.

Azərbaycanda mövcud olan şərait Türkiyə hökuməti tərəfindən də diqqətlə izlənilirdi. Osmanlı Türkiyəsinin Qafqazla bağlı siyasətinin formalaşmasında xüsusi rolu və təsiri olan Ənvər paşa Azərbaycan xalqına olan yardımları Rusiya tərkibində yaşayan müsəlman xalqlarına münasibətdə izlədiyi siyasətin tərkib hissəsi hesab edirdi. Ənvər paşa və onun məsləkdaşları Azərbaycanı, Dağıstanı və Orta Asiyanı özündə birləşdirən böyük bir Turan dövlətinin yaradılması arzuları ilə yaşayırdı. Bu böyük plan tarixi reallıqla səsləşməsə də, Ənvər paşa tezliklə Azərbaycana və o cümlədən də Dağıstan müsəlmanlarına yardımlar göstərilməsi üçün əməli addımlar atılmasına nail oldu. Qərara alındı ki, Azərbaycanda Osmanlı zabitlərinin rəhbərliyi altında bir ordu yaradılsın. Həmin ordunun əsas təşkilati və rəhbər vəzifələrinə türk zabitləri təyin edilməli, ordunun sıravi heyətini isə azərbaycanlılar təşkil etməli idi. Bu ordu– Qafqaz İslam Ordusu adlandırıldı və onun komandanı vəzifəsinə Ənvər paşanın qardaşı Nuru paşa təyin edildi. Nuru paşanın rəhbərliyi altında türk zabitləri 1918-ci il may ayının sonlarında Gəncəyə varid oldular. Azərbaycana daxil olduqları gündən də türk zabitləri çox gərgin əməli fəaliyyətə başladılar. Erməni təcavüzünün miqyasının artması ilə bağlı olaraq Nuru paşa heyətinə daxil olan zabitlərin bir neçəsini Naxçıvanda və Qarabağda saxladı ki, orada yerli əhalidən ibarət müqavimət dəstələrinin təşkilinə rəhbərlik etsinlər.

Nuru paşa eyni zamanda Azərbaycanda olan türk əsirlərinin rəhbərliyi altında təşkil olunmuş müqavimət dəstələrindən də erməni təcavüzünə qarşı mübarizəyə cəlb edilməsinə xüsusi

diqqət yetirirdi. Bununla belə, mövcud olan qüvvələrlə bolşevik-daşnak qoşunlarının Gəncəyə doğru hücumunun qarşısını saxlamaq mümkün olmadığını Nuru paşa da yaxşı anlayırdı. Yeni qüvvələrin təşkili isə xeyli vaxt tələb edirdi. Lənglik göstəriləcəyi təqdirdə bolşevik-daşnak qoşunları Gəncəyə tamamilə yaxınlaşa bilərdilər. Ona görə Nuru paşa Türkiyə Hərbi Nazirliyinə Azərbaycana döyüşən hərbi qüvvələrin göndərilməsi zəruriliyi barədə məlumat verdi. Belə bir istəklə Azərbaycanın milli qüvvələri də təkidlə Türkiyə rəhbərliyinə müraciət edirdi. Ancaq mövcud beynəlxalq şəraitdə belə bir addımı atmaq Türkiyə üçün elə də asan deyildi. Birinci Dünya savaşında Türkiyənin müttəfiqi olmuş Almaniya Bakı neftindən pay almaq naminə Türkiyənin Qafqaz siyasətinə qarşı çox kəskin mövqe tutmuşdu. Türkiyənin Azərbaycandan və Qafqazdan sıxışdırılması üçün Almaniya bütün təzyiq vasitələrinə əl atırdı. Bu təzyiqlər Bakı şəhəri azad edilən günə qədər davam etdi. Həmin təzyiqlər nə qədər təsirli olsa belə Türkiyə rəhbərliyi heç də Azərbaycana yardım göstərməkdən imtina etmək fikrində deyildi. 1918-ci il may ayının 28-də Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra Azərbaycanla Türkiyə arasındakı əlaqələr dövlətlərarası münasibətə çevrildi. 1918-ci il iyun ayının 4-də Azərbaycanla Türkiyə arasında müqavilə imzalandı və həmin müqavilədə iki dövlət arasında hərbi təhlükə mövcud olduğu vaxt qarşılıqlı əməkdaşlıq barədə maddəyə uyğun olaraq 5-ci Qafqaz diviziyası Azərbaycana göndərildi. Bu diviziya hələ Azərbaycana çatmamışdan əvvəl Azərbaycan ərazisində qarşı dayanan qüvvələr arasında döyüşlər başlamışdı. Bolşevik-daşnak qüvvələri Bakı–Şamaxı–Göyçay şosse yolu ilə Qaraməryəmə, Bakı–Gəncə dəmir yolu ilə Kürdəmirə çatmışdı. Bakı Sovetinin rəhbərliyi öz qarşısına belə bir məqsəd qoymuşdu ki, Azərbaycana gəlmiş türk qoşunları fəal döyüşlərə qoşulana kimi Yevlax yaxınlığında, Kür çayı üzərindən keçən körpünü tutsunlar və bununla da, Qafqaz İslam Ordusu hissələrinin irəliyə hərəkət imkanlarını məhdudlaşdırsınlar.

Azərbaycan öz müstəqilliyini elan etsə də, onun mövcudluğu əslində, çox ciddi bir təhlükə ilə qarşılaşmışdı və əgər Qafqaz İslam Ordusunun səmərəli döyüş fəaliyyəti olmasaydı, bu müs-

təqilliyin qorunması əslində, reallıqdan uzaq idi. Qafqaz İslam Ordusunun belə bir tarixi fəaliyyəti onun komandanı Nuru paşanın, Türkiyənin hərbiyyə naziri Ənvər paşanın və bütünlükdə Türkiyə hökumətinin Azərbaycanla bağlı qətiyyətli mövqeyinin əməli nəticəsi idi. Türk hərbçilərinin Azərbaycan ərazisində başqa cəbhələrdə rastlaşmadıqları çətinliklərlə qarşılaşsalar belə, onların əzmkarlığı və bütün güclərini səfərbər etmələri öz məntiqi nəticəsi ilə sona çatdı. Azərbaycan ərazisinin bolşevik-daşnak qoşunlarından təmizlənməsində yeni təşkilatlanmaqda olan milli qüvvələrin fəaliyyətini qiymətləndirməmək olmaz. Azərbaycan korpusunun komandanlığının, bütünlükdə isə gənc Azərbaycan hökumətinin ardıcıl fəaliyyəti Türkiyənin yardımları ilə birliklə ümumi bir axına çevrilərək müstəqilliyin qorunması yolunda keçilməz sipər oldu.

Təşkil olunduğu andan Qafqaz İslam Ordusu komandanlığının qarşısında çox mühüm və çətin vəzifələr dayanırdı. Bir tərəfdən Azərbaycanın milli hərbi qüvvələri yenidən qurulmalı, təşkilatlanmalı, çağırış və səfərbərlik işi canlandırılmalı, milli kadrların hazırlığına diqqət yetirilməli, Qafqaz İslam Ordusunun təminat və təchizat məsələləri həll edilməli, digər tərəfdən də qərbə doğru sürətlə irəliləyən düşmən qüvvələrinin qarşısı alınmalı, sonra isə bütünlükdə Azərbaycan ərazisi düşməndən təmizlənməli idi. Bu vəzifələrin icrasının çətinliyi başlıca olaraq onda idi ki, onlar hamısı eyni vaxtda həyata keçirilməli idi. Həmin məsələlərin bəzilərinin həllində müəyyən gərginliklər meydana çıxsa da, bütünlükdə onların icrası üçün konkret və məqsədyönlü tədbirlər həyata keçirilirdi. Qarşıya qoyulan məqsədin əldə edilməsi də bu istiqamətdə əməli işlərin görüldüyünə bir sübutdur.

Hər şeydən əvvəl Azərbaycan korpusunun quruluşunda müəyyən dəyişikliklər edildi. Əvvəlki hissə və bölmələr şəxsi heyətinin azlığı üzündən ya ləğv edildi, ya digəri ilə birləşdirildi, ya da yenidən quruldu. Bütün respublikada çağırış şəbəkəsi yaradıldı və bu iş bir sistemə salındı. Çağırış və səfərbərlik işini nizamlayacaq xüsusi əmr, qərar və qanunlar qəbul edildi. Azərbaycanın milli hissələrindən qeyri-müsəlman kadrlar uzaqlaşdırıldı. Orduda onları əvəz edəcək kadrların hazırlanması üçün Atif bəyin rəh-

bərliyi altında əvvəl Milli hərbiyyə məktəbi, sonra isə kiçik komandir heyətini hazırlayan məktəb fəaliyyətə başladı. Türk qoşunları hələ Azərbaycanda ikən bu məktəblərin hər ikisinin buraxılışı oldu.

Azərbaycanın milli ordusunun təşkilatlanması da sürətlə aparıldı. Qafqaz İslam Ordusu komandanlığının rəhbərliyi altında 6 piyada alayı yaradıldı və həmin alaylar iki diviziyada birləşdirildi. Bundan başqa, 3 süvari alayı və əlavə yardımçı və xidmət hissələri yaradıldı. Piyada alaylarının və diviziyalarının rəhbərliklərinə təcrübəli türk zabitləri təyin edildilər. Azərbaycan korpusunun komandanlığı isə əvvəllər olduğu kimi, əsasən, azərbaycanlı zabitlərdən ibarət idi.

Qafqaz İslam Ordusunun təşkilatlanmasının ilkin çətinlikləri cəbhədə müəyyən gərginliyin yaranması ilə bir vaxta düşsə də, qısa vaxtdan sonra bu gərginlik aradan qaldırıldı. Cəbhə xəttində baş verən ilk uğursuzluqların Qafqaz İslam Ordusu komandanlığı tərəfindən ciddi şəkildə araşdırılması, bu uğursuzluqlara yol açan səbəblərin aradan qaldırılması istiqamətində vaxtında, çevik və düşünülmüş tədbirlərin həyata keçirilməsi qoşunların döyüş qüdrətini xeyli artırdı. Doğrudur, döyüşlərin getdiyi vaxtlarda Qafqaz İslam Ordusu qüvvələrində cəbbəxanaya və ərzağa, xüsusən də suya böyük ehtiyac var idi. Bununla belə, Qaraməryəm ətrafındakı ilk ciddi uğursuzluqlardan sonra hərbi təşəbbüsü ələ alan Qafqaz İslam Ordusu qüvvələri Bakıya qədər uğurlu bir yürüş həyata keçirdilər.

Döyüşlər, əsasən, iki istiqamətdə aparılırdı. Göyçay–Şamaxı–Bakı şosse yolu boyunca və Gəncə–Bakı dəmir yolu xətti boyunca. Bundan başqa, Kür çayına nəzarətin bolşeviklər tərəfindən ələ keçirilməsinə yol verilməməsi üçün Salyan yaxınlığında, çay boyunca bir dəstə yerləşdirilmişdi. Həmin dəstə də bu istiqamətdə bolşevik-daşnak bölmələri ilə bir neçə dəfə döyüşə girmişdi.

Dəmir yolu xətti boyunca döyüşən qüvvələrə, əsasən, milli qüvvələr daxil idi və Bakı ətrafına çatana kimi bu dəstəyə Həbib bəy Səlimov rəhbərlik edirdi. Döyüşlər bir neçə istiqamətdə aparılsa da, onların gedişi Qafqaz İslam Ordusu komandanlığı tərəfin-

dən çox ciddi şəkildə nizamlanırdı. Müəyyən vaxtlarda hissə və bölmələrin məqsədyönlü yerdəyişmələrinin aparılması ilə bu və ya digər istiqamətdə qüvvə üstünlüyü yaradılır və düşmənin müqaviməti qırılırdı. Bakı bolşevikləri Qafqaz İslam Ordusunun hücumlarının qarşısını almaq üçün İranda olan rus ordusu kazak dəstəsinin rəhbəri L.Biçeraxovla sövdələşməyə girib onun dəstəsini Azərbaycana gətirsələr də, ümid etdikləri nəticəni əldə edə bilmədilər. Nə L.Biçeraxov öz dəstəsi ilə Bakı bolşeviklərinin ümidini doğrultdu, nə də Bakı Soveti qüvvələri tərəfindən Sovet Rusiyasından alınan külli miqdarda hərbi yardım cəbhədə bir dönüş yaratdı. Qafqaz İslam Ordusunun qətiyyətli döyüşləri bolşevik-daşnak qoşunlarının bütün potensialını məhv etdi. Türk–Azərbaycan qoşunlarının Bakıya yaxınlaşması isə Bakı Soveti hökumətini nəinki hərbi cəhətdən, eyni zamanda siyasi cəhətdən də iflasa uğratdı. Bakı Xalq Komissarları Sovetini əvəz edən «Sentrokaspi diktaturası» tezliklə vəziyyəti düzəltmək və Bakının Azərbaycan hökumətinin əlinə keçməsinə yol verməmək üçün İrandakı ingilis qoşunları komandanlığından hərbi yardım istədi. 1918-ci il avqust ayının əvvəllərində general Denstervilin rəhbərliyi altında Bakıya gələn ingilis qoşun dəstəsi şəhərin müdafiə xəttində müəyyən dəyişiklik yaratsa da, Qafqaz İslam Ordusu qüvvələrinin uğurlu hücumunun qarşısını saxlamaq mümkün olmadı.

Bakı şəhərinin azad edilməsi Qafqaz İslam Ordusunun həyata keçirdiyi ən uğurlu və tarixi döyüş idi. Bu döyüşün gözlənilən nəticə ilə başa çatması üçün çox ciddi və düşünülmüş bir plan qurulmuş, döyüşün bütün detalları nəzərə alınmışdı. Mümkün ola biləcək uğursuzluğa yol verilməməsi üçün ehtiyat tədbilər planlaşdırılmış, hissə və bölmələrin hər bir hərəkəti kifayət qədər sığortalanmışdı. Bütün bunların nəticəsi idi ki, Bakı üzərinə qəti hücumun elə ilk günü düşmən qüvvələrin müqaviməti tamamilə qırıldı və ingilis bölmələri elə həmin gün şəhəri tərk etdilər.

Bakı şəhəri azad edildikdən sonra Qafqaz İslam Ordusu hissələri Qarabağa yeridildi və buradakı erməni silahlı dəstələrinə güclü zərbə vuruldu. Ancaq Osmanlı Türkiyəsinin müttəfiqləri ilə birgə Birinci Dünya savaşında məğlub olması və Mudros ba-

rışığının imzalanması Qarabağ hərəkatını bütünlüklə başa çatdırmaq imkanı vermədi. Adı çəkilən barışığın şərtlərinə əsasən Türkiyə öz qoşunlarını Azərbaycandan çəkmək məcburiyyəti qarşısında qaldı. 1918-ci ilin sonuna kimi türk qoşun hissələri demək olar ki, Azərbaycan ərazisini tərk etdi. Lakin Qafqaz İslam Ordusunun bir neçə aylıq fəaliyyəti Azərbaycan tarixində çox mühüm və əhəmiyyətli izlər buraxdı. Azərbaycan öz müstəqilliyini qoruyub saxlaya bildi. Bir neçə ay ərzində aparılan qanlı döyüşlərlə Azərbaycan və türk xalqlarının qardaşlıq tarixinə yeni qəhrəmanlıq səhifələri yazdı. Başlıcası isə Azərbaycan Ordusunun formalaşdırılması istiqamətində ilk və mühüm addımlar atıldı.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATIN ÜMUMİ SİYAHISI

## I. SƏNƏDLƏR TOPLUSU


1. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990
2. Большевики в борьбе за победу Социалистической революции в Азербайджане. Документы и материалы. 1917–1918 гг. Баку, 1957
3. Документы и материалы по внешней политике Закавказье и Грузии. Тифлис, 1919
4. Hajeri kotoracner Baqvum ev Elizavetpolium. İrəvan, 2003
5. Zaqafqaziya seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. 1918-ci il. Bakı, 2006
6. Военные моряки в борьбе за советов в Азербайджане и Прикаспии. Баку, 1971
7. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том 1. Москва, 2008


## II. JURNAL VƏ QƏZETLƏR


8. «Azerbaycan» dərgisi
9. Azərbaycan
10. Azerbaydjan
11. Бакинский рабочий
12. Известия Бакинского Совета
13. Каспий
14. Hərbi Bilik
15. Millət

# III. ARXİV MATERİALLARI

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında
Siyasi Sənədlər Arxivi

16. F.5, siy.1, iş21
17. F.5, siy.1, iş 28
18. F. 276, siy.1, iş 75d
19. F.5, siy. 1a, iş 4
20. F.276, siy.2, iş 13
21. F.276, siy.2, iş 14
22. F.276, siy.2, iş 20
23. F.276, siy.2, iş 22
24. F.276, siy.2, iş 28
25. F.276, siy.3, iş 177
26. F.276, siy.3, iş 199
27. F.276, siy.7, iş 212
28. F.276, siy.7, iş 257
29. F.276, siy.8, i. 256
30. F.276, siy.8, iş 259
31. F.276, siy.8, iş 263
32. F.276, siy.8, iş 337
33. F.276, siy.8, iş 412
34. F.276, siy.8, iş 498
35. F.276, siy.9, iş 1
36. F.276, siy.9, iş 65
37. F.276, siy. 9, iş 66
38. F.277, siy.2, iş 13
39. F.277, siy.2, iş 92
40. F.303, siy. 1a, iş 2
41. F.303, siy. 1a, iş 14
42. F.303, siy.1a, iş19

Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi

43. F.970, siy.1, iş 1
44. F.970, siy.1, iş 86
45. F.2894, siy.1, iş 21
46. F.2894, siy.1, iş 35
47. F.2898, siy.1, iş 1
48. F.2898, siy.1, iş 3
49. F.2898, siy.1, iş 20
50. F.2898, siy.2, iş 11
51. F.2898, siy.2, iş 22
52. F.2898, siy.2, iş 33
53. F.2898, siy.2, iş 44
54. F.2898, siy.2, iş 51
55. F.2918, siy.1, iş 1
56. F.2918, siy.1, iş 2
57. F.2918, siy.1, iş 3

Türkiyə Silahlı Qüvvələri Əsgəri Tarix və Strateji Etüd (ATASE) Başqanlığı arxivi

(ATASE arxivinə istinadlar bu arxiv sənədlərinin köhnə nömrələnməsi əsasında aparılmışdır)

58. Klassor(k) 1, dosye (d) 1.
59. K.1141, d.582
60. K.2927, d.628
61. K.3813, d.3
62. K.3817, d.7
63. K.3817, d.9
64. K.3818, d.2
65. K.3818, d.3
66. K.3818, d.4
67. K.3819, d.5
68. K.3819, d.6
69. K.3819, d.7
70. K.3820, d.8

71. K.3820, d.9
72. K.3820, d.10
73. K.3820, d.11
74. K.3820, d.12
75. K.3821, d.13
76. K.3821, d.14
77. K.3821, d.15
78. K.3821, d.16
79. K.3821, d.17
80. K.3823, d.22
81. K.3823, d.23
82. K.3823, d.25
83. K.3824, d.26
84. K.3824, d.27
85. K.3824, d.34
86. K.3827, d.38
87. K.3827, d.39
88. K.3827, d.40
89. K.5309, d.51

## IV ƏDƏBİYYAT

### Azərbaycan dilində


90. Ağayev Y., Əhmədov S. İstiqlal yürüşü. 1918. Bakı, 2009
91. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2003
92. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I, II cildlər. Bakı,2004
93. Azərbaycan tarixi. II c., Bakı, 1964
94. Bağırov İ. Kəngərli yurdunun generalları. Bakı, 1994
95. Bağırov.M.C. Bakı və Azərbaycan bolşevik təşkilatının tarixindən. Bakı, 1950.
96. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992
97. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə ... Bakı,

1994
98. Darabadi P. 1918–1920-ci ilərdə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr. ADR-də hərbi quruculuq. Hərbi Bilik, 1994, № 4–5
99. Darabadi P. «XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində». Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.23–38
99a. Əzimov H.S. İnqilab əsgərləri. Bakı, 1978
100. Əlizadə N. Lənkəran qəzası zəhmətkeşlərinin sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizəsi tarixindən. Bakı, 1963
101. İbrahimbəyli H. Səməd bəy Mehmandarov. Bakı, 1946
102. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmətkeşlərinin mübarizəsi (1917–1918-ci illər). Bakı, 1958
103. İran ərazisində düşmənin irəliləməsini dayandırmaq və Xəzər dənizinə hakim olmaq xüsusunda ingilis planları. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.486–532
104. İsgəndərov a. 1915-1920-ci illərdə Azərbaycanda türk və müsəlmanlara qarşı həyata keçirilən soyqırımlar. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.75–92
105. 26 Bakı komissarlarının güllələnməsi. Bakı, 1927
106. XX əsrin siyasi tarixi (mühazirələr kursu). Bakı, 1991
107. Feyzullayeva A. Maarif carçıları. Bakı, 1988
108. Fərhadov Ə. Birinci Dünya müharibəsi illərində Azərbaycan–Osmanlı münasibətlərinə dair, s.168/ Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Азербайджан в период Первой мировой войны. Баку, 2014, с.161–178
109. Hacızadə Ş.Ş. 1917–1918-ci illərdə Sovet hakimiyyəti uğrunda mübarizədə Bakı proletariatının Dağıstan zəhmətkeşlərinə köməyi. Bax: «Böyük oktyabr və Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə». Bakı, 1958, s.266–290
110. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918–1920). Bakı, 2009

111. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918–1920. Bakı,
112. Yaqublu N.Məmməd Əmin Rəsulzadə. Bakı, 1991
113. Qasımlı M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. III hissə, Bakı, 2004
114. Qasımlı M. Bolşevik Rusiyasının Güney Qafqaz siyasəti (1917–1918), c.114; Bax: Azərbaycan xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.93–134
Quliyev Ə. Alyoşa Caparidze. Bakı, 1957
115.Milman A.Ş. Bakı soveti Azərbaycanda proletar diktaturası orqanıdır (Oktyabr 1917–iyul 1918-ci il). Bakı, 1957
116. Mustafa Çolak. Almaniyanın Qafqaz siyasəti (1917–1918-ci illər). Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.135–190
117. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990
118. Nəzirli Ş. Azərbaycan generalları. Bakı, 1991
119. Nəzirli Ş. Cümhuriyyət generalları. Bakı, 1995
120. Nəzirli Ş. Qacarlar. Bakı, 1995
121. Nəzirli Ş. Arxivlərin sirri açılır. Bakı, 1999
123. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990
124. Süleymanov M. Hacı Zeynalabdin Tağıyev. Bakı, 1996
125. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2015
126. Şahgəldiyev H. Azərbaycanda sovet hakimiyyətinin qələbəsində rus xalqının köməyi. Bakı, 1960
127. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997
128. Şıxlinski Ə. Xatirələrim. Bakı, 1984

**Rus dilində**

129. Абасов А. Генерал Мехмандаров. Баку, 1977
130. Азизбекова П.А. 26 Бакинских комиссаров. Баку, 1978
131. Алый стяг над Закавказьем. Баку, 1890
132. Армянский геноцид. Миф и реальность. Баку, 1992

133. Арутюнян А.О. Кавказский фронт 1914–1917. Ереван, 1971
134. Ахмедов С. Азербайджанцы на фронтах Первой мировой войны: Татарский конный полк. Баку, 2014
135. Ахмедов С. Татарский конный полк на полях сражений / Азербайджан в период Первой мировой войны. Баку,2014, с.50–100
136. Балаев А. Азербайджанское национально-демократическое движение 1917–1920. Баку, 1990
137. Боевые и революционные традиции моряков Каспийской флотилии. Баку, 1960
138. Братья навеки. Баку, 1987
139. Великая Октябрская Социалистическая Революция. М., 1987
140. Война и наши трофеии. Петроград, 1915
141. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана в начале XX века. Баку, 1991
142. Дарабади П. Организация вооруженных сил Бакинского пролетариата (ноябрь 1917–июль 1918). Авторитет диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1979
143. Джапаридзе П.А. Избранные статьи, речи и письма. 1905–1918 гг. М., 1958
144. Демоян Гайк. Турция и Карабахский конфликт в конце XX–начале XXI веков. Историко-сравнительный анализ
145. Денстервиль. Британский империализм в Баку и Персии 1917–1918. Тифлис, 1925
146. Дулаева З., Мамедов М. Баку в годы Первой мировой войны/Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Bakı, 2014, s.32–58
147. Гулиев Дж. Борьба Коммунистической Партии за осуществление Ленинской национальной политики в Азербайджане. Баку, 1970.
148. Гюргун Камуран. Армянское досье. Баку, 1993

149. Еременко Е.П. Мартовские бои в Баку. См: Алый стяг над Закавказьем. Баку, 1980, с.38–47
150. Ибрагимбейли Х.М. Воинские формирования Азербайджана в составе русской армии в период присоединения Закавказье к России (первая треть XIX в.). Автореферат диссертации на соисканеи ученой степени кандидата исторических наук. Ленинград, 1966
151. Ибрагимбейли Х.М. Кафказ в Крымской войне 1853–1856. М., 1971 Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века. Москва, 1969
152. Ибрагимбейли Х.М. Станицы истории боевого содружества. Б., 1970
153. Ибрагимов С. Генерал Али Ага Шыхлинский. Баку, 1975
154. Исмаилов Э.Э. Азербайджанские воинские соединения в составе русской императорской армии: от первых иррегулярных частей до Татарского конного полка// Азербайджан в период первой мировой войны. Azərbaycan Birinci Dünya müharibəsi dövründə. Bakı, 2014, с.21–22
155. Исмаилов Э. Георгиевские кавалеры – Азербайджанцы. Москва, 2005
156. История Азербайджана. Баку, 1963
157. История Коммунистической Партии Азербайджана. Баку, 1958
158. Кадищев А.Б. Интервенция и гражданская война в Закавказье. М., 1960
159. Каземзаде Ф. Борьба за Закавказье (1917-1921). «Литературный Азербайджан», 1993, № 1–2, с.25–82, № 3–4, с.67–127
160. Карапетян С.Х. Коммунистическая Партия в борьбе за победу октябрской революции в Армении. Ереван, 1959
161. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать. Тифлис, 1927
162. Кочарли Т.К. Исторический поворот в судьбах Азербайджанского народа. Баку, 1980

163. Ларенко П. Страдные дни Порт-Артура. С.П., 1906
164. Людендорф Э. Мои вспоминания о войне 1914–1918 гг. Т.2, Москва, 1924
165. Маковский А.А., Радченко Б.М. Каспийская краснознаменная. М. 1982
166. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Состовитель С.Рустамова-Тогиди. Баку, 2009
167. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва, 2006
168. Нагорный Карабах в международной праве и мировой политике. Документы и комментарий. Том II. Автор Ю.Барсегов. Москва, 2009
169. Наджафов Б. Лицо врага. История Армянского национализма в Закавказье в конце XIX века–начале XX века. Ч. II, Баку, 1991
170. Насиров Т.М. Борьба за власть в Азербайджане (1917–1920 гг). Баку, 1993
171. Опрышко О.Л. Кавказская конная дивизия 1914–1917. Возвращение из небытия. Нальчик, 2007. elektron variant – apsnyteka.org/1087-opryshko_kavkazskaya_konnaya_diviziya.htm
172. Очерки истории КП Азербайджана. Баку, 1985
173. Победа Советской власти в Закавказье. Тибилиси, 1971
174. Ратгаузер Я. Революция и гражданская война в Баку.Ч.1, 1911–1918. Баку, 1927
175. Романовский Е., Фон Шварс А. Оборона Порт-Артура. Т.11, С.П.,1910
176. Русско-турецкая война 1877–1878. М., 1977
177. Svyatçexovski T. Rusiya Azerbaycanı 1905–1920-ci illər. «Azərbaycan» jurnalı, 1989, № 11, s.117–155
178. Сеф С.Е. Борьба за октябрь в Закавказье. Тифлис, 1932
179. Сеф С.Е. Революция 1917 года в Закавказье. Документы и материалы. Тифлис, 1927
180. Сталин И.В. Сочинения, т.4, М., 1947

181. Стеклов А. Армия мусаватского Азербайджана. Баку, 1928
182. Таирзаде Н.А. Новые материалы о писателе и общественном деятеле Исмаил бек Куткашенском (1808–1861). Известия АН Азерб.ССР. Серия история, философия и права, 1968, №-3
183. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957
184. Топчибашев А.А. Дипломатические беседы в Стамбуле(1918–1920). Баку 1994
185. Шаумян С.Г. Статьи и речи. 1917–1918 гг. Баку, 1929
186. Шаумян Сур. Бакинская Коммуна. Баку, 1927
187. Энциклопедия военных и морских наук.Т.1, С.П., 1883
188. Энциклопедия военных и морских наук.Т. VII, С.П., 1895
189. Энциклопедия военных и морских наук.Т. VIII, С.П., 1897
190. Энциклопедия военных и морских наук.Т. III, С.П., 1888

**Türk və fars dillərində**

191. Allen VV.E. ve P.Muratoff.1828–1921 türk–Kafkas sınırındakı harplerin tarihi. Ankara, 1966
192. Berkuk İ.Büyük harpte Şimali Kafkasiyadakı fealiyetimiz ve 15. firkanın harekatı ve müharibeleri. 94 saylı askeri mecmuanın tarih kısmı, 1934, №-35
193. Birinci Dünya harbinde türk harbi Kafkas cephesi 3-cü ordu harekatı. c.II, Ankar, 1993
194. Erdaş (Akgül) Nilgün. Milli mücadile döneminde Kafkas cümhuriyyetleri ile ilişgiler (1917–1921). Ankara, 1994
195. Yüceer Nasir. Birinci Dünya savaşında Osmanlı ordusunun Azerbaycan ve Dağıstan harekatı. Ankara, 1996
196. Yılmaz Reha. Birinci Dünya müharibəsi başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti. Bax: Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, 2008, s.57–74
197. Kamalyeri M. Çanakkale ruhu nasıl doğdu ve Azerbaycan savaşı (1917–1918). İstambul, 1972

198. Kurat A.N. Türkiye və Rusya. Ankara, 1990
199. Kurtulan E. Türk ordusunun Azerbaycanda kalması meselesi. «Azerbaycan» dergisi, 1969, № 4–5–6
200. Mehmetzade M.B. Milli Azerbaycan harekatı. Ankara, 1991
201. Nuri paşa. İslam Ordusu harekatı. Türkiye Silahlı Kuvvetleri Genel Kurmay Başkanlığı Askeri Tarih ve Strateji Etüd başkanlığı arşivi (ATASE), BDH bölümü, k.3823, D.22, f.6-1 6–32
202. Onk Nizamettin. Yeni Azerbaycan Cümhuriyyeti kurulurken. Bax: «Türk dünyası» tarih dergisi, şubat 1992, s. 34–36
203. Rüştü Büyük harpte Bakü yollarında 5. Kafkas piyade firkası. 93 saylı Askeri mecmuanın Tarih kısmı, 1934, № 34
204. Süleyman İzzet. 15. piyade tümeninin Azerbaycan ve Şimali Kafkasyadakı harekatı ve müharibeleri. 103 saylı Askeri mecmuanın tarih kısmı, 1936, № 4
205. Süreyya A.Ş. Makedoniyadan Ortaasyaya Enver paşa. c.III, İstambul 1993
206. Tayyar B. Kafkas Azerbaycan harekatı ve Bakünün kurtulması. Bax: «Azerbaycan» dergisi, eylül-ekim 1990, s. 22–31
207. Taşkıran Semalettin. Geçmişden günümüze Karabağ meselesi. Ankara, 1995
208. Halil Bal. Kuzey Kafkasyanın istiklalı ve Türkiyenin askeri yardımı. 1917–1918. Bax: «Kafkas araşdırmaları». c.III, İstambul, 1997, s. 29–93
209. Halil paşa. Bitmeyen savaş. İstambul, 1972
210. Hüsamettin Tuğac. Bir neslin davamı. Ankara, 1966
211. Fahri Bilen. Birinci Cihan harbinde türk harbi. 1918. yıl harekatı. C.5, Ankara, 1967
212. General ser Persi Sayks. Tarix-e İran. Tehran, 1363
213. Kamali H. Estesmar-e engilis dər mavəra-ye Qəfqaz. 1917–1921. Tehran, 1376
214. Kave Bayat. Tufan bər fəraz-e Qəfqaz. Tehran, 1380
215. Fəxrai İbrahim. Sərdar-e cəngəl. Tehran, 1366

## V. ELEKTRON ƏDƏBİYYAT


216. Аглян В. О формировании Армянского корпуса (1917–1918). http://nashasreda.ru/o-formirovanii-armyanskogo-korpu-sa-1917–1918/
217. Арсанукаева М.С. Национальные формирования народов Кавказа в Первой Мировой войне (1914–1918 годы). http://cyberleninka.ru/article/n/natsionalnye-formirovaniya-narodov-kavkaza-v-pervoy-mirovoy-voyne-1914-1918-gody#ixzz43cHTo78R
218. Армения в годы Первой Мировой войны. http://www.isto-riya.ru/referat/7580/1/php http://ruskline.ru/monitoring_smi/2008/11/18/vernopoddannyj_svoemu_gosudaryu/
219. Арутюнов С.С., Месроп, Хатисов А.И. Записка об армянском вопросе и армянских дружинах / / Историко-филологический журнал. 1991. №2. По материалам книги «Армянский вопрос в 120 документах из российских государственных архивов» Перинчека Мехмет Бора.http://1905.az/ru/%D0%B4...
Арутюнян А. Кавказский фронт Первой Мировой войны. http://www.soyuzinfo.am/rus/conferences/detail.php?ELEMENT_ID=1110
220. Арцруни В. Армяне на Кавказском фронте. http://www.golosarmenii.am/article/32568/armyane-na-kavkazskom-fronte
221. Ахмедов С. Татарский конный полк на полях сражений, с.67/ Азербайджан в период Первой Мировой войны. Баку,2014, с.50–100
222. Безугольный А.Ю. Генерал Бичерахов и его Кавказская армия. Страницы истории гражданской войны и интервенции на Кавказе. 1917–1919. http://fictionbook.ru/ alekseyi_yurevich_bezugolniyyi/general_ bicherahov.. online. html? page=2
223. Гасанлы Дж. Армянские добровольцы на Кавказском фронте 1914–1916. www.contact.az/docs/2015/.../033000110977ru.htm
224. Генерал Гавриил Корганов. Участие армян в мировой войне на Кавказском фронте (1914–1918). Глава I. Формирование армянских дружин. http://russia-armenia.info/node/8784

225. Доклад Назарбекова об армянском корпусе 14 апреля 1919г. http://nashasreda.ru/doklad-nazarbekova-ob-armyanskom-korpuse/
226. Заре Мелик-Шахназаров. Записки Карабахского солдата... http://sumgait.info/caucasus-conflicts/karabakh-soldier-notes/karabakh-sildier-notes-6.htm
227. Ибрагимова Ж. Дикая дивизия – гордость русской армии. http://sevkavinform.ru/articles/people-honour/72606/ Солсаев М. Дикая дивизия Чечни. http://vaynah-moxk.blogspot.com/p/blog-page_210.html
228. Иванов Р. Генерал-адютант его величества. Москва, 2009, с.68–70. Elektron variant – elibrary.bsu.az/ yenii%5Ce-bookspdf%5CxLvWkhTJ.pdf ;
229. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской империи. Москва, 2006, с.255–259. Elektron variant –www.history.az/pdf.php?item_id=20100623015148026&ext=pdf
230. Личности. www.garavat.ru/personslies2.php?people=57
231. Михайлов В. «В их действиях было замечено мною полное презрение к смерти...» Армянские добровольческие дружины в русской армии. http://www.kavkazoved.info/pview/2015/03/03/mikhailov-armjanskie-dobrovolcheskie-druzhiny-v-russkoj
232. О формировании Армянского корпуса (1917–1918) http://nashasreda.ru/o-formirovanii-armyanskogo-korpusa-1917-1918/
233. Подпрятов Н. В. Армянские стрельковые батальоны в годы Первой Мировой войны. http://www.gramota.net/materials/3/2014/2-2/41.html
234. Салахлы Ч. Туземная конная дивизия. http://savash-az.com/rasskazi/tkdiv.htm
235. The diaries of general Lionel Dunsterville. 1911–1922. www.gwpda.org/ Dunsterville/Dunsterville_1918.html

MÜNDƏRİCAT

**ÖN SÖZ............................................................................ 5**

**GİRİŞ ..............................................................................14**

**I FƏSİL. XIX ƏSRİN SONU, XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLILAR ARASINDA HƏRB İŞİNİN VƏZİYYƏTİ............................19**

1. Türkmənçay müqaviləsinin imzalanmasından sonra azərbaycanlıların Rusiya ordusu tərkibində xidməti................ 19

2. XX əsrin əvvəllərində azərbaycanlıların Rusiya ordusu tərkibində xidmətləri............................................................... 39

3. Azərbaycanlı zabitlərin Port-Artur döyüşlərində iştirakı....... 50

4. Birinci Dünya müharibəsi və Azərbaycan............................. 75

5. «Vəhşi diviziya»nın Tatar (azərbaycanlı) atlı alayı ............... 92

6.İstifadə olunmuş mənbə və ədəbiyyat.................................... 104

**II FƏSİL. AZƏRBAYCANDA MİLLİ TƏRKİBLİ HƏRBİ QÜVVƏLƏRİN TƏŞKİLİNİ ZƏRURİ EDƏN AMİLLƏR..........................................................................110**

1. 1.Erməni-daşnak hərbi qüvvələri.......................................... 111

2. Azərbaycanın müstəqilləşməsinə qarşı olan bolşevik-qırmızı hərbi qüvvələrin formalaşdırılması................ 130

3. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 141

**III FƏSİL. MÜSƏLMAN KORPUSU.....................................146**

1. Müsəlman korpusunun strukturu və idarəetmə orqanları...... 151

2. Müsəlman korpusunun təchizat məsələləri........................... 159

3. Kadr və səfərbərlik məsələləri ............................................. 173

4. Milli hərbiyyə məktəbi......................................................... 181

5. Xidmətin təşkili..................................................................... 185

6. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 189

**IV FƏSİL. MÜSTƏQİLLİYİN ELAN EDİLMƏSİ ƏRƏFƏSİNDƏ AZƏRBAYCANDA HƏRBİ-SİYASİ ŞƏRAİT................................................................193**
1. 1918-ci ilin mart qırğınlarının hərbi-siyasi aspektləri ........... 193
2. Bolşevik-daşnak təcavüzünə qarşı müqavimətin təşkili sahəsində Müsəlman korpusunun fəaliyyəti ............................ 209
3. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................. 227

**V FƏSİL. QAFQAZ İSLAM ORDUSU.................................233**
1. Türkiyəyə hərbi yardım müraciəti ...................................... 233
2. Qafqaz İslam Ordusunun təşkilatlandırılması ...................... 263
3. Qafqaz İslam Ordusunun strukturu .....................................289
4. Qafqaz İslam Ordusunun təminat və təchizat məsələləri .300
5. Qafqaz İslam Ordusunda kadr və səfərbərlik məsələləri.....313
6. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................351

**VI FƏSİL. QAFQAZ İSLAM ORDUSUNUN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA MÜBARİZƏSİ ...................................................359**
1. Gəncə ermənilərinin tərk-silah edilməsi............................359
2. Göyçay ətrafında baş verən döyüşlər .................................365
3. Salyan döyüşü ....................................................................394
4. Biçeraxov dəstəsinin Qafqaz İslam Ordusuna qarşı mübarizəyə cəlb edilməsi.................................................396
5. Ağsu və Kürdəmir döyüşləri...............................................416
6. Cəbhədə struktur dəyişikliyi. Şamaxı və Hacıqabul ətrafında baş verən döyüşlər .................................................430
7. İstifadə olunmuş mənbə və ədəbiyyat.................................441

**VII FƏSİL. BAKI ŞƏHƏRİ BÖYÜK DÖVLƏTLƏRİN MÜHARİBƏ PLANLARINDA................448**
1. Almaniyanın Bakı neftinə sahib olmaq planları..................448
2. Bakı şəhərinin işğalının ingilis planları ..............................468
3. Bakı uğrunda ingilis-bolşevik qarşıdurmasının kəskinləşməsi...........................................................................480

4. İstifadə olunmuş mənbə və ədəbiyyat................................504

**VIII FƏSİL.BAKI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİ...........509**
1. Bakı şəhərinin azad edilməsi üçün göstərilən ilk cəhdlər .509
2. Bakı ətrafında hərbi şərait və şəhər üzərinə qəti
hücuma hazırlığın davam etdirilməsi .....................................536
3. Bakı şəhəri üzərinə 14 sentyabr tarixli hücum ..................596
4. Bakı üzərinə 15 sentyabr tarixli hücum.
Şəhərin azad edilməsi ............................................................615
5. İstifadə olunmuş mənbə və ədəbiyyat................................635

**IX FƏSİL.QAFQAZ İSLAM ORDUSU HƏRƏKATININ SONU.........................................................643**
1. Qarabağda erməni təcavüzünə qarşı mübarizə....................643
2. Azərbaycan ordusunun möhkəmləndirilməsi üçün
həyata keçirilən tədbirlər........................................................673
3. Qafqaz İslam Ordusunun ləğvi............................................686
4. İstifadə olunmuş mənbə və ədəbiyyat................................705

**NƏTİCƏ..........................................................................710**
**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYATIN ÜMUMİ SİYAHISI .....................................717**

## Qeyd

# Qeyd

Üz qabığının tərtibatçısı: Məmmədbağır Hüseynov

**Nəşriyyat direktoru:** İsmayıl Nərimanoğlu

Kitab hazır depozitivlərdən istifadə edilərək
“Maarif” nəşriyyatında çap edilmişdir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin “Maarif”
Dövlət Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı

Çapa imzalanmışdır: 12.11.2018
Kitabın formatı: 60x84 1/16.
Həcm: 46 ç.v.

Ünvan: Mətbuat prospekti, 529-cu məh.